AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

UNEC

# “HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR”

*mövzusunda*

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının

***98-ci*** ildönümünə həsr olunmuş

Respublika elmi-praktiki konfransın

# M A T E R İ A L L A R I

**BAKI – UNEC - 2021**

**Elmi redaktor:** prof. Ədalət Muradov

**Redaksiya heyəti:** prof. Zahid Məmmədov
prof. Əlican Babayev
prof. Məhiş Əhmədov
prof. Sifariz Səbzəliyev
prof. Arif Şəkərəliyev
prof. Əli Əlirzayev
prof. Rövnəq Rzayev
prof. İrşad Kərimli
**Məsul katiblər:** Ülviyyə Məmmədova, Aydın Abdullazadə

**“Heydər Əliyev və Azərbaycanda iqtisadi islahatlar: nəticələr və perspektivlər”** mövzusunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi-praktiki konfransın materialları. Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2021.- 618 səh.

ISBN 978 9952-501-19-3

**® UNEC 2021**

## MÜNDƏRİCAT

**Plenar iclasın məruzəçiləri:**

1. **Ph.D. Tahir Mirkişili** "Heydər Əliyev yolu və İlham Əliyev rəhbərliyi ilə biz hələ çox uğurlara imza atacağıq"........................................................................................................ 9
2. **dos. Sadiq Qurbanov** "Ümummilli lider Heydər Əliyevin islahatlar konsepsiyasının hüquqi əsasları" .................................................................................................. 15
3. **i.e.d., prof. Məhiş Əhmədov** "Ulu öndər Heydər Əliyev Azərbaycanda milli iqtisadiyyatın formalaşması və inkişafı konsepsiyasının banisidir"...................................... 24

## BÖLMƏ 1. AZƏRBAYCAN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ

1. **Novruzov Vahid Tapdıq oğlu, if.d. Əsgərova Fidan Əlinazim qızı.** "Heydər Əliyevin iqtisadi siyasətində şəffaflıq amili"....................................................................... 31
2. **Nəbiyev Rasim Əmir oğlu.** "Heydər Əliyevin neft strategiyası müstəqil milli iqtisadiyyatın formalaşmasının əsasıdır"............................................................................. 36
3. **Əliyev Ümüdvar Qənbər oğlu.** "Heydər Əliyevin iqtisadi inkişaf strategiyası Azərbaycanın " uğur" modelinin əsasıdır" ............................................................................. 40
4. **Məmmədov Akif Bəylər oğlu.** "Milli iqtisadiyyat və strateji yol xəritəsi aspektində onun formalaşmasi və inkişafi" ....................................................................................... 48
5. **Nadirova Aytən İlham qızı.** "Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatın formalaşması"................................................................................................................... 54
6. **Niftəliyev Nazim Fazil oğlu.** "Heydər Əliyev və Azərbaycan milli iqtisadiyyatının inkişaf strategiyası"........................................................................................................... 60
7. **Aslanova Müslümə Maqsud qızı,** dosent **Balabəyova Nərminə Şıxəmməddin qızı.** "Azərbaycanın iqtisadi inkişaf strategiyasında Heydər Əliyev ideyaları".................... 68
8. **Əmirova Fəridə Şamil qızı.** "Heydər Əliyev siyasəti ölkəmizin qazandığı uğurlara və davamli iqtisadi inkişafa açılan yoldur" .............................................................................. 75
9. **Hümbətəliyeva Səadət Əsgər qızı, Rüstəmova Gülbəs Rəsul qızı.** "Müstəqil Azərbaycan Respublikasinin sosial-iqtisadi inkişafinda Heydər Əliyevin rolu"........ 84
10. **Fərəcova Dilbər Daşdəmir qızı** "Heydər Əliyev Azərbaycanın iqtisadi inkişaf strategiyasının banisidir" ........................................................................................ 88
11. **Abbasova Sevda İsmayıl qızı.** "Ulu öndər Heydər Əliyev və Azərbaycan milli iqtisadiyyatının formalaşması" ...................................................................................... 95
12. **Quliyeva Aysel Əlican qızı.** "Ümumdünya böhranının nəticələrinin aradan qaldırılması kontekstində Azərbaycan iqtisadi modelinin inkişafında elm və təhsil amillərinin rolunun artması" ............................................................................ 102

13. **Nadirova Aytən İlham qızı.** "Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatının formalaşması" ............................................................................................................................. 107

14. **Mustafayeva Esmira Musaifovna, Faiq Nağıyev Rəfail.** "Heydər Əliyevin inkişaf strategiyası" ........................................................................................................................ 114

15. **Zeynalov Anar Abbas oğlu.** "Post-neft mərhələsində Azərbaycanda innovasiya əsaslı iqtisadi inkişafın təmin edilməsinin əsas istiqamətləri"...................................... 120

## BÖLMƏ 2. AZƏRBAYCANDA MALİYYƏ, AUDİT SİSTEMİNİN İNKİŞAF MODELİ


1. **Səbzəliyev Sifariz Mirzəxan oğlu.** “Mühasibat uçotunun Azərbaycan modelinin qurulması xüsusiyyətləri və uçot siyasəti” ........................ 128
2. **Sadıqov Elnur Məhəmməd oğlu.** “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişaf istiqamətləri” ........................ 133
3. **Ataşov Bəyalı Xanalı oğlu.** “Müstəqil Azərbaycanin maliyyə və audit sisteminin inkişafında Heydər Əliyevin tarixi rolu”........................ 139
4. **Namazova Cəmilə Bayramalı qızı.** “Heydər Əliyev və Azərbaycanın gömrük sisteminin inkişafı”........................ 146
5. **Kazımov Mirəli.** “Ulu Öndər Heydər Əliyevin iqtisadi tənzimləmə strategiyası”.... 153
6. **İsmayılov Niyazi Musa oğlu.** “Maliyyə hesabatlarının təhlili problemləri: istifadə olunan üsullar və qaydalar” ........................ 161
7. **Həsənov Niyazi Əlikram oğlu.** “Azərbaycanda H. Əliyev siyasətinə uyğun olaraq layihələrin təsnifatı və investisiya strategiyalarına sistemli yanaşma”........................ 167
8. **Qədimli Nüşabə Astan qızı.** “Heydər Əliyev Azərbaycanın maliyyə və audit sisteminin qurucusudur” ........................ 174
9. **Həkimova Yeganə Allahyar qızı.** “Müasir dövrdə maliyyə nəzarətinin inkişafı konsepsiyası”........................ 183
10. **Hüseynova Alidə Teymur qızı.** “Azərbaycanda kommersiya banklarında rəqəmsal innovasiyaların tətbiqi, inkişafı və perspektivi”........................ 191
11. **Cabbarov Ayətulla Suvahil oğlu.** “İnvestisiya fəaliyyəti üzrə strateji qərarların analitik uçot-informasiya təminatı”........................ 196
12. **Abdullayev Loğman İmran oğlu.** “Müəssisələrdə gəlir və xərcləin uçotunun normativ hüquqi əsasları”........................ 202
13. **Əfqan Əbülfəz oğlu Musayev.**“Yeni Dünya Maliyyə Sisteminə keçid- Mərkəzi Bankların Rəqəmsal Valyutası - CBDC” ........................ 209
14. **Əliyeva Abuhəyat Müşrəvan qızı.** “Azərbaycanda dövlətin antiinflyasiya siyasətinin əsas istiqamətləri”........................ 214
15. **Namazov Vüqar Faiq oğlu.**“Azərbaycanın valyuta bazarı və valyuta əsaslı törəmə maliyyə alətlərinin yaradılması imkanları”. ........................ 221
16. **İsmayılova Samirə Mədət qızı.** “Kommersiya banklarında strateji planlaşdırma və əlaqəli risklər” ........................ 230

17. **Zərgərli Cavad Fəttah oğlu.** "Bank sistemində maliyyə menecmentinin təkmilləşdirilməsində strateji idarəetmənin istiqamətləri"............................................. 236
18. **Hüseynov Faiq Tofiq oğlu.** "Dövlət büdcəsinin gəlir və xərclərinin səmərəli idarə edilməsində auditin rolunun yüksəldilməsi"................................................................. 242

## BÖLMƏ 3. AZƏRBAYCANDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFI


1. **Şəkərəliyev Arif Şəkərəli oğlu, Həsənov Azər Qorxmaz oğlu.** "Heydər Əliyevin quruculuq strategiyasının Azərbaycanın tarixi yüksəlişində rolu"................................. 249
2. **Manafov Qabil Nadir oğlu.** "Azərbaycan Dövlətinin koronavirus (COVİD-19, pandemiyası şəraitində sahibkarlıqla bağlı siyasəti"................................................ 255
3. **Muradov Rövşən Şahbaz oğlu, Məmmədova Ülviyyə Zeynəddin qızı.** "Ulu öndər Heydər Əliyevin inkişaf strategiyası və Azərbaycanda əhalinin səmərəli məşğulluğunun təmin edilməsi"........................................................................ 262
4. **Şəkərəliyeva Zibeydə Arif qızı.** "Heydər Əliyev Azərbaycanın İqtisadi inkişaf starategiyasının banisidir"................................................................................................ 268
5. **Zeynalov Zakir Hacı oğlu** "Heydər Əliyev neft strategiyasının banisidir"................. 273
6. **Mahmudova İlhamə Məhəmmədnəbi qızı.** "Qeyri-neft sektoru inkişafının Heydər Əliyev iqtisadi strategiyasında yeri və rolu"............................................................ 282
7. **Xeyirxəbərov İsmayıl Mahmud oğlu.** "Aqrar sahədə sahibkarlığın inkişafının mövcud vəziyyəti və inkişaf perspektivləri"............................................................ 289
8. **Hüseynov Mövlud Ərəstun oğlu.**"Heydər Əliyevin Azərbaycanda üzümçülük və şərabçılığın elmi əsaslarla inkişafında rolu"............................................................. 296
9. **Köçərli Yalçın Ənvər oğlu,Köçərli Leyla Rais qızı.** "Sosial işin idarə edilməsində sosial siyasət konsepsiyası: problemlər və perspektivlər"..................... 302
10. **Alıyev Babək Rasim oğlu.** "Qeyri-neft sektoru üzrə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və ixrac potensialının artırılması: Azərbaycan Nümunəsi".......... 309
11. **Səfərova Təranə Allahverdi qızı.** "Sahibkarlığın inkişafında Heydər Əliyev siyasətinin əhəmiyyəti" .......................................................................................... 317
12. **Namazova Aynur Məhəmməd qız.** "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişafına və investisiyaların roluna dair"................................................................... 322
13. **Almazlı Ülkər Daşqın qızı.** "Müəssisələrdə satışın həyata keçirilməsidə reklamın rolu"........................................................................................................................ 328
14. **Vəlizadə İbrahim Famil oğlu.** "İnsan resurslarının idarə edilməsinə qlobal yanaşma"................................................................................................................... 334
15. **Rahib Rəhimov İlham oğlu**. "İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun inkişafının planlaşdırılması və ictimai iaşə obyektlərinin tətbiqi layihələrinin hazırlanması"............................................................................................................ 340
16. **Əliyeva Aysel Əfqan qızı** "İnsan resurslarının formalaşması və idarə edilməsinin təmzimlənməsi.............................................................................................................. 347
17. **Əhmədli Anaxanım Vahid qızı** "Müəssisələrdə tətbiq olunan marketinq konsepsiyasının əhəmiyyəti"........................................................................................ 353

## BÖLMƏ 4. AZƏRBAYCANDA ELMİ-TEXNİKİ TƏRƏQQİ SİYASƏTİ

1. **Əlirzayev Əli Qənbərəli oğlu.** "Müasir iqtisadi və sosial islahatların Heydər Əliyev təməli"............ 360
2. **Rzayev Orucəli Hüseynqulu oğlu, b.e.n., dos. Raziyev Səfər Əmin oğlu.** "Azərbaycan Region Ali təhsil müəssisələrinin inkişafına Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev erasının təsirinin xronologiyası"............ 365
3. **Əyyubov Veysəl Seyfəl oğlu, b/m Tağıyev Arif Məmmədhəsən oğlu.** "Milli iqtisadi inkişafın "Heydər Əliyev Modeli"nin müasir inkişaf parametrləri"............ 373
4. **İbrahimov Vəkil Həmid oğlu.**"Əqli mülkiyyət sahəsində Heydər Əliyevin töhfələri" ............ 380
5. **Hacıyeva Aytac Müzəffər qızı.** "Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin inkişafinda Heydər Əliyev amili"............ 387
6. **Babayeva Rəna Fikrət qızı.** "Laylı quruluşlu n-InSe<NTE> kristallarında induksiyalanmış aşqar fotokeçiricilik və onun optoelektronikada tətbiq imkanları" ............ 392
7. **Məhərrəmova Vəfa Eldar qızı**. "Heydər Əliyev və Azərbaycanda müasir intellektual elitanın formalaşdırılması" ............ 399
8. **Babayeva Xəzəngül.** "Heydər Əliyev və Azərbaycanda təhsilin modernləşdirilməsi"............ 406
9. **Məmmədova Gültəkin Qabil qızı.** "Azərbaycanda təhsil sisteminin maliyyələşdirilməsinin Heydər Əliyev inkişaf modelinin müasir uğurlu təzahürləri" ............ 413
10. **Kərimli Günel Fazil qızı.** "Heydər Əliyev və elmi-texniki tərəqqiyə əsaslanan "Ümumi rifah dövləti" modeli" ............ 420
11. **Əzizova Zenfira Mirsəfər qızı.** "Azərbaycan tarixinin Heydər Əliyev dövrü"............ 427
12. **Kərimli Faiq Xanoğlan.** "Qloballaşan dünyada Azərbaycanın Neft-kimya sənayesinin inkişafında Heydər Əliyev siyasi kursunun rolu" ............ 432
13. **Xəlilova Xəyalə Qəmbər qızı.** "Heydər Əliyev və insan kapitalının formalaşması dövlətin siyasətinin əsas istiqaməti kimi" ............ 437
14. **Aslanov Məmməd Səməd oğlu.** "Temperatur və nanohissəciklər nəzərə alınmaqla özlü-elastiki mühit modelinin tədqiqi" ............ 443
15. **Məmmədov Azər İsmayıl oğlu.** "Eksperimental qıçadöyən qurğunun iqtisadi səmərəliliyinin təyini" ............ 451
16. **Əliyeva Təranə Əsman qızı.** "Azərbaycanın milli sərvəti olan zəngin intellektual potensialının yüksəldilməsində və elmin inkişafı sahəsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri" ............ 457

## BÖLMƏ 5. AZƏRBAYCAN DÖVLƏTİNİN HƏRTƏRƏFLİ İNKİŞAF YOLU

1. **Balayev Rəsul Ənvər oğlu.** "Ulu öndər və aqrar iqtisadiyyatın dayanıqlı inkişaf prioritetləri"........ 464
2. **Qasımova Təzəgül Mirzə qızı.** "Azərbaycanda postmüharibə dövründə sosial nəzarət sisteminin formalaşmasına siyasi-fəlsəfi baxış" ........ 471
3. **Dadaşova Mətanət İdris qızı.** "Heydər Əliyev və Azərbaycan Respublikasında milli siyasi-iqtisadi inkişaf"........ 475
4. **Həsənəov Hüseyn Kamal oğlu.** "Heydər Əliyev iqtisadi siyasətinin təntənəsi və bu günümüz" ........ 480
5. **Hüseynova Ruhiyyə Adil qızı. "**Heydər Əliyev irsi Azərbaycanın gələcək inkişafı üçün fundamental əsasdır"........ 487
6. **Muradova Xalidə Firdovsi qızı, i.f.d. Abdullayeva Samirə İntiqam qızı.** "Heydər Əliyev- müasir Azərbaycan dövlətinin banisidir" ........ 495
7. **Mustafayeva Esmira Musaifovna, Tural Gözəlov Salman. "**Heydər Əliyev və qüdrətli dövlət quruculuğu"........ 502
8. **Məhərrəmova Mehriban Həmid qızı, Alıyeva Ləman Zərbalı qızı.** "Heydər Əliyev və Azərbaycan milli iqtisadiyyatin formalaşmasi" ........ 508
9. **Faxtiyev İsmayıl Əliyar.** "Heydər Əliyev- Müstəqil Azərbaycan dövlətçiliyinin banisi" ........ 514
10. **Bayramov Qəhrəman Saleh oğlu, i.f.d., baş müəllim Quliyev İbrahim Qədim oğlu.** "Heydər Əliyevin ədalətli sosial təminat sistemi və onun müasir təntənəsi"........ 521
11. **Qədimova Həqiqət Kərim qızı.** "Heydər Əliyev ideyaları, gənc nəslin mənəviyyatı və dərin islahatlar strategiyası Azərbaycanın uğurlarını təmin edir"........ 527
12. **Namazova Aynur Məhəmməd qızı.** "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişafına investisiyaların roluna dair"........ 532
13. **Əbdülhüseyn Zamanov.** "Ulu öndər Heydər Əliyevin yüksək vətənpərvərlik və idarəçilik modeli: sabitlik, inkişaf və rifah"........ 538
14. **Yusifova Nərgiz Ehtibar qızı.** "Heydər Əliyev və Azərbaycan milli iqtisadi inkişaf modeli"........ 543
15. **Əliyeva Ruhiyyə Oqtay qızı.** "Qlobal çağırışlar və vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi"........ 549

## BÖLMƏ 6. XARİCİ İQTİSADİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ

1. **Kərimli İrşad Abdul oğlu, i.e.n., dos. Quliyev Asiman Aydın oğlu.** "Beynəlxalq iqtisadiyyata qovuşmaq yolunun başlanğici: Ulu öndərin cəsarətli kursunun uğurları"........................................................ 554
2. **Quliyeva Şəfa Tofiq qızı, doktorant Bayramov Sənan Rövşən oğlu.** "Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri və müasir Azərbaycan"...... 560
3. **Abdullayeva İradə Vaqif qızı.** "Müstəqil Azərbaycanın beynəlxalq aləmdə tanınmasında Heydər Əliyevin misilsiz xidmətləri" ........................................................ 568
4. **Rüstəmova Aypara Sədi qızı.** "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əlaqələr: Azərbaycanda Rus İcması" ........................................................ 574
5. **Təhməzova Ayibə Əyyub qızı.** "Heydər Əliyev və Azərbaycanda milili iqtisadiyyatın formalaşması mərhələləri" ........................................................ 580
6. **Əsgərova Məhsəti Rafiq qızı.** "Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası" ........................................................ 587
7. **Nəsibova Arifə Carı qızı.** "Müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatlar və inkişafın Azərbaycan modelinin yaradıcısı" ........................................................ 593
8. **Həsənova Cəmilə Vaqif qızı.** "Müstəqil Azərbaycan Respublikasının Türkiyə Cumhuriyyəti ilə mədəni, siyasi, iqtisadi əlaqələri" ........................................................ 598
9. **Sərdarov Elnur. "**COVID-19-un (yeni koronavirus) turizm sektorun da yüksək təsiri" ........................................................ 605
10. **Ибрагимли Лала Надир, Салимов Акшин Ариф.** "Азербайджано-Турецкие отношения в период правления ГЕЙДАРА АЛИЕВА: экономические, социальные, гуманитарные и культурные аспекты"........................................................ 611

# PLENAR İCLASIN MƏRUZƏLƏRİ:

**Ph.D. Tahir Mirkişili**
*Azərbaycan Respublikası Milli Məclisin İqtisadi Siyasət,*
*Sənaye və Sahibkarlıq komitəsinin sədri*

## HEYDƏR ƏLİYEV YOLU VƏ İLHAM ƏLİYEV RƏHBƏRLİYİ İLƏ BİZ HƏLƏ ÇOX UĞURLARA İMZA ATACAĞIQ

Müasir dövrdə Azərbaycan öz müstəqil və ədalətli mövqeyi, regional və daxili iqtisadi gücü, sosial bazar iqtisadiyyatı konsepsiyası, effektiv idarəetməsi, insan resursları və güclü ordusu ilə tanınan bir ölkədir. Etiraf etmək lazımdır ki, indiki çətin bir dövrdə yüksək mənəvi və hüquqi dəyərləri qoruyaraq fəaliyyət göstərmək üçün ardıcıl olaraq fədakarlıq göstərmək lazımdır. Məhs doğru və müasir strategiya, ardıcıl atılan addımlar, möhkəm siyasi iradə, xalqın dəstəyi və ədalətli idarəetmə sayəsində bütün çətinlikləri dəf etmək, milli maraqları qorumaq və inkişaf etməyin mümükünlüyünü Azərbaycan dövləti bütün dünyaya nümayiş etdirdi. Uzun illər ərzində işğal altında olan ərazilərimizin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilməsi Azərbaycan dövlətinin milli hədəflərə yönəlmiş gücünün qarşısında heç bir qüvvənin tab gətirə bilməməsini bütün dünyaya nümayiş etdirdi. Tarixində ən güclü olan müasir Azərbaycan Respublikası vətənini sevən hər bir azərbaycanlının qəlbində qürür və güc simvoludur.

Azərbaycan dövlətinin banisi və dövlətçiliyimizin memarı Ulu öndər Heydər Əliyevin strategiyası bizim ardıcılı olaraq hər sahədə qələbələr əldə etməmizə hesablanmışdır. Əldə etdiyimiz bütün uğurların və qələbələrin səbəbi Heydər Əliyev yoluna və siyasətinə sadiq qalmağımız, onun dövlətçilik prinsiplərini həyatımızın amalı olaraq qəbul etməmiz və bu yolu prezident İlham Əliyevin rəhbərliyi ilə daha da zənginləşdirməmizdir.

Milli ideyanı milli gerçəkliyə və tarixi taleyə çevirən əsas qüvvə hər zaman lider faktoru olub. XX əsrin ortalarından etibarən Ulu öndər Heydər Əliyevin şəxsində tarixin Azərbaycan xalqına bəxş etdiyi lider azərbaycanlıların yenidən özünə inamına və müstəqillik kimi əsas milli ideyasının möhkəm əsaslarla həyata keçməsinə şərait yaratdı. O, XX əsrin ortalarından başlayaraq tamamilə yeni və gələcəyə hazırlaşan bir Azərbaycan yaratdı. Öz siyasəti, inkişafı, müasirliyi, dayanıqlılığı, etibarlılıqlığı ilə bütün dünyaya səs salan bir Azərbaycan…

Təbii ki, bütün ümdə hədəflərə çatmaq üçün dövlətin möhkəm iqtisadi dayaqları olmalıdır. Ulu öndərin sözü ilə desək: “İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir!”

Ötən əsrin 60-cı illərində Azərbaycan SSR-nin iqtisadiyyatı yoxsul, primitiv və bərbad vəziyyətə düşmüşdü. İqtisadiyyatın 85%-i yanacaq sənayesinin hesabına formalaşır, respublika SSRİ-də ən geridə qalmış bölgə vəziyyətinə düşmüşdü. Əhali də yoxsul yaşamaqdan bezmişdi. Belə bir şəriatdə SSRİ rəhbərliyində Azərbaycan Respublikasının özünü doğrultmadığı, onun ərazisinin Ermənistan, Gürcüstan və Dağıstan arasında bölünməsi ideyası müzakirə olunurdu. Belə bir dövrdə 1969-cu ildə ulu öndər Heydər Əliyev belə bir Azərbaycana rəhbər təyin edildi.

Heydər Əliyev SSRİ-nin tərkibində olan Azərbaycana rəhbərlik etdiyi dövrdə iqtisadiyyatın dirçəlməsi və sürətli inkişafı baxımından əhəmiyyətli işlər gördü. Onun respublikamıza rəhbərlik etdiyi illərdə ölkənin müstəqil iqtisadiyyatının təşəkkülü, ardıcıl sosial-iqtisadi islahatların həyata keçirilməsi, bu sahənin dayanıqlı inkişafını təmin edəcək qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində görülən işlər Azərbaycanın iqtisadi inkişafına xeyli təkan verdi. İqtisadi və sosial sferalarda geri qalan Azərbaycan bu dövrdən etibarən inkişaf səviyyəsinə görə SSRİ tərkibində olan dövlətlərdən xeyli fərqlənməyə başladı. Bu ondan irəli gəlirdi ki, Azərbaycan Heydər Əliyevin daim diqqət mərkəzində idi. Heydər Əliyev Azərbaycanda Kommunist Partiyasının sədri seçilməmişdən qabaq Azərbaycan iqtisadiyyatında durğunluq və tənəzzül hökm sürürdü. Hətta SSRİ rəhbərliyində Azərbaycan SSR-nin özünü doğrultmaması və onun ləğvi kimi məsələlər səslənirdi. Lakin Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan iqtisadi inkişafının əsl çiçəklənən dövrünü yaşadı və bütün bu iddialara layiqli cavab verdi. Bütün sahələrlə yanaşı, iqtisadiyyatda da bu yüksək inkişaf Azərbaycanı digər ölkələrdən fərqləndirdi. Heydər Əliyevin qarşısında hələ bu vaxtacan respubika rəhbərlərindən heç birinin cəsarət edə bilmədiyi misli görünməmiş vəzifələr dururdu: respublikanın iqtisadiyyatını əsaslı şəkildə dəyişmək, onu qüdrətli dövlətin xammal istehsalçılarından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirmək, monokultura xarakteri ilə fərqlənən kənd təsərrüfatını qaldırmaq, Bakının dünyanın ən gözəl və abad şəhəri kimi simasını özünə qaytarmaq, Azərbaycanın kəndini dirçəltmək, Azərbaycan əhalisinin sosial, mədəni və təhsil səviyyəsini qaldırmaq, onun xaricdə yaşayan həmvətənlərlə əlaqəsini möhkəmləndirmək. Heydər Əliyevin bu fəaliyyəti sahəsində Azərbaycanda sənayenin strukturu dəyişdi. Azərbaycanda bütün sahələr ilə yanaşı sənayenin də profili və işləmə sistemində yeni metodlar tətbiq olundu.

Heydər Əliyevin 1969-1982–ci illər fəaliyyətinin elə ilk dövrlərində Azərbaycanda sürətli iqtisadi inkişaf dönməz xarakter almağa başladı. O dövrlərdə Azərbaycanın təkcə sənaye sahəsində deyil, həmçinin kənd təsərrüfatında da, özünəməxsus inkişaf hökm sürürdü. Azərbaycan SSRİ-də kənd təsərrüfatının inkişafına görə xüsusilə fərqlənirdi. Azərbaycan bu dövrlərdə pambıq yığımına, üzüm və texniki bitkilərin becərilməsində ön sıralarda yerini qoruyurdu. Heydər Əliyevin fəliyyəti dövründə Azərbaycan üzümün, tərəvəzin, tütünün, çayın ən böyük istehsalçısı oldu. Və bu göstəricilər insanların maddi rifah halının yaxşılaşmasına xeyli müsbət təsir etdi. Heydər Əliyev kimi xalqını və vətənini düşünən bir insana yaxşı məlum idi ki, iqtisadi potensialın güclü olması həm ölkənin xeyrinədir, həm də əhalinin yaşam səviyyəsinin yüksəlməsinə xidmət edir. Bir sözlə, Heydər Əliyevin Azərbaycanda birinci dəfə rəhbərliyi dövrü iqtisadi inkişafın ən yüksək zirvəsi kimi tarixə daxil oldu. 1969-1982-ci illər arasında ölkənin rəhbəri olduğu dövrlərdə o, sosialist modeli içərisində bir çox önəmli uğurlara imza atmış, Azərbaycanın SSRİ-nin ən inkişaf etmiş respublikaları içərisində yer tutmasına nail olmuşdu.

15 il sonra Azərbaycan artıq SSRİ respublikalari arasında ən sürətlə inkişaf edən, iqtisadi gücü yetərincə olan, elmi-texniki tərəqqiyə, insan kapitalına sahib respublikaya çevrildi. Kənd təsərrüfatı, elmi-texniki sənaye, kadr potensialı, neft sahəsində ciddi nailiyyətlər əldə edildi. Xəzər dənizində aparılmış kəşfiyyat işləri Azəbaycanın nəhəng neft yataqlarına sahib olduğunu üzə çıxardı, inşa edilən Dərin Özüllər Zavodu respublikaya bu yataqlardan müstəqil şəkildə faydalanmaq imkanı yaratdı...

1980-ci illərin ortalarında Rusiyadan sonra yalnız Azərbaycan özü-özünü iqtisadi cəhətdən təmin edə bilən hala gəlmişdi. Bir işçiyə düşən əsas fondların dəyəri keçmiş SSRİ üzrə 1980-ci ildə 13,3 min rubl, 1985-ci ildə 17,8 min rubl təşkil edirdisə, Azərbaycanda bu

göstəricilər xeyli yüksək idi, müvafiq surətdə 1980-ci ildə 19,5 min rubl, sonrakı illərdə 24,5 min rubla bərabər...

1980-ci illərdə Azərbaycandan ittifaq fonduna ayrılan məhsul respublikaya gətiriləndən hər il orta hesabla 2 milyard rubl, ayrı-ayrı illərdə isə daha çox olmuşdu. Bütün bunlar Heydər Əliyevin yorulmaz fəaliyyəti və Azərbaycan xalqı qarşısında müstəsna və tarixi xidməti idi. O vaxtlar üçün bu nəticə möcüzə sayılırdı, çünki SSRİ iqtisadiyyatı elə planlaşdırılmışdı ki, Rusiyadan başqa heç bir respublika özü-özünü təmin edə bilməsin və müstəqil olmaq fikrinə düşməsin.

Amma bu iqtisadi potensial artıq hər bir azərbaycanlının şüurunda müstəqil ola bilmək inamı yaratmaqda idi. Azərbaycanın müstəqil ola bilməsinə və müstəqil inkişafına artıq hər kəs inanırdı. 80-ci illərin ortalarından başlayaraq əksər azərbaycanlılarda oxşar fikir formalaşmağa başlamaqdaydı: "Bizim iqtisadiyyatımız zəngindir, zəngin neft ehtiyatlarımız var, özümüz özümüzü təmin edə bilirik. Niyə müstəqil olmayaq?".

Elmi araşdırmalara görə, xalqların müstəqillik arzuları onların iqtisadi güc və potensialları ilə birbaşa bağlıdır. Bu cəhətdən əminliklə demək olar ki, 80-ci illərin sonunda Azərbaycanda yaranan milli-azadlıq hisslərinin formalaşmasında, "AZADLIQ!" kəlməsinin hayqırtı ilə deyilməsində Heydər Əliyevin və onun yaratdığı iqtisadi potensialın müstəsna və həlledici rolu olub!

Azərbaycan xalqı məhz bu inamla 80-ci illərin sonunda Azadlıq meydanına çıxdı və müstəqilliyini tələb etdi. Onlar məhz bu inamla 20 yanvarda tanklar qarşısında dayandılar və müstəqilliyini əldə etdilər.

80-ci illərin sonundan başlayaraq Dağlıq Qarabağda baş verən hadisələr və ölkəmizə qarşı qəsbkar siyasət geniş vüsət almağa başladı. "Sahibsiz" qalmış Azərbaycan bu təzyiqlərin qarşısında tab gətirməkdə çətinlik çəkirdi. Azərbaycan 18 oktyabr 1991-ci ildə müstəqillik qazansa da bununla yanaşı ortalığa bir çox problemlər də çıxdı. Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu və sərbəst bazar münasibətlərinə əsaslanan müstəqil milli iqtsadiyyatın formalaşdırılması məqsədilə ictimai-siyasi və sosial-iqtisadi sistemin transformasiyası obyektiv zərurətə çevrildi. Bu dövrdən etibarən hökumət qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi; demokratik, hüquqi-dünyəvi dövlət qurulması; bazar iqtisadiyyatı sisteminə keçid; ölkənin ərazi bütövlüyünün təmin edilməsi; əhalinin təhlükəsizliyinin və sosial-iqtisadi rifahının yaxşılaşdırılması və s. bu kimi bir çox ciddi və taleyüklü vəzifələr qoyuldu. 70 ildən artıq Sovet rejiminin tətbiq etdiyi planlaşdırma modelli bir təsərrüfatla işləyən Azərbaycan, artıq müstəqil və inkişaf etmiş dövlət olaraq bazar iqtisadiyyatına keçməli və azad, sərbəst iqtisadiyyata başlamalı idi. Lakin bu o qədər də asan deyildi. Azərbaycanın siyasi arenada rastlaşdığı problemlər, başlanan müharibə və ölkə daxilini bürüyən xaos, hakimiyyət uğrunda siyasi qarşıdurmalar iqtisadiyyatın inkişafının sürətlənməsinə mane olan əsas səbəblər idi. Ölkə daxilində iqtisadi inkişaf və əhalinin yaşam səviyyəsinin yəksəlməsindən çox hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycanın təbii sərvətlərinin kortəbii mənimsənilməsi və ölkənin daxilində hakimiyyət uğrunda aparılan mübarizə, erməni separatçı qüvvələri ilə gedən amansız müharibə ölkənin iqtisadiyyatını xeyli zəiflətdi.

1980-ci illərin sonu və 90-cı illərin əvvəli Azərbaycan iqtisadiyyatı yenidən dağılmağa, iflas olmağa başlamışdı. Azərbaycanın səbatsız rəhbərliyinin fəaliyyəti nəticəsində iqtisadiyyatın hər il orta hesabla 20% azalması, 1700%-lik inflyasiya, milli valyutanın 226 dəfəlik devalvasiyası, kənd təsərrüfatı istehsalının iflası və digər amillər müharibə edən ölkəni dağılmaq həddinə gətirib çıxarmış, insanların maddi-rifah halı xeyli pisləşmişdi. Ölkə

parçalanmış, dövlət hakimiyyəti və onun atributları yox olmağa başlamışdı. Bu şərait isə azərbaycanlılarda müstəqil ola bilmək imkanına olan inamı azaltmağa başlamışdı.

Belə bir şəraitdə Azərbaycana dönən Ulu öndər ilk öncə Naxçıvanda milli bayrağımızı dalğalandırmaqla bu dəfə insanlarda müstəqillik inamını öz şəxsinə olan inamın hesabına gücləndirməyə nail oldu.

Heydər Əliyev iqtisadi inkişafda geriliyi tez zamanda aradan qaldırmağa, iqtisadiyyatı inkişaf etdirməyə Azərbaycanın gücü olduğunu dönə-dönə vurğulayırdı. Çünki o ölkənin iqtisadi potensıalını yaxşı bilir və insanların ona inamı ilə daha əvvəl də olduğu kimi böyük uğurlara imza atmağın mümkünlüyünə inanırdı.

Onun atdığı qətiyyətli addımıar öz nəticəsinin verdi. Azərbaycan tez bir zamanda bu iqtisadi böhrandan xilas ola bildi. Heydər Əliyev iqtisadi böhrandan xilas olmaq üçün vergi sahəsində və sahibkarlığın inkişaf etdirməsi yolunda bir sıra islahatlar keçirdi. Ölkədə iş yerlərinin çoxu bağlanmış və işsizlərin sayı çoxalmış, ölkədə gedən müharibənin nəticəsində öz doğma yerlərini tərk etmiş əhalinin xeyli hissəsinin çalışmaq qabiliyyəti olsa da, iş yerlərinin olmaması, pulun inflyasiya nəticəsində dəyərinin aşağı düşməsi, qiymətlərin qalxması, əhalinin alıcılıq qabiliyyətinin azalması və xarici dövlətlərlə iqtisadi əlaqələrin aşağı səviyyədə olması iqtisadi böhranı aradan qaldırmağa mane olurdu.

Belə bir şəraitdə iqtisadi inkişafı təmin edə biləcək strateji mənbəyə ehtiyac var idi. Və bu strateji mənbə neft resursları idi. Heydər Əliyevin ən mühüm nailiyyətlərindən biri neft sahəsində  oldu. Azərbaycan neftinin dünya bazarına çıxarılması və neftdən əldə olunan gəlir ilə büdcənin gəlirlərini təmin etmək və möhkəmləndirmək, əhalinin yaşam səviyyəsinin yüksəldilməsində mühüm bir addım idi. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Bu bağlanmış müqavilə neft sahəsində Heydər Əliyevin qazandığı uğurların hələ başlanğıcı idi. Bu müqavilənin bağlanması ilə Azərbaycana xarici kapitalın qoyulmasının axını gücləndi. Müqavilədə adları çəkilən dövlətlər Azərbaycan ilə bütün sahələrdə əlaqələr qurmağa can atırdılar. Müqavilə yalnız Heydər Əlliyevin şəxsi nüfüzu və təminatı əsasında gerçəkləşməyə başladı.

Heydər Əliyevin apardığı bu məqsədyönlü siyasət nəticəsində Azərbaycan get-gedə öz inkişafını yenidən bərpa edir, qüdrətlənirdi. Əvvəl qeyd etdiyimiz kimi Azərbaycanda iqtisadi inkişaf 2 mərhələdən ibarət idi. Birinci mərhələdə bu inkişafın tənzimlənməsi üçün müəyyən çətinliklər var idisə, artıq ikinci mərhələdə Azərbaycanın bu inkişafı bərpa etməsi üçün kifayət qədər gücə malik idi. 1995-2003–cü illəri əhatə edən bu dövr öz mühüm müqavilələri və islahatları ilə bu müstəqilliyi bir daha möhkəmləndirdi. Artıq Heydər Əliyev öz apardığı siyasət və gördüyü işlər ilə yeni inkişaf modeli – Yeni Azərbaycan modelı yaratdı. Bu inkişaf özünü hər sahədə göstəridi. Bura sahibkarlığı, kənd təsərrüfatını, sənayeni, neft sənayesini, magistralları, bank sahəsini, vergi sahəsini, nəqliyyatı və başqa sahəıəri daxil etmək olar. Bu sahələrin inkişafı artıqca onların başqa xarici dövlətlərlə iqtisadi münasibətləri güclənirdi. Bu Azərbaycanın get-gedə güclənməsinə gətirib çıxardı. Heydər Əliyev həmişə deyirdi: "Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz". Buna görə də, Heydər Əliyev çalışırdı ki, Azərbaycan başqa dövlətlərlə iqtisadi əlaqələri qurmaq üçün müəyyən inkişaf sahəsinə malik olsun. Heydər Əliyevin yaratdığı yeni model Azərbaycanın inkişafının sürətlənməsi dövrü kimi 1995-cı illərdən başlayaraq daha da artmışdır. Bu dövrlərdə bir çox irimiqyaslı müqavilələr bağlanmış, mühüm əhəmiyyət kəsb edən sənədlər və aktlar

imzalanmışdır. 1995-ci ildən başlayaraq ölkədə Ümumi Daxili Məhsulda ciddi artım qeydı alınmış və həmin ildə bu artım 48% olmuşdu.

Bu dövrdə Azərbaycanda kənd təsərrüfatında olan durğunluq aradan qaldırılmış, ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərüffat dövrüyyəsinə cəlb olunması, kənd təsərrüfatının inkişaf etdirilməsinə dair qəbul olunmuş islahatlar bu inkişafa xeyli təkan vermişdi.

İpək yolu hələ qədimdən bu günə kimi Avropa ilə Asiya arasında körpü rolunu oynayırdı. İpək yolunun Azərbaycan ərazisindən keçməsi, Azərbaycanın burada tranzin rolunu oynaması bizə iqtisadi və maddi cəhətdən böyük imkanlar verirdi. Avropa Komissiyasının TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Proqramının yaradılmasının təşəbbüskarı kimi 8 ölkədən biri də Azərbaycan Respublikası olmuşdur. Avropa Birliyinin TASİS (MDB ölkələrinə texniki yardımı) çərçivəsində nəqliyyat infrastukturu üzrə çoxmilli TRASEKA proqramı (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Mərkəzi Aasiyadan Qara dənizə və daha sonra Avropaya çıxan nəqliyyat marşurutunun yenidən qurulmasını qarşıya məqsəd qoymuşdur. Gələcəyə yönələn məhs bu ideyanın nəticəsində Azərbaycan 2017-ci ildə Şərq və Qərbi birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini uğurla istifadəyə verdi.

Azərbaycanın inkişafında mühüm əhəmiyyət kəsb edən sahələrindən biri də neft sənayesidir. Azərbaycan təbii sərvətlərlə zəngin bir ölkədir. Heydər Əliyev neft sahəsində bir çox uğurlara imza atmışdır. Heydər Əliyevin ən böyük uğurlarından biri Azərbaycanın enerji resurslarının dünya bazarına hansı marşurutlarla çıxarılması məsələsi idi. Və yorulmaz əməyi nəticəsində Heydər Əliyev Azərbaycanın enerji resurslarının 2 istiqamətdə dünya bazarına çıxarılmasına nail oldu. 1996-cı ildə Moskvada Azərbaycan neftinin Rusiya ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə imzalanmışdır. 1996-cı ildə ABƏŞ, ARDNŞ və Gürcüstan hökuməti arasında bağlanmış 3 tərəfli müqavilələrdə Azərbaycan “Azəri”, “Çıraq”, “Günəşli” yataqlardan çıxan ilkin Azərbaycan neftinin daşınmasını Bakı-Supsa neft kəməri vasitəsi ilə nəqlini nəzərdə tuturdu. Neft marşurutlarının alternativliyi Azərbaycanın hər hansı bir dövlətdən iqtisadi aslılığına son qoymaqla yanaşı ölkəmizin milli mənafeyinə cavab verirdi. Bu marşurutun ən böyük üstünlüyü Azərbaycan neftinin təmiz halda “Azəri light” markası ilə dünya bazarına çıxarılmasıdır.

Heydər Əliyevin neft sahəsində növbəti ən böyük uğurlarından biri BTC (Barkı-Tbilisi-Ceyhan) lahiyəsi oldu. Heydər Əliyev “Əsrin müqavilə”si ilə neft strategiyasının inkişafının təməlini qoysa da, Bakı-Tbilisi-Ceyhan lahiyəsi ilə bu uğuru davam etdirdi. Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində tarixi bir əhəmiyyətə malikdir.

Heydər Əliyev təkcə neft sahəsində deyil, Azərbaycanda qaz resurslarının istifadəsi haqqında bir çox sənədlər imzalamışdır. Bu addımlar XXI əsrdə Azərbaycanda qaz sənayesinin inkişafına və Azərbaycanı neftlə yanaşı qaz ixrac edən ölkəyə çevrilməsinə zəmin yaratdı. Məhz bu ideyaların nəticəsində Azərbaycan 2018-ci ildə Azərbaycan qazını Avropaya nəql edən müasir dünyanın ən böyük qaz layihəsi olan Cənub Qaz Dəhlizi layihəsinin Türkiyədən keçən əsas hissəsini (TANAP) istismara verdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi Azərbaycanın əbədi müstəqilliyi üçün möhkəm və sarsılmaz iqtisadi zəmin yaratdı. Elə bir iqtisadi zəmin ki, Azərbaycanı

dünyanın iqtisadi cəhətdən ən sürətli inkişaf edən ölkəsinə çevirdi. Öz müstəqilliyi ilə dostlarımızı sevindirən, rəqiblərimizi çəkindirən, düşmənlərimizi məyus edən bu günkü Azərbaycan məhz Heydər Əliyevin əsəridir. Dövlət başçısı cənab İlham Əliyev isə bu əsəri hər keçən gün daha da zənginləşdirir və gücləndirir. Artıq hər kəs bilir və sonsuz olaraq inanır ki, müstəqilliyimiz və azaqlığımız əbədidir!

Bu gün Heydər Əliyevin strategiyası və ideyaları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyəti və gərgin əməyi nəticəsində yaşayır və uğurla inkişaf etdirilir. Prezident İlham Əliyevin apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev siyasətinin davamıdır və müasir şəraitdə daha da inkişafıdır. Bu siyasətin məğzində Azərbaycan dövlətini güclənməsi, onun müstəqilliyinin qorunması, iqtisadiyyatının inkişafı və əhalisinin maddi rifah halının yaxşılaşması durur. Azərbaycan və Azərbaycan xalqı var olduqca, Heydər Əliyev əməlləri və ideyaları daim yaşayacaq və qorunub saxlanacaq.

2020-ci ili Azərbaycan xalqının tarixinə qızıl hərfləri yazan cənab İlham Əliyev hər bir azərbaycanlıya yeni bir həyat bəxş etdir. Onun “dəmir yumruğu” ilə düşmənin belinin qırılması müstəqil Azərbaycan dövlətini yeni bir nəfəs verdi. Daha güclü olan azərbaycan xalqı layiq olduğu ləyaqətli həyatı əldə etmişdir. Bütün xalq əmindir ki, biz cənab İlham Əliyevin rəhbərliyi ilə, uluöndər Heydər Əliyevin yolu ilə gedərək gələcəkdə hələ çox uğurlara imza atacağıq!

**dos. Qurbanov Sadiq Haqverdi oğlu**
*AzərbaycanRespublikası Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İSLAHATLAR KONSEPSİYASININ HÜQUQİ ƏSASLARI

*"Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar".*
**HEYDƏR ƏLİYEV**

**Açar sözlər:** *Hüquqi islahatlar, iqtisadi inkişaf, insan hüquqları və azadlıqları, sosial siyasət, modernləşmə, dövlət quruculuğu*

Azərbaycan xalqı öz dövlət müstəqilliyini əldə etdikdən sonra cəmiyyətin gələcək inkişafı üçün hüquqi islahatların həyata keçirilməsi, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılması zərurəti meydana cıxmışdı. Lakin, 90-cı illərin əvvəllərində ölkədəki mövcud vəziyyət və liderin olmaması qarşıda duran həyati əhəmiyyətli vəzifələrin yerinə yetirilməsinə imkan vermirdi.

Belə bir çətin vəziyyətdə xalqın tələb və təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev bu missiyanı layiqincə yerinə yetirdi. Qeyd edək ki, ümummilli liderimiz tərəfindən müstəqil Azərbaycanın ilk konstitusiyasının hazırlanması və qəbul edilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər hüquqi islahatların ən mühümü olmuşdur. 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyulması, 1998-ci il fevralın 10-da ölüm cəzasının ləğv edilməsi, humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ümummilli liderimizin gələcək nəsillərə misilsiz töfhəsi oldu. Qeyd edək ki, insan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında konvensiyaya dair 3 may 2002-ci ildə Vilnüs şəhərində qəbul edilmiş 13 saylı protokolun 1-ci maddəsində göstərilir ki, ölüm cəzası ləğv olunur, heç kəs belə cəzaya məhkum edilə və ya edam oluna bilməz. Lakin hələ bundan 4 il əvvəl Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv edilib. Bu, onun humanist ideyalara sadiqliyini bir daha təsdiq edir. Ulu öndər qeyd edirdi: "Mən, cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq, ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm".

1998-ci il fevral ayının 22-də imzaladığı "İnsan hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanla bu istiqamətində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyasını dəqiq müəyyən edərək, insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırmışdır. İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə 1998-ci il iyun ayının 18-də imzaladığı xüsusi sərəncamla "İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı" hazırlanmışdır. Dövlət proqramında insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkili təsisatının yaradılması, Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual məcəllələrinin təkmilləşdirilməsi məqsədilə qanun layihələrinin hazırlanması, "Prokurorluq haqqında", "Vəkillik haqqında", "Notariat haqqında" qanun layihələri üzrə işlərin tamamlanması, "Azərbaycan Respublikası Milli Təhlükəsizlik orqanları haqqında" qanun layihəsinin hazırlanması və bu kimi digər məsələlərə xüsusi önəm verilmişdir. Ulu öndərin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə yaradılmış Hüquq-İslahat Komissiyası tərəfindən işlənib hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında"

qanunlar müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratmış,insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə məhkəmə hakimiyyətinin müstəqil fəaliyyətinə təminat vermişdir. Qanunun aliliyinin təmin edilməsi, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin genişləndirilməsi məqsədilə 1998-ci ilin iyul ayında Konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsi yaradılmış, 2000-ci ilin sentyabr ayında Azərbaycanda üçpilləli yeni məhkəmə sistemi fəaliyyətə başlamış, 2004-cü ildə məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası təsis edilmişdir.

Ümummilli liderin rəhbərliyi altında demokratik və hüquqi dövlət quruculuğu yolunda atılan addımlar, beynəlxalq standartlara əsaslanan köklü hüquqi islahatlara zəmin yaratmışdır.

Sovet şinelindən yeni çıxmış Azərbaycanda azad mətbuatın formalaşması, hər kəsin öz fikrini sərbəst şəkildə ifadə edə bilmək imkanı da ümummilli liderin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə bu azadlıqları məhdudlaşdıran maneələr aradan qaldırıldı, senzura ləğv edildi. 1998-ci il avqustun 6-da Heydər Əliyev "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzaladı. Bu fərmanın bir bəndi ilə mətbuatda dövlət sirlərini mühafizə edən baş idarə ləğv olundu.

Bütün bu görülən işlər bugünkü müasir Azərbaycanın təməl daşları olub desək səhv etmərik.

Müasir dünyada demokratiyanın mahiyyəti hər bir sahədə, o cümlədən iqtisadiyyatda, mədəniyyətdə, sosial və siyasi sahədə sərbəst rəqabət deməkdir. Zəif güclünün təsir dairəsinə düşür. Heydər Əliyevin gördüyü işlər və bütün sahələrdə apardığı islahatlar, bu gün qüdrətli olmağımızın, güclülər cərgəsində dayanmağımızın əsas amilidir.

Heydər Əliyev modernləşdirmək yolunu tutdu. Azərbaycanda modernləşmənin özünəməxsus cəhəti Qərb modernləşməsindən fərqli səviyyədədir. Qərbdə-Qərbi Avropada və Şimali Amerikada meydana gələn modernləşməyə görə cəmiyyətlər müasir və ənənəvi cəmiyyətlərə bölünür. Qərbin təsəvvüründə siyasi və iqtisadi modernləşmə dedikdə ilk növbədə:

1. Vətəndaş cəmiyyətinin dövlət üzərində aliliyi, bütün təsisatların sərbəst formalaşması, rəqabət;
2. İnsanın vətəndaş hüquqlarının və siyasi hüquqlarını onun əlindən alına bilməməsi;
3. Nümayəndəli idarəetmə, hakimiyyət bölgüsü, hüquqi dövlət nəzərdə tutulur.

(M. Məmmədov. III Respublika: Milli inkişaf modeli və strategiyası. Bakı Elm, 2003, səh 29.)

Heydər Əliyev siyasətinin sosial-iqtisadi əsasını təşkil edən modernləşmə Azərbaycanın tarixi inkişafına yeni keyfiyyətlər, yeni sosial-iqtisadi münasibətlər, iqtisadi dəyərlər və imkanlar, həmçinin cəmiyyətin mənəvi-siyasi simasını dəyişdirən yeni siyasi-mədəni norma və təsisatlar daxil etdi.

Modernləşmə və siyasətin vəhdəti iqtisadiyyatın keyfiyyətcə təkmilləşdirilməsini nəzərdə tutur. Modernləşdirmə ilk növbədə iqtisadiyyatın bürokratik nəzarətdən azad olmasını, bazar iqtisadiyyatına keçidi, investisiya mühitinin yaradılmasını və yaxşılaşdırılmasını, büdcə siyasətinin sağlamlaşdırılmasını, orta sinfin yaradılmasını, dövlət, cəmiyyət və şəxsiyyətin qarşılıqlı münasibətlərində keyfiyyətcə yeni səviyyənin olmasını, demokratik siyasi təsisatların yaradılmasını və möhkəmləndirilməsini, siyasət və dövlət idarəçiliyinin cəmiyyətin siyasi və mədəni müxtəlifliyini, insan haqları və şəxsiyyətin siyasətdə rolunu, üfüqi özünüidarə şəbəkələrdə demokratik strukturların inkişafını nəzərə almaqla yenidən qurulmasını nəzərdə tutur.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Azərbaycan öz iqtisadi inkişafında dünya standartları səviyyəsinə qalxa bilmişdir. Mövcud olan sənaye obyektlərini, neft emalı və neft-maşınqayırma, əlvan və qara metallurgiya, elektrotexnika, maşınqayırma, kimya, energetika, yüngül və yeyinti sənaye sahələrində və digər sahələrdə yüksək texnologiyaya

əsaslanan kompleks sənaye sahələri əvəz etdi. Aqrar kompleks ən geridə qalmış sahədən SSRİ-də hamının heyrətinə səbəb olan, sürətlə inkişaf edən sahəyə çevrildi.

Azərbaycan çox sahədə qabaqcıl təcrübə məktəbinə çevrilmişdir. Bütün bunlar Heydər Əliyev dühasının unudulmaz xidmətlərinin fərəhli bəhrələri idi. Bu müdrik şəxsiyyətin həyatının hər bir inkişaf mərhələsi Azərbaycanın yüksəlişi, onun beynəlxalq aləmdə tanınması mərhələsi kimi nəzərə çarpmaqdadır.

1993-cü ilin ortalarında ölkədə sosial-iqtisadi və hərbi-siyasi gərginliyin xüsusilə gücləndiyi bir şəraitdə Heydər Əliyevin dövlət rəhbərliyinə gəlməsi ilə bütövlükdə Azərbaycan dövlətçiliyinin formalaşmasında və o cümlədən iqtisadi islahatlarda yeni keyfiyyət mərhələsinin başlanmasına səbəb oldu. Bu dövrün mahiyyəti ondan ibarət oldu ki, Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına demokratik islahatlara keçid başlandı, Azərbaycan dünya ölkələri tərəfindən siyasətin subyekti kimi qəbul edildi.

Heydər Əliyev ikinci hakimiyyəti dövründə yeni cəmiyyət quruculuğunda bir-biri ilə əlaqədə və vəhdətdə olan siyasi və iqtisadi sahələrin demokratik idarə olunmasına üstünlük verdiyini bəyan etdi: “Biz Respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculugunda siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə olunmasıdır, yəni iqtisadiyyatda demokratik islahatlar aparması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə Respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir”.

Bu dövrdə Heydər Əliyevin gərgin siyasi, sosial-iqtisadi yönümlü fəaliyyəti ilə iqtisadi transformasiyanın dinamik inkişafı üç istiqamətdə cəmləndi:

1. Ölkənin əsas təbii-iqtisadi ehtiyatlarının aktiv təsərrüfat fəaliyyətinə cəlb olunması: belə ehtiyatlara Xəzərin karbohidrogen yataqları; geosiyasi mövqeyin yaratdığı tranzit potensialı və şəxsi mülkiyyətə verilmiş torpaq potensialı aid olunur.
2. Liberal-demokratik yönlü bazar prinsiplərinə əsaslanaraq təsərrüfat mexanizminin yaradılması. Bu istiqamətdə ən vacib vəzifələrdə xüsusi mülkiyyətə əsaslanan sahibklarlıq mühitinin yaradılması; ölkənin maliyyə-bank və maliyyə-kredit sisteminin liberallaşdırma yönündə islahatı; dövlət iqtisadi idarəetmə sisteminin tədricən istehsalın idarəedicisindən əsas ictimai xidmətlərin təminatçısına çevrilməsi, iqtisadiyyatın dövlətsizləşdirilməsi, o cümlədən torpaq islahatı və özəlləşdirmənin həyata keçirilməsi aiddir.
3. Ölkə iqtisadiyyatının ardıcıl tədbirlər vasitəsilə açılması, onun dünya təsərrüfat sisteminə rasional inteqrasiyasının təmin olunması. Bu istiqamətdə fəaliyyət qlobal və regional, funksional və sahə iqtisadi birliklərin də fəal siyasətinin təmin olunmasını nəzərdə tutur.

Heydər Əliyevin social-iqtisadi inkişafa təsir edən mühüm amillərdən biri kimi milli valyutanın Azərbaycan manatının yeganə ödəniş vasitəsi elan edilməsi haqqında fərmanı oldu.

Heydər Əliyevin 1994-cü ildə dünyanın aparıcı neft şirkətləri ilə bağladığı “Əsrin müqaviləsi” Azərbaycanda modernləşmənin müasir mərhələsinin başlanğıcı oldu. Belə ki, bununla Azərbaycan bir çox problemləri həll etmək üçün şans əldə etdi:

- Azərbaycanda bazar iqtisadiyyatının həyata keçirilməsi üçün ilk addım atdı;
- Xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün yol açdı, digər sahələrdə çalışan şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaratdı;
- Müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya nümayiş etdirdi;
- Müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə-ABŞ, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələri, əməkdaşlığın və ümumiyyətlə bütün sahələrdə əlaqələrin möhkəmlənməsi üçün imkan əldə etdi;
- Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni mərhələ açdı.

2000-ci ildə respublikada yoxsulluğun azaldılması üçün xüsusi plan hazırlandı. Azərbaycan xalqının uzunmüddətli sosial inkişafı üçün zəmin yaradıldı. Bu işlərin həyata keçirilməsi üç istiqamətdə reallaşır:

1. İqtisadi-sosial ətraf mühit, neft və qaz kəmərləri;
1. Məşğulluq və iqtisadiyyatın qeyri-neft sektoru-sosial sərmayə qoyuluşu, yerli enerji təminatı;
1. İnsan hüquqları-münaqişələr, biomüxtəliflik və s.

(Eldar Şahbazov. Heydər Əliyevin şah əsəri. Əsrin neft müqaviləsi.//Dirçəliş-XX əsr, 2004, aprel-may, №7475, səh 103-104.)

Müqavilə milli iqtisadiyyatın inkişafına güclü təkan verməklə yanaşı onun keyfiyyətcə yeni vəziyyətini də müəyyənləşdirdi.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin işə düşməsi Azərbaycanı Cənubi Qafqaz və Asiya respublikaları arasında iqtisadi cəhətdən inkişaf etməkdə olan regiona çevirmişdir. Heydər Əliyev Azərbaycanın yeni neft strategiyasının xalqın rifahının yüksəlməsinə xidmət etdiyini göstərirdi: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin, təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və qəbul edilən Azərbaycanın sosial-iqtisadi inkişafında yeni eranın başlanğıcını qoyan Müstəqil Azərbaycanın ilk Konstitusiyası ilk dəfə demokratik dəyərlərə əsaslanan liberal bazar iqtisadiyyatının legitimliyini təsdiq etdi.

Azərbaycanda xüsusi mülkiyyətin, azad sahibkarlığın yeni torpaq münasibətlərinin, dünya iqtisadiyyatına inteqrasiyanın hüquqi əsasları tətbiq edildi və dövlətin idarə olunmasında müstəsna əhəmiyyəti olan hakimiyyət bölgüsü baş verdi.

Tədqiqatçılar Heydər Əliyevin apardığı məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində ölkəmizin iqtisadi həyatında yüksək keyfiyyət dəyişiklikləri baş verdiyini göstərirlər: 1996-cı ilin ikinci yarısında əldə olunmuş iqtisadi artım 1997-2003-cü illərdə daha da möhkəmlənmiş və sürətlənmişdir.

Heydər Əliyev sosial-iqtisadi siyasətin istiqamətləri barədə deyirdi: "Azərbaycan Respublikasının iqtisadi siyasəti bazar islahatlarının ardıcıl və sahmanlı aparılmasına əsaslanır. Bu islahatların başlıca istiqamətini dövlət mülkiyyətinin özəlləşdirilməsi, şəxsi və kollektiv sahibkarlıq təşəbbüsünün inkişaf etdirilməsi, istehsalın səmərəliliyinin yüksəldilməsi və iqtisadi dirçəlişin sürətləndirilməsi təşkil edir". (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II kitab 1997, səh 242.)

Heydər Əliyev sosial-iqtisadi inkişafı sürətləndirmək üçün 1995-2003-cü illər ərzində çox sayda fərman və sərəncamlar imzaladı. Bu fərman və sərəncamlarda:

- dövlət əmlakının özəlləşdirilməsinin kompleks və hərtərəfli proqramının həyata keçirilməsi;
- bu məqsədlə Dövlət Komissiyasının yaradılması;
- özəlləşdirmə prosesində əhalinin bütün təbəqələrinin sosial müdafiəsinin təmin edilməsi;
- bazar iqtisadiyyatına keçid, sosial-iqtisadi islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatının məna və məzmunun elmi cəhətdən əsaslandırılması;
- iqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsi;
- dövlət əmlakının özəlləşdirilməsi zamanı ədalət prinsipinin və dövlət mənafeyinin qorunması;
- iqtisadiyyatda liberallaşma prosesinin aparılması və gücləndirilməsi ixrac və idxalın liberallaşması;
- iqtisadiyyatda özəl sektorun inkişafı;
- iqtisadiyyatda struktur dəyişikliklərin aparılması;

- zəngin təbii ehtiyatlardan, potensialdan səmərəli istifadə edilməsini qarşılıqlı faydalı iqtisadi əlaqələrin inkişaf etdirilməsi;
- xarici sərmayənin Azərbaycana gəlməsinə şərait yaradılması;
- istehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan olunması;
- xarici ticarətin tənzimlənməsi;
- torpaq islahatları;
- kənd təsərrüfatının inkişaf etdirilməsi nəzərdə tutulmuşdu.

Heydər Əliyev çıxışlarının birində “Respublikamızda iqtisadi islahatların həyata keçirildiyini və insanların təşəbbüskarlıq və sahibkarlıq addımlarının dövlət və hökumət tərəfindən bəyənildiyini, onların həyata keçirilməsi üçün lazımi imkanlar yaradıldığını” bəyan edirdi.

Heydər Əliyevin iqtisadi siyasətinin tərkib hissələrindən biri də sosial siyasətdir. Heydər Əliyev sosial və iqtisadi siyasəti vəhdətdə yeridirdi. Heydər Əliyevin yeritdiyi sosial siyasət sosial sahədəki mövcud sosial münasibətləri tənzimləməklə xalqımızın sosial şəraitinin yaxşılaşdırılması, bu sahədəki əlaqələrin təkmilləşdirilməsi istiqamətində fəaliyyəti əhatə edirdi. Bu siyasətin başlıca məqsədi adamların sosial tələblərinin və maraqlarının öyrənilməsi üçün şərait yaratmaq, ayrı-ayrı vətəndaşlara, qruplara, sosial yardım göstərmək, onların sosial müdafiəsini və reabilitasiyasını təşkil etmək idi.

Heydər Əliyevin sosial siyasətinin əsas vəzifəsi daha geniş məsələləri əhatə edirdi.

Bura:

- adamların həyat səviyyəsini və əmək şəraitini yaxşılaşdırmaq;
- bazar iqtisadiyyatı münasibətlərinə uyğun gələn yeni sosial-siyasi quruluşu formalaşdırmaq;
- sosial ədalət və müdafiəni həyata keçirmək;
- millətlər arası və etnoslar arası münasibətləri tənzimləmək;
- ölkədə demoqrafik və ekoloji şəraiti normalaşdırmaq;
- cəmiyyətdə meydana çıxan və çıxa biləcək sosial tələblərin öyrənilməsi, təhlili və nəzərə alınması;
- səmərəli normativ dəyər sisteminin yaradılması, sosial normaların vətəndaşlara real təsiri yaranmış sosial tələb və maraqlarla onların ödənilməsinin uyğunlaşdırılması, sosial normativlərin dəqiqliyini və obyektivliyini təminetmə;
- xalqın bütün təbəqəsinin maraqlarını nəzərə alan ümumdövlət regional, yerli və lokal sosial-siyasət daxildir.

Sosial siyasət siyasi, iqtisadi siyasətlə uzlaşdıqda daha kəsərli, daha dərin və daha təsirli olur. Heydər Əliyev siyasəti kompleks xarakter daşıdığı üçün onun təsiri güclü, əhatəli və qüdrətli idi.

Ulu öndər sosial-iqtisadi siyasətin hüquqi bazasını yaratdı, bu sahəni tənzimləyən hüquqi qanunvericilik aktları qəbul edən ictimai, maddi və mənəvi şəraiti, həmçinin bu şəraitin mövcudluğunu və fəaliyyətini özündə birləşdirən sosial mühiti sağlamlaşdırmaq, bərabərlik və sosial ədalət prinsipləri üzərində qurulmuş yeni qaydalar işləyib hazırladı. Bunun üçün müvafiq qurum, orqan və təşkilatlar yaratdı. Heydər Əliyev ardıcıl elmi-nəzəri biliklərə, qabaqcıl inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan davamlı sosial siyasəti həyata keçirdi, sosial sahə ilə bağlı-məcburi köçkünlərin, əlillərin, veteranların sosial müdafiəsi, sağlamlığının qorunması, tibbi sığorta, özəl tibbi fəaliyyət və s. haqqında 50-yə yaxın qanun qəbul edilməsini təmin etdi, bununla sosial siyasətin əsası olan sosial qarantiyaların təsbit olunması üçün möhkəm qanunvericilik bazasını formalaşdırdı.

Dövlət başçısı sosial siyasəti formalaşdırarkən, sosial siyasətin hüquqi bazasının yaradılmasında beynəlxalq təşkilatlarla əlaqələrə müstəsna əhəmiyyət verirdi. O, sosial siyasət sahəsində BMT və onun orqanları və qurumları, regional dövlətlərarası təşkilatlar və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa üstünlük verirdi.

Heydər Əliyevin apardığı xarici və daxili siyasət sosial-iqtisadi siyasətlə vəhdət təşkil edirdi. Onun yürütdüyü sosial siyasətdə iqtisadi, sosial-siyasi, sosial-mədəni, sosial-məişət və s. aspektləri əhatə edirdi.

Ölkənin bütün sahələrinin qismən sabitləşmə və inkişafı dövrü Heydər Əliyevin sabitləşmə və inkişaf dövrünün yaradıcısı olduğunu xüsusi qeyd etmək lazımdır.

Heydər Əliyev Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatı yolu ilə inkişaf etməsinə böyük diqqət yetirirdi.

Azərbaycan Respublikasının Prezidenti respublikamızda bazar iqtisadiyyatının inkişaf etdirilməsində iqtisadi-maliyyə islahatlarının həyata keçirilməsinə böyük əhəmiyyət verirdi. Heydər Əliyev müstəqilliyin ilk günlərindən belə hesab edirdi ki, sərbəst iqtisadiyyat yolu ilə, dünya iqtisadiyyatı ilə sıx inteqrasiya yaradılması yolu, bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət müasir tələblərə uyğun, dünya standartlarına uyğun maliyyə-kredit, maliyyə-bank sistemi təsis etməlidir. Dahi prezident öz cəsarətli tədbirləri, siyasi-iqtisadi fəaliyyəti ilə qarşıya qoyulan problemləri həll etdi.

- Azərbaycan iqtisadiyyatının neft və qeyri-neft sektoruna xarici investisiyaların həcmi artdı;
  Iqtisadiyyatın bütün sahələrində dirçəliş və inkişaf baş verdi;
- İnflyasiyanın qarşısı alındı;
- Maliyyə böhranı və nöqsanları aradan qaldırıldı;
- Qiymətqoymada müsbət irəliləyişlər əldə edildi;
- Idxalın ixraca nisbətən çox olması faktı azaldı, idxalla ixrac arasında nisbət tənzimləndi;
- Dövlət büdcəsi yerinə yetirildi;
- Gömrük xidmətinin strukturu yaxşılaşdırıldı, möhkəmləndirildi və inkişaf etdirildi;
- Qiymətlərin liberallaşdırılması həyata keçirildi;
- Xarici ticarət liberallaşdırıldı;
- Sərt maliyyə-kredit və büdcə siyasəti aparıldı;
- Səmərəli bank sistemi formalaşdırıldı;
- Milli pul vahid dövriyyəyə buraxıldı və möhkəmləndirildi;
- İnstitusional islahatlar həyata keçirildi;
- Beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq gücləndirildi.

1995-ci ilin ortalarından hərtərəfli dövlət quruculuğu, qanunçuluq və sabitliyin möhkəmlənməsi ilə yanaşı Azərbaycan Respublikasının intensiv inkişaf mərhələsi kimi də tarixə düşdü.

Bu dövrün xarakterik xüsusiyyətləri belə idi:

- Ümumi daxili məhsulda özəl sektorun payı nəzərə çatacaq dərəcədə artdı;
- İnflyasiya yox dərəcəsinə endirildi;
- Ölkənin valyuta fondu artdı (1 milyard 300 milyon dollar);
- Neft fondunun vəsaiti 690 milyon dollara çatdı;
- Ümumi sənaye istehsalı artdı (2001-ci ildə 5,1%);
- Xam neftin hasilatı 2001-ci ildə 14,9 .milyon tona çatdı;
- Dənizdə neft hasilatı artdı;
- Elektrik enerjisi, avtomobil benzininin, azotun, spirtin, çuqunun, poladın, sementin, neft-mədən avadanlıqlarının istehsalı artdı;
- Kənd təsərrüfatı məhsullarının istehsalı 2001-ci ildə 11 faiz artdı;
- Taxil, ət, süd və s. məhsulların istehsalı yüksəldi.

Aqrar islahatı sahəsində nöqsanları aradan qaldırmaq və onu daha da inkişaf etdirmək üçün Heydər Əliyev Dövlət Proqramı hazırladı, müvafiq sərəncam və fərmanlar verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sosial-iqtisadi siyasətin uğurlu gələcəyin rəhni olduğunu uzaqgörənliklə göstərirdi: “Respublikamızın həm iqtisadiyyatını, həm də xalqın rifah halını çox yaxşı gələcək gözləyir. Biz bunu indiyə qədər gördüyümüz işlərin əsasında təmin etmişik və gələcəkdə görəcəyimiz işlər bunların hamısını tamamlayacaqdır”.

Heydər Əliyevin sosial-iqtisadi siyasətində “Əsrin müqaviləsi” ilə yanaşı Böyük İpək Yolunun bərpası kimi qlobal prosesdə Azərbaycanın mühüm yerini müəyyənləşdirmək və öz layiqli töhfəsini vermək əsas yer tuturdu. Heydər Əliyev deyirdi: “Azərbaycan “İpək Yolunun mərkəzində yerləşir. “İpək Yolu” Yaponiya, Çin və Mərkəzi Asiyadan keçib Xəzərə çıxacaqdır. Xəzərdə Şərq və Qərb sahilləri arasında keçid bərəsi var və bu bərə Azərbaycana məxsusdur. Bakı “İpək Yolunun üstündə yeganə iri dəniz limanıdır. Ona görə də Azərbaycan burada çox mühüm strateji mövqe tutur”.

Tarixi “İpək Yoluna qayıdışı III minilliyin başlanğıcında gedən ictimai-siyasi proseslər kontekstində ən çox nəzərə çarpan hadisə kimi dəyərləndirən Heydər Əliyev uzaqgörən siyasəti sayəsində qloballaşmanın yaratdığı iqtisadi inteqrasiya imkanlarından uğurla istifadə edərək “Əsrin müqaviləsi” ilə yanaşı “Böyük İpək Yolunun” bərpası kimi planetar miqyaslı iqtisadi hadisələrin mərkəzində durmağa nail oldu: “Tarixi İpək Yolinun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi, xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılmasına düzgün təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir”.(Dirçəliş-XXI əsr, 2005 dekabr, 2006 yanvar, №94-95, səh 60.)

Heydər Əliyevin siyasəti nəticəsində beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən ən uğurlu iqtisadi layihələrədən biri də Avropa İttifaqının həyata keçirdiyi TRASEKA proqramıdır. Azərbaycan 1993-cü ildə Brüssel Konfransında Qafqazın və Mərkəzi Asiyanın digər yeni müstəqil dövlətləri ilə birlikdə Avropa Birliyinin Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafına yardım üzrə TRASEKA proqramının işgüzar iştirakçısına çevrildi.

TRASEKA proqramının əsas məqsədləri aşağıdakılardan ibarət idi.

- Alternativ nəqliyyat dəhlizləri vasitəsilə yeni yaranmış müstəqil dövlətlərin Avropa bazarına çıxışına şərait yaratmaq və bu yolla onlara siyasi-iqtisadi dəstək vermək;
- Müstəqil respublikalar arasında regional (məhəlli) əməkdaşlığa təkan vermək;
- TASİS-TRASEKA proqramının köməyi ilə Beynəlxalq maliyyə təşkilatlarının və özəl investorların cəlb edilməsini gücləndirmək;
- TRASEKA marşrutunu Trans Avropa Şəbəkəsi ilə əlaqələndirmək. (S.Xəlilov, Lider, Cəmiyyət, Dövlət. Səh 301-302)

1998-ci il sentyabrın 7-8-də Heydər Əliyevin humanist səyi nəticəsində Böyük İpək Yolunun bərpasına və dirçəldilməsinə həsr olunmuş konfrans keçirilmişdir.

Azərbaycan Qərblə Şərq arasında birləşdirici məntəqə, Avropa, Asiya, Çin, Rusiya, Aralıq dənizi arasında, Mərkəzi və Şərqi Avropa arasında iqtisadi və mədəni əlaqələrin yaradılmasında mühüm rol oynamalıdır.

“Böyük İpək Yolu bölgəsinin diplomatiyası” adlandırılan siyasətin yaranmasında və həyata keçirilməsində Heydər Əliyevin rolu əvəzsizdir.

Heydər Əliyevin iqtisadi siyasəti nəticəsində Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir, texnopratik və informasiya cəmiyyətinə və D.Bellin qeyd etdiyi kimi xidmət iqtisadiyyatını üstünlük təşkil etdiyi, “mütəxəssislər və texniklər sinfinin rolunda artdığı, texnikanın yenidən qurulması və siyasətin formalaşmasında nəzəri biliyin həlledici rol oynadığı, texnologiyada nəzarət edilən, qərarların yeni intellektual texnologiya bazasında qəbul edildiyi “sənayedən sonrakı” cəmiyyətə keçidin əlamətlərini özündə daşımağa başlamışdır.

Heydər Əliyev siyasətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsində inqilab yaradan dahi siyasətçi idi. Məlumdur ki, sosial sistemlərin transformasiyasında iqtisadiyyatla siyasətin qarşılıqlı təsirinin nəzəri cəhətdən araşdırılması əsas məsələlərdən biridir. Xüsusilə super mərkəzləşdirilmiş sosialist planlaşdırılma- sından bazar iqtisadiyyatı sisteminə keçid dövründə bu təsirin öyrənilməsi daha çox aktuallıq kəsb edir.

R. Mustafayev hazırda bu sahədə üç həqiqətin öz qüvvəsini saxladığını qeyd edir:

1. Hələlik adamların tələbatını ödəyə biləcək həcmdə və keyfiyyətdə əmtəə istehsalına nail olmaq üçün bazar sistemindən yaxşı model və yol tapılmayıbdır. Lakin bu heç də təbii seçim probleminin zirvəsi deyildir.
2. Əlahiddə fəaliyyət göstərən bazar sistemi olduqca çevik və etibarlıdır. O, müxtəlif mədəniyyətlərə və siyasi sistemlərə müvəffəqiyyətlə uyğunlaşa bilər (totalitar kommunizmdən başqa). Hətta bir sıra sosial böhran şəraitində yaşamaq qabiliyyətinə də malikdir. Lakin bütün canlı orqanizmlər kimi, onda qüsur ola bilər. Normal vəziyyət pozulduqda isə dağılma prosesi baş verir.
3. Bazar sistemi demokratiyanı müdafiə etmək, ona dayaq olmaq üçün lazımdır. Belə ki, bazar hər gün vətəndaşa daha geniş azadlıq, sərbəstlik verir və bununla adamlar əhəmiyyətli bildikləri fəaliyyət sahəsi seçmək imkanı qazanır. Təşkilati-hüquqi planda azadlıq möhkəmlənir.

Plüralizm və bazarın kobud eqalitarizmi-mülkiyyətin fərdi mülkiyyət əsasında bərabərləşdirilməsi demokratik siyasi qaydaların əsasını təşkil edir. Demokratik qaydalar hakimiyyət özbaşnalıqlarığını aradan qaldırır, lakin belə halların təkrar olunmayacağına tam təminat vermir.

R. Mustafayev iqtisadiyyatla siyasətin qarşılıqlı münasibətinin üç aspektini göstərərək Azərbaycanın Şərq psixologiyasına və Avrasiya dövlətçilik ənənəsinin malik olduğunu habelə keçid dövrünün özünəməxsus siyasətin həyata keçirilməsi, bazar iqtisadiyyatı və demokratiyanın reallaşma tempi barədə düzgün fikir söyləmişdir:

-əvvəla, adamları geyindirib, yedirtməyə qabil bazar iqtisadiyyatı, adamlarda öz dolanışığı üçün pul qazanmaq vərdişi formalaşmalıdır. Onun yetkin çağında isə demokratiya genişlənməlidir, bununla belə bazar iqtisadiyyatının özü elə ilk mərhələdən demokratik ünsürlərlə müşayiət edilməlidir;

-bazar iqtisadiyyatına da, demokratiyaya da keçid pillə-pillə, tələsmədən olmalıdır. Şübhəsiz ki, bazar iqtisadiyyatının sürəti demokratiyanın sürətindən üstün həyata keçirilməlidir;

-bazar iqtisadiyyatının yetkinlik çağında demokratiya qaçılmaz olacaqdır. Bu prosesdə informasiyanın rolu xüsusilə əvəzedilməzdir.

Beləliklə, Heydər Əliyev siyasətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsini gücləndirərək:

- iqtisadi siyasətin vahidliyini, bölünməzliyini və sosial yönümlülüyünü təmin etdi;
- iqtisadi siyasətin proqnozlaşdıra bilən olmasını sübut etdi;
- iqtisadi siyasəti sosial-strukturlaşdırılmış iqtisadi sistemin yaradılmasına istiqamətləndirə bildi, struktur siyasəti və strategiyası əsasında yaradılmış proqramları reallaşdıra bildi;
- sosial-iqtisadi inkişafın cari vəziyyətinin obyektiv qiymətləndirilməsini reallaşdıra bildi;
- iqtisadi siyasətdə keçid dövründə dövlətin əlahiddə tənzimləmə rolunu nəzərə aldı;
- sübut etdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin sosial-iqtisadi inkişafı prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev əhalinin sosial rifahı, sosial təhlükəsizliyi və sosial müdafiəsi uğrunda ardıcıl və dönmədən mübarizə aparır.

İlham Əliyev Azərbaycan iqtisadiyyatının gələcəyi haqqında belə demişdir: “Sərmayələrin gəldiyi əsas yer Bakıdır, neft sənayesidir. Ancaq biz çox maraqlıyıq ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin, ölkəmizin hər bir vətəndaşı aparılan böyük işlərin nəticəsini hiss etsin”.

İlham Əliyev dəfələrlə bildirmişdir ki, iki əsrin qovuşuğunda respublikamızın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, dünyanın inkişaf etmiş ölkələrinin, beynəlxalq təşkilatların Azərbaycana marağının artması, ilk növbədə, dövlətimizin uğurlu siyasəti ilə bağlıdır.

Bütün bunlar bir daha sübut edir ki, Ulu öndər Heydər Əliyevin ənənələri, onun müəyyənləşdirdiyi siyasət ölməzdir.

**Nəticə**

Heydər Əliyevin nəzəri-fəlsəfi irsinin praktik əhəmiyyəti ondadır ki, insan haqlarının qorunmasını reallığa çevirdi.

Heydər Əliyevin fəaliyyəti dövründə verilmiş fərmanlar, qəbul edilmiş Konstitusiya insan hüquq və azadlıqlarının qorunması və iqtisadiyyatımızın inkişafı üçün hüquqi baza rolunu oynadı:

iqtisadi siyasətin vahidliyini, bölünməzliyini və sosial yönümlülüyünü təmin etdi;

- iqtisadi siyasətin proqnozlaşdıra bilən olmasını sübut etdi;
- hüquqi-iqtisadi islahatlar siyasəti nəticəsində bir çox proqramları reallaşdıra bildi;
- inkişafın cari vəziyyətinin obyektiv qiymətləndirilməsini reallaşdıra bildi;
- iqtisadi siyasətdə keçid dövründə dövlətin əlahiddə tənzimləmə rolunu nəzərə aldı;
- sübut etdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş ölkənin sosial-iqtisadi inkişafı prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İlham Əliyev əhalinin sosial rifahı, sosial təhlükəsizliyi və sosial müdafiəsi uğrunda ardıcıl və dönmədən mübarizə aparır.

Ədəbiyyat


1. Heydər Əliyev. Müstəqilliyimz əbədidir. II kitab 1997, səh 242.
2. S.Xəlilov, Lider, Cəmiyyət, Dövlət. Səh 301-302
3. Eldar Şahbazov. Heydər Əliyevin şah əsəri.Əsrin neft müqaviləsi.//Dirçəliş-XXəsr, 2004, aprel-may, №7475, səh 103-104.
4. Dirçəliş-XXI əsr, 2005 dekabr, 2006 yanvar, №94-95, səh 60.
5. Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi. Çapa hazırlayanı YAP İcra Katibliyi. Azərbaycan Nəşriyyatı, 2005.
6. Heydər Əliyev və müasir Azərbaycan. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 2003.

**i.e.d., prof. MƏHİŞ ALIŞ oğlu ƏHMƏDOV**
*UNEC "İqtisadiyyatın tənzimlənməsi" kafedrasının müdiri*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNKİŞAFI KONSEPSİYASININ BANİSİDİR

Bu günlər xalqımız müstəqil Azərbaycan dövlətinin qurucusu memarı, milli iqtisadiyyatın formalaşması və inkişafı konsepsiyasının banisi ulu öndər Heydər Əliyevin anadan olmasının 98 illiyini təntənəli surətdə qeyd edir. XX əsrin 90-cı illərində özünün dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycan, eyni zamanda sistemin dərin böhranına düçar olduğu çətin, ziddiyyətli və mürəkkəb bir dövrdə Ümummili lider Heydər Əliyev xalqın tələbi və təkidi ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə gəldi. Bu gün özünün müstəqilliyinin şərəfli dövrünü yaşayan və inkişaf edən Azərbaycan bütün sahə və istiqamətlərdə qazandığı möhtəşəm uğurlara görə Ulu öndər Heydər Əliyev dühasına, şəxsiyyətinə borcludur. Zamanla sübut olunmuşdur ki, vaxt keçdikcə belə, dahi insanların, siyasətçilərin, liderlərin böyüklüyü, uzaqgörənliyi, ideyalarının möhtəşəmliyi, xalqın bugünü və gələcək inkişaf istiqamətlərini müəyyənləşdirir. Ulu öndər Heydər Əliyev böyük təşkilatçı lider, dahi siyası xadim kimi dahiyanə uzaqgörənliklə dünyada baş verən iqtisadi, siyasi, hərbi, qlobal, regional prosesləri öncədən görməyi, onları çox dəqiq qiymətləndirməyi, müvafiq nəticələr çıxarmağı bacaran fenomen qabiliyyətə malik praqmatik şəxsiyyət idi. Əgər ölkəmizin son əlli ildə keçdiyi tarixi yola nəzər salsaq, onda aydın görərik ki, Ulu Öndər Heydər Əliyev hələ Sovet İttifaqı və eləcə də müstəqillik illərində həmişə Azərbaycanın ən çətin günlərində xalqımızın xilaskarı olmuş, dünya xalqları arasında onun layiqli yer tutmasını təmin etmək üçün bazar iqtisadi sisteminə keçid şəraitində Azərbaycanın milli iqtisadiyyatının formalaşdırılması və inkişafının təməl prinsiplərini, prioritetlərini, bütünlükdə konseptual əsaslarını müəyyənləşdirmiş və həmin iqtisadi siyasət bu gün də uğurla həyata keçirilir. Ulu öndər Heydər Əliyev, bütün fəaliyyəti dövründə istisnasız olaraq, Azərbaycanda sosial-iqtisadi, siyasi vəziyyəti obyektiv qiymətləndirib, özünün fövqəl hissetmə, duyma qabiliyyətinə əsaslanaraq ölkəmizdə böhran hallarının qarşısını almaq, makroiqtisadi sabitliyi təmin etmək üçün qabaqlayıcı, privintiv tədbirlər görürdü. O, keçid dövrünün mürəkkəb, ziddiyyətli bir şəraitində nəyi, nə vaxt və hansı intensivliklə optimal müddətdə həyata keçirməklə, əslində, iqtisadi ədəbiyyatda "gecikmə effekti" adını almış bir prosesin neqativ nəticələrini minimuma endirdi. Heydər Əliyev yaxşı bilirdi ki, müstəqil dövlətə çevrilən Azərbaycanda sistemin transformasiyasını mümkün qədər az itkilərlə və optimal müddətdə həyata keçirmək üçün qarşıya qoyulan məqsədlərə çatmağın yollarını, mexanizmlərini və imkanlarını çox aydın və düzgün müəyyənləşdirmək lazımdır. Çünki təcrübə göstərir ki, keçidin ilkin mərhələsində buraxılan səhvlərin sonradan aradan qaldırılması cəmiyyətə çox baha başa gəlir. Dünya təcrübəsi göstərir ki, sistemin transformasiyasının iki yolu – "şok terapiyası" və "təkamül yolu" məlumdur. Ulu öndər Heydər Əliyev Azərbaycan reallığını nəzərə alaraq həyata keçirdiyi sistemin transformasiyası və böhrandan çıxış tədbirlər sistemi müəyyənləşdirilərkən, hər bir konkret halda "şok terapiyası" və "təkamül yolu"nun prinsiplərindən ayrılıqda, lazım gəldikdə isə onların birgə tətbiq olunması zərurətini xüsusi vurğulayırdı. Bu illərdə müxtəlif beynəlxalq təşkilatların bir çox hallarda çox ciddi təkidlərinə baxmayaraq, o, həmişə xalqımızın, ölkəmizin mənafeyini, iqtisadi təhlükəsizlik problemlərini, milli iqtisadiyyatın gələcək inkişaf problemlərini nəzərə alaraq islahatların həyata keçirilməsini tövsiyyə edirdi. Ulu öndər həmişə belə bir prinsipial mövqedən çıxış edirdi ki, sistem dəyişikliklərinin həyata keçirildiyi transformasiya şəraitində dövlətin fəal müdaxiləsi olmadan sırf bazar mexanizmi cəmiyyətin qarşısında duran başlıca problemləri səmərəli həll etməyə qadir deyildir. Bu baxımdan hər bir konkret halda cəmiyyətin qarşısında duran strateji məqsədlərə uyğun olaraq dövlət və bazar mexanizminin, prinsipləri optimal nisbətdə tətbiq olunmasını zəruri hesab edirdi. Ümumən, Ulu

öndər özünün iqtisadi siyasətində koordinasiya, sistemlilik və prioritetlərin düzgün seçilməsinə müstəsna əhəmiyyət verirdi.

Müstəqilliyin ilk illərində ölkəmizin investisiya imkanlarının məhdud olduğunu nəzərə alaraq o, həmişə xüsusi vurğulayırdı ki, biz ölkəmizdə elə sahələrin üstün inkişafını təmin etməliyik ki, birincisi, onlar ölkəmizin iqtisadisiyasi müstəqilliyini qorumağa və xalqın zəruri tələbatlarını mümkün qədər ödəməyə imkan versin və eyni zamanda həmin sahələrin üstün inkişafı nəticəsində əldə olunan gəlirlər sonradan ölkəmizin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsinə çevrilməsini zəruri hesab edirdi.

Azərbaycanda milli iqtisadiyyatın formalaşması və inkişafı ilə bağlı ulu öndər Heydər Əliyevin formalaşdırdığı və reallaşdırığı iqtisadi siyasətin təhlili onun, dahinin nə qədər böyük biliyə, analitik düşüncəyə və uzaqgörən zəkaya malik bir şəxsiyyət olduğunu bir daha sübut edir. Azərbaycanın qlobal və regional proseslərə fəal qoşulduğu bir şəraitdə ölkəmizin milli reallıqları, sosial-iqtisadi gerçəkliklərini ehtiva edən milli maraqlarının gözlənilməsi, ölkənin təbii, maddi, əmək resurslarından səmərəli istifadə edilməsi, cəmiyyətin bütün üzvlərinin maraqlarına cavab verən iqtisadi siyasətin formalaşdırılması, son nəticədə əlverişli investisiya, innovasiya və sahibkarlıq mühitini yaratmaqla, milli iqtisadiyyatın inkişafına nail olunması mexanizmləri, yolları, prinsipləri də dərindən öyrənilməli, təhlil edilməli və gələcək inkişafımız üçün ümumiləşdirmələr aparılmalı, nəticələr çıxarılmalı və hazırlanan inkişaf konsepsiyasında öz əksini tapmalıdır.

Məlumdur ki, Azərbaycana Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın xeyli hissəsinin işğalı, ictimai-siyasi sabitliyin vaxtaşırı pozulması, ölkədə rəhbərliyin tez-tez dəyişməsi 90-cı illərin əvvəlindən etibarən iqtisadiyyatın əksər sahələrində istehsalın tənəzzülünə və prosesin getdikcə dərinləşərək xroniki xarakter almasına səbəb olmuşdu. 1991–1995-ci illərdə ölkədə istehsal müəssisələrinin böyük əksəriyyəti dayanmış və ya öz gücünün 15–20%-i səviyyəsində işləmişdir. Həmin illərdə sənayedə illik geriləmə 20–24%-ə, kənd təsərrüfatında 15– 20%-ə, əsaslı vəsait qoyuluşunda 40%-ə düşmüş, istehlak mallarının qiymətinin ildə 14–18 dəfə artması iqtisadi və sosial sahədə güclü, dağıdıcı rol oynamışdır. Ümumən respublikamızda 1991–1995-ci illərdə ÜDM – 58%, sənaye məhsulu – 67%; kənd təsərrüfatı məhsulu 48%; əsaslı vəsait qoyuluşu 48,5% azaldığı halda, qısa müddətdə həyata keçirilən makroiqtisadi sabitləşmə tədbirləri sayəsində 1997–2003-cü illərdə ÜDM–74,8%; sənaye məhsulu 30,8%; kənd təsərrüfat məhsulu 58,0%; əsaslı vəsait qoyuluşu isə 4,7 dəfədən çox artmış, adambaşına düşən ÜDM-in həcmi 1993-cü ildə 179,9 dollar, 1995-ci ildə isə 319,3 dollar olduğu halda, bu rəqəm 2003-cü ildə 1995-ci ilə nisbətən 4,9 dəfədən çox artaraq 879,7 dollara, xarici ticarət dövriyyəsinin həcmi 4 dəfə artaraq 5,28 milyard dollara çatmış, habelə ticarət dövriyyəsinin ümumi strukturunda idxal 3,9 dəfə, ixrac isə 4,1 dəfə artmışdır.

Dünya təcrübəsi göstərir ki, siyasi sabitliyə nail olmadan həmin dövrdə nə böhrandan səmərəli çıxış, nə də sabitləşmə siyasətini həyata keçirmək mümkün deyildi. Öz növbəsində, iqtisadi sabitləşmənin təmin edilməsi islahatların müvəffəqiyyətlə həyata keçirilməsinin ən başlıca və ilkin şərtidir. Əks təqdirdə reallaşdrılması nəzərdə tutulan tədbirlərin heç biri əməli səmərə verməyəcəkdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə yenidən gəldikdən sonra müstəqilliyin ilk illərində ölkəmizin qarşısında duran problemlərin ağırlığını və xalqın qarşısında məsuliyyətini xüsusi vurğulayaraq qeyd etmişdir: "Ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafına həsr edəcəyəm". Fövqəladə zəka və xalq arasında böyük nüfuz sahibi olan bu şəxsiyyət ümumxalq səsverməsi yolu ilə prezident seçildikdən sonra 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki proqram xarakterli çıxışında yeni cəmiyyət quruculuğunun başlıca konturlarını dəqiqləşdirdi. Xüsusi olaraq bəyan etdi ki, Azərbaycanda sərbəst bazar iqtisadiyyatı və demokratik prinsiplərə uyğun olaraq ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək, müstəqil fəaliyyət göstərən hüquqi dövləti, vətəndaş cəmiyyətini və milli iqtisadiyyatı formalaşdıracağıq.

Məhz bu dövrdən Azərbaycanda ictimai-siyasi sabitliyin, sosial-iqtisadi inkişafın təməli qoyuldu. Ölkəmizdə yaradılan siyasi sabitlik genişmiqyaslı əsaslı islahatlar aparmağa imkan verdi. Ulu öndərimiz yaxşı bilirdi ki, müstəqilliyi qoruyub saxlamaq, inkişaf etdirərək əbədi bir prosesə çevirmək onu əldə etməkdən qat-qat çətindir. Bu məqsədlə sistemin transformasiyası ilə bağlı bütün siyasi, iqtisadi münasibətləri keyfiyyətcə yenidən qurmaq üçün, hər şeydən əvvəl, ölkənin əsas qanunu olan Konstitusiyanı yaratmaq zəruri oldu. 1995-ci ilin noyabrında baş memarı Heydər Əliyev olan Azərbaycan Respublikası Konstitusiyasının qəbulu ölkədə həyata keçirilməsi nəzərdə tutulan sosial, siyasiiqtisadi islahatlar üçün normativ-hüquqi və institusional baza yaratdı. Heydər Əliyevin böyük səyi, iradəsi və idarəçilik məharəti sayəsində ölkədə qısa bir müddət ərzində əldə olunan makroiqtisadi, siyasi sabitlik, habelə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu iqtisadi sistemin transformasiyası ilə bağlı aparılması nəzərdə tutulan iqtisadi islahatların qanunvericilik bazasının yaradılmasına, sosial-iqtisadi inkişafda prioritetlərin seçilməsinə, cari və perspektiv məqsədlər nəzərə alınmaqla onların reallaşdırılmasının taktika və strategiyasını müəyyənləşdirməyə imkan verdi.

Ulu öndər həmişə siyasi və iqtisadi müstəqilliyin təmin edilməsini qarşılıqlı əlaqə və asılılıqda olan bir problem kimi nəzərdən keçirir və onları sistem halında həll etməyə çalışırdı. O, həmişə xüsusi vurğulayırdı ki: “İqtisadi cəhətdən güclü olmayan dövlət özünün müstəqilliyini qoruyub-saxlaya bilməz və dünyada söz sahibi ola bilməz”. Heydər Əliyev transformasiya gedişində iqtisadi siyasətin vahidliyinə, sistemliliyinə, qarşıda duran məqsəd və hədəflərin məntiqi ardıcıllığına, prioritetlərin düzgün seçilməsinə müstəsna əhəmiyyət verirdi. Çünki keçidin ilkin mərhələsində iqtisadiyyatın sabitləşdirilməsi problemlərinin ayrı-ayrılıqda sahələr və istiqamətlər üzrə həlli lazımi səmərəni verə bilməzdi. O, yaxşı bilirdi ki, makroiqtisadi sabitliyə, ancaq ölkə üzrə həyata keçirilən ayrı-ayrı tədbirlər sisteminin qarşılıqlı əlaqə və təsirini gücləndirməklə onların müsbət multiplikativ effektinə nail olmaq olar. Qeyd etmək lazımdır ki, Ümummilli lider bu dövrdə problemlərin həllinə sistemli yanaşma, onların həllinin məntiqi ardıcıllığının gözlənilməsi, tələbkarlıq, yaranmış vəziyyətin operativ qiymətləndirilməsi əsasında yeri gəldikcə ekstrordinar, qeyri-populyar, lakin perspektiv inkişaf baxımından məqsədəuyğun qərarlar da qəbul edirdi.

Ümumən Ulu öndər Heydər Əliyevin bazar iqtisadi sisteminə keçid şəraitində müstəqil milli iqtisadiyyatın formalaşdırılması ilə bağlı həyata keçirdiyi iqtisadi strategiya, zənnimizcə, 5 fundamental prinsipə: birincisi, ölkədə makroiqtisadi sabitləşmənin təmin olunmasına; ikincisi, sistemin transformasiyası ilə bağlı bütün istiqamətlər üzrə əsaslı iqtisadi islahatların aparılmasına; üçüncüsü, bütün səviyyələrdə bazar iqtisadi münasibətlərinin liberallaşdırılmasına; dördüncüsü, ölkədə demokratiyanın və sosial ədalətin bərqərar olunmasına; beşincisi, ölkəmizin strateji milli maraq və mənafelərini qorumaqla dünya iqtisadiyyatına fəal inteqrasiya olunmasına əsaslanır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, hər bir ölkənin təbii sərvəti iqtisadi inkişaf üçün zəmin yaratsa da, onun həlledici şərti kimi çıxış etmir. Nə qədər təzadlı görünsə də, dünyanın zəif inkişaf etmiş ölkələrinin əksəriyyəti təbii ehtiyatlarla zəngin olan ölkələrdir. Ulu öndər belə bir obrazlı ifadəni Azərbaycanın timsalında əməli cəhətdən reallığa çevirdi ki, iqtisadi inkişaf ölkənin malik olduğu resurs üstünlüklərinin reallaşdırılması tarixi deyil, o, əslində, qeyri-münasib şəraitlə mübarizə tarixidir. Belə bir təzad həmin ölkələrdə mövcud iqtisadi potensialın reallaşdırılmasına şərait yaradan səmərəli iqtisadi siyasətin olmamasının nəticəsi kimi qiymətləndirilməlidir. Burada ABŞ-ın keçmiş prezidenti Ruzveltin vaxtilə söylədiyi bir fikri xatırlatmaq istərdik: “ABŞ dövlətinin böyüklüyü və qüdrəti malik olduğumuz sərvətlərlə deyil, bu sərvətlərdən necə istifadə etməyimizlə müəyyənləşir”. Heydər Əliyev də məhz böyük şəxsiyyətlərə xas olan uzaqgörənliklə dünya təcrübəsinə əsaslanaraq neft gəlirlərinin idarə edilməsinin Azərbaycanda ən effektiv modelini yaratdı. Bu model neftin ixracından əldə edilən bütün valyuta gəlirlərinin neft fondunda formalaşması və həmin vəsaitlərdən mərkəzləşdirilmiş qaydada bütünlükdə ölkənin cari və perspektiv sosial-iqtisadi məqsədlərinin reallaşdırılması üçün, şəffaflıq prinsipi tam gözlənilməklə, ondan səmərəli istifadəni nəzərdə tutur. Bu baxımdan

Ulu öndər Heydər Əliyev tərəfindən konseptual əsasları müəyyənləşdirilən və bu gün uğurla reallaşdırılan neft strategiyası Azərbaycanın sistem böhranından çıxmasının, iqtisadisiyasi müstəqilliyinin, təhlükəsizliyinin və sabitliyinin təmin edilməsinin başlıca amil və şərti hesab edilməlidir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanda bazar sisteminə keçid şəraitində milli iqtisadiyyatın formalaşması və inkişafı, bir-biri ilə bağlı və məntiqi ardıcıllığa uyğun olaraq mərhələ-mərhələ reallaşdırılan siyasəti ümumi halda aşağıdakı xüsusiyyətlərlə səciyyələnmişdir: transformasiya şəraitində ölkənin düşdüyü sistemin böhranından çıxmaq üçün, ilk növbədə, çox sərt və bir çox hallarda inzibati prinsiplərə söykənən sabitləşmə siyasəti həyata keçirildi. Həm də, bu zaman böhrandan çıxış tədbirləri işlənib hazırlanarkən gələcək inkişaf üçün zəmin də yaradılmağa başlandı; yeni iqtisadi sistemə keçid bazar iqtisadiyyatının tələblərinə uyğun müvafiq sistemli islahatların aparılmasını və "bazarın oyun qaydalarının" yaradılmasını tələb edirdi.

Bu məqsədlə bazar iqtisadiyyatının normal fəaliyyətinin normativ-hüquqi, qanunvericilik bazası yaradıldı və institusional dəyişikliklər həyata keçirilməyə başlandı; inzibati amirlik sistemindən bazar sisteminə keçidlə bağlı yeni iqtisadi münasibətlər sisteminin formalaşdırılması, o cümlədən sahibkarlıq mühitinin yaradılması, ölkə daxilində bütün istehsal amillərinin sərbəst alqı-satqısı təmin olundu, pul-kredit, maliyyə sistemi və xarici ticarət liberallaşdırıldı; aydındır ki, yeni iqtisadi sistemin formalaşdırılması, iqtisadi proseslərlə yanaşı, cəmiyyətin demokratikləşməsi bütün sosial-iqtisadi münasibətlərin yenidən qurulmasını tələb edirdi ki, bunların da reallaşdırılmasına Azərbaycan Respublikasının yeni Konstitusiyasının yaradılması tam təminat verdi.

Təhlil göstərir ki, Azərbaycan dövləti bütün hallarda liberal və himayədarlıq siyasətlərinin optimal vəhdətdə tətbiqinə cəhd etmiş, başqa sözlə, liberallaşma şəraitində milli iqtisadiyyatın açıqlıq dərəcəsi ilə milli maraqların optimal həddinin gözlənilməsini təmin etmək məqsədilə müvafiq əməli xarakterli konkret iqtisadi siyasət reallaşdırmışdır. Məlumdur ki, hər bir ölkə obyektiv və subyektiv amillərlə şərtlənən iqtisadi davamlılıq potensialına malik olur. Ulu öndər özünün iqtisadi siyasətində belə strateji bir prinsipi əsas tuturdu ki, ölkənin davamlılıq potensialı və inkişafı onun malik olduğu mütləq üstünlüklərlə müəyyənləşsə də, düzgün, optimal, çevik iqtisadi siyasət və onun reallaşdırılması prosesində qlobal, regional, milli maraqları uzlaşdırmaqla cari və perspektiv məqsədlərin həllinin optimal mərhələliyini gözləməklə həmin imkanları kəskin artırmaq olar.

Ümummilli liderimiz Heydər Əliyev milli iqtisadiyyatın formalaşmasında təbii-iqtisadi amillərlə yanaşı, milli mentalitetə, sosial-mənəvi, psixoloji amillərə, onların potensialını düzgün dəyərləndirərək əməli cəhətdən reallaşdırılmasına mühüm əhəmiyyət verirdi. Beləliklə, son illərdə həyata keçirilən iqtisadi islahatların miqyası, dərinliyi və keyfiyyəti imkan vermişdir ki, ölkəmiz bu sahədə artıq dünyada liderlik mövqeyinə çıxsın və özünü yeni bir keyfiyyətdə – islahatçı bir dövlət kimi təqdim etsin. Ulu öndər Heydər Əliyevin milli iqtisadiyyatın formalaşması və inkişafı ilə bağlı formalaşdırdığı iqtisadi siyasətinin mühüm istiqamətini onun neft strategiyası və "Əsrin müqaviləsi"nin bağlanması təşkil edir. Həmin illərdə Ulu öndər Heydər Əliyev tərəfindən işlənən və uğurla həyata keçirilən neft strategiyası Azərbaycanda dərin iqtisadi böhrandan çıxmağın, iqtisadi təhlükəsizliyin və sabitliyin, regional əməkdaşlığın inkişafının, son nəticədə ölkəmizdə sabit və davamlı inkişafın təmin edilməsinin ümumi əsası hesab edilməlidir.

Dövlət Neft Fondunun yaradılması Heydər Əliyevin neft strategiyasının tərkib hissəsi kimi formalaşdırılmışdır (1999-cu il). Hazırda Neft Fondunun şəffaf quruluşu təmin olunmuş, Azərbaycan beynəlxalq şəffaflıq təşəbbüsünə qoşulmuşdur. Neft strategiyası ölkəyə külli miqdarda investisiya axınına, ən yeni texnoloji sistemlər, qurğular, idarəetmə üsulları gətirilməsinə, yüksək əməkhaqqı verilən iş yerlərinin yaradılmasına səbəb olmuşdur. İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirilən varislik və iqtisadi artımın keyfiyyətinin təmin edilməsinə istiqamətlənən neft strategiyası makroiqtisadi səviyyədə büdcə, vergi, pul-kredit, tarif-qiymət, struktur, investisiya siyasətini uzlaşdıraraq onu sosial-iqtisadi inkişafın həlledici

amilinə çevirdi. Heydər Əliyevin bilavasitə rəhbərliyi və fəal iştirakı ilə 1993-cü ilin sonundan başlayaraq respublikamızda intensiv olaraq iqtisadi prosesləri tənzimləməyə dair qanunlar, normativ aktlar qəbul olunmağa başlanıldı. Bu proses, hər şeydən əvvəl, maliyyə sisteminin tənzimlənməsindən başlamışdır. Belə ki, 1993-cü il dekabrın 11-də “Azərbaycan Respublikası milli valyutanın respublika ərazisində yeganə ödəniş vasitəsi elan olunması haqqında”, daha sonra, 17 yanvar 1994-cü ildə “Azərbaycan Respublikasında pul dövriyyəsinin yaxşılaşdırılması üzrə əlavə tədbirlər haqqında”, 1995-ci ilin fevralın 26-da “Azərbaycan Respublikasında milli valyuta tənzimlənməsinin sərbəstləşdirilməsi haqqında”, 24 sentyabr 1996-cı ildə “İqtisadiyyatda qarşılıqlı hesablaşmalarda yaranmış vəziyyətin aradan qaldırılması və maliyyə intizamının möhkəmləndirilməsi haqqında” fərmanlar verilmişdir. Qeyd etmək istərdik ki, bu gün bir çox ölkələrin qlobal maliyyə böhranından çıxmaq məqsədilə qəbul etdikləri qərarlar baxımından həmin tədbirlərin nə qədər zəruri və dahiyanə uzaqgörənliklə müəyyənləşdirildiyi daha aydın görünür.

Qloballaşma şəraitində çağdaş və gələcək nəsillərin maraqları naminə ölkənin malik olduğu bütün resurslardan səmərəli istifadə edərək onların hər vahidi hesabına maksimum son nəticə əldə etməklə davamlı inkişafa nail olunması ölkəmizdə yaxın gələcək üçün müəyyənləşdirilən iqtisadi strategiyanın aparıcı istiqaməti kimi müəyyənləşdirildi. Bütün bu prosesləri dahiyanə uzaqgörənliklə duyan Heydər Əliyev BMT-nin təşəbbüsü ilə 2000-ci ilin sentyabr ayında Nyu-York şəhərində keçirilən “Minilliyin Forumu”ndakı çıxışında davamlı inkişafın təmin olunmasında qloballaşmanın rolunu çox düzgün xarakterizə edərək demişdir: “Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin davamlı inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəlməsinə kömək etməlidir”. Son illərdə sosial-iqtisadi inkişafda böyük nailiyyətlər əldə edən və dünyəvi dövlət quruculuğunu uğurla həyata keçirən Azərbaycanın beynəlxalq nüfuzu getdikcə artır və geostrateji əhəmiyyəti durmadan yüksəlir. O, regionun aparıcı dövlətinə çevrilmiş, onun iradəsi olmadan regionda bu gün heç bir problem həll edilə bilməz. Ümumən, Azərbaycanın milli iqtisadiyyatın formalaşdırılması və inkişafı sahəsində əldə etdiyi uğurlar bir daha əyani sübut edir ki, Ulu öndərin bilavasitə təşəbbüsü, iştirakı və rəhbərliyi ilə formalaşdırılan və həyata keçirilən iqtisadi siyasət mövcud reallıqlar şəraitində ən düzgün, optimal və ən başlıcası isə gələcəyə istiqamətlənmiş alternativi olmayan yeganə bir siyasətdir. Məhz onun rəhbərliyi altında Azərbaycanda dövlətçilik ənənələri qurulmuş, müstəqilliyimiz möhkəmlənmiş, zəruri siyasi-iqtisadi islahatlar aparılmış, demokratik proseslər dönməz xarakter almışdır.

Əbədi prezidentimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkəmizin dövlətçilik tarixində yeni mərhələnin əsasını qoymuş sosial-iqtisadi inkişaf kursu 2003-cü il oktyabrın 31-dən başlayaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən varislik prinsipini əsas götürməklə yaradıcılıqla inkişaf etdirilir.

İlham Əliyevdə siyasi lider üçün zəruri keyfiyyətlərin olduğunu böyük müdrikliklə və dəqiqliklə hiss edən Heydər Əliyev qeyd etmişdir ki, hər bir peşə üçün hansısa genetik qabiliyyət olmalıdır, bu hər kəsdə olmur, onda isə var. “O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyindən ötən dövr ərzində dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, milli sahibkarlığın, milli istehsalın, regionların inkişafı əsasında ölkəmizdə dünyəvi, demokratik-hüquqi dövlətin formalaşdırılması, dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunması, iqtisadi təhlükəsizliyin

möhkəmləndirilməsi, xalqın həyat səviyyəsinin yüksəldilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində gördüyü çoxşaxəli titanik işlər, nəhayət, sosial-iqtisadi inkişafda əldə olunmuş yüksək nəticələr birmənalı sübut edir ki, Ulu öndər öz seçimində əsla yanılmamışdır. Belə ki, son 18 il ərzində Azərbaycanda Milli iqtisadiyyatın dinamık və davamlı inkişafını təmin edilməsi nəticəsində böyük iqtisadi, elmi-texniki, maliyyə, hərbi potensialı, infrastruktura yaradılmış, sosial inkişafda əhəmiyyətli uğurlar əldə edilmiş və bütünlükdə milli iqtisadiyyatın normal və səmərəli fəaliyyətini təmin etmək üçün zəruri islahatlar aparılmış və normativ-hüquqi, qanunvericilik bazası yaradılmışdır.

Bütünlükdə, müstəqillik illərində ölkəmizdə milli iqtisadiyyatın formalaşdırılması və inkişafı sahəsində əldə olunan bütün uğurlar bu illərdə yaradılmış iqtisadi, elmi-texniki, maliyyə, hərbi potensial xüsusən xalqımızın, ordumuzun şücaəti, ali baş komandanın düşünülmüş və uzaqgörən siyasəti və əməli rəhbərliyi nəticəsində Vətən müharibəsində zəfər çalaraq torpaqlarımızı 30 illik düşmən işğalından azad etdi.

Müasir dövrdə torpaqlarımızın işğaldan azad olunması nəticəsində yaranan yeni qlobal və regional şərait və reallıqları nəzərə alaraq növbəti 10 illik üçün ölkə prezidentinin 2 fevral 2021-ci il sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli prioritetlər" təsdiq olunmuşdur ki, bu da əslində əsası ulu öndər tərəfindən qoyulmuş milli iqtisadiyyatın inkişaf konsepsiyasının müasir dövrdə İlham Əliyev tərəfindən yaradıcılıqla davamı kimi qiymətləndirilməlidir.

# BÖLMƏ 1

# AZƏRBAYCAN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ

1. **i.e.d., prof. Novruzov Vahid Tapdıq oğlu, if.d. Əsgərova Fidan Əlinazim q**. "Heydər Əliyevin iqtisadi siyasətində şəffafliq amili"(Azərbaycan Respublikası Auditorlar Palatası)
2. **i.e.d., prof. Babayev Əlican  Pirican oğlu.**"Elm və təhsilin böyük himayədarı". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
3. **i.e.d., prof. Əhmədov Məhiş Alış oğlu. "**Ulu öndər Heydər Əliyev Azərbaycanda milli iqtisadiyyatın formalaşması və inkişafı konsepsiyasının banisidir". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
4. **i.e.d., prof. Nəbiyev Rasim Əmir oğlu. "**Heydər Əliyevin neft strategiyası müstəqil milli iqtisadiyyatın formalaşmasının əsasıdır".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
5. **i.e.d, prof. Əliyev Ümüdvar Qənbər oğlu. "**Heydər Əliyevin iqtisadi inkişaf strategiyası Azərbaycanın " uğur" modelinin əsasıdır". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
6. **i.e.n., dos. Məmmədov Akif Bəylər oğlu.**"Milli iqtisadiyyat və strateji yol xəritəsi aspektində onun formalaşmasi və inkişafi".Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
7. **Nadirova Aytən İlham qızı.** "Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatin formalaşmasi". (Mingəçevir Dövlət Universiteti)
8. **Niftəliyev Nazim Fazil oğlu. "**Heydər Əliyev və Azərbaycan milli iqtisadiyyatının inkişaf strategiyası". (Mingəçevir Dövlət Universiteti)
9. **dos. Aslanova Müslümə Maqsud qızı, dosent Balabəyova Nərminə Şıxəmməddin qızı.** "Azərbaycanın iqtisadi inkişaf strategiyasında Heydər Əliyev ideyaları". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
10. **i.e.n., dos.Əmirova Fəridə Şamil qızı.** "Heydər Əliyev siyasəti ölkəmizin qazandiği uğurlara və davamli iqtisadi inkişafa açilan yoldur". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
11. **i.f.d.,dos. Hümbətəliyeva Səadət Əsgər qızı, i.f.d. Rüstəmova Gülbəs Rəsul qızı.**"Müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında Heydər Əliyevin rolu". (Sumqayıt Dövlət Universiteti)
12. **i.f.d. Fərəcova Dilbər Daşdəmir qızı** "Heydər Əliyev Azərbaycanın iqtisadi inkişaf strategiyasının banisidir". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
13. **müəl. Abbasova Sevda İsmayıl qızı.**"Ulu Öndər Heydər Əlivev və Azərbaycan  milli iqtisadiyyatın formalaşması". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
14. **Quliyeva Aysel Əlican qızı. "**Ümumdünya böhranının nəticələrinin aradan qaldırılması kontekstində Azərbaycan iqtisadi modelinin inkişafında elm vətəhsil amillərininrolunun artması". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
15. **Nadirova Aytən İlham qızı. "**Heydər Əliyev Azərbaycan milli iqtisadiyyatın formalaşması" (Mingəçevir Dövlət Universiteti)
16. **r.f.d. Mustafayeva Esmira Musaifovna, Faiq Nağıyev Rəfail. "**Heydər Əliyevin inkişaf strategiyası" (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
17. **Zeynalov Anar Abbas oğlu. "**Post-neft mərhələsində Azərbaycanda innovasiya əsaslı iqtisadi inkişafın təmin edilməsinin əsas istiqamətləri". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)

**i.e.d., prof. Novruzov Vahid Tapdıq oğlu**
*Azərbaycan Respublikası Auditorlar Palatasının sədri*

**i.f.d. Əsgərova Fidan Əlinazim qızı.**
*Azerbaycan Dövlət İqtisad Universitetinin (Rus İqtisad Məktəbi)*
*"İqtisadiyyat" kafedrasinin baş müəllimi*
audit-azerbaijan@audit.gov.az

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ SİYASƏTİNDƏ ŞƏFFAFLIQ AMİLİ

**Xülasə**

Ölkə iqtisadiyyatında yüksək şəffaflığa nail olunmasının istiqamətlərindən biri kimi beynəlxalq standartların tətbiqi zərurəti xüsusi qeyd olunmalıdır. Bu zaman beynəlxalq standartlar dedikdə, istər beynəlxalq maliyyə hesabatı standartları, istər beynəlxalq mühasibat uçotu və audit standartları, istərsə də beynəlxalq nəzarət prosedur və qaydaları əhatə olunmalıdır. Bütün bunlar möhtərəm Prezidentimizin diqqətində olan və təxirəsalınmaz həllini gözləyən məsələlərdir.

Ulu öndər Heydər Əliyevin iqtisadi siyasətində mühüm yer tutan, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, söylədiyi proqram xarakterli nitqlərdə həlli vacib mühüm vəzifə kimi qarşıya qoyulan maliyyə nəzarəti və şəffaflıq problemləri ilə bağlı məsələlərin tam həcmdə yerinə yetirilməsi ölkəmizdə sosial-iqtisadi münasibətlərin daha sağlam əsaslar üzərində formalaşmasına, iqtisadi-maliyyə fəaliyyətində şəffaflığın tam təmin edilməsinə şərait yaradan ciddi amilə çevriləcəkdir.

**Açar sözlər:** Şəffaflıq, milli audit, iqtisadi innovasiya.

Şəffaflığın artırılması ulu öndərimiz Heydər Əliyevin dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuşdur.

Azərbaycan cəmiyyətində şəffaflığın bərqərar olunması sahəsində Prezidentin “İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə” 1996-cı il 17 iyun tarixli fərmanı və “Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında” 1998-ci il 27 yanvar tarixli sərəncamı da xüsusi qeyd olunmalıdır.

Ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilən bu dövlət sənədləri bazar münasibətlərindən irəli gələn yeni növ cinayətlərin aradan qaldırılmasında mühüm rol oynadılar. Xarici ölkələrə milyardlarla manat məbləğində mal göndərilib haqqının ödənilməməsi, ayrı-ayrı adamların belə vəziyyətdən istifadə edərək dövlətin, xalqın vəsaitini mənimsəməsi, idxal əməliyyatlarından respublikaya gəlməli olan vəsaitlərin başqa ölkələrin banklarında “ilişib” qalması və s. Heydər Əliyevin kəskin etirazına səbəb olurdu.

1990-cı illərin sonlarında qəbul edilmiş digər bir sıra fərman və sərəncamlarda da auditin inkişafı dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi dəyərləndirilmiş və milli auditin qarşısında yeni vəzifələr qoyulmuşdur. Məhz həmin vəzifələrin həllinə nail olmaq üçün 1998-1999-cu illərdə Azərbaycanda auditin ilk inkişaf konsepsiyası işlənib hazırlanmış, bazar iqtisadiyyatının bu mühüm infrastruktur sahəsinin inkişaf prioritetləri müəyyənləşdirilmişdir. Azərbaycanda müstəqil auditin təşəkkülü dövrü də həmin illərə təsadüf edir.

Qeyri-qanuni yollarla mənimsənilmiş pulların leqallaşdırılmasına və digər cinayətlərin törədilməsinə əlverişli şərait yaradan halların qarşısını almaq tədbirlərinə dair dövlət proqramının təxirə salınmadan hazırlanmasını tələb edən Heydər Əliyev cəmiyyətimizdə şəffaflığın artırılması istiqamətində ardıcıl mübariz olduğunu bir daha sübut etdi.

Araşdırmalar göstərir ki, bu cür neqativ və cəmiyyət üçün təhlükəli vəziyyət ölkəmizdə 1995-ci ilədək müşahidə edilmişdir. Memarı ulu öndərimiz Heydər Əliyev olan və ölkəmizdə uğurla həyata keçirilən cəsarətli iqtisadi islahatlar konsepsiyası reallaşdırılarkən şəffaflıq üçün zəruri olan və idarəetmənin mühüm vəsiləsi olan nəzarətin beynəlxalq praktikaya uyğun şəkildə yenidən qurulması mühüm əhəmiyyət kəsb edirdi. Məhz elə buna görə ulu öndərin imzaladığı vergitutmaya və maliyyə nəzarətinə dair silsilə qanunlarla ölkəmizdə şəffaflığın hüquqi təminatının əsası qoyulmuşdur.

Azərbaycan Respublikasının müstəqil, demokratik inkişaf yoluna qədəm qoymasından sonra ölkədə həyata keçirilən radikal iqtisadi islahatlar və idarəetmə sisteminin təkmilləşdirilməsi, xəzinədarlıq sisteminin yaradılması, nazirlik, komitə və başqa mərkəzi icra hakimiyyəti orqanlarında mövcud olan nəzarət-təftiş qurumlarının ləğv olunması, dövlət orqanlarına onların öz səlahiyyətlərinə aid olmayan yoxlamalar aparılmasının qadağan edilməsi və bu istiqamətdə ardıcıl şəkildə həyata keçirilən digər məqsədyönlü tədbirlər ölkədə beynəlxalq standartlara cavab verən maliyyə nəzarəti sisteminin qurulmasını zərurətə çevirdi və maliyyə nəzarətinin bütün dünyada geniş yayılmış, mütərəqqi forması olan auditin (auditor xidmətinin) Azərbaycanda da tətbiqi həyati tələbata döndü.

Məhz bu baxımdan "Auditor xidməti haqqında" Qanunun qəbul olunması və Auditorlar Palatasının yaradılması ümummilli liderimiz Heydər Əliyevin demokratik dünya dəyərlərinə sədaqətinin, bazar iqtisadi infrastrukturları sistemində auditə verdiyi dəyər və əhəmiyyətin parlaq təzahürü idi.

Biz fəxr edirik ki, ölkəmizdə auditin yaranması və bərqərar olması Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin, inkişafı və beynəlxalq arenaya çıxması isə Prezident İlham Əliyevin adı ilə bağlıdır. Çünki dünyanın heç bir ölkəsində belə mükəmməl hazırlanmış uzunömürlü, beynəlxalq maliyyə qurumları və xarici həmkarlarımız tərəfindən yüksək dəyərləndirilmiş və dünyada getdikcə model qanun səviyyəsində qəbul edilməyə başlamış nə audit qanunvericiliyi mövcud deyildir, nə də ki, heç bir ölkədə auditorlar ölkə Prezidenti tərəfindən bizlərə göstərilən diqqət və qayğı səviyyəsində dəstəklənmirlər.

Bunun bariz nümunəsi kimi Auditorlar Palatasının üzvləri və əməkdaşlarının yüksək dövlət təltiflərinə layiq görülməsi ölkə auditorlarını bir daha ruhlandırmaqla bərabər, üzərimizə düşən vəzifələri yeni dövrün çağırışları tələbindən daha məsuliyyətlə işləməyə sövq edir.

Azərbaycanda auditin keyfiyyətcə yeni inkişaf mərhələsi 2003-cü ildən indiyə qədərki dövrü əhatə edir. Məhz bu dövrdə auditin hüquqi qanunvericilik bazası təkmilləşdirilmiş, audit ölkənin iqtisadi və ictimai həyatında möhkəmlənmiş, Azərbaycan auditinin beynəlxalq qurumlar tərəfindən tanınması və xarici əlaqələrinin güclənməsi baş vermişdir və bu sahədə iş indi də davam etdirilməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, «Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir», çünki «audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət edir».

Azərbaycan Respublikasının uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində sərmayələrin cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Özəl sərmayələrin dəstəyinə nail olmaq əlverişli sərmayə mühitinin yaxşılaşdırılması, şəxsi mülkiyyətin qorunması və korporativ idarəetmənin təkmilləşdirilməsi, mülkiyyət formasından asılı olmayaraq, bütün sərmayədarlar üçün daha əlverişli rəqabət mühitinin yaradılması, sərmayə fəaliyyətinin normativ hüquqi bazasının daha da təkmilləşdirilməsi, sərmayə axınının qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsi ölkə Prezidentinin iqtisadi siyasətində prioritet məsələlərdir.

Həmçinin, Azərbaycan Respublikasının tranzit ölkə kimi potensialının gücləndirilməsinə, müasir texnologiyaların ölkəmizə gətirilməsinə və informasiya-telekommunikasiya sistemlərinin inkişafına xüsusi önəm verilir.

Belə bir şəraitdə ölkəmizdə uğurla həyata keçirilən islahatlar kontekstində iqtisadi inkişafın sürətləndirilməsi və onun səmərəliliyinin yüksəldilməsi, resurslardan səmərəli istifadənin təmin olunması, bu məqsədlə bütün növ məsrəflərin və əldə edilmiş nəticələrin uçotunun düzgün qurulması, istehsal proseslərinin və əldə edilən nəticələrin hərtərəfli təhlili və onların hesabatda doğru-düzgün əks etdirilməsi və mövcud nəzarət və hesabatlılıq sisteminin təkmilləşdirilməsi iqtisadi inkişafın təminatverici bir amili kimi diqqət çəkir.

Son illərdə ölkəmizə mühasibat uçotunun və hesabatlığın islahatına, auditin və maliyyə nəzarətinin beynəlxalq standartlara uyğun qurulmasına xüsusi diqqət yetirilməsi də müəyyən mənada bu amillə əlaqədardır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək: «Biz bütün maliyyə sistemində şəffaflığı təmin etməliyik və belə olan halda, Azərbaycanda həm korrupsiyanın aradan qaldırılması məsələsi öz həllini tapa bilər, həm də xərclər Azərbaycanın iqtisadiyyatının inkişafına daha məqsədyönlü şəkildə xidmət göstərə bilər». Bu istiqamətdə həyata keçirilən tədbirlərin əsas qayəsi Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını, beynəlxalq mühasibat və uçot standartlarının və beynəlxalq audit standartlarının ölkəmizdə reallaşmasına zəmin yaratmaqdan ibarətdir.

Fəaliyyət göstərdiyi ilk illərdən etibarən Auditorlar Palatasının çoxşaxəli fəaliyyətində mühüm yer tutan təbliğat və nəşr işləri də həm sahibkarlıq fəaliyyətinin bir növü olan auditor xidmətinin təbliğinə, dövlətin maliyyə-iqtisadi fəaliyyətinin həyata keçirilməsi, iqtisadi demokratiyanın genişləndirilməsi və ölkədə maliyyə şəffaflığının bərqərar edilməsi vəzifələrinin həllində auditin yeri və rolu barədə dolğun təsəvvürlərin formalaşmasına, cəmiyyət tərəfindən auditin idarəetmə prosesində nəzarət-analitik infrastruktur kimi qəbul edilməsinə yardımçı olmaq, həm də auditor kadrlarının hazırlanması və onların peşə-ixtisas səviyyəsinin, auditor peşəsinin nüfuzunun yüksəldilməsinə kömək etmək məqsədi güdür.

Azərbaycanda auditin iyirmi beş illik inkişaf təcrübəsi audit sistemində bəzi məsələlərin də təxirə salınmadan həllini zəruri edir.

Bazar infrastrukturu olmaq etibarilə milli iqtisadiyyatın, ilk növbədə də sahibkarlığın inkişafına töhfəsini daha da artırmaq üçün auditor xidmətinin daha geniş anlamda qəbul edilməsi, həmin anlayışa sifarişçilərə iqtisadi strategiyaya dair məsləhət və tövsiyələr verməkdən tutmuş optimallaşdırma məsələlərinə qədər əhatəli bir xidmət sahəsinin daxil edilməsi tələb olunur. Beynəlxalq audit praktikasında istifadə olunan fəaliyyət növlərinin və metodlarının geniş tətbiqi ölkəmizdə auditin təşkilinin əsas istiqamətləri kimi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında auditin dünya standartları səviyyəsində təşkili ona yalnız mühasibat uçotu kontekstində baxılmasını yox, idarəetmə prosesində nəzarət-analitik infrastruktur elementi kimi qəbul edilməsini tələb edir.

Müasir şəraitdə Azərbaycanın innovativ iqtisadiyyatında auditin inkişaf xüsusiyyətlərinin öyrənilməsi, keyfiyyətli uçot və auditin formalaşdırılması problemlərinin, onların həlli yollarının aşkara çıxarılması böyük rol oynayır.

Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının Auditorlar Palatasında 2019-cu ildə "Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiya" işlənib hazırlanmış və həmin Konsepsiyanın tətbiqinə başlanmışdır.

İqtisadiyyatımızın davamlı və səmərəli inkişafı, rəqabətqabiliyyətliliyin yüksədilməsi ilə bərabər sosial və iqtisadi innovasiyanın genişləndirilməsi, qabaqcıl informasiya və kosmik texnologiyaların tətbiqi ölkəmizi nəinki regional liderə çevirmiş, həm də getdikcə dünyada şiddətlənən qlobal risklər və iqtisadi-maliyyə böhranlarına rəğmən iqtisadiyyatımızın davamlı inkişafına zəmin yaratmışdır. Təbii ki, bu uğurun qazanılmasında Azərbaycan Prezidentinin böyük ustalıqla və uzaqgörənliklə reallaşdırdığı fəal çoxvektorlu, bərabər partnyorluq prinsiplərinə əsaslanan xarici və daxili siyasəti müstəsna əhəmiyyətə malikdir.

Məhz bu baxımdan müasir şəraitdə digər sahələrdə olduğu kimi, auditdə və hesabatlılıqda ən cəlbedici müzakirə obyektlərindən biri də qabaqcıl texnologiyaların və süni intellektin üstünlüklərindən istifadə, düşünülməmiş, qəfil tətbiqinin isə fəsadlarının neytrallaşdırılması təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti  cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatlar, o cümlədən sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, kölgə iqtisadiyyatının azaldılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsi Azərbaycanda dayanıqlı və inklüziv iqtisadiyyatın durmadan inkişaf  etməsi üçün zəmin yaradır. Sosial-iqtisadi islahatların mühüm amillərindən biri olan şəffaflığın təmin olunması istiqamətində müstəqil audit də özünəməxsus  rol oynamaqdadır.

Ölkə Prezidentinin göstərişlərini rəhbər tutaraq, audit sahəsində mütərəqqi dünya təcrübəsinin öyrənilməsi və ölkəmizdə tətbiqi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəticəsində Auditorlar Palatasının beynəlxalq əlaqələrinin coğrafiyası və əhatə dairəsi kifayət qədər genişlənmiş, beynəlxalq təşkilatların keçirdiyi tədbirlərdə Azərbaycan auditorlarının iştirakı intensiv xarakter almış və audit sahəsində xarici ölkələrin iş təcrübəsinin öyrənilməsi, müvafiq ədəbiyyatın və digər yardımçı materialların əldə edilməsi, əməkdaşlıq ünsiyyəti imkanlarının çoxalması üçün möhkəm zəmin yaradılmışdır. Məhz bunun nəticəsidir ki, Auditorlar Palatası 40-dan artıq ölkənin audit və mühasibatlıq təşkilatları ilə əməkdaşlıq sazişləri, niyyət protokolları və memorandumlar imzalamış və bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Beynəlxalq Mühasiblər Federasiyası (IFAC), Avropanın Mühasiblər və Auditorlar Federasiyası (EFFA), Mühasiblərin və Auditorların "Avrasiya" Beynəlxalq Regional Federasiyası kimi nüfuzlu beynəlxalq audit və mühasibatlıq qurumlarına tam hüquqlu üzv qəbul olunmuşdur.

Hazırda Palatanın nüfuzlu peşə qurumlarında - Beynəlxalq Mühasiblər Federasiyasında (IFAC), Mühasiblərin və Auditorların "Avrasiya" Beynəlxalq Regional Federasiyasında, Avropa Mühasiblər və Auditorlar Federasiyasında (EFAA), Sertifikatlı Mühasiblərin və Auditorların Avrasiya Şurasında tamhüquqlu üzv kimi təmsilçiliyi, habelə İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA), Rusiya Federasiyası, Çin, Böyük Britaniya, Türkiyə, Rumıniya, Macarıstan, Polşa, Slovakiya, Ukrayna, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Estoniya, Litva, Latviya, Moldova, Belarusiya, Makedoniya, Monteneqro, Bolqarıstan və digər ölkələrin audit və mühasibatlıq qurumları ilə əməkdaşlıq barədə saziş və niyyət protokollarının imzalanması, intensiv işgüzar əlaqələrin qurulması Azərbaycan auditorlarının peşə-ixtisas səviyyəsinin müntəzəm olaraq təkmilləşdirilməsi sahəsində də böyük işlər həyata keçirilir.

Ötən illər ərzində Azərbaycan auditorları ölkə Prezidenti tərəfindən daim diqqət və dəstək görmüşlər.

Belə ki, Azərbaycan auditorları ölkə Prezidentinin "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununun Ulu öndər tərəfindən imzalanmasının 10 illiyi ilə əlaqədar keçirilən "Keçid iqtisadiyyatı ölkələrində auditin inkişaf problemləri" beynəlxalq elmi-praktik konfransının iştirakçılarına 2004-cü il 14 sentyabr tarixində, Auditorlar Palatasının fəaliyyətə başlamasının 10 illiyi münasibətilə Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivinə və üzvlərinə 2006-cı il 4 aprel tarixində, Auditorlar Palatasının fəaliyyətə başlamasının 20 illiyi münasibətilə Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivinə və üzvlərinə 2016-cı il 4 aprel tarixində və təşkilatçılarından biri Auditorlar Palatası olan "Azərbaycan iqtisadiyyatının strateji yol xəritəsi, hesabatlılıq və şəffaflıq problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın iştirakçılarına 2017-ci il 22 sentyabr tarixində ünvanladığı təbrik məktublarından irəli gələn proqram xarakterli vəzifələrin icrası Azərbaycan auditorlarına öz fəaliyyətlərini ölkəmizdə şəffaflığın təmin edilməsinə və daha da artırılmasına, kölgə iqtisadiyyatının aradan qaldırılmasına, maliyyə və vergi intizamının gücləndirilməsinə, yeni dövrün çağırışlarına uyğun olaraq, iqtisadi islahatların indiki mərhələsində audit sistemini yenidən qurmasına zəmin yaratmışdır.

Bununla belə, Azərbaycanda müstəqil auditin qarşısında duran problemlər yeni dövrün çağırışları nəzərə alınmaqla müasir və dünya təcrübəsinə əsaslanan yanaşmanın tətbiqini ön plana çəkir.

Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən hazırlanan 2021-2030-cu illəri əhatə edəcək auditin üçüncü inkişaf konsepsiyası Azərbaycanda auditor fəaliyyətinin müasir vəziyyəti və onun inkişafına mane olan əsas problemlər, auditor xidmətinin keyfiyyət problemləri, auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə, auditor xidmətlərinə tələbatın və ictimai etimadın yüksəldilməsini, eləcə də, qabaqcıl xarici təcrübənin tətbiqi və beynəlxalq peşəkar qurumların fəaliyyətində milli auditin iştirakının genişləndirilməsini, rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətlərini (konseptual əsasları), auditor kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsini, auditor xidməti bazarında tənzimləmə və təşkilin inkişaf istiqamətlərini, auditor fəaliyyətinin normativ hüquqi təminatının yaxşılaşdırılmasını və 2030-cu ilə qədər Azərbaycanda auditor fəaliyyətinin inkişafının konseptual istiqamətlərini özündə əks etdirir.

Bu Konsepsiyanın məqsədi yalnız şəffaflıq, hesabatlılıq və audit sahəsində üzləşdiyimiz ciddi və bəzən də gözlənilmədən meydana çıxan çətinliklər və problemlərin həllinə reaksiya vermək yox, daha çox gələcəkdə yarana biləcək problemlərin qarşısını almaq üçün konseptual yanaşmanı təmin etməkdir. Başqa sözlə, biz qarşımıza statik tədbirlərin hazırlanmasını yox, dinamik, çevik və gələcəyə hesablanmış tövsiyə və proqramların müəyyən edilməsini məqsəd qoymuşuq.

Konsepsiyada ehtiva olunan əsas istiqamətlərin reallaşdırılması, ölkənin qanunvericilik aktlarına müvafiq dəyişikliklərin edilməsi, zəruri tənzimləyici aktların işlənib hazırlanması və nəşri, kompleks təşkilati, təhsil, maarifləndirmə, informasiya təminatı üzrə tədbirlərin həyata keçirilməsi vasitəsilə nəzərdə tutulur.

Azərbaycan Respublikasında Kölgə iqtisadiyyatının azaldılmasına dair Yol Xəritəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə kölgə iqtisadiyyatına qarşı mübarizənin gücləndirilməsi, şəffaflığın artırılması, ictimai nəzarətin gücləndirilməsi, korrupsiyaya qarşı kəsərli tədbirlərin həyata keçirilməsi və yeni dövrün çağırışlarını nəzərə alaraq nəzarətin beynəlxalq təcrübə əsasında yenidən qurulması üzrə göstəriş və tövsiyələrinin reallaşdırılması məqsədilə Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən hazırlanmışdır. Yol Xəritəsi qabaqcıl beynəlxalq təcrübə, son dövrlərdə ölkəmizdə uğurla həyata keçirilən şəffaflıq strategiyasının nəticələri, 2019-cu ilin sentyabr ayında Bakı şəhərində keçirilmiş "Kölgə iqtisadiyyatına qarşı mübarizə - iqtisadi inkişafın mühüm amili kimi” beynəlxalq elmi-praktik konfransın iştirakçıları tərəfindən təklif olunan tövsiyələr nəzərə alınmaqla hazırlanmışdır.

## ƏDƏBİYYAT

1. “Heydər Əliyev.Müstəqilliyimiz əbədidir” (14,15,16). Bakı: 2005, “Azərnəşr”.

2. Keyfiyyətə nəzarət, audit, təhlil, digər təsdiqləmə və əlaqəli xidmətlər üzrə Beynəlxalq Standartlar Toplusu (I-II cild). Bakı: 2016-2017-ci illər nəşri. Azərbaycan Respublikası Auditorlar Palatası.

**i.e.d., prof. Əlican Pirican oğlu Babayev**

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)*
*"İqtisadi nəzəriyyə" kafedrasının müdiri*
*ababayev@rambler.ru*

## ELM VƏ TƏHSİLİN BÖYÜK HİMAYƏDARI

Hər bir insan ömrünü həyatı boyu özünəməxsus xatirələr müşayiət edir. Xatirələr dünənlə bu gün arasında körpü rolu oynamaqla yanaşı, onları yaşadan, konkret olaraq bir insanın həyatını mənalandıran, kimliyini müəyyən edən, Əmənəvi aləmini, könül dünyasını dəyərləndirən bir meyardır. Xatirələr müxtəlif @olur. Elə xatirələr var ki, bütün ömür boyu insanın yol yoldaşı olur. Yaddaşından nəinki silinmir, əksinə, hər dəfə yada salanda daxili bir qürur hissi, xoş rahatlıq, məmnunluq hissləri keçirir, təkrar-təkrar həmin unudulmaz anları xatırlamaqdan doymursan. Hətta bu xatirələri başqa insanlarla da bölüşmək, öz sevincli anlarından onlara da bəxş etmək istəyirsən.

Xoşbəxtlikdən həyatımda belə xatirələr çox olmuşdur. Əlbəttə, hər birinin öz yeri, öz dəyəri olan həmin xatirələr sırasında ulu öndər Heydər Əliyevlə bağlı görüşlərim indiyədək yaşanmış illərimin ən qiymətlisi, unudulmazıdır. Hazırda ömrünün ahıl çağlarını yaşayan yaşıdlarımın ilk gənclik dövrü ötən əsrin 60-cı illərinin sonu,70-ci illərinin əvvəlinə təsadüf edir. Bunu ona görə xüsusi qeyd edirəm ki, həmin illərdə oxumaq, ali təhsil almaq arzusunda olan gənclərin üzünə sanki bəxt günəşi doğdu. 1969-cu ilin iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi təyin edilən Heydər Əlirza oğlu Əliyev respublikanın hər sahəsində olduğu kimi, ali təhsil sahəsində də elə ilk günlərdən köklü dəyişikliklər etməyə başladı. Təsadüfi deyildir ki, 1969-cu il 5 avqust tarixli məşhur plenumda ən çox tənqid hədəfi olan sahələrdən biri də məhz ali təhsil müəssisələrində mənəvi iqlimin sağlamlaşdırılması və neqativ halların aradan qaldırılması yollarının təhlili olmuşdur.

1969-cu ilin avqustundan etibarən respublika rəhbərliyi azərbaycanlı gənclərin kənarda təhsil alması işi ilə ciddi məşğul olmağa başlayarkən, ali məktəblərimiz də var idi, bunlarda kadrlar da hazırlanırdı. Ancaq nə üçün bu sahəyə belə ciddi fikir verilir və buna mühüm bir iş kimi baxılırdı? Özü də bu işlə Azərbaycanın məhz rəhbəri məşğul olurdu? Bunun bir sıra səbəbləri var idi. Birincisi, ona görə ki, bir çox zəruri ixtisaslar üzrə Azərbaycan ali məktəblərində mütəxəssislər hazırlanmırdı.

Ötən əsrin təxminən 40-50-ci illərində respublikada ali məktəblər şəbəkəsi yaranandan sonra Azərbaycan ictimayyətində yalnız öz respublikasında, öz şəhərində yaşamaq, təhsil almaq meylləri əvvəlki dövrə nisbətən müəyyən qədər artmışdı. Bu meyil dövr üçün heç də təqdirolunası hal deyildi. Azərbaycan gənclərinin məhdud çərçivədən çıxıb dünyaya daha geniş gözlə baxmaq yolunun vaxtı çoxdan çatmışdı.

Respublikadan kənarda təhsil almağın üstün cəhətlərindən biri də elmlərə yiyələnməklə bərabər, dünyamiqyaslı dillərdən olan rus dilini mənimsəməklə daha da zənginləşməyin mümkünlüyüdür. Hər hansı elm adamı üçün digər dilləri bilmək yalnız fayda gətirə bilər və bu, olduqda zəruridir. Başqa-başqa şəhərlərin çoxlu sayda ali məktəblərində hər il üst-üstə bir ali məktəbin hazırlayacağı sayda tələbələrin oxuması da respublikamıza səmərə gətirirdi. Sonralar bunu Moskvada da hiss etmişdilər. Onlar görürdülər ki, Azərbaycan ərazisində olmayan, ancaq respublikamız üçün kadr hazırlayan yeni ali məktəb yaradılır. Mərkəz buna çox qısqanclıqla yanaşırdı.

Statistika göstərir ki, ötən əsrin 70-ci illərinə qədər Cənubi Qafqaz respublikaları arasında azərbaycanlıların SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almalarına süni maneələr yaradılır,müəyyən limit qoymaqla onların həmin ali məktəblərə qəbulu məhdudlaşdırılır, bu maneələri aşan soydaşlarımızın isə bir qayda olaraq əsasən ədəbiyyat, musiqi vəs. sahələri üzrə təhsil almalarına izin verilirdi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonra isə bu istiqamətdə ciddi irəliləyişlər nəzərə çarpmağa başladı. 70-ci illərin əvvəllərindən

başlayaraq, hər il yüzlərlə azərbaycanlı İttifaqın ən nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, diplomatiya, texniki və s. kimi mühüm elm sahələrinə təhsil almağa göndərilirdi. Bu siyasət Heydər Əliyev tərəfindən Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn cəsarətli addımlar idi. 1970-1980-ci illərdə Azərbaycanda ali təhsil müəssisələrinin sayı 1969-cu illə müqayisədə 12-dən 17-yə, təhsil alanların sayı isə 70 mindən 100 minə yüksəlmişdi. Ümumiyyətlə, 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, çoxlu ixtisaslar üzrə kafedralar, problem laboratoriyaları açılmışdı.

Ulu öndər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafı yolundakı böyük xidmətlərindən biri də keçmiş SSRİ-nin 170-dən çox məşhur ali məktəbində respublikamızın xalq təsərrüfatı, elm, təhsil və mədəniyyətin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssilər kimi hazırlanmasına imkan və şərait yaratmasıdır. 1969-1970-ci dərs ilində respublikadan kənara 60 nəfər plana qarşı vur-tut 47 nəfər təhsil almağa göndərilmişdirsə, bu rəqəm 1975-ci ildə 14 dəfədən də çox artaraq 700 nəfərə yaxın olmuşdur. 1975-ci ildən başlayaraq gənclərin respublikadan kənara təhsilə göndərilməsi daha da intensiv xarakter almış, 1978-ci ildən respublikadan kənara hər il 800-900 tələbə göndərilməsinə nail olunmuşdu. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların sayı 1970-ci ilədək 40 faiz təşkil edirdisə, 1976-cı ildə göndərilənlər içərisində bu rəqəm 85, 1977-ci ildə 92, 1980-ci illərin əvvəllərində isə 97.6 faizə yüksəlmişdi. Əlbəttə, bunlar heç də asanlıqla edilməmişdi. Başqa respublikalarla müqayisədə hər il Azərbaycanın limitinin artırılması bilavasitə Heydər Əliyevin qətiyyətli siyasətinin, yorulmaz fəaliyyətinin nəticəsi idi.

1969-cu ildən 1982-ci ilədək elə bir il olmurdu ki, ənənəvi avqust görüşləri ulu öndərin o zamankı qısamüddətli yay istirahət dövrünə düşməsinə baxmayaraq, o, bu görüşlərdən kənarda qalmır, istirahətini yarımçıq qoyaraq Bakıya gəlir, tələbələrin görüşündə şəxsən iştirak edirdi. O, bu görüşlərdə hər bir çıxışı diqqətlə dinləyir, tələbələrin arzu və təkliflərinə qulaq asır, təhsilləri, hətta şəxsi həyatları ilə maraqlanır və nəhayət, nitq söyləyirdi. Həmin nitq isə qarşıdakı dərs ilinin fəaliyyət proqramına çevrilirdi.

Həmin illərdə Azərbaycandan kənarda təhsil alan gənclərdən biri kimi özümü ulu öndərə daim borclu sayıram. Ümumilli liderin yaratdığı şəffaf mühit nəticəsində 1973-cü ildə tələbə adını qazana bildim. D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna (indi Azərbaycan Dövlət İqtisad Universiteti adlanır) daxil oldum. Dərs əlaçısı olduğumu nəzərə alaraq məni Azərbaycan KP MK-nin göstərişi ilə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin iqtisad fakültəsinə köçürdülər. Elə dahi şəxsiyyətlə olan görüşlərim də tələbəlik illərinə təsadüf edir. 1977-ci ildə-sonuncu kursda oxuyarkən indiki Heydər Əliyev adına Sarayda tələbə-gənclərlə respublika partiya və hökumət rəhbərlərinin iştirakı ilə keçirilən ənənəvi görüşdə əlaçı tələbə kimi çıxış etdim.

Əvvəlki görüşlərdə olduğu kimi, dahi rəhbərin nitqi bu tədbirdə də diqqətlə dinlənildi. Həqiqətən, unudulmaz anlar idi: görüş iştirakçılarının hər biri bu tarixi məqamları yaddaşına əbədi həkk etməyə çalışırdı. Ulu öndərin həmin nitqindən bəzi hissələri hələ də xatırlayıram: "Xüsusi razılıq hissi ilə deməliyəm ki, ölkənin Moskva, Leninqrad və başqa şəhərlərinin ali məktəblərinə kənd yerlərindən daxil olan oğlan və qızların sayı durmadan artır və həmin ali məktəblərdə indi əslində, bütün respublika təmsil olunmuşdur".

...Asudə vaxtın təşkili, ondan istifadə problemləri hər bir tələbə üçün mühüm problemdir. Yadda saxlayın ki, istirahət, asudə vaxt heç də boş-bekar gəzmək demək deyildir, vaxtı hədər keçirmək demək deyildir. Fəal istirahət mütaliə etmək, turist yürüşlərinə çıxmaq, idmanla məşğul olmaq, sərgilərə və muzeylərə getmək deməkdir. Bütün bunlar uzun illər boyu tükənməyən və kara gələn qiymətli sərvətdir. Əksinə, gənclik illərində itirdiyimiz vaxtı qaytarmaq, bilik, təsərrüfat kəsirinin yerini sonradan doldurmaq mümkün deyildir.

Bu tövsiyələrin söyləndiyi vaxtdan təxminən 44 il ötür. Amma hələ də öz aktuallığını itirməyən bu müdrik fikirlərdən zaman-zaman bəhrələnmək mümkündür. Həmin illərdə ənənə halını almış avqust görüşlərinin hansı birinin sənədlərini, dərc olunmuş mətnləri, xüsusilə,

xalqımızın böyük oğlunun tələbələrə müraciətlə söylədiyi nitqini nəzərdən keçirsəniz, belə diqqətə layiq müdrik məsləhətlərə, tövsiyələrə rast gələ bilərsiniz.

Dahi şəxsiyyətlə ikinci görüşümüz isə onun 75 illik yubiley tədbirinə təsadüf edir. 1998-ci il may ayının 21-də ümummilli lider öz sıralarında 1500-ə qədər yüksək ixtisaslı ziyalını birləşdirən Respublikamızdan Kənarda Təhsil Almış Mütəxəssislər Cəmiyyətinin 6 nəfərdən ibarət kiçik qrupunu bizim xahişimizlə qəbul etdi. Cəmiyyətin sədri, Azərbaycan Texniki Universitetinin dosenti Natiq Əhmədov keçmiş SSRİ-nin müxtəlif şəhərlərində təhsil almış mütəxəssislər adından ölkə başçısını yubileyi münasibətilə təbrik etdi. Ulu öndər səmimi sözlərə görə təşəkkür etdi, ötən illəri xatırladı. Həmin illərdə kənar şəhərlərdə təhsil almağa limiti necə çətinliklə aldığını, gözügötürməz, paxıl qüvvələrlə nə cür mübarizə apardığını bildirdi. Onun söylədiyi bir fikir yaddaşıma əbədi yazılıb: “O vaxt oxumağa göndərdiyim gənclərin hamısı mənim doğma övladlarımdır.”

Bir neçə aydan sonra - yəni, sentyabrın əvvəlində sarayın çoxminli salonunda 1970-1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərin ümumrespublika toplantısı keçirildi. Ulu öndərin çox diqqətlə dinlənilən əhatəli və dərin məzmunlu nitqində bu sahədə keçirilən yollara bir daha nəzər salındı. Nitqinin sonunda böyük strateq dedi: “O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər. O vaxt gəlib çatdı. Azərbaycan artıq dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycanın dünya miqyasında hörməti qalxıb, ölkəmiz tanınıb və Azərbaycan müstəqillik yolu ilə bundan sonra da edəcəkdir. Əziz dostlar, siz Azərbaycanın bu müstəqillik yolu ilə getməsində fəal iştirak edirsiniz və bundan sonra da iştirak etməlisiniz. Bəli, indi müstəqil Azərbaycana gənc, yüksək bilikli, ali elmi dərəcəli olan kadrlar, yaxşı mütəxəssislər lazımdır”.

İndi həmin anları bir daha xəyalımda canlandırıb qələmə alarkən o böyük və qayğıkeş insanı minnətdarlıqla xatırlayıram. İnanıram ki, haqqında bəhs etdiyimiz dövrdə respublikadan kənarda təhsil almış və müəyyən ixtisasa yiyələnmiş hər bir azərbaycanlı bu səviyyəyə yetişməsində dahi insanın bilavasitə rolu olduğunu, onu minnətdarlıqla xatırlamağı özünə mənəvi borc bilər.

Çox fərəhli və diqqətəlayiq haldır ki, ulu öndərin təhsilə, elmə, mədəniyyətə və digər göstərdiyi qayğını ölkə Prezidenti cənab İlham Əliyev yüksək səviyyədə davam etdirir. Konkret bir məsələni xüsusi vurğulamaq istərdim. Ulu öndər 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin 1998-ci ildə keçirilən ümumrespublika toplantısında bildirmişdi ki, gənclərin xaricdə təhsil almasından ötrü dövlət proqramı hazırlanmalıdır. Toplantıda həmçinin milli-mənəvi fondun yaradılması ideyası da vacib məsələ kimi qeyd olunmuşdu. Bu ideya məhz cənab İlham Əliyevin prezidentliyi dövründə gerçəkliyə çevrildi.

Azərbaycan Prezidentinin imzaladığı “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı”na müvafiq olaraq 500-dən yuxarı gənc xarici ölkələrin ali təhsil ocaqlarına, hətta magistratura və dokrorantura səviyyəsində də göndərişlər həyata keçirilir. MDU-nun 2008-ci ildə Bakı filialının açılması da çox əlamətdar hadisədir.

Prezident İlham Əliyevin 22 may 2009-cu il tarixli “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə sərəncamı isə ali məktəb sistemində islahatların yeni dövrün tələblərinə uyğun aparılması baxımından vacib əhəmiyyət daşıyır. Dövlət proqramında xüsusi vurğulanır ki, müasir dövrdə Avropa ölkələrin təhsil sistemlərinin inteqrasiya və ümumavropa ali təhsil məkanının formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Cənab İlham Əliyevin “Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında” 31 yanvar 2008-ci il sərəncamı da Azərbaycanda təhsilin Avroatlantik məkana inteqrasiyası baxımından mühüm əhəmiyyətə malikdir. Ali təhsildə islahatların da məhz bu prinsiplər əsasında aparılması qarşıda duran vacib məsələlərdən biridir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,YUNESKO və İSESKO-nun xoşməramlı səfiri,Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da

yaradıldığı vaxtdan elm, təhsil, səhiyyə, mədəniyyət sahəsində bir sıra geniş miqyaslı, faydalı layihələr həyata keçirmişdir. Fondun xüsusilə, təhsilə verdiyi qiymət dahi rəhbərin bu sahədəki fəaliyyətinin davamı və günün tələblərinə uyğun surətdə tədbirlərin görülməsi kimi səciyyələndirilməlidir.

Hazırda dünyanın 30 ölkəsinin 160 nüfuzlu ali təhsil müəssisələrində müxtəlif mənbələr hesabına 10 mindən artıq həmyerlimizin müxtəlif ixtisaslar üzrə biliklərə yiyələnməsi faktı sevindiricidir. Dövlət başçısı İlham Əliyev haqlı olaraq qeyd edir ki, təbii sərvətlər tükənən dəyərlərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin güclənməsinə töhfə verən amildir. Bəli, Azərbaycanda elmin və təhsilin bundan sonra da daha vüsətlə inkişaf edəcəyinə inam böyükdür. Bizim xalq buna layiq və həm də qadirdi.

**i.e.d., prof. Nəbiyev Rasim Əmir oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
rasimnabiyev1950@gmail.com

## HEYDƏR ƏLİYEVN NEFT STRATEGİYASI MÜSTƏQİL MİLLİİQTİSADİYYATIN FORMALAŞMASININ ƏSASIDIR

**Açar sözlər:***Milli iqtisadiyyat, neft strategiyası, bazar iqtisadiyyatı.*

Milli iqtisadiyyat müəyyən xalqa məxsus olub onun mənafelərini ifadə edən, hüdudları dövlət sərhədləri ilə məhdudlaşan, maddi texniki əsası, münasibətlər sistemi, təsərrüfat mexanizmi və idarəetmə strukturu olan sosial-iqtisadi sistemdir.

Milli iqtisadiyyat hər hansı bir ölkənin iqtisadiyyatını iqtisadi münasibətlər sistemində, onun strukturunu təşkil edən amillərin qarşılıqlı əlaqə və asılılıqlarının üzə çıxarılması vasitəsilə öyrənir. Milli iqtisadiyyat əhalinin əmtəə və xidmətlərə olan tələbatı ilə bu tələbatların ödənilməsi üçün lazım olan iqtisadi ehtiyatlar arasındakı əlaqə və asılılığın milli mənafelər baxımından həyata keçirilməsidir. Milli iqtisadiyyat ölkə əhalisinin əmtəə və xidmətlərə olan tələbatı ilə tələbatların ödənilməsində iştirak edən milli istehsal resursları arasındakı uyğunsuzluğu aradan qaldırır.

Milli iqtisadiyyat haqqında fikirlərlə XIX əsrin əvvəllərində alman alimi Fridrix Listin 1841-ci ildə dərc edilmiş "Siyasi iqitisadın milli sistemi" əsərində tanış olmaq mümkündür. Bu əsərdə milli iqtisadiyyatın bazar təsərrüfatçılığı şəraitindəki xüsusuiyyətləri göstərilmiş, onun rəqabət və sahibkarlıq mühiti ilə əlaqələndirilməsi səviyyəsinə xüsusi diqqət yetirmişdir. Onun fikrincə, hər bir ölkənin iqtisadiyyatı öz xüsusi qanunları ilə inkişaf etdiyinə görə bütün ölkələr üçün vahid siyasi iqtisad ola bilməz. Fridrix List siyasi iqtisad terminini "Milli iqtisad" termini ilə əvəz edərək göstərir ki, hər bir ölkənin öz milli siyasi iqtisad sistemi olmalıdır. Fridrix Listin fikrincə, bütün dünyada xüsusi milli münasibətlərin mövcudluğu zamanı, millətin müasir şəraitdə özünün iqtisadi vəziyyətini saxlamaq və yaxşılaşdırmaqdan ibarət olmalıdır. O, öz əsərlərində dəfələrlə göstərmişdir ki, siyasi (milli) iqtisadın vəzifəsi millətin iqtisadi tərbiyəsindən ibarətdir. Millətin mədəni və texniki səviyyəsi ilə bağlı davranışı iqtisadi inkişafa olan təsiri göstərilmişdir.

Fridrix Listin fikrincə "milli iqtisad" iqtisadi siyasət üzrə tövsiyyələr sistemini nəzərdə tutur. Ölkənin milli iqtisadi sistemində məhsuldar qüvvələr nəzəriyyəsinə, əmək bölgüsü, millətlərin təsərrüfat inkişafı haqqındakı iqtisadi nəzəriyyələrə xüsusi diqqətlə yanaşır və o illərdə inkişaf edən Alman burjuaziyası üçün çox dəyərli tövsiyyələr verir.

Fridrix Listin ən dəyərli ideyalarından biri də bu idi ki, millətin rifahı var-dövlətin kəmiyyəti ilə deyil, bu sərvəti yaradan məhsuldar qüvvələrin inkişaf dərəcəsi, onun mühüm tərkib hissəsi olan "əqli kapitalda", sərvətin başlıca mənbəyi hesab etdiyi elmdə, incəsənətdə, kəşflərdə və ixtiralarda görürdü. Geridə qalan ölkələrin qabaqcıl ölkələr səviyyəsinə qaldırmağın yeganə yolunun proteksionist siyasət olduğunu göstərən F.List, bunu "millətin sənaye tərbiyəsi" vasitəsi adlandırdı.[2]

Görkəmli iqtisadçı alim Verner Zombard 1903-cü ildə çap olunmuş "Müasir kapitalizm" əsərində kapitalizmi bir neçə mərhələyə: erkən kapitalizm (XVIII əsrin II yarısından sənaye inqilabına qədər), inkişaf etmiş kapitalizm (I dünya müharibəsinə qədər), gecikmiş kapitalizm mərhələlərinə ayırır. "Sosial plüralizm" nəzəriyyəsi ilə çıxış edən Verner Zombard kapitalizmin iqtisadi inkişaf perspektivlərini nəzərdən keçirərək gələcəkdə kapitalizm, kooperativ təsərrüfat, ictimai təsərrüfat, natural təsərrüfat, sənət təsərrüfatı və kəndli təsərrüfatı kimi altı formanın mövcud olacağını göstərmişdir.[3]

Digər alman iqtisadçısı Valter Oyken "Milli iqtisadiyyatın əsasları" əsərində kapitalizmi bir iqtisadi sistem kimi qəbul edən marksist təsəvvürlərə qarşı çıxmışdır. İctimai iqtisadi formasiya anlayışını qəbul etməyən Valter Oyken "təsərrüfat mərhələləri" anlayışının doğru

olmadığını sübut etməyə çalışmış, "təsərrüfat qaydaları" anlayışını qəbul etmişdir. Valter Oyken iqtisadi nəzəriyyə və iqtisadi siyasəti vəhdət halında götürmüş, milli iqtisadi sistemin formalaşması istiqamətlərini göstərmişdir.[4]

Milli iqtisadiyyatda milli istehsal resursları əsas yer tutur. Milli istehsal resursları ölkənin daxilində və xaricində yalnız dövlətə, milli sahibkarlara məxsus istehsal amillərinin məcmusudur.Milli iqtisadiyyatın mühüm tərkib hissələrindən biri cəmiyyətin həyat və inkişafı üçün lazım olan istehsal vasitələri və istehlak predmetləri yaradan maddi istehsaldır. Burada ilk növbədə, istehsalın kompleksliyi, bütövlüyü, təkrar istehsalın dövriyyələri, onların mərhələləri, aralarındakı əlaqələrin nə səviyyədə olması əsas götürülür. Rəqabət aparan müxtəlif sahələr əlaqələnməli və ehtiyatlardan səmərəli istifadə olunmalıdır.

Milli iqtisadiyyatın əsasını əmtəə və xidmətlər istehsal edən, ictimai əmək bölgüsündə müəyyən funksiyalar yerinə yetirən iqtisadi subyektlər, firmalar, şirkətlər, təşkilatlar və ev təsərrüfatları təşkil edir.

Hər hansı bir ölkənin iqtisadiyyatı özünün təbii-iqlim, maddi-texniki və sosial iqtisadi əsaslarına görə fərqlənir. Milli iqtisadiyyatlar təbii və coğrafi məkana, müxtəlif məhsuldarlıqlı torpaqlara, iqtisadi, siyasi, mənəvi, mədəni dəyərlərə, iqtisadi sistemə görə, fəaliyyət şəraitinin müxtəlifliyinə, iqtisadi inkişaf mərhələlərinin müxtəlifliyinə, fərdi təsərrüfata görə biri-birindən fərqlənirlər.

Milli iqtisadiyyatlardakı fərdi xüsusiyyətləri yaradan təbii tarixi proses ictimai əmək bölgüsüdür. İctimai əmək bölgüsü və beynəlxalq əmək bölgüsü ölkə daxilində və dünya ölkələri arasında iqtisadi əlaqələri zəruri edən amillərin inkişafını şərtləndirir.

Milli iqtisadiyyatın formalaşdırılması inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçidlə eyni zamanda həyata keçirilir. İqtisadi əsası müxtəlif olan sistemlərin biri-birini əvəz etməsi prosesi baş verir və iqtisadiyyatın bu vəziyyəti keçid iqtisadiyyatı kimi xarakterizə olunur. Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatmasını göstərən başlıca cəhət, hər şeydən əvvəl bazar mexanizmi elementlərinin səmərəli fəaliyyətidir. [7] Milli iqtisadiyyatın ən başlıca şərti onun müstəqil olmasıdır. Müstəqil Milli iqtisadiyyat-siyasi və iqtisadi müstəqillik əldə etmiş ölkənin bazar iqtisadiyyatına əsaslanan, çoxnövlü mülkiyyət formalarına malik olan, öz-özünü təkrar istehsal etmək qabiliyyəti olan, maliyyə-kredit və vergi sisteminə, yüksək infrastruktura, səmərəli istehsal əlaqələrinə, dövlət idarəçiliyi ənənələrinə və tənzimlənməsinə malik olan iqtisadiyyatdır. Müstəqilliyini bərpa etdikdən sonra dövlət müstəqilliyini itirməmək üçün Azərbaycan tezliklə ölkənin iqtisadi müstəqilliyinə nail olmalı idi. Azərbaycan Respublikasının qarşısında duran ən əsas vəzifə iqtisadi cəhətdən azad, müstəqil yaşamağı təmin edə bilən iqtisadiyyat yaratmaqdır. İlk növbədə, başqalarının himayəsindən, ələ baxımlıqdan qurtarıb öz imkanları hesabına yaşamağa qadir olmaqla iqtisadi azadlığa nail olmaq tələb olunurdu. İqtisadi cəhətdən azad yaşaya bilmək üçün iqtisadi gücə malik olmaq lazımdır. İqtisadi güc isə real, təbii, iqtisadi, intellektual elmi potensialdır. Siyasi suverenlik qazanmış ölkə bu potensialı hərəkətə gətirib respublikanın ehtiyaclarını ödəmək üçün zəruri olan maddi və mənəvi nemətləri istehsal etmək qabiliyyətinə malik olmalı, istehsalı təşkil etmək, idarə etmək bacarığı əldə etməlidir.

Əvvələn bazar qanunları ilə tənzim olunan, mülkiyyət azadlığının, sahibkarlıq azadlığının, azad rəqabətin mövcud olduğu demokratik prinsiplər əsasında fəaliyyət göstərən azad iqtisadiyyatın yaradılması tələb olunur.

Siyasi müstəqillik əldə etmiş Azərbaycan, hər şeydən əvvəl, özünün iqtisadi müstəqilliyinə nail olmalıdır. Azərbaycan xalqı tarix boyu yaratdığı və təbiətin ona bəxş etdiyi sərvətin sahibi olur, ona sərəncam verir və öz mənafeyinə uyğun istifadə edir. İkincisi, cəmiyyət özünü iqtisadi cəhətdən yaşatmaq gücünə malik olur, əsasən özünün imkanlarına və tarixi reallıqlara arxalanmaqla iqtisadiyyatın ictimai formasını müəyyən edir, formalaşdırır və nəhayət, üçüncüsü, xarici iqtisadi əlaqələr yaratmaq, sərbəst dünya bazarına çıxa bilmək, xarici rəqabətə qarşı davamlı olmaq, iqtisadi təxribatlardan qorunmaq kimi keyfiyyətlər ölkənin

iqtisadi müstəqilliyinin olması deməkdir. Belə bir iqtisadi müstəqilliyə nail olmaqla Azərbaycan siyasi suverenliyini əbədiləşdirə bilər, onu daimi edər. Beləliklə, ölkədə iqtisadi müstəqilliyi təmin edən milli iqtisadiyyat formalaşdırılmalıdır. Bu isə elə bir iqtisadiyyat olmalıdır ki, onun özünün milli bazarı və bu bazarın tələblərinə cavab verən strukturu qərarlaşsın, ikincisi öz əsasları üzərində inkişaf edə bilsin və təkrar istehsal edə bilmək qabiliyyətinə malik olsun, üçüncüsü müstəqil, möhkəm valyutası, maliyyə, bank sistemi fəaliyyət göstərsin, dördüncüsü formalaşmış istehsal, bazar və sosial infrastrukturları olsun, beşincisi çevik təsərrüfat mexanizminə və altıncı dövlət idarəçilik ənənələrinə malik olsun. Müstəqil Milli iqtisadiyyatın formalaşması iqtisadiyyatın bütün sahələrində istehsal olunan əmtəələrin rəqabət qabiliyyətliyinin yüksək olması və dünya səviyyəsinə cavab verə bilməsi, bütün sahələrdə iqtisadi artım və iqtisadi inkişafın dinamik xarakterdə olması deməkdir. Müstəqil milli iqtisadiyyatın formalaşması üçün iqtisadi təhlükəsizliyin təmin olunması, çoxnövlü mülkiyyət formalarının yaradılması, yüksək keyfiyyətli məhsullar istehsal edə bilən milli sahibkarların inkişafına şərait yaradılması, müstəqil pul, maliyyə, kredit, bank sisteminin olması mühüm şərtlərdən sayılır. Müstəqil milli iqtisadiyyatın formalaşdırılması ölkə iqtisadiyyatında gedən bütün proseslərin sürətli olmasını, inzibati-amirlik sistemində milli mənafelərimizə uyğun gələnlərin qorunub saxlanılması və istifadə olunmasını tələb edir. Bunlarla yanaşı iqtisadiyyatın təkrar istehsal strukturuna daxil olan bütün sahələrin eyni vaxtda formalaşdırılması vacib sayılmalı, müstəqil iqtisadiyyat Azərbaycan xalqının milli mənafelərinin həyata keçirilməsini təmin edən bir şəkildə formalaşmalı və yeni məzmunlu milli iqtisadiyyatın formalaşdırılması zamanı əhalinin və hökumətin fəal iştirakı təmin olunmalıdır.

Özəl mülkiyyətə, sahibkarlıq fəaliyyətinə, insanların şəxsi qabiliyyətlərinə və təşəbbüskarlığına əsaslanan bazar iqtisadi sistemi mütərəqqi və səmərəli sistem olduğu üçün Azərbaycan dövləti Müstəqillik haqqında Konstitusiya Aktı qəbul edildikdən sonra öz iqtisadiyyatını bazar mexanizmi əsasında formalaşdırmağa qərar verdi.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan iqtisadiyyatının formalaşdırılması bazar iqtisadi sisteminin qərarlaşması ilə yanaşı aparılmışdır.

İqtisadi əsası eyni olan sistemlərin dəyişməsi, transformasiyasından fərqli olaraq, iqtisadi əsası müxtəlif olan sistemlərin biri-birini əvəz etməsi köhnə cəmiyyətin sosial-iqtisadi münasibətləri, təsərrüfatçılıq prosesləri, idarəetmə mexanizmləri müxtəlif olduğundan və yeniləri ilə əvəz olunduğundan köklü islahatların həyata keçirilməsi zərurəti yaranır.

Ölkədə bazar münasibətlərinin formalaşması isə iqtisadiyyatda bazar elementlərinin, sahibkarlıq vərdişlərinin, bazar mühitində işləmək təcrübəsinin yeni sistemin tələblərinə uyğunlaşması kimi məsələlərin həyata keçirilməsini tələb edirdi

Yeni iqtisadi sistemə keçən Azərbaycan həm mikro, həmdə makro səviyyələrdə iqtisadiyyatın həm təşkili, həm də idarə olunmasının üsul və metodlarına dəyişən situasiyanın tələbləri prizmasından yenidən baxılması zərurəti ilə üzləşməli oldu.

Müstəqilliyimizin bərpasının ilk illərində ölkədə yaranan çətinliklər, iqtisadi əlaqələrin demək olar ki, tamamilə qırılması, respublikada qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın ən aşağı səviyyəyə enməsi neft sənayesini ağır böhran vəziyyətinə salmışdı. Neft sənayesinin qarşısında duran çətinliklərin aradan qaldırılması və bərpası uzun illər tələb edirdi. Xarici investisiyaları ölkə iqtisadiyyatına cəlb etmədən sənaye bazasını modernləşdirmək, neft sənayesinin qarşısında duran problemləri həll etmək mümkün deyildi. Əlbətdə, belə bir problemin tez bir zamanda həll olunmasına nail olmaq çox çətindir. Çünki dövlət qısa müddətdə öz gücü ilə neft sektorunda köhnə texnika və avadanlıqları kütləvi sürətdə qabaqcıl ölkələrin standartlarına uyğun gələn yeniləri ilə əvəz edə bilməz. Bu səbəbdən, xarici investorların ölkəyə cəlb olunması, bütövlükdə ölkə iqtisadiyyatının modernləşdirilməsində, inkişaf etmiş ölkələrin texnika və texnologiyasının Azərbaycana gətirilməsində onların gücündən istifadə zərurətə çevrilmişdi. Heydər Əliyev xarici neft

şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldikdən sonra tez bir zamanda yeni neft strategyası işlənib hazırlandı.

Hər bir ölkə özünün inkişaf strategiyasını hazırlayarkən xalqın və dövlətin maraqları, beynəlxalq vəziyyət, imkan və vasitələr sosial-iqtisadi inkişafın vəhdəti, cari və perspektiv məqsədlər nəzərə alınmalıdır. Müəyyən edilmiş bu strategiya əsasən səmərəli fəaliyyət göstərən milli iqtisadiyyatın formalaşmasına xidmət etməlidir.

Azərbaycan Respublikası özünün sosial yönümlü bazar iqtisadiyyatı modelinə uyğun olaraq mövcud sosial-iqtisadi proseslərin tənzimləmə sistemini və iqtisadiyyatı idarə edir. Qarşıya qoyulmuş strateji məqsədlərə çatmaq üçün dövlət konseptual səviyyəli tədbirlər işləyib hazırlayır və onların əməli cəhətdən reallaşdırılması strategiyasını formalaşdırır.

Görkəmli Azərbaycan alimi Məhiş Əhmədovun fikrincə, dövlətin iqtisadi siyasəti-iqtisadi sistemin məqsədyönlü formalaşması, təkmilləşdirilməsidir və xalq təsərrüfatının inkişafının zəruri şərtlərinin tənzimlənməsində dövlətin iqtisadi siyasəti-mövcud iqtisadi sistemin əsasında durur. [8] 1994-cü ilin sentyabrın 20-də Azərbaycanda dünyanın ən qabaqcıl ölkələri olan ABŞ, Rusiya Federasiyası, Böyük Britaniya, Yaponiya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanın neft şirkətləri ilə konsorsium-Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı. Dünyanın 7 ölkəsinin 11 şirkətləri ilə "Azəri",Çıraq və Günəşli yataqlarının dərin hissəsinin birgə kəşfiyyatı ilə işlənməsi üzrə "Əsrin müqaviləsi" adlandırılan saziş bağlandı.

Azərbaycanda etibarlı investisiya mühitinin yaradılması məqsədiylə Milli Məclisdə Xarici investisiyalardan istifadə olunması, Xarici investisiyaların qorunması, Xarici investisiyalara dövlət zəmanətinin verilməsiylə bağlı bir çox qanunlar qəbul edildi. Bütün bunlardan sonra qısa bir zamanda daha bir neçə perspektivli strukturların birgə kəşfiyyatı və işlənməsinə dair əlavə, daha 20 müqavilə bağlamağa imkan vermişdir. Beləliklə, müqavilələrə görə xarici investisiyaların ümumi məbləği 60 milyard dollar təşkil etmiş, 1997-ci ilin noyabr ayından ilk müqavilə üzrə neft hasilatına başlanmış və 12 milyon ton xam neft çıxarılıb dünya ölkələrinə ixrac olunmuşdur.

Qısa müddətdə ümumi neft hasilatı 9 milyon tondan 2000-ci ildə 14,1 milyon tona çatmışdır. Əsrin müqaviləsi bağlandığı 1994-cü ildən 1997-ci ilə qədər Azərbaycan iqtisadiyyatına 1,6 milyard dollar investisiya qoyulmuşdur.

Ölkədə həyata keçirilən iqtisadi siyasətin nəticəsində artıq dünyanın 20 ölkəsinin 34 şirkəti ilə müqavilələr imzalanmışdı. Əlverişli investisiya şəraitinin yaradılması ilə bağlı bir sıra konseptual səviyyəli tədbirlərin görülməsinin nəticəsi idi ki, 1994-2001-ci illər arasında xarici investisiya axını sürətlənmiş, bu müddət ərzində ölkənin neft sənayesinə qoyulmuş 11,4 milyard dollar investisiyanın 8,3 milyard dolları xarici, 3,1 milyard dolları isə daxili investisiyalanın payına düşürdü.

Azərbaycanın neft sənayesinə investisiya qoyuluşlarının cəlb edilməsinin geniş vüsət almasının səbəblərindən biri də neft infrastrukturunun kifayət qədər inkişaf etməsidir. Heç şübhəsiz ki, xarici neft şirkətləri öz fəaliyyətlərini sıfırdan başlamalı olsaydılar, neft müqavilələrinin belə sürətlə həyata keçirilməsi mümkün olmazdı. Dünyanın qabaqcıl ölkələrindən dəniz qazma qurğuları almaq və onları uzaq məsafələrdən Bakıya gətirmək, müxtəlif obyektləri yenidən yaratmaq əlavə vaxt və vəsait tələb etmiş olardı. Lakin xarici neft şirkətləri dənizdə neft-qaz hasilatı ilə bağlı əməliyyatların həyata keçirilməsi üçün Azərbaycanda 70-80-ci illərdə yaradılmış infrastruktura, ali təhsilli kadrlar hazırlayan, eləcə də bu sahədə elmi kadrlar hazırlayan Neft Akademiyasının olduğu, zəngin təcrübəyə malik güclü mühəndis və ixtisaslı fəhlə kadrlarına, həm də tarixi ənənəyə malik olan Azərbaycanda bu işləri görmək üçün heç bir böyük çətinliklərlə üzləşmədilər.

Bağlanmış müqaviləyə əsasən 30 ilə 510 milyon ton neft hasil olunması nəzərdə tutulurdu. Bu, ölkənin neft sənayesinə 8 milyard dollar həcmində investisiya qoyulmasını təmin etməli idi. Yataqlardan çıxarılacaq neftin 149 milyon tonu çəkiləcək xərclərin ödənilməsinə, qalan 361 milyon tondan əldə olunacaq gəlir isə pay bölgüsünə uyğun müqavilə bağlamış ölkələr arasında bölüşdürülməsi nəzərdə tutulmuşdu.

Hər bir dövlət iqtisadiyyatın səmərəliyinin yüksəldilməsində mühüm rolu olan investisiya qoyuluşlarının mühüm istiqamətlərini müəyyənləşdirir. Bu sahədə iqtisadi siyasətini müəyyən edən dövlət nəzərə almalıdır ki, bu gün dünyanın ən böyük şirkətləri öz investisiyalarını əsasən daxili mənfəət norması 20 faizdən aşağı olmayan layihələrin həyata keçirilməsinə, MDB ölkələri isə mənfəət norması 25-40 faiz təşkil edən layihələrin reallaşdırılmasını məqbul sayırlar.Azərbaycan qarşıya çıxan bir çox problemlərə baxmayaraq dünyanın ən qüdrətli dövlətlərinin investisiyalarının ölkəyə cəlb edilməsinə nail olmuşdur.

Müqavilə bağlanmış BP, Unocal, Exxon, Mobil, Devon Energy (Pennzoil), TRAO, Statoil, Lukoil, İtochu, Aqip, Chevron, ENİ, Halliburton, Schlumberger, Kvaerner, Axar Maritime kimi şirkətlər dünyanın ən tanınmış şirkətləridir.

"Əsrin müqaviləsi" Azərbaycan Respublikasının milli mənafelərinə, milli maraqlarına xidmət edir. Azərbaycan üçün bu müqavilənin iqtisadi səmərəliliyi həm də onunla izah olunur ki, 2009-cu ildən başlayaraq neftdən gələn gəlirin 80%-ə qədəri ölkədə qalır. Bununla yanaşı, müqavilənin şərtlərinə görə 5,5 mlrd.kub metr həcmində neftlə bərabər hasil edilən qaz Azərbaycan Respublikasına pulsuz verilir. 30 il ərzində Azərbaycan Respublikasının gəliri 34 milyard dollar ilə qiymətləndirildi. Yeni neft strategiyası ölkədəki firma və müəssisələrin müasir texnologiyalarla təchiz edilməsinə, iri və mobil infrastrukturun yaranmasına səbəb olmuşdur. Bununla yanaşı, həmçinin Ulu Öndərin təşəbbüsü ilə Bakıda tikilmiş Dərin dəniz özüllər Zavodu modernləşdirilmiş, platforma və üzən qazma qurğuları tikilmiş, Səngəçalda tutumu 100 min tondan çox neft olan yeni müasir neft terminalı istifadəyə verilmişdir.

Xarici investisiyalar üçün əlverişli siyasi, iqtisadi, hüquqi və digər şərtlərin yaradılması kompleks tədbirlərin həyata keçirilməsini tələb edirdi.

Xarici investisiyaların hüquqi bazası konstitusiya səviyyəsində, Milli Məclisdə qəbul edilmiş qanunlar və digər normativ-hüquqi aktlar, ikitərəfli və çoxtərəfli dövlətlərarası müqavilələr və beynəlxalq çoxtərəfli müqavilələr səviyyəsində görülmüş işlərlə formalaşmışdır.

İnvestisiyaların qoyulmasında siyasi amillər, ölkədə mövcud olmuş siyasi durum çox böyük rol oynamışdır. "Müstəqillik haqqında Konstitusiya Aktı" qəbul edildikdən sonra ölkədə mövcud olmuş vəziyyət investisiyaların cəlb olunması baxımından öz mənfi təsirini göstərmişdir. Dünyanın bir çox tanınmış şirkətləri tərəfindən təkliflərin alınmasına baxmayaraq 1991-ci ildən başlamış 1993-cü ilin ortalarına qədər respublikada olan mövcud vəziyyət, ölkəni idarə edən şəxslərdə şəxsi mənafelərin milli mənafeləri üstələməsi, onlarda idarəetmə qabiliyyətinin və bacarığının olmaması, dövlətçiliyin zəifliyi və digər siyasi amillər xarici investisiyaların cəlb olunması üçün çox böyük problemlər yaratmışdır. 1993-cü ilin ortalarından Ulu öndər Heydər Əliyevin həyata keçirməyə başladığı tədbirlər sayəsində bu istiqamətdə dönüş yaranmışdır. Xarici şirkətlərin Azərbaycanın neft yataqlarının işlənməsinə investisiya yönəltmək istəyi respublikamızda siyasi sabitliyin bərpa olunması və dövlətçiliyin möhkəmləndirilməsi ilə mümkün olmuşdur.

Ölkə iqtisadiyyatının hansı səviyyədə olması, inflyasiyanın səviyyəsi, aparılan iqtisadi islahatların sürət və keyfiyyət tempi, pul-kredit sistemi, vergi sistemi, faiz dərəcəsi, daxili bazarın səviyyəsi, əmək resurslarının həcmi, daxili infrastrukturun səviyyəsi kimi iqtisadi amillər investisiya qoyuluşlarının cəlb olunmasında çox böyük təsirə malikdir.

Müstəqilliyimizin ilk illərində iqtisadiyyatın sahə və sferaları arasında bütün əlaqələrin kəsilməsi, iqtisadi proseslərdə qeyri-müəyyənliyin getdikcə kəskin şəkildə genişlənməsi, dərin iqtisadi böhran keçirən, müharibə şəraitində yaşayan ölkənin neft sənayesinə böyük investisiyaların qoyulmasına maneə olurdu.

Yeni neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi xarici investisiyaların cəlb olunması üçün əlverişli şəraitin yaradılmasını tələb edirdi.

Ölkəyə daxil olan xarici investisiyalardan düzgün və səmərəli istifadə olunması üçün "Əsrin müqaviləsi"nə əsasən Azərbaycan Respublikası Dövlət Neft fondu yaradılmışdır. Ölkə Prezidentinin 1999-cu il 29 dekabr tarixli Fərmanı ilə yaradılmış fondun məqsədi güclü

iqtisadiyyat yaratmaq, iqtisadi inkişafa dinamizm gətirmək, xalqın rifahını yüksəltməkdir. Dünya təcrübəsinə əsaslanaraq demək olarki, belə bir fondun yaradılmasında həm də məqsəd dünya bazarında neftin qiymətinin kəskin dəyişildiyi dövrlərdə dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığı yaratmaqdır. Bütün bunlarla yanaşı, təbii sərvətlərin ehtiyatlarının tükəndiyi zamanlarda gələcək nəsillərin normal həyat şəraitinin təmin edilməsindən, fəaliyyət göstərməsindən ibarət olmuşdur.

2017-ci ildə 38,8 milyon ton, o cümlədən Azərbaycan Respublikasının Dövlət Neft şirkəti tərəfindən 7,5 milyon ton, beynəlxalq konsorsiumlar tərəfindən isə Azəri-Çıraq-Günəşli və Şahdəniz yataqlarından 31,3 milyon ton neft hasil olunmuşdur. Ölkə üzrə 28,6 milyard kubmetr, o cümlədən ARDNŞ 6,1 milyard kubmetr, beynəlxalq konsorsiumlar 22,5 milyard kubmetr qaz hasil etmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən 1,4 milyard kubmetr, beynəlxalq konsorsiumlar tərəfindən isə 7,5 milyard kubmetr, cəmi 8,9 milyard kubmetr təbii qaz ixrac edilmişdir. Azərbaycanda 2003-cü illə müqayisədə 2017-ci ildə neft hasilatı 2,5 dəfədən çox, qaz hasilatı isə 5,5 dəfə artmışdır.

2017-ci il sentyabrın 14-də imzalanmış kontrakta əsasən "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsinin 2050-ci ilə qədər uzadılması, SOCAR-ın payının 11%-dən 25%-ə qaldırılması, mənfəət neftinin 75%-nin Azərbaycana çatması, 3,6 milyard dollar bonus əldə edilməsi barədə xarici tərəfdaşlarla rəsmi razılıq əldə edilmişdir. Həmçinin SOCAR "STAR" layihəsi çərçivəsində Türkiyənin Əliağa yarımadasında illik emal həcmi 10 milyon ton olan neft emalı zavodu 2018-ci ildə fəaliyyətə başlamışdır.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin çəkilişi ilə əlaqədar fikirlərin meydana gəlməsi və həyata keçirilməsi Heydər Əliyevin "Yeni neft strategiyasının" ən mühüm müvəffəqiyyətlərindən biri sayıla bilər.

1999-cu ilin noyabr ayının 18-19-u tarixində Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Türkmənistan, ABŞ prezidentləri Azərbaycan neftinin dünya bazarlarına çıxarılması layihəsinə dəstək verərək Bakı-Tiblisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalamış, 2002-ci ilin sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə ixrac neft kəmərinin özülü qoyulmuşdur. Qərbin qabaqcıl texnika və texnologiyasının ölkəmizə gətirilməsində BTC əsas ixrac boru kəməri çox böyük rol oynamışdır. BTC ixrac boru kəməri 2006-cı ildə istismara verilmişdir.

Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərinin əsası 1999-cu il noyabrın 18-19 qoyulmuş, 2006-cı ilin axırında istismara verilmişdir. Bu qaz boru kəməri ABŞ-ın dəstəyi ilə Azərbaycan, ABŞ, Türkiyə, Qazaxıstan, Gürcüstan və Türkmənistan dövlətlərinin birgə razılığı ilə təsdiqlənib. Əsrin müqaviləsi imzalandığı 1994-cü ildə dünyanın 7 ölkəsinin 11 şirkəti ilə müqavilə bağlanmışdısa, 2000-ci illərin ortalarında bu ölkələrin sayı 20, şirkətlərin sayı isə 34-ə çatmışdı. Ən əsas diqqəti cəlb edən bu idi ki, 2001-ci ilin əvvəllərindən başlayaraq xarici investisiya qoyuluşu elə bir sürətlə gedirdi ki, bu investisiya axınının baş verməsi "Xarici investisiyalardan istifadənin Azərbaycan modelinin" formalaşmasına səbəb oldu.

Azərbaycan dövlətinin iqtisadi siyasətinin gücü onda idi ki, neftdən gələn gəlirlər böyük layihələrin reallaşdırılmasına yönəldilirdi. Milli iqtisadiyyatın bu illərdə böyük sürətli inkişafı əsas verir deyək ki, 2004-cü ilin əvvəllərindən Azərbaycan iqtisadiyyatı dinamik inkişaf dövrünə qədəm qoydu. ÜDM 2005-ci ildə 2004-cü ilə nisbətən 26 faiz, 2006-cı ildə 2005-ci ilə nisbətən 35 faiz, 2007-ci ildə isə 2006-cı ilə nisbətən 25 faiz artım olması və sonrakı illərdə bu dinamik inkişafın davam etməsi hər şeydən əvvəl bu illərdə Bakı-Tiblisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng layihələrin istifadəyə verilməsi ilə bağlıdır.

2012-ci ildə Cənub Qaz dəhlizinin yaradılması ideyalarının reallaşdırılmasına başlandı. Şahdəniz-2, Cənubi Qafqaz Qaz kəmərinin genişləndirilməsi, Trans-Anadolu və Trans Adriatik qaz kəmərlərini özündə ehtiva edən Cənub Qaz dəhlizi Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və İtaliya kimi ölkələrin ərazisindən keçməklə, həm bu ölkələrin, həm də Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayan bir qaz kəməridir.

Artıq Cənub Qaz dəhlizinin bütün layihələri müvəffəqiyyətlə həyata keçirilmişdir. Cənub Qaz dəhlizi ölkəmizə nəinki iqtisadi dividentlər gətirəcək, hər şeydən əvvəl beynəlxalq iqtisadi münasibətlər sistemində onun yerini daha da möhkəmləndirəcək, dünyada Azərbaycanın nüfuzunun qaldırılmasında müstəsna əhəmiyyətli rol oynayacaq.

2015-ci ildən Azərbaycan iqtisadiyyatı yeni mərhələyə- post-neft mərhələsinə qədəm qoymuşdur.

2014-cü ilin II yarısında dünya bazarında neftin qiymətinin 80 faiz aşağı düşməsi bütün dünya ölkələri kimi Azərbaycandan da yan keçmədi, ölkə iqtisadiyyatına öz təsirlərini göstərdi. 2005-ci ildən Azərbaycan dövləti öz iqtisadi siyasətində qeyri-neft sektorunun inkişafına nə qədər diqqət yetirsə də, ölkəmiz neft ölkəsi olaraq büdcə gəlirlərində 2015 ildə neftin payı 61 faiz olmuş, 32 faizi vergilərin, 7 faizi isə kömrükün payına düşmüşdür. Dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi büdcə gəlirlərinə əhəmiyyətli dərəcədə təsir göstərmiş və Azərbaycan dövləti özünün iqtisadi siyasətində böyük dəyişikliklər etmək məcburiyyətində qalmışdır. İlk növbədə, fiskal siyasətdə, eləcə də monetar siyasətdə dəyişikliklərlə yanaşı fiskal siyasətlə monetar siyasət arasında yaranmış şəraitə adekvat əlaqələndirmələr aparıldı. 2015-ci ilin əvvəllərində və sonunda manatın devalivasiyası kimi hadisələrlə üzləşməli olduq. 2015-ci ildən post-neft erasına daxil olan Azərbaycan iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq məqsədiylə Milli iqtisadiyyatın inkişafında qeyri-neft sektorunun rolunun əhəmiyyətli dərəcədə artması ilə bağlı ciddi addımlar atıldı. Əlbətdə ki, 2015 və 2016-cı illərdə Ümumi daxili məhsulda enmələr olsa da 2017-ci ildən artıq ÜDM-da artım özünü göstərməyə başladı və sonrakı illərdə Milli iqtisadiyyatımızın dinamik inkişafı təsdiqini tapdı.

2017-ci ildə 70,13 milyard manat olan ÜDM, 2018-ci ildə 79,79 milyard manata yüksəlmiş və onun təxminən 47 milyard manatı qeyri-neft sektorunun payına düşmüşdür 2018-ci ildə ÜDM-un 58,5 faizi əgər qeyri-neft sektorunun payına düşürdüsə, 2019-cu ildə bu 71 faiz olmuşdur. Ölkə iqtisadiyyatının sürətli inkişafının nəticəsidir ki, 2017-ci ildə büdcə gəlirləri 16,5 milyard manat olmuşdusa, 2018-ci ildə bu göstərici 22,5 milyard manata yüksəlmişdir. 2017-ci ildə 1 milyard 77 milyon manat olan büdcə kəsiri 2018-ci ildə 214,3 milyon manat olmuşdur.

2003-2019-cu illər ərzində ölkə iqtisadiyyatında 3,4 dəfə artım qeydə alınmışdır. 2003-2017-ci illərdə ölkəmizdə ÜDM orta illik artım sürəti 9,4 faiz, o cümlədən qeyri-neft sektorunda 8,2 faiz olmuşdur. Azərbaycanda iqtisadiyyatın artım göstəricisi 2017-ci ildə 0,2 faiz, 2018-ci ildə isə 1,4 faiz olmuşdur. [5] [6] Bütün bunlar bir daha göstərir ki, Milli iqtisadiyyatımız öz dinamik inkişafını davam etdirməkdədir.

## Ədəbiyyat

1. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 yanvar 2019-cu il,№500

2. Лист Ф. Национальная система политической экономии. СПб., 1891.

3Зомбарт.ВСовременный капитализм / Пер. с нем. под ред. В. Базарова и И. Степанова; Зомбарт.В - Москва : С. Скирмунт, [1904]-[1905]. - 2 т.

4. ОйкенВ. Основы национальной экономии. — М.: Экономика, 1996

5. Azərbaycanın Statistik göstəriciləri 2018. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı-2018

6. Azərbaycanın Statistik göstəriciləri 2019. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı-2019

7. Səmədzadə Z. "Keçid dövründə iqtisadiyyatın mahiyyət dəyişiklikləri və onun metodoloji nəzəri problemləri". Azərbaycan Respublikasında iqtisadi islahatların strategiyası və taktikası haqqında tezislər toplusu. Bakı,1995.

8. M.Əhmədov. Qloballaşma və milli iqtisadiyyatın formalaşması, s.425.

**Xülasə**

Müstəqilliyini bərpa etdikdən sonra özünün siyasi və iqtisadi quruluşunu dəyişən, ictimai həyatın bütün sahələrində islahatlar aparan, bu böyük və əsaslı dəyişiklikləri müharibə şəraitində həyata keçirən ölkənin analoqu olmayan dövrdə milli iqtisadiyyatının formalaşması problemləri tədqiq olunur.

İqtisadiyyatın sahə və sferaları arasında inteqrativ və funksional əlaqələrin kəsildiyi, iqtisadi proseslərdə qeyri müəyyənliyin kəskin şəkildə genişləndiyi, sistemsizlik böhranının bütün məziyyətləri, bütün xüsusiyyətləri ilə birlikdə təzahürünü özündə ehtiva etdiyi bir şəraitdə ölkənin milli iqtisadiyyatının formalaşması problemləri araşdırılır.

İqtisadi əsası müxtəlif olan sistemlərin dəyişdiyi, transformasiya olunduğu Azərbaycanda Milli iqtisadiyyatın formalaşmasının bazar iqtisadi sisteminin qərarlaşması ilə yanaşı getməsinin özünə məxsus xüsusiyyətləri göstərilmişdir.

Müstəqilliyin ilk illərində yeni neft strategiyasının həyata keçirilməsinə maneə olan siyasi, iqtisadi və hüquqi amillər araşdırılmış, eyni zamanda yeni neft strategiyasının milli iqtisadiyyatın formalaşmasının əsası olduğu elmi cəhətdən əsaslandırılmışdır.

**i.e.d, prof. Ümüdvar Qənbər oğlu Əliyev**
*Respublikanın əməkdar müəllimi, UNEC*
*E-mail:umudvar.aliyev@unec.edu.az*

# HEYDƏR ƏLİYEVİN İQTİSADİİNKİŞAF STRATEGİYASI AZƏRBAYCANIN " UĞUR" MODELİNİN ƏSASIDIR

**Xülasə**

Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdığı dövrdə ölkə iqtisadiyyatı dərin böhranlı vəziyyətdə idi. İstehsalın səviyyəsi kəskin şəkildə aşağı duşmuş, işsizliyin və inflyasiyanın səviyyəsi kritik vəziyyətdə idi. Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində Azərbaycan iqtisadiyyatını böhranlı vəziyyətdən cıxara biləcək köklü islahatların həyata keçirilməsinə başlanıldı. Bu islahatlar ölkə iqtisadiyyatının dirçəldilməsinə əlverişli şərait yaratmaqla yanaşı dunya iqtisadiyyatının üstünlüklərindən də faydalanmağa real imkan yaratdı. Azərbacan iqisadiyyatı müstəqilliyinin ilk illərindəki qeyri-sabit sosial-iqtisadi inkişafı qısa müddətdə aradan qaldıraraq tədricən makroiqtisadi sabitliyə nail ola bildi. Makroiqtisadi sabitlik ölkədə həyata keçirilən real iqtisadi siyasətin nəticəsində mümkün olmuşdur. Azərbaycan müstəqillik əldə etdiyi ilk illərdən başlayaraq milli iqtisadiyyatını formalaşdırmağa başlayır. Milli iqtisadiyyat formalaşdıqca tədricən makroiqtisadi sabitlik də təmin edilir.

Ulu öndər Heydər Əliyevin iqtisadi siyasətinin üstün cəhəti real gerçəkliyə uygun olaraq ölkənin iqtisadi resurslarından milli maraqlara uygun istifadə edilməsinin reallaşdırılmasından ibarət idi.

**Açar sözlər:** Heydər Əliyev, iqtisadi inkişaf, model, makroiqtisadi sabitlik

## Giriş

Müstəqilliyin ilk illərində makroiqtisadi sabitliyin təmin edilməsi daha cox ekstensiv amillərin hesabına təmin olunurdu. Ulu öndər Heydər Əliyevin beynəlxalq aləmdəki nüfuzu sayəsində xarici neft şirkətləri ilə bağlanmış "Əsrin müqaviləsi"-ndə (sentyabr 1994-cü il) Azərbaycan iqtisadiyyatına qoyulan həcm baxımından ən böyük (8 mlrd. Dollar civarında) investisiya nəzərdə tutulmuşdur. Ölkəyə yeni texnologiyaların gətirilməsi iqtisadiyyatda intensiv amilləri ön sıraya çıxarır. Ölkəmizə gətirilən müasir neft texnologiyası respublika iqtisadiyyatının lokomotivi olan neft sənayesinin sürətli inkişafını təmin etdi. Nəticədə ölkəmizə külli miqdarda neft gəlirləri daxil oldu. Bu neft gəlirləri təkcə neft sənayesinin deyil bütövlükdə ölkə iqtisadiyyatının inkişaf etdirilməsinin əsas investisiya mənbəyi oldu. Xarici ölkələrin aparıcı neft şirkətləri ilə bağlanan neft müqavilələri XXI əsrin əvvəllərindən başlayaraq Azərbaycanda iqtisadi artımın yüksək tempinin əsas mənbəyinə çevrilmişdir.

## Heydər Əliyevin iqtisadi inkişaf strategiyası

Ulu öndər Heydər Əliyev mustəqil Azərbaycanda hakimiyyətinin ilk illərində dunyanın nufuzlu neft şirkətlərini Xəzər dənizinin Azərbaycan sektorunda birgə işləmələrə cəlb etməklə milli iqtisdiyyatımızın formalaşması və inkişafının maliyyə mənbəyinin yaradılmasına nail ola bildi.

Nəticədə ölkəyə daxil olan küllü miqdarda xarici dönərli valyuta ölkə iqtisadiyyatının inkişafında əvəzsiz rol oynamışdır. Bağlanmış bütün neft müqavilələri ölkəmizə müstəqillik illərində 150 mlrd.dollardan çox gəlir götürməsinə səbəb olmuşdur. Azərbaycan iqtisadiyyatının böyüməsinin lokomotivi olan neft sənayesinin inkişafı müasir dövrdə qeyri-neft sektorunun inkişafı ilə yanaşı diqqət mərkəzində saxlanılır. Dünyanın aparıcı şirkətləri ilə bağlanan Xəzərin neft sektorunda birgə işləmələrin müddəti uzadılmışdır. Yeni əsrin kontraktında isə (2050-ci ilə qədər) Azəri-Çıraq, Günəşli yataqlarından 500 mln. ton neftin

birgə hasil edilməsi nəzərdə tutulmuşdur. Bu illərdə neft sənayesinə “Yeni əsrin kontraktları” üzrə 40 mld. dollar investisiya qoyulması nəzərdə tutulub. SOCAR-ın müqavilədəki payı 11,6%-dən- 25%-ə yüksəlmişdir. Azərbaycanın mənfəət neftində payı 75% olacaq.

Müstəqilliyimizin ilk dövrlərindən başlayaraq iqtisadi siyasətin əsas istiqaməti olan makroiqtisadi sabitliyin təmin edilməsi yeni iqtisadi sistemi formalaşdıra biləcək bütün sahibkarlıq formalarının inkişaf etdirilməsini və səmərəli yerləşdirilməsini tələb edirdi. Həmin dövrdən başlayaraq iqtisadi siyasət neft sənayesinin mərkəzi olan Bakı və Abşeron rayonunun sosial-iqtisadi inkişafı ilə yanaşı respublikamızın digər regionlarının da inkişaf etdirilməsini zərurətə çevirmişdir.

Azərbaycan Respublikasının müstəqilliyinin ilkin dövrlərində sahibkarlıq subyektləri əsasən Bakı və Bakı ətrafı ərazilərdə cəmləşdiyindən ölkənin əmək və təbii resurslarından istifadədə çox ciddi disproporsiyalar yaranırdı. Məlumdur ki, ölkə əhalisinin və təxminən əmək qabiliyyətli əhalinin yarısı regionlarda məskunlaşıb və regionlar kifayət dərəcədə güclü iqtisadi potensiala malikdir. Regionları inkişaf etdirmədən milli iqtisadiyyatın dinamik inkişafını təmin etmək mümkün deyil. Formalaşan milli iqtisadiyyatın səmərəli strukturuna regionlarda sahibkarlığın bütün formalarının inkişafına əlverişli şərait yaratmaqla nail olmaq mümkündür.

Deməli, regionların da iqtisadi resurslarının milli iqtisadiyyatın formalaşdırılmasına cəlb edilməsi mexanizminin işlənib hazırlanmalı idi ki, bu da sonralar öz əksini qəbul olunmuş dövlət proqramlarında tapdı. Lakin, ilkin dövrlərdə regionların bu iqtisadi potensialı hərəkətə gətirməkdə iri şəhərlərlə müqayisədə çox ciddi maliyyə problemləri olduğundan dövlət dəstəyinə çox böyük ehtiyacları var idi. Ölkədə XX əsrin 90-cı illərinin ortalarından başlayaraq makroiqtisadi sabitliyin təmin edilməsi və neft gəlirlərinin artması dövlətə imkan verirdi ki, tədricən də olsa regionlarda da sahibkarlığın inkişafı stimullaşdırılsın, regionların da inkişafına nail olmaqla mərkəzlə regionlar arasında yaranan iqtisadi disproporsiya tədricən aradan qaldırılsın. Həmin dövrdən başlayaraq regionların iqtisadi potensialına uyğun gələn sahibkarlıq formaları inkişaf etdirilməyə başlanılmışdır. Regionlarda əsasən kənd təsərrüfatı məhsulları istehsalı sahəsində məşğul olan sahibkarlıq formaları üstünlük təşkil edirdi. Regionlarda sahibkarlığın müxtəlif formalarının inkişafına mümkün əlverişli şəraitin yaradılmasına baxmayaraq təhlillər göstərir ki, bütün müsbət dəyişikliklərlə yanaşı, müəyyən müddət regionlar arasında disproporsiyalar mövcud olmuş, bu da müəyyən mənada tarazlı inkişafa mane olurdu. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı fərqlər həm kəmiyyət, həm də keyfiyyət xarakterlidir. Regionlar arasında disbalans yaradan səbəblər müxtəlif formada yozulur və qiymətləndirilir. Bu disbalans Bakı şəhəri və digər iqtisadi regionlar arasında özünü daha çox əks etdirir. Xüsusilə sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərin əksər hissəsinin Bakı şəhərində yerləşməsi əhalinin ölkə paytaxtına axınını daha da sürətləndirir. Bu amillər isə iqtisadiyyatın regional baxımdan inkişafına mane olur. Buna müvafiq olaraq qeyd edə bilərik ki, 2008-ci ilin Statistik məlumatlarına istinadən ölkə üzrə ümumi məhsul istehsalının 78%, sənaye məhsulu istehsalının 91%, əsas kapitala qoyulan investisiyaların 61% Bakı şəhərinin payına düşmüşdür.Bu statistik məlumatlardan görünən disbalans Ulu öndər Heydər Əliyevin uzaqgörən iqtisadi siyasəti nəticəsində bu problemlər tədricən yumşaldılmış və prezident İlham Əliyevin qəbul etdiyi dövlət proqralarının reallaşdırılması ilə öz həllini tapmışdır.

Makroiqtisadi sabitliyin formalaşdırıldığı ilkin dövrdə regionların sosial-iqtisadi inkişaf problemlərinin müəyyən müddət diqqətdən kənarda qaldığını nəzərə alsaq regional siyasətin özünəməxsus alətlərinin hərəkətə gətirilməsi çətinliklə mümkün olmuşdur. Hər bir region özünün inkişaf səviyyəsinə, təbii- resurs potensialına, istehsal ixtisaslaşmasına görə digərlərindən fərqləndiyi üçün regional siyasətin istiqamətləri bütün regionlar üçün standart şəkildə müəyyənləşdirilə bilməz və konkret regionların məlumatları əsasında bu istiqamətlərin əlaqələndirilməsi zəruridir.Ulu öndər Heydər Əliyevin iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərifindən uğurla davam edirilir. İlham Əliyev prezident seçildiyi ilk illərdən başlayaraq bu problemlərin həlli üçün Azərbaycan dövləti tərəfindən bir neçə məqsədli

proqramlar: "Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramları", "Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritisi" qəbul edilmişdir.

Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı dövlət proqramları tərtib edilərkən regionların fərqli xüsusiyyətləri mütləq şəkildə nəzərə alınmışdır. Dövlət proqramlarının tərtibi zamanı dünya dövlətlərinin qabaqcıl təcrübəsindən də istifadə edilmişdir. Əksər dövlətlər iki növ mexanizmlərdən istifadə edirlər: iqtisadi inkişaf agentliklərinə və ya bələdiyyə qurumlarına yönəlmiş regional inkişaf proqramları; bilavasitə müəssisələrə ünvanlanan regional yardım sxemləri. Sonuncu halda bu yardımlar dotasiya formasında yox, adətən kreditlər, qrantlar, kommersiya ssudaları, vergi güzəştləri formasında olur. Tədricən onların xüsusiyyətləri nəzərə alınmaqla regionların müəyyənləşdirilməsi sistemi tətbiq olunur. Bu məqsədlə bir çox dövlətlər əsas meyar kimi işsizlik səviyyəsini qəbul edirlər. Ölkəmizdə aqrar sektorda bu təcürbənin müəyyən ünsürlərindən istifadə olunur.

Regionların hərtərəfli inkişafına nail olmaq üçün 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədi ilə dörd dövlət proqramı qəbul edilmişdir. Artıq üç dövlət proqramı qarşısına qoyulan vəzifələri uğurla reallaşdıraraq başa çatmışdır. 2019-2023-cü ili əhatə edən dördüncü dövlət proqramının isə reallaşdırılmasına başlanılmışdır. Məqsədli siyasətin davamı olaraq Azərbaycanda qəbul edilən regionların inkişafı ilə əlaqədar 2019-2023-cü illəri əhatə edən IV Dövlət Proqramı ölkə iqtisadiyyatının inkişafında makroiqtisadi sabitliyin təmin olunmasında, iqtisadiyyatın diversifikasiyasında, milli iqtisadiyyat sektorlarının balanslaşdırılmış inkişafında, yeni müəssisələrin və daimi iş yerlərinin yaranmasında və regionlar arasında disproporsiyaların aradan qaldırılmasında, eləcə də yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayır. İqtisadi sahədə həyata keçirilən tədbirlərin reallaşmasına müasir texnologiyaları cəlb etmək və qabaqcıl idarəetmə təcrübəsindən yararlanmaq ümumilikdə ölkənin iqtisadi qüdrətinin artırılmasına şərait yaratmışdır. Buna müvafiq olaraq, regionların sosial iqtisadi inkişafı ilə bağlı qəbul edilən son Dövlət Proqramının uğurlu tətbiqi vasitəsi ilə həmin ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində artımın əldə etmək və regionlarda qeyri-ənənəvi fəaliyyət sahələrinin də inkişaf etdirilməsi nəticəsində bu nisbətdə regionların payını artırmaqla iqtisadi böyüməyə nail olmaq mümkündür. Məşğul əhalinin artımı, müəsisələrin sayının artımı, vergi bazasının genişlənməsi, sahibkarlığın müxtəlif formalarının (regionlar üçün xarakterik olmayan sahibkarlıq formalarının) inkişaf etdirilməsi regionlarda iqtisadiyyatın böyüməsi haqqında tam təsəvvür yaratmaq imkanına malikdir. Son on ildə kənd təsərrüfatı 1,4 dəfə, qeyri-neft sənayesi 1,6 dəfə, ev təsərrüfatlarının istehlak xərcləri dörd dəfə artmışdır. Təsadüfi deyil ki, əsasən regionların payına düşən qızıl ixracı xeyli müddətdir ki,ixracın strukturunda ikinci yerdədir, yaxud ölkəmiz üçün ənənəvi olan qeyri-neft sektoru məhsulu pomidor ixracı da birinciliyi öz əlində saxlayır. 2020-ci ildə Azərbaycanın dünyanın 184 dövləti ilə ticarət əlaqələri olmuşdur. Xarici ticarətin 14%-i MDB üzvü olan dövlətlərin, 86%-i isə digər xarici dövlətlərin payına düşür.

Nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsi, əhalinin rifah səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Nəticədə iqtisadiyyat 3.5 dəfə böyümüş əhalinin gəlirləri 7 dəfədən çox artmışdır. 2021-ci ilin I rübünə əhalinin banklardakı depoziti 8,3 mld. manat təşkil etmişdir.

Dövlət proqramlarının uğurla reallaşmasında Ulu öndər Heydər Əliyevin sərəncamı ilə 1999-cu ildə yaradılmış Azərbaycan Dövlət Neft Fondu müstəsna rol oynamışdır. Xüsusi ilə 2015-ci ildən başlayaraq dünya bazarında xam neftin qiymətinin 4-5 dəfəyə yaxın ucuzlaşması səbəbindən büdcə gəlirləri kəsgin şəkildə azaldı. Həmin dövrdən başlayaraq dövlət büdcəsinin formalaşmasının əsasını təşkil edən Neft Fondundan transferlər sosial problemlərin həlinə yönəldilməklə yanaşı investisiya tutumlu layihələrin də maliyyələşdirilməsində istifadə edilərək bütövlükdə ölkəmizin sosial-iqtisadi inkişfının əsas maliyyə mənbəyi kimi çıxış etmişdir. 2021-ci ilin dövlət büdcəsinin də gəlirlərinin 40%-dən coxunu Neft Fondundan transferlər təşkil edir.

Görundüyü kimi bu gün də neft gəlirləri ölkə iqtisadiyyatının digər sahələrinin də inkişafının investisiya mənbəyi kimi çıxış edir. Ölkədə sahibkarlığın digər sahələrinin inkişafı iqtisadiyyatın investisiya mənbələrini də genişləndirmişdir. Artıq xarici və daxili investisiya mənbələri hesabına ölkə iqtisadiyyatına 250 mlrd.dollardan çox investisiya qoyulmuşdur. Ugurlu iqtisadi siyasət nəticəsində Azərbaycanın iqtisadi hüdudları onun coğrafi hüdudlarını aşıb keçmişdir. Azərbaycanı Avropa ilə birləşdirən neft- qaz boru kəmərləri, onun xarici iqtisadi əlaqələrinin günü-gündən genişlənməsi, Türkiyə iqtisadiyyatına 20 mlrd.dollar, Rusiya Federasiyasının iqtisadiyyatına 1.5 mlrd.dollar civarında investisiya qoyması, ixracatında partnyorlarının Avropa ölkələrinin daha çox xüsusi çəkiyə malik olması ölkənin iqtisadi böyüməsinin əsas göstəricilərindəndir. Xaricdə Azərbaycan kapitalı ilə fəaliyyət göstərən firma kapital idxal edən ölkədə iqtisadi artıma verdiyi töhvə ilə deyil Azərbaycan iqtisadiyyatının həmin firmaların verdiyi töhfə nəticəsində böyüməsi ilə səciyyələnir. Bu təkcə firmanın miqyasının kəmiyyət göstəricisi deyil, iqtisadi artımın, iqtisadi böyümənin ölçülə bilən göstəricisidir. Türkiyənin İzmir şəhərində 2018-ci ilin oktyabrında istismara verilən "Star" neft emalı zavodu 100% Azərbaycan kapitalı əsasında fəaliyyət göstərir. Onun səhmlərinin 60%-i Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR TÜRKEY Enerji AS), 40 %-i isə Azərbaycan İqtisadiyyat Nazirliyinə məxsusdur. Bu zavod Azərbaycan neftini emal etməklə yanaşı Türkiyənin kimya məhsulları istehsal edən "Petkim" zavodunun əsas xammal təminatçısıdır. Azərbaycan Respublikası kapitalını xarici ölkədə yerləşdirməklə ona məxsus xam neftin emalından və onun son məhsula çevrilməsindən faydalanmaq imkanı əldə etmişdir. İllik emal gücü 10 milyon ton xam neft olan "Star" neft emalı zavodunun fəaliyyətinin ilk beş ilində Azərbaycan Respublikasının 864 milyon , növbəti on ildə isə 614 milyon dollar gəlir götürməsi proqnozlaşdırılır. Artıq bu zavod Azərbaycanın coğrafi məkanından kənarda olsa da onun iqtisadi hüdudlarındadır. Azərbaycanın Türkiyə Respublikasının iqtisadiyyatına 20 milyard dollar civarında (Azərbaycan Türkiyə Respublikasının ən böyük investorlarındandır) investisiya qoymasından Türkiyənin kifayət dərəcədə faydalanmaqla (xüsusi ilə məşğulluğun təmin edilməsi baxımından) ölkəmiz beynəlxaq dəyərin yaranması zəncirində iştirak etmək imkanı əldə edir. Ölkəmizin iqtisadi hüdudları böyüyür.

Bununla yanaşı ÜDM-də xam neftin və neft məhsullarının xüsusi çəkisinin çox yüksək olması iqtisadi inkişafın mütərəqqi meyli kimi qiymətləndirilə bilməz. Bu deyilənlər 2015-ci ildə dünya bazarında xam neftin qiymətinin kəskin şəkildə düşməsi ilə təsdiqləndi. Azərbaycanın milli valyutası olan manat il ərzində iki dəfə devalvasiyaya uğradı. İqtisadi siyasətin ugurla reallaşmasının əsas istiqamətlərindən biri də bu gün Azərbaycan iqtisadiyyatı üçün xüsusi ilə zəruri olan iqtisadiyyatın diversifikasiyasıdır. İqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişaf etdirilməsi milli iqtisadiyyatımızın neftdən asılılığını minimuma endirər. Azərbaycanda milli iqtisadi inkişaf perspektivləri iqtisadiyyatın şaxələndirilməsinin daha da dərinləşməsi ilə səciyyələnir. Bu şaxələndirilmə istehsal tsiklinin xammal-son məhsul, məhsulun son istehsala qədər davam etdirilməsini əhatə edir. Perspektivdə iqtisadiyyatın diversifikasiyasının dərinləşdirilməsi nəticəsində neftdən asılılıq minimuma endiriləcək, ÜDM-də xüsusi çəkisi aşağı düşəcək, ixracda neft və neft məhsullarının payı 89%-dən 70%-ə xam neftin payı isə 80%-dən 60%-ə qədər azaldılacaq. Iqtisadi diversifikasiya nəticəsində səmərəli iqtisadi struktur formalaşacaq.

2020-ci ildə baş verən müəyyən hadisələri diversifikasiyaya mane olan amil kimi diqqəti cəlb edir. Xüsusi ilə 2020-ci ilin əvvəllərindən başlayan və hələ də davam edən Covid-19 pandemiyası dünya iqtisadi inkişafına ciddi problemlər yaratmış və Azərbaycan iqtisadiyyatından da yan keçməmişdir. Sanki pandemiyanın təsiri nəticəsində iqtisadi diversifikasiya ikinci plana keçmişdir. Beləki, 2020-ci ilin əvvəllərindən Çin Xalq Respublikasında yaranan və qısa bir müddətdə dunyanı cənginə alan Covid-19 virisu dünya iqtisadiyyatına və ayrılıqda götürülmüş milli iqtisadiyyatlara ciddi problemlər yaratdı. UDM-in artım tempi ləngiməyə və tədricən aşağı meyllənməyə başladı. İşsizliyin, yoxsulluğun və inflyasiyanın səviyyəsi yüksəlməyə başladı. Sahibkarlıq subyektləri ciddi problemlərlə

üzləşdi.İqtisadiyyatda mütərəqqi struktur dəyişikliklərinin həyata keçirilməsi cox ciddi maneələrlə qarşılaşdı. Azərbaycan da dünyanın bir parçasıdır və dünya iqtisadiyyatına kifayət dərəcədə inteqrasiya edib. Qlobal miqyasda baş verən bu və ya digər hadisələr az və ya çox dərəcədə Azərbaycana da təsirsiz ötüşmür. Belə ki, pandemiyadan zərər çəkən iqtisadiyyat sahələri müəyyənləşdirilərək onların iflasa uğramasının qarşısına almaq məqsədi ilə 2020-ci ildə 2mld. dollar civarında dövlət tərəfindən maliyyə dəstəyi göstərilmişdir. 600 min müvəqqəti iş yerini itirmiş insanlara 4 ay hər ay 190 manat olmaqla birdəfəlik müavinətlər ödənilmişdir.Demək olar ki dövlətin diqqətindən kənarda qalan əhali kateqoriyası olmamışdır. Azərbaycanda son 17 il ərzində həyata keçirilən iqtisadi siyasət nəticəsində elə bir möhkəm təməl yaranıb ki, dövlət istənilən böhranla əlaqədar düzgün addımlar atır və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, bütün sosial, iqtisadi öhdəlikləri yerinə yetirmək gücündədir. Qlobal böhrana baxmayaraq ölkəmiz üçün lazım olan infrastruktur layihələrinin icrası davam etdiriləcək. Qeyd olunanlarla əlaqədar aşağıdakı cədvələ nəzər salaq:

**Cədvəl 1. Dövlət büdcəsinin gəlirlərinin 2019-cu və 2020-ci illərin altı ayı üzrə müqayisəsi**

***Milyon manat***

| Dövlət büdcəsinin gəlir mənbələri | 2019-cu ilin yanvar-iyun ayları | | | | 2020-ci ilin yanvar-iyun ayları | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Proqnoz | Cəmi daxilolma | Fərq,+; - | icra,% | Proqnoz | Cəmi daxilolma | Fərq,+; - | icra, % |
| Dövlət büdcəsinin gəlirləri, o cümlədən | 11314,6 | 10405,7 | -909,0 | 92,0 | 11684,5 | 12022,7 | 338,2 | 102,9 |
| Vergi gəlirləri, | 4529,2 | 4942,9 | 413,7 | 109,1 | 4956,0 | 5378,2 | 422,3 | 108,5 |
| Qeyri-vergi gəlirləri (Dövlət Neft Fondundan daxiolmalarla birlikdə) | 6785,4 | 5462,8 | -1322,7 | 80,5 | 6728,5 | 6644,5 | -84,1 | 98,8 |

*Mənbə: Azərbaycan Respublikasının Maliyyə və İqtisadiyyat nazirliklərinin məlumatları*

Yuxarıda qeyd olunan dövlət qurumlarının məlumatları əsasında müəllif tərəfindən hazırlanmış "Cədvəl-1"-dən göründüyü kimi ötən ilin altı ayı ilə müqayisədə cari ildə dövlət büdcəsinin gəlirləri proqnozdan artıq icra olunmuşdur, bu tendensiya 2021- ci ilin dövlət büdcəsinin icrasında da davam etməkdədir. 2021-ci ilin I kvartalının nəticələrinə görə dövlət büdcəsinə proqnozlaşdırılan daxil olmalar artıqlaması ilə yerinə yetirilmişdir. Xüsusilə vergi daxilolmalarınınn proqnozdan artıq olması pandemiyaya baxmayaraq ölkədə iqtisadi aktivliyin yüksək olmasının əyanı sübutudur.

Təməli Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli iqtisadi inkişaf strategiyasını İlham Əliyev uğurla reallaşdırır. Son 17 ildə iqtisadi cəhətdən qüdrətli bir dövlətə çevrilən Azərbaycan bu iqtisadi gücünə arxalanaraq Qarabağı işğaldan azad edə biləcək güclü bir ordu yarada bildi. Qarabağ işğaldan azad edildi.

Azərbaycan Respublikası üçün 2020-ci il qürur yerimiz olan Qarabağın cənab prezident İlham Əliyevin titanik əməyi və şanlı ordumuzun rəşadəti nəticəsində işğaldan azad olunması ili kimi qızıl həriflərlə tariximizə düşdü. Bu qələbəmiz hər şeylə bərabər çox böyük maliyyə sərfi hesabına başa gəlmişdir.

Qarabağın işğaldan azad edilməsi ilə siyasi-iqtisadi reallıq dəyişdi. Bu reallıq nəzərə alınmaqla yeni dövlət proqramının tərtib edilməsinə zərurət yarandı. Bu reallıqları özündə əks etdirən "Azərbaycan 2030: "Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"-də tapdı. Beş bölmədən: 1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, 2. Dinamik, inkuliziv və sosial ədalətə əsaslanan cəmiyyət 3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı 4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış 5. Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi

dövlət proqramında milli prioritetlər kimi müəyyənləşdirilmişdir. İndi ölkəmizin qarşısında çox böyük maliyyə vəsaiti tələb edən Qarabağın infrastrukturunun və bütövlükdə iqtisadiyyatının bərpası məsələləri gündəmdədir. Bu günlərdə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi qəbul edilmişdir. Gəliri təxminən 26 mld. manat, xərci isə 28 mld. manat proqnozlaşdırılan dövlət büdcəsinin büdcə ili üçün 2,2 mld. manatının Qarabağın sosial infrastrukturunun formalaşdırılmasına xərclənməsi nəzərdə tutulub.

**Nəticə**

Qarabağ Azərbaycanın çox zəngin regionlarından biridir. Otuz il işğal altında saxlanılan bu regionun bütün sərvətləri ermənilər tərəfindən vəhşicəcinə talan edilib. Talançılıq ekoloji fəlakət səviyyəsində regionun iqtisadiyyatına sarsıdıcı zərbə vurub. İşğal olunduğu müddətdən təbii resurslarımız Azərbaycanın iqtisadi-təsərrüfat dövriyyəsindən çıxarılmış və bir qrup kriminal erməni oliqarxların varlanmasının əsas mənbəyinə çevrilmişdir.Regionun təsərrüfat xüsusiyyətləri nəzərə alınmadan təbii sərvətlərdən barbarcasına istifadə olunmuşdur. İşğaldan azad olunmuş Qarabağın iqtisadi potensialının iqtisadi dövriyyəyə cəlb olunması hər şeydən əvvəl bir sıra ciddi problemlərin həllini tələb edir. Uzun müddət işğal altında qalmış ərazilərin zərərli tullantılardan təmizlənməsi, insanların təhlükəsiz təsərrüfat fəaliyyəti ilə məşğul olması üçün əlverişli şəraitin yaradılması, iqtisadi fəaliyyəti canlandırıb milli iqtisadiyyata inteqrasiyasını sürətləndirən infrastrukturun formalaşdırılması zəruridir. Qarabağ regionunda iqtisadiyyatın bərpası Azərbaycan iqtisadiyyatının diversifikasiyasını daha da dərinləşdirəcək, iqtisadi inkişafın yeni-yeni mənbələrinin aşkarlanmasına imkan verəcək. Region üçün səciyyəvi olan iqtisadiyyat sahələrinin payı ÜDM-də daha böyük xüsusi cəkiyə malik olacaq. ÜDM-in, idxalın və ixracın strukturu təkmilləşəcək, qeyri-neft sektorunun ÜDM-də payı artacaq, perspektivdə ÜDM və ixracatda neft və neft məhsullarının xüsusi cəkisi azalacaq. Makroiqtisadi səviyyədə Azərbaycan iqtisadiyyatı milli maraqlara uyğun gələn kompleks təsərrüfat sisteminə çevriləcək.

Nəticə olaraq qeyd etmək istərdim Ulu öndər Heydər Əliyevin iqtisadi strategiyasında mühüm yer tutan uğurlu neft siyasəti dünyada baş verən "şoklar" şəraitində belə yaradılan maliyyə təhlükəsizliyi "yastığı" (Neft Fondunda 46 mld. dollar, MB-da 6 mld. dollara yaxın vəsait cəmləşdirilmişdir) hesabına ölkəmizdə davamlı, dinamik inkişafı reallaşdırılmaqdadır. BVF-nin ənənəvi "Qlobal iqtisadi mənzərə" hesabatına əsasən Azərbaycanda iqtisadi artım 2021-ci ildə 2,3%, 2022-ci ildə isə 1,7% olacağı proqnozlaşdırılır.

**Ədəbiyyat**

1. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası Bakı 2019-cu il.
2. İnternational Monetary Fund (İMF), "Global financial stability report. Global Financial Stability Overview: Markets in the Time of COVID-19", 2020-April.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 135s nömrəli Sərəncamı, 2020-ci il aprel.
4. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli 90-VIQD nömrəli Qanunu, 2020-ci il may.
5. The World Bank, "World Bank Group's Operational Response to COVID-19 (coronavirus) – Projects List", 2020-ci il aprel.

**i.e.n., dos.Məmmədov Akif Bəylər oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Email:mammadov_a51@mail.ru*

# MİLLİ İQTİSADİYYAT VƏ STRATEJİ YOL XƏRİTƏSİ ASPEKTİNDƏ ONUN FORMALAŞMASI VƏ İNKİŞAFI

**Xülasə**

Yeni müstəqillik əldə edən ölkələr qarşısında duran ən mühüm vəzifələrdən biri onun dünya iqtisadiyyatına inteqrasiya etməsi dünya təsərrüfatının müstəqil subyektinə çevrilməsi məsələləridir. Müstəqillik əldə edən hər bir ölkə öz iqtisadiyyatını dünya iqtisadiyyatına istiqamətləndirməklə ondan faydalanmaq imkanı əldə edir. Milli iqtisadiyyatlara nisbətən kifayət dərəcədə üstünlüklərə malik olan dünya təsərrüfatı milli təsərrüfatlara öz imkanlarını reallaşdırmağa əlverişli şərait yaradır.

Ulu öndər H.Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə dönüşü ilə siyasi-iqtisadi sabitlik üçün ölkədə əlverişli şərait yarandı. Nəinki neft sektoruna, həm də digər sahələrə kənd təsərrüfatı istehsalına, sosial sferaya xarici sərmayələr qoyulmağa başladı. Neft və qaz birgə layihələri işlənib reallaşdırıldı. Xarici ticarət əlaqələri kifayət dərəcədə qarşılıqlı faydalılıq prinsipi əsasında həyata keçirilir. Dünyanın əksər ölkələri ilə xüsusilə də dünyanın qabaqcıl ölkələri ilə beynəlxalq iqtisadi əlaqələrin bütün sahələrində Azərbaycan müvəffəqiyyətlə əməkdaşlıq edir.

**Açar sözlər:** *milli iqtisadiyyat, strateji yol xəritəsi, dayanıqlı iqtisadiyyat, iqtisadi təhlükəsizlik, iqtisadi islahatlar*

Dünya iqtisadiyyatına inteqrasiya milli iqtisadiyyatın formalaşması və inkişafı haqqında kifayət dərəcədə təsəvvür yaratmaq imkanına malikdir. Milli müstəqillik əldə etmiş hər bir ölkə dünya iqtisadiyyatına səmərəli inteqrasiya etmək üçün müəyyən hazırlıq mərhələsi keçməlidir. İlkin olaraq milli-iqtisadi təhlükəsizliyini təmin edə biləcək bütün elementlər hərəkətə gətirilməlidir. Milli təhlükəsizliyin təmin edilməsi dünya iqtisadiyyatına inteqrasiyada bərabərhüquqluluğu təmin edən şərtlərdən biri kimi çıxış edir. Böyük əksəriyyət inkişaf etmiş ölkələr yeni müstəqillik əldə etmiş ölkələrin müstəqilliyinə qısqanclıqla yanaşaraq onları öz nüfuz dairələrinə cəlb etməyə çalışırlar. Ona görə də yeni yaranan milli dövlətlər milli təhlükəsizliklərinin təmin edilməsini özlərinin mühüm vəzifələrdən biri hesab edirlər. Milli müstəqilliyin mühüm atributu olan iqtisadi təhlükəsizlik dünya təsərrüfatına qovuşmada başlıca meyarlardan biri kimi çıxış edir. İqtisadi təhlükəsizlik nəzərə alınmadan dünya iqtisadiyyatına inteqrasiya məqsədə çevrilərsə, bu arzuolunmaz nəticələrə gətirib çıxarar. Bütün digər şərtlər nəzərə alınmaqla dünya iqtisadiyyatına inteqrasiyada qarşılıqlı faydalanma prinsipləri əsas olmalıdır.[3]

Ölkəmiz bu və digər beynəlxalq siyasi-iqtisadi təşkilatlarda təmsil olunur. Dünya birliyinə inteqrasiyanın bütün formalarından faydalanmaqla iqtisadi inkişafı üçün əlverişli şəraitə malik olur. Bütün bunların nəticəsidir ki, dünya təcrübəsindən səmərəli istifadə edən və real gerçəklikdən irəli gələn xüsusiyyətləri nəzərə alan Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvünə çevrilmişdir. Nəzəri iqtisadçılar xüsusi mülkiyyətin əlahiddələşmə və məhdud məkanda sistem yaratma xassəsini milli iqtisadiyyatın formalaşmasının əsas istiqamətlərindən biri kimi qəbul edirlər. İstehsal vasitələrinin xüsusi çəkisi mülkiyyətçisinə çevrilən insanlar, sahibkarlar dövlətlə birlikdə milli iqtisadiyyatın formalaşdırılmasında fəal iştirak edirlər. Azərbaycan iqtisadiyyatının elmi tədqiqatçıları bu qənaətə gəlirlər ki, sovet dönəmində və müstəqilliyin ilk illərində həyata keçirilən iqtisadi siyasətin müxtəlif mərhələlərinin səmərəli uzlaşdırılması Azərbaycanın bölgədə və dünyanın güclü dövlətlərindən birinə çevrilməsində müəyyən edici rol oynamışdır.

İqtisadi inkişafın milli problemlərinin həllində ən böyük maneələrdən biri bu problemlərin qlobal problemlərlə çulğalanmış şəkildə baş verməsidir. Bu gün dünya iqtisadiyyatına çox ciddi zərbə vuran maliyyə böhranı bir qrup ölkələr milli iqtisadiyyatların formalaşması dövründə təsadüf etdiyindən ona mane olan əsas amillərdən biri kimi çıxış edir. Bir nəzəri iqtisadçı kimi hesab edirəm ki, kapitalın təbiətinə xas olmayan sosial problemlərin həlli öz üzərinə götürməsi cəhdi onun özünü saxlama və qoruma instinqtini zəiflədir. Beynəlxalq əlaqələrin ən həssas nöqtəsi olan maliyyə münasibətlərinə sarsıdıcı zərbə vurdu. Belə bir şəraitdə subyekt (antiböhran tədbiri həyata keçirən dövlət qurumu və ya şəxs) obyektiv iqtisadi inkişaf qanunlarının yol verdiyi hədd daxilində iqtisadiyyata təsir göstərərək maliyyə resurslarından milli məqsədlərin reallaşmasına səmərəli istifadə mexanizmi yaratmağa çalışırlar.[4]

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin riskli addım ataraq 2007-ci ildə əhalinin qazla təminatına heç bir çətinlik yaratmadan qaz idxalının dayandırılmasına göstəriş verdi. Nəticədə 2,5-3 mlrd.ABŞ dolları məbləğində vəsaitə qənaət olunmuşdu. Azərbaycan artıq qaz ixracatçısına çevrilib, "Ümid" yatağının kəşfi ixrac imkanlarını daha da genişləndirir. Azərbaycan Respublikasının sərbəstləşdirilmiş maliyyə vəsaiti (neft fondunun vəsaiti və Mərkəzi Bankın ehtiyat fondu təxminən 40 mlrd.ABŞ dolları) müxtəlif xarici banklarda saxlanılırdı. Artıq Azərbaycan Respublikasının Prezidenti bu vəsaitlərin ölkə banklarında yerləşdirilməsinə göstəriş verib. Nəzərdə tutulur ki, bu vəsaitlər dövlətin müvafiq orqanlarının ciddi nəzarəti altında real sektorun kreditləşdirilməsində istifadə olunsun. İxracyönümlü məhsul istehsal edən müəssisələrin iqtisadi göstəricilərinin pisləşməsinə yol verməmək nəzərdə tutulur.

Yeni müstəqillik əldə etmiş dövlətlər beynəlxalq maliyyə qurumlarına inteqrasiyasının səviyyəsindən asılı olaraq milli problemlərinin həllində ondan fərqli formada faydalanır. Müasir şəraitdə beynəlxalq maliyyə qurumlarının imkanlarına nisbətən məhdudluğu şəraitində daxili resursların çevik hərəkətə gətirilməsinə üstünlük verilməlidir. Böyük əksəriyyət inkişaf etmiş ölkələr yeni müstəqillik əldə etmiş ölkələrin müstəqilliyinə qısqanclıqla yanaşaraq onları öz nüfuz dairələrinə cəlb etməyə çalışırlar. Ona görə də yeni yaranan milli dövlətlər milli təhlükəsizliklərinin təmin edilməsini özlərinin mühüm vəzifələrdən biri hesab edirlər. Milli müstəqilliyin mühüm atributu olan iqtisadi təhlükəsizlik dünya təsərrüfatına qovuşmada başlıca meyarlardan biri kimi çıxış edir. İqtisadi təhlükəsizlik nəzərə alınmadan dünya iqtisadiyyatına inteqrasiya məqsədə çevrilərsə, bu arzuolunmaz nəticələrə gətirib çıxarar. Bütün digər şərtlər nəzərə alınmaqla dünya iqtisadiyyatına inteqrasiyada qarşılıqlı faydalanma prinsipləri əsas olmalıdır.

Ölkəmiz bu və ya digər beynəlxalq siyasi-iqtisadi təşkilatlarda təmsil olunur. Dünya birliyinə inteqrasiyanın bütün formalarından faydalanmaqla iqtisadi inkişaf üçün əlverişli şəraitə malik olur. Bütün bunların nəticəsidir ki, dünya təcrübəsindən səmərəli istifadə edən və real gerçəklikdən irəli gələn xüsusiyyətləri nəzərə alan Azərbaycan dünya birliyinin bərabərhüquqlu üzvünə çevrilmişdir.[5]

Möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla aparılan davamlı islahatlar nəticəsində Azərbaycan dünya iqtisadiyyatında yeni çağırışlara cavab verir. İstər regionda, istərsə də qlobal iqtisadiyyatda gedən proseslər, neft gəlirlərinin kəskin azalması, mürəkkəb xarici iqtisadi mühit ölkənin makroiqtisadi və maliyyə sabitliyinə öz təsirini göstərməkdədir. Dünyada cərəyan edən proseslərin yaratdığı yeni çağırışlara uyğunlaşmaq və mövcud qlobal iqtisadi böhranın ölkəmizə təsirini minimuma endirmək məqsədilə iqtisadi islahatların əsas strateji hədəflərinə uyğun olaraq sistem xarakterli bir sıra tədbirlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaqla iqtisadi inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılması qarşıda duran əsas prioritet vəzifələrdəndir.[1]

İqtisadi islahatlara sistemli yanaşmanı təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və

iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"nin başlıca istiqamətləri təsdiq edilib, habelə həmin istiqamətlərə müvafiq olaraq inkişaf planlarının işlənilməsini təmin etmək üçün müvafiq İşçi qrupu yaradılıb. Həmin sərəncama əsasən işçi qrupu yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin və elmi təşkilatların iştirakı ilə ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində milli iqtisadiyyat və iqtisadiyyatın 11 bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələrini hazırlayıb. Strateji yol xəritəsinin yazılmasında 400 nəfərə qədər xarici və yerli ekspert birbaşa iştirak edib. Bununla yanaşı sənədin yazılması üçün 4 min nəfərlə 150-ə qədər görüş keçirilib. Yerli və xarici akadmeik dairələr, təhsil müəssisələri, özəl sektor və vətəndaş cəmiyyətinin nümayəndələri tərəfindən 1000-dən çox yazılı təklif verilib. Strateji yol xəritəsinin hazırlanmasında Nobel mükafatçılarından başlamış Azərbaycanın sadə vətəndaşlarına qədər ən müxtəlif insanlarla müzakirələr aparılıb. Hətta online qaydada təkliflər verilməsi üçün də imkanlar yaradılıb. Aparılan inklüziv müzakirələr Strateji yol xəritəsinin həqiqətən də mükəmməl bir sənəd olmasını təmin edib.[2]

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyinin daha da gücləndirilməsi və yüksək gəlirli ölkələr qrupuna daxil olması planlaşdırılır.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 2016-cı il 06 dekabr tarixli fərmanla təsdiqlənmiş və müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsinin icrasının monitorinq və qiymətləndirilməsi, habelə kommunikasiyası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə tapşırılmışdır.

Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışından ibarətdir. Sənəd təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin GZİT təhlilini, görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə edir.[2]

Qısamüddətli dövrdə seçilmiş prioritetlərə fokuslanmaqla orta və uzunmüddətli dövrlərdə iqtisadi inkişafın bünövrəsi qoyulacaqdır. Strateji Yol Xəritəsi iqtisadi inkişafa töhfə verən bütün faktorları, o cümlədən yerli və beynəlxalq özəl sektor nümayəndələrinin kommunikasiyası və əməkdaşlığı üçün imkanları təmin edəcəkdir. Dövlət investisiyaları katalizator rolunu oynayacaq, iqtisadi inkişafın lokomotivi isə özəl sektor olacaqdır.

Son 10 ildə Azərbaycan dünyada iqtisadi artım tempinə görə ön sıralarda qərar tutmuşdur. Uğurla həyata keçirilən neft strategiyası əsasında əldə olunmuş gəlirlər hesabına infrastruktur modernləşdirilmiş, qeyri-neft iqtisadiyyatı inkişaf etdirilmiş, sosial rifah yaxşılaşdırılmış, dövlətin balansında olan aktivlər artmış və ÜDM-in həcmini aşan səviyyədə strateji valyuta ehtiyatları yaradılmışdır.

2014-cü ildən başlayaraq neft qiymətlərinin kəskin azalması və ticarət tərəfdaşı ölkələrində iqtisadi böhran nəticəsində ölkədə iqtisadi artım sürətinin yavaşlaması, institusional və struktur çağırışlar, tədiyyə balansı və qeyri-neft büdcə kəsiri, maliyyə-bank sektorunda baş verən proseslər fonunda Azərbaycanda yeni iqtisadi inkişaf yanaşmasına keçid zərurəti yaranmışdır.

Milli iqtisadiyyatın strukturunun yenilənməsi biznes mühitinin daha da yaxşılaşdırılması, ortamüddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiq edilməsi, maliyyə-bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə mümkün

olacaqdır. Buna görə də milli iqtisadiyyat perspektivi nəticəsində dörd strateji hədəf seçilmişdir. Bu hədəflərin və 11 sektor üzrə strateji yol xəritələrinin həyata keçirilməsi nəticəsində real və maliyyə sektorları arasında tarazlığın təmin edilməsi yolu ilə davamlı iqtisadi inkişaf mümkün olacaqdır. İlk strateji hədəfə uyğun olaraq Azərbaycanda fiskal dayanıqlılıq təmin ediləcək və monetar siyasət üzən məzənnə rejimi üzərində qurulacaqdır.

Fiskal və monetar siyasətlərin uzlaşdırılması makroiqtisadi sabitliyi təmin edəcəkdir. Milli iqtisadiyyat perspektivində ikinci hədəf paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması və özəlləşdirmənin həyata keçirilməsi yolu ilə iqtisadi dinamikliyi təmin etməkdən ibarətdir. Üçüncü hədəf insan kapitalının inkişafı ilə bağlıdır ki, bununla əmək bazarının inkişafı milli iqtisadiyyat perspektivinə uyğunlaşdırılacaqdır. Nəhayət, dördüncü hədəf biznes mühitinin daha da yaxşılaşdırılmasını nəzərdə tutur. Milli iqtisadiyyat perspektivində müəyyən edilmiş 11 sektorun dayanıqlı inkişafını təmin edəcək ümumi məsələlər əhatə olunmuşdur.

Ticarətin asanlaşdırılması və keyfiyyətin dəqiq qiymətləndirilməsi üçün Azərbaycan şirkətlərində beynəlxalq standartlar və sertifikatlar tətbiq ediləcəkdir. 2025-ci ildən əvvəl beynəlxalq standartlara uyğunlaşma Azərbaycandan ixrac edilən malları rəqabətədavamlı edəcəkdir. Beynəlxalq sertifikatlardan daha çox istifadə etibarlı keyfiyyət ölçüsü yaradaraq yerli istehlakın səviyyəsini yüksəldəcəkdir. Azərbaycana coğrafi baxımdan ən yaxın iki regional bazarda – Avropa İttifaqı və Avrasiya İttifaqında ÜTT standartları əsas götürüldüyündən, Azərbaycanda da bu standartlara uyğun məhsul və xidmətlərlə qeyri-neft ixracının həcmi genişləndiriləcəkdir. Yerli şirkətlər öz məhsullarının keyfiyyətini yaxşılaşdırmaqla yerli istehlakçıların getdikcə artan keyfiyyət tələblərinə cavab verəcəklər. Nəticədə, "Made in Azerbaijan" brendi beynəlxalq bazarlarda keyfiyyət göstəricisinə çevriləcəkdir. "Made in Azerbaijan" brendinin tanıdılması istiqamətində görüləcək işlərin effektivliyini artırmaq məqsədilə ölkədə istehsal olunan mallar və həmin malların istehsalçıları barədə məlumatları əks etdirən internet portalı yaradılacaqdır. Bu portalda məlumatların üç dildə - Azərbaycan, ingilis və rus dillərində yerləşdirilməsi istifadəçi əhatəsini genişləndirməklə, yerli məhsulların tanıdılması baxımından daha faydalı olacaqdır. Nəticədə, istehsalçı – istehlakçı arasında əlaqələr asanlaşacaq, rəqabətqabiliyyətli yerli məhsulların ixracının həcmi artacaqdır.

2025-ci il perspektivində Azərbaycanda sərmayə qoymuş investorların daha da möhkəmlənməsi və yeni birbaşa xarici investisiyaların cəlb edilməsi təmin olunacaqdır. Xüsusilə, rəqabət üstünlüyü olan konkret investisiya layihələri maraqlı xarici sərmayədarlara təqdim olunacaqdır. Azərbaycanı qlobal dəyər zəncirlərinə inteqrasiya etmək imkanına malik mühüm investorların və ya eyni sektorda fəaliyyət göstərən şirkətlərə ciddi siqnal verən investorların cəlb olunması üçün xüsusi investisiya imtiyazları və təklifləri veriləcəkdir. Mövcud və potensial investorlara göstərilən xidmətlər onlara inzibati prosesləri çevik başa çatdırmağa və tikinti firmaları, təchizatçılar və ya təhsil sektorundakı təşkilatlarla əlaqə qurmağa imkan verəcəkdir. Xarici investorların yerli məhsul və xidmətlərə daha çox tələbatının yaradılması üçün mexanizmlər qurulacaqdır. Geniş çeşidli və əlverişli maliyyə xidmətləri təklif edən sabit və dərin maliyyə sistemi formalaşdırılacaq ki, bu da iqtisadiyyatın və ev təsərrüfatlarının müvafiq ehtiyaclarını ödəməklə iqtisadi inkişafa töhfə verəcəkdir.

Sabit makroiqtisadi şərtlər, ciddi fiskal intizam və möhkəm hüquqi baza fiziki və əqli mülkiyyət hüquqlarının ciddi qorunduğu biznes mühiti yaradacaq və bunun nəticəsində özəl investisiya həcmi kifayət qədər artacaqdır. Bundan əlavə müvafiq tənzimləmə siyasəti rəqabəti gücləndirərək istehsal edilən yerli mal və xidmətlərin təminatı, keyfiyyəti və səmərəliliyində ciddi artıma yol açacaqdır. Bu zaman yerli kiçik və orta müəssisələrin inkişafının dəstəklənməsinə xüsusi diqqət yetiriləcəkdir. Bu sahədə göstərilən təşəbbüslər kredit, ixracın artırılması, keyfiyyətli təlim proqramlarının təklif edilməsi və ya inzibati prosedurların sadələşdirilməsi imkanlarına çıxışı yaxşılaşdıracaqdır. Daha yaxşı dövlət planlaşdırması Azərbaycanın böyük logistika qovşağı, həmçinin region ölkələrinin daha üstün iqtisadi

inteqrasiyası üçün tələb olunan zəruri infrastrukturun tikintisinə şərait yaradaraq şəhər və kənd yerlərindəki gəlir fərqini aradan qaldırmağa kömək edəcəkdir.

Dövlət sektorunun 2025-ci il üzrə iqtisadi perspektivdə öz yenilənmiş rolunu həyata keçirməsi üçün dövlət müəssisələrinin fəaliyyəti ciddi monitorinq ediləcək və idarə olunacaqdır. Burada əsas məqsəd həmin müəssisələrdə dövlətin idarəetmə çərçivəsinin aydınlaşdırılması, həmçinin monitorinq və strateji menecmentin tətbiqi olacaqdır. Əksər dövlət müəssisələrinin fəaliyyətlərini nəzərə alacaq aydın mandat və icra hədəflərinin işlənib hazırlanması şəffaflığı artıracaq, habelə dövlət, dövlət müəssisəsi və ictimaiyyət arasında yaradıcı dialoqu inkişaf etdirəcəkdir. Monitorinq və sahiblik daha da möhkəmləndiriləcək, peşəkar korporativ strukturlar gücləndiriləcəkdir. Bundan əlavə Azərbaycan dövləti öz portfelini strateji cəhətdən qiymətləndirərək özəlləşdiriləndən sonra daha məhsuldar olacağı ehtimal edilən qeyri-strateji aktivlərin özəlləşdirilməsini həyata keçirəcəkdir. Bütövlükdə bu proses ictimai və milli maraqları tam nəzərə alaraq hər bir özəlləşdirmə prosesinin başlanğıcında lazımi tənzimləmə və bazar strukturunu yaradacaqdır.

2025-ci ildən sonrakı dövr üçün hədəf baxış sosial rifah halının yaxşılaşdırılmasını və insan inkişafı indeksinin ən yüksək həddə çatdırılmasını təmin edən və yüksək texnoloji inkişafa və iqtisadiyyatın optimal strukturuna əsaslanan güclü rəqabətqabiliyyətli və inklüziv iqtisadiyyat qurmağı nəzərdə tutur. Güclü orta təbəqə, rəqabət üstünlüyü olan sahələrdə dərin ixtisaslaşma, dünya iqtisadiyyatı ilə effektiv inteqrasiya, milli iqtisadi təhlükəsizliyin təmin edilməsi və inkişaf etmiş infrastruktur 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışın əsas sütunlarını təşkil edəcəkdir. Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq dünyanı dayanıqlı və güclü edəcək təxirəsalınmaz, cəsarətli və transformativ tədbirlərin həyata keçirilməsi öhdəliyinə sadiq qalacaqdır.

2025-ci ildən sonra Azərbaycanın şaxələndirilmiş və dayanıqlı iqtisadiyyatında ümumi əlavə dəyərin dörddə üçündən çoxu qeyri-neft sektorlarında yaranacaqdır. Növbəti illərdə rəqabətədavamlı əmək xərcləri Azərbaycan iqtisadiyyatı üçün qısamüddətli katalizator rolunu oynayacaqdır. Lakin faktiki rəqabət üstünlüyü qabaqcıl texnologiyalar və digər innovasiya formalarından istifadə ilə yanaşı, keyfiyyətli təhsil və peşə təliminin nəticəsi kimi yüksək məhsuldarlıq hesabına yaranacaqdır. Başqa sözlə, 2025-ci ilədək olan dövr biliktutumlu iqtisadiyyata keçid dövrü olacaqdır. 2025-ci ildən sonrakı dövrdə innovasiya əsaslı inkişaf modelinə keçid əvvəlki illərdə rəqabət üstünlüyü olan və inkişaf etmiş qeyri-neft sektorlarında ixtisaslaşmanın daha da dərinləşdirilməsi hesabına daha çox dəyərin ölkədə qalmasını təmin edəcəkdir. Texnologiya transferi və biliyin kommersiyalaşdırılmasının genişləndirilməsi investisiya qoyuluşunun səmərəliliyini artıracaqdır. İqtisadiyyatın həm regional, həm də sahələrarası strukturunun optimallığı artacaq ki, bu da tarazlı və dayanıqlı inkişafı təmin edəcəkdir. Xüsusilə, Azərbaycanda regional inkişaf mərkəzlərinin formalaşması bölgələrdə iqtisadiyyatın rəqabətqabiliyyətli sahələrində ixtisaslaşmanın dərinləşdirilməsi hesabına ümumi iqtisadi inkişafı təmin edəcəkdir. Bakı beynəlxalq əhəmiyyətə malik sənaye və xidmət mərkəzinə çevriləcəkdir.

2025-ci ildən sonrakı dövrdə karbohidrogen və qeyri-karbohidrogen gəlirləri arasındakı tarazlığa nail olunacaq və hər il ARDNF-dan iqtisadiyyata inyeksiyalar “qızıl qayda” əsasında təmin ediləcəkdir. Belə yanaşma neft-qaz qiymətlərindəki dəyişikliklərin təsirini yumşaldaraq sərbəst üzən yerli valyutaya inamı artıracaq və iqtisadi inkişafın dayanıqlılığını təmin edəcəkdir. Makroiqtisadi sabitlik həm yerli, həm də xarici özəl sektor nümayəndələrinin investisiya qoyuluşlarının stimullaşdırılması üçün zəmin olacaqdır. Beynəlxalq maliyyə bazarları ilə inteqrasiya və maliyyə texnologiyalarının tətbiqi əsasında rəqabətqabiliyyətli maliyyə sistemi dayanıqlı iqtisadi inkişafı dəstəkləyəcək və əhalinin rifahını yaxşılaşdıracaqdır. Qeyri-neft sektoruna əlavə investisiya qoyuluşları 2025-ci ilədək və ondan sonrakı dövrdə daha rəqabətli iqtisadiyyatın vacib hərəkətverici qüvvəsi olacaqdır. Bu səbəbdən gələcəkdə sənaye və xidmət sektorlarına birbaşa xarici investisiyalar daha geniş miqyasda cəlb ediləcəkdir. Texnologiya, bacarıqlar və qlobal dəyər zəncirlərinə çıxış təklif edən iri xarici şirkətlərin

qeyrineft sektoruna investisiya yatırımı Azərbaycanın qlobal iqtisadi xəritədə yerini möhkəmləndirəcəkdir. Azərbaycana xarici investorlar strateji olaraq üç aspekt üzrə cəlb ediləcəkdir: son dərəcə cəlbedici investisiya imkanlarının yaradılması (məsələn, müasir infrastruktura malik sənaye parkları); aparıcı beynəlxalq şirkətlərə məqsədyönlü çıxış; mövcud və gələcək investorlar üçün birinci sinif xidmətlər.[2]

2025-ci ildən sonrakı dövrdə ixrac təkcə mal deyil, həm də xidmət çeşidinin artması hesabına şaxələnəcək və böyüyəcəkdir. İxracın artan məhsul və xidmət sayına əsaslanması neft və qaz qiymətlərindəki dəyişkənliklərdən asılılığı azaldıb, xarici valyuta gəlirini sabitləşdirəcəkdir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı
2. Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xritələri"nin təsdiq edilməsi haqqında 06 dekabr 2016-cı il tarixli Fərmanı
3. Əliyev Ü.Q. "Keçid dövrünün milli iqtisadi problemləri". Bakı 2008
4. Əhmədov M.A. "Qloballaşma və milli iqtisadiyyatın formalaşması". Bakı 2003
5. Qafarov Ş.S. "Müasir iqtisadi sistem və qloballaşma". Bakı 2003

**Niftəliyev Nazim Fazil oğlu**
*Mingəçevir Dövlət Universiteti*
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı*
*n_niftaliev@mail.ru*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MİLLİİQTİSADİYYATININ İNKİŞAF STRATEGİYASI

**Xülasə**

*Məqalə Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan milli iqtisadiyyatının inkişaf strategiyasına həsr olunmuşdur. Heydər Əliyev hələ sovet hakimiyyəti illərində var qüvvəsi ilə Azərbaycanın gələcək inkişafı, tərəqqisi, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması və cəmiyyətin firavanlığı naminə yorulmaq bilmədən çalışmışdır.Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik məziyyətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ruhun hədsiz yüksəlişinin təmin edilməsində misilsiz rol oynamışdır. 90-cı illərdə idarəetmədə xaos və anarxiya, SSRİ-nin süqutu, ermənilərin ölkəmizə qarşı torpaq iddiaları, ölkədə hətta vətəndaş müharibəsinin simptomları müşahidə edilməyə başlamışdı. Bu, dövlətçiliyin itirilməsi, Azərbaycan Respublikasının az qala dünya xəritəsindən silinməsi kimi böyük fəlakətlərə gətirib çıxara bilərdi. Belə gərgin dövrdə xalq üzünü xilaskar oğluna doğru çevirdi və Heydər Əliyev o ağır məqamda yenə xalqının tələbi ilə Azərbaycanın idarəçilik sükanı arxasına qayıtmağa razı oldu.*

***Açar sözlər:*** *Ümummilli lider Heydər Əliyev, Azərbaycan, milli iqtisadiyyat, neft-qaz sektoru, sosial-iqtisadi inkişaf.*

İqtisadiyyat bütün dövlətlərin inkişafının özəyini təşkil edir. İqtisadiyyatı zəif olan bir dövləti heç zaman güclü hesab etmək olmaz. Dövlətin inkişafı onun iqtisadi inkişafından bilavasitə asılıdır. Azərbaycanda iqtisadi inkişaf üçün bütün imkanlar mövcuddur. Azərbaycanda iqtisadi inkişaf özünəməxsus inkişaf metodu ilə fərqlənir.

Heydər Əliyev Azərbaycana rəhbərliyin birinci dövründə (1969-1982) iqtisadiyyatın dirçəlməsi və sürətli inkişafı baxımından xeyli işlər görmüşdür. 1969-cu ilin iyul plenumunda onun Azərbaycanın rəhbəri seçilməsi əslində çağdaş tariximizə ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasının qoyulması kimi daxil olunmasıdır. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə ölkənin müstəqil iqtisadiyyatının təşəkkülü, ardıcıl sosial-iqtisadi islahatların həyata keçirilməsi, bu sahənin dayanıqlı inkişafını təmin edəcək qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində görülən işlər Azərbaycanın iqtisadi inkişafına xeyli təkan vermişdir.

Müasir Azərbaycan tarixinin bir çox parlaq səhifələri, heç şübhəsiz ki, Heydər Əliyevin adı ilə, onun irimiqyaslı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlıdır. Respublikaya otuz dörd illik rəhbərliyi dövründə Azərbaycanın bütün sahələr üzrə inkişafında, xüsusən iqtisadiyyatın dirçəlişində, sosial vəziyyətin yaxşılaşdırılmasında, dövlət müstəqilliyinin möhkəmləndirilməsində onun xidmətləri ölçüyə gəlməzdir. Heydər Əliyev hələ sovet hakimiyyəti illərində var qüvvəsi ilə Azərbaycanın gələcək inkişafı, tərəqqisi, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması və cəmiyyətin firavanlığı naminə yorulmaq bilmədən çalışmışdır. Ötən əsrin 60-cı illərində Azərbaycan sosial-iqtisadi inkişaf cəhətdən bir çox müttəfiq respublikalardan geridə qalırdı. Totalitarizmin ağır nəticələri respublikamızın həyatında dərin izlər buraxmışdı.

Respublikaya rəhbərlik etməyə başladığı ilk dövrlərdə Heydər Əliyev ölkənin keçdiyi yolu dərindən təhlil edərək buraxılan səhvləri, sosial-iqtisadi geriliyin səbəblərini müəyyənləşdirmişdir. Yalnız bundan sonra Heydər Əliyev dühası vəziyyətdən çıxış yolu kimi uzunmüddətli və məqsədyönlü sosial-iqtisadi inkişaf strategiyasının konseptual əsaslarını hazırlamış və mərhələlərlə onun həyata keçirilməsinə başlamışdır. Nəticədə 1969-cu ildən

sonra Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan elə bir dirçəliş yolu keçmişdir ki, dünyanın bir çox ölkələrində bundan ötrü bəlkə də əsrlər lazım gələrdi. Bu dövr ərzində Azərbaycanda güclü sənaye potensialı yaradıldı, aqrar sektor inkişaf etməyə başladı, energetika sistemi yenidən quruldu, çoxlu sayda infrastruktur və sosial obyektlər yaradıldı. Xüsusən, karbohidrogen ehtiyatlarından səmərəli istifadə olunması Azərbaycanın hərtərəfli inkişafında mühüm rol oynadı. Ümumiyyətlə, neft amili Ulu öndərin hakimiyyətinin bütün mərhələlərində uzaqgörən, düşünülmüş iqtisadi və siyasi xətt olaraq daim ön planda durmuşdur. Azərbaycan dünyada neft ölkəsi kimi tanınsa da, vaxtilə bu təbii sərvətdən lazımınca bəhrələnməmişdi. Yalnız Heydər Əliyevin rəhbərliyə gəlişindən sonra xalq öz "qara qızıl"ından bəhrələnmək hüququ əldə etdi və ölkənin gələcək inkişafı üçün etibarlı iqtisadi zəmin yarada bildi. Odur ki, Ulu öndər Heydər Əliyev tarixə həm də müstəqil Azərbaycanın yeni neft strategiyasının müəllifi kimi daxil oldu. Bu böyük şəxsiyyət Azərbaycan xalqının gələcəyini düşünərək hələ ötən yüzilliyin 70-80-ci illərindən inkişafın strateji əsasları kimi neftdən istifadə məsələsini önə çəkərək neft-qazçıxarma sənayesinin tamamilə yenidən qurulması və modernləşdirilməsi ideyasını irəli sürmüş və onun reallaşmasını təmin etmişdir. Yeni neft yataqlarının kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi qazma texnologiyalarından istifadə olunması məhz onun şəxsi təşəbbüsləri və rəhbərliyi ilə həyata keçirilmişdir. Respublikada nəhəng neftayırma kompleksinin yaranması, müasir neft donanmasının, sovetlər birliyində analoqu olmayan və ildə 60 min ton metal konstruksiya istehsal edən Bakı Dərin Özüllər Zavodunun qurulması məhz Heydər Əliyevin təşəbbüsü və iradəsi sayəsində meydana gəlmişdir. Bir neçə onilliklər bundan qabaq yuxusuz gecələr və böyük əziyyətlər hesabına yaradılmış bu potensialın ölkə iqtisadiyyatı üçün nə qədər həlledici əhəmiyyətə malik olmasını biz bu gün tam aydınlığı ilə dərk edirik. Ulu öndər özü çox-çox sonralar həmin illəri xatırlayaraq belə demişdir: "...1970-ci illərdə görülən işlər, yaradılan böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bu günkü müstəqilliyini düşünürdüm. O işləri görən zaman mən əmin idim ki, vaxt gələcək onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradacaqdır". [3]

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür. Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanmışdır. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər cəhətləri isə Ulu Öndərin Azərbaycana müqayisəyəgəlməz dərəcədə böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olmuşdur. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və tarixi şərait baxımından tamam fərqli olan dövrlər eyni missiyanın sadəcə biri-birini tamamlayan iki mərhələsi kimi qiymətləndirilə bilər.

İdarəçilik fəlsəfəsi fərqli və özünəməxsus cəhətlərlə zəngin olan Ümummilli Liderin sovet Azərbaycanına rəhbərliyi mərhələsi ölkəni sürətli inkişaf yoluna çıxarmaqla yanaşı, milli müstəqilliyə etibarlı zəmin formalaşdıran amillərlə də zəngin olmuşdur. Milli özünəqayıdış və özünüdərkin məhz bu dövrdə başlanğıcını qoyan, azərbaycançılığın keçən əsrdə yazılan ən parlaq səhifələrinin müəllifi olan Ulu Öndər Heydər Əliyevin Azərbaycana gətirdiyi ideyalar ölkə həyatını büsbütün müasirləşdirmişdir.

Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik məziyyətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ruhun hədsiz yüksəlişinin təmin edilməsində misilsiz rol oynamışdır. Onun keçmiş sovet idarəçilik sisteminin forma və məzmununu, bütün incəliyini dəqiqliklə

bilməsi bu prosesdə maneə yaradıcı amilləri uğurla neytrallaşdırmasına, eyni zamanda öz ideyalarını reallaşdırmaq istiqamətində mərkəzdən lazımi dəstək almasına imkan vermişdir. Bu kontekstdə Ümummilli Lider Heydər Əliyevin idarəçiliyinin digər önəmli xüsusiyyətləri Azərbaycanın bütün əsas sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyması, sözün əsl mənasında, öz intibah dövrünü yaşaması olmuşdur. [1]

İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər respublikanın istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən ayrılaraq əsaslı şəkildə müstəqilləşdirilməsi, Azərbaycanın iqtisadi muxtariyyətinin təmin edilməsi, sənaye potensialının güclənməsi, təhsil sferasında yeni inkişaf mərhələsinin əsasının qoyulması, xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması kimi möhtəşəm nailiyyətlərə imza atmışdır.

Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamıza ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi. Ümummilli Lider Heydər Əliyev çox sonralar - 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı demişdir: "Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".

Həmin illərdə məhz Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır. Ulu Öndər Heydər Əliyev bu məsələdə daim qətiyyətli mövqe tutmuş, keçmiş ittifaqın rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış etmiş, prinsipiallıq göstərmişdir.

Azərbaycanı böyük inam və bacarıqla idarəedən dahi strateqin rəhbərliyi altında 1970-1980-ci illərdə ölkə iqtisadiyyatının qocaman sahələrindən olan neft emalı sənayesinin əsaslı surətdə yenidən qurulması sayəsində Yeni Bakı Neft Emalı Zavodunda neftin ilkin emalı üçün ELOU-AVT-6 qurğusunun, katalitik reforminq və katalitik krekinq qurğularının, yağların hidro təmizlənməsi və neftin emalı üzrə digər yeni qurğuların yaranması mümkün olmuşdur. Bu isə texnoloji prosesləri xeyli təkmilləşdirməyə, neftin emal dərinliyini artırmağa, buraxılan benzinin və sürtkü yağlarının keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa imkan verdi. Neft sənayesinə böyük diqqətin və qayğının nəticəsində 1980-1982-ci illərdə "Şelf-1" və "Şelf-2" üzən qazma qurğuları hazırlanaraq Xəzər neftçilərinin istifadəsinə verildi. [4]

Aparılan dərin təhlillər göstərirdi ki, tikinti sənayesinin zəif inkişaf etməsi səbəbindən Azərbaycanda istehsal olunan milli gəlirdən tam istifadə yox idi. Hətta keçmiş SSRİ Dövlət Plan Komitəsindən böyük çətinliklə alınan əsaslı vəsait qoyuluşu limitlərindən belə lazımınca istifadə oluna bilinmirdi. Buna görədə Heydər Əliyevin xüsusi tapşırığı ilə qısa vaxt ərzində respublikada bir neçə nəhəng dəmir-beton zavodu və tikinti materialları istehsal edən müəssisə tikildi. Çoxlu sayda inşaat texnikası, maşın və mexanizmlər alındı. İxtisaslaşdırılmış yeni sifarişçi təşkilatlar yaradıldı. Nəticədə Heydər Əliyevin bilavasitə şəxsi nəzarəti altında respublikada kütləvi surətdə məktəblər, xəstəxanalar, uşaq bağçaları, səhiyyə ocaqları, mədəniyyət evləri, şahmat klubları, kitabxanalar, yollar və digər obyektlər tikilməyə başladı. Bütün bunlar ümummilli liderin bilavasitə özünün hazırladığı sosial-iqtisadi inkişafın uzun müddətli strategiyasının ayrı-ayrı epizodları olsa da, bir yerə toplandıqda rəhbərin nəhəng

qurucu təfəkkürünün, unikal yaradıcı təxəyyülünün və yorulmaz fəaliyyətinin miqyasını göstərən amillər kimi heyrətamizdir. Azərbaycanın inkişafı ilə bağlı Heydər Əliyevin düşündüyü strateji xəttin əsas istiqamətlərindən biri də respublikanı çoxsahəli sənaye ölkəsinə çevirmək yolu idi. Əslində, totalitar sistemdə nəhəng sovet sənayesinin bütün strukturları tam şəkildə ittifaq tabeliyində olduğu halda, Heydər Əliyev fitri bacarıqla əyalət sənayesinin inkişafına yönələn xüsusi qərarların təsdiqinə nail ola bilirdi. Bunun sayəsində elmi-texniki tərəqqinin son yeniliklərini tətbiq etməklə Azərbaycanda müasir maşınqayırma, kimya, neft kimyası və elektron sənayesi, əlvan və qara metallurgiya, yüngül, yeyinti və emal sənayesi müəssisələrinin yaradılması, elektroenergetika, nəqliyyat kompleksi və ümumiyyətlə, sənaye infrastrukturunun qurulması üçün respublikaya böyük məbləğdə əsaslı vəsait yönəldilirdi. Dövlət idarəçiliyində Heydər Əliyevin özünəməxsus dəst-xətti, prinsipiallığı, proseslərə müntəzəm şəxsi nəzarəti, tələbkarlığı və obyektivliyi tezliklə öz nəticəsini verirdi. 1970-1980-ci illərdə Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələri sürətli inkişaf yoluna qədəm qoydu. Sənaye məhsulunun artım sürətinə görə Azərbaycan sovetlər birliyində öncül yerlərdən birinə cıxdı, 1985-ci ildə isə artıq əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə iki dəfə artdı, hər bir ölkənin milli sərvətinin bir hissəsi olan əsas fondların 69 faizi tamamilə yeniləşdi. Ulu öndər sanki Azərbaycanın gələcək müstəqillik günlərini görür və dirçəlişin təməlini qururdu. Çox qısa bir zamanda, 1976-1982-ci illər ərzində Azərbaycanda 15 mühüm sənaye müəssisəsi tikilib istifadəyə verildi, 12 iri müəssisənin istehsal gücü artırıldı, buraxılan məhsulun nomenklaturu xeyli genişləndi, fəaliyyətdə olan bir cox maşınqayırma zavodları texniki cəhətdən müasirləşdirildi. Böyük istehsal sahələrinə malik elektrotermik və elektroqaynaq avadanlıqları zavodları, elektrik lyüminissent lampaları zavodu, Bakı məişət soyuducuları zavodu, Sumqayıt kompressorlar zavodu və başqa müəssisələr tikilib istifadəyə verildi. Xüsusilə, Heydər Əliyevin şəxsi təşəbbüsü və daimi nəsarəti altında Bakı Məişət Kondisionerləri Zavodunun qısa vaxt ərzində-cəmi iki ilə araya-ərsəyə gətirilməsi o zaman bütün kecmiş ittifaq respublikalarında nadir hadisə kimi qarşılanmış, Azərbaycanın şöhrətini daha da artırmışdı. Kimya və neft-kimya sənayesi də böyük templərlə inkişaf edirdi. Azərbaycanda etilen və polietilen istehsalı, sintetik kauçuk, mineral gübrələr, yuyucu tozlar və digər məhsullar istehsal edən iri komplekslər istifadəyə verilir, Sumqayıtdakı müəssisələrin demək olar ki, hamısı köklü surətdə yenidən qurulurdu. Respublikada ilk dəfə çoxsahəli əlvan və qara metallurgiya kompleksi yaradıldı, boru-prokat zavodu texniki cəhətdən tamamilə yenidən quruldu. Enerji sisteminin potensialını daha da artırmaq məqsədilə Heydər Əliyev SSRİ rəhbərliyi qarşısında Zaqafqaziyada ən böyük elektrik stansiyasının tikilməsi məsələsini qaldırdı və 3000 meqavat gücü olan 10 bloklu Mingəcevir DRES-in tikintisinə nail oldu. Bir qədər sonra - 1982-1983-cü illərdə Şəmkir SES istifadəyə verildi. Nəticədə respublikamızın su-elektrik stansiyalarının gücü ikiqat artırılaraq elektrik enerjisinin istehsalı 1987-ci ildə təqribən 1,5 milyard kilovat/saata çatdı. Bütün bu işlər yalnız Heydər Əliyevin fenomenal uzaqgörənliyinin, və bacarığının, şəxsi əzmkarlığının, əlbəttəki, Vətənə və dövlətə böyük sevgisinin sayəsində mümkün olub, reallığa çevrildi. Yeni müəssisələrin yaradılması nəticəsində sosial-iqtisadi sferada çalışanların ümumi sayı 1985-ci ildə 2,6 milyon nəfərə çatmışdı. Bu isə 1970-ci illə müqayisədə 1,5 dəfə çox idi. Əgər 1969-cu ildə orta aylıq əməkhaqqının səviyyəsinə görə Azərbaycan 15 müttəfiq respublika arasında axırıncı yeri tuturdusa, 1980-ci ildə artıq 4-cü yerə qalxmışdı. Aqrar sektorun inkişafında əldə olunan uğurlu nəticələr kənd təsərrüfatı işçilərinin sosial vəziyyətini xeyli dərəcədə yaxşılaşdırmış, onların gəlirlərinin artmasına səbəb olmuşdu. Əminliklə deyə bilərik ki, məhz həmin dövrlərdə yaradılan iqtisadi potensial çox sonralar özünün dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın inkişafı üçün yaxşı təməl idi.

Ulu öndərin XX əsrin 70-80-ci illərində düşünüb qurduğu strategiyanın, xalqın dirçəlişi yolunda çəkdiyi gərgin zəhmətlərin və yürütdüyü məqsədyönlü dövlət siyasətinin nəticəsində Azərbaycan Respublikası əsrin sonlarında möhkəm maddi-texniki baza ilə, elmi-mədəni potensialla və geniş iqtisadi strukturla müstəqil inkişaf yoluna qədəm qoya bildi. Burada onu

da qeyd etmək lazımdır ki, məhz əsrin sonlarında keçmiş SSRİ-də gedən siyasi proseslər nəticəsində dövlət idarəçiliyi mexanizmi dağılmış, zəruri əlaqələr pozulmuş, cəmiyyətdaxili ünsiyyətdə vacib şərt olan bir çox dəyərlər deqradasiyaya uğramışdı. Həyatımızın digər sahələri ilə yanaşı, iqtisadiyyatda da reqress yaşanırdı. Xalq psixoloji cəhətdən bir növ ümidsizliyə düçar olmuşdu. Vaxtilə sakit və firavan dolanan əhalinin yaşayış səviyyəsi kəskin şəkildə aşağı düşmüş, maddi vəziyyəti pisləşmişdi. 1993-cü ilin ortalarına doğru isə ölkədə hətta vətəndaş müharibəsinin simptomları müşahidə edilməyə başlamışdı. Bu, dövlətçiliyin itirilməsi, Azərbaycan Respublikasının az qala dünya xəritəsindən silinməsi kimi böyük fəlakətlərə gətirib çıxara bilərdi. Belə gərgin dövrdə xalq üzünü xilaskar oğluna doğru çevirdi. Və Heydər Əliyev o ağır məqamda yenə xalqının tələbi ilə Azərbaycanın idarəçilik sükanı arxasına qayıtmağa razı oldu. Ədalət naminə deyək ki, elə mürəkkəb şəraitdə o cür ağır məsuliyyəti hər adam öz üzərinə götürməyə risk etməzdi. Ancaq böyük iradə və cəsarət sahibi olan müdrik insan bu çağırışa mətanətlə "hə" cavabı verdi. Ölkənin ən təhlükəli vəziyyətində çox böyük iradə və mərdlik tələb edən düzgün tarixi bir addım atdı. Vaxtilə özünün qurub yaratdığı ölkəni xaosun pəncərəsindən xilas etməyə gəldi. Bəli, dahi Heydər Əliyevin hakimiyyətə qayıdışı - Azərbaycanda qurtuluş anının başlanğıcı oldu! Sanki möcüzə baş verdi. Qısa vaxt ərzində respublikada ictimai-siyasi vəziyyət sabitləşdi, qanlı müharibə durduruldu, atəşkəs elan olundu, həyat yavaş-yavaş öz axarına düşməyə başladı. Cəmi bir il sonra - 1994-cü il sentyabrın 20-də ölkəmizdə taleyüklü böyük hadisələr baş verdi. [2]

Dahi strateq Heydər Əliyevin fövqəladə uzaqgörənliyi, qətiyyətli addımları və mətin iradəsi sayəsində "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilənin imzalanması ulu öndərin müstəqil dövlət quruculuğu konsepsiyasının strateji istiqamətlərindən biri, bəlkə də birincisi idi. Dahiyanə istedadla qurulan və böyük cəsarətlə həyata keçirilən yeni neft strategiyası həqiqətən müasir Azərbaycanın taleyində, milli dövlətçiliyin möhkəmləndirilməsində həlledici rol oynadı. Ümummilli liderin rəhbərliyi ilə işlənib hazırlanmış neft strategiyası XXI əsrin astanasında Azərbaycan iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu. Təsadüfi deyil ki, Heydər Əliyevin hazırladığı və həyata keçirdiyi "Əsrin müqaviləsi" kimi tarixə düşən bu beynəlxalq müqavilədən sonra Azərbaycan Respublikasının potensial imkanları dünyaya bütün parlaqlığı ilə açıldı. Respublikamızın sağlam imicinin yüksəldilməsi uğrunda Azərbaycan Prezidentinin səmərəli və yorulmaz fəaliyyəti, dünyanın müxtəlif ölkələrindəki çoxsaylı görüşləri, danışıqları, konfrans və toplantılarda dərin məzmunlu çıxışları, beynəlxalq qurumların məşhur iş adamlarını ölkəmizə sərmayə qoymağa inamla təşviq etməsi və təkidli dəvətləri, habelə aparıcı dövlətlərin rəhbərləri arasında şəxsi nüfuzu tezliklə bir çox beynəlxalq qurumların, transmilli şirkətlərin ölkəmizə marağını artırdı, əməkdaşlıq arzusunda olanların sırasını genişləndirdi. Az sonra 19 ölkənin 41 neft şirkəti iləAzərbaycan arasında 26 sazişin imzalanması bu gərgin fəaliyyətin məntiqi nəticəsi idi.

Ümummilli liderin nadir dühasının və siyasi iradəsinin təntənəsi olan Bakı-Tbilisi-Ceyhan neft kəməri texniki-iqtisadi əhəmiyyətlə yanaşı, həm də çox böyük siyasi mahiyyət kəsb etdi. Məhz buna görədə böyük siyasət və dövlət xadiminin tarixi xidmətlərini nəzərə alan layihə iştirakçıları Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə Heydər Əliyevin adının verilməsini qərara aldılar. Digər iri layihələr - Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi və "Şahdəniz" yatağından qazın hasilatı da ümummilli liderimizin Azərbaycan xalqı və dövləti qarşısında böyük xidmətlərinin sırasında özünəməxsus yer tutur. "Neft Azərbaycanın ən böyük sərvəti olub, xalqa, özü də təkcə indiki nəslə deyil, həm də gələcək nəsillərə mənsubdur". Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə dediyi bu müdrik sözlər diqqətimizi mühüm bir məqama yönəldir. Belə ki, "Əsrin müqaviləsi"nin həyata keçirilməsi nəticəsində ilk gəlirlər əldə edilməyə başlayanda qarşıda duran vacib məsələlərdən biri də bu gəlirdən necə səmərəli istifadə olunması ilə bağlı idi. Məhz belə bir etibarlı mexanizmin yaradılması məqsədilə Heydər Əliyev 29 dekabr 1999-cu il tarixli fərmanı ilə Dövlət Neft Fondunu yaratdı. Fondun əsas vəzifəsi Azərbaycan Respublikası vətəndaşlarının bugünkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi sahəsində bağlanan sazişlərin həyata

keçirilməsindən əldə olunan vəsaitin idarə olunmasını təmin etməkdən ibarət idi. Buraya böyük həcmdə daxil olan valyuta gəlirlərinin ölkədə makroiqtisadi sabitliyin qorunmasına, qeyri-neft sektorunun inkişafının təmin edilməsinə, eyni zamanda, gələcək nəsillər üçün ehtiyat vəsaitinin toplanmasına, ölkənin sosial-iqtisadi tərəqqisi üçün ümummilli əhəmiyyət kəsb edən layihələrin maliyyələşdirilməsinə və s. yönəldilməsi nəzərdə tutulmuşdur. Dövlət Neft Fondu ötən müddət ərzində xalqımızın milli sərvəti olan neft gəlirlərinin idarə olunması sahəsində uğurlu mexanizm kimi özünü doğrultdu. Qurumun aktivləri bu gün artıq təxminən 43564,3 mln ABŞ dollarına çatmışdır. [4]

Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılandan sonra regionların, kiçik və orta sahibkarlığın, qeyri-neft sektorunun, infrastruktur sahələrinin inkişafı, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi, bir çox sosial problemlərin həlli, iqtisadiyyatın intellektual və texnologiya bazasının səviyyəsinin yüksəldilməsinin stimullaşdırılması, "insan kapitalı"nın inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, məcburi köçkünlərin müvəqqəti məskunlaşması üçün qəsəbələrin salınması və s. ilə bağlı tədbirlər intensiv həyata keçirilməkdədir.

Ulu öndərin uzaqgörənliklə işləyib hazırladığı və reallaşdırmağa başladığı, bu gün isə möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən məharətlə həyata keçirilən yeni neft strategiyası Azərbaycan xalqının rifahı naminə zəngin neft ehtiyatlarından səmərəli istifadə edilməklə özünü tam doğrultmuşdur. Heydər Əliyevin məharətli idarəçilik üslubu artıq 1998-ci ilin əvvəlində Azərbaycanda iqtisadi islahatları dərinləşdirmək və sosial-iqtisadi inkişafın daha yüksək sürətini təmin etmək baxımından kifayət qədər möhkəm zəmin yaratmışdı. İqtisadi inkişafımızın templəri get-gedə artırdı. Daim xalqın rifah halının yaxşılaşdırılmasını düşünən respublika rəhbərliyinin əhalinin "mavi yanacağa" olan tələbatını ödəmək istiqamətində gördüyü məqsədyönlü tədbirlər nəticəsində təbii qaz verilən rayonların sayını dörd dəfə artırmaq mümkün oldu. Yeni energetika güclərini yaratmaq və elektrik şəbəkəsi təsərrüfatını genişləndirmək məqsədilə son illərdə bu sahəyə güzəştli şərtlərlə böyük həcmdə xarici sərmayə cəlb olunmuşdur. "Şimal" Elektrik Stansiyasında gücü 400 meqavat, 1 nömrəli Bakı İstilik Elektrik Mərkəzində gücü 105 meqavat olan buxar-qaz enerji blokları tikilmiş, 150 meqavatlıq Yenikənd Su Elektrik stansiyası istismara verilmiş, Mingəçevir Su Elektrik Stansiyasının yenidənqurulması nəticəsində ölkənin enerji sisteminin gücü 700 meqavatadək artırılmaqla 4800 meqavata çatdırılmış bir sıra yüksək gərginlikli xətlərin və yardımçı stansiyaların texniki baxımdan yenidən qurulması işləri aparılmışdır. Makroiqtisadi sabitləşmə və iqtisadiyyatın dinamik inkişafı sahəsində qazanılan uğurlar ölkə vətəndaşlarının yaşayış səviyyəsinin nəzərəçarpacaq dərəcədə yüksəlməsinə imkan vermişdir ki, bu da ümummilli lider Heydər Əliyevin əsas məqsədlərindən biri idi. Onun bütün fərmanları, sərəncamları və tapşırıqları son nəticədə Azərbaycan vətəndaşının maddi rifahının durmadan yaxşılaşdırılmasına yönəlmişdi. Möhtərəm Heydər Əliyevin dünyanın aparıcı ölkələrinin rəhbərləri arasında qazandığı yüksək nüfuzu bir çox dövlətlərin, beynəlxalq təşkilatların və iri şirkətlərin Azərbaycanla əməkdaşlığa maraq göstərməsinə səbəb olmuşdur. Həmçinin beynəlxalq maliyyə-bank qurumları və donor ölkələrlə əməkdaşlıq intensiv inkişaf etdirilmişdir. Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Avropa Yenidənqurma və İnkişaf Bankının, İslam İnkişaf Bankının, Küveyt İqtisadi İnkişaf Fondunun, Avropa Komisiyyasının, Asiya İnkişaf Bankının, Yaponiya İqtisadi Əməkdaşlıq Bankının, habelə bir sıra hökumətlərin verdiyi kreditlər 50-dən cox layihə və proqramın maliyyələşdirilməsi üçün istifadə olunmuşdur. Bu layihə və proqramlar əsasən iqtisadiyyatın infrastrukturunun, kənd təsərrüfatının, sənaye müəssisələrinin və həyati əhəmiyyət kəsb edən obyektlərin inkişafı ilə bağlıdır. Bu gün Azərbaycan artıq 40-a yaxın beynəlxalq siyasi, iqtisadi, maliyyə-bank, mədəni, humanitar təşkilatın tam hüquqlu üzvüdür. Dünyanın 15 aparıcı dövləti və beynəlxalq təşkilatları ilə əməkdaşlıq üzrə komissiyalar və işçi qrupları yaradılmışdır. Bütün bu nailiyyətlər bilavasitə ümummilli lider Heydər Əliyevin böyük xidmətlərinin nəticəsiydi. Azərbaycanın son otuz beş ilə yaxın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı, habelə

müstəqillik əldə edildikdən sonra milli dövlətcilik quruculuğu Heydər Əliyevin adı vəşəxsiyyəti ilə sıx bağlıdır. Azərbaycan ictimai fikir tarixində fenomenal hadisə olan Heydər Əliyev dühası haqqında istər ölkəmizdə, istərsədə xaricdə çox yazılmış, çox danışılmışdır. Onun qeyri-adi işgüzarlığına, fəaliyyət qabiliyyətinə, rəhbərlik, təşkilatçılıq, idarəçilik istedadına, tükənməz enerjisinə, xalqa, Vətənə sonsuz sevgisinə dair görkəmli dövlət xadimləri, tanınmış elm, ədəbiyyat, incəsənət adamları çox dəyərli sözlər söyləmiş, yüksək fikirlər demişlər. Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisi, memarı və qurucusudur. Bu gün 30-cu baharını yaşayan müstəqil dövlətimizin təməli, iqtisadi-mənəvi, hətta ideoloji özülü uzaq 70-ci illərdə, Heydər Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində qoyulmuşdur. Heydər Əliyevin respublikaya ilk rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycan bütün tarixi ərzində görünməyən sürətli inkişaf yolu keçdi. Vaxtilə qazanılan uğurları nəzərdə tutaraq Heydər Əliyev belə deyirdi: “O dövrdə respublikamızda yaranmış güclü sosial-iqtisadi və intellektual potensial xalqımızın milli sərvətidir və Azərbaycanın müstəqilliyi üçün yaxşı zəmin yaradır”. [5]

Artıq müasir Azərbaycan bu günkü inkişaf tempinə görə nəinki MDB ölkələri arasında, hətta bütün regionda öncül yerlərdən birini tutur. Dünya birliyinə inteqrasiya prosesinin digər respublikalarla müqayisədə daha uğurla həyata keçirilməsi onu göstərir ki, müstəqilliyimizin iqtisadi bünövrəsi həqiqətən möhkəm qurulmuşdur. Sonradan ikinci dəfə hakimiyyət sükanı arxasına keçən dahi rəhbərimiz fövqəladə bacarıq və mətanətlə həmin bünövrə üzərində yeni bir Azərbaycan qurmuş, qoruyub saxlamış, dirçəltmiş və sabit inkişaf relsləri üzərinə qoyaraq etibarlı əllərə təhvil vermişdir. 2003-cü ildən etibarən ölkəyə inamla rəhbərlik edən Heydər Əliyev idarəçilik məktəbinin layiqli yetirməsi, ulu öndərin özü qədər inandığı və etimad göstərdiyi cənab İlham Əliyev Azərbaycan iqtisadiyyatının sabit inkişaf tempini qoruyub saxlamaqla yanaşı, ölkənin daha dinamik inkişafına, müasir Azərbaycanın modernləşdirilməsinə xüsusi diqqət yetirir.

Bu gün Azərbaycanda iqtisadi inkişaf sürəti dünya iqtisadiyyatı üzrə olan göstəricini xeyli ötür. Bu, bizim tarixi nailiyyətimizdir. Bu inkişaf meyli uzun bir dövr üçün mütləq davam etməlidir ki, dövlətimizin iqtisadi qüdrəti daha da möhkəmlənsin, keyfiyyətli həyat səviyyəsi təmin edilsin, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatması istiqamətində cəsarətli addımlar atılsın.

Ümummilli lider Heydər Əliyevin çağdaş Azərbaycanın tarixində oynadığı rolu, Vətənin milli-mədəni mövcudluğunu, dövlətin siyasi varlığını dərin zəkası və qüdrətli əzmi ilə qoruyub saxlamaq missiyasını artıq 18 ildir ki, onun layiqli varisi Prezident İlham Əliyev inamla və yaradıcılıqla davam etdirir. Ulu öndərin işləyib hazırladığı müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyası isə onun əzəli və əbədi azularına uyğun olaraq, ölkəmizi tərəqqiyə, xalqımızı xoş günlərə qovuşdurmuşdur.

Ötən 3 ilin ən böyük hadisəsi isə, əlbəttə ki, torpaqlarımızın işğaldan azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpası oldu. 2018-ci il aprel ayının 18-də Milli Məclisdə keçirilən andiçmə mərasimində Aprel qələbəsinə toxunan Prezident İlham Əliyev deyirdi: “Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik”.

Uğurlarımızın memarı olan İlham Əliyevin həyata keçirdiyi siyasət, bütün istiqamətlərdə görülən kompleks tədbirlər 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Ötən il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində torpaqlarımızın azad edilməsi ilə Prezident, Ali Baş Komandan İlham Əliyev həm də dövlətimiz və xalqımız üçün olduqca mühüm və tarixi vəzifəni şərəflə yerinə yetirdi. Ona görə Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən lider kimi tariximizin ən qüdrətli sərkərdələri ilə bir cərgədə dayanır.

Ötən 3 ilin yekunları pozitiv və qürurdoğuran hadisələrlə zəngindir. Qarşıda duran hədəflərə doğru gedilən yolda isə Prezident İlham Əliyevin müəyyən etdiyi siyasət sistemli,

ardıcıl və məqsədönlüdür. Ən əsası bu siyasət hər addımda dövlətə və xalqa xidmət missiyası daşıyır. İrəlidə xalqımızı İlham Əliyevin rəhbərliyi ilə yeni zəfərlər və uğurlar gözləyir.

Ədəbiyyatlar

1. Eyyubov Yaqub "Heydər Əliyev iqtisadi modeli müasir tərəqqinin əsasıdır" Azərbaycan, 03.05.2011, №94, s.4.

2. Məmmədov Rauf "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" Respublika, fevral 2018-ci il

3. Novruzov Vahid "Heydər Əliyevin dövlət quruculuğu strategiyasi və iqtisadi islahatlar". Azərbaycan, 01.05.2013, №92, s.5.

4. Yusifzadə Xoşbəxt. "Heydər Əliyev milli neft strategiyasinin banisidir" Xalq qəzeti, 19.09.2014, №204, s.5.

5. Vəliyev Dünyamalı "Heydər Əliyev və Azərbaycanın milli iqtisadi inkişaf modeli"Xalq qəzeti., 22 may 2010. s. 3.

**Dosent Aslanova Müslümə Maqsud qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), "Ticarət və gömrük işi" kafedrası*
*musluma_aslanova@unec.edu.az*
**Dosent Balabəyova Nərminə Şıxəmməddin qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), "Ticarət və gömrük işi" kafedrası*
*balabekova_narmina@mail.ru*

# AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF STRATEGİYASINDA HEYDƏR ƏLİYEV İDEYALARI

**Açar sözlər:** *ümummilli lider, iqtisadiyyat, dövlətçilik, konsepsiya, transformasiya, strategiya*

**Xülasə: Müstəqil Azərbaycanımızın memarı və yaradıcısı, dahi siyasətçi və dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə göstərilən ümumxalq sevgisi, onun xatirəsinə olan hədsiz ehtiram, hörmət minillik tariximiz boyu heç bir dövlət rəhbərinə qismət olmamışdır. Ulu öndərimizə olan xalqımızın sevgisi, ona olan rəğbət, hörmət, ehtiram onun da xalqımıza, dövlətimizə olan böyük sevgisindən irəli gəlmişdir. Azərbaycanın müdrik oğlu bütövlükdə öz həyatını vətəninin inkişafına, dövlətimizin gözəl günlərə nail olmasına həsr etmiş, mübarizə apararaq, çətinliklər hesabına bu arzusuna çatmışdır.** Ümummilli lider Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik qazandığımız illərdə arzusuna nail olmanın əsas təminatı olaraq iqtisadiyyatın inkişafını ən vacib məqsədlərdən hesab edirdi. Siyasi liderlik qabiliyyətinə, idarəçilik bacarığına mükəmməl olaraq yiyələnən ulu öndər hər zaman belə hesab edirdi ki," iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir və istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur". [3]

## Azərbaycanın iqtisadi inkişaf strategiyasında Heydər Əliyev ideyaları

Azərbaycan müstəqillik qazandıqdan sonra əldə etdiyi uğurlara, nailiyyətlərə, inkişafa, məhz xalqımızın ümummilli lideri Heydər Əliyevin işləyib hazırlayaraq reallaşdırdığı iqtisadi inkişaf doktrinasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Onun müəyyənləşdirdiyi mükəmməl inkişaf konsepsiyasının reallaşdırılması dövlət müstəqilliyini bərpa edən ölkəmizdə demokratik dövlət quruculuğu və kompleks islahatların həyata keçirilməsinə, sərbəst bazar əlaqələrinə arxalanan milli iqtisadiyyatın formalaşdırılmasına, mütərəqqi iqtisadi mərhələnin tələblərinə müvafiq təsərrüfat sistemini yaratmağa və sürətli inkişafın təmin edilməsinə sövq etmişdir. Buna əsaslanaraq, demək olar ki, ümummilli liderimizin irəli sürdüyü ideyalar Azərbaycanın keçmişi, bu günü və gələcəyinə ünvanlanmış strategiyası, fəaliyyətinin proqramlaşdırılması və ən nəhayət dövlət konsepsiyasıdı.

Azərbaycan keçən yüzillikdə iki dəfə öz dövlət müstəqilliyini qazanmışdır. Müstəqilliyin təməl sütununü, suveren dövlətçilik institutlarını və milli-ideoloji əsaslarını yaratmaq həmçinin bu əsasları reallaşdırmaq yeridilən mükəmməl dövlət siyasətini və eləcə də, milli liderin mövcudluğunu tələb etmişdir. Dövlət müstəqilliyini qoruyub əldə saxlamaq, dövlət atributlarını yaratmaq, müstəqil dövlət quruluşunu yenidən bərpa etmək və həmçinin inkişaf etdirmək, dövlətin ərazi bütövlüyünü, bütöv suverenliyini bərpa etmək, ölkənin vətəndaşlarının yaşayış səviyyəsini daha da yaxşılaşdırmaq və başqa ümummilli ideyalar bütün Azərbaycanın təkidlə yürütdüyü tələbindən sonra 1993-cü ildə hakimiyyətə qayıdan xalqın sevimlisi və ümummilli lideri Heydər Əliyevin gərgin zəhməti nəticəsində mümkün olmuşdur.

Ümummilli liderin gərgin və qətiyyətli əməyinin nəticəsi olaraq, dövlətimiz Ulu öndərin hakimiyyətinin birinci erasında, yəni 1969-1982-ci illərdə Azərbaycanda qüvvətli iqtisadiyyatın fundamentinin qoyulması nəticəsində qısa bir dövr ərzində güclü iqtisadi inkişafa nail olunmuşdur. Belə ki, bu proseslər Heydər Əliyevin böyük dövlət xadimi və peşəkar siyasətçi olması ilə yanaşı, eyni zamanda dövlətimizin xalq təsərrüfatı barədə bütün bilikləri dərindən bilən dövlət başçısı olduğu haqda mülahizələri bir daha təsdiqləyir. Ona görə ki, 1969-1982-ci illərdə Ulu öndərin rəhbərliyi ilə reallaşdırılan iqtisadi və sosial siyasətin nəticəsində

ölkə iqtisadiyyatının hər bir sahəsinin, mədəniyyətin və elmin tərəqqisi, əhalinin həyat və yaşayış səviyyəsinin, həmçinin maddi rifah halının yüksəldilməsinə ancaq xalq təsərrüfatının dərin bilicisi olaraq nail olmaq mümkün idi. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə reallaşdırılan islahatların nəticəsində Azərbaycan aqrar-sənayedən, sənaye-aqrar respublikasına çevrilmişdir. Azərbaycanda həyata keçirilən geniş və əhatəli quruculuq işlərinin nəticəsi olaraq ölkədə bir neçə illər ərzində müasir yaşayış massivləri, məktəblər, binalar, sənaye müəssisələri tikilmişdir və yollar salınmışdır. Azərbaycanda gənclərin elmə və təhsilə üstünlük verməsi, dərin biliklərə yiyələnməsi və dövlətin gələcəyi naminə peşəkar mütəxəssis olmaları üçün Heydər Əliyevin qətiyyətli səyinin nəticəsi olaraq on minlərlə azərbaycanlının keçmiş Dövlətlər Birliyinin ən tanınmış və nüfuzlu ali məktəblərində təhsil almaları üçün onlara şərait yaradılmışdır.

Ümummilli liderimizin qətiyyətli fəaliyyəti nəticəsində Azərbaycanda elə bir istiqamət və yaxud da elm sahəsi qalmadı ki, orada tərəqqi, inkişaf özünü göstərməsin. Dövlətin iqtisadiyyatı, əhalinin yaşayış səviyyəsi, səhiyyə, elm və incəsənət kimi sahələr inkişaf etmiş və Azərbaycanın postsovet respublikaları sırasında ən qabaqcıl yerlərdə olmasına nail olunmuşdur. Respublikamız o zamanlar yaradıcılıq, quruculuq həmçinin, inkişaf dövrü keçirirdi və cəmiyyətin hər bir təbəqəsində davamlı inkişaf, sıçrayış ruhu hökm sürürdü. Beləliklə, bütün bu söylənilənlərin nəticəsi kimi ancaq Azərbaycan, eləcə də keçmiş postsovet respublikalarından olan Rusiya və Ukrayna ittifaq büdcəsindən dotasiya almırdı. Bildiyimiz kimi, iqtisadi qüdrət və iqtisadi müstəqillik xalqın siyasi özgürlüyünün əsasını müəyyənləşdirir. Belə olan surətdə, ötən əsrin 70-80-ci illərində ölkəmizin iqtisadi sahədə əldə etdiyi uğurlar siyasi müstəqillik yolunda vacib fundament hesab edilməlidir. Bundan irəli gələrək, Heydər Əliyevin bu fəaliyyəti ilə ancaq, İttifaq respublikalarına daxil olan Azərbaycanın deyil, həmçinin inkişaf etmiş müstəqil Azərbaycanın möhkəm əsasını, sonra gələn nəsillərin qayğısız, xoşbəxt, firavan yaşayışının təməlini qoymuşdur. Ümummilli liderimizin ikinci hakimiyyət dövründə isə Azərbaycan dünya miqyasında tanınmış və inkişafa doğru gedən dövlət statusunu qazanmışdır. Onun yenidən ölkəyə rəhbərlik etməsi nəticəsində siyasi sabitlik bərpa olunmuşdur həmçinin, atəşkəs əldə edilmişdir və irihəcmli iqtisadi islahatlara başlanılmışdır. Nəticədə ölkədə maliyyə vəziyyəti sabitləşmişdir, iqtisadi sahələrə yönəldilən investisiyaların həcmi ilbəil artdı və əhalinin rifah səviyyəsi yüksəlməyə başladı.

Heydər Əliyevin o dövrdəki ən vacib xidmətlərindən biri kimi iqtisadi idarəetmədə tam yeni bir yanaşmanın meydana gəməsi hesab edilməlidir. Buna, ölkə rəhbərliyinin davamlı olaraq, eyni zamanda ən əlçatmaz, ucqar ərazilərdə olan əkin sahələri həmçinin, sənaye müəssisələrini vaxtaşırı olaraq yerində izləməsi, aşkar edilmiş problemlərin mövcud şəraitdə kollegial həllinin araşdırılması, elm, mədəniyyət və incəsənət xadimlərinin mütəmadi olaraq sadə əməkçilərlə iş yerlərində görüşlərinin təşkil edilməsi və s. kimi təşəbbüslərlə əməyin yeni mənəvi həvəsləndirmə sisteminin yaradılmasını aid edilə bilər.

Sovetlər Birliyi dövründə Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsinin iqtisadiyyatda mövcud müsbət nəticələri haqqında geniş əhatəli mülahizələr, fikirlər söyləmək mümkündür. Ancaq, eyni zamanda, təəssüflə demək olar ki, 1969-1982-ci illərdə iqtisadiyyatımızın artıq oturuşmuş, işlək mexanizmə malik sistemi, qısa bir zaman çərçivəsində, 1987-1993-ci illərdə diletant idarəçiliyin nəticəsi olaraq deqradasiyaya uğramışdır. Bunun nəticəsi olaraq, respublikamızda ölkə müstəqilliyinin yenidən bərpa edilməsi iqtisadi tənəzzüllə bir zamana təsadüf etmişdir. Ona görə də ötən dövrdə ölkə iqtisadiyyatının ümumi tərəqqisinin qiymətləndirilməsində əsaslı iqtisadi sistemin formalaşdırılması ilə eyni zamanda, tənəzzüllə mübarizə aparmaq, həmçinin tərəqqi və inkişaf faktorunun rolu hədəf nöqtəsi hesab edilə bilər. Belə söyləmək olar ki, bu illərdə Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin ən vacib, mühüm xüsusiyyəti tərəqqinin əsaslı islahatlar şəraitində bərpa edilməsidir. [1]

Ümummilli liderin hakimiyyətə gəlməsilə öz müstəqillyini əldə etmiş Azərbaycanın inkişaf strategiyası müəyyən edilmişdir. Bu məqsədyönlü konsepsiya dövlətimizin ehtiyatda

olan imkanları, milli maraqları və mənafeləri, geosiyasi reallıqlar, qlobal iqtisadi meyillər və bu mülahizələrdən irəli ələn digər vacib göstəricilər nəzərə alınmaqla hazırlanmışdır.

Ulu öndər ilkin olaraq, çoxfunksiyalı bazar iqtisadiyyatının əsas tələblərinin təmin edilməsi yolunda siyasi iradə nümayiş etdirmişdir və iqtisadi dəyişikliklərin qanunauyğunluqlarını nəzərdə tutaraq vacib islahatlara start vermişdir. Heydər Əliyev o dövrlərdə suveren bir ölkənin transformasiyası ilə əlaqədar olaraq yeniliklərin, islahatların reallaşdırılmasının çox mürəkkəb və məsuliyyətli bir iş olduğunu bildirirdi: "**Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur". [2]**

Dahi lider haqlı olaraq qeyd etmişdir ki, "İqtisadi sahədə strateji yolumuz respublikada bazar iqtisadiyyatına keçmək üçün iqtisadi islahatlar aparmaqdan və tədricən Azərbaycanda bütün sahələrdə sərbəst iqtisadiyyat - bazar iqtisadiyyatı formalarını tətbiq etməkdən ibarətdir". Onun bu fikirləri çağdaş ölkəmizin müasir iqtisadi inkişaf strategiyasında davamlı tərəqqinin başlanğıcı kimi qiymətləndirilməlidir. Müdrik şəxsiyyət öz çıxışında, "İstədiyimiz məqsədlərə çatmaq üçün vəzifə iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaqdan və bu islahatlar vasitəsilə Azərbaycanın mövcud iqtisadiyyatını sərbəst iqtisadiyyat prinsipləri əsasında irəlilətməkdən ibarətdir" demişdir və bununla o, nəticə etibarı ilə islahatların hansı zəmində reallaşdırılacağını vurğulayırdı və xüsusi olaraq deyirdi ki, bazar iqtisadiyyatının tələblərini tətbiq edərək, azad iqtisadiyyata geniş imkanlar verərək həmçinin, onu əsas məqsəd kimi nəzərdə tutaraq, bütün bunları ümumilikdə xalqın bütün təbəqələrinin həyat səviyyəsinin, sosial vəziyyətinin yaxşılaşdırılmasına istiqamətləndirməliyik.

Ulu öndərin inkişaf konsepsiyası, dərin və müdrik elmi məntiq üzərində qurulmuşdursa da, O, dahiyanə formada dünya praktikasının dərslərindən düşünülmüş və məqsədli nəticələr əldə edərək qeyd edirdi ki, "Azərbaycanda iqtisadi islahatlar ideologiyaya əsasən deyil, real həyat həqiqətlərinə uyğun aparılacaq". [4]

Ulu öndərin iqtisadi islahatların reallaşdırılmasına öz mövqeyini səciyyələndirən ən vacib xüsusiyyət - islahatların reallaşdırılmasının vacib istiqamətlərinin düşünülmüş, müdrik və məntiqi ardıcıllıqla işlənilməsindən ibarət idi.

Müdrik və təcrübəli dövlət xadimi olan Heydər Əliyev 1993-cü ilin yay aylarında, çox çətin olan sosial-siyasi və hərbi vəziyyətdə belə, iqtisadiyyatda mühüm irəliləyişlərin həyata keçirilməsinin vacibliyini hiss edirdi. Elə bu prizmadan müasir və suveren Azərbaycan Respublikasının iqtisadi sisteminin yenidən transformasiyası baxımından islahatların birinci əsas addımı, milli valyutanın Azərbaycanda yeganə ödəmə vasitəsi elan edilməsi hesab edilmişdir. Dahi siyasətçi Heydər Əliyevin belə bir qərar verməsi ilə, ilk dəfə olaraq, dövlətin tam iqtisadi məkanının formalaşdırılmasına başlanıldı.

Bazar iqtisadiyyatına, demokratik və liberal dəyərlərə arxalanan dayanıqlı iqtisadiyyata keçid dövrünü reallaşdıran dövlətimizin ötən zamandakı sosial-iqtisadi inkişaf yolu da istənilən qədər rahat deyildi. Ümumilikdə, Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının islahatı və inkişafında həyata keçirdiyi xidmətlərini belə ifadə etmək olar:

- müstəqil bir dövlətə keçid şəraitində iqtisadi transformasiyanın yaradılması və inkişaf etdirilməsi strategiyasının vacib prinsiplərinin müəyyən edilməsi;

- Dövlətimizin iqtisadi islahatlar sistemində vacib aparıcı istiqamətlərin müəyyən edilməsi; - iqtisadi islahatların köməyilə ilə yeni iqtisadi-istehsal strukturunun yaradılmasının vacib məqsəd kimi qiymətləndirilməsi;

- iqtisadi idarəetmədə Azərbaycanın rolunun müəyyən edilməsində abstrakt nəzəriyyələr və xarici ölkələrin praktikasından daha vacib milli iqtisadi təfəkkürə üstünlüyün verilməsi;

- dövlətin yeritdiyi iqtisadi siyasətin reallaşdırılması zamanı beynəlxalq iqtisadi inteqrasiyada çoxqütblük modelinin vacibliyi;

- Azərbaycanda neft gəlirlərindən istifadənin gələcəyə doğru istiqamətlənən məqsədyönlü strategiyasının reallaşdırılması;

- iqtisadi inkişaf yolunda həyata keçirilən iri həcmli layihələrin dövlətin geniş miqyaslı maraqlarına yönəldilməsi;

- ölkənin iqtisadi idarəetmə funksiyalarının şəffaflıqla icra edilməsinə yönəldilən dövlət siyasətinin geniş əhali kütləsi tərəfindən dəstəklənməsinin əldə edilməsi.

Nəzərdə tutulanlar və əldə edilmiş məqsədyönlü nəticələr bir daha sübut edir ki, dahi liderimiz Heydər Əliyevin dövlət rəhbəri kimi reallaşdırdığı milli iqtisadi inkişaf strategiyası nəticə etibarı ilə, elmi əsaslara arxalanan, strateji olaraq milli maraqlara əsaslanan, demokratik əsaslara malik olan və sosialyönümlü iqtisadi inkişaf modelinə dönüşmüşdür.

Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi, iqtisadi cəhətdən geriləmənin qarşısının alınması və inkişafın əldə edilməsi üçün ciddi çalışmalar icra edirdi. Bu baxımdan, dünya ölkələrinin iqtisadi inkişafında reallaşdırılan fəaliyyətlər və dövlətimizin o zamanlardakı çətin vəziyyəti nəzərə alınaraq, iqtisadi inkişafın əldə olunması üçün xarici investisiyaların ölkəmizə cəlb edilməsi əsas, vacib məsələlərdən olduğu qarşıya məqsəd kimi qoyulmuşdur. Dahi öndərimizin davamlı səyləri və iradəsi nəticəsində qısa bir zaman kəsiyində Azərbaycana iri həcmdə investisiya qoyuluşu barəsində çoxtərəfli müqavilələr imzalandı. Bununla da Azərbaycanda daxili siyasi stabilliyin əldə edilməsi kimi, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması nəticəsində dövlətimizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində böyük və vacib irəliləyişlər baş verdi. Qürurla qeyd etmək olar ki, ötən illərin nəticələri bu qərarın müdrik və dahiyanə strategiyanın və böyük siyasi, qətiyyətli iradənin nəticəsi olaraq əhəmiyyətliliyini bir daha təsdiq etdi.

Ulu öndər Azərbaycanın milli inkişaf doktrinasını hazırlamaqla respublikamızın uzunömürlü tərəqqisinə dərin əsaslar yaratmışdır. Bildiyimiz kimi müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində, həmçinin zəngin iqtisadiyyata malik olmasında neft amili həmişə əhəmiyyətli yer almışdır. Belə ki, neft sərvətlərinin mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası isə düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun neft siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasının özülü olmuşdur. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesində tamamilə yeni mərhələ başladı. Bu dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etməklə yanaşı, yeni nəql marşrutları yaratmaq vacib şərtlərdən biri idi.

Danılmaz haldır ki, liberal bazar iqtisadiyyatının bütün komponentlərini həyata keçirməyi islahatların başlıca prioritetinə çevirən Azərbaycan hökuməti 1994-cü ildən başlayaraq bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun mühüm addımlar atmağı vacib saymışdır. Dövlətin tabeçiliyində olan torpaq mülkiyyətinin kəndlilərə verilməsi respublikamızı MDB-də ilk islahat aparan ölkə etmişdir. Qeyd etdiklərimizlə yanaşı özəlləşdirmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişikliklərinin baş verməsi, liberal iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaratmış oldu.

Onu da qeyd etmək lazımdır ki, ölkədə maliyyə vəziyyətinin sabitləşməsi, iqtisadiyyata cəlb olunan investisiyaların həcminin ildən-ilə arması, xalqın həyat səviyyəsinin yaxşılaşmasına səbəb oldu. Qeyd etdiklərimiz iqtisadi transformasiyanın sürətləndirilməsi sayəsində planlı iqtisadi sistemdən yeni liberal bazar iqtisadiyyatına keçid üçün münbit şərait

yaratmış oldu. Görülən işlərlə yanaşı, yəni iqtisadiyyatın əsasını təşkil edən neft sektoru ilə paralel olaraq, digər sahələrdə də genişmiqyaslı islahatların təməli qoyulmağa başlandı. Bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank sistemlərinin formalaşdırılması, aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində bazar iqtisadiyyatına keçidin əsası qoyuldu və beləliklə sahibkarlıq sinfinin əsası qoyuldu.

Qeyd etdiyimiz illərdə xarici investorların ölkəyə axınını sürətləndirmək, onlara iş fəaliyyəti üçün əlverişli şərait yaratmaq, xarici ticarəti sərbəstləşdirmək, sahibkarlığı inkişaf etdirmək üçün qanunvericilik bazası yaradıldı ki, bu da, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasını təmin etmiş oldu. Eyni zamanda qəbul olunan "Sahibkarlıq haqqında" Qanun da sahibkarlıq fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirməklə yanaşı, iqtisadiyyatın bazar iqtisadiyyatı yolu ilə inkişafı üçün əlverişli hüquqi zəmin yaratmış oldu. Xüsusilə 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası respublikamızın siyasi-iqtisadi, sosial-humanitar bölmələri ilə bağlı bütün təfərrüatları özündə əks etdirməklə strateji əhəmiyyətinə görə xüsusi önəm daşıyırdı.

Danılmaz haldır ki, Ulu öndərin atdığı qətiyyətli addım sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycanın gələcək rifahının başlanğıcı olmaqla respublikanın enerji sektorunun inkişafı iqtisadiyyatın qeyri-neft sahəsinin fəal artımına səbəb olmuşdur. Bu səbəbdən də Saziş dünyanın aparıcı dövlət və şirkətlərini Azərbaycanın müstəqil və etibarlı tərəfdaş olduğunu bir daha əmin etdi, yəni bu ölkədə işləmək və sərmayə qoymaq əlverişlidir. "Əsrin müqaviləsi" bütün dünya dövlətlərinin Azərbaycana olan inamını artırdı, bu isə bir qədər sonra dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yaratmış oldu. Beləliklə, Müqavilənin imzalanması nəticəsində Azərbaycan iqtisadiyyatının digər sahələrinə də xarici sərmayələr qoyulması üçün Azərbaycan öz qapılarını xarici sərmayələr üçün taybatay açdı və bununla da iqtisadiyyatımızın inkişafı üçün geniş perspektivlər açılmağa başlandı.

Qeyd etmək lazımdır ki, "Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında köklü dönüş yarandı və böyük işlərin əsası qoyuldu. Beləliklə, 1999-cu ilin dekabrında Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarlarına yola salındı. Ulu öndər Heydər Əliyev neft strategiyasının əsas istiqamətlərindən biri olan Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib sayırdı. Ölkəmizin mənafelərinin bu sahədə uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdapşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Şərq-Qərb marşrutunun yaradılması ilə bağlı idi. Ulu öndər Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması həyata keçdi.

Heç kimə sirr deyil ki, ulu öndərin qəti əzmkarlığı və Türkiyə, Azərbaycan və Gürcüstan dövlətlərinin birliyi nəticəsində çoxlarının əfsanə hesab etdiyi layihə həyata keçdi. Beləliklə, 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan təyinat yerinə yola salındı. Türkiyənin Ceyhan şəhərində iyulun 13-də XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi baş tutdu. Beləliklə, BTC dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına, həmçinin ölkəmizin xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə təkan vermiş oldu.

Bildiyimiz kimi, bazar iqtisadiyyatının əsas tələblərindən biri də, torpaq islahatlarının həyata keçirilməsidir, belə ki, torpaq sahibi olmadan mülkiyyətçinin azad və sərbəst istehsal fəaliyyəti ilə məşğul olması qeyri-mümkünsüz hesab edilə bilər. Buna görə də, Heydər Əliyev iqtisadiyyatın böhrandan xilas edilib inkişaf etdirilməsinin yeganə yolunun islahatlar olduğunu bildirdi və torpaqların vətəndaşların istifadəsinə verilməsi üçün bəzi normativ-hüquqi aktların

təsdiq edilməsi haqqında müvafiq fərmanların qəbul edilməsi islahatlarla bağlı proseslərin xeyli sürətləndirilməsinə səbəb olmuşdu.

Nəticə etibarilə, o vaxtdan təxminən 23 il keçəndən sonra cəsarətlə demək olar ki, 1993-2003-cü illərdə Heydər Əliyev prezident olduğu on il ərzində aşagıda qeyd olunan strategiyanı müəyyən etmiş və gərgin əməyi sahəsində böyük uğurlara imza atmışdır:

- 1994-cü ildən etibarən Qarabağ cəbhəsində atəşkəs rejiminə nail olmaqla iqtisadi inkişafın əsas prioritetlərini formalaşdırmışdır;

- ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsinə nail olunmuşdur;

- dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatları formalaşdırılmışdır;

- cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni - açıq və demokratik vətəndaşlıq formalaşdırılıb;

- müstəqil dövlətin neft strategiyasının yaradılması, bu strategiyanın əsası olan “Əsrin müqaviləsi” sazişinin imzalanması, ölkənin əsas regional energetik aktora transformasiyasının başlanması;

- “Böyük İpək Yolu” layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi çıxış etməsi;

- həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin formalaşdırılmasına nail olunması;

- müasir və döyüş qabiliyyətli modern ordunun yaradılması və inkişaf etdirilməsi və s..

Qeyd edək ki, 1995-2003-cü illər ərzində ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklər baş vermişdi ki, bu da Ulu öndər Heydər Əliyevin həm nəzəri səviyyədə, həm də praktikada norma və dəyərlər məcmusunu həyata keçirmiş və bu demokratiya modelinə çevrilmişdir. Ulu öndərimiz Heydər Əliyevin prezident olduğu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün zəmin yaradılmışdır.

Etiraf etmək lazımdır ki, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının hesabatlarında, Azərbaycanın iqtisadi yüksəlişi və həyata keçirdiyi sistemli iqtisadi islahatlar mütəmadi olaraq yüksək qiymətləndirilmişdir. Təsadüfü deyil ki, ölkəmiz 2008-ci ilin yekunlarına əsasən, dünyada “Lider - reformator “ ölkə elan edilmişdir. Belə ki, BMT-nin İnkişaf Proqramının əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatına əsasən, Azərbaycan 169 ölkə arasında 2005-ci ildə tutduğu 101-ci yerdən 34 pillə irəliləyərək, 2010-cu ildə 67-ci yerdə qərarlaşmışdır. Ölkəmiz 2000-2010-cu illər üzrə insan inkişafı indeksinin orta illik artım tempinə görə MDB məkanında birinci yerə layiq görülmüş və “orta insan inkişafı” ölkələri qrupundan “yüksək insan inkişafı” qrupuna kimi yüksəlmişdir.

Qeyd edilən uğurlu nəticələr digər nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da yer tutmuşdur. Dünya İqtisadi Forumu tərəfindən 2012-ci il üçün hazırlanmış “Qlobal Rəqabətlilik Hesabatı”nda birinci yeri MDB ölkələri arasında Azərbaycan tutmuşdur. “Standard and Poors” Beynəlxalq Reytinq Agentliyi 2009-2010-cu illər üzrə ölkə reytinqini “Stabil”dən “Pozitiv”ə yüksəltmiş, “Fitch Ratings” Agentliyi ölkəmizə ilk dəfə olaraq investisiya reytinqi vermişdir. Makroiqtisadi şərait ölkəmizin yüksək rəqabət qabiliyyətini təmin edən əsas amillərdəndir. Bu indeksin müəyyən olunmasında istifadə olunan “hökumətin büdcə balansı” subindeksinə görə Azərbaycan 5-ci, “məcmu əmanət norması “subindeksinə görə 8-ci, “dövlət borcu” subindeksinə görə isə 12 -ci yeri tutur və dünyanın bir çox inkişaf etmiş ölkələrindən irəlidədir.

Sadalanan inkişaf xronikası ölkəmizdə aparılmış uğurlu iqtisadi siyasətin düzgünlüyü və nəticəliliyini ifadə edir, eyni zamanda, stabillikdən tərəqqiyə doğru yolda, möhtərəm Prezidentimizin dediyi kimi “... bizi daha da gücləndirir, bizi tam şəkildə əmin edir ki, bundan uzun illər, onilliklər sonra Azərbaycan ancaq və ancaq inkişaf yolu ilə gedəcək, Azərbaycan daha da çiçəklənəcək, daha da zəngin dövlətə çevriləcək və ölkə qarşısında duran iqtisadi və sosial problemlər daha da sürətlə həllini tapacaqdır”.

Bir sözlə, ümummilli lider Heydər Əliyevin onillik prezidentliyi dövründə ölkə kökündən dəyişmiş, daxili və xarici siyasətin bir çox istiqamətlərində əhəmiyyətli uğurlara imza atmışdır. Nəticə etibarilə ölkəmiz uzunmüddətli yaşamaq qabiliyyətini, cəmiyyət isə tarixi prosesin növbəti mərhələsində iştirak etməyə hazır olduğunu göstərmişdir. Müasir Azərbaycan Respublikasının müstəqilliyi həm ölkənin sadə vətəndaşları, həm də qlobal miqyaslı mühüm güc mərkəzləri üçün aksioma çevrilmişdir. Məhz Heydər Əliyev şəxsiyyəti, onun xarizması, iradəsi, təcrübəsi göstərilən dövrdə bizim üçün "millət", "dövlətçilik", "idarəçilik sistemi", "hakimiyyət", "inkişaf etmiş iqtisadiyyat", "mənəvi dirçəliş", "liderlik", "transformasiya", "çoxvektorluluq" kimi sistem dəyərlərin təşəkkülündə və möhkəmlənməsində böyük zəfərlər qazanmışdır.

Hal-hazırda Heydər Əliyev ideyaları Azərbaycan hökuməti tərəfindən uğurla reallaşdırılıb və yüksək nəticələrə nail olunmuşdur. İqtisadiyyatın proporsional, dayanıqlı və balanslaşdırılmış inkişafının təmin olunması və effektivliyə doğru irəliləyişi, bazar iqtisadiyyatının intensivləşdirilməsi, liberal iqtisadiyyatın yeni mexanizmlərinin tətbiq olunması və digər islahatlar əhalinin maddi və mənəvi rifahının yüksəlməsinə, sosial ədalətin bərqərar olmasına zəmin yaratmışdır. Bu prinsiplər ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca hədəflərini təşkil etmiş və dövlət başçısının rəhbərliyi ilə sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması prosesində mühüm uğurlar qazanılmışdır.

Qloballaşma dövründə ölkəmizdə iqtisadi inkişafın sürəti dünya iqtisadiyyatı üzrə olan göstəriciləri üstələməkdədir. Danılmaz haldır ki, bu, bizim tarixi nailiyyətimiz, uğurumuzdur. Bütün bunlarla yanaşı onu da qeyd etmək lazımdır ki, bu inkişaf meyli uzun bir dövr üçün mütləq davam etməlidir ki, dövlətimizin iqtisadi qüdrəti daha da möhkəmlənsin, keyfiyyətli həyat səviyyəsi təmin edilsin, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatması istiqamətində mühüm işlər görülsün.

Danılmaz haldır ki, Ümummilli lider Heydər Əliyevin çağdaş Azərbaycanın tarixində oynadığı rolu, vətənin milli-mədəni mövcudluğunu, dövlətin siyasi varlığını dərin zəkası və qüdrətli əzmi ilə qoruyub saxlamaq missiyasını artıq 16 ildir ki, onun layiqli varisi Prezident İlham Əliyev inamla və yaradıcılıqla həyata keçirməkdədir. Nəticə etibarilə, Ulu öndərin işləyib hazırladığı müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyası onun əzəli və əbədi azularına uyğun olaraq, ölkəmizi tərəqqiyə, xalqımızı xoş günlərə aparacaqdır.

## *Ədəbiyyat*


1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI, səh 363, BAKI 2015
2. Bakıda "Sahibkarlığın strategiyası və iqtisadiyyatın yenidən qurulması" mövzusunda beynəlxalq konfransın açılışı mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi - 13 sentyabr 1994-cü il
3. Xalq qəzeti, Bakı, 13 dekabr 2021
4. İqtisadi İslahatların təhlili və kommunikasiya mərkəzi. Azərbaycan İqtisadi İslahatlar icmalı, Bakı, mart 2017
5. www.economy.gov.az
6. www.president.az
7. www.azerbaijan.az

**İ.e.n., dos.Əmirova Fəridə Şamil qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*Email: f.amirova51@mail.ru*

## HEYDƏR ƏLİYEV SİYASƏTİ ÖLKƏMİZİN QAZANDIĞI UĞURLARA VƏ DAVAMLI İQTİSADİ İNKİŞAFA AÇILAN YOLDUR

Azərbaycan Ulu öndər Heydər Əliyevin siyasətinə
sadiq qalaraq uğurla, inamla inkişaf edir.
***İlham Əliyev***

**Xülasə**

Məqalə Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrlərdə apardığı uğurlu iqtisadi-siyasi fəaliyyətinin təhlilinə həsr olunur. Onun hakimiyyətdə olduğu I dövr və müvafiq olaraq II dövr təhlil olunur. Cənab Heydər Əliyevin idarəçilik qabiliyyəti, uğurlu iqtisadi siyasəti, həyata keçirdiyi iqtisadi inkişaf konsepsiyaları, qəbul edilmiş qərarlar, iqtisadi, regional iqtisadi inkişaf proqramları, sənayedə, kənd təsərrüfatında, eləcə də iqtisadiyyatın ayrı-ayrı sahələrində həyata keçirdiyi mühüm struktur dəyişikliklər açıqlanır. Onun apardığı səmərəli beynəlxalq iqtisadi əlaqələrin genişlənməsi və Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiyası, dünya bazarına çıxışı, elm, təhsil, səhiyyə və digər sahələrdəki uğurlu siyasətinin reallaşması, ölkənin bugünkü uğurlarının əsasının onun siyasətinə söykənməsi təhlil olunur.

**Açar sözlər:** Böyük zəka və iradə, struktur dəyişikliklər, uzaqgörən siyasət, beynəlxalq hüquq normaları, torpaqlar azad edildi

Azərbaycanın dövlətçilik tarixində xüsusi rolu olan görkəmli şəxsiyyət cənab Heydər Əliyevin müstəsna yeri və əməyi var. Onun uzaqgörən və müdrik siyasətinin nəticəsi olaraq müasir Azərbaycan dövləti xalqın müstəqillik arzusunun reallaşmasına, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğuna nail olmuşdur. Bu dövlətçilik milli-mənəvi dəyərlərə, elmə, təhsilə, mədəniyyətə, dünyəvi dəyərlərə üstünlük verməklə, islahatlara, yenilikçiliyə əsaslanan dövlət quruculuğudur. Tarix Ulu öndərin böyük zəka və iradəsinin məharətinə dayanaraq siyasi, iqtisadi, sosial inkişafı təmin etməyə və bugünkü uğurlara nail olmağa şərait yaratmışdır.

Heydər Əliyev cənablarının hakimiyyətdə olduğu hər iki dövrə nəzər salsaq, dövlətinə, xalqına böyük sevgi və bağlılığını görərik. Belə ki, 1969-cu il 14 iyulda Azərbaycan KP MK-nin Birinci katibi Heydər Əliyevin yüksək idarəçilik qabiliyyəti sayəsində Sovet ideologiyasının prinsiplərinə zidd olaraq, bütün sədləri aşaraq Azərbaycanın o dövr üçün milli inkişaf konsepsiyasına müvafiq olaraq, həm insanları, həm də iqtisadiyyatı o dövrlərdə də uğurlara, yüksəlişlərə aparırdı. Bu səbəbdən də Azərbaycan keçmiş ittifaqda inkişaf etmiş respublikalardan biri sayılırdı. Respublika iqtisadiyyatında mühüm struktur dəyişikliklər aparılırdı. Azərbaycan o dövrdə sovet respublikaları arasında xammal mənbəyinə çevrilmiş aqrar respublikadan inkişaf etmiş sənaye ölkəsinə çevrildi. Ölkədə yeni sənaye sahələri yaradıldı, istehsalla əlaqəli sahələrdə elmi-tədqiqat sahələri inkişaf etdirildi. İstehsal olunan

məhsulların keyfiyyəti yaxşılaşdırıldı, Azərbaycan SSRİ-də inkişaf etmiş respublikaya çevrildi. Bu, cənab Heydər Əliyevin həmin dövrdə respublikada apardığı sənayeləşmənin nəticəsi idi ki, sənaye iqtisadiyyatın əsas güc mərkəzinə çevrildi. Məqsədli dövlət proqramlarının reallaşması nəticəsində təkcə Azərbaycan üçün deyil, bütün respublikalar və xarici ölkələr üçün strateji əhəmiyyətli sənaye obyektləri Bakı Məişət Kondensionerlər Zavodu, Naxçıvan və Sumqayıtda şüşə zavodu, Cənubi Qafqazın ən iri Poladtökmə zavodu, Ələtdə ağac emalı zavodu və digərləri inşa edildi. Bunların nəticəsi olaraq 1970-1982-ci illərdə sənaye məhsulu 8,2 dəfə artdı, Azərbaycanın sənaye müəssisələrində 350-dən çox adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilirdi.[4] Təsadüfi deyil ki, bu uğurlu siyasət müstəqillik dövründə yeni neft strategiyasının uğurla həyata keçirilməsində mühüm rol oynayacaqdı.

Cənab Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan İttifaq respublikaları içərisində ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına çevrilməklə yanaşı, elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə də müsbət nəticələr əldə etdi. O dövrdə Ümummilli liderin təşəbbüsü ilə minlərlə gənc keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərildi. Onun təşəbbüsü və qayğısı nəticəsində C.Naxçıvanski adına Hərbi Litsey yaradıldı ki, bu litsey bu gün də uğurla fəaliyyət göstərir. Bu litseyin məzunları bu gün Azərbaycana hərbi sahədə xidmət edən, yüksək ali hərbi rütbələrə yüksələn onlarca zabitimiz müxtəlif dövlət strukturlarında yüksək vəzifələrdə çalışırlar, ən yüksək hərbi rütbələrə layiq görülüblər.

Cənab Heydər Əliyev xalqı naminə 1987-ci ildə Moskvada olarkən təhdidlərə baxmayaraq Sovet İKK MK-nın Siyasi Bürosunun üzvlüyündən istefa verdi. 20 Yanvar faciəsini törədənləri kəskin tənqid etdi. Milli iradə prinsipial mövqe, vətənpərvərlik nümayiş etdirdi. Moskvada özü və ailəsi Qorbaçov hakimiyyəti tərəfindən həyati təhlükədə olan Heydər Əliyev cənabları 1990-cı il iyulun 20-də Bakıya gəlir. Lakin vaxtilə siyasətə gətirdiyi A.Mütəllibov qurub yaratdığı şəhərdə Bakıda yaşamağa şərait yaratmır. Bu baxımdan o, məcburən onu sevib, böyük məhəbbət və hörmət göstərən naxçıvanlıların yanına Naxçıvana qayıdır və Azərbaycanın bir parçası olan Naxçıvandan Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik edir, dövlət müstəqilliyinin bərpası istiqamətində tarixi qərarlar qəbul etməyə başlayır.

Ümummilli Lider hələ ötən əsrin 70-80-ci illərində və sonrakı dövrlərdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərini kompleks şəkildə müdrikliklə hazırlayırdı. İqtisadiyyatın bir sahəsinin timsalında bu reallıqları biz konkret olaraq nəzərdən keçirə bilərik. Azərbaycanda dəmiryolu infrastrukturunun inkişaf yoluna nəzər salaq.

Dəmiryolu nəqliyyatının inkişafı ölkəmizdə XIX əsrin sonlarına təsadüf edir. Bu dövrdə neft sənayesinin inkişafı istehsal olunmuş məhsulun daşınmasını zəruri edirdi. Bu baxımdan Azərbaycanda dəmiryolu çəkilişinə başlanması, onun sonrakı inkişafı, neft istehsalı və emalı ilə birbaşa bağlıdır. Həmin dövrdə neftin primitiv üsullarla, dəvə karvanı və arabalarla daşınması çox baha başa gəlirdi. Bu neft sahibkarlarına daha yüksək gəlir əldə edilməsinə şərait yaradacaq, dəmir yollarının çəkilməsinə maraq göstərirdilər. Bu elə, neftin daşınması, öncə Bakı şəhərində, daha sonra bütün Azərbaycanda dəmiryolunun inşası və inkişafı üçün zərurət yaratdı. Ölkənin ilk dəmiryolu xətti 1878-ci ildə çəkilmiş 20 km uzunluğu olan Bakı-Suraxanı-Sabunçu dəmiryoludur. Daha sonra 1883-cü ildə salınmış Bakı-Tbilisi-Batumi, 1890-cı ildə çəkilmiş Biləcəri-Dərbənd dəmiryoludur.

Dəmiryolu ilə yükdaşınmanın maksimum həcmi 1987-ci ilə təsadüf edir. Ötən əsrin 80-ci illərinin sonunda Azərbaycan dəmiryolunda yük dövriyyəsi 43 milyard ton-kilometr olmuşdur.

SSRİ dövründə də qeyd etmək lazımdır ki, 1926-cı ildə ilk elektrikləşdirilmiş dəmiryolu Bakı-Sabunçu xətti olmuşdur.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə də bu ölkədə iqtisadiyyatın bu sahəsinə xüsusi diqqət yetirmiş və bu sektorda mühüm işlərin görülməsinə rəhbərlik etmişdir. Ümumiyyətlə, iqtisadiyyatın bu sahəsinin də inkişaf tarixinin böyük bir hissəsi cənab Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun qayğı və diqqəti sayəsində Azərbaycan dəmiryolu infrastrukturu özünün ən yüksək inkişaf həddinə çatmışdır. Hələ SSRİ dövründə Şirvan, Yevlax, Balakən, Şəki, Güzdək-Qarabağ dəmiryolu xətləri və digər dəmiryolu stansiyaları istismara verilmişdir.

1975-ci ildə konteynerlərin təmiri üzrə Keşlə vaqon deposu Zaqafqaziyada bu sahədə ixtisaslaşmış yeganə müəssisə olaraq istifadəyə verilir ki, bu gün də Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə inşa olunmuş bu depo bütün konteyner parkının əsaslı və planlı cari təmirini həyata keçirir. Gəncə şəhərində texniki nailiyyətlərin son tələblərinə uyğun yük vaqonlarının təmiri və istisması, gün ərzində 60 elektrovoza texniki baxış keçirmək gücünə malik Şirvan dövriyyə depoları da bu qəbildəndir.

Azərbaycan 90-cı illərin əvvəllərində dərin tənəzzül keçirirdi. Həmin dövrdə bütün sahələrdə olduğu kimi dəmiryolu sahəsi də bir tənəzzül, içində idi. Ümummilli lider Heydər Əliyev iqtisadiyyatın bütün sahələrini, eləcə də respublikanın polad şəbəkəsini diqqət mərkəzində saxladı. Bununla paralel olaraq dəmiryolunun idarəetmə strukturları dəyişdirildi, xidmət və şöbələrin bazasında müstəqil fəaliyyət göstərən istehsalat birlikləri, müəssisələr və təşkilatlar formalaşdırılırdı. Ölkələrarası, respublikadaxili sərnişin daşınması təşkil olundu, qonşu dövlətlərlə dəmiryolları və iqtisadi əlaqələr yenidən quruldu. Tranzit yükdaşımaları bərpa olundu.

1998-ci ildə Dübəndidə terminal və stansiyanın açılışı həyata keçirildi. Heydər Əliyev dəmiryolunun Azərbaycan iqtisadiyyatındakı böyük rolunu bilir və dəyərləndirirdi. Çünki hər bir ölkənin geosiyasi və geoiqtisadi mövqeyinin gücü, həm də onun nəqliyyat sisteminin inkişafından asılıdır. Bu mənada da dəmiryolu nəqliyyatının rolu mühüm önəm daşıyır. Çünki milli iqtisadiyyatların qarşılıqlı asılılığının getdikcə artdığı, regionlararası, qitələrarası mal dövriyyəsinin yüksəldiyi bir şəraitdə dəmiryolu nəqliyyatı dövlətlərin inkişafının təkanverici elementinə çevrilmişdir. Bu baxımdan ölkəmizdə dəmiryolu sisteminin tərəqqisi daim dövlətin diqqət mərkəzindədir və bu gün iqtisadiyyatın prioritet istiqamətlərindən biridir.

Ulu öndərin layiqli davamçısı olan dövlət başçısı İlham Əliyev bu sahənin inkişafına xüsusi diqqət yetirir. Ölkəmizdə 2005-ci ildən 13 oktyabr dəmiryolu işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Cənab İlham Əliyevin 2009-cu il 20 iyul tarixli sərəncamı ilə “Azərbaycan Dəmiryolları” Qapalı Səhmdar Cəmiyyəti yaradıldı. Bu gün Azərbaycan dəmiryollarının inkişafı üçün bütün imkanlar var.

Beynəlxalq maliyyə qurumları ilə bu gün “Azərbaycan Dəmiryolları” arasında iqtisadi əlaqələr daha da intensivləşib. Azərbaycan dəmir yollarının infrastrukturu yeniləşmiş, göstərilən xidmətlərin səviyyəsi artırılmışdır. Bakı Dəmiryolu vağzalında əsaslı yenidənqurma işləri həyata keçirilmişdir. Bakı-Sumqayıt sərnişin dəmiryolu yenidən əsaslı təmir olunub istifadəyə verilib. Qonşu İran dövləti ilə gələcək iqtisadi inkişafa təkan verəcək Astara (Azərbaycan) – Astara (İran) dəmiryolu uğurla istifadəyə verilmiş. Avrasiya nəqliyyat dəhlizinin yaradılması istiqamətində önəmli olan layihələrdən biri Bakı-Tbilisi-Qars dəmiryolu istifadəyə verilmişdir.

Qarabağ müharibəsindən sonra da bu sahənin inkişafı diqqət mərkəzində olaraq qalır. Naxçıvandan çəkiləcək dəmiryolu geosiyasi və geoiqtisadi üstünlüklərə malikdir. Bu Avropa ilə Asiyanın unikal nəqliyyat kommunikasiya imkanlarına malik olan bir layihə olmasıdır. Bu layihəyə Türkiyə, İran da qoşulacaq, Ermənistan dövlətinin ərazisindən keçəcək bu beynəlxalq dəmiryolu layihəsinə Ermənistan dövləti hələ də cavab verməyib.

Bu layihələr bütövlükdə Azərbaycan dövlətinin beynəlxalq ticarətdə rolunun əhəmiyyətli dərəcədə artmasına və beynəlxalq aləmdə onun mövqelərinin möhkəmlənməsinə səbəb olacaq.

Beləliklə, Heydər Əliyevin Azərbaycanda təkcə dəmiryolu nəqliyyatı deyil, bütün sahələrin bərpası, qəbul edilmiş qanunlar, ölkəmizin digər ölkələr ilə istər dəmiryolları, istərsə də hava, su yolları ilə əlaqələrin yaranması, İpək Yolunun Azərbaycandan keçməsi, ölkənin tranzit rolunu oynaması iqtisadi inkişaf üçün geniş imkanlar açırdı. Bu imkanları görüb ondan səmərəli istifadə və gələcək dövrlərdə nəqliyyatın ayrı-ayrı sahələrinin inkişafı da H.Əliyev cənablarının uzaqgörənliyi idi. Aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycan öz inkişafını bərpa edirdi, yaradıcılıqla inkişaf etdirirdi.

H.Əliyev dövründə o, təkcə sənaye sahəsində deyil, kənd təsərrüfatında da özünəməxsus inkişaf prosesi sürətlə baş verirdi. Belə ki, kənd təsərrüfatı sahəsində sürətli inkişaf hökm sürürdü. SSRİ-nin tərkibində olduğu dövrdə kənd təsərrüfatı inkişaf sürətinə görə çox fərqlənirdi. Kənd təsərrüfatında 60-cı illərdəki gerilik H.Əliyevin əməyi nəticəsində yeni keyfiyyətli inkişaf yoluna qədəm qoydu, bu dövrdə pambıq yığımı, üzüm və texniki bitkilərin istehsalında ön plana keçdi. 1970-ci illərdə 100 min tondan çox pambığın toplanması bütün İttifaq üzrə ən yüksək göstərici idi. Bu 1970-ci ildə H.Əliyevin təşəbbüsü ilə SSRİ Nazirlər Soveti "Azərbaycan SSRİ-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" qəbul edilmiş qərarlardan irəli gələn nəticədir. 1971-1975-ci illərdə Azərbaycanda kənd təsərrüfatı istehsalının artırılması, təkcə əkinçilikdə deyil, heyvandarlıq sahəsində də böyük nailiyyətlər əldə edildi. Bu kənd təsərrüfatındakı inkişaf həmin dövrdə 1976-80-ci illərdə daha yüksək pillələrə qalxdı. 1975-80-ci illərdə Azərbaycan kənd təsərrüfatının inkişaf sürətinə görə keçmiş sovet respublikaları sırasında birincilərdən idi. O dövrdə 5 il ərzində pambığın məhsuldarlığı 37%, meyvənin məhsuldarlığı 45%, taxılın məhsuldarlığı 48%, üzüm məhsuldarlığı 51% artmışdır. [6]

Həmin dövrdə ölkədə eyni zamanda ölkədə sahibkarlıq inkişaf etdirilir, irimiqyaslı meliorasiya işləri aparılırdı. Azərbaycanda H.Əliyevin səyi nəticəsində şərabçılıq sənayesi istehsalı həcmi altı dəfə artmış, respublikada bütün sənaye istehsalı həcminin altıda bir hissəsini təşkil edirdi. Üzüm istehsalı həcminə görə respublika Moldovanın, Şimali Qafqazın, Ermənistanın, Gürcüstanın, Orta Asiya respublikalarının və Ukraynanın birgə istehsal etdikləri üzümün həcmindən çox idi. Təsadüfi deyil ki, iqtisadi göstəricilərinə görə Azərbaycan məhz bu illərdə ardıcıl olaraq 13 dəfə SSRİ Nazirlər Sovetinin keçmiş Qırmızı Bayrağı ilə təltif edilmişdir. [9]

Ümummilli lider Azərbaycanın sosial-iqtisadi inkişafı naminə hər cür fədakarlıq göstərmiş, Kremlin qadağalarına baxmayaraq imperiyanın verdiyi, ən kiçik imkanlardan həssaslıqla istifadə edərək, torpaqdan əldə edilən gəlirlərin əsas hissəsinin kənd adamlarına qaytarılmasına nail olmağa çalışırdı. Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Z.Səmədzadə bu dahi insan haqqında çox düzgün olaraq belə demişdir: "Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli, siyasi xadimdir. O, bütün dövrlərdə

Azərbaycan xalqına sədaqətli xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir.” [7]

M.Qorbaçov dövründə Azərbaycan xalqının ruhunu və əzmini qırmaq üçün onun göstərişi ilə sovet ordu hissələri ölkə paytaxtını darmadağın etmək əmrini aldı. Bu faktı heç kim heç bir tarixi dövrdə inkar edə bilməz. Lakin o dövr tarixə, Azərbaycan xalqının tarixinə təkcə qanlı deyil, həm də şanlı, qürurlu bir tarix kimi yazıldı. Bu qanlı hadisə xalqımız üçün həm faciə, həm də qəhrəmanlıq səhifəsi olduğu üçün cənab Heydər Əliyev həmişə bu günü bütün müvafiq görüşlərində Azərbaycan xalqının qələbəsi kimi hərkəsə çatdırırdı. Lakin Azərbaycan xalqına xitabən o düşünürdü və xalqa çatdırırdı ki, xalq bu hadisədən tarixi nəticə çıxarmalı, həmişə qürurlu olmalıdır. O, bunu milli mənafe kimi dəyərləndirir və söyləyirdi: “Millətin mənafeyi hər zaman hər bir insanın həyatından üstün olmalıdır.” [5] O, SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı ərizəsində 20 Yanvar hadisəsi ilə bağlı yazırdı: “Bu antihumanist, konstitusiya və hüquqa zidd hərəkəti ittiham edərək Sovet İKP və Azərbaycan KP MK-nin bu cinayətin üstünü açacağına inanmıram” deyirdi. [5] Cənab Heydər Əliyev Azərbaycanın 20 Yanvar həqiqətlərini dünyada hamıya məlum olması üçün bütün tədbirləri görür və onu reallaşdırırdı. Bir yandan 20 Yanvar faciəsi, bir yandan Ermənistanın Azərbaycanın bir parçası olan Dağlıq Qarabağın Ermənistana birləşdirmək istəyi xalqın hiddətinə səbəb oldu, xalq cinayətkar imperiyaya rəhbərliyinin xalqa qarşı xəyanətkar siyasətinə dözməyib öz azadlığına, müstəqilliyinə qovuşmaq üçün küçələrə axışaraq meydanlarda çılğınlıqla azadlıq mübarizəsinə qalxdı. Nəhayət öz siyasi iqtisadi müstəqilliyinə qovuşdu. 1990-cı ildə xalq iqtisadi islahatlar yolu ilə inzibati amirlik sistemindən bazar iqtisadi münasibətlərinə əsaslanan yeni müstəqil Azərbaycan dövlətini qurdu. Lakin bir haşiyə çıxaraq qeyd etmək istəyirəm ki, ikinci dəfə hakimiyyətə gələn cənab Heydər Əliyev 2006-cı ildə yanvarın 19-da ölkə başçısının fərmanı ilə 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünü təsis etdi. Əmək pensiyaları haqqında qanuna əsasən 20 Yanvar şəhidlərinin əmək pensiyasını alan hər bir ailə üzvünə əlavə ödəniş verildi. Bu səhifələr də Heydər Əliyevin həyat salnaməsinin ən parlaq səhifələrindən birinin parlaq nümunəsidir.

1990-1993-cü illər yeni siyasi-iqtisadi müstəqillik qazanmış, yeni iqtisadi keçmiş Azərbaycan üçün çətin bir iqtisadi-siyasi tənəzzül dövrü idi. Ölkədə inflyasiya, işsizlik, bir tərəfdən də torpaqların erməni işğalçıları tərəfindən işğal edilməsi, qaçqınlar problemi ölkədə xaosa səbəb olmuşdur. Nəhayət, dövlət idarəçiliyində təcrübəsiz olan, hakimiyyət özü də, xalqla birlikdə H.Əliyevin Bakıya gəlməsini, hakimiyyəti ələ almasını, ölkəni bu çətin iqtisadi-siyasi durumdan çıxarılmasını xahiş etdi və beləliklə, o, yenidən ikinci dəfə 1993-cü ildən ölkəyə rəhbərlik etməyə başladı.

Cənab Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkənin uğurlu iqtisadi inkişafının başlanğıcı oldu. Ölkənin iqtisadi həyatında köklü dəyişikliklərin əsası qoyuldu. İlk növbədə ölkədə iqtisadi sabitliyi təmin etmək məqsədilə qanunvericilik bazası formalaşdırıldı, konstitusiyaya müvafiq iqtisadi qanunlar, məqsədli dövlət proqramları qəbul edildi, mülkiyyət münasibətlərində əsaslı islahatlar aparıldı, gələcək inkişafa istiqamətlənən strategiyanın əsası – ölkənin mövcud resurslarından səmərəli istifadə, dünya təsərrüfat sisteminə inteqrasiya, iqtisadi inkişafı təmin etmək nəticəsində əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına istiqamətlənən

sosialyönümlü bazar iqtisadiyyatının əsası qoyuldu. Bunun ilkin nəticəsi aparılan iqtisadi islahatlara müvafiq maliyyə sabitliyi əldə edildi, iqtisadiyyata investisiyalar cəlb olunmağa başladı. 1994-cü ildə "Atəşkəs" sazişi imzalandı. 1995-ci il noyabrın 12-də Azərbaycanın səsvermə yolu ilə ilk Konstitusiyası qəbul olundu. Onun səyi nəticəsində 1998-ci ildə ölkədə ölüm hökmü ləğv edildi. Bu ölkəmiz Şərqdə bu cəzanı ləğv edən ilk ölkə kimi tarixə düşdü. Bu, Ümummilli liderin dünyanı bəşəri humanizmə, beynəlxalq hüquq normalarına çağırışı idi. 1995-2003-cü illərdə onun tərəfindən 32 əhv fərmanı, 7 amnistiya aktı qəbul olundu. Bu siyasət bu gün də uğurla ölkə prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyevin iqtisadi islahatlarının nəticəsi olaraq ölkədə azad biznesin inkişafı, xüsusi mülkiyyət və onun müvafiq formalarının bərabərhüquqlu inkişafı, xarici sərmayə qoyuluşlarının, onların fəaliyyətini tənzimləyən hüquqi-normativ aktlar islahatların təntənəsi idi. Bu da yerli biznesin Avropa bazarlarına çıxışına müsbət təsir etməklə şərait yaratdı. Aqrar islahatlar həyata keçirildi. Torpaqlar özəlləşdirildi. Fermer təsərrüfatlarının inkişafına şərait yaradıldı. Torpaq kəndlilərə, onların sahiblərinə pulsuz paylandı. Bununla yanaşı dövlət sektorunda sənaye obyektlərinin özəlləşdirilməsi həyata keçirildi. Beləliklə, ölkədə sahibkarlar təbəqəsi formalaşdırıldı və özəl sektor inkişaf etdirilməyə başladı, bu siyasət bu gün də uğurla davam etdirilir.

Artıq ölkədə beynəlxalq təcridə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilirdi. Keçmiş Sovet respublikaları, Avropa ölkələri, İngiltərə, ABŞ kimi ölkələr ilə iqtisadi-siyasi münasibətlər tənzimlənirdi. 1993-cü ilə qədər qəribə də olsa demək olar ki, Azərbaycan bir çox ölkələrlə, o cümlədən qonşu ölkələrlə gərgin münasibətlər yaşanırdı. Böyük dövlətlərlə, eləcə də qonşu dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyev cənablarının tarixi xidmətlərindən biri idi. Gərgin əmək, aparılan islahatların nəticəsi olaraq Azərbaycana xarici sərmayə axını müşahidə edilməyə başladı. "Əsrin kontraktı"nın imzalanması iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil oldu. Bu gün Azərbaycan dinamik, davamlı-dayanıqlı iqtisadi inkişaf yolunda inkişafını təmin etmiş dövlət qura bilmişdi. Müstəqil siyasət aparan ölkəyə çevrilmişdir. Müstəqil Azərbaycanın apardığı siyasət milli maraqlar üzərində qurulub. İqtisadi müstəqillik qazandığı dövrdən bu günə kimi beynəlxalq arenada öz mövqelərini gücləndirməkdə davam edir. Artıq o, beynəlxalq aləmdə lazımi nüfuza malik bir dövlətə çevrilmişdir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı artır.

Cənab Heydər Əliyev xarici sərmayələrin ölkənin iqtisadi inkişafındakı rolunu dəyərləndirir və xarici iş adamlarını Azərbaycana sərmayə qoymağa həvəsləndirən layihələr həyata keçirirdi. O, bu istiqamətdə ardıcıl uğurlu siyasət aparır və konkret tədbirlər görürdü. Onun üçün malik olduğumuz təbii resurslardan səmərəli istifadə və ölkəni ağır iqtisadi durumdan çıxarılmasının əsas şərti kimi prioritet idi. Bu baxımdan Ulu öndər iqtisadiyyatın ağır şəraitdən çıxarılmasının və gələcək uğurlu inkişafını neft amilində görərək, 1994-cü ilin sentyabr ayında dünyanın ən iri transmilli şirkətlərini "Əsrin müqaviləsi"ni, neft sazişini imzalamağa nail oldu. "Əsrin kontraktı" Heydər Əliyev şəxsiyyətinin ölkənin iqtisadi inkişaf yolundakı tarixi təntənəsi idi. "Əsrin müqaviləsi" ölkənin hazırki iqtisadi inkişafının əsası, beynəlxalq bazarlara iqtisadi inteqrasiyası deməkdir. Bu iqtisadi baza əsasında Bakı-Tbilisi Ceyhan (BTC), Cənub Qaz dəhlizi, Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəmərindən danışmaq olmazdı. BTC və BTƏ 2006 və 2007-ci illərdə artıq reallığı, 2017-ci ildəki "Yeni əsrin müqaviləsi" dünya enerji təhlükəsizliyində Azərbaycanın mövqelərini möhkəmləndirdi, rolunu

artırdı. Nəhayət, Azərbaycan "Cənub qaz dəhlizi"nin tərkib hissələri olan TANAP və TAP-ın istifadəyə verilməsi ilə bu gün dünyanın enerji xəritəsini dəyişdirdi.

Gələcək nəsillərin də bu sərvətdən faydalanmasını ön plana çəkərək cənab Heydər Əliyev 1999-cu ildə "Dövlət Neft Fondu"nun yaradılması haqqında sərəncam verdi. Lakin bu fondun vəsaiti bu gün təkcə gələcək nəsillər üçün deyil, eyni zamanda ölkənin sosial-iqtisadi inkişafını sürətləndirən sosial-iqtisadi layihələr həyata keçirir. 1 aprel 2020-ci il tarixə Dövlət Neft Fondunun vəsaitlərinin həcmi 41 milyard dollardan 2-3 dəfə artıqdır.

"Əsrin müqaviləsi" Azərbaycanı investisiyalar məkanına çevirdi. Son 16 ildən artıq bir dövrdə ölkə iqtisadiyyatına 270 milyard dollardan artıq investisiya yatırılıb. Valyuta ehtiyatlarının həcmi 52 milyard dollardan artıqdır. Xarici ticarət dövriyyəsinin həcmi 6,1 dəfə yüksələrək 5,22 milyard dollardan 16 il ərzində 31,8 milyard dollar olmuşdur.[3]

Azərbaycanın regional iqtisadi inkişafında "Əsrin kontraktı" BTC və BTƏ-nin xüsusi rolu və əhəmiyyəti qeyd olunmalıdır. Əsası heydər Əliyev cənabları tərəfindən qoyulmuş formalaşmış iqtisadi siyasətdən bu gün də uğurla bəhrələnirik. Bu Bakı-Tbilisi-Qars dəmiryolunun istifadəyə verilməsi və müvafiq layihələr regional əməkdaşlığı inkişaf etdirməklə, onu beynəlxalq əməkdaşlığın inkişaf zamininə çevirmişdir. Bunlar Heydər Əliyevin düşünülmüş, məqsədyönlü siyasətinin nəticəsidir.

Uzun illər işğal altında olan, lakin bu gün erməni işğalından azad olmuş torpaqlarımızla bağlı, vaxtında Heydər Əliyev cənabları Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasını, erməni yalanlarının dünyaya bəyan edilməsi, onun uğurlu siyasətinin tərkib hissəsi idi.

Bu gün Azərbaycan şaxələnmiş iqtisadi sisteminə malikdir. Artıq 17-ci ilə keçir ki, Ümummilli lider Heydər Əliyevin siyasi-iqtisadi kursu 2003-cü ildə xalqın dəstəyi ilə seçilmiş prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Bütün sahələrdə davamlı inkişafın təmin olunması həyata keçirilir. Regionların iqtisadi inkişaf proqramlarının uğurla reallaşdırılması ölkədə işsizlik və məşğulluq məsələlərini reallaşdırmağa geniş imkanlar açıb. 6 dekabr 2016-cı ildə qəbul olunmuş "Strateji Yol Xəritəsi" neft sektoru ilə yanaşı qeyri-neft sektorunun inkişafını ön plana çəkir. İqtisadiyyatın qeyri-neft sektorunun prioritet istiqamətlərinin sürətli inkişafını ön plana çəkərək bu sahədə də uğurlu iqtisadi irəliləyişlərə nail olub.

Azərbaycan dövləti qarşısında duran əsas problemlərdən biri, vacibi erməni işğalı altında olan ərazilərin azad edilməsi, torpaqlarımızın öz ərazimizə qaytarılması idi. 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində şanlı ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə 30 ildən artıq davam edən erməni işğalına son qoydu. Torpaqlarımız azad edildi və respublikamız öz qanuni hüquqlarını bərpa etdi. Bu da Ulu öndərin ən böyük arzusunun reallaşması idi.

Azərbaycan dövləti qarşısında tarixi xidmətləri ölçülməz olan Heydər Əliyev cənabları Azərbaycanın qurucusu, dövlətçiliyin yaradıcısı, dövlətimizi dünyanın ən aparıcı dövlətləri sırasına yüksəldən bir liderdir, dövlət başçısıdır. O, dövlətimizin müstəqil siyasəti həyata keçirmək diplomatiyasının banisidir. Qloballaşan dünyada müəkkəb siyasi proseslərin cərəyan etdiyi dönəmdə Heydər Əliyevin qurduğu, cənab İlham Əliyevin idarə etdiyi Azərbaycan öz müstəqil siyasətini yürüdür.

Dünyanın aparıcı siyasətçiləri, dövlət adamları ölkəmizin dinamik inkişafını Azərbaycanın modelini fərqləndirən ən vacib fərqli keyfiyyətlər kimi qiymətləndirilir. Azərbaycanın bugünkü dövlət strategiyası, gələcəklə bağlı dövlətçiliyimiz Heydər Əliyev

cənabları tərəfindən müəyyənləşdirilmiş uğurlu təməldir. Azərbaycan bu təmələ rəğmən iqtisadiyyatın dinamik inkişafına, əhalinin həyat səviyyəsinin artırılmasına, demokratik cəmiyyətin qurulmasına, sivil dövlətlər sırasında Azərbaycanın layiqli yer tutmasına xidmət edir. Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı, onun əzəli və əbədi arzularına müvafiq olaraq ölkəmizi uğurla, inamla tərəqqiyə, xoş günlərə aparır. Ölkə prezidenti İlham Əliyev demişdir: “Müstəqil Azərbaycan dövlətinin və qurucusu, dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə bəslənən ümumxalq sevgisi, xatirəsinə olan sonsuz ehtiram çoxminlik tariximizin heç bir dövründə heç bir dövlət rəhbərinə nəsib olmamışdır. Ulu öndər Heydər Əliyevi xalqımızın qəlbində bu qədər ucalığa yüksəldən, müqəddəsləşdirən isə onun Azərbaycana olan böyük sevgisi olmuşdur. O, bütün həyatını Vətənin tərəqqisinə, xalqımızın xoş günlərə qovuşmasına həsr etmiş və gərgin mübarizələr nəticəsində böyük çətinliklər bahasına bu istəyinə çatmışdır.” [8]

Bu gün ölkənin uğurla idarə edən İlham Əliyevin həm daxili, həm də xarici siyasəti Heydər Əliyev əməllərinin davamıdır. O, Azərbaycanın müstəqillik dayaqlarını daha da möhkəmləndirməklə, ölkəmizi dünyada çox böyük nüfuz sahibinə çevirmişdir. İlham Əliyev siyasətinin də təməlində xalqa bağlılıq, azərbaycançılıq ideyasının cəmiyyətdə daha da bərqərar olması kimi strateji amil dayanıb. Cənab prezident İlham Əliyevin siyasəti bu istiqamətdə Azərbaycanın dilini, mədəniyyətini, mütərəqqi ənənələrinin tarixini yaşatsın. Dünyada yaşayan soydaşlarımızın mədəni-mənəvi birliyinin təminatı baxımından bu əsas şərtlərdən biridir. Prezident İlham Əliyev bu mütərəqqi inkişaf modelini formalaşdırdı, bu model Azərbaycan modelidir. Bu istiqamətdə onun reallaşdırdığıkonsepsiyanın dövlət siyasətinin əsasını Azərbaycan vətəndaşı, onun həyat səviyyəsi durur.

Cənab prezident İlham Əliyevin neftdən gələn gəlirin insan kapitalına çevrilməsi ideyası ilə bu fenomenal ideyanın məharətlə reallaşdırılması, ölkənin gələcək inkişaf strategiyasının bugünkü reallığıdır. Ölkə prezidenti İlham Əliyev dövlət idarəetmənin ən uğurlu modellərini tətbiq etməkdədir. Bunun nəticəsində Azərbaycan borc alan ölkədən borc verən ölkəyə, qonşulardan dəstək duyan uman dövlətdən köməyə ehtiyacı olanlara yardım edən dövlətə çevrilib, ən başlıcası Heydər Əliyevin vəsiyyəti həyata keçdi – Qarabağ azad oldu. Prezident İlham Əliyevin özünün də dediyi kimi, o, ata vəsiyyətini Qarabağın işaldan, mənfur erməni işğalından azad olmasını reallaşdırdı.

44 gün ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu, müdrik siyasət nəticəsində Vətən müharibəsindən qalib çıxaraq torpaqlar işğaldan azad edildi, Qarabağ münaqişəsi Azərbaycan xalqının xeyrinə başa çatdı. Lakin bu münaqişə, onun həlli heç də o qədər də sadə məsələ deyildi. Qarabağ problemi böyük dövlətlərin, qlobal güclərin geosiyasi maraqlarının toqquşduğu bir məsələ idi. Yalnız Prezidentin müdrik qərarları nəticəsində bu qələbə qazanıldı. Bu reallıq güclü hərbiçiləri, təlim keçmiş döyüşçüləri olan bir ölkənin savaşaraq öz torpaqlarını azad etməsi idi. Bu reallıq Heydər Əliyev vəsiyyətinin Azərbaycan xalqının arzusunun gerçəkləşməsi idi. Artıq gerçək reallıqları bizə yaşadan, liderimiz, ölkə prezidenti İlham Əliyev Azərbaycan tarixinə öz adını qızıl hərflərlə yazdı.

Qarabağ münaqişəsi tarixin arxivinə qovuşduqdan sonra Azərbaycan iqtisadiyyatı daha da sürətlə inkişaf edəcək. Bu ərazilərdə artıq yenidənqurma və bərpa işləri həyata keçirilir. İşğaldan azad olmuş ərazilərdə yeni obyektlər açılır, infrastruktur layihələr icra olunur. Prezident ölkədaxili problemlərlə yanaşı beynəlxalq aləmdə də uğurlu siyasətini davam etdirir.

**Ədəbiyyat**

1. A.Şəkərəliyev. Dövlətin iqtisadi siyasəti. Dayanıqlı davamlı inkişafın təntənəsi. Bakı 2011
2. A.Şəkərəliyev. Azərbaycan iqtisadiyyatı: reallıq və perspektivlər. Bakı 2016
3. Maliyyə və uçot. Jurnal.2020/05.06.2020/11.12.2020
4. Maliyyə və uçot. Jurnal 2019-cu il/12. Bakı 2019
5. Maliyyə və uçot. Jurnal. 2017. səh.5
6. Ulu öndər Heydər Əliyevin aqrar islahatları. 25.04.2017. http: //səs.qazeti.az>sosial
7. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişaf strategiyası. Xalqqazeti.com/mobile/az/news/36706
8. xalqqəzeti.com/mobile/az/news/36706
9. http: //səs.qazeti.az>sosial

**i.f.d. Hümbətəliyeva Səadət Əsgər qızı,**
*Sumqayıt Dövlət Universiteti İqtisadiyyat kafedrasının dosenti,*

**i. f.d. Rüstəmova Gülbəs Rəsul qızı**
*Dünya iqtisadiyyatı və marketinq kafedrasının baş müəllimi*
*Email: rrufet1979@mail.ru*

## MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL İQTİSADİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Xülasə:** *Heydər Əliyev ölkə başçısı kimi öz xalqının mənafeyini düzgün qiymətləndirə bilmiş, ölkəmizin mədəni, təbii və iqtisadi potensialını əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəltməyə çalışmışdır. Fəaliyyətinin ilk illərindən etibarən Azərbaycan xalqına sevgisini öz əməlləri ilə göstərmiş, həmişə millətini və dövlətini hər şeydən uca tutmuşdur. Ulu öndər müstəqillik əldə etdikdən sonra Azərbaycanın üzləşdiyi iqtisadi tənəzzül dövründə öz zəngin idarəçilik təcrübəsinə arxalanaraq vəziyyəti sabitləşdirməyi bacardı. Dahi şəxsiyyət bütün gücünü səfərbər edib tezliklə ölkəni böhran vəziyyətindən çıxarmağa və inkişafa nail oldu. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkənin milli iqtisadiyyatı, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir.*

***Açar sözlər:*** *dahi şəxsiyyət, Azərbaycanın dövlət müstəqilliyi,* ***,*** *milli iqtisadiyyat, sənaye, neft strategiyası,iqtisadi inkişaf*

Azərbaycanın iqisadi inkişaf tarixinin təşəkkülündə və formalaşmasında 1970-1985-ci illəri dirçəliş dövrü adlandırmaq olar. Belə ki, ümummilli liderimiz Heydər Əliyevin zəngin dünyagörüşünə, milli maraqlara söykənən iqtisadi siyasəti nəticəsində Azərbaycan Respublikasının iqtisadiyyatının strukturunun yenidən qurulması, sənaye sahələrinin inkişafının təkmilləşdirilməsi, bütövlükdə respublika iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsi proseslərinə güclü təkan vermişdir. Həmin dövrdə milli baxışlara söykənmiş iqtisadi tədqiqatlar da sürətlə artmışdır. Azərbaycanda məhsuldar qüvvələrin inkişaf etdirilməsi, onların səmərəli yerləşdirilməsi, neft sənayesinin maddi texniki bazasının yenidən qurulması, digər iqtisadi sahələrin inkişafının sürətləndirilməsi, xüsusilə kənd təsərrüfatı və aqrar sahənin potensialından istifadəyə dair genişmiqyaslı tədqiqatlar aparılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətləri nəticəsində 1970-ci illərdən başlayaraq neft sənayesinin maddi texniki bazasının gücləndirilməsi, ağır maşın və mexanizmlər, qülləli kranlar, üzən xidmət gəmiləri, müxtəlif növ gəmilər, tankerlər neft sənayesinin inkişaf etdirilməsində əhəmiyyətli rol oynamışlar. Həmin dövrdə neft və qaz ehtiyatlarının kəşfiyyat işləri də kifayət qədər gücləndirilmişdir və təsadüfi deyildir ki, müasir dövrdə istismar olunan bir qrup yataqlar (Günəşli, Çıraq və s.) məhz o vaxtlar kəşf olunmuşdur. 1975-ci ildə neft və qaz hasilatı artaraq 27,1 milyon tona – şərti yanacağa çatdırılmışdır. Bakıda Dərin Dəniz Özülləri zavodu istismara verildi və bu məqsədlə 450 milyon ABŞ dolları həcmində vəsait ayrılmışdı. Bu iri zavodun Azərbaycanda istismarı ölkənin neft sənayesinin texniki potensialını xeyli gücləndirmişdir. Heydər Əliyevin güclü zəkası hesabına həmin dövrdə Azərbaycanın əksər iqtisadi göstəriciləri Ümumittifaq göstəricilərindən üstün idi [1, səh. 42].

Məlumdur ki, 1991-ci ildə müstəqilliyini əldə edən ölkəmiz bazar iqtisadiyyatı yönündə inkişafa qədəm qoyarkən bir sıra siyasi və iqtisadi çətinliklərlə qarşılaşmışdır. Müstəqilliklə əlaqədar olaraq ölkəmizdə milli iqtisadiyyatın yenidən qurulması prosesləri təmin edilməli və milli iqtisadi maraqlara uyğun iqtisadi inkişaf modelinin formalaşdırılması vacib idi. Bu baxımdan həmin dövrdə Azərbaycanda milli iqtisadiyyatın yaradılmasını təmin etmək üçün bir sıra mühüm vəzifələrin öhdəsindən gəlmək tələb olunurdu. Bu vəzifələrdən ilk növbədə milli maraqlara söykənən iqtisadi siyasətin formalaşdırılmasını, əsas iqtisadi islahatların təşkilini, ölkədə mövcud olan təbii və iqtisadi resurslardan səmərəli istifadə, sabit maliyyə -kredit

sisteminin yaradılması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə uğurlu inteqrasiyasının təşkili və milli iqtisadiyyatın mühüm inkişaf prioritetləri üzrə qanunvericilik bazasının yaradılmasını göstərmək olar. Bütün bu məsələləri dərindən təhlil edən Ümummili liderimiz Heydər Əliyev qeyd olunan tarixi vəzifələrin öhdəsindən gəlməyə nail olmuşdur. Müstəqilliyin ilk dövrlərində ölkənin üzləşdiyi iqtisadi tənəzzülün, vətəndaş müharibəsinin, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və ölkədə siyasi, iqtisadi sabitliyi təmin etmək üçün Heydər Əliyev bir sıra mühüm addımlar atmışdır ki, bunun da müsbət nəticələri hər bir vətəndaşın həyatında özünü göstərmişdir.

Azərbaycanın bugünkü uğurları müasir Azərbaycan dövlətinin banisi Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilərək həyata keçirilmiş islahatlara söykənir. Həmin vaxtı aparılmış islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə söykənən sosial yönümlü iqtisadiyyatın bərpası və inkişaf etdirilməsi mümkün olmuş, ölkə əhalisinin həyat səviyyəsi yüksəldilmişdir.

Ümummilli liderimiz H.Əliyevin tarixi xidmətləri nəticəsində hələ 1970-ci illərdən başlayaraq neft sənayesinin maddi texniki bazasının gücləndirilməsi neft sənayesinin inkişaf etdiriməsində əhəmiyyətli rol oynamışdır. Ümummili liderimiz ikinci dəfə artıq müstəqil Azərbaycana rəhbərliyə qayıdışından sonra bu sahənin mahir bilicisi kimi qısa mddət ərzində mükəmməl "Neft Strategiyası" hazırlamağa nail oldu. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" nin imzalanması ilə bu strategiyanın fəal olaraq reallaşdırılmasına təkan verildi.

Ölkəmizdə neft strategiyasının reallaşdırılması ilə bağlı həyata keçirilən önəmli tədbirlərin sırasında hasil olunan neft məhsullarının dünya bazarlarına çıxarılması infrastrukturunun yaradılması da əhəmiyyətli yer tutmuşdur. İlk zamanlarda Bakı-Supsa və Bakı-Novorossiysk neft boru kəmərləri vasitəsilə Bakı nefti dünya bazarlarına ixrc edilirdi. Amma illik hasilatın artırılacığını nəzərə alan uzaqgörən liderimiz yeni ixrac marşrutlarını araşdıraraq Bakı-Tbilisi-Ceyhan neft boru kəmərini ən uyğun variant olaraq seçdi. Sonralar isə Cənubi Qafqaz boru kəməri istifadəyə verilmiş və ölkəmiz dünyada neftlə yanaşı, qazın da ixracatçısına çevrilmişdir. Artıq dünya ölkələri xüsusilə də, Avropa Birliyi ölkələri Azərbaycanı özlərinin enerji sahəsində etibarlı tərəfdaşı kimi qəbul etmişlər.

Azərbaycanda torpaq islahatlarının aparılması və torpaqdan səmərəli istifadə olunması üzrə tarixi tədbirlər Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Yüksək dünyagörüşü və zəngin liderlik təcrübəsinə malik olan H.Əliyev torpaq islahatlarını aparmaqla Azərbaycanda kənd təsərrüfatının və aqrar sahənin inkişafının müasir fəaliyyət istiqamətlərinin əsasını qoymuşdur. 1996-cı ildə qəbul olunmuş "Torpaq islahatı haqqında" qanunun əsas məqsədi iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətləri yaratmaq, əhalinin maddi rifahının və xüsusilə ərzaq təminatının yaxşılaşdırılması idi. Bundan əlavə 7 may 1999-cu ildə qəbul olunmuş "Torpaq bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə ölkədə torpaq islahatlarının hüquqi normativ əsaslarının tənzimlənməsi və reallaşdırılması mümkün olmuşdur.

1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində Dövlət Proqramları qəbul edilmişdir. Ölkədə sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafının modelləşdirilməsi, bu sahədə qanunvericilik bazasının gücləndirilməsi, əsassız müdaxilələrin azaldılması istiqamətində aparılan işlər təkcə ölkə səviyyəsində deyil, xarici investor, kompaniyalar, beynəlxalq maliyyə qurumları tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkənin iqtisadi inkişaf proseslərinin genişləndirilməsi, milli iqtisadiyyatın müxtəlif sahələrinin müasir texnologiyalar əsasında inkişafının sürətləndirilməsi fəal surətdə xarici investisiyaların cəlb edilməsini şərtləndirir. Azərbaycanda xarici şirkətlərin investisiya fəaliyyətini tənzimləmək məqsədilə 1995-ci il 13 yanvar tarixində "İnvestisiya fəaliyyəti haqqında" qanun qəbul edilmişdir. Bu qanun respublikada investisiya mühitinin yaxşılaşdırılmasına, bölgələrə sərmayə qoyuluşunun təşviq edilməsinə, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat vermişdir. Bir faktı qeyd etmək lazımdır ki, 1995-ci ildən başlayaraq ölkə

iqtisadiyyatında sabitlik yarandıqdan sonra ölkəmizə xarici investisiya qoyuluşu sürətlə artaraq 10 milyard dollara çatmışdır. Bunun da 60%-dən çoxu xarici kapitalın payına düşür. 2000-ci ildə respublikamızda 1974 xarici investisiyalı müəssisə fəaliyyət göstərmişdir ki, orada işləyənlərin sayı 25 min nəfərə çatmışdır. Ümumilikdə, 1996-2000-ci illərdə həmin müəssisələr vergi və sosial ayırma şəklində büdcəyə təqribən 600 milyon dollar vəsait ödəmişlər.

1991-1993-cü illərdə ölkəmizdə makroiqtisadi sabitliyin təmin edilməsi üçün cəhdlər o qədər də uğurlu olmamışdır. 1994-cü ildən başlayaraq mili neft strategiyasının icra prosesləri ilə yanaşı olaraq, ölkədə geniş miqyaslı islahatlar aparılmış, vergi və bank sistemləri sürətlə dəyişən iqtisadi şəraitə uyğunlaşdırılmış, dünya iqtisadiyyatına inteqrasiya yolu seçilmişdir. Ulu öndər Heydər Əliyev deyirdi ki, biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik. Azərbaycan Respublikasında valyuta siyasəti və valyuta tənzimlənməsi sahəsində bir sıra qanunlar qəbul edilmişdir ki, onlardan "Valyuta tənzimi haqqında" 21 oktyabr 1994-cü il tarixli 910 saylı Qanunu, "Gömrük tarifi haqqında", "Gömrük məcəlləsi", "Vergi məcəlləsi", "İnzibati xətalar məcəlləsi" və sair bu kimi qanunları qeyd edə bilərik.

Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə ölkədə aparılan iqtisadi islahatların nəticəsi olaraq xarici iqtisadi əlaqələrin təşkili mexanizmləri təmin edilmiş, milli valyutanın kursu sabitləşdirilmiş və regional, dünya ölkələri ilə iqtisadi əməkdaşlıq əlaqələri gücləndirilmişdir. Düşünülmüş xarici iqtisadi ticarət strategiyası nəticəsində Azərbaycan bu gün dünyanın 140-145 ölkəsi ilə xarici ticarət əlaqələri qurmuşdur.

Müstəqilliyin bərpasından sonra yenicə formalaşmış demoqrafik siyasətin nəticəsində ölkə əhalisinin artımı təmin edilmişdir. 1990-2017-ci illərdə ölkə əhalisinin sayı 27,3% artmışdır.

Həmin dövrdə sosial sahədə bir sıra tədbirlər həyata keçirilmiş, dövlət büdcəsinin xərclərində sosial müdafiə xərcləri artırılmışdır. Qeyd etmək lazımdır ki, 1993-cü ildə dövlət büdcəsindən bu sahəyə ayrılan vəsaitin həcmi 5,5 milyard manat idisə, 2002-ci ildə bu rəqəm 951,2 milyard manat təşkil etmişdir. Ölkə rəhbərinin əhalinin sosial təminat məsələlərinin həllinə yönəlik siyasəti nəticəsində 1996-2002-ci illərdə əhalinin real pul gəlirləri 2,6 dəfə artmışdır. Həmin dövrdə muzdlu işçilərin orta aylıq əməkhaqqı da xeyli yüksəlmişdir. Belə ki, 1995-2002-ci illər ərzində orta aylıq əmək haqqı 5 dəfədən çox artaraq 315,2 min manat təşkil etmişdir [2, səh. 2].

Göründüyü kimi həyata keçirilmiş tədbirlər nəticəsində ölkədə ÜDM istehsalında yüksəlişə nail olunmuşdur. 1995-2003-cü illərdə ölkəmizdə makroiqtisadi sabitlik nəinki təmin olunmuş, eyni zamanda həmin dövr ərzində ölkədə iqtisadi islahatların əsas fazası milli iqtisadi maraqlar çərçivəsində həyata keçirilmişdir. Bazar iqtisadiyyatı mexanizmləri əhəmiyyətli dərəcədə inkişaf etdirilmiş, aqrar islahatlar aparılmış və torpaqlardan səmərəli istifadə olunması mexanizmləri yaradılmış, region əhalisinin kənd təsərrüfatı ilə məşğul olması üçün əhaliyə torpaqların paylanması həll edilmiş, sahibkarlığın, fermer təsərrüfatlarının, biznes subyektlərinin inkişafı mexanizmləri, o cümlədən stimullaşdırıcı mexanizmlər hazırlanaraq tətbiq olunmuşdur.

Artıq bu günün reallıqları sübut edir ki, Ulu öndərin respublikamızın gələcək inkişafını demokratik və dünyəvi dəyərlərə söykənən sistemlər üzərində qurması təsadüfi deyil. Məhz həmin ideyalar əsasında müstəqil respublikamız inkişaf etməkdədir. Həmin dövrdə aparılan islahatlar hazırda öz müsbət nəticələrini verir. Bu özünü müasir tələblərə cavab verən elmi kadrların hazırlanmasında, Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, ölkənin sosial-iqtisadi inkişaf istiqamətində göstərir. Əminliklə söyləmək olar ki, Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi islahatlar konsepsiyası müasir Azərbaycan Respublikasının inkişafının təməlini qoymuşdur. Dahi şəxsiyyət Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən biri də ordunun hərbi qüdrətinin yüksəldilməsi olmuşdur. Məhz bu məqsədyönlü dövlət siyasətinin nəticədir ki, Azərbaycan ordusu regionun ən qüdrətli ordusu kimi illərlə qarşısında duran tarixi vəzifənin öhdəsindən

gəldi, torpaqlarımızın ərazi bütövlüyünü təmin etməyi bacardı. Bu gün əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan davamlı inkişaf strategiyasını ölkə Prezidentimiz cənab İlham Əliyev uğurla davam etdirir, möhtəşəm qalibiyyətlər əldə edir, ölkəmiz üçün vacib olan yeni strateji iqtisadi layihələrə imza atır.

**Ədəbiyyat**

1. Ş.T. Əliyev. Azərbaycan iqtisadiyyatı, 2018, 376 s.
2. Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi. İstanbul, 2007, 162 s.

**Резюме**

**Гумбаталиева Саадат Аскар, Рустамова Гульбас Расул**

**Роль Гейдара Алиева в социально-экономическом развитии независимой Азербайджанской Республики**

Как глава государства Гейдар Алиев смог правильно оценить интересы своего народа, попытался направить культурный, природный и экономический потенциал нашей страны на повышение уровня жизни населения. С первых лет своей деятельности он своими делами проявлял любовь к азербайджанскому народу, всегда превыше всего ставил свой народ и государство. После обретения независимости великий лидер смог стабилизировать ситуацию во время экономического спада, с которым столкнулся Азербайджан, опираясь на свой богатый управленческий опыт. Гений мобилизовал все свои силы и вскоре сумел вывести страну из кризиса и развиваться. Комплексный подход Гейдара Алиева как государственного и политического деятеля к проблемам стоящим перед национальной экономикой страны, является толчком к серьезным успехам, достигнутым сегодня.

***Ключевые слова:*** *гений, государственная независимость Азербайджана, национальная экономика, промышленность, нефтяная стратегия, экономическое развитие*

**Summary**

**Humbataliyeva Saadat Asgar, Rustamova Gulbas Rasul**

**The role of Heydar Aliyev in the socio-economic development of the independent Republic of Azerbaijan**

As the head of state Heydar Aliyev was able to correctly assess the interests of his people, tried to direct the cultural, natural and economic potential of our country to improving the living standards of the population. From the first years of his activity, he showed his love for the people of Azerbaijan by his deeds, and always held his nation and state above all else. After gaining independence the great leader was able to stabilize the situation during the economic downturn facing Azerbaijan relying on his rich management experience. The genius mobilized all his strength and soon managed to bring the country out of the crisis and develop. As a statesman and politician Heydar Aliyev`s comprehensive approach to the problems facing the country`s national economy, as well as its various spheres, is the impetus for the serious successes achieved today.

***Key words:*** *genius, state independence of Azerbaijan, national economy, industry, oil strategy, economic development*

**i.ü.f.d. Fərəcova Dilbər Daşdəmir qızı**
*Azərbaycan Dövlət İqtisad Universitetinin*
*"Mühasibat uçotu və audit" kafedrasının müəllimi*
*faracova.dilbar@mail.ru*

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN İQTİSADIİNKİŞAF STRATEGİYASININ BANİSİDİR

### Xülasə

Müasir Azərbaycan dövləti beynəlxalq aləmin tam hüquqlu subyekti kimi davamlı iqtisadi inkişafını və sabitliyini təmin etmiş müstəqil bir dövlətdir. Artıq Respublikamız ali kürsülərdən öz sözünü bəyan etməyə, öz haqlı mövqeyini qorumağa qadir, zəngin iqtisadi potensiala malik bir dövlətdir. Müstəqillik əldə etdikdən sonra məlum səbəblərdən böhran vəziyyətinə düşmüş Azərbaycan iqtisadiyyatında tərəqqiyə nail olunmasına, güclü dövlət idarəetmə sisteminin qurulmasına, qədim tarixə və çoxəsrlik zəngin mədəniyyətə sahib olan uca millətimizin bütün dünyada tanıdılmasına, eləcə də fenomenal biliyi və siyasi dühası ilə respublikamıza rəhbərliyi dövründə əldə etdiyi nailiyyətlərə görə xalqımızın qəlbində əvəzsiz dövlət xadimi qiymətini almış möhtərəm Heydər Əliyevin həyata keçirdiyi strategiya bütün sahələrdə əldə edilən uğurların əsasını təşkil edir. Bu mənada Azərbaycan xalqı xoşbəxtdir ki, uca yaradan xalqımıza Heydər Əliyev kimi dahi şəxsiyyətin simasında əsl dövlət xadiminə xas olan xüsusiyyətlərə malik olan, eləcə də xalqımızı və dövlətimizi qısa zamanda hüquqi, dünyəvi, demokratik inkişaf yoluna çıxarmağa qadir olan dövlət başçısı, ümummilli lider bəxş etmişdir.

**Acar sözlər:** iqtisadi inkişaf strategiyası, bazar münasibətləri sistemi, iqtisadiyyatın liberallaşdırılması, audit, maliyyə resursları.

**Ключевые слова:** стратегия экономического развития, система рыночных отношений, либерализация экономики, аудит, финансовые ресурсы.

**Key words:** economic development strategy, system of market relations,economic liberalization,audit, auditor research, financial resources.

.

Müasir dövrdə hər bir dövlətin gücünün əsasını onun iqtisadi cəhətdən inkişaf səviyyəsi təşkil edir. İqtisadiyyatı güclü olmayan dövlət heç bir sahədə uğur qazana bilməz. İqtisadi cəhətdən inkişaf etmiş dövlətlər beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutur, həmin dövlətlərin nüfuzu və maraqları digər dövlətlər tərəfindən qəbul olunur, həm reqional, həm də qlobal miqyasda təsirləri artır. Bu gün mövcud olan reallıqları nəzərə aldıqda, tam əminliklə demək olar ki, zəif iqtisadi inkişafa malik ölkələri güclü saymaq olmaz.

Güclü iqtisadi inkişafa malik olmaq üçün ilk növbədə müasir çağırışlara cavab verə bilən modern iqtisadi münasibətlər sistemi qurulmalı, qabaqcıl texnologiyaların tətbiqinə geniş imkanlar açılmalı, çevik idarəetmə və müstəqil audit mühiti yaradılmalıdır.

Azərbaycan Respublikası da beynəlxalq aləmin bir üzvü olduğu üçün dünyada gedən proseslərdən kənarda qala bilməzdi. Məhz buna görə də SSRİ dağıldıqdan sonra müstəqilliyini qazanmış Azərbaycan Respublikasının qarşısında yerinə yetirilməsi çətin görünən vəzifələr dururdu. Məlumdur ki, SSRİ dövründə iqtisadi münasibətlər elə qurulmuşdu ki, bütün müttəfiq respublikalar bir-biri ilə bağlı idi. Yəni heç bir respublika müstəqil şəkildə hər hansı bir sahəni inkişaf etdirə bilməzdi. Ona görə müstəqilliyin ilk vaxtlarında yeni iqtisadi strategiya qəbul olunmalı, iqtisadi münasibətlər yenidən qurulmalı, ölkəyə beynəlxalq investorlar cəlb edilməli idi. Lakin ötən əsrin sonlarından başlayaraq Ermənistanın ölkəmizə qarşı başladığı təcavüz, yenicə müstəqillik qazanmış dövlətimizin rəhbərliyində təmsil olunanların səriştəsizliyi, qətiyyətsizliyi, bəzi hallarda xainlik dərəcəsinə çatan məsuliyyətsizliyi vəziyyəti çıxılmaz həddə

çatdırmışdı. Ölkəmizdə həmin dövrdəki hərc - mərclik xalqın gələcəyə inamını qırmış və dövlət kimi mövcudluğumuzu təhlükəyə atmışdı.

Məhz bu qarışıqlıq məqamında Azərbaycan xalqı müdrikliyini nümayiş etdirərək o zaman Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri vəzifəsində olan Heydər Əliyevi Respublikaya rəhbərlik etmək üçün Bakıya dəvət etdi. Xalqı bu bəlalardan yalnız təcrübəli, qətiyyətli, ömrünün çox hissəsini xalqa xidmət etməklə keçirən dahi Heydər Əliyev qurtara bilərdi. Bütün risk və təhlükələrə rəğmən dövlətimizi məhv olmaqdan xilas etmək, dağılmış iqtisadiyyatı yenidən dirçəltmək, xalqın gələcəyə olan inamını qaytarmaq, ərazi bütövlüyümüzü bərpa etmək üçün Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdı.

Məlumdur ki, dövlətimizin 1969 – 2003 – cü illər arasında formalaşan tarixinin böyük hissəsi məhz Heydər Əliyev kimi müdrik bir şəxsiyyətin adı ilə bağlı olmuşdur. Hələ 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsinə təyin olunmuş Heydər Əliyev qısa dövr ərzində öz gərgin əməyi, biliyi və təcrübəsi sayəsində Azərbaycan Respublikasını digər SSRİ respublikaları arasında önə çıxarmışdır. Heydər Əliyev Respublika rəhbərliyinə təyin edilməmişdən qabaq Azərbaycan iqtisadiyyatında durğunluq və tənəzzül hökm sürürdü. Heydər Əliyevin qarşısında həlli müşkül görünən vəzifələr dururdu: ölkə iqtisadiyyatının strukturunu əsaslı şəkildə dəyişmək, respublikanı böyük dövlətin xammal istehsalçısından müasir texnologiyaların tətbiq edildiyi sənaye mərkəzinə çevirmək, geridə qalmış kənd təsərrüfatını dövrün tələblərinə uyğun yenidən qurmaq, əhalinin sosial rifah halının və təhsil səviyyəsinin yüksəldilməsi və s. Hakimiyyətinin ilk illərindən başlayaraq daim öz diqqət və qayğısını xalqdan əsirgəməmiş, istər respublika rəhbərliyində, istərsə də ondan sonra İttifaq səviyyəli vəzifələrdə çalışarkən, Azərbaycan xalqının mənafeyini bütün maraqlardan üstün tutan Heydər Əliyev dəfələrlə öz həyatını və karyerasını təhlükəyə ataraq xalqımızın və dövlətimizin əleyhinə qərar qəbul edilməsinə mane olmuş, yüksək tribunalardan məntiqli və kəskin fikirləri ilə düşmənləri yerində oturtmuşdur.

Heydər Əliyevin 1969-1982–ci illər fəaliyyətinin ilk dövrlərində Azərbaycanın təkcə sənaye sahəsində deyil həmçinin kənd təsərrüfatında da, özünəməxsus inkişaf hökm sürürdü. Azərbaycanın adı bu dövrlərdə pambıq yığımına, üzüm və texniki bitkilərin becərilməsinə görə SSRİ səviyyəsində ön sıralarda çəkilirdi. Bu inkişaf Azərbaycanın bütün bölgələrində nəzərə çarpırdı. Təbii resuslarından səmərəli istifadə və onların artırılması Azərbaycan iqtisadiyyatının güclənməsinə təkan verdi. Bununla yanaşı, Heydər Əliyev təşəbbüsü ilə neft və qaz sahəsinə aid olan sənaye müəssisələrinin təməli qoyuldu və istifadəyə verildi. Əvvəllər digər müttəfiq respublikalardan əldə edilən neft maşınqayırma sahəsi üzrə məhsulların 70-80 faizinin respublikamızın müəssisələrində istehsalı təmin edildi. Heydər Əliyevin qayğısı və diqqəti sayəsində "Bakı fəhləsi" zavodu yenidən quruldu. Bakı, Sabunçu və Zabrat maşınqayırma zavodları, "Balaxanıneft" Neft və Qazçıxarma İdarəsi müasir tələblərə uygun təkmilləşdirildi, Heydər Əliyevin təşəbbüsü ilə iki monumental körpü tikildi. 20-ci əsrin 70-ci illərində neft sənayesinin inkişafında yeni dövr başlandı. Heydər Əliyevin şəxsən rəhbərliyi ilə Bakı neftayırma zavodlarının köklü surətdə yenidən qurulması həyata keçirildi. 1976-cı il dekabrın 25-də Azərbaycanda ən iri neftayırma qurğusu (ELOY-AVT) işə salındı. Onun təşəbbüsü ilə 70-80-cı illərdə Azərbaycanda iri dəniz neft donanması yaradıldı. Heydər Əliyev yaxşı bilirdi ki, iqtisadi potensialın güclü olması həm respublikanın xeyrinədir, həm də əhalinin rifahının yüksəlməsinə xidmət edir. Bir sözlə Heydər Əliyevin Azərbaycanda birinci dəfə rəhbərliyi dövri iqtisadi inkişafın ən yüksək zirvəsi kimi tarixə daxil oldu.

Lakin XX əsrin sonlarından etibarən vəziyyət kəskin şəkildə dəyişdi. Azərbaycan 18 oktyabr 1991-ci ildə müstəqilliyini elan etsə də bununla yanaşı qarşıya bir çox problemlər də çıxdı. Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu və sərbəst bazar münasibətlərinə əsaslanan müstəqil milli iqtsadiyyatın formalaşdırılması məqsədilə ictimai-siyasi və sosial-iqtisadi sistemin transformasiyası obyektiv zərurətə çevrildi. 70 ildən artıq bir dövr ərzində sosialist təsərrüfat modelinin tətbiq olunduğu Azərbaycan, artıq bazar iqtisadiyyatına keçid etməli və azad, sərbəst iqtisadi münasibətlər sistemini formalaşdırmalı

idi. Lakin bu o qədər də asan deyildi. Azərbaycanın siyasi arenada rastlaşdığı problemlər, başlanan müharibə və ölkə daxilini bürüyən xaos, hakimiyyət uğrunda siyasi qarşıdurmalar iqtisadi sahənin inkişafını arxa plana atmışdı. Ölkə daxilində iqtisadi inkişaf və əhalinin həyat səviyyəsinin yəksəlməsindən çox hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycanın təbii sərvətlərindən kortəbii istifadə, ixtisaslı kadrların rəhbərlikdən uzaqlaşdırılması, erməni separatçı qüvvələri ilə gedən amansız müharibə ölkə iqtisadiyyatını tənəzzülə sürükləyirdi.

1993-cü il oktyabrın 3-də xalqın tələbi və istəyi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev müdrik siyasətçi və təcrübəli dövlət xadimi kimi Azərbaycanın düşdüyü ağır vəziyyəti görürdü. Ulu öndər başa düşürdü ki, ölkədə siyasi sabitlik yaranmasa, iqtisadi inkişaf təmin edilməsə qarşıda duran problemləri həll etmək mümkün olmayacaq. Ona görə də Heydər Əliyevin dövlət quruculuğu strategiyasının təməl prinsiplərini cəmiyyətin demokrətikləşdirilməsi, liberal iqtisadiyyatın qurulması, xalqın rifah halının, hüquq və azadlıqlarının təmin edilməsi təşkil edirdi.

Ulu öndər Azərbaycan Respublikasının gələcək inkişaf kursunu bu sözlərlə ifadə etmişdir: **"Bir Prezident kimi mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".**

Ümummilli lider o dövrdə prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən danışarkən deyirdi: **"Respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".**

**Heydər Əliyevin söylədiyi bu fikirlər əslində Azərbaycan iqtisadiyyatını böhran vəziyyətindən çıxarmaq və gələcək dinamik inkişafa nail olmaq üçün yol xəritəsi idi. Dahi rəhbərin uzaqgörən siyasəti və iradəsi ilə vergi, gömrük, bank-maliyyə, sahibkarlığın inkişafı üçün həyata keçirilən islahatlar nəticəsində çox qısa müddət ərzində qarşiya qoyulan vəzifələrin həllinə nail olundu.**

**Məhz Heydər Əliyevin siyasi iradəsi və dövlətçilik təcrübəsi nəticəsində dahiyanə uzaqgörənliklə hazırlanan, bütün maneə və əngəllərə baxmayaraq, uğurla həyata keçirilən Azərbaycanın yeni neft strategiyası ölkə iqtisadiyyatını böhrandan çıxararaq sürətlə inkişafa aparan avangarda çevrildi. İqtisadi inkişafa nail olmaq üçün ilk növbədə iri həçmli maliyyə resurslarına ehtiyac var idi. Lakin AXC-nin miras qoyub getdiyi problemlərin həllinə – vətəndaş müharibəsinin nəticələrinin aradan qaldırılması, qanunsuz silahlı birləşmələrin ləğvi, ölkədə əmin - amanlığın və qayda – qanunun təmin edilməsinə böyük əmək və vaxt sərf olundu. 1994 – cü ilin oktyabr ayında və 1995 – ci ilin mart ayında iki dövlət çevrilişinin qarşısı alındı, Qarabağ cəbhəsində uzunmüddətli atəşkəs əldə edildi, ölkədə möhkəm sabitlik yaradıldı. Neft amilindən məharətlə istifadə edən Heydər Əliyev Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək üçün etibarlı təməl yaratdı.**

**Heydər Əliyevin siyasi arenaya ikinci dəfə tarixi dönüşündən az sonra – 1994 – cü ilin sentyabr ayının 20 – də " Əsrin müqaviləsi " adlanan neft kontraktı imzalandı. Bu müqavilənin imzalanması nəticəsində xarici şirkətlərin Azərbaycana investisiya qoyuluşları dəfələrlə artdı. Belə ki, Ulu öndərin rəhbərliyi ilə bağlanan müqavilə daha 20 neft sazişinin imzalanması və ölkə iqtisadiyyatına ümumilikdə 60 milyard dollar sərmayə qoyulması üçün möhkəm zəmin yaratdı.**

**Heydər Əliyev " Əsrin müqaviləsi " – nin Azərbaycan Respublikası üçün əhəmiyyətindən danışarkən belə demişdir : " 1994 – cü ildən Azərbaycan dövləti özünün**

**yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft – qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir ".**

**Müstəqillik əldə etdikdən sonra heç bir iqtidarın görə bilmədiyi işi Dahi Heydər Əliyev qısa müddət ərzində uğurla həyata keçirdi və siyasətdə " neft amili "ndən istifadənin klassik nümunəsini yaratdı. Belə ki, neft müqavilələri nəticəsində hasilat artdıqca, xarici investorların fəaliyyətləri genişləndikcə ölkə daxilindəki iqtisadi problemlərin həlli də asanlaşırdı.**

**Azərbaycanı dərin böhrandan xilas edən Heydər Əliyev dövlətin iqtisadi inkişafı üçün də tədbirlər görürdü. Elə ilk günlərdə yeni strategiyanın hazırlanması və uğurla həyata keçirilməsi işinə ARDNŞ – nin vitse – prezidenti, millət vəkili İlham Əliyev cənabları cəlb edildi. Cənab İlham Əliyev bu proseslərin ən fəal iştirakçılarından oldu. İlham Əliyev özü bu barədə deyirdi : " Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyildir. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir ".**

**" Əsrin müqaviləsi " ilə bağlı danışıqlar çox ağır keçirdi. Hətta bəzi məqamlarda vəziyyət kritik həddə çatırdı və danışıqların dayandırılması təhlükəsi yaranırdı. Həmin anları cənab İlham Əliyev belə xatırlayır : " Biz xarici şirkətlərə deyirdik : siz ayrı – ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcəkdir. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik ".**

**Uğurlu neft strategiyasının həyata keçirilməsi ilə yanaşı iqtisadiyyatın digər sahələrində də təxirəsalınmaz islahatların aparılması, genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanması və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin yaranması prioritet məsələlərdən idi.**İqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi üçün beynəlxalq tələblərə cavab verən qanunvericilik bazasının yaradılması mühüm əhəmiyyət kəsb edirdi. Məhz bu hüquqi bazanın yaradılması məqsədi ilə Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdi.

**Bazar iqtisadiyyatı prinsiplərinin tam gücü ilə işləməsi üçün iqtisadi fəaliyyətin liberallaşması istiqamətində radikal addımlar atıldı. Belə ki, 1994 – 1995–ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşması təmin edildi. Xarici ticarət sahəsində liberallaşmanı ilk növbədə açıq qapı siyasətinin tətbiqi zəruri edirdi.**

İqtisadi sahədə baş verən dəyişikliklər qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Belə ki, sosialist təsərrüfatçılığı dövründə mövcud olan qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması sistemi ilə əvəzlənməsinə start verildi. 1995-1996-cı illərdə bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar qısa müddət ərzində müxtəlif beynəlxalq qurumlar tərfindən də geniş dəstək aldı. İqtisadi islahatlarla bağlı Beynəlxalq Valyuta Fondu və Dünya Bankı xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlığın nəticəsində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal addımlar atıldı. Çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici

investisiyaların cəlb olunması nəticəsində tezliklə ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu.

Respublika üzrə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi mülkiyyətçiliyin inkişafını sürətləndirdi. 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisənin özəlləşdirilməsi ilə demək olar ki, kiçik özəlləşdirmə başa çatdırıldı. 1997-ci ildən isə orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinin başlaması ilə özəlləşdirmənin həlledici mərhələsi olan böyük özəlləşdirməyə start verildi. Bununla da təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətlərə çevrildi.

Görülən tədbirlərin nəticəsi olaraq nəinki ölkədə iqtisadi tənəzzülün qarşısı alındı, hətta 1996-cı ildə iqtisadi artım qeydə alındı. Artım tendensiyası növbəti illərdə də davam etdi. Belə ki, 1996-cı ildə 1,3% olan iqtisadi artım 1997-ci ildə 5,8%-ə çatdırıldı. Cənubi-Şərqi Asiyada və qonşu Rusiyada baş vermiş dərin maliyyə böhranına baxmayaraq real sektordakı bu canlanma 1998-ci ildə daha da inkişaf etdi. Respublikanın sosial-iqtisadi inkişafındakı müsbət dinamikanın ildən-ilə möhkəmləndiyi və bu prosesin dönməz xarakter alması artıq təkzibolunmaz fakt idi. Həmin dövrdə Azərbaycan iqtisadi inkişafın artım tempinə görə postsovet respublikaları arasında qabaqcıl mövqe tutmağa və lider olmağa başladı.

Həyata keçirilən islahatlar, iqtisadi münasibətlərin liberallaşması, yeni vergi, gömrük, maliyyə siyasəti, azad sahibkarlığın inkişaf etdirilməsi, investisiya qoyuluşlarının artması və digər müsbət meyllər nəzarət mexanizmlərinin də yenilənməsini zəruri edirdi. Sovet dövründən qalma inzibati-amirlik metodlarına əsaslanan nəzarətin bütün dünyada mütərəqqi metod kimi qəbul edilən müstəqil auditlə əvəzlənməsinin zamanı yetişmişdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev iqtisadiyyatın bütün sahələrində olduğu kimi bu sferada da islahatların aparılmasının zəruriyilini dəfələrlə qeyd etmişdi. Ulu öndərin 16 sentyabr 1994 – cü ildə imzaladığı «Auditor xidməti haqqında» qanunla Azərbaycan Respublikasında müstəqil auditin təməli qoyuldu. Məhz bu qanun Azərbaycan Respublikasında müstəqil auditin formalaşması üçün hüquqi baza yartmaqla audit xidmətinin gələcək inkişafına təkan vermiş oldu. 1995-ci il 19 sentyabr tarixində Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə" təsdiq edildi və 1996-cı il 5 aprel tarixində Auditorlar Palatası fəaliyyətə başladı. Mütərəqqi maliyyə nəzarəti metodu olan auditin ölkə iqtisadiyyatındakı əsas rolu Heydər Əliyev tərəfindən 1996-cı il 17 iyun tarixində imzalanmış «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» fərmanda öz əksini tapmışdır. Fərmanın tətbiqi ilə paralel və lüzumsuz yoxlamaların qarşısının alınması və iqtisadi subyektlərin qanunla müəyyən edilmiş hüquqlarının qorunması istiqamətində mühüm işlər görülmüşdü. 1990 – cı illərin sonlarında «Auditor xidməti haqqında» qanuna müvafiq olaraq qəbul edilmiş bir sıra fərman və sərəncamlarda da maliyyə nəzarəti mexanizmi olaraq müstəqil audit dövlət quruculuğunun mühüm istiqamətlərindən biri kimi təsbit edilmiş və onun qarşısında yeni vəzifələr qoyulmuşdu. Ona görə də qarşıya qoyulan vəzifələri həyata keçirmək üçün 1998–1999–cu illərdə Azərbaycanda auditin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən konsepsiya işlənib hazırlanmış, bazar iqtisadiyyatının bu təsirli nəzarət alətinin fəaliyyət istiqamətləri təsbit edilmişdir.

İqtisadi sahədə qazanılmış nailiyyətlərlə yanaşı Heydər Əliyevin həyata keçirdiyi balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan dünyanın siyasi müstəvisində geostrateji mövqeyini möhkəmləndirmiş, ölkəmiz Cənubi Qafqazın lider dövlətinə, regionda gerçəkləşdirilən bütün transmilli layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrilmişdir. Ulu öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini vermişdir. Heydər Əliyevin gərgin əməyi və səyi ilə Birləşmiş Millətlər Təşkilatının qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi beynəlxalq institutlarla səmərəli əməkdaşlıq mühiti

formalaşdırılmışdı.

Beləliklə, dahi siyasət korifeyi Heydər Əliyevin həyata keçirdiyi uğurlu strategiyanın nəticəsində 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi - bərpa və dinamik inkişaf dövrü başlanmışdı. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard ABŞ dolları həcmində investisiyanın qoyulması təmin olundu.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin fenomenal idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı. Ölkəmizin son 20 ildə iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər də məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır.

Mənsub olduğu xalqa xidməti ömrünün əsas qayəsi kimi dəyərləndirən ulu öndər demişdir: **"İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".**

Paytaxt Bakının dəyişən gözəl və müasir siması, ölkəmizin bölgələrində tikilən yüzlərlə yaşayış binaları, mehmanxana və istirahət mərkəzləri, ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan iri istehsal müəssisələri, müasir kənd təsərrüfatı kompleksləri, su anbarları, yaşıllıq zonaları, yollar Heydər Əliyevin yorulmaz fəaliyyətinin nəticəsidir. Ümummilli lider sonralar o illəri xatırlayarkən demişdir: **"1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır".**

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi ağıllı, praqmatik, uzaqgörən iqtisadi siyasəti sayəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, ölkəmiz iqtisadi sahədə keçid dövrünü uğurla başa vurmuşdur. Davamlı və dinamik inkişafı özündə ehtiva edən özünəməxsus milli inkişaf modeli ilə tanınan Azərbaycan hazırda inkişafının keyfiyyətcə yeni mərhələsini yaşayır və yeni-yeni uğurlara imza atır. Belə ki, 2003-cü ildə ölkədə ÜDM istehsalı 7,1 milyard manat təşkil edirdisə, 2012-ci ildə bu göstərici 54 milyard manata çatmış, iqtisadiyyatda real artım 3,4 dəfə olmuşdur. İqtisadiyyatda davamlı olaraq həyata keçirilən islahatlar nəticəsində ölkənin iqtisadi təhlükəsizliyini təmin edə biləcək valyuta ehtiyatları formalaşdırılmış və hazırda onun həcmi 46,5 milyard ABŞ dollarını ötmüşdür. Ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti sərmayə axınının sürətlənməsinə şərait yaratmış, son on ildə iqtisadiyyata qoyulan kapitalın həcmi 132 milyard ABŞ dolları təşkil etmişdir. Azərbaycan Respublikası adambaşına düşən xarici investisiyaların həcminə görə MDB və Şərqi Avropada aparıcı dövlətlərdən biri olaraq artıq xaricə investisiya yatıran ölkəyə çevrilmişdir.

Ölkənin dinamik sosial-iqtisadi inkişafında infrastrukturun, o cümlədən etibarlı nəqliyyat sisteminin inkişafının zəruriliyini nəzərə alaraq transmilli nəqliyyat layihələri çərçivəsində, o cümlədən TRASEKA və Şimal-Cənub beynəlxalq dəhlizlərinin Azərbaycan seqmentində avtomobil magistrallarının tikintisi və yenidənqurulması, regionlarda yol şəbəkələrinin

bərpası işləri həyata keçirilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və istismara verilməsi nəticəsində Avropa və Asiya arasında birbaşa dəmir yolu əlaqəsinin yaradılması mümkün olmuşdur. Ümummilli lider tərəfindən əsası qoyulan inkişaf kursuna uyğun olaraq ölkədə sənayeləşmə siyasəti uğurla davam etdirilir. Müasir texnologiyalara əsaslanan elektrotexnika, əlvan metallurgiya, maşınqayırma, kənd təsərrüfatı məhsullarının emalı, tikinti materiallarının istehsalı da daxil olmaqla yeni sənaye müəssisələrinin istifadəyə verilməsi qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır.

Prezident İlham Əliyevin sərəncamlarına əsasən Balaxanı Sənaye, Sumqayıt Kimya Sənaye və Sumqayıt Yüksək Texnologiyalar parklarının yaradılması iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılmış mühüm addımlardandır. Bu layihələrin həyata keçirilməsi müasir texnologiyalardan istifadə etməklə rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının artırılması, iş yerlərinin açılması, xarici investisiyaların cəlb edilməsi baxımından da böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların, aparıcı reytinq agentliklərinin qiymətləndirmələrində öz əksini tapır. Belə ki, "Doing Business" hesabatına görə 2009-cu ildə ölkəmiz dünya ölkələri arasında "Ən islahatçı ölkə" kimi qiymətləndirilmişdir. Dünya İqtisadi Forumunun son hesabatına əsasən, Azərbaycan dünyanın 50 ən rəqabətqabiliyyətli iqtisadiyyatları qrupuna daxil olmuş və MDB ölkələri arasında birincilik mövqeyini saxlamışdır. BMT-nin İnsan İnkişafı Hesabatına əsasən isə Azərbaycan "İnsan inkişafı indeksi"nə görə yüksək insan inkişafı qrupunda yer almışdır. Son illər "Standart & Poor's", "Moody's" və "Fitch Ratings" kimi nüfuzlu reytinq agentlikləri tərəfindən isə Azərbaycanın reytinqi ardıcıl olaraq artırılmışdır.

Beləliklə, siyasi və iqtisadi cəhətdən sabit, dinamik iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısı, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq münasibətlər sisteminin əhəmiyyətli oyunçusu kimi tanınan Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev tərəfindən təməli qoyulan siyasətin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: **"Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".**

Ulu öndərin əsaını qoyduğu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün hədəflərin reallaşmasına, müstəqil Azərbaycanın dövlətinin gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyatına qovuşmasına mütləq əminlik yaradır.

## Ədəbiyyat


1. Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri ( Beynəlxalq elmi-praktik konfrans )-Bakı, 5-6 aprel, 2016, 3 s.
2. R.Mirzəyev, " Əsrin müqaviləsi"ndən başlanan yol, .-Bakı, 2000,215-233-235-255 s.
3. "Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası" - AMEA-nın İqtisadiyyat İnstitutunda "dəyirmi masa" ətrafında söhbət. – Bakı, Xalq qəzeti, 16 may 2010, 1 s.
4. **D.Vəliyev, " Heydər Əliyev və Azərbaycanın milli iqtisadi inkişaf modeli" – Bakı, Xalq qəzeti, 22 may 2010, 3 s.**
5. **" Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında " Əsasnamə. Bakı, 1995.**



**müəl. Abbasova Sevda İsmayıl qızı**

*Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC)*

*email: abbasova-1975@bk.ru*

# ULU ÖNDƏR HEYDƏR ƏLİVEV VƏ AZƏRBAYCAN MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI

**XÜLASƏ:** Bildiyimiz kimi, XXI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin yaratdı. Lakin tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən təcavüzünə məruz qalan və təcrübəsiz dövlət rəhbərləri tərəfindən idarə olunan Azərbaycanda bu daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüz və siyasi təzyiqlərlə boğulurdu. Həm də xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdü.İstehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi. Ölkəni bu ağır vəziyyətdən 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev çıxardı.

**Açar sözlər**: anarxiya, dövlətçilik, psixoloji böhran, ideologiya,inzibati-amirlik sistemi

Əlbəttə ki,Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu". Məlumdur ki, dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyevin müdrik daxili və xarici strateji kursu ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran və sarsıntılardan çıxararaq müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı.[1.səh:16.17] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial-iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlamışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı".Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, heç bir ölkənin tarixində rast gəlinmədiyi strateji əhəmiyyətli üç taleyüklü vəzifə eyni zamanda yerinə yetirilsin, hansı ki,birinci olaraq Müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi mütləq şəkildə, ikinci olaraq, inzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunması və üçüncü olaraq qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiq edilməsi ilə bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya edilməsi kimi vacib məsələlər mütləq həyata keçirilməliydi.Bu tarixi vəzifələrin hər biri istənilən bir dövlət üçün kifayət qədər ciddi və əhəmiyyətli idi və bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, cəmiyyət "dövlət, demokratiya, millət, kimlik, ideologiya, siyasət və iqtisadiyyat kimi həyati əhəmiyyətli məsələlərin yenidən qurulmasını bir vəzifə kimi qarşıya qoysun" və uğurla həll etsin.Doğma Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi..[2.səh:3] Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır və əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı

şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımlar atıldı. 1994-1995-ci illərdə xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlandı. Xarici ticarət sahəsində liberallaşdırma tədbirlərinin önə çəkilməsi qısa bir zamanda açıq qapı siyasətinin tətbiq edilməsi zərurətindən doğurdu.Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar həyata keçirildi. Sərt və çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində tezliklə ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu..[3.s:8]Beləliklə, ölkədə iqtisadi tənəzzülün qarşısı nəinki alındı, hətta 1996-cı ildə onun artımına nail olmaq mümkün oldu. 1996-cı ildən 1,3% olan iqtisadi artım 1997-ci ildə 5,8%-ə çatdırıldı. Real sektordakı bu canlanma Cənubi-Şərqi Asiyada və qonşu Rusiyada baş vermiş dərin maliyyə böhranına baxmayaraq 1998-ci ildə daha da inkişaf etdi. 1998-ci ilin yekunları respublikanın sosial-iqtisadi inkişafında müsbət meyllərin ildən-ilə möhkəmləndiyi, bu prosesin dönməz xarakter almasını göstərirdi. Az bir zamanda Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqe tutmağa və lider olmağa başladı.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var..[4.s:5] Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".Ölkəmizin iqtisadi inkişaf səviyyəsi yaxın perspektivdə daha da yüksələcəkdir. İqtisadi inkişaf sürəti baxımından dünyada analoqu olmayan Azərbaycan Respublikası bir çox inkişaf parametrlərinə görə inkişaf etmiş ölkələr arasında olan fərqi azaltmaqdadır. Möhkəm iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır. Sürətli iqtisadi inkişaf Azərbaycanın beynəlxalq aləmdə diqqət mərkəzində olmasını təmin etmişdir. Bütün dünyanı sarsıdan qlobal böhran zamanı ölkəmizdə iqtisadi artım sürətinin 9,3 faiz səviyyəsində olması Azərbaycanın milli iqtisadi inkişaf modelinin, onun perspektivli inkişaf trayektoriyasının uğurlu olduğunu əyani şəkildə bir daha sübut etdi.

Ulu öndər Heydər Əliyev özü demişkən, **İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir** fikrini əsas tutaraq Azərbaycana rəhbərliyin birinci dövründə (1969-1982) iqtisadiyyatın dirçəlməsi və sürətli inkişafı baxımından xeyli işlər görmüşdür. 1969-cu ilin iyul plenumunda onun Azərbaycanın rəhbəri seçilməsi əslində çağdaş tariximizə ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasının qoyulması kimi daxil olunmasıdır. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə ölkənin müstəqil iqtisadiyyatının təşəkkülü, ardıcıl sosial-iqtisadi islahatların həyata keçirilməsi, bu sahənin dayanıqlı inkişafını təmin edəcək qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində görülən işlər Azərbaycanın iqtisadi inkişafına xeyli təkan vermişdir. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan iqtisadi inkişafının əsl çiçəklənən dövrünü yaşayırdı. Bütün sahələrlə yanaşı, iqtisadiyyatda da bu yüksək inkişaf Azərbaycanı digər ölkələrdən fərqləndirirdi. Heydər Əliyevin qarşısında hələ bu vaxtacan onun sələflərinin heç birinin cəsarət edə bilmədiyi misli görünməmiş vəzifələr dururdu:

respublikanın iqtisadiyyatını əsaslı şəkildə dəyişmək, üstəgəl onu qüdrətli dövlətin xammal istehlakçılarından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirmək, monokultura xarakteri ilə fərqlənən kənd təsərrüfatını qaldırmaq, Bakının dünyanın ən gözəl və abad şəhəri kimi simasını özünə qaytarmaq, Azərbaycanın kəndini dirçəltmək, Azərbaycan əhalisinin sosial, mədəni və təhsil səviyyəsini qaldırmaq, onun xaricdə yaşayan həmvətənlərlə əlaqəsini möhkəmləndirmək..[5.s:12] Heydər Əliyev bu fəaliyyəti sahəsində Azərbaycanda sənaye instrukturu dəyişdi. Azərbaycanın bütün sahələri ilə yanaşı sənayenin də profili və işləmə metodunda yeni metodlar istifadə olundu. Bu dövlətlərdə iqtisadi inkişafı sürətləndirmək üçün Heydər Əliyev Azərbaycanın bir çox bölgələrində bu sahədə bir çox işlər gördü.1969-1982–ci illər fəaliyyətinin ilk dövrlərində Azərbaycanda sürətli iqtisadi inkişaf inkaredilməz bir həqiqətdir. O dövrlərdə Azərbaycanın təkcə sənaye sahəsində deyil həmçinin kənd təsərrüfatında da, özünəməxsus inkişaf hökm sürürdü. Bununla yanaşı, Heydər Əliyev neft və qaz sahəsində də bir çox addımlar atdı. O dövrlərdə bir çox neft sahəsinə aid olan sənayelərin təməli qoyuldu və istifadəyə verildi. Neft maşınqayırma sahəsi üzrə məhsulların 70-80 faizini Sabunçu rayonunun müəssisələri istehsal edirdi. Heydər Əliyevin qayğısı və diqqəti sayəsində beş zavodda köhnə avadanlıq yenisi ilə əvəz olundu, "Bakı fəhləsi" zavodu yenidən quruldu. Bakı, Sabunçu və Zabrat maşınqayırma zavodları, "Balaxanıneft" Neft və Qazçıxarma İdarəsi yenidən təkmilləşdirildi, Heydər Əliyevin təşəbbüsü ilə iki monumental körpü tikildi. 70-ci illərdə neft sənayesinin inkişafındda yeni bir dövr başlandı. Heydər Əliyevin şəxsi təşəbbüsünə əsasən, qarşıya Bakı neftayırma zavodlarının köklü surətdə yenidən qurulması vəzifəsi qoyuldu. 1976-cı il dekabrın 25-də Azərbaycanda ən iri neftayırma qurğusu (ELOY-AVT) işə salındı. Onun təşəbbüsünə əsasən, 70-80-cı illərdə Azərbaycanda iri dəniz neft donanması yaradıldı..[6.s:1.2] Dənizin 200 metr dərinliyində 6 min metrlik quyu qazmağa qabil olan "Şelf-2" qurğusunun istismara buraxılmasında şəxsən cənab Heydər Əliyev iştirak edib,vaxtaşırı olaraq onun işi ilə maraqlanıb. Heydər Əliyev kimi xalqını və vətənini düşünən bir insana yaxüı məlum idi ki, iqtisadi potensialın güclü olması həm ölkənin xeyrinədir, həm də əhalinin yaşam səviyyəsinin yüksəlməsinə xidmət edir. Bir sözlə Heydər Əliyevin Azərbaycanda birinci dəfə rəhbərliyi dövri iqtisadi inkişafın ən yüksək zirvəsi kimi tarixə daxil oldu. 1969-1982-ci illər arasında ölkənin rəhbəri olduğu dövrlərdə sosialist modeli içərisində bir çox önəmli uğurlara imza atmış, Azərbaycanın SSRİ-nin ən inkişaf etmiş dövlətləri içərisində yer tutmasına nail olmuşdu. Hətta o dövrlərdə Naxçıvanın iqtisadiyyatında da, tənəzzül dövrü yaşanırdı. Heydər Əliyevin yeritdiyi və apardığı iqtisadi siyasət Naxçıvanı bu təhlükəli vəziyyətdən çıxara bildi. Naxçıvanda sənaye sahələri ilə yanaşı yüngül toxuculuq sənayelərinin açılması iqtisadiyyatın inkişafında misilsiz rol oynadı. Əgər hesablamalara nəzər salsaq görərik ki, Azərbaycanda iqtisadi baxımdan gedən irəliləyişlər o dəqiqə nəzərə çarpır. Heydər Əliyev Siyasi büroya işləməyə çağırılsa da, yenə də, onun diqqəti və qayğısı nəticəsində Azərbaycan bu inkişafını qoruyub saxlayırdı. Lakin XX əsrin sonlarından etibarən Azərbaycan öz iqtisadi inkişafda zəifləməyə başladı. Azərbaycan 18 oktyabr 1991-ci ildə müstəqillik qazansa da bununla yanaşı ortalığa bir çox problemlər də çıxdı. Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu və sərbəst bazar münasibətlərinə əsaslanan müstəqil milli iqtsadiyyatın formalaşdırılması məqsədilə ictimai-siyasi və sosial-iqtisadi sistemin transformasiyası obyektiv zərurətə çevrildi. Bu dövrdən etibarən hökümət qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi; demokratik, hüquqi-dünyəvi dövlət qurulması; bazar iqtisadiyyatı sisteminə keçid; ölkənin ərazi bütövlüyünün təmin edilməsi; əhalinin təhlükəsizliyinin və sosial-iqtisadi rifahının yaxşılaşdırılması və s. bu kimi bir çox ciddi və taleyüklü vəzifələr qoyuldu. 70 ildən artıq Sovet rejiminin tətbiq etdiyi sovet modelli bir təsərrüfatla işləyən Azərbaycan, artıq müstəqil və inkişaf etmiş dövlət olaraq bazar iqtisadiyyatına keçməli və azad, sərbəst iqtisadiyyata başlamalı idi. Lakin bu o qədər də asan deyildi. Azərbayvanın siyasi arenada rastlaşdığı problemlər, başlanan müharibə və ölkə daxilini bürüyən xaos, hakimiyyət uğrunda siyasi qarşıdurmalar iqtisadiyyatın inkişafının sürətlənməsinə mane olan əsas səbəblər idi. 1991-1995-ci illər Azərbaycan iqtisadiyyatının iqtisadi xaos və tənəzzül dövrü kimi səciyyələnir. Yeni müstəqillik qazanmış ölkə üçün müharibə

gözlənilməz idi..[7.s:3] Ölkədə gedən bu müharibə həm büdcəni zəiflədir, həm də yeni iqtisadi problemlər meydana gətirirdi. Pərakəndəlik və özbaşınalıq artıq baş alıb gedirdi. Buna görə ölkədə bütün bu problemləri tənzimləyən və ölkənin hələ möhkəmlənməyən müstəqilliyini qoruyub saxlayan güclü siyasətçiyə – bir el atasına ehtiyac var idi. Xalq artıq öz seçimini etməyə qərar vermişdi. 1993-cü il oktyabrın 3-də xalqın tələbi və istəyi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti oldu. Heydər Əliyev kimi dahi siyasətçi Azərbaycanın ağır vəziyyətini yaxşı görürdü. Heydər Əliyev başa düşürdü ki, bu problemlər öz həllini tapmasa Azərbaycan heç  zaman qüdrətli bir dövlət ola bilməz. Müstəqillik dövründən bu günə kimi, ölkədə gedən iqtisadi inkişafı bir neşçə mərhələyə ayırmaq olar. 1991-1995-ci illəri əhatə edən iqtisadi xaos və ya tənəzzül dövrü. İkincisi, 1996-cı ildən başlayaraq davam edən makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü."Respublika iqtisadiyyatı, deməк olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb. Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik"fikirlərini söyləyən ulu öndər tez bir zamanda bu fikirlərini həyata keçirmiş oldu. Azərbaycan tez bir zaamanda bu iqtisadi böhrandan xilas ola bildi. Heydər Əliyev iqtisadi böhrandan xilas olmaq üçün, vergi və sahibkarlığın inkişaf etdirməsi üçün bir sıra islahatlar keçirdi. Ölkədə iş yerlərinin çoxu bağlanmış və işsizlərin sayı çoxalmış, ölkədə gedən müharibənin nəticəsində öz doğma yerlərini tərk etmiş əhalinin xeyli hissəsinin çalışmaq qabiliyyəti olsa da, iş yerlərinin olmaması, pulun inflyasiya dəyərinin aşağı düşməsi, qiymətlərin qalxması, alıcılıq qabiliyyətinin azalması və xarici dövlətlərlə iqtisadi əlaqələrin olmaması iqtisadi böhranı aradan qaldırmağa mane olurdu. 1993-cü il təsdiq edilmiş "Azərbaycan Sahibkarlığının İnkişafı" (1993-1995) adlı Dövlət proqramı Azərbaycanda kiçik və orta sahibkarlarının sayının artmasına, xarici ölkələrə iqtisadi ticarət əlaqələrinin yaranmasına müsbət təsir göstərmişdir. Heydər Əliyevin apardığı bu siyasət bir sahəni deyil,bir çox sahələri əhatə edirdi. Heydər Əliyev kənd təsərrüfatının inkişaf etdirilməsinə dair bir çox islahatlar həyata keçirmişdi. Hətta Heydər Əliyev kənd təsərrüfatında olan problemlərin həlli üçün 1994-cü ildə 9 dəfə müşavirə keçirmiş, kənd təsərrüfatında olan problemlərlə şəxsən yaxından tanış olmuşdur. Müşavirədə təkcə rəhbər orqanlar deyil, alimlər, aqrar sahədə mütəxəssislər iştirak edirdilər. Bundan sonra aqrar islahatları həyata keçirmək üçün hüquqi baza yaradıldı. 1995-ci il fevralın 18-də "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" qanun qəbul olundu. Heydər Əliyevin ən mühüm nailiyyəti neft sahəsində  oldu. Azərbaycan neftinin dünya bazarına çıxarılması və neftdən əldə olunan gəlir ilə milli büdcəni bərpa etmək və möhkəmləndirmək, əhalinin yaşam səviyyəsinin yüksəldilməsində mühüm bir addım idi. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi "məhsulun pay bölgüsü" tipli müqavilə imzalandı. Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdır. Əsrin müqaviləsində dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak etmişdir. Bu bağlanmış müqavilə neft sahəsində Heydər Əliyevin qazandığı uğurların hələ başlanğıcı idi. Bu müqavilənin bağlanması ilə Azərbaycana xarici kapitalın qoyulmasının axını gücləndi. Müqavilədə adları çəkilən dövlətlər Azərbaycan ilə bütün sahələrdə əlaqələr qurmağa can atırdılar. Heydər Əliyevin apardığı bu məqsədyönlü siyasət nəticəsində Azərbaycan get-gedə öz inkişafını yenidən bərpa edir, qüdrətlənirdi. Əvvəl qeyd etdiyimiz kimi Azərbaycanda iqtisadi inkişaf 2 mərhələdən ibarət idi. Birinci mərhələdə bu inkişafın tənzimlənməsi üçün müəyyən çətinliklər var idisə, artıq ikinci mərhələdə Azərbaycanın bu inkişafı bərpa etməsi üçün kifayət qədər gücə malik idi. 1995-2003–cü illəri əhatə edən bu dövr öz mühüm müqavilələri və islahatları ilə bu müstəqilliyi bir daha möhkəmləndirdi. Artıq Heydər Əliyev öz apardığı siyasət

və gördüyü işlər ilə yeni inkişaf modeli – Yeni Azərbaycan modelə yaratmışdır. Bu inkişaf özünü hər sahədə göstəridi. Bura sahibkarlığı, kənd təsərrüfatını, sənayeni, neft sənayesini, magistralları, bank sahəsini, vergi sahəsini, nəqliyyatı və başqa sahəıəri daxil etmək olar. Bu sahələrin inkişafı artıqca onların başqa xarici dövlətlərlə iqtisadi münasibətləri güclənirdi. Bu Azərbaycanın get-gedə güclənməsinə gətirib çıxardı. Heydər Əliyev həmişə deyirdi: "Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını inkişaf etdirə bilməz". Buna görə də, Heydər Əliyev çalışırdı ki, Azərbaycan başqa dövlətlərlə iqtisadi əlaqələri qurmaq üçün müəyyən inkişaf sahəsinə malik olsun. Heydər Əliyevin yaratdığı yeni model Azərbaycanın inkişafının sürətlənməsi dövrü kimi 1996-cı illərdən daha da artmışdır. Bu dövrlərdə bir çox irimiqyaslı müqavilələr bağlanmış, mühüm əhəmiyyət kəsb edən sənədlər və aktlar imzalanmışdır. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və artırılması üçün dövlət tərəfindən müxtəlif dövrlərdə qəbul olunmuş "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)", "Azərbaycan Respubliksaında kiçik və orta sahibkarlığın inkiçafının Dövlət Proqramı (2002-2005-ci illər)" Azərbaycanda sahibkarlığın inkişafına təkan verdi. Bu Dövlət proqramı hal-hazırda da, Azərbaycan Respublikasıınən Prezidenti İlham Əliyev cənabları tərəfindən müvəffəqiyətlə davam etdirilir.Azərbaycanda kənd təsərrüfatında olan durğunluq aradan qaldırılmış, ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərüffat dövrüyyəsinə cəlb olunması, kənd təsərrüfatının inkişaf etdirilməsinə dair qəbul olunmuş islahatlar  bu inkişafa xeyli təkan vermişdi. 1996-cı il iyulun 16-da "Torpaq islahatı haqqında" mühüm qanunlar qəbul edildi. Ümumiyyətlə, 1995-2004-cü illərdə aqrar sahə ilə əlaqədar olan 100-dən yuxarı normativ-hüquqi akt qəbul olunmuşdur. "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-ci illər)"nın həyata keçirilməsi aqrar sahədə uğurlar qazanılmasına imkan yaratmışdır. Bu proqram Cənab Prezidentimiz İlham Əliyev tərəfindən də uğurla həyata keçirilir. Heydər Əliyevin gərgin əməyi nəticəsində vergi sahəsində də bir çox islahatlar aparılmış və həyata keçirilmişdir. Bir sıra dövlət mülklərinin özəlləşdirilməsi nəticədə dövlətə ödənilən verginin faizində artıma səbəb olmuşdu. Bir çox sahələrdə özəlləşdirmə dövlətə ödənilən verginin artmasına və milli büdcənin artımına gətirib çıxarırdı. Bütün bu həyata keçirilən vergi münasibətlərinin tənzimləyən bu qanunlar Azərbaycanda vergi sistemini möhkəmlətdi. Heydər Əliyevin apardığı siyasət nəticəsində Azərbaycanda nəqliyyatın bütün sahələrinin yenidən bərpası və inkişafı üzrə qanunlar qəbul olundu, tədbirlər həyata keçirildi ki, bu da ölkəmizin digər dövlətlərlə istər havadan, istər sudan, istərsə dəmiryolları vasitəsilə iqtisadi əlaqə yaranmasına, möhkəmlənməsinə şərait yaratdı.İpək yolu hələ qədimdən bu günə kimi Avropa ilə Asiya arasında körpü rolunu oynayırdı. İpək yolunun Azərbaycan ərazisindən keçməsi, Azərbaycanın burada tranzin rolunu oynaması bizə iqtisadi və maddi cəhətdən böyük imkanlar verirdi. 1993-cü ildə Brüssel şəhərində keçirilmiş Konfransda Avropa Komissiyasının TRASEKA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Proqramının yaradılmasının təşəbbüskarı kimi 8 ölkədən biri də Azərbaycan Respublikası olmuşdur. Avropa Birliyinin TASİS (MDB ölkələrinə texniki yardımı) çərçivəsində nəqliyyat infrastukturu üzrə çoxmilli TRASEKA proqramı (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) Mərkəzi Asiyadan Qara dənizə və daha sonra Avropaya çıxan nəqliyyat marşurutunun yenidən qurulmasını qarşıya məqsəd qoymuşdur. Heydər Əliyevin yorulmaz əməyi nəticəsində 1996-cı il dəmiryolların yenidən bərpası mümkün oldu. Azərbaycanda dəmiryollar yenidən yük daşınmasında öz gücünü bərpa edə bildi. Azərbaycanın daxili və xarici ticarətində mühüm əhəmiyyət kəsb etməyə başladı. Beynəlxalq yüklərin daşınması üçün öz imkanlarının yaxşılaşdırılması məqsədilə Azərbaycan Dövlət Dəmir Yolu beynəlxalq təşkilatlara müraciət etdi. Dəmir yolu MDB və Baltikyanı dövlətlərin dəmiryolu nəqliyyatı Şurasının, Dəmir Yolları Əməkdaşlıq Təşkilatının və Beynəlxalq Dəmir Yolları İttifaqının üzvü oldu. MDB və Baltikyanı ölkələrdə yüklərin daşınması beynəlxalq tarif razılaşmaları ilə tənzimlənir. Heydər Əliyevin yorulmaz əməyi nəticəsində Azərbaycan Dövlət Dəmir Yolları dünya standartlarına cavab verə bilir. Hətta bu inkişaf özünü Xəzər Dəniz Gəmiçiliyində büruzə verirdi. Heydər Əliyev 1998-ci ilin yanvarında TRASEKA xətti üzrə Brüssel görüşündə Xəzər Dəniz Gəmiçiliyi ümumi operatorun yaradılması haqqında qərarı imzalayır ki,

bu da Avrasiya nəqliyyat dəhlizinin və nəticə etibarilə gəmilərimizin ahəngdar işi üçün çox yaxşı imkanlar açır. Heydər Əliyevin apardığı işlərin, şəxsi təşəbbüsü, köməyi və nəzarəti altında 1999-cu ildə H.Əliyev adına Binə Beynəlxalq Hava Limanında bütün beynəlxalq standartlara cavab verən yeni aerovağzal kompleksi istismara verildi. Hava limanı yeni müasir texnika və avadanlıqlarla təchiz edildi. Hava limanının telefon rabitəsinin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi məqsədilə beynəlxalq standartlara uyğun olan yeni telefon stansiyası tikilib istifadəyə verildi. Heydər Əliyevin bu sahədə gördüyü işlər nəqliyyat sektorunun dünya standartlarına uyğun inkişafına gətirib çıxardı. Azərbaycanın inkişafında mühüm əhəmiyyət kəsb edən sahələrindən biri də neft sənayesidir. Heydər Əliyevin ən böyük uğurlarından biri də neft sahəsində qazandığı uğurdur. Azərbaycan təbii sərvətlərlə zəngin bir ölkədir. Heydər Əliyev neft sahəsində bir çox uğurlara imza atmışdır. Heydər Əliyevin ən böyük uğurlarından biri Azərbaycanın enerji resurslarının dünya bazarına hansı marşurutlarla çıxarılması məsələsi idi. Və yorulmaz əməyi nəticəsində Heydər Əliyev Azərbaycanın enerji resurslarının 2 istiqamətdə dünya bazarına çıxarılmasına nail oldu. 1996-cı il fevralın 18-də Moskvada Azərbaycan neftinin RF ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə imzalanmışdır. Rusiya bu müqavilədə öz mövqeyini obyektivləşdirərək müqavilənin 2-ci bəndində qəbul edirdi ki, Azərbaycan neftinin sahibi deyildir və Azərbaycan neftinə mülkiyyət hüququ bu neftin istehsalçısına məxsusdur. Azərbaycanın enerji resurslarının şimal marşurutu bilinəndən sonra, 1996-cı ildə martın 8-də Azərbaycan Prezidenti H.Əliyev və Gürcüstan prezidenti E.Şevardnadze Tiflisdə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. ABƏŞ, ARDNŞ  və Gürcüstan hökuməti arasında bağlanmış 3 tərəfli müqavilələrdə Azərbaycan “Azəri”, “Çıraq”, “Günəşli” yataqlardan çıxan ilkin Azərbaycan neftinin daşınmasını Bakı-Supsa neft kəməri vasitəsi ilə nəqlini nəzərdə tuturdu. Neft marşurutlarının alternativliyi Azərbaycanın hər hansı bir dövlətdən iqtisadi aslılığına son qoymaqla yanaşı ölkəmizin milli mənafeyinə cavab verirdi. Bu marşurutun ən böyük üstünlüyü Azərbaycan neftinin təmiz halda “Azəri light” markası ilə dünya bazarına çıxarılmışdır. Heydər Əliyevin neft sahəsində ən böyük uğuru BTC lahiyəsi oldu.

Heydər Əliyev “Əsrin müqavilə”si ilə neft strategiyasının inkişafının təməlini qoysa da, Bakı-Tbilisi-Ceyhan lahiyəsi ilə bu uğuru davam etdirdi. Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir.1998-ci il oktyabrın 29-da Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri tərəfindən Bakı-Tbilisi-Ceyhan marşurutu ilə Əsas İxrac Kəmərinin çəkilməsini müdafiə edən Ankara bəyənnaməsi imzalanması ilə bu layihənin ilkin razılaşması əldə olunmuşdur.Heydər Əliyev təkcə neft sahəsində deyil, Azərbaycanda qaz resurslarının istifadəsi haqqında bir çox sənədlər imzalamışdır. XXI əsrdə Azərbaycanda qaz sənayesinin inkişafına və Azərbaycanı neftlə yanaşı qaz ixrac edən ölkəyə çevrilməsinə zəmin yaradıldı. 2001-ci il martın 12-də Azərbaycan prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı “Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair  Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın satışı və alışı haqqında müqavilə”imzalanmışdır. 2001-ci il sentyabrın 29-da Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadzenin Bakıya səfəri zamanı “Təbii qazın Gürcüstan Respublikası ərazisindən tranziti, nəql edilməsi və satışına dair Azərbaycan və Gürcüstan Respublikaları arasında saziş” imzalanmışdır. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin texniki-iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi rolu da böyükdür. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə 2006-cı il mayın 25-də Səngəçal terminalında təntənəli mərasim keçirilmişdir. Bu kəmərin dünya bazarına 10 milyon barrel neft çıxarması planlaşdırılır. Hal-hazırda BTC neft-boru kəməri Ulu Öndərimiz Heydər Əliyevin adını daşıyır. Bu lahiyənin belə uğuru Azərbaycanın xarici

ticarətinə, Azərbaycana qoyulan xarici kapitalın artmasına gətirib çıxardı.Ulu öndər Azərbaycanda iqtisadi inkişafı bərpa etmək üçün təkcə neft sahəsi deyil, bir çox sahələrlə yanaşı turizm sektorunu inkişaf etdirmək üçün "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair dövlət Proqramı"nı qəbul etdi ki, bu xarici turistlərin Azərbaycana axınını gücləndirdi, turizm sektoru əvvəlki illərə nisbətən inkişaf etməyə başladı. Azərbaycan da yoxsulluğun azaldılması və əhalinin yaxşı səviyyədə yaşaması üçün "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət Proqramı (2003-2005-ci illər)"nı qəbul etdi. Bunun nəticəsi olaraq yeni iş yerləri açıldı. İşsizlərin sayı azaldı. Əmək haqqları və pensiyalar qaldırıldı. Bu da əhalinin yaşam tərzini yaxşılaşdırdı. Heydər Əliyev Azərbaycanı belə çətin dövrdən iqtisadi inkişaf və işıqlı sabaha gətirib çıxarmaq üçün bütün qüvvəsini sərf etdi. Heydər Əliyev qurub yaratdığı və memarı olduğu Azərbaycanı ön cərgələrə apardı.Bu gün Heydər Əliyevin əməlləri və ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti və gərgin əməyi nəticəsində yaşayır. Bunun bariz nümunəsi 11 fevral 2004-cü il tarixdə qəbul edilmiş 2004-2008-ci illər üçün "Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nın qəbul olunması oldu. Əsas məqsədi regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərinin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaqdır. Sonda qeyd etmək istərdim ki,İlham Əliyevin apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev əməllərinin davamıdır. Bu siyasətin məğzində Azərbaycanın iqtisadiyyatının inkişafı və əhalisinin yaxşı yaşaması əsas meyarlardan biridir. Azərbaycan və Azərbaycan xalqı var olduqca, Heydər Əliyev əməlləri və ideyaları daim yaşayacaq və qorunub saxlanacaq.

**ƏDƏBİYYAT**

1.Hacıyev İ. Azərbaycan dövlətçiliyinə xidmət nümunəsi // İki sahil. - 2020. - 16 dekabr. - № 225. - S. 16-17.

2. Cəfərov N. Ümummilli liderin xilaskarlıq və dövlət quruculuğu missiyası // Xalq qəzeti. - 2020. - 15 dekabr. - № 263. - S. 3.

3. Əhmədov E. Ulu öndər və Azərbaycan diasporu // Xalq qəzeti. - 2020. - 13 dekabr. № 262. - S. 8.

4. Nəsirov E., Paklıq zirvəsində qərar tutmuş lider // Xalq qəzeti. - 2020.- 12 dekabr. № 261. - S. 3.

5.Quliyeva Z., Müdriklik zirvəsi - AZƏRBAYCAN XALQININ ƏBƏDİLƏŞMİŞ LİDERİ // Səs. - 2020.- 12 dekabr. - № 223. - S. 12.

6.Nərimanoğlu M. Müstəqilliyi şərtləndirən əsas amillərdən biri milli-mənəvi dəyərlərin qorunmasıdır: Ulu Öndər Heydər Əliyevin 13 avqust 2001-ci il tarixli bəyanatında bu vacib məsələ öz əksini geniş tapmışdır // Azərbaycan. – 2020.- 13 avqust. № 158. – S. 1-2.

7.Əliyev S. Heydər Əliyevin milli müstəqillik və dövlətçilik ideyalarının gerçəkləşdirilməsində tarixi rolu // Respublika.- 2020.- 12 iyul.- № 134.- S. 3.

**Aysel Əlican qızı Quliyeva**
*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)*
*"İqtisadi nəzəriyyə" kafedrasının müəllimi*
*aquliyeva5@gmail.com*

## ÜMUMDÜNYA BÖHRANININ NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI KONTEKSTİNDƏ AZƏRBAYCAN İQTİSADİ MODELİNİN İNKİŞAFINDA ELM VƏTƏHSİLAMİLLƏRİNİN ROLUNUN ARTMASI

**Xülasə.**Təqdim edilən məqalədə koronavirus pandemiyası böhranının nəticələrinə qarşı mübarizə aparılan bugünkü şəraitdə elm və təhsilin rolunun və eyni zamanda, böhrandan sonrakı dövrdə Azərbaycan Respublikasında uzunmüddətli sabit artım modelinin formalaşması üçün bu sahələrin əhəmiyyətinin artmasının obyektiv səbəbləri göstərilir. Böhran öncəsi dövrdə elm və təhsil sahələrində vəziyyəti yaxşılaşdırmaq istiqamətində əldə edilmiş konkret nəticələr nəzərdən keçirilir və onları keyfiyyətcə inkişaf etdirmək imkanları təklif edilir.

***Açar sözlər**: Azərbaycanın iqtisadi modelinin təkmilləşdirilməsi, gələcək artımın uzunmüddətli əsası, koronavirus pandemiyasının nəticələrinin aradan qaldırılması, elm və təhsilin rolunun artması.*

Müasir dünyada ümumi iqtisadi vəziyyət covid-19 koronavirus pandemiyası şəraitində və onun təsiri altında inkişaf edir. Pandemiyadan əvvəlki dövrdə dünya təsərrüfat sistemində 2008-2009-cu illərdə dünyanı bürümüş qlobal maliyyə-iqtisadi böhranın nəticələri hələ də bu və ya digər dərəcədə hiss edilirdisə, yaxın gələcəkdə biz hamımız 2020-ci ildə virus böhranının vurduğu itkilərin bərpası problemi ilə üzləşəcəyik. Beynəlxalq Valyuta Fondunun hələlik sonuncu - keçən ilin oktyabrında hazırlanmış proqnozunda birbaşa xəbərdarlıq edilir ki, "bərpa prosesi uzunmüddətli, qeyri-müntəzəm olacaq və zəmanətli olmayacaq" [1].

Bütün dünya iqtisadiyyatının bərpası nəzərdə tutulur, lakin 2020-ci il böhranının nəticələri aradan qaldırılmayınca heç bir milli iqtisadiyyat davamlı inkişaf edə bilməyəcək. Digər tərəfdən, yuxarıda proqnoz da, dünyada formalaşan vəziyyət də göstərir ki, bu böhranın nəticələri hələ uzun müddət davam edə bilə. İstənilən halda, davamlı artımın təminatı problemi əvvəlki kimi bütün dünya iqtisadiyyatı üçün əsas problem olaraq qalır. Azərbaycana gəlincə, artıq indi bizim iqtisadi modelin keyfiyyətcə təkmilləşdirilməsi zəruridir, bu, həm böhranla bağlı itkiləri bərpa etməyə, həm də davamlı inkişaf üçün yuxarıda qeyd etdiyimiz təməli yaratmağa imkan verməlidir.

Bizim fikrimizcə, belə təkmilləşdirmə müxtəlif sahələrdə bir sıra tədbirlər görülməsini nəzərdə tutur. Məsələn, insanın yaşama mühitinin kompleks şəkildə təkmilləşdirilməsi və beləliklə, onun ümumi həyat şəraitinin yaxşılaşdırılması və əmək fəaliyyətinin keyfiyyətinin artırılması xüsusi əhəmiyyət kəsb edir. Aşkardır ki, belə təkmilləşdirmə gələcək inkişafın strateji təməli olmaqla bərabər, koronavirus pandemiyasının nəticələrinin aradan qaldırılması kontekstində bəlkə də həlledici tədbirə çevrilir, çünki həmin nəticələr əhalinin əksəriyyətinə bu və ya digər dərəcədə təsir göstərir və onlara qarşı artıq bu gün mübarizə aparmaq lazımdır.

Bu məsələlərin həllində aparıcı yer tutan qabaqcıl elm kompleks ideyalar irəli sürməli və onları müasir insanın bütün iqtisadi və ictimai həyat mühitinin keyfiyyətcə yaxşılaşdırılmasına dair praktiki təkliflərə çevirməlidir.

Təhsilin səviyyəsi məsələsinin ayrıca nəzərdən keçirilməsi tamamilə qanunauyğundur. Təhsil müasir cəmiyyətin özünün təkmilləşdirilməsi baxımından ən əhəmiyyətli fəaliyyət istiqamətidir. Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Birləşmiş Millətlər Təşkilatının (UNESCO) təhsil sahəsində fəaliyyətinin əsas məqsədi hər kəsin bütün həyatı boyu və bütün səviyyələrdə təhsil almaq imkanını təmin etməkdir, çünki təhsil insan şəxsiyyətinin formalaşmasında və inkişafında, iqtisadi artımda və sosial əlaqələrin möhkəmlədilməsində

başlıca rol oynayır. Digər tərəfdən, təhsil – yoxsulluğa qarşı mübarizənin mühüm vasitəsi və davamlı inkişafın əsaslarından biridir [2].

Eyni zamanda xatırlatmaq lazımdır ki, iqtisadi inkişafın, o cümlədən sənayenin inkişafının müasir mərhələsi fundamental və tətbiqi elmin ən yeni nəticələrindən geniş istifadə edilməsi, texniki-texnoloji və təşkilatı-idarəçilik sahəsində nailiyyətlərin təkmilləşdirilməsi və tətbiqi, həmçinin maddi istehsal sahələri ilə bilavasitə sosial sfera, xüsusən insanın yaşadığı təbii mühit arasında qarşılıqlı əlaqələrin dərinləşməsi ilə səciyyələnir.

Beləliklə, müasir dünyada elm və təhsilin xüsusi rolu haqqında məsələni əsas götürərək, iqtisadi və sosial həyatın başqa tərkib hissələrinin arasında elm və təhsilin müəyyənedici yerini göstərmək lazımdır. Ona görə, bir daha vurğulamaq lazımdır ki, bu sahələr iki məsələnin həllində müstəsna əhəmiyyət kəsb edir:

- birincisi, rəqabətədavamlı və səmərəli milli iqtisadiyyatın yaradılmasında;
- ikincisi, inkişafın və intellektin ümumi səviyyəsinin artırılması vasitəsilə yüksək mənəviyyatlı, intellektual baxımdan inkişaf etmiş şəxsiyyətin formalaşması prosesində.

Bir daha vurğulayaq ki, konkret anda bəşəriyyətin böhran hadisələri ilə və ya onların nəticələri ilə üzləşməsindən, dünya iqtisadiyyatında və milli təsərrüfat sistemlərinin əksəriyyətində tərəqqi və ya, əksinə, məsələn, bizim hazırda rastlaşdığımız tənəzzül dövrü yaşanmasından asılı olmayaraq, müasir dünyada elm və təhsil amilinin əhəmiyyəti artır. Elm və təhsil müasir cəmiyyətdə ümumi tərəqqinin, inkişafın "daimi mühərriki"nə çevrilmişdir.

Təhsilin və elmin inkişafının əhəmiyyəti Azərbaycanın nümunəsində də görünür və hiss edilir, çünki ölkədə həyata keçirilən sosial-iqtisadi modernləşdirmənin müsbət nəticələri məhz təhsil və elm ilə çox sıx bağlıdır. Əlbəttə, bunu da görməmək olmaz ki, təhsil və elm inkişaf etmiş ölkələrin ictimai və iqtisadi tərəqqisinin əsas amilləridir; intellekt getdikcə daha artıq dərəcədə bu ölkələrin əsas kapitalına çevrilir. İqtisadiyyatın intellektuallaşması prosesi gedir, yəni biliklər insan fəaliyyətinin bütün sahələrinə, sosial mühitin konkret obyektlərinə, istənilən məhsulun istehsalına tətbiq edilir. "Biliklər iqtisadiyyatı" anlayışı gerçəkləşir, yəni həm bilavasitə istehsalın, həm də bütövlükdə iqtisadi sistemin təkmilləşdirilməsində elmi araşdırmaların nəticələrindən geniş istifadə olunur.

Məhz iqtisadi inkişafda intellektual amilin əhəmiyyətinin get-gedə artdığı şəraitdə biz iqtisadiyyatımızın real rəqəmsallaşdırılması haqqında danışa bilərik.

Son 10 ildə "dördüncü sənaye inqilabı" konsepsiyasının reallaşdırılması çərçivəsində dünyanın inkişaf etmiş dövlətlərinin praktiki olaraq hamısını əhatə etmiş iqtisadiyyatın rəqəmsallaşdırılması belə güman etməyə əsas verir ki, elmi nailiyyətlərin rolu artdıqca və bu nailiyyətlər inkişaf etmiş ölkələrin əksəriyyətinin iqtisadi həyatına tətbiq edildikcə, koronavirus böhranının nəticələri də aradan qaldırılacaq. Belə tətbiq, xüsusi halda, sürətlə dəyişən iqtisadi mühit üçün yüksək ixtisaslı kadrların fasiləsiz hazırlanmasına və yenidən hazırlanmasına imkan verən fasiləsiz təhsil sisteminin təkmilləşdirilməsi ilə müşayiət olunacaq,.

Bir daha vurğulayaq ki, elm və təhsil amilləri böhrandan sonrakı uzunmüddətli dövr üçün inkişafın perspektivli istiqamətlərinin müəyyən edilməsində çox mühüm rol oynayacaq. Ona görə də, bütün yuxarıda deyilənlərə əsaslanaraq, bu nəticəyə gələ bilərik ki, elm və təhsil bütün Azərbaycan iqtisadi modelinin təkmilləşdirilməsinə əhəmiyyətli təsir göstərəcək.

Yenidən təhsil və elm arasındakı əlaqəyə dair suallara qayıdaq. Həm xarici ölkələrin, həm də Azərbaycanın təcrübəsi göstərir ki, təhsilin modernləşdirilməsi prosesi yalnız o halda ölkənin innovasiyalı inkişafı baxımından sistemli səmərə verə bilər ki, bu proses struktur etibarilə şaxələndirilmiş və institusional məzmunlu olsun. Keyfiyyətli təhsil, yüksək ixtisaslı kadrlar hazırlığı, perspektivli elmi araşdırmalar, elmtutumlu məhsul və yüksək texnologiyalar yaradılması, intellektual araşdırmaların nəticələrinin ixracı məsələlərinə diqqət artırılmalıdır.

İndi bütün elm-təhsil kompleksinin maliyyələşdirilməsi ilə bağlı vəziyyəti nəzərdən keçirək.

Azərbaycanda bütün böhrandan əvvəlki dövrlərdə elmin və elmi-texniki tədqiqatların

maliyyələşdirilməsində dövlət aparıcı rol oynayır. Bu aparıcı rol yalnız maliyyələşdirilən investisiyaların konkret məbləğlərində deyil, həm də, onda təzahür edir ki, ölkəmizdə, təhsilin və elmin inkişafı üçün ayrılan maliyyə vəsaitinin kəmiyyət baxımından artması ilə yanaşı, cəmiyyətin, o cümlədən gənclərin bu məsələyə münasibəti baxımından, vəziyyət keyfiyyətcə bir qədər yaxşılaşmağa başlamışdır. Xüsusi halda, gənc alimlərin arasında Azərbaycan elminə xidmət etmək arzusunda olanların sayı artmışdır. İndiki məqamda hesab edirik ki, bu tendensiya koronavirus pandemiyasının nəticələrinin aradan qaldırılması prosesində sərhədlərin açılışı müddətində də davam etməlidir.

Bununla bərabər, vurğulamalıyıq ki, elmin və elmi araşdırmaların maliyyələşdirilməsində dövlətin aparıcı rolu bu sahəyə özəl investisiyaların daha çox cəlb edilməsi zərurətini heç də aradan qaldırmır və müasir Azərbaycanda bu istiqamətdə müəyyən irəliləyiş nəzərə çarpır. Bizim fikrimizcə, bugünkü böhrana, onun bütün nəticələrinə və obyektiv maliyyə çətinliklərinə baxmayaraq, şəxsi investisiyalar həm bütün bu nəticələrin sürətlə aradan qaldırılması, həm də sonrakı dövrdə bizim milli iqtisadiyyatımızın sürətli inkişafı üçün çox böyük əhəmiyyətə malik olacaq.

Ölkəmizdə coviddən əvvəlki dövrdə bu sahədə vəziyyətin necə inkişaf etdiyini göstərən konkret məlumatları nəzərdən keçirək.

Məsələn, elmin maliyyələşdirilməsinin ümumi həcmində dövlət büdcəsindən maliyyələşdirmənin payı 2000-ci ildəki 58,5 faizdən 2019-cu ildə 71,5 faizə qədər artmışdır. Həmin dövrdə elmin büdcədən maliyyələşdirilməsinin kəmiyyət ifadəsində həcmi 9,3 milyon manatdan 122,3 milyon manata çatdırılmış, yəni təxminən 13,2 dəfə artmışdır [3, s.351].

Elmə və elmi tədqiqatlara dövlət kapital qoyuluşlarının belə artımı bütövlükdə Azərbaycan dövlətinin maliyyə imkanlarının artmasına dəlalət edir, bu isə, öz növbəsində, yuxarıda qeyd etdiyimiz ümumiqtisadi müvəffəqiyyətlər qazanılmadan qeyri-mümkün olardı. Eyni zamanda məhz elm sahəsinə dövlət investisiyalarının artması haqqında danışarkən bəzi mühüm dəqiqləşdirmələr etmək lazımdır.

Birincisi, göstərilən dövrdə elmin büdcədən maliyyələşdirilməsinin kəmiyyət ifadəsində bütövlükdə artımına baxmayaraq, Azərbaycan Respublikasının dövlət büdcə xərclərinin ümumi həcmində bu xərclərin nisbi payı 2000-2019-cu illər ərzində 1,2 faizdən 0,5 faizə qədər, yəni iki dəfədən çox azalmışdır [3,s.351]. Başqa sözlə desək, ölkədə həyata keçirilən iqtisadi siyasətin ümumi uğurlarını əks etdirən dövlət büdcəsinin artımı eyni zamanda elmə və elmi araşdırmalara xərclərin nisbi ifadədə müvafiq artımı ilə müşayiət olunmur. Bu fakt təəssüf doğurur ki, elm sahəsinə dövlətin prioritet əhəmiyyət verməsi büdcə xərclərinin strukturunun keyfiyyət dəyişikliklərində öz ifadəsini tapmamışdır.

İkincisi, baxdığımız zaman kəsiyində yuxarıda qeyd etdiyimiz nəticəni təsdiqləyən irəliləyişlər baş vermişdir. Məsələn, elmi-tədqiqat fəaliyyətinə çəkilən bütün xərclərin ümumi həcmində elm sahəsinin dövlət büdcəsindən maliyyələşdirilməsinin payı 2010-cu ildə maksimum həddə çataraq 99,4 faiz təşkil edib. Lakin onu da deməliyik ki, həmin vaxt, yuxarıda qeyd etdiyimiz kimi, dövlət büdcə xərclərinin ümumi həcmində elmə çəkilən xərclərin payının azalması nəzərə çarpırdi: 2010-cu ildə bu pay cəmi 0,8 faiz təşkil etmişdir.Sonrakı illərdə bu pay daha da azaldı və qeyd etdiyimiz kimi, 0,5 faizə düşdü [3, s.351].

Sonrakı illərdə elmi-tədqiqat fəaliyyətinə ümumi xərclərin həcmində büdcədən maliyyələşdirmənin payının azalması davam etmişdir: 2014-cü ildə bu pay 96,6 faizə, 2015-ci ildə 92 faizə, 2016-cı ildə 85,2 faizə, 2017-ci ildə 83 faizə, 2018-ci ildə 78,3 faizə, və 2019-cu ildə isə, artıq yuxarıda qeyd edildiyi kimi, 71,5 faizə düşmüşdür. Hərçənd, bu halda onu da qeyd etmək lazımdır ki, 2019-cu ildə elmi fəaliyyətə dövlət büdcəsinin xərcləri kəmiyyət ifadəsində artmış və yuxarıda qeyd etdiyimiz kimi, maksimal qiymətə (122,3 milyon manata) çatdırılmışdır [3,s.351; 4,s.351;5,s.351].

Yuxarıda göstərilən rəqəmlər nəyə dəlalət edir? Yaxın gələcəkdə, koronavirusun bizim iqtisadiyyatımız üçün doğurduğu nəticələrin aradan qaldırılması ilə eyni zamanda, yuxarıda qeyd etdiyimiz elm amilinin rolunun əhəmiyyətli dərəcədə artması əsasında gələcək artımın

uzunmüddətli təməli qoyulacaq. Bu halda dövlətin büdcə siyasətinə də müəyyən mənada yenidən baxmaq lazım olacaq. Biz hesab edirik ki, elm dövlət büdcəsindən maliyyələşdirilən prioritetli və maliyyələşdirmənin mümkün ixtisarı nöqteyi-nəzərindən toxunulmaz yerlərin birini tutmalıdır.

Başqa sözlə, dövlət büdcəsində elmə xərclərin payının artırılması hesabına elm sahəsinin dövlət tərəfindən maliyyələşdirilməsini artırmaq imkanı nəzərdə tutulmalıdır. Dövlət xərclərinin başqa maddələri nə qədər əhəmiyyəti olsa da, bir məqamı yadda saxlamaq lazımdır ki, məhz elmdə – həm fundamental-nəzəri, həm də tətbiqi elmdə – qabaqcıl mövqelər ölkəmizdə iqtisadiyyatın xammal istiqamətindən asılılığa son qoyulması, emaledici sənayenin, xüsusilə qabaqçıl elektronika sahələrinin davamlı artımı, milli ixracın strukturunun dünyanın ən qabaqcıl inkişaf etmiş dövlətlərinin standartları səviyyəsində dəyişdirilməsi kimi məsələlərin həllini təmin edə bilər. Təbii ki, bugünkü şəraitdə - koronavirus pandemiyasına qarşı mübarizə kontekstində əhalinin sağlamlığının dəstəklənməsi də yuxarıda göstərilən məsələlərə əlavə edilməlidir.

Belə ki, nəzərdən keçirdiyimiz 2005-2019-cu illərdə Azərbaycan Respublikasında təhsil sahəsinin dövlət büdcəsi hesabına maliyyələşdirilməsinin mütləq rəqəmlərlə ifadə edilən həcmi 372,5 milyon manatdan 2,196 milyard manata qədər və ya 5,9 dəfə artmışdır. Lakin eyni zamanda nəzərə almaq lazımdır ki, həmin müddətdə dövlət büdcəsinin ümumi məxaric hissəsində təhsilin payı azalaraq, müvafiq surətdə: 2005-ci ildə – 17,4 faiz, 2010-cu ildə – 10,0 faiz, 2015-ci ildə – 13,6 faiz, 2016-cı ildə 14,9 faiz, 2017-ci illərdə – 9,9 faiz, 2018-ci ildə – 8,7 faiz, 2019-cu ildə – 9,0 faiz təşkil etmişdir. 2005-2019-cu illərdə dövlət büdcəsinin bütün məxaric hissəsi 11,4 dəfədən çox artmışdır.

**Azərbaycanda dövlət büdcəsindən sosial sfera sahələrə 2005-2019-cu illər ərzində investisiya qoyuluşları (mln.manat)**

| Göstəricilər | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin xərcləri - cəmi | 2140,7 | 11765,9 | 11784,5 | 11751,3 | 17594,5 | 22731,6 | 24425,9 |
| ondan: | | | | | | | |
| Təhsil (mln.manat) | 372,5 | 1180,0 | 1605,1 | 1754,4 | 1742,7 | 1966,6 | 2195,7 |
| Təhsilin büdcədə xüsusi çəkisi, % | 17,4 | 10,0 | 13,6 | 14,9 | 9,9 | 8,7 | 9,0 |
| Elm (mln.manat) | 28,8 | 92,8 | 113,2 | 110,2 | 109,8 | 117,8 | 122,3 |
| Elmin büdcədə xüsusi çəkisi, % | 1,3 | 0,8 | 1,0 | 0,9 | 0,6 | 0,5 | 0,5 |
| Səhiyyə(mln.manat) | 115,3 | 429,2 | 708,2 | 702,5 | 704,7 | 709,9 | 873,6 |
| Səhiyyənin büdcədə xüsusi çəkisi, % | 5,4 | 3,6 | 6,0 | 6,0 | 4,0 | 3,1 | 3,6 |
| Mədəniyyət və incəsənət (mln.manat) | 45,5 | 145,2 | 236,3 | 240,1 | 214,8 | 227,2 | 269,2 |
| Mədəniyyət və incəsənətin büdcədə xüsusi çəkisi, % | 2,1 | 1,2 | 2,0 | 2,0 | 1,2 | 1,0 | 1,1 |

Mənbə: [6, s.400; 7, s.394]

Gördüyümüz kimi, dövlət büdcəsinin xərclərinin ümumi strukturunda təhsil xərclərinin payı 2015-ci və 2016-cı illərdə əhəmiyyətli dərəcədə artmış olsa da, sonradan 2017-ci və 2018-ci illərdə yenidən aşağıya düşmüş və nəhayət 2019-cu ildə yenidən əhəmiyyətli dərəcədə artmışdır. Nəzərə almaq lazımdır ki, bütövlükdə dövlətimizin gələcək mövcudluğu üçün böyük əhəmiyyət kəsb edən bu sahənin payı hələ 2005-ci ildə malik olduğu səviyyəyə çatmayıb.

Digər tərəfdən, göstərilən dövrdə "Sosial və mədəni fəaliyyət" istiqaməti üzrə ümumi büdcə xərclərinin həcmində təhsilin payı 2005-ci ildəki 44,2 faizdən 2019-cu ildə 38,6 faizə qədər azalmışdır [6, s.400; 7, s.394].

Yuxarıda nəzərdən keçirdiyimiz elm sahəsi ilə əlaqədar misalda olduğu kimi, qlobal dünyada Azərbaycan iqtisadiyyatının və bütövlükdə ölkənin rəqabət qabiliyyətinin təmin olunmasında təhsil sahəsinin bugünkü və sabahkı rolu baxımından bu sahəyə dövlət

investisiyalarının əhəmiyyəti müəyyən mənada lazımınca qiymətləndirilmir.

ƏDƏBİYYAT siyahısı

1.МВФ: Перспективы мировой экономики на 2020-2025 годы. 14 октября 2020 годы
2.http://www.unesco.org/new/ru/education/.
3.Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə // Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı. – 2020. – S. 351
4.Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə // Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı. – 2017. – S. 351.
5.Azərbaycanda təhsil, elm və mədəniyyət. Statistik məcmuə // Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı. – 2018. – S. 351; 355
6.Azərbaycanın Statistik Göstəriciləri. 2019. Statistik məcmuə // Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı. – 2019. – S. 400.
7.Azərbaycanın Statistik Göstəriciləri. 2020. Statistik məcmuə // Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı. – 2020. – S. 394.

**Aytən Nadirova**
*Mingəçevir Dövlət Universiteti*
*e-ünvan:ayten.nadirova678@gmail.com]*

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI

**Xülasə:** Ölkəmiz milli iqtisadiyyatın innovasiya sisteminin inkişaf prioritetlərini, beynəlxalq qlobal məkanda gedən proseslərə inteqrasiya olunmaqla müəyyənləşdirir, Elmi texniki tərəqqinin ən son nailiyyətlərinin tətbiq edilərək texnoloji avadanlıqlardan istifadə edilməsi, eləcə də elmi texniki informasiya resurslarının formalaşması və istifadəsinin əsas məqsədi dünya informasiyasına inteqrasiya, milli iqtisadiyyatın rəqəmsallaşdırılması məhsul və xidmətlər bazarının yaradılmasıdır.

***Açar sözlər:****Heydər Əliyevmilli iqtisadiyyatın inkişafda strategiyası dövlət vasitəsilə həyata keçirilən normativ hüquqi təminat1, İqtisadiyyatın rəqəmsallaşdırılması prosesinin idarəedilməsi2, makroiqtisadi siyasət, dövlət tənzimlənməsi3, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması4*

XI əsrin astanasında Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi təkamülündə dönüş nöqtəsi oldu və bu təkamül prosesində taleyüklü dəyişikliklərin meydana gəlib genişlənməsi üçün zəmin yaratdı. Lakin tarixi təcrübə göstərir ki, zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən təcavüzünə məruz qalan və təcrübəsiz dövlət rəhbərləri tərəfindən idarə olunan Azərbaycanda bu daha da çətin idi. Ölkəmiz yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı.

Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən açıq-aşkar hərbi təcavüz və siyasi təzyiqlərlə boğulurdu. Həm də xalqımız iqtisadi sarsıntılar, çətinliklər girdabına düşmüşdü. Bunun isə kökləri olduqca dərindir. İstehsal olunan məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara böyük çətinliklə çıxarılırdı. Həm valyuta çatışmazlığı, həm də yolların təhlükəli olması ilə əlaqədar mal idxalı da böyük çətinliklə həyata keçirilirdi. Ölkə əhalisi açıq-aşkar aclıq imtahanına çəkilirdi. Ərzaq anbarları boşalmış, ilkin tələbat mallarının istehsalı fəlakətli dərəcədə azalmışdı. Elə gün olurdu ki, Qazaxıstandan yola salınmış un gecə Bakıya çatmasaydı, səhəri gün şəhərdə aclıq baş verə bilərdi.

Ölkəni bu ağır vəziyyətdən 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev çıxardı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi ilə ümummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyllərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu".

Tarixdən yaxşı məlumdur ki, əgər dövlətin, xalqın strateji, perspektiv mənafeyi baxımından onun daxili və xarici siyasətinin ümumiləşmiş konsepsiyasını müəyyən edə bilən, bu mənafeyi beynəlxalq forumlarda, yüksək tribunalardan müdafiə edə bilən, dövlətin strateji xəttini xalqa sadə şəkildə bəyan edən və dövlətçiliyi ümumxalq işinə çevirməyi, xalqı öz arxasınca aparmağı bacaran şəxsiyyət yoxdursa və nəhayət, dövlətçiliyi qorumağı, onun müdafiəsini təşkil etməyi əməli surətdə həyata keçirən praktik siyasətçi-diplomat, sərkərdə və komandan yoxdursa, daxildə əmin-amanlığı, ölkənin iqtisadi inkişafını təmin etməyi üzərinə götürə bilən qurucu, yaradıcı təsərrüfat rəhbəri yoxdursa, həmin ölkənin gələcəyindən nikbin ruhda danışmaq çətin olar.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyevin müdrik daxili və xarici strateji kursu ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial və psixoloji böhran və sarsıntılardan çıxararaq müstəqilliyin əbədi yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra gedən proseslər, təəssüflər olsun ki, ölkəmizi uçurum kənarına gətirmişdi. Sosial-iqtisadi, siyasi, hərbi böhran hökm sürürdü. Azərbaycan torpaqları Ermənistanın işğalçı qüvvələri tərəfindən zəbt olunurdu, ölkədə xaos, anarxiya, hərc-mərclik mövcud idi, vətəndaş müharibəsi başlamışdı. O illərdə baş verən iqtisadi tənəzzül ölkəmizi çox çətin vəziyyətə salmışdı".

Daxili çəkişmələrə son qoyulması, siyasi sabitliyin təmin olunması, atəşkəs haqqında razılaşma əsasında erməni təcavüzünün dayandırılması, "Əsrin müqaviləsi"nin bağlanması, balanslaşdırılmış xarici siyasət və qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması bütün diqqəti ölkədə çoxdan yığılıb qalmış və yatmış vulkana bənzəyən daxili sosial-iqtisadi problemlərin həll olunmasına yönəltməyə imkan verdi. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, heç bir ölkənin tarixində rast gəlinmədiyi strateji əhəmiyyətli üç taleyüklü vəzifə eyni zamanda yerinə yetirilsin:

1. Müstəqil, demokratik, hüquqi dövlətin yaradılması və inkişaf etdirilməsi;
2. inzibati-amirlik sistemi ləğv edilərək bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olunması;
3. qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiq edilməsi ilə bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya edilməsi.

Bu tarixi vəzifələrin hər biri istənilən bir dövlət üçün kifayət qədər ciddi və əhəmiyyətli idi və bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi.

Totalitar sosialist sisteminin süqutu nəticəsində yaranmış yeni müstəqil dövlətlər qarşısında duran problemlərin orijinallığı və tarixdə mövcud olmuş iqtisadi sistemlərin heç birində analoqu olmaması dünya iqtisadi və siyasi ədəbiyyatına bu ölkələrin real durumunu və perspektivlərini əks etdirən yeni bir termin "keçid iqtisadiyyatı ölkələri" terminini də gətirdi. "Keçid" anlayışı yalnız iqtisadi termin deyildir və cəmiyyətin bütövlükdə mövcud siyasi, iqtisadi və sosial quruluşundan imtina edildiyi və hələlik yenisinin yaradılmadığı bir vəziyyəti ifadə edir, cəmiyyətin sosial-iqtisadi strukturunun transformasiya prosesində olduğunu göstərir. Problemin çətinliyi bir də onda idi ki, totalitar rejimin 70 illik despotik hakimiyyəti dövründə cəmiyyət demokratiya, sərbəst bazar iqtisadiyyatı, azad sahibkarlıq, siyasi plüralizm və bu kimi digər çağdaş dəyərlərdən uzaq məsafədə saxlanılmışdır, üstəlik əhalidə uzun illər boyu xüsusi mülkiyyət, bazar iqtisadiyyatı, sahibkarlıq anlayışlarına mənfi münasibət formalaşdırılmışdır. Həyat isə bütün kəskinliyi ilə tələb edirdi ki, cəmiyyət "dövlət, demokratiya, millət, kimlik, ideologiya, siyasət və iqtisadiyyat kimi həyati əhəmiyyətli məsələlərin yenidən qurulmasını bir vəzifə kimi qarşıya qoysun" və uğurla həll etsin.

"1993-cü ilin ortalarında, Heydər Əliyev ölkəyə rəhbərliyə qayıtdıqdan sonra milli transformasiyanın dördüncü mərhələsi başlandı - modernləşdirmə mərhələsinə başlamağın əsası qoyuldu. Onun mahiyyəti Azərbaycanın tənzimlənən bazar iqtisadiyyatına keçməsində və demokratik islahatların həyata keçirilməsində idi ki, bu da beynəlxalq aləmdə ölkənin dünya siyasətinin subyekti kimi tanınması ilə nəticələndi".

Doğma Azərbaycan dövlətinin qarşısında duran ali məqsədə nail olunması, ilk növbədə iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi. Çünki 1992-1994-cü illərdə mövcud olmuş hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır və əhalinin maddi və sosial vəziyyətini getdikcə ağırlaşdırırdı. Birmənalı şəkildə aydın idi ki, həyata keçirilən iqtisadi siyasətin müvəffəqiyyəti genişmiqyaslı sabitləşdirmə tədbirləri ilə inflyasiyanın cilovlanmasından və makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin olunmasından asılıdır. Həyat bütün kəskinliyi ilə iqtisadi islahatların da sürətləndirilməsini tələb edirdi. Ona görə də ölkə iqtisadiyyatında bazar prinsiplərinin bərqərar olmasını təmin etmək üçün onun liberallaşdırılması istiqamətində radikal addımlar atıldı. 1994-1995-ci illərdə xarici ticarət

əməliyyatlarının liberallaşdırılmasına başlandı. Xarici ticarət sahəsində liberallaşdırma tədbirlərinin önə çəkilməsi qısa bir zamanda açıq qapı siyasətinin tətbiq edilməsi zərurətindən doğurdu.

İqtisadi liberallaşdırma qiymət islahatlarının da radikal şəkildə davam etdirilməsini tələb edirdi. Bununla əlaqədar olaraq 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad olunması başa çatdırıldı. Bununla da bazar iqtisadiyyatının əsas prinsiplərindən birinin, yəni qiymətlərin bazarda sərbəst şəkildə tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlanması üçün yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər vacib elementi olan valyuta rejiminin sərbəstləşdirilməsi prosesi ilə tamamlandı.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli iqtisadi islahatlar az bir zamanda geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Azərbaycanda iqtisadi islahatlar haqqında xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Həmin təşkilatlarla sıx əməkdaşlıq şəraitində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal islahatlar həyata keçirildi. Sərt və çevik pul-kredit, büdcə, vergi, gömrük siyasətinin aparılması, qiymətlərin, xarici iqtisadi fəaliyyətin və valyuta bazarının liberallaşdırılması və xarici kapitalın cəlb olunması nəticəsində tezliklə ölkədə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu.

Ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafını sürətləndirdi. 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşdi və demək olar ki, kiçik özəlləşdirmə başa çatdırıldı. 1997-ci ildən isə özəlləşdirmənin həlledici mərhələsi olan böyük özəlləşdirməyə - orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlandı. Təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətlərə çevrildi.

Beləliklə, ölkədə iqtisadi tənəzzülün qarşısı nəinki alındı, hətta 1996-cı ildə onun artımına nail olmaq mümkün oldu. 1996-cı ildən 1,3% olan iqtisadi artım 1997-ci ildə 5,8%-ə çatdırıldı. Real sektordakı bu canlanma Cənubi-Şərqi Asiyada və qonşu Rusiyada baş vermiş dərin maliyyə böhranına baxmayaraq 1998-ci ildə daha da inkişaf etdi. 1998-ci ilin yekunları respublikanın sosial-iqtisadi inkişafında müsbət meyllərin ildən-ilə möhkəmləndiyi, bu prosesin dönməz xarakter almasını göstərirdi. Az bir zamanda Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqe tutmağa və lider olmağa başladı.

Azərbaycanda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur. Deyilənləri yekunlaşdıraraq göstərmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı qlobal zirvələrə doğru gedən ölkələr qrupunda öncül mövqeyə çıxarmışdır. Ölkənin inkişaf səviyyəsində ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".

Ölkəmizin iqtisadi inkişaf səviyyəsi yaxın perspektivdə daha da yüksələcəkdir. İqtisadi inkişaf sürəti baxımından dünyada analoqu olmayan Azərbaycan Respublikası bir çox inkişaf parametrlərinə görə inkişaf etmiş ölkələr arasında olan fərqi azaltmaqdadır. Möhkəm iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış, əhalinin sosial-rifah halının daha da

yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır. Heydər Əliyev ağır vəziyyətdə olan Azərbaycan iqtisadiyyatını dirçəltmək, bütünlükdə dövlətimizin müstəqilliyinin qorunmasını təmin etmək üçün düşünülmüş strategiya seçdi və bu strategiyada neft faktoruna üstünlük verdi. Bu, yeganə çıxış yolu idi. Qeyd edək ki, son 15–20 ildə dünyada və Azərbaycanda siyasi və iqtisadi mübarizələrin kəskinliyi, Xəzər nefti uğrunda dünyadakı hökmran güclərin diplomatik savaşı bəzən elə bir böhran vəziyyətinə gətirib çıxarırdı ki, sanki, hər an bir partlayış qopacağı təhlükəsi yaranırdı. Xəzər nefti üçün güclü dövlətlərin siyasi və iqtisadi maraqlarının toqquşması nəticəsində Azərbaycanın gələcəyinə və mənafeyinə zidd olan planların zərərsizləşdirilməsində Heydər Əliyevin müstəsna rolu oldu. Azərbaycan xalqı yaxşı bilir ki, Heydər Əliyevin neft siyasətinin həyata keçirilməsinə nə qədər güclü təzyiqlər, maneələr edildi. Amma dövlətimizin başçısı millətimizin və ölkəmizin taleyi, tərəqqisi üçün çox vacib olan prinsipial mövqeyindən dönmədi və 1994-cü ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Bu, müstəqil Azərbaycan dövlətinin, onun - Prezidentinin tarixi uğuru idi. Bu tarixi missiyanı yerinə yetirmək üçün Heydər Əliyev dünya təcrübəsini dərindən təhlil etdi, yerli xüsusiyyətləri, əhalinin mentalitetini, yaranmış vəziyyəti sistemli təhlil etdi, bir-birini tamamlayan qanunları imzaladı, normativ baza yaratdı, informasiya təminatını gücləndirdi.

Bütün bunlar respublikada torpaq islahatlarının uğurla, sosial sarsıntılar olmadan həyata keçirilməsini təmin etdi. Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə malik olan ölkə başçısı kimi dövlət və iqtisadiyyatın münasibətlərində optimallığı müəyyənləşdirməyə çalışırdı. O, sosial problemlərin, elm, təhsil, ekologiya, qlobal struktur və inkişaf problemlərinin həllində dövlətin imkanlarından, köməyindən (söhbət təkcə maliyyə yardımından getmir) səmərəli istifadə etməyi, iqtisadi orqanların məsuliyyətinin artmasını həmişə diqqət mərkəzində saxlayırdı. Böyük rəhbər daim çalışırdı ki, bank-maliyyə qurumları daha səmərəli fəaliyyət göstərsinlər, ölkənin milli maraqlarını daha güclü surətdə qorusunlar. Heydər Əliyev beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa xüsusi diqqət verirdi. Bu əməkdaşlıqda da milli maraqları əsas tuturdu və sevinirdi ki, ölkənin maliyyə imkanları ildən-ilə artır, borc almağa ehtiyac azalır, büdcə sisteminin göstəricilərində müsbət meyillər güclənir.

Unudulmaz rəhbərimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısında dahiyanə xidmətlərindən biri də qədim İpək yolu nəqliyyat dəhlizində respublikamızın aktiv iştirakını təmin etmək oldu. Çünki bu yolun fəaliyyəti respublikamızın sosial-iqtisadi dirçəlişinə böyük təsir göstərəcəkdi. Böyük İpək yolunun bərpası və orada Azərbaycanın aktiv iştirakı qlobal əhatə dairəsi, miqyası, əsrlərboyu faydası çox böyük olan bir məsələ idi ki, onun da həllində Heydər Əliyev müstəsna rol oynadı.

Aparılan araşdırmalar sübut edir ki, yeni İpək yolu Azərbaycan üçün daimi kapitaldır, davamlı iqtisadi inkişaf amilidir, önəmli gəlir mənbəyidir, siyasi sabitlik mənbəyidir. Eyni zamanda, unutmamalıyıq ki, nəqliyyat dəhlizlərinə yiyələnmək, bu mümkün olmadıqda isə alternativ yollar axtarmaq istiqamətində dünyada, elə bizim regionda gedən böyük mübarizələrdə ayıq-sayıq olmalıyıq. Bunu ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə keçirilmiş Bakı sammitində qarşıya qoyduğu önəmli vəzifələrin həyata keçirilməsi zərurəti tələb edir.

Türk dünyasının iftixarına çevrilmiş Heydər Əliyev qardaş ölkələrin və toplumların daha sürətlə inkişafını da arzulayırdı və Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin də bu baxımdan tarixi rolunu xüsusi vurğulayırdı. O, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın türk dünyası ölkələri ilə iqtisadi sahədə əməkdaşlığı daha da inkişaf etməlidir, investorlar hər iki ölkənin milli maraqlarına cavab verən layihələr həyata keçirməlidirlər. Onun Türkiyənin dövlət, hökumət rəhbərləri ilə səmimi dostluğu türk dünyası ölkələrinin birliyinə xidmət edirdi.

Bu gün Azərbaycan dövləti alternativ neft-qaz ixracı ilə bağlı kəmərlərə və digər beynəlxalq nəqliyyat marşrutlarına malikdir. Bu isə ölkəmizin müstəqilliyinin qorunması, onun iqtisadi təhlükəsizliyi üçün çox güclü amil deməkdir. Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet

istiqamətlərindən biri kimi müəyyən edilmişdir və bu da öz müsbət nəticələrini verir. Azərbaycan dövləti yaxın və uzaq gələcək üçün iqtisadi inkişaf strategiyasında aqrar sektorun daha davamlı inkişafını nəzərdə tutub. Azərbaycan qlobal dünya böhranı dövründə səylərini ölkədə maliyyə sabitliyinin qorunmasına yönəldib.

Heydər Əliyevin fərmanı ilə 2002-ci ildə təsdiq edilən kiçik və orta sahibkarlığın inkişafı dövlət proqramı ölkədə sahibkarlığın inkişafına böyük təkan verdi. Son illərdə bu işlər daha sürətlə davam etdirilir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilən dövlət proqramlarında müəyyənləşdirilmiş istiqamətlər: ölkədə sahibkarlıq mühitinin yaxşılaşdırılması, regionlarda sahibkarlığın maliyyə təminatının artırılması, istehsal resursları və kadr potensialı haqqında məlumat bazasının yaradılması, infrastrukturun inkişaf etdirilməsi, dövlət-özəl sektor münasibətlərinin inkişafı, sahibkarların hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi və sahibkarlara texniki yardımın genişləndirilməsi üzrə işlər uğurla davam etdirilir.

Ümummilli liderin ən layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlı davamlı regional inkişaf proqramlarının qəbul edilməsi və uğurla gerçəkləşdirilməsi isə ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin olunması və neft amilindən asılılığın azaldılması, regionlar arasında sosial-iqtisadi inkişafa görə yaranmış uyğunsuzluqların, səmərəsiz miqrasiya proseslərinin xeyli dərəcədə yumşaldılması, regionların malik olduğu resurslardan səmərəli istifadə olunması, mövcud yerli istehsal müəssisələrinin fəaliyyətinin bərpası və gücləndirilməsi, yeni iş yerlərinin yaradılması, regionların istehsal, sosial infrastrukturunun müasir tələblər səviyyəsində qurulması ilə nəticələnir.

Heydər Əliyev liderliyinin gücü onda idi ki, o, bütün işlərə yüksək tələbkarlıqla yanaşırdı. Onun bu keyfiyyəti əsl səfərbərlik faktoruna çevrilmişdi. O, daim təhlil aparırdı, müqayisəli araşdırmalara üstünlük verirdi, islahatların gedişi prosesində meydana çıxan problemlərin həlli üçün zəruri tələblərin həyata keçirilməsini hökumətdən tələb edirdi. Açığını deyək ki, bir sıra idarəetmə strukturları bu tələblə ayaqlaşa bilmirdilər. O, muvafiq strukturların rəhbərlərindən tələb edirdi ki, xidməti vəzifələrinin məsuliyyətini tam dərk etsinlər, dövlətin vəsaitlərindən səmərəli istifadə etsinlər, əhalinin ehtiyaclarına qayğı ilə yanaşsınlar, şəhər təsərrüfatlarında su, qaz, enerji ilə əlaqədar yaranan çətinliklərin təkrarlanmamasına, onların sistemli həllinə nail olsunlar.

Ümummilli liderin tarixi xidmətlərindən biri də hakimiyyətinin hər iki dövründə Azərbaycanı dünyada tanıtmaq, müstəqillik illərində isə onu ən aparıcı dünya dövlətləri sırasına yüksəltmək oldu. O, dövlətimizin müstəqil siyasət həyata keçirmək diplomatiyasını əldə etdi. Qloballaşan dünyanın, mürəkkəb siyasi proseslərin cərəyan etdiyi dönəmdə Heydər Əliyevin qurduğu, İlham Əliyevin idarə etdiyi Azərbaycan müstəqil siyasət yürüdə bilir. Bu gün dünyanın aparıcı siyasətçiləri, dövlət xadimləri, ekspertləri ölkəmizin dinamik inkişafını, qlobal dünya layihələrində iştirakını, cəmiyyətdə əldə olunmuş konsensusu, iqtisadi inkişafla sosial tərəqqi arasında tarazlığın yaradılmasını müstəqil dövlətin inkişafının Azərbaycan modelini fərqləndirən vacib keyfiyyətlər kimi qiymətləndirirlər. Bu gün qürur hissi keçiririk ki, müstəqil dövlətimizin gələcəklə bağlı Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiyası vardır. Gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır. Bu təməl Azərbaycan dövlətinin dinamik inkişafına, xalqın yaxşı yaşamasına, ölkəmizdə hüquqi, demokratik cəmiyyətin qurulmasına, Azərbaycanın sivil dövlətlər içərisində özünə layiqli yer tutmasına xidmət edir və edəcəkdir.

Bu gün Azərbaycanda iqtisadi inkişaf sürəti dünya iqtisadiyyatı üzrə olan göstəricini xeyli ötür. Bu, bizim tarixi nailiyyətimizdir. Bu inkişaf meyli uzun bir dövr üçün mütləq davam etməlidir ki, dövlətimizin iqtisadi qüdrəti daha da möhkəmlənsin, keyfiyyətli həyat səviyyəsi təmin edilsin, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatması istiqamətində cəsarətli addımlar atılsın.
Ümummilli lider Heydər Əliyevin çağdaş Azərbaycanın tarixində oynadığı rolu, Vətənin milli-mədəni mövcudluğunu, dövlətin siyasi varlığını dərin zəkası və qüdrətli əzmi ilə qoruyub saxlamaq missiyasını artıq 16 ildir ki, onun layiqli varisi Prezident İlham Əliyev inamla və

yaradıcılıqla davam etdirir. Ulu öndərin işləyib hazırladığı müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyası isə onun əzəli və əbədi azularına uyğun olaraq, ölkəmizi tərəqqiyə, xalqımızı xoş günlərə qovuşdurmuşdur.

Yaradılmış möhkəm iqtisadi təməl siyasi və sosial-mədəni proseslərə də dinamizm verir, Azərbaycanın "mənliyinin dünya miqyasında təsdiq edilməsinə imkan yaradır".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərdiyi (10 may 2004-cü il) kimi: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz artır, gücümüz artır. Bu, bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir". İqtisadi inkişaf səviyyəsi yaxın perspektivdə daha da yüksələcəkdir. İqtisadi inkişaf sürətinin dünyada analoqu olmayan səviyyəsi Azərbaycanın bir çox inkişaf parametrlərinə görə inkişaf etmiş ölkələrlə arasında olan fərqin azalmasına gətirib çıxaracaqdır. Möhkəm iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış, əhalinin sosial-rifah halının daha da yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır. Beləliklə, iqtisadi inkişafın tarixdə analoqu olmayan Azərbaycan modelinin formalaşması və inkişafı nəticəsində uzunmüddətli perspektivdə Azərbaycanın sosial-iqtisadi inkişaf trayektoriyası yüksək dərəcədə perspektivlidir.

Sürətli iqtisadi inkişaf Azərbaycanın beynəlxalq aləmdə diqqət mərkəzində olmasını təmin etmişdir. Bütün dünyanı sarsıdan qlobal böhran zamanı ölkəmizdə iqtisadi artım sürətinin 9,3% səviyyəsində olması Azərbaycanın milli iqtisadi inkişaf modelinin, onun perspektivli inkişaf trayektoriyasının uğurlu olduğunu əyani şəkildə bir daha sübut etdi. Mürəkkəb böhran dövründə Azərbaycan modelinin uğurunun sirrini cənab İlham Əliyev özü belə izah edir: istehlak qiymətlərinin aşağı salınmasının vacibliyi və inflyasiyaya nəzarət; milli bankların dəstəklənməsi də daxil olmaqla maliyyə monitorinqi, kreditlərə və faiz dərəcələrinə nəzarət; təkcə neft sektoruna deyil, real iqtisadiyyata daimi sərmayə axınının təmin edilməsi; sosial öhdəliklərin qətiyyətlə yerinə yetirilməsinə yönəldilmiş siyasət; sənaye müəssisələrinin fəaliyyət istiqamətinin daxili bazara yönəldilməsi; ərzaq təhlükəsizliyi probleminə daimi nəzarət və sair. Heç bir şübhə yoxdur ki, keçid dövrünü başa çatdırmış Azərbaycan iqtisadiyyatı bundan sonra daha böyük uğurlar qazanacaqdır.

Yeni minilliyin başlanğıcında formalaşan mürəkkəb və ziddiyyətli dünya nizamı böyük siyasət ustadının məharətlə əsaslandırdığı bu inkişaf modelinin respublikamız üçün müstəsna əhəmiyyətini tam sübuta yetirir. Respublikamızın son 17 ildə iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər də məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır. Son illərdə bu inkişaf modelinin yeni dövrün tələblərinə uyğun daha da təkmilləşdirilməsinə xidmət edən kompleks islahatlar Azərbaycanı daha da gücləndirmişdir. Bu gün dünyanın ən müxtəlif iqtisadi mərkəzləri respublikanın davamlı iqtisadi yüksəlişi timsalında XXI əsrin yeni iqtisadi fenomenini görür, Azərbaycan modelinin mahiyyətini öyrənməyə çalışırlar. Azərbaycanın dayanıqlı və sabit inkişafı üçün nəinki proqressiv proqram və konsepsiyalar mövcuddur, eyni zamanda, Ulu öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanaraq ölkəmizin intibahının təminatına çevrilmiş sosial-iqtisadi inkişaf strategiyası uğurlu nəticələr verir. Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi inkişaf istiqamətində görülənişlər bütünlüklə müstəqillik amilinin praktiki baxımdan bərqərar olmasına yönəlmişdir. Xalqın sosial sifarişi əsasında Azərbaycanda Heydər Əliyev siyasi kursunu davam etdirmək kimi çətin və məsuliyyətli bir missiyanı üzərinə götürmüş cənab İlham Əliyev öz siyasətini bu ənənələr çərçivəsində qurur. Statusundan asılı olmayaraq insanın hansı ideyanın daşıyıcısı, hansı əməlin sahibi olduğunu

müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. Cənab İlham Əliyev bütün sahələrdə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu hələ Prezident seçilməmişdən əvvəl də ulu öndərin müəllifi olduğu neft strategiyasının həyata keçirilməsinə, Milli Məclisin deputatı və Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri kimi beynəlxalq təşkilatlarla münasibətlərin inkişafına, Azərbaycan idmanının yüksəlişinə verdiyi töhfələrlə sübuta yetirmişdir. Dövlətə rəhbərlik fəaliyyətinin ötən 7 ili isə cənab İlham Əliyevin Azərbaycan xalqına, dövlətinə qazandırdığı daha böyük uğurlarla əlamətdar olmuşdur. Reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, işgüzarlığı, sadəliyi, səmimiliyi, təvazökarlığı, alicənablığı, insanlara təmənnasız münasibəti, xalqına, millətinə, Vətəninə sevgisi, nəcibliyi, ziyalılığı, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi cənab İlham Əliyevə xalqın rəğbət hissini daha da artıran ən mühüm mənəvi keyfiyyətlərdir. İntellektlə istedadın, ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvü vəhdətinə, yaradıcı sintezinə nail olmaq qabiliyyəti, Azərbaycanın dünəni, bugünü və sabahına sonsuz, sarsılmaz sədaqət – bunlar cənab İlham Əliyev şəxsiyyətini hər kəsə sevdirən cəhətlərdir. Bu səbəbdən də, cənab İlham Əliyevin pozitiv siyasi obrazının mahiyyətini ictimai rəyin adekvat münasibətində axtarmaq lazımdır. Ötən 7 ilə yaxın müddətdə Azərbaycan cəmiyyətində qəti olaraq belə rəy formalaşmışdır ki, Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi prioritetlərin varisliyini uğurla təmin etmiş alternativsiz liderdir.

Ulu öndərin qurub-yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edir, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Respublikamız ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi inkişaf kursu seçməklə, demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi nailiyyətlərə imza atır. Dövlət başçısı cənab İlham Əliyev respublikanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə prosesini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin mühüm şərti hesab edir. Cənab İlham Əliyev çıxışlarında hər zaman bildirir ki, hər hansı ölkənin inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır. Azərbaycanın bu günkü dinamik iqtisadi inkişafı isə deməyə əsas verir ki, respublikamız yaxın gələcəkdə bütün sahələrdə dünyanın qabaqcıl ölkələrindən birinə çevriləcəkdir.

## Ədəbiyyat

1. Alışanova; elmi red. Ş. M. Muradov.- B.: Çinar-Çap, 2006.- 214 s.
2. A. A. Əl-Fəlah; elmi red. A. Paşazadə; rəy. V. M. Məmmədəliyev, F. Qasımzadə,. - Bakı : Qismət, 2007. - 108 s.
3. Heydər Əliyev və mədəniyyət: Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə /layihənin rəhbəri və ön sözün müəl. Ə.Qarayev; tərt. ed. S.Məmmədəliyeva, T.Əhmədov.- Bakı: Nurlar, 2008.
4. Xələfov. A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir /Abuzər Xələfov.- Bakı: [M.F.Axundov adına Az.Milli Kitabxanası], 2009.- 185 s.
5. Xələfov. A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi /Abuzər Xələfov.- Bakı: Azərnəşr, 2006.- 312 s

**r.f.d. Mustafayeva Esmira Musaifovna**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*m_esmira@unec.edu.az*

**Faiq Nağıyev Rəfail**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*faiq534@gmail.com*

## HEYDƏR ƏLİYEVİN İNKİŞAF STRATEGİYASI

1969-cu il iyul ayının 14-də Heydər Əliyev respublikamızda rəhbər olaraq seçildi və bununla da cəmiyyətimizdə yeni bir dövr başladı. Ulu Öndər Heydər Əliyevin rəhbər olaraq seçilməsindən sonra onun əzmkar fəaliyyəti və böyük dünyagörüşü ilə Azərbaycan tez bir zamanda inkişaf etmiş respublikalar sırasına daxil oldu. Heydər Əliyevin həyata keçirdiyi islahatlar ölkəmizdə yeni yüksəlişlərə, istər iqtisadi baxımdan, istərsə də sosial baxımdan ölkədə yüksəlişlər başladı. Heydər Əliyevin bu uğurlu siyasəti indiki zamanla birlikdə həm də, gələcək həyatın müstəqilliyini də təmin edirdi.

SSRİ süqutundan sonra hər bir MDB ölkəsi kimi Azərbaycan çətin bir vəziyyətdə idi və xalq öz xilaskarı kimi Heydər Əliyevi rəhbərlikdə görmək istədi. Heydər Əliyev çətin vəziyyətdə qalan respublikanı öz müdrikliyi və zəkası ilə məhv olmadan xilas etdi və daha sonra isə məhv olma həddində olan bir respublika Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə çox böyük nailiyyətlərə imza atdı. Ölkəmiz bu gün də Heydər Əliyevin ölkəmizə bəxş etdiyi güclü təməllər sayəsində dünya ölkələri arasında öz yüksək nüfuzunu saxlayır.

Ümumilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadiyyatı qısa zamanda çox böyük səviyyələrə yüksəldi. Ulu Öndər Heydər Əliyevin rəhbərlik illərində Naxçıvanda Sumqayıtda, Gəncədə və habelə digər şəhərlərdə inşa edilən iri müəssisələr bu günki güclü sənayenin formalaşmasına ən böyük zəmin yaradan təməldir.

Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan dövlətinin böyük uğurlara nail olması üçün ən öncə iqtisadi sabitliyi təmin etməsi lazım idi. Bildiyimiz kimi 1992-1994 cü illərdə ölkədəki yüksək dərəcəli inflyasiya nəticəsində iqtisadiyyat sarsılmış və o cümlədən əhalinin istər maddi, istərsə də sosial halı get-gedə pisləşirdi. Məlumdur ki, bir ölkənin təməllərində duran ən başlıca tələb iqtisadiyyatdır, çünki ölkədəki hər bir vəziyyəti o təmin edir və buna görə də iqtisadi istilahatların sürətlənməsi lazım idi. Artıq 1994-1995-ci illərdə xarici ticarət əməlliyatlarının liberallaşdırılmasına qədəm qoyuldu [1].

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar tez bir zamanda böyük bir dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı tərəfindən iqtisadi islahatlarla bağlı proqram hazırlandı və habelə maliyyə yardımı göstərildi. Bu təşkilatlarla əməkdaşlıq ilə həyata keçirilən sabitləşdirmə proqramı öz növbəsində iqtisadiyyatın liberallaşdırılmasına dair radikal islahatlar aparıldı.

Ölkədəki iqtisadiyyatın güclənməsi öz növbəsində azad sahibkarlığın da yüksəlməsinə öz töhvəsini verirdi. Belə ki, artıq 1998-ci ildə 25 mindən çox kiçik müəssisələr özəlləşdi və bu da kiçik özəlləşmənin başa çatması demək idi. Artıq 1997-ci ildən böyük özəlləşdirməyə yəni ki, böyük özəlləşməyə aid olan müəssisə və təşkilatların, səhmdar cəmiyyətlərinə çevrilməsinə başlandı. Artıq 20-ci əsrin son illərində 750-dən çox böyük dövlət müəssisələrinin səhmdar cəmiyyətinə çevrilməsi prosesi başa çatdı [2].

Heydər Əliyevin uğurlu siyasəti nəticəsində ölkədəki iqtisadi çöküşün qarşısı alınmaqla bərabər artıq qısa bir müddətdə yəni 1996-cı ildə iqtisadiyyatda artımlar görsənməyə başlandı. Hələ 1996-cı ildə 1% səviyyələrində olan artım artıq 1 il içərisində yəni ki, 1997 ci ildə 6%-lərə qədər yüksəldildi. Sektordakı belə artım böyük bir uğur idi, çünki həmin anlarda Cənubi Asiyada və o cümlədən Rusiyada belə iqtisadi çöküm, böhran var ikən Azərbaycan iqtisadiyyatı Heydər Əliyev rəhbərliyi ilə 1998-ci ildə də durmadan yüksəlməyə davam etdi. Artıq qısa bir

müddətdə Azərbaycan SSRİ tərkibindən ayrılan ölkələr içərisində öz iqtisadiyyatı ilə liderlik edirdi.

Ölkəmiz bu gün də güclü iqtisadi təməllər əsasında öz iqtisadiyyatını durmadan inkişaf etdirir və iqtisadi cəhətdən inkişaf etmiş ölkələr içərisində zirvələrdə durur. Təbii ki, bunların hamısı bir zamanlar iqtisadi çöküş yaşayan bir ölkəni qısa müddətdə iqtisadi böhrandan çıxaran və yüksəldən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi sayəsində olmuşdur.

İnkişaf etmiş və artıq modern bir dövlət olan Azərbaycanın qarşısında iki əsas şərt dayanırdı. Bunlardan biri sosial ədalət və digəri isə sosial rifah idi. Hətta bu haqda Ümumilli Lider Heydər Əliyev demişdir ki: "Bir dövlət olaraq, hökümət olaraq biz xalqımızın, millətimizin, vətəndaşlarımızın sosial tələblərini təmin etməliyik".

Artıq 1995-1996-cı illərdə ölkədə iqtisadi çöküm dayandı və bu da özü ilə birlikdə ölkədə yüksək inkişafa gətirib çıxardı. Bu isə öz növbəsində artıq ölkədə sosial sahədə bir sıra işlər görülməsinə, habelə sosial islahatlar aparılmasının yaranmasına geniş təkan verdi. Heydər Əliyevin rəhbərliyi zamanı dövlət mülkiyyətində olan əmlakın ədalətli bölgüsünə başlandı və bununla da hər bir vətəndaşa pay verildi. Kəndlərdə yaşayan vətəndaşlara da uyğun olaraq torpaq payları verildi [3].

Ölkədə yeni pensiya sistemi yaranması üçün zəruri olan ``Azərbaycan Respublikasında pensiya islahatları Konsepsiyası`` Heydər Əliyev tərəfindən 2001-ci il 17 iyul tarixində təsdiq olundu.

Əlillik problemlərinin həlli üçün isə Ümumilli Lider Heydər Əliyev tərəfindən 14 may 1998- ci ildə ``1998-2001-ci illər üçün əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi üzrə Dövlət Proqramı`` təsdiq edildi.

Heydər Əliyevin rəhbərliyi zamanı ölkəmizdə sosial rifah, sosial ədalət, sosial müdafiə kimi anlayışlar ən əsas yeri tuturdu. Onu da qeyd etmək lazımdır ki, büdcəmizdə sosial xərclərin payı 30%-dən yuxarıdır. Heydər Əliyev rəhbərliyi zamanı əhalinin aztəminatlı ailələrinə dövlət xidmətinin artırılması, milli sərvətlərin millətin bütün təbəqələrinə mənsub olması və sosial ədalət prinsipinin qorunması bir daha Ulu Öndərin xalqını çox sevən bir lider olduğunun bariz nümunəsidir. Heydər Əliyevin siyasətində ən əsas prinsip ``dövlət xalq üçündür`` ideyasıdır.

Azərbaycanda Ulu Öndərin rəhbərliyi zamanı nəzarət sisteminin gücləndirilməsi həmişə ön planda olmuşdur. Hətta əgər biz ümumi təcrübələrə nəzər salarsaq görərik ki, şəffaflıq olan bir maliyyə sistemi həmişə şəffaflıqdan, uzaq bir maliyyə sistemindən qat-qat üstün olur və həmin maliyyə iqtisadiyyata da öz böyük təsirini göstərir. Məhz elə Heydər Əliyev siyasətində şəffaf maliyyə sisteminin yaradılması ilə ölkə iqtisadi böhrandan qısa bir müddətdə çıxmışdır.

İstər iqtisadi, istər müasir texnoloji, istərsə də digər elm sahələri üzrə inkişaf Ümumilli Lider Heydər Əliyevin ən əsas diqqət göstərdiyi sahə idi. Heydər Əliyev ölkədə elmin inkişafına böyük önəm verirdi ki, məhz Ulu Öndərin bu zəkası ilə ölkə qısa müddətdə yüksək texnologiyalara, o cümlədən iqtisadi sahədə yüksəlişlərə nail olundu.

Ulu öndər Heydər Əliyev 2002-ci ildə Azərbaycan İqtisad Universitetinin 70-illik yubileyində çıxışı zamanı ölkənin əsas təməllərinin iqtisadiyyat və elm olduğunu söyləmişdir. Ulu Öndər bu çıxışı zamanı demişdir ki, mən bu gün sizinlə iqtisadiyyatın bu günkü vəziyyəti, iqtisadçının əsas vəzifəsi, iqtisad elminə necə töfhələr verilməsi və Universitetin öz üzərinə düşən tələbləri haqqında danışıram. İqtisadiyyat ilə bağlı olan elmlər dəyişkəndir, məhz buna uyğun kadrlar hazırlanmalıdırlar.

Ümumilli lider Azərbaycan Dövlət İqtisad Universitetinin bu yüksək səviyyəli inkişafını və müasirləşməsini xüsusi qiymətləndirərək belə demişdir : `` bu gün mən zaldakı tədbir iştirakçıları ilə görüşəndə, böyük bir qürur hissi keçirdim. Mən fəxr edirəm ki, Azərbaycanın belə savadlı və təhsilə həvəsli gəncləri var, o cümlədən universitetin elmə böyük töfhələr vermiş professorları var. Elm ən böyük varlıqdır. Bundan sonra da belə davam edin``. Ulu Öndərin bu sözlərindən də, göründüyü kimi o, elmə böyük üstünlük verirdi. Ulu Öndər Heydər

Əliyevdən öncə müasirlik və inkişaf olmayan bir sıra universitetlər Ulu Öndərin rəhbərlik illərində qısa müddətdə yüksək potensiallı və o cümlədən savadlı kadrlarla, ən son elmə yararlı, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmuşdur. Məhz bununla da görürük ki, Ulu Öndər elmə verdiyi tövhələrin və yüksək səviyyəli qayğıların nəticəsidir ki, bu gün də Azərbaycan Universitetlərində təhsil yüksək səviyyədə və müasir texnologiyalara cavab verən avadanlıqlar ilə təmin olunmuşdur.

Belə ki, 1994-cü il 9 avqust tarixində Heydər Əliyev tərəfindən ``Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquqi qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında`` fərman imzalandı. Daha sonra isə ölkədəki şəffaflığı daha çox gücləndirmək məqsədi ilə Heydər Əliyev tərəfindən 1996-cı il 17 iyun tarixində ``İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlanmaların qadağan edilməsi `` barədə fərman imzalandı. Elə həmin zamanlarda Beynəlxalq şərtlərə uyğun olaraq ölkədə audit sistemi üçün mühüm bir qərarlardan birisi olan ``Auditor xidməti haqqında`` qanun təsdiq edildi.

Belə bir şəffaf audit sisteminin yaradılması və o cümlədən Azərbaycanda auditor xidmətini dünya təcrübəsinə əsasən müasir bir şəkildə təşkil edilməsi və onun inkişafını təmin edilməsi, bir daha ölkəmizin Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə böyük uğurlara imza atdığının bariz nümunəsidir.

Müasir dövrdə audit və maliyyə şəffaflığına kölgə düşməsi, inkişafda olan ölkələrə, hətta inkişaf etmiş ölkələrin belə iqtisadiyyatına qeyri-şəffaflıq böyük zərbələr endirir və iqtisadiyyatda geriləmələrə səbəb olur. Ancaq Azərbaycan dövlətinin uğurlu siyasəti və şəffaflığı maksimum dərəcədə təmin etməsinin nəticəsidir ki, Azərbaycan iqtisadiyyatı durmadan inkişaf edir.

Hər kəsə bəllidir ki, xalqımız 1992-ci illərdə iqtisadi böhranla üz-üzə qalmışdı və istehsal olunan məhsullar standartlara və tələblərə cavab verə bilmədiyi üçün anbarlarda yararsız vəziyyətdə qalırdılar, məhsullarımız isə çətin vəziyyətlə əlaqədar olaraq xarici bazarlara ya çıxarıla bilinmirdi, ya da çox böyük əziyyətlə çıxarılırdı. Bunun səbəbi həm valyuta yetməməzliyindən, həm də yollardakı təhlükəli vəziyyətdən qaynaqlanırdı [4].

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə ölkədə yeni bir dövr başladı. Heydər Əliyev öz uzaqgörən siyasəti və zəkası ilə təbii olaraq ilk öncə Azərbaycanın milli iqtisadiyyatını dirçəltməyə cəhd göstərdi və bunu qısa bir müddətdə bacardı.

Ulu öndər Heydər Əliyevin gəlişi ilə ölkədə daxili çəkişmələrə son qoyuldu, sabitlik təmin olundu və bu da öz növbəsində sosial iqtisadi vəziyyətin düzəlməsinə təkan verdi. Ölkədə hər kəsin istədiyi bazar iqtisadiyyatına keçidi, məhsulların xaricə açılmasını təmin etmək və bununla qlobal iqtisadi sistemə daxil olmaq idi.

Belə ki, iqtisadi modelin çox mükəmməl bir forması Azərbaycan modeli formalaşdırıldı və inkişaf etdirildi. Heydər Əliyevin rəhbərliyi illərində artıq Azərbaycan inzibati-amirlik sistemini ləğv edərək bazar iqtisadiyyatına əsasən öz iqtisadiyyatını davam etdirdi. İqtisadiyyatın və insan haqlarının yüksək dərəcədə inkişafı ilə bağlı olaraq ölkədə müstəqillik, demokratiya və hüququn mükəmməl təməlləri qoyuldu. Məhsulları anbarlarda yararsız qalan halda olan ölkə Ulu Öndər Heydər Əliyevin mükəmməl siyasəti nəticəsində, artıq o məhsulları inkişaf ettirib yararlı hala salmaqla qalmadı, hətta artıq bu məhsullar xaricə çıxarılmağa başlandı. Azərbaycan artıq idxal edən deyil ixrac edən ölkə olmağa başladı. Həmçinin, artıq Azərbaycan təbii qaz idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdi. Bu məhsulların ixracı və bazara çıxarılmasının nəticəsi idi ki, Azərbaycan çox qısa bir müddətdə dünyanın güclü ölkələri sırasına daxil oldu. Həmçinin ölkənin mükəmməl bir geosiyasi vəziyyəti onun regionda lider, dünyada isə qabaqcıl ölkələr içərisinə daxil olmağa zəmin yaratdı.

Belə bir böhran anında ölkəmizin anidən belə yüksəlməsinin sirrini isə cənab İlham Əliyev belə izah etmişdi: ``istehlak qiymətlərinin düşürülməsi vacibliyi və inflyasiyaya nəzarət edilməsi, milli bankların dəstəklənməsi ilə monitorinq, kreditə və faiz dərəcələrinə nəzarət, bir

tək neft sektoruna deyil, həmçinin qeyri neft sektoruna da sərmayənin yüksək olması, ərzaq təhlükəsizliyinə maksimum dərəcədə nəzarət və s.``

Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanda sahibkarlara da yüksək dəstək verilirdi. Bildiyimiz kimi cənab İlham Əliyevin sərəncamı ilə 2016-cı ildə 25 aprel tarixi ``Sahibkarlar günü`` kimi qeyd olunmağa başlandı. Bu da Azərbaycanda sahibkarlara dövlətimizin göstərdiyi qayğının bariz nümunəsidir. Azərbaycandakı bu mükəmməl iqtisadi təməlləri isə Ulu Öndər Heydər Əliyev yaratmışdı.

Azərbaycanda sahibkarların inkişafıda məhz Heydər Əliyevin sayəsində olmuşdur. Belə ki, Ulu öndər Heydər Əliyevin 1993-cü ildə təsdiqlədiyi “Azərbaycanda sahibkarlığın inkişafı” haqqında qanunu göstərmək olar. Sahibkarlıq üzrə ölkəmizdə olan islahatlar, kiçik və orta sahibkarların sayı artdı, daha sonra isə onların xarici iqtisadi fəaliyyəti gücləndirildi və bununla da sahibkarlığın güclənmə təməlləri qoyuldu.

Ulu öndər Heydər Əliyev sahibkarlığın güclənməsi üçün onlara hər bir köməyi edir və bu anlayışın daha sürətlə irəliləməsi üçün maneələri aradan qaldırmaq üçün yerli və digər xarici sahibkarlarla görüşlər həyata keçirirdi. Ortada olan maneə və problemlərin düzəldilməsi üçün isə qəti tədbirlər görülürdü. Ulu Öndərin bu prinsiplərini bu gün də cənab İlham Əliyev yüksək bir şəkildə davam etdirir. Cənab prezident İlham Əliyev bu məsələni hər zaman nəzarətdə saxlamaqla yanaşı, korrupsiya və bürokratiyaya qarşı mübarizədə müasir üsullardan istifadə edir. Bunun nəticəsidir ki, Azərbaycanda korrupsiyanın qarşısı tamamilə alınmışdır.

Əgər biz son 200-300 ildəki dünyəvi inkişafa nəzər yetirsək və bu inkişafların hansı aspektlərdən illəri gəldiyinə nəzər yetirsək ən başda elmin olduğunu şübhəsiz ki görəcəyik. Belə ki, tarix boyu yaşamış dahi və böyük şəxsiyyətlərin də indiyə kimi adlarını uca tutan məhz onların savadı dünyagörüşü və elmi bilikləri idi.

Azərbaycanın qurucusu, Ümumilli lider Heydər Əliyevin öz yüksək zəkası, elmi, dünyagörüşü də məhz Azərbaycanda elmi tərəqqinin qısa bir müddətdə mükəmməl bir vəziyyətə gəlməsinə zəmin yaratdı. Elm üzrə əldə olunan nəaliyyətlər məhz elə Ulu öndərimizin daim nəzarətində olmuş və onun rəhbərliyi illərində ölkədə elm üzrə çox böyük irəliləyişlər olmuşdur. Ulu öndər hər bir zaman elm adamlarına xüsusi qayğı göstərmiş və onlara həmişə xüsusi dəyər vermişdir. Məhz elə bunlar idi ki, Ulu öndərin rəhbərliyi illərində Azərbaycan artıq dünyada qısa bir müddətdə elm üzrə inkişaf edən ölkələr içərisində ən qabaqcıl ölkələrdən birisinə çevrilmişdi. Azərbaycan Elmlər Akademiyasınında ən böyük inkişaf dövrü məhz elə Ümumilli lider Heydər Əliyevin rəhbərlik illərində olmuşdur. 70-ci illərdə Ulu öndərin rəhbərliyi illərində Elmlər Akademiyası böyük bir şöhrətə malik oldu və o, öz gücünü daha da artırmağa nail oldu.

Ümumilli lider 1969-cu ildə avqust plenumu zamanı məhz elmlə bağlı öz düşüncələrini belə ifadə etmişdir: “ Elmi idarələrdə lazımi dərəcədə inkişaf yoxdur, Elmlər akademiyası isə elmin inkişafı uğrunda və tamamlanmış işlərin istehsalatda tətbiqinə kifayət qədər səy göstərmirlər. Dissertanturada və Aspirantura da həmçinin vəziyyət ürək açıcı deyildir ”. Həmçinin Ulu öndər xüsusilə elm adamlarına olan diqqət və qayğını belə ifadə etmişdir: “Elə olmalıdır ki, elmə yalnız elm üçün həvəsi olan və onu inkişaf etdirmə potensialında olan insanlar gəlməlidirlər” [5].

Belə ki, Ulu öndərin rəhbərliyi illərində o, elmə daha üstünlük verərək, Azərbaycanda yeni elmi-tədqiqat institutları tərtib olundu, Azərbaycan Milli Elmlər akademiyasını elmi bazası gücləndirildi, tərtib olunan elmi tədqiqat institutları üçün isə yeni korpuslar tikilir, elmin tətbiq olunduğu sahələr daha da genişləndirilirdi və ən əsası isə Azərbaycan elminin dünyada tanınar hala gəlməsinə səy göstərirdi.

Ulu öndərin rəhbərliyi illərində ölkədə kimya, neft-kimya və neft emalı üzrə bir çox elmi müəssisələrə böyük sərmayələr qoyulmuş və inkişafı təmin edilmişdir. Texnologiyadan uzaq olan bir elmə, bir tək yeniliklər gətirmək deyil, hətta həmin müəssisələr Ulu Öndərin rəhbərliyi ilə ən son müasir texnikalarla təchiz olunmuşdur. Ulu Öndərin üstün zəkası və dünyagörüşü ilə

Azərbaycanda bir çox neft kimya, maşinqayırma, cihazqayırma müəssisələri yaradıldı və onların ən son texnologiya ilə təmin olunmaları göstərişini verdi.

Məhz elə Ulu Öndərin bu böyük əzmkarlıqları idi ki, illər öncə təməli qoyulan bu güclü elmi marağın gücü ölkəmizdə hələdə davam etməkdədir. Ulu Öndərin uzaq dünyagörüşü sayəsində bu gün də ölkəmizdə elmə olan maraq çox yüksəkdir.

Azərbaycanın xarici siyasətinə nəzər yetirsək əgər, burda əsas yerlərdən birisini məhz elə illər boyu müttəfiqimiz olan qonşumuz Rusiyadır. Azərbaycan bir çox sürtkü yağları, yüksək müasir standartlara cavab verən neft avadanlıqları və bir çox başqa yüngül sənayedə istifadə olunan əşyalar istehsal olunurdu. Rusiyada isə Azərbaycanın bir çox kənd təsərrüfatı məhsullarına böyük dərəcədə tələbat var idi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Rusiya ilə Azərbaycan arasında olan bir çox əlaqələrə inkişaf mərhələsinə təkan verildi. Rusiya prezidentinin Azərbaycana ilk rəsmi səfəri ilə iki ölkə arasındaki münasibətlərə başlanıldı. Belə ki, həmin vaxtlarda Bakı Bəyannaməsi imzalandı. Ulu Öndər Heydər Əliyevin Rusiyaya səfəri isə iki ölkə arasındaki, münasibətlərdə yeni mərhələyə qədəm qoyuldu.

Diplomatik əlaqələrin qurulmasında tarixə nəzər salarsaq əgər bu iki xalqın tarixi mədəni sıx bağlılığı da nəzərə alınmalıdır. Azərbaycanda milli azlıqlara qarşı tolerantlıq, insan hüquqlarının yüksək səviyyədə olması və bu kimi digər müsbət hallar məhz Rusiya ilə Azərbaycan arasındaki əlaqəyə daha da müsbət impulslar vermişdir. İki ölkə və xalq arasındaki mədəni və humanitar əlaqələr o cümlədən, əldə edilmiş bir çox nailiyyətlər iqtisadi sahədə də öz sözünü demişdir.

Rusiyanın inkişafı və o cümlədən, Azərbaycanın bölgədə lider bir ölkə olması məhz iki ölkə arasındaki əlaqələrin artmasına və güclənməsinə şərait yaradır. 1994-2012-ci illərdə iki ölkə arasında bir çox mədəni, iqtisadi və fərqli aspektlər üzrə 30 və daha çox saziş imzalanmışdır.

Rusiya ilə ölkəmiz arasındakı əlaqələr son 9 ildə hər bir sahədə inkişaf etmişdir. İki ölkə arasındaki əlaqələrə nəzər yetirsək əgər gələcəkdə daha da böyük uğurların olacağını deyə bilərik.

Ulu Öndər Heydər Əliyev 27 iyul-5 avqust 1997-ci illər ərzində Amerikada ilk rəsmi səfərdə olmuşdur. Heydər Əliyev bu səfər ərzində New York, Chicago və Huston şəhərlərində olmuşdur. Heydər Əliyev bu səfəri ərzində 100-dən çox danışıqlar aparmışdır. Məhz Ulu Öndərin bu zəkası və bacarığı sayəsində iki dövlət arasında istər siyasi, istərsə də iqtisadi baxımdan əlaqələr qurulmuşdur [6].

28 iyul 1997-ci ildə Ulu Öndər Heydər Əliyev BP Amerika şirkətinin rəhbərləri ilə görüş keçirmişdir. Əsrin Müqaviləsində əsas yerlərdən birini tutan bu şirkətin Azərbaycandakı işləri müzakirə olunmuşdur.

Heydər Əliyev görüşləri zamanı iqtisadi inkişaf ilə bağlı bir çox danışıqlar aparmışdır. Ulu Öndər Azərbaycan ilə əməkdaşlıq etmək istəyən bir çox fərqli dairələrin nümayəndələrinin suallarını cavablandırmışdır. Elə həmin gün Ulu Öndər humanitar təşkilat nümayəndələri ilə də görüşlər keçirmişdir. Bu təşkilatlara Beynəlxalq Yardım Komitəsi, Beynəlxalq Bərpa Mərkəzi, YUNİCEF aiddir.

Ulu Öndərin bu görüşləri Amerika ilə olan münasiblətləri daha da genişlətmiş, iki ölkə arasındakı iqtisadi humanitar əlaqələrin inkişafına böyük təkan vermişdir. Məhz elə Ulu Öndərin böyük zəkası və dünyagörüşü sayəsində bu əlaqələr inkişaf etdirilmiş və ölkəmiz müasirliyə doğru Ulu Öndərin rəhbərliyi ilə böyük sürətlə irəliləmişdir.

1992-ci ildə Maastrich sazişi avropalılar üçün yeni bir inkişafa doğru atılmış ilk addım idi. Bu anlaşmadan sonra Avropa böyük inkişaf mərhələsinə qədəm qoydu. Buna paralel olaraq Avropada bu saziş rol oynadığı kimi, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan hakimiyətinə qayıdışı bizim üçün eyni əhəmiyyət kəsb edirdi.

1996-cı ildə Avropa İttifaqı xüsusi dəvətli dövlət statusu almışdır. Heydər Əliyevin 1996-cı ildə imzaladığı sərəncam "Avropa ittifaqı və Azərbaycan Respublikası arasında əməkdaşlıq

proqramının həyata keçirilməsi” haqqında idi. Heydər Əliyev eyni zamanda Avropa İttifaqının hazırladığı TƏS (Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi) imzaladı və bununla da Aİ ilə aradakı əməkdaşlıq rəsmi olaraq başladı.

TƏS 2000-ci illərin əvvəllərində siyasi iqtisadi və mədəni baxımdan inkişaf üçün möhkəm əlaqənin təməlini qoymuşdur. Azərbaycan və Avropa İttifaqı arasındakı münasibətlər “MDB ölkələrinə texniki yardım”, “Yeni İpək Yolu” kimi adlanan “Avropa-Qafqaz-Asiya” nəqliyyat dəhlizi, “humanitar yardım” və s.

Heydər Əliyev dönəmində Türkiyə Azərbaycan arasındakı əlaqələr daha sıx olmuşdur. Çünki iki fərqli dövlət olmasına rəğmən hər iki millət türk idi. Heydər Əliyev dəfələrlə öz çıxışlarında vurğulamışdır ki, Azərbaycan ilə Türkiyə qardaş ölkələrdir. İllərlə sovet tərkibində qalmasına baxmayaraq yenə də azərbaycanlılar öz dinini, irqini unutmamışlardır. Azərbaycanlılar türklərdir. Həmçinin, Ulu Öndər Heydər Əliyev vurğulayırdı ki, Azərbaycan çətin bir zamanda ikən öz müstəqilliyini təzə-təzə qazandığı illərdə bizim müstəqilliyimizi tanıyan ilk ölkə Türkiyə oldu. Məhz elə bu özü böyük bir dəstək idi, çünki Türkiyə kimi böyük bir ölkənin müstəqilliyimizi tanıması bizi dünyaya tanıtdı və zaman keçdikdə qısa müddətdə dünyanın bütün ölkələri Azərbaycanı tanımağa başladılar.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi əlaqələr də sıx inkişaf edirdi. Belə ki, 1994-cü il 20 sentyabrda imzalanan Əsrin müqaviləsində Türk petrolları şirkətinin digər ölkələr içərisində təmsil olunması məhz iki ölkə arasındaki sıx iqtisadi əməkdaşlıqın bariz göstəricisi idi.

Azərbaycanın neft-qaz ilə bağlı 4 müqaviləsində Türkiyənin də payı vardır. Bunlar adları aşağıda qeyd olunanlardır:

1) Bakı-Tbilisi-Ceyhan – 6.53%
2) Azəri-Çıraq-Günəşli – 6.75%
3) Şahdəniz – 9%
4) Kürdaşı – 5%

1999-cu ildə Şahdəniz qaz-kondestad yatağının kəşfi Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrin güclənməsinə böyük təkan verdi. Ümumilli Lider Heydər Əliyevin 2001-ci il mart ayının 12-də Türkiyəyə səfəri zamanı “Azərbaycan təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın alışı və satışı haqqında müqavilə” imzalandı.

## Ədəbiyyat

1. Əliyev Q. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. Bakı: Şəms, 2006, -520 s. :rəngli, foto, port.
2. Əliyev T. Azərbaycanı dünyaya tanıdan Böyük İnsan : Heydər Əliyev-90. –Bakı: Oğuz Çap, 2013, -226 s., foto, rəngli foto.
3. Heydər Əliyev mədəni irsimizin keşiyində. 1 kitab, -Turkiye: Nurol printing &Packaging industry inc.. 2001, -439 s., :rəngli foto, -Şəxslərin siyahısı: s. 432-438,
4. Mirələmov H. Həqiqət: Publisistik düşüncələr. –Bakı: Azərbaycan, 2003, -448 s. rəngli foto.
5. Mirzəzadə R. Azərbaycanı dünyaya tanıdan insan. –Bakı : Göytürk, 1998. -335 s. : rəngli şəkil.
6. Müstəqilliyimizin memarı. I kitab, -Bakı : Yazıçı, 2010, - 296 s.

**Doktorant Anar Abbas oğlu Zeynalov**
*Azərbaycan Dövlət İqtisad Universiteti, "İqtisadi nəzəriyyə" kafedrası,*
*E-mail:anar.zeynal@yahoo.com*

## POST-NEFT MƏRHƏLƏSİNDƏ AZƏRBAYCANDA İNNOVASİYA ƏSASLI İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ.

**Xülasə:** Tədqiqatın məqsədi sürətlə qloballaşan dünyada iqtisadi inkişafın təmin olunmasında və rəqabətə dayanıqlı sistemin formalaşmasında yaxından iştirak edən innovasiya yönümlü qeyri-neft sektoru fəaliyyətinin dinamikasını araşdırmaq və Azərbaycanda innovativ fəaliyyətin cari vəziyyətinin təhlili, dünyada və Azərbaycanda innovasiya yönümlü sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasının iqtisadiyyata verdiyi töhfələrin müəyyənləşdirilməsidir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - tədqiqatda verilmiş materiallardan və əldə olunmuş nəticələrdən innovasiya əsaslı iqtisadi inkişafın formalaşdırılması istiqamətində problemlərin həlli üzrə kompleks və sistemli tədbirlərin, konseptual yanaşmaların hazırlanmasında istifadə oluna bilər.

Tədqiqatın nəticəsi - aparılan bütün araşdırmalarda innovasiya yönümlü fəaliyyətin stimullaşdırılması və bu istiqamətdə görülən işlərin iqtisadiyyata təsir etdiyi vurğulanmaqdadır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - ondan ibarətdir ki, Azərbaycanda iqtisadi inkişafın istiqamətlərinin konseptual çərçivəsi hazırlanmışdır. Bu məqsədlə, innovasiya yönümlü qeyri-neft sektoru istiqamətində aparılan islahatların ölkə iqtisadiyyatına təsirləri ortaya qoyulmuşdur. Aparılan uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində Azərbaycanda dayanıqlı iqtisadi inkişaf və makroiqtisadi sabitlik təmin edilmişdir. İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi və strateji valyuta ehtiyatlarından səmərəli istifadəsinin təmin edilməsinin təsiri araşdırılmışdır.

**Açar sözlər:** Azərbaycan iqtisadiyyatı, innovasiya, iqtisadi inkişaf, innovativ inkişaf, qlobal iqtisadiyyat .

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ОБЕСПЕЧЕНИЯ ИННОВАЦИОННОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ НА ПОСТ-НЕФТЬ.

**Резюме:** Цель исследования - изучить динамику инновационного не нефтяного сектора, который тесно связан с обеспечением экономического развития и формирования конкурентоспособной системы в быстро глобализирующемся мире, и проанализировать текущее состояние инноваций в Азербайджане.

Важность исследования - материалы, представленные в исследовании, и полученные результаты могут быть использованы при разработке комплексных и систематических мероприятий, концептуальных подходов к решению проблем формирования инновационного экономического развития.

Результат исследования - все исследования подчеркивают стимулирование инновационно ориентированной деятельности, а работа, проделанная в этом направлении, влияет на экономику.

Оригинальность и научная новизна исследования заключается в том, что в Азербайджане разработана концептуальная основа экономического развития. С этой целью было выявлено влияние инновационных реформ в ненефтяном секторе на экономику страны. В результате успешной стратегии социально-экономического развития в Азербайджане были обеспечены устойчивое экономическое развитие и макроэкономическая стабильность. Было изучено влияние диверсификации экономики, ускорения развития ненефтяного сектора и обеспечения эффективного использования стратегических валютных резервов.

**Ключевые слова:** экономика Азербайджана, инновации, экономическое развитие, инновационное развитие, мировая экономика.

## MAIN DIRECTIONS OF PROVIDING INNOVATION-BASED ECONOMIC DEVELOPMENT IN AZERBAIJAN AT THE POST-OIL STAGE.

**Abstract:** The purpose of the study is to study the dynamics of innovation-oriented non-oil sector, which is closely involved in ensuring economic development and the formation of a competitive system in a rapidly globalizing world, and to analyze the current state of innovation in Azerbaijan.

Importance of the research - the materials provided in the research and the results obtained can be used in the development of complex and systematic measures, conceptual approaches to solving problems in the formation of innovation-based economic development.

The result of the study - all the research emphasizes the stimulation of innovation-oriented activities and the work done in this direction affects the economy.

The originality and scientific novelty of the research is that a conceptual framework for economic development in Azerbaijan has been developed. To this end, the impact of innovation-oriented reforms in the non-oil sector on the country's economy has been identified. As a result of the successful socio-economic development strategy, sustainable economic development and macroeconomic stability have been ensured in Azerbaijan. The impact of economic diversification, accelerating the development of the non-oil sector and ensuring the efficient use of strategic foreign exchange reserves was studied.

**Keywords:** Azerbaijani economy, innovation, economic development, innovative development, global economy.

### Giriş

Müstəqilliyini yeni əldə etməsinə baxmayaraq, Azərbaycanın iqtisadi göstəriciləri ciddi artımla müşahidə olunur. Ölkə iqtisadiyyatının əsas məqsədi qlobal iqtisadi bazara inteqrasiya olunmağı təşkil edir. Bu istiqamətdə əsas prioritet hədəflər iqtisadiyyatın şaxələndirilməsi, birbaşa xarici investisiyaların cəlb edilməsi və müsbət artımın qorunmasıdır. İqtisadi vəziyyətlə bağlı uğurlu inkişafın olduğunu demək mümkündür. Ölkədə iqtisadi islahatların aparılması istiqamətində gərgin mübarizənin nəticəsi olaraq daxili iqtisadi şaxələndirmədə ciddi inkişaf vardır. Son on ildə kənd təsərrüfatı, informasiya və rabitə texnologiyaları və turizm geniş inkişaf etmişdir. Dünya Bankının məlumatına əsasən, Azərbaycan, qlobal iqtisadi islahatçıların ilk onluğuna daxil edilmişdir. 2007 və 2008-ci illərdə başlanılan və son illərdə şaxələnən iqtisadi islahatlar böyük uğur qazandı. Azərbaycan iqtisadiyyatı ilk illərdə əsasən enerji sektorunun üzərində qurulsa da, sonradan iqtisadi islahatlar digər sektorların inkişafına imkan verdi [1].

Müstəqillik dövründə neft sektorunda aparılan uğurlu layihələr nəticəsində iqtisadiyyata digər sferanın, qeyri-neft sektoru əsaslı yeni iş imkanları yaradılmasına kifayət qədər köməklik etdi. Statistik məlumata əsasən 2001-ci ildə 94 min yeni iş yeri yaradılmışdır. 2011-ci ildə ölkədə yoxsulluq səviyyəsi 7.6 faizə enmişdir. Eyni zamanda, regional iqtisadi inkişaf da ölkədə aparılan iqtisadi islahatların tərkib hissəsi olaraq prioritet təşkil etmişdir. Milli iqtisadi göstəriciləri artırmaq yetərli deyil. Qeyri-neft sektoru ilə yanaşı, regional iqtisadi inkişafa da ehtiyac var. Prezidentin xüsusi diqqəti nəticəsində 2011-ci ilin hesabat dövründə regionların dayanıqlı iqtisadi inkişafı təmin edildi və makroiqtisadi göstəricilər daha da yaxşılaşdı. Beləliklə, 2019-cu ildə ÜDM 2,2% artaraq əhalinin hər nəfərinə düşən ÜDM 8247,0 manat olmuşdur.

Azərbaycan iqtisadiyyatı haqqında müxtəlif mənbələrdə oxşar ifadələr qeyd olunur. İrs Fondunun (Index of Economic Freedom of The Heritage Foundation) 2014-cü il iqtisadi azadlıq indeksinə görə, Azərbaycan iqtisadiyyatında böyük və stabil inkişaf tendensiyası mövcuddur [2].

Biznes mühitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin nəticəsində son dövrlərdə çox böyük inkişaf tendensiyası qazanılmışdır. Bu səbəblərdən də Azərbaycan mühüm qlobal

iqtisadi islahatçı ölkə kimi tanınmağa başlanılmışdır. Ətraf mühitin mühafizəsi ilə əlaqəli islahatlar, biznesə başlama asanlığı, əmlakın qeydiyyatı, işçilərin işə qəbulu və hüquqlarının qorunması və investorların müdafiəsi Azərbaycanın inkişafının ən vacib sahələrindən biridir.

Aparılan uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində Azərbaycanda dayanıqlı iqtisadi inkişaf və makroiqtisadi sabitlik təmin edilmişdir. Belə ki, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı sürətləndirilmiş və strateji valyuta ehtiyatlarından səmərəli istifadə təmin edilmişdir. Bu siyasət növbəti illər üçün dayanıqlı inkişafın təmin edilməsi məqsədi ilə möhkəm zəmin yaratmaqla bərabər, Azərbaycan iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasının sürətlənməsinə və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına imkan verir. Müstəqilliyini yeni qazanmış Azərbaycanda yeni inteqrasiya olunmuş iqtisadi sistemin qurulmasına və köklü islahatların aparılması vacib vəzifələrdən biri oldu. Müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatı ciddi makroiqtisadi sabitlik, enerji, qida və ekoloji təhlükəsizliklə üzləşdi və növbəti illərdə aparılan sosial-iqtisadi siyasət Azərbaycanın inkişaf modelinin böyük uğurlara imza atdığını və uğurlu yüksəlişə səbəb olduğunu göstərdi.

İnkişafın hazırkı mərhələsində sənaye strukturunda zəruri dəyişikliklər iqtisadi strategiyanın vacib hissəsidir. İstehsalın səmərəliliyi və quruluşunu yaxşılaşdırmaq probleminin əhəmiyyəti artır. Hər bir sektorun öz quruluşu, iqtisadi və texniki xüsusiyyətləri və rəqabət qabiliyyətinin böyüməsinin mənbəyidir. Bu baxımdan ölkəmizdə aparılan iqtisadi islahatların keyfiyyəti bu gələcək proseslərin müxtəlif iqtisadi cərəyanlarla yaxşılaşdırılması və müəyyən nəticələr çıxarmaq üçün vacib şərtdir.

Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın və cəmiyyətin idarə edilməsində dövlət siyasəti vasitəsi ilə əldə edilə bilən geniş funksiyalar mövcuddur. Bura mülkiyyət hüquqlarının qorunması, pul dövriyyəsi, valyuta dövriyyəsinin kütləsi və sürətinin tənzimlənməsi, məzənnə, kredit münasibətləri, maliyyə siyasəti və büdcə sektorunun tənzimlənməsi, gəlirlərin yenidən bölüşdürülməsi, ictimai məhsul və xidmətlərin istehsalı, antiinhisar tənzimlənməsi və rəqabətin inkişafı, kiçik və orta sahibkarlığa yardım, rəqabət qabiliyyətinin qorunması funksiyaları daxildir. İnkişaf etmiş ölkələrin təcrübəsində qeyd olunan funksiyaların zəruriliyi daha çox diqqət çəkən məqamlardır.

**Azərbaycanda iqtisadi innovasiya strategiyaları.**

Son dövrdə inkişaf etmiş ölkələrin apardıqları innovasiya siyasətlərində çox böyük dəyişikliklər həyata keçirilir. Dəyişikliyin əsas səbəbi yalnız qlobal maliyyə və iqtisadi böhranla əlaqəli deyil, eyni zamanda, yeni əsrdə elm və texnologiya sahəsində sürətli inkişaf ilə əlaqəli olan informasiya və kommunikasiya, nano və bio texnologiyalar (Nanotechnology, Biotechnology, İnformation technology, and Cognitive Science) ilə sıx əlaqəlidir.

Bu istiqamətdə Azərbaycanda iqtisadiyyatın əsasını təşkil edən istehsal və xidməti sahələrin innovasiya yönümlü fəaliyyəti canlanmağa başlamışdır. Bura turizm, tikinti, kənd təsərrüfatı, nəqliyyat, rabitə və digər sahələri qeyd etmək mümkündür. Qeyri-neft sektorunda iqtisadiyyatın ən önəmli sahələrindən biri kənd təsərrüfatı sahəsidir. Son illərdə innovasiya yönümlü aqrar sektora inkişafı, elm və texnoloji yeniliklərin tətbiq olunması bu sektorda intibah dövrünün başlanğıcından xəbər verir. Kənd təsərrüfatı sahəsində elektron informasiya bazasının yaradılması, innovativ texnologiyadan istifadə son nəticədə ölkədə məhsuldarlığın artmasına və əhalinin sosial-iqtisadi problemlərinin həllinə məqsədlənmişdir.

Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdə iqtisadiyyatı elm, təhsil, səhiyyə, tikinti, nəqliyyat, rabitə və sosial infrastruktur, kənd təsərrüfatı istehsal infrastrukturu da daxil olmaqla sənaye istehsalı və qeyri-istehsal sahələri kimi komplekslərdən ibarət idi [3]. Müstəqilliyin ilk illərində ölkədə aparılan uğurlu neft-qaz siyasəti nəticəsində dünyanın iri şirkətləri ilə bağlanan müqavilələr sayəsində istehsal olunan neftin müasir üsullarla çıxarılması və Azərbaycan neft və qazının dünya bazarına çıxışı təmin edilmişdir. Bundan sonra ölkəyə gələn gəlirlərin düzgün istiqamətə yönləndirilməsi Azərbaycanın ikinci uğuru hesab etmək olar.

Bu kontekstdə, dövlətin prioritet vəzifəsi iqtisadiyyatı şaxələndirmək, ixrac yönümlü iqtisadiyyatı formalaşdırmaq, ictimai rifahı artırmaq, ümumi ictimai səmərəliliyin artırılması kimi elmi və texnoloji tərəqqinin sürətlənməsini təşviq edən müasir sənaye istehsal üsulu yaratmaqdır. İqtisadiyyatın şaxələndirilməsinin və sektordakı struktur dəyişikliklərinin əsas məqsədi və nəticəsi tələb səviyyəsinin artırılması olmalıdır. Bu məqsədlər kənd təsərrüfatının məhsuldarlığını artırmaq və əmək məhsuldarlığını artırmaq üçün bütün səylərin əsasını təşkil etməlidir.

İnkişaf tendensiyasına uyğun olaraq, iqtisadi siyasətin sosial ölçüsünün gücləndirilməsi, sosial rifahın yüksəldilməsi hökumətin iqtisadi siyasətində enerji sektorunun sürətli inkişafı nəticəsində yaranan ehtiyatların idarə edilməsinə səbəb oldu.

Azərbaycan hökumətinin beynəlxalq təşkilatlarla apardığı danışıqların və gəlinən nəticənin əsas məqsədlərindən biri yeni orta müddətli fəaliyyət proqramı ilə rifah səviyyəsinin artırılması idi. Bu səbəbdən, qeyri-neft sektorunun inkişafı bu mərhələdə həyata keçiriləcək iqtisadi siyasətin məqsədi olaraq təyin edilmişdir.

İqtisadi gücünü sürətlə artırmaq məqsədi ilə ölkədəki təbii ehtiyatların aktiv istehsal gücünü təmin etmək, Xəzərin neft və təbii qaz ehtiyatlarını bu istiqamətdə yönləndirmək, iqtisadiyyatın kompleks inkişafını təmin etmək, ölkənin şərqlə qərb arasında ticarət yolu üzərində yerləşməsi səbəbindən nəqliyyat potensialını və səmərəliliyini artırmaq, insan resurslarında səmərəliliyi artırmaq kimi problemlərin həlli istiqamətində ciddi adımlar atılmışdır. 1994-cü ildən başlayan iqtisadi inkişaf strategiyası 20019-cu ildə də davam etdirilmişdir. Əvvəlki illərlə müqaisədə 2019-cu ildə ümumi daxili məhsul 2,2 faiz artaraq 81681,0 milyon manata çatmışdır. 2019-cu ildə əhalinin hər nəfərinə düşən ÜDM 8247,0 manat olmuşdur.

2004-cü il fevralın 11-də Prezident İlham Əliyev Azərbaycanın regionlarının 2004-2008-ci illər arasında sosial-iqtisadi inkişafı ilə bağlı "Dövlət Proqramı" nı təsdiqlədi. Bu proqram Azərbaycanda bölgələrin iqtisadi potensialını və təbii sərvətlərinin səmərəli istehsalını və istifadəsini təmin edərək ölkədə rifah səviyyəsini yüksəltmək üçün qeyri-ərzaq sektorunun, xüsusən də kənd təsərrüfatı sektorunun inkişafı və inkişaf etdirilməsi üçün atılmalı olan ən vacib və geniş addımlardan biridir.

2019-cu ildə Azərbaycanda bütün istiqamətlərdə islahatlar davam etdirildi. Belə ki, qeyri-neft sektorunun inkişafı, bölgələrin tarazlı inkişafı, dövlət sahibkarlıq münasibətlərinin yaxşılaşdırılması və biznes investisiya mühitinin inkişafı, özəl sektorda bazar subyektlərinin təşviqi, kənd təsərrüfatı sektoruna dövlət dəstəyi, kiçik və orta sahibkarlığın inkişafı həmişə ön planda olub. Azərbaycanın mövcud sosial-iqtisadi vəziyyətinin təhlilləri göstərir ki, aparılan islahatlar nəticəsində yaranmış güclü iqtisadi potensial iqtisadi dayanıqlığı artırır və ölkənin makroiqtisadi sabitliyi təmin edir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiqlənmiş ölkə iqtisadiyyatının 11 əsas sektoru üçün strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən edilmiş tədbirlərin icrası uğurla davam etdirilmişdir. Ölkədə iqtisadi artım intensivləşmiş və ÜDM 2018-ci ildə 1.4%, 2019-cu ildə 2.2% artmış, adambaşına düşən ÜDM 2018-ci ildə 8126,2 2019-cu ildə isə 8247 manat olmuşdur.

İnnovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması sahəsi Azərbaycanda xüsusi əhəmiyyət kəsb etmişdir. Prezident İlham Əliyevin yeniliklərdən istifadə ilə bağlı qərarlarına diqqət yetirsək bu istiqamətə verilən önəmi görmək mümkündür. Prezidentin 15.09.2008-ci il tarixli və 3043 nömrəli Sərəncamı ilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı” təsdiq edilmişdir. Mövcud və inkişaf etməkdə olan sahələrdə innovasiya yönümlü texnologiyaların tətbiqini təşviq etmək vəzifəsi qoyulur.

Müasir elmi mühitin formalaşması və inkişafı, kadr hazırlığı və təməl və tətbiqi tədqiqat perspektivinin maliyyələşdirilməsi üçün ölkəmizin üzərinə böyük məsuliyyət düşür. İnnovasiya proseslərinə investisiya qoymaq üçün qanuni əsaslarla praktiki kompromislərin olmaması Azərbaycanda vəziyyəti daha da ağırlaşdırdı. Bu sahədəki problemləri həll etmək üçün

Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiqlədi.

İnvestisiya Təşviqi ölkədə biznes mühitinin yaxşılaşdırılması məqsədi daşıyır. "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq investisiyaların təşviqi mexanizmi gücləndirilmişdir. Hökumətin ölkədə önəm verdiyi prioritet istiqamətlər investisiya və innovasiya fəaliyyətinin genişləndirilməsi, iş mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və qeyri-neft sektorunun inkişafıdır. Bu istiqamətdə əsas vəzifələr sərmayənin artırılması, sahibkarların ixrac potensialının artırılması, investisiya imkanlarının artırılması, potensial tərəfdaşların müəyyən edilməsi və birgə layihələrin həyata keçirilməsidir.

Uzunmüddətli iqtisadi və sosial inkişafın təmin edilməsində iqtisadiyyata qoyulan investisiya, tələb olunan investisiya həcmi və keyfiyyətinə uyğun investisiya mühitinin yaxşılaşdırılması xüsusi rol oynayacaqdır. Bu məqsədlə 2014-2018-ci il üçün dövlət investisiya siyasətinin əsas prioritetləri:

- Qeyri-neft sektoruna və bölgələrin inkişafına investisiya qoyuluşu;
- İnnovasiya yönümlü regional investisiya siyasətinin prioritetləşdirilməsi;
- İnvestisiya fəaliyyətinin sosial ölçüsünün gücləndirilməsi, insan kapitalı, infrastruktur prioritetli investisiya;
- Nanotexnologiya və aşağı karbon istehsalı üçün dövlət investisiyalarının prioritetləşdirilməsi;
- İxrac yönümlü və yüksək əlavə dəyər yaradan istiqamətlərdə daxili və xarici sərmayələrin cəlb edilməsi üçün təşviq tədbirlərinin sürətləndirilməsi;
- Sənaye parklarının yaradılmasına yerli və xarici sərmayələrin cəlb edilməsi.

Azərbaycanda innovativ sahibkarlıq fəaliyyətinin inkişafını təmin etmək üçün iş mühitinin daim yaxşılaşdırılması nəticəsində ixrac yönümlü, yüksək keyfiyyətli və rəqabət qabiliyyətli məhsulların istehsalı dövlətin iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. İşə başlama asanlığı baxımından ölkədə aparılan islahatların müsbət təsirini Dünya Bankının Azərbaycan haqqındakı raporunda görmək mümkündür.

| **Sıra (2017-ci il)** | **Ölkə/iqtisadiyyat** | **Dəyər** | **Bal (0–100)** | **Faiz** |
|---|---|---|---|---|
| 1 | Yeni Zelandiya | 99.96 | 99.96 | 1 |
| 2 | Kanada | 98.23 | 98.23 | 0.99 |
| 3 | Honq Konq (Çin) | 98.2 | 98.2 | 0.98 |
| 4 | Makedoniya | 98.14 | 98.14 | 0.98 |
| 5 | Azərbaycan | 97.74 | 97.74 | 0.97 |
| 6 | Sinqapur | 96.49 | 96.49 | 0.96 |
| 7 | Avstraliya | 96.47 | 96.47 | 0.95 |
| 8 | Gürcüstan | 96.13 | 96.13 | 0.94 |

**Cədvəl 1.***İşə başlamaq asanlığı [4]*

Qlobal innovasiya indeksinin ölkələr üzrə hazırladığı işə başlama asanlığı sıralamasında Azərbaycan 5-ci sırada yer almışdır. Bu da öz növbəsində ölkədə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində aparılan islahatların göstəricisidir. Sahibkarlıq fəaliyyəti üçün Azərbaycanda iqtisadi mühit investorların diqqət mərkəzindədir.

Aparılan islahatlar nəticəsində ölkə sosial-iqtisadi inkişafda həqiqətən əsaslı nəticələr əldə etmişdir. Görülən konkret proqramlar çərçivəsində həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində Azərbaycanda müasir dövlət və cəmiyyət formalaşır. Ölkədə bütün sosial-iqtisadi, mədəni və digər sahələri əhatə edən yollar, nəqliyyat, ictimai xidmətlər, elm, təhsil, səhiyyə, informasiya və kommunikasiya texnologiyalarını əhatə edən nəhəng infrastruktur layihələri həyata keçirilmiş və Azərbaycanın enerji təhlükəsizliyi tam qorunmuş və ərzaq təhlükəsizliyi

təmin edilmişdir. Bu dövrdə iqtisadiyyatımız üç dəfə artdı, dövlət büdcəsi 20 dəfə artdı, 50 milyard dollarlıq valyuta ehtiyatı yaradıldı. Hal-hazırda ölkənin enerji potensialı güclənir və sənaye sürətlə inkişaf edir. Respublikada makroiqtisadi sabitlik qorunur və inflyasiya bir rəqəmli səviyyəsində saxlanılır. Ötən dövrdə minlərlə müəssisə, 2000-dən çox müasir məktəb, bir çox sağlamlıq obyekti, Olimpiya idman kompleksi, mədəniyyət obyektləri tikilib istifadəyə verildi. Azərbaycan şəhərlərində, qəsəbələrdə və kəndlərdə geniş quruculuq və abadlıq işləri aparılıb, görünüşləri yüksəldilib [5].

Tədqiqatlar göstərir ki, yaxın on ildə dünyada inkişaf meylləri iqtisadi sistemin yeni texnoloji əsasını yaratmağı hədəfləməkdədir. Əsasən, bu inkişaf özünü daha intensiv elmi biotexnologiya, informatika, nanotexnologiya, səhiyyə və iqtisadiyyat sahələrində göstərir.

Son illərdə qeyri-neft sektoruna diqqətin artırılması, mahiyyət etibarilə davamlı iqtisadi inkişafı təmin etmək istəyidir. İllərdir iqtisadiyyatın inkişafı üçün ciddi bir resurs olan neft və təbii qaz ehtiyatları dövlətimizi qeyri-neft sektorundakı lider rolunu daha da gücləndirməyə təşviq edir. Neft gəlirlərinin informasiya-kommunikasiya texnologiyalarının (İKT), turizm və kənd təsərrüfatı sahələrinin inkişafına yönəldilməsi nəticəsində müasir şəraitdə səmərəli iqtisadi əlaqələrin formalaşması üçün möhkəm zəmin yeni iqtisadiyyatın əsası olan bilik iqtisadiyyatının güclənməsinə səbəb olmuşdur.

Bilik iqtisadiyyatı bilik və insan kapitalına əsaslanır. Müasir dövrdə inkişaf etmiş ölkələrdə iqtisadi böyümənin əsas mənbəyi informasiya istehsalıdır. Qloballaşan dünyada iqtisadiyyatın rəqabət qabiliyyəti və sosial-iqtisadi böyümənin sürəti müasir İKT-lərin, yeni bazarların, artan biliklərin və intellektual kapitalizmin işindən və tətbiqindən asılıdır. Bu istiqamətlər əsasında elm və innovasiya sahəsində təsirli dövlət siyasəti mövcuddur. Dünyanın aparıcı ölkələrində innovasiya siyasəti dövlətin iqtisadi siyasətinin vacib tərkib hissəsidir və hər 5-10 ildən bir yeni hədəflər nəzərə alınmaqla yenidən qurulur. İnkişaf etmiş sənaye ölkələri innovasiyanın formalaşmasına böyük əhəmiyyət verirlər. Elm və innovasiya sahəsində dövlət siyasətinin formalaşması keçid iqtisadiyyatı ölkələrində də böyük əhəmiyyət daşıyır [6].

Azərbaycanda innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması "Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyasında gələcəyə dair ən vacib prioritetlərdən biri kimi qəbul edilir.

Son illərdə ölkədə ən yeni texnologiyaların tətbiqi və xarici təcrübələrdən istifadə alternativ və bərpa olunan enerji mənbələri yaratması xüsusilə diqqətə layiqdir.

Dövlət innovasiya sahəsində prioritetlərini, siyasətinin məqsəd və prinsiplərini formalaşdırır. Dövlət innovasiya siyasəti dövlətlərin elm və texnologiyada fəaliyyət formalarını, istiqamətlərini, dövlət orqanlarının məqsədlərini və dövlətin innovasiya fəaliyyətinə münasibətini göstərən sosial-iqtisadi siyasətin mühüm hissəsidir. Bu siyasət ölkənin sosial-iqtisadi inkişafını təmin etmək və cəmiyyət ehtiyaclarını ödəmək üçün innovasiyaların səmərəliliyini artıran tədbirlər məcmusudur.

**Nəticə**

İqtisadi inkişaf strategiyasının əsas hədəfi iqtisadi islahatların dərinləşdirilməsi və müasir bazar münasibətləri və qlobal iqtisadi sistemin meyllərinə əsaslanaraq, ölkənin iqtisadi sisteminin yeni inkişaf səviyyəsinə keçidi təmin etməklə reallaşdırıla bilər. Bunun üçün dinamik inkişaf edən və bazar əsaslı iqtisadiyyatı formalaşdırmaq, aparıcı sənaye, o cümlədən yerli xammal və dünya bazarında likvidliyi olan məhsullar istehsal edən qeyri-neft bazalarının müasir texnoloji bazasında dinamik inkişafın təmin edilmək, bir çox sərbəst rəqabətin və mülkiyyət növünün sərbəst fəaliyyətini təmin edən və ölkədə sahibkarlığı təşviq edən çevik iqtisadi mexanizmin qurulmasını stimullaşdırmaq, ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə inteqrasiyasını dərinləşdirmək və genişləndirmək, müasir və çevik iqtisadi idarəetmə sistemi və tənzimləmə vasitələri vasitəsilə dövlətin iqtisadi inkişafdakı rolunun artırılması təmin etmək zəruri amillərdir.

Eyni zamanda da, ölkənin regionlarının dinamik inkişafını təmin etməyə yönəlmiş regional siyasətin həyata keçirilməsi istiqamətində lazımi tədbirlərin görülməsi böyük əhəmiyyət daşıyır.

Təbii ehtiyat potensialı ilə insan potensialını birləşdirdikdə və yeni formalar istifadə edildikdə, əmək məhsuldarlığının sürətlə artması mümkündür. İnkişaf etmiş ölkələrdə iqtisadi artımın 70 faizi və insan potensialının 30 faizi kapitalın və təbii ehtiyatların inkişafı ilə əlaqədardır. İqtisadiyyatdakı prioritetlər əsas elmi tədqiqatların və tətbiqi tədqiqatların nəticələrinin sənaye müəssisələrinin məhsullarına ən sürətli şəkildə qayıtmasına imkan verən mexanizmlərin yaradılmasına yönəldilməlidir, əks təqdirdə xammal biznesi elmin inkişafına az maraq göstərəcəkdir.

İnsan kapitalı fərdlərin bilik və bacarıqlarıdır. İnsan kapitalı təhsil və təcrübə sayəsində yaranır. Hər ikisi də yüksək texnologiyaların inkişafı üçün vacibdir. İnsan kapitalının inkişafına üstünlük verən iqtisadiyyatlar qlobal iqtisadi mühitdə üstünlüyə sahib olacaqdır bu səbəbdən, insan kapitalı faktorunun diqqətdə saxlanılması və inkişaf perspektivlərinin ortaya qoyulması milli siyasət üçün vacib bir hədəfdir. İnsan kapitalının qurulması üçün bir çox siyasət təklifi bütün təhsil sisteminin gücləndirilməsinə yönəldilmişdir və yüksək texnologiyalı iqtisadiyyat üçün savadlı işçi qüvvəsi vacibdir.

Eyni zamanda, iqtisadiyyatın qeyri-neft sektorunda yüksək inkişaf dinamikasının əldə olunması kimi prioritet istiqamətlər müəyyən olunarkən ən böyük potensial İKT sahəsində önə çıxmışdır ki, bu da son dövrdə bütün sferada bazar subyektlərinin gəlirlərində azalma müşahidə olunduğu halda qlobal bazarlarda elektron ticarət dövriyyəsinin günü-gündən artdığını müşahidə edirik. Qlobal bazarda rəqabət qabiliyyətli firmalar informasiya və kommunikasiya resurslarından səmərəli istifadədən birbaşa asılı olacaqdır. Bu səbəbdən Azərbaycanda bazar subyektlərinin uzunmüddətli innovasiyalı inkişafının təmin olunması məqsədi ilə, elm, təhsil və İKT-nin ölkənin qeyri-neft sektorunun payında gücləndirilməsinə xüsusi diqqət ayırmaq prioritet olaraq götürülməlidir.

## Ədəbiyyat

1. Global Edge, 2014
2. The Heritage Foundation, 2014
3. Hüseynov T.A - "Sənaye iqtisadiyyatı", Dərslik. Bakı. 1998, 324
4. https://www.globalinnovationindex.org/ - 2017
5. Musayev A.F. - İnnovasiya iqtisadiyyatının formalaşmasında vergi siyasətinin əsas aspektləri, AMEA, Elmi İnnovasiya Mərkəzi, Korporativ İdarəetmə və İqtisadiyyatın İnnovasiya İnkişafı. Beynəlxalq elmi tətbiqi konfrans materialları. Bakı. 2011, 41
6. i.ü.e.d Vəliyev Dünyamalı - Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, “Adiloğlu” nəşriyyatı, 2008, 428 s..
7. Marco ViVarelli | Innovation and employment.
8. https://www.innovationpolicyplatform.org/content/innovative-entrepreneurship
9. http://www.enterprisesurveys.org Enterprise Surveys: AZERBAIJAN – 2013
10. https://www.globalinnovationindex.org/userfiles/file/reportpdf/gii-full-report-2015-v6.pdf
11. Doing Business məlumat bazası
12. www.oecd.org - OECD, 2001.
13. Hacızadə E.M. (1998) Azərbaycanda quru neft-qaz kompleksində iqtisadi islahatlar və məhsuldarlıq problemləri. Bakı: Elm

# BÖLMƏ 2

# AZƏRBAYCANDA MALİYYƏ, AUDİT SİSTEMİNİN İNKİŞAF MODELİ

1. **i.e.d., prof. Səbzəliyev Sifariz Mirzəxan oğlu.** "Mühasibat uçotunun Azərbaycan modelinin qurulmasi xüsusiyyətləri və uçot siyasəti". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
2. ***i.e.d., prof. Sadıqov Elnur Məhəmməd oğlu.*** *"Heydər Əliyev və Azərbaycanin iqtisadiyyatinin inkişaf istiqamətləri"* (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
3. **i.e.d., prof. əməkdar elm xadimi Ataşov Bəyalı Xanalı oğlu.** "Müstəqil Azərbaycanin maliyyə və audit sisteminin inkişafinda Heydər Əliyevin tarixi rolu". (Azərbaycan Kooperasiya Universiteti)
4. **i.e.d., prof. Namazova Cəmilə Bayramali qızı.** "Heydər Əliyev və Azərbaycanın gömrük sisteminin inkişafi". (Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyasının Elmi işlər üzrə rəis müavini)
5. **hüq.e.d., Mirəli Kazımov Sahib oğlu.** "Ulu Öndər Heydər Əliyevin iqtisadi tənzimləmə strategiyasi". (Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında DVX-nin Tədris Mərkəzi)
6. **i.e.d., dos. İsmayılov Niyazi Musa oğlu.**"Maliyyə hesabatlarının təhlili problemləri: istifadə olunan üsullar və qaydalar" (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
7. **i.f.d., dos. Həsənov Niyazi Əlikram oğlu.** "Azərbaycanda H. Əliyev siyasətinə uyğun olaraq layihələrin təsnifatı və investisiya strategiyalarına sistemli yanaşma".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
8. **i.f.d. dos. Qədimli Nüşabə Astan qızı.**"Heydər Əliyev Azərbaycanın maliyyə və audit sisteminin qurucusudur".(Mingəçevir Dövlət Universiteti)
9. **i.f.d., b/m. Həkimova Yeganə Allahyar qızı**. "Müasir dövrdə maliyyə nəzarətinin inkişafı konsepsiyası". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
10. **i.f.d., b/m HüseynovaAlidə Teymur qızı.** "Azərbaycanda kommersiya banklarında rəqəmsal innovasiyaların tətbiqi, inkişafı və perspektivi". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
11. **i.f.d, Cabbarov Ayətulla Suvahil oğlu.** "İnvestisiya fəaliyyəti üzrə strateji qərarların analitik uçot-informasiya təminatı". (Bakı Biznes Universiteti)
12. **i.f.d., dos. Abdullayev Loğman İmran oğlu. "**Müəssisələrdə gəlir və xərcləin uçotunun normativ hüquqi əsasları". (Sumqayıt Dövlət Universiteti)
13. **doktorant Əfqan Əbülfəz oğlu Musayev**."Yeni Dünya Maliyyə Sisteminə keçid- Mərkəzi Bankların Rəqəmsal Valyutası - CBDC"(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
14. **dissertant Əliyeva Abuhəyat Müşrəvan qızı.**"Azərbaycanda dövlətin antiinflyasiya siyasətinin əsas istiqamətləri".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
15. **doktorant Namazov Vüqar Faiq oğlu.** "Azərbaycanin valyuta bazari və valyuta əsasli törəmə maliyyə alətlərinin yaradilmasi imkanlari".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
16. **magistrant İsmayılova Samirə Mədət qızı.** "Kommersiya banklarında strateji planlaşdırma və əlaqəli risklər"(Bakı Biznes Universiteti)
17. **magistrant Zərgərli Cavad Fəttah oğlu.** "Bank sistemində maliyyə menecmentinin təkmilləşdirilməsində strateji idarəetmənin istiqamətləri".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
18. **Hüseynov Faiq Tofiq oğlu.** "Dövlət büdcəsinin gəlir və xərclərinin səmərəli idarə edilməsində auditin rolunun yüksəldilməsi".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)

**i.e.d. prof.Sifariz M.Səbzəliyev**
*Azərbaycan Dövlət İqtisad Universitetinin "Mühasibat uçotu və audit" kafedrasının müdiri*

## MÜHASİBAT UÇOTUNUN AZƏRBAYCAN MODELİNİN QURULMASI XÜSUSİYYƏTLƏRİ VƏ UÇOT SİYASƏTİ

Tarix həmişə insanları cəlb etmişdir. Keçmişi düşünmək (dərk etmək) tələbatı əcdadlarmızın təcrübəsindən istifadə olunması, inkişaf yollarının nəzərdən keçirilməsi-insanların ən böyük ehtiyaclarından birisidir. İnsan hər bir zəruri halda özünün keçmişi haqda fraqmentləri yadına salmağa borcludur və daha sonra onun əsasında gələcək həyatına istinad etməlidir. Dahi riyaziyatçı Pifaqor deyirdi - başlanğıç bütövün yarısı deməkdir. Bu ifadəni mühasibat uçotunun təşəkkül tapmasına da aid etmək olar. Bizim peşənin yaranma mənbələrini bilmədən onun mahiyyətini dərk etmək qeyri mümkündür. Mühasibat uçootu insan sivilizasiyasının obyektiv tələblərindən asılı olaraq meydana gəlmişdir. Onun ilk addımları uçotun tarixi, inkişafı bu da öz növbəsində sivilizasiyanın stimullaşdırılması üçün çox böyük əhəmiyyət kəsb edir. Daha byük dərəcədə uçota olan tələbat riyazi biliklərin inkişafını stimullaşdırmışdır və əksinə, riyazi baxışların təkmilləşdirilməsi özünəməxsus necə bir məntiqi sistem kimi uçotun inkişaf yollarının müəyyənləşdirmişdir.

Azərbaycanda uçotun mənbələri bizdən əbədi olaraq gizlin qalmışdır. Biz yalnız bir sıra rus, Avropa və Azərbaycanlı alimlərin müxtəlif dövrlərdə dərc etdirdikləri elmi araşdrmalardan uçotun yaranması və inkişafının bəzi ünsürrlərini öyrənə bilirik.

XX əsrin əvvəllərində keçmiş SSRİ ərazisində mühasibat uçotu və hesabatın təşkili mərkəzləşmiş qaydada ölkənin Maliyyə Nazirliyinin hazırladığı və təsdiq etdiyi əsasnamələr, təlimatlar və digər normativ sənədlərlə tənzimlənilirdi. Müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda uçot və hesabat sahəsində hər hansı bir normativ sənədin hazırlanmasına icazə verilmirdi. Bu proses SSRİ dağılanadək davam etdi. Azərbaycan müstəqillik qazanandan sonra respublika ərazisində uçot və hesabatın beynəlxalq praktikada qəbul edilən normalara və modellərə uyğun səviyyədə yenidən qurulması istiqamətində ciddi işlər həyata keçirildi. MDB-yə daxil olan ölkələr arasında ilk dəfə olaraq Azərbaycanda mühasibat uçotu müvafiq qanunla tənzimlənildi. Daha konkret desək, Ulu öndərimiz, dahi, H.Ə.Əliyevin imzası ilə 24 mart 1995-ci ildə 998 №-li fərmanla "Mühasibat uçotu haqqında" Qanun qüvvəyə mindi.

Azərbaycanın dünya ölkələri ilə iqtisadi, sosial və siyasi cəhətdən inteqrasiyası nəticəsində həmin Qanunun 1995 və 2004-cü illərdə işlənilib hazırlanmış yeni variantı bazar iqtisadiyyatının və maliyə heabatlarının beynəlxalq standartlarının tələblərini tam ödəmədiyindən ən sonuncu Qanun 4 may 2018-ci ildə respublika prezidenti İ.H.Əliyev tərəfindən təsdiq olunmuş və qüvvəyə minmişdir. Qanunla aparılan dəyişikliklər əsasən aşağıdakılardır: "büdcədənkənar dövlət fondları və tövsiyyə xarakteri daşıyan sənədlər" sözləri qanundan çıxarılmışdır; "uçot qaydaları" izah olunmuşdur; "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına " uyğun olaraq "Mühasibat Uçotunun Beynəlxalq Standartları" və "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının" şərhləri verilmişdir. "İctimai sektor üçün mühasibat uçotunun Beynəlxalq Standartlarından" istifadə zəruri sayılmışdır. "Kiçik və orta sahibkarlıq subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının" tətbiqinə önəm verilmişdi; Mühasibat uçotu və maliyyə hesabatları "aktivlər öhdəliklər, kapital, gəlir və xərclər" adlı elementlər əsasında qurulmalıdır; maliyyə hesabatlarının "analitik uçot", analitik uçot rekvizitləri; "sintetik uçot; " mikro kiçik, orta və iri sahibkarlıq subyektləri, mühasibat uçotu xidməti, "peşəkar mühasibat", "peşəkar sertifikatı", "peşəkar mühasibat səviyyəsi", "peşəkar mühasibat təşkilatı", "uçot siyasəti" kimi anlayışların tərifi verilmişdir. Qanunda digər düzəlişlər də aparılmışdır.

Biz bu məqalədə sahibkarlıq subyektlərində mühasibat uçotunun və maliyyə hesabatının beynəlxalq standartlar səviyyəsində təşkilində uçot siyasətinin rolunu və həmin siyasət əsasında baş verən biznes-proseslərin uçotu modellərini araşdırmağı qoymuşuq. Modelləşdirmə müəyyən obyektlərin uçotu variantlarının müqayisəli təhlilini həyata keçirməyə və mühasibat

düşüncəsinə görə daha yaxşı iqtisadi məkanı seçməyə imkan verir. Uçot modellərini seçən zaman, mühasib özünün peşə düşüncəsini əks etdirməklə, uçot informasiyalarını istifadəçiləri qarşısında şəxsi fikrini müzakirə etmək vəzifəsinə malik olur, mühasibat uçotunun aparılmasına və maliyyə hesabatlaının tərtibinə görə məsuliyyət daşıyır.

İqtisadi fəaliyyət prosesində mühasibat uçotu obyektləri fasiləsiz hərəkətdə olur. Onların kəmiyyəti və strukturu baş verən təsərrüfat həyatının faktları ilə əlaqədar dəyişikliyə məruz qalır. Təsərrüfat həyatının həmcins faktlarının məzmununu biznes prosesləri təşkil edir: təchizat, istehsal, satış. Təchizat  biznes prosesində material-istehsalat ehtiyatları əldə olunur. Mühasibat uçotunun əldə olunan material istehsalat ehtiyatlarının maya dəyəri müəyyənləşdirilir, mal göndərənlərlə hesablaşmalar həyata keçirilir.

İstehsal biznes-prosesində məhsul buraxılır, işlər yerinə yetirilir, xidmətlər göstərilir. Məhsul itehsalına çəkilən xərclərin uçotu və onun maya dəyərinin kalkulyasiyası mühasibat uçotunun ən mühüm sahələrindən biri sayılır.

Biznes prosesdə satış mühasibat uçotunda satışla bağlı xərclər, satılmış məhsulların tam maya dəyəri müəyyənləşdirilir, satışdan maliyyə nəticələri hesablanılır, alıcılar və sifarişçilərlə hesablaşmalar əks etdirilir.

Biznes proseslərin mühasibat uçotuna əks etdirilməsini modelləşdirən mühasibat uçot siyasətinin ardıcıl tətbiqi ehtimalını, təsərrüfat fəaliyyəti faktlarının müvəqqəti müəyyənləşdirilməsinə, həmçinin tamlıq, dövrilik, ehtiyatlılıq, məzmunun formadan üstünlüyü. məxfilik və digər tələblərə əsaslanaraq özünn peşə mühakiməsini formalaşdırmaq, mühasibat uçotu obyektləri haqqında sistemli informasiyalrı sənədləşdirməklə təsərrüfat həyatı faktlarının müəyyən tərkibini proqnozlaşdırılır.

Mühaibat uçotunun 2-li "Ehtiyatlar" adlı beynəlxalq standartının tələblərinə görə material-istehsalat ehtiyatları mühasibat uçotunun faktik maya dəyəri ilə qəbul edilir. Faktik maya dəyərinə müqavilə qiyməti ilə materialların dəyəri, nəqliyyat-tədarük xərcləri və onları istifadəyə yararlı hala gətirmək üçün çəkilən xəclər dxildir. Nəqliyyat tədarük xərcləri dedikdə, materiallar nəqliyyat vasitələrinə yüklənilməsi, təchizat təşkilatlarının əlavələr, subyektin tədarük-anbar xərcləri və s. başa düşülür.

Müəssisənin material-istehsalat ehtiyatlarının xeyli hissəsini xammal, əsas və köməkli materiallar, satın alınan yarımfabrikatlar və kompektləldirici məlumatlar, yanacaq, tara, ehtiyat hissələr və s. təşkil edir. Cari mühaibat uçotunda materiallar faktik maya dəyərilə, yaxud uçot qiymətləri ilə əks etdirilir. Kiçik və mikro sahibkarıq subyektlərin materialları kiçik partiyaların daimi  malgöndərənlərdən satın aldıqda faktiki maya dəyərindən istifadə etmək məqsədə uyğundur.

İri və orta müəssisələr materialları cari uçotda uçot qiymətləri ilə qiymətləndirirlər. Uçot qiymətləri qismində plan maya dəyərindən, müqavilə qiymətindən, yaxud digər göstəricilərdən istifadə edilir, bu fərq materialların göndərilməsinin qeyri ritmikliyi, müəssisələrə müxtəlif vaxtlarda daxil olan sənədlərin sayının çoxluğu ilə əlaqədardır.

Mühasib, təchizatın biznes prosesini modelləşdirməklə, uçotun məqsədlərini müəyyənləşdirir: faktik daxil olan materialların uçotda əks etdirilməsini, yaxud materialların satın alınması ilə bağlı xərclərin əks etdirilməsi.

Uçotunun birinci variantının tətbiqi nəzərdə tutur ki, material-istehsalat ehtiyatlarının qeydiyyatı 201-li "Material ehtiyatları" adlı hesabda  aparılmalıdır. "Nəqliyyat-tədarük xərcləri" üçün hesablar planında yeni hesab nəzərdə tutulması məqsədə uyğundur.

Malgöndərənlərin hesablaşma sənədlərinin müəssisəyə daxil olmasına əsaslanan ikinci variantda materialların müəssisəyə nə zaman daxil olmasından asılı olmayaraq nəqliyyat tədarük xərcləri ayrıca hesabda yaxud subhesabda qeydə alınmalıdır.

2 №-li beynəlxalq standartın tələblərinə görə istehsalata buraxılmış (silinmiş) materialların hesablanılan dəyəri aşağıdakı üç metoddan biri vasitəsilə yerinə yetirilir:

- orta maya dəyərilə
- FİFO  metodu ilə

- hər bir vahidin maya dəyəri ilə

İstehsal müəssisələrinin fəaliyyətinin adi növləri üzrə xərclər məhsulların hazırlanması, işlərin yerinə yetirilməsi və xidmət göstərilməsi ilə bilavasitə bağlıdır.

İstehsalın biznes proseslərinin uçotunun modelləşdirilməsi kifayət qədər mürəkkəbliyi ilə seçilir. İnformasiya modelinin formalaşması haqqında qərarların qəbulu zamanı mühasib, fəaliyyət növlərini, istehsal potensialının vəziyyətini, istehsalın tiplərini, buraxılan məhsulların texniki-iqtisadi xarakteristikasını, təşkilatın istehsalat strukturunu, istehsal mərhələsinin uzunluğunu hökmən nəzərə alınmalıdır. İstehsalın biznes prosesləri haqqında uçot informasiyalarının formalaşması sərf olunan materialların, yanacaq və digər material sərvətlərin dəyərini istehsal fəhlələrinin əmək haqqını, sosial ehtiyaclara ayırmaları, əsas vəsaitlərin və qeyri-maddi aktivlərin amortizasiyasını özündə birləşdirir. Müəsisə həmçinin idarəetmə və xidmət heyətinin əmək haqqını, bina və tikililərin işıqlandırılması və qızdırılması xərclərini və icarə haqlarını da həyata keçirir. İstehsalın biznes prosesinin uçot modelini hazırlayan mühasib, xərclərin təsnifatı, onların baş verdiyi yerlərin detallaşdırılması, məsuliyyət mərkəzləri ilə əlaqələndirilməsi, plan, faktik, tam, yaxud xərclərin bir qisminin uçotunun təşkili barədə qərar çıxarır.

Mühasibat uçotunda məhsulların faktik buraxılışı natural və pul ölçüsündə aparılır, istehsal xərcləri aşkara çıxarılır və nəhayət buraxılan məlumatların faktik maya dəyəri hesablanılır.

İstehsalın biznes-proseslərinin uçotu üçün yenidən işlənib hazırlanılan "Hesablar Planında 202 №-li İstehalat məsrəfləri" adlı sintetik hesab nəzərdə tutulmuşdur. Bu hesab müxtəlif təyinatlı xərcləri özündə birləşdirən 7 subhesabı əhatə edir.

Məhsulları satmaqla, müvafiq işləri yerinə yetirməklə, müəyyən xidmətlər göstərməklə, müəssisə satışla əlaqədar bəzi xərcləri həyata keçirir. Onların tərkibinə daxildir: taralara və anbardakı məhsulların qablaşdırılmasına çəkilən xərclər; məhsulların göndərilmə məntəqlərinə (stansiya, liman, aeroport) çatdırılması xərcləri, təchizat və digər vasitəçi təşkilatlara ödənilən komisyon rüsumları, reklam xərcləri və s. adları qeyd olunan xərclərin bir qismi (məs. qablaşdırma və yola salınma xərcləri) məhsulların müxtəlif növlərinin maya dəyərinə müstəqim qaydada daxil edilir. Yerdə qalan xərclər isə hər ay müəssisənin maliyyə nəticələrinə aid edilir. Satışın biznes prosesinin uçotunu modelləşdirən zaman mühasib, 801-li "Ümumi mənfəət" hesabatı debeti üzrə dövriyyənin formalaşdırılması qaydası haqqında qərar qəbul edir.

Müəssisənin uçot siyasətinin formalaşması və açıqlanması 8 №-li “Uçot siyasəti, uçot qiymətləndirilmələrində dəyişikliklər və səhvlər” adlı Mühasibat uçotunun Beynəlxalq standartı ilə tənzimlənir.

Müəssisənin uçot siyasəti dedikdə, mühasibat uçotunun aparılmasını qəbul edilmiş üsullarının (ilkin müşahidə, dəyər ölçüsü, cari qruplaşma və təsərrüfat faktlarının yekun ümumiləşdirilməsi) məcmusu başa düşülür. Mühasibat uçotunun aparılması üsullarına təsərrüfat fəaliyyəti faktlarının qruplaşması və qiymətləndirilməsi, aktivlərin dəyərinin ödənilməsi, sənəd dövriyyəsinin təşkili, inventarlaşma, mühasibat uçotu hesablarının tətbiqi üsulları, mühasibatın uçot registrlərinin sistemləri, informasiyaların işlənilməsi və digər müvafiq üsullar və priyomları daxildir.

Təqdim etdiyimiz anlayışlar sübut edir ki, uçot siyasəti mühasibat uçotunun metodu ilə sıx əlaqədardır. Belə ki, ilkin müşahidə sənədləşmə və inventarlaşmanın köməyilə həyata keçirilir, dəyər ölçüsü qiymət və kalkulyasiyanı nəzərdə tutur təsərrüfat əməliyyatlarının cari qruplaşması bilavasitə ikili yazılış vasitəsilə aparılır, bütün bunlar son nəticədə mühasibat balansının və maliyyə hesabatının tərtibi üçün əsas sayılır. Konkret müəssisənin praktik fəaliyyətində yuxarıda sadaladığımız hər bir üsul və priyomdan müxtəlif cür istifadə edilə bilər.

Qüvvədə olan qanunvericilik aktlarına əsasən müəssisənin uçot siyasəti baş mühasib tərəfindən tərtib edilir, müəssisənin rəhbəri tərəfindən təsdiq olunur və müvafiq təşkilati-sərəncamverici sənədlə rəsmiləşdirilir. Müəssisə, uçot siyasətini formalaşdırdıqda, onun kapitalını adekvat əks etdirən variantın hazırlanmasına, baş verən təsərrüfat proseslərinə, iqtisadi məkanın vəziyyətinə uyğun gələn variantın seçilməsinə cəhd göstərməlidir. Bununla da

idarəetmə qərarlarının qəbulu və müxtəlif istifadəçilərin hərtərəfli maraqlarını təmin etmək üçün tam obyektiv və etibarlı informasiya formalaşdırılır. Uçot siyasətinin formalaşması aşağıdakı ehtimalların yerinə yetirilməsini nəzərdə tutur.

Müəssisənin əmlak müstəqilliyi, müəssisə fəaliyyətinin fasiləsizliyi, uçot siyasətinin tətbiqinin davamlılığı, təsərrüfat fəaliyyəti faktlarının müvəqqəti müəyyənləşdirilməsi, həmçinin tamlıq, əməliyyatların vaxtında qeydə alınması, ehtiyatlılıq, məzmunun formadan üstünlüyü, rasionalıq, ziddiyyətsizlik kimi tələblər.

Uçot siyasəti üzrə sərəncamverici sənədlərdə aşağıdakı mövqelərin nəzərə alınması məqsədə uyğundur:

1. mühasibat uçotunun işçi hesablar planı. Bu planda uçot və hesabatın tamlığını və beynəlxalq standartların tələblərinə cavab verən sintetik və analitik hesablar göstərilməlidir;
2. ilk uçot sənədlərinin formaları;
3. aktivlərin və öhdəliklərin inventarlaşmasının aparılması qaydası;
4. aktivlərin və öhdəliklərin qiymətləndirilməsi metodları;
5. uçot informasiyalarının işlənməsi texnologiyası və sənəd dövriyyəsi qaydaları;
6. təsərrüfat əməliyyatlarına nəzarət qaydası;
7. mühasibat uçotunun aparılması üçün zəruri sayılan digər qaydalar.

Mühasibat uçotunun işçi hesablar planı respublika Maliyyə Nazirliyinin hazırladığı və təsdiq etdiyi Hesablar Planı əsasında formalaşdırılır. Hesablar Planı əsasında müəssisə, müvafiq subhesabların nomenklaturasını hazırlayır. Analitik uçotun aparılması qaydası müəssisə tərəfindən müstəqil surətdə müəyyənləşdirilir və bu zaman uçota dair normativ aktların müddəaları əsas götürülür.

İlk və icmal uçot sənədləri əsasən elektron versiyada hazırlanır, təsərrüfat əməliyyatlarının digər iştirakçıları üçün, həmçinin nəzarətedici orqanların tələbləri əsasında kağız daşıyıcılar vasitəsilə icra olunur. Hər bir mühasibat sənədi əks etdirilən məlumatlarn hüquqi cəhətdən sübutuna və etibarlılığına zəmanət verməlidir.

Materialların, hazır məhsulları, bitməmiş istehsalın və s. planlı qaydada inventarlaşması müddəti və qəflətən inventarlaşmanın keçirilməsi rəhbərlik tərəfindən həyata keçirilir.

Müəssisə, daxili hesabatların tərkibi və formalarını, onların tərtib edilməsi dövrünü və bu işə məsuliyyət daşıyan şəxsləri müstəqil surətdə müəyyənləşdirir.

Uçot siyasəti formalaşdırıldıqda müəssisə tərəfindən seçilən mühasibat uçotunun aparılması qaydası növbəti ilin yanvar ayının 1-dən etibarən qüvvəyə minir. Yeni yaradılan müəssisə seçdiyi uçot siyasətinin maliyyə hesabatının 1-ci dəfə dərc edildiyi müddətədək rəsmiyyətə salınmalıdır. (dövlət qeydiyyatından keçdikdən sonra ən geci 90 gün ərzində).

Müəssisə uçot siyasətini formalaşdıran zaman maliyyə hesabatlarından istifadəyə maraqlı tərəflər üçün mühasibat uçotunun üsullarını açıqlamalıdır. Belə üsulları bilmədən maliyyə hesabatlarının istifadəçiləri müəssisənin maliyyə vəziyyətini, pul vəsaitlərinin hərəkətinin yaxud müəssisənin fəaliyyətinin maliyyə nəticələrini etibarlı və dəqiq şəkildə qiymətləndirə bilməzlər. Qeyd etdiyimiz fərziyyələrdən və tələblərdən formalaşan uçot siyasəti müəssisənin mühasibat uçotu sisteminin bütövlüyünü təmin edir və uçot prosesinin bütün aspektlərini (metodiki, texniki və təşkilati) əhatə edir. Metodiki aspekt aktivlərin, öhdəliklərin qiymətləndirilməsi üsullarını, müəssisənin istifadə etdiyi amortizasiya metodlarını nəzərdə tutur; texniki aspekt uçot proseslərinin hesabat registrlərində əks etdirilməsinə adekvatlığı təmin edir, təşkilati aspekt isə müəssisənin mühasibat xidmətinin qurulması qaydasını formalaşdırır və onun bölmələrlə əlaqələndirilməsini nizama salır. Uçot siyasəti aspektlərinin məzmunu aşağıdakı cədvəldə verilmişdir.

***Uçot siyasəti aspektlərinin məzmunu***

| **Uçot siyasətinin apektləri** |
| --- |

| Metodik aspekt | Texniki aspekt | Təşkilati aspekt |
|---|---|---|
| Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin amortizasiyası | Hesabların işçi planı | Mühasibat xidmətinin təşkilat forması |
| Material-istehsalat ehtiyatlarının qiymətləndirilməsi | Mühasibat uçotunun forması | Uçotun mərkəzləşməsi |
| Bitməmiş istehsalın qiymətləndirilməsi | Aktivlərin və öhdəliklərin inventarlaşması | Mühasibatın strukturu |
| Ehtiyatların formalaşması | Uçot informasiyalarının işlənməsinin texnologiyası | Bölmələrin müstəqil balansa ayrılması |
| Fəaliyyətin adi növləri üzrə xərclərin qruplaşdırılması | Analitik uçotun təşkili | Daxili nəzarətin təşkili |

Seçilmiş uçot siyasətində aparılan bütün dəyişikliklər ciddi şəkildə əsaslandırılmalı və müvafiq əmrlə, yaxud sərəncamla rəsmiləşdirilməli, habelə ilin əvvəlində qüvvəyə minməlidir. Müəssisənin uçot siyasətində dəyişikliklər aşağıdakı hallarda baş verə bilər:

1. Azərbaycan Respublikasının qanunvericiliyində yaxud mühasibat uçotuna dair normativ aktlarda dəyişikliklər baş verdikdə:

2. Mühasibat uçotunun aparılmasında yeni üsulların tətbiqi zərurəti yarandıqda;

3. Müəssisənin fəaliyyət şərtləri əhəmiyyətli dərəcədə dəyişikliyə uğradıqda: müəssisə yenidən təşkil olunduqda, müəssisənin fəaliyyət növləri dəyişdiriləndə.

Uçot siyasəti dəyişdirildikdə müəssisənin aşağıdakı informasiyaları açıqlamağı məqsədə uyğundur.

1. uçot siyasətinin dəyişdirilməsinin səbəbləri;
2. uçot siyasətindəki dəyişikliklərin məzmunu;
3. uçot siyasətindəki dəyişiklərin təsirinin maliyyə hesabatında əks etdirilməsi qaydası;
4. maliyyə hesabatının hər bir maddəsi üzrə uçot siyasətindəki dəyişikliklərlə bağlı aparılan düzəlişlərin məbləği;
5.hesabat dövrünə aid edilən müvafiq düzəlişlərin məbləği.

## *Ədəbiyyat*

1. http://www.maliyye.qov.az/static/140/ Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin saytı.
2. http://www.maliyye.gov.az/static/141 - Beynəlxalq standartlar. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin saytı.
3. Q.Abbasov. Mühasibat uçotu. Bakı "Aposroft"-2019
4. S.Səbzəliyev. Maliyyə hesabatı. Bakı-Az.DİU-nun nəşriyyatı-2018.
5. Auditorların müstəqillik qaydaları. (prof. V.Namazovun redaktorluğu altında). Bakı-"MSV NƏŞR" -2020.
6. С.В.Камысовская, Т.В.Захарова.Бухгалтерская финансовая отчетность: формироние и анализ показаемый. Москва "Форм" 2014.

***Açar sözlər:*** *model, beynəlxalq standartlar, uçot obyektləri, uçot siyasəti, biznes proseslər*

## Xülasə

*Adı çəkilən məqalədə Azərbaycanda mühasibat uçotunun yaranma mənbələri onun təşkilinin müvafiq qanun və digər normativ sənədlərlə tənzimlənməsi, 2018-ci ildə qəbul edilən yeni qanunda əvvəlki iki qanundan fərqli cəhətləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının respublikanın uçot və hesabat praktikasında tətbiqi imkanları və s. məsələlər nəzərdən keçirilmişdir. Daha sonra təsərrüfat həyatının həmçinin faktlarının məcmusu sayılan biznes proseslərin təchizat, istehsal, satış uçotunun ayrı-ayrılıqda həm müsbət, həm də çatışmayan cəhətlərinə qiymət verilmiş, biznes proseslərin uçotunun modelləşdirilməsi zamanı mühasibin qarşısında duran vəzifələr sadalanmışdır.*

*Məqalənin sonunda təsərrüfat subyektlərində uçotun qurulmasında və maliyyə hesabatının formalaşmasında ən mühüm sayılan uçot siyasətinin hazırlanılması, təsdiqi, tətbiqi və zəruri hallarda dəyişikliklərlə bağlı müəllifin müvafiq təklifləri və tövsiyyələri verilmişdir.*

**i.e.d., prof. Elnur Sadiqov**

*Azərbaycan Dövlət İqtisad Universitetinin ,*
*UNEC Maliyyə və maliyyə institututlari kafedrasinin professoru,*
*YAP idarə heyətinin uzvu*

# HEYDƏR ƏLİYEV və AZƏRBAYCANİN İQTİSADİYYATİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

*Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim iqtisadi yolumuzdur*

***HEYDƏR ƏLİYEV***
***Ümummilli lider***

*Milli-mənəvi dəyərlər və azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu, həm də milli ruhun, milli şüurun simvolu olaraq, tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir.*

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət – ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda ulu öndər gənclərimizi, xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. Ulu öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsinin əhəmiyyətini xüsusi vurğulayırdı: "... Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət ənənəsini yad təzahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən – nəsilə ötürmüşdür. Heydər Əliyev Qara Qarayevə, Fikrət Əmirova, Niyaziyə, Rəşid Behbudova Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə nail oldu. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixin ən keşməkəşli mərhələlərində belə mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək onlara həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Ulu öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıb və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir."

Heydər Əliyev 1969-1982-ci illərdə respublikaya rəhbərlik edərkən sovet rejiminin olduqca sərt xarakterinə baxmayaraq, milli ənənələrimizin qorunub saxlanması üçün böyük fədakarlıq göstərirdi.

Ulu öndərin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – azərbaycançılığın təşəkkül və inkişafına müstəsna diqqət vermişdir.

Ümummilli lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən, İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların

bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun xalqa mənən bağlılığını və İslami dəyərlərə sədaqətini göstərən parlaq dəlillərdır. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən, Qurban bayramının qeyd olunmasını rəsmiləşdirən Ulu öndər demişdir: "Müsəlmanların böyük bir təntənə ilə, həmrəylik və qardaşlıq rəmzi ilə qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. Islamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızn öz milli və dini ənənələrinə sadəqətinin parlaq ifadəsidir". Heydər Əliyev mürəkkəb struktura malik olan milli-mənəvi dəyərlər sistemində onun üç tərkib hissəsini xüsusi ilə qeyd edirdi: dil, din və adət-ənənə.

Heydər Əliyev həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi, cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, cəmiyyətin sadə üzvləri ilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi. Heydər Əliyev öyrədirdi ki, sərvət toplamaq, son dəbdə geyinmək, bütövlükdə müəyyən maddi sərvətlərə malik olmaq mümkündür. Lakin hər bir insan və hər bir millət, hər şeydən əvvəl, öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli-mənəvi dəyərlərini qorumalıdır. Gələcək nəsillərə, bəlkə də, maddi sərvətlər və iqtisadi mirasdan daha çox mənəvi irs, milli mentalitet ərmağan edilməlidir.

Ulu öndər özünün mənəviyyatla bağlı məşhur 2001-ci ilin avqust bəyanatında milli mentalitetlə əlaqədar demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun büyük sərvətidir. Heç vaxt iki xalq bir – birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik".

İqtisadi sahədə islahatların ardıcıl və sistemli şəkildə həyata keçirilməsi məqsədilə ulu öndər beynəlxalq təcrübəyə uyğun qanunvericilik bazasının yaradılmasını təmin etdi. Milli iqtisadi inkişaf konsepsiyamızı yaratdı. Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir. Beynəlxalq maliyyə institutları ilə əlaqələr yaradıldı, onların rəhbərləri  Bakıya dəvət olundu.

Neft-qaz sənayesi iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlanıldı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. Ulu öndərin müdrikliklə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı iqtisadi siyasət nəticəsində neft-qaz sənayesi ilə yanaşı, elektrotexnika, maşınqayırma, kimya, xalçaçılıq və digər sahələrin də inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirildi.

Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının özəl sektorla bağlı olduğunu vurğulayırdı: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur". Ulu öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə xarakterizə edilir. Qəbul olunmuş dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi. Heydər Əliyevin rəhbərliyi ilə

sahibkarlıq infrastrukturunun formalaşdırılması istiqamətində mühüm addımlar atıldı, sahibkarlara maliyyə dəstəyi və zəruri texniki yardım (məsləhət, informasiya və s. xidmətlər) göstərən strukturlar formalaşdı. Sahibkarların vergi yükünün azaldılması istiqamətində mənfəət və əlavə dəyər vergisinin dərəcələri aşağı salındı, kiçik sahibkarlıq subyektlərinə vahid vergi tətbiq edilməyə başlandı. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı və bu sahədə müvafiq dövlət proqramları təsdiq olundu.

Heydər Əliyevin balanslaşdırılmış xarici siyasət kursu sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, ölkəmiz Cənubi Qafqazın lider dövlətinə, regionda gerçəkləşdirilən bütün transmilli layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrilmişdir. Ulu öndərin çoxsaylı xarici səfərləri, ikitərəfli və beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini vermişdir. Heydər Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər beynəlxalq institutlarla səmərəli əməkdaşlıq yaradılmışdır.

Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlanmışdır. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqısı 6,2 dəfə artdı, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirildi. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard ABŞ dolları həcmində investisiyanın qoyulması təmin olundu. 1993-cü ildə ölkənin valyuta ehtiyatları 8 milyon ABŞ dolları idi. Hazırda isə bu rəqəm 39 milyard ABŞ dolları təşkil edir.

Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı.

Ölkəmizin son 20 ildə iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində qazandığı böyük nailiyyətlər də məhz ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış möhkəm təmələ əsaslanır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

Bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi və respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyatına qovuşmasına mütləq əminlik yaradır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı olmaqla yanaşı, həm də bu gün dünyanın ən sabit və sürətlə inkişaf edən güclü iqtisadiyyatının qurucusudur. Məhz Ulu Öndərin 90-cı illərin ortalarında təməlini qoyduğu güclü sosial-iqtisadi baza bu gün Azərbaycan xalqının yüksək rifahına, onun parlaq gələcəyinə xidmət edir.

Heydər Əliyev müasir tariximizin çətin və keşməkeşli bir dönəmində xalqın tələbi ilə dərin keçid böhranı yaşamış, iqtisadi potensialının yarıdan çoxunu itirmiş, kütləvi yoxsulluq və səfalətin tüğyan etdiyi boş xəzinəsi olan bir ölkəyə rəhbər gətirilmişdir. Qısa müddətdə ölkədə dövlətçiliyin əsası olan ictimai-siyasi sabitlik bərpa olunmuşdur. Bu əsas amil bütün istiqamətlərdə, o cümlədən iqtisadiyyatda zəruri islahatların həyata keçirilməsinə zəmin

yaratmışdır. Aparılan ardıcıl iqtisadi islahatlarla qısa zamanda ölkədə makroiqtisadi sabitliyin əsası qoyulmuş, qiymətlərin sabitliyinə nail olunmuş, ölkənin zəruri valyuta ehtiyatı yaradılmışdır.

Umummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı digər sahələrdə olduğu kimi, bank sektorunun formalaşması və inkişafında da dönüş nöqtəsi olmuşdur. Heydər Əliyevin birbaşa diqqət və dəstəyi ilə bank islahatları dövlət banklarının yenidən qurulması, özəl bankların kapitalizasiyası və konsolidasiyası, bank infrastrukturunun formalaşması istiqamətində həyata keçirilmişdir.

Ümummilli lider Heydər Əliyev tərəfindən 1993-2003-cü illər ərzində görülmüş genişmiqyaslı işlər Azərbaycanda siçrayışlı inkişafın başlaması üçün zəruri potensial formalaşdırmışdır. Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, bu kursun ideoloji bazası əsasında yeni inkişaf modelini həyata keçirən, Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müasir dövlət, güclü iqtisadiyyat, yüksək sosial rifah, mədəni cəmiyyətin qurulması istiqamətində 2003-cü ildə bəyan edilmiş hədəflər artıq günümüzün reallığına çevrilmişdir. Bu gün dövlət başçısı tərəfindən təsdiq olunmuş müasir inkişaf konsepsiyası keyfiyyətcə yeni prioritetlər müəyyən edir. İnnovasiya əsaslı inkişaf modelinə keçid, yüksək rəqabət qabiliyyətli və şaxələnmiş iqtisadiyyatın qurulması qarşıda duran ən mühüm prioritetdir.

İqtisadiyyatın şaxələnməsi üçün ən fundamental şərtlərdən biri makroiqtisadi sabitlikdir. Bunun üçün Mərkəzi Bank orta müddətli dövrdə çevik pul və məzənnə siyasətini yürüdəcəkdir. Maliyyə sabitliyi də Mərkəzi Bankın ən mühüm strateji hədəflərindən biridir. Bu mənada makro və mikro prudensial siyasət bank sektorunda hərarətlənmənin sistem tənzimlənməsi və fərdi nəzarət vasitəsilə idarə edilməsinə yönələcəkdir.

Bank sektorunun əsas hədəfi yaxın 10 ildə maliyyə dərinliyini Ümumi Daxili Məhsula nisbətdə 100 faizə çatdırmaqdan ibarət olacaqdır. Bank biznesinin daha da müasirləşməsi, elektronlaşması və optimizasiyası istiqamətində zəruri tədbirlər görüləcəkdir. Bank filiallarının, mikromaliyyə institutlarının regionlara intensiv istiqamətlənməsi, kənd bankçılığının inkişafı istiqamətində zəruri fəaliyyət təmin ediləcəkdir. Maliyyə dərinliyinin böyüməsində ölkədə nağdsız hesablaşmaların miqyasının genişləndirilməsi mühüm rol oynayacaqdır. Ulu Öndərin ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olması, bütün sahələrdə köklü islahatların aparılması, iqtisadiyyatın, regionların və sahibkarlığın inkişafı sahəsində gördüyü misilsiz xidmətlər vardir.

Azərbaycanda keçid dövrünün başa çatması və yetkin bazar münasibətlərinin formalaşması şəraitində dövlət tənzimləmə və idarəetmə funksiyaları əsasən makroiqtisadi sabitliyin qorunub saxlanılması, ölkədə işgüzar mühitin təkmilləşdirilməsi və sərbəst rəqabətin təmin olunması, yerli və xarici investisiyalar üçün əlverişli şəraitin yaradılması, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tənzimləmə tədbirləri, investisiyalar və geniş miqyasda infrastruktur layihələrinin reallaşdırılması, əhalinin sosial müdafiəsinin səmərəli təşkili istiqamətlərində həyata keçiriləcəkdir.

Makroiqtisadi siyasətin koordinasiyası gücləndiriləcək, **maliyyə** dayanıqlılığı baxımından optimal makro-fiskal çərçivə formalaşdırılacaq və adekvat pul siyasəti aparılacaqdır. Bu siyasətin birinci pilləsində inflyasiya hədəfi, digər makroiqtisadi hədəflər və bunlara uyğun tənzimləmə alətləri, ikinci pilləsində isə maliyyə sektorunda sabitlik hədəfləri, sektorda aktivliyi və riskləri idarə edəcək alətlər yer alacaqdır. İnflyasiya hədəfinə uyğun olaraq iqtisadiyyatın pula tələbatının ödənilməsinə xüsusi diqqət yetiriləcək, monetar idarəetmənin institusional bazası təkmilləşdiriləcəkdir.

Neft və qaz gəlirlərindən istifadə olunması mexanizmi təkmilləşdiriləcəkdir. Karbohidrogenlərin satışından əldə edilən gəlirlərin tədricən həmin vəsaitlərin investisiya olunmasından qazanılan gəlirlə əvəzlənməsi strategiyası həyata keçiriləcək və bu sahədə hazırda aparılan işlər intensivləşdiriləcəkdir.

Ölkənin tədiyyə qabiliyyətinin yaxşılaşdırılmasının və iqtisadiyyatın ixraca yönəldilməsinin ayrıca vacib tələbi kimi daha çevik məzənnə siyasəti həyata keçiriləcək, xalis beynəlxalq investisiya mövqeyi üzrə profisit qorunacaqdır.

**Biznes** mühitinin, rəqabət qanunvericiliyi və siyasətinin daha da yaxşılaşdırılması istiqamətində görülən tədbirlər davam etdiriləcək, investorların hüquqlarının qorunması mexanizmləri təkmilləşdiriləcəkdir. Qanunların davamlı və ədalətli şəkildə tətbiq edilməsi və hüququn aliliyinin işlək sisteminin formalaşdırılması diqqət mərkəzində saxlanılacaqdır.

Muasir dövrdə həyata keçiriləcək tədbirlər Azərbaycanda **maliyyə xidmətləri** bazarının əsas seqmentlərinin (bank sektoru, qeyri-bank kredit təşkilatları, sığorta bazarı, lizinq bazarı, qiymətli kağızlar bazarı və faktorinq bazarı) tarazlı inkişafını təmin edəcəkdir. **Bank nəzarəti** alətləri təkmilləşdiriləcək, bank sisteminin sabit və təhlükəsiz inkişafının təmin edilməsi üçün müvafiq tədbirlər həyata keçiriləcəkdir. Bank sektorunda konsolidasiya tədbirləri və struktur islahatları davam etdiriləcək, rəqabətin stimullaşdırılması, bank-maliyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, o cümlədən elektron ödəniş sistemləri infrastrukturunun təkmilləşdirilməsi və onun əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzində saxlanılacaqdır. Bank sisteminin kapitallaşması davam etdiriləcək, regionlar üzrə bank şəbəkəsinin genişlənməsi təşviq olunacaq, tikinti-əmanət banklarının yaradılması dəstəklənəcək, ipoteka kreditləşdirilməsi mexanizmi təkmilləşdiriləcəkdir.

**Elektron ödəniş,** poçt əmanət sistemləri inkişaf etdiriləcək, bank xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi gücləndiriləcəkdir.

Sığorta şirkətlərinin kapitallaşma səviyyəsinin və sığorta məhsullarının çeşidinin artırılması, təkrar sığortanın, həmçinin həyat sığortasının və tibbi sığortanın tətbiqinin genişləndirilməsi ölkədə sığorta bazarının inkişafına yol açacaqdır. Kənd təsərrüfatı istehsalının sığortalanmasını stimullaşdırmaq məqsədilə müvafiq qanunvericiliyin təkmilləşdirilməsi planlaşdırılır. Habelə, **lizinq** xidmətlərinin göstərilməsi üçün qanunvericilik və institusional mühitin təkmilləşdirilməsi lizinq təşkilatlarının inkişafına və onların bazara daha asan daxil olmasına imkan yaradacaqdır ki, bu da lizinq təşkilatlarının infrastruktur və investisiya layihələrinin icrasında, kənd təsərrüfatının texnika təminatının daha münasib şərtlərlərə yaxşılaşdırılmasında mühüm maliyyə mənbəyi kimi lizinqin payını artıracaqdır.

Müasir, beynəlxalq standartlara uyğun, iqtisadiyyata geniş kapitalizasiya imkanları təqdim edən və risklərin etibarlı idarə edilməsini təmin edən, yüksək səmərə ilə fəaliyyət göstərən qiymətli kağızlar bazarının formalaşdırılmasıistiqamətində mühüm addımlar atılacaq, qiymətli kağızlar üzrə qeyri-mütəşəkkilbazarın məhdudlaşdırılması, bazarın investorlar üçün cəlbediciliyinin artırılmasıməqsədilə sistemli tədbirlər həyata keçiriləcək, bazarın peşəkar iştirakçılarının fəaliyyətini və onlara nəzarət mexanizmlərini tənzimləyən qanunvericilik təkmilləşdiriləcəkdir.

Qiymətli kağızlar bazarının institusional inkişaf səviyyəsinin yüksəldilməsi və onun beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, ölkə iqtisadiyyatında kapitallaşma dərəcəsinin yüksəldilməsinə nail olunması və iqtisadi layihələrin maliyyələşdirilməsində fond bazarı vasitəsilə cəlb olunan qeyri-inflyasiya mənşəliinvestisiya vəsaitlərindən istifadənin genişləndirilməsi tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, iqtisadi subyektlərin və əhalinin yığımlarının fond bazarında səmərəli yerləşdirilməsi üçün və ölkənin qiymətli kağızlar bazarının tədricən beynəlxalq kapital bazarlarına inteqrasiya olunması məqsədilə müvafiq şəraitin formalaşdırılması daim diqqət mərkəzində olacaqdır.

Prezident İlham Əliyevin bəyan etdiyi kimi, hazırda qarşıda duran ən başlıca məqsəd Azərbaycanı inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırmaqdır. Bu baxımdan ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər çoxşaxəli, innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Dövlət başçısının 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qarşıya qoyulmuş mühüm vəzifələrin

yerinə yetirilməsində mühüm rol oynayacaqdır. Bu İnkişaf Konsepsiyası sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində Azərbaycanın gələcək inkişaf perspektivlərini dərin elmi əsaslarla müəyyənləşdirən konseptual əhəmiyyətli sənəddir.
Beləliklə, siyasi və makroiqtisadi baxımdan sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.
Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".
Bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyatına qovuşmasına mütləq əminlik yaradır.

**i.e.d., prof. Əməkdar elm xadimi Ataşov Bəyalı Xanalı oğlu**
*Azərbaycan Kooperasiya Universiteti*
*E-mail: bayali.atashov@mail.ru*

# MÜSTƏQİL AZƏRBAYCANIN MALİYYƏ VƏ AUDİT SİSTEMİNİN İNKIŞAFINDA HEYDƏR ƏLİYEVİN TARİXİ ROLU

**Xülasə**

Məqalədə müstəqil Azərbaycanın dövlətçilik atributlarının möhkəmlənməsi istiqamətində maliyyə və audit sisteminin inkişafında Heydər Əliyevin tarixi rolu tədqiq olunmuşdur. Bu məqsədlə 1993-cü ilin ortalarından başlayaraq, ölkəmizdə makroiqtisadi və makrosabitliyin təmin olunmasında Heydər Əliyevin genişmiqyaslı fəaliyyəti təhlil edilmişdir. O çətin dövrdə ölkədə maliyyə sabitliyinin bərqərar edilməsi, maliyyə-kredit sistemindəki boşluqların aradan qaldırılması, bu sahədə qanunvericiliyin gücləndirilməsi tədbirlərinin mahiyyəti və əhəmiyyəti açıqlanmışdır. Maliyyə intizamının möhkəmləndirilməsi, maliyyə resurslarının hərəkəti üzrə səmərəli dövlət nəzarəti mexanizmlərinin işlənib hazırlanması prosesləri verilmişdir. Maliyyə institutlarının və mərkəzi orqanlarının formalaşdırlmasında və inkişafında Heydər Əliyevin xidmətləri göstərilmişdir. Maliyyə şəffaflığının təmin olunmasında və maliyyə resurslarından səmərəli istifadə edilməsində audit sisteminin və institutunun əhəmiyyəti baxılmışdır. Maliyyə və audit sistemlərinin qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi prosesləri təhlil olunmuşdur. Audit institutunun inkişafında Ümummilli Liderin diqqət və qayğısı əks olunmuşdur. Maliyyə və audit sisteminin ölkəmizin makroiqtisadi və makromaliyyə sabitliyində strateji funksiyaları və rolu ilə bağlı prioritet məsələlər və yanaşmalar ümumiləşdirilmişdir.

**Açar sözlər:** Heydər Əliyev, maliyyə sistemi, audit sistemi, maliyyə sabitliyi, audit.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlətçilik atributlarının formalaşdırılması və inkişaf etdirilməsi üçün tarixi addımlar atmalı olmuşdur. Lakin, müstəqilliyin ilk illərində – 1990-cı illərin əvvələrində ölkəmizdə bütün sahələrdə hərc-mərclik hökm sürürdü, savadsızlar və idarəetmə sahəsində təcrübəsi olmayanlar dövlətin müxtəlif mühüm sahələrinə rəhbərlik edirdilər. Ümümilikdə, ölkədə xaos yaranmışdı, makroiqtisadi və makromaliyyə sabitliyi yox dərəcəsində idi, milli valyuta–manat dövriyyəyə buraxılan kimi uçuruma yuvarlandı, inflyasiya və hiperinflyasiya tüğyan edirdi. Xüsusilə, ölkənin maliyyə sektorunda acınacaqlı vəziyyət yaranmışdı, dövlət büdcəsi boş idi, maliyyə resursları çatışmırdı, büdcənin gəlirlər hissəsini formalaşdırmaq  qeyri-mümkün olmuşdu. Dövlət aparatının, idarəetmə orqanlarının və sosial sahələrin maliyyələşdirilməsində ciddi çətinliklər var idi, digər tərəfdən də Ermənistanın hərbi təcavüzü başlamışdı və Qarabağ əldən gedirdi. Ordu yaratmağa, silah-sursat almağa, imkan yox idi.

Ölkə əhalisi böyük ümidsizliyə qapılmışdı, əli, ayağı yer tutan baş götürüb ölkədən qaçmaqda idi, müəssisələr bağlanmış və ya öz güclərindən çox-çox aşağı səviyyədə işləyirdilər. Maliyyə mənbələrinin formalaşdırılması mümkünsüz səviyyəyə çatmışdı. Neft hasilatı özünün tarixində ən aşağı həddə düşmüşdü, istehsal xərclərini belə qarşılamaq problemi yaranmışdı və maddi təchizat yox dərəcəsinə qədər enmişdi. Digər sənaye sahələri də, o cümlədən  kimya və neft kimya, metallurgiya, maşınqayırma və cihazqayırma, yüngül sənaye, yeyinti sənaye sahələrində, aqrar sektorda baş verən ağır böhran prosesləri getdikcə daha da dərinləşirdi. İqtisadiyyatın mühüm sahələrində maliyyə və dövriyyə vəsaitləri yox idi, aylarla əmək haqqları verilmirdi və müəssisələr biri-birinin ardınca iflic olurdular. Minlərlə insanın işlədiyi iri müəssisələr bağlanmaqda idi və güclü kadr qıtlığı yaranmışdı, mütəxəssislər ölkədən çıxıb gedirdilər. Əksər müəssisələrin təsərrüfat-kooperasiya əlaqələri əsasən keçmiş SSRİ respublikalarında yerləşən müəssisələrlə və iqtisadi subyektlərlə əlaqədar olduğundan vəziyyət daha da mürəkkəbləşdi, satış və təchizat partnyorları itirildi, bazarlar əldən çıxdı və ölkəmizə maliyyə daxilolmaları imkanları tükəndi, valyuta ehtiyatlarımız isə yox idi.

Digər tərəfdən, həmin dövrdə maliyyə və audit sistemlərinin müstəqillik prizmasından və meyarlarından yenidən qurmaq lazım gəlirdi. Ölkədə maliyyə nəzarət sistemi yox idi, mərkəzi maliyyə strukturlarının fəaliyyətini isə gücləndirmək və inkişaf etdirmək üçün vaxt tələb olunurdu, çətinliklə əldə olunan maliyyə resurslarından istifadə olunma proseslərinin təhlili və auditini təşkil etmək vəzifələri qarşıda dururdu. Müstəqil və qərəzsiz auditorlar yetişməmişdi, audit inistutları yox idi. Beynəlxalq səviyyədə maliyyə və audit institutları ilə əlaqələrin formalaşdırılması, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, milli iqtisadi maraqlarımızın qorunması və iqtisadi təhlükəsizliyin, onun mühüm tərkib hissəsi olan maliyyə təhlükəsizliyinin təmin edilməsi üçün konseptual yanaşmalar formalaşdırılmalı, qanunvericilik bazası yaradılmalı, inistutisional tədbirlər görülməli, kadrlar yetişdirilməli, mütəxəssislər hazırlanmalı və işlək idarəetmə sistemi qurulması tələb olunurdu. Xüsusilə, maliyyə sisteminin yaradılması və inkişaf etdirilməsi proseslərin gecikdirilməsi yolverilməz idi.

Bir sözlə, həmin dövrdə ölkəmizin bütün sahələrində olduğu kimi maliyyə və audit sistemində də hər şeyə sıfırdan başlamaq lazım gəlirdi. Bütün bunlar yalnız ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra mümkün olmuşdur. Misli görünməmiş dərin zəkaya və dünya çapında yüksək qiymətləndirilən dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev 1993-cü ilin ortalarından başlayaraq, ölkəmizin siyasi və iqtisadi sistemindəki boşluqları ardıcıllıqla və məharətlə aradan qaldırmağa nail oldu. Mərkəzi və yerli idarəetmə strukturlarının, vəzifəli şəxslərin məsuliyyət hissi dəfələrlə artırıldı, obyektiv və şəffaf kadr islahatları aparıldı, təcrübəli kadrlar dövlət işlərinə qaytarıldı və ölkədə olan problemlərin, ilk növbədə makroiqtisadi və makromaliyyə sabitliyinin yaradılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirildi:

– ölkənin taleyüklü məsələlərində dövlətin rolu və funksiyaları müstəqillik kontekstində yenidən formalaşdırıldı və zəruri tədbirlər görüldü;
– ölkəmizin milli sərvəti olan karbohidrogen resurslarının milli mənafe uğrunda səmərəli istifadəsi üzrə beynəlxalq investorlarla, maliyyə institutları, dünyanın ən güclü transmilli neft-qaz kompaniyaları ilə məhsuldar danışıqlar aparıldı, əməkdaşlıq platforması yaradıldı və nəhayət, 1994-cü il sentyabrın 20-sində "Əsrin kontraktı" imzalandı;
– neft strategiyasının formalaşdırılması, hazırlanması və icrası ilə əlaqədar olaraq maliyyə və investisiya axınlarının, o cümlədən xaricdən cəlb olunan maliyyə-investisiya vəsaitlərinin və resurslarının hərəkətində, cəlb olunmasında yeni şərait, intensivlik təmin edildi və artıq maliyyə sabitliyi üçün əsaslı zəmin formalaşdırıldı;
– görülmüş sistemli tədbirlər, o cümlədən maliyyə-pul münasibətlərinin təkmilləşdirilməsi nəticəsində ölkədə milli valyutanın tamamilə dəyərdən düşməsinin qarşısı alınması mümkün oldu və daha çevik, eləcə də dünya təcrübəsinə adekvat olan monetar siyasət irəli sürüldü. Bütün bunların nəticəsində 1995-ci ildə artıq milli valyuta-manat dayanıqlı immuntet qazanmış və onun xarici valyutalarla nisbətdə məzənnəsi sabitləşmişdi;
– sistemli və kompleks tədbirlər nəticəsində giperinflyasiya dayandırılmış və tez-tez dəyişən qiymətlər sabitləşdirildi və artıq əhali rahat nəfəs almağa başladı;
– ölkənin maliyyə-kredit sisteminin təkmilləşdirilməsi, xüsusilə kredit təşkilatlarının filial şəbəkələrinin genişləndirilməsi, bank qanunvericiliyinin gücləndirilməsi, maliyyə intizamının bütün sahələrdə bərqərar olması tədbirləri görüldü və s.

Bu qədər genişhəcmli və mürəkkəb vəzifələrin öhdəsindən gəlmək, müdrik qərarlar qəbul etmək, dövlət aparatının işləkliyinə nail olmaq və bununla da ölkəmizin müstəqil dövlət kimi siyasət yürütmək, müstəqilliyin verdiyi imkanlardan milli maraqlar naminə səmərəli istifadə etmək kimi tarixi vəzifələrin ardıcıllıqla reallaşdırılmasına nail olmaq Heydər Əliyev kimi nəhəng siyasətçinin , həm də xalqını və ölkəsini canından çox sevən böyük bir insanın imkanları dailində idi. Ümummilli lider bu yolda bütün bacarığını və liderlik əzəmətini nümayiş etdiridi və tarixi nailiyyyətlərin əldə edilməsinə nail oldu. 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında imzalanmış "Əsrin Müqaviləsi" ilə əlaqədar tədbirdə Böyük Britanya, ABŞ, Türkiyə, Rusiya Federasiyası və digər ölkələrdən yüksək səviyyəli rəsmi şəxslər iştirak etmişlər. Bu tarixi

imzalanma mərasimində Heydər Əliyev demişdir: “Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk” [8].Sonrakı proseslər göstərdi ki, müstəqillik yolunda, onun gücləndirilməsində, o cümlədən milli maraqlara xidmət edən iqtisadi siyasətin formalaşdırılmasında, həmçinin maliyyə-kredit sisteminin gücləndirilməsində kifayət qədər problemlər mövcuddur və onların ardıcıl şəkildə həll edilməsində siyasi iradə və böyük əzmkarlıq tələb olunurdu.

1995-2003-cü illərdə Heydər Əliyev dünyanın çoxsaylı ölkələrinə işgüzar səfərlər etmiş, Azərbaycan həqiqətlərini, ilk növbədə Qarabağ probleminin mahiyyətini bütün dünyaya çatdırmış, ən yüksək tribunalardan xalqımızın haqq səsini ifadə etmişdir. Eyni zamanda, Ulu Öndərin dəvəti ilə və bilavasitə dəstəyi sayəsində beynəlxalq maliyyə institutları və təşkilatları, investor-kompaniyalar, nəhəng transmilli şirkətlər ölkəmizə gəlmiş və iqtisadiyyatın müxtəlif sahələrinə investisiyalar yatırmışlar. Bunlar təkcə neft-qaz layihələri ilə bağlı olmamış, həm də energetika, neft-kimya və digər iqtisadiyyat sahələri üzrə əlaqəli olmuşdur. Ölkəmizin maliyyə sisteminin təkmilləşdirilməsinə, audit institutunun inkişaf etdrilməsinə xüsusi önəm verilmişdir. Dövlət idarəçiliyinin bütün pillələrində və strukturlarında maliyyə intizamı gücləndirilmiş, dövlət vəsaitlərindən səmərəli istifadə edilməsinin yeni mexanizmləri hazırlanmış və tətbiq olunmuşdur.

İlk növbədə ölkədə mərkəzi maliyyə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri həyata keçirildi. Maliyyə Nazirliyinin strukturu və fəaliyyəti müstəqil dövlət prizmasından və meyarlarından baxmaqla, yeniləndi və daha çevik, məhsuldar maliyyə mexanizmləri və alətləri tətbiq olundu. Dövlətin maliyyə siyasəti dövrün tələbləri çərçivəsində tənzimləndi və maliyyə resurslarından maksimum səmərəli və şəffaf istifadə edilməsinə əsaslı zəmin yaradıldı. Ölkə üzrə maliyyə vəsaitlərindən təyinatına uyğun istiafə olunması və nəzarət mexanizmlərinin işləkliyinə diqqət artırıldı, mərkəzi və regional dövlət maliyyə nəzarəti sistemi formalaşdırıldı. Dövlət büdcəsinin gəlirlər və xərclər hissənin balanslaşdırılması tədbirləri görüldü və büdcənin gəlirlər hissənin mənbələrinin genişləndirilməsi, diversifikasiyalaşdırılması üçün əlavə addımlar atıldı. Ölkəmizin maliyyə vəziyyəti tədricən sabitləşdi və nəticədə Azərbaycan özünün çoxsaylı problemlərinin, o cümlədən məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılması tədbirlərinin görülməsinə, ölkədə sosial-iqtisadi inkişafın təmin olunması tədbirlərinin həyata keçirilməsinə əlavə imkanlar formalaşdırıldı. Digər tərəfdən, iqtisadiyyatın müxtəlif sahələrinin bərpası və yenidən qurulması tədbirlərinə başalnıldı, infrastruktur obyektlərinin tikintisi böyük vüsət aldı. Daha böyük əhəmiyyət kəsb edən məsələlər isə regionda və beynəlxalq səviyyədə ölkəmiz üçün tarixi və iqtisadi-strateji önəm daşıyan enerji layihələrinin hazırlanması, müqavilələr və sazişlərin bağlanılması, bu mühüm layihələrin maliyyə problemlərinin uğurla həll olunması ilə bağlı olmuşdur. İqtisadiyyatın bütün sahələrində maliyyə mənbələrinin şaxələndirilməsi üçün vergi siyasətinin təkmilləşdirilməsi və vergi sisteminin gücləndirilməsi tədbirlərini də qeyd etmək lazımdır. Məhz Ulu Öndər Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Vergilər Nazirliyi təşkil olunmuş və dövlət büdcəsinin gəlirlərinin təmin olunmasında yeni mərhələnin başlanması təmin edilmişdir. Bundan başqa, ölkədə maliyyə-pul siyasətinin gücləndrilməsi və dünya təcrübəsinə uyğunlaşdırılması məqsədilə digər maliyyə-kredit qurumlarının, o cümlədən mərkəzi bank sisteminin fəaliyyətinə ciddi önəm verilmişdir. Maliyyə resurslarına, xüsusilə dövlət maliyyəsinə nəzarətin formalaşdırılması və dövlət büdcə-maliyyə nəzarətinin təşkili məqsədilə 1999-cu il iyul ayının 2-dən Azərbaycan Respublikası Hesablama Palatası fəaliyyətə başlamışdır. İnstitusional baxımdan Heydər Əliyevin tarixi xidmətlərindən biri də Dövlət Neft Fondunun yaradılması ilə bağlı olmuşdur. Belə ki, o gözəl anlayırdı ki, neft hasilatından əldə olunan valyuta vəsaitlərinin yüksək səviyyədə idarəedilməsi vacibdir və ölkənin maliyyə sabitliyi üçün bu həlledici əhəmiyyət kəsb edir. Heydər Əliyevin 1999-cu il 29 dekabr tarixli Fərmanı ilə Dövlət Neft Fondu yaraılmış və fəaliyyətə başlamışdır [7, s. 276]. Bundan əlavə, Maliyyə Nazirliyinin nəznində fəaliyyət göstərən mühüm maliyyə xidmət sahələrinin fəaliyyətinin müstəqillik dövrünün tələblərinə uyğun şəkildə qurulması üçün

genişmiqyaslı institusional və struktur islahatları aparılmış, maliyyə-nəzarət mexanizmləri xeyli təkmilləşdirilmişdir [3, s. 174].

Heydər Əliyev 1993-2003-cü illərdə maliyyə və audit sistemlərinin davamlı şəkildə inkişaf etməsi üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. Ölkədə ictimai-siyasi sabitliyinin bərpası ilə yanaşı, makromaliyyə sabitliyi də təmin edilmiş və valyuta ehtiyatının formalaşdırılması, artırılmasına başlamışdır. Əvvəldə qeyd etdiyimiz kimi, maliyyə intizami güclənmiş, bu sahədə zəruri tədbirlər görülmüş və tarazlı pul və məzənnə siyasəti təmin olunmuşdur. Dövlət büdcəsinin səmərəlilik və balanslaşdırılması mexanizmləri təkmilləşdirilmişdir [10]. Ölkə iqtisadiyyatının gücləndirilməsi, şaxələndirilməsi və maliyyə mənbələrinin genişləndirilməsi tədbirlərinin miqyası artırılmışdır. Bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olması ilə bərabər, iqtisadiyyatın müxtəlif sahələrində dövlətin iştirakı və əsaslı kapital qoyuluşlarının təkmilləşdirilməsi, dövlət investisiyalarının yatırılması mexanizmləri işlənib hazırlanmış və tətbiq olunmuşdur. "Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Müstəqilliyin ilk illərində baş vermiş iqtisadi tənəzzülün, vətəndaş müharibəsinin, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və sabitliyin bərpası məqsədilə Heydər Əliyevin atdığı qətiyyətli addımlar qısa müddət ərzində hər bir vətəndaşın həyatında hiss olunmağa başlamışdır [9].Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezdentinin 21 yanvar 2013-cü il tarixli Sərəncamında göstərilir ki, Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir [5].

Qeyd edək ki, Azərbaycanda audit sisteminin inkişafı da böyük ölçüdə Heydər Əliyevin tarixi xidmətləri nəticəsində mümkün olmuşdur. Əsas məqsəd və strateji hədəf isə, dövlət maliyyəsi üzərində daha səmərəli nəzarət sisteminin formalaşdırılması və obyektiv audit hesabına mövcud problemlərin üzə çıxarılması, nöqsanların aradan qaldırılması ilə bağlı idi. Bunları dərindən dərk edən Ulu Öndər Heydər Əliyev audit fəaliyyətinin və xidmətinin təşkili üzrə qanunvericilik bazasının formalaşdırılmasını təmin etmişdir. Bunun nəticəsində 16 sentyabr 1994-cü ildə "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur [4].Audit fəaliyyəti ilə qanunvericiliyin təkmilləşdirilməsi və onun işləkliyinin təmin olunması bir sıra amilləri özündə ehtiva edir: 1) auditin statusunun müəyyənləşdirilməsi; 2) aparılan auditdə bütün tərəflərin maraqlarının qərəzsiz təmin edilməsi və razılaşdırlması; 3) auditin bütün fəaliyyət istiqamətləri və növləri üzrə sıx əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi; 4) bazar iqtisadiyyatı şəraitində auditin və audit xitmətlərinin strukturunun diversifikasiyaları; 5) ölkənin iqtisadi sisteminin dayanıqlı olması və iqtisadi təhlükəsizliyin gücləndirilməsində auditin rolunun artırılması; 6) iqtisadiyyatın müxtəlif sahələrində audit nəzarəti mexanizmindən maksimum səmərəli istifadə edilməsi; 7) audit proseslərində maksimum şəffaflığın təmin olunması və s. Audit qanunveriliciyin formalaşdırılması və inkişaf etdirilməsi ölkədə audit fəaliyyətinin genişləndirilməsi, audit institutunun gücləndirilməsinə və audit təşkilatlarının yaradlılmasına, peşəkar və müstəqil auditorlar nəslinin formalaşmasına imkan vermişdir [2].

Audiotor xidmətinin təşkili ilə bağlı məsələlər müstəqilliyin ilk illərində unudulmuşdur və dövlət maliyyəsinə qeyri- nəzarət sistemi yox idi. Büdcə vəsaitlərindən istifadənin optimal nəzarət mexanizmlərinin təşkili, alternativ audit yoxlamalırının və təhlilinin aparılması vacib şərtlərdəndir. Buna görə də, 1990-cı illərin ortalarında Azərbaycanda auditor xidmətinin təşkili və bununla bağlı tədbirlərin görülməsi Heydər Əliyevin diqqətindən yayınmamışdır. Çox mürəkkəb məsələlərin həlli ilə məşğul olmasına baxmayaraq, Ulu Öndər bu mühüm sahənin fəaliyyəti ilə bağlı işlərə özünün töhfəsini vermişdir. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, məhz onun təşəbbüsü və tapşırığı ilə bu sahədə qanunvericilik bazası formalaşdırılmış və 1994-cü il 16 sentyabr tarixli "Auditor xidməti haqqında" ölkə qanunu imzalanmışdır. Audit sisteminin yaradılmasının möhkəm bünövrasi qoyulmuş və bununla bağlı normativ sənədlərin işlənməsi, tədbirlərin görülməsi təmin

olunmuşdur. Ulu Öndərin xeyir-duası ilə Azərbaycan Respublikası Auditorlat Palatası yaradılması tədbirləri görülmüş və Azərbaycan Respublikasının Milli Məclisinin 19 sentyabr 1995-ci il qərarı ilə “Auditorlar Palatası haqqında Əsasnamə” təsdiq olunmuşdur [14].5 aprel 1996-cı ildən isə Auditorlar Palatası fəaliyyətə başlamış və növbəti illərdə ölkədə audit sisteminin təşkili istiqamətində genişmiqyaslı işlər görülmüş, 1999-cu ildə ölkəmizdə Audit sisteminin İslahat Konsepsiyası işlənib hazırlanmış və bununla da audit xidmətinin təkmilləşdirilməsi, dünya təcrübəsinə uyğunlaşdırılması prosesləri sürətləndirilmişdir. Auditorlar Palatasının təşkili ölkəmizdə audit sisteminin inkişafına, müstəqil audit institutnun yaradılmasına, peşəkar auditorların yetişdirilməsinə böyük təkan vermişdir. Bununla da, ölkə iqtisadiyyatında, maliyyə axınları proseslərində, xüsusilə dövlət maliyyəsinin formalaşması, bölüşdürülməsi, maliyyə resursları ehtiyatlarının yaradılması və onlardan səmərəli istifadənin təmin olunmasında alternativ maliyyə nəzarəti-audit xidmətinin təşkili və inkişaf etdirilməsi təmin olunmuşdur.

Dövlət orqanlarında və müəssisələrində, mülkiyyət formasından asılı olmayaraq ölkənin bütün təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsi, maliyyə hesabatlarının, xüsusi ilə mühasibat uçotunun dürüstlüyünün qorunması, maliyyə resurslarından istifadə proseslərində şəffaflığın təmin olunması kimi vacib məsələlərdə audit institutunun rolu xeyli dərəcədə səmərəli olmuşdur. Ölkəmizin audit sistemi beynəlxalq audit institutlarına və təşkilatlarına uğurlu şəkildə inteqrasiya etmiş və bir çox beynəlxalq proqramalarda, o cümlədən Avropa Birliyinin TACİS proqramı üzrə tədbirlərdə fəal iştirakçı olmuşdur. Maraqlı və uğurlu bir məqam isə postsovet respublikaları arasında ilk dəfə, məhz Azərbaycanda 26 iyun 1999-cu ildə Beynəlxalq Daxili Auditorlar İnstitutunun “Audit–Azərbaycan” bölməsi təşkil edilmiş və fəaliyyətə başlamışdır. Auditorlar Palatasının fəaliyyətinin genişləndirilməsi sayəsində ölkədə 200-dən çox normativ-hüquqi aktlar işlənib hazırlanmış, xüsusilə dövlət başçısının imzaladığı 50-dən artıq fərman və sərəncamda müstəqil auditin iqtisadiyyatda tətbiq olunmasının vacibliyi və bunlarla bağlı tətbiq istiqamətləri, fəaliyyət mexanizmləri ifadə olunmuşdur [11].Audit institutunun və sisteminin davamlı şəkildə inkişaf etməsi hesabına, ölkədə sağlam rəqabət mühitinin formalaşdırılmasında, iqtisadi proseslərin səmərəliliyinin artırılmasında, qiymət və tarif siyasətinin təkmilləşdirilməsində, inhisarçılıq meyllərinin qarşısının alınmasında önəmli funksiyalar yerinə yetirilir.

Təhlillər göstərir ki, 1994-2003-cü illər ərzində Azərbaycanda audit sisteminin inkişafının təmin edilməsi üçün dövlət tərəfindən tələb olunan zəruri tədbirlər vaxtında və ardıcıl şəkildə həyata keçirilmişdir. Xüsusilə, audit xidmətinin peşəkar səviyyədə formlaşdırlması və inkişaf etdirilməsi, ölkədə audit institutunun rolunun artırılması prosesləri daim Heydər Əliyevin diqqət mərkəzində olmuşdur [12].Məhz bu cür yanaşmanın nəticəsində çox qısa müddət ərzində – 1995-2000-ci illərə ölkəmizdə maliyyə-kredit sisteminin dayanıqlılığının gücləndirilməsi, maliyyə resurslarına nəzarətin təmin olunması, iqtisadiyyatda şəffaflıq mühitinin formalaşdırılması mümkünləşmişdir. Milli iqtisadiyyatın müxtəlif sahələrində səmərəliliyin artırılması və maliyyə hesabatlarının dürüstlüyünün təmin edilməsində nəzarət funksiyalarının faydalılığının artırılması audit xidmətinin genişləndirilıməsi hesabına reallaşmışdır [13]. Eyni zamanda, bank sistemindəki mənfi halların, bankların maliyyə sabitliyinə yaranan təhlükələrin baş verməsinin qarşısının alınmasında audit yoxlamalrının rolu və əhəmiyyəti yüksək qiymətləndirilir. Bunlarla bağlı olaraq, akademik Z.Ə.Səmədzadə yazır: “Əgər auditlər düzgün olsaydı, onda heç banklar da bağlanmazdı” [15].Müasir şəraitdə maliyyə sabitliyinin qorunması və maliyyə xidmətləri bazarında baş verən proseslərin obyektiv təhlilinin aparılmasında, qiymətləndirilməsində və adekvat tədbirlərin həyata keçirilməsi üçün mühüm qərarların verilməsində audit xidmətinin rolu böyükdür. Bundan başqa, məhz audit təhlillərinin vasitəsilə məqsədli şəkildə dövlət tərəfindən reallaşdırılan əsaslı kapital qoyuluşlarının və dövlət investisiyalarının səmərəliliyinin qiymətləndirilməsi kifayət qədər faydalıdır və daha çox obyektivliyi təmin etməyə imkan verir [1].

Heydər Əliyevin diqqət və qayğısı, səmərəli xidmətləri sayəsində formalaşan və inkişaf edən müstəqil maliyyə və audit sistemimiz hazırda ölkəmizin sosial-iqtisadi inkişafının təmin olunmasında çox mühüm funksiyaları yerinə yetrirlər. Ulu Öndərin apardığı siyasətin layiqli

davamçısı və inkişafetdiricisi ölkə Prezidenti İlham Əliyev maliyyə və audit sisteminin daha da təkmilləşdirilməsinə, iqtisadi inkişaf modelimizin yeni mərhələyə keçməsində bu institutların səmərəliliyinin artırılmasına xüsusi önəm göstərir.

Son illərdə ölkəmizin maliyyə sisteminin möhkəmləndirilməsi tədbirləri strateji səviyyədə baxılmışdır və bu istiqamətdə əsas hədəflər ölkə Prezidentinin 6 dekbar 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"də ifadə olunmuşdur [6].Eyni zamanda, Auditorlar Palatasının fəaliyyəti dövlət başçısı tərəfindən yüksək qiymətləndirilmiş və peşəkarlığı ilə fərqlənən bir qrup auditorlar dövlət təltiflərinə layiq görülmüşlər. Yaxın perspektivdə bünövrəsi Ulu Öndər tərəfindən qoyulan müstəqil maliyyə və audit sistemimizin daha da inkişaf etdiriləcəyini böyük əminliklə qeyd etmək olar və bunun üçün bir sıra tədbirlərin diqqət mərkəzində saxlanılması vacibdir:

– postpandemiya şəraitində hazırkı və proqnozlaşdırılan qlobal təhdidlər də nəzərə alınmaqla, ölkəmizin maliyyə sisteminin mövcüd mexanizmlərinin maksimum təkmilləşdirilməsi, xüsusilə maliyyə nəzarəti mexanizmlərinin daha çox müstəqilliyinin təmin edilməsi tədbirləri görülməlidir;
– audit sisteminin və audit fəaliyyətinin maksimum qərəzsiz, şəffaf, müstəqil və güclü metodika əsasında təşkili istiqamətində qabaqcıl dünya təcrübəsinin dərindən öyrənilməsi və ölkəmizdə audit institutunun inkişafının sürətləndirilməsində nəzərə alımalıdır və s.

## Ədəbiyyat

1. 2016-cı ilin 05-06 aprel tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası Auditorlar Palatasının 20 illik yubileyinə həsr olunmuş tədbir və «Müasir şəraitdə auditin tənzimlənməsinin aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. http://www.samedzade.az/az/pages/13/information/137.
2. Abbasov İ.M. "Audit". Bakı, 2013.- 544 s.
3. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Maliyyə nəzəriyyəsi. Bakı, "Kooperasiya" nəşriyyatı, 2014, 648 s.
4. Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 16 sentyabr 1994-cü il, № 882.
5. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 21yanvar 2013-cü il.
6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.-59 s.
7. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018, 376 s.
8. Əliyev Ş.T. Heydər Əliyev dühası və əsrin müqaviləsi // Jurnal "Geostrategiya", Bakı, 2017, №05 (41). – s.14-18.
9. Heydər Əliyev siyasəti Azərbaycanın uğurlarının əsasıdır, gələcəyə istiqamətlənmişdir 07.05.2019. https://www.stat.gov.az/news/index.php?id=4213.
10. Heydər Əliyev və maliyyə-kredit sistemi: nailiyyətlər və çağırışlar" mövzusunda konfrans keçirilmişdir. 26.04.2013. https://azertag.az/print/210549.
11. Novruzov V.T. Azərbaycanda audit: təşəkküldən beynəlxalq standartlara doğru. http://anl.az/down/meqale/azerbaycan/2011/avqust/194259.htm.
12. Ölkədə auditor xidmətinin dövlət tənzimlənməsi.http://www.audit.gov.az/Az/page/594.
13. Səmədzadə Z.Ə. Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasi / Heydər Əliyevin iqtisadi siyasətində nəzarətin yeri və rolu. Elmi-praktik simpoziumun materialları. – Bakı: 2013. – s. 6-13.
14. Tarixi. Azərbaycan Respublikası Auditorlar Palatası. http://www.audit.gov.az/Az/page/619.
15. Ziyad Səmədzadə: "Əgər auditlər düzgün olsaydı, onda heç banklar da bağlanmazdı". Bakı, 06.03.2018. http://renkinq.az/site/news?id=1043.

**i.e.d., prof. Namazova Cəmilə Bayramali qızı**
*Azərbaycan Dövlət Gömrük Komitəsinin Akademiyasının Elmi işlər üzrə rəis müavini*
*e-poçt: c.namazova19@gmail.com*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN GÖMRÜK SİSTEMİNİN İNKİŞAFI

***Açar sözlər:*** *İqtisadi islahatlar, gömrük orqanları və gömrük xidməti, milli təhlükəsizlik, fiskal siyasət, büdcə daxilolmaları.*
***Ключевые слова:*** *Экономические реформы, таможенные структуры и таможенная служба, национальная безопасность, фискальная политика, бюджетные доходы.*
***Keywords:*** *Economic reforms, customs structures and customs service, national security, fiscal policy, budget revenue.*

Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır. O elə bir iqtisadi sistemdir ki, o dövlətimizin perspektiv inkişafı, xalqın yaşayış səviyyəsinin yüksəldilməsi imkanlarını reallaşdırmaq üçün güclü zəmin yaratmağa qadirdir. Hər zaman müstəsna təşkilat qabiliyyətinə, zəngin idarəçilik təcrübəsinə, dərin təfəkkürə və mükəmməl analitik düşüncəyə malik olan Heydər Əliyevin müstəqil Azərbaycanın inkişaf strategiyası barədə baxışları fundamental, konseptual xarakter daşıyır. Bu baxışlar Azərbaycan reallığına, onun malik olduğu imkanların sistemli təhlilinə, qloballaşan dünyada gedən proseslərin mili maraqlar baxımından qiymətləndirilməsinə əsaslanır. Dahi Ulu Öndər xarici iqtisadi siyasətlə bağlı strategiyasını da çox çətin bir şəraitdə formalaşdırdı. Xarici ticarətin liberallaşması istiqamətində çox cəsarətli addımlar atdı.

Heydər Əliyev xarici iqtisadi əməkdaşlıq məsələlərində milli maraqları ön plana çəkməyi inkişaf strategiyasının vacib prinsipi kimi qiymətləndirdi. O beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa xüsusi diqqət verirdi. Belə əməkdaşlıqda milli maraqlar əsas tutulurdu. Ölkənin maliyyə imkanlarının ildən-ilə artması, borc almağa ehtiyacların azalması, büdcə sistemində göstəricilərin müsbət meyllərinin artması onu sevindirdi.

Ölkədə iqtisadi sabitliyin bərqərar olduğu dövrdə dövlət qurumları ilə vətəndaşlar arasında müəyyən bir boşluq mövcud idi. Bu boşluğun aradan qaldırılmasını zəruri hesab edən Heydər Əliyev dövlət orqanları ilə vətəndaşlar arasındakı münasibətlərin yeni müstəvidə qurulmasını təmin etmək üçün bir sıra vacib tapşırıqlar vermiş, fərmanlar imzalamışdır. O həmçinin sahibkarların fəaliyyətinə süni şəkildə maneələrin törədilməsinin qarşısının alınmasını ən vacib məsələ hesab edirdi. Respublikada sahibkarlarla onları yoxlayan qurumlar arasında münasibətlərin partnyorluq müstəvisinə keçməsini mühüm hesab etmişdir. Buna nail olmaq üçün yoxlama və nəzarət funksiyalarını həyata keçirən bəzi dövlət orqanları ilə sahibkarlıq subyektləri arasında partynorluq sazişlərinin bağlanması praktikasına keçidin təmin edilməsi üçün zəruri tədbirlər görülməsi barədə Nazirlər Kabinetinə tapşırıq vermişdir. Həmin tapşırıqla əlaqədar Nazirlər Kabineti "Yoxlama və nəzarət funksiyalarını həyata keçirən bəzi dövlət orqanları ilə sahibkarlıq subyektləri arasında partnyorluq sazişinin nümünəvi forması" nın təsdiq edilməsi barədə qərar qəbul etmişdir.

Beynəlxalq standartlara cavab verən nəzarət mexanizmini tətbiq etməklə "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrinin aradan qaldırılması haqqında" Ulu Öndər tərəfindən imzalanmış 1999 il 7 yanvar tarixli fərman iqtisadiyyatımızda demokratik prinsiplərinin bərqərar olması baxımından çox müstəsna əhəmiyyət kəsb etdi.

Eyni zamanda "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında 1998-ci il 29 dekabr tarixli fərmanda islahatların nəzərdə tutulmuş 4 əsas istiqamətindən ikisi dövlət xərclərinin idarə edilməsi və audit sisteminin islahatını, başqa sözlə desək maliyyə nəzarətinin təkmilləşdirilməsini nəzərdə tutmuşdur.

Ümumilli liderimiz Heydər Əliyevin "Azərbaycan Respublikasında iqtisadi cinayətkarlığa qarşı mübarizə sahəsində bəzi tədbirlər haqqında" 1998-ci il 27 yanvar tarixli sərəncamını da əhəmiyyəti çox böyükdür. Qeyri-qanuni yollarla mənimsənilmiş pulların leqallaşdırmasına və digər cinayətlərin törədilməsinə əlverişli şərait yaradan bu və ya digər halların qarşısını almaq tədbirlərinə dair dövlət proqramının hazırlanmasını nəzərdə tutan həmin sənədlər Heydər Əliyevin korrupsiya və iqtisadi cinayətkarlığa qarşı mübarizə apardığını, nəzarətə, şəffaflığa necə böyük önəm verdiyini bir daha sübut edir.

Ulu Öndər sahibkarlığın inkişafına daim dəstək olmağı, onların fəaliyyətləri üçün şərait yaratmağı, özəl sektorların fəaliyyətinə mane olan birokratik əngəllərin, qanunsuz müdaxilələrin, əsassız yoxlamaların qarşısının alınması istiqamətində "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında, "Audit xidməti haqqında", "Hesablama Palatası haqqında", "Mühasibat uçotu haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında qəbul olunmuş qanunlar və fərmanlar Azərbaycanda beynəlxalq tələblərə cavab verən nəzarət sisteminin əsasını qoymuşdur [3].

Ulu öndərin həyata keçirdiyi iqtisadi və xarici siyasəti onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev çox uzaqgörənliklə və uğurla davam etdirdi. Onun imzaladığı sərəncamlar, fərmanlar dövlətin sosial-iqtisadi inkişafı naminə qəbul edilmiş dövlət proqramları Heydər Əliyev siyasətinin davamının bariz nümunəsidir.

Prezident İlham Əliyevin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökümətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planın" da və korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planında icrası nəzərdə tutulmuş bir sıra problemlər nəzarətin təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Yeniləşən iqtisadi mühitin stimullaşdırılması, bazar iqtisadiyyatına keçidin sürətləndirilməsi dövlətin bu prosesdə tənzimləyici rolunu təkmilləşdirmək zəruriyyəti yaradırdı. Belə bir vaxtda Ulu Öndər Heydər Əliyevin "Bir bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik" fikri dövlətin iqtisadi siyasətinin leytmotivinə çevrildi. O dövrlərdə mərkəzi icra hakimiyyəti orqanı kimi Vergilər Nazirliyinin qarşısına dövlət vergi siyasətini həyata keçirmək, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin etmək və bu sahədə dövlət nəzarətini həyata keçirmək kimi mühüm vəzifələr qoyuldu. Yeni vergi inzibatçılığının formalaşması missiyası da Vergilər Nazirliyinin üzərinə düşdü və Azərbaycanın vergi orqanları bu missiyanı layiqincə həyata keçirdi [5].

Ötən bu illər ərzində aparılmış geniş miqyaslı islahatlar, yerinə yetirilmiş kompleks tədbirlər, konkret hədəflərə yönəlmiş dövlət proqramlarının uğurla yerinə yetirilməsi nəticəsində respublikamızda müasir beynəlxalq standartlara cavab verən vergi xidmətinin formalaşmasına nail olundu.

Azərbaycanda iqtisadiyyatın digər sahələri kimi gömrük xidmətinin inkişafı da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev tərəfindən həyata keçirilən fəal xarici siyasət beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun yüksəlməsinə, xarici dövlətlərlə yüksək səviyyədə əlaqələrin qurulmasına, ölkənin siyasi imicinin dəyişməsinə səbəb olmuşdur. Bu da xarici-iqtisadi əlaqələrin genişləndirilməsi və ölkəyə böyük investisiya axını üçün zəmin yaratmışdır. Bu şərait ölkəyə investisiya təyinatlı malların idxalının artımı, xarici-iqtisadi fəaliyyəti tənzimləyən çevik gömrük siyasətinin həyata keçməsi, bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişafı və ona sağlam rəqabət şəraitinin yaradılmasını tələb edirdi. Gömrük xidmətinin ölkə iqtisadiyyatının inkişafında rolunu yüksək qiymətləndirən Heydər Əliyev bu orqanın fəaliyyətini daimi diqqət mərkəzində saxlayırdı. Az müddət ərzində Dövlət Gömrük Komitəsində kadr potensialının yeniləşdirilməsi, gömrük nəzarətinin səmərəliliyin və xidməti intizamının gücləndirilməsi, gömrük buraxılış məntəqələrinin texniki resurslarının yenilənməsi və müasirləşdirilməsi yeni gömrük postlarının yaradılması, avtomatlaşdırılmış idarəetmə sisteminə keçid, tarif-tənzimləmə sisteminin təkmilləşdirilməsi, qaçaqmalçılığın qarşısının alınması üçün tədbirlərin görülməsi və sair tədbirlərin həyata keçirilməsi nəticəsində respublikada gömrük işinin yenidən qurulmasına başlanıldı. Gömrük qanunvericiliyinin

inkişafında Azərbaycan Prezidentinin 27 oktyabr 1998-ci il tarixli fərman ilə təsdiq edilmiş Dövlət Gömrük Komitəsi haqqında əsasnamədə mühüm yer tutur. Bu sənəddə respublikada gömrük siyasətinin strateji məsələlərinin müəyyənləşdirilməsi və həlli mərhələsində Dövlət Gömrük Komitəsinin funksiyaları öz əksini tapmışdır. Daha sonra Azərbaycan Gömrük Təşkilatının işini dünya standartlarına yaxınlaşdıran mühüm sənədlərdən biri də Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə" qanunu ilə təsdiq olunmuşdur.

Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycan gömrüyünün öz ənənələrini qoruyub saxlanması və daha da inkişaf etdirib təkmilləşdirilməsi işini bu gün də diqqət mərkəzində saxlayır. Artıq Azərbaycan Dövlətinin Gömrük xidməti mükəmməl normativ-hüquqi bazaya, inkişaf etmiş infrasktruktura, və maddi-texniki bazaya, elektron-xidmətinə və digər vəsaitlərə malik olmaqla, ölkəmizin quru, hava və dəniz yollarında dövlətimizin iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılıqla və qanun pozuntuları ilə uğurla mübarizə aparır.

Son dövrlərdə keçirilən tədbirlərin birində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev qeyd edib ki, əsası Ümumilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi sistemin davamlılığının təmin olunması və qorunmasında gömrük orqanlarının mühüm rol oynadığını və Azərbaycan Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsi olaraq gömrük orqanlarında islahatların aparılması istiqamətində mühüm işlər görülmüşdür. O, qeyd etmişdir ki, gömrük orqanlarında həyata keçirilən islahatlar ölkənin iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, sahibkarlıq mühitinin yaxşılaşdırılması və biznes mühitinin inkişafına da tövhəsini vermişdir. Bu dövrlərdə gömrük orqanlarının fəaliyyətinin yeni fəlsəfəsi formalaşdırılır, sahibkarlıq subyektləri ilə səmərəli dialoqlar qurulur, fəaliyyətlərində şəffaflıq təmin edilir, gömrük prosedurları sadələşdirilir, gömrük orqanlarının qanunvericilik bazası ardıcıl olaraq təkmilləşdirilir.

Dövlət başçısının apardığı iqtisadi siyasətin nəticəsi olaraq, Dövlət Gömrük Komitəsinin strukturunun Avropa Standartlarına uyğunlaşdırılması, insanlara yeni idarəetmə prinsipləri ilə gömrük xidmətinin göstərilməsi ölkəmizin iqtisadi inkişafına öz töhfəsini vermişdir. Gömrük nəzarətinin təşkili sahəsində aparılan islahatların ilk növbədə biznes subyektlərinin, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafı üzrə bir sıra tədbirlər görülmüşdür.

Ölkədə Milli təhlükəsizliyin, ictimai asayişin, insanların mənəviyyatının həyat və sağlamlığın, ətraf mühitin, xalqımıza məxsus olan bədii, tarixi və arxeoloji sərvətlərin qorunması, gömrük işi sahəsinə məxsus cinayətlərə, gömrük hüquq pozuntularına qarşı mübarizə aparılması, gömrük işinin əleyhinə inzibati xətaların baş verməsinə qarşı, qaçaqmalçılığa qarşı mübarizə aparılması, iqtisadi təhlükəsizliyin qorunması istiqamətində əməli fəaliyyətin təmin olunması, beynəlxalq əməkdaşlıq çərçivəsində əməliyyatların dünya standartları qaydalarına uyğun aparılması, beynəlxalq ticarətin, idxal və ixrac əməliyyatlarının təhlükəsiz qaydada həyata keçirilməsi, gömrük fəaliyyətində maliyyə fəaliyyətinin, uçot və statistika, gömrük daxilolmalarının düzgün aparılması, maliyyə əməliyyatlarında dürüstlüyünün və şəffaflığın təmin olunması istiqamətində əsaslı dəyişikliklər aparılmağa başlandı. Respublikanın iqtisadi potensialı yeniləndikcə və xarici ticarət əlaqələri genişləndikcə gömrük orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə böyük ehtiyac yarandı. Ona görə də mili iqtisadiyyatın inkişafı zəmnində ortaya çıxmış yeni tələblər, beynəlxalq iqtisadi inteqrasiya və qloballaşma proseslərinin gücləndiyi bir zamanda gündəmə gələn beynəlxalq normaların tətbiqi zərurəti ilə yeni "Gömrük Məcəlləsi" layihəsinin hazırlanması işinə başlandı.

Gömrük Məcəlləsinin yeni layihəsi Dövlət Gömrük Komitəsində Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatı inkişaf Proqramının birgə həyata keçirdiyi "Azərbaycan Respublikasında Gömrük Xidmətinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində hazırlandı [4].

Dövlət Gömrük Komitəsi hər il olduğu kimi son illərdə də fiskal siyasətin həyata keçirilməsi, idxal-ixrac əməliyyatlarının və gömrük nəzarətinin təkmilləşdirilməsi, xarici-

iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimlənməsi və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Azərbaycan gömrüyü təkcə fiskal siyasətin həyata keçirilməsində uğurlar qazanmamış, həm də gömrük nəzarətinin daha mükəmməl təşkili, gömrük sisteminin yenidən qurulması, maddi-texniki bazasının möhkəmləndirilməsi, informasiya texnologiyalarının tətbiqi, kadrların işə qəbulu prosedurlarında daha bilikli və bacarıqlı insanların işə qəbulu və yeni inzibati idarəetmə sisteminin qurulması və insan resurslarından daha səmərəli istifadə metodlarının tətbiqi həyata keçirilmişdir.

Ötən 30 ilin son 25 ilində gömrük orqanlarında qaçaqmalçılığa qarşı mübarizə səhəsində də, köklü dəyişikliklər baş vermiş və bu işdə də yüksək nəticələr əldə olunmuşdur. Gömrük xidmətində əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi məqsədilə mobil qruplar yaradılmış və bu işdə daha bacarıqlı kadrlar cəlb olunmuş və onlar da müasir texnika və texnologiya ilə təchiz edilmişlər. Statistikaya nəzər salsaq, həyata keçirilən tədbirlərin nəticəsi olaraq hüquq pozma faktlarına qarşı göstəricilər artan dinamika ilə müşahidə edilib.

Dövlət Gömrük Komitəsinin fəaliyyətində biznes-gömrük əməkdaşlığına xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə Gömrük Komitəsinin əməkdaşları ilə iş adamlarının görüşləri keçirilir, ölkədə baş verən iqtisadi proseslər müzakirə edilir. Biznes fəaliyyəti ilə məşğul olan sahibkarla iqtisadi prosedurların yaratdığı problemlər təhlil olunur, idxal-ixrac əməliyyatlarının vəziyyəti barədə həm iş adamları, həm də onların partnyorları məlumatlandırılır, onların fikirləri öyrənilir, təklifləri dəyərləndirilir, nəticələr əldə olunur.

Azərbaycanda Dövlət Gömrük Komitəsinin fəaliyyətində biznes-gömrük əməkdaşlığında son illərdə baş vermiş əsas proseslərdən biri də xarici ticarət dövriyyəsinin artırılması məqsədilə gömrük prosedurlarının sadələşdirilməsi və bəyannamələrin elektron qəbuludur. Bu istiqamətdə gömrük rəsmiləşdirilməsinin asanlaşdırılması, şəffaflığın təmin edməsi, gömrük əməkdaşı ilə vətəndaşların təmasının minimuma endirilməsi məqsədilə informasiya texnologiyalarının tətbiqi daha yeniləşdirilir, e-hökümət portalı vasitəsilə Dövlət Gömrük Komitəsinin təklif etdiyi xidmətlərin sayı artmışdır. Elektron Hökümət Portalı vasitəsilə göstərilən xidmətlərin sayı artırılıb və ümumilikdə 2 milyon 50 mindən artıq şəxs elektron xidmətlərdən istifadə edib. Qeyd etmək istərdim ki, 20-yaxın dövlət qurumu və bir çox özəl təşkilatlarla “on-layn” şəkildə məlumat mübadiləsi təmin edilib. Diqqətinizə çatdırmaq istərdim ki, Azərbaycan gömrük orqanlarının əldə etdiyi nailiyyətlər, Ümumdünya Gömrük Təşkilati və digər beynəlxalq qurumlar tərəfindən inkişaf etmək də olan ölkələrə tövsiyə olunub.

Həyata keçirilən tədbirlər sayəsində 60-dan çox iqtisadi operatorla “Yaşıl dəhliz” buraxılış sistemindən istifadəyə icazələrin verilməsi təmin edilib. Bu buraxılış sistemi üzərindən Türkiyə, Gürcüstan, Ukrayna, İran və s. dövlətlərlə bağlanmış sazişlər nəticəsində əldə olunan və həm də elektron formada göndərilən qısa idxal bəyannaməsi vasitəsilə təqdim olunan məlumatlar əsasında aparılan gömrük nəzarətinə risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük-sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi ilə malların və nəqliyyat vasitələrinin fiziki yoxlanması aparılmadan gömrük proseduruna uyğun gömrük ərazisinə buraxılışı həyata keçirilir. Bununlada kiçik və orta sahibkarlıq subyektləri tərəfindən gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi prosesinə sərf olunan vaxt və xərclərin minimuma endirilməsinə şərait yaradılmışdır. Prezidentimizin 2017-ci il tarixli sərəncamına əsasən Ümumi Tranzit Proseduru haqqında Konvensiya və mallarla Ticarətdə Sənədləşmənin sadələşdirilməsi haqqında Konvensiyanın idarəetmə orqanı olan Avropa İttifaqı və Avropa Azad Ticarət Assosiyanın qəbul etdiyi qərarlara əsasən Azərbaycanın bu konvensiyalara qoşulması baş tutmuşdur [1].

Avropa Yeni Kompyuterləşdirilmiş Tranzit Sisteminin tətbiqi respublikamızın ərazisindən keçən beynəlxalq gömrük tranzit proseduranda daşınan malların həcminin artırılmasına səbəb olmaqla ölkənin tranzit potensialının inkişaf etdirilməsində mühüm rol

oynayacaq. Azərbaycan Respublikasında istehsal olunan “MADE İN AZERBAİJAN” brendi malların Avropa Yeni Kompüterləşdirilmiş Tranzit sisteminin üzvü olan Avropa qitəsində yerləşən ölkələrin bazarlarına çıxışı və təyinat yerlərinə çatdırılması üçün imkan yaranmışdır. Son illərdə gömrük sistemində tətbiq edilən yeniliklərin maliyyə nəzarətinin gücləndirilməsinə, uçotun düzgün qurulmasına, ticarətin avtomatlaşdırılmasına, idxal-ixrac əməliyyatlarının həcminin artırılmasına şərait yaratdığını, nəticədə son iki ildə gömrük orqanları tərəfindən əlavə 2 milyard manat vəsaitinin dövlət büdcəsinə keçirilməsi diqqətə çatdırılır. Beynəlxalq təcrübədə gömrük orqanlarının etibarını qazanan şəxslərə münasibətdə sadələşdirilmiş gömrük rəsmiləşdirilməsi və digər imtiyazları özündə ehtiva edən müxtəlif proqramlarını tətbiqi dövlətə özəl sektor, gömrüklə biznes və sahibkarlıq fəaliyyəti arasında qarşılıqlı etimad prinsiplərinə arxalanan səmərəli əməkdaşlığın qurulmasına şərait yaradılmışdır.

Son illərdə həm Dövlət Vergi Xidmətində, həm də Dövlət Gömrük Komitəsində aparılan irimiqyaslı islahatlar, şəffaflığın təmin olunması, maliyyə əməliyyatlarının uçotunun dəqiqləşdirilməsi, audit prosedurlarının təkmilləşdirilməsi, il ərzində büdcə daxilolmaları üzrə əməliyyatların iqtisadi təhlilinin düzgün həyata keçirilməsi və digər prosedurların təkmilləşdirilməsi nəticəsində büdcə daxilolmalarında gəlirlərin artmasına səbəb olmuşdur. Belə ki, Dövlət Vergi Xidmətinin keçən ilin hesabatlarına əsasən vergi ödəyicilərinin bütün öhdəlikləri üzrə ümumilikdə dövlət büdcəsinə hesablanmış vəsaitin məbləği 2020-ci ildə 8996,9 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilə nisbətən 3,3 %-lik artım deməkdir. O cümlədən, dövlət büdcəsinə hesablanmış öhdəliklərin həcmi qeyri-neft sektoru üzrə 8,0 % artsa da, 17352, 1 min manata 79383 min man. Neft sektoru üzrə 22,1 % azalmışdır (1358,0 min manata qarşı 1058,6 min manata) ki, bu da ümumi artımın qeyri-neft sektoru hesabına əldə olunduğunu göstərir. Vergi orqanları xətti ilə dövlət büdcəsinə təmin olunan gəlirlərin cari il ərzindəki artım meylləri qeyri-neft sektoru üzrə müşahidə olunur ki, bu meyllərin də davam etməsi ilin sonunadək illik dürüstləşdirilmiş proqnozdan 250,0-300,0 min manat məbləğində təklif olunan proqnozun isə artıqlaması ilə realladırılacağını ehtimal etməyə imkan verir[2]. Digər tərəfdən, qeyri-neft ÜDM-in həcminə və artım templərinə adekvat yığım potensialının mövcud olması şəraitində qeyri-neft sektoru üzrə 01.10.2020-ci il tarixə dövlət büdcəsinə olan artıq ödəmələrin (2466,8 min manat) borcun məbləğini (1503,2 min manat) üstələməklə illik proqnozlara qarşı yüksək nisbətlərdə olması koronovirus infeksiyasının yayılmasının qarşısının alınması çərçivəsində real sektorun fəaliyyətində məhdudiyyətlərin tətbiqinin, eləcə də Ermənistan Respublikasının təcavüz aktlarının qarşısının alınması və Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən həyata keçirilən, dünya hərb tarixinə yazılmış əks hücum əməliyyatları nəticəsində işğal altında olan torpaqlarımızın azad edilməsilə əlaqədar iri miqyaslı tədbirlər daxilolma potensialının reallaşdırmasına müəyyən təsirlərinin də qaçılmaz olması mütləq qaydada nəzərə alınmalıdır.

Dövlət Gömrük ödənişləri bazasının azalması şəraitində potensialını maksimum səfərbər olması ilə yığım prosesinin təkmilləşdirilməsi, elektron informasiya sistemində xarici ticarət iştirakçılarının dövlət büdcəsinə hesablaşmalarının uçotunun aparılmasında “şəxsi hesab vərəqəsi” prinsipinin tətbiq olunması, o cümlədən borc və artıqödəmə məbləğlərinin, gömrük ödənişlərinin gömrük bəyannamələrinə uyğun uçotunun təşkil olunması daha da aktuallaşsa da, bu sahədə praktiki işlər hələ də tamamlanmışdır.

Dövlət Gömrük Komitəsinin xətti ilə təmin olunan daxilolmaların 2020-ci ilin yanvar-oktyabr aylarındakı göstəriciləri ilin sonunadək təxminin 3923,6 min manat vəsaitin dövlət büdcəsinə toplanılacağını deməyə əsas verir ki, bu da cari ilin dürüstləşdirilmiş proqnozundan 93,6 min manat çox olmaqda 2021-ci il üçün təklif olunan proqnozla eyni səviyyədədir.

Dünyada və regionda gömrük işi sahəsində baş vermiş dəyişikərlə uzlaşmaq, beynəlxalq əməkdaşlıq əlaqələrini istər regional, istərsə də beynəlxalq səviyyədə gücləndirmək, xarici ölkələrin gömrük xidmətlərinin iş fəaliyyətinin öyrənilməsi və təcrübə mübadiləsinin aparılması Dövlət Gömrük Komitəsi üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Gömrük xidmətinin dünyanın bir sıra nüfuzlu beynəlxalq qurumları və digər dövlətlərin gömrük idarələri ilə əməkdaşlığın getdikcə möhkəmləndirilməsi gömrük işi sahəsində mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan bu qurumların Ümumdünya əhəmiyyətinə malik bir çox tədbirləri məhz Azərbaycanda Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzində keçirilir.

Aprel ayının 20-də Ümumdünya Gömrük təşkilatının yük hədəfləmə sisteminin Azərbaycan gömrük sistemində tətbiqi ilə bağlı görülmüş işlərin yekunlaşmasının nəzərdə tutan sənədin onlayn imzalanma mərasimi keçirilib. Mərasimdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, Komitənin müvafiq qurumlarının rəhbərləri, ÜGT-nin baş katibi Kunio Mikuriya, bu qurumun Nəzarət və Asanlaşdırma üzrə direktoru Pronab Kumar Das, Administrasiya və Heyət üzrə rəhbər Hans Pieter və başqaları da iştirak etmişlər. Görüşdə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev bildirib ki, Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin səmərəli şəkildə reallaşdırdığı uzaqgörən və uğurlu inkişaf kursu nəticəsində Azərbaycan gömrük xidməti ticarətin asanlaşdırılması və təhlükəsizliyin təmin edilməsi istiqamətində bir çox islahatlar həyata keçirilib, şəffaf siyasət və korrupsiya ilə mübarizə tədbirləri nəticəsində böyük nailiyyətlər əldə edilib.

ÜGT-nin risklərin idarə edilməsinə əsaslanan sistemin Azərbaycan gömrüyündə tətbiqinin DGK üçün böyük əhəmiyyət daşıdığını vurğulayan sədr gömrük işində risklərin qiymətləndirilməsinə dəstək məqsədilə hazırlanan və yüklərə dair məlumatların toplanmasına, saxlanmasına və mübadilə edilməsinə imkan verən YHS yüksək riskli yüklərin gömrük-sərhəd buraxılış məntəqələrindən keçidin sürətləndirilməsinə, bu məqsədlə ticarətin asanlaşdırılmasına və təhlükəsizliyin təmin olunmasına böyük imkanlar yaranacaqdır.

Müasir qloballaşan dünyada uğurlu nailiyyətlər əldə etmək və güclü iqtisadiyyata nail olmaq üçün bir çox iqtisadi sahələrlə yanaşı gömrük infrastrukturunun beynəlxalq standartlara uyğun inkişaf etdirilməsi vacibdir. Azərbaycanda gömrük fəaliyyətində bu potensialın inkişaf etdirilməsi, elm və praktiki biliklərə nail olmaq, təcrübə mübadiləsini genişləndirmək istiqamətində qarşıya qoyulmuş gələcək inkişaf istiqamətləri daim diqqət mərkəzində durmalı və hədəflərə nail olmaq üçün inamlı və zəruri addımlar atmalıdır.

**Xülasə**

Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyev Azərbaycanda Gömrük fəaliyyətinin ənənələrinin qorunub saxlanması və inkişafını təkmilləşdirmək istiqamətində, eləcə də vergi xidmətinin də fəaliyyətinin artırılması istiqamətində irimiqyaslı islahatların aparılmasına əsas verən bir çox fərmanlar imzalamışdır.

Respublikada fiskal siyasəti həyata keçirən Dövlət Gömrük Komitəsində və Dövlət Vergi Xidmətində aparılan irimiqyaslı islahatlar bu qurumların fəaliyyətində şəffaflığın təmin olunması, maliyyə əməliyyatlarının uçotunun dəqiq aparılması, audit prosedurlarının təkmilləşdirilməsi, idxal-ixrac əməliyyatlarının artırılması, milli təhlükəsizliyin qorunması, beynəlxalq ticarətin inkişaf etdirilməsi, vergi və gömrük prosedurlarının dünya standartları səviyyəsində həyata keçirilməsinə şərait yaratmışdır. Son illər ərzində büdcə daxil olamaları üzrə əməliyyatların iqtisadi təhlilinin dürüst aparılması, həyata keçirilən prosedurların təkmilləşdirilməsi nəticəsində büdcə daxilolmalarında gəlirlərin artmasına səbəb olmuşdur.

Dövlət Gömrük Komitəsində həyata keçirilmiş islahatlar son illərdə beynəlxalq əlaqələrin genişləndirilməsinə və fəaliyyətin beynəlxalq standartlara uyğun inkişaf etdirilməsinə səbəb olmuşdur.

**Резюме**

Президент Ильхам Алиев, достойный продолжатель дальновидной политики общенационального лидера Гейдара Алиева, подписал ряд указов, направленных на

сохранение и совершенствование традиций таможенной деятельности, а также повышение активности налоговой службы в Азербайджане.

Проведенные Государственным таможенным комитетом и Государственной налоговой службой масштабные реформы, которые реализуют фискальную политику в стране, создали условия для обеспечения прозрачности деятельности этих двух структур, точного учета финансовых операций, совершенствования процедур аудита. , увеличение импортных и экспортных операций, защита национальной безопасности, развитие международной торговли, создание условий для реализации таможенных и налоговых процедур на уровне мировых стандартов.

В последние годы, благодаря правильному экономическому анализу операций с доходами бюджета, совершенствование применяемых процедур привело к увеличению доходов бюджета.

Реформы, проведенные в Государственном таможенном комитете за последние годы, привели к расширению международных связей и развитию деятельности в соответствии с международными стандартами.

**Summary**

President Ilham Aliyev, worthy successor of the national leader Heydar Aliyev's far-sighted policy, signed a number of decrees aimed at preserving and improving the traditions of Customs activity, as well as increasing the activity of the Tax Service in Azerbaijan.

Large-scale reforms have undertaken by the State Customs Committee and the State Tax Service which implement the fiscal policy in the country, created conditions for the ensuring the transparency in the activities of these two structures, accurating the accounting of financial transactions, improving audit procedures, increasing the import and export operations, protecting the national security, developing international trade, creating conditions for the implementation of customs and tax procedures at the level of world standards.

In recent years, due to the correct economic analysis of the budget revenue transactions, the improvement of the procedures implemented has led to an increase in budget revenues.

Reforms have implemented in the State Customs Committee in recent years have led to the expansion of international relations, and the development of activities in accordance with international standards.

**Ədəbiyyat**

1. A.S. Şəkərəliyev. Gömrük işinin təşkili və idarəedilməsi,. Dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2015, 168 səh.
2. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin illik hesabat məlumatları, 2015-2020.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında qərar. - №-91, 1998.
4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı, 2011.
5. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2000.
6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər. Bakı, 2021.
7. Azərbaycanın Vergi Xəbərləri jurnalı, 2019.

**Mirəli Kazımov**

*Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında*
*DVX-nin Tədris Mərkəzinin rəisi, hüquq elmləri doktoru*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN İQTİSADİ TƏNZİMLƏMƏ STRATEGİYASI

**Xülasə**

Bu məqalə ümummilli liderimiz Heydər Əliyevin sabitliyə və iqtisadi inkişafa nail olmaqdakı roluna həsr edilmişdir. Məqalədə keçid iqtisadiyyatı, iqtisadi sabitliyə nail olmaq problemindən bəhs olunur. Mühasibat uçotunun və beynəlxalq standartların təkmilləşdirilməsi

məsələlərinə xüsusi diqqət yetirilir. Ümummilli liderin sosial və iqtisadi uğurlara nail olmaqdakı rolu təhlil olunur.

*Açar sözlər: Vergi siyasəti, vergi inzibatçılığı, maliyyə hesabatı*

## Giriş

Azərbaycan dünyanın inkişaf etmiş bir çox ölkələrin 100 illərlə keçdiyi tarixi mərhələni son 30 ildə uğurla başa vurmuşdur. Hazırda iqtisadi inkişaf və tərəqqi mərhələsinə qədəm qoymuş, ərazisi işğaldan azad edilmiş Azərbaycan bu nailiyyətləri qısa zaman kəsiyində asan yolla əldə etməmişdir. Keçmiş Sovetlər Birliyinin süqutundan sonra müstəqilliyinin bərpa olunduğu ilk illərdə Azərbaycan çox böyük sosial-iqtisadi çətinliklərlə üzləşdi. İqtisadi böhran, inflyasiyanın hiperinflyasiyaya çevrilməsi ilə bağlı sosial xarakterli ziddiyyətlərin meydana çıxması, ərazisinin 20%-nin erməni qəsbkarları tərəfindən işğal edilməsi, suverenliyin itirilməsi təhlükəsinin yarandığı bir şəraitdə ölkədə siyasi və sosial-iqtisad sabitliyi bərpa etmək, müstəqil respublikanın idarəetmə strukturlarını yaratmaq, ölkəni inkişaf yoluna çıxartmaq, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında qətiyyətli addımların atılması sayəsində mümkün olmuşdur.

Ulu öndərimiz yazırdı: "*Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir. "Heydər Əliyevin ordumuzun gücləndirilməsi, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun qaldırılmasında, iqtisadiyyatın inkişafında, müdafiə sənayesinin formalaşmasında rolu əvəzsizdir. Məhz onun əsasında Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ailtında keçirilən 44 günlük Vətən müharıbəsi nəticəsində torpaqlarımız işğaldan azad olundu, ordumuz şanlı qələbə çaldı.*

## İqtisadi böhran və islahatlar

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sönra düşünülməmış şəkildə iqtisadiyyatın liberallaşdırılması, mövcud iqtisadi əlaqələrin kəsilməsi, daxili bazarın qorunmaması çox qısa zamanda dərin iqtisadi böhrana əhalinin həyat səviyyəsinin kəskin şəkildə aşağı düşməsinə səbəb oldu. Bu vəziyyətin yaranmasının subyektiv və eyni zamanda obyektiv səbəbləri oldu. Subyektiv səbəblərə dövlətçilik təcrübəsi olmayan səriştəsiz, şəxslərin hakimiyyətə gəlməsi, obyektiv səbəblərə isə dünyanın iqtisadi inkişaf tarixində inzibatl-amirlik prinsiplərinə əsaslana sosializm istehsal üsulundan , şəxsi mülkiyyətə əsaslanan bazar iqtisadiyyatına keçid prosesinin nəzəri və praktiki əsaslarının olmaması oldu. Qeyd etmək lazımdır ki, iqtisadi fikir tarixində sosializmdən kapitalist istehsal üsuluna kecid olmadığına görə onun nəzərı əsasları da formalaşmamışdı. Keçid iqtisadiyyatının qanunayuğunluqlarının müəyyən edilməsi və müvafiq təhlillərin aparılmasına illərlə vaxt tələb olundu.

Təəssüflər olsun ki, o dövrdə mövcud iqtisadi modellər də tam şəkildə iqtisadi inkişaf səviyyələri müxtəlıf olan ölkələrdə tətbiq edilə bilmirdi. İqtisadi böhrandan keçid məqsədilə nəzəri əsasları D.Uilyamson tərəfindən qoyulan Vaşinqton konsensusu bir çox ölkələrdə tətbiq edilməyə başlanıldı. Bu konsensus o illərdə iqtisadi transformasiya proseslərinə Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun razılaşdırılmış baxışı idi. Onun əsas prinsiplərinə aşağıdakılar aid idi:

- xarici iqtisadi əlaqələrinn liberallaşdırılması;
- dövlət büdcəsi kəsirinin minimum səviyyədə saxlanılması;
- valyuta mübadiləsinin sərbəst buraxılması;
- dövlət əmlakının özəlləşdırılməsi;
- iqtisadiyyatın sərbəst tənzimlənməsi və c

Məhz 1991-1993 –cü illərdə düşünülmədən Vaşinqton konsensusun müddəalarının tətbiq edilməsi nəinki Azərbaycan iqtisadiyyatını böhran vəziyyətinə, hətta onun müstəqilliyinin mövcudluğunu büyük təhdidlər qarşısında qoydu. Cox qəribədir ki, XVIII əsrdə

formalaşan klassik iqtisadi nəzəriyyənin artiq fəaliyyət göstərməsi mümkün olmayan prinsipləri XX-əsrin sonunda Azərbaycanda tətbiq edilməyə başlanıldı. Adam Smitin dövlət əlini iqtisadiyyatdan nə qədər tez çəksə bir o qədər yaxşıdır tezisi artıq səmərəliyini itirmişdi. İqtisadi münasibətlər tam şəkildə formalaşmayan bazar iqtisadiyyatının ixtiyarına buraxıldı. İqtisadiyyat dövlət tərəfindən demək olar ki tənzimlənmirdi.

Yalnız 1993-cü ildən etibarən Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət ölkədə makroiqtisadi stabilliyin yaranmasını, əhalinin maddi rifahının yüksəlməsini, sahibkarlığın inkişafının stimullaşdırılmasını, büdcə gəlirlərinin artmasını və digər göstəricilərin dinamikasındakı sabit müsbət meyllərin yaranmasını təmin etdi. Qısa müddət ərzində Azərbaycanın zəngin karbohidrogen yataqlarının birgə istismari ilə baglı Əsrin müqaviləsinin imzalanması, xarici investisiyaların öıkəyə cəlb edilməsi, yeni iş yerlərinin yaranması, iqtisadi aktivliyin stimullaşdırılması sahəsində əməli, düşünülmüş iqtisadi cəhətdən əsaslandırılmış tədbirlərin həyata keçirilməsi iqtisadi böhranın fəsadlarını aradan qaldırdı. Dövlət əmlakının özəlləşdirilməsi, yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət proqramları qəbul edildı və icra olunmağa başlanıldı. Artıq Azərbaycanda gələcək iqtisadi inkişaf yollarının dərin fundamenti yaradıldı.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş strateganın uğurları düşünülmüş dövlət siyasətinin nəticəsidir. Azərbaycanın müasir sosial-iqtisadi inkişaf səviyyəsi ona keyfiyyətcə yeni innovativ tərəqqi mərhələsinə qədəm qoymasına böyük imkanlar yaradır.

**İqtisadi stabillik və vergi siyasəti**

Ümummilli lider Heydər Əliyevin biz iqtisadiyyatı vergi yolu ilə tənzimləməliyik fikri uzun illər Azərbaycanda bir şüara çevrilmiş və hal-hazırda da iqtisadiyyatın tənzimlənməsinin əsas alətlərindən biridir. Yalnız ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi iqtisadiyyatın digər sahələrində olduğu kimi vergi siyasətində də sistemli münasibətlərin meydana gəlməsinə əsas yaratmışdır. Onun rəhbəliyi altında həyata keçirilən islahatlar ölkədə makroiqtisadi stabillik yaratmış və vergi siyasətinin əsas təməl istiqamətlərini müəyyənləşdirmişdir. Sözün tam mənasında demək olar ki, bu 30 il ərzində keçilən çətin yolun uğurlu nəticələri Ulu öndərimiz Heydər .Əliyevin adı ilə bağlıdır.

Azərbaycan iqtisadiyyatının dinamik olaraq inkişafının təmin edilməsində vergi siyasətinin çox mühüm rolu olmuşdur. Ölkədə böyük iqtisadi dəyişikliklərin baş verməsi, iqtisadiyyatın sürətli inkişafı, hər il minlərlə yeni müəssisə və sahibkarlıq subyektlərinin yaranması, vergi yükünün azaldılması və vergilər sahəsində qanunvericilik bazasının təkmilləçdirilməsi ilə müşahidə edilmişdir. Təməli Heydər Əliyev tərəfindən qoyulan prinsiplər əsasında Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında aparılan sosial-iqtisadi siyasət nəticəsində əldə edilmiş uğurlar ölkəmizin davamlı inkişafının təmin edilməsinə və onun keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsinə zəmin yaratmışdır.

İqtisadi inkişafa xidmət edən və beynəlxalq standartlara cavab verən təkmil qanunvericilik bazası rəqabət qabiliyyətli azad iqtisadi mühitin yaradılmasına, vergi inzibatçılığının müasirləşdirilməsinə, vergi sistemində mütərəqqi İnformasiya Kommunikasiya Texnologiyalarının tətbiqinə əlverişli şərait yaramaqla yanaşı, milli vergi sisteminin beynəlxalq vergi sisteminə inteqrasiyasına və güclü nəzarət mexanizmlərinin qurulmasına imkan vermişdir. İqtisadi inkişafın təmin edilməsində və onun davamlı xarakter daşımasında vergi siyasəti xüsusi ilə əhəmiyyətlidir. Vergi siyasəti fiskal funksiyaları yerinə yetirməklə yanaşı, iqtisadiyyatın stimullaşdırılmasında, onun şaxələnməsində, sosial-iqtisadi bərabərsizliklərin tənzimlənməsində mühüm rol oynayır.

Beləliklə, öz həqiqi dövlət müstəqilliyinə qovuşmuş Azərbaycanın milli mənafeləri, qlobal iqtisadi meyllər, geosiyasi reallıqlar, potensial imkanları və digər vacib amillər nəzərə alınmaqla milli inkişaf doktrinası hazırlandı. Həyata keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində sabitləşmə və dirçəliş mərhələsi başlandı. Nəhayət keçid dövrünün başa çatması və

yeni iqtisadi inkişaf səviyyəsinə keçid mərhələsinə qədəm qoyan ölkəmizin səmərəli bazar mexanizminə malik özünəməxsus iqtisadi inkişaf modeli formalaşmışdır. Dövlət özünün tənzimləyici funksiyalarından geniş istifadə etməklə biznesi və cəmiyyətin bütün təbəqələrini yüksək həyat səviyyəsini təmin etməyə imkan verən vətəndaş cəmiyyətinin qurulmasında səfərbər etməyə nail olmuşdur.

Müasir Azərbaycan iqtisadiyyatının inkişafında vergi syasəti vasitəsi ilə büdcə gəlirlərinin formalaşması ilə yanaöi onun iqtisadi stimullaşdırma funksiyalarına xüsusi diqqət yetirilir. Vergi siyasəti vasitəsi ilə iqtisadi artımın stabilləşdirilməsi kölgə iqtisadiyyatının səviyyəsinin aşağı salınması, sosial-iqtisadi bərabərsizliyin tənzimlənməsi dövlət tərəfindən iqtisadi tənzimləmə mexanizmlərinin əsas tərkib hissəsidir.

## Maliyyə hesabatı və mühasibat uçotu sahəsində islahatlar

Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan iqtisadiyyatının inkişafı, ölkənin təbii resurs istifadəsinin səmərəliliyinin artırılmasına, əlverişli biznes mühitinin yaradılmasına və investisiya qoyuluşunun yüksəldilməsinə yönəlmiş iş proseslərinin təkmilləşdirilmiş şəkildə idarə edilməsini tələb edir. Bir çox müəssisələrin uçot siyasətinin hazırlanması, maliyyə hesabatlarının tərtib olunması, müəssisəyə məxsus aktivlərın və digər maliyyə elementlərinin uçot, təhlil və qiymətləndirilməsi sistemi, həmin müəssisələrin maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məlumatların etibarlılığını, dolğunluğunu və şəffaflığını təmin etməmiş və Beynəlxalq Mühasibat Uçotunun Standartları çərçivəsində qəbul edilən prinsiplərə tam uyğun olmamışdır.

Beynəlxalq iqtisadi inteqrasiya fonunda xarici iqtisadi, o cümlədən biznes əlaqələrin inkişafı ayrı-ayrı ölkələrin mühasibat uçotu və maliyyə hesabatları sistemini vahid qaydada formalaşdırılmasını və birləşdirilməsini zəruri edir. Aydındır ki, müasir şəraitdə müəyyən bir dövlətin hüdudlarından kənarda, beynəlxalq səviyyədə istifadə edilə bilən mühasibat uçotu standartlarının vahid sistemindən istifadə etmədən beynəlxalq miqyasda iqtisadi əməkdaşlığın istiqamətlərini müəyyənləşdirmək qeyri-mümkündür. Müstəqilliyin ilk illərində aktual məsələlərdən biri də Azərbaycan şirkətlərinin beynəlxalq iqtisadi əlaqələri həyata keçirərkən, məhsullar, işlər və xidmətlərin istehsal və satış prosesinin həyata keçirərkən, onlar üçün xarici bazarlar axtararkən və xarici sərmayə cəlb edərkən bu problemlə üzləşməsidir. [3]

Müstəqillik əldə edildikdən sonra Azərbaycanda iqtisadi inkişafın möhkəm təməli Ümummilli Liderimiz Heydər Əliyevin idarəçilik məharəti, gərgin və yorulmaz əməyi nəticəsində qoyulmuşdur. Ümummilli Liderimiz Heydər Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi siyasət sayəsində Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında yenidən qurulmuş, ölkə iqtisadiyyatının bütün sahələrində böyük nailiyyətlər əldə olunmuş, makroiqtisadi stabillik möhkəmləndirilmiş, iqtisadiyyatın tarazlı inkişafı təmin olunmuşdur. Mərhələ-mərhələ həyata keçirilən özəlləşdirilmə prosesi kiçik, orta və iri sahibkarlığın inkişafına, həmçinin, iqtisadiyyatın tənəzzülə uğramış sahələrinə sərmayə qoyuluşu üçün münbit şərait yaratdı.

Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasının bu gün Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev tərəfindən böyük dinamizmlə davam etdirilməsi ilə respublikada siyasi, sosial-iqtisadi sabitlik əldə edilmiş, iqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli şərait yaradılmışdır ki, bu gün dünya dövlətləri arasında Azərbaycan ən yüksək inkişaf sürətinə malikdir. Artıq əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan və çoxlarının əfsanə kimi qəbul etdiyi qlobal iqtisadi layihələr reallığa çevrilmişdir.

Məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyət illərində respublikamızda müşahidə olunan sürətli iqtisadi artım təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin mühasibat uçotunun aparılmasının təkmilləşdirilməsini tələb edirdi. Həmçinin ölkə rəhbərliyinin respublikamızda mühasibat uçotunun beynəlxalq standartlar əsasında inkişaf etdirilməsi və maliyyə hesabatlarında şəffaflığın təmin edilməsi sahəsində verdiyi tapşırıqlar

2004-cü ildə mövcud olan və sovet dövrünün əsas prinsiplərini özündə əks etdirən və zamanın tələblərinə cavab verməyən mühasibat uçotu haqqında Qanunda əsaslı dəyişikliklərin aparılmasını tələb edirdi. Köhnə qayda ilə aparılan mühasibat uçotu nəzarət baxımından zəruri məlumatların alınmasını təmin edə bilmədiyindən və bütün dünyada tətbiq olunan mühasibat uçotu qaydalarından fərqləndiyindən xarici investisiyaların respublikaya cəlb edilməsinə mane olurdu. Belə ki, xarici dövlətlərin şirkətləri respublikamızda fəaliyyət göstərən zaman öz baş ofisləri üçün beynəlxalq standartlara uyğun mühasibatlıq aparır, yerli orqanlara müxtəlif məlumat və hesabatların təqdim edilməsi üçün isə yerli qanunvericiliyə uyğun mühasibatlıq aparılması məcburiyyətində qalırdı. Aparılan təhlillər və beynəlxalq təcrübənin öyrənilməsi göstərirdi ki, mühasibat uçotunun beynəlxalq standartlarının tətbiqi təsisçilərin mənafeyini daha dolğun və səmərəli müdafiə etdiyindən əlverişli investisiya mühiti yaradır və bu da xarici investisiyaların həcminin sürətli artımına səbəb olur. Məhz bu baxımdan mühasibat uçotunun yeni prinsiplərinin müəyyən edilməsi məqsədilə 29 iyun 2004-cü il tarixdə "Mühasibat uçotu haqqında" 716-IIQ saylı Azərbaycan Respublikasının Qanunu təsdiq edildi.(6) Bu Qanun mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi qaydalarını müəyyən etdi. [1]

Qeyd olunan Qanunun tətbiqinin təmin edilməsi məqsədilə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli 192 saylı Fərmanı ilə bu sahədə görüləcək işlərin əsas istiqamətləri müəyyən edilmişdir. Bundan sonra Fərmanın icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 iyul 2005-ci il tarixli 139 saylı Qərarı ilə "2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə Proqram" təsdiq edilmiş və bu sənədə əsasən Milli Mühasibat Uçotu Standartları bütövlükdə qüvvəyə minənədək hazırlanmış Standartların mərhələlərlə tətbiqi müddətləri müəyyən edilmişdir. Dövlət proqramının tərkibində "Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının Konseptual əsasları”nın, kommersiya təşkilatlan üçün onların maliyyə-təsərrüfat fəaliyyətlərinin bütün istiqamətlərini əhatə edən 27 standartın, "Maliyyə hesabatlarının təqdimatı üzrə" büdcə təşkilatları və qeyri-hökumət təşkilatlan üçün 2 standartın, Milli Mühasibat Uçotu Standartları əsasında mühasibat uçotunun avtomatlaşdırılması üzrə proqram təminatının və mühasibat uçotu sahəsində mütəxəssislərin hazırlanması üçün tədris proqramlarının və tədris-metodiki vəsaitlərin hazırlanması nəzərdə tutulmuşdur. [5]

## Mühasibat uçotu və beynəlxalq standartlar

Respublikamızda təməli Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyət illərində qoyulan mühasibat uçotu sahəsində həyata keçirilən bu islahatlar beynəlxalq qurumlar tərəfindən dəstəklənmiş və Avropa Birliyi tərəfindən maliyyələşdirilən “Azərbaycanda Mühasibat Uçotunun Beynəlxalq Standartlarının tətbiqi layihəsi” bu standartların hazırlanmasında bilavasitə iştirak etmişdir. Qeyd olunan Layihənin əsas məqsədi, beynəlxalq səviyyədə tanınan mühasibat uçotu standartlarının təkmilləşdirilməsi və mühasibat uçotu ilə bağlı şəxslər tərəfindən mühasibat hesabatlarının beynəlxalq standartların prinsip və praktikalarının anlaşılmasının gücləndirilməsi vasitəsilə Azərbaycanda mühasibat uçotunun təkmilləşdirilməsindən ibarətdir. Bu isə son nəticədə Respublikamızda iqtisadi inkişafa və bazar iqtisadiyyatının stimullaşdırılmasına yardım edəcəkdir.

Maliyyə hesabatlarının etibarlığının gücləndirilməsi iqtisadi artıma müsbət təsir göstərərək, maliyyə sisteminin qeyri-sabitliyini azaltmağa yardım edir. Maliyyə məlumatlarının keyfiyyətini qiymətləndirmək və siyasət üzrə tövsiyələr vermək məqsədi ilə

mühasibat sahəsində yaxşı təcrübənin etalonu kimi hesabatda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarından istifadə olunur. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən təsərrüfat subyektləri son dövrlərə qədər, bir sıra banklar, sığorta şirkətləri və xarici investisiyalı müəssisələr istisna olmaqla, mühasibat uçotunu köhnə hesablar planına əsasən aparırdı. Bu problemi aradan qaldırmaq məqsədilə bu subyektlərin fəaliyyətinə mənfi təsir göstərə biləcək amillər müəyyən edilmiş və onların təsirinin minimuma endirilməsi üçün müvafiq tədbirlər planı hazırlanmışdır. Bu baxımdan, respublikamızda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına keçid zamanı yeni uçot sistemi tətbiq olunduğundan, bu tətbiqlə bağlı yaranan problemlər və onların həlli yollarının araşdırılması mühüm əhəmiyyət kəsb edir. Yeni sistemin tətbiqi zamanı əsasən aşağıdakı istiqamətlərə xüsusilə diqqət yetirilməlidir [4].

İlkin olaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına keçidin məqsədləri və faydası müəyyənləşdirilməli və bu münasibətlərdə iştirak edəcək subyektlərə həmin məqsəd və faydalılıq, tam şəkildə izah olunmalıdır. Qeyd etmək lazımdır ki, Standartların tətbiqi, ilk öncə maliyyə məlumatlarının şəffaflığının artırılmasına xidmət edir. Bundan başqa, təsərrüfat subyektlərinin, hətta bir sıra sektorların müxtəlif maliyyə hesabatlarının müqayisəsinin aparılması imkanı yaranır ki, bu da təhlil işlərində mühüm məlumat bazası rolunu oynayacaqdır. Eyni zamanda, Standartların tətbiqi, hesabatların hazırlanması proseslərinin standartlaşdırılmasına səbəb olacaqdır. Bundan başqa, Standartların tətbiqi maliyyə təşkilatlan tərəfindən yeni maliyyə xidmətinin təklifinə imkan yaradacaqdır ki, bu da son nəticədə iqtisadi bazarın yeni seqmentinin formalaşmasına səbəb olacaqdır. Qeyd olunan müsbət dəyişikliklərin Standartların tətbiqində iştirak edəcək subyektlərə tam izah edilməsi məqsədilə məlumatlandırma işləri aparılmalı, istifadəçilər zəruri materiallarla təmin edilməlidir.

Layihənin tətbiqi zamanı məlumatlandırma və tədris sahəsində meydana çıxan problemlər də ətraflı araşdırılmalı və aradan qaldırılması üçün zəruri tədbirlər həyata keçirilməlidir. Belə ki, Layihənin səriştəli kadrlara olan ehtiyacının təmin edilməsi, Layihənin tətbiqi zamanı iştirakçıların zəruri təcrübəyə malik olması, iş səriştələrinin artırılması üçün Layihə ilə əlaqəli bütün şəxslərin vaxtında və lazımi tədrislə əhatə olunmalıdır. Bu zaman həmçinin rəhbərliyə təqdim edilən hesabatların strukturu təkmilləşdiriməli, bununla da Layihənin iş təcrübəsinə necə təsir göstərməsi müəyyən edilməli, iş proseslərinə mənfi təsir göstərə biləcək amillər aradan qaldırılmalıdır. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi zamanı, Layihə tətbiq edilən subyekt daxilində əlaqələndirmə daha da gücləndirilməli, müxtəlif strukturlar arasında məlumat mübadiləsinin keyfiyyəti artırılmalı, qabaqcıl informasiya texnika və texnologiyalarından istifadəyə xüsusi diqqət yetirilməlidir. "Keçid mərhələsində" mövcud uçot sistemindən Milli Mühasibat Uçotu Standartlarına əsaslanan sistemə keçən subyektlərin köhnə uçot sistemindən qalmış hesab qalıqlarının Standartlara uyğunlaşdırılmasının təmin edilməsi, mühasibat balansı hesablarının yeni hesablar planına uyğun yenidən təsnifləşdirilməsi, Standartlara uyğun yeni mühasibat balansının hazırlanması, Standartların tətbiqi zamanı müvafiq uçot məlumatlarının Vergi Məcəlləsinin müddəaları ilə müəyyən edilən məlumatlarla uyğunlaşdırılması kimi zəruri tədbirlər artıq həyata keçirilmişdir. [7]

Eyni zamanda islahatların davamı kimi 4 may 2018-ci il tarixində "Mühasibat uçotu haqqında" qanunda fundamental dəyişikliklər edilmişdir. Ümumilikdə, qanuna edilən dəyişiklikləri bir neçə istiqamətə ayırmaq olar. Bunlardan birincisi mühasibət uçotu sahəsində tətbiq edilən normativlərə dəyişikliklərdir. Belə ki, bu dəfəki qanun nəticəsində Azərbaycanda beynəlxalq mühasibat uçotu standartlarına keçid başlayıb. Yəni dəyişikliklərə əsasən, artıq Azərbaycanda təsərrüfat subyektləri tərəfindən mühasibat uçotunun apaılması, maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi bütövlükdə maliyyə hesabatlarının beynəlxalq standartlarına uyğun həyata keçiriləcək. Doğrudur, bu sahədə beynəlxalq standartların prinsiplərinin əsas tutulması əvvəlki qanunveicilikdə də öz əksini tapmışdı. Lakin bu dəyişikliklər nəticəsində qanunvericilikdən milli mühasibat uçotu anlayışı çıxarılıb. Yəni artıq

maliyyə hesabatları tərtib etməli olan sahibkarlıq subyektləri tərəfindən maliyyə hesabatları yalnız beynəlxalq standartlara uyğun tərtib edilməlidir. Qanuna edilən daha bir mühüm dəyişiklik qanuna "peşəkar mühasib" anlayışının gətirilməsidir. Belə ki, peşəkar mühasib dedikdə Dövlət İmtahan Mərkəzinin təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçərək, peşəkar mühasib sertifikatını almış və peşəkar mühasib təşkilatının üzvü olan şəxs başa düşülür. Deməli Qanuna əsasən, peşəkar mühasib adını almaq üçün hökmən iki şərt olmalıdır. Birincisi həmin şəxs peşəkar mühasib təşkilatının üzvü olmalıdır. İkincisi, bu şəxs peşəkar mühasib sertifikatı almalıdır. Yalnız hər iki şərt təmin edildiyi halda həmin şəxs peşəkar mühasib sayılır. Qanunda peşəkar mühasib adını almış şəxsın hansı təsərrüfat subyektlərində işləməli olması, yəni hansı təsərrıfat subyektlərinin mühasibatlığını yalnız peşəkar mühasib aparmalıdır müddəası da öz əksini tapıb. Bu norma "Mühasibat uçotu haqqında" qanuna əlavə edilən 3.4-cü maddədə göstərilib. Həmin maddəyə əsasən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların, iri, orta sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri peşəkar mühasiblər olmalıdırlar. Həmçinin göstərilən mühasibat uçotu subyektlərinə müqavilə əsasında mühasibat uçotu xidmətini həyata keçirən hüquqi şəxsin ən azı iki, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin özü peşəkar mühasib olmadığı hallarda, ən azı bir peşəkar mühasiblə əmək müqaviləsi olmalıdır. Bundan başqa, qanunda edilən dəyişikliyə görə, mikro sahibkarlıq subyektlərinin rəhbərləri və fərdi sahibkarların şəxsən özləri də mühasibat uçotunu həyata keçirə bilərlər. Dəyişikliklərdə mikro sahibkarlıq subyektlərinin rəhbərləri və fərdi sahibkarların şəxsən özlərinə hüquq və səlahiyyət verilir ki, əgər özləri bacarırsa, mühasib cəlb etmədən sərbəst şəkildə mühasibat uçotunu aparsınlar. Amma digər mühasibat uçotu subyektləri mühasibat uçotunu aparmaq üçün mütləq qaydada mühasib cəlb etməlidirlər.

"Mühasibat uçotu haqqında" qanuna edilən dəyişikliklərin digər istiqaməti Qanuna "Mühasibat uçotu sahəsindədövlət nəzarəti" adlı 5-ci maddənin əlavə edilməsidir. Belə ki, həmin maddəyə əsasən bir sıra kommersiya təşkilatlarında Qanunla müəyyən edilmiş tələblərə uyğun mühasibat uçotunun aparılmasına, həmçinin qanunla müəyyən edilmiş qaydada kommersiya təşkilatlarında baş mühasib vəzifəsini həyata keçirən şəxsin peşəkar mühasib sertifikatının olub-olamasına nəzarət İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin səlahiyyətlərinə aid edilmişdir.(2) Bu istiqamətdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən bir sıra layihələrə start verilmişdir. Belə ki, 17.02.2021-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin akkreditasiyasına əsasən Peşəkar mühasib təşkilatları kimi fəaliyyət göstərən Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası (APFM), Azərbaycan Mühasiblər və Risk Peşəkarları Assosiasiyası (ARPA) və Azərbaycan Gənc Mühasiblər İctimai Birliyi (GMİB) arasında Əməkdaşlıq Memorandumu imzalanmışdır. Memorandumun bağlanmasında məqsəd-iqtisadiyyat, hüquq, maliyyə, mühasibat uçotu və vergi qanunvericiliyi üzrə ixtisas biliklərinin yüksəldilməsi, müxtəlif aktual mövzular üzrə elmi-tədqiqatların aparılması, birgə tədbirlərin, məsləhətləşmə və ekspertizaların keçirilməsi, məlumat mübadiləsi, regional və beynəlxalq əlaqələrin qurulmasına nail olmaqdan ötrü tərəflərin hər birinin peşəkar imkanlarını genişləndirmələri, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində öz səylərini birləşdirməkdən ibarətdir. Tərəflər qarşılıqlı əməkdaşlıq çərçivəsində mühasiblərin, vergi və digər müvafiq mütəxəssislərin MHBS, iqtisadi və hüquqi biliklərinin artırılması, maliyyə, mühasibatlıq və vergi qanunvericiliyi sahəsində çalışan şəxslərin maarifləndirilməsi, onlara yeni biliklərin, qanunvericilikdə edilən dəyişikliklərin nəzəri-praktik şəkildə izahı, bu sahələrdə beynəlxalq təcrübənin öyrənilməsi, tədris və təlim proseslərinə, layihələrin həyata keçirilməsinə mütəxəssislərin cəlb edilməsi və işin daha da səmərəli təşkili üzrə müvafiq tədbirləri həyata keçirəcəklər.

“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun qüvvəyə minməsi və bu qanunun tələblərindən irəli gələrək, mühasiblərin peşəkar mühasib sertifikatının əldə etməsinin və peşəkar təşkilata üzv olmasının zəruriliyi peşəkar mühasib təşkilatlarının apardığı maarifləndirici tədbirlərin əhəmiyyətini daha da ön plana çəkir və fəaliyyətini bu istiqamətdə genişləndirilməsini labüd edir. Bu baxımdan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi və 3 Peşəkar mühasib təşkilatının birgə əməkdaşlığı bu sahədə müvafiq dövlət qurumları ilə əlaqələrin genişləndirilməsinə, vergi, mühasibat işinin təşkili və iqtisadi fəaliyyət sahəsində peşə hazırlığının təkmilləşdirilməsi, peşəkar mühasiblərin hazırlığı ilə bağlı nəzərdə tutulan məsələlərin icra edilməsinə, eləcə də digər aidiyyatı orqanlarla əməkdaşlıq üçün birgə müzakirələrin aparılmasına öz töhfəsini verəcək [6].

Sonda Beynəlxalq Mühasibat Uçotu Standartlarının tərcüməsi ilə bağlı məsələyə daha çox diqqət yetirilməsi böyük əhəmiyyətə malikdir. Qeyd etmək lazımdır ki, Standartların xarici dildən tərcüməsi çox hallarda "birbaşa", yəni hərfi mənada aparıldığından bu onun asan qavranılmasına və anlaşıqlı olmasına mane olur. Buna görə də tərcümə zamanı mühasibat uçotu sahəsinin aparıcı mütəxəssislərinin iştirakı tərcümənin "hərfi" mənada deyil, tam dolğun mühasibatlıq və iqtisadi terminologiya baxımından aparılmasına şərait yaradar, bu isə Standartların daha tez başa düşülərək qavranılmasına, tətbiqinin asanlaşdırılmasına səbəb olardı.

Ümidvarıq ki, Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən idarə olunan iqtisadiyyat, xüsusilə mühasibat uçotu sahəsində islahatların müvəffəqiyyətli nəticələri, o cümlədən qanunvericilik bazasının inkişaf etdirilməsi maliyyə vəsaitlərinin şəffaf idarə olunmasında vacib əhəmiyyət daşıyacaq və bu da respublikamızda mühasibat uçotunun yeni keyfiyyət göstəriciləri əldə edəcək yeni Beynəlxalq Standartlarının səmərəli tətbiqinə şərait yaradacaqdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması statistik məlumatların keyfiyyətinə təsir etməklə onun adekvatlığını daha da gücləndirəcəkdir. Bu isə öz növbəsində dövlən tərəfindən iqtisadi artımın stimullaşdırılmasına yönəldilən tədbirlərin səmərələliyini daha da gücləndirəcəkdir.

Ulu öndərimizin bizə miras qoyduğu irs, onun ölkə iqtisadiyyatının inkişaf perspektivlərinin prinsiplərinin , strateji inkişaf trayektoriyasının müəyyən edilməsi və onun Azərbaycan Respublikasının Prezidenti cənab ilham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanın gələcəkdə davamlı inkişafının əsasını qoydu.

**National leader Heydar Aliyev's strategy of economic regulation**

**Mirali Kazimov**

**Abstract**

This article is devoted to the role of our national leader Heydar Aliyev in achieving stability and economic development. The article deals with the problem of the transition economy, achieving economic stability. Particular attention is paid to the issues of improving accounting and international standarts. The roll of the national leader in achieving social and economic success is analyzed.

*Key words: tax policy, tax administration, financial report*

**Стратегия экономического регулирования общенациналоного лидера Гейдара Алиева**

**Мирали Казымов**

**Резюме**

В статье рассматривается роль общенацианалоного лидера Гейдара Алиева в достижение стабильности экономического успеха. Особое внимание уделено проблемам улучшения бухгалтерской отчетности и их стандартизация по международным нормам. Обосновано роль нацинального лидера в достижении экономической стабильности и успехов.

*Ключевые слова: налоговая политика, налоговая администрация, финансовый отчет.*

**ƏDƏBİYYAT SİYAHISI**

1. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu.
2. Mühasibat uçotu haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2005-ci il tarixli 192 nömrəli Fərmanı.
3. V.M.Quliyev, “Azərbaycandan maliyyə hesabatının beynəlxalq standartlara uyğunlaşdırılması problemləri” Bakı. “Maliyyə və uçot” jurnalı, №6, s.25-30, 2006
4. S.M.Səbzəliyev, “Maliyyə hesabatlarının beynəlxalq və milli standartlarının Azərbaycanda tətbiqinin müasir mərhələsi” №9, S.20-27, 2012
5. www.maliyye.gov.az
6. www.taxes.gov.az
7. www.mühasib.az

**i.e.d., dos. İsmayılov Niyazi Musa oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), "Mühasibat uçotu və audit" kafedrası*
*e-mail: niyazi_ismayilov63@mail.ru*

# MALİYYƏ HESABATLARININ TƏHLİLİ PROBLEMLƏRİ: *İSTIFADƏ OLUNAN ÜSULLAR VƏ QAYDALAR*

**Açar sözlər**: mühasibat uçotu, maliyyə hesabatı, maliyyə təhlili, informasiya, konsepsiya.

«Maliyyə hesabatlarının təhlili» dedikdə, şirkətin cari maliyyə vəziyyətinin qiymətləndirilməsi, onun fəaliyyətinin nəticələrini xarakterizə edən əsas iqtisadi parametrlərin dəyişməsi və bu dəyişikliklərin səbəblərinin müəyyən olunması məqsədilə maliyyə hesabatlarında əks etdirilmiş informasiyanın nizamlanması və sistemləşdirilməsi qaydası başa düşülür. Ölkə və beynəlxalq uçot praktikasında, eləcə də spesifik iqtisadi ədəbiyyatlarda maliyyə göstəricilərinin təhlili və qiymətləndirilməsinin çoxsaylı üsul və metodları təklif olunur. Beynəlxalq təcrübədə maliyyə hesabatlarının bir qayda olaraq təhlili və qiymətləndirilməsinin əsas metodlarına aşağıdakılar aid edilir: 1) Üfüqi təhlil; 2) Şaquli təhlil; 3) Trend təhlili; 4) Əmsalların təhlili [2]. Xüsusi vurğulamaq yerinə düşər ki, maliyyə hesabatlarının təhlili və qiymətləndirilməsinin sadalanan metodları arasında ən səmərəli və eyni zamanda tətbiqi cəhətdən ən problemli metod əmsalların təhlili üsulu hesab olunur. İqtisadi (maliyyə) əmsalların səmərəliliyi onunla izah edilir ki, həmin indikatorlar şirkətin maliyyə vəziyyətinin zəif və güclü tərəflərini dəqiq müəyyən etməyə, perspektivdə öyrənilməsi və tədqiq edilməsi tələb olunan konkret məsələləri aşkara çıxarmağa, üfüqi, şaquli və trend təhlili metodlarından istifadə etməklə hesabatın fərdi parametrlərini nəzərdən keçirərək vizual izlənilməsi mümkün olmayan əsas istiqamətləri və onlara təsir göstərən amilləri aşkar etməyə və qiymətləndirməyə imkan verir.

Bununla yanaşı, ölkə və Qərb analitiklərinin qeyd etdiyi kimi, maliyyə hesabatlarının informasiyası əsasında hesablanılmış əmsalların istifadəsi və interpretasiya olunması istiqamətində metodiki və praktiki xarakterli çoxlu problemlərə rast gəlinir. Danılmaz həqiqətdir ki, maliyyə hesabatının informasiyası əsasında hesablanılmış maliyyə əmsallarının keyfiyyətinə onların hesablanılması və qiymətləndirilməsində istifadə edilən göstəricilərin etibarlılığı və müqayisəliliyi bilavasitə təsir göstərir. Maliyyə əmsallarının interpretasiya olunmasının digər probleminə gəlincə, qeyd etmək yerinə düşər ki, əmsalların hesablanılması və qiymətləndirilməsi formulasının surətinə təsir göstərən amillərlə onların məxrəcinə təsir göstərən faktorlar arasında korrelyasiya əlaqəsi ola bilər. Bundan başqa, maliyyə hesabatlarının təhlilində istifadə olunan əmsalların say çoxluğu da müəyyən problemlər yaradır. Belə ki, təhlildə istifadə edilən əmsalların say çoxluğu, onların bir göstəricidə (alqoritmdə) birləşdirilməsinin zəruriliyi optimal parametrlər sisteminin işlənilib hazırlanmasında effektivlik baxımından mürəkkəblik yaradır və bu da son nəticədə şirkətin maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi işini xeyli çətinləşdirir. Nəzərə alsaq ki, hesablanılan əksər əmsalların surət və məxrəclərini təşkil edən göstəricilər üst-üstə düşür və onlara eyni xarakterə malik amillər təsir göstərir, onda bütün əmsallardan kompleks şəkildə istifadə zərurəti aradan qalxır. Belə bir aqreqat göstəriciyə misal olaraq klassik Dyupon (du pont) formulasını göstərmək olar:

$$\underbrace{\frac{xalis\ mənfəət}{xüsusi\ kapital}}_{\text{ROE}}=\underbrace{\frac{xalis\ mənfəət}{satışın\ həcmi}\times\frac{satışın\ həcmi}{aktivlərin\ ümumi\ dəyəri\ (orta\ hesabla)}}_{\text{ROA}}\times\frac{aktivlərin\ ümumi\ dəyəri\ (orta\ hesabla)}{xüsusi\ kapital}\quad(1)$$

Şirkətlərin müflisləşməsi ehtimalının qiymətləndirilməsi və proqnozlaşdırılması sahəsində müstəsna əməyi olan Amerika iqtisadçılarının (A.Winakor, R.F.Smith, P.J.Fitzpatrick, C.L.Merwin, W.B.Hickman, W.H.Beaver) tədqiqatları belə bir nəticəyə gəlməyə imkan verir ki,

maliyyə təhlilində istifadə olunan çoxsaylı əmsallar sistemindən bir neçə faydalı parametri seçməklə müflisləşməni əvvəlcədən dəqiq müəyyən etmək olar. Məsələn, E.Altman müflisləşmədən öncəki dövrün informasiyasına əsaslanan 22 maliyyə əmsalının iqtisadi təbiətini araşdırır və onlardan 5-ni seçərək (rentabellik; aktivlərin dövranı; kreditor borcları; mənfəətin aktivlərə reinvestisiyası; aktivlərin cəmi yekununda xüsusi dövriyyə aktivlərinin payı) xətti diskriminant funksiyaya daxil edir. Həmin əmsallar əsasında E.Altman şirkətin müflisləşmə ehtimalının qiymətləndirilməsinin əsas metodlarından biri sayılan və ABŞ-da geniş istifadə edilən Z sxemini yaradır [2]:

$$Zsxemi = 1{,}2 \times \left[\frac{xalis\ işçi\ kapital}{aktivlərin\ məbləği}\right] + 1{,}4 \times \left[\frac{bölüşdürülməmiş\ mənfəət}{aktivlərin\ məbləği}\right] + 3{,}3 \times$$
$$\times \left[\frac{faiz\ və\ vergilərin\ ödənilməsinə\ qədər\ olan\ mənfəət}{aktivlərin\ məbləği}\right] + 0{,}6 \times \left[\frac{xüsusi\ kapitalın\ bazar\ dəyəri}{aktivlərin\ məbləği}\right] + 1{,}0 \times$$
$$\left[\frac{satışın\ həcmi}{aktivlərin\ məbləği}\right] \quad (2)$$

Ölkəmizin şirkətlərinə tətbiqi və interpretasiyası baxımından Z modelinə yanaşdıqda, həmin metodun firma və şirkətlərin inkişaf meylinin qiymətləndirilməsi prosesində istifadə edilə biləcəyi fikri formalaşır. Spesifik iqtisadi ədəbiyyatların və mövcud praktikanın sistemli və kompleks şəkildə araşdırılması beynəlxalq təcrübədə maliyyə hesabatlarının təhlili və qiymətləndirilməsinin aşağıdakı ardıcıllıqla həyata keçirildiyini göstərir [5]:

1) Auditor hesabatlarının təhlili;
2) İzahlı qeydlərə daxil edilən uçot siyasəti haqqında hesabatın təhlili;
3) Şərhlər və müşayiətedici sxemlər də daxil olmaqla maliyyə hesabatlarının iqtisadi oxunuşu;
4) Analitik prosedurların tətbiqi;
5) Əhəmiyyətli əlavə informasiyaların təhlili.

Xüsusi vurğulamaq yerinə düşər ki, beynəlxalq təcrübədə maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi zamanı bir qayda olaraq, auditor hesabatlarının təhlilinə müstəsna əhəmiyyət verilir. Doğrudan da, şirkətin maliyyə vəziyyətinin və onun fəaliyyətinin nəticələrinin müəyyən olunmuş standartlara uyğun olaraq maliyyə hesabatlarında tam, dəqiq və düzgün əks etdirilməsi aparılmış təhlilin nəticələrinin obyektivliyinə müsbət təsir göstərir və bu baxımdan auditor hesabatlarının kompleks qiymətləndirilməsi müstəsna elmi və praktiki maraq doğurur. Məsələyə bu rakursdan yanaşdıqda, maliyyə hesabatlarının təhlilinin sözügedən elementinin ölkə təcrübəsində istifadə olunması praktiki cəhətdən məqsədəuyğun sayılır.

Uçot siyasəti haqqında informasiya şirkətin elan olunmuş mənfəətinin və maliyyə hesabatları göstəricilərinin doğruluğunun qiymətləndirilməsi, eləcə də müxtəlif şirkətlərin rəqəm məlumatlarının müqayisə edilməsi zamanı əvəzsiz rol oynayır. Beynəlxalq standartlara görə şirkətin maliyyə hesabatlarında (şərhlərdə, yaxud müşayiətedici sənədlərdə) uçot siyasəti və onun istiqamətlərinin açıqlanması qaydaları nəzərdə tutulur. MHBS 1 maliyyə hesabatlarında uçot siyasətinin aşağıdakı məqamlarının əks etdirilməsini tövsiyə edir:

1) konkret sahə üzrə istifadə edilən uçot siyasəti;
2) şirkətdə ilk dəfə tətbiq olunan uçot standartları;
3) uçot siyasətində baş vermiş əhəmiyyətli dəyişikliklər.

Beynəlxalq təcrübədə olduğu kimi, ölkə uçot praktikasında da təhlildə belə yanaşmadan istifadə edilməsinin məqsədəuyğunluğu iqtisadçı-alimlər tərəfindən xüsusi vurğulanır. Çünki ölkəmizdə uçot qaydalarının ciddi şəkildə reqlamentləşdirilməsinə baxmayaraq, şirkətlər istehal ehtiyatlarının qiymətləndirilməsi, amortizasiyanın hesablanılması metodlarından birini sərbəst seçir və buna uyğun olaraq maliyyə hesabatlarının təhlili zamanı uçot siyasətinin əsas istiqamətləri mütləq nəzərə alınır. Analitik tərəfindən maliyyə təhlilinin hansı üsul və metodlarından istifadə edilməsindən asılı olmayaraq, beynəlxalq təcrübədə şirkətin maliyyə vəziyyətinin təhlili və qiymətləndirilməsi prosesində aşağıdakı bir sıra əsas istiqamətlər tədqiqata və araşdırmalara məruz qalır [2]:

1) Mənfəətlilik (gəlirlilik) və rentabellik səviyyəsi;
2) Qısamüddətli likvidlik və uzunmüddətli ödəmə qabiliyyəti;
3) Aktivlərdən istifadə olunması dərəcəsi.

Maliyyə hesabatlarının təhlili hətta bir ölkə çərçivəsində belə çox mürəkkəb proses sayılır və məhz buna görə də beynəlxalq səviyyədə şirkətlərin fəaliyyətinin müqayisə edilməsi zamanı təhlilin təşkili və aparılmasında yaranan çətinliklər xeyli artır. Ölkə firma və şirkətlərinin xarici bazarlara çıxması ilə əlaqədar beynəlxalq maliyyə təhlilinin mövcud problemləri ölkə təcrübəsinə sirayət edir. Mövzuya bu aspektdən yanaşdıqda maliyyə təhlilinin təşkili metodlarının, üsul və qaydalarının milli xüsusiyyətlərlə şərtləndirilmiş təhlilin beynəlxalq təcrübəsi problemlərinin araşdırılması məsələlərinin bu gün də öz aktuallığını itirmədiyi aydın görünür [6]. Xüsusi vurğulamaq yerinə düşər ki, 1997-ci ildə Avstriyanın Qrats şəhərində keçirilmiş Avropa Mühasiblər Assosiasiyasının illik XX konqresində beynəlxalq uçot və təhlilin metodologiyası, milli uçot təcrübəsinin xüsusiyyətləri və harmonizasiyası məsələlərinə xüsusi diqqət yetirilmişdir [3].

İqtisadi informasiyanın daxili və kənar istifadəçiləri maliyyə hesabatının məlumatları əsasında firma və şirkətlərin fəaliyyətinin müqayisəli təhlilini həyata keçirir. Belə ki, brokerlər, səhm sahiblərinin adından çıxış edən investisiya analitikləri, bankirlər, potensial tərəfdaşlar, yaxud rəqib şirkətlərin fəaliyyətinin qiymətləndirilməsini həyata keçirən multimilli firmalar maliyyə hesabatı informasiyasını öz maraqları prizmasından təhlil edir. Aydındır ki, maliyyə uçotu və təhlilinin təşkilindəki mövcud beynəlxalq fərqlərlə tanış olmayan, yaxud həmin fərqləri nəzərə almadan təhlil aparan daxili və kənar informasiya istifadəçiləri düzgün olmayan menecment qərarları qəbul edə bilər. Aparılan təhlillər və müşahidələr göstərir ki, ölkə şirkətləri aşağıdakı hallarda beynəlxalq təhlilin problemləri ilə daim üzləşir:

– xarici tərəfdaşlar uzunmüddətli iqtisadi əlaqələrin qurulmasının mümkünlüyünü nəzərdən keçirdikdə;
– strateji investorlar birgə şirkətlərin yaradılmasına maraq göstərdikdə;
– şirkət tərəfindən beynəlxalq bazara qiymətli kağızlar buraxılışı (emissiyası) imkanları nəzərdən keçirildikdə;
– şirkət beynəlxalq institutlar tərəfindən maliyyələşdirilən layihələrdə iştirak etdikdə.

Uçot və maliyyə təhlilinin beynəlxalq təcrübəsinin öyrənilməsi, xarici şirkətin maliyyə hesabatlarının kompleks təhlilinin həyata keçirilməsi, maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun tərtibi və təqdimatı prosesində meydana çıxan əsas problemlər aşağıdakı kimi qruplaşdırıla bilər:

– dil fərqləri;
– maliyyə hesabatları formalarında, onların məzmunu və strukturunda, audit və uçot standartlarında fərqlər;
– bu və ya digər xüsusi terminlərin şərhində, onların interpretasiyasında çətinliklər;
– nəşr olunmuş maliyyə informasiyalarının əldə edilməsində problemlər;
– müxtəlif valyutaların mövcudluğu, onların volatilliyi və məzənnə fərqləri;
– hesabatın ayrı-ayrı maddələrinin qiymətləndirilməsində fərqlər.

Dil fərqi problemi o qədər də mühüm sayılmır, çünki əksər işgüzar insanlar, biznesmen və sahibkarlar bir və ya bir neçə xarici dil bilir. İri transmilli şirkətlər öz maliyyə hesabatlarının tərcüməsini təşkil edir və lazım gəldikdə tərcümə üzrə mütəxəssislər işə cəlb olunur. Lakin buna baxmayaraq maliyyə hesabatlarının tərtibi və təqdimatı zamanı bir sıra səhvlərə və yanlışlıqlara yol verilir. Belə ki, hər iki dildə (ingilis və amerikan ingilis dilləri) mövcud olan söz əksər hallarda müxtəlif məna daşıyır. Məlum həqiqətdir ki, həmin problemin mövcudluğu yalnız ingilis dilli ölkələrlə bitmir və bir qayda olaraq əksər Avropa şirkətləri maliyyə hesabatlarını amerikan ingilis dilinə çevirir. Fikrimizcə, beynəlxalq firma və şirkətlərin maliyyə hesabatlarının öyrənilməsində yaranan çətinliyin başlıca səbəbi terminologiya ilə bağlıdır. Elə terminlər vardır ki, azərbaycan dilindən ingilis dilinə və ingilis dilindən azərbaycan dilinə

tərcümə olunarkən, eyni səslənməsinə baxmayaraq, çox zaman müxtəlif məna və mahiyyət kəsb edir (məsələn, satışın maya dəyəri, mənfəət, pul vəsaitləri və onların ekvivalentləri). «Cash» - «pul vəsaitləri», yaxud «nağd pul» terminləri beynəlxalq standartlarda nağd pula asan çevrilə bilən bütün aktivləri (bu kateqoriyaya həm nağd pul vəsaitləri, həm də bankda olan hesablar aiddir) nəzərdə tutur, ölkə təcrübəsində isə həmin termin yalnız nağd pulu ifadə edir. Beləliklə, əksər hallarda tərcümə olunmuş maliyyə hesabatı informasiyaları qanuni tələblərə, normativ-hüquqi bazaya və ümumqəbul edilmiş standartlara və qaydalara uyğun gəlmir. Fikrimizcə, həmin problemin həlli maliyyə hesabatlarının tərcüməsində istifadə olunan vahid terminologiyanın işlənilib hazırlanması yolu ilə reallaşdırıla bilər. Məlumdur ki, maliyyə hesabatlarının tərcüməsinə peşəkar dilçilərlə yanaşı uçot, audit və təhlil ekspertlərinin də cəlb edilməsi şirkət üçün əlavə xərclərə səbəb olur.

Uçot və hesabatın beynəlxalq və milli standartları arasında müəyyən fərqlərin mövcud olması maliyyə təhlilinin təşkili və aparılmasında meydana çıxan əsas çətinliklərdən biri sayılır. Firma və şirkətlər tərəfindən uçotun beynəlxalq standartlarının tətbiq edilməsi təkcə maliyyə hesabatı informasiyasının etibarlılığı və keyfiyyətinin qiymətləndirilməsi baxımından deyil, həm də şəffaflığın təmin olunması nöqteyi-nəzərindən müstəsna əhəmiyyət kəsb edir.

Təsərrüfat subyektlərinin işgüzar aktivliyinin və fəaliyyətin nəticələrinin maliyyə hesabatlarında sadə və daha təkmil formada (məzmun və struktur baxımından) əks etdirilməsi, şirkətin maliyyə vəziyyətinin xarici firmaların maliyyə vəziyyəti ilə müqayisə olunması imkanlarının reallaşdırılması, maliyyə-təsərrüfat fəaliyyətinin strateji planlaşdırılması və effektiv qiymət siyasətinin formalaşdırılması zamanı maliyyə və investisiya xarakterli menecment qərarlarının qəbul edilməsinə imkan verən səmərəli mühasibat uçotu sisteminin qurulması sözügedən problemin həllinin vacibliyini daha da artırır.

Beynəlxalq uçot və təhlil sisteminin əksər prinsipləri və metodları milli xüsusiyyətlər və ənənələr nəzərə alınmaqla ölkə praktikasında tətbiq olunur. Qeyd etmək yerinə düşər ki, beynəlxalq standartlarda təsbit olunmuş və fəaliyyətin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edən bəzi göstəricilər ölkə şirkətlərinin maliyyə hesabatlarına daxil edilmir. Fikrimizcə, ölkə praktikasında mühasibat məlumatlarının keyfiyyətinin yaxşılaşdırılması, maliyyə hesabatlarının hər bir tərkib elementi üçün zəruri informasiya formalaşdırmağa imkan verən ilkin uçot sisteminin təşkili və beynəlxalq standartlar əsasında maliyyə hesabatının təqdimatı yuxarıda sözügedən problemin həllində müstəsna rol oynaya bilər.

Qeyd edək ki, mühasibat uçotunun beynəlxalq standartlarının qayda və prinsiplərinin ölkə praktikasında tətbiqi şirkətin maliyyə-təsərrüfat fəaliyyəti haqqında məlumatlarda əhəmiyyətli fərqlərə gətirib çıxarır və nəticə etibarı ilə onun maliyyə vəziyyətinin qiymətləndirilməsinə bu və ya digər dərəcədə təsir göstərir. Belə ki, satışdan yaranan pul gəlirlərinin «yükləmə», yaxud «ödəmə» faktı üzrə müəyyən edilməsinin iki qaydasından hər birinin ayrı-ayrılıqda tətbiqi mənfəətin həcminə münasibətdə fərqli riyazi nəticələrin formalaşması ilə yekunlaşır. Satışın maya dəyəri və bitməmiş istehsalın həcmi xərclərin bölüşdürülməsinin adekvat metodlarından istifadə edilməməsi səbəbindən çox vaxt təhrif edilir. Belə ki, əmək haqqı əksər hallarda xərclərin bölüşdürülməsi bazası kimi götürülür. Halbuki bəzi hallarda digər bölgü bazalarından istifadə edilməsi daha məqsədəuyğun sayılır. Ölkə praktikasında torpaq, tikili və avadanlıqların istismar müddəti və normaları bir qayda olaraq vergitutma məqsədi ilə təyin edilir və bu halda onların istifadəsi real iqtisadi münasibətlərin tələblərinə uyğun gəlmir.

Bir sıra iqtisadçılar müxtəlif ölkələrdə maliyyə resurslarının idarə olunması probleminə fərqli yanaşmanın mahiyyətini təkcə mühasibat uçotunun prinsipləri və qaydaları ilə deyil, həm də sosial, mədəni və iqtisadi faktorlarla izah edir. Məsələn, alman şirkətləri üçün borclanma əmsallarının səviyyəsinin ABŞ və Böyük Britaniya şirkətləri üçün məqbul hesab edilən normalardan yüksək olması qənaətbəxş sayılır. Fikrimizcə, bu hər şeydən əvvəl Almaniya sənayesində bank kreditlərinin uzunmüddətli təbiətə malik olması ilə izah edilir. Adı çəkilən ölkənin bankirləri «xəstə» şirkətlərə pul yatırmaqda davam edir və onun maliyyələşdirilməsini

dayandıranlar içərisində birinci olmur. ABŞ-ın vergi sistemi şirkətlərə maliyyə ilini müstəqil müəyyən etməyə icazə verir və onlar növbəti maliyyə ilini 1 avqustdan başlaya bilir. Azərbaycan Respublikasında müəyyən olunmuş standartlara görə maliyyə ili təqvim ilinə bərabər götürülür.

Bu və ya digər uçot terminlərinə verilən fərqli təriflər səbəbindən maliyyə hesabatlarının təhlili zamanı müəyyən çətinliklər yaranır. Deyilənlərə misal olaraq «qudvil» və «ekstraordinar gəlirlər» terminlərinin tərifini göstərmək olar. Avropa Mühasiblər Assosiasiyasının illik XX konqresində qeyd olunmuşdur ki, «qudvil» anlayışından uçot praktikasında uzun müddət istifadə edilməsinə baxmayaraq hələ də iqtisadi ədəbiyyatlarda ona müxtəlif təriflər verilir. Mühasibat yanaşmasına uyğun olaraq qudvil dedikdə, bütövlükdə firmanın qiyməti ilə onun identifikasiya olunmuş (eyniləşdirilmiş) xalis aktivlərinin məcmu cari dəyəri arasındakı fərq başa düşülür [3]. Sadə şəkildə desək, qudvil hər hansı bir şirkətin dəyərində yaranan fərq kimi müəyyən olunur. Başqa sözlə, şirkətin faktiki uçot dəyəri ilə (xalis aktivlər) onun satıla biləcəyi dəyər arasındakı fərq qudvil adlanır. Qudvil, adətən, bir şirkətin digər şirkət tərəfindən satın alınması zamanı yaranır. Fəaliyyətin fasiləsizliyi prinsipinə əsaslanan digər tərifə görə qudvil satın alınmış şirkətin əldə edə biləcəyi mənfəətlə həmin sahədə fəaliyyət göstərən analoji (eyni, identik) şirkətin əldə etdiyi mənfəət arasındakı müsbət fərq kimi şərh olunur.

Avropa İqtisadi Birliyinin Dördüncü Direktivinə müvafiq olaraq «ekstraordinar gəlirlər» termininin mahiyyəti «şirkətin əsas əməliyyat fəaliyyətindən kənara çıxan və qeyri-adi məzmununa görə fərqlənən iqtisadi hadisələr nəticəsində yaranan gəlir» kimi izah olunur. Lakin bəzi ölkələr həmin tərifə öz əlavəsini edir və müəyyən əməliyyatları «ekstraordinar» sayır. Məsələn, Böyük Britaniyada supermarket ticarət qrupları tərəfindən bir mağazanın satılması «ekstraordinar» hərəkət hesab olunmur. Fransada isə bu qəbildən olan fəaliyyət nəticəsində yaranan gəlirlər "ekstraordinar" adlanır.

Fikrimizcə, maliyyə hesabatlarının təhlili prosesində meydana çıxan beynəlxalq fərqlərin şərhi və interpretasiyası probleminin həlli dövlət maliyyə institutları və peşəkar mühasiblər təşkilatları tərəfindən müvəffəqiyyətlə reallaşdırıla bilər. Belə ki, əksər multimilli şirkətlər beynəlxalq bazarlarda öz işgüzar imiclərinin yüksəldilməsi və mövcud birja qaydalarına riayət olunması məqsədilə maliyyə hesabatı informasiyasının daxili və kənar istifadəçilərinə kömək etməkdə maraqlı olur. Belə şirkətlər illik maliyyə hesabatlarının tərcümə variantlarının hazırlanmasını həyata keçirir. Xüsusi vurğulamaq yerinə düşər ki, Avropa şirkətləri bir qayda olaraq maliyyə sənədlərini ingilis dilinə tərcümə edir, rəqəm məlumatları xarici valyuta ifadəsində hesabatda öz əksini tapır. Məsələn, beynəlxalq Tompson şirkəti Kanadada qeydiyyatdan keçməsinə baxmayaraq rəqəmləri funt-sterlinqdə nəşr etdirir. Yapon şirkətləri rəqəm məlumatlarının həm Yapon yeni və həm də ABŞ dolları ifadəsində maliyyə sənədlərində təqdimatını həyata keçirir. Elektrolux, British Airways kimi Avropa şirkətləri maliyyə hesabatlarını digər qaydalara uyğun hazırlayır və onlar GAAP (Generally Accepted Accounting Principles – ABŞ-ın ümumqəbul edilmiş uçot prinsipləri) standartları üzrə tərtib olunmuş maliyyə sənədlərini əsas hesabata əlavə kimi təqdim edir.

Beləliklə, istər ümumdünya və istərsə də regional səviyyədə uçot təcrübəsinin harmonizasiyası prosesinin gücləndirilməsinə baxmayaraq xüsusi uçot terminlərinin şərhi və maliyyə təhlilinin həyata keçirilməsi prosedurları və qaydaları analitiklər, investorlar, brokerlər, bankirlər, menecerlər və digər informasiya istifadəçiləri üçün ciddi problem olaraq qalır. Məlum həqiqətdir ki, uçotda olan fərqləri nəzərə almamaq və onların təsirini sadə hesablamalarla aradan qaldırmaq mümkün olmur. Fikrimizcə, sadalanan problemlərin yeganə həlli uçot və hesabat standartlarında beynəlxalq fərqlərin mövcudluğu haqqında informasiyanın nəzərə alınması, müvafiq kriteriyalardan və əmsallardan istifadə olunmaqla maliyyə hesabatı göstəricilərinin müqayisəyə gələn şəklə salınması yolu ilə iqtisadi təhlilin metodikasının yeni aspektdə işlənilib hazırlanması və interpretasiyasından keçir.

**Ədəbiyyat**

1. «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanunu. Bakı, 29 iyun 2004-cü il.

2. Бернстайн Л.А. Анализ финансовой отчетности: теория, практика и интерпретация / пер.с англ.; науч.ред. И.И. Елисеева.– М.: Финансы и статистика, 1996. – 624 с.

3. Соколов Я.В., Смирнова И.А. XX Ежегодный конгресс Европейской ассоциации бухгалтеров // «Бухгалтерский учет», 1997. №8, - с.90-92.

4. Səbzəliyev S.M. Mühasibat (maliyyə) hesabatı. Bakı: ADİU-nun nəşriyyatı, 2003. – 170 s.

5. Хендриксен Э.С., Ван Бреда М.Ф. Теория бухгалтерского учета. –М.: Финансы и статистика, 1997. – 416 с.

6. Шеремет А.Д., Сайфулин Р.С. Методика финансового анннализа. – М.: ИНФРА-М, 1995. – 176 с.

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və sürətli inkişafı onun idarə olunması qarşısında mühüm tələblər qoyur. Danılmaz həqiqətdir ki, biznesin idarə edilməsi üçün tələb olunan informasiyanın əhəmiyyətli hissəsi mühasibat uçotu və hesabatı vasitəsilə formalaşır. Adı çəkilən sistem vasitəsilə formalaşan informasiya firma və şirkətlərdə maliyyə və investisiya qərarlarının qəbul edilməsinin əsasında dayanır. Onu da qeyd edək ki, informasiyanın kəmiyyəti və keyfiyyəti qarşısında qoyulan tələblər ayrı-ayrı dövrlərdə dəyişildiyi üçün onu formalaşdıran uçot və hesabat sisteminin daim təkmilləşdirilməsi obyektiv zərurətə çevrilir. Bu baxımdan bazar şəraitində bütövlükdə mühasibat uçotu və maliyyə hesabatı sistemi kimi, effektiv menecment qərarlarının əsasında dayanan iqtisadi təhlilin təşkilində nəzəri, metodiki və praktiki dəyişikliklər baş verir. Aparılan araşdırmalar və təhlillər göstərir ki, həmin dəyişikliklər iqtisadiyyatda gedən qloballaşma və inteqrasiya proseslərinin tələblərinin maksimum nəzərə alınmasına, mühasibat uçotu və maliyyə hesabatı sisteminin səmərəli "ünsiyyət" vasitəsinə çevrilməsinə əlverişli şərait yaradır.

**i.ü.f.dok. dossent Həsənov Niyazi Əlikram oğlu**
*UNEC "Biznesin idarə edilməsi" kafedrası,*
*e-mail: Niyazi_Hasanov@unec.edu.az*

## AZƏRBAYCANDA HEYDƏR ƏLİYEV SİYASƏTİNƏ UYĞUN OLARAQ LAYİHƏLƏRİN TƏSNİFATI VƏ İNVESTİSİYA STRATEGİYALARINA SİSTEMLİ YANAŞMA

**Xülasə:**

Məqalədə Azərbaycanda H. Əliyev siyasətinə əsaslanaraq ölkədə, strateji inkişafın həyata keçirilməsi, sosial - iqtisadi, siyasi və mikromaliyyə sabitliyinin təmin olunması, inflyasiyanın sürətinin minimuma endirilməsi, radikal islahatların aparılması, bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşlarının artırılması, müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarına bərabər imkanlar yaradılması, sərbəst rəqabətin meydanın genişləndirilməsi, insanların iqtisadi fəallığının yüksəldilməsi məsələləri təhlil edilmişdir. İslahatlarının aparılması, bazar iqtisadiyyatı institutlarının formalaşması və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, müəssisələrin yenidən qurulması məsələlərinin sürətləndirilməsi, dövlət mülkiyyətinin idarə olunmasının təkmilləşdirilməsi, maliyyə bazarının, qiymətli kağızlar bazarının və bank sektorunun inkişafı, antiinhisar siyasətinin fəallaşması, rəqabətin stimullaşdırılması, özəl sektorun inkişafına himayədarlıq siyasətinin fəallaşdırılması, iqtisadi cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi üçün sistem xarakterli tədbirlərin təhlili aparılmışdır.

**Aşar sözlər:** investisiya, strateji inkişaf, mikromaliyyə sabitliyi, inflyasiyanın sürəti, radikal islahatlar.

Azərbaycanda H. Əliyev siyasəti nəticəsində strateji inkişafın həyata keçirilməsi, sosial-iqtisadi, siyasi və mikromaliyyə sabitliyinin təmin olunması, inflyasiyanın sürətinin minimuma endirilməsi, radikal islahatların aparılması, bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşlarının artırılması, müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarına bərabər imkanlar yaradılması, sərbəst rəqabət üçün meydanın genişləndirilməsi, insanların iqtisadi fəallığının yüksəldilməsi və s. tənəzzülün qarşısını almağa, ÜDM artması üçün istehsalın artırması yeni imkanlar yaranmışdır. İqtisadiyyatın real bölməsində idarəetmə və təşkilati strukturun təkmilləşdirilməsi, maddi istehsalın texnoloji quruluşunun müasir ETT əsasında yenidən qurulması, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi, daxili və xarici bazarda milli məhsulların rəqabət qabiliyyətinin artırılmasını təmin edən tədbirlər həyata keçirilmişdir. Əgər əvvəllər aparılan islahatların başlıca istiqaməti mülkiyyət və təsərrüfatçılıq formalarından asılı olmadan müəssisələrin fəaliyyəti üçün əlverişli iqtisadi və hüquqi mühit yaratmaqdan ibarət idisə, hazırda müəssisələrdə daxili dəyişikliklərin stimullaşdırılmasına yönəldilən tədbirlərin gücləndirilməsi zərurətə çevrilmişdir.

Özəlləşdirilən və səhmləşdirilən müəssisələrin təsərrüfat fəaliyyətinə dövlət müdaxiləsini məhdudlaşdırmaq, özləri fəal yenidənqurma aparan müəssisələrin təsərrüfat fəaliyyəti üçün əlverişli iqtisadi və təşkilati şərait yaratmaqla, mülkiyyətçilərin hüququnun müdafiəsi, onların investisiya cəlb etmələrini qanunvericilikdə müəyyən edilmiş qaydalarla daha yaxşı himayədarlıq siyasəti yeridilməlməkdədir. Müəssisələrdə kapital yığımını stimullaşdırmaq üçün, həm də rəqabət qabiliyyətli məhsullar istehsal edən, ixracat yönümlü müəssisə və istehsal sahələrinin fəallaşdırılması üçün sistem xarakterli tədbirlər görməklə yanaşı, ödəmə qabiliyyətini itirmiş müəssisələrin qanunvericilikdə müəyyən edilmiş qaydalarla ləğvi sürətləndirilməlidir. Struktur islahatlarının aparılması, bazar iqtisadiyyatı institutlarının formalaşması və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, müəssisələrin yenidənqurulmasının sürətləndirilməsi, dövlət mülkiyyətinin idarə olunmasının təkmilləşdirilməsi,

maliyyə bazarının, qiymətli kağızlar bazarının və bank sektorunun inkişafı, antiinhisar siyasətinin fəallaşması, rəqabətin stimullaşdırılması, özəl sektorun inkişafına himayədarlıq siyasətinin fəallaşdırılması, iqtisadi cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi üçün sistem xarakterli tədbirlər görülmüşdür və bu proses davam edir.

Amerika iqtisadçıları Robert Eysnerin «Инвестиции: факт и воображение» (1.s.21.), Stenli Fişer, Rudiqer Dornabuş və Riçard Şmalenzin «Экономика» (2.s.15.), Ulyam Şarpın «Инвестиции» (3.s.31.) kitablarında layihənin idarə olunması çox vaxt müəssisələrin qabaqcadan təyin olunmuş strategiyası əsasında müəyyən edildiyini bildirirlər. Avropanın iqtisadçı alimləri Rimer.M.İ., Kasatov.A.D., Matenko.N.N. «Экономическая оценка инвестиций» (4.s.64.), Lorens Qitman və Elizabet Xenniqer «Основы инвестирования» (5.s.24.), Saymon Vaynın «Инвестиции и трейдинг» (6.s.14.) əsərlərində belə hesab edirlər ki, layihə müəssisəsinin təkrar olunmaz məqsədlərinə çatmaq, yerinə yetirilmə vaxtını, maliyyə mənbələrinin təşkilini əks etdirir.

Dünya bankının metodikasına arxalanaraq, belə təyin etmək olar ki, layihə pulun bank yolu ilə kompleks şəklində qoyulması, vaxtdan düzgün istifadəsi və büdcədə qoyulmuş məqsədə çatılması mühüm əhəmiyyət daşıyır. Bizim izahımızda layihə, maliyyə investisiyasının daxil olması və nəğd pulun fəaliyyət növləridir:

- ➢ Məqsədlərin müəyyən edilməsi;
- ➢ Maliyyə və vaxt ehtiyatlarına, onların bütün ömrünə zəmanətin məhdudlasdırılması;
- ➢ Şərtlərin yerinə yetirilməsinə daxili amillərin təsiri (siyasi, hüquqi, iqtisadi və s.);
- ➢ Bir-biri ilə müxtəlif əlaqələrin qurulması və onun nəticəsi.

Yeni axtarışların məqsədini nəzərə alaraq, qeyd edək ki, yuxarıda tərtib olunmuş şərtlə strateji məqsəd işə uyğun gəlir, ona görə də bu izahlı layihəyə üstünlük verilir. Sonuncu təyin edilmiş anlayışın əsas olduğunu qeyd edərək, əvvəlcə tərtib olunmuş bu layihənin məqsədini ciddi olaraq bütün mərhələlərdə yoxlamalıyıq. Onun dəyişməsi, bu layihədən imtina etmək və yenisi ilə işləmək deməkdir.

Şərq tədqiqatçıları bu səbəbləri təhlil etdikdə, belə qənaətə gəlmişlər ki, layihənin məhv olunması onun ilkin məqsədinin düzgün müəyyən edilməsidir. İkinci anlayış onun maliyyə məhdudluğunu və müvəqqəti ehtiyatların büdcəsinin layihəsinə təsir göstərən "məqsədlər açarı" hesab edilir. Layihənin - işçiləri üçün əsas layihə müddəti intervalına baxmaq vaxtın məhdudluğunu, onun həyat dövriyyəsinin uzanmasıdır. Bu cür yanaşma layihə əmlakına xidmət vaxtını daha da artırmaq deməkdir. Layihə məhsullar üçün bazarda nəzərdə tutulan vaxtı, kreditin qaytarılması vaxtı ilə və s. yanaşmaya əsasən təyin etmək lazımdır. Kibernetika nöqteyi-nəzərindən baxarkən bu zaman ona "qara qutu" anlayışı tətbiq olunur. Giriş axınları və orta səviyyəli əlaqələr yoxlanılır. Layihənin girişində cürbəcür ehtiyatlar (material, əmək, kapital, informasiya) ekvivalentinin qiyməti məxaric adlanır.

Öz növbəsində çıxış elementinin axını layihə məhsullarına xidmət göstərir. Eyni zamanda pulun ölçüsü, forması, gəlir mənbəyi və gəlirin vaxtı göstərilməklə icra olunmalıdır. Layihənin ardıcıllığını qeyd edərək, bir-biri ilə əlaqəli proseslərin qoyuluşu və onların nəticəsi riyazi model olur. "İnvestisiya layihəsinin seçilməsi və maliyyələşməsinin metodiki məsləhəti" işçi qrupu tərəfindən təyin olunur. Bu layihənin həyata keçməsi qarşıya qoyulan fəaliyyətin məqsədidir. Yuxarıda göstərildiyi kimi praktiki fəaliyyət, layihənin təhlili ekspertizası bir daha bildirir ki, layihə təhlil olunmalıdır. İnvestisiya layihənin fəaliyyətində əsas rol oynayır və onun qiymətli olması ancaq onun metodologiyasından yox, eyni zamanda beynəlxalq təcrübələrin birləşməsindən, investisiya layihəsinin səmərəliliyindən asılıdır.

Layihələrin investisiya ekspertinin təhlilində idarəedən aşağıdakı metodiki göstəricilərdən istifadə etməlidirlər:

- ➢ Alternativlik prinsipindən istifadə etmək;
- ➢ Məhsul axınının modernləşdirilməsi və bütün ehtiyatların pula satılmasının mümkün olması;

- Layihənin yenidən işlənməsi və bölmələrin ayrı-ayrılıqda ekspertizası (texniki, kommersiya, ekologiya, sosial, maliyyə, iqtisadiyyat);
- Dünya praktikasında istifadə olunan bütün normalar və başqa gəlir və xərc şərtlərinin uçotu;
- Təyin edilməsində qeyri müəyyənliyin və risklərin uçotu, layihənin icra olunması dövrü nəzərdə tutulur.

Göstərilən prinsiplərin ən mühüm anlayışını qısa təhlil edək. Alternativ anlayışın istifadə edilməsi bazar münasibətlərinə əsaslanır və həm də təbii ehtiyatların hər bir an üçün məhdud olma anlayışı ilə, həm də rəqabət prinsipindən çıxış anlayışları ilə bağlıdır. Qəbul edilmiş hər bir qərarın qiyməti, bu qərara alternativ olan və qəbul edilməyən ən yaxşı mümkün qərarların qiyməti ilə ifadə olunur.

Məsələn, iqtisadiyyatda məlum olan “yığma və ya sərf etmək” alternativi, təbii ehtiyatların məhdud olması problemi ilə bağlılıq mövcutdur. Bu baxımdan, müəyyən miqdarda pulun verilmiş investisiya layihəsinə qoyulması haqqında qərar qəbul edərkən biz onun başqa məqsədlərə istifadəsindən imtina edirik.

Metodik göstəricilərin ikinci müddəalarını ətraf mühitlə birləşdirək, daxil olan (gəlirlər) və çıxan (xərclər) axınların strukturu, təhlilin lazımlı olması ilə bağlıdır. Bu anlayışın maddi-fiziki müxtəlifliyi və onların dəyərinin zaman və məkan ilə müqayisə edilməsi və tutuşdurulması üçün yeganə ölçü vahidini yerinə yetirir. Prinsiplərdə də layihənin daxili strukturuna təsir edən və əvvəl sadalanmış istiqamətlərdə onun kompleks və çox sahəli ekspertizanın lazımlığını göstərən ətraf mühütlə qarşılıqlı əlaqəsi əks olunmalıdır. Belə tədqiqatlar layihənin xarici və daxili üstünlüklərini aşkar edir və sonra haqqında danışılacaq təyin olunmuş çıxış forma və kriteriyalarının xüsusi hesablamaları ilə təsdiq olunur. Axırıncı, metodik göstəricilər prinsipi, xarici aləmin dəyişmə şərtlərini və bu dəyişmənin, layihənin daxili strukturuna və səmərəliliyinə təsirinin hesaba alınmasının lazımlığını qeyd edən layihə risklərinin tədqiqat təhlilindən yaranır.

İqtisadi fəaliyyətin reallığı, layihələri növlərinə görə təsnifatlara bölür. Baxılan təsnifatlardan birincisi, iki layihənin müqayisəsi ilə bağlıdır və təsnifat əlaməti olaraq gəlir və xərclərin nisbəti baxımından layihə səmərəliliyinin sadəcə və dürüst istifadə edilməsi götürülür. İki layihədən birini qəbul edərkən, o birisinin rentabelliyi sıfra qədər azalırsa və ya əksinə, onda bunlar bir-birini inkar edən adlanır. Həmin layihələrin başqa, adi alternativi ondan ibarətdir ki, bu iki layihə eyni məqsədlər üçün təyin ediliblər və onları eyni vaxtda qəbul edib faydalı tətbiq etmək qeyri mümkündür. İki layihə o vaxt xətalı olar ki, layihələrdən hər hansı birini qəbul etmədən, hər iki layihənin ayrı-ayrılıqda rentabelliyi sıfra bərabər olsun. Həm də, şərtli əlaqə həmişə simmetrik olur. Əgər bir layihənin qəbul və ya rədd edilməsi, o birinin rentabilliyinə təsir etmirsə, onda bunlar asılı olmayan layihələr adlanır.

Əgər bir layihəni qəbul edərkən o birinin rentabilliyi azalarsa (lakin tam yoxa çıxmır), onda bunlar əvəzedici layihələr adlanır. Bu nisbət simmetrik olduğu kimi, olmaya da bilər. Gəlir və xərclər isə hər iki tərəfə dəyişə bilər. Əgər bir layihənin qəbulu o biri layihənin rentabelliyini artırarsa, belə layihələr simmetrik layihələr hesab olunurlar. Bu nisbət simmetrik olduğu kimi, olmaya da bilər. Bundan başqa həm xərclərdə, həm də qazancda rentabelliyin artması mümkündür.

Növbəti layihənin təsnifatı (qeyri investisiya layihəsi də ola bilər), layihələrin sintezinin rahatlığı, həmçinin layihələrin idarəetmə sisteminin yaradılması məqsədi ilə V.İ. Voropayevanın “Rusiyada layihələrin idarə edilməsi” adlı əsərində (7.s.128.) ümumi tətbiqi göstərilmişdir. Bu təsnifata uyğun olan layihələr, birincisi, fəaliyyət sahəsində uyğun tiplərinə görə bölünürlər: texniki, təşkilatı, iqtisadi, sosial, qarışıq.

İkinci, siniflərə görə: tərkibi, layihənin strukturu, onun tədqiqat sahəsinə bölünürlər. Onların əsasında monolayihə, mezolayihə olur. Monolayihə dedikdə, müxtəlif tipli, növlü və miqyaslı ayrıca layihələr başa düşülür. Multilayihə bir sıra monolayihədən ibarət olan və

çoxlayihəli rəhbərlik tələb edən kompleks layihədir. Mezolayihənin tərkibinə bölgə, sahə və digər qurumların məqsədli inkişaf proqramları olan bir sıra mono və multilayihə daxildir.

Üçüncü əlamət, layihələrin miqyaslarına görə ayrılması ilə bağlıdır (layihənin ölçüsü, iştirak edənlərin sayı və ətraf aləmə təsir göstərməsinə görə). Miqyasa əsasən layihələr şərti olaraq xırda, orta, iri və çox iri layihələrə bölünürlər. Layihələrin miqyaslarına daha konkret formada qayıtmaq lazımdır və bu günün tələbidir.

Layihələr həm də dövlətlərarası, beynəlxalq, milli, bölgələrarası və bölgədaxili, sahələrarası və sahədaxili, korporativ, təşkilati, bir müəssisə layihələri kimi də fərqləndirilirlər. Həyata keçirilmə müddətinə görə layihələr qısa müddətli (3 ilə qədər), orta müddətli (3 ildən 5 ilə kimi) və uzunmüddətli (5 ildən yuxarı) olurlar. Mürəkkəbliyinə görə layihələr sadə, çətin və ya çox çətin olurlar. Layihənin tətbiq sahəsi, onu investisiya, innovasiya, elmi-tədqiqat, tədris-təhsil və qarışıq növlərə ayırmağa imkan verir. İnvestisiya qoyulmasını tələb edən və əsas məqsədi əsas formaların yaradılması və ya innovasiyası olan layihələr, adətən investisiya layihələri kimi başa düşülür.

V.V.Şeremetin ümumi rəhbərliyi ilə hazırlanmış mütəxəssis və müəllimlər üçün olan «Управление инвестициями» (8.s56-98.) iki cilidli kitabında, layihənin ölçülərinin, həyata keçmə müddəti, keyfiyyəti, ehtiyatların məhdudluğu, yeri və həyata keçmə şərtləri əsasında xüsusi layihələr qrupu təsnifləşdirilir, yuxarıda sadalanan amillərdən biri həlledici rol oynayır və özünə xüsusi diqqət tələb edir, bu vaxt qalan amillərin təsiri nəzarətin standart üsulu və riskləri idarəetmənin köməyi ilə neytrallaşdırılır. Bu təsnifata uyğun olaraq layihələr:

a) kiçik, cəlb edilən ehtiyatların həcminin məhdud, miqyasının kiçik meyl və sadəliyinə görə;

b) müqavilələr, müxtəlif səviyyəli məqsədyönlü proqramlar kimi təsəvvür edilən (beynəlxalq, dövlət, milli, bölgə üzrə, sahələrarası, sahədaxili və qarışıq), ümumi məqsədlə birləşmiş, ehtiyatlara ayrılmış və onların yerinə yetirilməsi üçün vaxt təyin edilmiş, tərkibində çoxlu qarşılıqlı əlaqəsi olan layihələrə;

v) qısamüddətli layihələrə;

q) qüsursuz layihələrə (yüksək keyfiyyətli);

d) monolayihələrə və onlara alternativ olan – multilayihələrə (layihə – sifarişçinin niyyəti, qarşılıqlı əlaqəsi olan bir neçə layihəyə aid olduqda) bölünürlər.

Təklif etdiyimiz təsnifat layihələrin tətbiq edilmə əlamətinə görə iki qrupa bölünməsi ilə bağlıdır və burada birinci, layihə artıq fəaliyyətdə olan obyektə qoşulur və bu halda yeni layihəni işləyən müəssisənin cari fəaliyyətinə, həm də belə fəaliyyətin layihəyə təsirinə aid olan aspektlərə baxmaq lazım gəlir. Bəzən belə halı "müəssisə - layihə" adlandırırlar. Əgər layihə "boş yerdə" və ya "göy ot" üstündə həyata keçirilirsə, layihə "müəssisə yaradan" olur və bu hal birincidən fərqli olaraq "müəssisə layihəsi" adlanır. Layihənin eyniləşdirilməsi və fəaliyyətdə olan, hesablanması və səmərəliliyinin qiymətləndirilməsi həmişə layihəsiz və ya layihə ilə şəraitin nəzərdən keçirilməsi ilə bağlıdır, bu isə yalnız gəlir və xərclərin əlavə, artım adlanan qiymətlərin, layihəsiz uyğun qiymətlərlə müşahidəsi, tutuşdurulması əsasında aparılır.

## Şəraitin layihə ilə və layihəsiz baxılması zamanı qrafikin mühüm olmasının təsviri

**Qrafik 1.**










Yuxarıda verilən qrafik təsvirlərdə göstərilmiş layihələrin fəaliyyətində olan istehsala tətbiqinin bir neçə nümunəsinə baxaq. Tətbiq olunan layihənin fəaliyyət vaxtına uyğun, fəaliyyət göstərən müəssisənin, təhlili nəticəsində seçilmiş və müəyyənləşdirilən göstricilərin (məsələn, ümumi gəlir) pul vahidləri ilə əks olunan qiymətlərə ayrılmışdır. Müəssisənin "layihəsiz" inkişaf halı qalın xətlə təsvir olunmuşdur, bu zaman aşağıda əks olunan iş müxtəlif A, B, və V halları ola bilər:

* İstehsalatın artımı (A halı, Ab xətti);
* İstehsalın düşməsi (B halı, Bb xətti);
* İstehsalın sabitləşməsi (V halı,Vb xətti).

Layihənin tətbiqi istehsalın artımına gətirib çıxarmalıdır, lakin layihənin səmərəliliyi müxtəlif ola bilər:

1) istehsalın artımını (A halı, As1 xətti; (B halı, Bs1 xətti; V halı, Vs1 xəti));
2) istehsalın sabitləşməsini (V halı, Vs2 xətti);
3) istehsalın aşağı düşməsinin azalmasını (V halı, Vs3 xətti) əks etdirə bilər.

Bütün bu yazılmış variantlarda təmiz əlavə xeyri (artımlı) təmin etmiş layihənin özünün səmərəliliyi haqqında fikir söyləmək olar. Vs3 xətti ilə təsvir olunmuş V halı bütövlükdə müəssisənin səmərəliliyinin artımına səbəb olmalıdır. Layihə "boş yerdə" həyata keçirilsə, yəni müəssisə yaradan olursa, yalnız onun özünün təmiz gəlirləri haqqında danışmaq olar, belə ki, «layihəsiz şəraitdə» istehsal sadəcə olmazdı. Aşağıda göstərəcəyimiz izahlara baxmadan müəyyən zaman dövründə mühasibat hesabat istiqamətinin təqdimat formalarının xüsusiyyəti ilə bağlı daha bir layihə ilə, layihə olmadan hesablama-texniki zəruriyyəti nəzərə alınmalı olduğunu qeyd etmək lazımdır. Aşağıdakı (Cədvəl 1.) köməyi ilə nəticələri daha yaxşı göstərilən bu risklərin təhlili və idarə edilməsinin istifadəsi mövqeyindən vahid layihənin tədqiq edilmiş təsnifatının sistemləşməsini göstərmək olar.

Xərc və mənfəət təhlilinin qısa struktur izahında dayanaq. Xərclərə fiziki komponentlərin xərcləri, kapital, informasiya xərcləri, əmək, torpaq və s. aiddir. Ümumiyyətlə, layihənin xərclərini qiymətləndirərkən nəzərdə tutmaq lazımdır ki, investisiya qoyuluşu müddətində ölkənin daxilində və dünya qiymətlərində nisbi dəyişkənliklər haqqında yüksək və dəqiq məlumat olmayacaq.

**Cədvəl 1.**

**Vahid layihənin təsnifatının sistemləşməsi**

| № | Təsnifat əlaməti | Təsnifatın məzmunu | Təsnifatın əsas Təyinatı | Risklərin tədqiqi və tətbiqin xüsusiyyətləri |
|---|---|---|---|---|
| 1 | Fəaliyyət dairəsinin tiplərinə görə | Texniki, təşkilati, iqtisadi, sosial, qarışıq | Layihənin təhlilinin spesifik aspektləri | Risklərin dərəcələrə bölünməsi, riskin səbəblərinin aşkar edilməsi |
| 2 | Strukturu-na görə | Monolayihə multilayihə, mezolayihə | Layihənin idarə olunmasının iearxik strukturun mürəkkəbliyi | Risklərin idarə edilməsi metodları |
| 3 | Ölçüsünə görə | Kiçik, orta, iri, çox iri | İnformasiyanın detallaşma səviyyəsi | Risk-təhlil və aşkar olmanın nəticələri üçün məlumat mənbəyinin xüsusiyyəti |
| 4 | Miqyası-na görə | Dövlətlərara-sı, beynəlxalq, milli bölgələrarası, bölgədaxili sahələrarası, sahəvi korporativ,müəssisə (idarə), bir müəssisənin layihələri | Layihənin idarə olunması və hazırlanması xüsusiyyəti | Risklərin nəticələrinin təhlili və risklərin idarə olunma metodları |
| 5 | Zaman ardıcıllığına görə | Qısa müddətli, orta müddətli, uzun müddətli | Layihənin fəaliyyət dövrünün strukturlaşdırılması | Proqnozları etibarlıq dərəcəsində risklərin ehtimallaşması |
| 6 | Mürəkkəbliyinə görə | Sadə, mürəkkəb, çox mürəkkəb | Layihənin idarə olunması prosesinin xüsusiyyəti | Risklərin idarəetmə quruluşunun mürəkkəbliyi |
| 7 | Predmet sahəsinin xarakte-rinə görə | İnvestisiya innovasiya, elmi tədqiqat, elmi təhsil, qarışıq | Mənfəətin uçotunun və layihənin fəaliyyət dövrünün xüsusiyyəti | Risklərin səbəblərinin və onların nəticələrinin aşkar edilməsi |
| 8 | Tətbiq əlaməti-nə görə | 1.Fəaliyyətdə olan müəssisədə tətbiq olunur<br>2. Yeni müəssisə yaradır | Gəlirlərin və xərclərin artım axınlarının düzgün hesablanması və müqayisəsi | Risk-təhlil üçün məlumat mənbəyi. Risklərin tutuşdurulması |
| 9 | Üstün əlamətə görə qarışıq | A) Kiçik<br>V) Mezolayihə<br>S) Qısamüddətli<br>D) Mono və multilayihə | Layihə idarə edilməsi və nəzarətin eyni proseslərinin istifadə xüsusiyyəti | Risklərin dərəcələrə bölünməsi və risklərin ləğvi üsullarının seçilməsi yolları |

Lakin layihənin qiymətləndirilməsində belə mülahizələri nəzərə almaq və qiymətlərin tam sabitliyi əsasında qərar qəbul etsək əlbəttə ki, real olmaz. Layihənin düzgün planlaşdırılması tələb edir ki, xərclərin ümumi miqdarını artıran fiziki şəraitin və qiymətlərin mümkün mənfi dəyişmələrin ehtiyatlından istifadə olunsun, bu isə öz növbəsində ümumi xərclərdə nəzərə alınsın. Buna görə də gözlənilməmiş şəraitə aid xərclər layihənin xərclərinin hesablanmasına onların standart tərkib hissəsi kimi daxil edilir. Fiziki qiymətlərə dair ayırmalar və gözlənilməz qiymət şəraitini əhatə edən vəsaitlər gözlənilməz vəziyyətə aid ehtiyatları təşkil edir. Axırıncılar, öz növbəsində iki kateqoriyaya bölünürlər:

- qiymətlərin nisbi dəyişmələri üçün;
- məlumatın ümumi səviyyəsi üçün.

Layihə riskinin tədqiqində nəzərə alınması zəruri sayılan mühit amillərdən olan məlumat fenomeninin öyrənilməsi bizim işimizdə davam edəcək. Vergilər və borcların ödənilməsi maliyyə xərclərinin əsasını təşkil edir. Keçmiş dövrlərin xərcləri, sözün əsl mənasında, layihə üçün xərc sayılmırlar. Bu təklif edilən yeni investisiyaların əsaslandığı, əvvəllər yerinə yetirilmiş xərclərdir. Onlar nə qədər əsassız olsa da, bu cür xərclərdən qaçmaq mümkün deyil. İnvestisiyalar təhlil edilərkən yalnız gələcək xərclərin verəcəyi xeyirlərə baxılır.

Qeyd edək ki, xərcləri hesablamaq və qiymətləndirmək nəticəni hesablamaqdan asandır. Nəhayət, materiala çevrilmiş xeyirlər ya məhsulun qiymətinin artmasından, ya da xərclərin azalmasından yaranır. Buna görə də, gəlirin müsbət istiqamətdə dəyişməsi istehsalın həcminin artmasına, satış vaxtının, yerinin və formasının dəyişməsinə, maya dəyərinin aşağı düşməsinə, itkilərin azalmasına, istehsal xərclərinin azalmasına, təkrar xeyirlərə gətirib çıxara bilər. Eyni zamanda nəzərə almaq lazımdır ki, layihəni hazırlayanın təbii arzusu olan gəliri artırmaq, onunla yanaşı bir sıra amillərin (məsələn, bazar qiyməti və istehsal olunan məhsula tələb və ya xidmətə çəkilən xərclər) qarşılıqlı asılılığı, korrelyasiyası onların uyğun dəyişkənliyinə gətirib çıxarır və buna görə də qəbul edilən qərarın riskinin təhlili və əsaslandırma hesabları ilə bağlı olur.

**Ədəbiyyat**


1. Марковиц Г. «Средне-дисперсионный анализ при выборе портфеля и рынка капитала». 2013.www. wikipedia. Org
2. Коммерческая оценка инвестиционных проектов. Основные положения методики. С-Пб., изд. Фирма «Альт», 2009.
3. Ливщиц В.Н. «Проектный анализ: методология, принятия во всемирном банке». Грономика и матиматические методы, 2015, Том 31.
4. . Блех Ю., Гетце У. Инвестиционные расчеты. Модели и методы оценки инвестиционных проектов. Калининград: Янтарный сказ, 2006.
5. Економика СНГ. Выпуск №8. «Инвестиционная деятельность в государствах-участниках СНГ». М. ЗАО. «Финстатинформ» 2002.
6. Şəkərəliyev A.Ş., Quriyev C.Q., Əliyev A.Ə. «Gömrük işinin təşkili və idarə edilməsi». Bakı - Qanun – 2003-cü il.
7. Hertz D.B. Investment Policies that Pay Off, Harvard Business Review, 46: 96-108 (January-February, 1968).
8. Управление проектами. Под обшей ред. Шапиро В.Д.: С-Пб., Два-Три, 2015.

**İ.f.d. Dos.Qədimli Nüşabə Astan qızı**
*Mingəçevir Dövlət Universiteti*
*Qedimli_n@mail.ru*

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MALİYYƏ VƏ AUDİT SİSTEMİNİN QURUCUSUDUR

***Açar sözlər:*** *Milli Strategiya, Spektr, AAQ, INTOSAI, EUROSAI*

Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə bəslənən ümumxalq sevgisi, xatirəsinə olan sonsuz ehtiram çoxminillik tariximizin heç bir dövründə heç bir dövlət rəhbərinə nəsib olmamışdır. Ulu öndər Heydər Əliyevi xalqımızın qəlbində bu qədər ucalığa yüksəldən, müqəddəsləşdirən isə onun Azərbaycana olan böyük sevgisi olmuşdur. Azərbaycanın müdrik və qüdrətli oğlu bütün şüurlu həyatını Vətəninin tərəqqisinə, xalqımızın xoş günlərə qovuşmasına həsr etmiş və gərgin mübarizələr nəticəsində, böyük çətinliklər bahasına bu istəyinə çatmışdır.

Təsadüfi deyil ki, bu gün qloballaşan dünyada ən məşhur siyasətçilər, şəxsiyyətin təntənəsi faktorunu müasir dövrün ən aparıcı inkişaf amillərindən sayırlar. Müstəqil dövlətin inkişaf strategiyasında dövlət quruculuğu, sivil demokratik cəmiyyətin, yeni iqtisadi sistemin hüquqi bazasının formalaşması prosesi beynəlxalq hüquq normaları, qarşılıqlı əməkdaşlıq prinsipləri ilə əlaqələndirildi. Respublikada iqtisadi inkişaf, investisiya mühitinin yaxşılaşması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması Heydər Əliyevin adı ilə bağlıdır. Bu elə bir iqtisadi sistemdir ki, o, respublikamızın perspektiv inkişaf, xalqın yaşayış səviyyəsinin yüksəldilməsi imkanlarını reallaşdırmaq üçün güclü zəmin yaratmağa qadirdir. Qeyd edək ki, müstəsna təşkilatçılıq qabiliyyətinə, zəngin idarəçilik təcrübəsinə, dərin təfəkkürə və iti analitik duyuma malik olan Heydər Əliyevin müstəqil Azərbaycanın inkişaf strategiyası barədə baxışları fundamental, konseptual xarakter daşıyır və bu baxışlar Azərbaycan reallığına, onun malik olduğu imkanların sistemli təhlilinə, qloballaşan dünyada gedən proseslərin milli maraqlar baxımından qiymətləndirilməsinə əsaslanır. Heydər Əliyev xarici iqtisadi siyasətlə bağlı strategiyasını çox çətin bir şəraitdə formalaşdırdı. Müstəqilliyin ilk illərində respublikada yaranmış ağır şərait, ictimai-siyasi sahədə qeyrisabitlik müstəqil Azərbaycanın beynəlxalq aləmdə imicini çox aşağı salmışdı. Heç bir dövlət Azərbaycana investisiya baxımından əlverişli bir region kimi baxmırdı. Respublika isə xariclə iqtisadi əməkdaşlığa böyük ehtiyac hiss edirdi. Heydər Əliyev beynəlxalq əməkdaşlığın yeni prinsiplər əsasında inkişafını formalaşdırmaq üçün bir sıra qanunlarda dəyişiklik etdi. Xarici ticarətin liberallaşdırılması istiqamətində cəsarətli addımlar atdı. Lakin bütün bu mərhələlərdə milli maraqları ön plana çəkdi. Xarici şirkətlərin, demək olar ki, hamısı gözləyirdi ki, Heydər Əliyev tez bir zamanla ondan əvvəl hazırlanmış neft kontraktlarını imzalayacaq. Amma dövlət başçısı bunu etmədi və çıxışlarının birində bunu vurğuladı ki, biz milli mənafelərimizin ziddinə gedə bilmərik, təklif edilən şərtlər respublikanın maraqlarına cavab vermir. Bundan sonra dərin araşdırmalar aparıldı, müqayisəli təhlillər edildi, müstəqil ekspertlərin fikirləri açıqlandı. Demək istəyirəm ki, Heydər Əliyev xarici iqtisadi əməkdaşlıq məsələlərində milli maraqları ön plana çəkməyi inkişaf strategiyasının vacib prinsipi kimi qiymətləndirirdi. Heydər Əliyevi narahat eən məsələ ilk illərdə yaranmış idxal və ixracın nisbətində mənfi saldo idi. Bu gün isə artıq nisbət ixracın xeyrinə dəyişib. Sevindirici haldır ki, bu nisbət-saldo neft faktoru ilə yanaşı qeyri-neft faktoru hesabına da artmaqda davam edir. Yaxın gələcəkdə qeyri-neft sektorunun üstün inkişaf etdirilməsi ilə bağlı müəyyən edilən strateji inkişaf xətti ixracın strukturunun daha da təkmilləşməsini təmin edəcəkdir.

Heydər Əliyev açıq iqtisadiyyatın, bazar iqtisadiyyatının prinsiplərinin nəinki tərəfdarı, həm də fəal təbliğatçısı idi. Eyni zamanda, o, zəngin dövlətçilik təcrübəsinə malik olan ölkə

başçısı kimi, dövlət və iqtisadiyyatın münasibətlərində optimallığı müəyyənləşdirməyi tövsiyə edirdi. O, sosial problemlərin, elm, təhsil, ekologiya, qlobal struktur və inkişaf problemlərinin həllində dövlətin imkanlarından, köməyindən səmərəli istifadə etməyi, iqtisadi orqanların məsuliyyətinin artmasını həmişə diqqət mərkəzində saxlayırdı. Heydər Əliyev beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa xüsusi diqqət verirdi. Bu əməkdaşlıqda da milli maraqları əsas tutur və ölkənin maliyyə imkanlarının ildən-ilə artmasına, borca olan ehtiyacın azalmasına, büdcə sisteminin göstəricilərində müsbət meyillərin güclənməsinə ürəkdən sevinirdi. Amma yenə də arzu edirdi ki, bank-maliyyə qurumları daha səmərəli fəaliyyət göstərsinlər, ölkənin milli maraqlarını daha güclü surətdə qorusunlar.

Heydər Əliyev ağır vəziyyətdə olan Azərbaycan iqtisadiyyatını dirçəltmək, bütünlükdə dövlətimizin müstəqilliyinin qorunmasını təmin etmək üçün düşünülmüş strategiya seçdi və bu strategiyada neft faktoruna üstünlük verdi. Bu, yeganə çıxış yolu idi. Qeyd edək ki, son illərdə dünyada və Azərbaycanda siyasi və iqtisadi mübarizələrin kəskinliyi, Xəzər nefti uğrunda dünyadakı hökmran güclərin diplomatik savaşı bəzən elə bir böhran vəziyyətinə gətirib çıxarırdı ki, sanki hər an bir partlayış qopacağı təhlükəsi yaranırdı. Xəzər nefti üçün güclü dövlətlərin siyasi və iqtisadi maraqlarının toqquşması nəticəsində Azərbaycanın gələcəyinə və mənafeyinə zidd olan planların zərərsizləşdirilməsində Heylər Əliyevin müstəsna rolu oldu. Azərbaycan xalqı yaxşı bilir ki, Heydər Əliyevin neft siyasətinin həyata keçilməsinə nə qədər güclü təzyiqlər, maneələr edildi. Amma dövlətimizin başçısı millətimizin və dövlətimizin taleyi, tərəqqisi üçün çox vacib olan prinsipial mövqeyindən dönmədi və 1994-cü ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Bu, müstəqil Azərbaycan dövlətinin, onun Prezidentinin tarixi uğuru idi. Bu, eyni zamanda, Azərbaycanın dünya inteqrasiyasında fəal iştirakı üçün əlverişli imkanların yaradılması demək idi. Biz hamımız bunu dərk etməliyik ki, neft faktoru qlobal bir məsələdir.

XX əsrdə dünyada baş verən böyük konfliktlərin, müharibələrin əsas səbəblərindən biri neft sərvətlərinə yiyələnmək olmuşdur. Heydər Əliyev sübut etdi ki, Azərbaycan suveren dövlət kimi öz təbii sərvətlərinin sahibidir və tarixin ona verdiyi bu şansdan xalqının mənafeyi naminə uğurla istifadə edilməlidir. Müstəqil Azərbaycanın neft strategiyası dünya təcrübəsini nəzərə aldı. Məlumdur ki, neftlə zəngin olan ölkələrin bir çoxu yoxsulluq, səfalət içində yaşayır. Bu ölkələrin təcrübəsindən məlum olur ki, bu ölkələrdə milli mənafelərə cavab verən inkişaf strategiyası olmayıb, istimai-siyasi sabitlik təmin edilməyib, demokratik institutlar yaradılmayıb, neft gəlirlərindən daxil olan külli miqdarda vəsaitlərdən istifadənin şəffaflığı təmin edilməyib. Neft faktoru üzün müddət bütölükdə respublika iqtisadiyyatının inkişafı üçün çox mühüm rol oynadı. Neft satışından əldə edilən gəlirlərdən digər strateji inkişaf proqramlarının reallaşdırılmasında geniş istifadə edildi.

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında dahi xidmətlərindən biri də qədim "İpək yolu" nəqliyyat dəhlizində respublikamızın aktiv iştirakını təmin etməkdir. Bu yolun fəaliyyəti respublikamızın sosial-iqtitsadi dirçəlişinə böyük təsir göstərdi. Qədim "İpək yolu"nun bərpası və orada Azərbaycanın aktiv iştirakı qlobal əhatə dairəsi, miqyası, əsrlər boyu faydası çox böyük olan bir məsələ idi ki, onun da həllində Heydər Əliyev müstəsna rol oynadı. "İpək yolu" Azərbaycan üçün daimi kapitaldır, daimi iqtisadi inkişaf amilidir, daimi gəlir mənbəyidir, daimi siyasi sabitlik mənbəyidir. Eyni zamanda, unutmamalıyıq ki, nəqliyyat dəhlizlərinə yiyələnmək, bu mümkün olmadıqda isə alternativ yollar axtarmaq istiqamətində dünyada, eləcə də bizim regionda böyük mübarizələr gedir.

Heydər Əliyev liderliyinin gücü ondadır ki, o, bütün işlərə yüksək tələbkarlıqla yanaşırdı. Onun bu keyfiyyəti əsil səfərbərlik faktoruna çevrilmişdi. O, daima təhlil aparırdı, müqayisəli araşdırmalara üstünlük verirdi, islahatların gedişi prosesində meydana çıxan problemlərin həlli üçün zəruri tələblərin həyata keçirilməsini hökumətdən tələb edirdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Heydər Əliyev qəti əmin oldu ki, kənddə torpaq münasibətlərini radikal şəkildə dəyişdirmədən, kəndlini torpağın sahibi etmədən əhalinin güzəranını yaxşılaşdırmaq, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək mümkün

olmayacaqdır. Bu tarixi missiyanı yerinə yetirmək üçün Heydər Əliyev dünya təcrübəsini dərindən təhlil etdi, yerli xüsusiyyətləri, əhalinin mentalitetini, yaranmış vəziyyəti sistemli təhlil etdi, bir-birini tamamlayan qanunları imzaladı, normativ baza yaratdı, informasiya təminatını gücləndirdi. Bütün bunlar respublikada torpaq islahatlarının uğurla, sosial sarsıntılar olmadan həyata keçirilməsini təmin etdi.

Heydər Əliyev türk dünyasının daha sürətlə inkişafını arzulayırdı və Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin də bu baxımdan tarixi rolunu xüsusi vurğulayırdı. O, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın türk dünyası ölkələri ilə iqtisadi sahədə əməkdaşlığı daha da inkişaf etməlidir, investorlar hər iki ölkənin milli maraqlarına cavab verən layihələr həyata keçirməlidirlər. Onun Türkiyənin dövlət, hökumət rəhbərləri ilə səmimi dostluğu türk dünyası ölkələrinin birliyinə xidmət edirdi. Hamımız qürur hissi keçiririk ki, müstəqil dövlətimizin gələcəklə bağlı Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiyası vardır. Gələcək inkişaf üçün onun tərəfindən möhkəm təməl yaradılmışdır. Bu təməl Azərbaycan dövlətinin dinamik inkişafına, xalqın yaxşı yaşamasına, ölkəmizdə hüquqi, demokratik cəmiyyətin qurulmasına, Azərbaycanın sivil dövlətlər içərisində özünə layiqli yer tutmasına xidmət edir və edəcəkdir. Bu gün Azərbaycanda iqtisadi inkişaf sürəti dünya iqtisadiyyatı üzrə olan göstəricini xeyli ötür. Bu, bizim tarixi nailiyyətimizdir. Bu inkişaf meyli uzun bir dövr üçün mütləq və mütləq davam etməlidir ki, dövlətimizin iqtisadi qüdrəti daha da möhkəmlənsin, keyfiyyətli həyat səviyyəsi təmin edilsin, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatması istiqamətində cəsarətli addımlar atılsın.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə iqtisadi, siyasi, sosial və digər bütün sahələrdə bir çox nailiyyətlər qazanmışdır. Bu nailiyyətlər bütün ömrünü doğma xalqının mənəvi dirçəlişinə, onun iqtisadiyyatının və mədəniyyətinin tərəqqisinə həsr etmiş ümummilli lider Heydər Əliyev şəxsiyyətinin sayəsində mümkün olmuşdur. Müstəqilliyin bərpasından sonra Azərbaycan iqtisadiyyatı qarşısında duran ən mühüm problem onun bazar iqtisadiyyatı qanunları əsasında inkişafını təmin etməkdən ibarət olmuşdur. Kütləvi nəzarətə əsaslanan inzibati-amirlik prinsipi, iqtisadi qanunların pozulması keçmiş sovet iqtisadiyyatını iflas vəziyyətinə gətirib çıxarmışdı. Belə bir şəraitdə ümummilli liderimiz Heydər Əliyev bazar iqtisadiyyatının əsas özəyi olan sahibkarlığın inkişafını ön plana çəkmişdi. Artıq iqtisadiyyatın idarə olunmasının inzibati-amirlik prinsiplərindən partnyorluq münasibətlərinə keçid zərurəti meydana çıxdı. Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksəlməsi, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə artması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir. Məhz bu dahi şəxsiyyətin gərgin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Heydər Əliyev elə bir tarixi şəxsiyyətdir ki, onun böyüklüyü yalnız yaşayıb-yaratdığı dövrlə məhdudlaşmır. Onun əməlləri, bir tərəfdən, yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən, bu fəaliyyətin gələcək bəhrələri, uzun illər hadisələrin axarına təsiri ilə müəyyənləşir. Bu baxımdan, ulu öndərin qurucusu olduğu müstəqil Azərbaycan və onun inkişaf konsepsiyası müasir və dinamik şəkildə inkişaf edən Azərbaycan dövlətinin əsasını təşkil edir. Heydər Əliyevin rəhbərliyi altında vergi siyasətinin konseptual əsasları hazırlanmış, vergi sistemində aparılacaq islahatların fəlsəfəsi, strategiyası və əsas istiqamətləri formalaşdırılmışdır. Azərbaycanda vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması, ölkənin ilk Vergi Məcəlləsinin qəbul edilməsi də bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi altında 1999-2000-ci illərdə Vergi Məcəlləsinin ilk layihəsi hazırlanaraq geniş ictimai müzakirələrə çıxarılmış və 2000-ci ilin iyul ayında qəbul edilmişdir. Sonrakı illərdə isə iqtisadi mühitin dəyişən tələblərinə uyğun olaraq daim təkmilləşdirilmişdir. Bununla belə, bütün dəyişikliklər Heydər Əliyevin müəyyən etdiyi istiqamət üzrə həyata keçirilmiş və onun qurduğu bazadan kənara çıxmamışdır. [1]

Ölkədə iqtisadi sabitliyin yenicə bərqərar olduğu dövrdə dövlət qurumları ilə vətəndaşlar arasında müəyyən bir boşluq mövcud idi. Bu boşluğun aradan qaldırılmasını zəruri hesab edən Heydər Əliyev dövlət orqanları ilə vətəndaşlar arasındakı münasibətlərin yeni müstəvidə qurulmasını təmin etmək üçün bir sıra tapşırıqlar vermiş, fərmanlar imzalamışdır. O, həmçinin, sahibkarların fəaliyyətinə süni şəkildə maneələrin törədilməsinin qarşısının alınmasını ən vacib məsələ hesab edirdi. Eyni zamanda, sahibkarlarla onları yoxlayan qurumlar arasındakı münasibətlərin partnyorluq müstəvisinə keçirilməsini də mühüm hesab edirdi. Buna nail olmaq üçün yoxlama və nəzarət funksiyalarını həyata keçirən bəzi dövlət orqanları ilə sahibkarlıq subyektləri arasında partnyorluq sazişlərinin bağlanması praktikasına keçidin təmin edilməsi üçün zəruri tədbirlər görülməsi barədə Nazirlər Kabinetinə tapşırıq vermişdi. Həmin tapşırıqla əlaqədar Nazirlər Kabineti "Yoxlama və nəzarət funksiyalarını həyata keçirən bəzi dövlət orqanları ilə sahibkarlıq subyektləri arasında partnyorluq sazişinin nümunəvi forması"nın təsdiq edilməsi barədə qərar qəbul etmişdir. Hazırda dövlətlə vətəndaş arasındakı münasibətlər çərçivəsində həyata keçirilən tədbirlərin prioritet istiqaməti bir sıra subyektiv halların qarşısını almaq və şəffaflığı artırmaq məqsədilə dövlət orqanları ilə əhali arasında birbaşa əlaqələrin minimuma endirilməsinə yönəldilmişdir. Buna nail olmaq üçün atılan ən mühüm addımlardan biri də elektron hökumətin yaradılması istiqamətində aparılan işlərdir. Vergilər Nazirliyi bu sahədə öndə gedən qurum kimi ulu öndərin tövsiyələrini əsas tutaraq istər daxili inzibatçılıq işlərində, istərsə də vergi orqanı və vergi ödəyicisi əlaqələrinin təşkilində elektron xidmətlərə ən sürətlə və uğurla keçən orqandır. Ümummilli liderin münasibətlərin nəzarət deyil, əməkdaşlıq müstəvisində qurulmasının daha əhəmiyyətli olması ideyasına söykənərək vergi orqanı ilə vergi ödəyiciləri arasında vergi partnyorluğunun yaradılması üçün mühüm işlər görülmüş, vergi ödəyicisinin maliyyə itkilərinin minimuma endirilməsi məqsədilə vergi ödəyicilərinə vergi orqanı ilə "Vergi partnyorluğu sazişi"ni bağlamaq hüququ verilmişdir. "Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik"- deyən Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində vergi sisteminin təkmilləşdirilməsi, onun vahid normativ hüquqi bazasının yaradılması, vergi dərəcələrinin aşağı salınması və güzəştlərin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılması, sahibkarlıq fəaliyyəti üçün əlverişli vergi mühitinin yaradılması, habelə vergi xidməti orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində məqsədyönlü işlər görülmüşdür.

Səmərəli nəzarət sisteminin yaradılması hər bir ölkədə sosialiqtisadi inkişafın təminatının vacib ünsürlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Bu mənada, çox səciyyəvidir ki, Azərbaycanda mükəmməl nəzarət sisteminin yaradılması və mövcud nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri olmuşdur. Ulu öndər özü bu barədə demişdir: "Demokratik hüquqi dövlət quruculuğunu strateji siyasi xətt hesab etmək heç də baş verən mənfi hallara, nizam-intizamı, qayda-qanunu pozanlara göz yummaq demək deyildir. Əksinə, dövlət quruculuğunu həyata keçirərkən və iqtisadi islahatlara rəvac verərkən biz bütün sahələrdə qayda-qanunun möhkəmlənməsinə nail olmalıyıq".

Danılmaz faktdır ki, ölkəmizdə yalnız Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra səmərəli və bazar iqtisadiyyatının tələblərinə cavab verən maliyyə nəzarəti sisteminin yaradılması istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Bu tədbirlərin əsas məqsədi büdcə vəsaitlərindən istifadə zamanı şəffaflığın təmin olunması, maliyyə intizamının yaxşılaşdırılması və məhdud maliyyə resurslarının səmərəli idarə edilməsinin təmin edilməsi olmuşdur. Məhz ulu öndərin qayğısı və təşəbbüsü ilə əsas vəzifəsi dövlət büdcəsinin gəlir və xərclərinin icrasına nəzarəti həyata keçirmək olan və konstitusion əsaslarla kənar dövlət maliyyə nəzarətini həyata keçirən Azərbaycan Respublikası Hesablama Palatası yaradıldı. Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatının (INTOSAI) əsas tövsiyələrinin icrası olaraq ölkəmizdə müstəqilliyinə və audit mandatına qanunla zəmanət

verilən kənar ali dövlət maliyyə nəzarəti orqanının yaradılması, bu orqanın öz fəaliyyətində beynəlxalq standartların tələblərinə uyğun qanunçuluq, sərbəstlik, obyektivlik, kollegiallıq, aşkarlıq və ədalətlilik prinsiplərinə əsaslanması, habelə fəaliyyət dairəsinin bütövlükdə dövlət büdcəsi səviyyəsində icraya nəzarətin həyata keçirilməsi kimi müəyyənləşdirilməsi inkişaf etmiş ölkələrə xas olmaqla eyni səlahiyyətlərin Hesablama Palatasına verildiyini bir daha təsdiq edir. "Hesablama Palatası haqqında" və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının qanunlarına əsasən dövlət büdcəsinin icrasına nəzarəti Hesablama Palatası həyata keçirdiyindən, şəffaflığın təmin olunması məsələlərin səmərəli həlli iqtisadi islahatların həyata keçirilməsində ən vacib mərhələlərdən biridir. Xüsusilə şəffaflıq problemi öz aktuallığını həmişə qoruyub saxlamışdır, çünki şəffaflıq və aşkarlıq hakimiyyətin qəbul etdiyi qərarların və ölkədə demokratiyanın bərqərar olunmasının şərti kimi çıxış edir. Ona görə də dövlət idarəetməsində şəffaflığa və aşkarlığa meyil həm inkişaf etmiş və dayanıqlı demokratiyaya malik olan ölkələr, həm də demokratik islahatların həyata keçirilməsinə yeni başlayan ölkələr üçün xarakterikdir. Bu cür meyillər təbii ki, hər şeydən əvvəl, özünü büdcə sahəsində daha qabarıq göstərir, çünki bütün ölkələrdə büdcə dövlət siyasətinin əsas siyasi və maliyyə aləti olaraq qalmaqdadır. Büdcə sahəsində şəffaflıq problemi dərin köklərə malik olmaqla parlament idarəetmə üsulunun formalaşdığı dövrə qədər gedib çıxsa da, əksər ölkələrdə büdcə sahəsi şəffaflıq prinsipinin tələblərinə cavab vermir. Belə ki, əksər hallarda icra strukturları büdcə prosesində inhisarçı mövqeyə malik olduqları üçün qanunverici hakimiyyətin səlahiyyətləri məhdudlaşır, büdcənin səmərəli icra səviyyəsini qiymətləndirmək mümkün olmur və ictimai qurumlar büdcə prosesində iştirak edə bilmirlər. Məhz buna görə əksər ölkələrdə, o cümlədən respublikamızda büdcə islahatlarının həyata keçirilməsində şəffaflığın və aşkarlığın təmin olunmasına xüsusi diqqət yetirilir. Ümumiyyətlə, büdcə prosesində şəffaflığın və aşkarlığın təmin edilməsi, hər şeydən əvvəl, bu sahədə şəffaflığın artırılması hansı  qrupa daxil olmasından asılı olmayaraq, əhalinin bütün təbəqələrinin mənafeyinə uyğun gəlir. Baxmayaraq ki, onların maraq və məqsədləri tam fərqli ola bilər (makroiqtisadi sabitlik, investisiya və sahibkarlıq mühitinin yaxşılaşdırılması, korrupsiyanın azaldılması, büdcə vəsaitlərinin xərclənməsinə nəzarətin artırılması, büdcədən daha çox vəsaitin əldə edilməsi, vergi dərəcələrinin aşağı salınması, kredit resurslarına çıxış imkanlarının sadələşdirilməsi və s.). Bununla belə, fikrimizcə, bu sahədə şəffaflığın artırılması aşağıdakı məsələlərin həll edilməsinə daha çox köməklik göstərir: şəffaflıq cəmiyyətin hər bir üzvünə büdcəni və oradakı məbləğləri, vergi ödəyicilərinin vəsaitlərinin nə dərəcədə səmərəli xərclənməsini başa düşməyə imkan verir ki, bu da son nəticədə vergilərin yığım səviyyəsinin və büdcənin mədaxil hissəsinin artırılmasına imkan yaradır; şəffaflıq ictimai müzakirələrin aparılmasına şərait yaradır və cəmiyyətə büdcə haqqında məlumat əldə etməyə, habelə onların mövqeyini büdcə barədə son qərarlarda nəzərə almağa imkan verir; şəffaflıq icra hakimiyyətinin büdcənin tərtibi və icrası sahəsində məsuliyyətini artırır, çünki bu zaman qanunverici hakimiyyət və ictimaiyyət tərəfindən büdcənin qəbulu və icrasına nəzarət imkanları artmış olur; şəffaflıq büdcə vəsaitlərinin məqsədyönlü xərclənməsinə nəzarət üçün yaxşı zəmin yaradır; şəffaflıq əhalidə və ictimai qurumlarda hakimiyyətə qarşı inam yaradır ki, bu da ictimai birliyin daha da möhkəmləndirilməsinə xidmət edir; şəffaflıq ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunub saxlanmasına müsbət təsir göstərir, çünki bu zaman gözlənilən böhran hallarının qarşısını almaq üçün zəruri tədbirlərin daha tez və asan həyata keçirilməsi mümkün olur; şəffaflıq ölkə iqtisadiyyatını dünya ictimaiyyəti üçün də daha açıq edir və beləliklə, ölkələrin investisiya cəlbediciliyini daha da artırır; şəffaflıq ölkədə korrupsiya sövdələşmələri üçün mümkün olan imkanları azaldır və beləliklə, korrupsiya səviyyəsinin azaldılmasına müsbət təsir göstərir.

Büdcədə və büdcə prosesində şəffaflığın mahiyyəti yalnız cəmiyyətin zəruri məlumatlara müraciət imkanı ilə müəyyən olunmur. Şəffaflıq ictimai iştirakın zəruri şərtidir. Büdcənin şəffaflığı demokratiyanın inkişaf aləti olmaqla yanaşı, eyni zamanda, demokratiyanın inkişaf səviyyəsindən asılıdır, başqa sözlə, əhalinin və ictimai qurumların büdcə prosesində şəffaflığın

təmin olunmasına ictimai nəzarətdəki iştirak səviyyəsindən asılıdır. Yalnız bu zaman həyata keçirilən büdcə siyasətində əhalinin mənafeyinin və ərazi maraqlarının tam olaraq nəzərə alınması barədə fikir yürütmək olar. Beləliklə, büdcə və büdcə prosesində şəffaflıq və aşkarlıq hər şeydən əvvəl: büdcə sahəsində idarəetmə orqanlarının rolunun və funksiyalarının dəqiq müəyyən olunmasıdır; büdcənin tərtibi və icrasında, o cümlədən büdcə hesabatlarının tərtibində aşkarlığın təmin olunmasıdır; büdcə və büdcə prosesi haqqında məlumatlara ictimaiyyətin sərbəst müraciət edə bilməsidir; ictimaiyyətin büdcə prosesində iştirak imkanının olmasıdır.

Təbii ki, bu proseslər ölkəmizdən yan keçməmiş, dünya iqtisadiyyatına inteqrasiyanı təmin etmək və ölkənin nüfuzunu daha da gücləndirmək üçün dövlət başçısı cənab İlham Əliyev tərəfindən iqtisadi fəaliyyətin bütün sahələrində kompleks tədbirlərin həyata keçirilməsi təmin olunmuş, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi üçün "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" hazırlanmışdır. "Milli Strategiya" öz əhatəliliyi və təkmilliyi baxımından çox əhəmiyyətli bir sənəd olmaqla yanaşı, cəmiyyətimiz üçün həyati vacib olan və bütün sahələrdə təxirə salınmadan həyata keçirilməli olan tədbirləri əhatə edir. Belə sahələrdən biri də məhz şəffaflığın artırılması üçün dövlət orqanları tərəfindən maliyyə nəzarətinin təkmilləşdirilməsidir. Qeyd etmək lazımdır ki, "Milli Strategiya"da dövlət orqanlarının fəaliyyətində hesabatlılığın və məsuliyyətin artırılmasına, dövlət əmlakının düzgün idarə olunmasına, antikorrupsiya mədəniyyətinin formalaşmasına şəffaflığın imkan yaratdığı xüsusi vurğulanmış, habelə şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə əsas prinsiplər müəyyən edilmiş, iqtisadi və sosial sahədə maliyyə nəzarətinin təkmilləşdirilməsi əsas vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir. "Milli Strategiya"da bu fəaliyyət istiqaməti üzrə mühüm əhəmiyyət kəsb edən tədbirlər, o cümlədən maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətinin təkmilləşdirilməsi və səffaflığın artırılması üçün bu orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi, maliyyə nəzarəti mexanizminin təkmilləşdirilməsi, aidiyyəti icra qurumları tərəfindən bütün sahələr üzrə büdcə xərclərinin əsaslandırılmış normativlərinin müəyyən edilməsi, büdcə sistemini tənzimləyən qanunvericiliyin, büdcə təsnifatının və yerli büdcələrinin tərtibi və icrası prosesində şəffaflığın təmin edilməsi üçün büdcə vəsaitinin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna nəzarət mexanizmlərinin və prosedurlarının təkmilləşdirilməsi kimi tapşırıqlar müəyyən edilmişdir. Bundan əlavə, "Milli Strategiya"da şəffaflığın artırılması istiqamətlərindən biri kimi, beynəlxalq audit standartlarının tətbiq olunması və bu sahədə nəzarət sistemlərinin təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. Maliyyə nəzarəti və şəffaflığın artırılması ilə bağlı "Milli Strategiya"da müəyyən edilmiş tədbirlərin mütəmadi yerinə yetirilməsi ölkəmizdə dayanıqlı sosial-iqtisadi münasibətlərin formalaşmasına, maliyyə-büdcə sahəsində şəffaflığın və aşkarlığın daha da artırılmasına öz müsbət təsirini göstərmişdir. Bunun nəticəsidir ki, Beynəlxalq Büdcə Tərəfdaşlığı təşkilatının "Büdcə Açıqlığının İcmalı - 2010" hesabatına əsasən Azərbaycan Büdcə Açıqlığı İndeksinə görə 94 ölkə arasında 52-ci yeri tutmuşdur. Bu "İcmal" dövlətlərin büdcə fəaliyyətinin yeganə müstəqil və müqayisəli qiymətləndirmə sənədi hesab olunur. Dövlət maliyyəsi məsələləri üzrə beynəlxalq ekspertlər tərəfindən "İcmal"da tətbiq edilən yanaşmalar yüksək qiymətləndirilmişdir. Beynəlxalq Büdcə Tərəfdaşlığının İcmalı hər bir ölkədə əsas büdcə sənədinin mövcudluğunu və onun məzmununun tamlığını qiymətləndirir. İcmalda, həmçinin, qanunverici orqan və ali nəzarət orqanı tərəfindən səmərəli nəzarətin əhatə dairəsi, dövlət büdcəsi üzrə qərarların qəbulu prosesində əhalinin iştirak imkanları da yoxlanılır.

Azərbaycanın öz mövqeyini yaxşılaşdırmasının əsas amili kimi, "İcmal"da ali nəzarət orqanının yeni rəhbəri tərəfindən illik audit hesabatlarının, həmçinin, büdcənin icrası üzrə cari hesabatların nəşr edilməsi göstərilmişdir. Hesablama Palatasına əhalinin inamının daha da güclənməsinə nail olunması və büdcə vəsaitlərindən istifadə olunması üzərində Palata vasitəsilə ictimai nəzarətin təmin edilməsi üçün Palatanın fəaliyyəti barədə bütövlükdə cəmiyyətin və onun ayrı- ayrı təbəqələrinin daha geniş və müfəssəl məlumatlandırılması

məqsədilə zəruri tədbirlər görülməkdədir. Şəffaflığın və aşkarlığın təmin edilməsi Palatanın əsas fəaliyyət prinsiplərindən biri kimi qəbul edilərək maliyyə nəzarəti və cari fəaliyyət üzrə müvafiq məlumatlar veb-saytda mütəmadi olaraq yerləşdirilir və Palata tərəfindən həmin məlumatların dolgunluğuna xüsusi diqqət yetirilir. Bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üçün "Hesablama Palatası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq, Ali Audit Qurumlarının (AAQ) beynəlxalq təşkilatları (INTOSAI, EUROSAI və s.) ilə əməkdaşlığa Hesablama Palatası tərəfindən xüsusi önəm verilir. Bunun əsas səbəblərindən biri də həmin təşkilatlar tərəfindən AAQ-ların fəaliyyətində şəffaflığın, aşkarlığın və hesabatlılığın artırılmasına diqqətin daha çox ayrılmasıdır. [2]

Azərbaycan Respublikasının müstəqil, demokratik inkişaf yoluna qədəm qoymasından sonra ölkədə həyata keçirilən radikal iqtisadi islahatlar və idarəetmə sisteminin təkmilləşdirilməsi, o cümlədən nazirlik, komitə və başqa mərkəzi icra hakimiyyəti orqanlarında mövcud olan nəzarət-təftiş qurumlarının ləğv olunması, dövlət orqanlarına onların öz səlahiyyətlərinə aid olmayan yoxlamalar aparılmasının qadağan edilməsi və bu istiqamətdə ardıcıl şəkildə həyata keçirilən digər məqsədyönlü tədbirlər ölkədə beynəlxalq standartlara cavab verən nəzarət sisteminin qurulmasına xidmət etmişdir. Hələ 1996-cı ildə imzalanmış "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" Prezident fərmanı paralel və lüzumsuz yoxlamaların azaldılmasında, iqtisadi subyektlərin qanuni mənafelərinin qorunmasında mühüm rol oynamışdır. Beynəlxalq standartlara cavab verən nəzarət mexanizmini tətbiq etmək məqsədilə «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında» ulu öndər tərəfindən imzalanmış 1999-cu il 7 yanvar tarixli fərman iqtisadiyyatımızda demokratik prinsiplərin bərqərar olunması baxımından müstəsna əhəmiyyət kəsb etmişdir. Heç də təsadüfi deyildir ki, "Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında" 1998-ci il 29 dekabr tarixli fərmanda islahatların nəzərdə tutulmuş 4 əsas istiqamətindən ikisi dövlət xərclərinin idarə edilməsi və audit sisteminin islahatını, başqa sözlə, nəzarətin təkmilləşdirilməsini nəzərdə tutmuşdur.

Mülkiyyət çoxnövlülüyünün bərqərar edilməsinin ölkədə sərbəst iqtisadiyyatın, azad sahibkarlığın inkişafı üçün əlverişli zəmin yaratması Heydər Əliyevin iqtisadi inkişaf konsepsiyasında mühüm yer tutur. Bu mənada O deyirdi: "İstəyirik ki, insanlar mülk sahibi olsunlar, əmlak sahibi olsunlar, sahibkar olsunlar"; bu şərtlə ki, gərək "bizim sahibkarlarımız qanuna riayət etsinlər, qanuni yolla getsinlər". Eyni zamanda, Heydər Əliyev dövlət orqanlarından tələb edirdi ki, qanuni yolla sahibkarlıq etməkdə sahibkarlara maneçilik törətməsinlər, əngəllər yaratmasınlar, mane olmasınlar, onlarla birlikdə qanunu pozmasınlar, sahibkarlığın inkişaf etdirilməsi üçün indiyə qədər yaradılan və mövcud olan əngəllər aradan götürülsün, sahibkarlara onların normal fəaliyyət, qanuni fəaliyyət göstərməsi üçün şərait yaradılsın, kömək edilsin. [3]

Sahibkarlığın inkişafına dövlət himayəsindən danışarkən özəl bölmənin hərtərəfli fəaliyyətinə mane olan bürokratik əngəllərin, qanunsuz müdaxilələrin, əsassız yoxlamaların qarşısının alınması istiqamətində ulu öndərin növbəti məqsədyönlü addımlarından bəhs etməmək, mümkün deyildir. "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 2002- ci il 28 sentyabr tarixli fərmanda dövlət nəzarəti sistemində struktur islahatlarına və qanunvericilik bazasının təkmilləşdirilməsinə yönəlmiş radikal mahiyyətli müddəaların geniş spektri əksini tapmışdır. Fərmanla sahibkarlıq subyektlərinə müdaxilələri qəti qadağan edilmişdir; şəhər və rayon icra hakimiyyətlərinin nəzarət və yoxlama funksiyalarını yerinə yetirən müxtəlif qurumlarının on gün müddətində ləğv edilməsi məqsəduyğun sayılmış və bu tapşırıq yerinə yetirilmişdir. 2001-cü ilin sonlarında "Korrupsiyaya qarşı mübarizə haqqında" qanun layihəsinin Milli Məclisin müzakirəsinə çıxarılması və qəbul edilməsi Heydər Əliyevin nəzarətin təkmilləşdirilməsi, korrupsiya və iqtisadi cinayətkarlığa qarşı amansız və ardıcıl mübariz olduğunu bir daha sübut etmişdir. Ulu

öndər tərəfindən mövcud nəzarət sisteminin təkmilləşdirilməsi və nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması istiqamətində imzaladığı normativ hüquqi aktlar sırasına “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu (16.09.1994-cü il), “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanunu (2.07.1999-cu il), “Azərbaycan Respublikasında korrupsiyaya qarsı mubarizənin gucləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı (8.06.2000-ci il) aid etmək olar. Bunların nəticəsində Azərbaycanda beynəlxalq tələblərə cavab verə biləcək nəzarət sisteminin əsası qoyulmuşdur. Başqa sözlə, bir tərəfdən, nəzarətedici orqanların sayının azaldıldığı və səlahiyyətlərinin məhdudlaşdırıldığı halda, digər tərəfdən də sivil nəzarət institutlarına geniş yer verilmiş, onların inkişafına nail olunmuşdur. Əyani bir misal kimi, göstərmək olar ki, cəmiyyətin demokratikliyinin meyarlarından biri kimi qiymətləndirilən və müstəqil, qərəzsiz nəzarət forması sayılan audit Azərbaycanda beynəlxalq standartlar baxımından artıq bərqərar olmuşdur və iqtisadi həyatda öz mövqeyini durmadan möhkəmləndirir. [4]

Ölkə Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, “Azərbaycanın bir sıra transmilli layihələrin reallaşmasında fəal iştirakı, xarici investisiyaların ölkəmizə axını, birgə müəssisələrin uğurlu fəaliyyəti auditor xidmətinin iqtisadi proseslərdə rolunu və əhəmiyyətini daha da artırmışdır. Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir”.

Bu gün qürurla deyə bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən iqtisadi inkişaf və tərəqqi konsepsiyası reallaşdırılarkən, qabaqcıl dünya təcrübəsi nəzərə alınmaqla şəffaflığın təmin edilməsi, iqtisadi inkişaf üçün maneələr törədən, qanunun aliliyini və sosial ədalət prinsiplərini pozan korrupsiyaya qarşı mübarizə mühüm vəzifələr kimi ön plana çıxmışdır. Azərbaycan Prezidentinin son dövrlərdə imzaladığı fərman və sərəncamlarda maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsi, təkmil nəzarət mexanizminin tətbiqi və bütövlükdə maliyyə intizamının möhkəmləndirilməsi ölkədə sosial-iqtisadi inkişafın sürətləndirilməsinin mühüm bir istiqaməti kimi təsbit olunmuşdur. Hələ 2003-cü il 24 noyabr tarixində imzaladığı “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” fərmanda cənab İlham Əliyev ölkənin sosial-iqtisadi problemlərinin həlli üçün ayrılan vəsaitin şəffaflığının qorunmasını, müəssisələrdə maliyyə intizamının möhkəmləndirilməsini və bu sahələrdə mövcud olan nöqsanların aradan qaldırılmasını mühüm vəzifə kimi qarşıya qoymuşdu. Ümumiyyətlə, bütün sahələrdə olduğu kimi, şəffaflığın təminatı istiqamətində də Prezident İlham Əliyevin siyasəti öz sistemliliyi, kompleksliyi və dönməzliyi ilə səciyyələnir: “Bütövlükdə şəffaflığın artırılması, maliyyə resurslarından səmərəli istifadənin təmin olunması xüsusi diqqət tələb edən bir məsələ olub, iqtisadiyyatın və idarəetmənin müxtəlif sahələrində və səviyyələrində nəzarət işinin düzgün qurulmasını zəruri edir. Bir sözlə, iqtisadiyyatın birinci həll etməli olduğu problemlər arasında şəffaflıq xüsusi diqqət mərkəzində durmalıdır. Çünki bu, demokratiyanın mühüm ünsürlərindən biridir”.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 5 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda icrası nəzərdə tutulmuş bir sıra problemlər nəzarətin təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir və bu istiqamətdə yeni mərhələ təşkil edir. Bütün bunlar ona dəlalət edir ki, maliyyə şəffaflığının təmin edilməsi, nəzarətin müasir dövrün tələblərinə uyğun olması istiqamətində yüksək hüquqi bazaya malik ölkələr arasında Azərbaycanın layiqli yer tutmasına baxmayaraq, möhtərəm Prezident bu sahədə işlərin qabaqcıl beynəlxalq təcrübəyə

uyğun qurulmasına xüsusi önəm verir. Həyata keçirilən bütün tədbirlər idarəetmənin mühüm bir istiqaməti kimi nəzarətin aktuallığını artırmaqla bərabər, optimal idarəetmə məsələlərinin işlənib hazırlanması və qəbul edilməsi sahəsində onun rolunun yüksəldilməsi zərurətindən irəli gəlir.[4]

Şübhə yoxdur ki, Ulu öndər Heydər Əliyevin iqtisadi siyasətində mühüm yer tutan, Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı fərman və sərəncamlarda, söylədiyi proqram xarakterli nitqlərdə həlli vacib mühüm vəzifə kimi qarşıya qoyulan nəzarət və şəffaflıq problemləri ilə bağlı məsələlərin tam həcmdə yerinə yetirilməsi ölkəmizdə sosial-iqtisadi münasibətlərin daha sağlam əsaslar üzərində formalaşmasına, iqtisadi-maliyyə fəaliyyətində şəffaflığın tam təmin edilməsinə şərait yaradan ciddi amilə çevrilməkdədir.

**Xülasə:**

Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə bəslənən ümumxalq sevgisi, xatirəsinə olan sonsuz ehtiram dahi şəxsiyyətin Azərbaycana olan böyük sevgisinin bəhrəsidir. Azərbaycanın müdrik və qüdrətli oğlu bütün şüurlu həyatını Vətəninin tərəqqisinə, xalqımızın xoş günlərə qovuşmasına həsr etmiş və gərgin mübarizələr nəticəsində, böyük çətinliklər bahasına bu istəyinə çatmışdır. Ümummilli lider Heydər Əliyev bu istəyinə çatmağın başlıca təminatı olaraq iqtisadiyyatın inkişafına böyük önəm vermişdir. Siyasi liderlik bacarığına, idarəçilik təcrübəsinə mükəmməl yiyələnmiş ulu öndər həmişə hesab edirdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir və istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur.

**Ədəbiyyat**

1.Maliyyə hesabatlarının Beynəlxalq Standartları. http:/www.maliyye.gov.az/static/141/ maliyye - hesabatlarının beynəlxalq standartları - Maliyyə Nazirliyinin çapı.

2. Səbzəliyev S.M., Maliyyə hesdabatı. Bakı: Az.DİU- nun nəşriyyatı 2018, 312 s

3. Novruzov V., Sosial iqtisadi inkişafın müasir mərhələsində auditor xidməti. Azərbaycan Qəzeti, 13 aprel 2010

4.Novruzov V., 25 il dövlətin, mülkiyyətçilərin və auditorların keşiyində. Azərbaycan qəzeti, 8 sentyabr 2019

**İ.e.f.d., b/m. Həkimova Yeganə Allahyar qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (unec)*
*yegana_hakimova@unec.edu.az*
*hekimli.2014@mail.ru*

## MÜASİR DÖVRDƏ MALİYYƏ NƏZARƏTİNİN İNKİŞAFI KONSEPSİYASI

**Xülasə** - Dayanmadan dəyişən, iqtisadi təlatümlərin baş verdiyi və qeyri-müəyyənliklərlə dolu dünyamızda maliyyə nəzarəti dövlət idarəçiliyində, səmərəli sosial-iqtisadi siyasətin aparılmasında və insanların rifah səviyyəsin yüksəldilməsində önəmli rol oynayır. Maliyyənin nəzarət funksiyasının reallaşmasıyla ortaya çıxan maliyyə nəzarəti hər zaman öz aktuallığını qorumuş və xüsusi yanaşma tələb etmişdir.

Maliyyə nəzarəti həm də ona görə aktual, əhəmiyyətli və üstündə dayanılmalı bir prosesdir ki, bu sahədə baş verən istənilən qanunsuzluq, fırıldaqçılıq və qeyri-leqal hallar digər sahələrə təsirsiz ötüşmür. Belə ki, səmərəsiz təşkil olunmuş maliyyə nəzarəti ilə həm dövlət gəlirlərinin toplanmasında, həm də xərclərin təyinatına uyğun istifadəsində istənilən səviyyəyə çatmaq mümkün olmur. Ümumiyyətlə, deyə bilərik ki, hər hansısa sahədə inkişafa nail olmaq və müasir mədəniyyətlər səviyyəsinə yüksəlmək üçün ölkədə yüksək səviyyəli maliyyə nəzarəti sistemi formalaşdırılmalıdır.

**Açar sözlər**: maliyyə nəzarəti, planlaşma, tənzimləmə, operativ, iqtisadi təhlil.

Azərbaycan Respublikasında dövlət maliyyə nəzarəti sistemi ölkənin dövlət idarəetmə sisteminin əsas həlqələrindən biridir. Dövlət maliyyə nəzarəti dövlət büdcəsinin planlaşdırılmasından, istifadəsindən, müəssisə və təşkilatlar vasitəsi ilə gəlirlərin əldə edilməsindən, büdcə xərclərinin maliyyələşdirilməsindən tutmuş ali audit qurumları tərəfindən həyata keçirilən dövlət maliyyə nəzarətinədək büdcə prosesinin bütün mərhələlərini əhatə edir.[3]

Dövlət maliyyə nəzarəti institutu dövlət nəzarət orqanlarının və dövlətin maliyyə sisteminin tərkib hissəsini təşkil edir.

Dövlət maliyyə nəzarəti institutu dövlətin maliyyə siyasətinin reallaşmasına və ölkədə maliyyə sabitliyinə şərait yaradılmasına xidmət edir.

Azərbaycan Respublikasında dövlət maliyyə nəzarəti Azərbaycan Respublikasının Hesablama Palatası, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin «Dövlət maliyyə nəzarəti xidməti», Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin dövlət xəzinədarlığı və s. qurumlar tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının Hesablama Palatasının yaradılması Azərbaycan Respublikasının Konstitusiyasında və «Hesablama Palatası haqqında» Azərbaycan Respublikasının Qanunuda (1999-cu il) öz əksini tapmışdı. Hesablama Palatası kollegial, funksional və təşkilat cəhətdən müstəqildir vaə daimi fəaliyyət göstərən dövlət maliyyə-büdcə nəzarəti orqanıdır.

Azərbaycan Respublikasının Hesablama Palatasının qanunvericilikdə təsbit olunmuş səlahiyyətləri «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunundan (2002-ci il) və «Daxili audit haqqında» Azərbaycan Respublikasının (2007-ci il), Vergi və Gömrük Məcəllələrində nəzərə alınmışdır.[4]

2008 və 2010-cu illərdə «Hesablama Palatası haqqında» Azərbaycan Respublikasının Qanuna edilən əlavələr və dəyişikliklər Palatanın dövlət maliyyə nəzarəti sistemində rolunu gücləndirilərək ona daha çox hüquq və səlahiyyətlər verdi. Azərbaycan Respublikasının Hesablama Palatasına maliyyə intizamının və qanunvericiliyin pozulmasına görə şəxsləri məsuliyyətə cəlb etmək, audit tədbipri aparan dövlət orqanlarına müəssisə və idarələrin

rəhbərlərinə təqdimat vermək, bank və xəzinə hesablarından maliyyə əməliyyatlarını dayandırmaq hüququ verildi. Maliyyə əməliyyatlarını həyata keçirən məsuliyyətli şəxslərin fəaliyyətində cinayət əlamətləri aşkar edildikdə audit materiallarını Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərmək hüququ da Hesablama palatasına verildi.

Azərbaycan Respublikasının Hesablama Palatası ölkədə dövlət maliyyə nəzarəti funksiyasını yerinə yetirən yeganə orqan kimi dövlət və qeyri-dövlət müəssisələrində, iri dövlət vergi ödəyicilərində dövlət büdcəsinin gəlirlərinin formalaşdırılması və xərclərinin planlaşdırılması, maliyyələşdirilməsi, məqsədli təyinata səmərəli istifadə edilməsinə nəzarət edir. Hesablama Palatası dövlət proqramlarının yerinə yetirilməsini təhlil edir və məqsədli proqramların əsaslandırılmış olmasını qiymətləndirir.

Müasir dövrdə Azərbaycanda Ali Audit Qurumlarının ölkənin sosial-iqtisadi inkişafındakı rolu daha da artmaqdadır. Belə ki, son illərdə Azərbaycanda maliyyə resurslarının dinamikası, həyata keçirilən sosial-iqtisadi layihələr Azərbaycan Respublikasının Hesablama Palatasının maliyyə inzibatçılığının optimallaşdırılması istiqamətində fəaliyyətinin, dövlət idarəçiliyində yerinin və əhəmiyyətinin aktuallığını artırıb və palata tərəfindən həyata keçirilən maliyyə-büdcə nəzarəti tədbirlərinin keyfiyyəti yüksəlib.

Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən nəzarət tədbirlərinin keçirildiyi müəssisə və təşkilatlarda ancaq əsassız və artıq ödənilmiş büdcə vəsaitinin bərpa olunması tələb olunmur. Belə ki, Hesablama Palatasının verdici təqdimatlar əsasında müqavilədə nəzərə alındığından az yerinə yetirilmiş keyfiyyətsiz xidmət və işlər təkrar görülür və bu işlərdə günahkar olan şəxslərin qanunla cəzalandırılmasına nəzarət olunur.

Hesablama Palatasının təqdimatları əsasında aşağıdakı tədbirlər həyata keçirilir:

- inventar və avadanlıqların, malların qaytarılması;
- böyük məbləğlərdə debitor və kreditor borclarının uçota götürülməsi və ya ləğv edilməsi;
- vergi və digər icbari ödənişlər üzrə vəsaitlərin hesablanması;
- dövlət büdcəsinə artıq ödəmə kimi qeydə alınmış vəsaitin ləğv olunması;
- büdcə vəsaitinin əsassız xərclənməsinə səbəb ola biləcək ödənişlərin qarşısının alınması və s.

Hal-hazırda Azərbaycan Respublikasınıın Hesablama Palatası aşağıdakı istiqamətlərdə maliyyə nəzarətini həyata keçirir:

- dövlət müəssisələrinin əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitin büdcəyə daxil olmasına;
- hüquqi şəxslərə və bələdiyyələrə ayrılan vəsaitlərin təyinatı üzrə istifadəsinə aparılan müəssisə və təşkilatlarda yoxlama zaman aşkar edilən böyük məbləğlərdə qanunsuz və səmərəsiz ödənişlər Hesablama palatasının nəzarət obyektlərinə göndərdiyi təqdimat və təkliflər əsasında geri alınır.

Dövlət Maliyyə nəzarətinin əsas qurumu olan Azərbaycan Respublikasının Hesablama Palatasının iş fəaliyyətində beynəlxalq audit standartlarına uyğun olan milli standartların tətbiqi əsas yer tutur. Hesablama Palatası beynəlxalq standartlara uyğun audit təlimlərinin keçirilməsinə və işgüzar münasibətlərin daha da genişləndirilməsinə xüsusi fikir verir. Azərbaycan Respublikasının Hesablama Palatasının dövlət maliyyə auditi sahəsindəki fəaliyyətində günün tələblərinə cavab verən yeniliklərin tətbiqi nəticəsində onun beynəlxalq hesabatlarda (reytinqlər) mövqeyi möhkəmlənmişdir. Belə ki, «Açıq büdcə indeksi» (Beynəlxalq Büdcə layihəsi» təşkilatı tərəfindən tərtib edilir) hesabatında Azərbaycanın ali audit orqanının dövlət büdcəsinə nəzarət istiqamətində fəaliyyəti 100 baldan 50 bal səviyyəsində qiymətləndirilmişdir. Belə ki, ali audit orqanının fəaliyyəti aşağıdakı faktorlar (şərtlər) əsasında dəyərləndirilmişdir:

- dövlət büdcəsinin icrasına verilən rəy;
- dövlət büdcəsinin layihəsinə verilmiş rəy;
- büdcə haqqında hesabatların rəsmi internet saytında yerləşdirilməsi.

Azərbaycanda dövlət maliyyə nəzarətini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti də həyata keçirir. Dövlət Maliyyə Nəzarət xidməti Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 9 fevral tarixli «Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında» fərmanı ilə təşkil olunub.[1] Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti xidmətini yaratmaqdan məqsəd dövlət büdcəsindən alınmış vəsaitlərin məqsədli və öz təyinatına səmərəli xərclənməsi üzərində maliyyə nəzarətini həyata keçirməkdir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi dövlət maliyyə nəzarəti xidməti Azərbaycanda dövlət maliyyə nəzarətinin aparılması işinə metodiki cəhətdən rəhbərlik edir. Dövlət maliyyə nəzarəti xidməti maliyyə nəzarəti sistemində aşkar edilən nöqsanların və neqativ halların yaranma səbəblərinin aradan qaldırılması üçün müntəzəm olaraq tədbirlər görür.

Müəssisə və təşkilatlarda Maliyyə Nazirliyi maliyyə nəzarəti xidməti maliyyə nəzarəti tədbirləri nəticəsində aşkar edilmiş hüquq pozuntularını təhlil edir və bu nöqsanların aradan qaldırılması haqqında təkliflər verir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Maliyyə Nəzarəti Xidməti öz fəaliyyətinin təkmilləşdirilməsi və nəzarət tədbirlərinin səmərəliliyinin yüksəldilməsi istiqamətində müntəzəm olaraq tədbirlər həyata keçirir, təkliflər hazırlayır və onların Azərbaycan Respublikasının Maliyyə nazirliyinə verir.

Maliyyə nəzarəti xidməti yoxlama aparılan büdcədən maliyyələşən təşkilatlarda, sosial sferaya daxil olan idarə və müəssisələrdə pul sənədlərini, mühasibat uçotu registrlərini, hesabatları, planları smetaları, eyni zamanda pul vəsaitinin, qiymətli kağızların, material qiymətlərinin və s. mövcudluğunu yoxlayır, pul vəsaitinin və material qiymətlərinin düzgün istifadəsini müəyyən edir.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında» fərmanı (2009-cu il) ilə Azərbaycan Maliyyə nazirliyinin Baş Dövlət Xəzinədarlığı Agentliyi təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi icra hakimiyyəti orqanıdır. Dövlət Xəzinədarlıq Agentliyi Maliyyə Nazirliyi tərəfindən qəbul edilən Əsasnamə əsasında fəaliyyət göstərir.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi aşağıdakı fuknsiyaları həyata keçirir:

- dövlət büdcəsinin kassa icrasını həyata keçirir;
- dövlət büdcəsinin kassa icrası ilə əlaqədar maliyyə əməliyyatlarının uçotunu aparır;
- büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlikləri qəbul edir;
- Azərbaycan Respublikasında dövlətə məxsus maliyyə vəsaitlərini vahid mərkəzdən idarə edir;
- dövlətə məxsus maliyyə vəsaitlərinin daxil olması üzərində cari nəzarət aparır;
- dövlətə məxsus maliyyə vəsaitlərinin məqsədyönlü xərclənməsi sahəsində cari nəzarəti həyata keçirir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət xəzinədarlığı Agentliyi öz fəaliyyətində aşağıdakı sənədləri rəhbər tutur:

1. Azərbaycan Respublikasının Konstitusiyasını;
2. Azərbaycan Respublikasının qanunları;
3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarını;
4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Əsasnaməsini;
5. Azərbaycan Respublikasının Maliyyə Nazirinin əmr və sərəncamlarını.
6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi haqqında Əsasnaməni və s.

Azərbaycanda dövlət maliyyə nəzarətinin həyata keçirilməsində Maliyyə Nazirliyinin rolunu da xüsusi qeyd etmək lazımdır. Azərbaycan Respublikasının Maliyyə Nazirliyində

maliyyə nəzarətini «Maliyyə nəzarəti xidməti» və Dövlət Xəzinədarlığı Agentliyi həyata keçirir. İstər maliyyə nəzarəti xidməti, istərsə də Dövlət Xəzinədarlığı Agentliyi büdcə və büdcədənkənar fondların vəsaitlərinin formalaşması və xərclənməsində cari nəzarəti həyata keçirirlər. Dövlət xəzinədarlıq sistemi yuxarıda qeyd edildiyi kimi, dövlət büdcəsinin kassa icrası ilə əlaqədar olan maliyyə əməliyyatlarının uçotunu aparır və bu əməliyyatların məqsədyönlü, qanunu və büdcədə göstərilən həcmdə olması üzərində nəzarəti həyata keçirir.

Ölkədə büdcə xərclərinin səmərəli istifadə olunmasında Dövlət xəzinədarlıq Agentliyinin həyata keçirdiyi maliyyə nəzarətinin rolunu xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan Respublikasında Dövlət Xəzinədarlığı Agentliyi tərəfindən büdcə vəsaitinin xərclənməsi mərkəzləşdirilmiş qaydada aparılır. Belə qayda isə büdcədən vəsaitin ödənişləri üzrə borcların meydana gəlməsinin qarşısını alır. Sonra büdcədən maliyyələşən təşkilatları daima maliyyə resursları ilə təmin etməyə, büdcədən dövlət vəsaitlərinin vaxtlı-vaxtında ödənilməsinə, büdcədən dövlət vəsaitlərinin vaxtlı-vaxtında ödənilməsinə, büdcə vəsaitlərinin xərclənməsinin mərkəzləşdirilmiş qaydada aparılmasına şərait yaradır və büdcə xərclərinin səmərəliliyi üzərinə nəzarət təmin olunur.

Dövlət Xəzinədarlıq Agentliyi büdcədən maliyyələşən təşkilatların, o cümlədən, sosial sahələrin (səhiyyə, idman, təhsil, mədəniyyət və s.) maliyyə əməliyyatları üzərində fuknsional və iqtisadi təsnifata uyğun nəzarəti aparır. Bu isə aşağıdakıların həyata keçirilməsini təmin edir:

- büdcə vəsaitlərindən sui-istifadə edilməsinin qarşısı alınır;
- büdcə təşkilatlarının kommunal xidmətlər üzrə yaranmış borclarının vaxtında və tam ödənilməsinə imkan verir;
- zəruri xərclərin faktiki yaranmış borcların səviyyəsinə uyğun ödənilməsinə imkan verir.

Beləliklə, Azərbaycan Respublikasında Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi vasitəsilə aşağıdakıların həyata keçirilməsinə imkan yarandı;

- büdcə vəsaitinin ancaq xəzinə hesabları vasitəsilə istifadə olunması;
- dövlət büdcəsində müəyyən olunmuş maliyyə vəsaitinin birbaşa son təyinatına çatdırılması;
- büdcə xərclərinin ancaq xəzinədarlıq vasitəsilə qəbul edilmiş öhdəliklər dairəsində baş verən borcların ödənilməsinə yönəldilməsi;
- büdcədən maliyyələşən təşkilatlar tərəfindən maliyyə intizamına riayət etməklə vəsaitlərdən öz təyinatına istifadə edilməsi üzərindən nəzarətin aparılması;
- büdcə təşkilatları tərəfindən təsdiq olunmuş xərc smetalarında nəzərə alınan limiti gözlənilməklə büdcə vəsaitindən məqsədli və qənaətlə istifadə edilməklə maliyyə nəzarətinin təmin olunması.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən maliyyə nəzarəti sisteminin gücləndirilməsi məsələsi dəfələrlə vurğulanmış, xüsusilə Hesablama Palatasının fəaliyyətinin təkmilləşdirilməsi qeyd edilmişdir. Cənab prezidentin maliyyə nizam-intizamı gücləndirilməlidir. İsrafçılığa, izafi xərclərə yol verilməməlidir». Büdcə vəsaitlərinin strukturuna yenidən baxılmalıdır və büdcə vəsaiti qənaətlə xərclənməlidir. Bir sözlə, maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir», «bütün sahələrdə islahatlar dərinləşməlidir, şəffaflıq təmin edilməlidir, nəzarət, maliyyə nəzarəti daha da gücləndirilməlidir» tapşırıqlarının icrası Hesablama Palatasının fəaliyyətinin əsas məqsədidir.

Müasir dövrdə dövlət maliyyə nəzarəti-dövlət quruculuğunun ayrılmaz tərkib hissəsidir. Dövlət maliyyə nəzarətinin əsas vəzifəsi cəmiyyəti, hakimiyyəti nəzarət aparılan obyektlərdə mövcud olan bütün məsələlərlə məlumatlandırmaqdır.

Müasir dövrdə Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi – nəzarət orqanlarının standartlarının təşkili ilə əlaqədar problemin həllini tələb edir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Hesablama Palatası qanuna əsasən dövlət maliyyə nəzarətinin normativ-hüquqi sənədlərini hazırlayır və təsdiq

edir. Həmin normativ aktlar bütün dövlət maliyyə tədbirlərinin aparılması üçün metodoloji baza təşkil edir.

Azərbaycanda maliyyə nəzarətinin vahid standartları sistemi yaradılmalıdır və həmin standartlar maliyyə nəzarətinin bütün növlərini (dövlət, audit, təsərrüfatdaxili nəzarət) və istiqamətlərini əhatə etməlidir.

Azərbaycan Respublikasının maliyyə sferasında informasiya texnologiyanın yüksəlməsi üçün yeni məlumat texnologiyalarından istifadəsi əsas amil ola bilər. Bununla əlaqədar olaraq aşağıdakıların həyata keçirilməsi zəruridir:

- vahid informasiya mənbəyinin formalaması; nəzarət tədbirlərinin avtomatlaşdırılmış uçotu; nəzarət orqanları arasında müəyyən məlumatların dəyişdirilməsininin təmin olunması;
- məlumatların müdafiəsi sisteminin təkmilləşdirilməsinin məqsədi dövlətin mənafeyinin əksinə məlumatların aşkarlanmasının itirilməsinin dəyişdirilməsinin ləğv edilməsinin və ya qanunsuz istifadə olunmasının qarşısının alınmasıdır;
- büdcə vəsaitinin səmərəli istifadəsinin auditinin normativ–hüquqi və metodik bazasının formalaşması.

Azərbaycanda dövlət maliyyə nəzarətinin ali orqanlarının fəaliyyətinin vacib istiqamətini dövlət vəsaitinin səmərəli istifadəsi üzərində nəzarət təşkil edir. Müasir dövrdə büdcə prosesinin yenidən təşkilinin əsas istiqamətini büdcə xərclərinin səmərəliliyinin artırılması təşkil edir. Ona görə də, dövlət maliyyə nəzarəti orqanlarının fəvaliyyətində səmərəlilik auditinin tətbiqi böyük əhəmiyyət kəsb edir.

Səmərəlilik auditi müasir dövrdə dövlət maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsinin istiqamətini müəyyən edir:

- nəzarət orqanları ancaq büdcə vəsaitinin məqsədli istifadəsini yoxlamalıdır;
- icra orqanları tərəfindən qəbul edilən qərarların düzgünlüyü ancaq nəzarət orqanları tərəfindən yoxlanılmır;
- audit səmərəliliyi eyni zamanda yoxlanılan təşkilatın fəaliyyətinin effektivlik və nəticəlilik nöqteyi-nəzərdən təhlil olunur.

Azərbaycanda dövlət maliyyə nəzarətinin praktiki fəaliyyətində səmərəlilik auditinin tətbiqinin ancaq qanunu təminatı zəruridir. Bununla əlaqədar olaraq «Dövlət maliyyə nəzarəti haqqında» Qanunda aşağıdakı məsələlərin də daxil edilməsini məqsədəuyğun hesab etmək olar:

- nəzarət orqanlarının fəaliyyətinin əsas istiqamətini dövlət xərclərinin səmərəlilik auditi təşkil etməlidir;
- audit səmərəliliyi dövlət vəsaitindən istifadənin nəticəsi və qənaətciliyinin təhlilinə yönəldilməlidir;
- yoxlanılan subyektin fəaliyyətinin səmərəlilik göstəricilərini müəyyən etmək;
- «büdcə vəsaitinin qeyri-səmərəli istifadəsi» anlayışını müəyyən etmək.

Müasir dövrdə Azərbaycanın yeni iqtisadi inkişaf kursu çərəivəsində büdcə-maliyyə sahəsində günün tələblərinə uyğun olan idarəçilik və nəzarət sisteminin qurulması tələb olunur.

Azərbaycan Respublikasında 2016-2020, 2025-ci ilə qədər və ondan yuxarı qəbul edilmiş dövr üçün Strateji Yol Xəritəsinə əsasən Azərbaycan Respublikasının Hesablama Palatası da 2018-2020-ci illər üçün strateji inkişaf pldanı hazırlamışdır. Maliyyə nəzarətinin inkişafı və təkmilləşdirilməsi ilə əlaqədar Ali Audit Qurumunun tərtib etdiyi strateji inkişaf planının mərhələlərinə aşağıdakılar daxildir:

I mərhələ: planlaşma;
II mərhələ: tətbiq;
III mərhələ: nəticə;
IV mərhələ: İnkişafın davamlılığını təmin etmək.

Strateji inkişaf planının «Planlaşma» mərhələsində aşağıdakı vəzifələr nəzərdə tutulub:

- cari vəziyyətin təhlili;
- zəif və güclü tərəflərin araşdırılması;
- missiya və əsas dəyərlərin müəyyən edilməsi.

Strateji inkişaf planının «tətbiq» mərhələsinin vəzifələri isə sonrakılardan ibarətdir: Məqsəd və alt məqsədlər; tədbirlər planı.

SİP «nəticə» bölməsinin göstəricilərinə aiddir.

1. Əsas perfomans göstəricilər;
2. Hədfələrien izlanməsi;
3. Keyfiyyətə nəzarət.

Strateji inkişaf planının dördüncü, «İnkişafın davamlılığını təmin etmək» mərhələsinin vəzifəsinə isə daxildir. Əldə edilmiş nəticələr əsasında növbəti strateji inkişaf planının hazırlanması.

Strateji inkişaf planının dördüncü mərhələsi «missiya və əsas dəyərlərin müəyyən edilməsi» adlanır. Bu vəzifədə nəzərdə tutulan əsas dəyərlərə daxildir:

- qanunçuluq;
- peşəkarlıq;
- müstəqillik;
- obyektivlik;
- şəffaflıq və hesabatlılıq.

Dövlət Maliyyə Nəzarətinin təkmilləşdirilməsi ilə əlaqədar ölkənin Ali Audit Qurumu tərəfindən 2018-2020-ci illər üçün hazırlanan strateji inkişaf planında strateji hədəflər də nəzərdə tutulub. Belə ki, strateji hədəflər 4 məqsədi nəzərdə tutur:

1-ci məqsəd: Hesablama Palatasının büdcə layihələrinə dair rəylərin və fəaliyyəti barədə hesabatların hazırlanması, maliyyə hesabatlarının təhlili işinin təkmilləşdirilməsi;

2-ci məqsəd: Maliyyə nəzarəti fəaliyyətinin təkmilləşdirilməsi və yeni audit növlərinin tətbiqi;

3-cü məqsəd: Qanunvericilik bazasının gücləndirilməsi;

4-cü məqsəd: Maraqlı tərəflərlə əlaqələrin gücləndirilməsi (ictimaiyyətlə əlaqələr və hesabatverməə) və beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

Ali Audit Qurumunun 2018-2020-ci illər üçün tərtib etdiyi strateji inkişaf planının hədəfləri içərisində birinci məqsədi xüsusilə qeyd etmək lazımdır. Hesablama Palatasının büdcə layihələrinə dair rəylərinin fəaliyyəti barədə hesabatlarının hazırlanması, maliyyə hesabatlarının təhlili işinin təkmilləşdirilməsi məqsədi özündə aşağıdakı vəzifələri nəzərdə tutur: [2]

- Hesablama Palatasının dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının layihəsi və icrası ilə bağlı rəylərinin hazırlanmasında fəaliyyəti daha da təkmilləşdirilməli;
- Ali Audit Qurumunun fəaliyyəti haqqında «Hesabatın hazırlanması işlərini» təkmilləşdirmək;
- Büdcə təşkilatlarının maliyyə hesabatlarının təhlili işini təkmilləşdirmək.

2018-2020-ci illərdə Azərbaycanda maliyyə nəzarəti fəaliyyətinin təkmilləşdirmək məqsədi ilə aşağıdakı təkliflər irəli sürülür:

- Maliyyə nəzarəti tədbirlərinin keçirilməsində keyfiyyətə nəzarətin təmin edilməsində fəaliyyəti gücləndirmək;
- maliyyə nəzarəti tədbirlərinin dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının gəlir və xərcləri üzrə əhatə dairəsini gücləndirmək;
- səmərəlilik (perfomans) auditinin keçirilməsini təmin etmək və gücləndirmək;
- Dövlət maliyyə nəzarətinin obyektlərində müxtəlif sahələr (istiqamətlər) üzrə kənar dövlət maliyyə nəzarəti tədbirlərinin keçirilməsində fəaliyyəti gücləndirmək;
- Maliyyə nəzarəti obyektlərinin seçilməsində risk əsaslı yanaşmalardan və qiymətləndirmə metodlarından istifadə etmək.

Müasir dövrdə dövlət maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində ən mühüm məsələ Maliyyə nəzarətinin qanunvericilik bazasının gücləndirilməsidir. 2018-2020-ci illərdə Ali Audit qurumunun fəaliyyətinin təkmilləşdirilməsində bu məsələnin həlli böyük əhəmiyyət kəsb edir.

Dövlət maliyyə nəzarəti sistemi əsas etibarilə makroiqtisadi proseslərdə, o cümlədən, YDM dəyər nisbətləri, pul kütləsi, pul vəsaiti fondlarının formalaşması və istifadəsi (dövlətin sərəncamına daxil olan) proseslərində cəmləşir. Lakin qeyri-dövlət maliyyə nəzarətinin də fəaliyyət sferası genişlənir və onun da mahiyyəti getdikcə təkmilləşir.

Qeyd etmək lazımdır ki, sonradan nəzarətdən əvvəlcədən nəzarətə tərəf irəliləyişlər var. Azərbaycanda demokratiya və parlamentarizm inkişaf edir. Belə ki, dövlət büdcəsinin və büdcədənkənar dövlət pul fondlarının layihələri müzakirə və təsdiq edilən zaman dövlət vəsaitinin xərclənməsinin məqsədəuyğunluğunun və iqtisadi səmərəliliyinin dərindən təhlili üzərində ciddi nəzarət həyata keçirilir. Bu işdə xüsusi nəzarət orqanı olan Azərbaycan Respublikasının Hesablama Palatsının 1999-cu ildə təşkili çox böyük rol oynayır. Hesablama Palatası kənar dövlət maliyyə nəzarət orqanıdır. Hesablama Palatasının təşkili ilə Azərbaycanda kənar dövlət maliyyə nəzarəti institutunun təşkilinin əsası qoyuldu. Hesablama Palatası yaradılan zaman iqtisadi cəhətdən inkişaf edən ölkələrin təcrübəsindən istifadə edilmişdi. Bu istiqamətdə dövlət maliyyə nəzarəti həyata keçirilən zaman əsas rol dövlətin qanunverici orqanına yəni Milli Məclisə və onun təşkil etdiyi ali audit orqanına yəni, Hesablama Palatasına verilir.

Dövlət maliyyə nəzarəti orqanlarının əsas vəzifəsi yoxlanılan sənədlər haqqında özlərinin sərbəst fikirlərini forsmalaşdırsınlar və təsdiq etsinlər.

Beynəlxalq təcrübədə dövlət maliyyə-nəzarəti orqanları tərəfindən dövlət xərcləri və gəlirləri üzərində nəzarət həyata keçirilir və bu zaman onlar aşağıdakı istiqamətlərdə nəzarət funksiyasını yerinə yetirirlər;

- büdcə resusrlarının daxil olma mənbələri;
- büdcə resusrlarının xərclənməsi;
- dövlət vəsaitinin istifadəsinin səmərəliliyi;
- büdcədənkənar dövlət fondlarının vəsaitinin xərclənməsi;
- büdcə vəsaitinin maliyyə-kredit idarəçilərində dövriyyəsi;
- maliyyə əməliyyatları üzrə qanunsuz hərəkətlərin qarşısının alınması və s.

Qeyd etmək lazımdır ki, dünyada dövlət maliyyə auditinin formaları, təşkili və həyata keçirilməsi ilə əlaqədar problemlərə vahid yanaşma mövcud deyil.

Beynəlxalq səviyyədə ölkələrin dövlət maliyyə nəzarəti orqanlarının məqsədi və vəzifələri bir-birinə oxşayır, lakin dövlət maliyyə nəzarəti orqanlarının hüquqları, fuknsiyaları və quruluşu məsələlərində bəzi müxtəlifliklər var. Belə fərqlər hər bir ölkənin iqtisadi inkişafının xüsusiyyətləri, tarixi ənənələri və s. ilə əlaqədardır. Bəzi ölkələrdə dövlət maliyyə nəzarəti orqanları büdcə layihəsinin ekspertizasında qanunverici strukturaya öz təkliflərini hazırlayıb verirlər.

Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə dövlət maliyyə nəzarətinin təşkilində və həyata keçirilməsində bir sıra səmərəli tədbirlər var ki, bunlardan da Azərbaycanda istifadə edilir. Belə ki, Azərbaycanda dövlət maliyyə nəzarətini həyata keçirən Hesablama Palatası beynəlxalq əməkdaşlığı genişləndirən və möhkəmləndirən bir ali audit qurumudur. Hesablama Palatası xarici ölkələrin dövlət maliyyə nəzarəti orqanlarının fəaliyyətinin təcrübəsini öyrənməklə Azərbaycanda maliyyə nəzarətinin inkişafına əvəzsiz kömək edir.

Belə ki, Hesablama Palatasının Strateji inkişaf planının üçüncü hədəfini (məqsədini) ölkədə maliyyə nəzarətinin qanunvericilik bazasının gücləndirilməsi təşkil edir.[4] Dövlət maliyyə nəzarətinin qanunvericilik bazasının gücləndirilməsi ilə əlaqədar strateji hədəf qarşısında aşağıdakı vəzifələr qoyulur:

- dövlət maliyyə nəzarət sisteminin və büdcə qanunvericiliyinin davamlı olaraq təkmilləşdirilməsi istiqamətində fəaliyyətini gücləndirmək;

- Hesablama Palatasının maliyyə nəzarəti və cari maliyyə fəaliyyətini tənzimləyən daxili normativ-metodiki sənədləri təkmilləşdirmək.

Müasir dövrdə dövlət maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi məqsədi ilə AAO hazırladığı stratejit inkişaf planında böyük əhəmiyyət kəsb edən ən mühüm hədəflərdən birini nəzarət prosesində ictimaiyyətlə əlaqələrin gücləndirilməsi və beynəlxalq səviyyədə əməkdaşlığı daha da genişləndirməkdir. Bu hədəfin özünün də qarşısında bir sıra məqsədlər qoyulur:

- maliyyə nəzarəti tədbirlərin nəticələri barədə məlumatların ictimaiyyətə çatdırılması istiqamətində işlərin təkmilləşdirilməsi;

- dayanıqlı və effektiv dövlət maliyyə sisteminin təkmilləşdirilməsi məqsədi ilə Milli Məclis və Nazirlər Kabineti ilə əlaqələrin genişləndirilməsi;

- korrupsiyaya qarşı mübarizədə maraqlı tərəflərlə əlaqələri təkmilləşdirmək.

Dövlət maliyyə nəzarətinin təsiredici mexanizmini təşkil etmək üçün əsas tədbirlərdən biri kimi inkişaf etmiş ölkələrin qanunverici təcrübəsindən istifadəni məqsədəuyğun hesab etmək olar.

Bu ölkələr – İNTOCAL-ın üzvi hesab olunurlar.

İNTOCAL – ali audit qurumlarının beynəlxalq təşkilatıdır. İNTOCAL-ın regional qurumlarının təşkilatı isə EUROCAL – adlanır, yəni bu – ali qurumların Avropa təşkilatı deməkdir. UNTOCAL-ın bir regional təşkilatı ACOCAL ( ali audit qurumlarının Asiya təşkilatı), digəri isə EKOCAL (İqtisadi əməkdaşlıq təşkilatı) üzv dövlətlərin ali audit qurumlarının təşkilatı) fəaliyyət göstərir.

Yuxarıda qeyd edilən Ali Audit Qurumlarına (UNTOCAL, EUROCAL, ACOCAL, EKOCAL) Azərbaycan Respublikasının Hesablama Palatası üzrə qəbul olunub.

Azərbaycan Respublikasının Hesablama Palatası İran, Rusiya, Türkiyə, Pakistan, Gürcüstan, Ukrayna, Qazaxıstan, Böyük Britaniya, Belarus, Moldova (2014-cü il) və s. dövlətlərlə maliyyə nəzarəti istiqamətində əməkdaşlıq sazişləri imzalamışdır.

Onu da qeyd etmək lazımdır ki, UNTOCAL-la (Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı) daxil olan hər bir ölkənin Ali audit Qurumu üçün 1977-ci ilin oktyabr ayında Perunun Lima şəhərində UNTOCAL-ın IX konqresində Lima Bəyənnaməsi qəbul edildi və bu bəyannamədə hər bir ölkənin Ali Audit qurumunun müstəqil olması göstərilir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında», 9 fevral 2009-cu il fərmanı.

2. «Audit xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu. 1994-cü il.

3. «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu. 2002-ci il.

4. «Hesablama Palatası haqqında» Azərbaycan Respublikasının Qanunu. 2 iyul 1999-cu il.

**i.f.d., baş müəllim Hüseynova Alidə Teymur qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
e-mail:alida_gusenova@unec.edu.az

# AZƏRBAYCANDA KOMMERSİYA BANKLARINDA RƏQƏMSAL İNNOVASİYALARIN TƏTBİQİ, INKIŞAFI VƏ PERSPEKTİVİ.

**Xülasə**

Rəqəmsal ödənişlərin genişləndirilməsi əsas ölkənin bank sisteminin inkişafından asalıdır. Maliyyə vasitəçiliyinin inkişaf etdiyi ölkələrdə nağdsız ödənişlərin həcmi daha da yüksək olur.

Rəqəmsal ödənişlərin genişləndirilməsi üçün ən mühüm şərtlərdən biri institusional maneələrin aradan qaldırılmasıdır. Beynəlxalq təcrübə göstərir ki, nağdsız ödənişlərin genişlənməsi üçün yalnız məhdudlaşdırıcı inzibati qaydalar yetərli deyil, maddi stimullaşdırma tədbirləri (təşviqlər) daha effektivdir. İqtisadi stimullar vasitəsilə həm istehlakçıları, həm də biznes subyektlərini rəqəmsal ödənişlərdən daha aktiv istifadəyə cəlb etmək mümkündür.

Rəqəmsal iqtisadiyyat quruculuğunun genişləndirilməsi üçün əhalinin maliyyə savadlılığının artırılması, elektron xidmətlərdən istifadə vərdişlərinin və mədəniyyətinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Rəqəmsal ödənişlərin genişləndirilməsi ücün nağd pul dövriyyəsini məhdudlaşdıraraq, bankan kənar dövriyyənin azalması ilə iqtisadiyyata investisiya qoyuluşunun imkanları genişlənəcək, ölkədə nağdsız hesablaşma və nağdsız ödəniş alətlərinin göstəricilərinin inkişaf etmiş ölkələrin səviyyəsinə çatması istiqamətində nəticələr əldə olunacaq, maliyyə xidmətlərinə çıxış imkanları əlçatan olacaq, əhalinin əhalinin maliyyə savadlılığının elektron xidmətlərdən istifadə vərdişlərindən səmərəli istifadə olunmasına imkan yaradacaq.

**Açar sözlər:** *AZİPS, XÖHKS, MÖS, SWIFT*

Nağdsız ödənişlər – bank vasitəsi ilə hesablarındakı qeydlər həyata keçirilən hesablaşmalardır. Bu zaman pullar ödənişi edənin hesabından silinərək, pulları qəbul edənin hesabına köcülür.

Nağdsız tədiyyə dövriyyəsi – məcmu pul dövriyyəsinin bir hissəsi olmaqla nağd pulun iştirakı olmadan bank hesablarından vəsaitlərin nağdsız köçürmə yolu ilə aparılan dövriyyəsidir. Nağdsız hesablamalar nağd hesablamalara nisbətən daha sərfəlidir. Cünki, nağdsız hesablamalar zamanı tədavül xərcləri azalır, müəssisələrin əməliyyatlarına vergi ödəmə və hesablaşma intizamına nəzarət edilir.

Nağdsız hesablaşmaların aşağıdakı formalarından istifadə edilir:

1. Ödəniş tapşırığı
2. Ödəniş tələbnamə-tapşırığı
3. İnkasso sərəncamları
4. Akkreditiv

1. Ödəniş tapşırığı– ödəyicinin öz hesabından müəyyən məbləğ pul vəsaitlərinin silinib, digər müəssisələrin hesabına daxil edilməsi haqqında özünə xidmət edən banka müraciətidir.

Müəyyən olunmuş blank formasında banka təqdim olunan ödəmə tapşırığı yazıldığı gündən 3 iş günü ərzində etibarlı hesab edilir. Ödəniş tapşırıqları bank tərəfindən icra üçün bank ilə hesab sahibi arasında başqa razı1aşma olmadıqda ödəyicinin hesabında ödənişi tam təmin edən məbləğdə vəsait olduqda qəbul edilir.

Fiziki və hüquqi şəxslərin qanunvericiliklə və ya bank hesab müqaviləsi ilə nəzərdə tutulmuş nağdsız ödənişləri həyata keçirmək üçün istifadə olunur.

Ödəniş tapşırıqlarını almış hüquqi şəxs tapşırığın müvafiq sahəsində öz bank hesab nömrəsini qeyd edir, imza və möhürü ilə təsdiq edərək xidmət olunduğu banka təqdim edir. Emitent bankın məsul şəxsi sənədin düzgünlüyünü və ödənişi təmin edən məbləğin olmasını

yoxladıqdan sonra, kənarlaşma olmadıqda Ödəniş tapşırığının "Bank üçün" nəzərdə tutulmuş hissəsi əsasında Mərkəzi Bankın müvafiq normativ aktlarına uyğun olaraq ödənişi benefisar bankına göndərir.

Ödəniş tapşırığı ilə hesablaşma zamanı bank (emitent bank) ödəyicinin tapşırığı ilə onun bank hesabında olan vəsait hesabına ödəniş tapşırığında qeyd olunmuş məbləğdə pul vəsaitini bu və ya başqa bankda (benefisiar bankda) ödəyicinin göstərdiyi şəxsin (vəsait alanın) bank hesabına köçürür.

2. Ödəniş tələbnamə-tapşırığı - ilə hesablaşmalar zamanı emitent bank ödəyicinin əvvəlcədən verdiyi sərəncam əsasında vəsait alan tərəfindən təqdim olunan ödəniş tələbnamə-tapşırığı üzrə ödənişi vəsait alanın xeyrinə həyata keçirir.

Emitent bank ödəyicinin bank hesabından pul vəsaitinin silinməsi haqqında sərəncamı bu tələbi irəli sürməyə hüququ olan vəsait alanı eyniləşdirməyə imkan verən lazımi məlumatlar həmin sərəncamda göstərildikdə qəbul edir.

Ödəyicinin sərəncamı bank hesabına sərəncam vermək hüququ olan şəxs (şəxslər) tərəfindən imzalanmalı və müvafiq hallarda möhürlə təsdiq olunmalıdır.

Ödəyici ödəniş tələbnamə-tapşırığı ilə ödənişlərin icrası üzrə verdiyi sərəncamı ən geci bank hesabından vəsaitin silinməsi üçün müəyyən etdiyi gündən əvvəlki iş gününün sonunadək geri götürə bilər.

Vəsait alan ödəniş tələbnamə-tapşırığını emitent banka benefisiar bank vasitəsilə və ya birbaşa təqdim edir.

Ödəyicinin tələbi ilə emitent bankın məsul şəxsi ödəniş tələbnamə-tapşırığının öz imzası və ştampı ilə təsdiq edilmiş surətini ödəyiciyə təqdim edir.

3. İnkasso sərəncamları - ilə hesablaşmalar zamanı borclunun (ödəyicinin) bank hesabına xidmət göstərən bank (icraçı bank) məcburi icra orqanları tərəfindən inkasso sərəncamlarına əlavə edilən icra sənədlərinə əsasən ödənişi ödəyicinin bank hesabından mübahisəsiz qaydada (ödəyicinin sərəncamı olmadan) həyata keçirir. Məhkəmə və digər orqanların qərarlarının məcburi icrası ilə bağlı inkasso sərəncamları banka icra məmurları tərəfindən təqdim olunur.

İnkasso sərəncamı qismən ödənildikdə icraçı bankın məsul şəxsi onun bankda olan nüsxəsinin müvafiq hissələrində qismən ödənişin tarixini və məbləğini, habelə ödənişin qalıq məbləğini qeyd edir, onları öz imzası və ştampı ilə təsdiqləyir.

İnkasso sərəncamı tam ödənildikdə icraçı bankın məsul şəxsi icra sənədində qeyd yazır, onu öz imzası və ştampı ilə təsdiqləyir və bir nüsxəsini bankda saxlayaraq sənədi icra məmuruna qaytarır.

4. Akkreditiv - təminatlı ödəniş vasitəsidir. Akkreditivdən bir müəssisə ilə hesablaşmalarda istifadə olunur. Akkreditivdə hesablaşma tərəflər arasında bağlanan müqavilə ilə tənmizlənir. Akkreditivlə hesablaşmada ödəniş satıcının yerləşdiyi yerdə aparılır.

Vəsait alana qabaqcadan bildirmədən emitent bankın dəyişdirə və ya ləğv edə bildiyi akkreditiv geriçağırılan akkeditiv hesab edilir. Vəsait alanın razılığı olmadan ləğv edilə və ya dəyişdirilə bilməyən akkreditiv geriçağırılmayan akkreditiv sayılır. Geriçağırılmayan akkreditiv emitent bankın qəti öhdəliyidir. Akkreditivdə onun icra üsulu göstərilməlidir. Akkreditivdə dəyişiklik edilməsi üçün ödəyici emitent banka ərizə təqdim etməlidir. Emitent bank akkreditivin və onda edilmiş dəyişikliklərin vəsait alana ötürülməsində eyni bankın xidmətlərindən istifadə etməlidir. Vəsait alan akkreditivdə edilən dəyişikliklərin qəbul edilib edilməməsi barədə icraçı banka xəbər verməlidir. Ödəniş üçün nəqliyyat və sığorta sənədləri, habelə faktura və qaimə və digər sənədlər akkreditivdə göstərilməlidir. Akkreditivdə eyni zamanda digər sənədlərin kim tərəfindən verilməsi, onlarda hansı ifadə və ya məlumatların olması akkreditivdə göstərilməlidir. Əks halda banklar sənədləri təqdim edildiyi kimi qəbul edir.

Akkreditiv üzrə hesablaşmalar aparmaq üçün ödəyici akkreditiv acılması haqqında emitend banka tapşırıq və göstəriş göndərir. Bu göstəriş və tapşırıq əsasında hərəkət edən bank vəsait alana akkreditivin tələbərinə cavab verən müvafiq sənədlərin təqdim edilməsi şərti ilə

vəsait ödəməyi və ya uçota almağı və ya köcürmə vekselini ödəməyi, aksept etməyi yaxud uçota almagı  və bu səlahiyətləri başqa banka ( içraci banka) verməyi öhdəsinə götürür və onu icra edir.

Akkreditiv üzrə hesablaşmalar zamanı ödəyicinin akkreditiv açılması haqqında tapşırığı və göstərişi ilə hərəkət edən bank (emitent bank) vəsait alana akkreditivin tələblərinə cavab verən müvafiq sənədlərin təqdim edilməsi şərti ilə vəsait ödəməyi və ya köçürmə vekselini ödəməyi, aksept etməyi və ya uçota almağı və ya bu səlahiyyətləri başqa banka (icraçı banka) verməyi öhdəsinə götürür. Vəsait alana vəsaiti ödəyən və ya köçürmə vekselini ödəyən, aksept edən və ya uçota alan emitent banka icraçı bank haqqında qaydalar tətbiq olunur.

Ödənilmiş akkreditiv açıldıqda emitent bank onun məbləğini ödəyicinin və ya ona verilmiş kreditin hesabına öz öhdəliyinin bütün müddəti ərzində icraçı bankın sərəncamına köçürür. Ödənilməmiş akkreditiv açıldıqda emitent bank onun məbləğini icraçı banka akkreditiv icra olunduqdan sonra ödəyir.

Azərbaycanda son illər nağdsız ödənişlərin genişləndirilməsi, iqtisadiyyatda şəffaflığın artırılması məqsədi ilə bir sıra qanunvercilik aktları qəbul edilib.

2016-cı ildə qəbul olunmuş "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununda rəqəmsal hesablaşmaların mümkün formaları, yalnız nağdsız qaydada həyata keçirilən hesablaşmaların növləri, vergi ödəyicisi olmayan fiziki şəxslərdən nağd qaydada alınması mümkün olan malların siyahısı, bir ay ərzində aparıla biləcək nağd hesablaşmaların maksimal hədləri müəyyən olunub.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəqəmsal ödənişlərin genişləndirilməsi ilə bağlı tapşırıqlarına müvafiq olaraq, Mərkəzi Bank və aidiyyəti qurumlar bank sektoru ilə birlikdə elektron ödəniş sistemlərinin inkişafı və nağdsız ödənişlərin həcminin artırılması istiqamətində davamlı olaraq müxtəlif layihələr reallaşdırır və strateji təşəbbüslər həyata keçirirlər. Azərbaycan Respublikasının Mərkəzi Bankının (AMB) ödəniş sistemləri sahəsində fəaliyyəti onun struktur bölməsi olan Ödəniş sistemləri və hesablaşmalar departamenti tərəfindən həyata keçirilir. Ödəniş sistemləri və hesablaşmalar departamentinin missiyası müasir standartlara cavab verən elektron ödəniş sistemlərinin yaradılması, onların sabit və fasiləsiz istismarının təşkil edilməsi, beynəlxalq aləmdə bu istiqamətdə baş verən meyllər nəzərə alınmaqla daim inkişaf etdirilməsi və təkmilləşdirilməsidir.

AMB tərəfindən beynəlxalq təcrübə əsasında beynəlxalq maliyyə qurumlarının texniki yardımı və maliyyə köməyindən istifadə edilməklə son on il ərzində Milli Ödəniş Sisteminin (MÖS) yaradılması və inkişafı istiqamətində geniş islahatlar aparılmışdır.

1998-ci ildə Milli Ödəniş Şurasında Milli Ödəniş Sisteminin yaradılmasının konseptual əsasları və strategiyası hazırlanmışdır.

Bu sistemin əsas komponentlərindən olan iri və təcili ödənişlər üzrə Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi (AZİPS), xırda və daima təkrarlanan ödənişlərin elektron daşıyıcılarla həyata keçirilməsinə imkan verən Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi (XÖHKS) 2000-ci ilin əvvəllərindən istifadəyə verilmişdir. Regionda infrastruktur imkanlarına görə seçilən MÖS iqtisadi subyektlər arasında ödənişləri saniyələr ərzində və təhlükəsiz formada həyata keçirməyə imkan verir. MÖS-ün fəaliyyətində xarici təhdid risklərinin azaldılması məqsədilə 2015-ci ildə AZİPS-də beynəlxalq telekommunikasiya şəbəkəsi olan SWIFT-in platformasına paralel olaraq Lokal Telekommunikasiya Şəbəkəsi üzərindən də əməliyyatların 12 aparılması və bununla da MÖS-ün tam suverenliyi təmin olunmuşdur.

2001-ci ilin əvvəllərində Milli Ödəniş Sisteminin arxitekturasının əsasını təşkil edən Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi yaradılaraq istifadəyə verilmişdir. AZİPS sisteminin istismara verilməsi nəticəsində banklar arasında hesablaşmaların real vaxt rejimində (on-line) həyata keçirilməsinə, pul dövriyyəsinin sürətinin nəzərəçarpacaq dərəcədə artmasına, banklar tərəfindən likvidliyin daha çevik idarə olunmasına imkan yaranmışdır [3].

Real Vaxt Rejimində Hesablaşmalar Sistemi (AZIPS) – real vaxt rejimində işləyən, köçürmələrin ayrı-ayrılıqda hər ödəniş sənədi üzrə emal olunmasını təmin edən məcmu ödənişlər sistemidir. AZIPS-də hesablaşmalar milli (Azərbaycan Manatı - AZN) və xarici valyutalarda aparılır.

2011-ci ildən etibarən KÖMİS vasitəsilə yol hərəkəti qaydalarının pozulması ilə əlaqədar törədilmiş inzibati xətalara görə cərimələr haqqında məlumat almaq və ödəniş aparmaq mümkündür.

Beləliklə, son 10-də Azərbaycanda kommersiya banklarında rəqəmsal innovasiyalara əsaslanan ödənişlərin çeşidi və bu tip maliyyə əməliyyatlarının sayı sürətlə artmaqdadır.

Nağdsız ödənişlərdə innovasiyaların tətbiqində istehlakçıların seçimi böyük rol oynayır. İstehlakçıların daha sürətli və təhlükəsiz ödənişlərlə bağlı istəkləri innovasiyaların gələcək istiqamətlərini müəyyənləşdirir. İnnovasiyaların tətbiqi elektron daşıyıcılarla həyata keçirilən əməliyyatların həcminin yüksəlməsini, maliyyə-əməliyyat xərclərinin aşağı salınmasını, hesablaşmalarda likvidlik riskinin azalmasını təmin edir.

Azərbaycanda nağdsız ödənişlər sahəsində qabaqcıl mövqelər tutan ölkələrdə müşahidə edilən son trendlərdən biri də "ani ödənişlər" adlandırılan (Instant payments) ödəniş mexanizmləri tətbiq edilir. Bu mexanizmlər nağdsız ödənişləri 7/24/365 rejimində real vaxtda həyata keçirmək imkanı verir.

Rəqəmsal innovasiyaların inkişafı elektron ödəyicilərlə bağlı məlumatların təhlükəsizliyi ilə əlaqədar tələbləri daha da sərtləşdirir. Təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və ödəniş prosesinin sadələşdirilməsi məqsədilə ödəyicinin fərdi biometrik məlumatlarından (barmaq izindən, gözün tor qişasının şəklindən və ya səs nümunəsindən) istifadə genişlənir. Biometrik məlumatlar təhlükəsizliyi ən yüksək səviyyədə təmin edə bildiyinə görə hazırda dünyanın qabaqcıl bankları müştərilərin rəqəmsal bankçılıq saytlarına girişinə izin vermək və ödənişləri təsdiq etmək üçün məhz belə məlumatlardan istifadə edir [4].

Ümumiyyətlə, kiber təhlükəsizliyin yüksəldilməsi əsas beynəlxalq trendlərdən biridir. Kiber təhlükəsizlik sistemləri əsasən məlumat bazalarını və ödəniş kanallarını kənar hücumlardan, zərərlərdən və səhv istiqamətləndirmələrdən qoruyur. Son dövrlərdə baş vermiş xüsusilə dağıdıcı kiber hücumlar dünyanın aparıcı maliyyə institutlarını və bir sıra mərkəzi bankları kiber-təhlükəsizlik strategiyalarına yenidən baxmağa vadar etmişdir.

Son illərdə Azərbaycanda rəqəmsal innovasiyaların sürətlə inkişaf etməsi sayəsində həm elektron resurslara xidmət xərclərinin azalması, həm də təhlükəsizlik tədbirlərinin yetərli səviyyəyə çatması ödəniş bazarını yeni iştirakçılar (bank olmayan) üçün əlçatan etmişdir, onların əhaliyə və müəssisələrə maliyyə-ödəniş xidmətləri təklif etməsi təcrübəsi genişlənmişdir.

Son zamanlar blokçeyn platforması üzərindən həyata keçirilən həllər özünü doğrultduqca, bu texnologiyanın yaxın və uzaq qonşu ölkələrdə implementasiyası artmaqdadır. Blokçeyn texnologiyası biznes proseslərin həyata keçirilməsi zamanı 20 fəaliyyətin şəffaflaşdırılması və sürətləndirilməsi məqsədilə istifadə olunur. Hazırda blokçeyn yeni nəsil maliyyə xidmətləri infrastrukturunun əsasını təşkil edəcək mühüm texnologiyalardan biri hesab olunur. Blokçeyn texnologiyaları əsasında kriptovalyutaların yaranması və getdikcə genişlənən tətbiqi son illərin mühüm trendlərindəndir. Virtual valyutaların elektron ödəniş aləti kimi nağd pulu əvəz etməsi bir sıra ölkədə narahatçılıqla qarşılanır. Beynəlxalq təcrübədə kriptovalyutaların tənzimlənməsinə universal yanaşma müəyyən edilməmişdir.

Rəqəmsal ödənişlərin genişləndirilməsi əsas ölkənin bank sisteminin inkişafından asalıdır. Maliyyə vasitəçiliyinin inkişaf etdiyi ölkələrdə nağdsız ödənişlərin həcmi daha da yüksək olur.

Rəqəmsal ödənişlərin genişləndirilməsi üçün ən mühüm şərtlərdən biri institusional maneələrin aradan qaldırılmasıdır. Beynəlxalq təcrübə göstərir ki, nağdsız ödənişlərin genişlənməsi üçün yalnız məhdudlaşdırıcı inzibati qaydalar yetərli deyil, maddi stimullaşdırma

tədbirləri (təşviqlər) daha effektivdir. İqtisadi stimullar vasitəsilə həm istehlakçıları, həm də biznes subyektlərini rəqəmsal ödənişlərdən daha aktiv istifadəyə cəlb etmək mümkündür.

Rəqəmsal iqtisadiyyat quruculuğunun genişləndirilməsi üçün əhalinin maliyyə savadlılığının artırılması, elektron xidmətlərdən istifadə vərdişlərinin və mədəniyyətinin formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda rəqəmsal ödənişlərin genişləndirilməsi üçün maarifləndirmə, təbliğat və təşviqat işləri çərçivəsində:

- maliyyə savadlılığının yüksəldilməsi;
- rəqəmsal ödənişlər haqqında ictimai məlumatlılığın artırılması nəzərdə tutulur.

Rəqəmsal ödənişlərin genişləndirilməsi ücün nağd pul dövriyyəsini məhdudlaşdıraraq, bankan kənar dövriyyənin azalması ilə iqtisadiyyata investisiya qoyuluşunun imkanları genişlənəcək, ölkədə nağdsız hesablaşma və nağdsız ödəniş alətlərinin göstəricilərinin inkişaf etmiş ölkələrin səviyyəsinə çatması istiqamətində nəticələr əldə olunacaq, maliyyə xidmətlərinə çıxış imkanları əlçatan olacaq, əhalinin əhalinin maliyyə savadlılığının elektron xidmətlərdən istifadə vərvişlərindən səmərəli istifadə olunmasına imkan yaradacaq.

Azərbaycanda kommersiya banklarında rəqəmsal innovativ ödənişlərin genişləndirilməsi üçün aşağıdakı tədbirlərin görülməsinini məqsədəuyğun hesab edirik:

1. Alış-veriş zamanı rahat və sürətli əməliyyat həyata keçirmək məqsədilə yeni ödəniş sisteminin tədbiq edilməsi (barmaq izlərindən istifadə etməklə).

2. Mobil bankçılığın inkişafının stimullaşdırılması üçün tənzimləyici orqanlar kommersiya bankları ilə mobil ödəniş sisteminin tədbiqini və inkişafını təmin etsin.

3. On-line ödənişlərin təhlükəsizliyini və fırıldaqçılıq hallarının qarşısının alınması məqsədilə bank xidmətlərində biometrik ödəniş üsullarından istifadə etmək məqsədəuyğundur.

4. Rəqəmsal ödənişlərin genişləndirilməsi üçün maarifləndirmə, təbliğat və təşviqat işlərinin həyata keçirilməsi.

5. Əhalinin maliyyə savadlılığını yüksəltmək məqsədilə "Maliyyə və maliyyə institutları" kafedrasının professor-müəllim heyəti tərəfindən ümumi təhsil sistemində innovativ rəqəmsal ödənişlərin mahiyyəti və üstünlükləri haqqında təlim və tədbirlərin həyata kecirilməsi.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında mühasibat uçotunun aparılması qaydaları.
2. Azərbaycan Respublikası Mərkəzi Bankının İllik Hesabatları.
3. Z.F.Məmmədovun rəhbərliyi ile "Bank işi" dərslik, 2 cildlik, "Azərnəşr, Bakı 2016 1000 s.
4. Z.F.Məmmədov, R.M. Rzayev "Bank işi və e-bankçılıq" dərs vəsaiti, Bakı, 2003.

http://www.cbar.az

**i.ü.f.d, Ayətulla Cabbarov Suvahil oğlu**
*Bakı Biznes Universiteti "Mühasibat uçotu və audit" kafedrasının müdiri*
ayatulla.cabbarov@gmail.com

# İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ STRATEJİ QƏRARLARIN ANALİTİK UÇOT-İNFORMASİYA TƏMİNATI

## Xülasə

Məqalədəinvestisiya fəaliyyəti üzrə uçot inforasiya bazasının müasir vəziyyətinin öyrənilməsi, investisiya cəlbediciliyin qiymətləndirilməsi üçün obyektiv informasiya bazasının formalaşmasının əsas istiqamətlərinin müəyyənləşdirilməsi və analitik-uçot informasiya bazasının investisiya qərarlarının qəbulunda əsas vasitə kimi rolunun əsaslandırılmasından ibarətdir. Bu baxımdan məqalədə investisiya fəaliyyətinin strateji idarəetməsinin analitik-uçot informasiya təminatına mövcud nəzəri və konseptual yanaşmalar tədqiq edilmiş, investisiya fəaliyyətinin strateji idarəedilməsinin analitik-uçot informasiyanın konsepsiyası işlənmişdır.

Tədqiqat işinin yerinə yetirilməsi zamanı analiz, sintez, müqayisə, ümumiləşdirmə, qruplaşdırma kimi metodlardan istifadə edilmişdir.

Əldə olunan nəticələr və praktiki təklif və tövsiyyələr təsərrüfat subyektinin investisiya üzrə strateji qərarların qəbulunda istifadə oluna bilər. Məqalədə strateji investisiya fəaliyyəti üzrə analitik-uçot informsiya bazasının konseptual mexanizmi əsaslandırılmışdır.

**Açar sözlər:** *investisiya qoyuluşları, analitik-uçot informasiya təminatı, strateji qərarlar, investisiya qoyuluşları, investisiya fəaliyyəti.*

## Giriş

İqtisadi qloballaşma və bütün sferalarda innovasiyaların tətbiqinin sürətlənməsi iqtisadi subyektlərin investisiya fəaliyyətini, davamlı və strateji inkişafını şərtləndirən vasitə kimi analitik -uçot informasiya təminatının yaradılmasını tələb edir. İstənilən sahədə analitik-uçot informasiya təminatı mexanizmin formalaşması nəzəri konseptual prinsiplərə əsaslanır.

Kifayət qədər nəzəri və praktiki tədqiqatlara baxmayaraq, iqtisadi subyektlərin sahəvi xüsusiyyətləri və investisiya fəaliyyəti üzrə strateji hədəfləri nəzərə alan vahid analitik-uçot informasiya təminatı mexaizminin konseptual əsasların tədqiqi hələ də aktual olaraq qalmaqdadır.

Belə ki, ölkəmizdə siyasi və iqtisadi müstəqillik əldə edildikdən sonra iqtisadi inkişafın əsas prioritet istiqamətləri müəyyənləşdirildi ki, bunlardan biri də dövlətin investisiya siyasətidir. İnvestisiya siyasəti maliyyə siyasətinin tərkib hissəsi olmaqla, dövlətin investisiya fəaliyyətini maliyyələşdirməyə yönəlib. Dövlətin investisiya siyasətinin əsas məqsədi investisiya fəaliyyəti üçün zəruri olan maliyyə resurslarının səfərbər edilməsi, investisiya fəallığının aşağı düşməsinin qarşısının alınması, əsaslı vəsait qoyuluşunun səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Bu siyasətin məntiqi nəticəsidir ki, illər üzrə iqtisadiyyata investisiya qoyuluşu artan dinamika ilə inkişaf etmişdir.

**Cədvəl 1. İqtisadiyyata yönələn investisiyalar**

| | 1995 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| ***Cəmi investisiyalar*** | | | | | | |
| mlyn.manat | 480,7 | 20057,4 | 22706,4 | 24462,5 | 25877,0 | 24986,6 |
| *Xarici investisiyalar* | | | | | | |
| mlyn.manat | 331,4 | 10998,9 | 16216,1 | 15697,3 | 14002,1 | 12119,5 |
| *Daxili investisiyalar* | | | | | | |
| mlyn.manat | 149,3 | 9058,5 | 6490,3 | 8765,2 | 11874,9 | 12867,1 |

Mənbə; Cədvəl DSK-nin məlumatları əsasında tərtib edilmişdir.

1995-ci ildə ümumi investisiya qoyuluşları 480,7 milyn. manat olduğu halda 2019-cu ildə bu rəqəm 52 dəfə artaraq 24986,6 milyn. manat olmuşdur. Eyni zamanda ümumi investisiya qoyuluşlarında daxili investisiya qoyuluşlarının payı 31%-dən 51%-dək artmışdır.

Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyev tərəfindən inamla həyata keçirilən investisiya strategiyası-uzunmüddətli perspektivə hesablanan və milli iqtisadi məsələlərin həllini nəzərdə tutan maliyyə siyasətinin strateji xəttidir.

Bu baxımdan Azərbaycanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlb edilməsinin xüsusi rolu nəzərə alınaraq investisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılması üçün **dövlətin investisiya siyasətinin əsas prioritet istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:**

-investisiya layihələrinin orta və uzunmüddətli dövlət proqramları və Strateji Yol Xəritələri ilə müəyyən olunmuş sosial-iqtisadi inkişaf məqsədlərinə və prioritetlərinə uyğunlaşdırılması;

-investisiyaların qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsi;

-regional investisiya siyasətinin müasir inkişaf tendensiyalarına uyğun olaraq prioritetləşdirilməsi;

-ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi, insan kapitalına, infrastruktura qoyulan investisiyaların prioritetliyinin təmin edilməsi;

-ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması;

-dövlət investisiyalarının proiritetləşdirilməsi zamanı nanotexnologiyalara əsaslanan və atmosferə buraxılan tullantıların tərkibində karbonlu birləşmələrin miqdarının azaldılmasını nəzərdə tutan istehsal sahələrinə üstünlük verilməsi;

-dövlət investisiyalarının elm tutumlu layihələrə yönəldilməsi;

-dövlətin müdafiə qabiliyyətinin artırılması. [10]

Bütün bunlar onu deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyevin təyin etdiyi iqtisadi strateji hədəf Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən iqtisadi siyasət Azərbaycanı inkişaf etmiş ölkələr qrupunda öncül mövqeyə çıxarmaqdadır.

Göründüyü kimi ölkəmizdə münbit investisiya mühitinin yaradılması üçün kifayət qədər işlər görülmüşdür. Lakin müəssisə səviyyəsində strateji investisiya qərarlarının əsaslandırılması üçün investisiyaların strateji idarəedilməsinin analitik-uçot informasiya təminatına mövcud nəzəri və konseptual yanaşmaların tədqiq edilməsi, investisiya qoyuluşları üzrə strateji qərarların verilməsi üçün göstəricilər sisteminin formalaşdırılması, müəssisədaxili investisiya mühüti, investisiya qoyuluşlarının səmərəlilik meyarlarının qiymətləndirilməsinin göstəricilər sistemi əsaslandırılmasına zərurət qalmaqdadır. Hesab edirik ki, investisiya fəaliyyəti üzrə strateji qərarların analitik uçot-informasiya təminatının nəzəri və konseptual əsaslarının işlənməsi mülli iqtisadiyyatın ilkin zümrəsi olan təsərrüfat subyektlərində səmərəli investisiya layihələrinin həyata keçirilməsini təmin edəcəkdir.

Müəssisənin davamlı inkişafının vacib şərti onun investisiya aktivliyidir. İnvestisiyaların bölüşdürülməsi prosesi özündə müəssisənin iqtisadi potensialının genişləndirilməsinə yönələn daha səmərəli kapital qoyuluşu formalarının əsaslandırılması və reallaşdırılması prosesini əks etdirir. Müəssisənin investisiya fəaliyyətinin strateji məqsədi onun, ümumi iqtisadi inkişaf strategiyasının məqsədləri sistemindən formalaşır. Müəssisənin investisiya fəaliyyəti onun əməliyyat fəaliyyəti üzrə artımını təmin edən iqtisadi strategiyasının reallaşdırılmasının əsas formasıdır. Müəssisənin investisiya fəaliyyəti onun xarici və daxili imkanlarından birbaşa asılıdır. İnvestisiya qoyuluşları üzrə strateji qərarların qəbulu üçün daxili və xarici mühitin təhlili mühüm əhəmiyyət kəsb edir.

Müasir şəraitdə təsərrüfat subyektlərinin xarici mühitinin fərqləndirici şərti bazarda mövcud olan qeyri-müəyyənlikdir. Xarici mühitin qeyri-müəyyənliyi və kəskin rəqabət şəraitində investisiya qoyuluşları üzrə strateji qərarların elmi əsaslandırılması zərurəti daha da aktuallaşır. Araşdırmalar onu deməyə əsas verir ki, investisiya qoyuluşları üzrə strateji idarəetmə növbəti mərhələlərin ardıcıllıqla icrasını tələb edir.

1) strateji təhlil,
2) strateji planlaşdırma,
3) investisiya strategiyasının reallaşdırılması,
4) strategiyanın reallaşdırılması üzərində nəzarətin həyata keçirilməsi.

Beləliklə, investisiya qoyuluşları üzrə strateji idarəetmənin bütün mərhələləri qarşılıqlı əlaqələndirilmiş göstəricilər sisteminin mövcudluğunun, daha dəqiq desək bu mərhələnin icrasına təminat verən analtik-uçot informasiya təminatının olunmasını tələb edir.

Müasir şəraitdə xarici mühitdə artan dəyişikliklər və bu fonda yaranan qeyri-müəyyənlik şəraitində təsərrüfat subyektinin müasir idarəetmə vasitəsi strateji idarəetmə metodologiyasıdır. İnkişaf etmiş ölkənin təcrübəsi göstərir ki, strateji planlaşdırma və strateji idarəetməni kompleks həyata keçirən müəssisələr daha yüksək mənfəət əldə edir və nəticədə özlərinin işgüzar aktivliyini və maliyyə vəziyyətini yaxşılaşdırırlar. Bir çox hallarda müəssisələr mümkün qədər çox bazar payına malik olmaq, məhsul istehsalını artırmaq, çeşid müxtəlifliyini yaratmaq, fərqli istehlakçı ehtiyaclarının ödənilməsinə yönələn və s. istiqamətlərdə vəsait xərcləsələr də gözlənilən nailiyyət əldə etmirlər. Buna səbəb bütün qüvvələrin vahid strateji məqsəd altında koordinasiya edilməməsidir. Bütün bunlar onu deməyə əsas verir ki, müasir bazar iqtisadiyyatı münasibətləri şəraitində uğur qazanmağın yolu fəaliyyətlərin koordinasiyası və vahid informasiya bazalarından bəhrələnərək qəbul edilmiş strategiyadır.

Müəssisənin investisiya fəaliyyətinin idarəedilməsinin əsasında yeni idarəetmə prinsipi strateji idarəetmə sistemi dayanır. Strateji idarəetmə konsepsiyası özündə fəaliyyətin prinsip və məqsədləri sistemində, idarəetmənin obyekt və subyektlərinin qarşılıqlı təsir mexanizmində, iqtisadi və təşkilati sturuktur elementləri arasında qarşılıqlı əlaqə xarakterində və dəyişən xarici mühit şərtlərinə uyğunlaşma formalarında öz əksini tapan dəqiq hədəfləri əks etdirir.

Strateji planlaşdırma metodologiyası əsasında formalaşan strateji menecment, uzunmüddətli planlaşdırmadan fərqli olaraq, təkcə inkişaf tendensiyaları deyil, eyni zamanda müəssisənin inkişafının imkanlar və təhlükələr sistemini də əks etdirir.

Bütövlükdə strateji idarəetmənin iki əsas son məhsulu var.

1. Xarici mühitə həssaslığı təmin edən daxili sturuktur və təşkilati dəyişikliklər (mövcud problemləri vaxtında aşkarlamaq və xarici mühitin tələblərinə adekvat qərarların qəbulu).

2. Gələcək məqsədə nail olmanı təmin edən müəssisənin potensialı, (maliyyə, əsas istehsal fondları, insan resursları),

Müəssisənin investisiya strategiyasının hazırlanması prosesi aşağıdakı mərhələləri əhatə edir.

Müəssiənin əvvəlki ümumi, funksional və investisiya strategiyasının təhlili, təşkilatın missiyasına uyğun olaraq investisiya niyyətinin və gözləntilərinin öyrənilməsi

Xarici investisiya mühitinin və investisiya konyukturasının amillərinin öyrənilməsi

Müəssisənin investiiya fəaliyyətini müəyyənləşdirən güclü və zəif tərəflərinin qiymətləndirilməsi

Müəssisənin investisiya fəaliyyətinin strateji məqsədlərinin formalaşdırılmsı

Strateji alternativlərin təhlili və investisiya fəaliyyətinin strateji istiqamətlərinin seçimi

İnvestisiya resurslarının formalaşmasının strateji istiqamətlərinin müəyyənləşdirilməsi

İnvestisiya fəaliyyətinin əsas aspektləri üzrə investisiya siyasətinin formalaşdırılması

İnvestisiya strategiyasının reallaşdırılmasının təmin olunması üzrə təşkilati - iqtisadi tədbirlər sisteminin formalaşdırılması

Hazırlanmış investisiya strategiyasının nəticəliliyinin qiymətləndirilməsi

**Şəkil 1. Müəssisənin investisiya strategiyasının hazırlanması prosesinin əsas mərhələləri**

Müəssisənin investisiya fəaliyyətinin optimallaşdırılması birbaşa olaraq onun missiyası və inkişaf strategiyası ilə əlaqəlidir. Proqram tərtib etmək və müəssisənin investisiya portfelini formalaşdırmaqla menecer təkcə onun səmərəlik göstəricilərinə rəhbərlik etməli deyil, eyni zamanda həyata keçirilən layihənin müəssisənin mövqeyinə və iqtisadi potensialına təsirinin strateji təhlili və qiymətləndirilməsini aparmalıdır.

Müəssisənin investisiya fəaliyyətinin ümumi tənzimlənməsi aşağıdakı mərhələlər üzrə formalaşır.

1. İnvestisiya layihəsinin müəyyənləşdirilməsi. Bu mərhələdə müəssisənin mövcud vəziyyəti təhlil olunur və sonrakı inkişafının prioritet istiqamətləri müəyyənləşdirilir. Aparılan təhlillər əsasında bir neçə istiqamətdə investisiya layihələri hazırlanır.

2. İnvestisiya layihəsinin hazırlanması. Birinci mərhələdə istiqamətlər müəyyənləşdikdən sonra real qərarın qəbulu üçün mövcud layihələrin müsbət və mənfi cəhətləri təhlil edilib qiymətləndirilir. Bu baxımdan investisiya layihəsinin bütün istiqamətlərdə kommersiya, texniki, maliyyə, iqtisadi instutsional və s. təkmilləşdirilməsi həyata keçirilir.

3. İnvestisiya layihəsinin ekspertizası. Bir qayda olaraq layihənin reallaşdırılma dövrünün (həyat tsikli) ekspertizası həyata keçirilir. Ekspertiza əsasən strateji layihəni maliyyələşdirəcək investorların istəyi əsasında ixtisaslaşmış konsaltinq xidmətləri tərəfindən həyata keçirilir. Əgər investisiya layihəsi müəssisənin öz vəsaiti hesabına həyata keçiriləcəksə layihənin və onun hədəflərinin ekspertizası xüsusilə zəruridir.

4. Layihənin reallaşdırılması. İnvestisiya layihəsinin real olaraq həyata keçirildiyi bu mərhələdə layihənin təhlili və nəzarəti aparılır.

5. Nəticələrin qiymətləndirilməsi. Bütövlükdə layihə dövründə və layihə başa çatdıqdan sonra həyata keçirilir. Burada əsas məqsəd, qarşıya qoyulan məqsədlə faktiki əldə olunan nəticə arasında əks-əlaqənin əldə edilməsidir. Bu cür müqayisə investisiya layihəsini icraşıları üçün zəngin təcrübə qazandırır.

Göründüyü kimi strateji investisiya layihələrinin həyata keçirilməsi mərhələlərində komleks informasiya bazasına ehtiyac yaranır. Belə ki, investisiya layihəsinin müəyyənləşdirilməsi, layihənin hazırlanması, ekspertizası və nəticələrin qiymətləndirilməsi mərhələlərində aparılan təhlil və nəzarət prosesi bütün bu bölmələr üzrə qarşılıqlı əlaqələndirməklə həyata keçirilməsini tələb edir. Qeyd olunanlar müəssisələrdə investisiya fəaliyyəti üzrə strateji qərarların uçot-informasiya təminatının formalaşdırılması mexanizminin olmasını tələb edir.

Müasir rəqəmsallaşma və rəqabət şəraitində investisiya fəaliyyəti haqqında informasiya resurslarının əhəmiyyəti daha da artır. Belə ki, analitik-uçot informasiyasına olan tələbat idarəetmənin və qərar qəbulunun yeni daha yüksək səviyyəsi, müəssisə inkişafının strateji istiqamətlərinin seçilməsi, uçotun yeni obyektlərinin yaranması, qlobal informasiya mühitində müəssisə şəffaflığının təmin olunması və yeni dəyər yaradılması prosesinin idarə olunmasının adekvatlığı haqqında informsiyanın açıqlanması zırurəti ilə şərtlənir.

İnvestisiya fəaliyyətinin strateji idarə edilməsinin analitik-uçot informasiyası müəssisənin mühasibat və digər iqtisadi profilli şöbələrin analitik uçot sistemində formalaşır. Bu sistem istifadəçiləri uçot registrlərində, marketinq araşdırmalarında və daxili hesabatlarda əks olunan və idarəetmə heyətinə strateji investisiya fəaliyyətin kompleks qiymətləndirilməsi və əsaslandırılmış idarəetmə qərarlarının qəbulu üçün bütün zəruri informasiyalarla təmin etməlidir. Analitik-uçot sistemi idarəetmənin hər bir funksiyası üzrə formalaşmış analitik informasiyalar sistemini özündə cəmləşdirir. Əsasən mühasibat məlumatlarına əsaslanan analitik-uçot sistemi eyni zamanda istehsal, operativ, statistik, iqtisadi təhlil, marketing araşdırmaları nəticələri və s. informasiyaları da özündə ümumiləşdirir. Bu baxımdan analitik-uçot informasiyası sistemi makro və mikro səviyyədə strateji investisiya fəaliyyətinin idarə edilməsi qərarlarının qəbulu üçün istifadə olunan bütün növ informasiyaların toplanması və emalını əks etdirir. Analitik-uçot informasiya təmnatının əsasını fəaliyyət nəticələrinin təhlili və mühasibat uçotu (maliyyə uçotu, idarəetmə uçotu, operativ uçot) informasiyaları təşkil edir.

İnvestisiya fəaliyyətinin strateji idarəetmənin optimallığının təmin olunması baxımından bütün hallarda hazırlanan analitik informasiya bir sıra tələblərə cavab verməlidir.(Şəkil 1)




**Şəkil 2. Analitik-uçot informasiyasına olan tələblər**

Beləliklə, aparılan tədqiqat nəticəsində belə nəticəyə gəlirik ki, investisiya fəaliyyətinin idarə olunmasının analitik-uçot informasiya təminatı konsepsiyası aşağıdakı 4 blok göstəricilərdən ibarət olaraq formalaşdırılmalıdır.

1. Nəzəri mövqe. Birinci blok göstəricilər nəzəri yanaşmanı əks etdirir və buraya aşağıdakı istiqamətlər daxildir.

a) İnvestisiya fəaliyyətinin idarə olunması sahəsində terminoloji problemlərin ümumiləşdirilməsi və analitik-uçot informasiya təminatının formalaşmasının əsası kimi investisiya fəaliyyətinin idarə olunmasının təhlili metodlarınını tədqiqi.

b) Analitik-uçot informasiya təminatının formalaşmasına təsir edən investisiya fəaliyyətinin idarə olunması proseslərinin xüsusiyyətlərinin müəyyənləşdirilməsi.

c) İnvestisiya fəaliyyətinin idarə olunması üzrə analitik-uçot informasiya təminatının formalaşmasında istifadə olunan informasiya növlərinin müəyyənləşdirilməsi.

Birinci blok göstəricilər əsasında investisiya fəaliyyətinin idarə olunması üzrə analitik-uçot informasiya təminatının formalaşması metodologiyası və konsepsiyası əsaslandırılır.

2. Metodoloji mövqe. İkinci blok göstəricilər metodoloji yanaşmanı əks etdirir və buraya aşağıdakılar daxildir.

a) İnvestisiya fəaliyyətinin idarə olunmasında analitik-uçot informasiya təminatının funksionallığının əsası kimi auditin metodikası və metodologiyası.

b) İnvestisiya fəaliyyətinin idarə olunması üzrə analitik-uçot informasiya təminatının formalaşması prinsipləri.

c) İnvestisiya fəaliyyətinin idarə olunması proseslərin təhlilinə metodoloji yanaşma.

İkinci blok göstəricilər əsasında analitik-uçot informasiya təminatının formalaşmasının normativ hüquqi bazası tədqiq edilir və analitik-uçot informasiya təminatının formalaşması prinsipləri müəyyənləşdirilir.

3. Metodiki yanaşma. Metodiki yanaşmaya aşağıdakı istiqamətlər daxildir.

a) İnvestisiya fəaliyyətinin idarə olunmasının strateji idarəetmə uçotu və təhlil konsepsiyası.

b) İnvestisiya fəaliyyətinin idarə olunmasının idarəetmə uçotu metodikası.

Üçüncü blok göstəricilər analitik-uçot informasiya təminatının formalaşmasında istifadə olunan metodları-daxili hesabatlılıq, idarəetmə uçotu və s. funksiyaların həyata keçirilməsi zamanı tətbiq olunacaq metod və üsulların müəyyənləşdirilməsini nəzərdə tutur.

4. Vasitələr (alətlər). Dördüncü blok göstəricilər əsasən strateji idarəetmə uçotu metodları əsasında analitik-uçot informasiya təminatının formalaşması istiqamətlərin müəyyənləşdirir. Buraya aşağıdakı istiqamətlər daxildir.

a) İnvestisiya fəaliyyətinin strateji uçotu sistemində makroiqtisadi mühütin xarici amillərinin uçotuna metodiki yanaşma
b) İnvestisiya fəaliyyətinin mərhələlərinin strateji təhlil metodikası
c) Strateji uçot sistemində investisiya fəaliyyəti nəticələrinin iqtisadi-riyazi modellərinin işlənməsinə metodoloji yanaşma

Dördüncü blok göstəricilər xarici mühit təsirlərinin və investisiya fəaliyyətinin strateji təhlili və nəticələrin iqtisadi-riyazi modelləşdirilməsini xarakterizə edir.

Beləliklə, təqdim oluna bu konsepsiya əsasında müəssisənin investisiya fəaliyyətinin analitik-uçot konsepsiyasının formalaşdırılması bütövlükdə müəssisə səviyyəsində investisiyaların strateji idarə edilməsi prosesini optimallaşdırar və əldə olunana nəticələrin səmərəliliyini təmin edər.

## Ədəbiyyat

1. Səbzəliyev S.M., Quliyev V.M., İdarəetmə uçotu. Dərslik. / Bakı. Elm və təhsil -2014-524 s.
2. İsmayılov B.V., Strateji menecment. Dərs vəsaiti. / Bakı, Təhsil, 2018 -296 s.
3. Аббасова С.А. О теоретических основах и концепции учетно-аналитической системы управления коммерческой организации // Вестник НГУЭУ. 2015. № 4. С. 357–368.
4. Бахирева А.А. Методика формирования учетно-аналитического обеспечения контроля и анализа исполнения бюджетов // Международный журнал социальных и гуманитарных наук. – 2016. – Т. 7. №1. – С. 156-163.
5. Варпаева И. А., Учетно-анал итическая информацияв управлении инвестиционнойдеятельностью // Международный бухгалтерский учет.32 (182) – 2011 с 33-41
6. Вахрушина, М.А. Стратегический управленческий учет: Учебник / М.А. Вахрушина, М.И. Сидорова. - М.: КноРус, 2017. - 320 с.
7. Гусева Е.С. Теоретические аспекты учетно-аналитического обеспечения деятельности коммерческой организации // Экономика: вчера, сегодня, завтра. 2016. № 6. С. 35-42.
8. Джуха В.М., Штапова И.С., Жуковская Н.П., Стратегический менеджмент : учебное пособие/ — Москва : КНОРУС, 2019. — 282 с. — (Бакалавриат).
9. Нечеухина Н.С., Мустафина О.В. Концепция учетно-аналитического обеспечения устойчивого развития экономического субъекта // Научно-технические ведомости СПбГПУ. Экономические науки. Том 12, № 5, 2019
10. https://www.economy.gov.az/article/investisiya-siyaseti/21347

**i.f.d., dos. AbdullayevLoğman İmranoğlu**

*SumqayıtDövlətUniversiteti*
*Maliyyə və mühasibatuçotukafedrası*
*Loqman.2005@mail.ru*

## MÜƏSSİSƏLƏRDƏ GƏLİRVƏ XƏRCLƏRİNUÇOTUNUNNORMATİVHÜQUQİ ƏSASLARI

**Acarsözlər:** Mühasibatuçotu, maliyyə hesabatı, mənfəət, gəlir, xərc

**Xülasə:** Ölkə iqtisadiyyatnınınkişafı onu əhatə edəcəkbütünsahələrinmüasirdövrüntələblərinə uyğunistiqamətlənməsinitələbedir. Hərbirhaldayerinə yetirilməsimüəyyənolunanmaliyyə-təsərrüfat əməliyyatları normative-hüquqibazaya əsaslanmalıdır. XüsusənMaliyyə HesabatlarınınBeynəlxalqStandartlarınıntələblərinə uyğunqaydadauçotunaparılması işiqəbuledilənqanunvə hüquqiaktlar əsasındayerinə yetirilməlidir. Müəssisələrinhesabatdövrü üzrə maliyyə təsərrüfatfəaliyyətində gəlirvə xərclərinuçotununaparılması sonolaraqmüvafiqhesabat əsasındamənfəətvə yazərərinolmasını müəyyənedir.Dövr üzrə aktivlər, kapitalvə öhdəliklər üzrə qalıqlarməlumolur. Hesabatdövrünü əhatə edəcəkmühasibatbalansı tərtibedilir. Hazırlanmış maliyyə hesabatları üzrə informasiyalardaxilivə kənaristifadəçilərinməlumatlanmasını təminedir.

Müasir dünyada siyasi iqtisadi əlaqələrin davamlı olaraq formalaşması, inkişafı hər bir sahədə sürətlə yeniliklərin tətbiq olunmasını tələb edir. Tarixi ardıcıllığa diqqət yetirdikdə hüdudsuz tələbatların ödənilməsinə uyğun olaraq resurslardan səmərəli istifadə etmə hər bir ölkənin iqtisadi siyasi fəaliyyətinin əsasını təşkil etdiyinin şahidi oluruq. Sinfi cəmiyyətlərin inkişafı yalnız münasibətlərin hüdudları çərçivəsində deyil, əsasən mövcud ehtiyatlardan səmərəli istifadə edilməsi və onların artırılması zəminində aparılan işlərlə bilavasitə bağlıdır. Bu istiqamətdə ictimai əmək bölgüsünü rolunu xüsusi olaraq qeyd etmək lazımdır. Əkinçilik, maldarlıq, sənətkarlıq və ticarət sinfinin formalaşması ölkələrin idarə edilməsində daha səmərəli yolların tapılması zərurətini formalaşdırırdı. Qeyd etdiyim bu fikirlər müxtəlif əsrlərdə ardıcıl olaraq ölkələrin siyasi kurslarının formalaşmasına, digər dövlətlərlə əməkdaşlıq meyillərinin müəyyən olunmasına, müxtəlif elm sahələrinin cəmiyyətin inkişaf dinamikasına uyğun istiqamətlənməsinə səbəb olmuşdur. Mühasibat elminin tarixindən məlumdur ki, ilk qeydiyyat qaydalarının yaranması mülk sahiblərinin əmlaklarının və təsərrüfat fəaliyyətlərinin hərəkətinə nəzarət etmə imkanlarını formalaşdırırdı. Təbii ki, hər bir halda mülk sahibi əmlakının qorunması, malik olduğu vasitələrdən istifadə əsasında gəlir əldə etmə marağını əsas qəbul edir. Pərakəndə halda olduqda xərc və məsrəflərin dəqiq müəyyən oluna bilinməməsi əldə olunacaq yekun gəlirin səmərəli olmasını müəyyən edə bilmir. Yəni hər bir halda gəlir və xərclərin uçota alınması zərurəti yaranır. Sinfi cəmiyyətlərin hər birində dövri olaraq qeyd olunan məsələnin həlli mülk sahiblərinin əsas tələbinə çevrildikcə uçotun təşkili üzrə daha səmərəli metodlarlar hazırlanmış və tətbiq edilmişdir. İlk dövrlər gündəlik qeydiyyatın aparılması, sonradan hesabat formasına bənzər cədvəllərin hazırlanması təsərrüfat fəaliyyətinin ardıcıl olaraq uçotunun təşkili baxımından mühasibat adlanan fəaliyyətin zəruriliyini dəqiq müəyyən edirdi. Artıq fərqli istiqamətlərdə təsərrüfat fəaliyyətləri əldə edilən, istehsal olunan, satışa və ya birbaşa istehlaka daxil olan məhsul və xidmətlər hər bir mərhələyə uyğun qaydada uçota alındıqca nəticə olaraq mənfəət və ya zərər olmanı müəyyən edilə bilirdi. Əl əməyinin maşınla istehsala keçidi, ictimai əmək bölgüsü əsasında yaranan siniflər arasında əlaqələrin genişlənməsi, hər bir sahədə plan göstəricilərini müəyyən etmək və onların sonradan faktiki göstəricilərlə müqayisəsi əsasında təhlillərin aparılması artıq maliyyə və mühasibat işinin mühüm əhəmiyyətini göstərirdi. Uçot işinin təşkili, maliyyə təhlillərinin aparılması mükəmməl elmi istiqamətə çevrilirdi. Qeyd etmək lazımdır ki, təsərrüfat fəaliyyəti əsasında toplanmış hər bir məlumatın sənədlərlə dəqiq əks olunması, onların işlənməsi və digər mühüm mühasibat işlərinin yerinə yetirilməsi dəqiq hesabatların işlənməsi ilə yekunlaşa bilir. Hər bir subyektin iqtisadi fəaliyyəti onun təqdim etdiyi hesabatlar əsasında məlumatlanmanı təmin edir.

Cəmiyyətdə elmi-texniki inqilablar məhsuldarlığın artırılmasının mühüm şərtlərindən biri hesab olunur. Tarixi ardıcıllığa diqqət yetirdikdə məlum olur ki, xüsusən elmi texniki tərəqqinin nəaliyyətlərinin tətbiqi qısa zaman ərzində yüksək məhsuldarlıq göstəricilərinin əldə olunmasına səbəb olur. Bu istiqamətdə sənaye inqilabları müasir dövrdə insan zəkasının hüdudlarının daha dərin olmasını sübut etmişdir. Təbii ehtiyatların əhalinin istehlak tələbatlarının ödənilməsinə istiqamətlənməsi, enerji, nəqliyyat, sürətli informasiya ötürülməsini təmin edəcək internet şəbəkələrinin formalaşması və bu kimi müxtəlif elmi nəaliyyətlər ölkələrin siyasi və iqtisadi qüdrətlərinin artırılmasında əhəmiyyətli gücü əks etdirir. Hal-hazırda dördüncü sənaye inqilabının dövlətlər tərəfindən qəbul edilməsi iqtisadiyyatın fərqli sahələrində xərclərin azaldılmasına, daha yüksək gəlirlərin əldə edilməsinə zəmin yarada bilmişdir. Burada hüquqi bazanın təmin olunması dövlətlərin iqtisadi sahədə qəbul etdikləri hüquqi qaydalarla tənzimlənir. Ölkəmizdə Maliyyə hesabatlarının beynəlxalq standartlarına əsaslanan dövri hesabatların hazırlanması əsas olaraq təsbit edilir. Aktiv, kapital və öhdəliklərin uçota alınması, maliyyə nəticələrinin müəyyən edilməsi müəssisələr tərəfindən Maliyyə hesabatlarının beynəlxalq standartlarının tələblərinə uyğun Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş qaydalarla yerinə yetirilir. Təbii ki, istehsal və xidmət sahələrində müəssisələrin fəaliyyəti bazar münasibətlərinin qaydalarına uyğun şəkildə aparılır. Yəni tələb oliunan məhsul istehsalı və xidmətlər təqdim olunur. Real alıcı imkanlarına uyğun əmtəə və xidmətlərin istehsalında xərclər əldə oluna biləcək gəlirləri nəzərə alaraq aparıldığı halda iqtisadi səmərə yaranır. Əks halda müəssisə hesabat dövrünü zərərlə başa vurmalı olur. Burada ilk növbədə maraqlı tərəf mülkiyyətçi hesab olunur. Onlar bir qayda olaraq, həyata keçirilən istehsal satış fəaliyyətinin xərc olaraq neçəyə başa gəlməsi sualına cavab axtarırılar. Məlumdur ki, müəssisənin fəaliyyətinin sahibkara neçəyə başa gəlməsini yalnız istehsala çəkilən xərclərin və əldə edilən gəlirin mühasibat uçotunun aparılması nəticəsində qiymətləndirmək mümkündür. Müəssisənin mövcud olması , onun fəaliyyətinin dayanıqlığı hər an müəssisənin bazarın tələbatına uyğun məhsul buraxmaq və həmin məhsulun satışından gəlir əldə etmək qabiliyyətindən asılıdır. Xüsusən maliyyə fəaliyyətinin səmərəliliyi qiymətləndirilərkən istifadə olunan aktivlər və cəlb edilmiş maliyyə vəsaitləri, istehsala sərf edilən material, əmək və maliyyə məsrəfləri, eləcə də satışdan alınan gəlir və mənfəət haqqında uçot sənədləri ilə təsdiq edilmiş məlumatlardan istifadə edilir. Bu məlumatların dəqiqliyi, müəssisə fəaliyyətinin səmərəliliyini ifadə edən göstəricilərin obyektlivliyini təmin edir və onun məhsuldar tərəf qismində tanınmasına imkan yaradır.

Maliyyə hesabatlarının hazırlanmasında dövr üzrə məlumatlarının təqdim olunmasında əsas mənbə olaraq gəlir və xərc göstəriciləri göstərilir. Müəssisənin gəlir və xərc göstəriciləri əsasında mənfəət və ya zərər müəyyən edilir. Bu göstəricilərin təyinatı və quruluşu mühasibat uçotunu tənzimləyən normativ-hüquqi aktlarla müəyyən edilir. Ölkəmizdə qeyd olunan məsələyə yanaşma 1995-2020 -ci illərdə qəbul edilmiş bir sıra hüquqi aktlar əsasında tənzimlənir.

1."Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu(24 mart 1995-ci il)

2."Mühasubat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu (29 iyun 2004-cü il)

3."Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (4 may 2018-ci il)

4.Azərbaycan Respublikasının Mülki Məcəlləsinin mühasibat uçotuna dair maddələri;

5.Azərbaycan Respublikasının Vergi Məcəlləsinin fiziki şəxslərin gəlir vergisinə və hüquqi şəxslərin mənfəət vergisinə aid olan müddəaları;

6."Beynəlxalq Mühasibat Uçotu Standartlarına keçmək məqsədilə Milli Mühasibat Uçotu Standartlarının 2003-2007-ci illərdə hazırlanması və tətbiqi üzrə Proqram haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (20 fevral 2003-cü il)

7."Məhsulun (iş,xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında Əsasnamə" (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-il 16 avqust tarixli qərarı ilə təsdiq edilmişdir)

Təbii ki, bu istiqamətdə qəbul olunmuş digər icraedici qərarlar da mövcuddur. Onlar eyni zamanda normativ-hüquqi aktlara əsaslanaraq sahələr üzrə daxili normativ-hüquqi əsasları formalaşdırır. Müəssisələr tərəfindən qəbul olunmuş normativ-hüquqi aktların icrası bir sıra istiqamətlər üzrə yerinə yetirilir. İlk olaraq gəlir və xərclərin uçota alınması konsepsiyası hazırlanır. Müəssisə tərəfindən hesabat dövrü üzrə əldə olunan gəlirlər və xərclər uçota alınır, mövcud

informasiya daxili və xarici istifadəçılərə təqdim edilə bilir. Burada gəlir və xərclər üzrə əməliyyatlar baş verən zaman onlar müvafiq sənədlərlə həmin vaxt rəsmiləşdirilir. Gəlir və xərc məlumatlarının uçota alınması Maliyyə hesabatlarının beynəlxalq standartlarına uyğun təmin edilir. Ardıcıl olaraq qeyd olunanlar gəlir və xərclərin uçota alınması üzrə müəssisənin yerinə yetirilməli vəzifələrini müəyyən edilir. Burada mühüm vəzifələrdən biridə yeni mühasibatlıq və sənədləşmə işini yerinə yetirəcək peşəkar mühasiblər və maliyyəçilərin qeyd olunan vəzifələrin icrasına cəlb olunmasından ibarətdir.

İnsan kapitalında bu sahədə səmərəli istifadə edilmə müəssisələrin beynəlxalq əməkdaşlıq cərcivəsində daha geniş bazarlara çıxışına səbəb olur. Ümummilli lider Heydər Əliyev bütün sahələrdə təcrübəli kadrların hazırlanması işini hələ keçən əsrin 70- ci illərində əsas vəzifə olaraq müəyyən etmişdi. Bütün sahələrdə olduğu kimi maliyyə və mühasibat sahəsində gənclərin Sovetlər İttifaqının aparıcı ali məktəblərinə təhsil almağa göndərilməsi, iri sənaye müəssisələrində calışan maliyyəcilər və mühasiblərin daha nüfuzlu təhsil müəssisələrində əlavə təhsil almalarının və təcrübələrin təşkili sonralar müstəqilliyin ilk illərində mühüm əhəmiyyətini göstərdi. Məhs iri sənaye müəssilərin yaradılması, resurslarla zəngin ərazilərdə müvafiq istehsal müəssisələrinin yaradılması onların gəlirlərinin artmasına və dahada inkiş etməsinə səbəb oldu. İqtisadi göstəricilərə görə dəfələrlə yüksək mükafatlara layiq görülən müəssisələrin cox olması Ulu öndər Heydər Əliyev zəkasının Azərbaycan xalqına ən böyük töhfələrindən biri hesab oluna bilər. Müstəqillik illərində 24 mart 1995 ci ildə Mühasibat uçotu haqqında Azərbaycan Respublikası Qanununun qəbul edilməsi Ümummilli lider Heydər Əliyevin mühasibat işinin təşkilinə diqqətini təcəssüm etdirir. Bu qanunun tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 20 oktyabr 1995-ci ildə İ-94 saylı əmrlə “Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat”, 15 sentyabr 1995-ci ildə İ-80 saylı əmri ilə “Mühasibat ( maliyyə hesabatının) formaları və onların tərtibi qaydaları” təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən sonrakı dövrlərdə mühasibat uçotu və maliyyə sahəsində təsdiq edilmiş qanun və sərəncamlar əsasında nəzarətedici və icraedici qurumlar yaradılmışdır. Hal hazırda ölkəmizdə yaradılan istehsal və xidmət müəssisələri dünyanın bir sıra nüfuzlu şirkətləri ilə birgə fəaliyyət göstərir və qısa müddət ərzində səmərəli maliyyə nəticələri əldə edilir. Ölkəmizdə mühasibat uçotunun təşkili Beynəlxalq Standartlara əsasında tənzimlənir və dövrü hesabatların tərtibi ölkə daxili və beynəlxalq qaydalara əsasən yerinə yetirilir.

Ölkəmizdə hesabat dövrü üzrə uçot və hesabatların hazırlanmasının beynəlxalq standartlara uyğun formalaşması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 fevral 2003-cü il tarixli 29 nömrəli qərarı ilə “ Beynəlxalq mühasibat üçotu standartlarına keçmək məqsədi ilə Milli Mühasibat Uçotu Standartlarının 2003-2007- ci illərdə hazırlanması və tətbiqi üzrə Proqram” əsasında təsdiq edilmişdir. Təsdiq olinan proqram “Normativ-hüquqi bazanın və metodiki təminatın hazırlanması”, “Müasir informasiya texnologiyasınlın tələblərinə uyğunlaşdırma” və “Mühasibat uçotu sahəsində mütəxəssislərin hazırlanması” adlı üç bölməni əhatə edir.

Mövcud proqrama uyğun olaraq beynəlxalq mühasibat uçotu standartları əsasında təkmlləşdirilərək 2003-2007- ci illərdə Milli Mühasibat Uçotu Standartları hazırlanmış və 2008-2018 -ci illərdə mövcud standartlar tətbiq olunmuşdur. 18 aprel 2006-cı il tarixində Maliyyə Nazirliyinin İ-38 nömrəli əmri ilə Yeni Hesablar Planı təsdiq edilmişdir.

4 may 2018-ci ildə “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Burada Milli mühasibat uçotu Standartları ləğv edilmiş və bununlada uçotun təşkili və hesabatların hazırlanması işinin beynəlxalq standartlar əsasında yerinə yetirilməsi təsdiq edilmişdir.

Mövcud normativ sənədlərə və beynəlxaql standartlara əsasən gəlir və xərc maddələri üzrə uçotun təşkili zamanı standartın seçilməsi, gəlir və xərc növlərinin təsnifatının əsaslandırılması, onların tanınması və uçotunun aparılmasının başlıca şərtlərinin müəyyənləşdirilməsi kimi məsələlər metodoloji baza çərçivəsində həll edilməlidir. Müəssənin gəlirlərinin uçotunun standartlaşdırılması “Alıcılarla müqavilələr üzrə gəlir” adlanan 15 saylı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının normativi nəzərə alınmaqla aparıla bilər. Həmin standarta görə, gəlir malların

satılmaslı, tikinti müqavilələrinin yerinə yetirilməsi, xidmətlərin göstərilməsi, müəssənin aktivlərinin istifadə edilməsi nəticəsində əmələ gəlir.

Məlumdur ki, uçotun təşkili fasiləsizlik prinsipi əsasında aparılır. Burada hər bir müəssisənin təsərrüfat fəaliyyətinin fasiləsizliyi onun gəlir əldə etmək imkanı ilə təmin edilir. Eyni zamanda burada əldə edilən gəlirlərdən təyinatı üzrə istifadə olunmalıdır. Artıq tam aydın görünür ki, müəssisənin bütün təsərrüfat maliyyə əməliyyatlarının uçotunu aparmadan, ayrı-ayrı fəaliyyət növləri üzrə gəlirlərin yaranması, bölüşdürülməsi və istifadəsi üzrə idarəetmə fəaliyyətini tənzimləmək mümkün deyil. Müəssisə tərəfindən gəlirlərin uçotunun aparılması müvafiq mühasibat uçotu qanununa və normativ aktlara əsasən aparılır. Gəlirlərin əldə edilməsi fərqli istiqamətlərdə təsnifləşdirilir. Gəlirlər Yeni hesablar planının 6 saylı Gəlirlər bölməsində 60,61,62,63,64-cü maddələrində müvafiq hesablar üzrə uçota alınır.

-Əsas əməlliyat gəlirləri: malların satışından alınan gəlir, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə gəlir, tikinti müqavilələri üzrə gəlir, royalti gəliri, əməliyyat icarəsi üzrə gəlir, digər əsas əməliyyat gəliri.

-Sair əməliyyat gəlirləri: torpaq, tikili, avadanlıqların və digər uzunmüddətli aktivlərin satışından gəlirlər, yenidən qiymətləndirmədən gəlirlər,əvəzsiz olaraq alınmış aktivlər, cərimələr və digər oxşar ödənişlər, keçmiş illər üzrə gəlirlər, ümidsiz borcların bərpası, silinmiş ehtiyatların bərpası, məzənnə fərqləri üzrə gəlirlər, aktivlərin qiymətdən düşməsi, itirilməsi və ya qaytarılmasından imtina olunması hallarında üçüncü tərəfdən gözlənilən kompensasiya, digər əməliyyat gəlirləri.

-Fəaliyyətin dayandırılmasından yaranan gəlirlər: fəaliyyətin dayandırılmasındam (lazımsız avadanlıqların satışından) yaranan gəlirlər.

-Maliyyə gəlirləri: faiz gəlirləri, qiymətdən düşmüş borclar üzrə faiz gəlirləri, maliyyə icarəsi üzrə gəlir, faiz xərcləri yaradan öhdəliklər üzrə məzənnə gəliri, digər maliyyə gəlirləri.

-Fövqəladə gəlirlər: fövqəladə gəlirlər. (11)

Gəlirlərin uçota alınması Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən müəyyənləşir və burada Vergi Məcəlləsində qeyd olunan müddəalar nəzərə alınır. Müəssisələrdə gəlir maddələri üzrə mühasibat uçotunun aparılması metodlarının müəyyən edilməsinə dair konkret göstərişlər Uçot Siyasəti ilə təsbit edilir. Gəlirlərin uçota alınmasında iki mühüm metod olan kassa və hesablama metodundan istifadə olunur və bu metodların müəyyənləşməsi Vergi Məcəlləsi əsasında təsdiq edilir. Kassa metodunda bir başa kassa əməliyyatı zamanı gəlirlərin əldə edilməsi təsdiq edilir. Vergi Məcəlləsinin 132-ci maddəsi "Kassa metodundan istifadə olunarkən gəlirin əldə edilməsi vaxtı" adlanır. Bu maddəyə əsasən müəssisənin gəliri (nağd pul vəsaitini) aldığı, nağdsız ödəmədə isə gəlirin (pul vəsaitinin) bankda onun hesabına və sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt gəlirin əldə edildiyi vaxt sayılır (7).

Vergi Məcəlləsinin 132-ci maddəsinin tələblərinə uyğun gəlirin hesablanması nəqliyyat, rabitə, pərakəndə ticarət, ictimai iaşə təşkilatlarında məqsədəuyğundur. Lakin digər sahələrdə xüsusən istehsal sahələrində gəlirin müəyyən olunmasında hesablama metodundan istifadə edilməsinin zərurəti yaranır və bu Vergi Məcəlləsinin 134-cü maddəsi ilə tənzimlənir. Vergi Məcəlləsinin 134-cü maddəsində göstərilir ki, müəssisənin gəliri almaq hüququnun əldə edildiyi vaxt hesablama metodunun tətbiq edilməsi üçün əsas meyardır. (7). Vergi Məcəlləsinin 135-ci maddəsində hesablama metodundan istifadə olunarkən gəlirin əldə edilməsi vaxtı müəyyən edilir. Vergi Məcəlləsinin 135-ci maddəsində qeyd olunr: müvafiq məbləğ vergi ödəyicisinə qeyri-şərtsiz ödənilməlidirsə, yaxud müəssisə əqd və ya müqavilə üzrə bütün öhdəliklərini yerinə yetirmişdirsə, bu vaxt gəliri almaq hüququ əldə edilmiş sayılır. Müəssisə müqavilə üzrə iş görürsə və ya xidmət göstərirs, gəlir onu almaq hüququ müqavilədə nəzərdə tutulan işlərin görülməsinin və ya xidmətlərin göstərilməsinin tam başa çatdığı vaxtda əldə edilmiş sayılır (7). Vergi məcəlləsinin tələblərindən irəli gələrək gəlirin müəyyən olunmasında və onun əldə edilməsində tələb olunan qaydalara riayət edilməsi mütləqdir. Xüsusən pul gəlirlərinin müəssisənin kassasına daxil olması və sonradan pul vəsaititnin hərəkəti üzərində nəzarətin təmin edilməsi yerinə yetirilməlidir. Gəlirin sənədlər əsasında müəyyən olunmasında iki fərqli mahiyyət mövcuddur. Pul vəsaitləri şəklində gəlirlərin əldə olunması

müəssisənin kassa fəaliyyətinə uyğun sənədlərində əks olunur. Eyni zamanda bank hesabına köçürmələr və sonradan buradan həmin gəlirlərin digər təyinatı üzrə köçürülməsi kimi sənədləşmə qaydaları formalaşır. Lakin ikinci halda gəlirlər bağlanmış alqı-satqı müqavilələri, borc, icarə müqavilələri əks etdirən sənədləşmələr tərtib edilir. İstiqamət olaraq hər iki halda müəssisə gəlirlərinin formalaşması təmin edilir. Hər bir sənədləşmə işi Beynəlxalq Standartın tələblərinə uyğun şəkildə müvafiq maddəyə uyğun olaraq hesablar planında ikili yazılışı əsasında uçota alınır. Dövriyyə cədvəllində cari dövriyyə və qalıq müəyyən olunur. Hesabat dövrü üzrə maliyyə hesabatları hazırlanması əsasında gəlir məlumatları haqqında informasiyanın əldə edilməsi təmin edilir.

Müəssisənin hesabat dövrü üzrə maliyyə hesabatlarının hazırlanmasında mənfəət və zərərinin müəyyən olunması həmin dövr üzrə gəlir məlumatları ilə yanaşı sərf olunmuş xərclərin uçot məlumatlarına da əsaslanır. Təbii ki, istehsal sahələrində aktivlərin əldə edilməsinər sərf olunmuş məsrəflər sonradan bitməmiş istehsda xərc olaraq sərf edilir və maya dəyərinin hesablanmasında iştirak edir. Eyni zamanda maya dəyərinə daxil edilməyən xərclər şəklində də tanınır. Ona görə də xərclərin yaranması yeri üzrə qruplaşdırılması müəssisədə idarəetmə uçotunun aparılması və əmtəəlik məhsulun (işin, xidmətin) istehsal maya dəyərinin müəyyən edilməsi üçün olduqca zəruridir. Məhsul (iş, xidmət) növləri üzrə xərclərin təsnifləşdirilməsi ümumən onların maya dəyərinin hesablanması, xərc elementlərinin xüsusi çəkisinin müəyyənləşdirilməsi və maya dəyərinin kalkulyasiya maddələrinin əsaslandırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Yeni hesablar planında 7 saylı xərc bölməsinin 70,71,72,73,74,75,76-cı maddələrində müvafiq hesablar üzrə uçota alınır. Bura daxildir:

-Satışın maya dəyəri üzrə xərclər: işlərin(xidmətin) maya dəyəri üzrə xərclər, tikinti müqavilələri üzrə xərclər, satılmış malların balans dəyəri xərci, sair satışın maya dəyəri xərci.

-Kommersiya xərcləri: Kommersiya xərcləri kimi tanınan xammal və material xərcləri, işçi heyəti üzrə xərclər, işçi heyətinə üzrə xərclərə hesablanan sosial sığorta ayırmaları, aktivlər üzrə amortizasiya xərcləri, digər xərclər.

-İnzibati xərclər: İnzibati məqsədlər üçün istifadə olunmuş xammal və material xərcləri, İnzibati işçi heyəti üzrə xərclər, inzibati məqsədlər üçün istifadə olunan aktivlərin amortizasiya xərcləri, digər xərclər.

-Sair əməliyyat xərcləri: Torpaq, tikili, avadanlıqların və digər uzunmüddətli aktivlərin xaricolması üzrə xərclər,yenidən qiymətləndirilmədən xərclər, Qiymətdən düşmə xərcləri,cərimələr və digər oxşar ödənişlər, keçmiş illər üzrə xərclər, şübhəli və ümüdsiz borclar üzrə xərclər,aktivlərin dəyərinin azalması üzrə xərclər, məzənnə xərcləri, əvəzsiz olaraq verilmiş aktivlər, digər əməliyyat xərcləri.

-Fəaliyyətin dayandırılmasından xərclər: Fəaliyyətin dayandırılmasından yaranan xərclər

-Maliyyə xərcləri: Faiz xərcləri, Konvertasiya olunan istiqrazlar üzrə faiz xərcləri, maliyyə icarəsi üzrə faiz xərcləri, faiz xərcləri yaradan öhdəliklər üzrə məzənnə xərcləri, digər maliyyə xərcləri

-Fövqəladə xərclər: Fövqəladə xərclər (11)

Xərclərin uçota alınmasında iki mühüm cəhəti nəzərə almaq mütləqdi. Təbii ki, əldə edilmiş istehsal ehtiyatları sonradan bitməmiş istehsala daxil olduqda xərc olaraq tanınır və hazır məhsula kecməklə istehsal olunmuş məhsul maya dəyərinə daxil olur. Lakin əmək haqqı hesablanması zamanı Yeni hesablar planının 533 cü hesabı "Əməyin ödənişi üzrə işçi heyətinə olan borclar" xərc olaraq həm maya dəyərinə daxil edilə bilər və həmdə inzibati xərc olaraq uçota alına bilər. Yəni bir başa məhsul istehsalında çalışan işçilərin əmək haqları istehsal olunmuş məhsulun maya dəyərinə daxil edildiyi halda, məhsul istehsalı ilə əlaqəsi olmadan fəaliyyət göstərən işçilərin əmək haqları inzibati xərclərdə uçota alınır. Birinci halda aktivlərə daxil edilir və ikinci halda passivdə uçota alınır. Eyni yanaşma torpaq, tikili, avadanlıqların köhnəlməsi üzrə amartizasiya xərclərinin uçota alınması zamanıda nəzərə alinmalıdır. Burada da bir başa istehsalda iştirak edən torpaq, tikili , avadanlıq aktivdə xərc olaraq istehsal olunmuş məhsulun maya dəyərində və istehsalda iştirakı olmadığı halda hesablanan amartizasiya xərci passivdə inzibatı xərclərdə uçota alınır. Xərclərin təsnifatının bu forması bu və ya digər resursun məhsul istehsalına bilavasitə sərf edildiyini, xərclərin ümumi məbləğində ayrı-ayrı elementlərin xüsusi çəkisini və nisbətini qiymətləndirməyə imkan verir. Məhsul

istehsalına çəkilən xərclərin təsnifatının variantları qiymətləndirilərkən əmtəəlik məhsulun istehsalına çəkilən xərclərin bitmiş istehsal və bitməmiş istehsal üzrə fərqləndirilməsi zəruridir. Hesablar planında 202 "İstehsalat məsrəfləri" və 204 "Hazır məhsul" olaraq uçota alınma bitməmiş və bitmiş istehsal olaraq uçota alınmanı əks etdirir. Qeyd edilən fikirlərə uyğun olaraq məhsulun maya dəyərinə aid edilən xərclərin Vergi Məcəlləsinin normalarına əsaslanan təsnifatının strukturunda aşağıdakı elementlərinin mövcudluğunu qeyd etmək mümkündür:

- Material xərcləri;
- Əmək haqqı xərcləri;
- Hesablanmış amortizasiya ayırmalarının məbləği;
- Sair xərclər.

İstehsal xərcləri müəssisənin istehsal strukturundan asılı olaraq da qruplaşdırılır.Yəni bir başa texnoloji ardıcıllıqla bağlı olan əsas xərclər olaraq tanınır. Burada əsas istehsalla bağlı xammalın və digər əsas materialların əldə edilməsi xərcləri nəzərdə tutulur. Lakin köməkçi istehsalatla bağlı xərclər texnoloji proseslə bir başa əlaqəsi olmayan digər xərclərdir. Müəssisələrin istehsal fəaliyyəti ilə bağlı xərclərin müxtəlif meyarlar üzrə təsnifləşdirilməsi təsərrüfat-maliyyə əməliyyatlarının uçotunun aparılması və məhsulun maya dəyərinin kalkulyasiyalaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir. Xərclərin təsnifləşdirilməsinin müəssisəsinin idarə olunmasının səmərəli təşkili üçün əhəmiyyəti ondan ibarətdir ki, onun köməyi ilə istehsal resurslarından istifadənin nəticələrindən asılı olaraq bütün xərcləri məhsuldar və qeyri-məhsuldar xərclərə ayırmaq mümkün olur ki, bu da müəssisənin işinin düzgün istiqamətləndirilməsini təmin edən idarəetmə qərarlarının qəbul edilməsi üçün vacibdir.

Hər bir müəssisə hesabat dövrü üzrə mənfəət əldəedilməsinə maraqlıdır. Təbii ki müəssisədə işgüzar fəallığın yüksək olması onun maliyyə imkanları, tələb olunan resurslarla təmin olunması, təcrübəli işçi heyətinə malik olması kimi mühüh cəhətləri özündə cəmləyir. Gəlir və xərclərin fasiləsiz istehsal prosesinə uyğun şəkildə ardıcıl, vaxtında sənədlərlə rəsmiləşdirilməsi nəticəsində mənfəət əldə edilə bilər. Uçotun aparılması beynəlxalq standartın və ölkə daxili qəbul edilmiş hüquqi aktların tələblərinə uyğun aparıldıqda bazarda alıçısı olan və gəlir əldə edilməsi ilə yekunlaşacaq istehsalın təşkili daha əhəmiyyətlidir. Müasir rəqəmsal iqtisadiyyatın inkişafına uyğun olaraq aparılan islahatların davamı olaraq Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 06 yanvar 2021-ci ildə imzaladığı Fərmanla İqtisadiyyat Nazirliyi tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiyası Mərkəzi" yaradıldı. Bununlada rəqəmsal iqtisadiyyatın nailiyyətlərinin ölkəmizdə tətbiqini təmin edəcək hüquqi baza yaradılmış oldu. Rəqəmsal iqtisadiyyatın istehsal, marketinq sahəsində yeniliklərinin tətbiqi müəssislərdə gəlir və xərclərin daha səmərəli metodlarla hesablanmasını təmin edəcək. Artıq digər bir başa xərclərə aid olmayan vəsaitlərin sərf olunması, əlavə işçi qüvvəsinin cəlb edilməsi və satış prosesinin təşkilində olan tərəddüdlər yeni informasiya axını əsasında öz həlini tapacaq. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin banisi Ümummilli Lider Heydər Əliyev cənablarının yaratdığı iqtisadi siyasi mühit davamlı olaraq cənab Prezident İlham Əliyev tərəfindən uğurla yerinə yetirilməsi nəticəsində bu gün ölkəmizin iqtisadi imkanları artıq, beynəlxalq əlaqələr genişlənir. Maliyyə, mühasibatlıq işinin təşkilində beynəlxalq təcrübələrdən istifadə etməklə dövlətimizin müstəqil iqtisadi strukturları formalaşır və inkişaf edir.

**Ədəbiyyat**

1. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu (29 iyun 2004-cü il)- Mühasibat uçotu:qanunlar,qaydalar,təlimatlar. Bakı "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2013, səh.3-18
2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (4 may 2018-ci il) - "Azərbaycan" qəzeti, №12497851), 3 iyun 2018-ci il,səh.2
3. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının qanunu (24 mart 1995-ci il)-Biznesmenin bülleteni, №23(53),1995
4. "2005-2008-ci illərdə Milli Mühasibat Uçotu Standartlarının tətbiqi üzrə proqramın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı (18 iyul 2005-ci il)
5. Mühasibat uçotu:qanunlar,qaydalar,təlimatlar. Bakı,"Hüquq ədəbiyyaı" nəşriyyatı,2013,755 səh.
6. Mühasibat uçotunun əsasları (Beynəlxalq standartların bazasında. Bakı ADJU nəşriyyatl,2010, 698 səh.
7. Azərbaycan Respublikasının Verg Məcəlləsi. Bakı,"Hüquq Yayın Evi",2019,394 səh.

8. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi veb saytında dərc edilmiş materiallar-www.maliyye.gov.az
9. “Beynəlxalq və Milli Standartlara uyğun olaraq müəyyən edilmiş mühasibat uçotunun Hesablar Planı ( Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının qərarı ilə təsdiq edilmişdir(30 yanvar 2017-ci il)
10. Abbasov Q.Ə Mühasibat uçotu. Dərslik və metodiki vəsait . Bakı,”Təknur” nəşriyyatı,2017,528 səh.
11. Abdulayev L.İ. Maliyyə uçotu. Dərs vəsaiti. Sumqayıt, ,2017, 221 səh
12. Cəfərli H.A. İqtisadi təhlil (dərslik). Bakı,”Elm və təhsil”,2009,559 səh.
13. Fətullayev R. Beynəlxalq Mühasibatlığa Giriş. (İFRS əsasında). Bakı,”Nurlar” nəşriyyatı,2017,360 səh.
14. Kərimov A. Mühasibat uçotu, Vergilər (nəzəri-praktiki vəsait). Bakı,”Ozan” nəşriyyatı,2009,544 səh.
15. Səbzəliyev S. Beynəlxalq və milli uçot terminliyinin izahlı lüğəti. Bakı, “Elm və təhsil” ,2010, 256 səh.
16. Кулкова Л.И. Международные стандарты финансовой отчетности. М., КНОРУС,2019, 279 стр

**Doktorant Əfqan Əbülfəz oğlu Musayev**
*UNEC İslam Maliyyə Tədqiqat Mərkəzinin tədqiqatçısı,*
*UNEC İAETİ doktorantı.//*
*afqan-hava@inbox.ru g-mail; afqan.hunna@ gmail.com*

## “YENİ DÜNYA MALİYYƏ SISTEMİNƏ KEÇİD- MƏRKƏZİ BANKLARIN RƏQƏMSAL VALYUTASI - CBDC ”

***Açar sözlər***; *Rəqəmsal Valyuta, hipotetik təcrübələr, dijital , fiat valyutalar, inklyuziv, Blokçeyn platforması, anonim vauçerlər, kontrollu anonimlik.*

***Xülasə***; *XXI əsrin birinci dekadasında dünya maliyyə sistemində dəyişiklik edilərək yeni maliyyə sistemlərinə keçilməsi zəruzəti ortaya çıxmışdır. Rəqəmsal transformasiyaları özündə əks etdirən beynəlxalq maliyyə kredit institutları dünya ticarət təşkilatı ilə birlikdə yeni milli rəqəmsal valyutala keçid layihələrini sınaqdan keçirməkdədirlər.*

***Афган Мусаев.***
*Научный сотрудник Центра исламских финансовых исследований UNEC,*
*Докторант Института НИ UNEC ./*
*/afqan-hava@inbox.ru***g-mail;** afqan.hunna@ gmail.com

## «Переход к новой мировой финансовой системе - цифровые валюты центральных банков - CBDC»

**Ключевые слова**; Цифровая валюта, гипотетические эксперименты, цифровая, фиатная валюта, в том числе, платформы Blockchain, анонимные ваучеры, контролируемая анонимность.

**Резюме**; В первой декаде 21-го века возникло необходимость изменения мировой финансовой системы и перехода к новой финансовой системе. Международные финансовые учреждения, отражающие цифровые преобразования, в сотрудничестве со Всемирной торговой организацией начал реализации пилотные проекты по введению новой национальной цифровой валюты.

***Afgan Musaev.***
*Researcher at UNEC Center for Islamic Financial Research,*
*Doctoral student at the UNEC Institute for Scientific Research*
*Mail : afqan-hava@inbox.ru***g-mail;** afqan.hunna@ gmail.com

## "Transition to a new global financial system - digital currencies of central banks - CBDC"

**Keywords**; Digital currency, hypothetical experiments, digital, fiat currency, including, Blockchain platforms, anonymous vouchers, controlled anonymity.

**Summary**; In the first decade of the 21st century, it became necessary to change the global financial system and transition to a new financial system. International financial institutions reflecting digital transformation, in collaboration with the World Trade Organization, have launched pilot projects to introduce a new national digital currency.

Global dünya iqtisadiyyatının mühüm həlqələrindən biri də Ümumdünya Ticarət Təşkilatıdır (ÜTT). Təşkilat Bretton-Woods sisteminə daxil olmuş beynəlxalq maliyyə institutlarının subyektlərindən olan BVF –Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə

əlaqələrini genişləndirərək yeni mərhələyə keçməkdədir. ÜTT ilə onların arasında imzalanmış sazişlər gələcək əməkdaşlıq mexanizmlərini müəyyənləşdirən normalardır. 06.07.2017-ci il tarixli " Making Trade an Engine of Growth for All" – "Ticarətin hamı üçün əlçatan olması barəsində" üçtərəfli saziş imzalanmışdır. (1)

ÜTT-nın aktual olan layihələrindən biri "Alibaba Group"un təşəbbüsü ilə irəli sürülmüş "Elektron Dünya Ticarət Platformasıdır (EDTP- "eWTP). Platformanı dəstəkləmək üçün ÜTT Nazirlər Konfransının 2017-ci ildə Buenos-Ayresdə keçirilən iclasında Dünya İqtisadi Forumu ilə birlikdə EDTP layihəsini təbliğ etməyə başlamışdır. Eyni zamanda bu tədbidə elektron ticarətin qaydaları və effektivlik üçün B2B və B2C normaları razılaşdırılmışdır. Bu razılaşmaların məntiqi davamı olaraq ***Dunya Bankı və Beynəlxalq Valyuta Fondunun "Mərkəzi Bankların Rəqəmsal Valyutaları" ( CBDC ) projesi ortaya çıxmışdir.*** Bu projeni simvolik olaraq "Diji Curr" adlandıraraq qeyd etmək istərdim ki, təklif olunan valyuta virtual valyutalardan və kriptovalyutalardan fərqləndirilir. Belə ki, "Diji Curr" hər bir ölkənin milli valyutasina-kağız pullara ekvivalent olaraq hazırlanması təklif olunur. Milli rəqəmsal valyutalar müvafiq ölkələrin qanunvericiliyi əsasında dövlətin maliyyə-kredit siyasəti çərçıvəsində hazırlanması təklif edilir. CBDC projesi hal hazırda hipotetik təcrübələr mərhələsindədir.

İlk olaraq 2017-ci ilin noyabrından ***Uruqvay*** Mərkəzi Bankında dijital Uruqvay pesosu ilə sınaq testlərinə başlanmışdır. 2019-cu ilin martında ***Şərqi Karib Mərkəzi Bankı*** CBDC projesinin pilot layihəsində iştirak etmək istəyini bildirdi. Avropa İttifaqında ilk zamanlarda projelərdə iştirak inkar edilsə də, ***Dijital Avro*** layihəsi də mövcuddur. Bu barədə sosial şəbəkələrdə "Avrozonada ilk təşəbbüslə **İspaniya** Bankının keçmiş idarəçisi Miqel Anxel Fernandes Ordones cıxış edərək, dijital- rəqəmsal Avronun tətbiqini təklif etdiyi" bildirilir.

2019-cu ilin dekabrında **Avropa Mərkəzi Bankı** " CBDC projesinin Avroməkanda tətbiqinin iqtisadi səmərəlilik dərəcəsini hesablamaq üçün" razılığını vermişdir. Bu prossesin davamı olaraq 02.10. 2020 tarixində Avropa MB e-avro -"rəqəmsal avro barəsində" hesabat dərc edərək, eksperimental projeyə başladığını bəyan etmişdir.(2)

Hesabatda 2021-ci ilin yarısında dijital avronun tədavülü barəsində yekun qərarın veriləcəyi bildirilir. Eyni mövzulu bəyanatla **Türkiyə** MB da cıxış edərək dijital türk liresinin də 2021-ci ilin yarısında tədavülü barəsində qərar veriləcəyini bildirilir.

Globallaşmaqda olan dunyanın ikinci böyük ekonomisi hesab olunan Cin də 2017-ci ilin sonundan başlayaraq ***dijital yuan*** projesinə start vermişdir. **Çin MB** digərlərindən fərqli olaraq bir neçə böyük şəhərlər arasında maliyyə əməliyyatları-nı dijital platformaya keçirmişdir. Eksperimental olaraq 4 şəhər;-Şençjen, Suçjou, Syun-an və Çendu seçilmişdir. 2020-ci ilin aprelindən bu ərazidə ödənişlər və hesablaşmalar rəqəmsal valyutada aparılmaqdadır.

Qeyd etmək istərdim ki, KOVİD-19 Pandemiyası "CBDC proje"lərinin sürətlənməsinə səbəb olmuş, Kanada, Hindistan, Türkiyə, Rusiya kimi böyük dövlətlər də bu projelərə qoşulmuşlar.

**1. " CBDC projesi-Mərkəzi Bankların Rəqəmsal Valyutaları nədir və hansı xüsusiyyətləri var?"**

CBDC - Dünya Bankının rəsmi açıqlaması əsasında - **Central Bank Digital Currency**-Mərkəz Bankların Rəqəmsal Valyutası kimi izah olunmaqdadır. Bu ***monetar tənzimləyicilərin elektron öhdəlikləri formatında milli pul vahidlərində əks olunmaqla hesablaşma və odəniş vasitəsi kimi*** nəzərdə tutulur. Projeyə əsasən milli pul vahidləri oz nominal dəyərini saxlamaqla, dijital platformada əməliyyatların həyata keçirilməsi vasitəsinə çevrilməlidirdir. Əslində hal hazırda iqtisadiyyatın müxtəlif sahələrində oxşar hallar istıfadə edilməkdədir. Misal olaraq *əmək haqqı ödənişlərinin elektronlaşdırılması və bank kartlarına köçürülməsi , avtobus və metroda ödənişlərin edilməsi, mobil bankçılıq və.s.* bu tip oxşar əməliyyatlardandır.

Beynəlxalq Hesablaşmalar Bankının 2019-cu ilin əvvəlinə olan hesabatına əsasən dünya dövlətlərinin 70%-də CBDC projesi tədqiqatları aparılmaqdadır.(3)

Bu hesabata əsasən hesab etmək olar ki, yaxin bir neçə ildə bu həcm 100% dövlətləri əhatə etməsə də, dünyanın əsas dövlətlərini əhatə edəcəkdir. COVİD-19 Pandemiyası bu prossesin sürətlənməsində katalizator rolu oynamaqdadır. Məşhur "The Block" nəşri dünyanın butun qitələrini əhatə edə biləcək yeni dünya maliyyə sisteminin əhəmiyyətliliyini təhlil edərək belə qərara gəlmişdir ki, rəqəmsal valyutalar ənənəvi *fiat valyutalarından* keyfiyyətli və surətli xidmət imkanları ilə fərqlənməkdədir. Bu hal Mərkəz Banklar üçün daha cəlbedici olduğu üçün butun Banklar bu sistemə keçəcək.

Uzun illər tədqiqatlarıma əsaslanaraq belə bir fikir yürütməyə risk edərək , qeyd etmək istərdim ki, CBDC projesi derivativlərin , süni birja spekulyasiyasının və köpüklərin nəzarətə götürülməsinə və idarəedilən bir formaya kecirilməsinə ciddi hesablanmışdır. Belə olan halda maliyyə böhranlarının və risklərin idarəolunan olması daha real görünməkdədir.

Dünya iqtisadiyyatı ***inkişafda rəqabətliliyə*** üstünlük verir. Bu baxımdan CBDC- projesi dövlət sektorları ilə paralel olaraq özəl sektorların da xidmətinə verilməsi nəzərdə tutulur. Bu sahədə beşillik Pilot layihələr sınaqdan keçirilməkdədir. Bir cox layihələr iki səviyyəlidir. Belə ki, Mərkəz Bankların rəqəmsal valyutanın buraxılışına və dövriyyəsinə nəzarət etməsi, Banklar və digər maliyyə təşkilatları isə bu rəqəmsal valyutanın yayılmasına və əməliyyatların təminatına cavabdeh olması proqnozlaşdırılmaqdadır. Avropa Mərkəz Bankı rəqəmsal valyutaların anonimlik dərəcəsinin sınaqlarda özünü doğrultmadığını bəyan edir. Cünki tranzaksiyalar Blokçeyn zəncirinə daxil edildikdə yapay zəkanın bütün əməliyyatları tam şəffaf həyata keçirdiyi bildirilir. (3)

Rəqəmsal valyutalar qeyd edilənlərdən başqa bir sıra digər xüsusiyyətlərə də malikdirlər. Bu ilk növbədə özünü rəqabətdə və stabillikdə biruzə verir. Rəqəmsal valyutalar daha çox inklyuzivdir və daha az məsrəflə maliyyə xidmətləri təklif edir.

İkincisi rəqəmsal valyutalar fiskal siyasətin imkanlarını genişləndirərək, tənzimləyicinin işini yüngülləşdirir. Şəffaflığı nəticəsində CBDC daha sadə və asan idarəolunandır.

Layihənin milli maliyyə bazarlarının aktivləşməsinə stimul verəcəyi fikrindəyik. Faktiki olaraq rəqəmsal valyutaların 5 növü təqdim olunmaqdadır. Bu rəqəmsal valyutalardan iki əsas növü ; 1) kommersiya xarakterli və 2) Pərakəndə xarakterli rəqəmsal valyutalardır. Qalan digər üç növü isə passiv rəqəmsal valyutadır. Beynəlxalq Valyuta Fondu bu sahədə özünün tənzimləyici- requlyatıv funksiyasını saxlamaqda israrlıdır.

Kommersiya xarakterli CBDC əsasən banklar arası əməliyyatlarda istifadə olunması üçün nəzərdə tutulmuşdur və məhdud həddə olur.

Pərakəndə xarakterli CBDC-nin isə digər xidmət sferalarını əhatə etməsi proqnozlaşdırılır. Pərakəndə CBDC projesi İsveç təcrübəsində daha geniş sınanmaqdadır. **e-Kron** rəqəmsal olaraq İsveçdə müvəffəqiyyətlə tətbiq olunmaqdadır. Çünki İsvec əhalisinin 95%-i nəğdsiz hesablaşmalara üstünlük verirlər. 5%-hissə isə xırda ev təsərrüfat xərclərində tələb olunur. İsvecdə rəqəmsal valyutaya 2017-ci ildən keçilsə də, 2020-ci ildə pilot layihə statusuna keçildi.İsvec hökümətinə **Accenture** şirkəti texnoloji dəstək verməkdədir.Eyni zamanda şirkət bütün ödənişləri, depozitləri, köçürmələri və digər maliyyə xidmətlərini vahid mərkəzdə toplayaraq **R3 Corda Block cheyn** həlqəsində yerləşdirmişdir.

Uruqvay **e-Peso** rəqəmsal valyutasını 2017-2018-ci illərdən müəssisələr və istehlakçılar üzərindən sınanmaqdadır. İsveçdən fərqli olaraq burada vahid reyestr əvəzinə "rəqəmsal cüzdanlar" texnologiyası istifadə olunmuşdur. Bu sistem **Ante**l telekommunikasiya şirkəti tərəfindən idarə olunmaqdadır. Tranzaksiyalar və köçürmələr internet şəbəkəsinə qoşulmadan həyata keçirilməkdədir. Hal hazırda sınaqlar davam etdirilməkdədir.

Sınaqların həyata keçirildiyi ölkələrdən biri də **Ukraynadır.** Rəqəmsal **qrivna** üzrə 2018-ci ildən sinaq keçilməyə başlandı. Sınaq üçün Ukrayna MB tərəfindən 79 rəqəmsal cüzdanda yerləşdirilmiş 5443 **e-qrivna** buraxıldı. Rəqəmsal cüzdanlardakı **e-qrivna** ilə **Life Sell** mobil xidmətləri ödəmək və rəqəmsal cüzdanları yenidən aparatlardan-ödəniş terminallarından ödəniş edərək doldurmaq mümkün idi. Bu platforma **Steller** platformasında iki səviyyəli

hazırlanmışdır. Burada da Ukrayna MB tənzimləyici olaraq nəzarət edir, banklar isə əməliyyatları icra edirdilər.

Hər üc təcrübədə fərqli texnoloji sistem gördük. Ukraynada tətbiq edilən proje hibrid olduğu üçün özünü doğrultmadığı bildirilir. Bu səbəbdən Ukrayna MB hal -hazırda mərkəzləşdirilmiş projeni sınaqdan keçirməyi planlaşdırır. Bu barədə UkMB-in sədri Yakov Smoli bildirmişdir. (6)

2. ***" Kommersiya yönümlü rəqəmsal valyutalar. Şərqi Asiyada CBDC."***

Rəqəmsal valyutanın bir növü olan **Wholesale CBDC**- Mərkəz Bankların ***Kommersiya yönümlü rəqəmsal valyutasıdır***. Bu projelər məhdud çərçivədədir və Banklar üçün nəzərdə tutulmuşdur və beynəlxalq sənədlərdə " **W-CBDC** " abreviaturası ilə qeyd edilməkdədir. Proje banklararası əməliyyatları, hesablaşma-ları və köçürmələri, klirinq əməliyyatlarını və beynəlxalq ticarətin maliyyələşdi-rilməsini əhatə edir. W-CBDC ənənəvi valyuta əməliyyatlarından çevikliyi və risklərin ölcülməsi sərfəliliyi ilə fərqlənir.

BVF-nun hesabatına əsasən W-CBDC sınaq projeləri 3 əsas Blokçeyn platformasında aparılmaqdadır;

1***) R3 Corda, 2) Quorum, 3) HyperLeadger Fabric***.

Bu sahədə aparılan sınaq projelərinə Avropa MB ilə Yaponiya MB-nın müştərək layihəsi- "***Project Stella***", Kanada MB-ln layihəsi " ***Project Jasper***" , Sinqapur Pul-kredit İdarəsinin layihəsi " ***Project Ubin*** " , HonKonq və Tailandın layihələri aiddir.

Avropa MB ilə Yaponiya MB-nın müştərək layihəsi olan "Project Stella"da **anonim vauçerlər-(AnVç)** sınaqdan keçirilməkdədir. AnVç xüsusi hazırlanmış elektron kodlaşdırılmış sertifikatlardır. Bu sertifikatlara sahib olan korespondentlər tranzaksiya zamanı anonimliyini qorumaq üçün AvMB-na "***mənşə sertifikatı***" əvəzində AnVç kodunu təqdim etməklə istədiyi məbləği sərbəst köçürmə edə bilər. Prossesdə tranzaksiyanın subyektlərinin kimliyi anonim saxlanılır və bildirilmir.

Zənnimcə bu hal terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulması üçün münbit şərait yaradır və cinayətkarlığa yol açan məkan ola bilər. Bu baxım-dan riskli sayılmalıdır. AnVç bir dəfə istifadə üçündür və tranzaksiyadan sonra dərhal qüvvəsini itirir.

Şərqi Asiyada rəqəmsal valyuta üzərində ilk layihələrdən biri Çin tərəfindən 2014-cü ildə irəli sürülmüşdür. "**Rəqəmsal Yuan** –Dijital Yuan" layihəsi "DCEP-***dijital currency elektronic payment***" formatında irəli sürülmüşdür. Çin hökuməti pılot proje üçün 4 şəhərdən 20 müxtəlif profilli şirkət seçərək təcrübələrə başlamış-dır. Şırkətlər əsasən təhsıl, nəqliyyat, ictimai iaşə və nəqliyyat xidməti sahələrini əhatə edir. Layihə 4 eksperimental bank vasitəçiliyi ilə həyata keçirilir. 2020-ci ilin sonuna olan hesabata əsasən Çin e-yuanı mobil əlavə tətbiq olunmaqla geniş tətbiq olunmuş və effektiflik səviyyəsi çox yüksəkdir. The Block hesabatında MB tərəfindən anonimliyin ciddi nəzarətdə saxlanıldığı və yerli bankların "cüzdanlar"-la provayder xidməti göstərildiyi bildirilir. (4)

Bununla yanaşı Çin hökuməti projeləri davam etdirərək, təkmilləşdirmə apar- maqdadır. MB tənzimləyici olaraq, " ***kontrollu anonimlik***" təklif etməkdədir ki, bunun əsas mahiyyəti məlumatların dövlət nəzarət orqanları üçün gizliliyi qorumaq şərti ilə açıq, maliyyə əməliyyatı iştirakçıları üçün isə "***məhdudiyyətli anonimlik***" təqdim etməkdədir. Projenin effektivliyinin və risk dərəcələrinin ölçülməsi üçün mütəmadi proqnozlaşdırmalar və sorğular keçirilməkdədir. Bu sahədə analitiklər-dən biri olan Çunvey D.Z. hesab edir ki, " DCEP projelərinin eksperimentləri davam etdirilməli və daha geniş kütlələri əhatə etməlidir. (6)

Proqnozların nəticəsindən asılı olaraq, Çin hökuməti DCEP projesini beynəlxalq səviyyədə bazarlara təqdim etmək niyyətindədir. Belə bir təqdimat platforması olaraq "2022-ci il Qış Olımpıya oyunları" seçildiyi bildirilir.

Rəqəmsal valyutaların qarşısında duran ciddi layihələrdən biri də, **SWIFT** platformasına alternativ platforma hazırlamaqdır. Bu sahədə ciddi işlər aparılmaqdadır. ABŞ FEB-nın mövqeyindəki gizlilik və konservativlik bu istiqamətdə Çin valyutasının genişlənməsinə maneədir. Buna baxmayaraq, dövlətlərarası ticarət münasibətlərində e-yuanla hesablaşmalar

aparılmaqdadır. "Bir kəmər, bir yol" projesinin ana xəttı hesab olunan e-yuanla hesablaşmalar aktiv mərhələdədir. The Economist-in yazdığına görə, tarixin ən əhəmiyyətli investisiya layihəsi ilə müqayisədə ABŞ dolları ilə ***130 milyard təşkil edən "Marshall Planı"***"na alternativ oxşar olan ***"Bir Kəmər Bir Yol"*** layihəsində marşrut boyunca ***900 milyard ABŞ dolları dəyərində 890 razılaşma var*** və təkcə Çinin yol boyu ölkələrdə məcmu- **sərmayəsi 4 trilyon ABŞ dolları olacaq. (6)**

Avropa Komissiyasının Daşınma və Nəqliyyat Baş Direktorluğunda (DG HAREKET) Beynəlxalq Nəqliyyat və Genişləndirmə Bölməsinin rəhbəri Alain Baronun sözlərinə görə, İpək Yolu Təşəbbüsünün AB Trans-Avropa Nəqliyyat Şəbəkəsi (TEN-) ilə əlaqələndirilməsi vacibdir. 2020-ci ildə Çin və Aİ ***nəqliyyat bazarının davamlı inkişafa və bərabər şəraitdə olmasına zəmanət vermək üçün əlaqə platforması*** haqqında bir Anlaşma imzaladıqlarını bəyan etdilər .(4)

Bütün bu kimi razılaşmalar rəqəmsallaşmanın maliyyə müstəvisində də genişlənməsini vacib edir.

Yuxarıda qeyd etdik ki, CBDC- Mərkəz Bankların Rəqəmsal Valyutalarının bir neçə növü sınaqdan keçirilməkdədir. Tədqiqatımızda növlərin müxtəlifliyindən daha geniş məlumat vermək istərdik. Aşağıdakı cədvəldə bunu əyani görə bilərsiniz. (c-1)

| N= | **CBDC – MBRV növləri** | **Dijital adı.** | **Subyektləri** |
|---|---|---|---|
| 1 | Pərakəndə | e-CBDC | *Fiziki və hüquqi şəxslər* |
| 2 | Kommersiya | W-CBDC | *Banklar və Kredit təşkilatları* |
| 3 | Hibrid | H-CBDC | *MB ilə banklarin arasında* |
| 4 | Vasitəçi | p-CBDC | *Dunya Bankı ilə Milli MB arası* |
| 5 | Sintetik | s-CBDC | *Mıllı MB ilə özəl banklar arası* |

Beynəlxalq valyuta fondunun proqnozlarına əsasən "dünya iqtisadiyyatı 2020-ci ildə 2019-cu ilə nisbətdə 2.9%-dən 3.3%-ə yüksəlmişdir.(5)

Bu proqnozlar imkan verir ki, dünya iqtisadiyyatının pandemiya dönəmində inkişafına istinadən, pandemiyadan sonra da inkişaf edə biləcəyi fikrində olaq.

## Ədəbiyyat


1. http://www.imf.org/en/News/Articles/2017/07/06/pr17264-joint-statement-by-the-heads-of-the-imf-world-bank-and-wto"
2. http://www.amb.hesabatı
3. https://forklog.com
4. www.the.block.com// doklad-DCEP
5. www.imf.org/~/media/Files/Publications/WEO/2020/Update/January/Russian/weo
6. www.imf.org/en/Publications/WP/Issues/2020/06/26/A-Survey-of-Research-on-Retail-Central-Bank-Digital-Currency-49517 =((Резюме: Обзор исследований розничной цифровой валюты Центрального банка Автор / редактор:Джон Кифф ; Джихад Альвазир ; Соня Давидович ; Акилес Фариас ; Ашраф Хан ; Танай Кьяонаронг ; Маджид Малаика ; Хантер К. Монро ; Нобу Сугимото ; Эрве Турп ; Питер ЧжоуДата публикации:26 июня 2020 г.))

**Əliyeva Abuhəyat Müşrəvan qızı**
*"İqtisadiyyatın tənzimlənməsi" kafedrasının dissertantı*

## AZƏRBAYCANDA DÖVLƏTİN ANTİİNFLYASİYA SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

### Xülasə

Məqalədə Azərbaycanda müstəqilliyin ilk illərində antiinflyasiya siyasətinin reallaşdırılması məsələlərinə toxunulub, inflyasiyanın artması ilə milli iqtisadiyyata göstərə biləcəyi mənfi təsirlərin baş verməməsi üçün dövlətin həyata keçirdiyi labüd iqtisadi tədbirlərinin nəticələri araşdırılıb, antiinflyasiya tədbirlərində əsasən istifadə edilmiş pul-kredit siyasəti alətlərinin əhəmiyyəti vurğulanıb, Azərbaycanda inflyasiyaya qarşı keçidin ilk illərində istifadə olunmuş monetar siyasətin müsbət təsir şərh edilib. Burada daha sonra manatın sabitliyinin təmin edilməsində milli istehsalın inkişaf etməsi və bu zaman dövriyyəyə çıxarılan hər manatın arxasında milli əmtəə durması, o cümlədən istehsalın olmadığı şəraitdə milli valyutanın dəyəri ölkənin valyuta ehtiyatlarından istifadə edilməklə sabitləşdirilməli olması kimi iki şərtin önəmli olduğu əsaslandırılıb, göstərilən tədbirləri həyata keçirməklə dövlətin bir tərəfdən inflyasiyanın qarşısını almağa çalışması, digər tərəfdən isə onun iqtisadiyyata, iqtisadi subyektlərə, əhaliyə olan mənfi təsirlərini azaltmağa çalışması nəticəsinə gəlinmişdir.

**Açar sözlər:***inflyasiya prosesləri, antiinflyasiya siyasəti, monetar siyasət, tənzimlənmə mexanizmləri, qiymətlərin tənzimlənməsi*

Respublikada iqtisadi sahədə qazanılmış nailiyyətlərin möhkəmlənməsinə və həmçinin əhalinin alıcılıq qabiliyyətinə bilavasitə mənfi təsir edən bir çox daxili və xarici amillərin təsiri altında istehlak mallarının və xidmətlərin qiymətlərinin artması antiinflyasiya siyasətinin həyata keçirilməsi zəruriliyini artmışdır.

Azərbaycanda müstəqilliyin ilk illərində antiinflyasiya siyasətinin reallaşdırılması öz müsbət bəhrəsini vermiş və bu sahədə müəyyən təcrübə əldə olunmuşdur. Aşağıdakı tənzimlənmə mexanizmlərindən istifadə olunmaqla iqtisadi islahatların ilk illərində müşahidə olunan yüksək səviyyəli inflyasiyanın qarşısı alınmışdır [6]:

- büdcə kəsirinin aşağı səviyyədə saxlanması;
- pul emissiyasının məhdudlaşdırılması;
- mərkəzləşdirilmiş kredit resurslarının məhdudlaşdırılması;
- kommersiya kreditlərinin faiz dərəcələrinin yüksək olmasına imkan verilməsi;
- milli valyuta kursu vasitəsilə daxili qiymətlərin tənzimlənməsi;
- əmək haqqı artımlarının ləngidilməsi və əmək ödənişlərinin nisbətən dondurulması və s.

Ümumən isə antiinflyasiya siyasəti həyata keçirilərkən irəli sürülən əsas tədbirlər aşağıdakılardan ibarət olmuşdur:

- qiymətlərin və əmək haqqının artımının müvəqqəti dondurulması və ya saxlanması;
- istehsalın genişləndirilməsi üçün aşağı faiz dərəcələri tətbiq etməklə liberal pul-kredit siyasətinin həyata keçirilməsi;
- vergilərin azaldılması hesabına istehsalın stimullaşdırılması;
- bazar infrastrukturunun formalaşdırılmasında, iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsində, həyati əhəmiyyətli sahələrin və istehsalın saxlanmasında dövlətin iştirakı;
- xarici iqtisadi əlaqələrin və valyuta sferasının tənzimlənməsi və s.

2003-cü ilin sonu 2004-cü ilin əvvəllərindən başlayaraq inflyasiyanın yüksəlməsi bir çox iqtisadi, sosial problemlərə səbəb olacağını labüd edirdi. Bu mənfi təsirlərin səviyyəsini artıran

əsas amillərdən biri yoxsulluq səviyyəsinin yüksək olması idi. Yoxsulluğun nisbətən yüksək həddi ilk növbədə onu inflyasiya təhlükəsi altına qoymuşdur. Rəsmi statistikaya əsasən 2003-cü ildə yoxsulluğun səviyyəsi 44.7 faiz olmuşdur ki, bununla da mümkün qiymət artımlarının nə dərəcədə sosial fəsad yaradacağına şübhə yeri qoymurdu. Məhz yoxsulların sayının artmasına təsir göstərən amillərdən biri də zəruri ərzaq məhsullarının və xidmətlərin qiymətlərinin qalxmasının onların gəlirləri ilə eyni nisbətdə olmamasıdır. Dünya təcrübəsi göstərir ki, inflyasiya nəticəsində zəruri ərzaq məhsullarının qiymətinin artması ilk növbədə əhalinin iqtisadi, sosial cəhətdən ən zəif təbəqəsinə sarsıdıcı təsir göstərir. 2004-cü ildən ərzaq məhsullarının qiymət indekslərinin ikirəqəmli templə artması yoxsul əhali üçün böyük çətinliyə çevrilmişdir.

İnflyasiyanın artması ilə milli iqtisadiyyata göstərə biləcəyi mənfi təsirlərin baş verməməsi üçün dövlətin iqtisadi tədbirlərinin həyata keçirilməsini labüd etmişdir. İqtisadi islahatları uğurla reallaşdırmaq üçün sabit manat və o cümlədən inflyasiyanın aşağı səviyyədə olması vacibdir [9]. Bu tədbirlərin təsirli olması üçün onların ilk öncə normativ-hüquqi sənəd formasında verilməsi tələb olunurdu. İnflyasiyanın yüksəldiyi şəraitdə 2005-ci il 31 mayda "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti fərman vermişdir. Bu fərmanda Azərbaycan iqtisadiyyatının cari vəziyyəti haqqında qısa təhlil verilmiş və gözlənilən mümkün qiymət artımlarının qarşısını almaq üçün lazımi göstərişlər müvafiq bəndlərdə verilmişdir [2].

Əslində bu tədbirlər onların əksəriyyəti əlaqədar orqanların gündəlik cari fəaliyyətinin əsasını təşkil edir. Ona görə də, fikrimizcə, bu fərmanın verilməsi ilə antiinflyasiya tədbirlərinin daha sistemli həyata keçirilməsi məqsədi düşünülmüşdür.

Dövlətin bu sahədə mühüm tədbirlərindən biri 2006-cı il yanvar ayının birindən manatın denominasiyasının həyata keçirilməsi olmuşdur. Dünya təcrübəsi göstərir ki, öz nominal dəyərini itirmiş milli valyutanın denominasiya olunması iqtisadi sabitliyin təmin olunması baxımdan əhəmiyyətlidir. Bunu Azərbaycanda aşağıdakı amillər şərtləndirirdi [10]:

- 1990-cı illərin əvvəllərində mövcud olan hiperinflyasiya nəticəsində istehlak mallarının qiymətləri dörd və beşrəqəmli ədədlə ifadə olunurdu;
- milli valyuta ilk dəfə dövriyyəyə buraxılanda onun dollara olan məzənnəsi 16:1 nisbətində idisə, sonradan bu nisbət 4900:1-ə çatmışdır;
- qiymətlərin böyük miqyası və mübadilə məzənnəsinin böyük rəqəmlə ifadə olunması əhalidə və iqtisadi subyektlərdə daim inflyasiya gözləmələrinə səbəb olurdu;
- mübadilə məzənnəsinin böyük olması əhalidə milli valyutaya olan marağı azaldırdı və dollarlaşmaya səbəb olurdu.

90-cı illərdə sırf tələb amillərinin məhdudlaşdırılması ilə qiymət sabitliyinin əldə olunması təcrübəsi sübut etdi ki, milli iqtisadiyyatda həyata keçirilən antiinflyasiya siyasəti kompleks xarakter daşımalıdır. Yalnız bu halda uzunmüddətli qiymət sabitliyini təmin etmək olar. Ona görə də qiymətlərin artmasının sırf bazar qanunları ilə əlaqələndirərək sərbəst buraxılması, ya da sərt dövlət müdaxiləsi ilə tələbin kəskin azaldılması çıxış yolu ola bilməzdi. Bəzən iqtisadi ədəbiyyatda iqtisadi artım, işsizliyin azalması fonunda qiymətlərin qalxması təbii hal kimi qəbul edilir. Bu nəzəri müddəanın Azərbaycanda son dövrlər müşahidə olunan qiymət artımlarının əsaslandırılması üçün istifadə olunması, fikrimizcə düzgün olmazdı. Belə ki, bu qanunauyğunluq, digər şərtlər sabit qalmaqla, yalnız məcmu tələbin artımı ilə işsizliyin azaldılması və müvafiq qiymət artımlarını izah edir. Lakin Azərbaycanda inflyasiya prosesləri tək tələb amilləri ilə yox, eyni zamanda bir çox digər qeyri-monetar, xərc, xarici, institusional, struktur amillərlə şərtləndiyindən Filllips əyrisi ilə ifadə olunan asılılıq real prosesləri düzgün əks etdirməyəcək. Yəni, qeyri-tələb amillərinin təsiri nəticəsində Fillips əyrisi öz yerini dəyişəcək. Bu da hər hansı bir işsizlik səviyyəsinin təmin olunması üçün tələb olunan inflyasiya səviyyəsinin qeyri-müəyyənliyinə səbəb olacaq. Ona görə də, başlıca tədbir inflyasiyanın

məqbul səviyyədən kənarlaşmasına imkan verməməkdir. Bu vəzifələri reallaşdırmaq üçün dövlətin özünün iqtisadi siyasət alətlərindən istifadəni daha da artırması tələb olunur.

Bazar iqtisadiyyatı şəraitində antiinflyasiya siyasətinin həyata keçirilməsində ən təsirli vasitələrdən biri pul-kredit siyasəti alətləridir. Ümumiyyətlə, iqtisadi durumdan asılı olaraq iki tip siyasət həyata keçirilə bilər. İqtisadi tənəzzül dövründə yumşaq pul-kredit siyasəti həyata keçirilir. Görülən tədbirlər nəticəsində pulun qiyməti olan faiz dərəcəsi aşağı düşür və iqtisadi aktivliyin artmasına səbəb olur. İnflyasiya təhlükəsinin mövcud olduğu zaman onun qarşısının alınması üçün sərt pul-kredit siyasəti həyata keçirilir. Bu isə faiz dərəcələrinin artmasına səbəb olmaqla məcmu tələbin azalmasına gətirir.

Qeyd etmək lazımdır ki, pul-kredit siyasəti fiskal siyasətlə müqayisədə daha çox tənzimləyici effektə malikdir. Çünki fiskal siyasətdə hər hansı dəyişikliyin edilməsi uzunmüddətli müzakirələri tələb edirsə, pul-kredit siyasətində dövri olaraq iqtisadi vəziyyətdən asılı olaraq avtomatik dəyişikliklər oluna bilir. Buna görə onlardan istifadə daha səmərəli olur.

Göstərilən antiinflyasiya tədbirləri bir çox ölkələrdə tətbiq edilmiş və müasir dövrdə tətbiq olunmaqdadır. Və onlar müxtəlif nəticələr əldə etmişlər.

Ümumiyyətlə, 80-ci illərdə İEÖ-də, 90-cı illərdən başlayaraq bir çox İEOÖ-də həyata keçirilən antiinflyasiya tədbirləri nəticəsində dünya üzrə inflyasiya prosesləri daha idarə oluna bilən vəziyyətə gətirilmişdir. 90-cı illərdən etibarən dünya üzrə orta inflyasiya səviyyəsi 30 faizdən 4 faizə enmişdir.  Qeyd etmək lazımdır ki, bu azalma iqtisadi, institusional inkişaf səviyyəsinə görə bir-birindən fərqlənən müxtəlif ölkələrdə müşahidə olunmuşdur. 1970-ci illərdə qlobal inflyasiyanın median göstəricisi 10-15 faiz, 80-ci illərdə 5-10 faiz, ondan sonra isə 5 faiz ətrafında olmuşdur. İEOÖ üzrə inflyasiyanın orta səviyyəsi 80-ci illərdə 36.7 faiz idisə, İEÖ üçün bu göstərici 6.2 faiz təşkil etmişdir. 1990-cı illərdə rəqəmlər müvafiq olaraq 36.0 və 2.8 faiz olmuşdur. 2000-ci ildən etibarən isə İEOÖ-də inflyasiyanın orta səviyyəsi 5.8 faiz, İEÖ-də isə 2 faizdir [12]. Bu azalmanı həmçinin ayrı-ayrı regionlar üzrə də göstərmək olar.

Deməli, antiinflyasiya tədbirlərində əsasən pul-kredit siyasəti alətlərindən istifadə edilmişdir. Monetar siyasətdən Azərbaycanda inflyasiyaya qarşı keçidin ilk illərində istifadə olunmuş və o vaxt bu siyasət öz müsbət təsirini göstərmişdir. Mərkəzi Bank nəzərdə tutduğu hədəflərə nail olmaq üçün məcburi ehtiyat normaları, açıq bazar əməliyyatları, faiz dərəcələri kimi alətlərdən, valyuta tənzimlənməsindən, bank-kredit sahəsinə aid digər tədbirlərdən istifadə etmişdir.

Monetar sahədə inflyasiyaya qarşı açıq bazar əməliyyatlarından istifadə olunmuşdur. Adətən bu əməliyyatlar ya birbaşa qiymətli kağızların alınıb satılması ilə, ya da onların təkrar alqısı üzrə əqd bağlanması ilə həyata keçirilir. Bir çox postsovet ölkələrində olduğu kimi Azərbaycanda da açıq bazar əməliyyatları zəif inkişaf etmişdir. Buna əsas səbəb maliyyə bazarının hələ tam formalaşmaması və effektiv daxili dövlət borcunun yaranmamasıdır [4]. İEÖ-də maliyyə bazarları o dərəcədə böyükdür ki, Mərkəzi Banklara dövriyyədən likvidliyi götürmək üçün faiz dərəcələrini qaldırmadan  əlavə qiymətli kağız təklifinə imkan verir. Məhz dövlətin borc şəklində götürdüyü pulların əsasında buraxdığı qiymətli kağızlar açıq bazar əməliyyatlarında alqı-satqı obyekti kimi çıxış edir. Məlum olduğu kimi  Mərkəzi Bank dövriyyədəki artıq pul kütləsinin inflyasiyaya təsirini azaltmaq üçün banklara qiymətli kağızları sataraq banklardan artıq likvidliyi götürür. Maliyyə bazarlarının zəif inkişafını özəlləşdirmə prosesinin ləngiməsi, iqtisadi subyektlərin inamsız psixologiyası ilə əlaqələndirmək olar [8]. Və dövriyyədə olan pul kütləsinin həcminin əhəmiyyətli dərəcədə dəyişdirməyə imkan vermir. Gələcəkdə müvafiq bazarın inkişafı ilə açıq bazar əməliyyatlarının rolu daha da artacaq.

Lakin antiinflyasiya siyasətində aktiv istifadə olunmasına baxmayaraq, bir çox inkişaf etmiş ölkələrdən fərqli olaraq Azərbaycanda Mərkəzi Bankın təkrar maliyyələşmə üzrə faiz dərəcəsinin “siqnal effekti” kifayət qədər deyil [1.3,7]. Onun dəyişdirilməsi inflyasiya

gözləmələrinin müəyyən qədər azalmasına imkan vermişdir. Azərbaycanda uçot dərəcəsi inflyasiyanın tənzimlənməsi alətindən daha çox onun göstəricisi kimi çıxış etmişdir.

Son illər həyata keçirilən monetar tədbirlərin təsirini azaldan əsas cəhətlərdən biri mübadilə məzənnəsi ilə inflyasiya üzrə hədəflərin ziddiyyət təşkil etməsi olmuşdur. Bir tərəfdən inflyasiyanın aşağı, sabit səviyyəsinin təmin olunması, digər tərəfdən milli valyutanın kəskin bahalaşmasına yol verilməməsi kimi məqsədlərin Mərkəzi Bank tərəfdən qarşıya qoyulması biri-birinə ziddiyyət təşkil edən alətlərdən istifadəni zəruri edir [1]. Dövriyyədən artıq xarici valyutanın alınması milli valyutanın məzənnəsinin kəskin bahalaşmasının qarşısını almağa səbəb olsa da, inflyasiya üzrə hədəflərə nail olmağa imkan verməmişdir. Əsasən müsbət xarici iqtisadi şərtlər, neft ixracının artması ilə əlaqədar ölkəyə külli miqdarda gəlirlərin daxil olması və dövlət neft gəlirlərindən iqtisadiyyatda xərclənməsi ilə əlaqədar bazarda xarici valyutanın təklifinin artması dövriyyəyə əlavə pul kütləsinin daxil olması ilə xarakterizə olunmuşdur. Məhz dövlət xərclərinin maliyyələşdirilməsi üçün neft gəlirlərinin valyuta bazarında manata çevrilməsi Mərkəzi Bankın alışyönlü müdaxilələri ilə həyata keçirilmişdir. Nəticədə manatın nominal kursunda kəskin artmanın qarşısı alınsa da, real olaraq bahalaşmışdır. Antiinflyasiya effekti baxımından manatın bahalaşması idxal olunan malların ucuzlaşması ilə müşayiət olunmalıdır. Bununla da əhalinin və müəssisələrin istehlakında böyük paya malik olan idxal mallarının ucuzlaşması son nəticədə onların gəlirlərinin alıcılıq qabiliyyətini artırmaqla gəlir effektinə səbəb olur. Digər tərəfdən antiinflyasiya effekti baxımından manatın bahalaşması müsbət hal olsa da, bu iqtisadiyyatda ixracla məşğul olan və idxalla daxili bazarda rəqabət aparan subyektlər üçün mənfi nəticələr verə bilər. Bu iqtisadi dövriyyədə pul kütləsinin qeyri-sabit artım templərinin yaranmasına səbəb olmuşdur. Bir tərəfdən bu monetizasiyanın yüksəlməsi, digər tərəfdən inflyasiya potensialı daşımışdır. Manatın sabitliyinin təmin edilməsi iki şərtin olmasını tələb edir. Birincisi, milli istehsal inkişaf etməli və dövriyyəyə çıxarılan hər manatın arxasında milli əmtəə durmalıdır. İkincisi, istehsalın olmadığı şəraitdə milli valyutanın dəyəri ölkənin valyuta ehtiyatlarından istifadə edilməklə sabitləşdirilməlidir. Milli valyutanın sabitliyinin təmin edilməsinin ən düzgün yolu birinci istiqamət olsa da, bu proses nisbətən uzun müddət tələb edir. Bunun üçün ölkədə geniş, çoxsahəli islahatlar, struktur dəyişiklikləri aparılmalı, xarici satış bazarları əldə edilməlidir. Bu islahatların aparılması, müsbət nəticələnməsi üçün ölkədə maliyyə sabitliyi olmalı, inflyasiyanın lazım olan səviyyəsi təmin olunmalıdır. Həyata keçirilən monetar tədbirlərə baxmayaraq, ölkədə inflyasiyanın proqnozlaşdırılan səviyyəsinə nail olunmasına bunlar kifayət etməmiş, bu tədbirlərin effektivliyi az hiss olunmuşdur. Bunu Mərkəzi Bankın özünün hesabatından görmək olar [1]. Ümumiləşdirərək bunu aşağıdakılarla əlaqələndirmək olar:

- inflyasiyanın yaranmasında monetar amillərlə yanaşı, Mərkəzi Bankın təsir dairəsindən kənarda olan qeyri-monetar amillərin payı yüksəkdir.;
- ölkədaxilində banklar tərəfindən təklif olunan kreditlər üzrə faiz dərəcələri MB-ın mərkəzləşdirilmiş uçot dərəcəsinin dəyişdirilməsinə lazımınca reaksiya vermir. Yəni faiz dərəcəsi ilə məcmu tələbə çevik təsir mexanizmi zəifdir;
- maliyyə bazarlarının zəif inkişafı dövriyyədən artıq pul kütləsinin iqtisadiyyatın sahələri arasında bölgüsünə səbəb olmur;
- nağd dövriyyənin payının azaldılması üzrə tədbirlərin effektiv olmaması;
- milli valyutanın kəskin bahalaşmasına yol verilməməsi, digər tərəfdən fiskal sahədə genişlənmiş siyasətin həyata keçirilməsi MB-ın monetar sahədə məhdudlaşdırıcı tədbirlərinin təsirini azaltmışdır. Monetar tədbirlərlə bərabər hökumətin struktur, fiskal sahədəki inflyasiya əleyhinə tədbirləri daha səmərəli olardı.

Antiinflyasiya tədbirləri haqda fərmanda vacib istiqamətlər arasında fiskal tədbirlər də göstərilmişdir. Büdcə xərclərinin optimallığının, səmərəliliyinin artmasını ilk növbədə onun strukturunun təhlili ilə müəyyən etmək olar.

Sosial sahəyə və iqtisadiyyata yönəldilən xərclərin xüsusi çəkiləri bir-birinə tərs mütənasib olmuşlar. Lakin, bu müsbət tendensiyaya baxmayaraq elmə ayrılan xərclərin xüsusi çəkisinin azalması elə də müsbət hal deyil. Çünki, bir çox İEÖ-in təcrübəsi göstərir ki, elmə ayrılan xərclərin əsas mənbəyi kimi dövlət vəsaitləri çıxış edir. İEÖ bu xərclərin ÜDM-yə nisbəti 3 faiz ətrafındadır. İnkişaf etmiş ölkələrdə XX əsrin II yarısında ÜDM artımının 1/5-dən 1/3 hissəsinə qədərini müvafiq sahələrə ayrılan dövlət xərclərinin hesabına olmuşdur [11].

1999-cu ildə təsis edilmiş AR Dövlət Neft Fondu iqtisadiyyatda makroiqtisadi tarazlığın pozulmasına səbəb ola biləcək külli miqdarda vəsaitin dövriyyəyə daxil olmasını məhdudlaşdıran əsas vasitə olmuşdur. Bu Fondda neft ixracından əldə edilən gəlirlərin akkumulyasiya edilməsi və onların dönərli valyutalarda xarici hesablarda saxlanılması ilə iqtisadiyyata tələbatdan artıq pul kütləsinin daxil olmasının qarşısı alınır. Neft gəlirlərindən yaranan vəsaaitlərin akkumulyasiya olunmasını təmin edən Neft Fondu özlərinin daxili xərclərinin kəskin şəkildə genişlənməsinin qarşısını almaqla, manatın real məzənnənin bahalaşmasına imkan verilməməsində, o cümlədən qeyri-neft sektorunun rəqabətə davamlılığının qorunub saxlanmasında mühüm amildir. Neft Fondunun iqtisadiyyatda məcmu tələbin genişlənməsinə məhdudlaşdırıcı təsiri, iqtisadiyyatda daxili tələbi ixrac sektorlarından keçərəık qeyri-ixrac sektorlarına, xüsusilə xidmətə, yayılmasını məhdudlaşdıran amildir. Bu da ölkədə makroiqtisadi sabitliyin qorunması işinə şərait yaradır. Lakin yuxarıda da qeyd olunduğu kimi fiskal məqsədlər üçün vəsaitlərin istifadəsi sahəsində təkmilləşdirmələrin aparılması vacibdir.

Həyata keçirilən antiinflyasiya tədbirlərinin mühüm istiqamətlərindən biri qiymətlərin tənzimlənməsi sahəsi olmuşdur. Əvvəlki paraqrafda müəyyən olunduğu kimi son illərdəki inflyasiya proseslərində dövlət tərəfindən tənzimlənən qiymət artımları mühüm amil kimi çıxış etsə də, müvafiq sahədə qanunvericilik və təşkilati tədbirlərin görülməsi müsbət qiymətləndirilə bilər. Belə ki, əvvəllər ayrı-ayrı məhsulların, xidmətlərin qiymətlərini, tariflərini tənzimləyən vahid orqan yox idi və nəticədə müxtəlif təşkilatlar qiymətlərə təsir edə bilirdi [5,6]. Məsələn, daxili bazar üçün xam neftin və neft məhsullarının topdansatış qiyməti, elektrik enerjisinin tarifi İqtisadi İnkişaf və Maliyyə nazirlikləri, dəmir yolu tarifləri Azərbaycan Dəmir Yol İdarəsi, rabitə xidmətləri tarifləri Rabitə Nazirliyi tərəfindən təsdiq edilirdi. Lakin qanunvericiliyin təkmilləşdirilməsi ilə bu sahədə mövcud olan boşluq doldurulmuşdur. Hazırda ölkədə qiymətlərin dövlət tənzimlənməsinin normativ hüquqi bazasını 2003-cü ildə təsdiq edilmiş “Tənzimlənən qiymətlər haqqında” qanun, 2005-ci ildə təsdiq olunmuş “Tarif Şurasının Əsasnaməsi”, “Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul (iş, xidmətlərin) siyahısı”nı və s. normativ-hüquqi aktlar təşkil edir. Tarif Şurasının əsasnaməsi ilə onun səlahiyyətləri artırılmışdır. Şuranın qiymətlərin birbaşa tənzimlənməsini həyata keçirmək səlahiyyətlərinin olmadığı illərdən fərqli olaraq, hazırkı Əsasnamə ölkədə qiymətlərin dövlət tənzimlənməsi səlahiyyətlərini tamamilə Şuraya həvalə etmişdir. Nazirlər Kabinetinin qərarı ilə qiymətləri inzibati cəhətdən tənzimlənən 38 adda məhsulun, xidmətin, işlərin siyahısı təsdiq edilmişdir. Ölkədə qiymətlərin səmərəli dövlət tənzimlənməsinin həyata keçirilməsində onların formalaşması, tənzimlənməsi və tətbiqi üzərində dövlət nəzarətinin tətbiq olunmasının rolu olduqca böyükdür. İlk növbədə bu nəzarət tənzimləmədə qiymətlərin iqtisadi cəhətdən əsaslandırılmasının təmin edilməsi üçün zəruri olan real imkanlar yaradır. Məhsullarının qiymətləri dövlət tənzimlənməsində olan istehsalçı təsərrüfat subyektlərinin qiymət intizamına düzgün riayət olunmasında məsuliyyət hissini artırır. Ayrı-ayrı inhisarçı qruplar tərəfindən sərbəst şəkildə qiymətlərin qaldırılmasının qarşısı alınır. Lakin əvvəlki paraqraflarda göstərdiyimiz kimi, inzibati qiymətlərin artırılması, tənzimlənməsi mexanizmi antiinflyasiya siyasətinin məqsədi baxımından düzgün qurulmamışdır.

İdxal inflyasiyasının qarşısını almaq üçün əsasən məzənnə siyasətindən, tarif siyasətindən istifadə edilmişdir. Dövr ərzində dünyanın aparıcı valyutalarının məzənnələrinin kəskin tərəddüdləri Azərbaycan da daxil olmaqla bir çox ölkələrdə məzənnə siyasətinin əhəmiyyətini artırmışdır. Belə ki, dünyanın aparıcı valyutalarının məzənnələrində müşahidə

olunan tərəddüdlər ölkəyə inflyasiya idxalına şərait yaratmaqla iqtisadi subyektləri müəyyən dərəcədə məzənnə riskinə həssas etmişdir. Azərbaycanda milli valyutanın məzənnəsinin ABŞ dollarına nəzərən formalaşması, bu valyutanın dünyanın digər aparıcı valyutalarına qarşı dəyişkən olması, əsasən dəyərdən düşməsi şəraitində inflyasiya üzrə proqnozlara nail olmağı daha da çətinləşdirirdi. Bunu nəzərə alaraq Mərkəzi Bank 2008-ci il 11 mart tarixində manatın dəyərinin valyuta səbətinə nəzərən sabit saxlanması konsepsiyasını reallaşdırmağa başladı. Nəticədə valyuta səbəti 30 faiz avro, 70 faiz dollar nisbətində olmaqla manatın məzənnəsini ikitərəfli qaydada yox, qeyri-neft sektoru üzrə Azərbaycanla yaxın iqtisadi əlaqələrdə olan ölkələrin valyutalarına nəzərən ortaçəkili qaydada müəyyənləşdirməyə imkan vermişdir. Bu mexanizmə keçidlə Mərkəzi Bank nominal effektiv məzənnəyə təsir imkanlarını artırmış və inflyasiyanın idxalını neytrallaşdırmağa şərait yaratmışdır. Bununla da, xarici valyutaların öz aralarında olan məzənnə dəyişiklikləri nəticəsində ölkəyə inflyasiya idxalının qarşısının alınması gözlənilirdi. Lakin dünya maliyyə-iqtisadi böhranı nəticəsində 2009-cu ilin əvvəlində ABŞ dollarına kəskin tələbin artması valyuta səbətindən imtinaya səbəb olmuşdur. 2011-ci ilin əvvəlində manatın kursu yenidən tək ABŞ dollarına əsasən tənzimlənir. İdxal vasitəsilə bahalaşmanın qarşısını iqtisadi vasitələrlə almaq üçün Nazirlər Kabineti “Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında” qərarına dəyişikliklər etmişdir. Dəyişikliyə əsasən 2008-ci ilin may ayının 1-dən etibarən düyü, buğda unu və çovdar unu bu malların siyahısına daxil edilmişdir və 2009-cu il mayın 1-nə qədər qüvvədə olmuşdur. Sonradan 2010-cu ilin dekabr ayının 3-dən 2011-ci ilin 10 iyuluna qədər ölkəyə idxal olunan buğda və un ƏDV-dən azad olunmuşdur. Həmçinin hökumət ölkədə Taxıl Fondunun yaradılması işini sürətləndirmişdir.

Həyata keçirilən antiinflyasiya tədbirlərinin təhlili nəticəsində müəyyən etmək olar ki, fərmanda göstərilmiş bəzi tədbirlər qismən icra olunmuşdur. Məsələn, fərmanda göstərilmişdir ki, Azərbaycan Respublikası DNF-dən dövlət büdcəsinə daxil edilən vəsait yalnız DNF-in hesabına maliyyələşdirilməsini nəzərdə tutan məqsədli layihələrin reallaşdırılmasına yönəltsin. Lakin, son illərdə dövlət büdcəsinə fonddan külli miqdarda transfertlər olunsa da, onların konkret istifadə istiqamətləri göstərilmir. Fərmanda əsas tədbirlərdən biri kimi dövlət istiqraz vərəqələrinin buraxılması göstərilsə də, təhlildən də göründüyü kimi dövriyyədən izafi pul kütləsinin götürülməsi üçün Mərkəzi Bank əsasən öz notlarından istifadə etmişdir. Dövriyyədən pul kütləsinin götürülməsində xüsusi rol oynayan ipoteka sisteminin fəaliyyəti tam qurulmamışdır. 2006-cı ildən ipoteka verilməsinə başlansa da, sonradan maliyyə çatışmazlığından proses dayandırılmışdır. Yalnız 2009-cu ildə Azərbaycan İpoteka Fondunun istiqrazlarının qiymətli kağızlar bazarında yerləşdirilməsi ilə vəsaitlər cəlb olunaraq kommersiya şərtləri ilə ipoteka kreditlərinin verilməsinə başlanmışdır. Fikrimizcə, dövriyyədə pul kütləsinin çox olduğu dövrdə bu işin həyata keçirilməsi həm inflyasiyanın qarşısının alınması, həm də iqtisadi aktivliyin təmin olunması baxımdan daha səmərəli olardı. Alqı-satqı əməliyyatlarında nağd puldan istifadənin məhdudlaşdırılması üzrə tədbirlər keçirilsə də, demək olar ki, nəticəsiz olmuşdur. Əvvəlki paraqrafdan göründüyü kimi nağd pulun manatla geniş pul kütləsində payı yüksək olaraq qalır.

Göstərilən bütün bu tədbirləri həyata keçirməklə dövlət bir tərəfdən inflyasiyanın qarşısını almağa çalışmış, digər tərəfdən isə onun iqtisadiyyata, iqtisadi subyektlərə, əhaliyə olan mənfi təsirlərini azaltmağa çalışmışdır. Lakin bütün bu tədbirlərə baxmayaraq, ölkədə inflyasiyanın faktiki səviyyəsi onun proqnozlaşdırılan səviyyəsindən kənarlaşmış və yüksəlmişdir. Bu da, əsasən, cəmiyyətdə, iqtisadi dairələrdə hökumətin inflyasiya üzrə proqnozlarına inamın azalmasına, inflyasiya gözləmələrinin artımına səbəb olmuş, inflyasiyanın inersiyalılığını gücləndirmişdir. Bu səbəbdən bu sahədə mövcud olan nöqsanları aşkar etməklə gələcəkdə antiinflyasiya siyasətinin təkmilləşdirilməsi böyük səmərə verə bilər.

Antiinflyasiya siyasətinin təhlili göstərir ki, bu siyasət zamanı dövlətin əsas məqsədi makroiqtisadi tarazlığın təmin olunmasıdır. Çox vaxt bu işin bazarın öhdəsinə buraxılması elə də səmərəli nəticə verməyə bilər. İqtisadiyyatda uzun müddət struktur disproporsiyaları

yarana bilər ki, bu da bütün subyektlərə təsir edə bilər. Bazar mexanizmi ilə tələb və təklifin tarazlığının təmin olunması uzun müddət çəkə bilər və bir çox sosial gərginliklərlə müşahidə oluna bilər. İnflyasiyanın amilləri məcmu tələb və təklifin uyğun gəlməməsi üzündən baş verir. Buna görə də onlardan hər hansı birinə təsir etməklə bu tarazlığı təmin etmək mümkün olur. Burada əsas məqsəd inflyasiya gərginliyini minimuma endirməkdir. Məlum olduğu kimi inflyasiya ya məcmu tələbin təkliflə müqayisədə çox olması, ya da təklif artımının tələbin artımından geri qalması zamanı, onun müəyyən səbəblərdən bahalaşması hesabına yaranır. Bunu tənzimləmək üçün isə dövlətin həyata keçirdiyi antiinflyasiya siyasəti iki halda müsbət nəticə verə bilər: cari məcmu tələbi yüksəltmədən təklifi artırmaqla və təklifi artırmadan məcmu tələbin azaldılması ilə.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Mərkəzi Bankının illik hesabatları 2000-2010
2. “Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanı, 2005, 31 may
3. Alternativ inflyasiya modeli yaradılmalıdır. İTM-nin “Alternativ inflyasiya metodologiyasının işlənilməsi” layihəsi üzrə Tədqiqat Qrupu, http: //www.erc-az.org
4. Ələkbərov Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi. Bakı: Elm, 2007, 446 s.
5. Hümmətov X. Qiymətlərin tənzimlənməsinin hüquqi bazasının təkmilləşdirilməsinə ehtiyac duyulur. Ayna qəz., Bakı, 2008, 23 avqust
6. Hüseynov T. Azərbaycanda bazar sisteminin iqtisadi problemləri. Bakı: Elm, 2004, 227 s.
7. Rüstəmov E.S. Monetar şərait indeksi: nəzəri-praktiki məsələlər // İqtisad elmləri: nəzəriyyə və praktika, Bakı, 2008, № 3-4, s.123-131
8. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər. Bakı: İqtisad Universiteti, 2009, 415 s.
9. Мэнкью Н.Г. Принципы макроэкономики. М: ПИТЕР, 2009, 544 с.
10. Центральная Евразия: национальные валюты. Под ред. Э.М. Исмаилова – Стокгольм: Издательский дом «CA$CC Press», 2008- 336 с
11. Серегина С.Ф. Роль государства в экономике. М: Дело и Сервис, 2002, 288с.
12. Wynne M.A., Kersting E.K. Openness and inflation. Federal Reserve Bank of Dallas, Staff Papers, 2, april

**Vüqar Faiq oğlu Namazov**
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*Maliyyə və Maliyyə İnstitutları kafedrasının doktorantı,*

*Email: vuqarnamazov@gmail.com*
*ORCID ID: 0000-0003-0669-0877*

# AZƏRBAYCANIN VALYUTA BAZARI VƏ VALYUTA ƏSASLI TÖRƏMƏ MALİYYƏ ALƏTLƏRİNİN YARADILMASI İMKANLARI

## Giriş

**Tədqiqatın məqsədi** Azərbaycanda valyuta əsaslı törəmə maliyyə alətlərinin yaradılması və tətbiqi dairəsinin müəyyən edilməsidir. **Tədqiqatın metodologiyası** tədqiqat işi müqayisəli təhlil, empirik yanaşmalar və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatı məhdudlaşdıran əsas faktor iqtisadi effektivliyin qiymətləndirilməsi üçün riyazi modelləşdirmə və bunun üçün tələb edilən geniş satistik məlumat bazasının tələb etməsidir. **Tədqiqatın tətbiqi əhəmiyyəti** alınmış analitik nəticələr əsasında Azərbaycanda valyuta əsaslı mütəşəkkil törəmə maliyyə alətləri bazarının formalaşdırılmasıdır. Tədqiqat dayanıqlı maliyyə bazarlarının qurulması və yeni maliyyə alətlərinin yaradılması vasitəsi ilə Azərbaycanda kapital əlçatanlılığının təmin edilməsi, alternativ maliyyələşmə mexanizmlərinin formalaşdırılması və risklərin idarə edilməsi üzrə yeni alətlərin formalaşdırılması problemlərinin həlli məqsədləri üçün istifadə edilə bilər. **Tədqiqatın nəticələri** maliyyə alətləri ilə müasir ticarət infrastrukturunun təşkili üzrə mövcud modellərin ümumiləşdirilməsi yolu ilə Azərbaycanda valyuta əsaslı törəmə maliyyə alətlərinin ticarətinin təşkili perspektivlərin öyrənilməsindən ibarətdir. **Tədqiqatın orijinallığı və elmi yeniliyi** araşdırma qlobal maliyyə bazarlarının infrastrukturunun təşkili problemlərinin ümumiləşdiriləməsi, o cümlədən yerli bazarların təhlili yolu ilə Azərbaycan kaptal bazarı üçün yeni ticarət infrastrukturu təqdim edir. Törəmə maliyyə alətlərinin yaradılması praktiki baxımdan, risklərin idarə edilməsi üzrə effektiv alətlərin təqdim edilməsi ilə yananı, alternativ maliyyələşmə həllərini də təklif edir.

**Açar sözlər:** Maliyyə bazarları, Birja, Törəmə maliyyə alətləri, Valyuta ticarəti, Forvard, Svop, Ticarət infrastrukturu, Bazarın tənzimlənməsi.

## 1. Azərbaycanda spot valyuta bazarı

ÜDM 2014-cü ilədək artan neft qiymətləri fonunda yüksəlməsinə baxmayaraq, ticarət balansının neft qiymətlərinin düşməsi səbəbindən 2011-ci ildən bəri azalması müşahidə edilir. 2014-cü ildə Azərbaycan xam neftinin (AZERI LT) bir barrel üçün orta qiyməti 100 ABŞ dollarından yuxarı olmasına baxmayaraq, 2015-ci ildə ümumi neft qiymətlərində baş vermiş ucuzlaşma fonunda kəskin şəkildə düşmüş və 2016-cı ildə bir barel üçün orta qiyməti 50 ABŞ dollarından aşağı olmuşdur.

2017-ci ilin ikinci yarısında, OPEC-in neft qiymətləri ilə bağlı razılaşması nəticəsində xam neftin qiyməti bir qədər artaraq 50 ABŞ dollarının üzərinə qalxmışdır.

Neft qiymətində baş verən dəyişikliklər manatın məzənnəsinə və bu məzənnəni sabit saxlamaq üçün bufer rolunu oynayan valyuta ehtiyatlarının həcminə birbaşa olaraq təsir edir (Şəkil 1). Belə ki, 2010-2019-ci illərin orta statistik göstəricisi üzrə əsas ixrac məhsullarının təqribən 84% hissəsini (average) xam neft satışı təşkil edir.

**Şəkil 1. Qlobal neft qiymətləri və manatın məzənnəsi**




*Mənbə: www.macrotrends.net; AMB (www.cbar.az)*

2014-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Bankının (AMB) valyuta ehtiyatlarının həcmi təqribən 15 milyard ABŞ dolları təşkil etmişdir. Lakin, 2014-cü ilin avqust ayından etibarən bir il altı ay ərzində bu ehtiyatlar azalaraq 13,6 milyard ABŞ dolları təşkil etmişdir.

Həmin dövrdə Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən AMB-nin xarici valyuta ehtiyatlarına 7,9 milyard ABŞ dolları köçürülmüşdür ki, bu da il üzrə dövlət gəlirlərinin təqribən 103%-nə bərabər olmuşdur.

AMB tərəfindən məzənnə tənzimlənməsi aləti olaraq, kommersiya bankları tərəfindən müəyyən edilən pərakəndə məzənnənin baza məzənnəsindən 8%-lik dəhliz çərçivəsində (4% aşağı və 4% yuxarı hədd) kənarlaşmasına icazə verilmişdir. Bu səbəbdən alış və satış qiymətləri baza məzənnənin 4%-ni keçə bilməmişdir.

Neft qiymətlərinin düşməsi və ölkədə baş vermiş valyuta spekulyasıiyaları fonunda manatın ABŞ dolları qarşılığında 2015-ci ilin fevral ayında 33,76%, dekabr ayında isə 47.62% devalvasiyası (ümumilikdə 98%) baş vermişdir.

Azərbaycan manatının ikinci devalvasiyasından sonra AMB 8%-lik dəhliz limitini ləğv etdi və valyuta məzənnələrinin bazarda müəyyən olunduğu sərbəst üzən məzənnə sisteminə keçdi elan etdi. Bunun nəticəsində ABŞ dollarının orta məzənnəsi 1,99 AZN-ə yüksəldi.

2017-ci ilin ilk beş ayında xarici valyuta üzrə likvidliyinin olmaması səbəbindən, USD/AZN spredi 0-30% arasında dəyişmiş, may ayından sonra isə, ticarət balansının yaxşılaşması müstəvisində məzənnə 1,7 AZN civarında sabitləşmişdir.

Məzənnənin sabit saxlanılmasında AMB-nin ARDNF-nin iştirakı ilə mütəmadi olaraq təşkil etdiyi valyuta hərraclarının rolu əhəmiyyətlidir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, hərracların formatına görə USD satışı texniki olaraq istənilən iştirakçı tərəfindən həyata keçirilə bilməsinə baxmayaraq, satışlar AMB və əsasən ARDNF tərəfindən həyata keçirilir. Dolayısıyla, ARDNŞ tərəfindən dövlət büdcəsinə transfer ediləcək məbləğ tranşlar şəklində AMB-nin təşkil etdiyi valyuta hərracları vasitəsi ilə manata konvertasiya edilir. Yeni hərrac mexanizminin mahiyyəti ondan ibarətdir ki, konvertasiya prosesində bir bank deyil, bir neçə bank iştirak edir.

AMB tərəfindən davamlı olaraq təklifin tam məbləğdə qarşılanması sayəsində bazar iştirakçıları qiymət rəqabətinə qoşulmamış və dolayısıyla məzənnə sabit olaraq qalmışdır (Şəkil 2).

**Şəkil 2. 2010 – 2019-cu illər üzrə Azərbaycanın valyuta ehtiyyatları və USD/AZN məzənnəsi**




*Mənbə: ARDNF (www.oilfund.az); AMB (www.cbar.az)*

Paralel olaraq, pərakəndə valyuta bazarında volatilliyi azaltmaq məqsədi ilə nəzarət orqanı tərəfindən valyuta mübadiləsinə institutsional və funksional məhdudlaşdırmalar tətbiq edilmişdir.

Azərbaycanda valyuta ticarətinin həcmi barədə rəsmi məlumat mövcud deyil. Lakin, keçirilmiş sorğular üzrə qeyri-rəsmi məlumatlara əsasən 2020-ci ilin sonuna bu rəqəmin təqribən 400 milyard manatın üzərində olduğu bildirilir.

Ölkə daxili ümumi valyuta ticarəti həcmi mərkəzi bankın hərrac vasitəsi ilə müvəkkil banklara satdığı məbləğ, banklar arası xarici valyuta satışları, bankların nağd hesablaşma yolu ilə satdıqları valyuta əməliyyatlarının həcmindən ibarətdir. Burada, valyuta hərraclarında satılan məbləğ və nağd valyuta əməliyyatlarına dair məlumatlar açıqlansa da, banklararası valyuta ticarətinə dair məlumatlar açıqlanmır.

Ümumi olaraq, valyuta ticarəti (həm valyuta hərracları, həm da banklararası valyuta ticarəti) mərkəzləşmiş qurum tərəfindən deyil, tərəflər arasında pərakəndə şəkildə əsasən Bloomberg platforması üzərindən həyata keçirilir.

Mərkəzi bankın valyuta hərracları həftədə iki dəfə olmaqla təşkil edilir.

Valyuta bazarı dörd əsas iştirakçısı qrupu üzərində formalaşmışdır.

Birinci qrup iştirakçılar daha çox valyuta mövqeləri üzrə likvidliyin təmin edilməsi və tənzimləyici funksiyanı daşıyır.

AMB pul-kredit siyasətini formalaşdırır, valyuta əməliyyatlarına və kredit institutlarının fəaliyyətinə nəzarət edir.

ARDNF Azərbaycanda əsas valyuta distribyutoru olmaqla, ABŞ dolları üzrə ən böyük və yeganə (ölçüsünə görə) likvidlik təminatçısıdır. ARDNF 2001-ci ildə neft gəlirlərinə qənaət etmək və bu gəlirləri gələcək nəsillər üçün artırılması məqsədi ilə yaradılmışdır. ARDNF-nin gəlirlərinin təqribən 90%-dək hissəsi idarətməyə verilmiş neft mənfəəti hesabına formalaşıdr. ARDNF son 9 ildə orta hesabla dövlət büdcəsinin 70% -ni maliyyələşdirmişdir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (MN), hər ilin əvvəlində ARDNF tərəfindən dövlət büdcəsinə transfer ediləcək məbləği müəyyən edir. Büdcəyə transfer manatla baş verdiyindən, dolayısıyla bu yolla valyuta hərracında satılacaq ABŞ dollarının məbləği müəyyən edilir.

2021-ci il 1-ci rübündə valyuta hərracında ümumilikdə 1,480 mln. ABŞ dolları satılmışdır. AMB valyuta ehyyatlarının dəyişməsi dinamikasına nəzər saldıqda bu satışın əsasən ARDNF tərəfindən təmin edildiyini müəyyən etmək olar. Həmçinin, hərracda ABŞ dollarına olan tələbin tam qarşılanması USD/AZN valyuta məzənnəsinin 1.7000 göstəricisi üzərində ilə sabit qalmasına səbəb olmuşdur (Şəkil 3).

**Şəkil 3. AMB valyuta hərracları, yanvar-mart 2021 (mln. USD)**




*Mənbə:AMB (www.cbar.az)*

İkinci qrup iştirakçılar banklardır. Banklar valyuta ticarətini əsasən Bloomberg terminalları üzərindən, vasitəçi olmadan birbaşa həyata keçirirlər. Həmçinin, banklar xarici bank hesabları vasitəsi ilə xarici valyuta ilə ticarət edə bilərlər.

Üçüncü qrup investisiya şirkətləridir. İnvestisiya alətlərinin alqı-satqısı üçün üçün spot bazarda fəaliyyət göstərirlər və müştərilər üçün zəruri olduqda valyuta konvertasiyasını həyata keçirirlər.

Dördüncü qrup idxal və ixrac şirkətləridir. Neft Azərbaycanda əsas ixrac məhsulu olmaqla 2017-ci ildə 123,6 milyard dollar və ya ümumi ixracatın 89,5% -ni təşkil etmişdir. Bu rəqəm 2008-ci ildə 463 milyard ABŞ dolları təşkil etmişdir. Ticarət həcminin kiçilməsinin başlıca səbəbi dünya bazarlarında neftin qiymətinin orta illik hesabla təqribən 73%-dən çox enməsidir. Azərbaycan iqtisadiyyatında ikinci ən böyük ixrac məhsulu meyvə, qərzəkli bitkilər və tərəvəzdir. Bunlar da daxil olmaqla, yerdə qalan məhsulların ixrac həcmi 2012-ci ildəki 15.9 milyard dollardan 2017-ci ildə 14.5 milyard dollara düşmüşdür. 2015 və 2016-cı illərdə valyuta məzənnəsində baş vermiş böyük tərəddüdlər müstəvisində əsas ixracatçılar ixrac əməliyytalarında bir qədər konservativ mövqe nümayiş etdirmişdirlər. Lakin, gömrük, vergi və digər sahələrdə aparılan islahatlar (məsələn dövlət yoxlamalarının 2 illik müddətə dayandırılması) sahibkarlara güclü stimul vermiş və 2017-ci ildə 268 milyon ABŞ dolları və ya ixracatda 22,64% artım müşahidə edilmişdir.

Digər qrup bazar iştirakçıları müxtəlif şəxsi səbəblərdən pərakəndə valyuta mübadiləsi həyata keçirən fərdlərdir.

Azərbaycanda spot bazar iki müstəvidə formalaşmışdır: nağd pul bazarı və nağdsız pul bazarı. Hər iki bazar birjadan kənar fəaliyyət göstərir və ticarətin mütəşəkkil təşkili üçün institut (valyuta birjası) mövcud deyil.

Nağdsız ticarət banklar, mərkəzi bank və hüquqi şəxslər arasında aparılır. Fiziki şəxslərin nağdsız valyuta ticarətində iştirakı ümumi statistik göstəricilərdə nəzərə çatmayacaq qədər kiçikdir.

Banklar və markəzi bank arasında nağdsız ticarət Bloomberg[1] terminalı vasitəsi ilə, t + 0 müddətində, hərrac üsulu ilə həyata keçirilir.

Yerli banklar arasında ticarət də həmçinin Bloomberg terminalı vasitəsi ilə t+0 müddətində (ikitərəfli razılaşmaya əsasən kliring də t+1 də ola bilər), fərdi sövdələşmələr üsulu ilə aparılır.

Yerli banklarla xarici banklar arasında valyuta ticarti Bloomberg terminalı və ya xarici bankın valyuta ticarəti üçün nəzrdə tutulmuş platforması üzərindən aparılır.

Öz növbəsində ticarət əqdləri üzrə hesablaşma-kliring əməliyyatları iştirakçıların özləri arasındakı razılaşmaya əsasən həyata keçirilir və yuxarıda qeyd edildiyi kimi adətən t+0 müddətində təmin edilir. Bütün hallarda hesablaşmalar SWIFT hesablaşma sistemi üzərindən aparılır.

Yerli banklarla müştəriləri arasında nağdsız ticarət əməliyyatları hesablarda aparılır. Ya şirkət hesablarına vəsait yatırır və çevirir ya da hesabında olan vəsaiti çevirməyi əmr edir. Çoğunlukla konversiya xarici şirkətlərə idxal məqsədi ilə köçürmələr üçün edilir. Bununla birlikdə, şirkətlər sərbəst şəkildə başqa məqsədlər üçün də pullarını digər valyutalara çevirə bilərlər. Fərdlər xaricdə alış-veriş etdikdə və ya xarici bazar yerlərində və veb saytlarında elektron ticarət sifarişləri edərkən nağdsız spot dönüşümü daha çox bank kartları vasitəsi ilə həyata keçirirlər.

Statistik məlumatlar açıqlanmadığına görə, banklararası valyuta ticarəti həcminin hesablanması mümkün deyildir. Lakin, keçirilmiş müsahibələrə əsasən dövriyyənin ABŞ dolları üzərində konsentrasiya olunması və həcminin kifayət qədər kiçik olması fərziyyəsini irəli sürmək olar. Banklararası valyuta ticarətinin həcminin kiçik olmasına təsir edən başlıca səbəb bankarın valyuta mövqelərini bir-birindən gizli saxlama niyyəti fonunda, daha münasib şərtlərlə AMB-nin təşkil etdiyi növbəti valyuta hərracından valyuta ala bilməsi imkanının olmasıdır. Burada, öz növbəsində bazarın daha çox tələb yönümlü formalaşması nəzərə alınmalıdır.

Nağd valyuta ticarəti əsasən banklar və fiziki şəxslər arasında aparılır. Nağd pul mübadiləsi əksər hallarda bankların filiallarında aparılsa da, bankomatlar üzərindən də edilə bilər.

**2. Forvard bazarı**

Azərbaycanda Forvard bazarı nisbətən yenidir. Yüksək marja səbəbiylə banklar fərdi müştərilərə valyuta forvardları təklif etməkdə maraqlıdırlar. Aparılmış sorğu nəticələrinə əsasən, 2014-cü ildə forvard bazarının həcminin təqribən 10 milyon ABŞ dolları dəyərində olduğu bildirilir, lakin əqdlərin tənzimlənən bazarda bağlanılmaması, o cümlədən məlumatların açıqlanması mexanizminin mövcud olamaması sbəbindən forvard əməliyyatları barədə rəsmi hesabatlılığa rast gəlinmir. Mərkəzi Bankın tələblərinə əsasən hər bir bankın ümumi valyuta mövqeyinin maksimal həddi onun kapitalının 20%-i səviyyəsində müəyyən edilib. Məlumdur ki, devalvasiyaya qədər banklar ümumi valyuta mövqelərini möhkəmləndirmək məqsədi ilə, balans xaricində forvard müqavilələrindən tez-tez istifadə edirdilər. Odur ki, ümumi statistik rəqəmlər təqdim edilsə belə, əməliyyatların hansı hissəsinin iqtisadi əsaslara söykənən real forvard əqdləri olmasını təyin etmək çətindir.

---

[1] AMB-nin təlimatlarına əsasən banklar aralarındakı valyuta ticarəti əməliyyatlarını Bloomberg terminalında həyata keçirmək məcburiyyətindədirlər. AMB-nin banklara ticarət əməliyyatlarının Bloomberg terminalı üzərinə köçürməsi tövsiyyəsi yerli valyuta bazarında şəffaflığın təmin edilməsi, çevikliyin artırılması və əməliyyat xərclərinin azaldılması məqsədlərinə yönəldilmişdir. Buna baxmayaraq, müsahibədə iştirak etmiş bəzi mütəxəssislər və bankirlər bu tip platformaları milli maraqlar baxımından inhisarçı mövqedə olmasına görə tənqid edirlər. Digərləri isə Bloomberg-in Azərbaycanın maliyyə bazarları üçün vahid platforma olacaq qədər stabil və etibarlı olmasına inanırlar.

Valyuta hərracında iştirak edən bank özünün mərkəzi bankdakı müxbir hesabda olan vəsaitinə ekvivalent məbləğdə sifariş yerləşdirə bilər. Burada müxbir hesablarda olan vəsait əməliyyatın təminatı qismində çıxış edir.

Belə olduqda, valyuta əməliyyatları üzrə de facto ticarət təşkilatçısı AMB, ticarət platforması isə Bloomberg terminalıdır, lakin de juro, bunların heç biri mütəşəkkil valyuta bazarı (birja) deyil.

Manatın birinci devalvasiyası dövründə (fevral 2015) , açıq forvard müqaviləsi mövqeyində olan banklar böyük itki ilə qarşılaşdılar. Belə ki, mövcud forvard faiz dərəcələrinin təqribən 4% civarında olduğu halda, faktiki rəqəmlər 30%-dək yüksəldi. Bu böyük itkidən sonra banklar bir müddət forvard ticarətini dayandırmalı oldular.

2017-ci ildən sonra USD/AZN məzənnəsinin möhkəmlənməsi və sabitləşməsi müstəvisində banklar və bəzi investisiya şirkətləri ticarət əməliyyatlarını yenidən bərpa etdilər. İnvestisiya şirkətləri əsasən nağd pul hesablaşmaları üçün forvard müqavilələri bağlayır, banklararası bazar isə daha çox təchiz edilən forvard əməliyyatları üzərində formalaşmaqdadır. Araşdırmalara əsasən, bağlanılan əqdlərin təqribən 90-95%-i ABŞ dolları üzərindəndir.

Bazarda likvidliyin aşağı olması və bazar iştirakçılarının azlığı ümumilikdə faiz dərəcələrinin nəzəri faiz dərəcəsindən yüksək olmasına səbəb olur. 2020-ci ilin sorğu nəticələri üzrə toplanmış orta statistik rəqəmlərinə uyğun olaraq, məzənnənin düzxətli sabit olması və bazarda yetərincə likvidliyin mövcudluğu fonunda, forvard faiz dərəcələri müddətə uyğun olaraq 8-11% aralığında dəyişir.

**3. Valyuta əsaslı digər törəmə maliyyə alətləri**

Azərbaycanda valyuta üzrə fyuçers bazarı mövcud deyildir. Banklarla müsahibələr zamanı opsionlar üzrə müəyyən fərdi razılaşmaların olduğu bildirilsə də (statistik məlumatların açıqlanması mexanizmi mövcud deyil), əməliyytaların həcmi və sayı baxımından onların sistem əhəmiyyətli olduğunu demək çətindir.

Alternativ olaraq, marja ticarətinin[2] predmeti olan fərq müqavilələri (CFD[3]) bazarı formalaşmışdır. CFD predmeti olaraq birbaşa hər hansı bir aktivin özü deyil, bu aktivin dəyərinin dəyişməsi fərqi çıxış edir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən törəmə maliyyə alətlərinə fyuçers, opsion və svop aid edilir və törəmə maliyyə alətlərinin baza aktivi olaraq digər aktivlərlə yanaşı faiz dərəcəsi, gəlirlilik və s. qeyd edilir. Azərbaycan Respublikasının "Qiymətli Kağızlar Bazarı haqqında qanunu"na əsasən investora baza aktivi və ya bu baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi, risk dərəcəsinin öz vəsaiti və ya borc vəsaitləri ilə alınıb sonradan satılmasının təşkili üzrə investisiya xidməti marja ticarəti olaraq hesab edilir və lisenziyalaşdırılan investisiya xidmətlərinə aid edilir. Bu səbəbdən CFD-nin törəmə maliyyə alətinə aid edilməsi və onun digər maliyyə alətləri kimi kapital bazarı qanunvericiliyi üzərindən tənzimlənməsi məsələsi təzad doğurur.

Təcrübədə CFD birjadankənar bazarda ticarət olunsa da, Azərbaycanda bazarının tənzimlənməsi istiqamətində ilk addım olaraq, 2014-cü ildə Bakı Fond Birjasında bu alətin ticarətinin təşkilinə başlanılmışdır. 2015-ci ildə isə, Azərbaycan Respublikasının "Qiymətli Kağızlar Bazarı haqqında qanunu"nun qüvvəyə minməsi ilə marja ticarəti lisenzilaşdırılan investiysa xidmətlərinə aid edilməklə kapital bazarının tənzimlənməsi çərçivəsinə daxil edilmişdir. Buna bənzər təcrübələrə Türkiyə və bəzi Avropa ölkələrində rast gəlinir.

---

[2] Marja ticarəti – Azərbaycan Respublikasının «Qiymətli Kağızlar bazarı haqqında qanunu»na əsasən, marja ticarəti investora baza aktivi (qiymətli kağız, valyuta, faiz dərəcələri, gəlirlilik, törəmə maliyyə alətləri, əmtəə, maliyyə indeksi, kredit riskləri və s.) və ya bu baza aktivlərinin qiyməti, gəlirliliyi, məzənnə fərqi, risk dərəcəsinin öz vəsaiti və ya borc vəsaitləri ilə alınıb sonradan satılmasının təşkili üzrə investisiya xidmətidir (əməliyyatıdır). Marja ticarəti investisiya şirkətinin investora verdiyi borc vəsaitləri hesabına həyata keçirildikdə, bu vəsaitlər hesabına alınan aktivlər həmin borcun təminatı kimi girov predmeti, investisiya şirkəti girovsaxlayan, investor isə girovqoyan hesab edilir.

[3]Valyuta CFD ilə ticarət etmək istəyən şəxslər və ya şirkətlər əsasən MetaTrader ticarət platformasından istifadə edirlər. Platforma, FX CFD bazarında ilk pərakəndə ticarət platformalarından biri olmaqla, Meta Quotes şirkəti tərəfindən hazırlanmışdır. Masaüstü, veb və mobil versiyalarına malikdir. InvestAZ kimi bəzi investisiya şirkətləri hesablarını idarə etmək, yatırım etmək, vəsaitləri geri çəkmək, ticarət hesabına giriş, ticarət hesabı mövqeyinin izlənilməsi, hesablar arasındakı köçürmələr və eyni zamanda spot valyuta USDAZN-i mübadilə etmək üçün müxtəlif platformaları təqdim edirlər. Dünya təcrübəsində MetaTrader həm birjadan kənar, həm də birja əməliyyatlarından istifadə olunur.

Faktiki olaraq, Azərbaycanda 2019-cu ildən sonra bu bazar barədə rəsmi statistik məlumatlara rast gəlinmir[4]. Buna təsir edən başlıca səbəblər sırasında, yuxarıda qeyd edildiyi kimi qanunvericilikdən irəli gələrək tənzimlənmənin predmetində və əhatə dairəsində yaranmış təzadların olması istisna deyil.

Valyuta üzrə fərq müqavilələri bazar iştirakçıları üçün əlverişli hecinq aləti olsa da, dövriyyədə faktiki aktivin olmaması səbəbindən (iştirakçılar faktiki olaraq məzənnənin qalxıb-enməsinə "mərc" edirlər), bu bazarın ölkə daxilində valyuta məzənnələrinin formalaşmasına hər hansı bir təsiri yoxdur.

Bazar iştirakçıları arasında keçirilmiş sorğu əsasında orta marja dərəcəsinin 1:100 ətrafında olması müəyyən edilmişdir. Marja dərəcəsi investorun profilindən asılı olaraq fərdi qaydada dəyişir ki, bu da bazarda assimmetrik oyun şərtləri formalaşdırır. Həmçinin, marja ticarəti üzrə likvidliyin mənbəyi, müştəri sifarişlərinin şirkət daxilində təmin edilməsi və açıq bazara çıxarılması nisbəti tələbi (sifarişlərin tam olaraq şirkət daxilində təmin edilməsi və açıq bazara çıxarılmaması şəffalığın, ədalətli ticarətin pozulması kimi qiymətləndirilə bilər), hesablaşmaların valyutası (məsələn, Türkiyə təcrübəsində tənzimləyici normativlərə uyğun olaraq, bütün hesablaşmalar Türk lirəsi ilə aparılır) üzrə qanunvericilikdə tənzimləyici mexanizmlər mövcud deyil.

Azərbaycanda fəaliyyət göstərən 10 investisiya şirkətindən 9-u marja ticarətini həyata keçirmək üzün zəruri lisenziyaya sahibdirlər. Təqribən 25-30 valyuta üzrə 50-ə yaxın alət növünün olması müəyyən edilmişdir. Əsas hesablaşma valyutası ABŞ dolları və AZN-dir.

Bazarda olan marja həddi, likvidlik, bazara çıxış asanlığı və alətlərin əlçatanlığı bu bazarı digərləri ilə müqayisədə iştirakçılar üçün, xüsusi ilə spekulyativ investorlar üçün cəlbedici edir. Lakin, bununla paralel olaraq kapital bazarları daha sabit və az riskli ticarət əməliyyatlarını özündə birləşdirməlidir.

Azərbaycanda törəmə maliyyə aləti olaraq, valyuta svopları da ticarət olunur. Ticarət əsasən Bloomberg terminalları və ya SWIFT platforması üzərindən standart mesaj şablonları vasitəsi ilə banklar arasında ünvanlı formatda həyata keçirilir. Əsasən, valyuta mövqelərini qorumaq banklar tərəfindən valyuta svoplarının həyata keçirməsi təcrübəsi mövcuddur.

Açıq mənbələrdə svop əməliyyatlatı barədə, o cümlədən AMB-nin müvəkkil banklarla keçirdiyi valyuta svopları barədə rəsmi statistik göstəricilər mövcud deyil. Sorğular nəticəsində 2015 və 2016-cı illərdə bazar həcminin təqribən 100 milyon ABŞ dolları olması ehtimal olunur. Valyuta məzənnəsinin 2017-ci ilin 2-ci rübündən bəri sabit olması səbəbindən, hal-hazırda hər hansı bir bankın valyuta svopu əməliyyatının keçrilməsinə ehtiyacının olması ehtimalı azdır. Bundan əlavə, ötən dörlərdə bağlanılan əqdlərin müddətinin bir ildən az olması, hazırda dövriyyədə hər hansı açıq svop müqaviləsinin olmadığını deməyə əsas verir.

21 dekabr 2015-ci il tarixində Mərkəzi Bank sərbəst üzən məzənnə sistemini elan etsə də, manatın sərbəst üzməsi açıq bazar prinsipləri baxımından mümkün deyil. Belə ki, ölkədə iqtisadi gəlirlərin əsasən neft sektoru üzərində formalaşdığından, valyuta daxilolmaları da bu sektor üzərində cəmləşir. Həmçinin, valyuta səbətinin əsasını təşkil edən ABŞ dolları üzrə likvidlik demək olar ki, tək mənbə (AMB və dolayısı ilə ARDNF) hesabına baş verir. Bu özünü ilk növbədə valyuta bazarında "fiksə edilmiş" məzənnə dərəcəsi (iqtisadi şokların baş verdiyi dövləri nəzərə almadan) (Şəkil 1), məhdud likvidlik mənbəyi və alət çeşidliliyinin az olmasında göstərir.

Bununla əlaqədar olaraq, təkcə iqtisadi sahələrin deyil, həm də bazar iştirakçıları dairəsinin genişləndirilməsi, o cümlədən maliyyə-bank sisteminin xarici investorlara açılması təcrübəsinin tətbiqi imkanlarının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.



[4] 28 noyabr 2019-cu il tarixindən etibarən Azərbaycan maliyyə bazarlarına nəzarət, o cümlədən maliyyə xidmətləri üzrə lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması vəzifələrini daşıyan Maliyyə Bazarlarına Nəzarət Palatası ləğv edilmiş və onun funksiyaları Respublikasının Mərkəzi Bankına ötürülmüşdür.

Azərbaycanda valyuta əməliyyatları üzrə məhdudiyyətlər və çərçivələr valyuta tənzimlənməsi haqqınada qanunvericiliklə müəyyən edilir. Azərbaycanın valyuta rejimində də iki direktiv mövcuddu: 1. Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatları üzrə direktivlər və 2. xarici ölkələrin rezidentləri və qeyri-rezidentləri tərəfindən xarici valyutanın Azərbaycana gətirilməsi və xarici valyutanın Azərbaycandan çıxarılması barədə direktivlər.

Ölkə daxilində təqdim olunan mal və ya xidmətlər üçün ödəmələr ölkə daxilində və yerli valyutada aparıldığından, bütün xarici valyuta əməliyyatları yerli banklar tərəfindən həyata keçirilir. Bəzi şirkətlər müvafiq lisenziyaya əsasən xarici valyuta ödənişlərini qəbul edə bilərlər. Bu istiqamətdə, banklar qanunun tətbiqinin yerinə yetirilməsində həlledici rol oynayırlar.

Eyni zamanda, Dövlət Gömrük Komitəsi də fiziki əməliyyatlar üzrə tənzimləyici qurum rolunu oynayır. Xarici valyutanın ölkədən xaricə fiziki daşınmasına məhdudiyyət qoyan valyuta qanunlarına nəzarət edir və tətbiq edir.

Ümumiyyətlə, Azərbaycanın valyuta bazarında məlumat şəffaflığı problemi mövcuddur. Mərkəzi Bank yalnız nağd valyuta əməliyyatları, valyuta hərraclarının nəticələri və bankların vəsaitlərinin strukturu hesabat verir. İnvestorlar və tədqiqatçıların Mərkəzi Bankın hərrac həcmləri, banklararası əməliyyat həcmləri və onların tərkib hissələrinin məlumatlarına çıxışı yoxdur. Aylıq valyuta mübadiləsi həcmlərinin, qiymətlərin icrasının, nağd və nağdsız mübadilə əməliyyatlarının bölüşdürülməsinin, habelə forvard əməliyyatları barədə məlumatların mərkəzi verilənlər bazası statistikası mövcud deyil.

Likvidlik konsentrasiyasının bir tərəfdə cəmləşməsi, banklar arası xarici valyuta bazarının inkişafına maneə törədir. Belə ki, bazardakı bütün tələb AMB tərəfindən təmin edilir. Bütün banklar, əsasən, dollar xaricindəki valyuta əməliyyatları üçün xarici banka birbaşa çıxış əldə etməyə çalışırlar, bu səbəbdən USD/AZN cütlüyü üçün valyuta mübadiləsinə olan ehtiyac artır. Əsas səbəb, bankların diversifikasiya edilmiş valyuta portfelinə olan maraqdır, məhz bu, ABŞ Mərkəzi Bankı tərəfindən əlavə bazar riski götürməsinə bərabər hesab edilir.

Qeyd edilənləri nəzə alaraq, bazarların funksionallığını təmin etmək məqsədi ilə, Mərkəzi Bankın valyuta hərracları üzrə məlumat şəffaflığının inkişaf etdirməsinə zərurət duyulur.

Məlumat bazası və ya ona girişin olmaması, valyuta bazarının analiz bölgüsünü ləğv edir. və ya irəli).

Məlumat bazasının olmaması və ya ona çıxışın təmin edilməməsi valyuta bazarını iştirakçı növləri, əməliyyat növü (nağd və ya nağdsız), hesablaşma növü və ödəmə növü (spot və ya forvard) üzrə təhlil etməyə imkan vermir.

**Nəticə**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən törəmə maliyyə aləti hər hansı baza aktivini almaq, satmaq və ya dəyişdirmək hüququnu təsbit edən müqavilədir. Baza aktivi qismində qiymətli kağız, valyuta, faiz dərəcəsi, gəlirlik, törəmə maliyyə aləti, əmtəə, maliyyə indeksi, kredit riski və s. çıxış edə bilər. Törəmə maliyyə alətlərinə fyuçers, opsion və svop aiddir.

Beləliklə, törəmə maliyyə alətləri kapital bazarı qanunvericiliyi çərçivəsində tənzimlənir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, Koreya, Türkiyə və Qazaxstan təcrübələrindən irəli gələrək, Azərbaycanda valyuta əsaslı törəmə maliyyə alətləri bazarının formalaşması şərtlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

- 1-ci addım. Açıq bazar prinsiplərinə söykənən spot valyuta bazarının formalaşdırılması və tənzimlənən üzən valyuta rejiminə tam keçid (əlavə likvidlik mənbələrinin cəlb edilməsi ilə);
- 2-ci addım. Baza aktivləri üzrə istinad qiymətlərinin formalaşması üçün, bazar məlumatlaırnın açıqlanması mexanizminin yaradılması;

- 3-cü addım. Valyuta bazarının tənzimlənməsi bazasının təkmilləşdirilməsi;
- 4-cü addım. Törəmə maliyyə alətləri ilə birjada ticarət və post-ticarət ticarət infrastrukturun formalaşdırılması.

Baza aktivləri üzrə istinad qiymətlərinin formalaşması üçün, qiymətlərin formlaşması şəffaflığının artırılması və məlumat assimmetriyasının qarşısının alınması məqsədi ilə elektron hesabatlılıq mexanizminin yaradılması başlanğıc nöqtə ola bilər.

Bu istiqamətdə AMB-nin Bloomberg terminalı üzərindən valyuta satışı ilə, banklar arası valyuta ticarəti məlumatlarının aqreqasiyası ilə faiz dərəcələrinin müəyyən edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Valyuta bazarının tənzimlənməsi üçün araşdırıla ölkələrin təcrübəsində, valyuta əməliyyatları üzrə prudensial nəzarət mexanizmləri tətbiq edirli ki, bu metadologiyanın Azərbaycanda tətbiqi məqsədyönlü görünür:

a. Ümumi (kompozit) valyuta mövqeləri üzrə limitin tətbiqi;
b. Valyuta əsaslı törəmə maliyyə alətləri üzrə mövqe limitinin tətbiqi;
c. Xarici valyutada olan depozitlər üzrə üçün ehtiyat ələbləri;
d. Xarici valyuta sabitliyi yığımlarının tətbiqi;
e. Xarici valyutalar üzrə likvidliyin tənzimlənməsi.

Valyuta əsaslı törəmə maliyyə alətləri ilə ticarətin aktivləşdirilməsi üçün ilkin şərt – spot valyuta bazarı ilə forvard valyuta bazarları arasında, həmçinin valyuta pul bazarı ilə manat pul bazarları arasında dayanıqlı əlaqənin təmin edilməsidir. Buna nail olmaq üçün, bazarda vasitəçi institutlar (məslən bankların və ya investiya şirkətlərinin) üzərindən bazar iştirakçılarının sayını artırmaq və bu yolla investorlar üçün hecinq aləti yaratmaq mümkündür.

Yekun hədəf olaraq valyuta əsaslı törəmə maliyyə alətlərinin birjada lizinqi mexanizminin yaradılmasıdır. Bakı Fond Birjasında törəmə maliyyə alətləri ilə ticarət qaydaları mövcuddur. Həmçinin, müsahibə zamanı məlum olmuşdur ki, Koreya Fond Birjasının mütəxəssisləri tərəfindən yazılmlış və hazırda istifadə edilən ticarət platforması törəmə maliyyə alətlərinin ticarətinə imkan verir. Lakin, ticarət arxitekturasının önəmli hissəsi olan klirinq-hesablaşma platformasında törəmə maliyyə alətləri üzrə mexanizm tam mövcud deyil.

Bakı Fond Birjasında valyuta üzrə fərq müqavilələrinin ticarəti təcrübəsi mövcuddur. Lakin, CFD bazarının xüsusiyyətlərini nəzərə alaraq, buna valyuta bazarına təsir edəcək fundamental əsas olaraq baxmaq olmaz. Eyni zamanda, platforma üzərindən manat cütlüklərinin təqdim edilməsi, hecinq baxımından əhəmiyyət kəsb edə bilər.

**İsmayılova Samirə Mədət qızı**
*Bakı Biznes Universitetinin magistranti*
samiraismailova0@gmail.com

## KOMMERSİYA BANKLARINDA STRATEJİ PLANLAŞDIRMA VƏ ƏLAQƏLİ RİSKLƏR

**Xülasə.** Ümummilli lider Heydər Əliyenin təşəbbüsü ilə Azərbaycan Respublikasının müstəqil inkişaf yoluna qədəm qoyulandan maliyyə sektorunda önəmli iqtisadi dəyişikliklər baş vermişdir. Bundan irəli gələrək kommersiya bankların idarəetmə və təşkili strategiyasında bu günə qədər əhəmiyyətli dəyişikliklər baş verir. Bir çox kommersiya banklarının mövqelərindəki qeyri-sabitlik, əksər hallarda maliyyə təşkilatlarında effektiv strateji idarəetmənin olmamasının nəticəsidir. Bu vəziyyətin səbəbi kommersiya banklarında vahid strateji idarəetmə tərifi və əhəmiyyətinin olmamasıdır. Bu da, strateji rəhbərliyin demək olar ki olmamasına və ya bununla əlaqəli müəyyən risklərin yaranmasına gətirib çıxara bilər. Apardığım tədqiqatda kommersiya banklarında strateji planlaşdırma yolları və qeyri-effektiv planlaşdırma ilə əlaqəli yarana biləcək risklər qeyd edilmişdir.
**Açar sözlər:** strateji planlaşdırma; kommersiya bankı; sürətli inteqrasiya; bank riskləri; kommersiya bankında strateji idarəetmə.

Azərbaycanda və dünyada bank işi aparmaq üçün əhəmiyyətli dərəcədə strateji dəyişikliklər baş verir. Elm adamları, maliyyə institutlarının effektiv proqnozlaşdırma və idarəetmə imkanlarını genişləndirmək üçün iqtisadiyyatın maliyyə sektorundakı keçmişdə olan və gələcəkdə ola biləcək dəyişiklikləri aktiv şəkildə araşdırırlar. Kommersiya banklarında strateji planlaşdırma, son illərdə bank sektorundakı baş verən böyük dəyişikliklərlə əlaqədar olaraq çox aktual olub. Bunun səbəbi beynəlxalq maliyyə bazarlarının sürətlə inteqrasiyası, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı və müştərilərin bank xidmətlərinin keyfiyyətinə olan tələblərinin artmasıdır.

Əvvəllər sürətlə yeni xidməti təqdim edən bank bazarda lider bank kimi çıxış edirdisə, indi bank bazarındakı rəqabət strategiyalar arasındakı mübarizəyə çevrildi. Bir bankın strategiyasının nə olduğunu düşünsək, bu, hədəfləri və onların prioritetlərini müəyyənləşdirən bir kredit təşkilatının fəaliyyətinin konseptual əsasını təşkil edir. Strategiya gələcək bazarlar, məhsullar, bankın təşkilatı quruluşu ilə bağlı əsas qərarların verilməsi üçün çox önəmlidir və bütün bank idarəetmə sistemi üçün əsas rolunu oynayır. Buna görə strategiya, bankın iş və sosial mühitin dəyişkənliyi nəzərə alınaraq uzun müddət fəaliyyət göstərməsinə istiqamət verən bir proqram olaraq qəbul olunmalıdır. Banklardakı strateji planlaşdırma, bankın qlobal hədəfləri ilə əlaqəlidi, gələcəyə yönəmli və bank fəaliyyətinin nəticələrinə təsir edən xarici faktorlarla əlaqəlidir. Strateji planlaşdırma strateji idarəetmədən kənarda mövcud ola bilməz, çünki hər ikisi strategiya bazasına əsaslanan dinamik idarəetmə qərarların vahididir.

Buna görə deyə bilərik ki, “strateji planlaşdırma bankın korporativ idarəetmə sistemində əsas yer tutur. Bankın bütün plan və proqramları, idarəetmə orqanlarının və struktur bölmələrinin fəaliyyəti strateji planlaşdırma zamanı müəyyən edilmiş prinsiplər və parametrlər nəzərə alınmaqla qurulur ”[10].

Strateji planlaşdırma prosesi Deming-Shewhart PDCA2 idarəetmə dövrünə uyğundur, burada:

**Plan** (planlama) - "Planlaşdırma" bloku;

**Do** (icra et) - "İcra" bloku;

**Check** (yoxla) - "Yoxlama" bloku (müasir yanaşmada - "Monitorinq və nəzarət");

**Act** (xərəkət) - "xərəkət" (tənzimləmə) bloku [9].

Bank işində kifayət qədər effektiv planlaşdırma olmadığı təqdirdə fond indekslərinin dinamikasına, milli valyutanın məzənnəsinə və Mərkəzi Bankının qızıl-valyuta ehtiyatlarının

həcminə təsir göstərən iqtisadi zəiflik faktorları yaranır. İqtisadiyyatda zəifliyin qarşısını almaq üçün Azərbaycan Respublikası hökuməti Azərbaycan Respublikası bank sektorunun inkişafı üçün uzunmüddətli bir strategiya hazırladı, burada “kredit təşkilatlarında korporativ idarəetməyə, o cümlədən korporativ idarəetmənin keyfiyyətinin yaxşılaşdırılmasına böyük diqqət yetirilir , daxili nəzarət rolunu inkişaf etdirmək və artırmaq və korporativ idarəetmə sisteminin şəffaflıq səviyyəsinə nail olmaq, hansı ki kredit təşkilatının fəaliyyəti barədə bütün maraqlı tərəflərə məlumatların vaxtında və dəqiq açıqlanmasını təmin etməlidir." [3].

Azərbaycan Respublikasının bank sektorunun inkişafı strategiyasının əsas məqsədi bank sisteminin sabitliyini və bank sektorunun səmərəliliyini artırmaqdır. Məqsədlərin arasında:

- bank əmanətçilərinin və digər kreditorlarının mənafelərinin qorunmasının gücləndirilməsi;
- bank sektoru tərəfindən əhalinin və təşkilatların vəsaitlərinin toplanması və kredit və investisiyalara transformasiya istiqamətində həyata keçirilən fəaliyyətlərin səmərəliliyinin artırılması;
- Azərbaycan kredit təşkilatlarının rəqabət qabiliyyətinin artırılması;
- kredit təşkilatlarının qeyri-qanuni kommersiya fəaliyyəti və qanunsuz məqsədlər üçün istifadəsinin qarşısının alınması (ilk növbədə terrorçuluğun maliyyələşdirilməsi və cinayət yolu ilə əldə olunan gəlirlərin leqallaşdırılması kimi);
- rəqabət mühitinin inkişafı və kredit təşkilatlarının fəaliyyətinin şəffaflığının təmin edilməsi;
- investorlar, kreditorlar və əmanətçilər tərəfindən Azərbaycan bank sektoruna inamın gücləndirilməsi [3].

Strategiya eyni zamanda bank sektorunun sistemli sabitliyinin təmin edilməsinə, əsasən intensiv inkişaf modelinə keçməyə və kapitalizasiya səviyyəsinin, rəqabət qabiliyyətinin, bank işinin səmərəliliyinin artırılmasına, korporativ idarəetmə və bank risklərinin idarə edilməsi sistemlərinin təkmilləşdirilməsinə yönəlib.

Bununla yanaşı, strateji idarəetmənin rolunu artırma tendensiyasına və müvafiq nəzəri tədqiqatların sayının artmasına baxmayaraq, Azərbaycan praktikasında bank strategiyasının uğurlu inkişafı və həyata keçirilməsi və strateji idarəetmə mexanizmlərinin effektiv tətbiqi təcrübəsi demək olar ki, yoxdur [1].

Son illərdə vəziyyət çox dəyişməyib - Azərbaycan şirkətlərinin yalnız 17% -i (kommersiya bankları daxil olmaqla) 5 il və ya daha çox zaman müddətində idarəetmə strategiyasını nəzərdən keçirməyə yönəlib. Müqayisə üçün ABŞ-da eyni göstərici% 58-dir.

Kommersiya banklarında strateji idarəetmənin aşağı səviyyədə nüfuz etməsinin əsas səbəbi strateji idarəetmənin nə olduğunu və rolunun nə olduğunu anlamamaqda, həmçinin tənzimləyicinin bu məsələdəki ciddi tələblərinin olmamasıdır. Bu da bir çox kommersiya bankının mövcud qeyri-sabit vəziyyətinin əsas səbəblərindən biri hesab edilə bilər [7].

Zəif strateji planlaşdırma səbəbindən bank sektoru aşağıdakı kimi risklərlə qarşılaşır:

- əmanətlərin kütləvi şəkildə geri götürülməsi;
- manatın xarici valyutaya kütləvi şəkildə mübadiləsi;
- girov çatışmazlığı;
- maliyyənin dəyişkənliyi.

Buna görə bank sektorunun dayanıqlığının pozulmasına gətirib çıxaran risklər, bank əməliyyatlarının kredit prosesi və likvidlik idarəçiliyi ilə əlaqəli sahələrindədir. Azərbaycan bankları strateji plan qurarkən və balanslı korporativ strategiyanı həyata keçirərkən yuxarda qeyd olunanları nəzərə almalıdılar.

Bank ictimaiyyətinin bəzi nümayəndələri iqtisadiyyatın gələcəyini bank sektorundakı “strateji hərəkətsizlik” kontekstində proqnozlaşdırırlar: “Əgər zərərli və əməliyyat itkisi olan bankların sayını əlavə etsəniz, məlum olur ki, bankların dörddə üçünün vəziyyəti, yumşaq desək, ürək açan deyil. Bu səbəbdən bank sistemi qısa müddətdə iqtisadiyyatı dibə aparacaq bir batacağa çevrilə bilər ”[5].

Fikrimizcə, bank sektoru üçün hədəf təyinetmə məsələlərində vəzifəsi: işin ümumi miqyasını saxlamaq, insan resurslarını qorumaq, infrastruktur və texnoloji göstəriciləri qorumaq, stresli bazar ssenarilərinə hazır olmaqdır, eyni zamanda yerli bazar rəqabətinə sürətlə inteqrasiya etmək potensialına sahib olmaqdır. Fəaliyyətin prioriteti - kapital adekvatlığı və cari likvidlik səviyyələri ilə təyin olunan cari və gələcək etibarlılıq və maliyyə sabitliyidir.

Proqnozlaşdırma məsələlərində bank sektorunda sərt və artan rəqabət baxımından, dəyişən iqtisadiyyat çərçivəsində resurslar və müştərilər uğrunda mübarizə gedir. İnteqrasiya edilmiş iri şirkətlər və holdinqlər böyük banklarla işləməyi üstün tuturlar, onlar da öz növbəsində onlayn bankçılıq yolu ilə xidmət təkliflərini genişləndirərək özəl müştəri bazarında üstünlük əldə etməyə çalışırlar. Üstünlük əldə etmək üçün əlavə imkanlar inzibati resurs və potensial olaraq blokçeyn texnologiyası istifadəsi ilə təmin olunur.

Onlayn bank xidmətləri bank işi praktikasında geniş yayılıb. Bu xidmətlər təşkilatlara, fərdi sahibkarlara və fiziki şəxslərə banka gəlmədən ödəmə əməliyyatları həyata keçirməyə imkan verir. Bu qarşılıqlı əlaqə forması hər iki tərəf üçün əlverişlidir, çünki onlayn xidmət müştərinin bankla əlaqəsini təmin etmək üçün vaxt və resurs itkisini azaldır. Müştəri istənilən vaxt və mobil əlaqə olduğu nöqtədə bankdan xidmətlərindən yararlana bilər. Bank ofislərin məsuliyyəti əsasən vacib əməliyyatların aparılması, əsas xidmət müqavilələrinin bağlanması, əməliyyatlar reyestrlərinin uzlaşdırılması, fövqəladə halların tənzimlənməsindən ibarət olur.

Bu, hər hansı bir bank üçün kifayət qədər böyük işdir. Hesablaşma və kassa xidmətləri baxımından bank işinin tam "virtuallaşması" və "rəqəmsallaşdırılması" keyfiyyətinin qaçınılmaz pisləşməsi və informasiya təhlükəsizliyinin təmin edilməsi üçün bank xərclərin artması deməkdir. Kiçik və orta sahibkarlıq subyektlərinə və fiziki şəxslərə borc vermə proseslərindəki "rəqəmsallaşma" daha risklidir, çünki bu hallarda əhəmiyyətli risklər yarana bilər. Hesab edilir ki, onlayn qaydada müştəri ilə ünsiyyətin qurulması və analizi (kredit tarixçəsinin, ödəmə qabiliyyətininç dövriyyə məlumatlarının yoxlanılması) demək olaraq mümkünsüzdür. Lakin, rəqəmsallaşmışş bankçılıqda bu cür ünsiyyət artıq mümkündür. Bu cür biznes modellərinin tətbiqində kreditlərin bahalaşması qaçılmazdır. Bank daxili risk siyasətini və analiz xərclərini nəzərə alaraq məhsulların qiymətlərini yüksəldir. Misal olaraq, PAŞA Bankın rəqəmsal kredit və rəqəmsal bankçılığı gətirə bilərik [4].

İnternet bankçılığının payı artacaq. Bu böyümənin hədlərini və vaxtını proqnozlaşdırmaq mümkün deyil, lakin bu cür xidmətlərin göstərilməsi bankların və onların müştərilərinin hesablarına fırıldaqçılar tərəfindən icazəsiz giriş riskinin artması ilə əlaqəli olduğundan, informasiya təhlükəsizliyinin təmin edilməsi xərclərinin artması banklar və kredit təşkilatları üçün qanuni tələblərin sərtləşdirilməsi əhəmiyyətli bir böyüməyə səbəb ola bilər. Bu da, öz növbəsində, müştəri marağının itirilməsinə gətirə bilər. Buna baxmayaraq, rəqamsal xidmətlərin aktuallığı və müştəri üçün olan rahatlığı onların istənilən bazar şəraitində səmərəli fəaliyyət göstərməsinə imkan verəcək.

Proqramlaşdırma məsələlərində, fikrimizcə, kredit təşkilatında strateji planlaşdırma sisteminin əsasını təşkil edən və bankçılıq kontekstində müxtəlif növ proqramların həyata keçirilməsinə imkan yaradan inkişaf etmiş korporativ proqramların və prioritet layihələrin ardıcıl və koordinasiyalı həyata keçirilməsi vacibdir. Loyal proqramlar, bankın xidmət göstərdiyi təşkilatlar işçiləri üçün proqramlar (təşkilatların işçilərə əmək haqqı ödəmə müddətini əhəmiyyətli dərəcədə optimallaşdıra biləcəyi əmək haqqı layihələri; təşkilatların fəaliyyəti ilə əlaqəli hesablaşmalar üçün istifadə olunan korporativ kartlar, həmçinin işçilərinin səyahət və ezamiyyət xərclərinin ödənilməsi; xüsusi güzəştli şərtlərlə həyata keçirilən təşkilatların işçilərinə borc vermək), xidmət sahəsinin genişləndirilməsi ilə bağlı investisiya proqramları, əsas və standartların həyata keçirilməsini təmin edən sosial və xeyriyyə proqramları, korporativ sosial müdafiə məsuliyyəti və s. tipli layihələr kommersiya bankında mövcud olması vacibdir.

Monitorinq və nəzarət məsələlərində, fikrimizcə, strateji planın, o cümlədən proqramların icrasının tərəqqisi və nəticələrinin qiymətləndirilməsi, bankın planın strateji dayanıqlığının qiymətləndirilməsi, strategiyanın prioritetləri, məqsəd və missiyaların yerinə yetirilməsinin mütəmadi nəzarəti mütləqdir. Bu kommersiya bankın strategiyasına nə dərəcədə sadiq olmasının göstəricilərin ölçülməsində köməklik göstərir.

Planların təhlili və tənzimlənməsi, nəzarət tədbirlərinin inkişafı ən azı rübdə bir dəfə həyata keçirilməlidir. Strateji davamlılığın qiymətləndirilməsi xəritəsinə daxil edilmiş göstəricilərin təhlili formatında əsas monitorinq və nəzarət sahələrinə aşağıdakılar daxildir:

1. **İnkişaf dinamikası.** Müştəri fəaliyyət sahələri üzrə (fiziki şəxslərin əmanətləri üzrə; təşkilatların bank hesablarındakı vəsaitləri; hüquqi şəxslərin depozitləri və digər cəlb edilmiş fondları; fiziki şəxslərə verilmiş kreditlər) SNW təhlili formatında müəyyən edilmiş "Strateji mövqenin gücü" göstəriciləri bankın fəaliyyətinin prioritetlərindən və həyata keçirilmiş iş modelindən asılı olaraq digər göstəricilər ən azı bitərəf olmalıdır. Nəticə, aktiv və öhdəliklərin əsas göstəricilərində çox istiqamətli dinamikanın və disbalansın olmaması olacaqdır.

2. **Təsir və səmərəlilik.** Hareketsizləşdirilmiş və əsas olmayan aktivlərin məbləğinin bankın mənfəətinə və kapitalına təsiri izlənilməlidir. Əsas iş sahələrində sektor səviyyəsində tempə uyğun olaraq bankın davamlı təkamül inkişafını təmin etmək üçün bankın qazandığı mənfəətin məbləğinə nəzarət edilməlidir.

3. **Aktiv əməliyyatların likvidliyi və riskləri [8].**

Strateji idarəetməni müəyyənləşdirmək və onun əsas fərqləndirici xüsusiyyətlərini vurğulamaq, bankın uzunmüddətli perspektivdə uğurlu fəaliyyətini təmin edə biləcək işlərin kiçik bir hissəsidir. Eyni dərəcədə vacib, lakin daha çox vaxt aparan bir vəzifə, strateji idarəetmənin həyata keçirilməsindəki əsas səhvlərin aradan qaldırılması və həyata keçirilməsidir.

Zəif strateji idarəetmə planlaşdırılması səbəbindən bank sektoru aşağıdakı kimi risklərlə qarşılaşır:

- kommersiya bankının inkişaf strategiyası ilə strateji idarəetməni müəyyənləşdirmək riski;
- “universal” strategiyalardan istifadə riski;
- strateji idarəetmə məqsədləri üçün gələcəyin modelləşdirmə nəticələrini səhv başa düşmə riski;
- rəqiblərin qiymətləndirməmə riski [2].

**Birinci risk**. Kommersiya bankındakı strateji idarəetmənin onun inkişaf strategiyası ilə bənzərləşməsi . Bu, ciddi bir səhvdir, çünki strateji idarəetmə yalnız onun nəticəsi və bankın strateji idarəetmə modelindəki əsas sənəd olan strategiyanın inkişafı ilə məhdudlaşmır

**İkinci risk**. Bəzi bank rəhbərləri digər bankların strateji idarəetmə nəticələrini (inkişaf strategiyalarını) eyni hədəflərə və ya öz hədəflərinə çatmağın universal bir model kimi istifadə edir. Bəzi dəyişdirərək edərək öz strategiyasına daxil edir. Risk mövcud olmayan "yaxşı" və ya "universal" bank strategiyasının tətbiq edilməsindədir.

**Üçüncü risk**, idarəetmənin bankın gələcəyin dəqiq və təfərrüatlı mənzərəsini modelləşdirməsinə imkan verdiyi barədə yayılmış bir səhv düşüncədir. Strateji idarəetmədə inkişaf etdirilən bankın arzulanan gələcəyinin təsviri daxili vəziyyətinin və xarici mühitdəki mövqeyinin təfərrüatlı təsviri deyil, əksinə bankın gələcək vəziyyəti, bazarda hansı mövqedə yerləşməsi üçün keyfiyyət istəklərinin məcmusudur. Üstəlik, bunların hamısı bütövlükdə bankın gələcəkdə rəqabət mübarizəsində sağ qalıb-qalmayacağını təyin etməlidir.

**Dördüncü risk.** Xarici mühiti təhlil edərkən bank analitikləri yaxın vaxtlarda bank xidmətləri bazarında yeni oyunçuların meydana çıxmasına əhəmiyyət vermədən yalnız digər kommersiya banklarını rəqib hesab edirlər. Onlarla rəqabət aparmaq üçün banklar bu anda uyğun strategiyalar hazırlamalı və həyata keçirməlidirlər, lakin bank xidmətləri bazarının rəqabət mühitinə kifayət qədər geniş baxmadığına görə, hər bank bu sualı özünə vermir.

McKinsey & Company-nin apardığı araşdırmaya görə, 2025-ci ilədək bank gəlirlərinin və mənfəətlərinin 10-40%-dan və 20-60%-dək olan nisbətində təhlükələr yarana bilər, bu da narahatlıq üçün ciddi bir səbəbdir. Xalqın banklara olan inam səviyyəsindəki azalma (2015-ci ildə% 18 azalıb) vəziyyəti daha da artırır. Üç yaş qrupundakı istehlakçıların yarısından çoxu PayPal, Google, Amazon, Walmart, Apple kimi şirkətlərin bank xidmətləri təklif edildiyi təqdirdə istifadə etməyə hazırdır. Beləliklə, kommersiya banklarında strateji idarəetmə və planlaşdırma zəyifliyi onları qeyri-kredit təşkilatları ilə üzləşdirə və müştəri itkisinə səbəb ola bilər [6].

Strateji idarəetmə bankın həm xarici, həm də daxili fəaliyyət şərtlərindəki dəyişikliklərdən asılı olaraq strategiyanın işlənib hazırlanmasından, ardıcıl həyata keçirilməsindən, nəzarətindən və tənzimlənməsindən ibarət olan davamlı bir prosesdir.

Strateji idarəetmə yalnız gələcək bankın mənzərəsini aktiv şəkildə formalaşdırmaqla kifayətlənməməli, həm də xarici və daxili şərtləri nəzərə alaraq fəaliyyətini qarşıya qoyulmuş hədəflərə çatmaq üçün istiqamətləndirməlidir. Yəni bankın inkişafının əsas yolunu müəyyənləşdirmək, həmçinin lazım olduqda, ilk növbədə xarici mühitdə baş verən dəyişikliklərə uyğun olaraq tənzimləmək. Bu dəyişikliklərin müəyyənləşdirilməsi nəticəsində strategiyaya düzəlişlərin edilməsi barədə vaxtında qərar qəbul etmək üçün yalnız xarici mühiti daim təhlil etmək, dəyişikliklərini simulyasiya etmək deyil, həm də makro mühitin və dəyişikliklərin kommersiya bankına olan təsirini öyrənmək lazımdır.

Bəzi bank mütəxəssisləri strateji menecmenti "təşkilatın əsası kimi insan potensialına güvənən, təşkilatın fəaliyyətini müştəri istəklərinə yönəldən, makro mühitin problemlərinə cavab verən və rəqabətçi üstünlüklərə nail olmağa imkan verən fəaliyyətlərdə vaxtında dəyişikliklərə çevik reaksiya verən rəhbərlik," və birlikdə bu təşkilatın uzunmüddətli yaşamasını və hədəflərinə çatmasını mümkün edən bu dəyişiklikləri həyata keçirən rəhbərlik kimi hesab edir" [10].

Bu tərifləri ümumiləşdirərək kommersiya banklarında strateji idarəetmənin aşağıda qeyd olunan əsas xüsusiyyətlərini vurğulaya bilərik:

- strategiyanın inkişafı, onun ardıcıl tətbiqi, nəzarəti və tənzimlənməsi üçün sonsuz və davamlı bir prosesdir;
- kommersiya bankını makro mühit sistemində araşdırır, xarici mühitin təbiətini və təşkilatın içindəki mövqeyini müəyyənləşdirir;
- xarici və daxili mühitdəki dəyişiklikləri və onların banka təsirini, potensial təhlükə və imkanları əvvəlcədən müəyyənləşdirərək araşdırır və modelləşdirir;
- strategiyanı düzəltməklə və ya hətta strateji hədəfləri dəyişdirməklə davam edən dəyişikliklərə operativ və uyğun şəkildə cavab verir;
- strateji hədəflərə və strateji baxışa uyğun olaraq bankın inkişafının əsas istiqamətlərini müəyyənləşdirir.

Çoxtərəfli təfsirə baxmayaraq, yuxarıdakı təriflər mövcud şəraitdə strateji idarəetmənin xüsusiyyətlərini tam açıqlamır. Strateji idarəetmənin xüsusiyyətləri aşağıdakılarla tamamlanmalıdır:

- **dəyişkənlik**, yəni makro mühitin və buna görə də kommersiya banklarının inkişafı üçün alternativ planların hazırlanması;
- **uzunmüddətli** - strateji rəhbərlik 5 il və ya daha çox müddətə kommersiya bankını idarə edir;
- **yaradıcı komponent**. Yaradıcı düşüncə, məsələyə bütöv bir yanaşma və yenilikçi strategiyalar yaratmaq üçün mövcud məlumat və imkanlardan təkrar istifadə etməkdir. Strategiyanın inkişafı tam standartlaşdırıla bilməyən mürəkkəb, yaradıcı bir prosesdir.

Kommersiya banklarında strateji idarəetmə dəyişikliklərin vaxtında gözlənilməsini, onlara uyğunlaşma yollarını, çevrilmələrə nəzarət və bankın inkişafını nəzərdə tutur. Bu, eyni zamanda bankın rəqabətçi üstünlüklərinin davamlı inkişafını, potensial imkanların

müəyyənləşdirilməsini və həyata keçirilməsini, eyni zamanda risklərin bərabərləşdirilməsini, xarici və daxili təhlükələrin və zəifliklərin gözlənilməsini və aradan qaldırılmasını nəzərdə tutur.

Strateji idarəetməni müəyyənləşdirmək və onun əsas fərqləndirici xüsusiyyətlərini vurğulamaq, bankın uzunmüddətli perspektivdə uğurlu fəaliyyətini təmin edə biləcək işlərin kiçik bir hissəsidir. Eyni dərəcədə vacib, lakin daha çox vaxt aparan bir vəzifə, strateji idarəetmənin həyata keçirilməsindəki əsas səhvlərin aradan qaldırılması və həyata keçirilməsidir.

## Ədəbiyyat:


1. Dragomiretskaya O.V. Müasir kommersiya banklarında strateji idarəetmə. СПб., 2009.
2. Garanina E.N. Kommersiya bankının maliyyə sabitliyini artıran amil kimi risk strategiyasının formalaşması // Humanitar və təbiət elmlərinin aktual problemləri. 2014. № 7.
3. http://www.e-qanun.az/framework/5825
4. https://sme.pashabank.az/az/onlayn-biznes-kredit
5. Kovalenko V.L. Uğursuz dialoq // Banklar və iş dünyası. 2016. № 5
6. McKinsey. The fi ght for the customer. McKinsey Global Banking Annual Review 2015 [online] // McKinsey Featured Insights. http://www.mckinsey.com/industries/financial-services/our-insights/the-fightfor-the-customer-mckinsey-global-banking-annualreview-2015.
7. Prosalova V.S., Smolyaninova E.N. Kredit təşkilatının strateji rəhbərliyində strategiyanın rolu // Beynəlxalq Tətbiqi və Fundamental Tədqiqat Jurnalı. 2015. № 12-1.
8. Strategies for Virtual Work. Paul Jackson (Edith Cowan University, Australia) and Jane E. Klobas (Bocconi University, Italy and University of Western Australia, Australia)
9. Tague, Nancy R. (2005) [1995]. "Plan–Do–Study–Act cycle". The quality toolbox (2nd ed.). Milwaukee: ASQ Quality Press.
10. Tysyachnikova N. A., Yudenkov Yu. N. Ticarət banklarında strateji planlaşdırma. Konsepsiya, təşkilat, metodika: dərs vəsaiti. M.: КноРус; ЦИПСиР, 2013.

**Magistrant Zərgərli Cavad Fəttah oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi*
cavadzargarli@gmail.com

## BANK SİSTEMİNDƏ MALİYYƏ MENECMENTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ STRATEJİ İDARƏETMƏNİN İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə banklarda maliyyə menecmentinin formalaşdırılmasında strateji idarəetmənin istiqamətləri araşdırılmış, bank sistemində strateji idarəetmənin mahiyyəti və əsas yönləri öyrənilmişdir. Müasir mühitin dəyişkənliyi yeni biliklərin kütləvi texnologiyalara sürətlə çevrilməsi ilə xarakterizə olunur. Eyni zamanda, bazar, kommersiya və elmi informasiyanın yayılması və əldə edilməsi imkanları prinsipial şəkildə dəyişmiş, bu da iqtisadi, sosial və siyasi böhranların müasir dövrün normasına çevrilməsinə gətirib çıxarmışdır. Bütün bunlar strateji menecment konsepsiyasını əks etdirən təsərrüfat subyektlərinin idarəetmə sistemlərinin qurulmasına yeni yanaşmalarının işlənib hazırlanmasını tələb edir, həmçinin şirkətin dəyəri və sabitliyi olan bu sistemin inteqrasiya funksiyasını həyata keçirən maliyyə idarəetməsinin xüsusi rolunu müəyyən edir. Məqalənin əsas məqsədi müasir şəraitə uyğun olan kredit təşkilatının adaptiv və inteqrasiya olunmuş strateji maliyyə idarəetmə sisteminin konsepsiyasını hazırlamaqdır. Bunun üçün bu sistemin əsas elementlərini, metodik və informasiya infrastrukturlarını, eləcə də bu konsepsiyanın həyata keçirilməsini təmin edən proseslərin təşkilinə əsas yanaşmaları müəyyən etmək lazımdır.

***Açar sözlər:*** *inteqrasiya, maliyyə menecmenti, strateji idarəetmə, alt sistem, bank sektoru.*

## DIRECTIONS OF STRATEGIC MANAGEMENT IN IMPROVING FINANCIAL MANAGEMENT IN THE BANKING SYSTEM

**Summary**

The article examines the directions of strategic management in the formation of financial management in banks, the essence and main aspects of strategic management in the banking system. The variability of the modern environment is characterized by the rapid transformation of new knowledge into mass technologies. At the same time, the opportunities for the dissemination and access to market, commercial and scientific information have changed fundamentally, which has led to economic, social and political crises becoming the norm of the modern era. All this requires the development of new approaches to the construction of management systems of economic entities, reflecting the concept of strategic management, as well as the special role of financial management, which implements the integration function of this system, which is the value and stability of the company. The main purpose of the article is to develop a concept of an adaptive and integrated strategic financial management system of a credit organization in accordance with modern conditions. To do this, it is necessary to identify the main elements of this system, methodological and information infrastructure, as well as the main approaches to the organization of processes that ensure the implementation of this concept.

Keywords: integration, financial management, strategic management, subsystem, banking sector.

## НАПРАВЛЕНИЯ СТРАТЕГИЧЕСКОГО УПРАВЛЕНИЯ ПРИ СОВЕРШЕНСТВОВАНИИ ФИНАНСОВОГО УПРАВЛЕНИЯ В БАНКОВСКОЙ СИСТЕМЕ

**Резюме**

В статье исследуются направления стратегического управления в формировании финансового менеджмента в банках, сущность и основные аспекты стратегического управления в банковской системе. Изменчивость современной среды характеризуется стремительной трансформацией новых знаний в массовые технологии. В то же время возможности для распространения и доступа к рыночной, коммерческой и научной информации коренным образом изменились, что привело к экономическим, социальным и политическим кризисам, которые стали нормой современности. Все это требует разработки новых подходов к построению систем управления хозяйствующими субъектами, отражающих концепцию стратегического управления, а также особой роли финансового менеджмента, реализующего интеграционную функцию этой системы, являющуюся ценностью и стабильностью компании. Основная цель статьи - разработать концепцию адаптивной и интегрированной системы стратегического финансового менеджмента кредитной организации в соответствии с современными условиями. Для этого необходимо определить основные элементы данной системы, методическую и информационную инфраструктуру, а также основные подходы к организации процессов, обеспечивающие реализацию данной концепции.

Ключевые слова: интеграция, финансовый менеджмент, стратегическое управление, подсистема, банковский сектор.

**Giriş**

Milli bankların kredit fəallığının artırılması, onların inkişafında struktur dəyişiklikləri, bir sıra mühüm fəaliyyət istiqamətləri üzrə tərkibin keyfiyyətcə dəyişməsi və tutduqları iqtisadi yer və rəqabət məkanı problemlərinə kifayət qədər diqqət yetirilmir. Bir sıra əlamətlərə görə başqalarından əhəmiyyətli dərəcədə fərqlənən iri sistemli əhəmiyyətli kredit təşkilatının formalaşmasının reallıqları araşdırılmamış problem olaraq qalır. Lakin bu, milli iqtisadiyyatın kredit sisteminin təkamülündə mühüm faktordur. Milli bankların inkişafı məsələlərinin dərin elmi araşdırmalarına, bu sahədə baş verən dəyişikliklərin müasir nəzəri cəhətdən dərk edilməsinə, milli bank sisteminin inkişaf strategiyasının yeni reallıqlara adekvat istiqamətlərinin işlənib hazırlanmasına obyektiv ehtiyac formalaşmışdır.

Bank sektorunun tərkibinin bank sisteminin səmərəliliyinə və dayanıqlılığına təsiri problemləri bütövlükdə mütəxəssislərin böyük diqqətini cəlb edir. Bu məsələyə Məmmədov Z. F, E. Rüstəmov, F. Mürşüdlü öz əsərlərində baxmışlar.

Azərbaycan banklarının əksəriyyətinin aktiv-passivlərinin idarə edilməsi üzrə müvafiq proseslər öz təkmilləşdirilməsini, bu sahədə toplanmış təcrübə isə sistemləşdirmə və qiymətləndirməni tələb edir. Buna görə də seçilmiş tədqiqat mövzusu son dərəcə aktualdır.

Məqalənin əsas məqsədi strateji maliyyə menecmenti sistemi, onun əsas alt sistemləri: planlaşdırma, səmərəliliyin idarə edilməsi, risklərin idarə edilməsi, likvidliyin idarə edilməsidir. Tədqiqat strateji maliyyə idarəetmə sisteminin formalaşdırılmasının metodik, təşkilati və informasiya problemlərindən ibarətdir.

Məqalənin informasiya bazası kimi yerli və xarici ədəbiyyatın materialları, dövri nəşrləri, Azərbaycan Respublikasının qanunvericilik və normativ sənədləri, bundan əlavə, dissertasiya üzərində işləyərkən elmi və iqtisadi ədəbiyyatlardan, qəzetlərdən, jurnallardan, müvafiq nəşrlərdən, habelə müvafiq internet mənbələrindən istifadə edilmişdir.

Əsas hissə

Bankların strateji idarəedilməsinin istiqamətləri

Müasir texnologiyalar iqtisadi agentlər arasındakı qarşılıqlı əlaqələrin xüsusiyyətlərini dəyişdirmişdir. İqtisadi məlumatlar demək olar ki, geniş yayılmış və internet texnologiyaları qarşı tərəflərin yerləşməsindən asılı olmayaraq maliyyə əməliyyatlarına imkan vermişdir. Bu isə iqtisadi əlaqələrin qloballaşmasına və vahid dünya iqtisadi məkanının yaradılmasına gətirib çıxardı.

Lakin bu proseslər bazar rəqabətini daha da artırır və bu səbəbdən iqtisadi qeyri-sabitliyi təhrik edir. Bazarların ən böyük iştirakçıları öz məqsədləri üçün müasir informasiya kanallarından daima "köpüklər sovuraraq" istifadə etdikləri və bazarın səmərəlilik prinsiplərini pozduqları üçün böhranlar getdikcə daha tez-tez ortaya çıxır.

Getdikcə ən böyük dünya dövlətlərinin hökumətləri yeni bir bazar tənzimləmə modeli yaratmağın lazım olduğunu bildirirlər. 2008-ci ilin son maliyyə böhranı G7 liderlərini iqtisadi məsələlər üzrə məsləhətləşmə iclaslarının tərkibini əhəmiyyətli dərəcədə genişləndirməyə məcbur etdi. G20 isə böhranın nəticələrini aradan qaldırmağı bacaran dünya iqtisadiyyatının yeni liderlərini əhatə edir. Bununla birlikdə, böhrandan sonrakı dövr bir çox ziddiyyətlərin həll olunmadığını və ABŞ və digər inkişaf etmiş ölkələrin valyuta müharibələrinin inkişaf etməkdə olan iqtisadiyyatları təhdid etməyə davam etdiyini göstərdi. Beləliklə, dünya iqtisadiyyatının yeni bir modeli yaradılarkən banklar qeyri-sabit, dəyişkən və yüksək riskli bir mühitdə işləmək məcburiyyətində qalacaqlar. Getdikcə fövqəladə mühit adlandırılan mühit (İngilis dilindən fövqəladə - birdən yaranır, Latın emergo - görünür, yaranır).

yaranma, sağlamlıq, həyat, əmlak və ya ətraf mühit üçün ani bir riskin olduğu bir vəziyyətdir. Bu cür vəziyyətlərin idarə olunması üçün proaktiv müəyyənləşdirilməsinə ehtiyac var. Çıxışın bir sistemin fərdi elementlərinə xas olmayan yeni bir keyfiyyət (başqa bir şəkildə "sistem effekti") yaratmaq bacarığı və uyğunlaşma sistemlərinin bir xüsusiyyəti olduğunu vurğulamağa dəyər (Рустамов Э. 2010: с.49).

Yaranan mühit, əsas xüsusiyyətləri uyğunlaşma olan yeni idarəetmə mexanizmlərinin qurulmasını tələb edir. Müasir idarəetmə sistemlərində qərar qəbul etmə mexanizmi hər bir iqtisadi fəaliyyət aktını ən yüksək idarəetmə səviyyəsində koordinasiya etmək üçün ənənəvi bürokratik prosedurlardan əsaslı şəkildə fərqlənməlidir. Müasir ticarət sistemləri getdikcə daha çox canlı orqanizmə bənzəyir.

Bank sektorunda maliyyə menecmentinin formalaşdırılması

Bütün maliyyə idarəetmə prosesləri bir-biri ilə sıx əlaqəlidir, çünki əsas idarəetmə obyektinə - bankın dəyərinə, daha doğrusu gələcəkdə dəyişməsinə təsir göstərir. Ancaq bu idarəetmə funksiyalarının icrası zamanı yaranan təsirlər kredit təşkilatının dəyərinin (bundan sonra - SVA - səhmdarların əlavə dəyəri - səhmdarlara əlavə dəyər) müxtəlif istiqamətlərdə artmasına təsir göstərir. Beləliklə, bankın risklərini məhdudlaşdırmaq ehtiyacı onun maksimum gəlirlilik əldə etməsinə imkan verməyəcək, yeniliklər xərcləri və riskləri artıracaqdır (Layr C. 2013: p.126).

Maliyyə menecmentinin son hədəflərinə - bankın dəyərinin uzunmüddətli böyüməsinə nail olmaq üçün maliyyə idarəetmə sisteminin müxtəlif proseslərinin koordinasiyası və inteqrasiyası üçün mexanizmlər yaratmaq lazımdır. Bu inteqrasiya aşağıdakı səbəblərdən həyata keçirilir:

• Strateji və əməliyyat planlaşdırma proseslərinin birləşdirilməsi;

• Maliyyə idarəetmə proseslərinin bütün iştirakçıları arasında məlumatların toplanmasını və paylanmasını təmin edən SIS və vahid idarəetmə uçotu prosesinin formalaşdırılması;

• Bankın maliyyə quruluşu və aktiv-passiv idarəetməsinin bütün proseslərini və onların qarşılıqlı fəaliyyətini tənzimləyən normativ bazaya əsaslanan maliyyə idarəetməsi üçün vahid təşkilati çərçivənin formalaşdırılması;

• Nəzərdən keçirilmiş bütün proseslərdə istifadə olunan vahid maliyyə ölçmə metodologiyasının formalaşdırılması.

Elm adamları agentlərin təbii meydana gəlmə, özünü təşkilat, rekombinasiya, uyğunlaşma, kollektiv təkamül və istiqamətləndirilmiş seçim kimi xüsusiyyətlərini də ayırırlar.

Müasir bio-, nano-, informasiya texnologiyaları, idrak psixologiyasının nailiyyətlərini özündə cəmləşdirən yeni elm NBIC-də müasir təşkilatların idarəetmə sistemlərinin formalaşmasına digər yanaşmalar hazırda inkişaf etdirilir. Bunlar aşağıdakı tövsiyələrin

verildiyi adaptiv təşkilati strukturların inşasını nəzərdə tutur (https://icmai.in/upload/Students/Syllabus-2008/StudyMaterialFinal/P-12.pdf):

- Qeyri-sabitliyin mənbəyini müəyyənləşdirmək və təcrid olunmuş adaptiv reaksiyalar inkişaf etdirmək;
- Qeyri-sabitlik amillərinin sensorlarını tapmaq;
- Qeyri-sabitliyin iş nəticələrinə təsirini qiymətləndirmək;
- Aradan qaldırılması uyğunlaşma qrupu olmağa kömək edəcək sistemlər, qaydalar və ya digər məhdudiyyətlər tapmaq.

Yuxarıda göstərilən uyğunlaşma tədbirləri aşağıdakı kimi formalaşdırılmışdır.

1. Özünü təşkilat prosesinə başlayın. Təşkilatınızı aşağıdan yuxarıya doğru idarə edin. Bütünlüklə təşkilatın davranışını deyil, işçilərin fərdi seçimlərinə təsir edən qaydalar hazırlayın.

2. Birləşdirin. Artan əlaqələr rekombinasiyanı asanlaşdırıb, işinizi açıq bir sistemə çevirin və artan müxtəlifliyin faydalarını və yeniliyini qiymətləndirin.

3. Qəbul edin və reaksiya verin. Şəbəkələr məlumatları real vaxt rejimində təqdim edir. Sensorlar məlumatların süzülməsinə, hərəkət etməsinə və proqnozlaşdırılmadan tamamilə imtina edilməsinə kömək edir. Dəyişiklikləri qavramaq və dərhal, dəqiq və uyğun cavab vermək üçün lazım olan hər şeylə işinizi təchiz edin.

4. Öyrən və uyğunlaş. Geri bildirim alın, bu təcrübəni öyrənin və "reaksiya dəstinizə" yeni məlumatlar əlavə edin.

5. Səpin, seçin və gücləndirin. Çeşidli seçimləri sınayın və ən yaxşısını inkişaf etdirin. Təcrübə edin, planlaşdırmayın.

6. Sabitləşdirmək. Ətrafdakı dəyişikliklərin səviyyəsi, orada yaşamaq üçün daxili qeyri-sabitliyi tələb edir. Təşkilatınızın sabit agentlərini məhv edin.

Bu qaydalara riayət etmədən, sürətlə dəyişən bir mühitin təsirlərinə cavab nəticəsində ortaya çıxan müasir bir şirkətdə, xüsusən də bir kommersiya bankında qərar qəbuletmə mərkəzsizləşmə və idarəolunmaz hala gələ bilər.

Maliyyə idarəetmə sisteminin alt sistemləri

Maliyyə idarəetmə sistemindəki gərginlik yalnız fərdi alt sistemlərinin hədəflərinin uyğunsuzluğu ilə deyil, həm də ayrı-ayrı subyektlərinin və maraqlı tərəflərinin maraqlarının və kredit təşkilatının hədəflərinin uyğunsuzluğu ilə yaranır.

Agentlik münasibətləri nəzəriyyəsi (başqa sözlə, agentlik münaqişələri), ümumiyyətlə səhmdarların, müştərilərin və şirkət rəhbərliyinin maraqlarının üst-üstə düşməməsinə diqqət çəkir. Bank rəhbərliyi və işçilərinin digər maraqları ola bilər, xüsusən şirkət böyüməsi, satışların artması, şəxsi qazanc və ya şöhrət. Bunu nəzərə alaraq, bazarda yüksək inhisar gücünə sahib olan (qiymətlərə yüksək dərəcədə nəzarət edən) banklar saylarını artırır, yüksək əmək haqqı dərəcələrini təyin edir və xərcləri daha az izləyirlər. Başqa sözlə, bu cür banklar "xərcləmə meyli" kimi tanınan bir davranış növünü izləyir və ingilis iqtisadçısı J.Hiksin "inhisarçının əsas qazancı" adlandırdığı vəziyyətə çatır: "dinc yaşayırlar". Bu vaxt xərcləməyə meyl və optimallaşdırmanı rədd edən digər maliyyə davranış növləri, rəqabətin yüksək olduğu bir bazarda rəqiblərin təzyiqinə tab gətirməyi çətinləşdirir. 21-ci əsrdə maliyyə menecerlərinin "sülh içində yaşaya" biləcəyi ehtimalı azdır.

Müasir maliyyə bazarlarının xüsusiyyətləri və bankların fəaliyyətinin tənzimlənməsi sistemi sayəsində bir maliyyə təşkilatının ümumi hədəfinə çatmasına yalnız daxili subyektləri deyil, xarici agentlər (maraqlı tərəflər və ya maraqlı tərəflər): müştərilər, investisiya cəmiyyəti və tənzimləyicilər də əhəmiyyətli dərəcədə təsir göstərir.

Bankın müştəriləri keyfiyyətli xidmətləri münasib qiymətə almaqda maraqlıdırlar ki, bu da bankın nağd pul axınının optimallaşdırılması vəzifəsi ilə açıq-aşkar ziddiyyət təşkil edir.

Tənzimləyicilər riskləri azaltmağa və bütövlükdə bank sisteminin sabitliyini təmin etməyə çalışırlar ki, bu da kredit təşkilatlarının kommersiya imkanlarını məhdudlaşdırır. Eyni zamanda, bank işindəki yenilikləri əlavə risk mənbəyi kimi qəbul edə və buna görə onları cəsarətdən sala bilərlər.

Kredit təşkilatlarını dərc olunmuş hesabatlar və hər zaman işin real vəziyyətini əks etdirməyən kütləvi informasiya vasitələrinin məlumatları əsasında qiymətləndirən investisiya cəmiyyəti bankın kapitalına və borc götürülmüş maliyyə alətlərinə olan tələbə və onların qiymət xüsusiyyətlərinə mənfi təsir edə bilər.

Yalnız bankın səhmlərinin uzunmüddətli mülkiyyətinə meylli olan səhmdarlar dəyər artımını təmin edən problemləri həll etmək üçün motivasiya ediləcəklər. Bir bankın maliyyə idarəetməsi inkişaf etdirilməsi maraqlı tərəflərin və bir kredit təşkilatının mənafelərinin tarazlığının tənzimlənməsi üçün hüquqi və motivasiya mexanizmləri təklif edən, korporativ idarəetmə nəzəriyyəsində bir çox araşdırmaya həsr olunmuş təsirli bir motivasiya sisteminə əsaslanmalıdır.

Klassik maliyyə menecmenti əvvəllər əsasən əməliyyat faktorlarının idarə edilməsinə yönəlmişdisə, hazırkı şəraitdə strateji amillər kredit təşkilatının dəyərini artırmaq, səmərəliliyi və sabitliyini təmin etmək üçün daha vacibdir. Müasir idarəetmə nəzəriyyəsi təklif edir ki, şirkətin səmərəliliyi yalnız mövcud maliyyə nəticəsi ilə deyil, həm də biznesin inkişaf strategiyasının düzgün seçilməsi nəticəsində mənfəətin artmasını təmin etmək və bazar mövqelərini möhkəmləndirmək qabiliyyəti ilə müəyyən edilir.

Strateji idarəetmənin bütün alt sistemləri bir-biri ilə sıx əlaqəlidir və qarşılıqlı əlaqədədir:

1) İT rəhbərliyi bütün idarəetmə qərar qəbuletmə proseslərini vahid bir məlumat məkanı daxilində (bundan sonra UİS) lazımi məlumatlarla təmin etmək problemini həll edir.

2) Marketinq, yeniliklərin idarəedilməsi və müştərilərlə qarşılıqlı əlaqə, iş proseslərinin yenidən mühəndisləşdirilməsi proseslərinin bankın əsas səriştəsi olan rəhbərlik və kadrların biliklərinə əsaslanır.

3) Bilik idarəetmə proseslərindəki iştirakçıların motivasiyası, kadr idarəetməsi alt sisteminin effektivliyindən asılıdır.

4) Optimal təşkilati struktur effektiv informasiya qarşılıqlı fəaliyyətinə, kadr idarəetməsinin keyfiyyətinə və s. əsaslanır.

Beləliklə, maliyyə idarəetmə alt sistemi bütün digər strateji idarəetmə alt sistemlərinin idarəetmə qərarlarının formalaşdırılması prosesində istifadə ediləcək maliyyə hədəfləri, mövcud mənbələr və qəbul edilmiş məhdudiyyətlər haqqında məlumat verir (Məmmədov F. 2013: s.115).

## Nəticə

Məqalənin nəticəsi olaraq qeyd edə bilərik ki, bank menecmentinin funksiyalarında və onun alt sistemində postindustrial məkanda dəyişikliklərin xarakteri aşkar edilmiş və adaptiv idarəetmə sisteminin formalaşdırılması zərurəti əsaslandırılmışdır. Bankın strateji menecmentinin məzmunu və onun əsas elementlərinin qarşılıqlı əlaqələri əsasında maliyyə idarəetməsi altsisteminin inteqrasiya rolu əsaslandırılmış, onun məqsəd və vəzifələri müəyyənləşdirilmiş, kredit təşkilatında maliyyə idarəçiliyinin məqsədinə müasir şəraitdə nail olunmasına təsir edən amillərin sistemləşdirilməsi həyata keçirilmişdir.

Strateji idarəetmə sistemində maliyyə menecmentinin məqsədləri bunlardır:

- mərkəzləşdirilməmiş qərarların effektivliyini və seçilmiş strategiyaya uyğunluğunu qiymətləndirmək mümkün olan bir göstərici sistem yaratmaq;
- bu məlumatların strateji idarəetmə proseslərinin iştirakçıları arasında operativ şəkildə yayılması;
- ədalətli və təsirli bir motivasiya sisteminin formalaşması üçün şərait yaratmaq;
- strateji alternativlərin və yenilikçi həllərin qiymətləndirilməsi və müqayisəsi;

➢ bankın iş proseslərinin optimallaşdırılması və sinerjisinə nail olma yollarını axtarmaq.

Məqalənin yazılmasında xarici və yerli müəlliflərinin strateji, innovasiya və maliyyə menecmenti, strateji planlaşdırma, idarəetmə proseslərinin sistemli təhlili, aktiv-passivlərin idarə edilməsi üzrə idarəetmə uçotunun aparılmasında təqdim olunan metodoloji yanaşmalardan istifadə olunmuşdur. Tədqiqat işinin yerinə yetirilməsi zamanı iqtisadi təhlil və ümumiləşdirmə, statistik qruplaşma, sistemli yanaşma metodlarından istifadə olunmuşdur.

**Ədəbiyyat:**

1. Abbasov S. (2010), "Maliyyə menecmenti: təşkili və təkmilləşdirilməsi problemləri", Bakı. "Elm və Təhsil", 288 səh.
2. Arthur J., Keown J.D. (2011). Financial Management, Principles and Applications. New Jersey: Published by Prentice Hall. 354 p.
3. Исмаилов Э. (2014). Валюты стран Центральной Евразии в условиях финансовой глобализации. - Стокгольм: CA&CCPress, 132 стр.
4. Керимов А.Э. (2010). Рынок банковских услуг: теория и практика (на примере коммерческих банков Азербайджанской Республики). - Баку: «İqtisadUniversiteti», 400 стр.
5. Кириченко Т. В. (2013). Финансовый менеджмент: Учебник / Т. В. Кириченко. - М.: Издательскоторговая корпорация «Дашков и К°», 484 стр.
6. Layr C. (2013). Strategic Finance and Firm Governance, Status-quo and Perspectives of Strategic Financial Management within the Framework of Corporate Governance, Evidence from Swiss Stock-listed Companies. 510 p.
7. Мамедов З.Ф. (2014). Банковский кризис и реформирование банковского сектора в контексте глобализации. - Баку: Азернешр, 392 стр.
8. Məmmədov F. (2013), "Bank fəaliyyətinin əsasları. (Elmi-nəzəri və praktki məlumat kitabı)", Bakı. "Azərnəşr", 480 səh.
9. Гаджиев Д.Ф. (2013). Денежно-кредитная система и Международный банк Азербайджана. - Москва: Финансы и статистика, 240 стр.
10. Рустамов Э. (2010). Экономическая модернизация Азербайджана: вызовы и решения. Москва: Эконом-Информ, 367 стр.
11. Səbzəliyev S. (2018), "Maliyyə hesabatı", Bakı. "İqtisad Universiteti", 312 səh.
12. Financial management & international finance - https://icmai.in/upload/Stud ents/Syllabus-2008/StudyMaterialFinal/P-12.pdf
13. Lecture notes on financial management- http://www.crectirupati.com/sites/default/files/lecture_notes/finance%20notes.pdf
14. The Basics of Financial Management for Small-community Utilities - https://www.rcac.org/wp-content/uploads/2014/12/RCAP-Financial-Management-Guide.pdf
15. Financial management of business expansion, combination and acquisition - http://www.ddegjust.ac.in/studymaterial/mcom/mc-204.pdf
16. http://www.the-financer.com
17. https://www.stat.gov.az/

**Hüseynov Faiq Tofiq oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
faiq.huseynov@unec.edu.az

# DÖVLƏT BÜDCƏSİNİN GƏLİR VƏ XƏRCLƏRİNİN SƏMƏRƏLİ İDARƏ EDİLMƏSİNDƏ AUDİTİN ROLUNUN YÜKSƏLDİLMƏSİ

## XÜLASƏ

1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında əsas vəzifə müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistem təşkil etməklə bazar iqtisadiyyatına keçmək və qlobal iqtisadiyyata inteqrasiya olunmaq idi. Bu vəzifə uğurla yerinə yetirildi və ötən dövr ərzində Ümumi Daxili Məhsulun davamlı artımı, neft istehsalından əldə olunan gəlirlər və bu gəlirlərin düzgün investisiyası hesabına qeyri-neft sahələrinin və infrastrukturun inkişafı hökumətin öz funksiyalarını yerinə yetirməsində vacib amil olan büdcə gəlirlərinin artımına imkan yaratdı.

Lakin son dövrlərdə neft istehsalının azalması və dünya bazarında neftin qiymətinin aşağı düşməsi Azərbaycanda büdcə gəlirlərində neft amilindən asılılığın azaldılmasını zəruri şərtə çevirdi. Bu da özəl maliyyə vəsaitlərinin məhsuldar investisiyaya çevrilməsi və dövlət büdcəsinin gəlirlərində qeyri-neft sahəsindən vergi gəlirlərinin artırılması sahəsində hökumət qarşısında yeni vəzifələr qoyur. Bu vəzifələr maliyyə sahəsində şəffaflığın artırılmasını tələb edir. Şəffaflığın artırılması bazar iqtisadiyyatında vacib institutlardan biri olan auditin daha da inkişaf etdirilməsini, onun fəaliyyətinin səmərəliliyinin artırılmasını obyektiv zərurətə çevirir.

***Açar sözlər:*** *dövlət büdcəsinin gəlirləri, dövlət büdcəsinin xərcləri, audit, Hesablama Palatası*

Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev öz çıxışında tarixi fikir bildirərək dedi: "Siyasi iqtisadı beyninizdən çıxarın. Keçmişdə yazdığınız kitablarınızın hamısını kənara qoyun. Onlar lazım deyildir. Sonra, istirahət vaxtı hərdən açıb vərəqləyərsiniz ki, belə zəhmətlər çəkmisiniz. O vaxtlar bunlar lazım idi. İndi yeni-yeni əsərlər yazın və ən əsası bizim gəncləri, gənc nəsli müasir bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq, müasir dünya maliyyə sisteminin tələblərinə uyğun olaraq təhsilləndirin"[1].

Bu fikirlər Azərbaycanda yeni dövrün tələblərinin düzgün qiymətləndirilməsinin parlaq ifadəsidir.

1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Respublikasında əsas vəzifə müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistem təşkil etməklə bazar iqtisadiyyatına keçmək və qlobal iqtisadiyyata inteqrasiya olunmaq idi. Lakin müstəqilliyin ilk illəri-1991-1995-ci illər iqtisadi xaos və tənəzzüllə xarakterizə olunurdu.

1996-cı ildən sonrakı dövr makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişafla tanınır [2].

## 1. Azərbaycanda iqtisadi inkişaf, genişlənən maliyyə imkanları

Beynəlxalq şirkətlərlə 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" və Bakı-Tbilisi-Ceyhan neft kəməri ölkəyə milyardlarla dollar birbaşa xarici investisiyaların yatırılmasına, iqtisadiyyatın müxtəlif sahələrinin canlanmasına, 1996-cı ildə ÜDM-də artımın bərpa olunmasına imkan yaratdı. 1995-ci ildən başlayan sabitlik və struktur islahatları ÜDM artımıyla makroiqtisadi və maliyyə sabitliyinə, inflyasiyanın daha yaxşı idarə olunmasına və büdcə kəsirinin azaldılmasına təmin etdi [3].

Ötən illər ərzində Ümumi Daxili Məhsulun davamlı artımı, neft istehsalından əldə olunan gəlirlər və bu gəlirlərin düzgün investisiyası hesabına qeyri-neft sahələrinin və infrastrukturun inkişafı hökumətin öz funksiyalarını yerinə yetirməsində vacib amil olan büdcə gəlirlərinin artımına imkan yaratdı.

Aşağıda 1 saylı cədvəldə 1995-2020-ci illər ərzində Azərbaycanda ümumi daxili məhsul, qeyri-neft ümumi daxili məhsul, əsas kapitala investisiya və əhalinin nominal gəlirləri haqqında məlumatlar əks etdirilmişdir.

**Cədvəl 1. Əsas makroiqtisadi göstəricilər**

| İl, ay | Ümumi daxili məhsul (ÜDM) | Artım tempi | Qeyri-neft ÜDM* | Artım tempi | Əsas kapitala investisiya | Artım tempi | Əhalinin nominal gəlirləri | Artım tempi |
|---|---|---|---|---|---|---|---|---|
| 1995 | 2133.8 | 100 | | | 228.0 | 100.0 | 1314.0 | 100.0 |
| 1996 | 2732.6 | 128.1 | | | 644.5 | 282.7 | 1708.2 | 130.0 |
| 1997 | 3158.2 | 148.0 | | | 910.2 | 399.3 | 2473.2 | 188.2 |
| 1998 | 3440.6 | 161.2 | | | 1102.4 | 483.6 | 2849.2 | 216.8 |
| 1999 | 3775.0 | 176.9 | | | 928.5 | 407.3 | 3227.4 | 245.6 |
| 2000 | 4718.2 | 221.1 | 3055.8 | 100.0 | 967.8 | 424.5 | 3511.4 | 267.2 |
| 2001 | 5315.6 | 249.1 | 3195.9 | 104.6 | 1170.8 | 513.6 | 3876.4 | 295.0 |
| 2002 | 6062.5 | 284.1 | 3693.9 | 120.9 | 2107.0 | 924.3 | 4234.0 | 322.2 |
| 2003 | 7146.5 | 334.9 | 4447.6 | 145.5 | 3786.4 | 1661.0 | 4841.6 | 368.5 |
| 2004 | 8530.2 | 399.8 | 5242.5 | 171.6 | 4922.8 | 2159.5 | 6009.5 | 457.3 |
| 2005 | 12522.5 | 586.9 | 6055.0 | 198.1 | 5769.9 | 2531.1 | 7792.3 | 593.0 |
| 2006 | 18746.2 | 878.5 | 7079.1 | 231.7 | 6234.5 | 2734.9 | 9949.8 | 757.2 |
| 2007 | 28360.5 | 1329.1 | 9533.9 | 312.0 | 7471.2 | 3277.4 | 14305.6 | 1088.7 |
| 2008 | 40137.2 | 1881.0 | 15197.2 | 497.3 | 9944.2 | 4362.2 | 20058.2 | 1526.5 |
| 2009 | 35601.5 | 1668.5 | 15683.2 | 513.2 | 7724.9 | 3388.7 | 22396.1 | 1704.4 |
| 2010 | 42465.0 | 1990.1 | 18442.7 | 603.5 | 9905.7 | 4345.4 | 25605.6 | 1948.7 |
| 2011 | 52082.0 | 2440.8 | 21974.3 | 719.1 | 12799.1 | 5614.6 | 30524.6 | 2323.1 |
| 2012 | 54743.7 | 2565.5 | 26165.4 | 856.3 | 15407.3 | 6758.8 | 34769.5 | 2646.1 |
| 2013 | 58182.0 | 2726.7 | 29982.8 | 981.2 | 17850.8 | 7830.7 | 37562.0 | 2858.6 |
| 2014 | 59014.1 | 2765.7 | 33038.2 | 1081.2 | 17618.6 | 7728.8 | 39472.2 | 3004.0 |
| 2015 | 54380.0 | 2548.5 | 34500.9 | 1129.0 | 15957.0 | 6999.9 | 41744.8 | 3177.0 |
| 2016 | 60425.2 | 2831.8 | 35951.2 | 1176.5 | 14903.4 | 6537.7 | 45395.1 | 3454.8 |
| 2017 | 70337.8 | 3296.4 | 40012.3 | 1309.4 | 15550.8 | 6821.7 | 49187.9 | 3743.4 |
| 2018 | 80092.0 | 3753.5 | 41588.6 | 1361.0 | 17238.2 | 7561.9 | 53103.7 | 4041.4 |
| 2019 | 81896.2 | 3838.0 | 44481.8 | 1455.7 | 17184.3 | 7538.3 | 57035.0 | 4340.6 |
| 2020 | 72432.2 | 3394.5 | 44862.1 | 1468.1 | 17028.1 | 7469.8 | 55726.1 | 4241.0 |

*Cədvəl AR Mərkəzi Bankının və Dövlət Statistika Komitəsinin saytından götürülən rəqəmlər əsasında hazırlanıb.*

Cədvəlin rəqəmlərindən görünür ki, müstəqillik illərində Azərbaycan Respublikasında 1995-ci ildən keçən dövr ərzində ÜDM 34 dəfə, qeyri-neft ÜDM 14.7 dəfə, əsas kapitala investisiya 74.7 dəfə, əhalinin nominal gəlirləri 42.4 dəfə artmışdır. Bu böyük artım rəqəmləri respublikada maliyyə sahəsində də artımla müşayiət olunmuşdur. Əhalinin nominal gəlirlərinin artımı ev təsərrüfatlarının investisiya imkanlarını artırır. Bu gəlirlərin investisiyaya çevrilməsi üçün bazar iqtisadiyyatı institutlarının fəaliyyəti təmin edilməlidir. Burada qiymətli kağızlar bazarının inkişafı ilə yanaşı, əhali öz investisiyalarının idarəolunma taleyi haqqında əminliyə malik olmalıdır. Bu əminliyi təmin edən isə auditor qurumlarıdır. Özəl müəssisələrin auditini həyata keçirən sərbəst auditorlar mülkiyyətçilərə həmin müəssisələrin maliyyə hesabatlarının beynəlxalq maliyyə hesabatları standartlarına uyğun hazırlandığı barədə rəy verməklə əminliyi təmin edir. Həmin rəy maliyyə hesabatlarından istifadə edərək

investisiyalardan gözlənilən gəlirləri müəyyən etmək investisiya cəlbediciliyini artırmağa kömək edir.

Ötən dövrlərdə iqtisadi inkişaf büdcə gəlirləri və xərclərinin də böyük həcmdə artmasına səbəb olmaqla həmin vəsaitlərin səmərəli istifadəsi və ölkənin dayanıqlı inkişafının təmin edilməsinə və maliyyə təhlükəsizliyinin yüksəldilməsinə yönəldilməsi üzərində də düşünməyi tələb edir.

**Cədvəl 2. Büdcə gəlirləri və xərcləri (milyon manatla və faizlə)**

| | 1995 | 2000 | 2005 | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Büdcə gəlirləri, | 317 | 715 | 2055 | 11403 | 17498 | 17506 | 16517 | 22509 | 23168 | 24679 |
| ÜDM-də xüsusi çəkisi | 19.5 | 15.2 | 17.3 | 27.4 | 31.6 | 29.0 | 23.5 | 28.1 | 29.6 | 34.1 |
| Büdcə xərcləri, | 428 | 764 | 2141 | 11766 | 17785 | 17742 | 17588 | 22719 | 24405 | 26417 |
| ÜDM-də xüsusi | 20 | 16 | 18 | 28 | 33 | 30 | 25 | 28 | 30 | 36 |
| Büdcə kəsiri(-) profisiti(+) | -13 | -49 | -85 | -364 | -287 | -241 | -1142 | -308 | -205 | -1744 |
| ÜDM-də xüsusi, çəkisi, | 0.6 | 1.0 | -0.7 | 0.9 | -1.2 | -0.4 | -1.6 | -0.4 | -0.3 | -2.4 |

*Cədvəl AR Mərkəzi Bankının və Dövlət Statistika Komitəsinin saytından götürülən rəqəmlər əsasında hazırlanıb.*

Cədvəlin məlumatlarından görünür ki, büdcə gəlir və xərclərinin ÜDM-də payı davamlı şəkildə artmaqla 2020-ci ildə gəlirlər üzrə 34, xərclər üzrə 36 faizə çatmışdır. Eyni zamanda 1995-ci ildən 2020-ci ilədək keçən dövr ərzində büdcə gəlirləri təxminən 78 dəfə artmışdır.

Növbəti cədvəl 3-ün məlumatlarından görünür ki, büdcə gəlirlərində əsas yeri vergilər və Neft Fondundan ayırmalar təşkil edir.

**Cədvəl 3. Dövlət büdcəsi gəlirlərinin tərkibi**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Dövlət büdcəsi gəlirlər | 19496 | 18401 | 17498 | 17506 | 16517 | 22509 | 23168 | 24679 |
| O cümlədən | | | | | | | | |
| Vergilər | 6979 | 7686 | 7857 | 8170 | 8453 | 9444 | 9784 | 7387 |
| Xarici iqtisadi fəaliyyətdən gəlirlər | 675 | 685 | 935 | 861 | 903 | 1144 | 900 | 3938 |
| Sair gəlirlər | 492 | 693 | 577 | 860 | 1061 | 963 | 1120 | 1154 |
| Neft fondundan transfertlər | 11350 | 9337 | 8130 | 7615 | 6100 | 10959 | 11364 | 12200 |

*Cədvəl Dövlət Statistika Komitəsinin və AR Neft Fondunun saytından götürülən məlumatlar əsasında hazırlanmışdır.*

Cədvəlin məlumatları Neft Fondundan transfertlərin dövlət büdcəsinin gəlirlərində yarıyadək paya malik olduğunu göstərir. Lakin ölkədə neftdən sonrakı dövrə hazırlıq məqsədi ilə dövlət büdcəsinin gəlirlərinin formalaşmasında tutulan yeni siyasətə uyğun olaraq büdcə

qaydasının 18 dekabr 2018-ci ildə təsdiqlənmiş variantına görə, növbəti il üzrə icmal büdcə xərcləri cari ilin xərclərindən maksimum 3% artımla proqnozlaşdırıla bilərdi. Bu qeyri-neft gəlirlərinin artırılmasına hesablanmış addım idi. Lakin 12 noyabr 2019-cu il tarixdə büdcə qaydası dəyişdirildi. Bu dəyişiklik icmal büdcə xərclərinin 3%-lik nominal artımının əvəzinə xərclərin real artımını təklif edir. [4] Artıq icmal büdcə xərclərinin 3%-lik nominal artımı növbəti il üçün hökumətin proqnozlaşdırdığı inflyasiya səviyyəsi nəzərə alınmaqla hesablanır. 2020-ci il üçün dövlət büdcəsi bu qaydaya uyğun hazırlanmışdır.

Büdcə xərclərində artımın məhdudlaşdırılması Neft Fondundan transferlərin azaldılmasına imkan verəcək. Yəni hökumət büdcə xərclərini artırmaq istəyirsə iqtisadiyyatın potensialına uyğun şəkildə vergilərdən daxil olan vəsaitlərin artımına və yığılan vəsaitlərin düzgün, məqsədəuyğun xərclənməsinə nail olmalıdır. Vergi gəlirlərinin artırılması sahəsində vergi inzibatçılığının, o cümlədən vergi auditinin səmərəliliyinin artırılması təmin edilməlidir. Vergilərin yığılmasında vergi auditi mühüm rol oynasa da bu işin elmi əsasda təşkili diqqət mərkəzində olmalıdır. Bu məqsədlə vergi ödəyicilərinin bəyannamələrindəki məlumatlar əsasında vergidən yayınma risklərinin qiymətləndirilməsi modelləri [5] işlənib hazırlanmalı və bu əsasda vergi auditlərinin effektivliyi yüksəldilməlidir.

Bazar iqtisadiyyatı şəraitində hökumətin büdcə vasitəsi ilə sərəncamına keçən vəsaitlərin düzgün xərclənməsi haqqında vergi ödəyicilərində əminlik yaradılması da mühüm rol oynayır. Bu vergi mədəniyyətinin artmasına və vergi intizamının güclənməsinə yardım edir. Bu sahədə də Ali Audit Orqanı kimi Hesablama Palatasının rolu mühümdür.

**2. Müstəqil Azərbaycan Respublikasında auditin formalaşması və inkişafı**

Azərbaycanda müstəqillik illərində həyata keçirilən iqtisadi islahatlar yeni dövrün tələblərinə uyğun maliyyə və idarəetmə-nəzarət institutların yaradılmasından da çox asılı idi. Bu institutlardan ən mühümlərindən biri auditdir.

Auditi 3 hissəyə ayırmaq olar: özəl qurumların auditi, vergi auditi və dövlət maliyyəsi üzərində nəzarəti təmin edən ali audit. Bu vəzifənin icra edilməsi üçün 1994-cü ilin sentyabrında “Auditor xidməti haqqında” qanun qəbul edildi.

Özəl qurumların auditi ölkədə ev təsərrüfatlarının sərəncamında olan maliyyə resurslarının investisiyalara cəlb olunmasına əminlik yaratmaqda böyük rol oynayır. Çünki audit institutu mülkiyyət və idarəetmə funksiyalarının ayrı olduğu şəraitdə maliyyə resurslarının sahiblərinə nəzarəti təmin etmək sahəsində əvəzedilməz yardım göstərir.

Vergi auditi dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında mühüm rol oynayan vergilərin vaxtında və düzgün hesablanıb dövlət büdcəsinə ödənilməsini təmin edir.

Dövlət maliyyəsi üzərində nəzarətin təşkilində Ali Audit Orqanı-Hesablama palatası əsas rol oynayır.

Hesablama Palatası Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsinə uyğun olaraq yaradılmış və 2001-ci il dekabrın 7-dən fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Hesablama Palatası dövlət orqanları, büdcədənkənar dövlət fondları, bələdiyyələr, publik hüquqi şəxslər, dövlətin və (və ya) bələdiyyələrin səhmi (payı) olan hüquqi şəxslər tərəfindən dövlət vəsaitinin və digər dövlət əmlakının istifadə edilməsinə kənar dövlət maliyyə nəzarəti funksiyasını həyata keçirən dövlətin ali audit qurumudur. Ali audit orqanının fəaliyyətini tənzimləyən qanunvericilik aktları, beynəlxalq standartlar ali maliyyə nəzarəti orqanı olan Hesablama Palatasının fəaliyyəti ilə bağlı hesabatlılığı və şəffaflığı ən mühüm amil kimi önə çıxarır. Hesablama Palatası İş planı ilə nəzərdə tutulmuş və başa çatdırılmış nəzarət tədbirləri ilə bağlı məlumatları fəaliyyətinə dair hesabatlarda əks etdirir.

Ali Audit Orqanının hesabatının informativliyini artırmaq və məlumatların müqayisəliliyini təmin etmək üçün cari ilin məlumatları ilə yanaşı əvvəlki illərin də məlumatlarının eyni hesabatda əks etdirilməsi təmin edilməlidir.

Hesabat dövrü ərzində auditin əhatə etdiyi büdcə vəsaitlərinin ümumi məbləği əks etdirilmədiyi üçün büdcə xərclərinin auditlə əhatə olunan payını qiymətləndirmək və

səmərəsiz istifadə edildiyi aşkar olunan məbləğlərin ümümi xərclərdəki payını müəyyənləşdirmək olmur.

Bu da öz növbəsində nöqsanların ümumiləşdirlməsi üzrə təhlil imkanlarını məhdudlaşdırır.

Digər tərəfdən hesabatda əvvəlki dövrlər üzrə müqayisəli məlumatların verilməməsi qiymətləndirmə aparılmasına imkan vermir. Yəni hər hansı xarakterik bir nöqsan üzrə meyl dinamikasını təhlil etmək olmur.

Azərbaycan Respublikasi Hesablama Palatasinin 2020-ci ildə fəaliyyəti haqqinda Hesabatda belə bir fakt verilib: "Auditlə əhatə edilən əsas borcalanların dövlət zəmanəti ilə təmin edilmiş, lakin icra edə bilmədiyi öhdəliklərinin yerinə yetirilməsi üçün həmin borcalanların əvəzinə Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu (Fond) tərəfindən ödənilmiş məbləğlərin Fonda bərpa edilməsi üzrə əsas borcalanlarla qüvvədə olmuş müqavilələr əsasında Maliyyə Nazirliyi tərəfindən müəyyən edilmiş şərtlərə və razılaşdırılmış ödəniş qrafiklərinə əsasən 2019-cu ildə hesablanmış 358,0 milyon manat, 42,3 milyon ABŞ dolları və 11,4 milyon avro məbləğində vaxtı çatmış əsas borc və faizlərdən il ərzində əsas borcalanlardan Fonda cəmi 142,3 milyon manat və 1,1 milyon ABŞ dolları ödənilmiş, 215,7 milyon manat, 41,2 milyon ABŞ dolları və 11,4 milyon avro məbləğində vəsait Təminat Fonduna əsas borcalanlar tərəfindən ödənilməmişdir. Beləliklə də, hesablanmış məbləğin təqribən 68,1%-nin Fonda bərpa olunmadığını qeyd etmək olar." [6] Burada sadəcə fakt qeyd edilir, səbəblər və konkret tədbirlər haqqında məlumat verilmir. Əvvəlki dövrlər üzrə məlumatların verilməməsi vəziyyətin hansı istiqamətdə inkişaf etdiyini qiymətləndirməyə imkan vermir.

Dövlət zəmanəti ilə cəlb edilən kreditlərin vaxtında qaytarılmayan hissələrinin rəqəm xarakterizələri ilə yanaşı keyfiyyət xarakterizələrinin də əks etdirilməsi (qaytarıla bilməmənin konkret səbəbləri və qaytarılma vəd olunan hallarda təqdim olunmuş vaxt qrafiklərinə əməl olunub-olunmaması) vacib şərt olmalıdır.

Digər mühüm məsələ dövlət zəmanəti ilə verilən kreditlərin qaytarılmaması ilə bağlı problemdir. Burada problemə baxış köklü şəkildə yenilənməlidir. Yəni Hesablama Palatasına sonradan nəzarət əvəviznə əvvəldən nəzarət sahəsində səlahiyyət verilməlidir.

Dövlət zəmanəti ilə cəlb edilən kredit layihələrinə audit şəhadətnaməsi verilməsinin tətbiq edilməsi (bu təcrübə bəzi ölkələrdə tətbiq edilir [7]) bu sahədə vəziyyətin şəffaflaşmasına səbəb olardı.

Hesablama Palatası tərəfindən büdcə layihələrinə rəy verilməsi praktikası müsbət hal kimi xərclərin səmərəliliyinin artırılmasına köçmək edir. Lakin konkret investisiya layihələrinin auditlə əhatə olunması xərclərin səmərəli və nəticəli olmasının təmin olunmasına inkan verə bilər.

**Nəticə və təkliflər**

1. Bazar iqtisadiyyatı şəraitində maliyyə vəsaitləri özəl və dövlət maliyyəsinə ayrılır. Bazar iqtisadiyyatının səmərəli fəaliyyəti və maliyyə resurslarından dəyəryaratma zəncirində düzgün istifadə sahəsində şəffaflığın təmin edilməsi demək olar ki, həlledici rol oynayır. Özəl maliyyənin iqtisadiyyata investisiyalara cəlb edilməsi hökumətin də maliyyə imkanlarının genişlənməsinə şərait yaradır. Əvvəldə qeyd edildiyi kimi, burada etibar qazanmış audit institutu mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda bu sahədə sərbəst auditorlar özəl müəssisələrin maliyyə hesabatlarına rəy verməklə şəffaflığın təmin edilməsinə imkan yaradır. Lakin qiymətli kağızlar bazarının tam formalaşmaması şirkətlərin səhm və istiqrazlarının geniş dövriyyəsinə imkan vermir. Bu işlər paralel aparılmalıdır. Yəni qiymətli kağızlar bazarının inkişafı auditin də təkmilləşdirilməsi ilə müşayiət olunmalıdır. Hazırda maliyyə hesabatlarının audit rəyi alınması üçün il başa çatdıqdan sonra müqavilə bağlanır və qısa müddətdə audit rəyinin verilməsi tələb olunur. Lakin, fikrimizcə, hər maliyyə ilinin əvvəlində maliyyə hesabatlarına rəy verəcək auditorla müqavilə bağlanarsa, auditorun obyektiv və düzgün rəy hazırlamaq üçün kifayət qədər vaxtı olar və maliyyə hesabatlarına

verilən rəylər daha keyfiyyətli olmaqla düzgün investisiya qərarlarının qəbul edilməsinə imkan verər.

2. Neft gəlirlərindən asılılığın azaldılması istiqamətində aparılan iqtisadi siyasət qeyri-neft sahəsindən vergi gəlirlərinin artırılmasını və xərclərin həyata keçirilməsinin şəffaflığının təmin edilməsini vacib şərtə çevirmişdir. Bu sahədə vergi auditinin və maliyyə nəzarəti üzrə ali orqan olan Hesablama Palatasının yeni yanaşmalarla fəaliyyəti qoyulan vəzifənin yerinə yetirilməsinə yardımçı ola bilər:

a) Vergi auditinin elmi əsasda təşkili diqqət mərkəzində saxlanmalı, vergi ödəyicilərinin bəyannamələrindəki məlumatlar əsasında vergidən yayınma risklərinin qiymətləndirilməsi modelləri işlənib hazırlanmaqla vergi auditlərinin nəticə effektivliyi yüksəldilməlidir.

b) Ali Audit Orqanının-Hesablama Palatasının hesabatının informativliyini artırmaq və məlumatların müqayisəliliyini təmin etmək üçün cari ilin məlumatları ilə yanaşı əvvəlki illərin də məlumatlarının eyni hesabatda əks etdirilməsi iqtisadi-maliyyə qərarlarının faydalılığını təmin etməyə kömək göstərə bilər. Hesabat dövrü ərzində auditin əhatə etdiyi büdcə vəsaitlərinin ümumi məbləği hesabatda əks etdirilməli və büdcə xərclərinin auditlə əhatə olunan payını qiymətləndirmək mümkün olmalıdır.

c) Dövlət zəmanəti ilə cəlb edilən kredit layihələrinə audit şəhadətnaməsi verilməsinin tətbiq edilməsi bu sahədə vəziyyətin şəffaflaşmasına və büdcə xərclərinin səmərəsiz istifadəsinin azaldılmasına səbəb olardı.

d) Hesablama Palatasının fəaliyyətində preventiv audit tədbirlərinə üstünlük verilməsi. Qanunvericilik səviyyəsində Hesablama Palatasına dövlət vəsaiti hesabına həyata keçirilən investisiya layihələrinin auditinin həyata keçirilməsi sahəsində səlahiyyət verilməsi xərclərin nəticə səmərəliliyini yüksəltməyə və şəffaflığın artırılmasına imkan verə bilər.

**Ədəbiyyat**


1. https://azertag.az/xeber/DOVLAT_IQTISAD_UNIVERSITETININ_70_ILLIK_YUBILEYINA_HASR_OLUNMUS_TANTANALI_MARASIMDA_AZARBAYCAN_PREZIDENTI_HEYDAR_ALIYEVIN_NITQI-962892
2. Administrative Department of the President of the Republic of Azerbaijan, Presidential library, Economy, https://files.preslib.az/projects/azerbaijan/eng/gl4.pdf
3. Asia Development Bank, Country Partnership Strategy: Azerbaijan, 2014–2018, Economic development in Azerbaijan, https://www.adb.org/sites/default/files/linked-documents/cps-aze-2014-2018-sd-02.pdf
4. Büdcə sistemi haqqında Azərbaycan Respublikasinin Qanunu, maddə 11-1, http://www.e-qanun.az/framework/1126
5. Y.Həsənli, Vergi məqsədləri üçün risklərin qiymətləndirilməsinin modelləşdirilməsi, Vergi xəbərləri aylıq elmi-metodiki jurnal, №8, 2008, səhifə 16
6. Azərbaycan Respublikasi Hesablama Palatasinin 2020-ci ildə fəaliyyəti haqqinda H e s a b a t, http://sai.gov.az/files/Hesabat2020_FINAL_son.pdf
7. Good Practices in Supporting Supreme Audit Institutions, OECD, səhifə 68, https://www.oecd.org/dac/effectiveness/Final%20SAI%20Good%20Practice%20Note.pdf

# BÖLMƏ 3
# AZƏRBAYCANDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFI

1. **i.e.d., prof. Şəkərəliyev ArifŞəkərəli oğlu, Həsənov Azər Qorxmaz oğlu**“Heydər Əliyevin quruculuq strategiyasının Azərbaycanın tarixi yüksəlişində rolu” (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
2. **i.e.d., prof. Manafov Qabil Nadir oğlu. “**Azərbaycan Dövlətinin koronavirus (COVİD-19 pandemiyası şəraitində sahibkarlıqla bağlı siyasəti”. (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
3. **i.e.d., prof. MuradovRövşən Şahbaz oğlu, dissertant Məmmədova Ülviyyə Zeynəddin qızı.**“Ulu öndər Heydər Əliyevin inkişaf strategiyası və Azərbaycanda əhalinin səmərəli məşğulluğunun təmin edilməsi”.(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
4. **dos. Şəkərəliyeva Zibeydə Arif qızı. “**Heydər Əliyev Azərbaycanın İqtisadi inkişaf starategiyasının banisidir”.(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
5. **dos. Zeynalov Zakir Hacı oğlu**“Heydər Əliyev neft strategiyasının banisidir”.(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
6. **dos. Mahmudova İlhaməMəhəmmədnəbi qızı. “**Qeyri-neft sektoru inkişafının Heydər Əliyev iqtisadi strategiyasında yeri və rolu”.(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
7. **i.e.n., dos. Xeyirxəbərov İsmayıl Mahmud oğlu.** “Aqrar sahədə sahibkarlığın inkişafının mövcud vəziyyəti və inkişaf perspektivləri”. (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
8. **tex.f.d., dos. Hüseynov Mövlud Ərəstun oğlu.**“Heydər Əliyevin Azərbaycanda üzümçülük və şərabçılığın elmi əsaslarla inkişafında rolu”. (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
9. **müəllim Köçərli Yalçın Ənvər oğlu, müəllim Köçərli Leyla Rais qızı. “**Sosial işin idarə edilməsində sosial siyasət konsepsiyası: problemlər və perspektivlər”.(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
10. **Alıyev Babək Rasim oğlu.** “Qeyri neft sektoru üzrə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və ixrac potensialının artırılması: Azərbaycan Nümunəsi”. (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC- Zaqatala Filialı)
11. **Səfərova Təranə Allahverdi qızı.**“Sahibkarlığın inkişafında Heydər Əliyev siyasətinin əhəmiyyəti”. (Mingəçevir Dövlət Universiteti)
12. **dissertant Namazova Aynur Məhəmməd qız.** “Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişafına və investisiyaların roluna dair”. (Mingəçevir Dövlət Universiteti)
13. **magistr Almazlı Ülkər Daşqın qız.**“Müəssisələrdə satışın həyata keçirilməsidə reklamın rolu”.(Bakı Biznes Universiteti)
14. **magistr Vəlizadə İbrahim Famil oğlu.**“İnsan resurslarının idarə edilməsinə qlobal yanaşma”.(Bakı Biznes Universiteti)
15. **magistr Rahib Rəhimov İlham oğlu.**“İşğaldan azad edilmiş ərazilərdə infrastrukturun inkişafının planlaşdırılması və ictimai iaşə obyektlərinin tətbiqi layihələrinin hazırlanması”. (Bakı Biznes Universiteti)
16. **magistr Əliyeva Aysel Əfqan qızı** “İnsan resurslarının formalaşması və idarə edilməsinin təmzimlənməsi”. (Bakı Biznes Universiteti)
17. **magistr Əhmədli Anaxanım Vahid qızı “**Müəssisələrdə tətbiq olunan marketinq konsepsiyasının əhəmiyyəti” (Bakı Biznes Universiteti)

**Əməkdar elm xadimi, i.e.d.,prof. Arif Şəkərəliyev**
*Az.DİU (UNEC)*
*Emil: arifshakaraliyev1949@mail.ru*
**Həsənov Azər Qorxmaz oğlu**

# HEYDƏR ƏLİYEVİN QURUCULUQ STRATEGİYASININ AZƏRBAYCANIN TARİXİ YÜKSƏLİŞİNDƏ ROLU

**X Ü L A S Ə**

Açar sözlər – iqtisadiyyat, strategiya, qeyri-neft sektoru, yeni texnologiyalar, istehsal sahələrinin diversifikasiyası

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ümumilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində ölkəmizin sərvətləri xalqımızın rifah halının yaxşılaşdırılmasına yönəlmişdir. Ulu öndər Respublikaya rəhbərlik etdiyi dövrdə var quvvəsini və bacarığını Azərbaycanın yüksəlməsinə həsr etmiş, nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. Gündən-günə artan neft gəlirləri , xarici investisiya axını ölkənin iqtisadi mənzərəsini dəyişdi. Hal-hazırda bu siyasət ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

*Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai- siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir.*

**İLHAM ƏLİYEV**
***Azərbaycan Respublikasının Prezidenti***

Tarixi tərəqqinin təcrübəsi göstərir ki, yalnız güclü siyasi lider yetişdirən xalqlar öz milli haqlarına və sərvətlərinə sahib olmaq imkanı qazanırlar. Dünyada müstəqil və təbii sərvətlərlə, eləcə də neftlə zəngin olan ölkələr çoxdur. Lakin suverenliyindən və sərvətlərindən bütün dövlətlər heç də öz xalqlarının rifahı üçün lazımi səviyyədə istifadə edə bilmir. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun bir qərinəlik rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir. Məhz ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin müxtəlif ictimai-siyasi quruluşları əhatə edən hər iki dövründə onun uzaqgörən siyasəti sayəsində həmin sərvətlər xalqımızın rifah halının yaxşılaşmasına yönəldilmişdir. Ulu öndər respublikaya rəhbərlik etdiyi dövrdə var qüvvəsini və bacarığını Azərbaycanın yüksəlişinə həsr etmiş, nəhəng quruculuq işlərinin təşəbbüskarı olmuşdur. (1)

Ümummilli lider Azərbaycana rəhbərliyinin birinci dövründə - 70 illik sovet hakimiyyətinin son iki onilliyində respublikamızı keçmiş SSRİ-də bütün sahələrdə öncül yerlərə çıxarmışdır. 1970-1985-ci illər Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil edir. Bu dövrdə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan kompleks inkişaf planlarının həyata keçirilməsi respublikamızın tarixində misli görünməmiş dəyişikliklər, yüksəlişlə nəticələnmişdir. Dərin zəkalı, təşəbbüskar və yorulmaq nə olduğunu bilməyən rəhbər kimi Heydər Əliyevin səmərəli təşkilatçılığı sayəsində l970-ci ildən Azərbaycan həyatında əsaslı sıçrayış dövrü başlanmışdı.

1970-ci il start ili olmuş, ölkə əməkçiləri illik planı vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirmişdilər. 1970-ci ildə respublikada milli gəlirin artım sürəti əvvəlki ildəkindən dörd dəfədən də yüksək, 1966-1969-cu illərdəki göstəricilərdən, təqribən, iki dəfə artıq olmuşdu. Heydər Əliyevin böyük təşkilatçılığı və rəhbərliyi altında, 1971–1975-ci illərdə xalq təsərrüfatının bütün sahələrində əməyin səmərəli təşkili, 1976–1980-ci illərdə planların

vaxtından əvvəl yerinə yetirilməsi üçün möhkəm baza yaradılmışdı. 1978-ci ildə ümumi məhsul istehsalı 1980-ci ilə nəzərdə tutulan səviyyəni ötmüşdü. Bu onun xalqına, Vətəninə sevgisindən qaynaqlanan məqsədyönlü, yorulmaz fəaliyyətinin nəticəsi idi.O zaman doqquzuncu və onuncu beşilliklər ərzində 1945-ci ildən 1970-ci ilə qədər dövrdəkinə nisbətən daha çox məhsul istehsal edilmişdi. Müharibədən sonrakı dövrdə ilk dəfə olaraq, doqquzuncu və onuncu beşilliklər üçün xalq təsərrüfatının inkişaf planları vaxtından əvvəl yerinə yetirilmişdi. Bunun nəticəsində əvvəllər bütün əsas göstəricilər üzrə ümumittifaq göstəricilərindən geri qalan Azərbaycan tezliklə keçmiş ittifaqın ən inkişaf etmiş respublikalarından birinə çevrilmişdi.

Ulu öndər sovet dövründə respublikaya 14 illik başçılığı zamanı və Moskvada SSRİ-nin ali rəhbərliyində çalışdığı sonrakı 5 ildə öz Vətənində sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirdiyi möhtəşəm tədbirlərlə və uzaqgörən siyasəti ilə Azərbaycanı yaxınlaşmaqda olan dövlət müstəqilliyi erası üçün hazırlamışdır. 1969–1982-ci illərin zəfər irsi dövlət müstəqilliyinin bərpasından sonrakı quruculuq üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynamışdır.

Ümummilli lider Heydər Əliyevin düşmən qüvvələrin hiylə və fitnəkarlığı ilə istefa verməyə məcbur olmasından dərhal sonra Azərbaycanın başının üstünü qara buludlar almışdır. Sonrakı illərdə SSRİ-nin sürətli süqutu və Ermənistanın Azərbaycana təcavüzü, eyni zamanda naşı və məsuliyyətsiz siyasətbazların hakimiyyət uğrunda mübarizənin kəskinliyi nəticəsində ölkədə yaranmış vəziyyət qazanılmış dövlət müstəqilliyini ilk addımlarında itirilmək təhlükəsi ilə üzləşdirmişdi.

1988–1993-cü illərdə cəbhədəki məğlubiyyətlər, Azərbaycanın ictimai-siyasi həyatında çaxnaşmalar, anarxiya, xaos, vətəndaş müharibəsi və s. ölkədə gərgin vəziyyət yaratmışdı. Belə bir təhlükəli məqamda xalq özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdi. Xalq tarixi fəlakət anında öz qüdrətli və yurdsevər oğlunu yenidən hakimiyyətə gətirməkdən başqa yol görməmişdi. Xalqın təkidli müraciətini böyük həssaslıq və sevgi ilə cavablandıran Heydər Əliyev isə o böhranlı günlərdə demişdi: “Xalq mənə ümid bəsləyir, mən də bu ümidi doğrultmaq üçün ömrümün qalan hissəsini xalqıma bağışlayıram və həyatımı xalqıma qurban verməyə hazıram”.

Ulu öndərin ikinci dəfə hakimiyyətə qayıdışı müstəqil Azərbaycan iqtisadiyyatına, elminə, təhsilinə, səhiyyəsinə və mədəniyyətinə də yeni nəfəs gətirdi. Demək olar ki, cəmiyyətin bütün sferalarında inqilabi dəyişikliklər baş verdi. Təhsil və elm ocaqları Heydər Əliyevin qayğısı sayəsində öz əvvəlki şöhrətini bərpa etdi. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində vətəndaş müharibəsi dayandırıldı, Milli Ordumuzun döyüş qüdrətinin artırılması nəticəsində torpaqlarımızın işğalına son qoyuldu və atəşkəs əldə olundu. Qısa bir zamanda ulu öndərin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş təmin edildi. Siyasi aləmdə dövlətimizin beynəlxalq nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı. Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ilin noyabrında müstəqil respublikamızın ilk konstitusiyası qəbul olundu, parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edildi, hüquqi və sivil dövlət quruculuğu prosesi başlandı. İqtisadi islahatların həyata keçirilməsi geniş vüsət aldı.Bütün bunlar məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində mümkün oldu. Bu dahi şəxsiyyət tükənməz enerjisini nəinki öz xalqının, dövlətinin inkişafına, bütövlükdə dünya xalqlarının iqtisadi, mədəni səviyyəsinin yüksəlməsinə, onların arasında mehriban münasibətlərin dərin kök salmasına sərf edirdi.

Məhz Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən tarixi İpək Yolu dünyamızın Şərqi ilə Qərbini birləşdirdi və bütün dünya dövlətlərinin inkişafına öz mühüm töhfəsini verdi. 1994-cü il sentyabrın 20-də imzalanan “Əsrin müqaviləsi” ilə müstəqil Azərbaycanın yeni neft strategiyası həyata keçirilməyə başlandı və ölkə iqtisadiyyatına yatırılan investisiyanın həcmi ilbəil artdı. Keçmiş sovet respublikaları arasında Azərbaycan ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə böyük miqyaslı saziş imzaladı və Xəzər dənizində

beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da Prezident Heydər Əliyev o dövrdə növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü. Avropa və Asiya qitəsinin arasında yerləşən Azərbaycan tarixən qərblə şərq, cənubla şimal arasında "körpü" funksiyası daşıyıb. Tarixi İpək Yolunun bərpasına həsr edilən və Bakıda böyük təntənə ilə keçirilən beynəlxalq konfrans respublikamızın yenidən iki qitəni birləşdirən qovşağa çevrilməkdə olduğunu nümayiş etdirdi. İpək Yolunun üstündə yerləşən 33 ölkənin, 8 beynəlxalq təşkilatın nümayəndələri ölkəmizin paytaxtına toplaşmaqla Azərbaycanın beynəlxalq nüfuzunu bütün dünyada bir daha təsdiq etdilər. 13 aprel 1999-cu ildə Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipinə uyğun olaraq ümummilli lider Heydər Əliyev Azərbaycanda və Qafqaz bölgəsində sabitliyin bərqərar edilməsi, dostluq, qarşılıqlı anlaşma və mehriban qonşuluq münasibətlərinin bərpa olunması, bütün dünyada sülhün çarçısı kimi Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görüldü. Bütün bunlar bu gün Azərbaycan xalqının dünyada sülhsevər bir xalq kimi tanınmasına səbəb olmuş, respublikamızın müstəqilliyinin qorunub saxlanmasına, dinc quruculuq işlərinin aparılmasına, iqtisadiyyatımızın möhkəmləndirilməsinə tarixi bir imkan yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və dünyanın nəhəng şirkətləri ilə birgə imzalanan "Əsrin müqaviləsi" yeni neft strategiyamızın şanlı səhifələrini açdı. Məhz bu müqavilə Azərabaycan iqtisadiyyatının inkişafının təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsi və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi, xarici investisiyanın ölkəmizə axınını sürətləndirdi və Azərbaycanda yeni neft-qaz müqavilələrinin bağlanmasına güclü təkan verdi. (2)

Həmin dövrdə Amerika Birləşmiş Ştatlarının Prezidenti olmuş Corc Buş Heydər Əliyevə ünvanlandığı məktubda yazırdı: "Amerika Birləşmiş Ştatları Sizinlə sıx işləyərək, qlobal enerji təhlükəsizliyini təmin etməyə və Azərbaycan xalqı üçün daha firavan, dinc gələcək qurmağa yardım etməyə hazırdır". Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsinin ölkəmizdə istehsal edilən neftin dünya bazarlarına çıxarılmasında roluəvəzsizdir.
Heydər Əliyev kəmərin təməlinin qoyulması mərasimindəki nitqində demişdir: "Bakı-Tbilisi - Ceyhan çox böyük iqtisadi xarakter daşıyır. Ancaq təkcə iqtisadi deyil, hesab edirik ki, siyasi xarakter daşıyır. Bu layihə və onun həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər". Respublikamızda istehsal edilən neft-qaz xalqımızın güzəranının yaxşılaşmasında, onun ictimaisiyasi həyatında böyük rol oynayır və hələ uzun illər də oynayacaqdır. (3)

1993-cü ilin ikinci yarısından etibarən ümummilli liderimiz Heydər Əliyev tərəfindən aparılan məqsədyönlü daxili və xarici siyasət nəticəsində 1995-ci ildə Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi, sosial-iqtisadi problemlərin həlli, o cümlədən əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində görülən işlər ön plana çəkildi. Ardıcıl olaraq aparılan islahatlar qısa müddət ərzində öz bəhrəsini verməyə başladı və iqtisadiyyatın ayrı-ayrı sahələrində ciddi irəliləyiş əldə olundu. Görülən məqsədyönlü və uzaq perspektivlərə tuşlanmış tədbirlər nəticəsində geriləmənin qarşısı birdəfəlik alındı. Alfred Nobelin XX əsrin əvvəllərində "burada neft, qan və siyasət çox sıx şəkildə bir-birinə qarışıb", - deyə xarakterizə etdiyi Azərbaycan artıq XX əsrin sonunda xalqımızın böyük oğlu Heydər Əliyevin gərgin əməyi, məntiqi siyasi gedişləri və inkişaf strategiyası nəticəsində qan-qadadan uzaq, sabitliyin və əmin-amanlığın hökm sürdüyü bir ölkəyə çevrilirdi. Gündən-günə artan neft gəlirləri, xarici investisiya axını ölkənin iqtisadi mənzərəsini dəyişdi, Azərbaycanı regionun lider dövlətinə çevirdi. Bu siyasi kursun ardıcıl olaraq həyata keçirilməsi və daha da inkişaf etdirilməsi möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Regionda qlobal enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan hazırda bir sıra dünya və Avropa ölkələrinin "mavi yanacaq"la təminatında mühüm rol oynayır.

Məlum olduğu kimi, “Şahdəniz” yatağı ölkəmizi dünyanın potensial qaz ixracatçılarından birinə çevirmişdir. Qeyd etmək lazımdır ki, “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsinin ölkəmiz üçün əhəmiyyəti olduqca böyükdür. Belə ki, sözügedən mərhələ çərçivəsində hasil edilən daha böyük miqdarda “mavi yanacaq” Azərbaycanın ixrac imkanlarını genişləndirməklə yanaşı, “Şahdəniz” qazının alıcılarının sayının da artmasına səbəb olacaq. Bu da ölkəmizin regionda, eləcə də dünyada strateji tərəfdaş kimi mövqeyini bir qədər də möhkəmləndirəcək. Ən başlıcası isə “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi Azərbaycan iqtisadiyyatına milyardlarla dollar birbaşa investisiyanın qoyulmasına gətirib çıxaracaqdır.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə TANAP layihəsinin reallaşması çox mühüm tarixi hadisədir. Bu layihənin ölkəmizin iqtisadi qüdrətinin və dünyadakı siyasi nüfuzunun artmasında önəmli rolu vardır. Möhtərəm Prezidentimiz İlham Əliyev layihənin tarixi rolundan danışarkən demişdir: “TANAP layihəsi bizə imkan verəcəkdir ki, Azərbaycan zəngin qaz resurslarını dünya bazarlarına böyük həcmdə nəql etsin. Hesab edirəm ki, TANAP layihəsi son illər ərzində nəinki ölkəmizdə, həm də regionda, Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı olan məsələlər arasında ən böyük addımdır. TANAP layihəsinin təşəbbüskarı da Azərbaycan olmuşdur. Əminəm ki, TANAP layihəsini Azərbaycan öz tərəfdaşları ilə vaxtında icra edəcək və beləliklə, Avropanın enerji xəritəsi böyük dərəcədə dəyişdiriləcəkdir”.

Qeyd etmək lazımdır ki, Azərbaycan hazırda nəinki özünün, eləcə də dünyanın enerji təhlükəsizliyi məsələlərinə öz layiqli töhfəsini verir. Dünya ölkələri, xüsusən də Qərb enerji təhlükəsizliyi kimi ciddi problemin həllində Azərbaycanla daha sıx əməkdaşlıq qurmaqda marağını açıq şəkildə ortaya qoyub. İndi söhbət məhz Azərbaycanın fəal iştirakı ilə Xəzər-Qara dəniz-Aralıq-Baltik dənizləri və Avropa İttifaqı regionunda enerji əməkdaşlığının geniş formatı haqqında gedir. Təbii ki, neft-qaz amilinin ölkəmizin iqtisadi və siyasi həyatında strateji əhəmiyyəti və xüsusi yeri vardır.

Lakin Azərbaycan rəhbərliyi çalışır ki, ölkə iqtisadiyyatı neft amilindən asılı olmasın. Buna görə də qeyri-neft sektorunun inkişafı istiqamətində ciddi addımlar atılır. Hazırda qlobal iqtisadi inkişafın gələcəyini müəyyənləşdirən texnologiyaların mənimsənilməsi dünyanın aparıcı dövlətlərinin diqqət mərkəzindədir. Təsadüfi deyil ki, artıq dövlətlərin iqtisadi üstünlüyü məhz yeni texnologiyalara yiyələnməyə, onları mənimsəmə gücünə əsaslanır. Bir sözlə, iqtisadi qüdrəti müəyyən edən meyarların, qazanılan makro və mikro iqtisadi göstəricilərin önündə bu gün məhz həmin ölkələrdə informasiya-kommunikasiya texnologiyalarının tutduğu yer və onun inkişafı dayanır. Texnoloji proseslərin, innovasiyaların insanlara xidmət etdiyi, korrupsiyaya qarşı mübarizə, şəffaflıq, yenilik baxımından müasir dünyamızın əsas tələbinə çevrildiyi belə bir vaxtda ölkəmiz də qlobal çağırışlardan kənarda qalmır. Ölkəmizdə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun inkişafına xüsusi önəm verilir. Bu işdə iqtisadi islahatların, regionların sosial-iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi müstəsna rol oynayır. Məhz bunların sayəsində regionlarda sahibkarlıq inkişaf edir, yeni iş yerləri yaradılır. (4)

Son illərdə Azərbaycanda 2 milyonadək yeni iş yeri yaradılmışdır. Onlardan 1,5 milyonu daimi iş yeridir. İşsizliklə bağlı aparılan tədbirlər nəticəsində bu göstərici 5 faizdən aşağı enmiş, yoxsulluq isə 5 faiz səviyyəsindədir. Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, aparılan islahatlar və əldə olunan iqtisadi artım, ilk növbədə, Azərbaycan vətəndaşlarının maddi rifah halının yüksəldilməsinə yönəldilmişdir.

Ölkəmizdə işsizlik probleminin həlli istiqamətində qazanılmış nailiyyətlərin miqyası son illərdə nəzərə çarpacaq dərəcədə genişlənmiş, ümumi iqtisadi inkişaf bu məsələnin çözümünə böyük töhfələr vermişdir. Yoxsulluğun azaldılması iqtisadiyyatın uğurlu diversifikasiyası, enerji gəlirlərindən səmərəli istifadə olunması, sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılması, regionların inkişafına xidmət edən dövlət proqramlarının uğurla reallaşdırılması və bu qəbildən olan digər addımlar sayəsində mümkün olmuşdur.

Azərbaycan iqtisadiyyatı müasir dövrdə şaxələndirmə, başqa sözlə, diversifikasiyalaşdırılma dövrünü yaşayır. Diversifikasiya sözünün müasir forması ingilis dilində işlədilən "diversification" termininə əsaslanır və əsasən məhsul çeşidinin genişləndirilməsi kimi başa düşülür. Bununla yanaşı, diversifikasiya anlayışı milli iqtisadiyyatın inkişaf xüsusiyyətini və istiqamətlərini xarakterizə etməklə, şirkət və birliklərin fəaliyyətlərinə görə qruplaşdırılmasında vacib elementlərdən biri kimi özünü göstərir. Müasir şəraitdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca istiqamətlərindən biri ayrı-ayrı istehsal sahələrinin diversifikasiyasıdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər"ə dair Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il Sərəncamında ölkənin sosoial-iqtisadi və mədəni həyatında sabit, təhlükəsiz və müasir həyat səviyyəsinin təmin edilməsində müstəsna rol oynayacaq. Bundan əlavə işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-loqistik dəhlizlərinin imkanlarından faydalanmaq ölkəmizin inkişafına böyük təkan verəcəkdir.(5)

Ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və innovasiyalaşdırılmasında iki mühüm inkişaf istiqaməti milli istehsalçıların məhsullarına olan tələbatın daxili bazarda ciddi artırılmasının təmin olunması və xarici bazarların əldə olunması mühüm prioritet kimi qəbul edilməlidir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bununla bağlı demişdir: "Biz bu gün inamla deyə bilərik ki, Azərbaycan öz iqtisadi potensialını şaxələndirə bilib. Hazırda qeyri-neft sektorumuz iqtisadiyyatımızın təxminən 65 faizini təmin edir. İxracatımızın böyük hissəsi hələ ki, neft və qazla bağlıdır. Bu da yəqin ki, indiki dövr üçün təbiidir".

Bu baxımdan ölkənin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsində əsas element kimi sənayenin, kənd təsərrüfatının, turizmin, İKT-nin və digər istehsal sahələrinin kompleks və sürətli inkişafı, ölkə iqtisadiyyatının müxtəlif sektorlarının potensialından səmərəli istifadə olunması, yüksək standartlara cavab verən milli məhsulların və malların istehsal şəbəkəsinin genişləndirilməsi, ixracyönümlü malların çeşidinin artırılması və qeyri-neft ixracının coğrafiyasının şaxələndirilməsi, yeni xarici əmtəə bazarlarına çıxışın təmin olunması vacib şərtlərdəndir.

Hazırda respublikamız dünya birliyi və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən dinamik inkişaf edən iqtisadiyyata və mühüm geostrateji mövqeyə malik olan, qlobal enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayan bir dövlət kimi tanınır. Artıq Azərbaycanda qeyri-neft sektorunda iri həcmli layihələrin icrasına başlanılıb və ölkənin iqtisadi inkişafının neftdən asılılığının azaldılması prosesi müşahidə olunur. İqtisadiyyatın diversifikasiyalaşdırılmasının, ÜDM-də özəl sektorun və xidmət sahəsinin payının artırılmasının, sənaye sahələrində, o cümlədən neft-qaz maşınqayırması, neft-kimya, metallurgiya, cihazqayırma, tikinti materialları istehsalı, aqrar sektor və kənd təsərrüfatı məhsulları istehsalı sahələrində inkişafın sürətləndirilməsi, yeni iqtisadiyyat sahələrinin – İKT, turizm və kosmik sənayesinin rolunun gücləndirilməsi, xarici ticarət dövriyyəsi həcminin artırılması prosesi davam edir.

Neft sektorunun sıçrayışlı inkişafı fonunda qeyri-neft sektorunun kölgədə qalması, ümumi iqtisadi inkişaf tempinin əsasən neft sektorundan asılılığının yumşaldılması və iqtisadiyyatın dayanıqlı strukturunun təmin olunması üçün qeyri-neft sektoru üzrə inkişaf strategiyasının hazırlanmasını və həyata keçirilməsini zəruri edirdi. Son illərdə bu istiqamətdə həyata keçirilən layihələr və əldə olunan nəticələr həqiqətən fərəh doğurur. Heç şübhəsiz, ölkədə yaradılan sənaye parkları, aqroparklar, biznes fəaliyyətinin təşviqi və stimullaşdırılması ilə əlaqədar görülən işlər bu sektorun inkişafını daha da sürətləndirəcək.

2020-ci ildə ölkədə adambaşına düşən qeyri-neft ixracının həcminin min dollara çatdirilması nəzərdə tutulurdu. Lakin təəsüflə qeyd etməliyik ki, hal-hazırda bütün dunyanı bürüyən pandemiya – COVİD 19 virusu dünyada və ölkəmizdə istehsalın inkişafına mənfi

təsirini göstərib. Yəqin ki, ölkədə pandemiyaya son qoyulduqdan sonra həyat öz axarına düşəcək, ölkəmiz tərəqqi və inkişaf yolunu davam etdirəcək.

Bu məqsədə çatmaq üçün düşünülmüş kompleks tədbirlər həyata keçirilməkdədir. Müasir dövrdə Azərbaycanda dövlətin özəl sektora, qeyri-neft sahəsinə, həmçinin bank sektoruna sistemli dövlət dəstəyi mexanizmləri ilə yanaşması, nisbətən dayanıqlı iqtisadi siyasət formalaşdırlması bu qənaətə gəlməyə imkan verir ki, növbəti illərdə müxtəlif real iqtisadi sektorların ixrac potensialının artırılması yollarının şaxələndirilməsi daha da sürətlənəcək.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilən xarici və daxili siyasət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə də bu siyasətin davamı sayəsində hərtərəfli inkişaf sürətini daha da artıracaq, həm regional, həm də qlobal səviyyədə öz mövqelərini daha da möhkəmləndirəcək.

**ƏDƏBİYYAT**


1. prof. Arif Şəkərəliyev "Ümumilli Lider Heydər Əliyev: amalı yaratmaq, məkanı qurmaq, məqsədi xalqına xidmət etmək olan Ulu öndər", Bakı, 2007, səh.512
2. prof. Arif Şəkərəliyev- "Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər", Bakı, 2009, səh.416
3. prof. Arif Şəkərəliyev -"Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafı təntənəsi", Bakı 2011, səh. 544
4. prof. Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev – "Azərbaycan iqtisadiyyatı reallıqlar və perspektivlər", Bakı, 2016, səh. 532
5. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 02.02 2021-ci il Azərbaycan Respublikası Prezidentinin Sərəncamları. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi.

**i.e.d., prof. Qabil Nadir oğlu Manafov**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*E-mail ünvanı: g.manafov@unec.edu.az*

# AZƏRBAYCAN DÖVLƏTİNİN KORONAVİRUS (COVID-19) PANDEMİYASI ŞƏRAİTİNDƏ SAHİBKARLIQLA BAĞLI SİYASƏTİ

**Xülasə**

COVID-19 qlobal pandemiyası dünya ölkələrinin, o cümlədən Azərbaycanın iqtisadiyyatına çox ciddi təsir göstərmiş, onun həcminin və səmərəliliyini xeyli aşağı salmışdır.

Belə bir vəziyyət bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da bərpa və uzunmüddətli davamlılıq üçün yarana biləcək problemləri aradan qaldırmaq məqsədilə biznes mühiti, sahibkarlıq və rəqabətlə əlaqəli sistemli tədbirlərin, o cümlədən struktur islahatların qətiyyətlə davam etdirilməsini xüsusilə aktuallaşdırır. Bu baxımdan məqalədə bir sıra xarici ölkələrdə pandemiya ilə bağlı sahibkarlığa dəstək təcrübəsi nəzərdən keçirilir, ölkəmizdə koronavirus pandemiyası şəraitində əsası Ümummilli lider Heydər Əliyev tərəfindən işlənib-hazırlanmış və Prezident İlham Əliyev tərəfindən yaradıcı şəkildə həyata keçirilən sahibkarlıq siyasətinn xüsusiyyətləri və istiqamətləri şərh olunur, biznes mühitinin effektivliyinin təmin olunması ilə bağlı tədbirlərin təçkilati, hüquqi və iqtisadi aspektləri araşdırılır.

**Açar sözlər:** Pandemiya, biznes mühiti, sahibkarlığa dəstək, güzəştli maliyyə resursları, iqtisadi stimul.

## Giriş

Ümummilli lider HeydərƏliyev ölkəmizdə yeni iqtisadi quruluşun - sərbəst bazar iqtisadiyyatının yaradılması və təşəkkülü üçün özəl bölmənin və sahibkarlığın rolunu və əhəmiyyətini yüksək dəyərləndirmiş, onu ölkəmizin malik olduğu zəngin təbii və iqtisadi resursların, texniki, texnoloji və intellektual potensialın işgüzar fəaliyyət vasitəsilə tam və səmərəli reallaşdırılmasının, xalqın yüksək maddi rifahına nail olunmasının mühüm şərti kimi səciyyələndirmişdir. H.Əliyevin sahibkarlıqla bağlı strategiyası bu gün ölkə prezidenti İ.Əliyev tərəfindən uğurla reallaşdırılır və səmərəliliklə inkişaf etdirilir, Azərbaycanda davamlı və dayanaqlı inkişafın təmin edilməsinə yönəldilmiş iqtisadi siyasətin mühüm istiqamətini təşkil edir. İ.Əliyev tərəfindən sahibkarlıq siyasətinin əsas xüsusiyyətləri kimi səmərəlilik, çeviklik, məqsədyönlülük, yaradıcılıq, real iqtisadi şəraitə uyğun olaraq ondan istifadənin məqbul əlverişli və effektiv formalarının, üsullarının və amillərinin axtarılıb tapılması, onların reallaşdırılması üzrə işlək iqtisadi mexanizmlərin axtarılıb tapılması və səmərəliklə tətbiqi çıxış edir.

Bu baxımdan iqtisadiyyatda yüksək gərginlik, sabitsizlik və böhran yaratmış, əmək fəaliyyətinin və bir çox iş yerlərinin məhdudlaşmasına səbəb olmuş, ciddi maliyyə itkilərinə gətirib çıxarmış, nətidə əhalinin rifahını əhəmiyyətli şəkildə pisləşdirmiş hazırkı pandemiya şəraitində Azərbaycan dövlətinin sahibkarlıqla bağlı apardığı iqtisadi siyasətin mərkəzində onun dövlət tərəfindən qorunması, stimullaşdırılması və yönləndirilməsi, nəticədə mövcud şəraitdə biznes mühitinin səmərəliliyinin təmin olunması və yüksəldilməsi dayanır.

## 1. Xarici ölkələrdə sahibkarlığa dəstək tədbirlərinin pandemiya təcrübəsi

Araşdırmalar göstərir ki, pandemiya dövründə dünyanın bir çox ölkələrində sahibkarlara bir sıra dəstək tədbirləri həyata keçirilmişdir. Nəticədə dünyanın müxtəlif ölkələrində pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektləri üzrə biznesə dəstək tədbirləri həcminin ÜDM-də payı aşağıdakı kimi olmuşdur: ABŞ – 11%, Avstraliya –

9,7%, Kanada – 8,4%, Almaniya – 4,9%, Braziliya – 3,5%, Səudiyyə Ərəbistanı – 2,7%, Fransa – 2,0%, Türkiyə – 1,5%, Rusiya – 1,5%, İtaliya – 1,4%, Çin – 1,2%, Argentina – 1,0% [5].

***Avstraliya.*** Təcrübəçilərin əmək haqlarının 9 aya qədər əmək haqqının 50% -i həcmində onlara subsidiya verilməsi, amortizasiya ayırmalarının 50% -ə endirilməsi (vergi amortizasiya dərəcəsinin dəyişdirilməsi), kiçik müəssisələrə birbaşa ödənişlər. Bütün bu tədbirlərə 1,3 milyard ABŞ dolları (ÜDM-in 0,6%-i) sərf olunmuşdur. Bundan əlavə, kiçik biznes kreditləri üçün yarımillik güzəşt dövrü, eləcə də nağd pul axınını dəstəkləmək üçün 2 - 25 min dollar civarında ödəmələr (vergisiz) tətbiq edilmiş və belə xərclərin həcmi 6,6 milyard dollara çatmışdır.

***Almaniya.*** Ölkənin Federal Məşğulluq Agentliyi tərəfindən sosial sığorta töhfələrinin ödənilməsi, gecikmiş vergi ödəmələrinə görə cərimələrin ləğvi (yalnız KOB-lər üçün deyil), təcili yardım olaraq mədəniyyət və mediaya əlavə vəsait həyata keçirilmişdir. Bütün bu tədbirlərə 10 milyard avro xərclənmişdir.

***Cənubi Koreya.*** Bu ölkədə həvəsləndirmə tədbirləri paketinin tətbiqi aşağıdakı istiqamətləri əhatə edir:

• kiçik və orta sahibkarlara əmək xərclərini ödəmək üçün subsidiyalar;

• ən çox itki olan ərazilərdə yerləşən kiçik və orta sahibkarlığın azaldılmış faizlə kredit verilməsi;

• iş yerlərinin saxlanması proqramlarının maliyyələşdirilməsi;

• istehlakı dəstəkləmək üçün aztəminatlı ailələrə ərzaq çeki verilməsi;

• kiçik satış müəssisələrini onlayn satışlarını genişləndirməyə təşviq etmək və s.

Bütün bu tədbirlərə 9,8 milyard dollar vəsait xərclənib.

***ABŞ.*** KOB-lər üçün dövlət zəmanətləri və subsidiyalı kredit dərəcələri 2 milyon ABŞ dollarına qədər, kiçik sahibkarlıq krediti subsidiyaları 1 milyard ABŞ dolları, kiçik müəssisələrə verilən kreditlər 350 milyard ABŞ dolları təşkil edib.

***Böyük Britaniya.*** Bu ölkədə pandemiyadan zərər çəkmiş kiçik və orta sahibkarlıq subyektlərinə aşağıdakı istiqamətlərdə tədbirləri həyata keçirməkdədir:

- Mülkiyyət vergisinin (ticarət, otel, əyləncə), torpaqdan istifadə vergisinin müvəqqəti ləğvi.

Kiçik və Orta Ölçülü Müəssisələr (TFSME) üçün əlavə güzəştlərlə Müddətli Maliyyələşdirmə sxeminin tətbiqi.

Mexanizm kiçik və orta sahibkarlıq subyektlərinə dörd ay müddətinə 12 ay ərzində əsas dərəcəyə yaxın dərəcədə maliyyələşdirmə təmin edir. İngiltərə Bankı bu təsisin 100 milyard funt sterlinq əlavə maliyyə təmin edəcəyini təxmin edir.

***Çin.*** Kiçik müəssisələr üçün kredit almaq şərtlərinin asanlaşdırılması. Bu məqsədlə180 milyard dollar və ya ÜDM-in 1.2%-i həcmində vəsait xərclənib.

***İspaniya.*** Kiçik sahibkarlıq kreditləri üçün 80% dövlət zəmanəti tətbiq edilib. Bu məqsədlə 21,6 milyard ABŞ dolları və ya ÜDM-in 1,5%-i həcmində vəsait xərclənib.

***Malaziya.*** Biznesə dəstək (KOM-lar daxil olmaqla) üçün 23 milyard dollar və ya ÜDM-in 6%-i həcmində vəsait xərclənib.

***Yaponiya.*** Təcili yardım paketinə aşağıdakılar daxildir:

• satışların kəskin azalması səbəbindən mövcud vəsait çatışmazlığı olan kiçik və orta sahibkarlara faizsiz kreditlərin verilməsi;

***Fransa.*** Görülən tədbirlərə aşağıdakılar daxildir:

• Vergi ödəmələrinin təxirə salınması və müəssisələrə veriləcək töhfələr, icarə ödənişlərinin dayandırılması və iflas riski altında olan firmalar üçün vergi azadlıqları xərclərini ödəmək üçün 45 milyard avro dəyərində stimul paketinin tətbiqi.

• Şirkətlərə bank krediti üçün 300 milyard avro həcmində dövlət zəmanətinin verilməsi.

***İtaliya.*** Ölçülü stimul paketi (ayrılan vəsaitin yarısı, koronavirusla vəziyyətin ağırlaşması halında ehtiyat rolunu oynayacaq) tətbiq olunub.

Tədbirlərə aşağıdakılar daxildir:

• epidemiya dövründə gəlirləri üçdə birindən çox azalmış özünüməşğullar və digər ödənişsiz işçilər üçün büdcə fondu tərəfindən zəmanət verilən 9 aylıq ipoteka tətilləri;

• özünüməşğullar üçün 500 avro ödəniş;

• kiçik və orta sahibkarlıq subyektlərinə kredit verilməsi üçün 5 milyon avroya qədər dövlət zəmanəti və s.; [6, s. 110-111].

**2.Azərbaycanda Koronavirus (COVID-19) pandemiyası ilə mübarizənin təşkilati-hüquqi aspektləri**

Azərbaycanda Koronavirus (COVID-19) pandemiysı ilə əlaqəli müəyyən məhdudiyyətlər və nəticədə işgüzar aktivliyin azalması özəl sektorun fəaliyyətinə mənfi təsir göstərmişdir. Kiçik və orta sahibkarlar, fərdi sahibkarlar və özünüməşğul olan vətəndaşlar çətin iqtisadi vəziyyətə düşdülər. Karantin rejiminin ilk günlərindən etibarən Azərbaycan hökuməti onlar üçün maliyyə dəstəyi, kredit resurslarına çıxışın asanlaşdırılması və kredit faizlərinin xeyli hissəsinin subsidiyalaşdırılması, vergi yükünün azaldılması, vergi ödəmələrinin təxirə salınması və digərləri daxil olmaqla geniş tədbirlər dəsti hazırlamışdır.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli sərəncamı [1;2] və Koronavirus pandemiyasının mənfi təsirini azaltmaq üçün Nazirlər Kabinetinin 4 aprel tarixli qərarı ilə təsdiqlənmiş "Fəaliyyət Planı" na[3] uyğun olaraq COVID-19-un təsirləndiyi ərazilərdə çalışan sahibkarlar və onların işçiləri üçün məqsədyönlü dəstək proqramları uğurla həyata keçirilməyə başladı.

Geniş və çoxistiqamətli dəstək mexanizmlərinə əsaslanan, makroiqtisadi sabitlik, ölkədə məşğulluq və sahibkarlıq subyektləri "mövzusunda iqtisadiyyatın müxtəlif sahələrinə, o cümlədən sahibkarlığa dövlət dəstəyini təmin edən bu proqramlar aşağıda təqdim olunan əsas istiqamətləri, əhatə dairəsini, iqtisadi böyüməni və sahibkarlığı dəstəkləyən əsas alətləri özündə cəmləşdirir[1]:

1. Pandemiyadan təsirlənən sektorlarda işləyən 304 min işçiyə əmək haqqının ödənilməsi üçün maliyyə dəstəyi proqramı (iş yerlərini qorumaq üçün);
2. Pandemiyadan təsirlənən ərazilərdə işləyən 292 min fərdi (mikro) sahibkar üçün maliyyə dəstəyi proqramı (iş yerlərini saxlamaq üçün);
3. Pandemiyanın təsirləndiyi ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektləri üçün vergi güzəştləri, güzəştlər və məzuniyyətlər proqramı;
4. Pandemiyadan təsirlənən ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən yeni bank kreditləri üçün kredit zəmanətinə dəstək proqramı (0,5 milyard manat);
5. Pandemiyadan təsirlənən ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mövcud kredit portfeli üçün kredit zəmanətinə dəstək proqramı (1,0 milyard manat);
6. Əhalinin maddi vəziyyətini dəstəkləyən sosial paket;
7. Əhalinin sosial cəhətdən həssas qrupuna mənsub ailələrin tələbələri üçün təhsil haqlarının xərclərini dəstəkləyən proqramlar;
8. İpoteka və kredit zəmanəti mexanizmi üçün maliyyə dəstəyi proqramı;
9. Elektrik istehlakı üçün ictimai xərcləri dəstəkləyən proqram;
10. Həyati fəaliyyətlərə dəstək proqramı - sərnişin daşınması.

Dəstək proqramları dövlət büdcəsindən ayrılan vəsait daxilində həyata keçirilmişdir. Bu baxımdan dövlət tərəfindən sahibkarlara yardım üçün 295 milyon manat ayrılmışdır ki, bunun da 215 milyon manatı - işçilərin maaşlarının ödənilməsi üçün, 80 milyon manatı - fərdi və mikro sahibkarların maddi dəstəyi üçündür.

Maliyyə dəstəyi iki proqram çərçivəsində həyata keçirilmişdir. İşçilərə dəstək proqramı 2020-ci ilin 1 aprel - 1 iyul tarixləri arasında cari əmək müqavilələri üzrə işçilərə iki aylıq əmək haqqının ödənilməsini nəzərdə tutur və nəticədə vəsait vergi ödəyicisinin bank hesablarına köçürülür. Fərdi sahibkarlara maliyyə dəstəyi 2019-cu il dövlət büdcəsinə ödədikləri vergi məbləğinə əsasən həyata keçirilir.

Hər iki proqramın iki mərhələsi var. Maliyyə dəstəyi proqramının birinci mərhələsi çərçivəsində 2020-ci ilin aprelindən başlayaraq 25 min vergi ödəyicisi işçilərinin 216 min nəfərinə maaş vermək üçün 98,5 milyon manat alıb. Bundan əlavə, 107,2 fərdi sahibkara 63,7 milyon manat ayrılıb. Maliyyə dəstəyi proqramının ikinci mərhələsi çərçivəsində avqust-sentyabr aylarında 22,9 min vergi ödəyicisinə 234,4 min işçiyə əmək haqqı ödəmək üçün 101,9 milyon manat ayrılmışdır. 49,9 min fərdi sahibkar da dövlətdən 12,5 milyon manat məbləğində dəstək aldı. Beləliklə, bu günə qədər işçilərin dəstəklənməsi proqramı çərçivəsində dövlət tərəfindən ayrılan vəsaitlərin 93,7%-i, fərdi sahibkarlara dəstək proqramı çərçivəsində dövlət tərəfindən ayrılan vəsaitlərin 95,2%-i köçürülmüşdür.

2020-ci ilin avqust ayında dövlət fərdi (mikro) sahibkarlara vəsait köçürmə prosesinin ikinci mərhələsinə başladı. Təxminən 50 min fərdi sahibkar yenidən maliyyə dəstəyi almaq hüququndan istifadə etdi.

Maliyyə dəstəyi yalnız dövlət yardım mexanizmi deyil. Belə ki, koronavirus pandemiyasının təsirini minimuma endirmək üçün geniş vergi güzəştləri paketi qəbul edilmişdir. Bura əsasən mikro, kiçik və orta müəssisələri əhatə edən ümumilikdə 130 milyon manat vergi və sosial güzəşti daxildir.

Ayrıca, 1 yanvar 2021-ci ilədək fəaliyyətləri birbaşa koronavirus pandemiyasından təsirlənən biznes sahələri, o cümlədən otellər və digər turizm obyektləri, tur operatorları və turizm agentlikləri, iaşə müəssisələri və ölkə daxilində avtomobil sərnişindaşıma fəaliyyətləri, o cümlədən taksi də daxil olmaqla tamamilə əmlak və torpaq vergilərindən azad edilmişdir. Bununla yanaşı, 2021-ci il yanvarın 1-dək bu sahələr üçün vergitutma rejimindən asılı olaraq bir sıra əlavə güzəştlər tətbiq edilib. Belə ki, məsələn, mənfəət vergisi (və ya gəlir vergisi) ödəyiciləri 75% məbləğində müavinət almışlar. Atılan addımlar arasında bütün mikro sahibkarlara sadələşdirilmiş verginin ödənilməsinə dair 50% -lik güzəştlərin verilməsi, həmçinin vergi və cari vergi ödəmələrinin hesablanması və ödənilməsi üçün vergi təxirə salınması daxildir. Koronavirusdan təsirlənən müəssisələr başqa güzəştlər də alıblar, məsələn, daşınmaz əmlak kirayəsi üzrə ödəmə mənbəyində vergi dərəcəsi 14% -dən 7% -ə düşüb.

Sahibkarlığı dəstəkləməyin digər bir vacib mexanizmi, məhdudlaşdırıcı tədbirlərin tətbiqi nəticəsində zərər görən sahibkarlara əlavə dəstək vermək üçün dövlətdən güzəştli kreditlər paketidir. Biznesin inkişafı və sahibkarlara kreditlərin verilməsi məqsədilə İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kredit mexanizmi təsdiq edilmişdir.

Tətbiq olunan dəstək mexanizmlərindən biri kimi, həmçinin sahibkarlara daşınmaz əmlak girovu olmayan avadanlıqların alınması üçün güzəştli kreditə çıxış imkanı verilir. Son nəticə budur ki, kredit vəsaitləri ilə alınan yeni avadanlıqlar artıq girov kimi qəbul olunur.

Yeni kreditlər üçün dövlət zəmanətlərinin verilməsi və bu kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizmləri də tətbiq edilmişdir, yeni biznes kreditləri üçün dövlət zəmanəti də verilir. Eyni zamanda, dövlət sahibkarın aldığı kreditin 60% -ni və bu cür borc faizlərinin yarısı üçün subsidiyaların verilməsini təmin etmişdir. Dövlət kreditin 60% -nə zəmanət verdiyindən bu, sahibkarların zəmanət öhdəliklərini xeyli azaldır. Nəticədə dövlət zəmanətinin verilməsi bank krediti alarkən sahibkarların şansını əhəmiyyətli dərəcədə artırır və genişləndirir. Ümumiyyətlə, göstərilən kredit portfeli 1,5 milyard manatdır.

Dövlətin bütün dövlət proqramlarında istifadə etdiyi mexanizmlər şəffaflıq, dürüstlük və səmərəlilik meyarlarına əsaslanır. Bundan əlavə, çətinliklə üzləşən hər hansı bir sahibkar, istər dövlətin maliyyə və ya digər dəstək üçün təmin etdiyi mexanizmlər olsun, aydınlaşdırmaq üçün İqtisadiyyat Nazirliyi ilə əlaqə saxlaya bilər. Nazirlik isə öz növbəsində iş adamını dinləməyə və istənilən məsələdə ona dəstək olmağa hazır olmalıdır.

Qeyd edək ki, nəzərdən keçirilən dövrdə Azərbaycan İqtisadiyyat Nazirliyi iqtisadiyyatın müxtəlif sahələrinə, o cümlədən sahibkarlığa, onların əhatə dairəsinə dövlət dəstəyi ilə bağlı hazırlanan proqramların əsas istiqamətlərini, iqtisadi böyüməni və sahibkarlığı dəstəkləyən

əsas alətləri özündə əks etdirən əsas sənədi ictimaiyyətə təqdim etmişdir. Sənədə görə, dəstək paketinin həcmi 2,5 milyard manat və ya ÜDM-in 3 faizidir.

**3.Sahibkarlığa dəstəyin reallaşmasında Sahibkarlığın İnkişafı Fondunun (SİF-in) rolu**

Pandemiya şəraitində Sahibkarlığa dəstəyin reallaşmasında Sahibkarlığın İnkişafı Fondunun (SİF-in) mühüm rolu vardır. (4) SİF-in 2020-ci ildə müəyyən etdiyi strateji hədəflər arasında 2 mühüm istiqaməti xüsusilə qeyd etmək lazımdır.

**gov.azedf.gov.az**

1. Sahibkarlar üçün güzəştli maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək.

2. İnnovativ texnologiyalar əsasında yeni müəssisələrin yaradılması və inkişafına dəstək vermək.

Sahibkarlar üçün güzəştli maliyyə resurslarına çıxış imkanlarını genişləndirmək məqsədilə aşağıdakı tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur:

- mövcud maliyyələşmə mexanizmlərini təkmilləşdirmək;
-yeni maliyyələşmə mexanizmlərini tətbiq etmək;
- KOS-un inkişafına xüsusi dəstək vermək;
- əlavə maliyyələşmə mənbələrini cəlb etmək.

İnnovativ texnologiyalar əsasında yeni müəssisələrin yaradılması və inkişafına dəstək vermək məqsədilə aşağıdakı tədbirlərin reallaşdırılması nəzərdə tutulmuşdur:

- mövcud prioritet sahələr üzrə əlavə alternativ enerji tətbiqi əsasında, rəqəmsallaşmanı və ekoloji dayanıqlığı bərqərar edən biznes sahələrinə dəstək olmaq;
-sektorlarda innovativ liderləri müəyyən etmək və potensial layihələri maliyyələşdirmək.

SİF tərəfindən 2020-ci ilin yanvar-avqust ayları ərzində layihələrinin ümumi dəyəri 249.8 milyon manat olan 490 investisiya layihəsinin maliyyələşdirilməsinə 70.6 milyon manat güzəştli kredit verilmişdir. O cümlədən, avqust ayı ərzində ümumi dəyəri 38.9 milyon manat olan 70 investisiya layihəsinin maliyyələşdirilməsinə 10.9 milyon manat güzəştli kredit verilmişdir. Ayrılmış güzəştli kreditlərin 77%-i respublikanın regionlarının, 23%-i isə Bakı şəhəri və onun qəsəbələrinin payına düşür.

İllər üzrə verilmiş kreditlərdə kənd təsərrüfatı məhsullarının istehsalına ayrılmış kreditlərin xüsusi çəkisi çox olsa da, 2020-ci ildə sənaye məhsullarının istehsalına ayrılmış kreditlərin payı artmışdır. Hesabat dövründə kreditlərin 37.6%-i sənaye məhsullarının istehsalı və emalı sahəsinə ayrılmışdır.

Fondun yeni Qaydasına əsasən avadanlıq krediti məhsulu yaradılmışdır. Bu kredit yeni avadanlıqların alınmasına yönəldilir və girov kimi yalnız həmin avadanlıqlar qəbul edilir. Kreditlərin illik faiz dərəcəsi maksimum 9%, müddəti 5 ilədək, güzəşt müddəti 12 ayadək, məbləği isə 3 milyon manatadəkdir.

Hazırda pandemiyadan zərər çəkmiş sahələr üzrə biznes kreditlərinə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizminə əsasən yeni veriləcək 500 milyon manat kredit portfelinin 60%-dək hissəsinə dövlət zəmanəti verilir. Həmçinin həmin kreditlərin illik faiz dərəcəsinin 50%-i dövlət tərəfindən subsidiyalaşdırılır. Bu mexanizm müddəti 3 ildən, illik faiz dərəcəsi 15%-dən çox olmayan kreditlərə şamil edilir.

Kredit-zəmanət mexanizmi üzrə zəmanət ödənişlərinin və subsidiyanın ödənilməsinin dövlət büdcəsi hesabına həyata keçirilməsi nəzərdə tutulur. Subsidiyanın ödənilməsi üçün ilkin olaraq dövlət büdcəsindən Fondun hesabına 20 milyon manat vəsait köçürülmüşdür.

Elektron kredit platforması vasitəsilə müraciətlərin qəbulu 30 iyun 2020-ci il tarixdən etibarən başlamışdır. Pandemiyadan zərər çəkmiş sahələr üzrə 2020-ci ildə dövlət zəmanətli kreditlərin alınması məqsədilə kredit tələbatı 949,1 milyon manat olan 3320 müraciətdən 81%-i sürətli, 19%-i isə ənənəvi olmuşdur.Müraciətlərin kredit tələbatı 148 milyon manat olan 433-nə (81.9%) Fond tərəfindən zəmanət verilmişdir. Zəmanət verilmişmüraciətlər üzrə zəmanət məbləği 86,1 milyon manat təşkil edir. 2021-ci ilin əvvəlinə SİF-ə birdəfəlik komissiya

ödənilmişvə zəmanəti qüvvəyə minmiş müraciətlər üzrə kredit məbləği 130milyon manat, zəmanət məbləği isə 74,8 milyon manat təşkil edir.

Fondun yeni Qaydasına əsasən pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların mövcud 1 milyard manat kredit portfeli üzrə faizlərin subsidiyalaşdırılır. Belə ki, 10 mart 2020-ci il tarixədək alınmış kreditlərin illik faiz dərəcəsinin 10 faiz bəndi mart ayından başlayaraq 12 ay ərzində dövlət tərəfindən maliyyələşdirilir. Bu mexanizm kreditlərin müddətindən və faiz dərəcəsindən asılı olmayaraq tətbiq olunur.

Mövcud kredit portfeli üzrə faizlərinin subsidiyalaşdırılması üçün 100 milyon manat vəsaitin ayrılması nəzərədə tutulmuşdur. Bu vəsaitin 50 milyon manatı dövlət büdcəsi, 50 milyon manatı isə Fond tərəfindən təmin ediləcəkdir.

31.08.2020-ci il tarixinə subsidiyanın alınması ilə bağlı 99 mürəciət daxil olmuş, bunlardan 44-nə subsidiyanın verilməsi barədə qərar qəbul edilmişdir. Təsdiq olunmuş müraciətlər üzrə 31.08.2020-ci il tarixinədək olan faiz subsidiyasının məbləği 1.3 milyon manatdır.

2020-ci ildə subsidiya alınması ilə əlaqədar daxil olmuş 2 375 müraciətdən 1 992-nə və ya 83.9%-nə subsidiya verilmişdir. Subsidiyalaşdırılmasına müsbət qərar verilmiş müraciətlər üzrə təsdiqlənmiş subsidiya məbləği 33 milyon manatdır. Bu məbləğin 20,1 milyon manatı sahibkarlıq subyektlərinə artıq ödənilmişdir.

**4. Sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi**

Məlundur ki, maliyyəyə çıxış iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən biridir. Sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi ÜDM istehsalının artırılması, məşğulluğun təmin edilməsi, yoxsulluğun azaldılması və iqtisadi inkişafa nail olunmasında mühüm rol oynayır.

Hazırda güzəştli kreditlər layihənin rentabelliyi, risklilik dərəcəsi, iqtisadiyyatın sahəsi, iqtisadi region və digər strateji amillər nəzərə alınmaqla vahid faiz dərəcəsi ilə eyni müddətə verilir. Aparılan araşdırmalar göstərir ki, xarici ölkələrin analoji qurumları maliyyə dəstəyini region və sahələrdən asılı olaraq müxtəlif proqramlar çərçivəsində çevik şərtlərlə göstərir. Bu, öz növbəsində, iqtisadi şəraitin, mövcud bazar konyukturasının və ölkənin prioritetlərinin dəyişməsinə çevik reaksiya verməк imkanı yaradır.

Bu baxımdan ölkəmizdə güzəştli kreditlərin sahələr, regionlar, layihənin rentabelliyi və riskliliyi nəzərə alınmaqla müxtəlif proqramlar çərçivəsində verilməsi məqsədəuyğundur. Bu zaman hər hansı rayonun iqtisadi potensialı, tarixi-coğrafi ənənələri və əhalinin əsas məşğuliyyəti nəzərə alınmaqla proqramlar qəbul edilə bilər. Bundan başqa, sahələr üzrə kredit proqramları hazırlanarkən kreditin müddəti, güzəşt müddəti və faiz dərəcəsi həmin sahə üzrə layihənin özünüödəmə müddəti və risklilik dərəcəsi nəzərə alınmaqla müəyyən edilə bilər.

Paralel olaraq, hazırda təklif olunan mexanizmlərin təhlili aparılmalıdır. Təhlil nəticəsində üzə çıxan çatışmazlıqların aradan qaldırılması və mövcud mexanimzlər üzrə təklif olunan kreditlərin canlandırılması istiqamətində addımlar atılması vacibdir. Bu isə öz növbəsində sahibkarların maliyyə resurslarına çıxış imkanlarının artırılmasını, kredit portfelinin daha səmərəli idarə edilməsini, güzəştli kredit mexanizminin müasir çağırışlara daha çevik cavab verməsini təmin edə bilər.

Qeyd etmək lazımdır ki, COVID-19 pandemiyasından zərər çəkmiş sahibkarların maliyyə ehtiyaclarının qarşılanması üçün hazırda təklif olunan subsidiya və zəmanət mexanizmləri müvəqqəti xarakter daşıyır. Bu mexanizmlərinpost-pandemiya dövründə də daha çox iqtisadi fəaliyyət sahələrinə şamil olunmaqla əhatə dairəsinin genişləndirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsinə ehtiyac vardır.

Yuxarıda qeyd olunduğu kimi, inkişaf etmiş ölkələrdə KOS subyektləri ÜDM-də və məşğulluqda əhəmiyyətli paya malikdir. Belə ki, kiçik və orta sahibkarlıq ölkə iqtisadiyyatında rəqabətin saxlanılmasında və artırılmasında mühüm qüvvələrdən biridir. Odur ki, KOS subyektlərinin fəaliyyətinin stimullaşdırılması və onların maliyyə resurslarına çıxış

imkanlarının artırılması istiqamətində fəaliyyət davam etdirilməlidir. Bu həm mövcud maliyyələşmə mexanizmlərini təkmilləşdirməklə, həm də yeni maliyyə mexanizmlərinin tətbiqi vasitəsilə mümkün ola bilər.

Bununla yanaşı, yalnız dəstək tədbirlərinə güvənərək böhrandan çıxmaq çətin olacaq. Bu şəraitdə KOM-lar öz əməliyyat və strateji prioritetlərini müstəqil şəkildə uyğunlaşdırmalı olacaqlar və onların əlavə dəstək tədbirlərinə ehtiyacları olacaqdır.

Bu baxımdan, fikrimizcə, böhrandan çıxmaq üçün KOM-lara dəstək mexanizmlərini təkmilləşdirilməsi üçün aşağıdakı tədbirlərə ehtiyac vardır:

- ən çox zərər görmüş ərazilərdə və sahələrdə yerləşən kiçik və orta sahibkarlığa azaldılmış faizlə və yaxud faizsiz kreditlərin verilməsi;

- borcalan üçün tələblərin liberallaşdırılması və əvvəllər verilmiş kreditlərin restrukturizasiyası imkanlarının genişləndirilməsi yolu ilə güzəştli kreditləşmə proqramının genişləndirilməsi, o cümlədən - kiçik müəssisələr üçün kredit almaq şərtlərinin daha da asanlaşdırılması;

- kredit təşkilatlarına cərimələr hesablanmadan faiz ödənişlərinin təxirə salınması şərtilə KOM-lara müxtəlif məqsədlərlə verilən kreditlər üzrə faizlərin bir hissəsinə (müqavilə üzrə faiz dərəcəsinə qədər) subsidiya verilməsi;

- Əmək bazarındakı gərginliyi azaltmağa yönəlmiş əlavə tədbirlərin qəbulu və həyata keçirilməsi yolu ilə əhalinin məşğulluğuna dəstək verilməsi, o cümlədən iş yerlərinin saxlanması proqramlarının hazırlanması, tətbiqi və maliyyələşdirilməsi, işsizlik müavinətlərinin artırılması;

- kiçik satış müəssisələrini onlayn satışlarını genişləndirməyə təşviq etmək;

- KOM subyektləri üçün əlavə stimullaşdırıcı tədbirlərlə sürətli maliyyələşdirmə mexanizminin tətbiqi;

- ixrac potensialının inkişafı üçün əlavə tədbirlərin tətbiqi; dövlət dəstəyi tədbirlərindən istifadə edilərkən ixracatçılar üçün bütün cərimə sanksiyalarının ləğvi; ixracat üçün bütün maliyyə dəstək tədbirlərinin təmin edilməsi üzrə rejimin yaradılması, ixracatçılara bu dəstək tədbirlərinin ən az 3 il müddətində alınmasını təmin etmək.

## Ədəbiyyat

**1.** “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamı

**2.** “Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 iyun tarixli 1052 nömrəli Fərmanı

**3.** “Koronavirus (COVID-19) pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması üçün sahibkarlıq subyektlərinin kreditlərinə dövlət dəstəyinin verilməsi ilə bağlı bir sıra tədbirlər barədə”Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 4 aprel 2020-ci il tarixli qərarı

**4.İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu. Sahibkarlığın İnkişafı Fondunun təqdimatı. Bakı, 2021.** Web:edf.gov.az s, 14-17.egovdf

**5.** Value of COVID-19 stimulus packages in the G20 as share of GDP 2020, Erin Duffin, Apr 9, 2020, statista.com

**6.** Коммуникационный центр при Правительстве Российской Федерации Обзор мирового опыта по борьбе с коронавирусом. № 1, от 16 апреля 2020 г., s.110-111.

**i.e.d., prof. Rövşən Şahbaz oğlu Muradov**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*email:rovshan1970@hotmail.com*

**dissertant Ülviyyə Zeynəddin qızı Məmmədova**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*email: ulviya.mammedova@gmail.com*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN İNKİŞAF STRATEGİYASI VƏ AZƏRBAYCANDA ƏHALİNİN SƏMƏRƏLİ MƏŞĞULLUĞUNUN TƏMİN EDİLMƏSİ

**XÜLASƏ**

Məqalə Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə(1969-1982-ci və 1993-2003-cü illərdə) və İlham Əliyevin rəhbərlik etdiyi dövrdə (2003-2020-ci illərdə) respublikamızın sosial-iqtisadi inkişafında, habelə əhalinin cins-yaş quruluşu nəzərə alınmaqla məşğulluq və işsizlik səviyyəsində baş vermiş dəyişikliklər və onlara təsir edən amillər aşkara çıxarılıb təhlil edilərək qiymətləndirilmiş; müasir dövrdə Heydər Əliyevin inkişaf strategiyasından çıxış edərək respublikamızda iqtisadi fəal əhalinin, ələlxüsus cins-yaş quruluşu nəzərə alınmaqla gənclərin (15-24 yaşda) məşğulluq səviyyəsinin yüksəldilməsi və işsizlik səviyyəsinin azaldılmasına dair təklif və tövsiyyələr verilmişdir.

***Açar sözlər:*** *inkişaf strategiyası; iqtisadi fəal əhali; əmək qabiliyyətli əhali; işsizlik; məşğulluq.*

Azərbaycan Respublikası keçən əsrin 90-cı illərinin başlanğıcında öz müstəqilliyini yenidən bərpa etdikdən sonra onun iqtisadiyyatının bazar münasibətləri sisteminə keçirilməsi burada başqa sahələrdə olduğu kimi əmək bazarında da vəziyyəti daha da kəskinləşdirmiş və bu sahədə bir sıra çətinliklər meydana çıxmışdır. Bu çətinliklər, bir tərəfdən əmək bazarının formalaşmasının labüd olaraq işsizlik doğurması ilə, digər tərəfdən isə müstəqilliyimizin ilk dövründə ölkəmizdə yaranmış ictimai-siyasi, sosial-iqtisadi və sair vəziyyətlə bağlı olmuşdur. Buna görə Azərbaycan dövləti öz müstəqilliyinə qovuşduqdan sonra qarşısına qoyduğu ən mühüm vəzifələrdən biri də məşğulluq siyasətini bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaqdan ibarət olmuşdur. Çünki məşğulluq və işsizlik probleminin həlli təkcə ölkənin sosial-iqtisadi inkişafı, onun əhalisinin yaşayış səviyyəsinin və gəlir mənbələrinin artırılması üçün deyil, həm də ölkənin milli maraqlarının və təhlükəsizliyinin qorunub saxlanılması üçün böyük əhəmiyyət kəsb edir.

Azərbaycan xalqının tələbi və arzusu ilə Ulu öndər Heydər Əliyevin 1993-cü ilin 15 iyununda yenidən ölkə rəhbərliyinə qayıtması və 2003-cü ildə İlham Əliyev cənablarının prezident seçilərək ölkəmizə başçılıq etməsi nəticəsində Respublikamız bazar iqtisadiyyatı sisteminə keçidin bütün çətinliklərini keçərək MDB ölkələri arasında ilk olaraq keçid dövrünü başa vurmuş və böyük iqtisadi potensiala malik olan güclü dövlətə çevrilmişdir.

Bu nailiyyətlərin əldə edilməsində ölkənin başlıca məhsuldar qüvvəsi və milli sərvəti olan insan potensialından səmərəli istifadə edilməsi mühüm rol oynamışdır. Bu da danılmaz həqiqətdir ki, Azərbaycan Respublikası keçmiş SSRİ-nin tərkibində olduğu uzun illər ərzində əhalisinin və əmək ehtiyatlarının artım sürətinə görə müttəfiq respublikalar arasında ən qabaqcıl, əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsi səviyyəsinə görə isə ən axırıncı yerlərdən birini tuturdu. Həmin illərdə bir qayda olaraq, burada yaradılmış iş yerlərinin sayı əmək ehtiyatlarının sayından əhəmiyyətli dərəcədə geridə qalmış və respublikada əmək qabiliyyətli əhalinin orta hesabla 25-30 faizi ictimai əmək dairəsindən kənarda–şəxsi yardımçı və ev təsərrüfatında məşğul olmuşdur. Respublikamızda əhalinin məşğulluğu sahəsində yaranmış belə vəziyyətin əsl səbəbi həmin dövrdə burada ictimai istehsalın inkişaf surətinin aşağı, onun sahə və ərazi quruluşunun qeyri-təkmil olması, habelə sənayenin və infrastruktur sahələrinin son dərəcə zəif inkişaf etməsi ilə bağlı olmuşdur. Buna görə də həmin dövrdə yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişikliklər aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə sistemi işlənib hazırlanmalı və bu sahədə yeni metod və üsullardan istifadə edilməli idi. Bütün bu çətin və mürəkkəb vəzifələrin yerinə yetirilməsi xalqının ağır günündə 1969-cu ilin iyul ayının 14-də Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə

seçilmiş Heydər Əliyevin üzərinə düşdü. O, bu vəzifəyə seçildiyi gündən az bir müddət sonra onun təşəbbüsü və rəhbərliyi ilə "5" avqust 1969-cu il tarixində Azərbaycan KP MK-nın məşhur avqust plenumu öz işinə başladı. Bu plenumdakı məruzəsində Heydər Əliyev Azərbaycanın xalq təsərrüfatında yaranmış böhranlı vəziyyəti və onun səbəblərini ətraflı təhlil etmiş, mövcud nöqsanları aşkara çıxarmış və vəziyyətdən çıxış yollarını müəyyənləşdirmişdir. Ulu öndər yaxşı başa düşürdü ki, millətin siyasi müstəqilliyi onun iqtisadi müstəqilliyindən keçir. Bu prinsipdən çıxış edilərək Ulu öndərin rəhbərliyi və bilavasitə iştirakı ilə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyası və taktikası işlənib hazırlandı və həyata keçirilməyə başlandı.

Heydər Əliyev qarşıya qoyulmuş bu vəzifələrin öhdəsindən şərəflə gəldi. Onun ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanın böyük və qüdrətli elmi, iqtisadi, sənaye, kənd təsərrüfatı və enerji potensialının yaradılmasına nail olundu və bu gün onun müstəqil dövlət kimi tanınmasının, siyasi və iqtisadi müstəqilliyinin, sistemli şəkildə artıb inkişaf edən xarici iqtisadi əlaqələrinin formalaşmasının, dünya iqtisadiyyatına daha dərindən və inamla inteqrasiya olunmasının əsası qoyuldu. Heydər Əliyevin təşəbbüsü və təkidi ilə keçmiş SSRİ hökuməti 70-ci illərdə Azərbaycanla əlaqədar respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan və xalqımız üçün sözün əsil mənasında tarixi əhəmiyyət kəsb edən beş xüsusi qərar qəbul etmişdir. Azərbaycan müharibədən sonrakı dövrdə ilk dəfə olaraq doqquzuncu və onuncu beşilliklər üçün nəzərdə tutulmuş xalq təsərrüfatı planlarını vaxtından əvvəl yerinə yetirmiş; respublikamız beşilliklərin bütün illərində SSRİ-nin keçici qırmızı bayraqları ilə təltif olunmuşdur. Onun respublikamıza rəhbərliyi dövründə Azərbaycanın inkişafının nə qədər dinamik xarakter daşımasına dair yüzlərlə fakt göstərmək olar. Təkcə bunları demək kifayətdir ki, 1970-1985-ci illərdə respublikamızda milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalının həcmi və əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı üç dəfə artmışdır. Bu illərdə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə, əvvəlki 50 ildəkinə bərabər olmuş; kənd təsərrüfatında məcmu məhsul 2,7 dəfə, bu sahədə məhsuldarlıq, o cümlədən əmək məhsuldarlığı iki dəfədən çox artmışdır. Həmin illər ərzində xalq təsərrüfatının inkişafına 21,3 milyard rubl vəsait cəlb olunmuşdur ki, bu da əvvəlki 50 illə müqayisədə 1,5 dəfədən çox idi. 250-dən çox iri zavod, fabrik və istehsal sahələri tikilmiş; iki milyondan çox adam öz yaşayış şəraitini yaxşılaşdırmışdı ([1] səhifə 24). Ulu öndərimiz Heydər Əliyevin özünün də dediyi kimi həmin dövrdə: "Respublikanın ən kəskin problemlərindən biri əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi idi". Onun rəhbərliyi dövründə bu sahədə də böyük dəyişikliklər baş vermişdi. Orta və kiçik şəhərlərdə, kənd yerlərində əlavə iş yerlərinin yaradılması hesabına fəhlə, qulluqçu və kolxozçuların orta illik sayı 818,0 min nəfər, yaxud 1,5 dəfə artmış və 1985-ci ildə 2360,0 min nəfərə çatmışdı ([2] səhifə 26).

Ulu öndərimiz ölkə əhalisinin, xüsusilə də gənclərin işlə təmin edilməsini özünün iqtisadi inkişaf strategiyasının mühüm istiqamətlərindən biri hesab edir, daim onu diqqət mərkəzində saxlayırdı. Təsadüfi deyil ki, o hələ keçən əsrin 80-cı illərinin əvvəllərində çox böyük uzaqgörənliklə Azərbaycan KP-nın XXX qurultayındakı məruzəsində, ilk dəfə olaraq, dövlət səviyyəsində "Respublikanın demoqrafik inkişafı və əhalinin işlə daha səmərəli təmin olunması üçün elmi surətdə əsaslandırılmış, uzun müddətli konsepsiya"([3] səhifə 91) işlənib hazırlanması vəzifəsini irəli sürmüş və qeyd etmişdir ki, "Məhsuldar qüvvələrin yerləşdirilməsini daha da təkmilləşdirmək lazımdır. Söhbət respublikada ictimai istehsalda çalışmayan əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin yüksək olduğu, bu əhalinin çevik hissəsinin, xüsusən cavan oğlanların işləmək üçün əsasən, Bakı şəhərinə getmək istədiyi ayrı-ayrı zonaların və rayonların iqtisadi inkişaf səviyyələrini plana uyğun şəkildə bərabərləşdirməkdən gedir. Başqa çətinliklərlə yanaşı, bu, gələcəkdə əhalinin artması üçün demoqrafik çətinliklər yaradacaqdır" ([3] səhifə 92). Ancaq çox təəssüflər olsun ki, Ulu öndər Heydər Əliyev 1982-ci ilin axırında Moskvaya SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov. İKP Siyasi Bürosunun üzvü kimi yüksək hökumət və partiya rəhbərliyi vəzifələrinə irəli çəkildikdən sonra ölkəmizə "rəhbərlik" edənlərin heç biri onun tərəfindən irəli sürülmüş nə respublikanın demoqrafik inkişafı və nə də əhalinin işlə daha səmərəli təmin edilməsinə dair nəinki uzunmüddətli, heç qısa müddətli konsepsiyanın da işlənib hazırlanmasına səy göstərməmişlər. Halbuki, keçən əsrin 90-cı illərinin əvvəlində respublikamız öz müstəqilliyinə qovuşduğu vaxt burada ictimai əməkdən kənarda qalan əmək qabiliyyətli əhalinin sayı 746,7-925,9 min nəfər və ya əmək ehtiyatlarının 18,9-27,1 faizini təşkil edirdi([1] səhifə 251). Bu isə qeyd edilən dövrdə respublikada məşğulluq siyasəti sahəsində kompleks tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsini tələb edirdi. Ancaq təəssüflər olsun ki, həmin dövrdə bu tədbirləri hazırlayıb həyata keçirə bilən siyasi iradəsi, dövlətçilik təcrübəsi və qabiliyyəti olan rəhbərlər yox idi. Ulu öndər

Heydər Əliyev 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtdıqdan sonra onun apardığı ardıcıl və məqsədəuyğun radikal iqtisadi islahatların həyata keçirilməsi nəticəsində ölkəmizdə məşğulluq və işsizlik probleminin həlli sahəsində xeyli müsbət dəyişikliklər baş verdi. Belə ki, 1993-2003-cü illərdə ölkə iqtisadiyyatında məşğul olanlar arasında dövlət mülkiyyətində məşğul olanların xüsusi çəkisi azalaraq 62,0 faizdən 29,7 faizə; qeyri-dövlət mülkiyyətində məşğul olanların xüsusi çəkisi isə artaraq 38,0 faizdən 70,3 faizə yüksələ bilmişdir.

Məlum olduğu kimi, əmək potensialından səmərəli istifadə edilməsi ölkə iqtisadiyyatının sürətli inkişafı; əhalinin həyat səviyyəsinin və onun keyfiyyətinin yüksəldilməsinin mühüm amillərindən biridir. Buna görə də 1993-cü ildən sonra ölkəmizdə əhalinin səmərəli məşğulluğunun təmin edilməsi; əmək qabiliyyətli əhalinin münasib iş yerlərinə olan tələbinin ödənilməsi burada həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu siyasətin təməlində isə 1994-cü ilin sentyabr ayında Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş neft strategiyası dayanmışdır. Dahi rəhbərin təşəbbüsü və gərgin əməyi sayəsində 1994-cü ilin sentyabr ayının 20-də dünyanın bir çox neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan məşhur neft kontraktının imzalanması ölkəmizin həyatında sözün əsil mənasında böyük tarixi hadisə olmuşdur. Ancaq onu da qeyd etmək lazımdır ki, 1993-2003-cü illərdə ölkəmizdə məşğulluq sahəsində əldə edilmiş bütün uğurlu nəticələrə baxmayaraq, əhalinin səmərəli məşğulluğunun təmin edilməsi və işsizlik səviyyəsinin azaldılması yenə də aktual olaraq qalmışdır. Təsadüfi deyildir ki, atası Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev cənabları 2003-cü ilin oktyabr ayının 15-də ölkəmizin prezidenti vəzifəsinə seçildikdən az sonra– noyabr ayının 17-də Nazirlər Kabinetinin iclasındakı çıxışında demişdir: "Azərbaycan üçün ən böyük problem işsizlik problemidir... Bəyan etmişdim ki, məqsədimiz odur ki, növbəti beş ildə Azərbaycanda 600,0 min iş yeri açılsın. Bu sadəcə olaraq, seçkiqabağı vəd deyildir. Bu, proqramdır. Yəni mən əminəm ki, həm dövlət tərəfindən, eyni zamanda, özəl sektor tərəfindən görüləcək tədbirlərin nəticəsində biz buna nail olacağıq" ([5] səhifə 1-2).

İlham Əliyev cənablarının həmin iclasdan bir həftə sonra, yəni noyabr ayının 24-də ölkəmiz üçün tarixi əhəmiyyəti olan "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" ilk fərmanını; 2004-cü il fevralın 11-də isə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" fərmanını imzaladı. Bunların davamı olaraq regionların sosial-iqtisadi inkişafı haqqında "14" aprel 2009-cu; "27" fevral 2014-cü və "29" yanvar 2019-cu illərdə imzaladığı daha 3 Dövlət Proqramında; habelə onun bilavasitə təşəbbüsü ilə qəbul edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı" (01 iyul 2004-cü il); "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (2004-2008-ci illər)" (11 noyabr 2004-cü il); "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)" (26 oktyabr 2005-ci il); "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili haqqında Dövlət Proqramı" ("16" aprel 2007-ci il); "Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)" ("03" iyul 2007-ci il); "Azərbaycan gəncləri 2011-2015-ci illərdə Dövlət Proqramı" ("07" iyul 2011-ci il); "2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası" ("26" yanvar 2015-ci il); "2019-2030-cu illərdə Azərbaycan Respublikasının məşğulluq strategiyası" ("30" oktyabr 2018-ci il); "Əhalinin özünüməşğulluğunun təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı ("7" aprel 2016-cı il) və sair bu kimi mühüm dövlət sənədləri qəbul edilmişdir. Bu sənədlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi nəticəsində 2003-cü ildən başlayaraq ölkəmiz keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Prezident İlham Əliyev tərəfindən Ulu öndərimiz Heydər Əliyevin inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində ölkəmizin əsas iqtisadi və rifah göstəricisi olan Ümumi Daxili Məhsulun (ÜDM) orta illik artım sürəti 2003-cü ildə 11,0 faiz təşkil etmişdirsə, 2005-2010-cu illərdə orta hesabla – 17,0 faiz; o cümlədən 2005-ci ildə-26,4 faiz; 2006-cı ildə-34,5 faiz; 2007-ci ildə-25,0 faiz; 2008-ci ildə-10,0 faiz; böhranlı illər olan 2009-cu ildə-9,5 faiz; 2010-cu ildə isə 5,0 faiz təşkil etmişdir. 2010-cu ildə BMT-nin İnsan İnkişafına dair növbəti hesabatında isə tarixdə ilk dəfə olaraq Azərbaycan Respublikası dünyanın 169 ölkəsi arasında 67-ci yeri tutaraq "Orta İnkişaf etmiş ölkələr" qrupundan "Yüksək İnkişaf etmiş ölkələr" qrupuna daxil edilmişdir. 2003-2019-cu illərdə Azərbaycan Respublikasında ÜDM-un həcmi 11,4 dəfə artaraq 7,15 milyard manatdan 81,68 milyard manata; adambaşına düşən ÜDM-un həcmi 9,4 dəfə artaraq 872,7 manatdan 8247,0 manata; büdcənin gəlirləri 20,3 dəfə artaraq 1,2 milyard manatdan 24,4 milyard manata; xarici valyuta ehtiyatları 31,3 dəfə artaraq 1,6 milyard ABŞ dollarından 50,0 milyard ABŞ dollarına; əhalinin gəlirləri 10 dəfə artaraq 5,7 milyard manatdan 57,0 milyard manata; adambaşına

düşən gəlir 8,1 dəfə artaraq 700,7 manatdan 5676,0 manata; xarici ticarətin həcmi 6,3 dəfə artaraq 5,22 milyard ABŞ dollarından 33,1 milyard ABŞ dollarına; iqtisadiyyata investisiya qoyuluşu 5,9 dəfə artaraq 4,25 milyard manatdan 25,0 milyard manata qalxmışdır. Nəticədə orta aylıq əmək haqqı 8,2 dəfə artaraq 77,1 manatdan 635,1 manata qalxmış, yoxsulluq səviyyəsi isə 8,8 dəfə azalaraq 44,7 faizdən 5,1 faizə düşmüşdür ([6] səhifə 21-397). Əlbəttə, bütün bunların əsasında ölkə başçısının iradəsi və iqtisadiyyatda məşğul olan milyonlarca insanlarımızın səmərəli əmək fəaliyyəti durur. Təsadüfi deyildir ki, Ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə olduğu kimi İlham Əliyev cənablarının respublikamıza rəhbərlik etdiyi dövrdə də əhalinin səmərəli məşğulluğunun təmin edilməsi və işsizliyin azaldılması onun siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Onun fərman və sərəncamları ilə təsdiq edilmiş yuxarıda adlarını çəkdiyimiz Dövlət Proqramlarında ölkədə və onun regionlarında əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə köməklik göstərən yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması və məşğulluğun artırılmasını stimullaşdıran şəraitin yaradılması, əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş infrastrukturun təkmilləşdirilməsi; kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkələrinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması: yerli iqtisadiyyatın yönümü nəzərə alınmaqla regionlarda işsizlər üçün kadrların peşə hazırlığının təkmilləşdirilməsi mərkəzlərinin yaradılması; rəqabət qabiliyyətli iqtisadi sistemin təmin edilməsi baxımından müasir tələblərə cavab verən ixtisaslı kadrların hazırlanması, o cümlədən sənaye, kənd təsərrüfatı, rabitə və informasiya texnologiyaları, turizm və sair sahələr üçün ixtisaslı kadrların hazırlanması üzrə bir sıra tədbirlər öz əksini tapmışdır. Bu da danılmaz həqiqətdir ki, regional əmək bazarı mexanizminin formalaşması və inkişafı ayrı-ayrı ərazilərdə əhalinin səmərəli məşğulluğunun nizamlanması aləti olub, uzun sürən və çətin prosesdir. Bu, son vaxtlaradək əmək ehtiyatlarının surətlə artdığı ölkəmiz üçün, xüsusilə də onun əhalisi və əmək ehtiyatlarının sürətlə çoxaldığı regionlarımız üçün daha da aktualdır. Azərbaycan dövləti ölkə başçımız İlham Əliyevin iradəsi və rəhbərliyi ilə bu sahədə çox böyük işlər görmüş və indi də görməkdə davam edir. Bu görülən işlərin nəticəsində 2003-2019-cu illərdə respublikamızda 2389,4 min yeni iş yerləri yaradılmışdır. Onun 1563,6 minini və ya 65,4 faizini daimi iş yerləri təşkil etmişdir. Yeni yaradılmış bütün iş yerlərinin 652,7 mini və ya 27,3 faizi; o cümlədən daimi iş yerlərinin 539,1 mini və ya 34,5 faizi Bakı şəhərinin; müvafiq surətdə 1736,7 mini və ya 72,7 faizi və 1024,5 mini və ya 65,5 faizi regionların payına düşmüşdür. 2003-2019-cu illərdə yaradılmış 1563,6 min daimi iş yerlərinin isə 955,7 mini və ya 61,1 faizi fərdi sahibkarlıq subyektlərinin; 213,6 mini və ya 13,7 faizi yeni yaradılmış müəssisə və təşkilatların; 367,6 mini və ya 23,5 faizi mövcud müəssisə və təşkilatların; 26,7 mini və ya 1,7 faizi fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatların payına düşmüşdür([6] səhifə 668-671). Nəticədə, 2003-2019-cu illərdə respublika iqtisadiyyatında məşğul olan əhalinin sayı 1191,5 min nəfər və ya 31,8 faiz artaraq 3747,0 min nəfərdən 4938,5 min nəfərə, o cümlədən kişilərin sayı 597,1 min nəfər və ya 30,6 faiz artaraq 1959,7 min nəfərdən 2556,8 min nəfərə, qadınların sayı isə 594,4 min nəfər və ya 33,3 faiz artaraq 1787,7 min nəfərdən 2381,7 min nəfərə gəlib çatmışdır. Bu illər ərzində ölkəmizdəki işsizlərin sayı isə 152,1 min nəfər və ya 37,7 faiz azalaraq 403,7 min nəfərdən 251,6 min nəfərə, o cümlədən kişilər üzrə 102,4 min nəfər və ya 48,8 faiz azalaraq 209,7 min nəfərdən 107,3 min nəfərə; qadınlar üzrə isə 49,7 min nəfər və ya 25,6 faiz azalaraq 194,0 min nəfərdən 144,3 min nəfərə düşmüşdür. Müqayisə edilən dövrdə işsizlik səviyyəsi isə 6,1 faiz bənd və ya 2,3 dəfə azalaraq 10,9 faizdən 4,8 faizə, o cümlədən kişilər arasında 5,8 faiz bənd və ya 2,4 dəfədən çox azalaraq 9,8 faizdən 4,0 faizə, qadınlar arasında isə 7,3 faiz bənd və ya 2,3 dəfə azalaraq 13,0 faizdən 5,7 faizə düşmüşdür. Bu göstəricilər şəhər və kənd yerlərində xeyli fərqli olaraq özünü göstərməklə davam edir. 2019-cu ildə şəhər yerlərində iqtisadi fəal əhalinin 5,8 faizi, o cümlədən kişilərin 4,9; qadınların isə 6,7 faizi; kənd yerlərində isə müvafiq surətdə 3,9; 3,1 və 4,7 faiz işsiz olmuşdur. Burada onu da qeyd etmək lazımdır ki, pandemiya dövrünə təsadüf etməsinə baxmayaraq 2020-ci ildə ölkəmizdə 129 min yeni iş yeri yaradılmışdır ki, onun da 89,3 mini və ya 69,3 faizi Bakı şəhərinin, 39,7 mini və ya 30,7 faizi isə regionların payına düşmüşdür. Eyni zamanda 2020-ci ildə respublikamızda 20,1 min iş yeri bağlanmışdır. Bağlanan iş yerlərinin 14,4 mini və ya 71,6 faizi dövlət sektorunun, 5,7 mini və ya 28,4 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. Bağlanan iş yerlərinin 16,0 mini və ya 79,6 faizi fəaliyyət göstərən müəssisə və təşkilatlarda aparılmış ixtisasların; 4,1 mini isə müəssisə və təşkilatların fəaliyyətinin dayandırılması üzündən baş vermişdir. Onu da nəzərə almaq lazımdır ki, ölkə başçımız İlham Əliyev cənablarının da dəfələrlə qeyd etdiyi kimi: "Bu gün Azərbaycan əhalisi sürətlə artır. Əlbəttə ki, bu bizim böyük sərvətimizdir. Əhalimiz nə qədər çox olarsa ölkəmiz də o qədər güclü olacaqdır. Ancaq bu vəziyyət, eyni zamanda bir çox məsələlərin həllini diktə

edir. Artan əhali artan iş yerləri deməkdir. Biz son on il ərzində bir milyondan artıq daimi iş yeri açdıq. Ancaq bu proses davam etməlidir. İş yerlərinin açılması üçün həm dövlət investisiyaları, həm də xarici investisiyalar qoyulmalıdır. Ona görə iş yerlərinin yaradılması gələcəkdə investisiya iqliminin daha da yaxşılaşdırılması ilə bağlı olmalıdır. Biz çalışmalıyıq ki, Azərbaycana daha çox xarici sərmayə cəlb edək" ([4] səhifə 2). Burada onu da qeyd etmək lazımdır ki, hazırda ölkəmizdə mövcud olan işsiz 251,6 min nəfər əhalinin 144,3 min nəfərini və ya 57,4 faizini qadınlar; 107,3 min nəfərini və ya 42,6 faizini isə kişilər təşkil edirlər. Cəmi işsizlərin isə 47,7 faizini (120,0 min nəfərini); o cümlədən qadınların – 45,7 faizini (66,0 min nəfərini); kişilərin isə 50,3 faizini (54,0 min nəfərini) 15-29 yaşda olan gənclər təşkil edirlər. Onların təhsil səviyyələrinə nəzər saldıqda isə məlum olur ki, cəmi işsiz gənclərin 13,6 faizini, o cümlədən kişilərin 17,1; qadınların – 11,0 faizini ali təhsili olanlar; müvafiq surətdə - 12,2; 13,1 və 11,5 faizini orta ixtisas təhsili olanlar; 7,6; 6,7 və 8,1 faizini peşə təhsili olanlar; 66,6; 63,1 və 69,9 faizini isə xüsusi peşə-ixtisas təhsili olmayanlar, yəni tam orta, ümumi orta və ibtidai təhsili olanlar təşkil edir ([7] səhifə 116,128,129). Ən əsası isə həmin işsiz gənclərin 12,3 faizini ictimai istehsalda iştirak etmək şansı çox az, ancaq təhsil almaq şansı yüksək olan 15-19 yaşında olanlar; 87,6 faizini isə ictimai istehsalda iştirak etmək imkanları çox böyük olan 20-29 yaşda olanlar təşkil edir. Burada onu da qeyd etmək istərdik ki, 15-29 yaşda olan işsiz gənclərin 53,6 faizi, o cümlədən 15-19 yaşda olanların 48,8 faizi; 20-24 yaşda olanların 54,2 faizi; 25-29 yaşda olanların isə 58,6 faizi qızların payına düşür. Burada onu da qeyd etmək lazımdır ki, son üç il (2017-2019-cu illər) ərzində respublikamızın tam orta məktəblərini 247,0 min nəfər bitirmiş və həmin illərdə ölkəmizin peşə, orta ixtisas və ali təhsil məktəblərinə 228,4 min nəfər (peşə məktəblərinə - 51,1 min nəfər, orta ixtisas məktəblərinə - 52,3 min nəfər, ali məktəblərə - 125,0 min nəfər) qəbul edilmişdir. Bu isə o deməkdir ki, həmin illərdə tam orta məktəbləri bitirmiş 247,0 min nəfərin 228,4 min nəfəri və ya 92,5 faizi peşə, orta ixtisas və ali təhsillə əhatə olunmuş və 18,6 min nəfəri və ya 7,5 faizi isə təhsildən kənarda qalmışdır. Nəzərə alsaq ki, qeyd edilən dövrdə peşə, orta ixtisas və ali təhsil müəssisələrini 198,8 min nəfər mütəxəssis (peşə məktəblərini 45,6 min nəfər, orta ixtisas məktəblərini 41,1 min nəfər, ali təhsil müəssisələrini 112,1 min nəfər) bitirmişlər([8] səhifə 90,121-123, 127, 138, 149, 164), onda əmək bazarına müraciət etmək məcburiyyətində qalanların sayının nə qədər çox ola biləcəyini təsəvvür etmək olar. Bu da bir danılmaz həqiqətdir ki, hazırda ölkəmizdə minlərlə gənc mütəxəssis əmək bazarında ilk peşə-ixtisas, orta ixtisas və ali məktəblərdə yiyələndikləri peşə və ixtisaslarına uyğun iş tapmaqda çətinlik çəkir və onların xeyli bir qismi başqa peşə və ixtisaslarda işləmək məcburiyyətində qalırlar. Bu vəziyyət xüsusi peşə və ixtisas təhsili olmayan gənclər arasında özünü daha qabarıq şəkildə büruzə verir. Faktlar göstərir ki, hazırda ölkəmizin təhsil müəssisələrində elmin istiqamətləri və ixtisas qrupları üzrə hazırlanan və onları bitirən mütəxəssislərin sayı ilə iqtisadiyyatın quruluşu və onlarda mövcud olan iş yerləri və peşələrin sayı arasında da ciddi uyğunsuzluqlar vardır və bunların nəzərə alınması obyektiv zərurət təşkil edir. Bu vəziyyətdən çıxış yolunu kadr hazırlığı zamanı yeni və müasir ixtisas və peşələrə, daha doğrusu yeni texnika və texnologiyalara əsaslanan peşə və ixtisaslara; turizmin, aqrar sahənin, ticarət və ictimai iaşənin, informatika və rabitənin, habelə sənayenin mütərəqqi sahələrinin inkişafı ilə bağlı peşə və ixtisaslar üzrə kadr hazırlığına xüsusi diqqət yetirilməlidir. Buna görə də gələcəkdə ölkəmizdə gənclərin məşğulluq səviyyəsinin yüksəldilməsi və onların əməyindən səmərəli istifadə edilməsi məqsədilə peşə hazırlığı keçmiş gənclərin daimi iş yerləri ilə; sərbəstləşmə təhlükəsi ilə üzləşə biləcək gənclərin isə işdən azad edilməsindən əvvəl əmək bazarında tələbat olan peşə və ya ixtisas üzrə yenidən hazırlıq keçmələrinin təmin edilməsi; gənclərin şəhər yerlərinə və başqa ölkələrə axınının qarşısını almaq məqsədi ilə sərhədyanı və dağ rayonlarında yeni iş yerlərinin yaradılması və ailə qurması üçün lazımi şəraitin yaradılması; ordudan tərxis olunmuş gənclərin məşğulluğunun təmin edilməsi; onların peşə hazırlığı və yenidən hazırlıq işinin gücləndirilməsi, gənc sahibkarlara, fermerlərə və işsiz gənclərə dəstək üçün rayon və şəhərlərdə biznes mərkəzi şəbəkəsinin genişləndirilməsini zəruri edir. Bütün bu görüləcək tədbirlər isə müvafiq dövlət və hökumət orqanları tərəfindən nizamlanmalıdır.

Bundan sonra da Ulu öndərimiz Heydər Əliyevin inkişaf strategiyasından çıxış edərək ölkəmizdə məşğulluq sahəsində dövlət siyasətinin məqsədyönlü şəkildə həyata keçirilməsi doğma vətənimiz Azərbaycana yeni hədəflərin fəth edilməsində yardımçı olacaq və xalqımızın daha da firavan yaşamasını təmin edəcəkdir.

**Ədəbiyyat siyahısı**


1. Şahbaz Muradov "İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər". Bakı, Elm, 2004.
2. "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" Bakı, XXI-Yeni Nəşrlər Evi, 2001.
3. "Azərbaycan Kommunist partiyası XXX qurultayının materialları". Bakı, Azərnəşr, 1981.

4. İ.H. Əliyevin “AMEA-nın 70-illik yubileyinə həsr olunmuş ümumi yığıncağındakı çıxışı”. “Elm” qəzeti, “20” noyabr 2015, səhifə 2.

5. İ.H. Əliyevin “17” noyabr 2003-cü ildə Nazirlər Kabinetində keçirilmiş iclasındakı çıxışı”. “Azərbaycan” qəzeti, “18” noyabr 2003, səhifə 1-2.

6. “Azərbaycanın statistik göstəriciləri” Statistik məcmuə, Bakı, 2020.

7. Əmək bazarı. Statistik məcmuə. Bakı, 2004 və 2020.

8. “Azərbaycanda təhsil, elm və mədəniyyət” Statistik məcmuə. Bakı, 2020.

**i.e.n., dos. Zibeydə Arif qızı Şəkərəliyeva**
*Az.DİU (UNEC) "Ticarət və gömrük işinin təşkili" kafedrası*
*zibeydashakaraliyeva1977@gmail.com*

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF STRATEGİYASININ BANİSİDİR

***Açar sözlər:*** *iqtisadi inkişaf, strategiya, neft sektoru, qeyri-neft sektoru, investisiya"*

## XÜLASƏ

Xalqımızın ümummilli lideri Heydər Əliyevin iqtisadi inkişaf strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin zəngin enerji potensialını ilk mənimsəyən və regional inkişafda keyfiyyətcə yeni iqtisadi modelini formalaşdırdı. Avropa ilə Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, Bakı-Tbilisi-Qars dəmir yolu, TRASEKA və digər layihələrin həyata keçirilməsində mühüm rol oynayan dövlətə çevrildi.

Heydər Əliyevin iqtisadi inkişaf strategiyası dövrün tələblərinə uyğun olaraq ardıcıl və daha təkmil formada Prezident İlham Əliyev tərəfindən həyata keçrilir. Azərbaycan növbəti illərdə həm regional, həm də qlobal səviyyədə öz mövqelərini daha da möhkəmləndirəcək və dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutacaq.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin uğurlu neft strategiyası nəticəsində Azərbaycan Xəzər dənizinin zəngin enerji potensialını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, Bakı-Tbilisi-Qars dəmir yolu, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində mühüm rol oynayan əsas dövlətə çevrildi (1).

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü ümummilli lider Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun 35 illik rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmiş, Azərbaycanın gələcək inkişafına mühüm töhfələr verən nəhəng quruculuq planları reallaşdırılmışdır.

Yaxın keçmişə nəzər salsaq görərik ki, 1988-1993-cü illər Azərbaycanın ictimai-siyasi həyatında əsl təlatümlər, çaxnaşmalar dövrü olmuş, cəbhədəki ağır məğlubiyyətlər, ölkədə baş alıb gedən anarxiya, xaos və vətəndaş müharibəsi həyatın bütün sahələrini iflic etmişdi. Belə bir təhlükəli məqamda ölkəni gözləyən ağır və dəhşətli fəlakətin qarşısını almaq üçün xalq özünün xilaskarını ikinci dəfə hakimiyyətə dəvət etdi. 1993-cü ilin iyununda Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı müstəqil Azərbaycan dövlətini parçalanıb məhv olmaq təhlükəsindən xilas etdi.

Ulu öndərin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində tezliklə ölkədə vətəndaş qarşıdurması dayandırıldı. Milli Ordumuzun döyüş qüdrətinin artırılması torpaqlarımızın işğalına son qoydu və atəşkəs əldə olundu. Həyata keçirilən zəruri tədbirlər nəticəsində respublikada iqtisadi geriləmənin qarşısı alındı və ictimai-siyasi sabitlik təmin edildi. Siyasi arenada dövlətimizin zədələnmiş beynəlxalq nüfuzu tədricən bərpa olunmağa başladı və Azərbaycanın müstəqilliyi dönməz xarakter aldı.

Amerika Birləşmiş Ştatlarının keçmiş Prezidenti Corc Buş deyirdi ki, Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın XXI əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

Heydər Əliyevin bilavasitə rəhbərliyi altında müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu və parlamentə seçkilər keçirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv edildi, hüquqi və sivil dövlət quruculuğu prosesi başlandı. Hərtərəfli düşünülmüş iqtisadi islahatlara start verildi və tarixə “Əsrin müqaviləsi” adı ilə düşən neft müqaviləsi imzalandı. Məhz bu müqavilədən sonra Azərbaycan Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu və keçmiş sovet respublikaları arasında ilk dəfə Qərbin iri neft şirkətləri ilə saziş bağlandı. Bununla da Prezident Heydər Əliyev o dövrdə növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, dəqiq iqtisadi hesablama və dərin müdriklik nümayiş etdirərək, müstəqil Azərbaycanın yeni neft doktrinasını irəli sürdü.

“Əsrin müqaviləsi” Azərbaycanın iqtisadi müstəqilliyinin təməl daşına çevrildi, azad iqtisadi mexanizmlərin tətbiq edilməsini və respublikamızın dünya iqtisadiyyatına dinamik inteqrasiyasını təmin etdi, xarici investorların ölkəmizə axınını sürətləndirdi və dünyanın nəhəng neft şirkətləri ilə yeni neft-qaz müqavilələrinin bağlanmasına güclü təkan verdi. Həmin dövrdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Corc Buş Heydər Əliyevə ünvanlandığı məktubda yazırdı: “Amerika Birləşmiş Ştatları Sizinlə sıx işləyərək, qlobal enerji təhlükəsizliyini təmin etməyə və Azərbaycan xalqı üçün daha firavan, dinc gələcək qurmağa yardım etməyə hazırdır”.

Azərbaycan artıq əsrin sonunda Heydər Əliyevin gərgin əməyi, müdrik siyasəti nəticəsində qan-qadadan uzaq, sabitliyin vəəmin-amanlığın hökm sürdüyü bir ölkəyə çevrildi. Gündən-günə artan neft gəlirləri, xarici investisiya axını ölkənin iqtisadi mənzərəsini tamam dəyişdi.

Bu siyasi kursun dövrün tələblərinə uyğun olaraq ardıcıl və daha təkmil formada həyata keçirilməsi möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. 2018-ci il may ayının 29-da Səngəçal terminalında “Cənub Qaz Dəhlizi” layihəsinin açılışı mərasimində dövlətimizin başçısı demişdir: “TANAP layihəsi “Cənub Qaz Dəhlizi”nin önəmli hissəsidir. Biz gələn ay TANAP layihəsinin istifadəyə verilməsini də qeyd edəcəyik. Qeyd etdiyim kimi, 2014-cü il sentyabrın 20-də, o da çox rəmzi məna daşıyır, çünki “Əsrin kontraktı” 1994-cü il sentyabrın 20-də imzalanmışdır, 20 ildən sonra “Cənub Qaz Dəhlizi”nin təməli qoyulmuşdur. Bu gün biz bu layihənin rəsmi açılışını qeyd edirik və bu, doğrudan da, böyük və tarixi hadisədir”.

Ölkə Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi, müstəqil Azərbaycan dövlətinin uğurlarının bünövrəsi ümummilli liderimiz Heydər Əliyevin böyük uzaqgörənliklə imzaladığı “Əsrin müqaviləsi” ilə qoyulmuşdur. Sonrakı illərdə Bakı-Tbilisi-Ceyhan əsas neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri çəkildi, Xəzər dənizinin Azərbaycan sektorunda neçə-neçə neft yatağının dünyanın nəhəng neft şirkətləri ilə birgə istismarına başlanıldı. Ancaq bu uğurların təməl daşı məhz “Əsrin müqaviləsi” ilə qoyulmuşdur.

Dövlətimizin növbəti uğurlarından biri də, heç şübhəsiz, Azərbaycan qazını Avropaya çatdıracaq nəhəng infrastrukturun istifadəyə verilməsidir. Cənubi Qafqaz Boru Kəmərinin Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) layihələri dörd mərhələdə həyata keçiriləcək. İlk mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. 2023-cü ildə kəmərin buraxılış qabiliyyəti ildə 23 milyard kubmetrə, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılacaq. TANAP və TAP layihələri çərçivəsində Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək.

“Cənub Qaz Dəhlizi” nəhəng infrastruktur layihəsidir. Onun icrasına 45 milyard dollardan çox sərmayə qoyulacaq. İndiki maliyyə böhranı şəraitində bir layihəyə bu həcmdə kapital yönəldilməsi onun iqtisadi əhəmiyyəti ilə yanaşı, siyasi və geosiyasi baxımdan da nə dərəcədə önəmli olduğunu göstərir. Ölkə Prezidenti İlham Əliyev demişdir: “Cənub Qaz Dəhlizi” enerji təhlükəsizliyi məsələlərinin həllinə kömək göstərəcək. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır”.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi məktubda "Cənub Qaz Dəhlizi"ni ABŞ və Azərbaycanın 30 illik əməkdaşlığının "mühüm nailiyyəti" adlandırıb. O xüsusi vurğulayıb ki, Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir: "Sizin qaz hasilatınız Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə verəcəkdir".

Azərbaycan dövləti qardaş Türkiyə ilə siyasi və iqtisadi əlaqələrin daha da genişləndirilməsinə, birgə meqalayihələrin reallaşdırılmasına xüsusi önəm verir. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılışı mərasimində çıxışı zamanı demişdir: "Türkiyənin gücü bizim gücümüzdür. Türkiyə nə qədər güclü olarsa, biz də bir o qədər güclü olacağıq. Bizim gücümüz birliyimizdədir".

"STAR" zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə qoyulub. Zavodun tikintisinə 6,3 milyard dollar sərmayə yatırılmışdır. İldə10 milyon ton xam neft emalı gücünə malik müəssisənin əsas pay sahibi SOCAR-dır və Türkiyənin yeganə neft-kimya kompleksi olan "Petkim"i xammalla təmin edəcək. Burada 1100 nəfər daimi işlə təmin olunacaq. Zavod həm də Azərbaycan iqtisadiyyatına dividend gətirəcək. 5 il müddətində müəssisənin fəaliyyəti nəticəsində hər il Azərbaycana 850 milyon dollardan çox vəsait daxil olacaq. Növbəti 10 il ərzində isə müəssisə hər il 600 milyon dollardan çox gəlir gətirəcək.

Hesablamalara görə, "Star"a qoyulan vəsaiti SOCAR ən geci 10 ilə geri qaytara biləcək. Düzdür, burada qiymətlərin müəyyən təsiri olacaq. Amma ən aşağı hesablamalarla, kredit resurslarını da qaytarmaq şərtilə bu zavoddan ildə 500 milyon dollar mənfəət götürmək mümkün olacaq. Bu baxımdan, zavoda qoyulan investisiya kifayət qədər uğurlu sərmayədir.

"Şahdəniz" yatağının ikinci mərhələsinin ölkəmiz üçün əhəmiyyəti çox böyükdür. Bu mərhələ çərçivəsində hasil edilən "mavi yanacaq" Azərbaycanın ixrac imkanlarını genişləndirməklə yanaşı, "Şahdəniz" qazının alıcılarının sayını da artıracaq. Bu da ölkəmizin regionda, eləcə də dünyada strateji tərəfdaş kimi mövqeyini bir qədər də möhkəmləndirəcək. Ən başlıcası, "Şahdəniz" yatağının ikinci mərhələsi ilə əlaqədar Azərbaycan iqtisadiyyatına 25 milyard dollar həcmində investisiya yatırılacaq.

Əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycan hazırda nəinki özünün, eləcə də dünyanın enerji təhlükəsizliyinə layiqli töhfəsini verir. Dünya birliyi, xüsusən də Qərb ölkələri enerji təhlükəsizliyi kimi ciddi problemin həllində Azərbaycanla daha sıx əməkdaşlıq etməkdə maraqlı olduğunu açıq şəkildə ortaya qoyub. İndi məhz Azərbaycanın fəal iştirakı ilə Xəzər-Qara dəniz-Aralıq-Baltik dənizləri və Avropa İttifaqı regionunda enerji əməkdaşlığının geniş formatı haqqında söhbət gedir.

Təbii ki, neft amilinin ölkəmizin iqtisadi və siyasi həyatında strateji əhəmiyyəti və xüsusi yeri vardır. Lakin Azərbaycan rəhbərliyi çalışır ki, ölkənin iqtisadiyyatı təkcə neft gəlirlərindən asılı olmasın. Buna görə də qeyri-neft sektorunun inkişafını nəzərdə tutan layihələrin reallaşmasına daha çox diqqət yetirilir. Son illərdəölkə iqtisadiyyatında müşahidə olunan dinamik inkişaf, heç şübhəsiz, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatın şaxələndirilməsi hesabına qeyri-neft sahələrinin inkişaf etdirilməsi istiqamətində reallaşdırılan tədbirlərin məntiqi nəticəsidir.

Yaxın illərdə ölkəmizdə sənayeləşmənin daha da sürətləndirilməsi nəzərdə tutulur. Dövlət başçısının "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" fərmanı bu baxımdan mühüm sənəddir. Həmin sənədə əsasən, ölkədə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik sənaye məhəllələrinin yaradılması planlaşdırılır. Prezident İlham Əliyev bu məsələnin aktuallığını diqqətə çatdıraraq demişdir: "Sənaye istehsalı istiqamətində çox ciddi iş aparılmalıdır. Texnoparklar, sənaye klasterləri yaradılmalıdır. Bütün regionlarda sənaye zonaları yaradılmalıdır. Bu məsələ ilə bağlı mən dəfələrlə öz fikirlərimi bildirmişdim. İstəyirəm bu istiqamətdə işlər daha da sürətlə getsin ki, biz artıq nəticələri görək".

Ölkə başçısının tapşırığına uyğun olaraq artıq Sumqayıt və Mingəçevir Sənaye parklarında, Neftçala Sənaye Məhəlləsində Azərbaycan iqtisadiyyatının inkişafına mühüm töhfələr verəcək müəssisələr işə salınmışdır. Hazırda Azərbaycanda sənayenin, xüsusən də qeyri-neft sənayesinin inkişaf etdirilməsi getdikcə daha çox aktuallıq kəsb edir. Bölgələrdə iri sənaye istehsalı zonalarının yaradılması isə neft-qaz ölkəsi olan Azərbaycanı həm də yaxın gələcəkdə regionun inkişaf etmiş qeyri-neft sənayesi ölkəsinə çevirəcək.

Qeyri-neft sektorunun inkişafı ölkənin iqtisadi potensialının gücləndirilməsi üçün mühüm amillərdən biridir. Bunun nəticəsidir ki, son illər uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin yaradılmasına səbəb olmuşdur.

İqtisadiyyatın şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən biri də regionların inkişafı strategiyasının həyata keçirilməsidir. Bu baxımdan qəbul edilmiş regional inkişafa dair dövlət proqramları uğurla icra olunmuş və bu proqrama əsasən, digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına da şərait yaratmışdır.

Hazırda respublikada kimya, təkrar emal, gəmiqayırma, yüngül sənaye, əczaçılıq və digər sahələrdə ixtisaslaşmış 5 sənaye parkı və 4 sənaye məhəlləsi yaradılıb. İxracyönümlü məhsulların istehsalının dəstəklənməsi, investisiyaların cəlb edilməsinin stimullaşdırılması məqsədilə investisiya təşviqi mexanizminin tətbiqi öz töhfəsini verir. İndiyədək 251 sahibkarlıq subyektinə 283 investisiya təşviqi sənədi verilib ki, bu layihələrin reallaşması nəticəsində yerli istehsala 2,5 milyard manatdan artıq investisiyanın yatırılması və 19 minədək yeni iş yerinin açılması imkanı yaradılıb, bunlardan investisiya dəyəri 1 milyard manatdan çox olan 141 müəssisə artıq fəaliyyət göstərir.

Bütün bunlara görə Dünya Bankı “Doinq Business” 2018-ci ilin hesabatında Azərbaycanı 25-ci yerə layiq görmüşdür. Azərbaycan son 1 il ərzində 32 pillə irəliləmiş və ən islahatçı 10 ölkə sırasına daxil edilmişdir. Əlbəttə, xarici investorlar, eyni zamanda, sahibkarlar buna görə də ölkəyə daha çox sərmayə qoyurlar.

İqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi və həmin sahəyə investisiya qoyuluşunun sürətləndirilməsi nəticəsində son illərdə ÜDM-in artımı qeyri-neft sektoru hesabına təmin edilir, rəqabətədavamlı məhsul istehsalı durmadan artır. Qeyri-neft sektoru bu gün Azərbaycan iqtisadiyyatının əsas hissəsini təşkil edir və ölkəmizin ixrac strukturunda xüsusi çəkisini artırır (2).

2021-ci il və ortamüddətli dövrdə iqtisadi artım templərinin nisbətən bərpa edilməsi ilə ölkədə ümumi daxili məhsulun (ÜDM) həcmi 2024-cü ildə 89,5 milyard manata qədər artacaq.

Belə ki, 2021-ci ildə 53,6 faiz, 2022-ci ildə 57,3 faiz, 2023-cü ildə 60,8 faiz, 2024-cü ildə isə qeyri-neft sektorunun çəkisi ümumi daxili məhsulda 64,6 faiz təşkil etməsi nəzərdə tutulur.

Qlobal iqtisadiyyatda neft qiymətləri, dünya bazarında ərzaq qiymətlərinin gözləntiləri, pul kütləsinin artım tempi və sair digər amillərin fonunda növbəti ildə inflyasiya göstəricisi mülayim 3 faiz, sonrakı üç ildə də 2,7-2,8 faiz ətrafında olacağı proqnozlaşdırılıb.

2021-ci il üzrə cari əməliyyatlar balansında ÜDM-in 3,1 faizi səviyyəsində və ya təqribən 1,4 milyard ABŞ dolları həcmində kəsir proqnozlaşdırılır. 2022-ci ildə isə ÜDM-in 1,1 faizi və ya 518,5 milyon ABŞ dolları həcmində kəsir nəzərdə tutulur. Növbəti illərdə isə müsbət göstəricilər nəzərə çarpacaq. Belə ki, 2023-cu ildən cari əməliyyatlar balansında ÜDM-in 1,4 faizi və ya 724 milyon ABŞ dolları həcmində profisit yaranacaq. 2024-cü ildə isə ÜDM-in 2,3 faizi və ya 1,2 milyard ABŞ dolları həcmində profisit proqnozlaşdırılıb.

Azərbaycan son illərdə dünyada baş verən iqtisadi və maliyyə böhranından ən az itkilərlə çıxan ölkələrdən biridir. Belə ki, neftin qiymətinin 3-4 dəfə aşağı düşməsinə baxmayaraq, respublikamızda maaşlar və pensiyalar ilbəil artırılır. Bunun əsas səbəbi dövlətimizin başçısı tərəfindən vaxtında zəruri addımların atılmasıdır. Böhran başlayanda onu qabaqlamaq məqsədilə qeyri-neft sektorunun inkişafına böyük məbləğdə investisiya yatırıldı. Bu gün də qeyri-neft sektorunun bütün sahələrinə böyük həcmdə investisiya qoyulur, zəruri infrastruktur

layihələri həyata keçirilir. Bunun nəticəsidir ki, Azərbaycan hazırda inkişaf etmiş ölkələr səviyyəsində mükəmməl infrastruktura malikdir.

Azərbaycan ərazilərinin işxaldan azad edilməsi nəticəsində təbii resurslar, infrastruktur lahiyələrin Qarabağda həyata keçirilməsi nəticəsində ölkəmizdə qeyri-neft sektorunun inkşafında böyük təkan verəcəkdir. Belə ki, ölkə Prezidenti İlham Əliyevin ümummilli lider Heydər Əliyevin arzularının yerinə yetirməsi nəticəsində Qarabağ regionunda sıçrayışli inkifaş baş verəcəkdir.

Ölkədə son illərdə aparılmış uğurlu islahatlar nəticəsində işsizlik probleminin həlli və yoxsulluğun azaldılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər öz müsbət nəticəsini vermiş, ümumi iqtisadi inkişaf da bu problemlərin həllini xeyli sürətləndirmişdir. Ölkədə yoxsulluğun 29,3 faizdən 4,9 faizə endirilməsi, işsizliyin 5 faizə yaxın səviyyədə qərarlaşması çox böyük uğurdur və Azərbaycanın sosial dövlət olduğunun əsas göstəricisidir. Bu gün Azərbaycanın valyuta ehtiyatları 51,4 milyard ABŞ dollarına çatıb.

Ölkə vətəndaşlarının maddi rifahının yüksəldilməsində Azərbaycan Respublikasının birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Onun rəhbərliyi altında respublikamızda müxtəlif sosial layihələr həyata keçirilmiş, yeni səhiyyə ocaqları, məktəblər, uşaq bağçaları, qocalar evləri tikilib istifadəyə verilmişdir. Heydər Əliyev Fondu tərəfindən xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olmuş uşaqların təhsilinin təşkili, onların oxuduqları müəssisələrin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilmişdir.

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər”ə dair AR Prezidentinin 02 fevral 2021-ci il sərəncamında ölkənin sosial-iqtisadi və mədəni həyatında həyat səviyyəsinin yüksəldilməsində mühüm rol oynayacaq (3).

Bu mühüm sənəddə qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlbinin genişləndirilməsi, bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin yaradılması, həmin müəssisələrdə innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, qeyri-neft sektoruna yerli və xarici investisiyaların cəlb edilməsinin intensivləşdirilməsi və digər vacib quruculuq məsələləri öz əksini tapmışdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla həyata keçirilən xarici və daxili siyasət, gerçəkləşən iqtisadi doktrina belə deməyə əsas verir ki, Azərbaycan növbəti illərdə həm regional, həm də qlobal səviyyədə öz mövqelərini daha da möhkəmləndirəcək.

**Ədəbiyyat**

1. Arif Şəkərəliyev “Ümummilli Lider Heydər Əliyev: amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqına xidmət etmək olan Ulu Öndər” Bakı,2007,s.512
2. Z.A.Şəkərəliyeva “Qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkminləşdirilməsi istiqamətləri” AMEA-nin Xəbərləri. İqtisadiyyat seriyası. Bakı, 2019,s.44-49
3. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 02.02.2021-ci il. AR Prezidentinin sərəncamları. AR Prezidentinin rəsmi internet səhifəsi.

**i.f.d., dos. Zakir Hacı oğlu Zeynalov**
*"Maliyyə və maliyyə institutları" kafedrası,*
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*E-mail:zakir_zeynalov@unec.edu.az*

# HEYDƏR ƏLİYEV NEFT STRATEGİYASININ BANİSİDİR

*“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”*
**HEYDƏR ƏLİYEV**

*Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkənin iqtisadi inkişafı, bank-kredit sisteminin yenidən qurulması prosesi başlandı, özəl bankların kapitallaşmasına və konsolidasiyasına, bank infrastrukturunun formalaşmasına böyük önəm verildi. Heydər Əliyev siyasət dünyasının nəhəngi, fenomen şəxsiyyət, fenomen yaddaşa malik olan cəsarətli dövlət xadimi kimi bank sektoruna daim böyük diqqət və dəstək göstərmiş, Bank sektorunun inkişafında müsbət tendensiyalar baş vermişdir. H.Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar nəticəsində beynəlxalq qurumlar: Beynəlxalq Valyuta Fondu, Dünya Bankı tərəfindən ölkəmizə maliyyə yardımları ayrıldı.*

*Məqalədə neft strategiyasının iqtisadi aktivliyə, bank sektorunun aktiv və resurs bazasına təsirləri öyrənilmiş, bank sektorunun aktivlərinin və passivlərinin strukturu araşdırılmış, bu zaman bank sektorunun inkişafını xarakterizə edən göstəricilər kimi bank sektorunun aktivlərinin UDM nisbəti, kredit portfelində olan dəyişikliklər, depozitlərin dollarlaşma səviyyəsi təhlil edilmiş və sabitliyə təsiri dəyərləndirilmişdir.*

**Açar sözlər**: *neft strategiyası,aktivlər, kredit, depozit, dollarlaşma*

*Heydər Əliyev böyük şəxsiyyət, dahi lider, nəhəng siyasətçi, uzaqgörən dövlət xadimidir. Böyük idarəçilik təcrübəsi və cəsarətli qərar vermək bacarığı, onda böyük siyasətçiyə xas olan təşəbbüskarlıq hesabına Heydər Əliyev Azərbaycan xalqını fəlakət və bəlalardan xilas etdi. Böhran ilə üzləşən Azərbaycan xalqını Heydər Əliyev kimi nəhəng siyasətçi qorudu, ölkəni parçalanmadan xilas etdi. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan Respublikasının konstitusiyası qəbul olundu, müstəqil iqtisadi siyasət yeridərək hüquqi bazanın yaradılması üçün cəsarətli addımlar ataraq müxtəlif qanunlar qəbul edildi, ölkə böhrandan çıxdı, ölkənin iqtisadi inkişaf strategiyası müəyyən edildi.*

Böyük təşkilatçılığına və siyasi bacarığına görə Heydər Əlirza oğlu Əliyev 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilmişdir.

Respublikaya rəhbərliyi dövründə H.Əliyev Azərbaycanın iqtisadi inkişafına iri həcmdə vəsaitlərin ayrılmasına nail oldu. “1970-85-ci illərdə Azərbaycan üçün ayrılmış maliyyə vəsaiti sovet dövrünün əvvəlki 50 ilində istifadə olunan vəsaitlərdən 1,4 dəfə çox idi. 1920-69-cu illərdə Azərbaycanın sosial-iqtisadi inkişafına ildə orta hesabla cəmi 340,5 mln rubl vəsait sərf edildiyi halda, 1970-85-ci illərdə onun həcmi ildə orta hesabla 1,5 mlrd rubla bərabər oldu və bütün sosial-iqtisadi sahələrin inkişafına imkan verdi”[3].

Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə (1969-1982) iqtisadiyyatın inkişafı sahəsində böyük işlər görmüş, iri sənaye müəssisələri, zavodlar, fabriklər yaratmış, neft sənayesi, metalurgiya, energetika, neft-kimya sənayesi inkişaf etmiş, minlərlə iş yeri açmış, respublikamız keçmiş SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevrilmişdir. Məhz 1969-cu ilin sonlarında təməli qoyulan fundamental iqtisadi baza Azərbaycan xalqının rifahına və xoşbəxtliyinə hesablanmışdır.

1969-1982-ci illər ərzində respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı 2 dəfə artmışdı. 14 ildə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Kənd təsərrüfatında əmək

məhsuldarlığı 1,8 dəfə artmışdı. İstehsal olunan məhsulun ümumi həcmi 2,7 dəfə, xalq istehlakı mallarının istehsalı isə 3 dəfə artmışdır. İqtisadiyyatda köklü struktur və keyfiyyət dəyişiklikləri baş vermiş, tərəqqinin və yüksəlişin təməli qoyulmuşdu.

Böyük təşkilatçılığına və siyasi işinə görə Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əlirza oğlu Əliyevə Lenin ordeni və «Oraq və çəkic» qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi.

24 avqust 1979-cu ildə Azərbaycan KP MK-nın birinci katibi Əliyev Heydər Əlirza oğluna Sosialist Əməyi Qəhrəmanı adı verilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin **fərmanı**: «Partiyanın XXV qurultayının, xalq təsərrüfatının inkişafı ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi, dövlətə bütün kənd təsərrüfatı məhsulları satışına dair plan və sosialist öhdəliklərinin hər il artıqlaması ilə yerinə yetirilməsinin təmin edilməsi barədə qərarlarının müvəffəqiyyətlə yerinə yetirilməsində respublika kommunistlərini və bütün zəhmətkeşlərini səfərbərliyə almaqda böyük təşkilatçılıq və siyasi işinə görə Sov.İKP MK-nın siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Əliyev Heydər Əlirza oğlu yoldaşa Lenin ordeni və «Oraq və çəkic» qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilsin.

SSRİ Ali Soveti Rəyasət Heyətinin Sosialist Əməyi Qəhrəmanı, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Əliyev Heydər Əlirza oğlunun Lenin ordeni və ikinci «Oraq və çəkic» qızıl medalı ilə təltif edilməsi haqqında 7 may 1983-cü il tarixli **fərmanında deyilir**: «Kommunist partiyası və Sovet dövləti qarşısında böyük xidmətlərinə və anadan olmasının 60 illiyi münasibəti ilə Sov.İKP MK siyasi bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, Sosialist Əməyi Qəhrəmanı Əliyev Heydər Əlirza oğlu Lenin ordeni və ikinci «Oraq və çəkic» qızıl medalı ilə təltif edilsin. Qəhrəmanın vətənində tuncdan büstü qoyulsun». Heydər Əliyev müsəlman dünyasında keçmiş Sovetlər İttifaqında 2 dəfə Sosialist Əməyi Qəhramanı kimi şərəfli ada layiq görülən nadir şəxsiyyətdir.

1993-cü il dekabrın 8-də keçirilən müşavirədə H.Əliyev çıxış edərkən demişdi: "Respublikamız ağır bir dövr keçirir, iqtisadiyyat böhran vəziyyətindədir. Maliyyə üçün əsaslı bir sahədir"[4].

H.Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar beynəlxalq qurumlar tərəfindən dəstəkləndi. Belə ki, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı iqtisadi islahatlara dəstək verərək ölkəmizə maliyyə yardımı ayırdılar. Beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq şəraitində iqtisadiyyatın liberallaşdırılmasına yönələn radikal addımlar stabil xarakter aldı.

Sərt pul kredit büdcə siyasəti və valyuta bazarının liberallaşması, makro-iqtisadi sabitliyin təmin olunması mümkün oldu. Belə ki, əgər 1994-cü ildə inflasiya tempi 1800 faizə çatmışdırsa,1995-ci ildə vəziyyət dəyişərək həmin göstərici 84,6 faiz düşmüşdür. 1997-98-ci illrdə iqtisadi islahatların yeni mərhələsi struktur islahatlar başladı, dövlət bankların yenidən qurulması istiqamətində real addımlar atıldı.

Respublikamızda iqtisadiyyatında baş verən dəyişikliklər tezliklə öz bəhrəsini verdi. Belə ki, 1996-cı ildən ÜDM, 1997-ci ildən sənaye sferasında artım meyilləri baş verdi. ÜDM-in tempi 10%-ə çatdı və bu MDB məkanında ən yüksək göstərici idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi (10 may 2004-cü il) kimi: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan beynəlxalq təcriddən çıxdı. Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların üzvüdür, onlarda fəal iştirak edir. Bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür". Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Beləliklə, Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz və gücümüz artır. Bu bizə imkan verəcək ki, qarşımızda duran bütün məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin xidmətləridir [1].

1994-cü il sentyabrın 20-də Bakı şəhərində H.Əliyevin cəsarəti və səyləri sayəsində dünyanın 6 dövlətini təmsil edən 11 transmilli neft şirkətinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı neft ehtiyatları ilə zəngin olan “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənməsinə dair “Əsrin Kontraktı”nin imzalanması baş tutdu. Müstəqil təşkilatçılıq və idarəçilik bacarığına və fenomen analitik düşüncə təfəkkürünə malik olan H.Əliyev Azərbaycanın müasir Neft Strategiyasını yaratdı. **“Əsrin Kontraktı”nın imzalanması ilə müasir Neft Strategiyasının yaradıcısı və təşkilatçısıdır. H.Əliyev “Əsrin Kontraktı” ilə müasir Neft Strategiyasının əsasını qoydu. Heydər Əliyevin strateji baxışları ən azı yüz illik dövrə hesablanıb. Bununla da H.Əliyev Neft Strategiyasının banisi oldu.** Milli maraqlar baxımından “Əsrin Kontraktı” H.Əliyev siyasətinin təntənəsidir. H.Əliyevin Strateji baxışları fundamental təhlillərə və qiymətləndirmələrə əsaslanır.

Azərbaycan və region üçün həyati əhəmiyyət kəsb edən bu kontrakt sabitliyin təmin olunmasında müstəsna rol oynadı. Heydər Əliyevin qeyd etdiyi kimi "Əsrin müqaviləsi”nin imzalanması ilə Azərbaycan Xəzər dənizi və onun enerji ehtiyatlarını bütün dünyanın üzünə açdı. Bu hadisənin ölkənin gələcəyi üçün nə dərəcədə əhəmiyyətli olduğunu tarixçilər yazacaq”[2].

“Əsrin Kontraktı” ölkəmizin beynəlxalq aləmində nüfuzunu və çəkisini artırdı, iqtisadiyyatlara inteqrasiyasını sürətləndirdi, qlobal xarakterli yeni əməkdaşlığının yaranmasına təminat yaratdı. “Əsrin Kontraktı”nin imzalanması ilə Azərbaycanın XX-XXI əsrinin inkişafının yeni dövrü başlandı. 1999-cu ildə “Çıraq” yatağından “Əsrin Kontraktı” çərçivəsində neftin hasilatından gəlir əldə etməyə başladı. Belə ki, 1999-cu ilin dekabrında Azərbaycanın “mənfəət nefti” ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. “Əsrin Kontraktı” həm də yeni transmilli enerji layihələrinin həyata keçirilməsində qlobal rol oynamağa başladı. “Əsrin Kontraktı” ndan sonra 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalanmış və ölkəmiz beynəlxalq əməkdaşlıq, enerji sahəsində böyük uğurlar əldə etmişdir.

**H.Əliyevin Neft Strategiyası ölkəmizə nə verdi?**

- “Əsrin Kontraktı” ilə Neft Strategiyasının təməli qoyuldu.
- Neft Strategiyası ilk növbədə iqtisadi inkişafda katalizator rolunu oynadı, beynəlxalq-iqtisadi sistemə inteqrasiya prosesini sürətləndirdi, qlobal xarakterli yeni əməkdaşlığının yaranmasına təminat yaratdı.
- Sosial-iqtisadi sabitliyinin və dayanıqlığın yaradılmasına təkan verdi, xarici investisiyaların cəlb edilməsinə şərait yaratdı.
- Ölkənin müdafiə sənayesinin inkişafını, silahlı qüvvələrin inkişafını və artımını təmin etdi.
- H.Əliyev siyasətinin davamçısı, siyasi varisi, cəsarətli və qəhraman dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İ.Əliyev xüsusu ilə Neft Strategiyasının formalaşmasında və həyata keçirilməsində ən fəal və mühüm rol oynadı. O, H.Əliyev iqtisadi-siyasət konsepsiyasına müasir yanaşma və dinamik inkişaf gətirdi.

Məhz bu amillər ölkəmizdə uzun illər makro-iqtisadi sabitliyi, dayanıqlığı təmin etdi. 90-cı illərin ortalarından təməli qoyulan fundamental iqtisadi baza Azərbaycan xalqının rifahına və xoşbəxtliyinə hesablanmışdır.

*“Azərbaycan iqtisadi və əlbəttə, siyasi cəhətdən tam müstəqil ölkədir”.*
*İlham Əliyev*

*Güclü iqtisadiyyatın təməlində Azərbaycan Prezidentinin siyasi iradəsi durur*

Statistik məlumatlara görə, 1995-ci ildən ölkə dinamik inkişaf dövrünə daxil olmuşdur. 2005-ci ildə artıq Azərbaycanın ÜDM-i 90-cı ilin səviyyəsini 11% üstələyirdi. Ümumilikdə, itirilmiş iqtisadi potensialın tam bərpasına 14 il vaxt sərf olunmuşdur. Azərbaycanda transformasiya tənəzzülü digər keçid ölkələrilə müqayisədə dərin olsa da bərpa miqyası daha yüksək olmuşdur.

**Qrafik 1.**

**Ümumi daxili məhsulun artım tempi, %**




*Mənbə: DSK-nın milli hesablar sistemi üzrə məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Azərbaycan 3 ilə 54 yuxarı orta gəlirli ölkə arasında yer tutmuşdur. Təcrübədə isə orta gəlirli dövlətə çevrilmək üçün ölklələr orta hesabla 11 il vaxt sərf etmişlər. Dünya Bankının hesablamalarına görə Azərbaycanda adambaşına düşən ÜDM 2014-cü ildə 7600$-a çatmışdır. Paritet qiymətlərlə adambaşına düşən ÜDM-ə görə (17 min $) Azərbaycan 213 ölkə arasında 88-ci yerdədir.

"Neft strategiyası"-nın uğurlu realizasıyası Azərbaycanı dünyada “iqtisadi artım möcüzə”sinə çevirdi. İndiyədək “Əsrin kontraktı” daxil olmaqla 20-dən çox neft kontraktı imzalanmışdır. Neft sektoruna 1995-2014-cü illərdə 50 mlrd. AzN həcmində investisiya qoyulmuşdur. İllik neft hasilatı təxminən 42 mln. tona çatmışdır [6].Qlobal əhəmiyyətli Bakı-Tiflis-Ceyhan neft boru xətti və Cənub Qaz Dəhlizi istifadəyə verilmişdir. Bütün bunlar qeyri-neft sektorunun da inkişafına müsbət təsir göstərmişdir.

**Qrafik 2.**

**Neft hasilatı və ixracı**




*Mənbə: ADSK, DGK*

2011-ci ildə ümumi büdcəsi 45 mlrd dollar olan və Avropanın ən böyük infrastruktur layihəsi hesab olunan TAP və TANAP qaz kəmərləri layihələrinin əsası qoyuldu ki, bu da ölkənin regionda qüdrətinin daha artmasını şərtləndirir.

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bank sektorunun formalaşması və inkişafında böyük rol oynadı, bank-kredit sisteminin yenidən qurulması prosesi başlandı, dövlət bankları yenidən quruldu, özəl bankların kapitallaşmasına və konsolidasiyasına, bank infrastrukturunun formalaşmasına böyük önəm vermişdir. Heydər Əliyev siyasət dünyasının nəhəngi, fenomen şəxsiyyət, fenomen yaddaşa malik olan cəsarətli dövlət xadimidir.
2019-cu ildə Bank aktivlərinin strukturunda müsbət tendensiya müşahidə olunmuşdur. 2019-cu ildə bank sektorunun aktivləri 32722,8 mln. manat, təşkil etmiş, artım 3220,4 mln. manat və ya 10,9% təşkil etmişdir.

Bank sektorunun aktivlərində son illərdə müşahidə olunan azalma 2019-cu ildə artımla əvəzlənmişdir. 2019-cu ildə aktivlərin strukturunda əsas artım qiymətli kağızlar və maliyyə institutlarındakı depozitlər istisna olmaqla, digər göstəricilərdə artım baş vermişdir. Aktivlərin strukturunda əsas artim nostro hesablar üzrə 66,8 %, müştərilərə verilən kreditlər üzrə 18.0 %, nağd vəsaitlər üzrə 12,3 %, Mərkəzi Bankın müxbir hesabları üzrə 11,5 %, digər aktivlər üzrə 26,1 % olmuşdur.

*Kredit qoyuluşları* 18.0 % artaraq 15.298,2 mln. manata çatmışdır, o cümlədən milli valyutada 10000,8 mln. manat, xarici valyutada kreditlər 5297,4 mln. manat olmuşdur. İqtisadiyyata kredit qoyuluşlarının kredit təşkilatları üzrə strukturunda *milli və xarici kapitallı özəl banklar* cəmi kreditlərin 12339,4 mln. manata və ya 80,7 %-ə, *dövlət bankları* 2561,5 mln. manata və ya 16,7 %-ə, *qeyri –bank kredit təşkilatları* 397,2 mln. manata və ya 2,6 %-ə malik olmuşlar.

Ölkə əhalisinin maliyyə xidmətlərinə çıxış imkanları genişlənmişdir. 01.01.2020- ci il tarixinə müştərilərin bank hesablarının sayı 19280,1 min təşkil etmiş və ya 7,4% artım baş vermişdir, o cümlədən cari hesabların sayı 16091,4 min təşkil etmiş və ya 7,6% artım baş vermişdir.

Bu təsirlərə baxmayaraq, bank sektorunun maliyyə dərinliyi (aktivlərin qeyri-neft UDM-nə nisbəti) 2017-ci ildə 69,8%, 2018-ci ildə 70,9%, 2019-cu ildə 73,6% təşkil etmişdir. Bununla da iqtisadi artımda bankların rolu gücləndi, bank sektorunun aktivləri 2017-2019-cu illərdə 17,2% artaraq 32722,8 mln manata, kredit portfeli isə 31,4% artaraq 15298,8 mln manata çatmışdır. Nəticədə bank sektorunda maliyyə dərinliyi də artdı, aktivlərin UDM-ə nisbəti 2017-ci ildə 40,0%-ə, 2018-ci ildə 37,0%-ə, 2019-cu ildə 40,1%-ə (2005:18%), kreditlərin UDM-ə nisbəti isə uyğun olaraq 2017-ci ildə 16,2%-ə, 2018-ci ildə 15,8%-ə, 2019-cu ildə 18,2%-ə yüksəldi (2005: 11,5%).

**Qrafik 3.Bank aktivlərinin ÜDM-ə nisbəti, %**




*Mənbə: ADSK, AMB-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır*

Bank aktivlərinin UDM nisbəti 2015-2019- cu illər üzrə nəticələri göstərir ki, aktivlərin həcmində ciddi dəyişiklik baş verməmişdir (Qrafik 3, son 2017-2019-cu illərdə bu göstərici 40,0 % səviyyəsini keçməmişdir, həmin dövrdə UDM həcmində artım 16,5 % təşkil etdiyi halda, bank aktivləri 17,2 % artmışdır. Araşdırmalar göstərir ki, bankların kapitalizasiyası və problemli aktivlərin sağlamlaşdırılması sektorun likvidliyinə və inkişafına öz təsirini göstərəcəkdir.

*Biznes kreditlərinə*olan təklifin artması bankların kreditə tələb gözləntilərinin yüksək olması, faiz dərəcələrinin azaldılması ilə bağlıdır.

2019-cu ildə biznes kreditlərinin həcmi 9031,6 mln. manat təşkil etmişdir. Bu kreditlərin kredit portfelində xüsusi çəkisi 60,6 % olmuşdur. Biznes subyektləri kreditin bu növünə ehtiyatla yanaşsalar da, hazırda hər bir sahibkar biznes imkanlarını genişləndirmək üçün bankların bu imkanlarından yararlanmaq istəyir. Nəzərə almaq lazımdır ki, digər bank əməliyyatları kimi biznes kreditləşməsi də bir sıra risklərə məruz qalır. Belə ki, borcalan risklərlə üzləşdikdə və baş verdikdə o kredit üzrə öhdəliklərini yerinə yetirə bilmir. Bu zaman girovun reallaşdırılması tələbi ortaya çıxır. Biznes kreditləşməsini həyata keçirərkən kommersiya bankları riskləri yaradan səbəbləri ətraflı araşdırmalı, sahibkarın əmlakının dəyərini və borc alanın kredit qabilliyətini düzgün qiymətləndirməli, risklərdən tam qaçmaq mümkün olmasa da riskləri minimallaşdırmalıdır.

2019-cu il ərzində kredit qoyuluşları əsasən *uzunmüddətli kreditlər* hesabına artmışdır. Belə ki, qısamüddətli kreditlər 8,3 % artdığı halda, uzunmüddətli kreditlər 19,8 % artmışdır.

01.01.2020 tarixinə uzunmüddətli kreditlərin ümumi portfeldə payı 80,9 % , qısamüddətli kreditlərin payı isə 19,1 % olmuşdur (01.01.2019 tarixinə müvafiq olaraq 79,3 % və 20,7 % ).

Bank *sektorunda kredit portfelinin artımı fiziki və hüquqi şəxslərin depozitlərinin artması* hesabına baş vermişdir.

Son illərdə əhaliyə verilmiş kreditlərin həcmi və borc alanların sayı müntəzəm sürətdə artır, belə ki, banklar arasında rəqabətin artması, yeni artım drayverlərinin axtarışı *istehlak kreditləri* sahəsində aktivliyin artmasına səbəb olmuşdur. Bank bazarında istehlak kreditlərinin müsbət makroiqtisadi və sosial təsirləri ilə bərabər izafi borclanma ilə bağlı potensial risklərin də artması gözləniləndir.

2020-ci ilin əvvəlinə bank sektorunun öhdəlikləri 10,6% (2019-cu ilin əvvəlinə 5,0%) artaraq 28139,8 mln. man olmuşdur. 2019-cu ildə hüquqi və fiziki şəxslərdən cəlb olunmuş **depozlərin həcmi 14,8% artaraq 21326,7 mln** .man çatmış, cəmi öhdəliklərin 75,8%-ni təşkil etmişdir. 2019-cu il ərzində əhali əmanətləri 2,9% artaraq 8508,0 mln.manatı ötmüş ,bank sektorunun öhdəliklərində xüsusi çəkisi 30,2 % təşkil etmişdir. Həmin dövrdə müddətli əmanətlər 179,7mln.man (3,3%), tələbli əmanət isə 58,6 mln.man (2,1 %) artmışdır. Milli valyutada əmanətlərin xarici valyutada əmanətlərlə müqayisədə də daha sürətlə artması prosesi davam etmişdir. 2019-cu ildə milli valyutada 31,5% artaraq ümumi əmanətlərin 47,8%-ni təşkil etmişdir. Xarici valyutada əmanətlər 14,0% azalsa da , ümumi əmanətlərin həcmində xüsusi çəkisi 52,2% təşkil etmişdir. Aşağı inflyasiya və balanslı valyuta bazarı de-dollarlaşma prosesinə öz müsbət təsirini göstərmişdir. Fiziki şəxslərin əmanətləri üzrə dollarlaşma ilin əvvəlindən 62,5 %-dən 52,0%-ə enmişdir [5].

İqtisadiyyat sektorunun şaxələnməsi səviyyəsinin yüksəkliyi məzənnə rejiminin tətbiq edilməsinə imkan yaradır. Ölkəmizdə bu sahədə yeniliklər davam etməkdədir. Son 10 ildə dollarlaşma səviyyəsində azalma meyilləri davam etmişdir. Belə ki, bank kreditləri üzrə xarici valyuta da verilmiş kreditlərin xüsusi çəkisi həmin dövrdə 66,6%-dən 29,2%-ə, depozitlərdə xarici valyutanın xüsusi çəkisi 84,2%-dən 34,8% düşmüşdür.

Qrafik 22. Dollarlaşma, %




*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankın Pul siyasəti icmalı №4, 2019-cu il. səh.34*

2019-cu ildə də bank depozitlərinin dollarlaşma səviyyəsində azalma meyilləri müşahidə olunmuşdur (Qrafik 22. Dollarlaşma "MB Pul siyasəti 2019"). Belə ki, il ərzində milli valyutada əmanət və depozitlər 24.1%, xarici valyutada isə 12.9% artmışdır. Xarici valyutada əmanət və depozitlərin M3 pul aqreqatında xüsusi çəkisi 2018-ci ilin sonunda 39.1% olduğu halda, 2019-cu ilin sonuna 36.8%-ə düşmüşdür, 01.01.2016-cı il tarixində bu göstərici 59,2% təşkil etmişdir. Xarici valyutada depozitlərin cəmi depozitlərdə xüsusi çəkisi 2018- ci ilin sonunda 57.2%-dən 2019-cu ilin sonuna 54.9%-ə enmişdir, 01.01.2016-cı il tarixində bu göstərici 76,4% təşkil etmişdir.

Bütünlüklə bank sektoru üzrə dollarlaşmanın ciddi şəkildə azalması hüquqi və fiziki şəxslərin strukturunda baş verən dəyişikliklər ilə əlaqədar olmuşdur. Belə ki, hüquqi şəxslərin depozitlərinin dollarlaşma səviyyəsi 2018-ci ildəki 66.4%- dən 2019-cu ulin sonuna 65.6%-ə, fiziki şəxslərin əmanətlərində xarici valyutanın payı 2019-cu ilin əvvəlindəki 62.5%-dən ilin sonunda 52.2%-ə düşmüşdir. Bank sektorunun sağlamlaşdırılması və kapitallaşdırılması nəticəsində görülən tədbirlər hesabına 01.01.2020-ci ildə bankların ümumilikdə 511.2 mln. manat məbləğində kapitalı artmışdır.

Pandemiya ilə əlaqədar 2020-ci il ərzində ümumilikdə banklar tərəfindən 1.2 mlrd. manat məbləğində 52 minə yaxın kredit restrukturizasiya olunmuşdur və bu proses davam etməkdədir.

Qısa müstəqillik dövründə Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrildi, beynəlxalq qurumlar tərəfindən dünyanın etibarlı tərəfdaşı kimi qəbul edildi.. Azərbaycanın stabil inkişafı ölkənin daxili resursları hesabına təmin edilir, artıq Azərbaycan dünyada güclü iqtisadiyyata malik ölkə kimi tanınır və respublika iqtisadiyyatının bütün sahələrində inkişaf davam edir. Böyük infrastruktur layihələr mərhələlərlə öz həllini tapır.

Son 15 ilin nəticəsidir ki, respublikamızda yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyat formalaşmışdır. Bugünki güclü iqtisadiyyat Azərbaycanın inamlı və davamlı inkişafının təməl daşıdır. Məhz dayanıqlı və təminatlı iqtisadiyyat əsas verir ki, Azərbaycan heç bir ölkədən və beynəlxalq maliyyə qurumlarından asılı olmasın. Bunu faktlar da sübut edir. *Güclü iqtiadiyyat xarici mənfi təsirlərin miqyasını neytrallaşdırır və iqtisadi prosesləri durmadan stimullaşdırır*. Bunu son 15 ilin faktları da sübut edir. Belə ki, son 15 ildə (2003-2018-ci illər) ölkə Prezidenti İlham Əliyev tərəfindən qarşıya qoyulan strateji hədəflərə nail olunmuşdur. Bu dövrdə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmış, valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 2018-ci ildə 46 milyard dollara çatmışdır, strateji valyuta ehtiyatları ÜDM-in 98%-ni təşkil etmişdir. Bu onu göstərir ki, *Azərbaycan dövləti bir neçə illik ehtiyacların ödənilməsi ilə bağlı ehtiyat yastığına* malikdir. Hazırkı dövrdə heç bir dövlət iqtisadiyyatına sərmayə cəlb etmədən inkişaf tapa bilməz. *Azərbaycanın xarici borcu ümumi daxili məhsulun təxminən 19 faizini təşkil edir. Ölkəmizin ehtiyatları xarici borcumuzu beş dəfə üstələyir.*

Ölkə Prezidenti İlham Əliyevin cəsarətli və qabaqlayıcı siyasi addımlarının və iqtisadiyyatda aparılan köklü dəyişikliklərin bariz nəticəsi olaraq Azərbaycan iqtisadiyyatına son 15 ildə (2003-2018-ci llər) 260 milyard dollarlıq investisiya qoyulmuşdur. Bunun yarısını xarici investisiya təşkil edir. Belə bir həcmdə investisiya qoyuluşundan yararlanan Azərbaycan, eləcə də qlobal layihələrin iştirakçısı olan Türkiyə və Gürcüstan dövlətləri böyük divident əldə etdiyi halda, Cənubi Qafqaz regionunun ən zəif ölkəsi olan təcavüzkar Ermənistan təbii ki, bu layihələrdən kənarda qalmış, ölkə ciddi şəkildə siyasi və iqtisadi böhrana məruz qalmış, işsizliyin və yoxsulluğun səviyyəsi pik həddinə çatmışdır.

Həmin nəticələrin əldə olunmasında dövlət başçısının apardığı uzaqgörən siyasəti fundamental rol oynayır. Həmçinin Avropa ölkələri ilə uğurlu tərəfdaşlıq, ABŞ kimi nəhəng super dövləti və Birləşmiş Krallıq hökümətləri tərəfindən neft-qaz layihələrinə verilən güclü dəstək böyük əhəmiyyətə malikdir.

İqtisadiyyatın inkişafı nəqliyyat, yanacaq və ərzaq təhlükəsizliyi təmin edilmədən mümkün deyildir. Ölkə prezidenti bu prioritet sahələri paralel şəkildə inkişaf etdirmək üçün düşünülmüş siyasətlə ölkənin iqtisadi inkişafina nail oldu. Səmərəli iqtisadi siyasət nəticəsində bu dövrdə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmişdir. 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən **Bakı-Tbilisi-Ceyhan** əsas ixrac neft kəməri, 2007-ci ildə **Bakı-Tbilisi-Ərzurum** qaz kəməri istifadəyə verildi. 2014-cü il sentyabrın 20-də isə Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli yer tutacaq, həmçinin Azərbaycanın perspektiv inkişafında siyasi nüfuzunun artmasında böyük rol oynayacaq **Cənub Qaz Dəhlizinin** təməli qoyuldu. Səngəçal terminalında **Cənub Qaz Dəhlizinin** 29 may tarixində Azərbaycan Prezidenti tərəfindən rəsmi açılışı və işə salınması **Ulu ÖndərHeydər Əliyev** cənablarının yaratdığı neft strategiyasının təntənəsinin nəticəsidir. Bu gün **Cənub Qaz Dəhlizi** layihəsi geosiyasi kontekstdə Azərbaycanın ən böyük nailiyyətidir. Bir düymənin işə salınması ilk qazın **Cənubi Qafqaz Dəhlizinə** verilməsi nəinki ölkəmizin, eyni zamanda 11 ölkənin və digər xarici şirkətlərin uğurudur.

**Cənub Qaz Dəhlizi** dünyanın ən böyük layihələrindən biri olaraq Azərbaycanı Avropaya birləşdirir. Bu layihənin həyata keçirilməsi Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliyanın siyasi-iqtisadi xəritəsində böyük dəyişikliklərə gətirib çıxaracaq. Rumıniya və Türkmənistanın nümayəndə heyətlərinin bu toplantıda iştirakı layihəyə böyük əhəmiyyət kəsb etdiyini göstərir.

Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu nəhəng layihə 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan **TANAP** boru kəmərinin rəsmi açılışı olmuşdur. Yaxın zamanda **TAP** layihəsinin də reallaşdırılması gözlənilir. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynamış, **müstəqil Azərbaycanın banisi Heydər Əliyevin şah əsəri** olan *"**Əsrin müqaviləsi**"*nin – "Xəzər dənizinin Azərbycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. Yeni şərtlərə görə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi müqavilədə təsbit olunaraq icrasına başlanmışdır. Respublikamızda müasir sənaye quruculuğu siyasəti önəmli yer tutur. 2014-cü ilin dekabrında təsdiq edilmiş *"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"*na uyğun olaraq, ölkəmizin paytaxtında və regionlarda yeni sənaye müəssisələri yaradılır, Pirallahı, Sumqayıt, Mingəçevir və digər ünvanlarda *sənaye parkları* formalaşdırılır. Ölkəmiz qısa müddətdə orbitə üç peyk çıxardaraq dünya kosmos ailəsinin üzvünə çevrilmişdir. Artıq ölkədə kosmik senaye sahəsi yaradılıb, Azərbaycan kosmik ölkələr klubunun üzvüdür və dövlət tərəfindən bu sahəyə böyük diqqət yetirilir. Azərbaycanda **İKT**-nin inkişafı üzrə görülmüş işlər beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmaqdadır. Belə ki, statistik məlumata əsasən Azərbaycan Dünya İqtisadi Forumunun "*Qlobal İnformasiya Texnologiyaları 2016*" hesabatında "*Şəbəkələşmə Hazırlığı İndeksi*"nə görə əvvəlki mövqeyindən 4 pillə irəliləyərək dünyanın 139 ölkəsi arasında 53-cü yerə yüksəlmişdi.

Son illərdə istifadəyə verilən bir sıra nəhəng istehsalatlar milli iqtisadiyyatımızın gücünü daha da artırıb. 2018-ci ildə Türkiyədə Azərbaycanın sərmayələri hesabına inşa olunan nəhəng **"Star"** neft emalı zavodu və 2018-ci il iyulun 18-də **"SOCAR Polymer"** yüksəksıxlıqlı polietilen zavodu, istifadəyə verildi. Sumqayıt Kimya Sənaye Parkının ərazisində 2019-cu ilin yanvar ayında istifadəyə verilən **"SOCAR karbamid"** zavodunun istehsala başlaması isə ölkəmizdə azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, ölkənin ixrac imkanlarını daha da artıracaq, bununla da xarici valyuta məsrəfini azaldacaq. Zavod ildə 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək.

**Bakı-Tbilisi-Qars** dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil, eyni zamanda, Asiya və Avropa qitələrini birləşdirir. Bu dəmir yolu Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm hissəsidir. Bundan başqa, Azərbaycan Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları istifadəyə verilmişdir. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni **Ələt-Astara-İran İslam Respublikası** ilə dövlət sərhədi magistral avtomobil yolunun istismarına başlanması ilə Azərbaycan öz ərazisində **"Şimal-Cənub"** nəqliyyat dəhlizi layihəsinin reallaşması istiqamətində bütün işləri çox böyük uğurla başa çatdırmışdır. Müasir nəqliyyat infrastrukturunun yaradılması və inkişaf etdirilməsi Azərbaycanın prioritet istiqamətlərindən biridir. Azərbaycan ərazisində son 15 ildə 15 min kilometr yol və avtomagistrallar çəkilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə Azərbaycan yolların keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

Ölkəmizdə 2018-ci ilin ikinci yarısından islahatların aparılması üçün fəal iş aparıldı və 2019-cu ilin əvvəlindən geniş miqyaslı islahatlara start verildi.

Ölkə əhalisinin rifahını yüksəltmək, sosial müdafiəsini təmin etmək, dövlətin sosial-iqtisadi konsepsiyasının prioritetlərindəndir. Dünyada baş vermiş *maliyyə-iqtisadiböhran* ölkəmizdən də yan keçməmiş. Qlobal böhranın ölkə iqtisadiyyatına təsirləri borc alanların ödəmə qabiliyyətinin zəifləməsinə, kredit təşkilatlarından xarici valyutada borc almış vətəndaşların bank sistemi qarşısında vaxtı keçmiş kreditlər üzrə öhdəliklərinin artmasına və bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məsələlərə məhkəmə qaydasında baxılma hallarının çoxalmasına gətirib çıxarmışdır. *Son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması, maliyyə imkanlarının genişlənməsi* Ölkə Prezidenti humanist addımları hesabına problemli kreditlər məsələsi həllini tapdı. Ölkə rəhbəri tərəfindən çox ciddi qərar qəbul edildi, bu vətəndaşların maraqlarını maksimum nəzərə alan qərar oldu. Təqribən 800 minə yaxın fiziki şəxs bu fərmandan faydalanacaq.

Bütövlükdə bank sektorunun sağlamlaşdırılması üçün problemli aktivlərin tənzimlənməsi, bankların kapitallaşdırılması və banklararası bazarın inkişaf etdirilməsi mexanizmləri təkmilləşdirilməlidir.

ƏDƏBİYYAT

1. D.Vəliyev. Məqalələr 2016-2020. Azərbaycan suverenik epoxasına hazırlamış və onun müstəqilliyini təmin etmiş lider. Xalq qazeti.-2019.-16 iyul.-N152.-S.1,3. https://files.preslib.az/projects/toplu/v2/f6_2_3.pdf
2. İ.QocayevHeydər Əliyev və iqtisadi islahatlar.https://sherg.az/xəbər/29605/
3. M.Alişanova Heydər Əliyev İqtisadi Müstəqilliyimizin Banisidir. Çinar-Çap nəşriyyatı. Bakı, 2006, Səh.15
4. V.Novruzov Heydər Əliyevin iqtisadi siyasətində şəffaflıq amili və təhlükəsizlik siyasəti mərhələdə. Respublika.-2020.-8 may.-N90.-S.10. Məqalələr 2016-2020-ci illər. https://files.preslib.az/projects/toplu/v2/f6_2_3.pdf)
5. 2019-cu il üçün Mərkəzi Bankın illik hesabatı səh. 6
6. https://www.stat.gov.az/source/system_nat_accounts/
7. Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankın Pul siyasəti icmalı №4, 2019-cu il. səh.34

**Dos. Mahmudova İlhamə Məhəmmədnəbi qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Email: a_murad97@mail.ru*

## QEYRİ-NEFT SEKTORU İNKİŞAFININ HEYDƏR ƏLİYEV İQTİSADİ STRATEGİYASINDA YERİ VƏ ROLU

**Xülasə**

İntibah yolunda olan hər bir xalq dünya reallığına nəzərən gələcək inkişaf prioritetlərini düzgün müəyyənləşdirmək üçün, ilk növbədə zaman və məkan daxilində keçdiyi yolun uğurlu nəticələrindən bəhrələnməyə çalışır.

Bugünlər Azərbaycan xalqı Ümummilli liderimiz, müasir Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin 98 illik yubileyinə hazırlaşır. Müstəqillik tarixinin şərəfli dövrünü yaşayan Azərbaycan bütün istiqamətlərdə özünün qazandığı möhtəşəm uğurlara görə Ulu öndərimiz Heydər Əliyev şəxsiyyətinə borcludur. Zaman keçdikcə dahi insanların, siyasətçilərin, liderlərin böyüklüyü və uzaqgörənliyi, bir sözlə əzəməti daha aydın olur, atalar demişkən: “dağdan uzaqlaşdıqca onun böyüklüyü, əzəməti daha aydın görünür”, başqa sözlə, Heydər Əliyev dövründən nə qədər çox vaxt keçirsə, onun ideyalarının möhtəşəmliyi, Azərbaycanın bu günü və gələcəyi üçün əhəmiyyəti daha da artır.

Azərbaycanın iqtisadi və sosial inkişafı, iqtisadi təhlükəsizlik və dünya inteqrasiya sisteminə daxil olması dayanıqlı inkişaf strategiyasını əhatə edir. Bu baxımdan inkişafın əsas amili insan kapitalı, onun davranışı iqtisadi fəaliyyəti və mənəvi-maddi resursların artımına təsir edən bacarıqlı sistemi təşkil edir.

***Açar sözlər:*** qeyri-neft sektoru, davamlı inkişaf strategiyası, neft strategiyası, inklüzivlik, sosial rifah

Azərbaycanın müstəqillik illərinin uğuru respublikamızın heç bir dövlət və beynəlxalq təşkilatdan asılı olmadan müstəqil siyasət yeritməsi, milli maraq və mənafeyini müdafiə etməsidir. Müxtəlif dövrlərdə insanların tələbat sistemi, insan kapitalının formalaşması müasir şəraitdə strateji planlaşdırma və idarəetmə sisteminin meyarı olaraq istifadə olunur. Azərbaycan iqtisadiyyatının sosial bazası 1996-cı ildən başlayan dayanıqlı inkişaf və yüksək artım sürətilə genişlənir. Respublikamızda neft və qeyri-neft sektorlarının yüksəlişi iqtisadiyyatın davamlı olaraq ümumdaxili məhsul, büdcə və valyuta ehtiyatlarını ildən-ilə artmasını göstərir. Həmçinin bu dövrlər ərzində sahibkarlığın inkişafı, enerji təhlükəsizliyi, yeni infrastruktur sahələri inkişaf etmişdir. Əsasını Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş davamlı inkişaf strategiyası müstəqil Azərbaycanın siyasi və iqtisadi simasını müəyyən edir. Sürətli intibah yolunda qarşıya qoyulan hədəflərə inamla yetişən bütün sahələrdə respublikamızı beynəlxalq aləmdə ildən-ilə möhkəmləndirir və ümumregion əhəmiyyətli qlobal layihələri daxili imkanları hesabına gerçəkləşdirir. Azərbaycanın iqtisadi durumuna nəzər yetirdikdə Heydər Əliyev dühasına, onun formalaşdırdığı və reallaşdırdığı iqtisadi strategiyanın uzaqgörənliyinə, müxtəlif situasiyalarda onun davamlılığına heyran olmaya bilməyəsən. Belə ki, Heydər Əliyev Azərbaycanın müstəqil dövlət kimi formalaşması və inkişafı ilə bağlı bütün istiqamətlər üzrə həyata keçirdiyi çoxşaxəli analitik düşüncəyə və uzaqgörən zəkaya malik bir şəxsiyyət olduğunu sübut edir.

Heydər Əliyevin siyasi iradəsi, təşkilatçılığı və bilavasitə rəhbərliyi Azərbaycanda formalaşdırılan və reallaşdırılan milli iqtisadi inkişaf modelinin prinsiplərində transformasiya dövrünü yaşayan ölkələrdə zərurətini və əhəmiyyətini sübut edir. Azərbaycanın qlobal və regional proseslərə fəal qoşulması müasir dövrdə ölkəmizin milli xüsusiyyətlərini, iqtisadi gerçəkliklərini, ölkənin təbii-maddi əmək resurslarından səmərəli istifadə edilməsi əlverişli investisiya, innovasiya və sahibkarlıq mühitini yaratmaqla milli iqtisadiyyatın inkişafına nail

olması Heydər Əliyev iqtisadi modelinin fundamental prinsiplərindəndir. Azərbaycanın bugünkü uğurlarının əsl mənbəyi 1993-2003-cü illərdə formalaşdırılan və reallaşdırılan siyasət nəticəsində yaradılmış iqtisadi zəmin olmuşdur. Məhz bu dövrlərdə Azərbaycanda ictimai-siyasi sabitliyin, sosial-iqtisadi inkişafın təməli qoyuldu. Heydər Əliyevin böyük səyi, iradəsi və idarəçilik məharəti sayəsində ölkədə qısa müddət ərzində əldə olunan makroiqtisadi, siyasi sabitlik, habelə müstəqil Azərbaycanın Konstitusiyasının qəbulu iqtisadi sistemin transformasiyası ilə bağlı iqtisadi islahatların hüquqi bazasının yaradılmasına, sosial-iqtisadi inkişafda prioritetlərin seçilməsinə, cari və perspektiv məqsədlərin reallaşdırılmasının taktiki və strateji strategiyasını müəyyənləşdirməyə imkan verdi. Heydər Əliyev bir qayda olaraq sosial-iqtisadi vəziyyəti obyektiv qiymətləndirir, makroiqtisadi sabitliyə nail olmaq üçün qabaqlayıcı, privintiv tədbirlər görməklə, digər MDB ölkələrindən fərqli olaraq, belə bir mürəkkəb, ziddiyyətli şəraitdə gecikmə effektini minimuma endirdi. Onu da qeyd etmək lazımdır ki, Ümummilli liderimiz ölkəmizdə bu dövrdə həyata keçirilən bütün sistem dəyişikliklərinin istisnasız şərtini milli və iqtisadi təhlükəsizliyin təmin olunması hesab edirdi. Heydər Əliyev gözəl bilirdi ki, müstəqil dövlətə çevrilən Azərbaycanda sistemin transformasiyasını nisbətən daha qısa müddətdə və mümkün qədər az sosial itkilərlə həyata keçirmək üçün qarşıya qoyulan məqsədə çatmağın yollarını, prinsiplərini və imkanlarını dəqiq, aydın müəyyənləşdirmək lazımdır. Belə ki, Heydər Əliyevin milli iqtisadiyyatın formalaşması və inkişafı ilə formalaşdırdığı iqtisadi siyasətin ana xətti onun neft strategiyası və "Əsrin müqaviləsi"nin bağlanması təşkil edirdi. Bu baxımdan Ulu öndər Heydər Əliyev tərəfindən işlənilən və uğurla həyata keçirilən neft strategiyası Azərbaycanın dərin iqtisadi böhrandan çıxmağın, iqtisadi təhlükəsizliyin və sabitliyin, regional əməkdaşlığın inkişafının, son nəticədə ölkəmizdə sabit və davamlı inkişafın təmin edilməsinin ümumi əsası hesab edilməlidir.[3]

Ulu öndər böyük intellektual potensialına əsaslanaraq ölkəmizin qarşısında duran problemlərin həlli strategiyasını müəyyənləşdirərkən, milli iqtisadiyyatın dinamik və davamlı inkişafının müvafiq bazasının yaradılmasına xüsusi diqqət yetirirdi. Buna görə də Azərbaycanın bir müstəqil dövlət kimi təşəkkülü və inkişafı ilə bağlı həyata keçirtdiyi siyasət böyük uğurlarla nəticələnmişdir.

Bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev fenomen şəxsiyyət kimi dünyanın görkəmli simaları arasında seçilib. Bu gün Azərbaycanda milli iqtisadiyyatın formalaşması və inkişafı sahəsində əldə etdiyi uğurlar bir daha əyani sübut edir ki, Ulu öndərin bilavasitə təşəbbüsü, iştirakı və rəhbərliyi ilə formalaşdırılan və həyata keçirilən iqtisadi siyasət mövcud reallıqlar şəraitində optimal və ən başlıca düzgün istiqamətlənmiş yeganə bir siyasətdir. Məhz onun rəhbərliyi altında Azərbaycanda dövlətçilik ənənələri qurulmuş, müstəqilliyimiz möhkəmlənmiş, zəruri siyasi, iqtisadi islahatlar aparılmış, ölkədə demokratik proseslər dönməz xarakter almışdır. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və ölkəmizin dövlətçilik tarixində yeni mərhələnin əsasını qoymuş sosial-iqtisadi inkişaf kursu 2003-cü ilin oktyabrın 31-dən başlayaraq onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən varislik prinsipini əsas götürməklə dahi uzaqgörənliklə, yaradıcılıqla inkişaf etdirir. İlham Əliyev uzunmüddətli strategiya ilə sosial dayanıqlığı, ədalətli bölgü sistemini, hər bir Azərbaycan vətəndaşının inkişafı strategiyasını əsas götürür.

İlham Əliyevdə siyasi lider üçün zəruri keyfiyyətlərin olduğunu böyük müdrikliklə və dəqiqliklə hiss edən Heydər Əliyev qeyd etmişdir ki, hər bir peşə üçün hansısa genetik qabiliyyət olmalıdır, bu hərkəsdə olmur, onda isə var. "O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda sıx işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm."

Cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyindən ötən dövr ərzində dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, milli sahibkarlığın, istehsalın, regionların inkişafı əsasında ölkəmizdə dünyəvi, demokratik hüquqi dövlətin formalaşdırılması, dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunması, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi, xalqın həyat səviyyəsinin yüksəldilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində gördüyü işlər, nəhayət sosial-iqtisadi inkişafda əldə olunmuş yüksək nəticələr birmənalı sübut edir ki, ulu öndər öz seçimində əsla yanılmamışdır.[8]

Bu gün ölkədə inkişafın müsbət dinamikasının təmin edilməsi, iqtisadi potensialın möhkəmləndirilməsi, dərinləşdirilməsi və onlardan istifadənin səmərəliliyinin yüksəldilməsi, makroiqtisadi sabitliyə və artıma nail olunması, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi, investisiya mühitinin yaxşılaşdırılması və təşviqi, qeyri-neft sektorunun, rəqabət qabiliyyətli, ixracyönümlü yerli istehsalın inkişafı üçün möhkəm zəmin yaradır. Bazar iqtisadiyyatının prinsiplərinə uyğun islahatların dərinləşməsi, habelə regionların resurslarının təsərrüfat dövriyyəsinə cəlb olunması, onların kompleks və sürətli sosial-iqtisadi inkişafına nail olunması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyası, Azərbaycanın bölgənin aparıcı ölkəsinə çevrilməsi, son nəticədə ölkəmizin iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi və ölkəmizdə rəqabət qabiliyyətli davamlı inkişafa nail olunması ölkədə həyata keçirilən iqtisadi siyasətin həmin proqramların uğurla reallaşdırılmasının məntiqi sosial-iqtisadi nəticəsi hesab edilməlidir.

Respublikanın son 28 ildə inamla gerçəkləşdirdiyi milli inkişaf modelinin konkret elmi prinsiplər əsasında – nəzəri-metodoloji aspektdə tədqiqi xüsusi əhəmiyyət kəsb edir. İqtisadi nəticələr üzərində dayanaraq əminliklə demək olar ki, hazırda Azərbaycanda bazar iqtisadiyyatının bütün zahiri əlamətləri mövcuddur.

Vaxtilə Ulu öndərimiz tərəfindən təməli qoyulmuş «Uğur modeli» bu gün prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü, qətiyyətli, sistemli, elmi cəhətdən əsaslandırılmış, ölkəmizin iqtisadi-sosial həyatının bütün sahələrində ardıcıllıqla və yüksək səmərəliliklə həyata keçirilir.

Bununla bağlı ölkə prezidenti iqtisadi inkişafın cari və perspektiv məsələləri həll edərkən prinsipial müddəadan çıxış edir ki, mövcud imkanlar daxilində hərəkətə gətirilə bilən potensial resurslar şəraitində onların elə bölgüsü optimal hesab edilməlidir ki, onlar bir tərəfdən cəmiyyətin bugünkü sosial-iqtisadi tələbatını yaxşı ödəməyə imkan versin, ən başlıcası isə tələbatların perspektivdə daha yaxşı ödənilməsinin maddi əsaslarını zəiflətməsin.

AR-da son zamanlarda ölkədaxili iqtisadiyyatda əsasən sənaye və neft sənayesinin üstün tərəqqisi özünü açıq şəkildə göstərdiyi bir şəraitdə qeyri-neft sahəsinində aktiv hal alması məqsədilə böyük tədbirlər həyata keçirilmiş, dövlətin bu istiqamətdə apardığı iqtisadi siyasəti daha da gücləndirilmiş, çoxsaylı Prezident Fərmanları və Sərəncamları qəbul olunmuş, Dövlət Proqramları, Strategiyalar və Konsepsiyalar gerçəkləşdirilmişdir. Belə tədbirlərin əksəriyyəti günümüzdə icra proseslərini yaşayır. Qeyri-neft sektoru üzrə bir qnıp dövlət dəstəyi mexanizmləri hazırlanmışdır. Əsasən, regionların tərəqqisi, KT məhsullarının istehsalçılarının dəstəklənməsi üçün iri infrastruktur proyektləri təşkil edilmiş, lizinq yolu ilə texniki təminat təşkil olunmuş, gübrələrlə təchizat sistemi ərsəyə gətirilmiş, xüsusi anbarlar istifadəyə verilmiş, asfalt yollar salınmış, yeni müəssisələr tikilmiş və s. həvəsləndirici bir çox tədbirlər görülmüşdür.

Azərbaycana bazar iqtisadiyyatı modelinin aşağıdakı kimi qruplaşdırmaq olar:

- yüksək özünütəmiretməyə malik, geniş milli təkrar istehsalı təmin etməyə, milli maraqları həyata keçirməyə qabil olan suveren iqtisadiyyat;

-“standart” bazar iqtisadiyyatları ilə müqayisədə dövlətin tənzimləyici rolunun daha güclü olması;

- mülkiyyət formalarının çoxnövlülüyü – strateji mühüm sahələrdə dövlət mülkiyyətinin rolu da daxil olmaqla;

- təsərrüfat formalarının, yüksək dərəcədə bir yerə cəmlənmiş istehsal strukturlarının xüsusilə də, təbii inhisar sahələrində, mühüm əhəmiyyətliyi də daxil olmaqla rəngarəngliyi;
- iqtisadiyyatın yüksək dərəcədə sosialyönümlülüyü və iqtisadi həyatda sosial-mənəvi aspektlərdən fəal istifadə;
- innovasiyalı, diversifikasiyalı olunmuş iqtisadiyyat;
- bütün təzahürlərində güclü post-sənaye bölməli iqtisadiyyat;
- özündə dünyaya açıqlıq dərəcəsini milli iqtisadi təhlükəsizlik və milli maraqlarla;
- ölkə əmtəə istehsalçılarının da daxil olmaqla – uzlaşdıran açıq iqtisadiyyat.[4]

AR-nın müasir iqtisadi siyasəti iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun tərəqqisinə, dayanıqlı və rəqabətqabliyyətli milli iqtisadiyyatının yaradılmasına yönəldilmişdir. Milli iqtisadiyyatda mənfi təsirləri minimuma endirmək, makroiqtisadi sabitliyi qorumaq Azərbaycan dövlətinin prioritet məsələlərindəndir. AR dövlət başçısı İ.Əliyevin başçılığı ilə irimiqyaslı struktur islahatları genişləndirilmiş, ölkənin perspektiv inkişaf hədəfləri müəyyən edilmişdir.

BMT-nin Milli Bəyannaməsində, Baş Assambleyasının 2030-cu ilədək dayanıqlı inkişafa dair qətnaməsində sosial problemlərin, xüsusən təhsil, səhiyyə, biliyə əsaslanan cəmiyyətin formalaşması sahəsində məqsədlərin həllini qeyd olunmuşdur. Müasir mərhələdə dayanıqlı inkişafın əsas strateji məqsədlərindən olan qeyri-neft sektorunun daha sürətli inkişafına nail olunması, iqtisadiyyatın səmərəliliyi və rəqabətqabliyyətliyinin təmin edilməsi təhsil sisteminin əsaslı yeniləşdirilməsini tələb edir. Azərbaycanda iqtisadi sahə üzrə insanların fikir və dünyagörüşlərinin, həyata baxışının formalaşmasında müstəsna rol oynayan təhsilin inkişafı ölkə əhalisinin rifahının yaxşılaşdırılması üçün zəmin yaradır.

2020-də dövlətdə ÜDM-nin miqdarı 3,0% çoxalaraq 83,3 milyard manata, həmçinin neft olmayan ÜDM-in miqdarı 3,8% çoxalaraq 54,6 milyard manata yaxınlaşacağı müəyyən olunur. 2021-ci ildə qaz emalının anidən çoxalması nəticəsində neft sahəsinin artımında faydalı sıçrayış proqnozladırılmaqdadır. 2023-ə kimi ÜDM 98,5 mlrd AZN-a yaxınlaşacaqdır. Qeyri-neft sahəsinin təmin olunması gələcək illər ərzində əsas iqtisadi prioritetlərdən biri olmağa davam edəcəkdir. Bu zamanda ÜDM-in strukturunda neft sahəsi olmayan bölmənin hissənin 66,8% artacağı ehtimal olunur. 2020-ci ilə uyğun hazırki fəaliyyətlər fondunda 2,2 milyard ABŞ dolları və ya ÜDM-in 4,5% dərəcəsində mübət gəlir ehtimal olunur. Hazırki fəaliyyətlər hesabındakı gəlir ən çox ticarət hesabındakı gəlirin fonduna yaranacaqdır. Ölkədən satılan məhsulların miqdarının orta zamanlı əməliyyatla 3,8% çoxalaraq, 21,0 milyard manata eyni nisbəti ehtimal olunur.

**Diaqram 1: 2020-2023-cü illərdə ÜDM, onun strukturu** (mln. mnt-la), **pay nəticələri** (%) **və həqiqi çoxalma templəri** (%) [7]




AR-nın prezidentinin rəhbərliyi ilə qurulan və gerçəkləşən "Azərbaycan 2020: gələcəyə Baxış" inkişaf konsepsiyalarının iqtisadi, siyasi və sosial vəziyyətdə, yaxın onillikdə ölkəmizin,

xalqın inkişaf etməsində vacib müsbət effektin gerçəkləşməsinə yönəlmişdir. Cənab İlham Əliyevin bu inkişaf konsepsiyasının yaradılması və gerçəkləşdirilməsi əlaqədar sərəncamı ölkəmizin inkişaf eləmiş ölkələr sırasında çıxış etməsini göstərən çox vacib və tarixi sənəddir. Bu konsepsiyanın qəbul edilməsi ölkəmiz üçün təzə inkişaf pilləsinə addım atmaqdır. Konsepsiyanın cəhətlərinə aşağıdakıları daxil eləmək olar.[6]

- Azərbaycan Respublikasının azadlığının daha çox güclənməsi,
- dövlətin ərzisinin tamlığının təmin olunması və qorunması;
- iqtisadi və siyasi sektorda sərbəst institutların çoxaldılması;
- iqtisadiyyatda qeyri-neft sektorunun çoxaldılması və iqtisadi inkişafın təmin edilməsi, qeyri-neft sahəsinin üstünlüyünün təmin edilməsi;
- iqtisadi sektorda innovasiya siyasətlərinin tətbiqi və onun inkişaf etməsinin təmin edilməsi;
- AR-nın iqtisadiyyatında milli məhsulun beynəlxalq bazara girişinin təmin olunması;
- ölkədə sosial yoxsulluq dərəcəsinin minimuma azaldılması istiqamətində siyasətin davam elətdirilməsi;
- ölkəmizdə təhsilin, səhiyyənin, humanitar sektorların inkişaf etməsinə spesifik nəzarətin edilməsi;

Dövlətdəqeyri-neft sahəsinin reallaşan ölkə tədbirləri, iqtisadiyyatın diversifikasiyası və təzə sənaye bölmələrinin tərəqqisindən ötrü böyük fürsətlər təqdim etməlidir. Seçilmiş istiqamətlənmələr əsas sayılaraq, ölkəmizdə 2015-2020-ci illərdə bu sahənin tərəqqi təməllərinə aşağıdakılara nəzər yetirək.[4]

- regionlarda satış istiqamətli məhsullar hazırlayan, yeni texnologiyalara uyğun iş binalarının hazırlanması, bu yerlərdə yaradılan məhsulların region və xarici bazarlara satışına dayaq olması;
- qeyri-neft iş bölmələrinin iqtisadi rayonlara uyğun kompleks inkişafı reallaşdımaq;
- sənaye planının bölməsi olan XİZ-ın qurulması istəyilə fəaliyyətinin reallaşması;
- işğaldan azad olunmuş ərazilərdə qeyri-neft sahəsinin inkişafı, iqtisadiyyatın müasirləşməsi, yenilikçi və elmtutumlu iqtisadiyyatın qurulması, üstün texnologiyalara malik bacarıqlı müəssisə yaratmaq və sənaye parklarının, ümumiləşdirici müəssisələrin qurulması;
- ölkənin maşınqayırma sahəsinin intensivliyi, neft maşınqayırma sahəsinin təkrar edilməsi;
- işğaldan azad olunmuş ərazilərdə ehtiyat bazasına xas qara və əlvan metallurgiyanın təkmilləşdirilməsi;
- yüngül sənayenin inteqrasiyası, öz və kənar satış məntəqələrində mübarizə bacarığının artırılması;
- dövlətdə təzə və son sayılan nanotexnologiyanın tərəqqi etməsinin qazanılması, bu sahədə bütün fürsətlərin istifadəsi;
- ölkədə kosmik sahənin qurulması və fəaliyyətin intensivliyi;
- tikinti məhsulları sahəsinin ixtisaslaşdırılması, xammal və qalıq materiallardan yararlanmanın ekoloji tərəfdən faydalılığının çoxaldılması.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir.

Ölkə prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamına əsas milli iqtisadiyyatın 11 sektorunu əhatə edən toplamda 12 strateji yol xəritəsi tərtib edilmişdir. Qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrləri əhatə edən bu layihə,2020-ci ilə qədər inkişaf strategiyasının və tədbirlər planının hazırlanması, 2025-ci ilə qədər olan müddət uzunmüddətli baxış və son olaraq 2025-ci ildən sonrakı dövrü əhatə edəcək hədəf baxışından ibarətdir. Davamlı iqtisadi inkişafı təmin edə biləcək yeni iqtisadi sahələrə

diqqət yetirməklə,dörd strateji hədəf müəyyənləşdirilmişdir ki, bundan da üç və dördüncüsü insan kapitalının inkişaf etdirilməsi və biznes mühitinin yaxşılaşdırılmasının təmin edilməsini nəzərdə tutur.[2]

İqtisadiyyatın diversifikasiyalaşdırılmasında və ixtisaslaşmanın artırılmasındakı hədəf qeyri-neft sahələrinin inkişaf etdirilməsi ilə əldə edilən gəlir məbləğinin yüksəldilməsi və ədalətli bölgünün təmin edilməsidir.

Azərbaycan dövləti ötən əsrin sonlarında mürəkkəb tarixi dövr yaşasa da iqtisadi, sosial və mədəni həyatda böyük təkamül yolunu inamla keçərək müasir həyat səviyyəsini təhlükəsiz təmin etmiş ölkə kimi dünyaya tanıtdı. Bu dövrlər ərzində ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. Hər bir sahədə iqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları makroiqtisadi artıma və sabitliyə mühüm töhfə vermiş təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır. Uğurlu sosial və iqtisadi nailiyyətlər milli və multikultural dəyərlər qarşıdakı illər ərzində Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmlənməsinə və müasir standartlara əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik bir qüdrətli dövlətə çevrilməsinə zəmanət verir.[5]

Azərbaycan prezidentinin 2021-ci il 2 fevral tarixində “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər” sərəncamında ölkənin növbəti onillikdə sosial-iqtisadi inkişafına dair milli prioritet istiqamətləri reallaşdırılmışdır.

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və “Yaşıl artım” ölkəsi.

Hər bir prioritet istiqamət uzunmüddətli dövrdə iqtisadi artımın sağlam və davamlı olmasını, xarici və daxili təsirlərə dayanıqlığı, cəmiyyətin davamlı və yüksək iqtisadi artım dinamikasını, regionların tarazlı inkişafını, XXI əsrin tələblərinə uyğun təhsil, yaradıcı və innovativ cəmiyyət, vətəndaşların sağlam həyat tərzini müəyyənləşdirən sahələrdir. O cümlədən, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Qələbəmizin nəticəsi kimi dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə böyük zəfərlərə nail oldu. Bu da onu təsdiq edir ki, öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmaqla dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyaya bir körpü kimi qoşulması təməli bir təkan verəcək. Regionların sosial-iqtisadi inkişafı yeni beynəlxalq və regional-nəqliyyat logistika dəhlizinin bərpa olunması həm ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artıracaq, həm də işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir.

Onu da qeyd etmək lazımdır ki, milli prioritetlər istiqamətində ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, təkrar emal, yüksək keyfiyyətli ekoloji mühitin və yaşıl enerji məkanı istiqamətində göstərilən səylərə mühüm töhfə olacaq.[1]

Beləliklə, son illərdə həyata keçirilən iqtisadi islahatların miqyası, dərinliyi və keyfiyyəti imkan verir ki, ölkəmizdə bu sahədə dünyaya liderlik mövqeyində - lider islahatçı dövlət kimi təqdim etmişdir. Bu da ən başlıcası bir nəticə kimi dünyada dərinləşən iqtisadi və maliyyə böhranı şəraitində əldə olunmuşdur.

Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər ərzində bütünlükdə Azərbaycanda, eləcə də regionlarda sosial-iqtisadi inkişafın, idarəçilik, dövlət quruculuğu və beynəlxalq sahədəki fəaliyyətinin nəticələri onu uzaqgörən, analitik düşüncəli, iqtisadi və sosial prioritetləri vaxtında və düzgün müəyyənləşdirə bilən, ekstremal hallarda düzgün və optimal qərar qəbul edə bilmək bacarığına malik bir lider olduğunu sübut etmişdir. Bütün bunlar isə əminliklə söyləməyə əsas verir ki, xalqımızın tam dəstəyini qazanmış İlham Əliyev ölkəmizin

milli iqtisadiyyatının davamlı inkişafı istiqamətində əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən proqram xarakterli nəhəng strateji vəzifələri uğurla həyata keçirəcəkdir.

**Ədəbiyyat**


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
2. "Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə Strateji yol xəritəsi İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016
3. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası. UNEC. Bakı 2019
4. Cahangirov P.H. (2018) Müasir şəraitində qeyri-neft sektorunun formalaşdırılması amilləri, (monoqrafiya) Azərb. Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Bakı, - 198 səh
5. Dayanıqlı inkişaf məqsədləri statistik icmal. Bakı 2020
6. Hacıyev F.Ş Azərbaycanda SYX-nin gerçəkləşməsində post-neft erasının təhlili və inkişaf perspektivləri, //İqtisadiyyat.-2017.- 4-10 may.
7. https://www.economy.gov.az/index.php?locale=az&lang=az
8. www.preslib.az Prezident kitabxanasının rəsmi elektron səhifəsi

**i.e.n., dos. İsmayıl Mahmud oğlu Xeyirxəbərov**
*UNEC-in "Biznesin idarə edilməsi" kafedrası*
*e-poçt: xeyirxeberov@list.ru*

# AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİ VƏİNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə**

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq aqrar sahədə müxtəlif təşkilati-hüquqi formalı müəssisə və təsərrüfatlar yaranmış və hazırda onların inkişafı demək olar ki, bazar mexanizminin təsiri altında gedir. Bu təsərrüfatlar sırasında çoxsaylı sahibkarlıq strukturları fəaliyyət göstərir və onların istehsal-satış fəaliyyətinə demək olar ki, heç bir müdaxilə yoxdur. Sahibkarlıq strukturları istehsal ediləcək məhsulların müəyyənləşdirilməsində, məhsullara qiymətlərin təyin edilməsində və satış kanallarının seçilməsində tamamilə sərbəstdirlər və onların fəaliyyətinə dair qəbul edilən qərarlar bazardan daxil olan informasiyalar əsasında qəbul edilir. Hazırda ölkəmizin aqrar sahəsində fəaliyyət göstərən sahibkarlıq strukturlarının istehsal-satış fəaliyyətinin həyata keçirilməsində meydana çıxan çətinliklərin aradan götürülməsi ilə bağlı əlaqədar strukturlar tərəfindən məqsədyönlü tədbirlər işlənib hazırlanır və reallaşdırılır. Kənd təsərrüfatı xammalı və ərzaq məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq strukturlarının perspektiv inkişafı onların inkişafının mövcud vəziyyətinin öyrənilməsini və həmin strukturların müdafiəsinə yönəldilmiş tədbirlərin təkmilləşdirilməsini tələb edir.

***Açar sözlər:*** *aqrar sahə, sahibkarlıq strukturları, fərdi sahibkar təsərrüfatları, ailə təsərrüfatları, bazar fəaliyyəti.*

## Aqrar sahədə sahibkarlığın inkişafının mövcud vəziyyəti

Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq strukturlarının fəaliyyətlərində meydana çıxan çətinliklərin aradan götürülməsi və onların dayanıqlı bazar subyektlərinə çevrilmələri üçün Ümummilli Lider HeydərƏliyevin 1994-2000-ci illərdə imzaladığı fərman və sərəncamların çox böyük rolu olmuşdur. Ümummilli Liderin "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" 22 mart 1999-cu il tarixli Fərmanı kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq strukturlarının dayanıqlı bazar strukturlarına çevrilmələri baxımından daha təsirli olmuşdur. Məhz Ölkə Prezidentinin bu fərmanından sonra kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisana olmaqla başqa vergi və ödəmələrdən azad edilmişlər. Bu, məhsul istehsalçılarının sərəncamında daha çox maliyyə vəsaitlərinin qalmasını təmin etmiş və sahibkarlıq strukturlarının əvvəlki dövrlərlə müqayisədə bazar fəaliyyətlərinin davam etdirilməsi üçün daha yaxşı imkanlar yaratmışdır.

Hazırda ölkəmizin kənd təsərrüfatında ailə təsərrüfatları, kənd təsərrüfatı müəssisələri (kollektiv təsərrüfatlar, səhmdar cəmiyyətləri, birgə müəssisələr) və fərdi sahibkarlıq strukturları fəaliyyət göstərir. Kənd təsərrüfatı və ərzaq məhsulları bazarına təklif edilən məhsulların əhəmiyyətli hissəsi xüsusi bölmədə istehsal edilir və bu, kənd təsərrüfatında bazar münasibətlərinin yüksək səviyyədə təşəkkül tapmasının və sahibkarlığın inkişaf etməsinin göstəricisidir. Həm bitkiçilik, həm də heyvandarlıq məhsullarının istehsalının əhəmiyyətli hissəsi fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları tərəfindən istehsal edilir /cədvəl 1/

**Cədvəl 1**

**Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında istehsal edilən bitkiçilik məhsulları, min ton**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Dənlilər və dənli paxlalılar | 2715,4 | 2173,7 | 2726,6 | 2777,1 | 2665,1 | 2861,9 | 3025,4 |
| Pambıq | 41,4 | 36,1 | 27,1 | 74,6 | 194,9 | 205,2 | 271,1 |
| Tütün | 3,4 | 2,7 | 3,4 | 3,6 | 5,3 | 6,2 | 6,0 |
| Şəkər çuğunduru | 139,8 | 125,9 | 135,4 | 225,1 | 375,0 | 178,1 | 123,5 |
| Dən üçün günəbaxan | 16,8 | 19,1 | 17,0 | 16,4 | 28,6 | 22,3 | 31,2 |
| Kartof | 984,0 | 804,1 | 832,1 | 893,0 | 903,2 | 880,8 | 990,9 |
| Tərəvəz | 1197,5 | 1142,1 | 1226,7 | 1201,7 | 1286,6 | 1431,4 | 1615,7 |
| Bostan məhsulları | 426,0 | 436,0 | 475,3 | 456,8 | 434,3 | 398,8 | 444,3 |

**Mənbə: cədvəl Dövlət Statistiaka Komitəsinin məlumatları əsasında müəəlif tərəfindən tərtib edilmişdir.**

Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları tərəfindən istehsal edilən bitkiçilik məhsullarının təhlil edilən illər ərzində bütün təsərrüfat kateqoriyalarında istehsal edilən bitkiçilik məhsullarında payı cədvəl 2-nin  cədvəlin məlumatları ilə xarakterizə edilir. Cədvəlin məlumatlarından göründüyü kimi, bu təsərrüfatlar hesabına  texniki bitkilərin  istehsal həcminin  bütün təsərrüfat kateqoriyalarında istehsal edilən texniki texniki bitkilərin istehsal həcmində  payı bəzi başqa bitkilər üzrə müvafiq göstərici ilə müqayisədə daha yüksəkdir. Bu həmin bitkilərin sahibkarlıq strukturlarının gəlirlilik səviyyəsinin təmin edilməsində daha böyük əhəmiyyət kəsb etməsinin göstəricisidir. Belə vəziyyət  həm də dövlət tərəfindən pambığın, tütünün qiymətinin istehsalçılar üçün stimullaşdırıcı səviyyəsinin müəyyənləşdirilməsilə bağlıdır və sahibkarlıq strukturlarının bazar  fəaliyyətinin davamlılığına imkan yaradan amil kimi qiymətləndirilməlidir.

**Cədvəl 2**

**Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında istehsal edilən bitkiçilik məhsullarının bütün təsərrüfat kateqoriyalarında istehsal edilən bitkiçilk məhsullarında payı , %**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Dənlilər və dənli paxlalılar | 91,9 | 91,2 | 90,9 | 90,6 | 91,0 | 86,5 | 85,5 |
| Pambıq | 91,6 | 88,0 | 77,0 | 83,4 | 93,9 | 87,8 | 91,8 |
| Tütün | 97,1 | 93,1 | 97,1 | 100,0 | 100,0 | 98,4 | 100,0 |
| Şəkər çuğunduru | 74,4 | 72,6 | 73,5 | 72,0 | 91,4 | 64,2 | 56,5 |
| Dən üçün günəbaxan | 94,9 | 96,5 | 92,4 | 98,2 | 96,0 | 94,5 | 92,6 |
| Kartof | 99,1 | 98,1 | 99,1 | 99,0 | 98,8 | 98,0 | 98,7 |
| Tərəvəz | 96,7 | 96,2 | 96,2 | 94,6 | 91,5 | 94,1 | 94,2 |
| Bostan məhsulları | 99,1 | 98,9 | 98,1 | 98,3 | 99,1 | 99,2 | 99,3 |

**Mənbə: cədvəl Dövlət Statistiaka Komitəsinin məlumatları əsasında müəəlif tərəfindən tərtib edilmişdir.**

Ölkəmizin kənd təsərrüfatında fəaliyyət göstərən ailə təsərrüfatlarının hansı hissəsinin sahibkarlıq fəaliyyətilə məşğul olmasına dair məlumatlar yoxdur. Ailə təsərrüfatları yalnız öz ehtiyaclarının qarşılanması üçün məhsul istehsalı ilə məşğul olurlarsa, onda onların sahibkarlıqfəaliyyətindən söhbət gedə bilməz və bu halda həmin təsərrüfatların  fəaliyyəti natural tipli olur. Lakin bu təsərrüfatlar sırasında bazarda reallaşdırılmaq və mənfəət əldə etmək üçün məhsul istehsalı ilə məşğul olan  təsərrüfatlar da çoxdur. Bu halda həmin təsərrüfatlar sahibkarlıq strukturları kimi fəaliyyət göstərirlər, lakin onların fəaliyyətləri

dayanıqlı və davamlı xarakter daşımır. Ailə kəndli təsərrüfatların sözügedən fəaliyyətinin davamlılığının təmin edilməsi üçün onların iri aqrarsənaye biznesi ilə qarşılıqlı fəaliyyəti hesabına təmin edilə bilər. "Kiçik kənd təsərrüfatı biznesi iri aqrarsənaye biznesi ilə qarşılıqlı fəaliyyətə ehtiyac duyur. Ayrıca ailə fermer təsərrüfatı standart məhsulların bazara axınını təmin etmək iqtidarında deyil. Bunun üçün bir çox fermerlərin səylərini birləşdirmək lazımdır. Belə birləşmə fermer kooperasiyası, iri şirkətlərlə fermerlər arasında kontraktasiyanın inkişafı, kənd təsərrüfatı istehsalçılarının iri şirkətlərə inteqrasiyası əsasında mümkündür"[4, 166].

Sahibkarlıq fəaliyyətilə məşğul olan ailə təsərrüfatlarının bütün ailə təsərrüfatlarında payının dəqiqləşdirilməsi üçün onların başçıları arasında vaxtaşırı sorğuların aparılmasına ehtiyac yaranır.

Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq strukturlarının növlərindən biri fərdi sahibkarlıqdır. Fərdi sahibkarlar fəaliyyət göstərdikləri ərazidə qeydiyyatdan keçmiş və hüquqi şəxs yaratmadan təsərrüfat fəaliyyətilə məşğul olan təsərrüfatlardır. Bu təsərrüfatların fəaliyyətini xarakterizə edən göstəricilərin səviyyəsinin dinamikası aşağıdakı cədvəlin məlumatları ilə xarakterizə edilir /cədvəl 3 /.

**Cədvvəl 3**

**Fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Təsərrüfatların sayı, vahid | 2334 | 1624 | 1534 | 1468 | 955 | 907 | 910 |
| o cümlədən | | | | | | | |
| mənfəətlə işləyənlər | 2321 | 1598 | 1520 | 1465 | 951 | 904 | 907 |
| zərərlə işləyənlər | 13 | 26 | 14 | 3 | 4 | 3 | 3 |
| Mənfəətin məbləği, min manat | 8712 | 7015 | 7417 | 8691 | 4676 | 6303 | 7491 |
| Zərərin məbləği, min manat | 35,5 | 171,7 | 312,8 | 50,3 | 56,0 | 69,4 | 76,0 |
| Ümumi mənfəət, min manat | 8676,0 | 6843,0 | 7104,0 | 8641,0 | 4619,0 | 6234,0 | 7419,0 |
| Məhsul istehsalında iştirak edən ailə üzvülərinin sayı, nəfər | 9451,0 | 6592,0 | 5973,0 | 5666 | 3665 | 3532 | 2703,0 |
| Kənardan cəlb edilmiş işçilərin sayı, nəfər | 1762 | 1807 | 1800 | 1461 | 1053 | 1339,0 | 2014 |
| Kənd təsərrüfatının ümumi məhsulu(faktiki satış qiymətləri ilə), min manat | 31468 | 24755,0 | 25776 | 25648 | 23198 | 21784 | 29717 |
| Əmək məhsuldarlığı, bir ailə üzvünə düşən ümumi məhsul, manat | 3330 | 3755 | 4315 | 4527 | 6330 | 6168 | 10994 |
| Ümumi torpaq sahəsi, ha | 44267 | 34101 | 33363 | 30424 | 17338 | 15873 | 13996 |
| Ondan kənd təsərrüfatına yararlı torpaq sahəhəsi, ha | 43072 | 33224 | 32530 | 29780 | 16631 | 15297 | 13494 |
| Orta hesabla bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi, ha | 18,5 | 20,5 | 21,2 | 20,3 | 17,4 | 16,9 | 14,8 |

**Mənbə: DSK, "Kənd təsərrüfatı müəssisələrinin və fərdi sahibkar təsərrüfatlarının əsas iqtisadi göstəriciləri", Bakı-2020, s. 26.**

Cədvəlin məlumatlarından göründüyü kimi, 2013-cü illə müqayisədə 2019-cu ildə fərdi sahibkar təsərrüfatlarının sayı 2334 vahiddən 910 vahidə qədər və yaxud 61,0 % azalmışdır. Butəsərrüfatların fəaliyyətini xarakterizə edən bəzi başqa göstəricilər üzrə də azalmalar özünü göstərmişdir. Belə ki, fərdi təsərrüfatların sərəncamında olan ümumi torpaq sahəsi 44267 ha-dan 13996 ha – a qədər (68,4%), kənd təsərrüfatına yararlı torpaq sahəsi isə 43072 ha - dan 13494 ha-a qədər (68,7%), bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi isə 18,5 ha-dan 14,8 ha-qədər (20%) azalmışdır. Cədvəlin məlumatlarından göründüyü kimi, təsərrüfatların sayının azalması orta hesabla hər təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsinin azalması ilə müşayət olunmuşdur /diaqram 1/.




Təhlil edilən illər ərzində bu təsərrüfatların çoxunun fəaliyyətini dayandırması onlarda çalışan ailə üzvülərinin də sayının azalmasına gətirib çıxarmışdır. Hazırda bu təsərrüfatlar hesabına bitkiçilk və heyvandarlıq məhsullarının çüzi hissəsi istehsal edilir. İstehsal edilən kəndtəsərrüfatı maghsullarının əhəmiyyətli hissəsi kənd təsərrüfatı müəssisələrinin və ailə təsərrüfatlarının payına düşür. Aparılan araşdırmalar göstərir ki, fərdi sahibkar təsərrüfatlarında məhsul satışının rentabeliliyi həmin təsərrüfatların bazar fəaliyyətinin bərpa və genişlənən miqyasda davam etdirilməsi üçün yetərli səviyyədə olmuşdur. Belə ki, 2015-2019-cu illər ərzində bu təsərrüfatlarda istehsal edilən dənlilərin rentabeliliyi 46,6-80,2%, kartofun rentabeliliyi 31,9 - 101,2%, tərəvəzin rentabeliliyi 94,7 - 124,1%, bostan məhsullarının rentabeliliyi 40,2-56,5%, meyvə və giləmeyvənin rentabeliliyi 108,5-237,6 % arasında dəyişmişdir. Baxılan bu illər ərzində fərdi sahibkar təsərrüfatlarında bitkiçilik məhsulları üzrə məhsul satışının rentabeliliyi 36,6 - 61,8% arasında tərədüd etmişdir. Sözügedən təsərrüfatlarda baxılan illər ərzində mal-qara və quş ətinin rentabeliliyi 39,1-64,4%, südün rentabeliliyi 52,3 - 57,6%, yumurtanın rentabeliliyi 55,2 - 71,9%, bütövlükdə heyvandarlıq məhsulları üzrə rentabelilik isə 42,4 - 61,6% arasında dəyişmişdir. Rentabeliliyin bu səviyyəsi təsərrüfatların bazar fəaliyyətinin davam etdirilməsi üçün kifayən qədər əlverişlidir. Belə olan halda bu təsərrüfatların sayının azalması və fəaliyyətini dayandırması çox böyük maraq doğurur və bunun səbəbinin araşdırılmasına ehtiyac yaranır. Bu səbəbi

dəqiqləşdirmək üçün isə fərdi sahibkar təsərrüfatlarının rəhbərləri arasında sorğuların aparılması çox vacibdir.

Yuxarıda deyilənlər onu göstərir ki, indiki şəraitdə sahibkarların problemlərini başa düşmək üçün kabinet tədqiqatları yetərli deyil. Sahibkarların istehsal-satış fəaliyyətlərində meydana çıxan problemlərini başa düşülməsi üçün onların rəhbərləri arasında sorğular aparılmalı və həmin problemlərin həlli məqsədilə dövlət strukturları tərəfindən hansı dəstəkləyici tədbirlərin işlənib hazırlanması dəqiqləşdirilməlidir. Sahibkarlıq strukturlarının problemlərinin həllinə belə yanaşma onların dayanıqlı bazar subyektlərinə çevrilmələrinə və ölkəmizin kənd təsərrüfatının öz potensialı hesabına ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin yüksəlişinə gətirib çıxara bilər.

## Sahibkarlıq strukturlarının inkişaf perspektivləri

Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq strukturlarının fəaliyyəti iqtisadiyyatın başqa sahələrində fəaliyyət göstərən sahibkarlların fəaliyyətilə müqayisədə daha çox risklərə məruz qalır. Bu, kənd təsərrüfatının istehsal sahəsi kimi xarakterik xüsusiyyətlərindən irəli gəlir və dövlət tərəfindən sahibkarlıq strukturlarının fəaliyyətinin müdafiə edilməsini şərtləndirir. Bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq strukturlarının dayanıqlı bazar subyektlərinə çevrilmələri və onların perspektiv inkişafı dövlət tərəfindən onların fəaliyyətinin müdafiə olunmasından asılıdır. Hazırda ölkəmizdə bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir və həmin tədbirlər davamlı xarakter daşıyır. Həmin tədbirlər Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində üç qrupda birləşdirilmişdir: ümumi sahə üzrə dövlət dəstəyi tədbirləri, bitkiçilik sahəsi üzrə dövlət dəstəyi tədbirləri və heyvandarlıq sahəsi üzrə dövlət dəstəyi tədbirləri.
Ümumi sahə üzrə dövlət dövlət dəstəyi tədbirlərinə kənd təsərrüfatının vergilərdən azad edilməsi, aqrar məhsul istehsalçılarına büdcədən güzəştli kreditlərin verilməsi, kənd təsəirrüfatı və emal sənayesi məhsullarının istehsalında tətbiq ediləcək istehsal vasitələrinə güzəştli gömrük rüsumlarının tətbiq edilməsi, "Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən kənd təsərrüfatı maşın, texnika və avadanlıqlarının dəyərinin 40 % - nin büdcədən ödənilməsi və onların lizinq yolu ilə satılması, kənd təsərrüfatı əmlakının və müəyyən edilmiş sığortası hadisələrinin sığortalanması üzrə sığorta haqlarının 50 % - nin dövlət tərəfindən ödənilməsi aiddir. İndiki şəraitdə bu tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq strukturlarının bazar fəaliyyətinin davam etdirilməsi baxımından həlledici əhəmiyyətə malikdir.

Kənd təsərrüfatının bitkiçilk sahəsində fəaliyyət göstərən sahibkarlıq strukturlarına dövlət tərəfindən göstərilən müdafiə tədbirlərinin tərkibi aşağıdakı kimidir: kənd təsərrüfatı məhsullarının istehsalı üçün sərf ediləcək yanacaq və motor yağlarının dəyərinin 50 % - nin dövlət tərəfindən təmin edilməsi məqsədilə əkin sahələrinin hər hektarına 50manat subsidiyanın verilməsi, kənd təsərrüfatı məhsullarının istehsalçılarının istifadə etdiyi suvarma suyu üçün güzəştlərin tətbiqi, müasir suvarma avadanlıqlarının dəyərinin 40 %-nin dövlət büdcəsindən ödənilməsi, gübrələrin və pestisidlərin dəyərinin 70%-nin dövlət büdcəsindən ödənilməsi, toxum və ting istehsalına görə subsidiyaların verilməsi və s. .

Heyvandarlıq məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq strukturlarını müdafiə tədbirləri özündə aşağıdakıları birləşdirir : "Aqroservis" ASC tərəfindən idxal edilən cins mal-qaranın dəyərinin 50 % - i dövlət büdcəsindən ödənilir və liziq yolu ilə istehsalçılara satılır; süni mayalanma yolu ilə alınan hər baş buzova görə 100 manat subsidiya verilir; süni mayalanma üzrə infrastruktur dövlət tərəfindən təmin edilir; bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında heyvanların xüsusi təhlükəli yoluxucu xəstəliklərinə (Strateji Yol Xəritəsində 13 xəstəlik göstərilir) qarşı aparılan müalicə - profilaktika tədbirləri dövlət tərəfindən təmin edilir.

Hazırkı şəraitdə heyvandarlıq məhsullarının istehsalı ilə məşğul olan sahibkarlıq strukturlarının dövlət tərəfindən müdafiə edilməsinə və beləliklə də heyvandarlıq məhsullarının istehsalının artırılmasına daha çox ehtiyac var. Bu, ölkəmizin əhalisinin heyvandarlıq məhsullarına tələbatının tam ödənilməməsi və əhali təbəqələrinin balanslı qidalanması baxımından müəyyən problemlərin olması ilə bağlıdır. Belə ki, tədqiqatlar göstərir ki, əhalinin ət və ət məhsullarına, süd və süd məhsullarına, yumurtaya, balıq və balıq məhsullarına və kərə yağına tələbatı tam ödənilmir. Bunun nəticəsidir ki, müxtəlif əhali təbəqələrinin qida məhsullarından gündəlik mənimsədiyi enerjinin daha çox hissəsi birkiçilk məhsullarının hesabına təmin edilir. Bu, əhali təbəqələrinin balanslı qidalanma ilə bağlı müəyyən problemlərinin olmasının göstəricisidir. Sözügedən problemin həlli, eyni zamanda ölkəmizin ərzaq təhlükəsizlitinin yüksəldilməsi bazarın heyvandarlıq məhsulları seqmentinə məhsullar təklif edən sahibkarlıq strukturlarının dövlət tərəfindən müdafiə edilməsindən bilavasitə asılıdır.

Kənd təsərrüfatının dövlət tərəfindən müdafiəsinə yönəldilən yuxarıda sadalanan tədbirlərin həyata keçirilməsi bu sahədə fəaliyyət göstərən sahibkarlıq strukturlarının bazar fəaliyyətinin davamlılığının təmin olunmasına və onların potensial imkanlarının bazarın tələblərinə uyğunlaşdırılmasına və beləliklə də, ölkəmizin əsas növ ərzaq məhsulları üzrə xarici bazarlardan asılılığının azaldılmasına imkan verir. Bunu əsas növ ərzaq məhsulları üzrə özünütəminat səviyyəsi də göstərir. Belə ki, aparılan tədqiqatlar göstərir ki, 2015 - 2019-cu illər ərzində özünütəminat səviyyəsi dənililər üzrə 64,5 – 67,3%, kartof üzrə 87,8 – 89,1%, bütün növ ət və ət məhsulları üzrə 82,5 – 94,7%, süd və süd məhsulları üzrə 84,3 – 86,3%, yumurta üzrə 99,7 - 101,8 %, balıq və balıq məhsulları üzrə 77,6 – 82,2% arasında dəyişmişdir.

Ərzaq məhsulları bazarının qida məhsulları seqmenti üzrə də dövlət tərəfindən həmin seqmentin tənzimlənməsinə yönəldilmiş məqsədyönlü tədbirlər həyata keçirilir. Bu məqsədlə ölkəmizdə Qida təhlükəsizliyi agentliyi fəaliyyət göstərir və bu strukturun fəaliyyətinin başlıca istiqamətlərindən biri əhalinin təhlükəsiz qida məhsulları ilə tələbatının dolğun ödənilməsindən ibarətdir. Bütün bunlarla yanaşı, Strateji Yol Xəritəsində kənd məhsullarının emalı ilə məşğul olan yeni emal sənayesi müəssisələrinin yaradılması nəzərdə tutulmuşdur. Bu müəssisələrin işə salınması aqro-ərzaq məhsullarının istehsalına güclü təkan verəcək və ölkənin ərzaq həhlükəsizliyinin təmin olunma səviyyəsinin daha da yüksəlişinə gətirib çıxaracaqdır.

Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq strukturlarının bazar fəaliyyətlərini davam etdirmə imkanları kənd təsərrüfatı ilə aqrar-sənaye kompleksinin başqa sahələri arasında qiymət uyğunsuzluğunun aradan qaldırılmasından ibarətdir. Aparılan araşdırmalar və tədqiqatlar göstərir ki, bu uyğunsuzluq kənd təsərrüfatı ilə sözügedən sahənin istehsal ehtiyaclarını qarşılamaq üçün maddi-texniki resurslar istehsal edən sahələr arasında hələ də qalmaqdadır. Bu o deməkdir ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan sahibkarlar istehsal prosesini davam etdirmək üçün əldə etdikləri maddi –texniki resurslara görə daha çox vəsait ödəməli olurlar. Nəticədə onların arzu etdikləri gəlirlik səviyyəsi təmin olunmur və belə vəziyyət onları istehsaldan çəkindirən amilə çevrilir. Belə vəziyyətin yaranmaması üçün kənd təsərrüfatı məhsulların qiymətləri ilə həmin məhsulları istehsal etmək üçün lazım gələn maddi-texniki resursların qiymətləri arasındakı nisbətin fasiləsiz monitorinqi aparılmalı və qiymətlərin səviyyəsi müşahidə obyekti olmalıdır. Qiymət uyğunsuzluğu sənaye sahələrinin xeyrinə kəskin pozulduqda onların səviyyəsinə müdaxilə edilməli və bu müdaxilə elə olmalıdır ki, kənd təsərrüfatında və bütövlükdə aqrar-sənaye kompleksində bazar qiymətəmələgəlməsinin əsasları pozulmasın. Sadəcə olaraq, qiymətlərin səviyyəsinə müdaxilələr kənd təsərrüfatında sahibkarlıq strukturlarının bazar fəaliyyətinin davamlılığına, eyni zamanda bütövlükdə kənd təsərrüfatının və sözügedən sahənin istehsal ehtiyaclarını qarşılamaq üçün istehsal vasitələri istehsal edən edən sahələrin normal inkişafına şərait yaratsın.

Kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlıq strukturlarının inkişafı onların məhsullarının alıcıları kimi çıxış edən emal sənayesi müəssisələrinin inkişafından çox asılıdır. Bu, o deməkdir ki, kənd tənd təsəttüfatı xammalını əldə edən emal və qida sənayesi müəssisələri kənd təsərrüfatı üçün lokomotiv rolunu oynayır. Emal sənayesinin bu rolu nə qədər güclüdürsə kənd təsərrüfatının və bu sahədə sahibkarlığın inkişafı da bir o qədər inkişaf imkanlarına malikdir. Lakin təəssüflə qeyd etməliyik ki, ölkəmizdə emal və qida sənayesinin inkişafı kənd təsərrüfatı üçün bazar münasibətlərinin inkişaf etdiyi ölkələrdə olduğu kimi güclü lokomotiv rolunu oynaya bilmir. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, ölkəmizin qida sənayesi müəssisələrində məğul olan insanların sayı 20 min nəfər civarında tərəddüd edir, kənd təsərrüfatında isə əmək qabiliyyətli əhalinin 37 - 38%-i çalışır. İnkişaf etmiş ölkələrdə isə bunun əksinədir. Həmin ölkələrdə qida sənayesində çalışanların sayı kənd təsərrüfatında çalışanların sayını dəfələrlə üstələyir, eyni zamanda sözügedən ölkələrdə qida sənayesində yaradılan yeni dəyər kənd təsərrüfatında yaradılan yeni dəyərdən dəfələrlə çoxdur. Ölkəmizdə belə bir vəziyyətin təmin edilməsi üçün qida və emal sənayesi müəssisələrinin inkişafı stimullaşdırılmalıdır. Bu problemin həllinə dair “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji yol xəritəsi”ndə tədbirlər müəyyənləşdirilmişdir. Bu barədə Strateji Yol Xəritəsində yazılır: “İnkişaf etmiş infrastruktura malik olan, o cümlədən nəqliyyat şəbəkəsinə, suvarma və elektrik enerjisi təchizatı sistemlərinə çıxışı olan ərazilərdə kənd təsərrüfatı məhsyullarının emalı müəssisələrinin yaradılması üçün torpaq sahələrinin təmin edilməsi nəzərdə tutulur. İnfrastrukturu aşağı olan ərazilərdə isə belə müəssisələr üçün nəzərdə tutulan sistem və şəbəkələrin yaradılmasına investisiya qoyuluşu stimullaşdırılacaqdır”[1, s.75].

Kənd təsərrüfatı məhsullarının alıcıları rolunda çıxış edəcək emal və qida sənayesi müəssisələrinin inkişafının stimullaşdırılması onların sayının çoxalmasına, kənd təsərrüfatı məhsullarını tədarük etmə baxımından onlar arasında rəqabətin güclənməsinə və beləliklə də, kənd təsərrüfatı xammallarının qiymətlərinin yüksəlişinə və deməli, həmin xammaları bazara təklif edən sahibkarlıq strukturlarının gəlirlilik səviyyəsinin artımına gətirib çıxara bilər. Bu isə, öz növbəsində, kənd təsərrüfatı məhsullarının inkişafı ilə məşğul olan sahibkarlıq strukturlarının inkişafına güclü təkan ola bilər.

## Ədəbiyyat

1.”Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”. AZərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. Пащенко А. И., Пешехонов В. А. Экономика аграрного сектора: Учебное пособие. – СПб.: ОЦиЭМ, 2003. – 176 с.
3. Попов Н. А. Организация предпринимательской деятельности в аграрном производстве. Учебник. Издательство «Элит 2000», М., 2002 г. – 328 с.
4. Узун В. Я. Крупный и малый бизнес в сельском хозяйстве России: адаптация к рынку и эффективность. – М.: ФГНУ «Росинформагротех», 2005. – 184 с.

**tex.f.d., dos. Hüseynov Mövlud Ərəstun oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC*
*Üzümçülük və Şərabçılıq ETİ*
*E-mail: movludh@mail.ru*

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA ÜZÜMÇÜLÜK VƏ ŞƏRABÇILIĞIN ELMİ ƏSASLARLA İNKİŞAFINDA ROLU

***Xülasə:*** Ümummilli lider Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbərlik etdiyi dövrdən başlayaraq ölkə iqtisadiyyatı üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək üzümçülüyün və üzüm emalı sənayesinin inkişafına xüsusi diqqət yetirmiş, onun göstərişi ilə üzüm bağlarının ümumi sahəsi xeyli genişlənmiş, üzüm istehsalının həcmi isə xeyli yüksəlmişdir. Onun şəxsi göstərişi ilə üzümçülük və şərabçılığın elmi əsaslarla inkişafını təmin etmək üçün 1976-cı ildə Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu yaradılmışdır. Heydər Əliyevin xüsusi diqqət və qayğısı üzümçülük və şərabçılığın elmi əsaslarla inkişaf etdirilməsində böyük rol oynamışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü, siyasi, iqtisadi və təşkilati tədbirlər sayəsində üzümçülük və şərabçılıq yüksək inkişafına nail olmuşdur.

***Açar sözlər:*** *Heydər Əliyev, üzümçülük, şərabçılıq, elmi əsaslarla inkişaf.*

Müasir dövrdə dünya üzümçülüyü tarixində prioritet təşkil edən Fransa, İtaliya, İspaniya, ABŞ, Rusiya, Ukrayna və s. ölkələrlə bir sırada dayanan Azərbaycan öz müsbət ənənələri ilə fərqlənən ən qədim və zəngin üzümçülük diyarıdır [4, 5].

Dünyanın tanınmış alimlərinin tarixi elmi-nəzəri araşdırmaları göstərir ki, Azərbaycan ərazisi eramızdan çox-çox qabaq üzüm bitkisinin məskəni olmuşdur. Burada yabanı halda bitən üzüm bitkisi əvvəl ayrı- ayrı həyətlərə gətirilərək başlıca olaraq seçmə üsulu, xalq seleksiyası yolu ilə təkmilləşdirilmiş, ilk vaxtlar ərzaq məqsədi ilə, sonralardan isə emal olunaraq üzüm şirəsi, üzüm qurusu (kişmiş) və yüksək keyfiyyətli şərab məhsulları istehsal edilmişdir [1, 4].

Qeyd etmək lazımdır ki, üzümçülük dünyanın hər yerində nəzəri elmin və qabaqcıl təcrübənin qarşılıqlı mübadiləsi yolu ilə zaman keçdikcə ciddi dəyişiklik əsasında daha təkmil bir formaya çatsa da, onun müasir dövrdə də elmin köməyinə çox ciddi ehtiyacı vardır.

Uzun illərin təcrübəsi və elmi araşdırmaları ilə müəyyən edilmişdir ki, mövcud torpaq-iqlim şəraiti və müvafiq süfrə və texniki üzüm sortlarının olması hələ istənilən məhsuldarlığa nail olmaq üçün kifayət qədər əsas vermir.

Belə ki, üzüm bitkisindən normal və yüksək məhsuldarlıq əldə etmək üçün onun becərilməsində müxtəlif texnoloji amillərə, o cümlədən sortların bioloji xüsusiyyətlərinə, biotik və abiotik faktorların müsbət və mənfi təsirlərinin olmasına və hər bir halda, aqrotexniki tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsinə daha çox fikir vermək gərəkdir. Başqa sözlə, üzüm əkin materialının torpağa basdırılmasından məhsula düşənədək həyata keçirilən onlarla becərmə əməliyyatlarının elmi əsaslarla aparılması lazımdır. Bu həm tənəyin davamlılığı, həm də yüksək məhsuldarlığı baxımından təcrübədə təsdiq olunmuş yeganə bir yoldur.

Lakin bir çox hallarda belə də olur ki, üzümçülüyün mühüm bir təsərrüfat sahəsi kimi idarə olunmasında elmi-metodiki göstərişlərə, təlimatlara və xüsusən də alimlərin önəmli fikirlərinə lazımi önəm verilmir. Üzüm bitkisi hər hansı kənd təsərrüfatı əhəmiyyətli bitkilərdən fərqli olaraq vegetasiya dövrü ərzində demək olar ki, hər gün, hər həftə, hər ay və deməli, bütün il boyu özünə elmi yanaşma, buna uyğun qulluq işləri və qayğı tələb edir [4].

Üzüm-şərab istehsalı tarix boyu elmin varisliyi üzərində inkişaf etməsi ilə bilavasitə bağlı olmuşdur. Heç bir vaxt gələn nəsil mövcud olan texnoloji qanunları bir tərəfə qoyub onu tərk etməmiş, əksinə, özünün sələfləri üzərində irəliləmişdir. Daha doğrusu, bütün elmi yeniliklər keçmişdən qalan elm və qabaqcıl təcrübənin nəticəsində öz daha təkmil həllini tapır.

Üzüm bitkisinin becərilmə texnologiyası o qədər sadə olmasa da Azərbaycanda sahənin inkişafına səriştəli münasibət ənənəvi xarakter daşıyır, yəni Respublikada bu sahədə kifayət qədər əmək vərdişi vardır. Məlumdur ki, üzüm bitkisinin bir çox əməliyyatları zamanı səhvə yol verilməsi sayəsində məhsuldarlığın çox hissəsini itirmək təhlükəsi yarana bilər. Belə ki, bəzi əməliyyatlar, o cümlədən budama zamanı zoğların neçə gözə kəsilməsi, tənəyin polyarlığının optimal formaya salınması, onun gücünün düzgün qiymətləndirilməsi, budaqların burada yerləşdirilməsinin konkret şəraitə uyğun təşkili və s. nəzərə alınmalıdır. Ancaq təkcə budama deyil, tənəyin onlarca aqrotexniki əməliyyatları var ki, bu əməliyyatların aparılması texnikasından nəinki tənəyin məhsuldarlığı, həm də tənəyin özünün qorunub saxlanması asılıdır. Hazırda Azərbaycanda qeyri neft sahələrinin, o cümlədən, kənd təsərrüfatının ən vacib sahələrindən, olan üzümçülüyün sürətli inkişafına geniş meydan verilməli və onun elmi əsaslarla, belə demək mümkünsə, yenidən bərpa edilməsinin ön plana çəkilməsi vaxtı çatmışdır.

Ümummilli Liderimiz H.Əliyev Azərbaycanda siyasi hakimiyyətə gəldiyi ilk gündən ölkədə üzümçülüyün inkişafına çox böyük önəm verirdi [2, 4].

Azərbaycanda üzüm bitkisinin becərilməsində öz xalqının əmək və istehsal vərdişləri və ənənələrini böyük uzaqgörənliklə qiymətləndirən Ümummilli Lider Heydər Əliyev 1969-cu ildə ilk dəfə hakimiyyətə gəldiyi ilk gündən bəyan etdi ki, kənd təsərrüfatının ümumi yüksəlişinə nail olmaq üzümçülüyün üstün inkişafına nail olmadan mümkün deyil. Çünki, üzümçülük böyük gəlir mənbəyi olmaqla bərabər, həm də böyük əmək tutumlu, kənddə yeni iş yerlərinin açılmasını şərtləndirən əhəmiyyətli bir istehsal sahəsidir.

1970-ci illərdən də üzümçülükdə köklü dəyişikliklərə başlandı, təxirəsalınmaz tədbirlər görüldü, yeni üzüm bağları salındı, mövcud üzümlüklərdə becərmə işləri sürətləndirildi, tənəklər dəmir-beton dirəklərə qaldırıldı, texniki təchizat demək olar ki, yenidən təşkil olundu, sözügedən sahə yüksək ixtisaslı kadrlarla möhkəmləndirildi. Qısa bir müddətdə, yəni, beş il ərzində üzümün məhsuldarlığı hər hektardan 46,8 sentnerdən (1970), 68,1 sentnerə (1975) çatdırıldı. 1984-cü ildə respublika üzrə üzüm istehsalı 1 mln. 694 min ton, məhsuldarlığı isə 95,3 sentner təşkil etmişdir.

Göstərilən rəqəmlər respublikanın həyatında, sözügedən sahələrdə görülən işlərin adi statistik məlumatlarla yekunu olsa da, nəticələri əldə etmək çox da asan olmayan iri miqyaslı dövlət tədbirlərinin və operativ güclü nəzarətin nə dərəcədə möhtəşəmliyindən, hansı böyük işgüzarlıq şəraitində baş verməsindən xəbər verir. Təsadüfi deyildir ki, Azərbaycanın kənd təsərrüfatındakı bu yüksəlişə o vaxtki ittifaq miqyasında müqayisəedilməz bir maraq vardı.

Ümumiyyətlə, müstəqil bir sahə kimi üzümçülükdə dönüş ili və köklü dəyişiklik 1970-ci illərdən, yəni Ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi vaxtdan başlandı. Əvvəllər üzümün məhsuldarlığı aşağı olub, bir hektardan 43,5 sentner təşkil edirdi. Seyrəklik 32-46%-ə qalxmış, qulluq işləri aqrotexniki qaydalara hələ də cavab vermirdi [4, 6].

Azərbaycan KP MK və Respublika hökuməti üzümçülüyün daha da inkişaf etdirilməsi üçün təxirəsalınmaz tədbirlər müəyyən etdi. Təkcə onu demək kifayətdir ki, 1970-ci ildə (yəni bir ilin ərzində) məhsuldarlıq hər ha üzümlük sahəsindən 46,8 sentner, 1973-cü ildə 48,8 sentner, 1975-ci ildə isə 65,1 sentnerə çatdırıldı. Çoxsaylı təşkilati-təsərrüfat tədbirləri işlənib hazırlandı. Bu illər Respublikada üzümçülüyün intibah dövrünün başlanğıcı idi. Ölkə rəhbəri ilk növbədə Azərbaycanda üzüm-şərab istehsalının inkişaf etdirilməsi haqqında SSRİ hökümətinin qərarını almağa nail oldu. Bundan sonra operativ tədbirlərin həyata keçirilməsi üçün geniş imkanlar yaradıldı [2, 3, 4, 7].

Qeyd etmək lazımdır ki, üzüm bitkisi kənd təsərrüfatının müxtəlif sahələri arasında hər 100 hektar torpaq sahəsi üzrə yeni yaradılan iş yerlərinin sayına və ümumi məhsul buraxılışına görə ən yüksək göstəriciyə malik olan texniki bitkilərdən biridir. Bununla belə, üzümçülük kənd təsərrüfatı istehsalının ən çox kapital qoyuluşu tələb edən sahəsidir.

Ölkədə həyata keçirilən uğurlu aqrar siyasətin başlıca məqsədi iqtisadiyyatın inkişaf tempinə nail olmaq, sosial tədbirlərin həyata keçirilməsi ilə əhalinin daha yaxşı yaşamasını təmin etmək idi. Demək olar ki, hamı aqrar sahədə uzun illər davam edən geriliyin qısa bir müddətdə aradan qaldırılmasına səfərbər edilmişdi. Ən əvvəl, kənd təsərrüfatının maddi-texniki bazasının yaradılması, təşkilati-təsərrüfat sahəsində insanlarda məsuliyyət hissinin artırılması, yüksək

ixtisaslı və kifayət qədər səriştəli kadrların bu işlərə cəlb edilməsi ölkə rəhbərinin daim xüsusi diqqət mərkəzində olan başlıca məsələlər idi. Elə məhz bütün bunların sayəsində qısa bir müddətdə Respublikamız keçmiş ittifaqda birincilər sırasına çatdırıldı. Sözügedən sahənin inkişaf tempinin daha da yüksəldilməsinə nail olmaqdan ötrü 1978-1979-cu illərdə Azərbaycanda üzümçülük və şərabçılığın inkişafına dair Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin çox samballı bir qərarının qəbul etdirməsi sayəsində sovxoz və kolxozlarda kompleks tədbirlər həyata keçirildi. Artıq 1980-ci ildə təkcə dövlət təsərrüfatlarında üzümlük sahəsi 225 min hektara, məhsuldarlıq isə hər hektardan 65 sentnerə çatdırıldı. Bölgələrdə kənd əhalisinin böyük əksəriyyətinin sosial-rifahi da bu sahənin hesabına ödənilirdi. Bütün qalan sahələrə nisbətən üzümçülükdə əməyin ödənilməsi (əmək haqqı) hər hansı sənaye müəssisəsində olduğu kimi hər ay vaxtlı-vaxtında həyata keçirilir, adamlar sərf etdikləri əmək müqabilində, mövcud normativlərə uyğun olaraq əmək haqqı alırdılar. Çox vaxt üzümlüklərdə çalışan fəhlə və qulluqçulara əmək haqqı birbaşa sahədə verilirdi. Elə bu mütərəqqi üsulun özü də üzümün məhsuldarlığının yüksəlməsinə xidmət edirdi.

1975-ci ildə (iyulun 9-da) “Azərbaycan SSRİ-də kənd təsərrüfatı istehsalını daha da yaxşılaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək, habelə irriqasiya-meliorasiya obyektlərinin layihələşdirilməsi və tikilməsi tədbirləri haqqında” yeni bir mühüm qərar qəbul edilmişdir. Bu qərar Azərbaycanda üzüm-şərab istehsalına daha güclü təkan verdi. Respublikada yeni üzümçülük rayonları yaradıldı. Cəbrayıl, Zəngilan, Yardımlı, Lerik kimi dağ və dağətəyi rayonlarda yeni üzümlüklər salındı, şərab zavodları inşa edildi. Bundan başqa bu dövrdə nəinki ayrı-ayrı üzümçülük sovxozu və ya sovxoz-zavodlar, həmçinin Cəlilabad, Şamaxı, Tovuz, Qazax, İsmayıllı kimi bütöv inzibati rayonlar üzümçülük üzrə ixtisaslaşdırılmışdı. Təsadüfi deyildir ki, respublikada və rayonlarda mütəmadi olaraq keçirilən tədbirlərdə, müşavirə və yığıncaqlarda bütövlükdə kənd təsərrüfatı sahələrinin idarə olunmasının daha da təkmilləşdirilməsi və digər vacib məsələlər müzakirə edilir, mühüm texnoloji vəzifələr qarşıya qoyulurdu.

Üzümçülüyün inkişafı sayəsində ildən-ilə artan ümumi gəliri heç bir başqa sahələrdə, hətta pambıqçılıq və heyvandarlıq sahələrində belə əldə etmək mümkün deyildir. Məhz üzümçülükdə olan potensial imkanları ötən əsrin 70-ci illərində qabaqcadan duyan böyük öndərimiz Heydər Əliyevin kənd təsərrüfatı sahəsində vaxtilə həyata keçirdiyi strategiyası bu gün başqa sahələrlə yanaşı, aqrar sahədə də prezident İlham Əliyev cənabları tərəfindən uğurla inkişaf etdirilir.

Geniş əhatəli dövlət tədbirlərinin həyata keçirilməsi və sahənin sənaye əsasında inkişaf etdirilməsi, üzüm-şərab istehsalının ixtisaslaşdırılmasının dərinləşdirilməsi üçün ölkədə Dövlət üzümçülük-şərabçılıq komitəsinin yaradılması zərurəti gündəmə gəldi və Respublikada Üzümçülük və Şərabçılıq Dövlət komitəsi təşkil olundu. 1975-ci ildə ( iyulun 9-da) isə “Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da yaxşılaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında” yeni bir mühüm qərar qəbul edildi və bundan sonra ölkədə üzüm şərab istehsalının elmi əsaslarla inkişafına diqqət daha da artdı. Yəni, 12 avqust 1976-cı ildə ölkə rəhbəri, ümumilli lider H.Əliyevin şəxsi təşəbbüsü və göstərişi ilə ilk dəfə olaraq respublikada Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu yaradıldı.

Ölkənin qabaqcıl mütəxəssisləri hesabına institutun kadr potensialı qısa bir müddətdə komplektləşdirilmiş və respublikada üzümçülük və şərabçılıq haqqında keçirilən iri miqyaslı bütün yığıncaqlarda, konfranslarda, müşavirələrdə, partiya və dövlət tədbirlərində institutun rəyi, əməli, elmi fəaliyyəti diqqətdən kənarda qalmamışdır. Məhz, buna görə də yerlərdə üzüm-şərab istehsalı zamanı institutun əməkdaşlarına müraciətlər olunur, onların dəyərli elmi məsləhətləri ilə məhsulların keyfiyyət göstəriciləri, üzümçülükdə görülən işlər yetərincə dəyərləndirilirdi.

Azərbaycanda üzümçülük və şərabçılığın elmi əsaslarla inkişaf etdirilməsinə müxtəlif vaxtlarda təşəbbüs göstərilməsinə baxmayaraq, yuxarıda deyildiyi kimi, bu vacib elmi strukturun yaradılması yalnız Azərbaycan KPMK-nın birinci Katibi Heydər Əliyevin şəxsi göstərişi ilə 1976-cı ildə mümkün olmuşdur. Beləliklə, Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutu mövcud Üzümçülük-Şərabçılıq Dövlət Komitəsi tərkibində Bakının Mehdiabad qəsəbəsində yaradıldı. Bu faktiki olaraq üzümçülük elminə və üzümçülüklə məşğul olan alimlərə tarixi bir hədiyyə idi.

İnstitutun köməyi ilə tezliklə üzüm və şərab istehsalının texnoloji normativləri və kapital qoyuluşunun iqtisadi səmərəliliyi hazırlandı. Əmək haqqının səmərəli təşkili və üzümlüklərdə ayrı-ayrı iş həcmi nəzərə alınmaqla bitkinin becərmə texnologiyasının bütün vegetasiya dövründə xronoloji qaydada qiymətləndirilməsi institutun verdiyi təlimatlar əsasında həyata keçirilirdi. Kənd təsərrüfatının müxtəlif sahələrində olduğu kimi, üzümçülükdə də gedən köklü dəyişikliklər və geniş mənada istehsalın sürətli inkişafı dövlət başçısının bilavasitə dəstəyi, yardımı və himayəsi altında aparılırdı.

Bu sahə 1980-ci illərdə iqtisadiyyatın aparıcı sahəsi olan neft sənayesinin gəliri ilə rəqabət apararaq, dövlət büdcəsinin formalaşmasında mühüm yerlərdən birini tuturdu. Bu dövrdə ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində üzümçülük və şərabçılıq öz qızıl dövrünü yaşamışdır (şəkil).

Ancaq bir mənalı demək olar ki, Azərbaycanda üzüm-şərab istehsalının, geniş miqyasda ixracı o vaxtki ittifaq bazarına güclü təsiri, bəzi qonşu dövlətlərə sərf eləmirdi və onlarda qısqanclıq yaradırdı. Məhz buna görə də 1985-ci ildə keçmiş ittifaq rəhbərliyinin “Sərxoşluğu və alkoqolizmi aradan qaldırmaq tədbirləri haqqında” qəbul edilmiş qərarı ilə Azərbaycanda üzümçülük və şərabçılıq sahəsinin inkişafı demək olar ki, dayandırıldı. Bu qərar başdan-ayağa Azərbaycanın kənd təsərrüfatına qarşı təxribat idi. Həmin qərara əsasən Respublikanın Üzümçülük-Şərabçılıq Komitəsi nəzdində olan 327 ixtisaslaşdırılmış üzümçülük-şərabçılıq sovxozu, 172 emal zavodu, 2 sovxoz-texnikum, 2 ilkin emal zavodu, 2 konyak zavodu, Xanlar Aqrosənaye kombinatı ləğv edildi. Yüzlərlə hektar üzümlük sahəsi məhv edildi, üzüm sortları itirildi. Respublikaya 100 milyon manatlarla ziyan dəydi.




Şəkil. Rayonlar üzrə üzüm bağlarının sahəsi, ha (1980)

Əgər nəzərə alınsa ki, bir hektar üzümlüyün məhsula düşənə qədər əkilib becərilməsinə orta hesabla 7-8 min manat vəsait sərf olunur, onda 150-200 min hektar üzüm bağının sökülməsi zamanı milyonlarla manat vəsaitin şüurlu surətdə məhv edilməsini başa düşmək heç də çətin deyil. Bu ağılagəlməz düşmənçilik azmış kimi, 90-cı illərin əvvəllərində yaranmış Dağlıq Qarabağ münaqişəsi

nəticəsində işğal olunmuş rayonlarda 43 min hektar məhsuldar üzüm bağları, emal gücü 320 min ton olan 18 zavod və 10 şərabsüzmə xətti işğal altında qalmışdır.

Bütün bunlarla yanaşı, üzümçülük və şərabçılıq sahəsində son vaxtlar güclü irəliləyişlər baş vermişdir. Yerli sortlarla bərabər xarici ölkələrdən gətirilən ən yaxşı üzüm sortlarından ibarət yeni üzüm plantasiyaları salınmışdır. Bu iş bu gün də çox böyük uğurla davam etdirilir.

Hazırda Respublikada üzümlüklərin ümumi sahəsi 17 min hektara çatdırılmışdır. Keçən il plantasiyalardan 200 min tondan artıq üzüm məhsulu tədarük edilmiş və yüksək keyfiyyətli şərablar istehsal olunmuşdur. İndi Azərbaycanda 40-a yaxın üzüm emalı müəssisəsində müxtəlif növ şərablar, konyak materialı və s. istehsal edilir. Şərabçılıq məhsulları bu sahədə tanınmış Fransa, İtaliya, Almaniya, İsveç kimi böyük və mühüm ölkələrə ixrac edilir.

Uzun illər bu sahədə çalışan mütəxəssis alimlərin səmərəli tədqiqatları və elmi araşdırmaları bu sualı birmənalı cavablandırmağa əsas verir. Üzümçülük sahəsinin bu gün də inkişaf etdirilməsi müstəsna əhəmiyyətə malikdir. Üzümçülük kənd təsərrüfatında nisbətən yüksək məhsuldarlığa malik olması və istehlak dəyəri cəhətdən faydalı, sənaye emalı və satışı etibarilə daha gəlirli sahə olması ilə fərqlənir, seçilir.

Bu gün XXI əsrin başlanğıcında qloballaşmanın geniş vüstə aldığı şəraitdə Ümummilli Liderimiz Heydər Əliyev irsini uğurla və dönmədən davam etdirən İlham Əliyev cənabları ölkəmizi dünyanın inkişaf etmiş ölkələri sırasına çıxarmaq yönündə başqa sahələrlə yanaşı, aqrar sahənin, o cümlədən üzümçülüyün (sahəsinin) də inkişafına kifayət qədər diqqət yetirir.

Dünyanın əksər ölkələrində üzümçülük kənd təsərrüfatının aparıcı sahələrindən biri olmuşdur. Avropa ölkələrində, o cümlədən Fransa, İtaliya, İspaniya, Bolqarıstan, habelə Ukrayna, Moldova və s. kimi ölkələrin üzümçülük sahələri ilə müqayisədə respublikanın üzümçülük sahəsində yeni, daha səmərəli islahatların aparılması, sözügedən sahənin potensialından daha faydalı istifadə edilməsi imkanı yaradılmalıdır. Bu cəhətlər üzüm-şərab istehsalında olan iqtisadi səmərəli, məqsədyönlü imkanlardan istifadə edilməsinə yenidən baxmağı tələb edir.

Sözügedən sahədə tarixi təcrübə göstərir ki, yuxarıda göstərilən ölkələrdə üzümçülüyün inkişafına nisbətən böyük üstünlük yetirlir. Bunun həm elmi, həm də iqtisadi baxımdan cavabını üzüm və şərab istehsalının hər şeydən əvvəl insanların məişətində nə dərəcədə geniş yayıldığından görürük. Bu da təsadüfi deyildir.

Azərbaycanın indiki ərazisinin relyefi Kiçik və Böyük Qafqaz dağ silsiləri arasında hər iki tərəfə yüksələn xətt istiqamətində yerləşərək, üzümçülüyün geniş inkişafı üçün əlverişli torpaq-iqlim şəraiti yaradır

Rus tədqiqatçı alimi prof. İ.Fiqurovski "Azərbaycanın iqlim şəraitinə görə rayonlaşdırılması" kitabında ərazi ilə yaxından tanış olduqdan sonra belə qənaətə gəlir ki, Azərbaycanın relyefi şimal-qərbdən başlayaraq cənubi-şərqə doğru və dənizə istiqamətləndirilmiş bir lotkaya bənzəyir. Ərazinin belə bir iqlim şəraitində yerləşməsi o deməkdir ki, bütün ölkə günəşə və dənizə doğru yönləndiyindən onun ən ucqar nöqtələrinə qədər belə kənd təsərrüfatının bütün sahələri üçün əlverişli şərait yaranır. Bu sahələrdən biri də sözsüz ki, üzümçülükdür.

Hazırda alimlər alkaqollu və alkoqolsuz üzüm məhsullarının çeşidlərinin təkmilləşdirilməsi, respublikada ekoloji cəhətdən təmiz kişmiş üzüm istehsalı ilə bilavasitə bağlı yeni texnologiyanın işlənib hazırlanması, tez və gec yetişən üzüm sortlarının yeni, daha müasir texnologiyaya əsaslanan formalarının tədqiqi və hazırlanması, xəstəlik və ziyanvericilərə qarşı yeni preparatların təcrübədə sınağının keçirilməsi və onların ayrı-ayrı üzüm sortlarına təsir mexanizminin öyrənilməsi və s. istiqamətlərdə tədqiqat işləri ilə məşğuldurlar.

Bununla belə, üzümçülük və şərabçılığın daha mütərəqqi üsullarla genişləndirilməsində bir çox amilləri nəzərə almaq zərurəti ortaya çıxır. Hazırda bölgələrdə yeni üzümlüklər salınır, şərabçılıq məhsulları istehsalı artırılır. Yaxşı olardı ki, vaxtilə beynəlxalq sərgilərdə, dequstasiyalarda yüksək mükafata layiq görülən Azərbaycan şərabları və konyaklarının istehsalına üstünlük verilsin, bununla da xaricdən gətirilən keyfiyyətsiz şərab idxalının xüsusi çəkisi azaldılsın.

Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının 4-cü

ilinin yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev çıxış edərək, üzümçülüklə bağlı son illərin rəqəmlərinə əsaslanaraq demişdir: "2017-ci ildə üzüm istehsalı artaraq 152 min tona çatıb. İndi şərab istehsalı bizdə artmalıdır. Bir çox zavodlar tikilib, ancaq onların biri 20%, biri 50%, digəri 30% gücü ilə işləyir. Bu, dözülməzdir. Ona görə tam gücü ilə işləmək üçün sahibkarlar gərək məsuliyyətli yanaşsınlar. Şərab istehsalı ilə bağlı dövlət ixrac imkanlarını genişləndirir, bütün sərgilərdə iştirak edirik, yəni, kontraktlar bağlayırıq, sahibkarlara kömək göstəririk. Tezliklə bizdə şərab istehsalı artmalıdır".

Üzümçülük və şərabçılıq sahələrinin ənənəvi şöhrətini yenidən bərpa etmək üçün bir sıra başqa tədbirlərin də həyata keçirilməsi vacibdir. Üzümçülüyün ixtisaslaşması və onun aqrar-sənaye inteqrasiyası əsasında inkişaf etdirilməsi məqsədilə keyfiyyətli üzüm sortlarının geniş yayılmasını təmin etməkdən ötrü respublika daxilində ting istehsalının dövlət dəstəyi ilə təşkilinə nail olmaq vacib şərtlərdən hesab edilir.

Üzümçülüyün tinglik bazasının inkişafı, daha məhsuldar sortların təbii-iqtisadi zonalar üzrə düzgün seçilib rayonlaşdırılması ilə bir tərəfdən əkinlərdə sort qarışığının qarşısı alınar, digər tərəfdən də aqrotexniki tədbirlərin daha səmərəli təşkilinə, habelə şərab istehsalında yüksək keyfiyyətli məhsul əldə etmək üçün əlverişli şərait yaranmış olar. Sözügedən uzun illərdən bəri sahədə tərəfimizdən aparılan tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, Respublikamızda müstəqil dequstasiya komissiyasının və neytral laboratoriyanın yaradılmasına, Azərbaycanda idxal olunan və ölkədə istehsal edilən şərab məhsullarının obyektiv qiymətləndirilməsinə ehtiyac vardır. Bu yolla respublikada şərab və digər şərabçılıq məhsullarının istehsalını Beynəlxalq standartların tələblərinə uyğunlaşdırmaq asanlaşardı.

Yüksək keyfiyyətli şərab və konyak istehsalı üçün yararlı və sərfəli xammalın seçilməsi və müvafiq texnologiyaların işlənib hazırlanması istiqamətində çoxsaylı, çeşidli tədqiqat aparılır. Tədqiqatın əsas məqsədi müxtəlif ekoloji şəraitlərdə yetişdirilən qiymətli texniki üzüm sortlarından alınan müxtəlif növ şərabların istehsalı üçün müvafiq texnoloji rejimlərin müəyyən edilməsidir.

"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə bilavasitə özünəməxsus texnoloji xüsusiyyətlərə malik olan yerli qiymətli texniki üzüm sortlarının tədqiqi və onların artırılması, becərilməsi üçün tövsiyələrin hazırlanması, beynəlxalq standartların tələblərinə cavab verə biləcək şərabların, şərab distilliyatlarmın (süfrə, təbii kəmturş, kəmşirin və desert şərabları, konyak və s.) və alkoqolsuz üzüm məhsullarının (quru üzüm, üzüm yağı, üzüm şirəsi, üzüm sirkəsi, konsentrat və s.) istehsal texnologiyasının tədqiq edilməsi və istehsalının təkmilləşdirilməsi sahəsində tədqiqatlar genişləndirilməlidir.

Yeni, səmərəli İstehsal metodlarının iqtisadi qiymətləndirilməsi, üzüm və şərabçılıq məhsullarının keyfiyyət məsələləri, emal və marketinqinə dair tədqiqatların artırılması təmin olunmalıdır.

## ƏDƏBİYYAT


1. Amanov M.V., Salimov V.V., Musayev M.K. Azerbaijan: native varieties of grapevine (Magradze D., Rustioni L., Turok J., Scienza A., Failla O. Caucasus and Northern Black Sea Region Ampelography). Vitis,Journal of Grapevine Research, Germany, 2012: 89-168.
2. Əhmədov Ə.İ. Azərbaycan üzümündən qidalı ərzaq məhsulları. Monoqrafiya., Bakı 2009, «Azərnəşr», 266 s.
3. Quliyev V.M., Pənahov T.M., Qurbanov M.R., Səlimov V.S., Musayev M.K., İdrisov H.Ə., Nəcəfov C.S. Azərbaycan ampeloqrafiyası. I cild. Bakı, 2017, «Müəllim» nəşriyyatı, 736 s.
4. Pənahov T., Verdiyev R. Heydər Əliyev və Azərbaycanda Üzümçülük və Şərabçılıq Strategiyası, Bakı: «Müəllim» nəşriyyatı, 2017, 73 s.
5. Səlimov V.S., Hüseynov M.Ə., Şükürov A.S., Nəsibov H.N. Üzümçülükdə innovativ diferensial texnologiyalar və risklər. Bakı: «Müəllim» nəşriyyatı, 2019, 357 s.
6. Şərifov F.H. Üzümçülük. Bakı: Şərq-Qərb, 2013, 584 s.
7. Şükürov A.S. Müxtəlif ekoloji şəraitdəki üzüm sortlarının aqrobioloji və təsərrüfat-texnoloji xüsusiyyətlərinin öyrənilməsi. Aqrar elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işinin avtoreferatı. Bakı 2016, 26 s.
8. wine-grape.gov.az, Yerli üzüm sortları və şərabçılıq məhsulları portalı.


**Köçərli Yalçın Ənvər oğlu**

*UNEC "Qiyabi təhsil" şöbəsinin müdiri,*
*"Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi"kafedrasının baş müəllimi*
*E-mail: yalcinkocharli4@gmail.com*

**Köçərli Leyla Rais qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*"Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi"*
*kafedrasının müəllimi*

## SOSIAL İŞİN İDARƏ EDİLMƏSİNDƏ SOSİAL SİYASƏT KONSEPSİYASI: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

**X Ü L A S Ə**

Tədqiqatın əsas məqsədi – dövlətin ölkə əhalisinin rifahı naminə qəbul etdiyi qərarlar, tətbiq etdiyi təcrübələrin effektiv idarəetmə problemlərinin təkmilləşdirilməsi istiqamətində əməli tədbirlərin təmin edilməsi və makrosəviyyədə bu sistemin dayanıqlı idarəetmə tədbirlərin həyata keçirilməsidir. Məqalədə müştəri ilə işləyən sosial işçilərin onun yaşayış ehtiyaclarını ödəmək üçün hansı mənbələrin mövcud olduğunu, müştərinin bu mənbələrdən yararlanmaq üçün standartlarının formalaşdırılması problemləri sistemli təhlil olunmuşdur. Tədqiqat zamanı perspektiv dövr üçün nəzərdə tutulan tədbirlərin icrası məqsədilə sosial işin sosial siyasətdən fərqli cəhətləri qiymətləndirilmişdir. Peşəkar sosial işin dövlət səviyyəsində təşkil ediləcəyi təqdirdə nəticələr, sağlam cəmiyyətə nail olmaq üçün hədəflər müəyyənləşdirilmişdir.

***Açar sözlər:****sosial iş, sosial siyasət, sosial fəaliyyət, sosial rifah, sosial ədalət*

Hər bir müstəqil dövlətin daxili siyasətinin prioritet istiqamətlərindən biri məhz onun sosial siyasətidir. Sosial siyasət dövlətin həyata keçirdiyi sosial proqramlarda, əhalinin əsas sosial qruplarının marağını əsas götürərək, cəmiyyətdəki münasibətlərin tənzimlənməsində təzahür edir. Azərbaycan Respublikasının müasir sosial siyasətinin formalaşmasının əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən böyük uzaqgörənliklə müəyyən edilmiş və "Əhalinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" imzalanmış sənəddə əks olunmuşdur. Azərbaycan dövlətinin sosial siyasət konsepsiyası sosial ədalətin bərqərar olunmasına, milli sərvətlərin artırılmasının təmin edilməsinə və milli sərvətlərin ədalətli bölgüsünün həyata keçirilməsinə istiqamətlənmiş proqramlar şəklində həyata keçirilən davamlı və dinamik prosesdir. Sosial siyasətin əsas hədəfləri Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında dolğun şəkildə öz əksini tapmışdır. Bu konsepsiyaya görə Azərbaycan Respublikasının sosial siyasət sahəsində başlıca hədəfi əhalinin bütün qruplarının ədalətli sosial təminatını həyata keçirməklə sosial rifah dövlətinin qurulmasıdır. Bu gün aztəminatlı ailələrə, müharibə veteranlarına və əlillərinə, şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi, əlillərin reabilitasiyası, ailə, qadın və uşaq problemlərinə yüksək diqqət, əhalinin məşğulluğunun təmin edilməsi, uğurlu gənclər siyasəti, cəmiyyətin hər bir üzvünün mənafeyinin nəzərə alınması Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dövlətin iqtisadi imkanlarına uyğun olaraq vüsət almağa başladı. O cümlədən yoxsulluğun aradan qaldırılması üçün mühüm işlər görüldü.

Ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin iqtisadi sferada həyata keçirdiyi siyasətin indi də özünü qabarıq göstərən ən önəmli cəhətlərindən biri hər zaman sosialyönümlülük faktorunun ön plana çəkilməsidir. "Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz

çalışırıq ki, bunu edək", - deyən dövlət başçımız İlham Əliyevin bu sözləri əlilliyi olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır.

Respublikamızda qadın siyasəti, bu istiqamətdə ulu öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələr Prezident İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. Belə ki, 2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi yenidən formalaşdırılmışdır. 2006-cı ilin dekabr ayında Milli Məclisdə qəbul olunmuş "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanunu da bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. 2010-cu ildə təsdiq olunan "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu isə yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərərçəkmiş şəxslərin sosial müdafiəsi və hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir. Ən ciddi problemlərdən biri qızların təhsildən yayınmaları və erkən nikah məsələsidir. Bu, onların orta təhsili bitirməsinə və ali təhsil almasına, həmçinin də müvafiq işlə təmin edilməsinə maneə yaradır.

Dövlətimizin daim diqqət mərkəzində saxladığı məsələlərdən olan uşaqların sosial müdafiəsi, uşaq hüquqlarının tam həcmdə təmin edilməsi və uşaq problemlərinin ardıcıl həlli dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Hələ 1998-ci il, 19 may tarixində Ulu öndər Heydər Əliyev tərəfindən "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, bu sahədə milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaqların hüquqlarının müdafiəsi, onların normal formalaşması, sağlam böyüməsinə yönəlmiş bir çox dövlət proqramları hazırlanmışdır. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyev 2006-cı il 29 mart tarixli sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər)" qəbul edilməsi böyük əhəmiyyətə malikdir. Bu proqramdan irəli gələn vəzifələrin icrası istiqamətində atılan mühüm addımlar xüsusi yer tutur. Prosesin uğurla həyata keçirilməsinə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva hərtərəfli dəstək verir. Azərbaycan Prezidenti İlham Əliyev hələ 2009-cu ili ölkəmizdə "Uşaq ili" elan etmişdi. Bu, dövlət başçısının Azərbaycanın gələcəyi olan uşaqlara diqqət və qayğısının nəticəsi idi.

Ümumiyyətlə, sosial siyasət hər birimizin gündəlik olaraq düşündüklərini və ya eşitdiklərini özündə cəmləşdirən bir sahədir. Bu gün sosial mediada verilmiş bir çox yazılar da bu və ya digər şəkildə sosial siyasətin məzmununa istinad edir. Gündəlik həyat axınında bunun fərqinə varmasaq da, sosial siyasət haqqında oxuduğumuz zaman məsələn, qadına qarşı zorakılıqla bağlı bir xəbər və ya yazı, bizi qeyri-ixtiyari olaraq kimlərinsə gender bərabərliyi mövzusunda mütləq bir addım atmalı olduğunu düşünməyə vadar edir [1,səh.11].

Sosial siyasət dövlətin ölkə əhalisinin rifahı naminə qəbul etdiyi qərarlar və tətbiq etdiyi təcrübələrdir. Sosial siyasəti başa düşmək üçün ilk növbədə siyasət konsepsiyasının əhatə dairəsinə baxmaq lazımdır. Siyasət müəyyən bir hədəfə çatmaq üçün nələrin edilməsi lazım olduğunu tənzimləyən prinsiplərə istinad edir. Bizi narahat edən bir problemlə əlaqədar görəcəyimiz işlərlə bağlı düşümcələrimiz, bunu necə edəcəyimiz, nə etməli olduğumuz siyasət daxilində elementlərdir. Məsələn, məşğulluq baxımından kimlərin nə zaman və necə təqaüdə çıxmaları özlüyündə siyasətin və xüsusən də sosial siyasətin mövzusudur. Bu mənada sosial siyasət, ümumiyyətlə sosial rifahın və ya vətəndaşların rifahının yaxşılaşdırılmasına yönəlmiş siyasət kimi başa düşülür. Qeyd etməliyik ki, dördüncü sənaye inqilabı eyni dərəcədə böyük faydalar və böyük təhdidlər yaradacaqdır. Əsas narahatlıq mənbələrindən biri kəskinləşən bərabərsizlikdir.Artan bərabərsizliyin qarşımıza çıxaracağı təhdidləri tam şəkildə müəyyən etmək çətindir, çünki əksəriyyətimiz istehsalçı olduğumuz qədər, həm də istehlakçıyıq [5, səh.23].

Əhalinin yüksək rifahının təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi olan sosial siyasət mürəkkəb struktura malik olmaqla çoxcəhətli prosesdir. Bu siyasətin hər hansı bir göstəricisini əsas götürərək bütövlükdə cəmiyyətin inkişafı barədə fikir yürütmək olar. Hər bir dövlətin həyata keçirdiyi sosial siyasət həmin dövlətin idarəetmə sistemindən, siyasi rejimindən birbaşa asılıdır. Hər bir cəmiyyət öz inkişafına uyğun olaraq sosial siyasəti formalaşdırır və bu siyasətin həyata keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin etməyə çalışır. Sosial siyasət anlayışının mahiyyəti cəmiyyətin ümumi inkişaf xüsusiyyətlərini özündə ehtiva edir. Sosial siyasət, əsasən, vətəndaşların rihafının yaxşılaşdırılmasına xidmət edir. Baş verən ictimai, iqtisadi və digər inkişaf reallıqları sosial siyasətin məzmununun, mahiyyətinin zənginləşməsində böyük əhəmiyyət kəsb edir [7,səh.44].Sosial siyasətin qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün onun həyata keçirilməsi mexanizminin böyük əhəmiyyəti var. Bu mexanizmin əsas elementi iqtisadiyyatı inkişaf etdirməkdir. Çünki iqtisadiyyatda uğur qazanmadan, yüksək maliyyə imkanlarına nail olmadan sosial siyasəti lazımi səviyyədə inkişaf etdirmək mümkün deyil.

Sosial siyasət dedikdə əhalinin həyati mənafeyinin təmin olunmasına yönəldilmiş konkret tədbirlər sistemi nəzərdə tutulur. Yəni, ictimai rifah, insanların maddi, sosial və intellektual tələbatının ödənilməsi, insan ləyaqətinə hörmətin formalaşdırılması və cəmiyyətdə sosial sabitlik və sosial sülhün bərqərar olması ilə bilavasitə bağlı olan siyasət başa düşülür. Bu siyasət dövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsizlikdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial iqtisadi tədbirlər sistemidir.

Sosial siyasətin əsas məqsədi insanların tələbatının və maraqlarının ödənilməsi üçün şərait yaratmaq, ayrı-ayrı vətəndaşlara, sosial qruplara sosial yardım göstərmək, onların sosial müdafiəsini, korreksiya və reabilitasiyasını təşkil etmək və yoxsulluğu aradan qaldırılmaqdır.

Sosial siyasətin əsas vəzifələri dedikdə, dövlətin həll etməli olduğu əsas məsələlər nəzərdə tutulur. Yəni, insanların həyat səviyyəsini və əmək şəraitini yaxşılaşdırmaq; insan hüquqlarına əməl olunmasını təmin etmək; vətəndaşların əmək şəraitini və yaşayışını yaxşılaşdırmaq; əhalinin zəif müdafiə olunan təbəqələrinə (uşaqlara, yaşlılara, yetimlərə, əlillərə, işsizlərə və s.) yardım göstərmək; millətlərarası və etnoslararası münasibətləri tənzimləmək; ölkədə demokratik və ekoloji şəraiti normallaşdırmaqdır [2,səh.63].

Azərbaycan Respublikasında dövlətin sosial siyasəti əhalinin sosial müdafiəsi, təhsili, əhalinin sağlamlığının qorunması, gənclər siyasəti və əhalinin digər ictimai-mədəni ehtiyaclarının ödənilməsi sahəsində fəaliyyətini əhatə edir. Müasir dövrdə əhalinin sosial ehtiyaclarının ödənilməsi, təhsilin, səhiyyənin inkişaf etdirilməsi, vətəndaşların sosial müdafiəsinin və sosial təminatının gücləndirilməsi, cəmiyyət üzvlərinin mədəni tələbatının daha dolğun ödənilməsi dövlətin mühüm funksiyası hesab olunur. Mərkəzi və yerli hakimiyyət orqanlarının sosial siyasət sahəsindəki fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir və istiqamətləndirilir. Dövlətin sosial siyasəti bütün dövlət hakimiyyəti və dövlət idarəetmə orqanlarının sosial münasibətlər sahəsindəki fəaliyyətinin əsasını təşkil edir.

Bir peşə və sosial elm intizamı olaraq sosial iş sosial siyasətlə sıx əlaqəlidir. Sosial işin peşəkar məqsədi sosial problemləri həll edərək sosial rifah səviyyəsini artırmaqdan ibarətdir. Yəni, işsizlik, yoxsulluq, qayğıya ehtiyac, ayrıseçkilik, təcrid və s. sosial problemləri həll etməkdir. Sosial siyasət isə sosial problemlərin həlli üçün planları, proqramları, xidmətləri və tətbiqləri formalaşdıran ən vacib vasitədir. Bu məqsədlə sosial problemlərin təhlili, bu problemlərin təməlində olan ehtiyacların müəyyənləşdirilməsi və bu tələblərə cavab verən siyasət və tətbiq etmələrin reallaşması zamanı sosial iş sosial siyasət intizamından çox faydalanır.

Sosial işin sosial siyasətlə çox yaxın bir əlaqəsi var. Sosial siyasət insan ehtiyaclarını və sosial quruluşunu başa düşməkdə və bunun üçün əsas sosial yardım və xidmətləri inkişaf etdirməkdə sosial işin hüquqi əsaslarını, imkanlarını və bürokratik sahəsini müəyyənləşdirir. Bir cəmiyyətdəki sosial xidmətlər, cəmiyyətdəki mövcud sosial problemlərə və mövcud sosial siyasətlərə uyğun olaraq formalaşır. Bu çərçivədə bir peşə olaraq sosial iş və sosial elm intizamı

sosial siyasətin ən vacib təməl daşlarından biridir. Sosial işin peşəkar istiqaməti sosial problemləri həll etmək və bununla da sosial rifah səviyyəsini yüksəltməkdir [6,səh.24]. Sosial iş, sosial problemləri müəyyənləşdirmək, bu problemləri yaradan ünsürləri təyin etmək və onların həll edilməsi istiqamətində siyasət və təcrübələrin həyata keçirilməsi zamanı sosial siyasətlə qarşılıqlı əlaqədədir. Sosial iş yarandığı gündən peşəkar məsuliyyət olaraq, ehtiyacı olan şəxslərin rifahına və sağlam həyat tərzinə yaxından təsir edən sosial siyasətin formalaşmasına kömək edir. Əmək bazarında intensiv dəyişikliklərin daha da kəskinləşdirdiyi bir fenomen olaraq artan bərabərsizliyin mövcud olduğu dünyada yaşayırıq [5,səh.95].Sosial siyasət psixologiya və sosiologiya kimi insanların vəziyyətinin daha geniş kontekstlərini təqdim edir, bəzən həyati suallar (məsələn, uşaq rifahı sahəsində hansı xidmət modeli daha təsirli olur), bəzən nəzəri mübahisələr yaradan araşdırmalara kömək edir. Eynilə, sosial iş və sosial siyasət müsbət sosial dəyişikliyə dair bir öhdəliyi bölüşür. Sosial iş rifah üçün fərdi hüquqlar, cəmiyyətin gözləntiləri, müştərilərin çətin həyatı, bərabərsizlik və sosial ədalət məsələlərini həll edir.Sosial iş bir intizam və peşə olaraq hədəflərinə uyğun olaraq sosial siyasətlərin formalaşmasında fəal rol oynamaqdadır. Sosial siyasət dövlətin sosial sahədəki bütün siyasətlərini təyin edir, sosial iş isə bu siyasətləri imkansız qrupların ehtiyaclarına uyğun olaraq həyata keçirir. Sosial siyasət sosial işin peşəsi olaraq isə sosial təminat siyasətinə əsaslanır, sosial iş öz tətbiqetmə sahəsindən yaranan bilikləri sosial siyasət hazırlama prosesinə çevirməyi hədəfləyir.

Sosial işin sosial siyasətdən fərqli cəhəti isə sosial işin daha çox gündəlik ehtiyaclara diqqət yetirməsi, müraciətçi və müraciətçi sisteminin hissedilən ehtiyaclarının çözülməsi üçün dərhal hərəkətə keçməsi əsas məqsəd olduğundan şəxslərarası təcrübələrə daha çox önəm verməsidir. Sosial siyasət isə daha çox struktur dəyişikliklərinə diqqət yetirir, sosial fəaliyyət tələb edir və uzunmüddətli strategiyalara yönəlir. Strateji planlaşdırma və təhlili vurğulayır.

Müdafiəyə ehtiyacı olan bir uşağın lazımi bir təşkilata gətirilərək mövcud qayğı tədbirinin yerinə yetirilməsi və uşağı etibarlı bir yerlə təmin etmək, o cümlədən çoxsaylı və mürəkkəb sosial problemlərin bu və ya digər bir şəkildə həll edilməsi məsələləri sosial işə aiddir. Bu problemlər üçün uzunmüddətli planlar qurmaq isə sosial siyasətin mövzusudur. Sosial siyasətin daha yüksək səviyyədə planlaşdırılması və tənzimlənməsi uyğunluğu və keyfiyyəti həm də sosial iş sahəsindəki xidmətlərin keyfiyyətini əks etdirir. Sağlam bir cəmiyyətə nail olmaq kimi hədəfə çatmaq həm sosial işdə aşağıdakılar nəzərə alınmalıdır:

- sosial siyasət konsepsiyasının reallaşdırılması
- siyasi düşüncə sistemlərinin sosial problemləri necə qəbul etməsi
- problemlərin həlli üçün proqnozlar

Sosial siyasət sosial quruluş və insan ehtiyaclarını anlamaqda və cəmiyyətin ehtiyacları üçün sosial yardım və xidmətlərin inkişafında, təşkilində və hüquqi qanunvericiliyin yaradılmasında mühüm rol oynayır. Sosial siyasət, sosial dövlət tərəfindən vətəndaşlarına təklif ediləcək sosial xidmətlərin yol xəritəsini təyin edən prosesləri əhatə edir. Sosial xidmətlər ictimai xarakter daşıyan, cəmiyyətin rahat yaşaması üçün dövlət tərəfindən idarə olunan xidmətlərdir. Bundan əlavə, yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları və cəmiyyətdəki bütün təşkilatlar sosial işləri ilə sosial xidmətləri dəstəkləməkdədirlər. Sənaye inqilabından əvvəl sosial xidmətlər ailələr, dini qurumlar vasitəsi ilə saxlanılırdı. Sənaye inqilabından sonra dövlət sosial xidmətlər göstərməkdə təsirli olmağa başladı. [8, səh.69].

Sənaye inqilabının səbəb olduğu iqtisadi və sosial problemlər çox böyük ölçülərə çatdığından, yalnız ictimai gücə sahib qurumların öhdəsindən gələ biləcək bir hal almışdır. İkinci Dünya Müharibəsindən sonra Qərbi Avropada sosial dövlətin inkişafı və yayılması ilə sosial siyasətdə əhəmiyyətli inkişaflar baş verdi və dövlət bütün cəmiyyətlər üçün sosial siyasətlər istehsal etməyə başladı. Bu çərçivədə sosial siyasət və sosial iş ikitərəfli əlaqədədir. Sosial iş bir tərəfdən sosial siyasətin formalaşmasında fəal rol oynayır. Digər tərəfdən isə sosial siyasətin təcrübi roluna girməktədir. Sosial işin siyasi rolları nəzərə alındıqda, sosial siyasətin qurulması, həyata keçirilməsi və tətbiqetmənin müvəffəq olması üçün təsirli təşkilatlara və idarəetməyə ehtiyac olduğu görülür. Sosial işin siyasi rollarına aid edilir:

- Analitik rollar - siyasətlər arasından ən uyğun olanını seçmək;
- Siyasi rollar - siyasətin hazırlanmasına töhfə vermək, yetərli siyasət olmadığı təqdirdə yeni siyasətlərin yaradılmasını təmin etmək;
- İdarəetmə rolları - siyasətlərin uğurla həyata keçirilməsinə yalnız düzgün və təsirli təşkilatlar nail ola bilər;
- Araşdırma və qiymətləndirmə rolları - sosial problemlər barədə məlumatların toplanması, mövcud siyasətlərin qiymətləndirilməsi[3,səh.21].

Sosial işçilərin təcrübədə əsas bazaları qanunlardır və dövlət siyasətləri çərçivəsində işləyirlər. Sosial işçilər təhsil aldıqları müddətdə qazandıqları peşə, bilik və bacarıqlarını çalışdıqları sosial xidmət müəssisəsinin fəaliyyət sahəsinə və institusional siyasətlərinə uyğun olaraq davam etdirirlər.

Sosial iş təcrübələrində hökm sürən vahid bir professional anlayış yoxdur, cəmiyyətin bir hissəsi olan sosial işçilər fərqli perspektivlərdən faydalanırlar. Sosial siyasət və xidmət modelləri ilə hansı fikir və perspektivlərin formalaşdığını bilən bir sosial işçi, ətrafındakı müştərilərinə sosial siyasətlərə uyğun olaraq daha məqsədəuyğun xidmətlər göstərə bilər [8,səh.114]. Təcrübə baxımından sosial siyasət dövlətin problemlərinin aradan qaldırılması ilə bağlı qəbul etdiyi qərarların nə olduğunu anlamağımıza kömək edir. Misal üçün, dövlət büdcəsindən ayrılan vəsaitlər, qanunvericilik qərarları və sosial proqramlar sosial siyasətlə müəyyən edilir. Başqa sözlə desək sosial problemlərlə üzləşən insanlara yardım göstərmək üçün nə qədər pul xərcləyə biləcəyimiz, bu insanların rifahı üçün hansı xidmətlər göstəriləcəyi və sosial yardımdan kimlərin yararlanacağı və ya yararlana bilməyəcəyi kimi məsələlər sosial siyasət qaydalarına daxildir. Bundan əlavə, mövcud sosial siyasətlər sosial işçilərin müdafiəyə ehtiyacı olan uşaqlar üçün nə edə biləcəyini və ya edə bilməyəcəyini təyin edir. Bir sosial işçi müraciət edənin xeyiri üçün hansı mənbələrdən yararlana biləcəyini və bu mənbələrə necə çatacağını yalnız qüvvədə olan sosial siyasətlərə əməl etməklə öyrənə bilər. Məsələn, üç uşağı olan bir qadın maddi çətinlik üzündən kirayəsini uzun müddət ödəyə bilmir və bu səbəbdən evi boşaltmaq məcburiyyətində qalır. Sosial xidmət müəssisəsinə müraciət edən qadın özü və övladları üçün sığınacaq məsələsində kömək istəyir. Bu müştəri ilə işləyən sosial işçi onun yaşayış ehtiyaclarını ödəmək üçün hansı mənbələrin mövcud olduğunu və müştərinin bu mənbələrdən yararlanmaq üçün uyğun bir vəziyyətdə olub olmadığını bilməlidir. Bu mərhələdə sosial siyasətlə bağlı biliklərinə müraciət etməli olan sosial işçi müraciətçinin mənzil problemini müvəqqəti həll etmək üçün sosial yardımdan yararlana bilib bilməyəcəyini, evsizlərin sosial yardım daxilində mənzillə təmin edilib edilməyəcəyini, belə bir fürsətin olduğu təqdirdə müraciət edənin özü və övladlarının bu yardımdan faydalanmaq üçün lazımi şərtləri yerinə yetirib yetirmədiyini, müştərinin bu fürsətdən nə vaxta qədər faydalana biləcəyini yalnız sosial yardım və sosial xidmət siyasətini izləməklə hansı qaydalara əsasən əməl olunacağını bilə bilər. Sosial işçilər peşə təcrübələrini həyata keçirərkən çalışdıqları müəssisələrin siyasətini yaxşı bilməlidirlər. Müəssisə siyasəti – müəssisə və təşkilatların xidmət standartlarının nə olduğunu, müəssisə və təşkilatların quruluşunu və fəaliyyətini, sosial işçi ilə müştərinin riayət etməli olduğu qaydaları və peşə münasibətləri prosesində izləniləcək proseduru ifadə edir. Sosial işçilər insanlara kömək etmək üçün davamlı olaraq sosial siyasət konsepsiyasından və biliklərindən faydalanır[4, səh.76].

İnsan duyğu və düşüncə sahibi olan canlı bir bio-psixo-sosial varlıqdır. Bu baxımdan insanların ehtiyacları və problemləri, digər sosial sistemlərlə əlaqələri və qarşılıqlı əlaqələri o qədər çətindir ki, bunlar yalnız sosial iş müdaxiləsi ilə həll edilə bilməz. Sosial işçilər vəkillik rollarının tələbi olaraq, ehtiyacları olan şəxslərin gözləntilərinə və ehtiyaclarına daha yaxşı cavab verə biləcək şəkildə sosial siyasətlərə təsiretmə məsuliyyətinə malikdirlər. Bütün əhali qruplarını əhatə edən sosial siyasətlərin formalaşmasında iştirak etmək, strateji nöqtələrdə iştirak etmək və sosial iş peşəsinin fəlsəfi olaraq ifadə edilmiş hədəflərinə çatmaq üçün sosial iş təcrübələrindən əldə olunan nəticələri siyasətçilərlə bölüşmək sosial işçilərin əsas məsuliyyətidir.

Bu gün Azərbaycanda sosial iş ən çox ehtiyac duyulan xidmətlərdən biridir. Ölkəmizdə peşəkar sosial işin dövlət səviyyəsində təşkili nəticəsində aşağıdakı nəticələr əldə edilə bilər:

• Yeni iş yerləri açılar;

• Müvafiq universitetlərdə hazırlanan peşəkar sosial işçi kadrları ixtisasları üzrə işlə təmin olunar;

• Çətin həyat şəraitində yaşayan, yoxsul və əlilliyi olan uşaqlı ailələrin problemləri tez bir zamanda və effektiv şəkildə yerindəcə həll olunar;

• Heydər Əliyev Fonduna, Prezidentə və Prezident Aparatına, müxtəlif nazirliklərə, özəl şirkət və təşkilatlara, tanınmış şəxslərə olan şikayət və yardım üçün müraciətlərin sayı azalar;

• Ölkə əhalisi arasında hökumətə qarşı neqativ münasibət, narazılıq və gərginlik aradan qalxar, intiharların sayı azalar.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR

1. İstanbul Sabahattin Zaim Üniversitesi, Yrd. Doç. Dr. Mehmet Birinci, Arş. Gör. Fatih Altun ve Arş. Gör. Kaan Sevim “SOSYAL ÇALIŞMA VE YÖNETİM ARASINDAKİ İLİŞKİNİN DEĞERLENDİRİLMESİ”, 221 səh.

2.Mehmet Zafer Danış “Sosyal hizmet mesleği ve disiplininde sosyal politikanin yeri ve önemi” Cilt 18, Sayı 2 Ekim 2007, 273 səh.

3. Davis, V. L. ve Hagen J. L. (1992) “The Problem of Wife Abuse: The Interrelatinship of Social Policy and Social Work Practice.” Social Work, 37 (1) 146.

4. Denney, D. (1998) Social Policy and Social Work, New York, Oxford University Press.

5. Klaus Şvab “Dördüncü sənaye inqilabı”. “İqtisad Universiteti” nəşriyyatı. Bakı-2020, 200 səh.

6.WTO, ILO (2011). Makin Globalization Socially Sustainable. Ed (More Bacchetta and Marion Jansen) ILO, Geneva, WTO.

7. PROF. DR. HALİS YUNUS ERSÖZ “SOSYAL POLİTİKA” (Ders notu), İSTANBUL ÜNİVERSİTESİ AÇIK VE UZAKTAN EĞİTİM FAKÜLTESİ (2018), 318 səh.

8. Social Work and Social Policy: An Introduction (2nd ed.) by Dickens Jonathan. 2016: London, Routledge, 212 pp.

**Yalchin A. Kocharli, Leyla R. Kocharli**
*Azerbaijan State University of Economics(UNEC)*

## The concept of social policy in the management of social work: problems and prospects.

### SUMMARY

The main purpose of the study is to provide practical measures to improve the effective management problems of the decisions taken by the state for the welfare of the population, the practices applied and the implementation of sustainable management measures of this system at the macro level. The article of social workers working with the customer to meet the needs of its living resources are available to the customer to take advantage of these

resources to form standards and systemic problems were analyzed. The study assessed the differences between social work and social policy in order to implement the measures envisaged for the long term. If professional social work is organized at the state level, the results and goals for achieving a healthy society have been identified.

**Key words:**social work, social policy, social activity, social welfare, social justice

**BABƏK ALIYEV**
*UNEC Zaqatala filiali*
*Zaqatala İqtisad Məktəbinin rəhbəri, müəllim*
babek.aliyv@gmail.com

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ VƏ İXRAC POTENSİALININ ARTIRILMASI: AZERBAYCAN NÜMUNƏSİ

**XÜLASƏ**

Uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində Azərbaycanda yaradılan sosial-iqtisadi potensial davamlı iqtisadi inkişafı və makroiqtisadi sabitliyi təmin etmişdir. Bu strategiya nəticəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı sürətləndirilmiş və strateji xarici ehtiyatlardan səmərəli istifadə təmin edilmişdir. Prezidentin həyata keçirdiyi siyasətin icrası yaxın illərdə davamlı inkişaf üçün möhkəm zəmin yaratmağa, Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirməyə və xalqın həyat səviyyəsini daha da yaxşılaşdırmağa imkan verməkdədir. Bu araşdırmanın məqsədi, keçid dövründə həyata keçirilmiş iqtisadi islahatların xüsusiyyətlərini və ölkənin milli iqtisadi inkişaf strategiyasının həyata keçirilməsinin aspektlərini, iqtisadi islahatların həyata keçirilməsindəki nəzəri anlayışları və Azərbaycan'da qeyri neft sektoru üzrə sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi və ixrac potensialının artırılmasının yollarını tedqiq etmekdir.

**Açar sözlər:** İnnovasiya, Qeyri Neft sektoru, Sahibkarlıq, Strategiya, Azərbaycan

**GİRİŞ**

Uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində Azərbaycanda yaradılan sosial-iqtisadi potensial davamlı iqtisadi inkişafı və makroiqtisadi sabitliyi təmin etmişdir. Bu strategiya nəticəsində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı sürətləndirilmiş və strateji xarici ehtiyatlardan səmərəli istifadə təmin edilmişdir. Prezidentin həyata keçirtdiyi siyasətin icrası yaxın illərdə davamlı inkişaf üçün möhkəm zəmin yaratmağa, Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyasını sürətləndirməyə və xalqın həyat səviyyəsini daha da yaxşılaşdırmağa imkan verdi. Qloballaşma proseslərinin təsiri altında milli iqtisadiyyatın fəaliyyətindəki son dəyişiklikləri nəzərə almaq, yeni tələblər və ziddiyyətlərin təsiri altında dövlətlərin böyük qruplarındakı institusional sistemlərin çevrilməsinin yüksək dinamizmini anlamaq vacibdir.

Əsrlər boyu yaşanan təcrübəni nəzərə alaraq, iqtisadiyyatın və cəmiyyətin idarə olunmasında hər hansı bir müasir bazar iqtisadiyyatı şəraitində saf dövlət siyasəti altında həyata keçirilə bilən kifayət qədər geniş funksiyalar mövcuddur. Bunların əsasları aşağıdakılardır [1. səh 236].

- ✓ İqtisadi fəaliyyətin hüquqi təminatı. Bu sahədə dövlətin əsas funksiyalarından biri mülkiyyət hüquqlarının qorunmasıdır.
- ✓ Pul dövriyyəsi, valyuta dövriyyəsinin kütləsinin və sürətinin tənzimlənməsi, məzənnə, kredit münasibətləri.
- ✓ Maliyyə siyasəti və büdcə sektorunun tənzimlənməsi.
- ✓ Dövlət sektorunda gəlirlərin bölüşdürülməsi (sabitliyi, davamlılığı daxil olmaqla). Əsasən dövlət özəl gəlirlə sahibkarlar və əmək haqqı alanların qazandıqları gəlirin nisbətini təmin etmək üçün çalışmalıdır. Bu kateqoriyaya aid insanların gəlirlərində böyük bir fərq varsa, cəmiyyətdə kəskin sosial ziddiyyətlər yaranır, kapitalist ölkələrin təcrübəsi göstərir ki, əhalinin yalnız 5% -i sahibkar ola bilər. Qalanları fəhlə işləməyi üstün tuturlar.
- ✓ Kollektiv tələblərin ödənilməsinə yönəlmiş ictimai mal və xidmətlər istehsalı. Bunlar müdafiə məhsulları, yollar, rabitə və digər infrastrukturdur. Bu iş qrupuna elm, səhiyyə və təhsilə dövlət dəstəyi daxil ola bilər.

- ✓ Əməliyyat xərcləri minimuma endirilir. Əməliyyat xərclərinin iqtisadi sistemin istismar xərcləri demək olduğu başa düşülür.
- ✓ Anti-inhisar tənzimlənməsi və rəqabətin inkişafı. Kiçik və orta sahibkarlara kömək.
- ✓ Milli maraqların dünya iqtisadiyyatına tətbiqi. Yerli iqtisadiyyatın rəqabət qabiliyyətinin qorunması.

Müasir istehsal və iqtisadi münasibətlər iqtisadi varlıqların rəqabət qabiliyyətinin dərəcəsindən asılıdır. Xüsusilə kənd təsərrüfatı və qida məhsullarına artan tələb istehlak bazarlarında rəqabəti daha da artırdı. Bu amil göstərir ki, istehsalçılar müasir texnologiyalardan və standartlardan faydalanmalı və beynəlxalq qaydalara uyğun məhsullar istehsal etməlidirlər [2].

Sosial iqtisadi inkişaf tənzimləməsində yeni konsepsiyalara keçməyə qərar verərkən müasir iqtisadi tədqiqatların vəziyyətini izah edir: demokratikləşmə, bərabərsizlik, ətraf mühitin qorunması və iqtisadi artım arasındakı əlaqəni anlamağa başlayırıq [3]..

### 1.1. İnnovasiya və Strategiyalara Konseptual Baxış

Əksər akademik, strateji yeniliyin yenilik və strategiyanın bir birləşməsi olduğunu söyləyirlər [4]. Son on il ərzində strategiya və yenilik haqqında kifayət qədər yanaşmalar təqdim edilmişdir. Yalnız son illərdə aparılan tədqiqatlar ənənəvi zehniyyətə meydan oxudu və hər iki konsepsiyanı birləşdirərək daxili sistem və imkanları xarici imkanlarla uyğunlaşdırmağa yönəldi [5]. Ənənəvi zehniyyət modelinin yalnız status-kvonun mənbələri və mövcud imkanlarına diqqət yetirərək bir şirkətin gələcəyini qərəzli və məhdudlaşdıracağını iddia etdilər [6].

### 1.2. Marketinq Yeniliyi

Geniş mənada yenilik yeni fikirlərin praktik tətbiqidir [7]. Bu geniş təriflə yaradıcılıq və yenilik anlayışını ayırmaq lazımdır. Yaradıcılıq yeni fikirlər yaratmaq qabiliyyətini ifadə edir, yenilik isə ideyaların həyata keçirilməsi və yeni strategiyanın yaradılması prosesini əks etdirən fəaliyyətə aiddir [8]. Müasir iqtisadiyyatda marketinqin yeni qaydalarını başa düşən təşkilatlar istehlakçılarla birbaşa əlaqələr qururlar [9].

Marketinq yeniliyi, qarşılıqlı əlaqəli və davamlı rəqabət üstünlüyü təmin edərək istehlakçı ehtiyaclarını ödəməyə yönəlmiş dörd vasitənin tətbiqinə əsaslanır [10]. Buna görə marketinq yeniliyi, tamamilə yeni marketinq strategiyalarının, marketinq konsepsiyalarının və ya təşkilatda heç vaxt tətbiq olunmayan yeni marketinq metodlarının istifadəsini əhatə edir. Bunlar aşağıdakı elementlərin birləşməsinə əsaslanır [8].

- ✓ Məhsul dizaynında əhəmiyyətli inkişaflar (forma və qablaşdırmada dəyişikliklər)
- ✓ Yeni qiymət strategiyalarının tətbiqi,
- ✓ Tamamilə yeni pərakəndə satış konsepsiyasının həyata keçirilməsi (tamamilə yeni paylama kanallarının tətbiqi),
- ✓ Tamamilə yeni bir təşviqat konsepsiyasının həyata keçirilməsi (sosial şəbəkələrdə reklam).

Məhsul dizaynındakı dəyişikliklər baxımından marketinq yeniliyi, marketinq konsepsiyasının ayrılmaz bir hissəsi olan forma və qablaşdırmada əhəmiyyətli dəyişiklikləri əhatə edir [11]. Daha konkret olaraq, məhsul dizaynı baxımından marketinq yeniliyi məhsulun işləmə və istifadə xüsusiyyətlərinə təsir göstərmədən qablaşdırma tərzi və ya məhsul stili baxımından əhəmiyyətli dəyişiklikləri əhatə edir [8]. Qiymətləndirmədə marketinq yeniliyi, təşkilatın məhsul və xidmətləri üçün xüsusi bir bazarda ilk dəfə tətbiq etdiyi tamamilə yeni bir qiymət strategiyasının istifadəsini əhatə edir.

### 1.3. Struktur Yeniliyi

Yeni institusional çərçivələr. Yeni idarəetmə tənzimləmələri: Bunlara institusional tənzimləmələri formalaşdırmağa və hökumətlərin və digər qurumların öz resurslarını və siyasətlərini (Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurası, 2006) və əsas konvensiya və digər idarəetmə əlaqələrini effektiv şəkildə idarə etmək imkanlarını müəyyənləşdirməyə kömək edən qurumlararası çərçivələr daxildir və yeni idarəetmə rejimləri ilə əlaqələndirilir

[12]. İdarəetmə strukturları və onların uğurlu sənaye inkişaf modellərinə necə töhfə verdikləri və ya mane olduqları ilə bağlı vacib işləri burada xüsusilə qeyd etmişdir [13].

Yeni aktyorlar və ya təşkilat formaları: Bir sistem daxilində yeni tip aktyorlar və ya dəstlər meydana gəlməsi ilə yeni struktur qarşılıqlı formaları və ya yeni layihə əsaslı təşkilat formaları kimi təşkilati tənzimləmələrin bir şərtini ehtiva edir. Bu səbəbdən aktyor strukturları yenilik şəbəkələri və ya dəyər zəncirləri daxilində fərqli yenilik tapşırıqlarına yönəlmiş fərqli aktyor növləri (firmalar) ilə ixtisaslaşma və yer inkişafı ilə əlaqələndirilə bilər [14].

Yeni konfiqurasiya əlaqələri: Bunlara yeni şəbəkələr və açıq yenilik əlaqələri ilə əlaqəli yeni qaydalar və konfiqurasiyalar daxildir. Buraya yeniliklə əlaqəli daha çox iş birliyi deyil, həm də təşkil etmək və nəzarət etmək də daxildir. Araşdırmalar şirkətlərin şəbəkələrini necə təşkil etdiklərini və qurduqlarını göstəricilərə təsir göstərə biləcəyini göstərdi [15].

## 2. Azərbaycanda Həyata Keçirilən Struktur Yenilikləri

Azərbaycan Respublikasının müstəqilliyini qazandığı dövrdə iqtisadiyyatı elm, təhsil, səhiyyə, tikinti, nəqliyyat, rabitə və sosial infrastruktur kimi geniş miqyaslı sahələrdən və komplekslərdən, sənaye istehsalı və qeyri-istehsal sahələri kimi komplekslərdən ibarət idi. kənd təsərrüfatı istehsalı infrastrukturu [16].

Ölkəmizdə neft sənayesinin daxili və xarici investisiyalarla inkişafı qeyri-sənaye neft yataqlarının inkişafını bir qədər artırdı. Bununla birlikdə, ölkəmizin xammalla zəngin olmasına baxmayaraq, bu sahədə ardıcıl və planlı bir fəaliyyət planının olmaması və ya düzgün bir şəkildə həyata keçirilməməsi maddi, enerjili sahələrin inkişafı ilə xammal çatışmazlığına səbəb oldu. Tək sənaye məhsullarının istehsalı ilə müqayisədə Azərbaycanda müasir, daha səmərəli materialların yaradılması və müasir mütərəqqi sahələrin zəif inkişafı ilə nəticələnən xammal və enerji xərclərinə tələb yüksəkdir [17].

Bu gün neft sektoru Azərbaycanın sosial-iqtisadi inkişaf modelinin ən vacib elementi olaraq qalır. Azərbaycan dünyanın 22 ölkəsinə neft ixrac edir və müvafiq olaraq gəlirlərin əhəmiyyətli bir hissəsi bu sektorun hesabına büdcəyə daxil olur. Bununla belə, hökumət fəal şəkildə iqtisadiyyatın qeyri-neft sektorunu inkişaf etdirməyə çalışır. Azərbaycan hökumətinin beynəlxalq təşkilatlarla apardığı danışıqlar nəticəsində hədəflərdən biri yeni orta müddətli fəaliyyət proqramı ilə rifah səviyyəsini artırmaq idi. Buna görə də bu mərhələdə iqtisadi siyasəti həyata keçirmək üçün qeyri-neft sektorunun inkişafı hədəf olaraq müəyyən edilmişdir. [18].

### 2.1. Son Dövrün İqtisadi Vəziyyəti

2018-ci ildə Azərbaycanda çoxtərəfli və ardıcıl islahatlar davam etdirildi, qeyri-neft sektorunun inkişafını artırdı, bölgələri balanslı şəkildə inkişaf etdirdi, dövlət sahibkarlıq münasibətlərini yaxşılaşdırdı və işgüzar investisiya mühitini inkişaf etdirdi, qeyri-neft sektorlarını inkişaf etdirdi, özəl sektorun təşviqlərini təqdim etdi, Kənd təsərrüfatı sektoruna dövlət dəstəyi Kiçik və orta sahibkarlıq hər zaman ön planda olmuşdur. Ölkənin mövcud sosial-iqtisadi vəziyyətinin təhlili göstərir ki, aparılan islahatlar nəticəsində yaranan güclü iqtisadi potensial iqtisadiyyatın davamlılığını artırır və ölkədə makroiqtisadi sabitliyi təmin edir.

2018-ci ildə istehlak bazarında əhaliyə göstərilən mal və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3,1% artaraq 47755,1 milyon manata çatmışdır. 2017-ci illə müqayisədə pərakəndə ticarət dövriyyəsi və əhali üçün ödənilən xidmətlərin həcmi 2,5% artmışdır. 2018-ci ildə ölkə əhalisi pərakəndə ticarət şəbəkəsindən 18,6 milyard manatlıq qida məhsulları, içkilər və tütün məhsulları və 18,5 milyard qeyri-ərzaq məhsulları alıb və bu rəqəmlər müvafiq olaraq yüzdə 2,5 və 3 faizdir.

Əhalinin nominal gəlirləri 2018-ci ildə 9,2% artaraq 53,7 milyard dollara çatdı. Adambaşına nominal nominal gəlir 8,2% artaraq 5467,4 manata çatdı. 2018-ci ilin yanvar-noyabr aylarında muzdlu işçilərin orta aylıq əməkhaqqı 2017-ci ilin eyni dövrü ilə müqayisədə 2,9% artaraq 540,1 manata çatmışdır

Azərbaycan 2020: Gələcək Tədqiqat "İnkişaf Konsepsiyası davamlı iqtisadi inkişaf məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə

hazırlanmış və təsdiq edilmişdir. Bu çərçivədə elmin inkişafına üstünlük veriləcək, yerli xüsusiyyətlər və qlobal tendensiyalar nəzərə alınmaqla və mütərəqqi dünya elminə təsirli inteqrasiya prosesi davam edəcəkdir.Elektron informasiya dəstəyi sistemləri təmin ediləcəkdir. Resursların iştirakı ilə təşviq ediləcəkdir. Elmlə istehsal arasında əlaqə gücləndiriləcək və tətbiqi elmi tədqiqatların bazarın tələblərinə uyğun tətbiqi üçün zəruri mexanizmlər yaradılacaqdır.

Azərbaycan Respublikasının Statistika Komitəsi Azərbaycanda innovasiyanı əngəlləyən əsas amilləri aşağıdakı kimi sıraladı [19].

- ✓ İqtisadi amillər
- ✓ Pul çatışmazlığı
- ✓ Dövlət tərəfindən qeyri-kafi maliyyələşmə
- ✓ Yeni məhsullara az tələbat
- ✓ Yeniliklərin yüksək dəyəri
- ✓ İqtisadi risk
- ✓ Yeni məhsulların mənfəətinin gecikməsi
- ✓ İstehsal amilləri
- ✓ Aşağı riskli yenilik qabiliyyəti
- ✓ ixtisaslı işçi çatışmazlığı
- ✓ Yeni texnologiyalar haqqında məlumatın olmaması
- ✓ İnnovasiyalar müəssisələr tərəfindən qəbul edilmir
- ✓ Satış bazarları haqqında məlumat çatışmazlığı
- ✓ Digər şirkətlər və digər elmi təşkilatlar
- ✓ Əməkdaşlıq üçün imkanların olmaması
- ✓ Digər amillər
- ✓ Əvvəlki yeniliklər nəticəsində yeni məhsulların olmaması
- ✓ İnnovasiya fəaliyyətini tənzimləyən və dəstəkləyən hüquqi və normativ hüquqi sənədlərin olmaması
- ✓ İnnovasiya prosesinin qeyri-müəyyənliyi
- ✓ İnnovasiya infrastrukturunun inkişafı (vasitəçilik, məlumat, hüquq, bank işi və s.)
- ✓ Texnologiya bazarının inkişafı

## 2.2. Azərbaycan Respublikasının Müasir Sosial-İqtisadi İnkişafının vəziyyəti

Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi sferaya inteqrasiyasında gömrük siyasətinin rolu, ölkənin iqtisadi təhlükəsizliyi və daxili bazarda gömrük siyasətinin rolu, ölkənin sosial-iqtisadi inkişafını təmin edən əsas vasitələrdən biri kimi artır. ölkə, gömrük idarəçiliyinin daha da təkmilləşdirilməsi və şəffaflığa əsaslanan sistemlərin inkişafı, Müdafiənin gücləndirilməsi, gömrük infrastrukturunun modernləşdirilməsi və maddi-texniki bazanın gücləndirilməsi 2014-2018-ci illər dövrü ərzində gömrük siyasətinin əsas prioritetləri olacaqdır [20].

Ölkənin uzunmüddətli iqtisadi və sosial inkişafının təmin edilməsi baxımından, iqtisadiyyata qoyulan investisiyalar, tələb olunan sərmayə həcminə və keyfiyyətinə uyğun olaraq investisiya mühitinin yaxşılaşdırılmasında xüsusi rol oynayacaqdır. Bu məqsədlə, 2014 2018-ci il üçün dövlət investisiya siyasətinin əsas prioritetləri aşağıdakılar olacaq.

- ✓ Qeyri-neft sektorlarının və bölgələrin inkişafına investisiya qoymaq;
- ✓ Müasir inkişaf meyllərinə uyğun regional investisiya siyasətinə üstünlük vermək;
- ✓ Ölkədə investisiya fəaliyyətinin sosial ölçüsünün gücləndirilməsi, insan kapitalı, infrastruktura prioritet investisiyaların verilməsi;
- ✓ nanotexnologiya və az karbon istehsalına dövlət investisiyalarının üstünlük verilməsi;
- ✓ İqtisadiyyatın prioritet sahələrinə daxili və xarici investisiyaların ixracyönümlü və yüksək əlavə dəyəri ilə cəlb edilməsi üçün təşviq tədbirlərinin sürətləndirilməsi;
- ✓ Sənaye parklarının salınmasına yerli və xarici investisiyaların cəlbediciliyi.

Ölkə prezidenti Cənab İlham Əliyevin təqdiq etdiyi Strateji Yol Xəritəsində, (2016)aşağıda qeyd edilən tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

- ✓ Sahibkarlıq fəaliyyətini tənzimləyən hüquqi və hüquqi bazanın daha da təkmilləşdirilməsinə davam etmək;
- ✓ dövlət-sahibkarlıq münasibətlərinin digər institusional mexanizmlərinin daha da təkmilləşdirilməsi;
- ✓ Bölgələrdəki sahibkarların maliyyə təminatlarının daha da yaxşılaşdırılması;
- ✓ Müasir bazar infrastruktur mexanizmlərinin (maliyyə, bank və sığorta sistemi, birja, audit, ipoteka, lizinq və françayzinq) inkişafının sürətləndirilməsi daxil olmaqla sahibkarlığın istehsal, bazar və sosial infrastrukturunun təkmilləşdirilməsi;
- ✓ İstehsal və kooperasiya daxil olmaqla kiçik, orta və iri müəssisələr arasında qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək və gücləndirmək üçün səyləri təşviq edin.

### 2.3. Milli İqtisadiyyatın Yeniliyi və Ölkənin Milli İqtisadiyyatın İnkişaf Strategiyasının İcra Yolları

Azərbaycandakı iqtisadi və siyasi vəziyyətlə fərqli siyasi qüvvələr arasındakı ziddiyyətləri nəzərə alaraq, islahatların uğurla həyata keçirilməsi üçün aşağıdakı şərait yaradılmışdır: [21].

- ✓ Sosial-iqtisadi proseslərin dağınıq idarəetmə mexanizmlərinin yaxşılaşdırılması;
- ✓ Mərkəzi idarəetmə cihazı ilə rayon zonaları arasında fəaliyyət mexanizminin təkmilləşdirilməsi;
- ✓ İslahatların sosial bazasının genişləndirilməsi və tərəfdarlarının kütləsinin təmin edilməsi.

Ölkədə avtomobil yolu, nəqliyyat, ictimai xidmətlər, elm, təhsil, səhiyyə, informasiya və kommunikasiya texnologiyaları da daxil olmaqla bütün sosial-iqtisadi, mədəni və digər sahələri əhatə edən nəhəng infrastruktur layihələri həyata keçirilmiş, Azərbaycanın enerji təhlükəsizliyi tam qorunmuş və qida təhlükəsizliyi təmin edilmişdir . Bu dövrdə iqtisadiyyatımız üç dəfə artdı, dövlət büdcəsi 20 dəfə artdı və 50 milyard dollarlıq valyuta ehtiyatı quruldu. Hazırda ölkənin enerji potensialı gücləndirilir və sənaye sürətlə inkişaf edir. Respublikada makroiqtisadi sabitlik qorunur və inflyasiya bir rəqəmli səviyyədə saxlanılır. Ötən dövrdə minlərlə müəssisə, 2000-dən çox müasir məktəb, çoxsaylı səhiyyə müəssisələri, olimpiya idman kompleksi, mədəniyyət obyektləri tikilib istifadəyə verilmişdir. Azərbaycanın şəhərlərində, qəsəbələrində və kəndlərində genişmiqyaslı tikinti və landşaft işləri aparılmış və fikirləri artırılmışdır [22].

Əsasən bu inkişaf özünü daha intensiv elmi biotexnologiya, informatika, nanotexnologiya, səhiyyə və iqtisadiyyat sahələrində göstərəcəkdir. Azərbaycan üçün elmi-texniki, tədqiqat potensialı və yüksək texnologiya istehsalının mövcudluğu bir çox vəziyyəti nəzərə almağın və əlverişli şərait yaratmağın vacibliyini vurğulayır:

- ✓ İlk və həll oluna bilən sahələrdə texnoloji liderliyin təmin edilməsi;
- ✓ Yüksək texnoloji komplekslər, sahələr, beynəlxalq bazarlar üçün daha inkişaf etmiş məhsulların alınması;
- ✓ Azərbaycanın yüksək texnoloji məhsullar və intellektual xidmət bazarlarında mövqeyinin gücləndirilməsi;
- ✓ Ənənəvi iqtisadiyyatın inkişaf perspektiv tendensiyalarına əsaslanaraq daxili maliyyə mənbələri və inkişaf etməkdə olan qlobal maliyyə bazarlarına əsaslanan qlobal və beynəlxalq bazarların modernləşdirilməsi.

Uzunmüddətli sosial-iqtisadi inkişaf qiymətləndirmələrini təmin etmək üçün aşağıdakıları ehtiva edən kompleks proqram və modellərin hazırlanmasını tələb edir: [23].

- ✓ Sosial-iqtisadi inkişafın uzunmüddətli strateji aspektləri;
- ✓ Uzunmüddətli proqnozların və ssenarinin müəyyənləşdirilməsinin hazırlanmasını seçmək üçün əsas;

- ✓ Məqsədləri təyin etməyin məqsədi və məqsədi;
- ✓ Yeniliyə və elmi-texniki tərəqqiyə keçid üçün təlimatlar;
- ✓ Uzunmüddətli proqnozlarda dövlət-özəl tərəfdaşlığın təmin edilməsi;
- ✓ Elmi-texniki tərəqqinin və yeniliyin inkişaf mərhələlərinin müəyyənləşdirilməsi;
- ✓ İqtisadi qurumların rolunun artırılması, institusional dəyişikliklərin həyata keçirilməsi və makroiqtisadi sabitliyin qorunması;
- ✓ İqtisadi idarəetmə sisteminin səmərəliliyini artırmaq;
- ✓ İqtisadi inkişafda milli rəqabət qabiliyyətinin artırılması;
- ✓ Azərbaycan Respublikasının 2012 və 2020-ci illərdə sosial-iqtisadi inkişafına təsir göstərən amillər və bu dövrdə dəyişən mühit;
- ✓ Sosial-iqtisadi inkişafa təsir edəcək daxili mühitin müəyyənləşdirilməsi (alternativ variantlarla);
- ✓ Sosial-iqtisadi inkişafa təsir göstərən xarici mühitin (alternativ variantlarla) müəyyənləşdirilməsi;
- ✓ 2012-2020 (2030-2050) illər üçün Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının əsas prioritetləri;
- ✓ Müvafiq dövrlərə uyğun iqtisadi inkişaf amilləri.

### 3. Milli İnkişaf Məqsədləri və Yeni Regional Siyasət

Azərbaycanın qurumlar, insan kapitalı və tədqiqatları, infrastruktur, bazar və işin mükəmməlliyi, informasiya və texnologiya səmərəliliyi və yaradıcılıq səmərəliliyi kimi qlobal innovasiya indeksində əhəmiyyətli irəliləyişlər olduğu bildirilir. Ölkəmizin tikinti rahatlığı (13-cü dərəcə), bazar mükəmməlliyi (26-cı dərəcə), mikromaliyyə krediti (15-ci dərəcə), sərmayə (10-cu dərəcəli), investorların qorunması asanlığı (21-ci dərəcəli), kənd təsərrüfatında kənddənkənar sahibkarlıq (9. dərəcə), birbaşa investisiya axını (8-ci yer), informasiya və kommunikasiya texnologiyaları və təşkilati modelləşdirmə (23-cü dərəcə) dövlətin qeyri-neft sektorunun inkişafında prioritet məsələlərdəndir. Yüksək qiymətlərin nəticəsi kimi qəbul edilə bilər .

Prezident İlham Əliyevin sərəncamı ilə bilik iqtisadiyyatının güclü inkişafını təmin etmək üçün təsdiqlənən "Azərbaycan 2020: irəliyə bax" İnkişaf Konsepsiyası innovasiya yönümlü qurumların yaradılması, müasir modelin yaradılması və inkişafı üçün imkanlar yaradır sosial infrastruktur. Əsas hədəflərə çatmaq üçün elm tələb edən istehsal sahələrinə və innovasiyalara diqqətin artırılması, təbii ehtiyatlardan asılılığın azaldılması və hər şeydən əvvəl qeyri-neft sektorunun inkişafı. Bu sahələrdə real nəticələr əldə etmək üçün bilik əsaslı iqtisadiyyatın inkişafı, İKT-dən səmərəli istifadə və yeni ideyanın formalaşması, iqtisadi inkişafda yüksək gəlir əldə etmək üçün yaradıcı gənclər. Konsepsiyanın əsas strateji baxışı Azərbaycanda iqtisadi artımın durmadan artması və ölkənin ictimai həyatında fəal vətəndaş cəmiyyəti statusunun nüfuzundan tam istifadə edilməsi ilə xarakterizə olunan inkişaf mərhələsinə çatmaqdır. Bu baxımdan tətbiq olunan sosial-iqtisadi siyasət Azərbaycanda hər bir vətəndaş üçün böyük imkanlar yaradır [24].

### NƏTİCƏ

Hazırda Azərbaycan sosialyönümlü tədbirlər və bazar islahatları həyata keçirərək yeni iqtisadi islahatlar mərhələsinə keçid etmişdir. Bu mərhələ istehsal güclərinin çevrilməsini, iqtisadiyyatın strukturundakı keyfiyyət dəyişikliklərini, istehsalın texnoloji modernləşdirilməsini və aparıcı iqtisadi artım amillərini (təbii ehtiyat, elmi-texniki və insan amilləri) birləşdirir. Azərbaycanda mədənçıxarma sənayesini qiymətləndirsək, yüksək rəqabətə davamlılığın və aşağı inovasiyanın şahidi oluruq. Bu sahədəki məhsullar yenilikçi məhsul hesab edilə bilməsə də, yeni texnologiyalar və innovasiya avadanlığı daxil olmaqla bu növ məhsullara tələb yüksəkdir.

Bazarda texnologiyanın inkişafı, yenilikçi məhsulların, yeni nəsil texnika və texnologiyaların ortaya çıxması konsepsiyalarını həyata keçirmək vacibdir. Bunun nəticələri hökumət tərəfindən - sənaye və elmi-texniki siyasət qurulması üçün - biznesin inkişafı və uzunmüddətli investisiya layihələrinin strateji inkişafı üçün tələb olunur.

Aşağıdakıları nəzərə alaraq, aşağıdakı əsas mülahizələrə əsaslanaraq modernləşməni sosial və iqtisadi siyasət amili kimi təklif edirik:

- ✓ İnnovasiyalar dünya iqtisadiyyatını birləşdirir. Təbii resurs potensialı insan potensialı ilə birləşdirildikdə və onun yeni formalarından istifadə edildikdə əmək məhsuldarlığında sürətli artım mümkündür. İnkişaf etmiş ölkələrdə iqtisadi artımın yüzdə 70-i və insan potensialının yüzdə 30-u kapitalın və təbii ehtiyatların inkişafı ilə əlaqədardır. İqtisadiyyatda prioritetlər əsas elmi tədqiqatların və tətbiqi tədqiqatların nəticələrinin sənaye müəssisələrinin məhsullarına ən sürətli qaytarılmasını təmin edən mexanizmlərin yaradılmasına yönəldilməlidir; əks halda xammal ticarəti elmin inkişafı ilə daha az maraqlanacaq;
- ✓ Azərbaycan iqtisadiyyatı inkişaf prosesi keçmişdir və bu çərçivədə uzunmüddətli milli maraqlara əsaslanan xammal və innovasiya sahəsində iqtisadiyyatın üstünlüklərini əlaqələndirmək lazımdır. Prioritet, potensial rəqabət üstünlükləri olan mövcud inkişaf meylləri kimi qəbul edilməlidir. Mövcud üstünlüklərdən istifadə edə bilmədiyimiz üçün, sənaye istehsalının bərpası və real iqtisadi artımın təməli baxımından perspektiv sahələrimizdəki müəyyən hədəflər daxilindəki quruluşu təhlil etmək lazımdır. Bunun üçün iqtisadiyyatın və sənayenin davamlı inkişaf strategiyası çox vacibdir;

Azərbaycanda sənayenin quruluşu aşağı əməkhaqqı və yeni iqtisadi daxili və xarici şərtlərlə uyğun olmayan böyük bir işçi qüvvəsinin təsiri ilə yaradıldı. Hər sektorda struktur dəyişiklikləri edilməlidir, bu səbəbdən ümumi, daxili və xarici şəraitə uyğunlaşaraq ölkə iqtisadiyyatına dramatik şəkildə uyğunlaşmaq məqsədəuyğundur.

Nəticə olaraq düşünürəm ki, yaxın illərdə iqtisadi inkişaf strategiyasının əsas məqsədi iqtisadi islahatların dərinləşdirilməsi və müasir bazar meyillərinə əsaslanaraq ölkənin iqtisadi sisteminin yeni inkişaf səviyyəsinə keçməsi olacaqdır. Qeyd edilən inkişaf strategiyasına əsasən əlaqələr və qlobal iqtisadi sistem, aşağıdakı təklif edilən xüsusiyyətlərə malikdir.:

- ✓ Dinamik inkişaf edən və bazar əsaslı iqtisadiyyatı tamamlamaq;
- ✓ Yerli xammal və dünya bazarında likvidliyi olan məhsullar da daxil olmaqla, qabaqcıl sənaye sahələri istehsal edən neftdənkənar bazaların müasir texnoloji bazasında dinamik inkişafı təmin etmək;
- ✓ Ölkədə bir çox sərbəst rəqabət və mülkiyyət növünün sərbəst fəaliyyətini təmin edən və sahibkarlığı təşviq edən çevik iqtisadi mexanizmin yaradılmasını başa çatdırmaq;
- ✓ Ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə inteqrasiyasının dərinləşdirilməsi və genişləndirilməsi;
- ✓ Müasir və çevik iqtisadi idarəetmə sistemi və tənzimləmə yolu ilə dövlətin iqtisadi inkişafdakı rolunun artırılması;
- ✓ Ölkənin müxtəlif bölgələrinin dinamik inkişafının təmin edilməsinə yönəlmiş regional siyasətin həyata keçirilməsi;
- ✓ İqtisadi böyüməni artıraraq əhalinin təhlükəsiz müdafiəsini təmin etmək və sosial şərtlər sistemini müasir şəraitə uyğun təkmilləşdirmək və əhalinin həyat səviyyəsini artırmaq.
- ✓ Yuxarıda göstərilən nəticələrə nail olmaq üçün növbəti beş il ərzində ölkənin iqtisadi siyasəti aşağıdakı konkret vəzifələrin həllinə yönəldilməlidir:
- ✓ İqtisadiyyatın strukturunu təkmilləşdirərək əsas fəaliyyət sahələrinin ÜDM ilə formalaşmasını təmin etmək;
- ✓ Büdcə formalaşdırılmasında birbaşa və dolayı vergilərin paritet dərəcəsini təmin etməklə vergi yükünün optimal paylanması;

- ✓ Əhalinin pul gəlirlərini aşma stimulunu artırmaq üçün dövlət sektorundakı işçilərin orta aylıq əməkhaqqı səviyyəsinin minimum istehlak büdcəsi səviyyəsini aşmasını təmin etmək;
- ✓ İqtisadi mexanizmin şəffaflığını artırmaq və ödəniş intizamının həddindən artıq qorunmasını təmin etməklə qarşılıqlı öhdəliklərin yerinə yetirilməsini təmin etmək;

**İstinadlar:**

1. Nadirov A.A. (1998) "Azerbaycan Piyasa Ekonomisinde Bölgelerin Ekonomik Gelişme Sorunları ". Anas'tan Haberler Ekonomi Serisi.
2. Rahmanov FP (2004) "Sosyal Altyapı Düzenleme Sorunları"ders kitabı Bakü.
3. Hoff Karla (2008). Joseph E. Stiglitz. Joseph E. Stiglitz'in Seçilmiş Bilimsel Kağıtları, vol. Oxford: Oxford Üniversitesi Yayınları
4. Schlegelmilch, B. B., Diamantopoulos A., & Kreuz P (2003). Strategic innovation: the construct, its drivers and its strategic outcomes. Journal of Strategic Marketing, 11, 117-132.
5. Geroski, P. (1998). Thinking creatively about your market: crisps, perfume and business strategy. Business Strategy Review, 9 (2), 1-10
6. Baden-Fuller, C., & Volberda, H. W. (1997). Strategic Renewal. How Large Complex Organizations Prepare for the Future. International Studies of Management & Organization, 27 (2), 95-120.
7. Millson, M.R., & Wilemon, D.L. (2008). The strategy of managing innovation and technology. Upper Saddle River, N.J: Pearson Prentice Hall.
8. Stosic, B. (2007). Menadžment inovacija: Ekspertni sistemi, modeli i metode. Beograd: Fakultet organizacionih nauka. (in Serbian).
9. Scott, D.M. (2013). The new rules of marketing & PR: How to use social media, online video, mobile applications, blogs, news releases, and viral marketing to reach buyers directly (4th ed.). Hoboken, N.J: John Wiley & Sons
10. Ferrell, O.C., & Hartline, M.D (2011). Marketing strategy (5th ed.). Mason, OH: South Western Cengage Learning.
11. Kotler, P., & Keller, K. (2006). Marketing management (12th ed.). New Jersey: Prentie Hall Press.
12. Morgan, K (2004). Sustainable regions: governance, innovation and scale. European Planning Studies, 12, 871–888.
13. Kitschelt, F H 1991. Industrial governance structures, innovation strategies, and the case of Japan. International Organisation, 45, 453–493.
14. Geels, F W and J Schot (2007). Typology of sociotechnical transition pathways. Research Policy, 36, 399–417.
15. Zaheer, A and G G Bell (2005). Benefiting from network position: firm capabilities, structural holes, and performance. Strategic Management Journal, 26, 809–825.
16. Huseynov T.A (1998) "Endüstri Ekonomisi", Ders kitabı. Bakü
17. Imanov T.I (2008) Tüketici Piyasası: Sorunlar ve Perspektifler (Monograf). Bakü.
18. Amiraslanov Azer, (2001) "Ulusal Bağımsızlık Sorunları ve Ulusal Ekonominin Oluşumu", Danışma Bülteni, No: 7 (43), Ekim.
19. Shaposhnikova S. V. (2008) Bölgenin inovasyon sisteminin oluşturulması / S. V. Shaposhnikova / İnovasyon Bülteni “Bölge”. № 1
20. Mehdiyev H.O. (2015) "Azerbaycan'ın sosyo-ekonomik gelişimine retrospektif inceleme: karşılaştırmalı analiz", Bakü.
21. Musayev A.F. (2010). Yenilik politikası: Avrupa Birliği deneyimi ve Azerbaycan'ın koşullarına uyum. "Azerbaycan vergi haberi", Bakü.
22. Musayev A.F. (2011). İnovasyon ekonomisinin oluşumunda vergi politikasının ana yönleri, ANAS, Bilimsel İnovasyon Merkezi, Kurumsal Yönetim ve Ekonominin İnovasyon Gelişimi. Uluslararası bilimsel uygulamalı konferans materyalleri. Bakü.
23. Gasimov FH, Necefov ZM (2009) Yenilikler: Ortaya çıkma, yayılma ve gelişme perspektifleri. Bakü: Bilim.
24. Lenchuk E.B. (2006) Post-sosyalist ülkelerin ekonomik kalkınmasında yenilikçi faktör. M., OMEPI IE RAS.

**Səfərova Təranə Allahverdi qızı**

*Mingəçevir Dövlət Universiteti*

tarana.safarova.61@mail.ru

# SAHİBKARLIĞIN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV SİYASƏTİNİN ƏHƏMİYYƏTİ

**Xülasə**
Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan ölkənin hərtərəfli inkişafının təmin edilməsi dövlətin siyasətinin əsasında dayanır. Həyata keçirilən islahatların zamanın tələbinə uyğunlaşdırılması qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmaq üçün stimuldur. Bu gün Prezident İlham Əliyevin də cidd-cəhdlə inkişafını dəstəklədiyi sahibkarlığın inkişafı siyasətinin əsasını vaxtilə Ümummilli Lider Heydər Əliyev qoyub.Onun hakimiyyəti illərində Azərbaycanda demokratik dövlət quruculuğunun həyata keçirilməsi və liberal bazar iqtisadiyyatının formalaşdırılması zərurətə çevrilib.

***Açar sözlər:*** *sahibkar,bazar iqtisadiyyatı, iqtisadi fəaliyyət,azad sahibkarlıq, islahat, inflyasiya*

Məlumdur ki, Azərbaycan Respubilkası müstəqillik əldə etdikdən sonra ölkənin iqtisadi yüksəlişi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. 1993-cü ildən başlayaraq ölkəmizdə aparılan ardıcıl siyasi- iqtisadi islahatlar nəticəsində Azərbaycan sürətli inkişaf yoluna qədəm qoymuş, bu sahədə regionun lider dövləti səviyyəsinə yüksəlmişdir. Əldə edilən uğurlar beynəlxalq iqtisadi təşkilatların diqqətini ölkəmizə yönəltmişdir. Məhz ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən daha da zənginləşdirilərək davam etdirilən iqdisadi siyasətin uğurları ölkəmizə böyük gələcək vəd edir. Bütün dünya dövlətlərində sərbəst bazar iqtisadiyyatının əsas tələblərindən biri də sahibkarlığın inkişaf etdirilməsidir.

Azərbaycanda sahibkarlığın inkişafı və təşəkkül tapması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu sahədə 1993-cü ildə təsdiq edilmiş ''Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995)'' Dövlət Proqramını qeyd etmək olar. Sahibkarlıq sektorunda həyata keçirilən islahatlar ölkədə fəaliyyət göstərən kiçik və orta sahibakarların sayını artırdı, onların xarici iqtisadi fəaliyyəti genişləndi və bu sahədə nisbi uğurların əldə olunmasına şərait yarandı. Azad sahibkarlığın inkişafı ümummilli lider Heyder Əliyevin daim diqqət mərkəzində olmuşdur. Təsadüfü deyil ki, ulu öndərimiz ölkəmizin sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun tərəqqisi ilə əlaqələndirmiş, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Məhz sahibkarlığın inkişafına zəmin yaradacaq qanunvericilik bazasının formalaşması, maliyyə dəstəyinin göstərilməsi bürokratik maneələrin aradan qaldırılması və s. sahələrdə mühüm əhəmiyyət kəsb edən tədbirlər keçirilmişdir.

Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanunvericilikdə bazar münasibətləri şəraitində iqtisadiyyatın inkişaf etdirilməsi, ona hüquqi təminatın verilməsi öz əksini tapmışdır. Həmçinin bu qanunvericilikdə rəqabət mexanizminin formalaşması və onun qorunması ilə bağlı müddəlar yer almışdır. Bu sənəd iqtisadiyyatın dinamik inkişafına, sürətli yüksəlişinə xidmət etmişdir. İqtisadiyatın inkişafı üçün dövlətin sahibkarlara maliyyə dəstəyi sistemi təşkil olunmuşdur. Sahibkarlığın inkişafına nail olmaq, ölkədə işgüzar fəaliyyətin əlverişli mühitini təmin etmək əsas məqsədlərindən idi. Bu sahənin tərəqqisinə yönəldilmiş tədbirlər zəruri iqtisadi mühitin formalaşması üçün xüsusi sistem çərçivəsində reallaşması vacib sayılırdı. Sürətli inkişaf göstəricilərinin səviyyəsini qaldırmaq, maliyyə və istehsalat sahəsində yüksəlişə nail olmaq, infliyasiyanın minimal səviyyə endirmək qarşıda duran əsas məqsədlərdən idi. Bazar iqtisadiyyatına keçid dövründə sahibkarlığın bazar infrastrukturunun əsas ünsürlərini- reklam, audit və informasiya xidmətlərini xüsusi vurğulamaq lazımdır (2).

Sahibkarların fəaliyyətini təşkil etmək üçün vacib olan dövlət strukturları yaradılmışdır. Buna misal olaraq Sahibkarlığa Kömək Milli Fondunu, Kiçik və Orta Sahibkarlığın İnkişafı

Agentliyini, Dövlət Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsini, həmçinin Xarici İnvestisiyalar Mərkəzini və digərlərini misal göstərmək olar. Sahibkarlığı inkişaf etdirmək üçün dövlət öz üzərinə müvafiq öhdəliklər götürür, onların firmaları dövlət qeydiyyatından keçirilir, sahibkarlara elmi-texniki, hüquqi və başqa köməkliklər göstərilirdi.

Məlumdur ki, ölkəmiz əlverişli coğrafi mövqeyə, zəngin təbii sərvətlərə, fauna və floraya, gözəl iqlim şəraitinə malikdir. Bu da iqtisadiyyatın inkişafında əsas amil sayılır. Bəzi dünya ölkələrinin təcrübəsindən də görmək olar ki, bazar iqtisadiyyatına keçmək üçün, ilk növbədə, dövlət mülkiyyətini özəlləşdirmək lazımdır. Bununla da azad sahibkarlığın inkişafına nail olmaq olar. Bu da bazarda sahibkarlar arasında rəqabətin yaranmasına, istehlak bazarında mövcud qıtlığın aradan qaldırılmasına, əhalinin məşğulluğunun artmasına səbəb olur. Azərbaycan Respublikasının "Sahibkarlıq haqqında"(1996) , "Torpaq islahatı haqqında " (1996) qanunlarının qəbul olunması bir daha göstərir ki, azad sahibkarlığın inkişafına dövlət hər cür dəstək olur. Ölkəmizdə istər yerli, istərsə də xarici vətəndaşlar, bir sözlə, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hər bir kəs qanunvericilikdə qadağan olunmayan bütün təsərrüfat formaları ilə məşğul ola bilərlər.

Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın bazar infrasturukturunun əsas elemetlərindən biri də sığorta şirkətləridir. Onu da qeyd edək ki, sığorta bazarı maliyyə- pul münasibətlərinin xüsusi bölməsidir. Burada vurğulamaq lazımdır ki, dünya dövlətlərində dövlət, səhmdar və özəl sığorta şirkətləri bazar iqtisadiyyatının normal fəaliyyətini təmin edirlər. Bu şirkətlərin əsas məqsədi təsərrüfat subyektlərinə dəyən zərəri qismən və ya tam ödəməkdir. Bazar iqtisadiyyatında iqtisadiyyatın inkişafını təmin etmək üçün sahibkarlıq riskinin sığortalanması vacib sayılır.

Ulu öndər Heydər Əliyev yerli sahibkarlarla görüşündə (2002-ci il 25 aprel) demişdir: "Azərbaycan dövlətinin iqtisadi siyasəti Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməkdən ibarətdir. Bunun üçün biz 1995-ci ildən başlayaraq ardıcıl surətdə lazım olan iqtisadi islahatları həyata keçiririk. Biz bu gün məmnuniyyət hissi ilə deyə bilərik ki, artıq bizim iqtisadi siyasətimiz, həyata keçirdiyimiz tədbirlər öz müsbət nəticəsini verir və verməkdədir".

Həqiqətən də ümummilli lider Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan bu gün tam əminliklə demək olar ki, inkişaf etmiş ölkələrlə rəqabət aparmaq iqtidarındadır. Ölkəmizdə sahibkarlıq sürətlə inkişaf edir. Sahibkarlığa Kömək Milli Fondu hər il təsərrüfat fəaliyyəti ilə məşğul olan sahibkarlara güzəşli kreditlər verir. Bu isə yeni iş yerlərinin açılmasına və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına təkan verir.

Ümummilli lider Heydər Əliyev ölkəmizin sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla və onun tərəqqisi ilə əlaqələndirirdi. Azərbaycanda sahibkarlığın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğı sayəsində əlverişli biznes mühitinin yaradılması üçün çox yaxşı imkanlar açılıb. Bu gün sahibkarlığın inkişafı istiqamətində atılan addımlar, bu sahədə yaradılan şərait birbaşa olaraq ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu sahədə əldə olunan inkişaf, möhkəm təməl ulu öndər Heydər Əliyevin diqqəti nəticəsində yaradılıb.Qeyd etmək lazımdır ki, Azərbaycanda sahibkarlıq mühitinin formalaşması üçün vacib olan "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar Cəmiyyətləri haqqında", "Əmək birjası haqqında", "Lizinq kampaniyaları haqqında" qanunlar və bazar iqtisadiyyatının hüquqi mexanizminin qurulmasını təmin edən digər qanunlar da qəbul olunub.Sahibkarlığın inkişafı istiqamətində Ulu Öndərin prinsip və ənənələri bu gün dövlət başçısı İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Prezident İlham Əliyevin ötən illərdə imzaladığı Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət proqramı, "Sahibkarlığa dövlət maliyyə dəstəyinin göstərilməsi sahəsində əlavə tədbirlər haqqında", "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi qaydalarının təkmilləşdirilməsi haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasında azad iqtisadi zonaların yaradılması haqqında", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafı ilə bağlı bəzi tədbirlər

haqqında" və s. fərman və sərəncamlar, qanunlar, dövlət proqramları sahibkarlığın inkişafına mühüm təsir göstərir (1).

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Sahibkarlar Günü"nün təsis edilməsi haqqında 2016-cı il 21 aprel tarixli Sərəncamı və aprelin 25-nin Azərbaycanda "Sahibkarlar Günü" qeyd edilməsi ölkədə sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətlərindən biridir. Azərbaycanın dinamik inkişafında kiçik və orta sahibkarlığın, özəl sektorun rolu böyükdür. Mütəmadi olaraq sahibkarlığın inkişafına mane olan yersiz müdaxilələrin aradan qaldırılması istiqamətində müəyyən tədbirlər həyata keçirilir. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun 28 avqust 2013-cü il tarixli ölkə başçısının Fərmanı ilə qüvvəyə minməsini sahibkarlar onlara dövlət tərəfindən göstərilən diqqətin nəticəsi kimi qiymətləndirirlər.

Ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı üçün müxtəlif güzəştlər və imtiyazlar tətbiq olunur. Kiçik və orta sahibkarlığın inkişafı "2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da yer alan mühüm amillərdən biridir. İqtisadiyyatımızın daha da inkişaf etdirilməsi, ötən dövr ərzində Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi üçün bir sıra tədbirlər həyata keçirilib. Ölkədə kiçik və orta sahibkarlığın, bütövlükdə, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha səmərəli təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, yüksək ixtisaslı kadr təminatının yaradılması əsas məsələlərdən biridir.

Ulu öndərin rəhbərliyi altında iqtisadı və dövlət idarəetmə sistemi sahəsində aparılan kompleks islahatlar ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sahibkarlığın formalaşmasına güclü təkan verib. Bu cür əlverişli şəraitdə həyata keçirilən sistemli tədbirlər nəticəsində, Azərbaycanda bazar iqtisadiyyatının formalaşdırılması və sahibkarlığın inkişafı sahəsində ciddi nəticələr əldə olunub. Belə ki,iqtisadi canlanmanın vüsət aldığı ilk dövrdə nəzarət işləri ilə məşğul olan dövlət orqanlarının fəaliyyəti ümumilikdə respublikanın iqtisadi böhrandan çıxmasında subyektiv maneələr yaradır və çox vaxt sahibkarlığın inkişafına əngəl törədirdi. Buna isbat olaraq ulu öndərin bir zamanlar sahibkarlarla görüşdə səsləndirdiyi sözləri yada salaq: "...Azərbaycanda sahibkarlıq işi başlanandan müxtəlif hökumət orqanları cürbəcür yoxlamalarla onların işinə mane olmağa cəhd göstəriblər. Mən bu barədə bir neçə fərman vermişəm və Azərbaycanda hüquq-mühafizə, başqa nəzarət edən orqanların sahibkarlara mane olmaması tələblərini qoymuşam (4).

Məhz bu proseslərin nəticəsidir ki, 17 iyun 1996-cı il tarixində Ümummilli Lider "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" fərman imzaladı. Məqsəd bazar münasibətlərinin inkişafına mənfi təsir göstərəcək halların qarşısını almaq, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərini qorumaq idi. Məhz həmin fərman imzalanandan sonra, dövlət nəzarətinin təkmilləşdirilməsi sahəsində böyük işlər görüldü. Heydər Əliyevin fəaliyyətinin bəhrəsidir ki, respublikada 40-dan çox normativ-hüquqi akt qəbul edilib, kənd təsərrüfatı məhsullarının satışında qiymətlər tam sabitləşib, idxal-ixrac əməliyyatlarında bütün maneələr aradan qaldırılıb. Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi ilə bağlı qəbul edilən sənədlərdə bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şəraitin yaradılması, sahibkarlığa hüquqi təminatın verilməsi və rəqabət mexanizminin formalaşması, həmçinin rəqabətin qorunması ilə bağlı müddəalar öz əksini tapıb. Bunun nəticəsidir ki, əsas kənd təsərrüfatı məhsullarını xaricdən alan Azərbaycan indi, əksinə, özü məhsul ixrac edir.

Sahibkarlığın təşəkkülü və Heydər Əliyevin həyata keçirdiyi digər uğurlu iqtisadi islahatlar, inkişaf modelinin səmərəliliyi 1996-cı ildən etibarən inflyasiyanın kəskin artmasının qarşısını aldı, büdcə kəsri ÜDM-in 1-2 faizi səviyyəsinə endirildi. 1991-ci ildən başlayaraq, 5 il ərzində davam edən iqtisadi tənəzzülə son qoyulmaqla inflyasiya səviyyəsi azalmağa başladı. 1996-cı ildən başlayaraq iqtisadiyyatda canlanma yarandı. Belə ki, 1996-cı ildə ÜDM-in artım

sürəti 1,3 faiz, 1997-ci ildə 5,8 faiz təşkil etdi. Dinamik inkişaf sahibkarlığın inkişafındakı növbəti mərhələ 1997-2003-ci illəri əhatə edirdi. Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsassız müdaxilələrin qarşının alınması, korrupsiya, rüşvətxorluq və digər vəzifədən su istifadə halları ilə mübarizənin genişləndirilməsi məqsədilə Heydər Əliyev tərəfindən 7 yanvar 1999-cu il tarixli "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərman imzalandı.
Məqsəd iqtisadi münasibətlərin səviyyəsinə uyğun müvafiq dövlət nəzarət mexanizmini tətbiq etmək, həmin nəzarətin daha məqbul vasitələrini seçmək, bazar münasibətlərinin inkişafına mənfi təsir göstərəcək halların qarşısını almaq, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərini qorumaq idi. İqtisadi və dövlət idarəetmə aparatında aparılan struktur islahatları isə ölkədə iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sahibkarlıq sektorunun inkişafına güclü təkan verdi. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 30 aprel 2001-ci il tarixli Fərmanı ilə İqtisadi İnkişaf Nazirliyinin yaradılması sahibkarlığın inkişafına dövlət köməyi və onun dövlət tənzimlənməsi tədbirlərinin vahid qurumda birləşdirilməsinin və idarə edilməsinin əsasını qoymuş və sahibkarlığın inkişafını ümumi iqtisadi inkişafın tərkib hissəsinə çevirdi (5).

Azərbaycan Respubilkası müstəqillik əldə etdikdən sonra ölkənin iqtisadi yüksəlişi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. 1993-cü ildən başlayaraq ölkəmizdə aparılan ardıcıl siyasi-iqtisadi islahatlar nəticəsində Azərbaycan sürətli inkişaf yoluna qədəm qoyub, bu sahədə regionun lider dövləti səviyyəsinə yüksəlib. Azərbaycanda sahibkarlığın inkişafı və təşəkkül tapması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu sahədə 1993-cü ildə təsdiq edilmiş ‘’Azərbaycanda sahibkarlığın inkişafı (1993-1995)’’ Dövlət Proqramını qeyd etmək olar. Sahibkarlıq sektorunda həyata keçirilən islahatlar ölkədə fəaliyyət göstərən kiçik və orta sahibakarların sayını artırdı, onların xarici iqtisadi fəaliyyəti genişləndi və bu sahədə nisbi uğurların əldə olunmasına şərait yarandı. Azad sahibkarlığın inkişafı ümummilli lider Heyder Əliyevin daim diqqət mərkəzində olmuşdur. Təsadüfü deyil ki, ulu öndərimiz ölkəmizin sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun tərəqqisi ilə əlaqələndirmiş, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlib. Ulu öndər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə rəhbərlik etdiyi 15 ilə yaxın dövr ərzində respublikanı geridə qalmış və yalnız xammal mənbəyi sayılan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevirməyə müvəffəq olmuş, adı heç yerdə çəkilməyən Azərbaycanı qısa müddətdə sovet respublikaları arasında ön sıralara çıxarmağa, ən sürətlə inkişaf edən bir respublikaya çevirməyə nail olmuşdu.

Heydər Əliyev bilirdi ki, respublikanın inkişafı ilk növbədə onun iqtisadi qüdrətini artıran enerji təminatının yaxşılaşdırılmasından, sənaye potensialının yaradılmasından, elm və mədəniyyətinin, ən başlıcası, insan potensialının inkişaf etdirilməsindən asılıdır. İttifaq rəhbərliyinin göstərdiyi maneələrə baxmayaraq o, iradəsindən dönmür, bütün vasitələrlə bu maneələri aradan qaldırmağa çalışır və bunu bacarırdı. Hazırda Azərbaycanın 2020-ci ilədək inkişaf konsepsiyası ətrafında gedən müzakirələr, bu konsepsiyada müəyyən olunacaq əsas hədəflər də Heydər Əliyev ideyalarından güc alır. Ulu öndərin dövlət başçısı İlham Əliyev tərəfindən müasir reallıqlara söykənməklə daha da zənginləşdirilən ideyaları, onun strategiyası, onun arzuları artıq həqiqətə çevrilmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkənin enerji siyasəti Heydər Əliyevin neft strategiyası əsasında qurulmuşdur və bu strategiya dünyanın müasir tələblərinə uyğunlaşdırılmış, zənginləşdirilmişdir. Ümummilli liderimizin ölməz ideyaları təkcə enerji siyasətimizi deyil, bütövlükdə Azərbaycanın inkişaf strategiyasını müəyyənləşdirmişdir və həmin strategiyanın ardıcıl həyata keçirilməsi bu gün də ölkəmizi sürətlə irəli aparır (3).

Regionlarda infrastrukturun qurulması, sahibkarlığın inkişafı və eləcə də bu günki Azərbaycan iqtisadiyyatının inkişafının əsası məhz Ümummilli Lider Heydər Əliyevin zamanında qoyulub. Belə ki, həmin dövrdə reallaşmağa başlanan siyasətə uyğun olaraq

Azərbaycan birinci növbədə regionlarda infrastrukturun formalaşmasına nail olub və təbii ki, birinci məqsədi də elə bu idi. Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə regionlar eyni zamanda differensial vergi sistemindən faydalanaraq daha güzəştli şərtlər ilə biznes fəaliyyəti ilə məşğul olmaq imkanı qazandılar.

Azərbaycanın Heydər Əliyev tərəfindən təməli qoyulan dövlət müstəqilliyinin möhkəmlənməsinə xidmət edən siyasi və iqtisadi inkişaf konsepsiyası ondan sonrakı illərdə ulu öndərin ən sadiq davamçısı İlham Əliyev tərəfindən yeni geosiyasi şəraitdə, dünya iqtisadiyyatında baş verən dəyişikliklər nəzərə alınmaqla yeni ideyalarla zənginləşdirilmiş və böyük bacarıqla tətbiq edilmişdir. Prezident İlham Əliyev bu müdrik insanın ideyalarını rəhbər tutaraq ölkəyə rəhbərlik etdiyi dövr ərzində Azərbaycan iqtisadiyyatını xeyli artıra bilmişdir.

Göründüyü kimi, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan ölkənin hərtərəfli inkişafının təmin edilməsi dövlətin siyasətinin əsasında dayanır. Həyata keçirilən islahatların zamanın tələbinə uyğunlaşdırılması qarşıya qoyulan məqsədlərə yüksək səviyyədə nail olmaq üçün stimuldur.Prezident İlham Əliyevin bu günlərdə imzaladığı sərəncama əsasən, hər il aprel ayının 25-i Azərbaycanda "Sahibkarlar Günü" kimi qeyd olunacaq. Əlbəttə, bu, respublikamızda sahibkarlığın inkişafına, eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olanların hüquqlarının qorunması baxımından, dövlətin göstərdiyi qayğının bariz nümunəsidir.Bu gün Prezident İlham Əliyevin də cidd-cəhdlə inkişafını dəstəklədiyi sahibkarlığın inkişafı siyasətinin əsasını vaxtilə Ümummilli Lider Heydər Əliyev qoyub. Məhz onun hakimiyyəti illərində Azərbaycanda demokratik dövlət quruculuğunun həyata keçirilməsi və liberal bazar iqtisadiyyatının formalaşdırılması zərurətə çevrilib.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının "Sahibkarlıq fəaliyyəti haqqında" Qanunu. Bakı, 1998.
2. Əliyev A., Şəkərəliyev A. Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti. Bakı, 2003.
3. Əhmədov T. Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafına dair. Bakı, 2012.
4. Niftullayev V.. Sahibkarlığın əsasları. Bakı, 2012.
5. Osmanov Y.. Sahibkarlıq işinin əsasları. Moskva, 1996

***Dissertant Namazova Aynur Məhəmməd qızı***
*Mingəçevir Dövlət Universitetinin müəllimi*
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*
*E-mail: a.m.namazova@mail.ru*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKIŞAFINA İNVESTİSIYALARIN ROLUNA DAİR

**Xülasə**

İnvestisiya milli iqtisadiyyatın inkişafının mühüm maliyyə mənbəyidir. Investisiya milli iqtisadiyyatın demək olar ki, bütün sahələrinə, xüsusən də həm hasil, həm emal sahəsinə, eləcə də xidmət sferasına tətbiqi onun uzun, qısamüddətli xarakter daşımasına səbəb olur. İnvestisiya resurslarının formalaşması və istifadəsi prosesi milli iqtisadiyyatın mərhələlər üzrə inkişaf prosesini əhatə etməlidir. İqtisadiyyatın inkişaf etdirilməsinin və sabitləşdirməsinin mühüm istiqaməti – xarici investisiyaların cəlb edilməsidir.

1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan ölkəsi üçün yaxşıya doğru dönüş nöqtəsi oldu. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinın həyata keçirilməsi Azərbaycan iqtisadiyyatında əsaslı dönüş yaratdı və daha iri layihələrin reallaşdırılmasına geniş imkanlar açdı. Neftdən əldə edilən vəsaitlər Azərbaycan Respublikası Dövlət Neft Fondunda toplanaraq ölkənin taleyüklü məsələlərinin həllinə və sosial problemlərin aradan qaldırılmasına yönəldildi.

Hazırda Azərbaycanın iqtisadi, sosial, elmi, mədəni inkişafının həyata keçirilməsində Heydər Əliyev kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir.

**Açar sözlər:**Milli iqtisadiyyat, investisiya, xarici investisiya, "Əsrin müqaviləsi", gəlir

Milli iqtisadiyyatın inkişafında investisiyaların müstəsna rolu vardır. Belə ki, investisiya milli iqtisadiyyatın inkişafının mühüm maliyyə mənbəyidir. Investisiya milli iqtisadiyyatın demək olar ki, bütün sahələrinə, xüsusən də həm hasil, həm emal sahəsinə, eləcə də xidmət sferasına tətbiqi onun uzun, qısamüddətli xarakter daşımasına səbəb olur. Bu baxımdan da tətbiq olunan investisiya resursları əgər qiymətli kağızların alınmasına yönəldilirsə, o, maliyyə resursu formasını alır. Əgər sənayeyə, kənd təsərüfatına, tikintiyə, təhsilə və s. sahələrə kapital qoyuluşu kimi tətbiq edilirsə, o real investisiya formasını almış olur. Ona görə də milli iqtisadiyyata tətbiq olunan maliyyə investisiyalarını bir-birindən fərqləndirmək lazımdır. Maliyyə investisiyaları səhmlərə, iqtiqrazlara və başqa qiymətli kağızlara kapital qoyuluşudur. Real investisiyalar kapitalın hər hansı iqtisadi sahəyə və ya müəssisəyə qoyuluşudur ki, bunun nəticəsində də yeni kapitalın yaranmasına, yaxud da ki, mövcud kapitalın artmasına səbəb olur. Məsələn, binalar, avadanlıqlar, istehsal vasitələri, əmtəə materialları artımı baş verir.

Milli iqtisadiyyatın formalaşmasında və inkişafında daxili və xarici investisiyalar mühüm struktur yaradan funksiyalar yerinə yetirir. Milli iqtisadiyyatın istər sahə strukturunun, istərsə də texnoloji və təkrar istehsal strukturunun inkişafı onun hansı sahələrinə vəsait qoyuluşunun tətbiqindən asılıdır. Bəlli olduğu kimi xüsusi təyinatlı investisiyalar əsasən gəlir əldə etmək məqsədi daşıyır. Deməli milli iqtisadiyyatın hər hansı bir sahəsinin mənfəətlilik səviyyəsilə həmin sahənin və ya bölmənin investisiya üstünlüyünün səviyyəsini müəyyənləşdirir. Bu baxımdan sahənin və ya hər hansı iqtisadi bölmənin mənfəətlilik səviyyəsi tətbiq olunacaq investisiyaların üstünlüyünü müəyyən mühüm strukturyaradıcı meyarıdı. Ona görə də milli iqtisadiyyatın inkişafında tətbiq olunan investisiyaların təyinatından asılı olaraq onlar müxtəlif mənfəətlilik səviyyəsinə malik olurlar. Belə ki, dövlət və qeyri-dövlət mənbələrindən tətbiq olunan investisiyalar hər şeydən əvvəl öz sürət dövriyyəsinə görə və mənfəətlilik səviyyəsinə görə fərqlənəcəkdir. Ona görə də investisiyaların qeyri-dövlət mənbələri hər şeydən əvvəl kapitalın sürətli dövriyyəsilə seçilən yüksək rentabelli sahələrdir. Məhz bu amil daxili və xarici

investisiyaların həcminə təsir göstərir. İqtisadiyyatın aşağı rentabelli sahələrinə bir qayda olaraq investisiyalar xüsusən də xarici investisiyaların tətbiq olunması həyata keçirilmir. Lakin buna baxmayaraq investisiyaların tətbiqi və onların həddi milli mənafelərin reallaşması ilə uzlaşmamalıdır. Belə ki, həddindən artıq investisiyaların qoyuluşu inflyasiya prosesinin güclənməsinə və iqtisadiyyatın həddindən artıq gərginliyə düçar olmasına səbəb olur. Digər tərəfdən isə lazım olduğundan az investisiya qoyuluşu isə deflyasiyaya gətirib çıxarır. Bunu nəzərə alaraq milli iqtisadiyatın inkişafı və formalaşması ilə əlaqədar həyata keçirilən iqtisadi siyasət tətbiq olunacaq investisiyaların həm xarici, həm də daxili mənbələr hesabına optimal həcmini müəyyənləşdirməlidir. Belə şəraitdə dövlət tərəfindən tətbiq olunan vergi dərəcələri, dövlət məsrəfləri, pul-kredit və büdcə-vergi sahəsində həyata keçirilən tədbirlərin səmərəli strategiyası ilə milli iqtisadiyyatın miqyası tənzimlənməlidir.

İnvestisiya resurslarının formalaşması və istifadəsi prosesi milli iqtisadiyyatın mərhələlər üzrə inkişaf prosesini əhatə etməlidir. Milli iqtisadiyyatın inkişafı prosesində investisiyalar mərkəzi rol oynayır və iqtisadi artım sürəti haqqında əvvəlcədən informasiya verir. Milli iqtisadiyyatın investisiya prosesi vasitəsilə inkişaf etdirilməsi milli gəlirin yüksəldilməsinə səbəb olur, bir sıra əmtəə və xidmətlər üzrə olan tələbatı ödəməklə rəqabət qabiliyətli məhsulların istehsalına səbəb olur. Belə şəraitdə milli gəlirin həm yığım, həmdə istehlak fondlarına yönəldilən vəsaitlərin həcmi artır. Bu prosesin fasiləsizliyinin təmin olunması yığım və istehlak fondlarına yönəldilən vəsaitlərdən səmərəli istehlak olunmasını tələb edir. Milli gəlirin artımı hesabına yaranmış investisiyalar bir qayda olaraq daxili investisiyaların maliyyə mənbəyini təşkil edir. Milli gəlir hesabına yaranmış investisiyalar həm yığım, həm də gəlir formasını alaraq istehsal olunması nəticəsində bir tərəfdən öz artımlarına, digər tərəfdən isə geniş təkrar istehsalı şərtləndirmək ilə milli iqtisadiyyatın miqyasının artmasına səbəb olur. Bu zaman investisiyalar nə qədər səmərəli tətbiq olunursa milli gəlirin artım sürəti bir o qədər yüksək olar, nəticədə isə istehlaka yönəldilən yığımın həm mütləq, həm də nisbi həcmi yüksələr. Göstərməliyik ki, investisiyaların kifayət qədər yüksək səmərəliliyinə nail olunması milli iqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsulların artırılmasını təmin etmiş olur . [2]

1995-ci ildə yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin imzaladığı № 952 «İnvestisiya fəaliyyəti haqqında» Qanunda investisiyalar sahibkarlıq obyektlərinə və digər fəaliyyət növlərinə gəlir əldə edilməsi, müsbət sosial effektlərə nail olunması üçün sərf edilən mülkiyyət, mülkiyyət hüququ, intellektual dəyərlər kimi təsbit olunmuşdur. Qanunda göstərilir ki, qanun investisiyanın Azərbaycan Respublikası iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəlmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Qeyd olunan qanuna tam uyğun olaraq “xarici investisiyalar” anlayışının məzmunu Azərbaycan Respublikasının "Xarici investisiyanın qorunması haqqında” 15 yanvar 1992-ci il. № 57 Qanunda öz əksini tapmışdır. Bu qanun bu gün xarici investorların fəaliyyətini tənzimləyən mühüm qanunvericilik aktıdır. Bu qanunun qəbul edilməsinin əsas nəticəsi xarici investisiyalı müəssisələrə milli rejimin verilməsi olmuşdur ki, bu zaman bu cür müəssisələr ölkə ərazisində bərabər hüquqlardan istifadə edərək, Azərbaycan müəssisələri ilə bərabər hüquqa malikdirlər. [1]

İqtisadiyyatın inkişaf etdirilməsi və sabitləşdirməsinə mühüm istiqamət – xarici investisiyaların cəlb edilməsidir. Azərbaycan Respublikası digər MDB ölkələrinə nisbətən əlverişli resurs və başqa imkanlara malikdir.

1994-cü ildən başlayaraq qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan “açıq qapı” siyasətinin həyata keçirilməsi, xarici investisiyaların qorunmasına təminat verilməsi və sahibkarlıq fəaliyyəti üçün əlverişlı mühitin yaradılması nəticəsində Azərbaycanın milli iqtisadiyyatına qoyulan xarici investisiyaların həcmi ildən-ilə sürətlə artmaqdadır.

Belə ki, tarixə nəzər salsaq görərik ki, bu gün müstəqil Azərbaycan iqtisadiyyatının inkişafı dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi, Ulu Öndər Heydər Əliyevlə bağlıdır.

Ulu Öndər Heydər Əliyev dünya səviyyəli dövlət xadimi və tarixi baxımdan milli lider olub. Ulu Öndərin həyat hekayəsinə nəzər saldıqda, 1969-1982-ci illərdə sovet dövründə Azərbaycanda, 1982-1987-ci illərdə SSRİ rəhbərliyində çalışdığı zaman, eləcə də 1988-1993-cü illərdə Azərbaycana rəhbərlikdən kənar olduğu dövrlərdə, müstəqil Azərbaycana dövlət başçısı kimi xidmət göstərdiyi dövrlərdə əvəzsiz, dahi şəxsiyyətin Azərbaycan xalqının xoş günündə, çətin anlarında yanında olduğunun şahidi oluruq. Dahi şəxsiyyət hər zaman xalqın dəstək və etimadına arxalanıb. Bu Heydər Əliyev siyasətinin başlıca amalı idi. Azərbaycan xalqı heç zaman özünü Heydər Əliyevdən kənar bilməyib, dahi şəxsiyyətə inanıb, ümid bəsləyib.

Bu inam və ümidə arxalanan Azərbaycan xalqı 1993-cü ildə vətəndaş müharibəsi təhlükəsi yarandığı zaman xalq Heydər Əliyevə üz tutdu, onun uzaqgörənliyinə, müdrikliyinə arxalandı. Xalqın etimadı Ulu Öndərin dövlətçilik fəaliyyətinə güc, qüvvət verdi. Heydər Əliyevin amalı bütün varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətçiliyinə, ölkənin iqtisadi-siyasi, mənəvi inkişafına xidmətdə olub. Bu yolda bütün gücü, qüvvəni, iradəni yalnız xalqdan alıb. Daim xalqa arxalanıb. Dahi şəxsiyyət Heydər Əliyevin göstərdiyi əzm, qətiyyəti bu ifadədəki həqiqəti dəfələrlə təsdiqləyib. [5]

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişi Azərbaycan ölkəsi üçün yaxşıya doğru dönüş nöqtəsi oldu. Belə ki, Ulu Öndərin hakimiyyətə qayıdışı ilə dövlət müstəqilliyi möhkəmləndirildi, ölkənin iqtisadi-sosial, ictimai, siyasi, elmi, mədəni həyatında, beynəlxalq əlaqələrdə elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.Azərbaycanı böhran vəziyyətindən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin iqtisadi inkişafı üçün də tədbirlər görməyə başladı. Elə ilk günlərdə Heydər Əliyev ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevi danışıqlar prosesinə cəlb etdi, yeni neft strategiyasının hazırlanmasının və həyata keçirilməsinin ən fəal iştirakçılarına çevrildi. O, özünün bütün fəaliyyətində "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyil. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir" fikri dururdu. İştirakçısı olduğu bütün saysız-hesabsız görüş və danışıqlarını məhz bu prinsip altında keçirirdi. Belə ki, 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycana aid hissəsində “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə tanınmış yüksək nüfuza malik dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) arasında dəyəri 7,4 mlrd. dollar olan "məhsulun pay bölgüsü" tipli beynəlxalq müqavilə Əsrin müqaviləsi” imzalandı. “Əsrin müqaviləsi”ni imzalamaqla Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını yaradan yeni neft strategiyası həyata keçirilməyə başladı. Bu müqavilə Azərbaycanın dünyadakı nüfuzunu gücləndirdi . "Əsrin müqaviləsi" 12 dekabr 1994-cü il tarixində qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarılabilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmış və bununla əlaqədar yataqların işlənilməsinə dair tələb olunan investisiya xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmiş, ümumi təmiz gəlirdən 80% Azərbaycanın payına, 20% isə investorların payına düşürdü.

Bu müqavilə sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 26 sazişin imzalanmasına yol açdı. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulan 64 milyard ABŞ dolları sərmayənin 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir. “Əsrin müqavilə”nin imzalanması Azərbaycan Respublikasının müstəqil dövlət olaraq öz sərvətlərinə tam sahib olduğunu dünyaya bir daha sübut etdi. Bununla da Azərbaycan öz qapılarını xarici investorların üzünə taybatay açdı. Müqavilənin imzalanması xarici investorların Azərbaycan

iqtisadiyyatının digər sahələrinə də sərmayə yatırılmasında həlledici rol oldu. Beləliklə Azərbaycan iqtisadiyyatının inkişafında ilk addımlar atılmağa başladı. [3]

Neftdən əldə edilən vəsaitlər böyük öndər Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fondunda toplanaraq ölkənin taleyüklü məsələlərinin həllinə və sosial yönümlü problemlərin həllinə istiqamətlənirdi.

İqtisadiyyatın inkişaf etdirilməsi və sabitləşdirməsinə mühüm istiqamət – xarici investisiyaların cəlb edilməsidir.

1997-1999-cu illərdə iqtisadiyyatın dövlət sektoruna ümumi həcmi 2126,9 milyon ABŞ dolları olan 34 müxtəlif layihədən ibarət təcili sərmayələşdirmə proqramının qəbul edildi. Qeyd olunan proqramda investisiyaların ümumi həcminin 27%-ni təşkil edən neft-qaz sektoruna xüsusi yer verilmişdir. Təbii ki, bu da iqtisadiyyatın digər sahələrini inkişafına müsbət təsir edir. İstər hasilat, istərsə də ixracatda yeni qlobal layihələrin həyata keçirilməsini aktuallaşdırır. 1998-cu ildən başlayaraq Azərbaycan  Respublika müstəqil dövlət kimi neft hasilatından gəlir əldə etməyə başlayır.

1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalandı. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

İlk dövrlərdə  xarici sərmayələr Azərbaycanın neft sektoruna istiqamətlənirsidə, sonradan  iqtisadiyyatın digər sahələrinə istiqamətlənməyə başladı. Xarici kapitalın ölkəmizə axını, Azərbaycanın zəngin təbii, xammal ehtiyatlarının olması ilə bərabər ucuz işçi qüvvəsinin, ixtisaslı, elmi-texniki kadr potensialının olması, Azərbaycanın tutduğu coğrafi baxımdan əlverişli mühitin, nəqliyyat əlaqələrinin, eyni zamanda məhsullarını dünya bazarına ixrac etməsi üçün əlverişli şəraitin olması ilə bağlıdır.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf konsepsiyasının əsasını neftdən əldə olunan gəlirləri qeyri-neft sektorunun inkişafına yönəltmək və bu sahənin də tərəqqisinə nail olmaq idi. Uğurlu həyata keçirilən iqtisadi islahatların sayəsində 1996-cı ildə respublika iqtisadiyyatında sabitliyə nail olundu, 1997-ci ildən sosial-iqtisadi inkişafda müsbət meyillər özünü göstərməyə başladı. Xalqın marağına uyğun aparılan özəlləşdirmə prosesi, sərbəst bazar rəqabət prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olması, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasında özünün müsbət nəticələrini  verdi. Özəlləşdirmə prosesinin həyata keçirilməsinin məqsədi hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağının təmin olunmasında, əhalinin həyat səviyyəsini yaxşılaşdırılmasında, sağlam rəqabətə əsaslanan istehsal üçün şəraitin yaradılması idi. İqtisadiyyatın bütün sahələrində tətbiq olunan özəlləşdirmə prosesi müstəqil ölkəmizin xarici iqtisadi əlaqələrinin qurulmasına zəmin yaratmışdır.

Ölkəmizdə həyata keçirilən struktur islahatlar iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, müasir texnologiyaların, yerli və xarici investorların, idarəetmə təcrübəsini cəlb etməklə infrastrukturun yenilənməsinə, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, yeni iş yerlərinin açılmasına şərait yaratmışdır.

1997-2002-ci illərdə ölkəmizdə sahibkarlığın inkişafı üçün maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün qanunvericilik bazası formalaşdırılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit sərait yaratmaq, daxili və xarici investorları stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, eyni zamanda işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

1997-ci ildə qəbul olunmuş  "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıc nöqtəsi olmuş və bu istiqamətdə dövlət siyasətinin başlıca prinsiplərini

müəyyən etmişdir. Növbəti mərhələdə kiçik və orta sahibkarlıq subyektlərinin normal fəaliyyəti üçün "Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununa bir sıra dəyişiklik və əlavələr edilmiş, eyni zamanda "Haqsız rəqabət haqqında", "İnvestisiyaların qorunması haqqında", "İstehlak bazarı haqqında" və digər əhəmiyyətli qanunlar qəbul edilmişdir. Bu qanunlar yerli və xarici sahibkarların təhlükəsiz şəraitdə biznes fəaliyyətinə dövlət tərəfindən verilən hüquqi təminatı daha da gücləndirmiş, investisiyaların qarşılıqlı təşviqinə və qorunmasına əsaslı zəmin formalaşdırmışdı.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası onun layiqli davamçısı — Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dövlətimiz bütün sahələrdə uğurlu inkişaf yolunda addımlayır. Dövlət başçımız Azərbaycanın yeni dövr üçün iqtisadi siyasət prioritetlərini açıqlamış, bütün sahələrdə islahatlar həyata keçirməklə, cəmiyyətdə böyük nüfuza sahib olmuşdur. Cənab Prezident İlham Əliyevin birinci prezidentlik müddətində imzaladığı məqsədyönlü fərman və sərəncamlar, qəbul etdiyi qərarlar ölkəmizdə iqtisadi-sosial yüksəlişə zəmin yaratmışdır. Eyni zamanda dövlət başçımız tərəfindən yeni dövrün tələbi kimi qarşıda duran vəzifələr də müəyyənləşdirilmiş, inkişaf mexanizminin çevikliyinə, işləkliyinə nail olunmuşdur.

2020-ci ilin əvvəlinədək "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsinə 36 milyard dollardan çox investisiya yatırılıb. Bu blok üzrə 500 milyon ton neft hasil edilib, 40 milyard kubmetrdən artıq səmt qazı hasil edilərək Azərbaycan hökumətinə verilib.

Heydər Əliyevin 1999-cu il dekabrın 29-da imzaladığı Fərman ilə karbohidrogen gəlirlərinin səmərəli idarə edilməsi, ədalətli bölgünün təmin olunması və həmin vəsaitlərin prioritet sahələrin inkişafına yönəltmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradılıb və Dövlət Neft Fondu vəsaitlərin səmərəli və şəffaf idarə olunması sayəsində hazırkı və gələcək nəsillər üçün uzunmüddətli maliyyə gəlirliliyini təmin edir.

2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri" , "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında yeni Saziş imzalanıb.

2018-ci il oktyabrın 18-də Türkiyənin İzmir şəhərində Azərbaycan və Türkiyənin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın başçılığı ilə "Star" neft emalı zavodunun açılışı olub.

Azərbaycan təkcə təchizatçı ölkə kimi deyil, həm də tranzit ölkəyə çevrilib. Xəzərin şərq sahillərində yerləşən ölkələr beynəlxalq bazarlara öz ehtiyatlarını Azərbaycan ərazisindən nəql edirlər. Rusiya şirkətləri bu ölkənin Xəzər dənizi sektorundan çıxarılan nefti Bakı-Tbilisi-Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəql etməyə üstünlük verir. Xəzərdəki ən böyük donanma da Azərbaycana məxsusdur.

2020-ci ildə "Qarabağ" yatağı isə müstəqilliyimiz dövründə kəşf edilmiş ilk neft yatağı olaraq tarixə düşüb.

Bakı şəhərində 1998-ci il Sentyabrın 7-8-də Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb və Bakı Bəyannaməsi qəbul olunub.

2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir.

Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafında, inteqrasiyasında mühüm əhəmiyyət daşıyır.

Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu isə iki dövlət arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edir. Digər məsələ bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə səbəb olacaq.

"Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında fəal rol oynayır. Bununla ölkə hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilir.

Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək. [4]

*Ədəbiyyat*


1. Azərbaycan Respublikasının "İnvestisiyalar fəaliyyəti haqqında" qanunu, Bakı şəhəri 13 yanvar 1995 ci il.
2. Atakişiyev M.C. Nurəliyeva R.N. Abbasova N.H. İnvestisiya fəaliyyətinin təşkili. Dərslik Bakı 2012
3. https://azerbaijan.az/related-information/132
4. https://president.az/
5. http://anl.az/down/meqale/xalqqazeti

***Magistr Almazlı Ülkər Daşqın qızı***
*Bakı Biznes Universiteti*
*almazliulker@gmail.com*

# MÜƏSSİSƏLƏRDƏ SATIŞIN HƏYATA KEÇİRİLMƏSİNDƏ REKLAMIN ROLU

**Xülasə.** Satış fəaliyyəti hələ min illər əvvəl mübadilə prosesi kimi başlamış, Qədim Roma və Yunanıstanda proses geniş koordinasiya edilmişdir . Qədim Misirin papiruslarında satışla bağlı məlumatlar və divar afişaları hazırlamaq üçün istifadə edirdilər, 4000 il əvvəl Hindistanda satış üçün reklamların olduğu güman edilir. Bu mübadilə malların natural və ya əşya formasında dəyişilməsindən başlamış ,sonrakı dövrlərdə isə yaşam prosesinin əsaslarında olmuşdur .Satış iki tərəf arasında elə bir mübadilədir ki, satıcı öz malını və ya xidmətini pul müqabilində alıcı ilə dəyişir.Satici öhdəlik götürür ki, malı alıcıya çatdıracaq və ya müəyyən xidməti göstərəcək, alıcı da bunun qarşılığında razılaşdırılan məbləği ödəməyi öz öhdəsinə götürür. "Mövcud olan və olmayan hər şeyi satmaq və almaq mümkündür". İnsanlar arasında mübadilənin başlanğıcı və reklam konsepsiyasının yaranması eyni tarixi prosesə təsadüf edir. Bəzi reklam alətlərinə Qədim Misirdə, Babildə, bu günə qədər gəlib çatan Yunan və Roma xarabalıqlarında rast gəlmək olar. Bu gün reklam həm müəssisələr, həm də istehlakçılar üçün satış prosesində əvəzedilməz bir fenomendir. Reklam fəaliyyətinin tarixi kökü ABŞ-da bağlamışdır və 150-200 illik bir tarixə malikdir. O vaxtlar şəhər mühitində tətbiq olunan reklamlar burjua elementi kimi qəbul olunmuş və kapitalizmin inkişafında böyük rolu olmuşdur. Müasir satış prosesində isə reklamın rolu daha differensialdır.Məhz reklamın məqsədi də son koordinasiyası olaraq satış prosesinə dayanır və "Reklam tələb yaratmaq sənətidir."

**Açar sözlər**: satışın təşkili, satışların artırılması, effektiv reklam, strategiya

## GİRİŞ

Satışın baş verməsi halı primitiv şəkildə o deməkdir ki, alıcı malını, satıcı isə pulunu alıb. Bunlardan biri gerçəkləşməsə , satış əqdi yekunlaşmır, əməliyyat gerçəkləşmiş nə də koordinasiya edilmiş sayılmır.Satış prosesində " Alıcı hər zaman haqlıdır " prinsipi çox vacib diferensiasiyaya malikdir və şirkətlər daim alıcılarına diqqət göstərməlidirlər.Düzdür, elə hallar ola bilər ki, alıcı malın keyfiyyətindən narazı qalsın, aldığı mal və ya xidmət onun gözlənilənini qarşılamasın, bu zaman alıcının fikirlərinə hörmət bəslənilməlidir. Həm satıcı, həm də satıcı qarşılıqlı şəkildə çalışmalıdırlar ki, əldə olunan razılıq hər iki tərəfin maraqlarına xidmət etsin. Çünki, satış birdəfəlik akt kimi görsənsə də, əslində müəyyən zaman dilimində davam edən bir prosesdir.

***Qlobal dünyada satışın növləri üzrə bölgüsünə baxaq:***

**1. B2C** (Business-to-Consumer) — şirkətin fiziki şəxs olan müştərisinə birbaşa satışı.

**2. B2B** (Business-to-Business) — şirkətin hüquqi şəxslərə satışı. Bu satışa şirkətlərə satış və istehlakçıya satış prosesində vasitəçi olan marketlərə satış da daxildir.

**3. B2G** (Business-to-Goverment) — dövlət təsisatlarına və qurumlarına olan satış.

**4. C2C** (Consumer-to-Consumer) — fiziki şəxslərin bir-birinə satış etməsi. AMAZON, EBAY tipli şirkətlərdə daxildir .

Hər bir kompaniya iri sifarişlərə xüsusi diqqət yetirir. Kompaniyanın ən mühüm və ən iri sifarişlərinə sifarişlərin strateji idarə edilməsi qrupu tərəfindən xidmət göstərilə bilər. Bu qrupun əməkdaşları daimi olaraq müştərilərdən birinə təhkim edilir və çox vaxt onun müəssisələrində şəxsi ofisə malik olur. Məsələn, P&G kompaniyası buna oxşar qrupu özünün ən iri müştərisi olan Wall Mart kompaniyasının mərkəzi ofisində yerləşdirmişdir.Kompaniyanın menecmenti tərəfindən qoyulan məqsədlərə çatmaq satış xidmətinin fəaliyyətinin effektiv idarə edilməsini nəzərdə tutur. Ticarət heyətinin idarə edilməsi özünə işçilərin işə götürülməsini, öyrədilməsini, nəzarəti, motiva-siyasını və ticarət nümayəndələrinin işinin qiymətlən dirilməsini daxil edir. Ticarət nümayəndələrinin

fəaliyyətinə nəzarətin səviyyəsi də satışların həcminə təsir edir. Yeni ticarət heyəti böyük nəzarət tələb edir; komisyon sistemi üzrə fəaliyyət göstərən ticarət nümayəndələrinin fəaliyyətinə nəzarət məvacib üzrə işləyən və müəyyən edilmiş işləri həyata keçirən işçilərin fəaliyyətinə nəzarətdən daha aşağı səviyyədə aparılır. Bir qayda olaraq, kompaniyanın menecerləri satış xidməti heyətinin iş vaxtının effektiv planlaşdırılmasına imkan verən faktiki və potensial müştərilərlə kontakt normalarını təyin edirlər. [2] ildə ayrıca sifarişin rəsmiləşdirilməsi üçün neçə dəfə kontakt lazımdır? Tədqiqatlar göstərir ki, intensiv kontaktlar ümumiyyətlə, böyük satış həcmini təmin edirlər, ancaq istehsalçılar müəyyən etməlidirlər ki, əlavə reallaşdırılmadan gələn gəlirlər artan məsrəfləri üstələyə biləcəkmi. Səyyar ticarət agentlərinin qeyri-məhsuldar vaxt məsrəflərinin ixtisar edilməsi üçün kompaniyalar daxili ticarət heyətinin sayını və öhdəçilərini artırırlar.

**PROBLEMİN QOYULUŞU**

Ənənəvi satışın proqnozlaşdırılması üsullarını 2 qruplara bölünür:

a) keyfiyyət  üsulları. Burada güman edilir ki, proqnozlaşdırma prosesləri aşkar şəkildə təsvir edilə bilməz və proqnoz onu verən şəxslə bağlıdır

b) kəmiyyət üsulları. Burada proqnoz prosesləri formaldır və digər şəxslər tərəfindən təkrar və ya hasil edilə bilər.

Keyfiyyət üsullarına sadə üsullar (həmçinin  gələcəyə ekstrapolyasiya edilir) və analitik üsullar (ekspertiza üsulu) aiddir. Analitik  üsullar məhsula gələcəkdə olacaq tələbi aşkara çıxaran amillərə, baş verəcək hadisələrin ehtimal olunan qiymətlərinə əsaslanır. Burada iki üsuldan istifadə edilir: [6]

1.İntuisiya - Satışın gələcəkdəkihəcminin qiymətləndirilməsi satış haqqında məlumatlara, satıcı və alıcıların rəylərinə əsasən aparılır. Burada «işlərin ümumi gedişi» məsələsinə intuitiv reaksiyalar da əlavə olunur. Bu yanaşma minimum xərclərlə əlaqədardır, lakin o kifayət dərəcədə subyektivdir.

2.Mülahizələri Güman edilir ki, ekspertlər öz mülahizələrini səbəb amilləri üzərində qururlar. Bu yanaşma ekspertin şəxsiyyəti ilə bağlıdır. Çox vaxt ekspert rolunda menecerlər və ticarət heyəti çıxış edir.  Ekspertlərin xüsusi təşkil edilmiş razılaşma qaydası ola bilər (Delfı metodu). Metodun mahiyyəti ondan ibarətdir ki, ilkin olaraq ekspertlər öz mülahizələrini anonim qaydada bildirirlər, sonra orta qiymətləndirmə müəyyən edilir, müzakirə edilir və dəqiqləşdirilir. Bir qayda olaraq, bu yanaşma konsensusun qısa müddətdə əldə edilməsinə gətirib çıxarır.

Ticarət heyətinin proqnozlaşdırma prosesinə cəlb edilməsi faydalıdır, çünki o, öz ərazisində satış potensialı haqqında daha dəqiq təsəvvürə malik olur. Bu üsul çox kiçik seqmentlər, ayrı-ayrı ərazilər və ya müştərilər baxımından satışın proqnozlaşdırılmasında əvəzedilməzdir.

Ekspert üsullarından biri də alıcıların niyyətlərinin sorğusudur (buna istehlakçı mövqeyindən satışın proqnozlaşdırılması deyilir). Alıcıların niyyətlərinin öyrənilməsi onların alış planları haqqında birbaşa sorğudan ibarətdir. [3]

Satış həcminin proqnozlaşdırılmasının obyektiv və ya kəmiyyət üsullarından istifadə etmək o zaman məqsədəuyğun hesab edilir ki, müəssisə bazarda çoxdan fəaliyyət göstərir və satış statistikasına malikdir. Bu isə imkan verir ki, mövsümi dəyişmələr, ona təsir edən amillər, tələbin elastikliyi və bazarın ümumi inkişaf meylləri nəzərə alınsın.

Adətən satışın proqnozlaşdırılmasında iki qrup kəmiyyət üsullarını fərqləndirirlər. Bunlara (evristik və ekstrapolyasiya üsulları) və reqressiya təhlili üsulları deyilir

Evristik və ekstrapolyasiya üsulları şirkətin məhsul satışının keçmiş təcrübəsi haqqında informasiyaya əsaslanır. Əvvəlki satışların (zaman sırasının) dinamikası satışla zaman arasında asılılığın olmasını müəyyən etmək məqsədilə təhlil edilir. Satışın proqnozlaşdırılması o qədər mürəkkəbdir ki, bu məqsədlə riyazi ekonometrika modellərindən istifadə edilir. Burada istifadə edilən əsas məlumat mənbələri aşağıdakılardır: istehlakçıların sorğu və müsahibələrinin nəticələri, satış statistikasının ekstrapolyasiyası, məhsul ehtiyatların təhlili,

mövcud məhsulların istehsal həcminin və yeni məhsul növlərinin yaranmasının təhlili. Lakin hətta bu cür müxtəlif alətlər bazarın qeyri- müəyyənliyini tamamilə nəzərə almağa imkan vermir və elə proqnozların əldə edilməsinə səbəb olur ki, onlar sonda real satış məlumatları ilə üst-üstə düşmür. Məsələn, 1990-cı ilin əvvəllərində IBM şirkəti ekonometrika modellərdən istifadə etməsinə baxmayaraq satış həcmini müəyyən edə bilmədi və kompüter satışında baş verən kəskin azalmanın qarşısını ala bilmədi.

Ticarət nümayəndələrinin fəaliyyətinin nəticələri kontaktlar haqqında hesabatlara gətirilir və məsrəflər, yeni müştərilər, itirilən istehlakçılar, regionda işgüzar və iqtisadi şərtlər haqqında hesabatlar vasitəsilə tamamlanılar. Satış problemlərinin aradan qaldırılması üçün daim bu faktorlar diqqətdə saxlanılmalır:

1. bir ticarət işçisi üzrə gün ərzində işgüzar kontaktların orta sayı
2. kontaktın orta müddəti
3.effektiv və güvənilən reklam strategiya
4.şirkətin piari və marka imici
5.marketing xüsusilə bazar araşdırılması
6.100 kontakt üzrə sifarişlərin miqdarı
7.dövr ərzindəki yeni və itirilmiş müştərilərin miqdarı;

Bir çox kompaniyaların menecerləri tabeçiliklərində olanları onlar tərəfindən kompaniyanın tarixi, onun məhsulları, istehlakçıları, rəqibləri, əraziləri və öhdəçilərinin yerinə yetirilməsi haqqında biliklərini, həmçinin onların şəxsi keyfiyyətləri, motivasiya səviyyəsi və qanunvericiliyə riayət etmələrini nümayiş eydirmələri səviyyəsinə əsasən qiymətləndirirlər. Amerika Marketinq Assosiasiyasının reklam tərifi belədir: "Malın, xidmətin və ya fikrin qiymətini verməklə və qiymətin kim tərəfindən ödənildiyini başa düşülən şəkildə həyata keçirilən tanıtım fəaliyyətləridir. üz-üzə satışlar istisna olmaqla. Qeyd edildiyi kimi, getdikcə daha çox kompaniyalar öz istehlakçılarının təmin olunma dərəcəsini təkcə əmtəə və xidmətlərdən istifadə olunmasına görə yox, həm də onların ticarət nümayəndələri ilə ünsiyyətindən asılı olaraq da qiymətləndirilməsi müraciət edirlər. Menecment həmçinin satış xidməti heyətinin milli satış qanunvericiliyini bilmələrini və ona riayət etmələrini də yoxlaya bilər. Məsələn, ABŞ-ın qanunlarına görə ticarət nümayəndələrinin informasiyaları əmtəənin reklamında təqdim edilən məlumatlarla identik olmalıdır. İbtidai nümunələrini orta əsrlərdə görməyə bağladığımız reklam, kommersiya reklamı və ya hətta reklam deyə biləciyimiz bir quruluşdadır. Qədim Romada satıcılar küçələrdə və dükançılar dükanlarının qarşısında mallarına müştəri tapmaq üçün bağırdılar. Səs ilə başlayan reklam, marka və emblemlərin inkişafı ilə fərqli mediaya yönəldi. Xüsusilə orta əsr sənətkarları küçə keyfiyyətə nəzarət prinsipini qoyduğu zaman işarələmə vazgeçilməz bir fenomenə çevrildi .Bu şəkildə istehsal etdiyi mallara hər hansı bir marka qoyan satıcı , məhsulunu markalı olmayan bir məhsuldan daha çox satma şansına sahib idi. Kontragentlərin satın alınması və ya əmtəələrin korporativ müştərilərə satışı zamanı onlara başqa yollarla təsir göstərilməsi aid edilir. Google şirkətinin 2010-cu ildən bəri illik bir ənənəsi var ki, əvvəlki dövrdəki hadisələri 2 dəqiqəlik bir video olaraq paylaşmaq. Çoxları bunu reklam olaraq görməsə də, bu cür qəbul olunması artıq bu reklam konspektinin nə qədər uğurlu olmasından xəbər verir. Bu videoların yayımlanma vaxtı da yerinə düşür – insanlar keçən ili analiz edib, xatırlamağı çox sevirlər. Təsadüfi deyil ki, hər il bu videoları viral olaraq sosial şəbəkələrdə çox yayılır.

Nəhayət, ticarət işçiləri rəqibləri və ya onların əmtəələrini yalan mülahizələrlə diskreditə etməməlidirlər .Sürətlə dəyişən bazar şərtləri, gündən-günə artan rəqabət nəticəsində oxşar mallar istehsal edən bu bir çox şirkətin müvəffəqiyyəti marketinq ünsürlərindən nə qədər peşəkar və rasional istifadə etmələrindən çox asılıdır. [3] elementlərdən biri olan reklamı daha ətraflı araşdırmaq üçün əvvəlcə reklam məqsədlərinizi və reklam kütləsini müəyyənləşdirmək lazımdır. Vəziyyəti ticarət baxımından nəzərdən keçirdiyimiz zaman reklamın istehlakçıya istehsal etdiyi malların və xidmətlərin elan edilməsi baxımından inkaredilməz töhvələri var, eyni növ malların çoxluğu səbəbindən istehlakçını şirkət tərəfindən istehsal olunan məhsul və

ya xidməti seçməyə inandırır. bazarda xidmətlər və məhsula olan tələbatı və tələbi canlı saxlamaq. Yenə də müəssisələr üçün reklam ən əlverişli bazarların tapınmasını dəstəkləyən və kapitallarını məhsuldar sahələrə yatırmağa təşviq edən bir vasitədir. Bazarda öz ehtiyaclarını ödəyən minlərlə məhsul arasında öz mənfəəti üçün ən uyğun və rasional seçim etməsini təmin edən, eyni zamanda müxtəlif mal və xidmətləri təqdim edən, harada, necə, hansı qiymətə və necə olduğunu müəyyənləşdirən bir vasitədir. bu mal və xidmətlərdən, zamanın bugünkü həyat tərzində necə istifadə ediləcəyi, istehlakçıya köməkçi bir quruluşa sahibdir.[1] Əsrin əvvəllərindən bəri istehsalçı ilə istehlakçı arasındakı məsafənin tədricən artdığını və bu səbəbdən istehsalçı ilə istehlakçı arasındakı birbaşa ünsiyyətin pozulduğunu nəzərə alsaq, səyahət edən bir ünsiyyət forması olan reklamın da ortaya çıxdı istehsalçıdan istehlakçıya, bugünkü istehsalçı müəssisələr üçün əhəmiyyətli və danılmaz bir amildir. Bır tərəfindən reklamın bir ünsiyyət forması olduğu vurğulanır, lakin bu ünsiyyət, reklamı istehlakçılara yönəldən bir istiqamət. Reklamın məlumatlandırıcı və motivasiyaedici tərəfini açıqlayan başqa bir tərifdə isə "İstehlakçıları mal və ya markanın mövcudluğu barədə xəbərdar etmək və bir məhsula və ya markaya, xidmətə və ya təşkilata meyl yaratmaq və bu mesajların yayılması üçün gözlərə və ya qulaqlara xitab edən mesajlar hazırlamaq" olaraq təyin edilir (Kurtuluş , 1981, s.27). " Reklam; Bunu bir iş və ya bir qrup işin xeyrinə mənfəət əldə etmək, onları inkişaf etdirmək və yeni müştərilər cəlb etmək üçün toplu şəkildə istifadə olunan texniki vasitələrin cəmi kimi xarakterizə edən, kütləvi informasiya vasitələrinin istehlakçıya çatmasında və ya, başqa sözlə, reklam mesajını alanlar isə isə reklamlara fərqli bir rakursdan yanaşırlar.[5] Reklamın, alışların davamlılığı və ya istehlakçının başqa bir məhsula keçməsi baxımından istehlakçıları təsir etməyi hədəfləyən iş fəaliyyətlərinin əlavə xərc elementi olaraq təyin edilə biləcəyini söyləyir. Bu tərifdə, digərlərindən fərqli olaraq, istehlakçının hazırda istifadə etdiyi bir mal və ya xidmətin saxlanılmasının düşüncədə daim təzə olduğu və ya istehlakçının reklam yolu ilə başqa bir markaya yönəldilə biləcəyi vurğulanır. Hər hansı bir mala ehtiyacımız olduğu üçün və ehtiyacımıza cavab verəcəyini başa düşdüyümüz üçün alırıq. Bəzi ehtiyaclarımız bədənimizdən qaynaqlanır yemək içmək və s .əvəzedici məhsulların satışını davamlı həyata keçirmək isə olduqca çətin bir barieldir ,bunun öhdəsindən isə məhz reklam sayəsində gəlmək mümkündür.[6]Bu məlumatlardan istifadə edərək reklamın xüsusiyyətlərini aşağıdakı kimi sadalaya bilərik:

1. Reklam marketinq kommunikasiyalarının bir elementidir.
2. Reklam pulsuzdur.
3. Reklam, reklam verəndən istehlakçıya gedən mesajlar toplusudur.
4. Reklam kütləvi ünsiyyətdir.
5. Reklam verən şəxs, qurum, təşkilat məlumdur.
6. İstehlakçı məlumatlandırılmağa və reklamla inandırılmasına çalışılır.
7. Reklam mesajlarında mallar, xidmətlər, vədlər, mükafatlar, problemlərin həlli yer alır.
8. Reklam şirkətin müəyyənləşdirdiyi marketinq strategiyasına uyğun olaraq təyin olunan marketinq hədəflərinə çatmaq üçün digər marketinq kommunikasiya elementləri ilə koordinasiyalı şəkildə işləyir.

Hədəflənmiş istehlakçı auditoriyası üzərində müəyyən bir təsir yaratmağı və bu auditoriyanın düşüncə və vərdişlərinə təsir göstərmək, onları alış-verişə yönəltmək və müəssisənin gəlirliliyini artırmağı hədələyir. Bazar iqtisadiyyatının inkişafı ilə paralel olaraq ixtisaslaşmaq və istehsal nöqtəsi ilə istehlak nöqtəsi arasındakı məsafəni, yəni istehsalçı ilə istehlakçı arasında artırmaq qaçılmazdır. Bunun təbii bir nəticəsi olaraq istehsalçı ilə istehlakçı arasındakı şəxsi əlaqə pozulur, yəni ünsiyyət boşluğu meydana gəlir. Günümüzdəki iqtisadi dünyada istehsalçıların reklamdan gizlədikləri ilk vəzifə bu rabitə boşluğunu doldurmaqdır.[7] Ünsiyyət prosesi hesab edə biləcəyimiz reklam, prosesin bütün elementlərini özündə cəmləşdirir. Məsələn: Gecə 23: 00-da televizorda uşaqlara yönəlmiş bir reklam və ya mesaj yayımlamaq və ya məktəbəqədər uşaqlar üçün başladılan bir reklam kampaniyası üçün həmin reklam kampaniyasının reklam vasitəsi

olaraq qəzeti seçmək sərf olunan səyləri uğursuz edəcək. və bu çox primitiv görünsə də şirkətlər bununla külli miqdarda pul itgisi ilə qarıldaşırlar. Burada nəzərə alınacaq başqa bir məqam səs-küy elementidir. Bu cür maneələrə reklam fəaliyyətində də rast gəlmək olar. Məsələn: TV reklamı zamanı narahatlıq və ya elektrik enerjisinin kəsilməsi, yayım kanallarında narahatlıq və s. Məlum olduğu kimi, reklamın ünsiyyət məqsədi neytral bir əlaqə deyil, əksinə, prodüser tərəfindən idarə olunan strukturlaşdırılmış və şüurlu bir ünsiyyətdir. Bəşəriyyət tarixinin son 100 ili ən parlaq və keşməkeşli dövrüdür. 1960-cı illərdə Avropa avtomobil brendləri Amerika bazarına daxil oldu. Amma Amerika bazarında sürücü tərcihləri Avropadakılardan kəskin fərqlənirdi və bir çoxumuzun bildiyi kimi Amerikalılar nəhəng maşınları çox sevirdilər. Avropa maşınları isə ölçülərinə görə çox comforta yaxın olurdu beli hətta o zamanlarda da bu belə idi, üstəlik amerikalılar öz maşın b rendlərinin fanatı idi. Bazardan pay qoparmaq üçün Volkswagen müştəri tələblərinə uyğunlaşmağı deyil, zəif cəhətini üstünlüyə çevirməyə qərara aldı. DDB agentliyi onlara 1960-cı ildə “Think small” kreativ konseptini hazırladı və reklam kampaniyasını keçirdi. Onlar sürücüləri kiçik ölçülü maşınların üstünlüyünə inandırmağa çalışdılar. Təsadüfi deyil ki, şəhərlərdə tıxac problemi ilə üzləşən cavan nəsil üçün bu ideya göydən düşmələr oldu. Qısa zamanda kiçik ölçülü maşınlar seqmenti böyüdü. Daha sonrakı neft böhranı, yanacağın qiymətinin 4 dəfə qalxması ilə də iri avtomobillərin yollarda hökmdarlığına son qoydu. Bu təcrübə göstərir ki, brendlər müştərisi ilə nə qədər səmimi olsalar, bir o qədər onların etibarını qazana biləcəklər. 2010-cu illərdə Coca-Cola vahid brend mövqeləndirməsinə uyğun olaraq bir neçə yadda qalan reklam kampaniyaları keçirdi. Onlardan ən yadda qalanı heç şübhəsiz “Share a coke” (Kolanı paylaş) oldu. Məhsulların üzərinə ad yazmaq ideyası ilk dəfə 2011-ci ildə Avstraliyada sınaq keçdi.150 ən populyar insan adında Cola qabı satışa çıxarıldı. İnternet saytları üzərindən də istənilən adda Cola sifariş etmək mümkün idi. Bu ideyanın möhtəşəmliyi 100 yaşında qocaman bir brend bir anda insanlarla fərdi ünsiyyət qura bildi. Bəzən insanlar “Hər kəsin etdiyini etmək istəmirlər özlərini digərlərindən daha üstün tutmağa çalışırlar, fərqlənmək istəyirlər .Güclü marketingi olan şirkətlərdə məhv bundan gəlir olaraq yararlanmağı bacarırlar, necə deyərlər tələbat nədirsə onuda sat! Procter & Gamble- Thank You, Mom “Təşəkkürlər, ana!” kreativ ideyası olduqca sadə, bir o qədər də tutarlı idi. İlk dəfə Olimpiyada üçün hazırlanan bu reklam kampaniyasında kiçik yaşlarından idmançıların yetişdirilməsinə Anaların roluna diqqət çəkilirdi. Bu ideya o qədər emosional göstərilmişdi ki, reklam çarxını izləyən hər kəs həmin reklamda özünü, öz anasının üzərindəki zəhmətini görürdü. Procter&Gamble öz müştərisinin emosiyalarında düzgün mesajla xitab edə bildi. Reklamdan gözlənilən və həyata keçirilməsini arzulayan əsas məqsəd də istehsalçı tərəfindən təklif olunan məhsulun bazara satışını təmin etmək və ya hələ də satılan bir məhsula bazar tərəfindən mövcud tələbi artırmaq. Reklamın məqsədi qısa və uzunmüddətli olaraq iki formada görünür. Qısa müddətdə reklam istehlakçıları kiçik bir müddət içərisində həmin mal və ya xidməti satın almağa sövq etməyə çalışır. Uzunmüddətli perspektivdə şirkətlər istehlakçıya gətirəcəkləri üstünlükləri və faydaları göstərərək istehsal etdikləri mal və ya xidmətləri tanıtmaqla bu mala və ya məhsula tələbat yaratmağı hədəfləyirlər.Uzunmüddətli və ya qısamüddətli satış məqsədi olub-olmamasından asılı olmayaraq hər iki halda da ümumi məqamları var: 1. İstehlakçını və ya vasitəçini məlumatlandırmaq, 2. Qısa və ya uzun müddətdə mal və xidmət istehlakını artırmaq, 3. Topdan və pərakəndə satıcıya kömək etmək, 4. Mallara və ya xidmətlərə tələbin yaradılması, Şirkətin həmin dövrdə yaşadığı, ümumi məqsədlər xaricində olan və qısa müddətdə baş verməsi gözlənilən bəzi problemlərin həlli üçün xüsusi hədəfləri sadalamaq mümkündür: 1. İşin ləyaqətini təmin etmək, 2. Fərdi satış proqramını dəstəkləmək, 3. Paylama kanalı ilə əlaqələri inkişaf etdirmək, 4. Bu sektorda ümumi tələbi artırmaq 5. Malları sınamağa inandırmaq, 6. Malların istifadəsini gücləndirmək, 7. Məhsul seçimini davam etdirmək və s. Qlobal dünyadaki düşüncəyə görə :məhsulunuzu yalnız almaq istəyənlərə satmaliyiq .Burada pirani rolu kənarda qalır .Digər ziddiyyət isə müştərilərin fikirlərini və ehtiyaclarını öyrənmək marka imicində böyük rol oynayır .Məhsulu həm daxili

həm də xarici faktorlarla idarə etmək satış prosesində çox önəm kəsib edir.Satilan məhsula qarşı heç bir mənfi düşüncə və fikir olmamalidir, bütün mənfi fikir və danışıqlar zamanla satışın azalmasına təsir edir. Müştərilərlə daimi əlaqə saxlamaq lazımdır ,onların ehtiyacları yeni düşüncələri nələrdir, yeni məhsula maraq disporsiyasi necədir? Yeni müştərilər qazanmaq üçün, satışları artırmaq üçün saxta və yalan məlumatlardan, həcmində rəqiblər haqda yalan məlumatlar yayınmamaq lazımdır ,bu bütövlüyü və gücü təmsil edir. Hamımız səhv edirik, amma bəzi səhvlər var digərlərindən daha baha başa gəlir.[6] Unutmayın ki, hər bir müştəri vacib bir müştəridir və kiçik sifarişləriniz belə olsa diqqətlə yanaşmaq lazımdır. Hər bir kompaniyanın satış xidməti qarşısında dəqiq olaraq konkret vəzifələr qoymalıdır. Ticarət heyətinin vəzifələri sırasına təkcə satış həcmi və mənfəət göstəriciləri deyil, həm də istehlakçıların təmin edilməsi üçün yaradıcı yolların axtarılmasının da əlavə olunması tendensiyası getdikcə genişlənir.[2]

**ALINMIŞ NƏTİCƏLƏR**

Reklam, markanı tanıtmaq, məhsul satışı və ya xidməti həyata keçirmək üçün əla bir yoldur. Reklam marketinqin çox texniki bir hissəsidir. Özünüzü və xidmətinizi çox kiçik bir şəkildə ifadə etmək üçün əla bir yoldur. Reklamın həyata keçirilməsi müxtəlif yerlərdə müxtəlif üsulları istifadə etməklə mümkündür. TV, radio, qəzet, internet və s. Sosial medianın idarə olunması, sərbəst iş siyahıları, strateji məhsul qiymətləri, marketinq, e-poçt marketinqi, məhsul marketinqi, axtarış motoru optimallaşdırması və daha çox şey satılır. Bir məhsulu satmağın ən rahat və ən effektiv yolu ondan istifadəni vərdiş halına gətirməkdir. Yemək vaxtı Cola , yeməkdən sonra Dirolun etdiyi kimi. Hər səhər ya da yatağa girəndə süd içməkdən təbii nə ola bilərki? "Got milk?" Yeni süd içmisən? reklam kampaniyaları olaraq əsas məqsədi mövcud müştərilərdə gündəlik süd içmə vərdişi yaratmaq idi. Süd içməyin faydaları, ən məşhurların, o cümlədən aktyor və idmançıların da süd içdiyini vurğulamaqla buna məhz vərdiş yaradır. Doğru vasitə və vaxt seçilməyibsə, görülən işin mənası yoxdur. Reklam ediləcək yeri və vaxtı düzgün seçmək

**Ədəbiyyat siyahısı**


1. Beynəlxalq Marketinq -Müslimov Allahverdi Bakı- 2010 pdf
2. Marketing and Management -Philip Kotler pdf
3. Marketinqin idarə edilməsi -Fikrət Quliyev "Kooperasiya nəşriyyatı "Bakı -2018
4. Marketinqin idarə edilməsi -N.D.Verdiyev pdf Bakı- 2011
5. Reklam işinin təşkili -Fərhad Mirzəağa oğlu Qarayev, Elşən Məsim oğlu Yusifov, Azadə Qadir qızı Novruzova -Bakı 2017
6. Reklamcılık-FÜSUN TOPSÜMER - MÜGE ELDEN
7. Sales Tips and Strategies to Increase Your Sales Success -2011
8. What is Marketinq? Forum Emperesarial pdf

**Magstr Vəlizadə İbrahim Famil oğlu**
*Bakı Biznes Universiteti*
ibrahimvelizade99@gmail.com

## İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNƏ QLOBAL YANAŞMA

**Xülasə:** İnsan resursları sosial-iqtisadi kateqoriya olub, cəmiyyətin malik olduğu fiziki və intellektual imkanların məcmusunu təşkil edir. Onun tərkibində ən mühüm və aparıcı yeri fiziki və zehni cəhətdən inkişaf etmiş əmək qabiliyyətli yaşında olan əmək qabiliyyətli əhali tutur.Bu isə o deməkdir ki, konkret sosial-iqtisadi tarixi inkişaf mərhələsində, hansı ölkədə ictimai istehsal prosesinin əsasını və subyektini təşkil edən əhalinin fiziki və zeyni cəhətdən inkişaf etmiş hissəsi çoxdursa, həmin ölkə daha çox məhsuldar insan resurslarına malikdir. İnsanlar və onların istedadı ölkənin ən qiymətli resursudur. Buna görə də hər bir ölkədə və regionda həmin resursların idarə edilməsi və onlardan səmərəliistifadə olunması strateji vəzifəyə çevrilməlidir ,bu yöndə təkmilləşdirilmə aparılmalıdır.

***Açar sözlər:*** *idarəetmə, kadr, motivasiya, insan resursları, müəssə strategiyası*

### GİRİŞ

HRM-ingilis dilindəki “human resource” ifadəsinin qısaldılmış formasıdır. Mənası insan resursları deməkdir. “Human resource” ifadəsi elmdə ilk dəfə – Amerikalı iqtisadçı John Commons tərəfindən 1893-cü ildə yazdığı “Distribution of Wealth” adlı kitabında işlədilmiş, lakin Commons sonralar bu terminin elmi əsaslarını inkişaf etdirməmişdir. “Human resource” ifadəsini müasir anlamda isə – Amerikanın Yale Universitetinin professoru, iqtisadçı və sosioloq – Edward Wight Bakke məqalələrində işlətmişdir. Yale Əmək və İdarəetmə Mərkəzinin direktoru kimi Edward Wight bir sıra kitablar yazmışdır.İnsan Resursları 1800-cü illərin sonunda Sənaye İnqilabı ilə birlikdə torpaqdan mexanikaya keçməsi periodunda və bu qəbildən olan hadisələrin nəticəsində meydana gəlmişdir. İnsan resurslarının idarə edilməsi təşkilatçılıq mühitinin bütün aspektlərini əhatə edir və özünə inteqrasiya edilməsi baxımından yanaşılmasını tələb edir. Çünki klassik iqtisadi nəzəriyyənin bəzi nümayəndələrinin düşündüyü kimi, dünyada qlobal rəqabətin yüksəlməsinin milli rəqabət qabiliyyətinin ən mühüm amillərini artıq torpaq, kapital və təbii resurslar deyil, yüksək ixtisaslı və motivləşdirilmiş insan resursları təşkil edir. Ölkənin iqtisadi və başqa imkanları həmin resursların keyfiyyətindən və xarakterindən asılıdır [11]. İnsan resurslarının xüsusiyyəti ondan ibarətdir ki, əvvəla, insan nə qədər çox peşə fəaliyyətinə qoşulurlarsa, bir o qədər çox həyat və peşə təcrübəsi qazanır, bir o qədər az vaxt ərzində peşə vəzifələrini daha keyfiyyətlə yerinə yetirir, ölkə, müəssisə, təşkilat üçün daha çox dəyərlər yaradılar.İnsanların peşəkar olması üçün fəaliyyət növlərinin peşəkarlaşması kapital sərfi tələb edir.Məqsədə çatmaq üçün resurslardan səmərəli istfadə edirilməlidirlər. Bu yöndə isə insan kapitalının rolu danilmazdir. Vətənimizin və xarici ölkələrin müəssisələrinin təcrübəsinin ümimiləşdirilməsi insan resurslarının idarə edilməisinin qlobal məqsədinin formalaşdırılmasına, yəni ölkənin malik olduğu əmək resurslarının inkişafına və reallaşmasına imkan verir. Bununla ölkənin hər bir əmək qabiliyyətli adamının iş qabiliyyəti yaxşılaşa, öz əmək potensialını inkişaf etdirmək və ondan optimal qaydada istifadə etmək imkanı arta bilər, sonda isə bütünlükdə ölkənin malik olduğu iş qüvvəsinin fiziki və intellektual imkandan daha səmərəli istifadə olunmasına müsbət təsir göstərəcəkdir.[10]. İnsan resurslarının idarə edilməsi idarəetmə təcrübəsini həmdə biznes strategiyası ilə əlaqələndirir. Müasir HRM (İnsan Resurslarının İdarə olunması) innovasiya xarakteri daşıyır və burada əsas alət motivasiyadır. Buna görə də hər hansı

idarəetmə məsələsi həll edilərkən insan aspekti, onların imkanı, ixtisas artırma diqqət mərkəzində dayanmalıdır.

**PROBLEMİN QOYULUŞU**

*İnsan resurslarının idarə edilməsinin əsas məqsədi müəssisədə məhsuldarlığın artırılması və əmək şəraiti keyfiyyətinin yüksəldilməsi ilə rəqabət üstünlüyünün təmin edilməsidir. Bu məqsədə nail olmaq üçün müəyyən şərtlərin yerinə yetirilməsi və HRM-in funksiyalarından düzgün istifadə edilməlidir. Bu zaman planlaşdırılma, kadrlaşdırılma, təlim, karyera idarəsi, əmək fəaliyyətinin idarəsi, əmək haqqının idarəsi, insan resurslarının mühafizəsi və insan resursları kargüzarlığından istifadə edilir.İnsan resurslarının idarə edilməsi prosesi insan resurslarının planlaşdırılması funksiyası ilə başlayır.[1] Bu funksiya ilə müəssisənin gələcək illər üçün insan resursları ehtiyacı müəyyən və insan resurslarının digər funksiyaları ilə zəncirvari şəkildə bağlıdır. Belə ki, insan resurslarının kadrlaşdırılması funksiyası çərçivəsində nə qədər namizədin işə qəbul edilməli olduğu, gələcəkdə nə qədər işçinin təlimləndirilməli olduğunu müəyyən etmək olur.* Müəssisələrdə heyətin idarə olunmasına maraq Qərb ölkələrində sənayeləşmə ilə paralel inkişaf etmişdir [2]. Edvard L.Gubman "Biznes strategiyasının jurnalı"-nda qeyd edir ki, "İnsan Resurslarının əsas missiyası həmişə istedad əldə etmək ,iş hər zaman mükəmməl bir köməkçi olmaqdadır. Çətinliklər heç zaman tam yox ola bilməz ,bunun öhdəsindən gəlməyi isə bacarmaq lazımdır.Irving Burstiner "Kiçik Biznes" kitabında "doğru insanları işə götürmək və onları yaxşı hazırlamağ" fikirlərini irəli sürmüşdür. 1980-ci illərdə isə kadr idarəçiliyi konsepsiyası, rəqabətə uyğunlaşmaq bacarığı prinsipləri inkişaf etmişdir. Bu dövrlərdə ABŞ İnsan Resurslarının proqramlarını araşdırmışdır. İnsan Resursları (HR) ilə bağlı yanaşmaların biri də Storey tərəfindən verilmişdir olan təməl fərqlilik insani yanaşmadakı fikir ayrılığıdır. HR-da "hard"(sərt) və "soft"(yumşaq) yanaşma.Hər bir şirkətin bəlli hədəfləri var. Təbii ki, bu hədəflərə çatmaq, gəlir qazanmaq, uğurlu olmaq, bazarda mövqeyini qorumaq, yeni bazarlara girmək, rəqibləri ilə rəqabət apara bilmək üçün hər bir şirkətə bir çox vəsait, resurs lazımdır. "Hard" versiyaya əsasən insanlar, işçilər də şirkət üçün bu resurslardan biridir. İnsan da şirkətə əvvəlcədən müəyyən olunmuş hədəflərinə çatması üçün lazımdır və digər iqdisadi faktorlar kimi nəzərə alınır.

"Hard" versiya insana daha maddi bir varlıq kimi yanaşır ki, bu da daha Teylorist (Teylorçu) bir düşüncəyə dayanır. Bildiyimiz kimi bu cür yanaşmaların təməlini Teylorun daha yaxşı işçilərin seçilməsi, onların zaman etüdləri ilə daha məhsuldar işlədilməsi, onların vasitəsi ilə maksimum faydanın alınması kimi fikirləri təşkil edir. Hər nə qədər də Teylorun hədsiz dərəcədə çox tənqid olunduğunu düşünsəm də fakt faktlığında qalır .Qlobal dünyada bu yanaşma artiq yoxdur .
İkinci yanaşma olan "soft" versiya isə tam tərsinə, daha humanist, insana daha çox dəyər verən bir yanaşmadır. [6]. yanaşmaya görə insan daha dəyərli varlıqlardır və şirkətlər məhz onların vasitəsi ilə öz hədəflərinə çatır. Bu yolda əsas olan onların motivasiya edilməsi, şirkətə bağlı olması, qabiliyyətlərinin keyfiyyətinin artırılması kimi faktorlardır. İşçilər liderlər, yaxşı əmək haqqı, yaxşı iş şəraiti, uyğun iş mühiti, daha üst səviyyəli karyera imkanları, normal təşkilati mədəniyyət vasitəsi ilə daha məhsuldar vəziyyətə gətirilə bilər. Bu zaman onlar şirkət və onun hədəfləri baxımından daha faydalı olacaq.HR-ın "soft" versiyası isə daha çox Elton Mayo-nun insan münasibətləri məktəbi yanaşmalarını baza olaraq alır.*İnsan resurslarının planlaşdırması bir proses kimi həyata keçirilir və bir neçə mərhələni əhatə edir:*

*1. Toplanması və mövcud olan vəziyyətinin təhlili*

*2. Resursları ehtiyacının müəyyənləşdirilməsi*

3. *İnsan resursları ehtiyacının qarşılanması üçün fəaliyyət planının hazırlanması və tətbiq edilməsi*

*4.Seçilmiş fəaliyyət planının qiymətləndirilməsi və ona nəzarət.[7]*

İnsan resurslarının idarə edilməsilməsində - karyerasının planlaşdırılması,motivləşdirilməsi sisteminin hazırlanması,məhsuldarlığının idarə edilməsi, fəal sosial siyasətin aparılması,heyətin peşə - ixtisas hazırlığı,münaqişələrin yumşaldılması

vacibdir.İnkişaf etmiş sənaye ölkələrində, xüsusilə ABŞ-da və Yaponiyada menecerlərin hazırlanması zamanı onların tədris planlarında bu göstəricilərə xüsusi də motivasiyaya diqqət yetirilir. [3]

*Müasir dünya təcrübəsində müəssisələrdə keçirilən təlimlər sadəcə müəyyən bir dövrdə deyil, davamlı şəkildə həyata keçirilir.Qloballaşan dünyada baş verən dəyişikliklərin artması rəqabətin əhəmiyyətini artırmışdır. Buna görə də müəssisələrin təlim və inkişaf proqramlarına olan marağı gündən-günə artır. İnsan resurslarının təlimi funksiyasında mövcud işçilərin daha səmərli işləməsi, işçilərin performanslarının yüksəldilməsi, bilik və bacarıqlarının artırılması üçün müxtəlif təlim proqramları tətbiq olunur, bu zaman daxili mənbələr kifayət etmədikdə xaricdən consalting şirkətlərindən istifadə edilir* [9]. Autsorsinq xidmətlərində dünyaca tanınmış "KPMG", "Deloitte & Touch", "Price waterhouse Coopers" və "Ernst & Young" kimi firmalarından istifadə edilir və bu xidmətlər təbii ki ,ödənişlidir .Hələ keçən əsrin 20-ci illərində bir sıra Amerika biznesmenləri standart davranış modelinin zəifliyini hiss edərək insan keyfiyyətinə, insan münasibətləri modelinə üstünlük verməyi lazım bildilər. Burada insan hissiyyatı əsas etalondur Biznesmenlər başa düşürlər ki, istehsal amillərindən biri kimi insanla maşını bir sıraya qoymaq olmaz.[4] Elə etmək lazımdır ki, işçi öz təşkilatı üçün faydalı olduğunu, kollektivin ayrılmaz bir üzvü olduğunu hiss etməlidir.Məhz bu fikir Yaponiyada "İnsan potensialı" modeli geniş bir miqyasda tətbiq edilməyə başlandı. Bu modeldə nəzəriyyənin "İnsan münasibətləri" nəzəriyyəsi ilə yaxınlığı olsa da, fərqli cəhəti onun sabitlik yaratmaq, səmərəli fəaliyyət, işçinin yaradıcı potensialından maksimum istifadə etmək, özünüidarəetmə, özünənəzarət kimi məsələlərlə, bir sözlə, insan qabiliyyətinin fəallaşdırılması ilə əlaqələndirilməsi, kollektiv davranışa üstünlük verilməsidir. Jons Conston " "Business Quadrly "jurnalinda yazır ki, iş şəraitinin dəyişdirilməsi dəyişən liderlik insan resursları şöbələrinə durğunluq yarada bilər .Bu baxımdan işlərin təkmilləşdirilməsi daha uyğundur nəyinki işçiləri işdən çıxarıb daha ixtisasları işçiləri cəlb etmək .[8]

Yaponiyada işçi heyətinin idarə edilməsinin mühüm diqqət aşağıdakılardır: əməyin çevik və səmərəli təşkili,peşə irəliləyişləri,motivləşdirmə metodlarının daim inkişafı, menecment konsepsiyasının təkmilləşdirilməsi, firmadaxili səmərəliliyin artırılmasında insan amili və s. [9]

İnsan resursları 20-ci əsrin əvvəllərindən aktuallığını qazansa da Azərbaycanda bu sahənin ömrü 20 ildən çox deyil. Halbuki, bu 20 ilin 10 ili də insan resurslarının kadrların idarəedilməsi hissəsi yer alır. Bu peşə çox önəm kəsb etdiyindən dünyada inkişaf etdirilməsi və peşəkarların yetişdirilməsi istiqamətində CIPD, SHRM, AHRI və s kimi aktiv iştirak edən qurumların üzvlərinin sayı yarım milyona çatmışdır. Eyni məqsədlə insan resursları üzrə müxtəlif səviyyələrdə olan peşəkarlar bu qurumların beynəlxalq dərəcəli diplom və sertifikatlarını almaq üçün imtahanlara müraciət edirlər. Bu peşənin müxtəlif istiqamətləri üzrə ixtisaslı kadr yetişdirən və bu sahə üzrə araşdırmalar aparan univerisitetlər arasında ABŞ-ın Miçiqan Universitetinin bir qolu olan Ross İdarəetmə Məktəbi, İngiltərənin Notinqem Trent universiteti, London Biznes məktəbi, Niderlandın Rotterdam İdarəetmə məktəbi ön sıraları tutur. Rəqabətin artması və xüsusilə insan resurslarına olan önəmin artması bu sahənin biznes nəticələrinə nail olma istiqamətində inkişafına səbəb olmuşdur.HRM menecerin vəzifəsi 3 əsas sahəyə düşur və bunları diqqətdə saxlamaq lazımdır:

1.Kadrlarin daimi nəzarətdə saxlanılması

*2.İşçilərin konsepsiyası və faydalılığı*

*3.İşlərin layihələndirilməsi*

Dünyanın bir sıra şirkətləri insan resursları ilə bağlı hazırladıqları təcrübələri bölüşürlər.SHL şirkətinin səriştəlik modeli buna misal ola bilər. Bu təcrübələri 4 kateqoriya başlığı altında qruplaşdırmaqla şirkət üçün dəyərə necə çevriləcəyini qısa olaraq izah edək. Birincisi insan resursları təcrübələri şirkətdə insanların hərəkəti ilə bağlıdır. Bu təcrübələrə biz işə qəbul, orientasiya, inkişaf, outsorsinq və digər proqramları misal gətirə bilərik.

İkincisi bu təcrübələr ölçmə, performans qiymətləndirilməsi, əməkhaqqı və mükafatlandıirma. Üçüncüsü insan resursları təcrübələri şirkət daxilində xarici ictimaiyyətlə əlaqələr və daxili işçi kommunikasiyaları kimi kommunikasiya prosesləri üzərində getdikcə dərinləşməlidir. Həmçinin insan resursları təcrübələrini strategiyaya bağlamaq üçün komandada necə işləmək, inzibati siyasətləri necə hazırlamaq və çatdırmaq, iş şəraitinin şərt və qaydalarını necə idarə etmək, avadanlıqları və boş yeri necə layihələndirmək və şirkətin təşkilatı strukturunu necə qurmaq kimi anlayışlar iş axını ilə bağlıdır.

Təəccüblü deyil ki, hal-hazırda dünya şirkətlərdə işləyən HR rəhbərlərinin bir başa şirkət rəhbərliyinə hesabat verməlləri təmin edilir.İnsan resurslar istedad, insan kapitalı,işçi qüvvəsi və şirkətlərlə bağlı məsələləri əhatəli kateqoriya olaraq öyrənir. İşçi qüvvəsi və iş yerləri şirkət məqsədlərinə nail olmaq üçün şirkət bacarıqlarının kritik hissəsindən biridir. Dünyaca taninan ele böyük bir şirkət yoxdurki ,onun İnsan resursları departamenti olmasın. İşdəki insanlarla və müəssisələrdəki münasibətləri ilə əlaqəli olan rəhbərliyin bir hissəsidir. Hər bir İK işçisinin əsas məqsədi işçi ilə təşkilat arasında əlaqəni inkişaf etdirmək olmalıdır, çünki işçinin quruma bağlılığı vacibdir. İK kadrlarının ilk və əsas rolu, işçilərə ümumilikdə ölkənin və xüsusən onların təşkilatlarının qarşılaşdıqları dəyişikliklər və problemlər barədə davamlı təhsil verməkdir. İşçilər şirkətin balans hesabatı, satışların gedişi və planların şaxələndirilməsi, səhmlərin qiymət dəyişikliyi, dövriyyə və şirkət haqqında digər detalları bilməlidirlər. İR mütəxəssisləri bu cür məlumatları bütün işçilərə kiçik bukletlər, videofilmlər və mühazirələr yolu ilə verməlidirlər.[7]

İşçiləri motivasiya etmək və işçilərin daha çox uğurlu iş görməsi üçün çoxlu qaydalar vardır. Sistematik olaraq istifadə olunan texnikalarla işçilər motivasiya edilə bilər. Bu səbəbdən isə həm işin məhsuldarlığı artar həm də ki, işçilərin əhval-ruhiyyəsi hər zaman yüksək olar.İşçilərin əhvalını yüksək tutmaq, onları işdən çıxartmaqla təhdid etməkdən daha səmərəli olar.Əgər işçiləri bununla gözünü qorxutsaz, sizin yanınızda olanda var gücləri ilə çalışarlar.İşçilərin motivasiya sistemi iki komponentdən ibarətdir.1.Kompensasiya sistemi - əmək haqqının ödənilməsi vaxtında ödənilməsi ,əlilliyə məhdudiyyət olmaması,işçinin sığortası,iş yerini itirmiş işçiyə kompensasiyanın ödənilməsi,əldə olunan gəlirə bərabər ödənişedilməsi.2.Qeyri-kompensasiya -zehni və əhval-ruhiyyə vəziyyətinin yaxşılaşdırılması, təlimlər, özünü inkişaf üçün müxtəlif proqramlar.özünə hörmətin artırılmasına yönəlmiş fəaliyyətlər,düzgün məqsəd və vəzifələrin qoyulması,lider mövqeyi tutmaq təklifi və s.[6]

Müasir dünyada insan resursları menecerlərinin əsas vəzifələri korporativ mədəniyyət, planlar və siyasətlər haqqında hərtərəfli bilik inkişaf etdirmək aiddir,həmçinin İK-nın inzibati səmərəliliyini və İK-nın işçilərə və menecerlərə cavabdehliyini artırmaq üçün texnologiyadan geniş şəkildə istifadə edilməlidir, işəgötürmə müraciətləri və işçilərin faydaları qəbulundan tutmuş İnternet əsaslı mənbələrdən istifadə edərək elektron tədrisə qədər İK fəaliyyətlərində texnologiya istifadə olunur.Hətta bir sira ölkələrdə getdikcə bir çox HR inzibati funksiyası digər konsaltinq şirkətlərinə verilməsi halıda artmışdır. [5]

Yeni Minilliyin HRM İnsan Resursları heç vaxt bugünkü qədər əvəzolunmaz olmayıb. İK, təşkilatlara qloballaşma, böyümə yolu ilə gəlirlilik, texnologiya, intellektual kapital və şirkətlərin iş mühitindəki nəzarətsiz çətin dəyişikliklərə uyğunlaşarkən qarşılaşdıqları digər rəqabət çətinlikləri kimi rəqabət problemlərinə qarşı kömək edəcəkdir. İK-nin yeni rolu strategiyanı sürətlə fəaliyyətə çevirməkdir həmçinin prosesləri ağıllı və səmərəli idarə etmək, işçilərin töhfəsini və öhdəliyini maksimum dərəcədə artırmaq və qüsursuz dəyişiklik üçün əlverişli şərait yaratmisdir.[2]

BMT tərəfindən qəbul edin "Davamlı inkişafın məqsədləri" konsepsiyasina görə müasir cəmiyyətin dəyərlərinin və məqsədlərinin, insan fəaliyyətinin müxtəlif sferalarının istiqamət və məzmunun köklü şəkildə dəyişdirilməsi əsasında bəşər inkişafının yeni çağa keçməsindən gedir. Davamlı inkişaf, düzgün seçim və düzgün siyasət vasitəsi ilə bu arzunun həyata keçirilməsin mümkün edir. Davamlı İnkişaf Konsepsiyası keyfiyyətcə yeni yanaşma olub özündə aşağıdakı 3 əsas probleminlərin həllindən biridə məhz İnsan kapitalına verilən

önəmdir. Nəzərə almaq lazımdır ki, davamlı inkişaf cəmiyyətin yalnız iqtisadi və ekoloji təhlükəsizliyi deyil, həmçinin siyasi, sosial inkişafda stabillikdir. V.A. Kaptyuqa görə, bəşəriyyətin idraklı şəkildə balanslaşdırılmış sosial-iqtisadi inkişafına və ətraf mühitin qorunmasına nail olmaq, həmçinin həm texnoloji proses insan kapitalının öyrənilməsi də daxildir.

İnsan Resursları Strateji Tərəfdaş Olmalıdır: İK, şirkətin öz strategiyasını həyata keçirmək üçün necə təşkil olunmalı olduğu barədə ciddi müzakirələr apararaq istiqamətləndirərək strategiya icraatlarında ortaq olmalıdır. Bu müzakirə üçün şərait yaratmaq dörd addımı əhatə edir. İlk İK şirkətin iş aparmaq yolunu müəyyənləşdirərək təşkilati bir arxitekturanı təyin etməlidir. İkincisi, İK təşkilati yoxlamanın aparılmasından məsul olmalıdır. Üçüncüsü, strateji tərəfdaş kimi İK-nın, təşkilati arxitekturanın ehtiyac duyduğu hissələrini bərpa etmək üçün metodları müəyyənləşdirməsi lazımdır. Dördüncüsü və nəhayət, İK öz işini qiymətləndirməli və aydın prioritetlər təyin etməlidir. İdarəetmə mütəxəssisi kimi yeni rollarında ənənəvi imiclərini ortaya qoymalı və şirkət üçün bütün gündəlik işlərin yaxşı aparıldığından əmin olmalıdırlar. 3. İşçilərin Öhdəliyini təmin etmək üçün İK Məsuliyyəti düzəldilməlidir: İK, işçilərin təşkilata sadiq olduqlarını və tam töhfə verdiklərini təmin etmək üçün məsuliyyət daşımalıdır. Yüksək işçi mənəviyyatının vacibliyi və buna necə nail olmaq barədə xətt rəhbərliyini yönləndirmək və təlim vermək üçün məsuliyyət daşımalıdırlar. Qlobal İRM-in məqsədlərini aşağıdakı kimi sadalaya bilərik: Qlobal miqyasda menecerlər arasında mədəniyyətlərarası həssaslığa dair məlumatlılığın yaradılması və coğrafi sərhədlər daxilində işçilərin işə qəbulu.Ölkənin mədəniyyətləri və həssaslığı üzrə təlimlərin təşkili .Belə bir ssenaridə İnsan Resursları İdarəetməsinin strateji rolu İKM siyasətlərinin firmanın strategiyası, quruluşu və nəzarəti ilə bərabər və dəstəklənməsini təmin etməkdir. Xüsusi olaraq, strukturlardan və nəzarətlərdən bəhs etdiyimiz zaman, Qlobal HRM kontekstində aşağıdakıları xatırlatmağa dəyər. Qərar vermə əməliyyat qərarlarının qəbul edilməsinin müəyyən dərəcədə mərkəzləşdirilməsi . Çapraz mədəni həssaslıqların ardınca yüksək bir koordinasiya tələb olununur ki ,HRM bunun öhdəsindən gəlməlidir . Qlobal dünyada HRM üzrə bir təşkilat aşağıda göstərilən kadr siyasətindən hər hansı birinə uyğun olaraq işə götürməyi seçə bilər:

1.Etnosentrik: Burada əsas idarəetmə vəzifələrini ölkədə fərdlər tutur.

2.Polycentric: Polycentric kadr siyasətində, ölkə vətəndaşları törəmə şirkətləri idarə edir, baş qərargahı isə ana şirkət vətəndaşları tutur.

3.Geocentric: Bu kadr siyasətində ən yaxşı və ən bacarıqlı şəxslər, millətlərindən asılı olmayaraq əsas vəzifələrə sahibdirlər. Geocentric kadr siyasəti, Global HRM söz mövzusu olduğunda ən yaxşısı kimi görünür. İnsan resursları məhsuldar şəkildə yerləşdirilir və eyni zamanda güclü bir mədəni və qeyri-rəsmi idarəetmə şəbəkəsi yaratmağa kömək edir.[7]. Tərs tərəfi budur ki, işə götürüldükdə insan resursları idarə edilməsi çoxlu pul tələb edə bilər . Bununla yanaşı, milli immiqrasiya siyasətləri tətbiqetmə məhdudlaşdıra bilər. Bu səbəbdən Qlobal HRM çox çətin bir cəbhədir. Biri quruluşları və nəzarətləri dizayn edərkən doğru bir zərbə vurmağı bacarırsa göstəricilər əleyhimizə dəyişə bilər.

**ALINMIŞ NƏTİCƏ**

Qloballaşma dövründə bir təşkilatın digər qaynaqları nə qədər güclü olursa olsun, insan resursları kifayət qədər səmərəli deyilsə, müvəffəq olmaq şansı da azdır (Ferecov, 2002: 40). Bu həqiqəti nəzərə alaraq, insan resurslarının idarə edilməsi olaraq adlanan idarəetmə intizamını təyin etməzdən əvvəl insan resurslarının nə demək olduğunu qısa izah etmək faydalı olacaqdır.İnsan resurslarına yalnız təşkilat daxilindəki işçi qüvvəsi deyil, həm də təşkilat xaricindəki potensial olaraq istifadə edilə bilən işçi qüvvəsi də daxildir .Müasir dövrümüz müəssə işçilərinə “Bir Resurs “ kimi deyildə məhv insan kapitalı kimi baxmağı tələb edir.Bu yöndə isə daima təkmilləşdirilməl və yeni üsullardan istifadə edilməlidir. İstər dünya istərsədə ölkə daxilindəki nüfuzlu şirkətlər bütün bu faktları diqqətdə saxlamağı bacarmalıdırlar ,çünki müəssə nə qədər də son texnologiyalaşdırılmış olsada ,insan nəzəri altından idarə olunmalıdır

.Gələcəkdə digər istehsal amillərinin necə davranacağını proqnozlaşdırmaq mümkün olsa da, insan resurslarının davranışını proqnozlaşdırmaq çətindir. İnsan resursları tərəfindən yaradılan bu qeyri-müəyyənlik təşkilatların fəaliyyətinə böyük təsir göstərməkdədir. Təşkilatların fəaliyyətində çox vacib olan insan resurslarının səmərəliliyinin artırılması müasir təşkilatların ən vacib məqsədlərindən biridir. Təşkilat daxilindəki insan resurslarının idarə edilməsi olan insan resurslarının idarə edilməsinin əhəmiyyəti də burada ortaya çıxır .

**Ədəbiyyat siyahısı**

1.Biswajeet Pattanayak (2001), *Human Resource Management*, Prentice Hall of India Pvt. Ltd., New Delhi.[1]

2.Human Resurs Management the Open University of Hong Kong pdf [2]

3.Human Resurs Management University of Calicut pdf 2017 [3]

4.Human Resurces Management and Training -UNITED NATIONS ,Compilation of golf practices in statistical offices[4]

5 HRM management pdf [5]

*6.Human Resource and Personnel Management* (5th edition), Tata McGraw-Hill Publishing Company Ltd., New Delhi. 2008[6]

7.L. Byers and Leslie W. Rue (1997), *Human Resource Management* (5th edition), The McGraw-Hill Companies, USA.[7]

8.Michael Armstrong (1999), *A Handbook of Human Resource Management Practice* (7th edition), Kogan Page Limited, 120 Pentonvelle Road, London.[8]

9.The Practice of Human Resusce Management -IPA JOANNA O'RİORDAN pdf 2017[9]

10.0TofiqƏvəz oğlu Quliyev -İnsan Resurslarının İdarə edilməsi (insan naminə ) – Bakı 2012[10]

11.T.Q.Əliyev,Ş.T.Əliyeva ,R.T.Əliyev -İnsan Resurslarının idarə edilməsi -Baki 2012[11]

***Magistr Rahib Rəhimov İlham oğlu***
*Bakı Biznes Universiteti*
*rahib.rehimov.2016@list.ru*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İNFRASTRUKTURUN İNKİŞAFININ PLANLAŞDIRILMASI VƏ İCTİMAİİAŞƏ OBYEKTLƏRİNİN TƏTBİQİ LAYİHƏLƏRİNİN HAZIRLANMASI

**Xülasə:**
30 ilə yaxın müddətdir işğal altında olan, beynəlxalq ictimaiyyət tərəfindən nəzərə alınmayan və beynəlxalq hüquq pozuntusu olan Azərbaycan torpaqlarının 20 faizinin işğalı 44 günlük davam edən əməliyyat və Silahlı Qüvvələrimizin şanlı qələbəsi nəticəsində işğaldan azad edilmişdir. İşğal altında olan ərazilərdən uzaq düşmüş, torpaq həsrətində olan vətəndaşların bu həsrəti sona yetmişdir. Hal hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin başlıca məqsədi işğaldan azad edilmiş ərazilərin sürətlə bərpa edilməsi və burada iqtisadi inkişafın təmin edilməsi və tez bir zamanda bu ərazilərdə qurulacaq infrastuktur vasitəsilə ölkənin büdcəsinin doldurulmasını təmin etməkdir. Dünyada geniş vüsət almış açıq havada olan ictimai iaşə obyektləri və fastfood müəssisələri geniş rəğbət qazanmışdır və bunlarda öz növbəsində fərdi sahibkarlığa təkan yaradır, əhalinin məşğulluq səviyyəsini artırır. İşğaldan azad edilmiş ərazilərdə bu layihəni tətbiq edərək ictimai iaşə obyektlərinin açılmasına və burada özünü məşğulluq səviyyəsinin artırılmasına gətirib çıxardacaqdır.

**Açar sözlər**: Qarabağda ictimai iaşə, regional inkişaf, sürətli inteqrasiya, regional özünü idarə etmə.

Azərbaycan qoşunlarının geniş miqyaslı aviasiya, zirehli texnika, topçu və PUA hücumu sentyabrın 27-də səhər başladı. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata görə, söhbət ermənilərin bir neçə azərbaycanlı yaşayış məntəqəsini atəşə tutmasına cavab olaraq başlayan "Dəmir Yumruq" əks-hücum əməliyyatından gedir. Döyüşlər iki istiqamətdə - Qarabağın şimalında və cənubunda aparıldı. Şimalda 1-ci Ordu Korpusu general-mayor Hikmət Həsənovun, cənubda - general-leytenant Hikmət Mirzaev və general-mayor Mais Barxudarovun rəhbərliyi altında iki hərbi qrup fəaliyyət göstərirdi.İlkin mərhələdə ən gərgin döyüşlər Hadrut - Cebrail istiqamətində, Araks çayı vadisində, Azərbaycanla İran arasında təbii sərhəd rolunu oynayırdı. Münaqişədəki dönüş nöqtəsi, Azərbaycan oktyabrın əvvəlində Cəbrayı almağa müvəffəq olduqdan sonra gəldi. Bir neçə gün sonra Hadrut yıxıldı - Dağlıq Qarabağ ərazisindəki böyük bir yaşayış məntəqəsi. Hadrutun süqutu ilə Azərbaycan qoşunlarının irəliləməsi sürətləndi. Azərbaycan ordusu Füzuli, Zəngilan, Qubadlı şəhərlərinə nəzarət qurdu. Azərbaycan hücumunun daha bir hədəfi Şuşa ilə Xankəndini Ermənistanla birləşdirən magistral yolun keçdiyi Laçın şəhəri və eyni zamanda Şuşa şəhəri idi.Uğurlu bir əməliyyat nəticəsində Azərbaycan ordusu, Ermənistan Silahlı Qüvvələrini məğlub edərək parlaq bir qələbə qazandı. 44 gün davam edən əməliyyat nəticəsində Azərbaycan Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları və Şuşa şəhəri, Xocavənd, Xocalı və Ağdərə rayonlarının bəzi hissələri işğaldan azad etmişdir. Döyüşlər Azərbaycan qoşunlarının Şuşa şəhərini işğal etməsindən sonra sona çatdı və bundan sonra atəşkəs bəyanatı imzalandı.10 noyabrda Moskvada imzalanan müqaviləyə uyğun olaraq, Ermənistan Respublikasının silahlı qüvvələri Ağdam, Kəlbəcər və Laçın bölgələrini boşaltdı. Hal-hazırda yeni reallıq, illərdir işğal altında olan torpaqların indi Azərbaycanın nəzarətinə keçməsi və məcburi köçkünlərin öz ata yurdlarına qayıtmasıdır.İşğal müddətində regionda olan bütün infrastruktur məhv edilmişdir. Məcburi köçkünlərin qaytarılması, eyni zamanda iqtisadi potensiala, turizm potensialına malik olan

regionda infrastrukturun bərpa olunması istiqamətində strateji addımlar atılmalıdır.Yuxarı Qarabağ və ona bitişik ərazilər tarixi və mədəni dəyəri, füsunkar təbiəti ilə birlikdə yeraltı və yerüstü qaynaqlara, zəngin iqtisadi potensiala və geniş turizm imkanlarına malikdir. Bu bölgələr əkinçilik, xammal bazası və istehsal sənayesi baxımından əlverişlidir. Bu ərazilərin iqtisadi potensialının əsas parametrlərinə diqqət yetirsək, Ermənistanın talan etməsi və istismarı nəticəsində bölgənin infrastrukturunun sıfıra endiyini görərik. İşğal nəticəsində minlərlə hektar əkin sahəsi hərbi texnikaların tullantıları ilə çirklənmiş, Azərbaycan iqtisadiyyatı və qlobal genefond milyardlarla manat həcmində ziyan görmüşdür.

Statistikaya görə, 7 rayon mərkəzi, 6 şəhər, 830 kənd, 700 xəstəxana və tibb müəssisəsi, 6 dövlət teatrı, 368 klub, 85 musiqi məktəbi, 600 sənaye və kənd təsərrüfatı müəssisəsi məhv edilmişdir. İşğal olunmuş ərazilərdə 1 milyon hektardan çox əkinçilik ərazisi, o cümlədən 128 min hektar suvarılan torpaq, 35 min hektar üzüm və meyvə bağları talan edilmişdir. İşğaldan əvvəl bu bölgələr ÜDM-in 24%, üzüm istehsalının 41%, kartof istehsalının 46%, ət istehsalının 18% və süd istehsalının 34% -ni təşkil edirdi. İşğal ölkənin su ehtiyatlarına ciddi ziyan vurmuşdur. İşğal olunmuş ərazilər ümumi meşə sahəsinin 25% -ni və ya 280.000 ha-nı təşkil edirdi. Düşmən, təbii sərvətlərimizin qanunsuz istismarı yolu ilə Kəlbəcərdə çox miqdarda qızıl çıxarmışdır.Yuxarıda göstərilən statistik göstəricilər görüləcək işlərin əhatə dairəsinə bir az işarə verir. Beləliklə, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam və Füzuli inzibati bölgələrində Dağlıq Qarabağın və ətrafının inkişafı bir çox fərqli sektoru əhatə edəcək inteqrasiya olunmuş bir yanaşma tələb edir. Əlbəttə ki, təhlükəsizlik və idarəetmə məsələlərinə xüsusi diqqət yetirilməlidir. Təhlükəsizliyin təmin edilməsi minaların təmizlənməsi və həyati təhlükəsi olan bioloji və ekoloji narahatlıqların aradan qaldırılması deməkdir. Sərhəd xidmətinin təşkili və polis nəzarəti, habelə dövlət orqanlarının fəaliyyəti idarəetmə məsələlərini əhatə edir. [4]

Tarixdən də bəllidir, bütün müharibələr zamanı yaşayış məskənlərini, maddi-mədəniyyət nümunələrini dağıdanlar yalnız və yalnız mədəni inkişafdan geri qalan, yırtıcı şüur və təfəkkürə malik barbarlar olublar. 30 ilə yaxın idi torpaqlarımızı işğal altında saxlayan qüvvələr də müasir dövrün barbarlarıdır. Çünki işğal olunmuş kənd və şəhərlərimizin xarabalıqlara çevrilməsi, yağmalanması, barbarlıqdan, vandallıqdan, yırtıcılıqdan, vəhşi qəbilə şürunun daşıyıcısı olmaqdan başqa bir şey deyil. Düşmən xalqımıza məxsus maddi-mədəniyyət abidələrini dağıdıb, məscidlərimizi təhqir edib və Ermənistanın müdafiəsinə qalxan siyasi mərkəzlər bunları görməzliyə vurmaqla elə öz barbarlıqlarını nümayiş etdirirlər. Azərbaycanla Ermənistan arasında barışıq protokolunun olmamasına baxmayaraq, atəşkəs elanı bölgədə humanitar və ticarət dəhlizlərinin açılmasına imkan yaradır. Naxçıvan ilə Azərbaycan arasında açılacaq dəhliz, Türkiyə ilə ticarət əlaqələri qurmaq baxımından mühüm bir inkişafdır. Naxçıvan dəhlizi Ankara ilə daha yaxşı ticarət əlaqələrinin qurulmasına kömək edə bilər və Türkiyənin şərqinin inkişafına kömək edəcəkdir. Əslində atəşkəs razılaşması 2008-ci il Sürix protokollarının bir hissəsinin həyata keçirilməsinə xidmət edir.

Azərbaycanın işğaldan azad etdiyi ərazilərdəki yaşayış yerlərinin əksəriyyəti yalnız daşlardan ibarət olan "xəyal şəhərlərinə" bənzəyir. Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan kimi şəhərlər işğal dövründə böyük ziyan görmüşdürlər.Bu gün o şəhərlərdə erməni yığınları bu bölgələri işğal etdiyi dövrdə bütün evləri qarət edərək faydalı olan hər şeyi dağıtdığından daş yığınından başqa bir quruluş tapmaq çox çətindir. Bənzər bir vəziyyət Laçın və Kəlbəcər vilayətində də mövcuddur. Dağlıq Qarabağın simvolu olan Şuşa digər şəhərlər kimi məhv edilməsə də, azərbaycanlıların dini və mədəni quruluşları ya tamamilə, ya daqismən məhv edilmişdir.Sözügedən ərazilərdə sahibkarlıq və biznes imkanlarının formalaşdırılması üçün Azərbaycanın ilkin prioriteti Ermənistan ordusunun geri çəkilərkən qoyduğu minaları təmizləməklə bölgəni təhlükəsiz vəziyyətə gətirmək olmalıdır ki, artıq bu istiqamətdə bir sıra işlər görülmüşdür. Ancaq eyni zamanda, bölgədə planlar və layihələr də həyata keçirilməkdədir. Torpaqlara vurulan zərərin qiymətləndirilməsi tədqiqatları Azərbaycanın digər prioritet məsələlərindən biridir. Hökumət beynəlxalq təşkilatlar və şirkətlərin köməyi ilə

Ermənistanın işğal dövründə vurduğu ziyanı hesablamağı və sonra məsələni beynəlxalq məhkəmələrə çatdırmağı hədəfləyir.[2]

Qarabağın inkişaf strategiyası yerli, regional, milli və beynəlxalq səviyyələrdə qısa, orta və uzunmüddətli fəaliyyətləri əhatə edə bilər. Strategiyanın həyata keçirilməsi üçün idarəetmənin təşkili və makroiqtisadi, maliyyə, pul, sosial və digər dövlət siyasət alətlərinin istifadəsi tələb olunur. Böyük dövlət maliyyəsinə əsaslanan beynəlxalq inkişaf tərəfdaşlarının maliyyə davamlılığını və dəstəyini tənzimləyən bir donor koordinasiya mexanizmi vacibdir. İnfrastrukturun qurulması üçün Dövlət büdcəsi, ARDNF, xarici kredit təşkilatlarından maliyyələşdirmə, qrant və ianələr, özəl investisiyalar və qanunla qadağan olunmayan digər mənbələr daxil olmaqla müxtəlif maliyyə mənbələrindən istifadə edilə bilər. İşğaldan azad edilmiş ərazilər mədənçilik, metallurgiya, qida emalı, emal sənayesi, turizm və istirahət, yaradıcılıq sənayesi, əczaçılıq, taxılçılıq, tərəvəzçilik, üzümçülük, pambıqçılıq, meyvəçilik, heyvandarlıq, quşçuluq, arıçılıq və tikinti materialları inkişaf potensialına malikdir. Bu sahələrə qoyulan investisiyalar həm qeyri-neft ixracının artırılması, həm də idxal əvəzetməsi baxımından, həm də dəyər zəncirlərinə qoşulma baxımından əhəmiyyətli olacaqdır. Münaqişə sonrası tikinti, ölkəmizin iqtisadi təhlükəsizliyi, o cümlədən ərzaq təhlükəsizliyi baxımından əhəmiyyətli bir rol oynayacaqdır. Bu sahələrə investisiya qoyuluşunu təşviq etmək üçün müxtəlif sənaye mexanizmləri, o cümlədən sənaye parkları və məhəllələri, kənd təsərrüfatı və texnoloji parklar və digər investisiya təşviq mexanizmləri istifadə edilə bilər. Qarabağın investorlar üçün maraqlı ola biləcək mənbələri, strateji varlıqları, səmərəliliyi və bazarları var. Ümumiyyətlə, Qarabağ regionu Azərbaycanın iqtisadi inkişafının yeni coğrafi sürücüsü - böyümə mərkəzi olacaqdır. Regiondakı investisiya və tikinti işləri Azərbaycanın ÜDM artımını sürətləndirəcəkdir. [5]

Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım Qarabağdakı strukturun 30 ildir işğal altında qaldığını, binanın yaşayış üçün yararlı olmadığını,məktəblərin, kitabxanaların və məscidlərin hamısının Ermənistan tərəfindən məhv edildiyini söylədi. Bakıda keçirilən qələbə mərasiminə də qatılan Ayrım, "Bunlar Türk şirkətləri tərəfindən yenidən təmir ediləcək.Yeni qəsəbələr salınacaq və onların infrastrukturu yaradılacaq" ifadələrini demişdir. Qarabağda həyata keçirilən yenidən qurma işlərinə Prezident İlham Əliyev çox böyük diqqət göstərir. Prezident İlham Əliyev işğaldan azad olunan Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına budəfəki gəlişində də bölgəyə əvvəlki səfərlərində olduğu kimi, bir sıra infrastruktur layihələrinin açılış və təməlqoyma mərasimində iştirak etmiş, mühüm siyasi bəyanatlar vermişdir. Çünki döyüşlər tarixi qələbəmizlə başa çatsa da, düşmən tərəfi hələ də müxtəlif bəhanələrlə beynəlxalq aləmi çaşdırmaqla məşğuldur.Dövlət başçısının bu səfərləri xarici ölkələr tərəfindən də diqqətlə izlənilir. Bunun nəticəsidir ki, bir çox ölkələrin kütləvi informasiya vasitələri Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərləri və verdiyi bəyanatlara geniş yer ayırırlar. Prezident budəfəki səfəri zamanı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoydu. Məlum olduğu kimi, bu yeni xəttin çəkilməsi mühüm strateji əhəmiyyət daşıyır. Belə ki, həmin nəqliyyat infrastrukturu vətəndaşlarımızın azad edilmiş ərazilərə səfərlərini asanlaşdırmaqla yanaşı, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa əlaqənin yaranması baxımından da önəmlidir. Bir mühüm cəhət isə odur ki, bu marşrut tezliklə region ölkələrinin qarşılıqlı əlaqələrinin genişlənməsinə öz töhfəsini verəcək. Bundan əlavə, həmin dəmir yolu xətti Asiya ilə Avropa arasında yüklərin daşınmasını sürətləndirməklə beynəlxalq əhəmiyyət qazanacaq.Quruculuq-bərpa işlərinə infrastruktur layihələri ilə başlanması təsadüfi deyil. Çünki bu rayonlarda infrastruktur yaratmadan quruculuq işlərini sürətlə həyata keçirmək mümkün deyil. Bu üzdən dövlət başçısı bəyan etdi ki, bölgənin inkişafı üçün ilk növbədə mükəmməl infrastruktur yaradılmalıdır. Hazırda bu istiqamətdə həyata keçirilən layihələr bütün sahələri əhatə edir. Bunlar bölgənin həm iqtisadi, həm sosial inkişafının təmin olunması üçün önəmlidir.

Vətən müharibəsindəki qələbə 30 ilə yaxındır ki, doğma torpaqlarından məcburi köçkün düşmüş vətəndaşlarımızın yurd həsrətinə son qoydu. İllərdir ki, doğma el-oba nisgili ilə yaşayan məcburi köçkünlər ən müqəddəs arzularına qovuşdular. İndi onlar tezliklə kəndlərinə, evlərinə qayıdacaqları günü səbirsizliklə gözləyirlər.Azərbaycan Prezidenti İlham Əliyevin hələ illər öncədən qarşıya qoyduğu, müəyyən etdiyi vəzifələrdən biri işğaldan azad edildikdən sonra rayon və şəhərlərimizin yenidən qurulması, "Böyük Qayıdış" proqramının həyata keçirilməsi idi. Prezident İlham Əliyevin yanvarın 4-də imzaladığı sərəncamla işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılıb. [1]

Prezidentimizin fərmanında Azərbaycan xalqının ərazilərini Ermənistan işğalından azad edərək, tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoyduğu vurğulanır. Qeyd olunur ki, ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişidir. Otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaq. İşğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələ olacaq.

Bu vəzifənin real olaraq həyata keçirilməsinə isə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin yenidən qurulması ilə başlanılmışdı. 2016-cı ilin Aprel qələbəsindən sonra Cocuq Mərcanlı kəndinin yenidən qurulması "Böyük Qayıdış"ın ilk addımı idi. Cocuq Mərcanlının qısa zamanda yenidən qurulması ondan xəbər verirdi ki, gün gələcək işğal altındakı torpaqlarımız da azad olunacaq və həmin ərazilər bərpa ediləcək. O gün yetişdi və "Böyük Qayıdış"ın növbəti mərhələsi, işğaldan azad olunan ərazilərin yenidən qurulması hələ Vətən müharibəsinin davam etdiyi günlərdən başladı çünki biz millət olaraq qələbənin gəldiyinə çox əmin idik və artıq demək olarki o zamandan bəri infrastruktur layihələrinin bir çoxu artıq hazırlanmış və həyata keçirilikmək üçün öz növbəsinin gəlməsini gözləyirdi. Qarabağda çəkiləcək əsas magistral yollardan biri heç şübhəsiz Şuşa-Qəbələ yolu olacaqdır.Şuşaya çəkilən yolun cığırını qəhrəman əsgərlərimiz açıblar. Bu onların dağlardən, dərələrdən keçib Qarabağın qəlbinə doğru irəlilədikləri yoldur. Ali Baş Komandan İlham Əliyev Şuşaya qəhrəman əsgərlərimizin açdığı yolla getdi və onu Qələbə yolu adlandırdı. Həmçinin icrasına başlanan başqa bir yol Toğanalı - Kəlbəcər yoludur. Bu da çox çətin relyefdən keçən yoldur. Bu yol Kəlbəcərdən Laçın rayonuna qədər davam etdiriləcək. Eyni zamanda Prezident tərəfindən Horadizdən Zəngilana, oradan Qubadlıya və Laçın rayonuna qədər yolun çəkilişi ilə bağlı göstəriş verilib və bu istiqamətlərdə hazırlıq işləri başlayıb. Bununla da iki tərəfdən, - həm şimaldan, həm cənubdan Laçın və Kəlbəcər rayonlarına aparan müasir yol-nəqliyyat infrastrukturu yaradılacaq.Qeyd edək ki, ümumilikdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqlarımızda 2661 kilometr uzunluğa malik respublika və yerli əhəmiyyətli avtomobil yolları var idi ki, onlardan 883 kilometr respublika, 1778 kilometri isə yerli əhəmiyyətli yollar olub. Onların hamısı bərpa ediləcək, həm də əvvəlkindən də keyfiyyətli və gözəl şəkildə. Bütün bunlar ilkin mərhələdə yükləri daşımaq və işğal olunmuş əraziləri yenidən qurmaq, o cümlədən gələcəkdə Qarabağı və onun turizm potensialını inkişaf etdirmək üçün geniş imkanlar açacaq.

Qəsəbələrin inkişafı üçün vəsaitlərin cəlb edilməsinin əsas üsullarından biri regional əhəmiyyətli proqramların işlənilməsi və reallaşdırılmasıdır. Bununla əlaqədar olaraq bütün proqramları üç yerə bölmək olar: məqsədli, regional və ayrıca regionun ərazisində fəaliyyət göstərən.Tikinti iqtisadiyyatın digər sahələri kimi iqtisadi qanunlar əsasında inkişaf edir. Sənayenin inkişafına xas olan bütün iqtisadi qanunlar tikintidə mövcuddur. Lakin, bu qanunların tikintidə təzahürü özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Bu, tikintinin sonuncu

məhsulunun özünəməxsus spesifik xarakteri ilə, maddi - texniki bazasının xüsusiyyətləri ilə, tikintinin texnoloji xarakteri və tikintidə çalışanların özünə xas şəraiti ilə bağlıdır.Bütün tədbirlər iqtisadiyyatda struktur dəyişikliklərinin və onun idarəedilməsinin təkmilləşdirilməsinin tələbləri çərçivəsində həyata keçirilmişdir.Əsaslı tikinti elmi-texniki tərəqqinin nəticələrinin geniş istifadə edildiyi yerdir. Bu sahələrin inkişafı daimi olaraq avadanlıqların, əmək alətlərinin müasirləşdirilməsini tələb edir. Bu isə öz növbəsində tikintində əmək məhsuldarlığının yüksəldilənməsinə birbaşa təsir edir. [3]

Azad edilmiş bölgələrimizin, xüsusən Laçın və Kəlbəcərin iqtisadi potensialının və ÜDM-dəki payının qiymətləndirilməsi göstərir ki, bu sahələrdə iqtisadiyyat dəfələrlə böyüyə bilər. Azad edilmiş torpaqların iqtisadi potensialı çoxşaxəlidir və kənd təsərrüfatının, sənayenin və turizmin müxtəlif sahələrini əhatə edir. Azad edilmiş torpaqlar üzümçülüyün, tütünçülüyün, pambıqçılığın, barama, meyvə və tərəvəzin, bostan məhsullarının və heyvandarlığın inkişafı üçün böyük potensiala malikdir. Burada qarğıdalı, noxud və üzüm bölgənin tipik məhsuludur. Qeyd etmək lazımdır ki, işğaldan əvvəlki dövrdə Füzuli və Ağdam rayonları pambıq, taxıl və üzüm istehsalı üzrə ölkənin qabaqcıl bölgələri arasında yer alırdı. Cəbrayıl, Qubadlı, Zəngilan bölgələri də üzümçülüklə seçilirdi. Laçın, Kəlbəcər, Qubadlı və Zəngilanda heyvandarlıq yüksək səviyyədə inkişaf etmişdir. Aydındır ki, azad edilmiş ərazilərimizin təbii ehtiyatları və kənd təsərrüfatı potensialı bölgədə daha sürətli iqtisadi dirçəliş üçün şərait yarada bilər.Qeyd etmək lazımdır ki, Qarabağ bölgəsində işğala qədər beynəlxalq mütəxəssislərin və məşhur alimlərin iştirakı ilə çoxsaylı ekspedisiyalar olmuşdur. Alimlər tərəfindən aparılan tədqiqatların nəticələrinə görə, bu torpaqlar ümumilikdə Qafqaz bölgəsində biomüxtəlifliyin genetik ehtiyatlarının zənginliyinə görə xüsusilə seçilir.

AzerGold QSC və Azərbaycan Sənaye Korporasiyası bu mənbələri istehsal və işləyə biləcək təcrübəyə, ixtisaslı kadrlara, ixrac və investisiya imkanlarına malikdirlər. Beləliklə, yeni təbii sərvətlər cəlb edən Azərbaycan qərb bölgəsinin inkişafını, mədən sənayesinin və eləcə də metallurgiya kompleksinin inkişafını təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı bir sıra digər sahələrdə olduğu kimi, Azərbaycanda da hərbi sənayenin inkişafını sürətləndirəcəkdir. Hərbi sənayemiz Azərbaycan ordusunun 5G texnologiyaları ilə təmin edilməsində söz sahibi olmalıdır. Azərbaycanın azad etdiyi ərazilərdəki meşə, su və torpaq ehtiyatları kənd təsərrüfatının, emal sənayesinin və turizmin inkişafı üçün böyük imkanlar yaradır. Ən əsası, azad edilmiş ərazilərin iqtisadiyyatı bərpa ediləcək və iqtisadiyyatı daha məhsuldar etmək üçün yeni texnologiyalar tətbiq ediləcəkdir. II Dünya Müharibəsindən sonra, ən çox dağılmış iki ölkə - Almaniya və Yaponiya yeni texnologiyaların tətbiqi və iqtisadi məhsuldarlığın artması ilə daha sürətli artmışdır. Məsələn, azad edilmiş Cəbrayılın yenidən qurulması üçün tikinti materiallarının əksəriyyəti bu bölgədədir: talaş, çaxmaqdaşı, tikinti qumu istehsalı üçün yararlı olan tulus tüfü, kərpic istehsalı üçün uyğun olan Qaracallı gili, istehsal üçün uyğun olan vulkanik kül sement, gil, əhəng daşı, qum və çınqıl, kalsedon və meşə ehtiyatları.[4]

İşğaldan azad edilmiş ərazilərdə iki beynəlxalq hava limanı da inşa ediləcək. Onlardan birincisinin - Füzuli hava limanının təməli yanvarın 14-də qoyuldu. Bu aeroportun uçuş-enmə zolağının uzunluğu 2800 metr olacaq, beynəlxalq standartlara uyğun infrastrukturla təchiz ediləcək. Burada təyyarələrin qəbulu və yola salınması, sərnişinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq.Bu,azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir. Hava limanının inşasında məqsəd xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir.Azad edilmiş torpaqlarımızda ikinci beynəlxalq hava limanı isə Kəlbəcər və ya Laçın rayonlarının birinin ərazisində inşa ediləcək.Qarabağa aparan yolda qarşıda duran mühüm vəzifələrdən biri də işğaldan azad edilmiş torpaqlarımızda enerji infrastrukturunun qurulmasıdır. Hələ noyabr ayından Füzuli rayonunda, Cəbrayıl şəhərində və Hadrut qəsəbəsində həyati vacib obyektlər elektrik enerjisi ilə təmin olunub. Sərhəd zastavalarının, o cümlədən Şuşa şəhərinin enerji ilə təminatı həll edilib. Prezident İlham Əliyev Şuşada olarkən şəhərin su və elektrik enerjisi təchizatı ilə də maraqlanıb və bildirib ki, indi şəhər su ilə də, işıqla da normal şəkildə təchiz

olunur.Məlum olduğu kimi, ermənilər Azərbaycanın işğaldan azad olunan ərazilərində vaxtilə mövcud olan kiçik su elektrik stansiyalarını darmadağın edərək yararlı avadanlıqlarını söküb aparıb, apara bilmədiklərini yandırıb və ya partladıblar. Hazırda həmin elektrik stansiyalarından heç biri, ümumiyyətlə, yararlı vəziyyətdə deyil və tamamilə, dağıdılıb. Artıq “Azərenerji” ASC Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqların yaşıl enerji zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu məqsədlərə çatmaq üçün tədbirlərin həyata keçirilməsinə başlayıb. Laçında 8 meqavat gücündə “Güləbird” kiçik su elektrik stansiyasında, Suqovuşanda yerləşən ümumi gücü 7,8 meqavat olan “Suqovuşan-1” və “Suqovuşan-2” kiçik su elektrik stansiyalarında əsaslı təmir və bərpa işlərinə başlanılıb. O cümlədən Cəbrayıl rayonu ərazisindəki “Xudafərin” və “Qız qalası” su elektrik stansiyalarının tikintisinin başa çatdırılması da azad olunmuş ərazilərin enerji təminatına öz töhfəsini verəcək.Bunlarla yanaşı, Prezident İlham Əliyevin tapşırığına əsasən, ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, Qarabağ regionunda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək yaşıl zona, yaxud yaşıl məkan konsepsiyasının hazırlanmasına başlanılıb. Bu istiqamətdə Beynəlxalq Bərpa olunan Enerji Agentliyi ilə müzakirələr aparılmaqdadır. İlkin qiymətləndirmələrə görə, bu ərazilərdə 4000 meqavatdan çox Günəş, 500 meqavatadək külək enerjisi potensialı var.Prezident İlham Əliyev bölgədə tarixi və orijinal özəlliyinin qorunub saxlanıldığı yaşayış məntəqələri tikməyi planlaşdırır və eyni zamanda müasir şəhərsalma prinsipləri də müəyyən edir. "Ağıllı şəhər" və "ağıllı kənd" anlayışları yenidən qurulacaq yaşayış məntəqələrinə əsaslanacaqdır. Dağlıq Qarabağın zəngin su ehtiyatları, günəş və külək enerjilərindən də istifadə ediləcək və xilas edilmiş torpaqlar "yaşıl enerji" bölgəsinə çevriləcəkdir. [1]

Xalq təsərrüfatının digər sahələrində olduğu kimi,ictimai iaşə obyektlərinində tikintisi müəyyən edilmiş layihə əsasında aparılır. Layihə dedikdə əsasən onun tərkibinə texniki-iqtisadi əsaslandırma,hesablamalar,maliyyə sənədləri və s. daxil olan çoxlu miqdarda bir-biri ilə əlaqədar texniki sənədlər toplusu başa düşülür. Qarabağda həyata keçiriləcək ictimai iaşə obyektlərinin texnoloji layihələndirmə məsələlərinə hesablamalar əsasında müəssisənin xarakterik göstəricələrinin əldə edilməsi,istehsalda texnoloji proseslərin təşkili,avadanlıqların seçilib,istehsal müəssisəində yerləşdirilməsi,müəssisənin fəaliyyətində iştirak edəcək işçi heyətinin sayının hesablanması,binanın həcm cəhətdən planlaşdırılma sxeminin hazırlanması və başqaları aid edilir.İaşə müəssisələri layihələrinin işlənib hazırlanması layihə instutları,onların filialları və şöbələri tərəfindən həyata keçirilir. Qarabağda infrastrukturun yenidən bərpasında restoran və kafelərin yəni,ictimai iaşə obyektlərinin hazırlanması əsas məsələlərdən biridir. Xalq təsərrüfatının digər sahələrində olduğu kimi, ictimai iaşə müəssisələrinin tikintisi də əvvəlcədən tərtib olunmuş layihə əsasında həyata keçirilir. Bu bölgədə illər keçdikcə əhalinin doğma torpaqlarına inteqrasiyası və bu səfalı bölgələrə ola biləcək xarici və yerli turist axınları zamanı əsas turizm gəlirinin məhz bu ictimai iaşə obyektlərindən qazanılacağı təxmin edilir.İctimai iaşə və xidmət obyektlərinin əhaliyə maksimum dərəcədə yaxın, magistrallarda və meydanlarda, əhali axınının gur yerlərində,Qarabağın gözəl mənzərəsini görən dağ yamaclarında,çayların qırağında yerləşdirilirməsi nəzərdə tutulur. Həmçinin yaşayış binalarının birinci mərtəbələrində və yerləşməsindən asılı olmayaq zirzəmi və yarımzirzəmilərində,istərsə də inzibati binalarda və mehmanxanalarda yerləşdirilə bilər. Bölgədə yerli restoranlarla yanaşı həmçinin müxtəlif ölkələrin investorları tərəfindən əsası qoyula biləcək,özündə xarici ölkələrin mədəniyyətini və təamlarını əks etdirəcək restoranlarada xüsüsi diqqət ayrılacaq. Yaradılacaq və ən çox tələbat olacağı düşünülən kafelər əsasən (ixtisaslaşdırılmış - dondurma, süd xörəkləri, uşaq aləmi, gənclik), qəlyanaltı (xəngəlxana, pitseriya, qutabxana, pitixana, cızbızxana) və spirtli içkilərə daha çox üstünlük verilən (pub və bar) kafelər olacağı düşünülür. Bir çox fastfood müəssisələrinə də tələbat yaranacığını düşünsək,ölkənin digər şəhərlərində də bir çox filialı olan “Mcdonalds”, “KFC”, “Sultan Food” kimi ictimai iaşə obyektlərinin də işğaldan azad edilmiş

şəhər və rayonlarda filiallar aça biləcəyi təxmin edilir. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi (RİİB) Qarabağda yaradılacaq ictimai iaşə obyektlərində inzibatçı və digər xidmət heyətinin bilik və təcrübələrinin yaradılması və artırılması məqsədilə təlimlər təşkil edəcəyi,həmin təlimlərdə xidmətin təşkili, xidmət standartları və etiketləri, müştərilərlə davranış qaydaları, masa düzülüşü, gigiyena və sanitariya qaydaları, geyim tərzi, xarici görünüşə olan tələblər və xüsusəndə həmin məkanlara gələcək olan turistlərə Qarabağın zəngin tarixi haqqında düzgün məlumatın necə veriləcəyinin izah ediləcəyini bəyan etmişdir.

Qalib ordunun məğrur xalqı olan Azərbaycan xalqı və cənab Prezident İlham Əliyevin səyləri və mübazirəsi nəticəsində doğma Qarabağımızın hər tərəfli inkişafını təmin etmək hər bir vətəndaşın vətənpərvərlik borcudur. Qarabağın inkişaf strategiyası yerli, regional, milli və beynəlxalq səviyyələrdə qısa, orta və uzunmüddətli fəaliyyətləri əhatə edə bilər. Strategiyanın həyata keçirilməsi üçün idarəetmənin təşkili və makroiqtisadi, maliyyə, pul, sosial və digər dövlət siyasət alətlərinin istifadəsi tələb olunur. Böyük dövlət maliyyəsinə əsaslanan beynəlxalq inkişaf tərəfdaşlarının maliyyə davamlılığını və dəstəyini tənzimləyən bir donor koordinasiya mexanizmi vacibdir. Eyni zamanda, milli valyutanın real məzənnəsini tənzimləmək üçün pulun iqtisadiyyat tərəfindən mənimsənilməsi mərhələlərini nəzərə almaq lazım ola bilər. Münaqişədən sonrakı infrastrukturun bərpası Azərbaycanda iqtisadi artım üçün bir təkan olacaqdır. Azərbaycan bölgədəki iqtisadi, siyasi və hərbi üstünlüyünü gücləndirməyə davam edəcəkdir.Yeni qurulacaq olan Qarabağımızda istər turizm,istər kənd təsərrüfatı,istərsə də ictimai iaşə layihələri ən üst səviyyədə prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə ən üst səviyyədə təşkil olunacaq və bir daha bütün dünya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu gerçəyini qəbul edəcəkdir. 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız artıq işğaldan azaddır. O bölgələr yenidən qurulacaq, əvvəlki şöhrətini bərpa edəcək. İlham Əliyevin siyasi iradəsi ilə işğaldan azad olunmuş şəhər və kəndlərimizdə həyat yenidən canlanacaq və bütün Qarabağ cənnətə çevriləcək.

**İstifadə olunan ədəbiyyat**

1.http://www.iqtisadiislahat.org/news/vusal_qasimli_qarabag_azerbaycanda_iqtisadi_artimin_yeni_drayveri_olacaq-1079.

2.https://iqtisadiislahat.org/news/vusal_qasimli_qarabagin_boyuk_iqtisadi_potensiali_var-1050.

https://minenergy.gov.az/az/xeberler-arxivi/dagliq-qarabag-ve-etraf-regionlarin-enerji-potensiali

3. Leyla R., İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri Xalq qazeti, 9 dekabr 2020-ci il, çərşənbə

4. Mustafa S.B., (2020). Karabağ Zaferine Giden Süreç ve Jeopolitik Sonuçları ULİSA12 | Sayı 8 2020| Aralık s.14-19.

5. www.azerbaijan-news.az

***Magistrant Əliyeva Aysel Əfqan qızı***
*Bakı Biznes Universiteti*
*aysel.afqan@gmail.com*

# İNSAN RESURSLARININ FORMALAŞMASI VƏ İDARƏ EDİLMƏSİNİN TƏMZİMLƏNMƏSİ

**Xülasə:**

Məqalədə İnsan resurslarının idarə olunması müəssisənin tələblərinə cavab verən kadr ehtiyatlarının toplanması, təkmilləşdirilməsi, ixtisaslaşdırılması, müəyyən edilməsi, yerləşdirilməsi, qiymətləndirilməsi və onların əmək fəaliyyətinin təşviq edilməsi və stimullaşdırılması, əməklərinin qarşılığının ödənilməsi kimi məsələləri özündə birləşdirir. İnsan resurslarının idarə edilməsi müəssisə iqtisadiyyatının əsas hissələrindən olduğu üçün, bu həm də təşkilatlar haqqda təlimin tərkib hissəslərindəndir. Bu, həm də dövlətin və firmanın insan kapitalı və kadr siyasəti ilə bilavasitə münasibətdədir. Buna görə də məqalədə insan resurslarının ayrı-ayrı istiqamətləri birlikdə araşdırılmış və tədqiq olunmuşdur. Eləcə də, işçinin sosial, işgüzar və səmərəli fəaliyyətinin real vəziyyətdən asılı olaraq dəyərləndirilməsi məsələləri nəzərdən keçirilmişdir. Onuda da qeyd etmək lazımdır ki, bazar iqtisadi sistemində insan resurların formalaşması və idarə edilməsinin təmin edilməsi xüsusi yerə malikdir.

**Açar sözlər:**əmək bazarı, əmək resursları, işçi qüvvəsi, istehsal, məşğulluq.

İnsan resurslarının idarə edilməsinin konseptual əsaslarının formalaşdırılması İnsan resursları işçinin əmək fəaliyyətində inkişaf etməsini biruzə verir. Bu potensial insana tam təbii, həm də ictimai formada verilir. Əmək potensialı aşağıdakı məsələlərlə əlaqədardır:

- əmək fəaliyyətinin intensivləşdirilməsinin əsas şərtlərindən biri kimi;
- əhalinin peşə və ixtisaslaşdırma səviyyəsi kimi;
- istehsal amili kimi;
- sosial-iqtisadi sistemlərin ünsürü kimi;
- əmək bazarında olan insan qabiliyyətinin ticarət obyekti kimi;
- işçinin intellektual və fiziki potensialının təzahür forması kimi;
- insan amilinin hərəkəti kimi, əməyə olan qabiliyyətin təzahürü kimi;
- əmək kollektivi və cəmiyyətin resurs fondu kimi.

"Əmək resursları"anlayışı ilə "işçi qüvvəsi" anlayışı arasındakı fərqi izah etməyə mühüm ehtiyac vardır. Əmək resursları (əmək ehtiyatları) daha çox əhali ilə bağlıdır, demoqrafik əlamətlərlə, seqmentlərlə fərqlənir. İşçi qüvvəsi dedikdə, əsasən məşğullar, işləyənlər və onların əmək qabiliyyəti (potensialı) nəzərdə tutulur.

Əmək resursları real deyil, potensial işçi qüvvəsi kimi özünü göstərir, başqa sözlə həm fəaliyyətdə olan, həm də potensial işçi qüvvəsini özündə əks etdirir. Bununla yanaşı, "işçi qüvvəsi" anlayışını "əmək resursları" analayışı ilə müqayisə etdikdə daha çox iqtisadi və sosial məzmun daşıyır. Yəni, bir qayda olaraq işçi qüvvəsinin alqı-satqısı deyilir. Amma əmək resursları haqqında bu ifadəni işlətmək olmur. Həm də işçi qüvvəsi bütün formalarda belə sövdələşmə obyektinə çevrilmir. Tarixin müəyyən dövrlərində , işçi qüvvəsi fiziki bədənə malik fərddə deyil, ona sahib olan quldarın mülkiyyətində olub. İndi isə işçi qüvvəsi fərdin, yəni onun əsl sahibinin əmtəəsinə çevrilmişdir. Bununla belə, iş qüvvəsi bir istehsal amili kimi bütün istehsal sistemlərində, üsullarında vacib fizioloji, psixoloji keyfiyyətlərə müvafiq bilik və peşə təcrübəsinə malik olmalıdır.[5]

Əmək resurslarından səmərəli istifadə edilməsinin planlaşdırılması onların milli iqtisadiyyaın sektorlar və regionları üzrə bölüşdürülməsi və istifadə edilməsini, milli iqtisadiyyatın və qeyri-maddi istehsal sahələrinin işçi qüvvəsinə olan tələbinin müəyyən

olunması və əhali məşğulliyyətini habelə az əmək sərf etməklə mənfəət əldə etmək üçün müvafiq tədbirlərin həyata keçirilməsini özündə birləşdirir.[1]

Əmək resurslarından istifadə aşağıdakıları əhatə edilr:

- Təhsil sektorunda məşğul olan əhalinin xüsusi çəkisi;
- əmək məhsuldarlığının səviyyəsi;
- əmək qabiliyyəti yaşında olan yaş qrupları üzrə kişi və qadınların
- məşğulluq vəziyyəti;
- işçilərin iş vaxtı fondundan istifadə etməsi.

Əmək resursları və işçi qüvvəsindən istifadə edilmə arasında üzvi əlaqə mövcuddur. Başqa sözlə, əmək ehtiyatlarından istifadə dedikdə, yuxarıda qeyd edilən məsələlər əsas götürüldüyü halda, işçi qüvvəsindən istifadə olunma məsələsi isə özündə əməkdaşın iş vaxtından optimal istifadə edilməsini nəzərdə tutur. İş vaxtından istifadə olunması isə iş qüvvəsinin səmərəli istifadə edilməsini, iş vaxtı itkilərinin-səmərəsiz və ya qeyri-məhsuldar əmək sərfinin aradan qaldırılması ilə bağlıdır.

İş qüvvəsindən səmərəli istifadə edilməsi, eləcə də, kadrların yerləşdirilməsi prinsipinə əməl edilməsi yolu ilə də təmin edilir. Bu ilk növbədə, işçinin müvafiq ixtisasının, onun yerinə yetirdiyi işin mürəkkəblik səviyyəsinə uyğun gəlməsi, müəssisələrdə kadr quruluşunun inkişaf etdirilməsi, onların ixtisasının artırılması, iş həcminin işçilərin arasında optimal nisbətdə paylaşdırılması, yəni işçilərin peşələr və ixtisaslar üzrə iş tapşırıqlarının bölüşdürülməsi yolu ilə reallaşdırılır.[2]

Əmək resurslarından istifadənin ən mühüm problemlərindən biri iqtisadi rayonlar və bütün ölkə üzrə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və istehsalın ümumi səmərəsinin yüksəldilməsi ilə işçi qüvvəsindən səmərəli şəkildə istifadə arasında düzgün əlaqənin formalaşdırılmasından ibarətdir.[2]

Əmək resurslarının idarə edilməsinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Əmək potensialından səmərəli istifadə edilməsində bazar və qeyri-bazar sistemlərinin düzgün şəkildə əlaqələndirilməsi;
- Əhalinin iş qüvvəsinin təkrar istehsalın prosesinin fazaları üçün ailə və dövlətin məsuliyyətinin eyni səviyyədə yüksəldilməsi;
- Sahə strukturu, investisiya siyasəti ilə məşğulluq strukturunun səmərəlişəkildə əlaqələndirilməsi, işçi qüvvəsinə real tələbin proqnozlaşdırılması;
- Gənclər və qadınların işlə təmin edilməsi üzrə xüsusi proqramların işlənib hazırlanması;
- Əmək resurslarının başqa iqtisadi resurslara nisbətən prioritet hesab edilməsi;
- Əmək resurslarının ümummilli ideologiya kimi dəyərləndirilməsi;
- Əmək resursları sferasında fəal sosial siyasətin həyata keçirilməsi;
- Əmək resursları, işçi qüvvəsi sistemləri ilə yarımsistemlərinin bir-birinin tamamlanmasının təmin olunması;
- Əmək ehtiyatları, demoqrafik prosesləri proqnozlaşdırmaq məqsədi ilə ilkin əmək ehtiyatlarının proqnozlaşdırılması;
- Müəssisə və şirkətlərdə işçi heyətinin idarə olunmasında real şərait inəzərə almaqla Yaponiya idarəetmə metodları və modelindən istifadə olunması.

İstehsalın idarə olunmasının səmərəliliyi digər şərtlərlə yanaşı, xeyli dərəcədə təsərrüfat rəhbərliyinin düzgün formalarının seçilməsindən də asılıdır. Daha dəqiq desək, təsərrüfat rəhbərliyinin formaları elə müəyyənləşdirilməlidir ki, o idarə edilən obyektin qarşısında qoyulan məqsəd və vəzifələrə tam uyğun olsun. Müxtəlif sənaye müəssisələrində müəssisə rəhbərliyinin formaları bir-birindən müəyyən səviyyədə fərqlənir.[7]

Ümumi rəhbərlik-müəssisənin direktoru tərəfindən yerinə yetirilir. O, müəssisənin bütün fəaliyyətinə ümumi rəhbərliyi təkbaşlıq prinsipi əsasında, əmək kollektivinin istehsalın idarə edilməsində geniş iştirakını təmin etməklə yerinə yetirir, müəssisənin fəaliyyətinin son nəticələri üçün istər dövlət, istər də kollektiv qarşısında məsuliyyət daşıyır, səlahiyyətləri

çərçivəsində həmin müəssisənin bütün işçiləri üçün məcburi olan əmr, sərəncam, göstəriş və b. verir,əmək kollektivi adından fəaliyyət göstərərək başqa müəssisə, idarə və təşkilatlarda onu təmsil edir, müqavilələr imzalayır, etibarnamələr verir, bankda hesablaşma hesabı açır. Direktor müəssisənin tabe olduğu yuxarı dövlət təşkilatı tərəfindən işə qoyulur və işdən azad edilir.[10]

Texniki rəhbərlik-müəssisənin baş mühəndisi tərəfindən yerinə yetirilir və direktorun birinci müavini hesab olunur. Baş mühəndis hər şeydən əvvəl müəssisə müqyasında vahid texniki siyasət həyata keçirilməsinə, istehsalın texnika və texnologiyasının təkmilləşdirilməsinə, əməyin təşkil edilməsi, yeni növ məhsulların işlənib hazırlanmasına, qabaqcıl istehsalat təcrübəsinin araşdırılmasına və geniş tətbiq olunmasına rəhbərlik edir və məsuliyyət daşıyır.

İqtisadi rəhbərlik-müəssisənin baş iqtisadçısı tərəfindən yerinə yetirilir. Baş iqtisadçı müəssisənin direktorunun müavini hesab edilir və müəssisə miqyasında iqtisadiyyat sahəsi üçün tam məsuliyyət daşıyır.[10]

İnzibati-təsərrüfat rəhbərliyi – müəssisənin təsərrüfat işləri üzrə müavini tərəfindən yerinə yetirilir. O, müəssisənin inzibati və təsərrüfat işlərinə, mənzil-kommunal işlərə, maddi-texniki təchizat və satış işlərinə, əmək kollektivinin sosial məsələləri və müəssisəyə gəlib gedənlərə buraxılış vərəqələrinin verilməsi ilə məşğul olur.

Plan-iqtisad şöbəsi-müəssisənin və onun strukturlarının fəaliyyətini planlaşdırır, müəssisənin direktoru tərəfindən təsdiq olunmuş istehsal proqramının yerinə yetirilməsinə nəzarət edir, istehsaldaxili təsərrüfat hesabını təşkil edir, plan tapşırıqlarının həyata keçirilməsi haqqında informasiyalar toplayır.

Əmək və əmək haqqı şöbəsi-əməyin təşkil edilməsi, texniki-iqtisadi norma və normativlərin işlənib hazırlanması, əməyin ödənilməsinin forma və sistemlərinin müəyyən edilməsi, qabaqcıl istehsalat təcrübəsinin öyrənilməsi və tətbiqi ilə məşğul olur.

Maliyyə şöbəsi-müəssisənin maliyyə planının işlənib hazırlanması, kreditləşmə ilə məşğul olur, müəssisə və onun bütün strukturlarının normal işləmələrinin təmin olunması üçün maliyyə ehtiyatlarından səmərəli istifadə etmək məqsədi ilə tədbirlər müəyyən edir.

Mühasibat şöbəsi-müəssisənin istehsal-təsərrüfat fəaliyyətinə dair mühasibat uçotunu həyata keçirir, pul vəsaitlərinin və materialların sərf olunması üzərində nəzarət qoyur, illik və operativ hesabatları və balansları işləyib hazırlayır.[3]

Texniki şöbə-müəssisədə və onun strukturlarının texniki inkişafı üzrə, yeni buraxılan məhsulların mənimsənilməsi, istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması, istehsalın texnika ilə silahlanma səviyyəsinin artırılması və s. üzrə tədbirlərin işlənib hazırlanması və onların həyata keçirilməsi üzərində nəzarəti yerinə yetirir.

Kadrlar şöbəsi-müəssisədə kadrların müəyyən edilməsi, hazırlanması və onların ixtisaslarının yüksəldilməsi ilə məşğul olur, müəssisədaxili əmək intizamıma əməl olunmasına nəzarət edir.[7]

Hüquq şöbəsi-müəssisə miqyasında hüquqi qayda və qanunların və başqa normativ aktların işlənib hazırlanması və onlar üzərində nəzarəti yerinə yetirir.

İnzibati-təsərrüfat şöbəsi-müəssisənin idarəetmə aparatında kargüzarlıq işlərini və onlara təsərrüfəat xidmətlərinin göstərilməsini təşkil edir, müəssisə daxilində təmizliyə, səliqə-səhmanlığa əməl olunmasına nəzarət edir və s.

Bazar iqtisadiyyatı məsələləri, eləcə də əmək bazarı ilə kadr potensialının formalaşması və səmərəli istifadə olunması məsələləri ilə əlaqədar problemlər iqtisad elminin bütün əsas istiqamətləri ilə məşğul olmuş alimlər tərəfindən ciddi şəkildə araşdırılmışdır.[10]

Adam Smit və David Rikardo dəyər kateqoriyasını əməklə əlaqələndirən nəzəriyyənin əsaslarını yaratmaqla əməyi iqtisadiyyatın əsas elementi hesab edilər.

Adam Smit 1776-cı ildə yazdığı "Xalqların və onların varlı olmasının səbəbləri haqqında tədqiqat" adlı əsərində belə hesab edirdi ki, bazar münasibətləri və sərbəst rəqabət şəraitində sərbəst rəqabət bazar iqtisadiyyatını tənzimləyən əsas amillərdəndir.[9]

Onun fikrincə, azad rəqabət şəraitində dövlətin müdaxilə etməsi əmək fəaliyyətinin əksinədir və hər şey öz axarı ilə davam etməlidir. Bu o demək deyildir ki, Adam Smit cəmiyyətin həyatına dövlətin hər hansı şəkildə müdaxilə etməsinin əleyhinədir. Xeyr, Adam Smit belə hesab edirdi ki, ölkənin müdafiəsində, ədalət məhkəməsinin və polis fəaliyyətinin təşkil olunmasında, vətəndaş haqlarının müdafiəsində, xalq təhsilinin təşkilində dövlətin böyük əhəmiyyəti var.

Adam Smitin nəzəri təliminin əsas müddəalarından biri ondan ibarətdir ki, əməyin dəyər nəzəriyyəsi formalaşdırılmalı və bazar təsərrüfatının təhlilinə tətbiq olunmalıdır. Məhsulların dəyərinə fəhlələrin əlavə etdikləri dəyər də əlavə olunmalıdır və o iki hissəyə ayrılır: həmin dəyərin bir hissəsi fəhlə əməyinin ödənilməsinə, digər hissəsi isə sahibkarın əldə edəcəyi mənfəətin ödənilməsinə sərf olunur.[9]

David Rikardo isə 1817-ci ildə çapdan çıxan "Siyası iqtisadın və vergi tutmanın əsasları" adlı əsərində əmtəənin mübadilə dəyərinin onun istehsalına sərf olunmuş əməklə mütənasib olduğunu qeyd edərək işçilərin aldıqları əmək haqqı ilə sahibkarların qazandıqları mənfəət arasında tərs mütənasib asılılıq olduğunu göstərmişdir.

Alfred Marşallın (1842-1924) "İqtisad elminin prinsipləri" adlı əsərində müxtəlif iqtisadiyyatların hamar, böhransız inkişafı ideyasını işlənib hazırlamışdır. Onun fikrinə görə, tələbin və təklifin tənzimlənməsi məşğulluğun təmin olunması üçün xüsusi əhəmiyyətə malikdir. Marşall belə hesab edir ki, əmək haqqı yüksək olduqda məşğulluğun azalması və işsizliyin yüksəlməsi labüddür.

Artur Piqu 1933-cü ildə çapdan çıxmış "İşsizlik nəzəriyyəsi" adlı kitabında işsizliyin səbəbini, əmək haqqının yüksək olması ilə bağlı olduğunu izah edir. Əmək haqqı azaldıqda istehsal xərcləri də azaldığına və başqa işçilər qəbul etmək imkanı formalaşdığına görə bu halda məşğulluq da artır. Onun mülahizələrinə görə məşğulluq həcmini müəyyən edən digər bir amil- əməyə real tələb funksiyasıdır. Onun son qənaəti belədir: "Muzdlu işçilər arasında tam rəqabət olduqda və əmək tamamilə mobil olduqda işçilərin təkid etdikləri real əmək haqqı dərəcələri ilə əməyə tələb funksiyası arasında əlaqə çox asan olacaqdır.[9]

C.M.Keynsin "Ümumi məşğulluq, faiz və pul nəzəriyyəsi" kitabında əsas diqqət işçi qüvvəsi potensialından səmərəli istifadəyə və məşğulluq problemlərinə istiqamətlənmişdir. Bu əsərdə əsas məqsəd klassik nəzəriyyənin müddəa və arqumentlərinə qarşı özünün müddəa və arqumentlərini vermək olmuşdur.

Keynsçilər deyirlər ki, kapitalist bazar iqtisadiyyatında tam məşğulluğa zəmanət verən heç bir mexanizm yoxdur, işsizliyin və inflyasiyanın səbəbi xarici amillərlə deyil, öz-özünü tənzimləyən iqtisadi sistemin mahiyyəti ilə bağlıdır.

Keynsçilər əmək haqqı və qiymətlərin çevikliyini də inkar edirlər. Hətta əmək haqqı və qiymətlər düşəcəyi təqdirdə də, nəticədə işsizliyin azalacağı fikri onlarda şübhə doğurur. Əmək haqqının azaldılması gəlirlərin enməsinə, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə və istehlak bazarının məhdudlaşmasına səbəb olur.

Keynsin öz nəzəriyyəsi tələbin səmərəliliyi prinsipinə söykənir. Onun fikrinə görə, səmərəli tələbin ümumi həcmini artırmaq zəruridir. İstehsalın həcmi və xalqın rifahı yalnız səmərəli tələb sayəsində artır. Tələb lazımınca səmərəli olmadıqda isə istehsal güclərindən tam istifadə olunmur, istehsalın həcmi aşağı enir, böhran və işsizlik formalaşır.

Keynsin fikrincə, səmərəli tələbə təsir edən amillər arasında investisiya ilə bərabər istehlaka meyl və faiz dərəcəsinin sabitləşmə amilləri də mühüm rol oynayır.

Klassiklərdən fərqli olaraq monetaristlərin konsepsiyasının əsas mahiyyəti ondan ibarətdir ki, bazar təsərrüfatı yüksək rəqabət qabiliyyətinə malikdir və daim sabitliyə, özü-özünü tənzimləməyə can atır. Belə ki, inflyasiyanın, işsizliyin və iqtisadi inkişafın qeyri-stabilliyinin əsas səbəbi dövlətin iqtisadiyyata müdaxilə etməsi ilə bağlıdır.

Monetaristlər istehsalın və məşğulluğun inkişafında pul dövriyyəsinin həlledici rol oynadığını iddia edirlər. Belə ki, tədavüldə olan pul kütləsinin dəyişməsi amili yalnız investisiya həcminə deyil, məcmu tələbin bütün komponentlərinə təsir edir. Dövlətin iqtisadiyyata

müdaxiləsi minimal olmalı və yalnız pul dövriyyəsinə nəzarət olunması ilə məhdudlaşdırılmalıdır.[9]

İnsani münasibətlərlə əlaqədar fikirlər Elton Mayo və F.Rosthlisberqerin tədqiqatlarında da aydın formada öz təzahürünü tapmışdır. Onlar "Vestern Elektrik Şirkətinin" Çikaqo yaxınlığındakı Havtorne fabrikində uzun zaman tədqiqat aparmış, işıqlandırma, isitmə, yorulma və dincəlmə zamanları kimi fiziki faktorların işçilərin məhsuldarlığına etdiyi təsirləri öyrənməyə çalışmışlar. Ancaq yuxarıda sadalanan faktorların yaxşılaşmasının ümumi məhsuldarlığın artmasına müsbət təsir etmə nəticəsi alınmamışdır. Məsələn, bir sınaqda işıqlanmanın artması nəticəsində məhsuldarlıq artmışdır, lakin işıqlanma əvvəlki səviyyəsinə endirilikdə, məhsuldarlıq enmək əvəzinə, yenə də artmışdır. Aparılan yeni sınaqlar istehsal prosesinə və məhsuldarlığa, əsas etibarilə sosial faktorların təsir dairəsinə daxil olmuşdur. Sınaqlardan biri göstərmişdir ki, insanların öz aralarında yaratdıqları qrupların birində, onların özləri tərəfindən istehsal səviyyəsini müəyyən edən bir söhbət vardır. Hamının bu səviyyəni gözlədiyini və bu şərti pozaraq daha çox məhsul istehsal edən şəxsə təzyiqlər etdikləri müəyyən edilmişdir. Mayo bu tədqiqatların sonunda sosial sistem nəzəriyyəsini yaratmışdır. Mayonun tədqiqatları sübut etmişdir ki, müəssisə təşkilatçılığı bir "sosial sistem", bu sistemin ən əsas ünsürü isə "insandır".Yuxarıdakıları ümumiləşdirərək o, aşağıdakı nəticələrə gəlmişdir:

- ✓ İqtisadi maraqlar (əmək haqqı) işçilərin tam gücü sərf olunan fəaliyyət üçün əsas rol oynamır;
- ✓ Çalışan hər bir şəxsin xasiyyəti dəyişkəndir. Onun bir işçi qrupundan digərinə keçməsi onun xasiyyətində müəyyən dəyişikliklərə səbəb olur;
- ✓ Funksional ixtisaslaşma səviyyəsinə əsaslanaraq formalaşdırılmış qrupların nümunəvi bir qrup olacağına zəmanət vermək mümkün deyil.[3]

Müasir dövrdə əmək resurslarının idarə edilməsinin vacib problemlərinin biri də məyin motivləşdirilməsidir. Bunun üçün isə müəyyən edilmiş modellər əsasında idarəedici təsir vasitələrindən istifadə olunmalıdır. Əmək fəaliyyətinin təşviq edilməsinin idarə edilməsi kompleks problemlərlə – insan fəaliyyətinin tələbat, maraqlar, mənafelər, sosial qaydalar və sosial fəallıq səviyyəsi ilə əlaqədardır.

V.D.Atkinson öz əsərlərində əməyin motivləşdirilməsi məsələlərini qiymətləndirərək səmərəli əmək faktorlarını əsas götürmüş və onu konkret əmək prosesləri ilə, situasiyalarla əlaqələndirmişdir.

B.Skinnerin motivləşdirmənin gückəmləndirilməsi nəzəriyyəsi isə işçinin əvvəlki iş təcrübəsinin hazırkı fəaliyyət dövrü üçün motivasiya formalaşdıra bilməsi potensialını aşkara çıxarmaqla əlaqədardır. O, bu cür hesab edir ki, hər hansı bir işçi əvvəllər yerinə yetirdiyi tapşırığa nisbətən hansı işin səmərə fayda verəcəyi, hansının uğursuz olacağını müəyyənləşdirə bilir.

Stimullar – davranış – nəticə – gələcək davranış.

V.Vrumun motivləşdirmə nəzəriyyəsi isə digər alimlərin əsasrlərindən fərqli olaraq motivləşdirməni konkret seçimin (davranışın alternativ formalarının seçimi) idarə olunması prosesi kimi göstərmişdir. O, müəyyən etmişdir ki, bu seçim üç dəyişkən kəmiyyətlə bağlıdır və bunlar aşağıdakılardır:

- valentlilik (cəlbedicilik ölçüsü, məqsədin dəyəri);
- instrumentallıq (işçinin məqsədə çatma ehtimalını qiymətləndirməsi);
- gözləmə (işçinin nəticələr haqqında subyektiv ehtimalı).

Əmək bazarı, məşğulluq və əmək bazarında kadr potensialının formalaşmasında yaranan problemlərin həll edilməsi, məşğulluq siyasətinin müəyyən edilməsi üçün mühüm və kəskin problemlərin nəzəri cəhətdən işlənib hazırlanması mühümdür.

Neoklassik nəzəriyyənin banisi Pol Samuelsonun "İqtisadiyyat" dərsliyində əməyə tələbinn neoklassik funksiyası belə bir fərziyyəyə söykənir ki, həm nemətlər, həm də istehsal amilləri bazarında mükəmməl rəqabət hökm sürür. Mikroiqtisadiyyatda əsaslandırıldığı üçün,

bu halda son hədd həcmində əmək məhsulunun dəyərliliyi nominal əmək haqqı həddinə bərabər olduqda, sahibkarlar maksimal həcmdə mənfəət əldə edirlər

Əmək ehtiyatlarından istifadənin ən mühüm məsələləri sektorlar üzrə məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və istehsalın səmərəliliyinin artırılması ilə işçi qüvvəsindən səmərəli istifədə edilməsi arasında düzgün əlaqənin formalaşdırılmasından, eləcə də elmi texniki-tərəqqi ilə əlaqədar olaraq müxtəlif istehsal sahələrində işçi qüvvəsinə olan tələbin proqnozlaşdırılması və işçi qüvvəsinin peşələr üzrə dəqiq bölüşdürülməsindən ibarətdir.[5]

Əmək resurslarından səmərəli istifadə olunması kadrların yerləşdirilməsi prinsiplərinə əməl olunması yolu ilə də təmin olunur. Bu əsas etibarilə işçinin ixtisasının onun yerinə yetirdiyi işin mürəkkəblilik dərəcəsinə uyğunluğu, ixtisasların yüksəldilməsi, işin həcmi ilə işçilərin sayı arasında optimal nisbətin müəyyən edilməsi və əmək bölgüsünə əsaslanaraq işçilərin peşələr üzrə bölüşdürülməsi yolu ilə həyata keçirilir.[5]

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**


1. H.İ.Həmidov, "İnsan resursların idarə edilməsi" – Bakı 2002 səh.480
2. H.İ.Həmidov, M.Ə.Əliyev, "Biznesdə insan resurslarının idarə edilməsi" –Bakı 2013 səh.532
3. M.Talıblı. İqtisadiyyatda insan dəyəri. Bakı-2014 səh. 82
4. Mehbalıyev S. "Əmək bazarı", Bakı.2004 səh .197
5. T.Ə.Quliyev "Əməyin sosiologiyası – 1998 səh. 430
6. T.Ə.Quliyev, "Heyətin idarə olunması" – Bakı 2012 səh.508
7. T.Ə.Quliyev, Ə.İ.Məmmədov. Əməyin iqtisadiyyatı və sosiologiyası, Bakı-2009
8. T.Ə.Quliyev. İnflyasiyasının anatomiyası Bakı-2006 səh.278
9. T.Ə.Quliyev. İnsan resurslarının idarə edilməsi Bakı-2013 səh.828
10. T.Quliyev "Əməyin iqtisadiyyatı" – 2003 səh. 694
11. T.Quliyev "Menecmentin idarəetmənin əsasları- 2001 səh. 522

***Magistrant* Əhmədli Anaxanım Vahid qızı**
*Bakı Biznes Universitet*
*"Biznesin təşkili və idarə olunması" fakültəsi*
*gulyaxmedova@mail.ru*

# MÜƏSSISƏLƏRDƏ TƏTBIQ OLUNAN MARKETINQ KONSEPSIYASININ ƏHƏMIYYƏTI

**Xülasə**

Müəssisələrin istehsal-satış fəaliyyətində marketinqin tətbiqi istehlakçıların tələbatını identifikasiya etməyə və istehsalçı müəssisələrə bu tələbatları daha dölğun ödəməklə yüksək mənfəət əldə etməyə imkan verir. Marketinq istehsalçı ilə istehlakçının tələbatlarını, müəssisələrin fəaliyyətinin bu tələbatlara uyğunlaşdırılmasını təmin edir: istehlakçılara tələbatlarını daha dolğun ödəməyə, problemini daha yüksək effektlə həll etməyə imkan verən məhsul almağa, istehsalçılara isə fəaliyyətinin effektliliyinin yüksəldilməsini, mənfəətini maksimumlaşdırılmasını təmin edən məhsul istehsal etməyə şərait yaradır. Müəssisələrin fəaliyyətinin effektliliyinin yüksəldilməsində marketinqin oynadığı pozitiv rola görə ölkə sahibkarlarının və müəssisələrin menecmentinin marketinqin tətbiqinə marağı artmış, bir sıra müəssisələrdə marketinq fəaliyyətini həyata keçirən struktur vahidləri yaradılmışdır.

Ölkəmizin müəssisələrində marketinq fəaliyyətinin təşkilinin təhlili göstərir ki, əksər hallarda müəssisələrdə marketinqin tətbiqi sırf formal xarakter daşıyır, müəssisənin satış şöbəsinin marketinq şöbəsi adlandırılması ilə məhdudlaşır. Bunun başlıca səbəblərindən biri müasir marketinq konsepsiyasının mahiyyətnin başa düşülməməsi və onun imkanlarının düzgün qiymətləndirilməməsidir (1).

**Açar sözlər:** marketinq, marketinq konsepsiyaları, bazar, istehlakçı, məhsul.

Bazar münasibətlərinin inkişafı və ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası alıcılar bazarının yaranmasına və satış bazarları uğrunda rəqabət mübarizəsinin kəskinləşməsinə səbəb olmuşdur. Belə bir şəraitdə yalnız bazarın, istehlakçıların tələbatını, davranışını və alış motivini öyrənən və onlara uyğun məhsul istehsal edən və onun satışını yüksək effektlə həyata keçirən müəssisələr bazarda rəqabət üstünlüyü əldə edə və bazar uğuru qazana bilir. Buna isə istehsal-satış fəaliyyətini müasir marketinq prinsipləri əsasında təşkil edən müəssisələr nail ola bilər. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə istehsal-satış probleminin həll olunmasında istifadə olunan baxışlar sistemindən biri marketinq konsepsiyasıdır. Bu konsepsiyaya əsaslanmadan müəssisələrin fəaliyyətlərinin çevikliyini və onların bazara uyğunlaşmasını təmin etmək qeyri mümkündür. Ona görə də indiki şəraitdə müəssisələrin istehsal-satış fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsi üçün marketinq konsepsiyasının tətbiqi qaçılmazdır.

Marketinq fəaliyyəti uzun illərdir ki, xarici ölkələrdə istehsal-satış fəaliyyəti üzrə müəssisələrə müvəffəqiyyət qazandıran tədbirlər sistemi kimi çıxış edir. Marketinq üzrə tədbirləri işləyib hazırlamaq və reallaşdırmaqla müəssisələr bir tərəfdən özlərinin istehsal-satış fəaliyyətlərinin səmərəliliyini təmin edə, digər bir tərəfdən isə rəqabər üstünlüyü əldə edə bilərlər.

A.Smit göstərirdi ki, cəmiyyətin rifahı alicənablığın, başqalarına təmənnasız yardım etməyin nəticəsi yox, satıcı və alıcının maraqlarının (mənafelərinin) üst-üstə düşməsinin nəticəsidir və bu, azad və rəqabətli mübadilədə təzahür edir. Məhz azad və rəqabətli mübadilə hər bir fərdi öz mənafeyi ilə yanaşı, cəmiyyətin mənafeyi naminə də işləməyə vadar edir və bunun nəticəsində hər bir fərdin fəaliyyəti bütünlükdə cəmiyyətin mənafeyinə uyğun gəlir və onu təmin edir. Müəssisə marketinqi cəmiyyət tərəfindən qəbul edilmiş sosial-etik normalara əməl etməklə həyata keçirdikdə, özünün və istehlakçının mənafeyi ilə yanaşı, cəmiyyətin də mənafeyini təmin etmiş olur. Belə ki, sosial-etik normalara əməl etdikdə insan sağlamlığına

zərərli məhsullar istehsal edilməsi məhdudlaşır, ətraf mühitin mühafizəsi təmin edilmiş olur. Bunun nəticəsində isə müəssisə cəmiyyətdə özünün müsbət imicini formalaşdırır, onun müsbət rəyini qazanmış olur, müəyyən cərimə və sanksiyalardan qorunmuş olur və s.

Bazar münasibətləri şəraitində sənaye sahəsində fəaliyyət göstərən ayrı-ayrı istehsal strukturlarının strateji məqsədi yüksək mənfəətə nail olmaqdır. Mənfəət isə, məlum olduğu kimi məhsulların satış qiyməti ilə həmin məhsulların istehsalına və satışına çəkilən xərclərin cəmi arasında fərq kimi müəyyən edilir. Marketinq bir tərəfdən təfəkkür tərzi, digər tərəfdən isə praktik fəaliyyət növüdür. Ona görə də bu idarəetmə konsepsiyasının mahiyyətini ətraflı başa düşməkdən ötrü onun konseptual və praktiki baxımdan izah etmək lazımdır. Marketinqin praktiki baxımdan izahı istehlakçının ehtiyac və tələbatının ödənilməsi üçün icra edilən əməliyyatların ardıcıllığının araşdırılmasını tələb edir. Onun nəzəri baxımdan izahı isə təfəkkür tərzi kimi –bazar yönümlü menecment kimi izah olunur. Bu konsepsiyanın müasir mahiyyəti müəssisənin istehsal-satış fəaliyyətinin səmərəli olması üçün həmin müəssisədə bazar yönümlü menecmentin tətbiqi ilə əlaqədardır (5).

Marketinqin məzmunun müxtəlif cür izah edilməsi və ona çoxlu sayda yanaşmaların verilməsi iqtisadiyyatın inkişafının müxtəlif mərhələlərində onun cəmiyyətdə və müəssisənin istehsal-maliyyə fəaliyyətində oynadığı rola və yerinə yetirdiyi funksiyalara yanaşmaların müxtəlifliyi və yönümünün dəyişməsi ilə izah edilir. Marketinq konsepsiyası öz təkamülündə aşağıdakı mərhələlərdən keçmişdir: (1)

- İstehsalyönümlü marketinq konsepsiyası;
- Məhsulyönümlü marketinq konsepsiyası;
- Satışyönümlü marketinq konsepsiyası;
- İstehlakçı yönümlü marketinq konsepsiyası;
- Sosial məsuliyyətyönümlü marketinq konsepsiyası.

Bazaryönümlü marketinq konsepsiyası özündə fəaliyyət və analitik funksiya ilə yanaşı biznes mədəniyyətini də birləşdirir. O, müəssisənin fəaliyyətinin inteqrasiya olunmuş idarəetmə funksiyasına çevrilir. Buna görə də, müasir dövrdə marketinq yalnız bazar subyekt-lərinin maraqlarının ödənilməsi baxımından deyil, həm də müəssisənin idarə edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. J. J. Lamben marketinq məfhumuna belə tərif verir: "marketinq azad və rəqabətli mübadilə vasitəsilə fərdlərin və təşkilatların tələbatlarının və istəklərinin ödənilməsinə yönəldilən, istehlakçılar üçün sərvətlər formalaşdıran sosial proses-dir" (6).

Professor J. J. Lamben göstərir ki, marketinq konsepsiyası fərdi seçim nəzəriyyəsinə və onun praktiki realizasiyası olan istehlakçının suverenliyi prinsipinə və bazar iqtisadiyyatının bundan irəli gələn aşağıdakı 4 müddəsına əsaslanır :

1. Hər bir fərd müəyyən haqq (muzd, mükafat, fayda) almağa çalışır. Məhz hər bir fərdin müəyyən haqq (muzd, mükafat, fayda) almağa çalışması onu müəyyən fəaliyyətləri həyata keçirməyə və müəyyən nəticələrə nail olmağa təhrik edir. Bu, inkişafın hərəkətverici qüvvəsi, motividir və son nəticədə, cəmiyyətin ümumi rifahını müəyyənləşdirir.

2. Fərdi seçim. Hər bir fərd almağa çalışdığı haqqı (muzdu, mükafatı, faydanı) özü seçir. Bu haqqın (muzdun, mükafatın, faydanın) forması onu seçən fərdin zövqündən, mədəniyyətindən və üstünlük verdiyi dəyərlər sistemindən asılıdır. Bu dəyərlər sisteminə və ya seçimin əhəmiyyətsizliyinə və yaxud, tələbatın «həqiqi» və ya «yalançı» tələbatlara bölünməsinə münasibətdə cəmiyyət tərəfindən qəbul edilmiş etik normalardan başqa heç bir qayda tətbiq edilmir.

3. Hər bir fərdin əlaqədə olduğu fərdlər və təşkilatlar öz məqsədlərinə azad və rəqabətli mübadilə vasiəsilə daha yaxşı nail olurlar. Mübadilə yalnız o vaxt azad olur ki, o, bu mübadilənin bütün iştirakçıları üçün faydalı olur, onlar üçün fayda əldə etməyə imkan verir; mübadilənin rəqabətli xarakteri isə ondan ibarətdir ki, istehsalçının öz bazar movqeyindən suiistifadəetmə təhlükəsi məhduddur və ya ümumiyyətlə mövcud deyildir.

4. Bazar iqtisadiyyatı mexanizminin əsasını fərdi azadlıq, daha doğrusu, istehlakçının suverenliyi təşkil edir. Sistemin mənəvi təməlini hər bir fərdin öz fəaliyyətinə görə məsuliyyət daşıması və onun üçün nəyin “yaxşı” və ya “pis” olmasını özünün müəyyənləşdirməsi təşkil edir.

İstehlakçının marketinqi konsepsiyası öz başlanğıcını 1950-ci ildən götürmüş və hal-hazırda da sənayedə sahibkarlıq fəaliyyəti ilə məşğul olan strukturlar tərəfindən tətbiq olunur. Bu konsepsiyanı “*biznes fəlsəfəsi*” də adlandırırlar. Sözügedən konsepsiyanın meydana gəlmə şəraiti bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə satış bazarlarının məhsullarla həddindən ziyadə dolması ilə xarakterizə edilirdi və belə şəraitdə məhsulların satışı problem hesab edilirdi. Həmin vaxtlar sözsüz ki, sənaye müəssisələri məhsullarını satmaq və onların istehlakçılar tərəfindən qəbul edilməsini təmin etməkdən ötrü istehlakçıları öyrənmək məcburiyyəti ilə üzləşməli idilər. Bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə nəzərdən keçirilən dövrdə qərarlamış bu vəziyyət satıcı bazarlarının alıcı bazarlarına çevrilməsi ilə demək idi.

Marketinqin müasir konsepsiyalarından olan strateji marketinq konsepsiyasının v tətbiqi istehlakçıların ehtiyac və tələbatlarını nəzərə almaqla məhsul istehsal edib bazara təklif etməklə yanaşı, rəqiblərin fəaliyyətlərinin də izlənilməsini və səmərəli rəqabət strategiyasının işlənib hazırlanmasını tələb edir. Marketinqin strateji konsepsiyası XX əsrin sonlarındam etibarən sonra intensiv şəkildə tətbiq olunmağa başlamışdır (2).

Marketinqin mahiyyətinin açıqlanması zamanı, ilk növbədə, bazarın tədqiqi və onun öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Çunki bazarı tədqiqi digər tədqiqat istiqamətlərindən öndə gəlir. İstehlakçıların ehtiyac və tələbatlarını öyrənmədən marketinq fəaliyyətinin səmərəli təşkilindən danışmaq qeyri-mümkündür. Marketinqin mahiyyətinin açıqlanmasına belə yanaşma dünya miqyasında tanınmış marketoloqların əsərlərində də öz təsdiqini tapan faktdır. Məsələn, Evans C.R., Berman B. marketinqin mahiyyətinin müəyyənləşdirilməsi haqqında yazaraq göstərirlər ki, istənilən müəyyənləşdirmədə başlıcası istehlakçıya yönümlülük olmalıdır. Müəssisələr öz məqsədlərinə istehlakçıların tələblərini ödəməklə nail olurlar. Bununla belə, marketinqin vəzifəsi nəinki tələbi artırmaq, həm də onu formalaşdırmaqdan ibarətdir.

Ümumiyyətlə, marketinqin mahiyyətini istehlakçı kontekstindən izah etmək məqsədəuyğundur. Aydındır ki, bazar məkanında istehlakçılarla yanaşı diğər vacib subyektlərin fəaliyyətini də müşahidə emək mümkündür. Məhz bu baxımdan marketinqin mahiyyətinin açıqlanması zamanı müəssisənin istehsal-satış fəaliyyətinin bazar yönümlülüyü qeyd edilməlidir. Marketinq həmçinin müəssisələrinin istehsal-satış fəaliyyətinin idarə edilməsinin bazar konsepsiyasıdır.

Müəssisələrdə marketinq konsepsiyasının tətbiqi heç də satış konsepsiyasından imtina edilməsi və müəssisənin bazar fəaliyyətində onun rolunun azalması anlamına gəlməməlidir. Əksinə, bu konsepsiyalar biri-birini tamamlamalı və onlar kompleks şəkildə həyata keçirilməlidir. Bunun nəticəsində isə müəssisənin bazar fəaliyyətini daha yüksək səmərə ilə həyata keçirmək və inkişafa nail olmaq mümkün olur. Çünki marketinqin analitik funkusiyasından istifdə edilməsi daha səmərəli satış proqramları və marketinq kompleksi tərtib etməyə imkan verir. Satış marketinqə daxil olan elementlərdən biridir. Marketinqlə məşğul olan bəzi mütəxəssislər, çox haqlı olaraq obrazlı şəkildə marketinqi aysberqə bənzədir, satışı isə onun görünən tərəfi kimi izah edirlər. Bu fikirlə razılaşmaq olar. Çünki satış marketinq fəaliyyətinin az, eyni zamanda çox da əhəmiyyətli olmayan bir hissəsidir. Müəssisələrdə marketinq fəaliyyətini həyata keçirməkdən ötrü satışla müqayisədə daha əhəmiyyətli əməliyyatların aparılmasına və yerinə yetirilməsinə ehtiyac yaranır (4).

İdarəetmə prosesi kimi marketinqin səmərəliliyinin təmin olunması müəssisədə marketinq sisteminin özünün səmərəli şəkildə formalaşdırılmasından asılıdır. Marketinqin təşkilinə sistemli yanaşma əsasında onun özünün səmərəliliyi təmin oluna bilər.

Sənaye müəssisələrinin istehsal-satış fəaliyyətlərinin idarə edilməsi konsepsiyası kimi marketinq konsepsiyası bu zamana qədər həmin müəssisələrdə tətbiq olunan ənənəvi konsepsiyalardan fərqli xüsusiyyətlərə malikdir.

Ənənəvi idarəetmə konsepsiyası kütləvi məhsullar istehsal edib bazara təklif etməyi nəzərdə tutduğu halda, yeni konsepsiya spesifik xarakteristikalara malik diferensiallaşdırılmış sənaye məhsulları istehsal edib bazara təklif etməni özündə ehtiva edir. Ənənəvi konsepsiya operativ məsələlərin həllinə yönümlüyü ilə fərqləndiyi halda, yeni konsepsiya istehsal-satış fəaliyyətinin uzunmüddətli dövrdə mənfəətli olması üçün strateji problemlərin həllinə üstünlük verir. Yeni konsepsiyaya əsasən bazar münasibətləri şəraitində uzunmüddətli dövrdə mənfəətli fəaliyyət göstərmək üçün müəssisə xarici mühitdə (marketinq mühitində) baş verən dəyişiklikləri izləməli və öz fəaliyyətini həmin mühitə uyğunlaşdırmaq istiqamətində məqsədyönlü işlər aparmalıdır. Bunun üçün müəssisə, əlbəttə, marketinq mühitində nəzarət olunan bu və ya digər dərəcədə təsirə məruz qalan subyektlərə təsir etməli və onların "davranışını" lazımı məcraya yönəltməyə çalışmalıdır. Bu məsələlər köhnə konsepsiyada nəzərdə tutulmur və həmin konsepsiyaya əsasən müəssisə stabilliyə üstünlük verir. İstehsal-satış fəaliyyətini marketinq prinsipləri əsasında təşkil edən müəssisələr öz daxilində informasiya sistemi yaratmaqla və daha çox qapalı informasiya sisteminə əsaslanmaqla fəaliyyətlərinə dair qərar qəbul etdikləri halda, ənənəvi konsepsiyaya əsaslanmaqla öz fəaliyyətlərinin həyata keçirən müəssisələr "açıq" informasiyalara əsaslanmaqla istehsal-satış prosesinə dair qərarlar qəbul edirlər (3).

Marketinq konsepsiyası əsasında fəaliyyətini təşkil edən müəssisələrin gəlirləri daha çox olur. Bundan fərqli olaraq, istehsal-satış fəaliyyətini köhnə konsepsiya əsasında təşkil edən müəssisələrdə çalışanların gəlirlik səviyyəsi iqtisadiyyatın başqa sahələrində çalışanların gəlirlik səviyyəsi ilə müqayisədə xeyli dərəcədə aşağı olur. Yeni konsepsiya əsasında istehsal-satış fəaliyyətini həyata keçirən müəssisələr məhsulların differensiasiyası hesabına ayrı-ayrı bazar seqmentlərinin tələblərini yüksək dərəcədə ödəyə bildiklərindən, onların əldə etdikləri gəlirlərdə çox olur. Bütün bunlar son nəticədə müəssisələrinin istehsal-satış fəaliyyətlərinin səmərəliliyini xarakterizə edən göstəricilərin səviyyəsinin yüksəldilməsinə gətirib çıxarır.

İstehlakçı marketinq fəaliyyətinin həyata keçirilməsində əsas subyekt hesab olunur. İşgüzar istehlkaçılar dedikdə istehsalçı müəssisələr başa düşülür. Bu müəssisələr müxtəlif məhsulları istehsalçılarından tədarük etməklə yeni məhsul istehsal edib, bazara təklif edirlər. Ona görə də bu müəssisələrdə marketinq fəaliyyətinin xarakterik xüsusiyyətləri həm də onların davranışları ilə müəyyən olunur.

İşgüzar istehlakçılar məhsulları şəxsi istehlakları üçün yox, yeni məhsulların istehsalı prosesində istifadə etmək məqsədilə alırlar. Son istehlakçılara nisbətən işgüzar istehlakçılarının sayının az olmasına baxmayaraq, əmtəə dövriyyəsinin əksəriyyət hissəsi onların payına düşür. Həm də satınalma prosesində satıcı ilə alıcının şəxsi təmasları zəruri olduğundan məhsullar marketinqi daha böyük məbləğdə xərclər tələb edir. Lakin buna baxmayaraq, həmin xərclərin özünü ödəməsi mümkün olur. Belə ki, sənaye müəssisələrində alıcıların və istehlakçıların təlabatlarına uyğun olaraq məhsulların differensiasiyası həmin məhsulların daha yüksək qiymətə reallaşdırılmasına imkan verir ki, bu da həmin müəssisələrin bazar fəaliyyətinin səmərəliliyinin təmin olunmasına şərait yaradır.

Müasir dövrdə müəssisələrin çoxu sahibkarlıq strukturu kimi fəaliyyət göstərir. Marketinq isə, məlum olduğu kimi, sahibkarlıq fəaliyyətinin metodologiyası hesab olunur. Bu metodologiyanı bilmədən sahibkarlıq fəaliyyətində qarşıya qoyulan məqsədlərə nail olunması mümkün deyil. Bu mövqedən çıxış etməklə ölkəmizin sənaye sahəsində fəaliyyət göstərən sahibkarlıq strukturları istehsal–satış fəaliyyətində marketinqi tətbiq etməyə çalışırlar. Bu, Azərbaycanın sənaye müəssisələrinin idarə edilməsinin keyfiyyətcə yeni səviyyədə qurulması deməkdir.

İstehlakçılar üçün dəyərin yaradılması prosesi kimi marketinq fəaliyyəti özü mərhələlər ardıcıllığından ibarətdir. Bu prosesin mərhələlər ardıcıllığı marketşünas alim F.Kotlerə görə aşağıdakı kimidir:

- bazarın xarakterik xüsusiyyətlərinin aydınlaşdırılması, istehlakçıların ehtiyac və tələbatlarının müəyyənləşdirilməsi;
- müştərilərin tələbatlarına yönəlik marketinq strategiyasının işlənib hazırlanması;
- müştərilər üçün dəyər əhəmiyyəti kəsb edən məhsulun həmin müştərilərə təklif edilməsi üzrə inteqrasiyalaşdırılmış marketinq proqramlarının işlənib hazırlanması;
- müştərilərlə mənfəətli münasibətin formalaşdırılması, onların tələbatlarının yüksək səviyyədə ödənilməsinə nail olunması;
- müştərilərə dəyər əhəmiyyəti olan məhsulun təklifi müqabilində onlardan (qarşı tərəfdən - istehlakçılardan) dəyərin əldə edilməsi (4).

Azərbaycanın bəzi sənaye müəssisələrində bazarın dərindən təhlili müşahidə edilir. Sənayesi müəssisələri tərəfindən bazarın təhlili, məhsullara tələbatın yüksək olması və son illər bu məhsulların istər daxili istərsə də xarici bazarlarda qiymətlərinin səviyyəsinin yüksəlişi ilə əlaqədardır. Ölkəmizin sənaye məhsulları baxımından bazarın kəmiyyət baxımından təhlili məsələlərinə daha çox fikir verilir. Məlum olduğu kimi, bu halda bazarın və onun ayrı – ayrı seqmentlərinin tutumu öyrənilir və istehlakçıların məhsullara qarşı irəli sürdükləri tələblərə çox da diqqət yetirilmir.

Marketinq prosesinin növbəti mərhələsi istehlakçılarla, eyni zamanda başqa bazar subyektləri ilə münasibətlərin düzgün idarə edilməsidir. Hər bir müəssisəs çalışmalıdır ki, onun məhsulunun istehlakçılarının məhsula loyal münasibətləri olsun. Məhz müəssisənin özünə və onun məhsuluna loyal münasibət olan halda müəssisənin təklif etdiyi məhsulun müqabilində istehlakçıdan faydalanmaq olur. Təsadüfi deyil ki, bazar münasibətləri şəraitində istehlakçıları müəssisənin aktivləri hesab edirlər. Müəssisənin belə aktivlərinin olması üçün onun müştərilərlə münasibətlərinin, eyni zamanda başqa bazar subyektlərilə münasibətlərinin idarə edilməsinə xüsusi fikir verilməlidir.

Azərbaycanda marketinq konsepsiyalarına əsaslanmaqla istehsal-satış fəaliyyətlərini həyata keçirən müəssisələr çoxsaylıdır. Lakin bu müəssisələr sırasına marketinqin daha sonralar meydana gəlmiş konsepsiyalarını (istehlakçının marketinqi, sosial-etik marketinq konsepsiyası və s.) tətbiq edən müəssisələrə nadir hallarda rast gəlinir. Bu müəssisələrə "Azərsun Holdinq" "AzGranata" MMC –ni misal göstərə bilərik. Belə vəziyyətin qərarlaşmasının başlıca səbəblərindən biri müəssisənin işçiləri tərəfindən həmin konsepsiyaların mahiyyətinin dərk olunmaması və ümumiyyətlə, müəssisədə marketinq təşkilati mədəniyyətinin aşağı səviyyədə olması göstərilə bilər.

Müəssisənin kadrları ayrı-ayrı məhsul bazarlarının potensial imkanlarını qiymətləndirir, həmin məhsullara tələbin formalaşdırılması üzrə stimullaşdırıcı xarakterə malik tədbirlər işləyib hazırlayırlar. Bütün bunlar müəssisənin əmtəə siyasətinin bazarın tələblərinə uyğunlaşdırılmasına imkan verir. Oun da qeyd edək ki, müəssisənin marketoloqları tərəfindən aparılan marketinq tədqiqatlarının əhatə dairəsi çox da geniş deyil. Məsələn, onlar müxtəlif şkalalardan istifadə etməklə istehlakçıların müəssisə tərəfindən bazara təklif olunan məhsuldan razı olub-olmamalarını müəyyənləşdirmək üzrə tədqiqat aparmırlar. Onlar ayrı-ayrı məhsulların qiymətlərinin istehlakçıları nə dərəcədə qane etdiklərini araşdırmırlar.

Demək olar ki, müəssisə daxilində aparılan marketinq tədqiqatlarının əhatəliliyinin genişləndirilməsi həmin müəssisənin uzunmüddətli dövrdə məhsullar bazarında mövqeyinin daha da yaxşılaşmasına və onun əmtəə siyasətinin daha uğurlu olmasına gətirib çıxara bilər. Bunun üçün şirkətin işçiləri tərəfindən aparılan marketinq tədqiqatlarında istifadə olunan metodların təkmilləşdirilməsinə də xüsusi fikir verilməlidir. Xüsusilə istehlakçı məmunluğunu öyrənmək üçün sorğu metodunun tətbiqindən istifadə edilməlidir. Bununla yanaşı, marketinq tədqiqatlarının aparılması məqsədi ilə müşahidə, eksperiment, həmçinin toplanılan informasiyaları təhlil etməkdən ötrü müxtəlif iqtisadi-statistik metodlardan istifadə olunması

çox vacibdir. Sadalanan metodların marketinq fəaliyyətində tətbiqi müəssisənin əmtəə siyasətinin təkmilləşdirilməsilə nəticələnə bilər.

Müəssisə marketinq sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq məqsədi ilə qeyd edilmiş vacib işləri yerinə yetirməlidir. Bununla daha yaxşı inkişafa, yüksək gəlirə nail olmaq mümkündür.

Istifadə edilmiş ədəbiyyat

1. Məmmədov A.T. Marketinqin əsasları. Bakı: "İqtisad Universiteti nəşriyyatı"- 2007-335 s.
2. Xeyirxəbərov İ.M. Marketinq tədqiqatları: marketinq informasiyaları və informasiya sistemi. AzDİU. 2008-100 s.
3. Акулич И.Л. Маркетинк: Учебник/-3-е изд. -Мн.: Выш. шк., 2004. - 463 с.
4.Котлер Ф. Маркетинг менеджмент. Анализ, планирование, внедрение, контроль, М., 1999
5.Lamben J. J. Bazar yönümlü menecment. Strareji və əməliyyat marketinqi, Bakı 2008
6. Kotler F., Marketinqin əsasları, Bakı Ergün. 1993
7.https://www.ama.org/the-definition-of-marketing-what-is-marketing/
8.https://www.economicsdiscussion.net/marketing-management/what-is-marketing-management/31788
9. http://www.juices.azgranata.az/en/about/

# BÖLMƏ 4
# AZƏRBAYCANDA ELMİ-TEXNİKİ TƏRƏQQİ SİYASƏTİ

---

1. **i.e.d.,prof. Əlirzayev Əli Qənbərəli oğlu.**"Müasir iqtisadi və sosial islahatlarınHeydər Əliyev təməli". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
2. **f-riy.e.d., prof. Rzayev Orucəli Hüseynqulu oğlu,b.e.n., dos. Raziyev Səfər Əmin oğlu.** "Azərbaycan Region Ali təhsil müəssisələrinin inkişafına Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev erasının təsirinin xronologiyası".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC- Zaqatala filialı)
3. **i.e.d., prof. Əyyubov Veysəl Seyfəl oğlu, b/m Tağıyev Arif Məmmədhəsən oğlu.**"Milli iqtisadi inkişafın "Heydər Əliyev Modeli"nin müasir inkişaf parametrləri". (Mingəçevir Dövlət Universiteti)
4. **İbrahimov Vəkil Həmid oğlu.**"Əqli mülkiyyət sahəsində Heydər Əliyyevin töhfələri". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
5. **i.f.d. Hacıyeva Aytac Müzəffər qızı.** "Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin inkişafinda Heydər Əliyev amili".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
6. **fiz.e.d., prof. Babayeva Rəna Fikrət qızı.** "Layli quruluşlu n-InSe<NTE> kristallarinda induksiyalanmiş aşqar fotokeçiricilik və onun optoelektronikada tətbiq imkanlari"(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
7. **fil.f.d., dos. Məhərrəmova Vəfa Eldar qızı**. "Heydər Əliyev və Azərbaycanda müasir intellektual elitanın formalaşdırılması".(Mingəçevir Dövlət Universiteti)
8. **ped.f.d.Babayeva Xəzəngül Süleyman qızı.** "Heydər Əliyev və Azərbaycanda təhsilin modelinləşdirilməsi". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC- Zaqatala Filialı)
9. **i.f.d.,dos. Məmmədova Gültəkin Qabil qızı.** "Azərbaycanda təhsil sisteminin maliyyələşdirilməsinin Heydər Əliyev inkişaf modelinin müasir uğurlu təzahürləri".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
10. **müəllim Kərimli Günel Fazil qızı.** "Heydər Əliyev və elmi-texniki tərəqqiyə əsaslanan "Ümumi rifah dövləti" modeli". ( Mingəçevir Dövlət Universiteti)
11. **ped.f.d., dos. Əzizova Zenfira Mirsəfər qızı. "**Azərbaycan tarixinin Heydər Əliyev dövrü". (Mingəçevir Dövlət Universiteti)
12. **Kərimli Faiq Xanoğlan.** "Qloballaşan dünyada Azərbaycanın Neft-kimya sənayesinin inkişafında Heydər Əliyev siyasi kursunun rolu".(Bakı Dövlət Universiteti)
13. **müəllim*Xəlilova Xəyalə Qəmbər qızı.*** "Heydər Əliyev və insan kapitalının formalaşması dövlətin siyasətinin əsas istiqaməti kimi". (Mingəçevir Dövlət Universiteti)
14. **fiz-riy.e.n., dos. Aslanov Məmməd Səməd oğlu.**"Temperatur və nanohissəciklər nəzərə alinmaqla özlü-elastiki mühit modelinin tədqiqi". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
15. **tex.f.d., baş müəllim Məmmədov Azər İsmayıl oğlu.** "Eksperimental qıçadöyən qurğunun iqtisadi səmərəliliyinin təyini".(Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC)
16. **Əliyeva Təranə Əsman qızı.** "Azərbaycanın milli sərvəti olan zəngin intellektual potensialının yüksəldilməsində və elmin inkişafı sahəsində Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri".(Mingəçevir Dövlət Universiteti)

**i.e.d.,prof. Əlirzayev Əli Qənbərəli oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),*
*"Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə"kafedrasının müdiri*
*əməkdar elm xadimi, Avropa Təbiət Elmlər Akademiyasının akademiki*
*kafedra-ssi@mail.ru*

## MÜASİR İQTİSADİ VƏ SOSİAL İSLAHATLARINHEYDƏR ƏLİYEV TƏMƏLİ

**Xülasə**

Məqalədə müasir islahatların Heydər Əliyev əsasları, nəzəri və praktiki cəhətdən təhlil olinur. Heyder Əliyevin bazar iqtisadiyyatı şəraitində təməl prinsipləri Azərbaycanın sosial iqtisadi inkişafinda tətbiqi metodları və aspektlerini əhatə edir. Heyder Əliyev planlı təsərufat sistemində hazırladığı məqsədli proqram, idarə-etmə sistemi müasir şəraitdə cənab prezident İlham Əliyev tərəfindən transformasiya olunur, daha çox resurslara əsaslanan və ali məqsədlərə yönəldilən mexanizimlər tətbiq olunur. Müstəqiliyin ilk illərində özəlləşmə prinsipləri və mexanizimləri sonraki rəqabət mühütinin yaranmasinda istifadə olunur. Heyder Əliyev strategiyası konseptual baxımından sürətlənmə strategiyasıdır, iqtisadiyyatın və sosial həyatın, regionların tarazlı inkişafı Azərbacanın inteqrasiya sisteminə daxil olmasına şərait yaradır. Müasir şəraitdə regionların sosial iqtisadi inkişafı dövlət tənzimləməsi və siyasətinin, məskunlaşma regionlarla, sahələrin tarazlı inkişafına şərait yaradır.

Heydər Əliyev siyasəti, sosial ədalət, sosial prioritetlər və insan amili üzərində qurulan tərtib olunan konseptual yanaşma mexanizimlərini əks etdirir. Hesab edirik ki, planlı təsəruffat və bazar iqtisadiyyatını fərqli və ümümi, onların nəzəri metodoloji sistem halında bağlayan və idarə etməyə tətbiq edən Heydər Əliyevin varislik siyasəti yeni keyfiyyət dəyişimləri baxımından prespektiv inkişafın əsas istiqamətləridir. Heydər Əliyevin Naxçıvan mühüti şəraitində blakada həqiqətində bütün insanların potensialnı qiymətləndirməklə dövlət idarə etmə sisteminə təyin olunması onun şəxsiyyət kimi ədalətli və cəsur rəhbər olduğunu göstərir.

**açar sözlər:** iqtisadi, sosial, potensial, strateji, regional, gəlir.

Müasir iqtisadi və sosial inkişaf və uyğun hədəflərin əsaslandırılması Heydər Əliyevin planlı təsərrüfat və bazar iqtisadiyyatı dövründə köklü islahatlar əsasında planlaşıb. Planlı təsərrüfat şəraitində Heydər Əliyev müstəqilliyin iqtisadi əsasları olan iqitsadi artım potensial, inkişaf və idarəetmə metodları öz səmərəsini vermişdir. Belə planlı təsərrüfat sistemində müstəqil iqtisadi inkişaf üçün, sənayeləşmə kadr potensialının yaradılması problemləri həll olunmuşdur.

Sosial ədalət Heydər Əliyevin SSSR-i dövlətində makro səviyyəli bölgü sistemində pozulmasının səbəb nəticələrini milli gəlirin bölgülü və yenidən bölgüsü, Azərbaycanın istehlak və istehsalı arasında tarazlığın pozulmasının elmi əsaslarını vermişdir. Məhsullar qüvvələrin yerləşməsində regional payların düzgün bölüşdürülməsi, yaradılan dəyərin mərkəzi gəlirlərə uyğun bölgüsü potensialı yüksək olan ölkələrin gəlirlərinin mərkəzi büdcələrə daxil olmasına səbəb olmuşdur. Heydər Əliyevin istehlak olunan milli gəlirlə istehsal olunan milli gəlirlərin arasında fərqinin olması həm nəzəri və praktiki cəhətdən iqtisad elminin qarşısında elmi axtarışlar üçün əsas olmuşdur. Planlı təsərrüfat sistemində iqtisadi potensialın qiymətləndirilməsi yolu ilə istehsalın və istehlakın planlaşması Heydər Əliyevin idarəetmə təcrübəsində özünün səmərəsini verməklə bazar iqtisadiyyatı şəraitində də özünə məxsus metodiki yanaşma ilə həll olunur.

İqtisadi və sosial potensial öz təbii coğrafi, təkrar istehsal və istifadə mexanizminə görə fərqli aspektlər kəsb edir. Bu baxımdan iqtisadi-sosial potensialın istifadəsində islahatlar proqramları həmişə aktual olub. İqtisadi potensialın istifadəsi Azərbaycanın bütün inkişaf

dövrlərində konseptual yanaşma strategiyasını müəyyənləşdirir. İqtisadi və sosial potensialın dinamikası və strukturunun təkmilləşməsi proqmatik yanaşma, təkrar istehsalda alternativ resurs mənbəələri tapmağa yönəldilir.

İqtisadi inkişafda dinamizm və iqtisadi artım, makrosəviyyəli qəraralrın qəbul olunması Heydər Əliyevin idarəetmə siyasətinin təməli kimi qiymətləndirilir.

Azərbaycanın iqtisadi inkişaf və islahatlar şəraitində mövcud və perspektiv resurslardan səmərəli istifadə etmək yolları özünün uzun müddətli inkişaf strategiyasında öz əksini tapır.

Strateji yanaşma Azərbaycanın inkişaf təcrübəsində, özünü əsaslandırmış metodlardır. İqtisadi və sosial inkişaf strategiyası hədəflərin elmi əsaslarla tərtib olunması, bu hədəflərin sosial iqtisadi nəticələrini qiymətləndirməklə proqramlar yolu ilə reallaşma mexanizmlərini əsaslandırır. Planlı təsərrüfat sistemində ayrı-ayrı regionların və sahələrin inkişaf hədəflərini əsaslandırmaqla, resurs yanaşması Heydər Əliyevin strategiyasının metodoloji əsasını təşkil edir. Bazar iqtisadiyyatına keçid hər bir ölkədə özünün müddəti, nəticələri, problemləri və həlli yolları səmərəli təşkilatı idarəetmə üsullarından asılı idi. Bazar iqtisadiyyatının prinsipləri və onun Azərbaycanda özünün təşkili və tənzimlənilməsi ilə model olaraq formalaşıb. Resurslara əsaslanan proqmatik proqramlar ölkənin sahələr və ərazilər üzrə inkişaf istiqamətlərini müəyyənləşdirir. Azərbaycanın əsas resurs potensialı olan neft hasilatı və neft məhsullarının istehsalı aparıcı həlqə olaraq bazar iqtisadiyyatı şəraitində strateji məqsəd olaraq aparıcı iqtisadi həlqə kimi, Heydər Əliyevin təkidi və təşkilatçılığı ilə neft kontraktlarında özünü əks etdirir.

1990-1996-cı illərdə Azərbaycan iqtisadiyyatında tənəzzül dövrü olaraq iqtisadi artım tempi və ildə 40%-ə qədər infilyasiya səviyyəsi 180%-ə qədər artmışdır. Məhz neft kontraktlarının reallaşması iqtisadi azalmanı artımlı əvəz etmişdir. Neft kontraktlarının əhəmiyyəti və onun nəticələrinin bölgüsünə dair Heydər Əliyev fikirləri sonrakı dövrlərdə neft hasilatında iştirak edən dövlət və şirkətlərin qarşısında ədalətli bölgü prinsiplərinə uyğun yanaşmanı tələb etmişdir. Onun fikrincə, neft kontraktlarında şirkətlər əsas rol oynadığı halda Azərbaycan dövləti bu müqavilələrdə özü iştirak edir. Ona görə də əgər şirkət maraqları onlar üçün əsasdırsa, bizim üçün dövlət maraqları əsas olaraq çıxış edir.

Heydər Əliyevin strategiyası əsasında hər bir şirkətlə xüsusi müqavilə ayrıca qanun kimi Milli Məclisdə təsdiq olundu və hər bir şirkətin iştirak payı və gəlir payı qanunla tənzimləndi. Azərbaycan respublikasının payı məhsul istehsalı artdıqca artım təmin olunur.

Bazar iqtisadiyyatının formalaşması təməli, rəqabət mühiti yaratmaq, təşəbbüskarlıq və iqtisadi-sosial maraqların təmin olunmasına atılan səylər təşkil edir. Bazar iqtisadiyyatı şəraiti mülkiyyət plüarizmi təşkil etmək və azad rəqabət mühiti üçün bazar münasibətləri təşkil etmək vəzifəsi müstəqilliyin ilk günlərindən regional timsalında Naxçıvanda reallaşdırıldı.

Özəlləşmə riskləri dövlət olaraq bazar iqtisadiyyatına girişin təməli kimi Naxçıvanda reallaşdı. Özəlləşmənin əsas məqsədi, iqtisadi potensialın istifadə səmərəsini artırmaq, təşəbbüskarlıq, rəqabətə davamlı inkişaf strategiyasını təmin edən fəaliyyətlər və sahələr yaratmaqdan ibarətdir. Hər bir resursun, texnika, əmək, əmlak və əqli mülkiyyətin özəlləşməsi xüsusi qaydalar və meyarlar təşkilatı-iqtisadi göstəricilər və nəticələrə uyğun idarə edilir. [2]

Özəlləşmənin 1990-cı illərdə bir sıra məhdudlaşdırıcı və köklü islahatlara aparan amilləri mövcud idi. Ən çətin problem olaraq torpaq və sosializmdən qalan resursların özəlləşməsində ədalət prinsiplərini reallaşdırmaq idi. Bu dövrlərdə Naxçıvan Muxtar respublikasında Ali Məclisin sədri, bazar iqtisadi inkişaf modelinin əsasını və onun reallaşma mexanizmlərini əsaslandırıb həyata keçirmişdir.

Heydər Əliyevin özəlləşma strategiyasında sosial ədalət daha üstünlük təşkil edir. Bu baxımdan torpaqların, yerli əhali arasında hər nəfərə düşən sahəyə uyğun normalarla aparılır. Əmlakın isə satış yolu və investisiya imkanlarını nəzərə alaraq aparılması 1992-ci il Naxcıvan Muxtar respublikasında Ali Məclisin iclasında müzakirə edilmiş və qanun kimi qəbul edilmişdir. Bu məqsədi Heydər Əliyevin göstərişi ilə xüsusi işçi qrupu yaradılmış və onun hazırladığı regional proqram əsasında hazırlanmış proqramlar sonrakı dövrlərdə bütün respublikada

1994-cü ildə prezident aparatında alim və nazirlərin iştirakı ilə geniş mənada konseptual yanaşmaq üçün müzakirə edilmişdir.

Özəlləşmənin əsas məqsədi və prinsipləri, iqtisadi fəallığın artırılması, sosial ədalətə uyğun sahibkarlıq hüququnun təmin olunması və ölkə iqtisadiyyatında sosial rifahı təmin edən bölgü münasibətlərini təmin etmək vəzifəsi durmuşdur. Özəlləşmənin islahatlar çərçivəsindəilkin şərait olması ilə yanaşı sonrakı mərhələdə azad rəqabət və təşəbbüskarlıq üçün təməl olmasına qiymət verən Heydər Əliyev bir sıra strateji fəaliyyətlərin dövlət mülkiyyətində olmasına üstünlük vermişdir. Ölkədə gəlir gətirən sahələrin dövlət mülkiyyətində tənzimləmə obyekti kimi saxlanılması ölkənin iqtisadi artımına və sosial müdafiə tədbirlərinin mərkəzləşdirilmiş formasına üstünlük verilməsinə səbəb olmuşdur. Heydər Əliyevin iqtisadi siyasətində sosial müdafiə, sosial təminat və sosial gərginliyin yumşadılması tədbirləri özünə məxsus mexanizmlər vasitəsi ilə reallaşıb. Daha çox sosial yönümlü siyasət ölkənin büdcə, maliyyə, bölgü və ctimullar sistemində özünü tapmışdır. Dövlətin iqtisadi imkanları artdıqca büdcə, sosial müdafiə və sosial sahələrə baxış bucağı Heydər Əliyevin nəzəri və metodiki fikirləri ilə indi də tətbiq olunur.

Heydər Əliyev siyasətində proqmatik yanaşma və sistemli idarəetmə metodları özünəməxsus qaydada tətbiq edilirdi. Planlı təsərrüfat sistemində əsas xalq təsərrüfatı və regional inkişaf istiqamətləri aparıcı prioritet olaraq reallaşdırılırdı. Belə ki, nəqliyyat infrastruktura və resurslara əsaslanan məhsuldar qüvvələrin yerləşməsi metodları əsaslandırılardı. Məqsədli proqram metodları olaraq SSSP-i kimi dövlətin təbii-coğrafi, yeraltı sərvətləri və iş qüvvəsindən istifadə etmək üçün bir sıra regional və sahələr üzrə proqramlar hazırlanmış və reallaşmışdır. 1986-2005-ci illər üçün xalq istehlakı malları istehsalı məqsədli proqramının tərtibi və reallaşması o vaxt siyasi büronun üzvü olan nazirlər kabinetinin birinçi müavini heydər Əliyevin başçılığı ilə reallaşmışdır. SSSR-i timsalında tərtib olunan bu proqramın təcrübəsi Heydər Əliyevin müstəqillik illərində bazar tipli inkişaf modelinin metodiki əsası olmuşdur. Ali məqsədlərə nail olmaq hədəflər kimi  konseptual yanaşmanın əsası kimi qəbul edir.

Sosial proqramlar əhali rifahı, sosial müdafiə, sosial infrastruktura və regional inkişaf istiqamətlərində öz əksini tapır. [3]

Heydər Əliyevin strateji yanaşma metodologiyası və idarəetmə modeli, uzun müddətli proqramlar və kompleks tədbirlər sistemini əhatə edir. Proqram xarakterli tədbirlərin reallaşması hədəf, resurs və texnologiyalar modellərini nəzərdə tutur.

Müasir Azərbaycanın islahatlar proqramları, məhz Heydər Əliyevin sistemli və əsas məqsəd əmələgətirici iqtisadi və sosial sahələrin, ərazilərin və fəaliyyətlərin idarəedilməsi təcrübəsində əksini tapır. Sistemli yanaşma ölkədə hədəf, resurs və sosial səmərə nəticələrini əldə etmək üçün yaradılan məcmuu fəaliyyətlər və əlaqələrdir. Məcmuu səmərə almaq üçün bütün maraqları qiymətləndirmək yolu ilə alternativ yanaşma müasir makro iqtisadi idarəetmə təcrübəsidir. Məhz müasir, nəzəri və praktiki aspektlər olan inkişaf iqtisadiyyatı gələcəyə baxış konsepsiyası və onun həlli yolları ilə hüquqi baza və səmərəli proqnozlarla mümkündür. Məhz bu hədəflərə konstitutsional yanaşma yolu ilə hakimiyyətin bölgüsü və idarəetmə strukturunun institutsional səviyyəsi hazırlanmışdır. Müasir şəraitdə açıq bazar iqtisadiyyatı ölkədaxili iqtisadi potensialın beynəlxalq bazara yönümlüyünü təşkil etmək, iqtisadi əlaqələrin səmərəli təşkili ilə mümkündür. Bu konseptual yanaşma baxımından ölkənin iqtisadi dövriyyə cəlb edilməsi üçün xarici investisiyaların ölkəyə cəlb edilməsi yolları, hüquqi və iqtisadi maraqlara əsaslanan əmək bölgülü və pay bölgüsü sistemi yaradılmışdır. İqtisadi əlaqələrin əlverişli variantı, idxal-ixrac və investisiya əlaqələrinin tətbiqi üçün zəruri olan qanunlar və prinsiplər, proqramlar tətbiqi ilə inteqrasiya amilini adekvat təsiri qiymətləndirilir. Azərbaycanda təbii ehtiyatların səmərəli istifadəsi tranzit potensialının dövriyyə cəlb edilməsi strategiyası Heydər Əliyev tərəfindən təməli qoyulan Bakı Ceyhan neft kəməri və təbii qaz kəməri layihələri Azərbaycan iqtisadiyyatının perspektiv inkişafına şərait yaradır.

Müasir şəraitdə Azərbaycanın iqtisadi inkişafının təməli olan onun təbii qaz, neft və resurslarına işğaldan azad olunan Azərbaycan regionlarının potensialını iqtisadi dövriyyə cəlb etməklə daha dayanıqlı iqtisadi əlaqələr və inkişaf dinamikası yaratmaqdır. Konseptual yanaşma, sistemli və səmərəli alternativ variantların sosial iqtisadi inkişaf dinamikasında reallaşma mexanizmləri ilə təmin olunur. Bu prinsiplərə uyğun olaraq uzun müddətli strategiyaların tətbiqi əsasında əməli fəaliyyət mexanizmləri xarici və daxili çağırışlara adekvat olan qərarlar qəbul etməyə imkan verir. [1]

Heydər Əliyevin konseptual yanaşma ilə iqtisadi və sosial sistemdə zəif həlqələri müəyyən etməyi və bu sahədə islahatların keçirilməsini metodiki əsas kimi qəbul edir. Onun təcrübəsi və bazar iqtisadiyyatı şəraitində əsası qoyduğu islahatlar proqramları Azərbaycan iqtisadiyyatının inkişafının müasir problemlərini həll edir.

Sosial yönümlü və rifah, məşğulluq və regional inkişaf Heydər Əliyevin iqtisadi və sosial siyasətinin meyar və səmərəsi olaraq daima elmi və konseptual baxışdan tədqiq olunub. Azərbaycanın real iqtisadi inkişaf strategiyası, onun resurslarına əsaslanan struktur dəyişmələri Heydər Əliyevin sosial iqtisadi inkişaf modeli kimi tətbiq oluna bilir. Struktur dəyişmələr iqtisadi artımın tərkib hissəsi olmaqla, aparıcı və multipikasiya səmərəsi kimi qiymətləndirilir.

Müasir şəraitdə struktur siyasət regional, sahə, fəaliyyətlər və sosial iqtisadi münasibətləri idarə edən və perspektiv qərarlar üçün tətbiqi mexanizmlər yaradan dinamik bir fəaliyyətdir. Makrosəviyyəli struktur siyasət, iqtisadi artım, onun əsas amilləri, bölgü və yenidən bölgü, istehlak və investisiya qoyuluşları arasında nisbətlərin səmərəli variantını əsaslandırır. Struktur dəyişmələr iqtisadi və sosial sistemin iearxiya strukturunu formalaşdırır. Bu iearxiyanın tarazlığı və dayanıqlığı, ölkə iqtisadiyyatının dayanıqlı və davamlı inkişaf meyllərini müəyyənləşdirir.

Davamlı inkişaf ölkədə sosial, investisiya, təkrar istehsal və bölgü siyasətinin tarazlı və əlverişli əlaqə formalarını, metodlarını formalaşdırır. Heydər Əliyev Azərbaycan reallığında bu iearxiya (ağacın) əsas şaxə və budaqlarını inkişaf etdirmək anatomiyasını vermişdir. İqtisadi və sosial proseslər çox mürəkkəb, şaxəli, nəticə və fəsadları olan qərarlarla daima idarə olunur. Bunun üçün siyasi iradə, iqtisadi bərabərlik, ədalətli sistem və uzaq görən qərarlar vacibdir. Regionların sosial-iqtisadi inkişafına dair təcrübə və proqmatik yanaşma hər bir regionun potensialını qiymətləndirmək, həmin regionların iqtisadi artıma və rifahın yüksəldilməsinə təsirini gücləndirməkdən ibarətdir. Bu konseptual yanaşmaya uyğun olaraq dövlət tənzimlənilməsi sistemi formalaşır. Dövlətin regional siyasəti mərkəzləşdirilmiş büdcə gəlirlərini, regionla dövlət arasında əlaqənin əlverişli variantlarını tətbiq etmək sahələrini əhatə edir. Dövlətin iqtisadi gücü prioritetlər üzərində qurulur. Heydər Əliyev planlı və bazar iqtisadiyyatı şəraitində aparıcı həlqə olan sahələrin və fəaliyyətlərin, tələbatların prioritetliyini təmin etmək strategiyası əsas rol oynayırdı. Heydər Əliyev neft kontraktlarını bağlamaqla ölkənin maliyyə əsaslarını möhkəmlətdi. Daha çox inteqrasiya sistemini yaratdı. Regionların inkişafında strateji və sistemli yanaşma Heydər Əliyevin regional siyasətində öz əksini tapmaqla, sonrakı illərdə 2004-cü ildən başlayaraq hər dörd ildən bir təzələnir.

Regional inkişaf strategiyası maraqların uzlaşması və gəlirlərin bölgüsü rifah üçün ilkin və sonrakı şəraitin yaradılması tədbirlərini əhatə edir. Fikrimizcə, aşağıdakı amillər və şəraitlər müasir regionların yenidən qurulması üçün təməl olmalıdır:

- məşğulluq və iş yerlərinin təşkili;
- infrastruktur təminatı və tələbata uyğun xidmət sferası;
- maliyyə sisteminin təşkili və sahibkarlıq şəraitinin artması;
- regionlarda sosial müdafiənin təşkili və prioritetlər üzrə stimullar yaradılması;
- regionlarla dövlət mexanizmlərinin prioritetlər və ədalətli sistem üzrə təşkili;
- regionlara himayəçilik siyasətinin əsaslandırılması və uyğun funksiya və məqsədlərə uyğun differensiyası;
- subsidiya, güzəşt və digər yardımların fəal və elmi əsaslarla qurulması.

Bütün bu istiqamətlər, müxtəlif şəraitdə olan regionlar üçün fərqli mexanizmlərlə təmin olunur. Məqsədli proqram yanaşması Heydər Əliyev tərəfindən hələ planlı təsərrüfat sistemində tətbiq edilir. Dövlət himayesi, elmi əsaslarla hədəflərin adekvatlığını sübut edərək tətbiqi və resurslardan səmərə bu proqramların nəzəri əsasları olmaqla müasir reallıqda bir sıra aparıcı sahələrdə tətbiq edilir. Proqramların tətbiqi uyğun sahələrin də tarazlığına və artım dəyişmələrinə təsir edir. Müasir şəraitdə bütün iqtisadi sistemin struktura təsir etməklə son məqsədə yönəldir.

Heydər Əliyev işğal olunmuş regionların iqtisadi dövriyyə cəlb edilməsini proqnozlaşdırdı. Ona görə bu regionlar təsərrüfat vahidi kimi saxlanıldı və onların institutsional vəziyyəti və səlahiyyətləri daima fəaliyyət göstərirdi. Məhz Heydər Əliyevin proqmatik təfəkkürü müasir şəraitdə ölkə prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə reallığa çevrilir. Misli görünməyən işğalçılıq, onun nəticələri qarşıda duran bərpa strategiyası, özlüyündə yeni dövr, dircəliş iqtisadiyyatı və "bacarıqlar bazarı" yaradır. Fikrimizcə, son 50 ildə iqtisadi və sosial inkişaf və dircəliş baxımından indiki mərhələ 2030-cu ilə tamamilə keyfiyyətcə yeni mərhələ olacaq.

Bu on ildə (2020-2030) ölkədə ərazi bütövlüyü çərçivəsində iqtisadi artım, sosial rifah, keyfiyyətcə yeni həyat tərzi, şəffaf münasibətlər sistemi, bacarıqlar bazarı və yeni fərqli stimullar sistemi yaranacaq.

Ədalət və bərabərlik Heydər Əliyevin daxili aləmi idi. Onun böyüklüyü o idi ki, hər şeyin dəyərini verməyi bacarırdı. Müasir şəraitdə onun yaratdığı iqtisadi, sosial sistem daha da möhkəmlənəcək və Heydər Əliyevin ruhu şad olacaq.

## İstifadə olunmuş ədəbiyyat siyahısı


1. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Azərbaycan Dövlət nəşriyyatı Bakı 1992 səh.388
2. Ə.Q.Əlirzayev İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri Bakı 2005 səh.538
3. Ə.Q.Əlirzayev Nehrəm Bakı 2003 səh.408

**Fiz-riy.e.d., prof. Rzayev Orucəli Hüseynqulu oğlu**
*UNEC Zaqatala filialı, o.h.rzayev@mail.ru*

**Biol.e.n, dos. Raziyev Səfər Əmin oğlu.**
*UNEC Zaqatala filialı, sefer.raziyev@mail.ru*

# AZƏRBAYCAN REGİON ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFINA AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEV ERASININ TƏSİRİNİN XRONOLOGİYASI

Xülasə

Məqalədə UNEC Zaqatala filialının fəaliyyətə başladığı vaxtdan (29 aprel 2016 cı il) bu günə kimi onun Respublikanın Şimal- Qərb regionunun sosial- iqtisadi inkişafına təsiri üzrə məsələlərə aydınlıq gətirilmişdir. Buraya əhalinin məşğulluğunun təmin olunması, bölgə əhalisinin intellektual səviyyəsinin yüksəldilməsi, gənc nəslin keyfiyyətli Ali təhsilə əlçatanlılığının təmin edilməsi və i.a. daxildir. İşdə həmçinin, Azərbaycan ali təhisili qarşısında duran məsələlərdən onun səviyyəsinin dünya təhsil sisteminin standartlarına çatdırmaq və xalqımız, dövlətimiz üçün hərtərəfli inkişaf etmiş, bilikli, bacarıqlı, praktik vərdişlərə malik gənc nəsil yetşdirilməsi üzrə məsələlər də müzakirə edilmişdir. Respublikamızda ali təhsil sahəsində tədrisin inkişafına Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev erasının təsirinin xronologiyası da müzakirə obyektinə daxildir. Nəticə olaraq UNEC Zaqatala filialında tədrisin keyfiyyətinin yüksəldilməsi və bu xüsusda onun regionun inkişafına birbaşa təsiri üçün innovativ metodların tətbiqinin genişləndirilməsi tövsiyyə edilmişdir.

Açar sözlər.

Təhsil standartları, innovativ metodlar, regional inkişaf, təhsil islahatları, universitet modeli.

Azərbaycan ali təhsili qarşısında duran əsas məsələlərdən biri, bəlkə də birincisi onun səviyyəsinin dünya təhsil sisteminin standartlarına uyğunlaşdırmasıdır. Ali təhsil sahəsində tədrisin keyfiyyətinin yüksəldilməsi nöqteyi nəzərindən UNEC əsas hədəf olaraq rəqabət qabililiyyətli universitet yaratmağı ön plana çəkmişdir(5,12). Bu sahədə fundamental işlərinin əsası Azərbaycan xalqının Ümümmilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər II dəfə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ilk gördüyü işlərdən biri təhsil sahəsində islahatlara başlamaq oldu. O, deyirdi ki,təhsil sistemində hər bir yeniləşmə inqilabi yolla deyil, təkamül yolu ilə həyata keçirilməlidir. H.Əliyev Azərbaycan ali təhsilinin səviyyəsinin dünya təhsil sisteminin standartlarına çatdırılmasını əsas hədəf kimi qarşıya qoymuşdu. O, bu ideyaları təhsil sistemində həm forma, həm də məzmun dəyişiklikləri aparmaqla həyata keçirilməyi əsas istiqamət kimi müəyyənləşdirirdi. Azərbaycan ali təhsilinin beynəlxaq standartlar səviyyəsində qurulmasında əsas işlər Ümummilli lider II dəfə Respublika rəhbərliyinə qayıtdıqdan sonra geniş vüsət aldı. H.Əliyev 1993-cü ilin avqustudan başlayaraq müxtəlif vaxtlarda təhsil işçiləri, Respublika gəncləri, XX əsrin 70-80-cı illərində özünün tövsiyyəsi ilə Azərbaycandan kənardaali təhsil almağa göndərilmiş şəxslərlə görüşürdü. O, 30 mart 1998-ci ildə Azərbaycanda ali təhsil sahəsinin beynəlxalq standartlara uyğun təşkili üçün proqram hazırlanması məqsədi ilə dövlət komissiyası yaratdı. İşci qrup ali təhsilimizin mövcud vəziyyətini təhlil edərək eyni zamanda bir sıra inkişaf etmiş dünya dövlətlərinin təhsil islahatları ilə tanış oldu. Ali təhsil sahəsində təhsil sistemini tənzimləyən 15 iyun 168 saylı 1999-cu il tarixli sərancam ilə islahat proqramı təsdiq edildi. Ümummilli lider təhsil sahəsində islahatları öz şəxsi təşəbbüsü kimi gündəmə gətirərək "təhsil millətin gələcəyidir" kəlamına nə qədər önəm verdiyini sübut etdi(2, 51). Əslində bu işlər hələ I dəfə Ümummilli lider Azərbaycana rəhbərlik etdiyi dövrdə başlanmışdı. Daha doğrusu Azərbaycanın II dəfə müstəqillik əldə etməsinin bünövrəsi 1969- cu ildə Heydər Əliyev cənablarının Respublikanın siyasi rəhbəri təyin edilməsindən sonra başlanmışdı(3,2). Həmin dövrdə bir sıra yeni realliq

üçün lazım olan sahələr üzrə ali təhsil məktəbləri yaradılmışdı.Onların kadr potensialını həll etmək üçün SSRİ-nin 50-dən çox şəhərinin 170-dən çox ali məktəbinə 80-dən artıq sahəni əhatə edən 250-dən çox ixtisas üzrə 15000-dən artıq Azərbaycanlı gənc yüksək ixtisaslı kadr kimi formalaşması üçün göndərildi. Yunesko tərəfindən XXI əsrin "Təhsil əsri" adlandırılması Azərbaycan ali təhsil sistemini Beynəlxalq standartlar səviyyəsinə çatdırmaq və dünya təhsil sisteminə inteqrasiya olunmaq kimi ümidlər formalaşdırırdı. Müasir Azərbaycanın inkişafının sovetlər dönəmindən sonrakı dövrdə Ulu öndər öz potensial imkanlarından daha yüksək səviyyədə istifadə etməyə başladı(4, 232). H Əliyev deyirdi ki, ali təhsil sahəsində islahatlar elə olmaıdır ki, burada iqtisadiyyatdan və i.a . fərqli olaraq cəmiyyətin bütün zümrələri iştirak etməlidirlər. Burada bir çox müddəlar irəli sürüldü :-Təhsil sistemində yeniləşmə inqilabi yolla deyil təkamüllə həyata keçirilməlidir;-Digər ölkənin təhsil sistemi adekvat götürülməməlidir; -Qabaqcıl ölkələrin təhsil sistemində aparılan islahatlar öyrənilməlidir;-Milli mənəvi dəyərlərimiz və formalaşmış yaxşı ənənələrdən istifadə edilməlidr;-Ali təhsil sahəsində mövcud vəziyyət və problemlər araşdırılmalı və qarşıda duran məsələlərə ayındınlıq gətirilməlidir;- Burada ümumbəşəri dəyərlərin də nəzərə alınması xüsusi önəm kəsb edir. Təhsil sahəsində, o cümlədən ali təhsil istiqamətində islahaların I mərhələsi yeni bazar münasibətlərinə uyğun hüquqi bazanın yaradılması ilə başladı. II mərhələdə ali təhsil sahəsində kadr potensialını həll etmək prinsipial məsələ kimi qarşıda dururdu. Bu mərhələdə həmçinin, təşkilati, maliyyə, maddi- texniki, elmi- metodiki və i.a. məsələlərin həlli planlaşdırılırdı. İslahatların son və III mərhələsində görülmüş işlərin analizi və sonlandırılması nəzərdə tutulurdu. Bu mərhələlərin bütövlükdə 128 tədbirdən ibarət olduğunu nəzərə alsaq islahat proqramının genişliyi və əhatə dairəsi barədə tam fikir formalaşmış olacaqdır. Burada həmçinin, ümummilli liderin ideyaları əsas götürülərək bir çox prinsiplər ödənməli idi: - Təhsil sisteminin səviyyəsinin inkişaf etdiriliməsi üçün etdibarlı bazanın yaradılmasından ötrü modern, iqtisadi artıma əsaslanmış sistemə keçirilməsi;- Humanizim,inteqrasiya, diferensiallaşma, demokratikləşmə, fərdiləşmə və i.a prinsiplərə əsaslanan, öyrənənlərin mənafeyinə xidmət edən ali təhsil sisteminin yaradılması;- Toplanmış mütərəqqi təcrübə əsas götürülməklə qabaqcıl ölkələrin naliyyətlərindən istifadə etmək;- Professor- müəllim heyətinin effektiv fəaliyyəti üçün texniki təminatın yerinə yetirilməsi şərti ilə ictimai idarəetmə sisteminə keçirilməsi;- Ali təhsildə mütərəqqi, ictimai özünümaliyyələşmənin həyata keçirilməsi;- Ali təhsil sahəsində islahatlarda humanizm prinsiplərini əsas götürərək professor- müəllim heyyətinin yaradıcı fəaliyyətinə şərait yaratmaq, onların hüquq və azaqlıqlarını təmin etmək;- Ali təhsildə islahatların praktikliyini təmin etməklə yeniliklərin həyata keçirilməsi;- Ali təhsil sisteminin proporsional inkişafını təmin etmək;- Bu sahədə imkanları genişləndirərək ali təhsilin rəqabət qabiliyyətinin atırılması;- Ali təhsil sisteminin idarə edilməsində demokratik dəyərlərdən istifadə edilməsi.

Ali təhsildə proqramların, dərsliklərin standartlara uyğun hazırlanması islahatların mühüm hissəsidir. Modern dərsliklərin, dərs vəsaitlərinin və sillabusların hazırlanması islahatların mühüm bəndi kimi qarşıda durur. İslahatların mühüm bir istiqaməti tələbələrin biliyinin qiymətləndirilməsidir. Burada çoxballı sistemin tətbiqi bir çox üstünlükləri ilə özünü göstərir. Ulu öndər II dəfə Azərbaycan xalqının iradəsi ilə hakimiyyətə gəldikdə ilk gördüyü işlərdən biri də bölgələrdə Ali təhsil müəssisələrinin yaradılması üzrə geniş spektrli fəaliyyətə başlaması oldu. Belə ki, onun məlum əmri ilə Azərbaycan Müəllimlərin İxtisasartırma və Təkmilləşdirmə İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu, onun Naxçıvan Muxtar Respublikası və Respublikamızın bütün regionlarını əhatə edən 12 filialı yaradıldı. Bu bir tərəfdən bölgələrdə pedaqoji kadrlara olan çatışmamazlığı aradan qaldırdı, digər tərəfdən ixtisasartırma və yenidən hazırlanmanın yerlərdə icra olunmasına şərait yaratdı. Region universitetlərinin yaradılması üzrə müsbət praktika Möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilir. Belə ki, 29 aprel 2016- cı il tarixdə onun şəxsi qayğısı ilə UNEC Zaqatala filialı yaradıldı. Filialın yaradılmasında məqsəd:- regionların sosial,iqtisadi ikişafına tövhə vermək;- ali təhsilli mütəxəssislər hazırlamaq;- elmin inkişafına

şərait yaratmaq;- regionlarda əhalinin maddi və mənəvi tələbatlarını təmin etmək;- bölgənin turizim potensialını inkişaf etdirmək;- əhalinin yüksək səviyyədə idman, sağlamlıq və istirahətinin təşkilini həyata keçirmək və i.a idi. UNEC Zaqatala filialı yarandığı gündən hal-hazıra kimi yuxarıda qeyd edilən və i.a. sahələrdə Ümummilli liderin ali təhsilin regionlarda inkişafı üzrə müəyyən etdiyi ana xətti müvəffəqiyyətlə yerinə yetirməkdədir. Burada ilk növbədə rəqabət qabiliyyətli universitet yaratmaq ön plana çəkilmişdir. Biz yuxarıda qeyd etdiyimiz məqsədlərə çatmaq üçün ali təhsil sahəsində araşdırmalar apardıq. Belə fikirə gəldik ki, Ulu öndərin təyin etdiyi ana xəttin, yəni inkişaf etmiş dövlətlərin univeristetlərinin təhsil standartlarına çatmaq üçün ilk növbədə innovasiyaları tətbiq etmək lazımdır. Bildiyimiz kimi ali innovativ təhsilə təhsil kompetensiyaları, təhsil texnologiyaları, innovativ təhsilin təşkili sturukturu daxildir. Burada tələbələrin təhsil zamanı cızdıqları trayektoriyanın son nəticəyə necə təsir edəcəyi əvvəlcədən planlaşdırılır. İnnovasiyaların ali təhsil sistemində təhsilin keyfiyyətinin hərtərəfli inkişafına töfvə verməsi üçün tələbələrin seçdikləri ixtisasa uyğun qrup və ya fərdi təqdimatlar yaratması vacibdir. Eyni zamanda son nəticə olaraq praktik nəticələr əldə edilməlidir. Universitetlərdə innovasiyaların nəticələrinin müsbət sonluq verməsi üçün biz aşağıdakı amilləri nəzərə alırıq:- Moderin dünya ali təhsil sistemində gedən mütərəqqi proseslər sistemli izlənilir və ən dəyərli informasiyalar seçilir;- İnnovativ bacarıqları olan mütəxəssilərin hansı konkret işləri icra edəcəyi müəyyənləşdirilir;- Yeni modelin təyinatına ixtsasın tədris proqramı, silabuslar, tədris vəsaitləri və i.a. daxildir;- Bundan sonra fikrimizcə yüksək səviyyəli texniki baza formalaşdırılır;- İnnovasiyalar içərisində təyin metodları xüsusi çəkiyə malikdir. Deyilənlərin icrasından sonra tələbələr interaktivlik qazanırlar. Bunu təmin edilməsi üçün isə seminar, praktik və laboratoriya dərslərinin imkanlarından düzgün bəhrələnmək lazımdır:- Tələbələr yuxarıdakıların icrası ilə əməli faliyyətləri güclənir real iş görmək vərdişləri formalaşır, tələbə nə bilir yox . nə bacarır prizmasından xeyli irəliləmiş oluruq;- Ali təhsil sahəsində əqli fəaliyyət  və hafizə ilə müəyyən olunun nəticədən praktik vərdişlərin yaranması ilə sonuclanan təhsilə keçid edərək biz tələbələri müstəqil həyata hazırlamış oluruq;- Təlim prosesində qruplarla iş üsulundan istifadə tələbələri gələcək iş yerlərində kollektiv əməyə hazırlayır, onlarda müstəqil düşünmə və sərbəst mühakimə yürütmə bacarığı formalaşdırır;- Tədris prosesində təlim prinsiplərindən olan fəal idrak, inkişaf etdirici təlim, əməkdaşlıq, qabaqlayıcı təlim, təlim tərbiyə sisteminin çevikliyi özünə məxsus üstünlüklər yaradır;- Ali təhsilin səviyyəsinin yüksəlməsində informasiya kommunikasiya texnologiyaları(İKT) özünə məxsus paya malikdir. Bütün bu dediklərimizin kökündə ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ali təhsil sahəsində gördüyü cahanşümül işlər durur. Regionlarda ali təhsilin inkişafına Ümummilli lider Heydər Əliyevin göstərdiyi qayğı onun digər bütün sahələrdə həyata keçirdiyi möhtəşəm fəaliyyətlərin kiçik bir hissəsidir. Ümummilli lider Azərbaycan xalqının yetirdiyi dahi şəxsiyyətlər içərisində öz hərtərəfli fəaliyyətinə görə öncül yerdə durur. Heç təsadüfü deyil ki, dünyanın aparıcı dövlətlərinin rəhbərləri onu keçən əsrdə xalqımızın yetişdirdiyi ən parlaq sima kimi qiymətləndirirlər. Azərbaycan ali təhsilinin, o cümlədən region univeristetlərinin müasir səviyyəyə gəlməsində Heydər Əliyev erasının təsirini yüksək qiymətləndirmək lazımdır. Xalqımız XX əsrin əvvələrində qazandığı müstəqilliyi 23 aydan sonra itirsə də uzun illərdən sonra öz azadlığına qovuşdu. Lakin, bu tarixi hadisənin xronologiyasına fikir versək görərik ki, onun fundamenti 1969-cu ildə Heydər Əliyevin Azərbaycan komminist partiyasının I katibi seçilməsindən sonra qoyulmuşdur. Heydər Əliyev tanrının ona verdiyi hərtərəfli qabiliyyətlər: tükənməz enerji, iti yaddaş, dərin zəka,  və i.a. nadir xüsusiyyətlər sayəsində nəhəng sovet imperiyası daxilində Azərbaycanın Dövlət quruculuğunun əsasını formalaşdırdı. Həmin dövrdə Azərbaycanın Paytaxtı Bakı şəhərində  və regionlarda yaradılan çox sayli univeristetlər Heydər Əliyevin həmin dövrdə də bu sahəyə xüsusi diqqət ayırdığını göstərir. Buna əsaslanıb demək olar ki, Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi həmin illər Respublikamızın intibah dövrü kimi qəbul olunmalıdır. Həqiqətən dövlətimiz müstəqillik qazandığı anda malik olduğu potensial həmin dövrdə Ulu öndərin Respublika həyatının müxtəlif sahələrində

qabaqgörənliklə sistemli şəkildə həyata keçirdiyi tədbirlər nəticəsində mümkün olmuşdur. Azərbaycan ali təhsil müəssələrində həmiçinin, regionlardakı bu tip müəssələrdə kargüzarlıqdan tutmuş elmi işlərə qədər yazışmalar Azərbaycan dilində aparılırdı. Regionlarda olan ali məktəblərdə seçilən ixtisaslar həmin bölgələrin gələcək inkişafına hesablanmışdı. Ümummilli lider səlahiyyətlərindən maksimum istifadə edərək Azərbaycan ali təhsilinin və regionlardakı ali məktəblərinin hərtərəfli inkişafı üçün əlindən gələni edirdi. Ulu öndərin o dövrdəki saysız hesabsız xidmətlərinə ali təhsil sisteminin mərkəzdə və regionlaradakı o dövrdəki inkişafını kulminasiya nöqtəsinə çatdırması və bu xüsusda həmin müəssisələr üçün yeni binaların tikilməsi, onların həmin dövr üçün ən qabaqcıl ölkələrdən ümumittifaq büdcəsi hesabına alınmış avadanlıqlarla təmin ediməsi və i.a. daxil idi. Mərkəzdə və regionlardakı ali məktəbləri yüksək səviyyəli müəllim kadrları ilə təmin etmək üçün H.Əliyev azərbaycanlı gəncləri ən nufuzlu ittifaq universitetlərinin nadir ixtisaslarına, aspirantura və doktoranturalarına göndərilməsini diqqət mərkəzində saxlayırdı. Onların sonradan heç bir bürökratik əngəl olmadan öz ixtisasları üzrə fəaliyyətini davam etdirmələrini də o dahi şəxsiyyət bilavasitə həyata keçirirdi. Həmin dövrdə Heydər Əliyevin SSRİ-nin ən yüksək hakimiyyət elitasında olduğu dönəmdə ali təhsil sahəsində mərkəzdə və regionlarda məqsədönlü tədbirlər həyata keçrilməsəydi, milli mənəvi dəyərlər qorunub saxlanmasaydı bugünki reallığımızda malik olduğmuz ali təhsil sisteminin yüksək səviyyəsi də mövcud olmazdı. Ali təhsil sahəsində inkişafın növbəti dönəmində ümumilli lider öz dahi ideyalarını reallaşdırmaq üçün yeni imkanlardan daha məharətlə istifadə etmək şansı qazandı. Belə ki, həmin dövrdə tarixi proseslərin məntiqi davamı kimi nəhəng imperiya dağıldı və Respublikamız Ulu öndərin əsasını qoyduğu mərkəzi və bölgəali təhsilini müstəgil inkişaf etdirmək şansı qazandı. Bu sahədə də ilk praktik addımı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev özü atdı. Digər sahələrdə olduğu kimi ali təhsil sahəsində də Azərbaycan dilinin tətbiqi işini gücləndirmək üçün 2001- ci ildə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” fərman imzalandı. Bununla da Azərbaycan dilinin ali təhsilin bütün spektrində tam mənada tətbiqi üçün Ulu öndərin gödüyü işlər öz kulminasiya nöqtəsinə çatdı. Ali təhsilimizin yuxarıda qeyd etdiyimiz mərkəzi və regionlar üzrə inkişafında Ümummilli lider H.Əliyevin danlmaz xidmətlərini əsas götürərək biz də yuxarıda sadaladığımız işlərlə yanaşı UNEC Zaqatala filialında yarandığı gündən bu günə kimi görülmüş işləri analiz etməli və qarşıda duran hədəfləri müəyyənləşdirməliyik. Azərbaycan Respublikasının təhsil sisteminin başqa sahələrində olduğu kimiali təhsil sistemində də mövcudqiymətləndirmə sistemi tərəfimizdən analiz olunmuş və təhsilimizin dünya təhsil sisteminin standartlarına uyğunlaşdırılması üçün yeni qiymətləndirmə mexanizmləri və vasitələrinin yaradılmasına başlanmışdır. Mərkəzdə olduğu kimi region ali təhsilində də qiymətləndirmə sistemindəki islahatlar təhsildə müsbət dəyişikliklərin alınması üçün mühüm vasitələrdən biridir. Qeyd etmək yerinə düşərdi ki, qiymətləndirmənin təlimvə tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsi təhsilin keyfiyyəti haqqında obyektiv məlumatın əldə edilməsinə xidmət edir. Hər bir ali təhsil müəssisəsinin özünün təklif etdiyi, milli qiymətləndirmə sistemlərinin yaradılması isə sonralar onun ölkələrin beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirakına zəmin yaradır. Fikrimizcə qiymətlədirmə prosesində öyrənənlərin qiymətləndirilməsində qruplarla iş ilə yanaşı fərdi xüsusiyyətlərə də diqqət yetirilməli lakin, bu zaman tətbiq edilən nörmativ hüquqi aktların vahidliyi prinsipi ödənilməlidir. Heydər Əliyev ideyalarının davamı kimi möhtərəm prezidentimiz İlham Əliyevin bir başa rəhbərliyi ilə qəbul olunmuş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası”-nda qiymətləndirmə məsələlərinə xüsusi önəm verilmişdir. Həqiqətən istər mərkəzi, istərsə də region universitetlərində həm professor- müəllim heyətinin səviyyəsinin dünya standartlarının səviyyəsinə uyğunlaşdırılması, həm də tələbələrin obyektiv, operativ və şəffaf qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması diqqət mərkəzində saxlanılmalıdır. Heç də az əhəmiyyət kəsb etməyən xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təhsil üzrə də qiymətləndirmə metodologiyasının hər iki universitet üçün müştərək hazırlanması üzrə işlər görülməlidir(7, 4). Bununla yanaşı

yeni qiymətləndirmə sisteminin müvəffəqiyyətlə sonuclanmasında onun meyarlarını yaradıcı şəkildə tətbiq etməyi bacaran, səriştə və kompetensiyaların imkan verdiyi üsullarla həyata keçirən və nəticədə yüksək keyfiyyətli təlim göstəriciləri olan nüfuzlu professor- müəllim heyyətinin olması yuxarıda qeyd olunan poseslərdə əsas meyarlardan biridir.Dediyimiz məsələlərdə yeniləşməyə mane olan baryerlər vaxtında araşdırılmalı və ustalıqla aradan qaldırılmalıdır(6, 74). Bu məsələnin reallaşması üçün tələbələrin nailiyyətlərinin qiymətləndirilməsi, fəaliyyətin uzunmüddətli strategiyasının və filialdaxili özünə məxsus üsullarının yaradılması üzrə "quizizz" saytının və i.a. müasir rəqəmsal metodların imkanlarından istifadə edilmədir. Qiymətləndirmənin yeni mexanizmlər və vasitələrlə həyata keçirilməsi özündə müasir qiymətləndirmənin əsas xüsusiyyətlərini əks etdirir. Bunlara fikrimizcə təhsilin keyfiyyətinin yüksəldilməsini ortaya çıxarmaq, qiymətləndirmənin obyektivliyini təmin etmək və tədrisin bütün mərhələlərində tətbiq etmək, inkişaf prosesini sistemli izləmək, qiymətləndirmə standartlarını müəyyən etmək və i.a. daxildir. Yeni qiymətləndirmənin üstünlükləri özünü bu prosesin məqsəd, rol və vəzifə, növlər, xüsusiyyətlər, meyar və göstəricilər, üsul və vasitələr kontekstində ənənəvi və müasir qiymətləndirmənin müqayisəsində aydın göstərir. Müqayisə üçün qeyd edək ki, ənənəvi qiymətləndirmədə onun rol və vəzifələrinə tələbəyə yalnız qiymət yazmaq aid idisə, bizim halımızda bu rol və vəzifə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və tədrisin bütün mərhələlərində tətbiq edilir. Ənənəvi qiymətləndirmənin daha bir çatışmamazlığı onun formal, qeyri dəqiq, müəllimin subyektiv rəyinə əsaslanması və sistemsiz olması idi. Müasir qiymətləndirmədə rəqəmsal üsullardan istfadə edildiyindən o obyektiv, operativ və şəffaf və i.a. üstün xüsusiyyətlərə malikdir. Üsul və vasitələr nöqteyi nəzərindən ənənəvi qiymətləndirmədə məhdud, qeyri- çevik qaydalardan istifadə edilirdisə, müasir qimətləndirmədə informasiya kommunikasiya texnologiyalarının(İKT) ən son nailiyyətlərindən bəhrələnirik. Bu isə çevikliyi təmin etməklə yanaşı bütün neqativ halların qarşısını da almağa imkan verir. Ali təhsil müəssisələrində və onların yerlərdəki filiallarında qiymətləndirmə üzrə aparılan tədqiqatlarda bu sahədəki fəaliyyətə qoyulan tələblər, qiymətləndirmənin monitoringi, onun kompanentləri, istiqamətləri,sxemləri, göstəriciləri və i.a. xüsusi önəm kəsb edir. Ona görə də aparılan tədqiqatların ali  təhsilin Ümumilli liderin qoyduğu xətt üzrə keyfiyyətinin yüksəldilməəsində qiymətləndirmənin mühüm rolunu nəzərə alaraq arşdırılmaların davam etdirilməsini təklif edirik. Ali təhsil sistemində tədrisin keyfyyətinin yüksəldilməsində əsas faktorlardan biri də fənnlərarası inteqrasiyadan istifadə edilməsidir. Elmlərin inteqrasiyasında konkret fənnin tədrisində digər fənnin materialından epizodik istifadə, didaktik məqsədlərə çatmaqda o qədər də kömək edə bilməz. Bu halda elmlərin qarşılıqlı əlaqədə inkişaf etməsi üçün ümumi anlayışların formallaşdırılması lazımdır. Fənnlər arası inteqrasiyasının real nəticələr verməsi üçün ilk növbədə proffesor –müəllim heyyətinin  bu iş sahəsində lazımi potensilala malik olması vacib şərtdir. Fizika ilə iqtisadiyyatın inteqrasiyası kontekstində I-nin fundamental qanunlarının II-də tətbiqi artıq real nəticələr vermişdir. Məsələn, iqtisadi inkişafın əldə edilməsində kinematika qanunlarından istifadə edilərək real nəticələr alınmışdır(1, 7). Bu inteqrasiya məsələlərində müxtəlif fənnlərin əlaqələndirilməsi üçün "qohum" fənn anlayışından istifadə olunur. Araşdırmalarda yeni elm sahələrinin faktlarının izahları üçün fundamental elmdə olan nəzəri postulatlardan istifadə edilməsi, yeni elm sahəsində ekrsperimental məlumatları əldə etmək üçün "qohum" fənnlərə aid əldə edilmiş praktik nəticələrdən yararlanmaqla həyata keçirilməlidir. İnformatikanın həm riyaziyyat, həm də fiizka üçün "qohum" fənn olması, onun əsasında universal riyazi modellərin qurulması fizikanın iqtisadi elmlər ilə inteqrasiyasında yeni imkanlar açır. Qeyd etdiyimiz kimi ekonofizika elminin bu sahədə əldə etdiyi naliyyətlər təqdirə laiqdir. Məsələn, nisbilik nəzəriyyəsinin postulatları maliyyə bazarlarının araşdırılmsında effektiv vasitədir. Bununla yanaşı fizikada Lorens çevrilmələrinin stabilliyini əsas götürərək qitisadi böhranın qarşısının alınmasına onun tətbiqi böyük perespektivlər vəd edir. Ali təhil müəssələrində və onun regiondakı fililalarında tədrisin keyfiyyətinin və əhatəliliyinin təmin edilməsində proffessor- müəllim heyyəti, tələbələr və

ictimai faktorlarlar üçlüyünün birgə fəaliyyətinin özünə məxsus rolu vardır. Belə ki, tələbələrin İKT-yə alüdəçilyi baxımından innovasiyaların tədrisə tətbiqində onların professor- müəllim heyyətinə bu işdə yardımçı olması günün reallığıdır. Bəzən onlar bu işdə daha irəli gedərək hətta İKT-nin tədrisə tətbiqini qabaqlayırlar. Onlar bu sahədə yeni ideyalara imza ataraq hətta müəllimləri təəccübləndirirlər. Müəllimlərə gəldikdə isə burada bəzən ənənəvilikdən əl çəkə bilməyən kadrlara təsadüf olunur. Son zamanlar UNEC-in keçiridyi müxtəlif səpgili təlimlər istər mühazirə, istərsə də seminar və laborator dərslərinin innovativ metodlarla keçirilməsi üzrə professor- müəllim heyyətində uyğun qabiliyyət formalaşmasında mühüm rol oynamışdır. Yuxarıda qeyd etdiyimiz ictmai faktorlar sırasında valideyinlər özünə məxsus mövqeyə malikdirlər. Xüsusi halda valideyin həm də müəllim olarsa, o öz övladının İKT-nin tətbiqi ilə müasir təlim metodlarından istifadəsini dəstəkləyəcəkdir. Çünki, o öz praktikasından gənc nəsilin bu yolla praktik vərdişlər qazanacağına əmindir. UNEC Zaqatala filialı Respublikanın şimal-qərb bölgəsində fəaliyyətə başladığı vaxtdan bu günə kimi sosial, iqtisadi sahələrdə xeyli irəlilləyişlər əldə edilmiş və bu sahədə fəaliyyət inamla davam etdirilir. Filialın proffesor- müəllim heyyəti bölgədə fındıqçılıq, tütünçülük, baramaçılıq, çayçılıq, gülçülük və i.a. sahələrin inkişafı üçün layihələrinin hazırlanmasında yaxından iştirak edirlər. Bunun təməli möhtərərm prezidentimiz İlham Əliyev cənablarının dəfələrlə bölgəmizə səfəri zamanı təklif etdiyi qiymətli fikirlərə əsaslanır. UNEC Zaqatala fililalının kollektivi bu proqram xarakterli göstərişləri əsas tutaraq yuxarıda adları çəldiyimiz sahələrin inkişafına öz layiqli tövhələrini verməkdədirlər. Bununla yanaşı bölgənin böyük turizim potensialının olmasını nəzərə alaraq UNEC Zaqatala filialında “turuzim işinin təşkili” ixtisası üzrə bakalavır hazırlığı aparılır. Bu təkcə bizim deyil, bütün regionların turizm potensilaının inkişaf etdirilməsi və gələcəkdə bu sahədən Respublikamız üçün gəlir əldə edilməsində mühüm əhəmiyyət kəsb edir. Bunun üçün ilk növbədə regionun turizm imkanları araşdırılmalıdır. Təqdirəlayiq haldır ki, artıq bu sahə üzrə filialın professor- müəllim heyyəti və tələbələrimiz geniş miqyaslı araşdırmalara başlamışlar. Bunun nəticəsində regionun tarixi abidələri, təbii ehtiyatlrı, görməli yerləri, füsünkar təbiət mənzərələri və i.a. araşdırması üzrə xeyli işlər görülmüşdür. Aydın məsələdir ki, turizim sektorunun inkişafı bütövlükdə regionun sosial- iqtisadi inkişafına mühüm tövhə verəcəkdir. Son zamanlar bura gələn turistlər regionu müşahidə edib, öz yerlərində reklam etməklə yanaşı, bölgənin iqtisadi potensialı barədə öz əhalisinə məlumatlar verir bu da bölgəyə turist axınının artırılması və bölgə iqtisadiyyatının dinamik inkişafına təkan verir. Bizim bu sahədə aparığımız tədqiqatlardan bu nəticəyə gəlmək olar ki, ilk növbədə ölkənin kənd təsərrüfatının müxtəlif sahələri araşdırılmış iqtisadi cəhətdən əlverişli istiqiamətlər müəyyənləşdirilməlidir. Vətən müharibəsində qələbə nəticəsində kommunikasiya vasitələrinin və logistikanın inkişafı nəticəsində digər dövlətlərlə qurulacaq iqtisadi əlaqələr yuxarıda qeyd etdiyimiz və digər sahələrində inkişafına öz tövhəsini verəcəkdir. Dövrün tələblərinə uyğun informasiya texnologiyaları ixtisası üzrə kadrların hazırlanması UNEC Zaqatala filialının regionların bu və digər sahələr üzrə kadrlarla təmin olunması və ümumi inkişafa verəcəyi töhfədən xəbər verir. Filialın professor- müəllim heyətinin apardığı araşdırmalar nəticəsində bölgənin alternativ enerji mənbələrindən istifadəsi üzrə təkliflər hazırlamışdır. Buraya günəş, külək enerjisi, bölgədə olan dağ çaylarıdan və bio enerjidən istifadə aiddir. Bunun nəticəsində alternativ enerji hesabına əldə edilən elektrik enerjisnin maya dəyərinin aşağı olması, onun həsabına istehsal ediləcək mal və məhsulların qiymətinin aşağı düşməsinə imkan yaradacaqdır. Gələcək tədqiqatlarımzda modern kənd təsərrüfatı və lazerlərin dənli bitkilərin məhsuldarlığının artırılmasında eyni zamanda tətbiqi perspektivləri araşdırılacaqdır. Aydın məsələdir ki, bu bütövlükdə qida təlükəsizliyiinin təminində böyük əhəmiyyət kəsb edir. Yuxarıda qeyd etdiyimiz kimi Ümummilli lider Heydər Əliyevin ali təhsilin təkcə mərkəzdə deyil, regionlarda da inkişafı üçün bünövrəsini qoyduğu tədbirlər UNEC Zaqatala filialı timsalında öz real nəticələrini verməkdədir. Yuxarıda qeyd edtiyimiz kimi UNEC Zaqatala filialı fəaliyyəti dövründə regionun sosial- iqtisadi inkişafı, ali təhsilli mütəxəsisləri yetişdirilməsi, elm və təhsilin inkişafı, bölgə rayonlarının əhalisinin maddi və mədəni

səviyyəsinin yüksəldilməsi, regionda turizmin inkişafı və i.a. sahələrdə xeyli işlər görmüşdür. Bunlar içərisində filialın professor- müəllim heyətinin elmi sahədə gördüyü işlərə nəzər salaq. 2018-ci il 31 mayda "İqtisad elminin müasir problemləri"mövzusunda,11 iyun 2019- cu il tarixdə "Müasir iqtisad elminin aktual problemləri" mövzusunda, 13 iyul 2020-ci il "Qlobal iqtisadi dəyişiklimklər və fürsətlər, fənnlər arası inteqrasiya" mövzusunda, 01 dekabr 2020-ci il tarixdə "Regionların sosial iqtisadi inkişafında müasir uniersitetlər:yeni çağırışlar və perspektivlər" mövzusunda keçirilmiş Respublika elmi-praktik konfranslarında Respublikanın aparıcı 10-dan çox elm və tədris müəssisələrindən yüksək ixtisaslı mütəxəssislər iştirak etmişlər. Bu konfransların təkcə son ikisində UNEC Zaqatala filialında çalışan professor müəllim heyyətinin uyğun olaraq 21 nəfəri 23 məqalə ilə və 22 nəfəri 24 məqalə ilə dərin mənalı çıxışlar etmişlər. Bunlarla yanaşı UNEC Zaqatala filialının professor müəllim heyəti digər yerlərdə keçirilmiş elmi tədbirlərdə fəal iştrak etmişlər. 2020-ci ildə UNEC- də keçirilmiş "Rəqəmsal iqtisadiyyat: reallıqlar və perspektivlər", I beynəlxalq konfransda (12-14 fevral 2020-ci il) filialımızın professor- müəllim heyyəti fəal iştirak etmişdir. Bu tədqiqatları UNEC Zaqatala filialının professor- müəllim heyyəti mövcud elmi-metodiki fəaliyyətin tələblərinə müvafiq olaraq həyata keçirirlər. Əvvəlcə elmi-tədqiqat işlərinin istiqaməti seçilir. Əyanilik nöqteyi nəzərindən bunu bir nümunə ilə göstərək. Məsələn, dəqiq və təbiət elmləri üzrə "İqtisadiyyat və idarəetmə" kafedrasının problemi və elmi tədqiqat işlərinin istiqaməti uyğun olaraq pedaqoqika və pisixiologiyaya uyğundur. İstiqamət olaraq təhsilin inkişafı üzrə dövlət strategiyasının tələbləri baxımından təhsilin məzmununa yeni yanaşmaları seçirik. Problem mövzu: müasir təlim metodlarının köməyi ilə tədrisin keyfiyyətinin yüksəldilməsində qarşıya çıxan baryerlər və onların aradan qaldırılması yolları. İş: tədris prosesində innovativ metodların tədbiqinin nəticələrinin təhlilində ictimai faktorların təsir imkanları. Mövzunun aktuallığı: müasir dövrdə tədris prosesində innovativ metodların tətbiqi günün tələbinə çevrilmişdir. Bu bir tərəfdən hal-hazırda qloballaşan dünyada baş verən sosial, iqtisadi və i.a. proseslərin cəmiyyətin bütün sahələrinə təsiri, digər tərəfdən Respublikamızın demək olar ki, öz ağuşuna almış insan fəaliyyətinin bütün spektırını əhatə edən inkişaf prosesi ilə əlaqədardır. Hal-hazırda tədris prosesində demək olar ki, əhali kütləsinin bütün zümrələri iştirak edir. Bu da bölgənin sosial-iqtisadi sahələrində inkişafına filialın təsir mexaniizmlərini araşdırmağı gündəmə gətirir. Tədqiqat obyekti: tədqiqat obyektini tədris prosesində innovativ metodların tədbiqinin nəticələrinə tələbələrin təsir imkanlarının araşdırılması təşkil edir. Tədqiqatın qarşısında duran başlıca məqdəs aşağıdakılardan ibrətdir:- Öyrənənlərin prosesə cəlb olunması imkanlarının araşdırılması;- Onların prosesdə iştirakına təsir edən amillərin müəyyən edilməsi;- Daha aktiv qrupların ümumi işə təsir yollarının öyrənilməsi. Tədqiqatın metodologiyası və metodikası: Tədris prosesində öyrənənlərin innovativ metodların tədbiqi nəticəsində danılmaz rolu olduğunu aşkara çıxarmaq və son nəticələrə təsirinə nail olmaq. Tədqiqat prosesində müşahidə, müsahibə, nəticələrin araşdırılması (analiz), nəzəri ümumiləşdirmə qruplaşdırmanın müxtəlif yolları, inteqrasiya və təhlil kimi metodlardan istifadə edilmişdir.Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, tədris prosesində innovativ metodların tədbiqinin nəticəsində öyrənən tərəf mühüm rol oynayır. Ona görə də onların təsir imkanlarının araşdırılıb istifadə edilməsi müsbət sonluq vəd edir. Tədqiqatın praktik əhəmiyyəti: Tədris proseində innovativ metodların tətbiqi gələcəkdə bu prosesin müxtəlif tərəflərinin həm bir-biri ilə qarılıqlı əlaqədə, həm də ayrılıqda inkişaf etməsində yardımçı olacaqdır. Belə ki, bu prosesdə insan faktoru ilə yanaşı texniki vasitələrində təsir imkanları genişdir. Hər iki faktorun bir-birini tamamlayaraq inkişaf etməsi sonda tədrisin keyfiyyətinə müsbət təsir edəcəkdir. İşin əsas məzmunu : Tədris prosesində innovativ metodların tətbiqinin nəticələrinə tələbələrin təsir imkanlarınını araşdırılmasıdır.. Sonda qeyd edək ki, UNEC Zaqatala filialının kollektivi bundan sonra da bölgənin müxtəlif sahələrdə inkişafı üçün əlindən gələni edərək Ulu öndərin və Azərbaycan prezidenti Zati aliləri cənab İlham Əliyevin etimadını doğrultmağa çalışacaqdır.

Ədəbiyyat.

1.Əsgərov Ş.S., Tərəqqinin fəlsəfəsi, UNEC Ekspert, №2, 2016, səh. 6- 7.

2.Xasiyev M.A., Xalqalayiqli rəhbərlik missiyası,"Tarixi faktlarımız", Bakı, 2010, 132 səh.

3.Xələfov A.A., Xalqımızın qürur və qeyrət simvolu, "Azərbaycan sədaları", Bakı, 2013, 64 səh.

4.Qasımlı M.C., Heydər Əliyev. İstiqlalımızın 20 ili, "Şəxsiyyətin qüdrəti", Bakı, 2012, 304 səh.

5.Məmmədov Z.F., Tədqiqat universitetinə keçid:Dünya səviyyəli universitetlərin təcrübəsinin UNEC-də təbiqi məsələləri, "İqtisad elminin müasir problemləri", Zaqatala, 2018, səh. 11- 19.

6.Raziyev S.Ə., Təhsildə yeniləşməyə mane olan baryerlər və onların ləğvi təcrübəsindən, "Müəllim hazırlığının müasir problemləri", Beynəlxalq konfrans, Bakı, 2014, səh. 74- 75.

7.Veysova Z.M., "Fəal və interaktiv təlim", Müəllimlər üçün vəsait, Bakı, 2008, 31 səh.

**i.e.d., prof. Əyyubov Veysəl Seyfəl oğlu**
*Mingəçevir Dövlət UniversitetinElmi işlər üzrə prorektor*

**b/m Tağıyev Arif Məmmədhəsən oğlu**
*Mingəçevir Dövlət Universiteti*
*eyyubovveysel@yahoo.com*

# MİLLİİQTİSADİİNKİŞAFIN “HEYDƏR ƏLİYEV MODELİ”NİN MÜASİR İNKİŞAF PARAMETRLƏRİ

*“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”*
**HEYDƏR ƏLİYEV**

***Xülasə***

*Məqalə azərbaycan xalğının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin və milli iqtisadiyyatının formalaşması, onun bərpa edilməsi və sosial-iqtisadi inkişafının təmin olunması, milli iqtisadi inkişaf modelinin (Heydər Əliyev modelinin) yaradılması və onun gələcək strategi hədəflərinin müəyyən edilməsi sahəsində gördüyü işlərə həsr edilmişdir. Məqalədə H.Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu hər iki dövrdə həyata keçirdiyi siyasi-ictimai və sosial-iqtisadi siyasətin nəticələrinin qısa xronoloji təhlili aparılmış və qiymətləndirilmişdir. Məqalədə həmçini Ümummilli Liderin davamçısı Azərbaycan Respublikası Prezidentı İlham Əliyevin hakimiyyəti dövründə ölkəmizin siyasi-ictimai və sosial-iqtisadi həyatında, onun dünya təsərrüfatına inteqrasiyasında əldə olunan uğurlara və inkişaf strategiyasının parametrlərinə geniş yer verilmişdir.*

***Açar sözlər:*** *inkişaf modeli, sosial-iqtisadi siyasət, strateji hədəflər, milli prioritetlər, Strateji Yol Xəritəsi.*

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev irsinin araşdırılmaları bir daha göstərir ki, Azərbaycanda milli dövlətçilik ənənələrinin və milli iqtisadiyyatın formalaşmasında, onun siyasi-ictimai və sosial-iqtisadi inkişafında, gələcək dövrə hədəflənmiş strateji inkişaf parametrlərinin müəyyənləşdirilməsində onun rolunu nəinki Azərbaycan xalqı, hətta dünya siyasi arenasının ən nüfuzlu liderləri belə həmişə yüksək qiymətləndirmişlər. Tarixən Azərbaycan dövlətçiliyində Heydər Əliyev dövrünü iki mərhələyə bölmək olar: birincisi 1969-1982-ci illər – Heydər Əliyevin Azərbaycanda ilk hakimiyyətdə olduğu dövr və ikincisi 1993-2003-cü illər – müstəqil və müasir milli iqtisadi inkişafımızın Heydər Əliyevin hakimiyyəti dövrü.

Ümummilli Lider Heydər Əliyevin birinci hakimiyyəti dövründə, yəni sovet idelogiyası və mərkəzləşdirilmiş planlı idarəetmə sisteminin mövcud olduğu bir şəraitdə Azərbaycanın milli dövlətçilik ənənələri və sosial-iqtisadi inkişafının təməli qoyulmuş, sənayenin, kənd təsərrüfatının, müxtəlif infrastruktur və xidmət sahələrinin inkişafı və səmərəliliyinin yüksəlməsi təmin olunmuşdur. Belə ki, bu dövrdə məcmu ictimai məhsulun və milli gəlirin həcmi ayrılıqda 2,1 dəfə, o cümlədən sənaye istehsalının həcmi 2,2 dəfə, əmək məhsuldarlığı 67,0 faiz, fond verimi isə 26,4 faiz artmışdır. 1970-ci ilə nisbətən 1982-ci ildə elektrik enerjisi istehsalı 1,4 dəfə artaraq 16,9 milyard kvt.saat təşkil etmişdir. Uyğun olaraq mineral gübrələr 2 dəfə, dərinlik nasosları 1,2 dəfə, pambıq lifi 2,3 dəfə, soyuducular 3,8 dəfə təşkil etmişdir. Bu illər ərzində Bakı Məişət Kondisionerləri, Salyan Plastmas Emalı zavodları, Sumqayıtda Kompressor zavodu, Üst trikotaj fabriki, Bakıda tikiş, ayaqqabı hissələri fabrikləri, Bulka-maya kombinatı, Gəncədə ət kombinatı, Lənkəranda, Xudatda konserv zavodları, Mingəçevirdə istilik elektrik stansiyasının ilk blokları və digər sənaye obyektləri tikilib istifadəyə verilmişdir. Neft

hasilatı, emalı və neft kimyası sənayesi, əlvan və qara metallurgiya, maşınqayırma sənayesi sürətlə inkişaf etmişdir.

Bu dövrdə kənd təsərrüfatında, xüsusilə pambıqçılığn, üzümçülüyün, çayçılığın, tütünçülüyün və onların emal sahələrinin, kəndin sosial infrastrukturunun, kənd əhalisinin rifah-halının inkişafında yüksək nəticələr əldə olunmuşdur.

Sovet ideologiyasının əksinə olaraq H.Əliyev bu dövrdə ilk dəfə olaraq ümumrespublika müşavirələrində təmiz azərbaycan dilində çıxışlar etməyə başladı, Azərbaycan SSR-nin Konstitusiyasına azərbaycan dilinin dövlət dili kimi daxil edilməsinə nail oldu, azərbaycanlı gənclərin SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrində, o cümlədən ali hərbi məktəblərdə təhsil almaları, respublikada elmin, təhsilin, səhiyyənin, mədəniyyət və incəsənətin və digər sosial infrastruktur sahələrinin inkişaf etdirilməsi, yerli kadr potensialının hazırlanması üçün əməli işlər gördü. Bütün bunlar Ümummilli liderin şəxsi nüfuzunun nəticələri idi. Təsadüfü deyildir ki, bu dövrdə Heydər Əliyevin şəxsi nüfuzu o qədər yüksəlmişdir ki, artıq 1982-ci ildə kecmiş hakim Sovet İttifaqı Kommunist Partiyası Büro Üzvü seçilərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olundu və ona böyük bir ölkənin əsas təsərrüfat və digər müxtəlif sahələrinin inkişafının koordinasiyası, o cümlədən XX əsrin qlobal layihələrindən biri olan BAM (Baykal-Amur maqistral dəmir yolu) tikintisinin həyata keçirilməsi həvalə edildi. Həmin illərdə bacarıqlı rəhbərlik, yüksək idarəetmə qabiliyyəti, şəxsi işgüzarlıq nəticəsində onun beynəlxalq və ölkədaxili nüfuzu o qədər yüksəlmişdir ki, SSRİ rəhbərliyində olan Qorbaçov komandası ona ciddi bir rəqib kimi baxaraq hər vəclə onu hakimiyyətdən uzaqlaşdırmağa çalışırdılar və bir müddət sonra müxtəlif intrqalarla buna nail ola bildilər.

Lakin bütün bunlara baxmayaraq Ümummilli Lider Heydər Əliyevin birinci hakimiyyətdə olduğu dövr ölkəmizin sosial-iqitisadi inkişafının qızıl dövrü kimi qiymətləndirilir və müasir milli iqtisadiyyatımızın formalaşması və inkişafının bünövrəsi hesab edilir.

Azərbaycanın milli iqtisadiyyatının formalaşması və onun strateji inkişaf istiqamətlərinin müəyyən edilməsinin növbəti mərhələsinin başlanğıcını birmənalı olaraq Ümummilli Liderin ikinci dəfə hakimiyyətə gəlməsi tarixi ilə bağlamaq olar. Xalqın təkidli tələbi ilə 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıdışı dərinləşən siyasi və sosial-qtisadi böhrana və hakimiyyət çəkişmələrinə son qoydu, quruculuq işlərinin davam etdirilməsi və qlobal işlərin həyata keçirilməsinə münbit şərait yarandı. Hakimiyyətinin ilk illərində Heydər Əliyev yaxşı bilirdi ki, müstəqilliyi təhlükə altında olan ölkənin, ilk növbədə, milli iqtisadiyyatını dircəltmək və inkişaf etdirmək lazımdır. Yeni bir iqtisadi sistem – bazar iqtisadiyyatı əsasında ölkə iqtisadiyyatının böhran vəziyyətindən qurtarılması və müstəqil milli iqtisadiyyatın əsasının yaradılmasının yeganə yolu ölkənin karbohidrogen ehtiyatları hasilatının bərpa edilməsi, onların dünya bazarlarına çıxarılması, ölkənin maliyyə-valyuta çatışmazlığının aradan qaldırılması idi. Bunun üçün həmin dövrdə xarici investorlar üçün yeganə maraq sahəsi olan ölkənin neft sektoruna xarici investisiyaların cəlb olunması Ümummili liderin çoxsahəli titanik fəaliyyətinin əsas istiqamətlərindən biri idi. Nəhayət, artıq tarixdən məlum olduğu kimi bütün çətinliklərə və bəzi fövqəl dövlətlərin təzyiqinə baxmayaraq, Heydər Əliyevin qətiyyətli iradəsi sayəsində , 1994-cü ilin sentyabr ayının 20-də, hamıya əfsanə kimi görünən, "Əsrin müqaviləsi" adlı neft kontraktları bağlandı. Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından müştərək istifadə edilməsi və neft hasilatının artırılmasının təmin olunması üçün beynəlxalq razılaşmalara nail olundu. Bu müqavilənin iştirakçıları beynəlxalq konsorsium təşkil etdilər ki, həmin konsorsiumla Azərbaycan Dövlət Neft Şirkəti arasında 30 il müddətinə müqavilə, artıq qeyd edildiyi kimi "Əsrin müqaviləsi" imzalandı. Bağlanılan müqavilədən sonra Azərbaycana, xüsusilə Xəzər neftinə dünya miqyasında maraq artdı, Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafını təmin edəcək yeni neft strategiyasının icrasına başlanıldı.

Ümummilli Liderimizin apardığı geniş miqyaslı siyasətin prioritet istiqamətlərindən biri milli bazarın dünya bazarı ilə, milli iqtisadiyyatın dünya iqtisadiyyatı ilə intensiv inteqrasiyasının düzgün və ona uyğun təşkil edilməsi olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə

Azərbaycanda “Qədim İpək Yolu”nun bərpasına nail olundu. Bununla da “Qədim İpək Yolu” Avropa-Qafqaz-Asiya beynəlxalq dəhlizi statusu aldı və AB-nin TRACECA proqramı çərçivəsində maliyyələşdirilməyə başlandı və qərargah (Daimi Katibliyi) Azərbaycanda yerləşdirildi. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası ilə bağlı konsensium yaradıldı və onun icrasına başlandı. “Əsrin müqaviləsi” dünya arenasında ölkəmizin nəinki iqtisadi, eyni zamanda onun siyasi nüfuzunun artmasına da güclü təsir göstərə bildi. Nəticədə Azərbaycan Respublikasının MDB dövlətləri ilə əməkdaşlıq münasibətləri gücləndi, Azərbaycanın dəstəyi və yaxından iştirakıyla GUAM təşkilatı yaradıldı. Eyni zamanda, Beynəlxalq Maliyyə qurumları ilə də (Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və sair) sıx əməkdaşlıq münasibətləri quruldu və bu təşkilatlar ölkə iqtisadiyyatının təşəkkül tapmasında, dünya iqtisadiyyatına inteqrasiya olunmasında və milli iqtisadiyyatımızın maliyyə təminatlığında yaxından iştirak etdilər.

Azərbaycanın makroiqtisadi göstəricilərinin təhlili və araşdırılması bir daha belə bir nəticəyə gəlməyə imkan verir ki, həmin dövrdə düzgün qurulmuş iqtisadi siyasət nəticəsində milli iqtisadiyyatımızın dinamik inkişafı bütün sahələrdə, o cümlədən, həm neft, həm qeyri-neft sahələrinin inkişafında, maliyyə sabitliyinin qorunmasında özünü göstərirdi. Həmin dövrdə H.Əliyev siyasətinin uğurli nəticələrindən biri Azərbaycan Dövlət Neft Fondunun yaradılması, neft müqavilələrinə uyğun olaraq neft gəlirlərindən əldə olunan vəsaitin həmin fonda toplanması və ondan gələcək nəsillərin maraqları nəzərə alınmaqla daha səmərəli istifadə olunması idi. Nəticədə ölkə iqtisadiyyatının stabil və davamlı inkişafı vergi daxilolmalarında, büdcə gəlirlərinin artması və kəsirsiz yerinə yetirilməsində, inflyasiyanın sabitləşməsi və birrəqəmliyə çevrilməsində, sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafında, məşğulluğun artmasında, əhali gəlirlərinin yüksəlməsində, yoxsulluğun və işsizliyin azalmasında özünü daha qabarıq göstərməyə başladı. Araşdırmalar göstərir ki, bu tədbirlər artıq 1997-ci ildən başlayaraq ölkədə makroiqtisadi sabitləşmə və iqtisadiyyatın davamlı və dayanaqlı inkişafının təmin edilməsi sahəsində əsaslı uğurların əldə edilməsini şərtləndirmiş, sosial-iqtisadi sferada əldə olunmuş uğurlar ölkə vətəndaşlarının yaşayış səviyyəsinin yüksəldilməsinə, məşğulluğun təmin edilməsinə, işsizliyin və ən əsası yoxsulluğun azaldılmasına xidmət etmişdir.

Beləliklə, Heydər Əliyev irsinin öyrənilməsi və tədqiqi bir daha göstərir ki, onun tərəfindən müasir dövrün tələblərinə uyğun yeni Azərbaycan dövlətçiliyi ideyasını və onun siyasi və sosial-iqtisadi əsaslarını yaratmaqla bərabər, həm də onun gələcək inkişaf strategiyasının əsaslarını qurmuş, başqa sözlə onun “milli iqtisadi inkişaf modeli”ni və ya milli iqtisadi inkişafın “Heydər Əliyev modeli”ni yaratmış, bu ideyanı həyata keçirən siyasi və intellektual qüvvələri – səriştəli idarəçiləri və ölkəni mütərəqqi sosial-iqtisadi inkişaf orbitinə çıxarmağa qadir olan milli kadrları formalaşdırmağa nail olmuşdur. Onlardan biri, bu gün Heydər Əliyev siyasətinin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyev və onun komandasıdır. Dahi liderin ideyalarını, onun istiqamətləndirdiyi siyasi-ictimai və sosial-iqtisadi siyasətin müasir dövrümüzün tələblərinə uyğun həyata keçirilməsi sahəsində ölkə Prezidenti İlham Əliyevin qətiyyətli mövqeyi və əməli fəaliyyəti nəticəsində bu gün ölkəmiz regionun ən inkişaf etmiş bir ölkəsi olmaqla dünyada kifayət qədər güclü və nüfuzlu bir subyekt kimi qlobal proseslərin aktiv iştirakçısına çevrilmişdir. Bir çox nüfuzlu beynəlxalq təşkilatların reytinq qiymətləndirmələrində görə inkişaf etmiş dövlətlər səviyyəsinə çatmış, bəzi göstəricilərə görə isə hətta dünyanın bir sıra inkişaf etmiş ölkələrini belə geridə qoya bilmişdir. Son illərdə Azərbaycan surətli inkişaf yolu keçərək regionun ən inkişaf etmiş ölkəsi statusunu qazanmışdır. Neft sektorunun güclü maliyyə dəstəyi nəticəsində ölkənin qeyri-neft sektorunun, yüksək texnologiyalı sənaye, emal və infrastruktur sahələrinin inkişafının təməli qoyulmuş, həyata keçirilən uğurlu struktur siyasəti nəticəsində iqtisadiyyatın şaxələnməsi təmin edilmiş, mühüm makroiqtisadi inkişaf əldə olunmuş, ÜDM-in tərkibində qeyri-neft sektorunun xüsusi çəkisi 60 faizi ötmüş, ölkə orta gəlirli dövlətlər qrupunda öz mövqeyini daha da möhkəmlətmiş, bir neçə iri

miqyaslı beynəlxalq kommunikasiya layihələri icra olunmuş, əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində yüksək nailiyyət əldə edilmişdur. Son illərdə dünya iqtisadi məkanında baş verən müxtəlif xarakterli iqtisadi və maliyyə böhranlarına, iqtisadi disproporsiyalara, dünya bazar qiymətlərində mövcud olan qeyri-sabitlik hallarına baxmayaraq Azərbaycan iqtisadiyyatı bu proseslərə kifayət qədər dayanıqlılıq göstərərək iqtisadi artım tempini saxlaya bilmiş, xüsusilə son illərdə milli valyutanın dönərliyini, sabitliyini təmin edə bilmiş, inflyasiyanın proqnozlaşdırılan səviyyəsi qorunmuş, büdcə üzrə proqnozların yerinə yetirilməsi təmin olunmuş, milli iqtisadiyyatın tam və ayrı-ayrı elementləri üzrə beynəlxalq reytinqləri yüksəlmiş, strateji valyuta ehtiyatları artaraq 50 milyard dolları ötmüş, əsas makroiqtisadi göstəricilər üzrə dinamik inkişaf təmin olunub saxlanılmışdır. Son 6 ildə ölkənin əsas makroiqtisadi göstəricilərinin əks etdirən aşağıdakı cədvəl məlumatların təhlili bu inkişaf haqqında ətraflı təsəvvür yaradır **(Cədvəl 1).**

**(Cədvəl 1)**

| *GÖSTƏRİCİLƏR* | *ölçü vahidi* | *2014* | *2015* | *2016* | *2017* | *2018* | *2019* |
|---|---|---|---|---|---|---|---|
| *Ümumi daxili məhsul* | *mln. man.* | *59014,1* | *54380,0* | *60425,2* | *70337,8* | *80092.0* | *81681.0* |
| | *mln. ABŞ $* | *75234,7* | *52996,8* | *37862,8* | *40750,1* | *47112.9* | *48047.7* |
| *o cümlədən əvvəlkı ııə nisbətən artım* | *%* | *102.8* | *101.1* | *96.9* | *100.2* | *101.5* | *102.2* |
| *Bir nəfərə düşən ÜDM həcmi* | *man.* | *6268.0* | *5703.7* | *6269.6* | *7205.0* | *8156.5* | *8247.0* |
| | *ABŞ $* | *7990.8* | *5558.7* | *3928.6* | *4186.3* | *4797.7* | *4851.2* |
| *ÜDM-də neft sektorunun xüsusi çəkisi* | *%* | *36.3* | *28.3* | *34.2* | *35.6* | *39.8* | *36.8* |
| *ÜDM-də qeyri-neft sektorunun xüsusi çəkisi* | *%* | *56.3* | *62.8* | *59.5* | *57.3* | *52.4* | *54.5* |
| *Xalis vergilərin x/çəkisi* | *%* | *7.5* | *8.9* | *8.1* | *7.1* | *7.8* | *8.7* |
| *Dövlət büdcəsinin gəlirləri* | *mln. man.* | *18400.5* | *17153.2* | *17505,7* | *16516.7* | *22508.9* | *24398.5* |
| *ÜDM-a nisbəti* | *%* | *31.2* | *31.5* | *29.0* | *23.6* | *28.1* | *29.9* |
| *Dövlət büdcəsinin xərcləri* | *mln. man.* | *18699.3* | *17786.8* | *17751.3* | *17538.0* | *22731.6* | *24425.6* |
| *ÜDM-a nisbəti* | *%* | *31.7* | *32.7* | *29.4* | *25.0* | *28.4* | *29.9* |
| *Büdcə kəsiri* | *mln. man* | *-298.8* | *-633.6* | *-245.6* | *-1021.3* | *-222.7* | *-27.1* |
| | *ÜDM-a , %* | *-0.5* | *-1.2* | *-0.4* | *-1.5* | *0.3* | *0.03* |
| *Əhalinin gəlirləri* | *mln. man.* | *39472.0* | *41739.0* | *45395.1* | *49162.9* | *53103.7* | *57035.0* |
| *o cümlədən bir nəfərə düşən gəlirlər* | *man.* | *4192.4* | *4380.1* | *4710.1* | *5050.5* | *5407.8* | *5758.6* |
| *- əvvəlki ilə nisbətən artım* | *%* | *103.8* | *104.5* | *107.5* | *107.2* | *107.1* | *6.5* |
| *Orta aylıq əmək haqqı* | *man.* | *444.5* | *466.4* | *499.8* | *528.2* | *544.6* | *634.8* |
| *Xarici ticarət dövriyyəsi* | *mln. ABŞ $* | *39407.5* | *25809.0* | *21596.6* | *24257.6* | *31782.7* | *33138.5* |
| *o cümlədən:* | | | | | | | |
| *- ixrac* | *mln. ABŞ $* | *30219.8* | *16592.3* | *13107.5* | *15475.6* | *20316.8* | *19471.3* |
| *- idxal* | *mln. ABŞ $* | *9187.7* | *9216.7* | *8489.1* | *8782.0* | *11465.9* | *13667.2* |
| *- saldo* | *mln. ABŞ $* | *21032.1* | *7375.6* | *4618.4* | *6693.6* | *8850.9* | *5968.4* |
| *Cəmi investisiya qoyuluşu,* | *mln. man.* | *21890.7* | *20057.4* | *22706.4* | *24462.5* | *25877.0* | *24114.9* |
| | *mln. ABŞ $* | *27907.5* | *19547.2* | *14228.0* | *14213.3* | *15221.7* | *14185.2* |
| *o cümlədən:* | | | | | | | |
| *- xarici investisiyalar* | *mln. ABŞ $* | *11697.7* | *10719.1* | *10161.1* | *9120.5* | *8236.5* | *7129.1* |
| *cəmi investisiyalarda xüs. çəkisi* | *%* | *41.9* | *54.8* | *71.4* | *65.8* | *54.1* | *50.3* |
| *- daxili investisiyalar* | *mln. ABŞ $* | *16209.8* | *8828.1* | *4066.9* | *5092.8* | *6985.2* | *7056.1* |
| *cəmi investisiyalarda xüsusi çəkisi* | *%* | *58.1* | *45.2* | *28.6* | *34.2* | *45.9* | *49.7* |
| *İnflyasiya* | *%* | *1.4* | *4.0* | *12.4* | *12.9* | *2.3* | *2.6* |

**Azərbaycanın Respublikasının əsas makroiqtisadi göstəriciləri**

Mənbə: Cədvəl AR DSK-nin məlumatları əsasında müəlliflər tərəfindən hazırlanmışdır [8]

Bu məlumatlardan göründüyü kimi son 6 ildə iqtisadi inkişafın ümumi göstəricisi olan Ümumi Daxili Məhsulun artım tempi olduqca yüksək olmuş, 2014-cü ildə 59014,1 milyon manatlıq, 2015-ci ildə 54352,1 milyon manatlıq, 2016-cı ildə 60393,6 milyon manatlıq, 2017-ci ildə 70337,8 milyon manatlıq, 2018-ci ildə 80092,0 milyon manatlıq, 2019-cu ildə isə artıq 81681,0 milyon manatlıq məhsul istehsal olunmuş, yəni son 6 ildə ÜDM-in artım tempi 38,4 faizə qədər yüksəlmişdir. İqtisadi inkişafda kəmiyyət göstəcisindən daha çox keyfiyyət və iqtisadi artım göstərisici kimi qəbul edilən ÜDM-in bir nəfərə düşən həcminin də sürətlə artması müşahidə olunur. Əgər 2014-cü ildə ÜDM-ın bir nəfərə düşən həcmi 6268,0 manat olmuşdursa, artıq bu göstərici 2016-cı ildə 6266,3 manat, 2017-ci ildə 7205,0 manat, 2018-ci ildə isə 8126,2 manat, 2019-cu ildə isə 8247,0 manat səviyyəsinə yüksəlmişdir ki, bu da kifayət qədər yüksək iqtisadi artım deməkdir.

Yüksək iqtisadi artım tempi eyni zamanda digər makroiqtisadi göstəricilərin dinamikasına da öz təssirini göstərmişdir. Nəticədə 2019-cu ildə büdcə gəlir və xərcləri 24 milyard manatı ötmüş, xarici ticarət dövriyyəsinin həcmi 33 milyard dollar səviyyəsinə çatmış və burada 6 milyard dollarlıq müsbət saldo əldə edilmişdir. İl ərzində ölkə iqtisadiyyatına bütün mənbələr hesabına 24,0 milyard manat, və ya 14,2 milyard dollar həcmində investisiya qoyulmuşdur ki, bunun da təxminən yarısını daxili investisiyalar təşkil etmişdir. Son dövrlərdə ölkənin dünya təsərrüfatında rolu xeyli dərəcədə artmış, reytinq qabiliyyətlilik indeksi nəzərə çarpacaq dərəcədə yüksəlmişdir.

Təsadüfü deyildir ki, ÜİF (Ümumdünya İqtisadi Forumu) və ya başqa adla Davos Forumunun hesabatlarına görə son illərdə Azərbaycan həm rəqabət qabiliyyətlilik reytinqinə görə, həm investisiyaya açıqlıq reytinqinə görə, həm də biznes mühitinə görə dünya ölkələri arasında birinci otuzluqda qərar tutmuşdur. Hazırda beynəlxalq təşkilatların reytinqində Azərbaycan rəqabət qabiliyyətliliyə görə ənənəvi olaraq orta səviyyədən yuxarı ölkələr sırasına aid edilir. Dünya bankının son hesabatlarında müəyyən düzəlişlər edilərək Azərbaycanın “Doing Business 2020” hesabatında mövqeyi 6 pillə yaxşılaşdırılaraq ölkənin qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 34-dən 28-ə yüksəlmiş və ölkəmiz bir daha dünyanın “Ən islahatçı on ölkəsi” sırasına daxil edilmişdir.

Son illərdə dövlətin iqtisadi siyasətində qeyri-neft sektorunun inkişaf etdirilməsi konsepsiyası öz nəticələrini göstərməkdədir. Belə ki, son illərdə emal, maşınqayırma, metallurgiya kimi sənaye sahələrinin inkişaf etdirilməsi istiqamətində yaradılan texnoparklar, polad istehsalı sənayesi, tikini materialları sənayesi ölkənin digər təbii resurslarından, xüsusilə metal filizi, tikinti materialları ehtiyatlarından istifadəni, kənd təsərrüfatının inkişafı isə yerüstü təbii sərvətlərdən daha səmərəli istifadə etməni aktuallaşdırır. Aparılan araşdırmalar göstərir ki, 2006-2008-ci illərdə ÜDM-n tərkibində qeyri-neft sektorunun xüsusi çəkisi təxminən 40 faizdən aşağı olduğu halda, 2009-cu ildən başlayaraq qeyri-neft sektorunun xüsusi çəkisi artmağa başlamışdır. Belə ki, 2014-cü ildə ÜDM-də qeyri-neft sektorunun xüsusi çəkisi 44,4 faizə, 2015-ci ildə 48,3 faizə, 2016-cı ildə 52,7 faizə, 2017-ci ildə 56,6 faizə, 2018-ci ildə 61,0 faizə, 2019-cuildə isə 65,9 bərabər olmuşdur.

Hazırda qloballaşan dünya təsərrüfatı sistemində layiqli yer tutan Azərbaycan özünün milli iqtisadiyyatının mövcud rəqabət mübarizəsinə dayanıqlığını artırmaq üçün, birincisi, iqtisadi inkişafın prioritetlərini düzgün müəyyənləşdirməli, ikincisi, onların reallaşdırılmasının mövcud reallığa və imkanlara uyğun səmərəli üsul, vasitə və mexanizmlərini seçməlidir. Son illərdə Azərbaycanda milli iqtisadiyyatın davamlı və dinamik inkişafa keçidini təmin etmək üçün kompleks iqtisadi, təşkilati, siyasi-ictimai xarakterli ilkin şərtləri formalaşdırmaqla bağlı görülən işlər nəticəsində ölkəmizdə kifayət qədər iqtisadi, sosial, elmi-texniki, kadr potensialı, müvafiq hüquqi baza və start kapitalı yaradılmışdır. Müasir dövrdə ölkəmiz iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcək inkişafı bu gün əhəmiyyətli dərəcədə həyata keçirilən struktur siyasətinin xarakteri, miqyası və səmərəliliyi ilə birbaşa bağlıdır. Bu siyasətin əsas hədəflərindən biri ölkədə innovativ və yüksək texnologiyalı iqtisadiyyatın qurulması məsələsidir.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın inkişaf modelinin fundamental əsaslarından birini iqtisadiyyatın modernləşdirilməsi təşkil edir və bu modernləşmə siyasəti özündə faktiki olaraq dörd qlobal problemi əhatə edirdi: idarəetmənin modernləşməsi; istehsalın modernləşməsi; infrastrukturun modernləşməsi və insan kapitalının modernləşməsi. Bu gün modernləşmənin bütün istiqamətləri üzrə həyata keçirilən praktiki işlərin nəticələri ölkə iqtisadiyyatının davamlı, dayanıqlı və şaxələndirilmiş inkişafının təmin olunmasında öz əksini tapmaqdadır. Milli iqtisadi inkişaf modelinin əsas xüsusiyyətlərindən biri bütün sahələrdə modernləşmənin daimi və davamlı xarakterli olmasıdır. İstehsalın və idarəetmənin modernləşdirilməsi, yeni texnologiyalara əsaslanan innovativ iqtisadiyyatın təşkil olunması hazırda müvəffəqiyyətlə həyata keçirilən iqtisadi inkişafın "Heydər Əliyev və ya Azərbaycan modeli"nin əsas strateji ana xəttini təşkil edir.

Azərbaycan Respublikasının gələcək dövr üçün sosial-iqtisadi inkişafının strateji istiqamətləri və hədəfləri son illərdə dövlət tərəfindən qəbul olunmuş müxtəlif xarakterli inkişaf konsepsiyaları, Dövlət Proqramları və digər normativ hüquqi sənədlərdə öz əksini tapmışdır. Müasir mərhələdə Azərbaycan dövlətinin sosial-iqtisadi inkişaf Konsepsiyasının əsas müddəaları "Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı", "2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi ilə bağlı Tədbirlər Plani"nda, 2016 cı idə ölkə Prezidentinin müvafiq sərəncam və fərmanları ilə təsdiq edilmiş Strateji Yol Xəritələrində, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və digər normativ-hüquqi sənədlərdə konkret olaraq öz əksini tapmışdır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq belə qərara gəlmək olar ki, müasir dövrdə Azərbaycan dövlətinin sosial-iqtisadi inkişaf Konsepsiyanın əsas məqsədi azad rəqabətli, məhdud resursların səmərəli istifadəsini təmin edən sosial yönümlü bazar iqtisadiyyatının inkişafına, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin müasir forma və metodlarını tətbiq etməklə ölkə iqtisadiyyatının diversifikasiyasının sürətlənməsinə, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun dinamik inkişafına, tam məşğulluğa, gəlirlərin ədalətli bölgüsünə, ətraf mühitin qorunmasına və nəticədə dayanıqlı iqtisadi inkişafa və əhalinin layiqli həyat səviyyəsinə nail olmaqdır.

Ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək və onların realizasiyasını təmin etmək məqsədilə qəbul edilən sənədlər içərisində "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" və onun əsasında qəbul edilmiş milli iqtisadiyyatın on bir əsas sektoru üzrə ümumilikdə 12 strateji yol xəritəsi xüsusi əhəmiyyət kəsb edir. Bu mənada Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016 cı il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivliyi üzrə SYX" qeyd edildiyi kimi bu məqsədlə 4 əsas strateji hədəf müəyyən olunmuşdur: "1.Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi; 2.Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi; 3.İnsan kapitalının inkişaf etdirilməsi; 4. Əlverişli biznes mühitinin inkişafı" [1. səh. 2].

Strateji yol xəritəsində nəzərdə tutulmuş başlıca istiqamətlərin icrası üçün tədbirlər planının 2020-ci ilə qədərki dövrü mövcud reallıqlar və səmərəli icra mexanizminin formalaşdırılmasını özündə əks etdirir. 2025-ci ilə kimi olan dövr uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr isə hədəf baxışı müəyyən etmək üçün sektorlara xas olan perspektivlərin birləşdirilməsini nəzərdə tutur. 2020-ci ilədək görüləcək tədbirlər ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafına və dünya iqtisadiyaytına inteqrasiya proseslərinin sürətlənməsinə yönələcək. Tədbirlərin icrası nəticəsində sosial məsələlərin, o cümlədən, yeni iş yerlərinin

yaradılması, mənzil təminatının yaxşılaşdırılması, müasir tələblərə uyğun təhsil və səhiyyə xidmətlərinin göstərilməsi, kommunal xidmətlərin təkmilləşdirilməsi və ünvanlı sosial yardım sistemindən reabilitasiyaya keçidin təmin edilməsi yolu ilə yoxsulluğun azaldılması təmin ediləcəkdir. 2025-ci ilədək uzunmüddətli baxış milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin güclənməsinə istiqamətlənir. Bu dövr ərzində makroiqtisadi sabitliyin davamı təmin olunması üçün rəqabət mühitinin yaradılması və investisiya aktivliyinin artırılması əsas məqsədlərdən olacaq. 2025-ci ildən sonrakı hədəf baxışı ölkəmizin inkişaf modelində aparıcı amil syaılan insan kapitalının inkişafı, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və inklüziv inkişafa nail olmaqdır.

Bütün bunlarla bərabər son illərdə dünya təsərrüfatı sistemində və sosial-ictimai həyatında baş verən qloballaşma, COVİD-19 pandemiyanın sosial-iqtisadi nəticələri və ən əsası 44-günlük şərəfli "Vətən müharibəsi" nəticəsində son 30 il ərzində işğal altında olan ərazilərimizin işğaldan azad olunması, hənin regionun bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyasını nəzərdə tutan və Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də postpandemiya və postkonflikt dövrü üçün ölkənin sosial-iqtisadi inkişafının yeni prioritetləri öz əksini tapdı:

"Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi." [2 ]

Beləliklə, milli iqtisadi inkişafın "Heydər Əliyev modeli"nin dərin tədqiqı və təhlili bir daha sübut edir ki, onun ideyaları və əhatə dairəsi öz dövrü ilə məhtudlaşmamış, daha uzun dövrə istiqamətlənmiş konseptual bir yanaşma olmuş və bu gün onun siyasətinin davamçıları tərəfindən müvəffəqiyyətlə həyata keçirilir.

Ədəbiyyat siyahısı

1. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri". Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli Sərəncamı.
2. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivliyi üzrə SYX" Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016 cı il tarixli Fərmanı.
3. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
4. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı. 2001.
5. Əyyubov V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərs vəsaiti. Bakı, Avropa nəşriyyatı, 2014.
6. Əyyubov V.S., Tağıyev A.M. "Müasir dövrdə Azərbaycan dövlətinin struktur siyasətinin strateji istiqamətləri və reallaşdırılması xüsusiyyətləri". AMEA-nın XƏBƏRLƏRİ. İQTİSADİYYAT seriyası. Elmi-praktik jurnal 2019-1 (yanvar-fevral) səh.195-199.
7. Эюбов В.С., Тагиев А.М. «Особенности развития не-нефтяного сектора Азербайджана: возможности, перспективы и приоритеты», İSSİV 2411-0450. ЭКОНОМИКА И БИЗНЕС теория и практика № 4-1, апрель 2019 г.Международный ежемесячный научный журнал. Стр.227-232 Новосибирск-2019.
8. Azərbaycanın statistik göstıriciləri, 2020. AR DSK. Bakı, 2020.

**Fiz.e.d., prof. Babayeva Rəna Fikrət qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*e-mail:babayeva.rena@unec.edu.az*

# LAYLI QURULUŞLU n-InSe<NTE> KRİSTALLARINDA İNDUKSİYALANMIŞ AŞQAR FOTOKEÇİRİCİLİK VƏ ONUN OPTOELEKTRONİKADA TƏTBİQ İMKANLARI

Xülasə

Nadir torpaq elementləri (disprozium və avropium) ilə $N_{NTE}=10^{-5}\div10^{-1}$ at.% miqdarında aşqarlanmış n-InSe kristallarında məxsusi udma oblastından olan fon işıqla induksiyalanmış aşqar fotokeçiricilik hadisəsi tədqiq edilmiş, bu hadisənin həmin yarımkeçiricinin qadağan olunmuş zonasındakı dayaz tutma mərkəzlərinin fon işığın təsiri ilə yaranmış tarazlıqda olmayan yükdaşıyıcılarla dolub, aşqar işığın təsiri altında boşalması ilə bağlı olduğu göstərilmiş, onun təyin olunduğu hegemon generasiya-rekombinasiya proseslərinin mexanizmi, eləcə də təcrübədə müşahidə olunan xarakterik xüsusiyyətlərində n-InSe kristallarının fəzaca qeyri-bircinsliyinin və nadir torpaq elementi (NTE) aşqarlarının rolu aydınlaşdırılmışdır.

Əldə olunan təcrübi nəticələrə istinad eməklə n-InSe kristalları əsasında optik spektrin yaxın infraqırmızı oblastı üçün və yüksək intensivliyə malik görünən işıq (şüalanma) fonunda zəif intensivlikli infraqırmızı şüalanmaları qeyd edə bilən fotoelektrik işıq qəbulediciləri düzəltməyin mümkünlüyü söylənilmişdir.

Göstərilmişdir ki, daxil edilən NTE (disprozium və avropium) aşqarlarının optıimal konsentrasiyasını ($N_{NTE}=10^{-2}\div10^{-1}$at%) seçməklə, n-InSe kristalları əsasında işləyən infraqırmızı şüa qəbuledicilərinin parametrlərinin, xarakteristikalarının kifayət qədər yüksək dərəcədə stabilliyini və təkrarlanma keyfiyyətini təmin etmək mümkündür.

Açar sözlər: yarımkeçirici, fotokeçiricilik, matrisa, faza, qeyri-bircinslik

Laylı quruluşlu $A^{III}B^{VI}$ yarımkeçirici birləşmələr sinfinə mənsub olan n-InSe kristalları [16] özünün zəngin fiziki xassələri ilə xeyli müddətdir ki, dünyanın müxtəlif aparıcı ölkələrinin tədqiqatçılarının diqqət mərkəzindədir. Bu yarımkeçirici material maraqlı optik, elektrik, lüminessensiya xassələri ilə yanaşı, həm də müasir elektronikanın ən sürətlə inkişaf edən və elmin, texnikanın, istehsalatın müxtəlif sahələrində geniş tətbiq tapmış bir istiqaməti olan optoelektronika üçün [17] maraq kəsb edən fotoelektrik xassələrə malikdir. İndiyədək artıq bu yarımkeçiricidə mövcud olan çoxlu sayda bəsit və mürəkkəb tərkibli yarımkeçiricilərin heç də hamısında müşahidə olunmayan bir sıra qeyri-adi fotokeçiricilik hadisələri - qalıq fotokeçiriciliyi, anomal fotokeçiricilik, spektral yaddaş, mənfi fotokeçiricilik, ardıcıl təsir edən zəif intensivlikli işıq siqnalları təsirinin additiv toplanması, induksiyalanmış aşqar fotokeçiricilik, məxsusi fotokeciriciliyin infraqırmızı və temperatur sönmələri, fotoelektrik və elektrik yorulması [2, 7, 8, 10-14, 19] kimi tarazlıqda olmayan elektron hadisələri müşahidə olunmuş, onun günəş fotoelementlərinin və atomar qalınlıqlı təbəqələrin yaradılması üçün də çox perspektivli material olması göstərilmişdir [1]. Bu səbəbdən də son illərdə n-InSe monokristallarının fotoelektrik xassələrinin tədqiqinə, həmin kristallarda yeni fotoelektrik hadisələrinin aşkar edilməsi, onlara müxtəlif növ xarici və kristaldaxili amillərin təsirinin xüsusiyyətlərinin öyrənilməsi, bu yarımkeçirici materialın praktiki tətbiq imkanlarının aşkar edilməsi istiqamətində aparılan təcrübi tədqiqatların miqyası daha da genişlənmişdir [3-6].

Digər tərəfdən mövcud elmi ədəbiyyatdan [15, 18] məlumdur ki, yarımkeçiricilərdə eyni zamanda təsir göstərən müxtəlif amillərin təsiri ilə yaradılan kombinə olunmuş həyəcanlaşma hesabına baş verən tarazlıqda olmayan elektron proseslərinin tədqiqi həm bilavasitə baxılan material və effektlərin xüsusiyyətlərini öyrənmək, həm də bu material və fiziki effektlərin, hadisələrin praktiki tətbiq imkanlarını aşkar etmək üçün ən güclü vasitələrdən biridir. Bu baxımdan yarımkeçiricilərdə müxtəlif növ fon təsirlərlə induksiyalanmış tarazlıqda olmayan

elektron proseslərini: fon işıqla və elektrik sahəsi ilə induksiyalanmış müsbət aşqar fotokeçiricilikləri, fon işıqla və elektrik sahəsi ilə yaradılmış termostimullaşdırılmış keçiricilikləri, məxsusi fotokeçiriciliyin müxtəlif növ söndürülmələrini və s. xüsusilə qeyd etmək lazımdır [18]. Baxmayaraq ki, indiyədək bu sadalanan hadisələrin bir çoxu n-InSe kristallarında da müşahidə edilmiş və müəyyən səviyyədə tədqiq olunmuşdur [9], lakin həmin tədqiqatlarda alınmış təcrübi nəticələrin müxtəlif nümunələr üçün nəzərəçarpacaq dərəcədə fərqlənməsi onların elmi izahı və praktiki tətbiq imkanları barədə müəyyən bir qəti fikir söyləməyə imkan verməmişdir. Digər tərəfdən, elmi ədəbiyyatda mövcud olan bir sıra işlərdə n-InSe kristallarının elektrik, fotoelektrik, lüminessensiya xassələrinin ayrı-ayrı nümunələr üçün belə fərqlənməsinin başlıca səbəblərindən birinin bu kristalların fəzaca qeyri-bircinsliyi, onlarda əsas matrisa ilə eyni kimyəvi tərkibə, kristal quruluşa malik təsadüfi xarakterli irimiqyaslı defektlərin və həmin qeyri-bircinsliyin, yaxud təsadüfi xarakterə malik iri ölçülü defektlərin tərtibinin müxtəlif nümunələr üçün fərqlənməsinin olduğu fikri irəli sürülmüşdür.

Daha sonrakı dövrlərin tədqiqat işlərində fərz olunan bu fəzaca qeyri-bircinsliyin baş verən elektron proseslərinə təsirini n-InSe kristallarını bəzi nadir torpaq elementləri ilə aşqarlamaqla tənzimlənməsinin mümkünlüyi söylənilmişdir.

Deyilənləri nəzərə alaraq, n-InSe kristalları əsasında optoelektronika üçün mühüm əhəmiyyət kəsb edən optik spektrin yaxın infraqırmızı oblastında işləyən yeni fotoelektrik işıq qəbuledicilərinin yaradılması imkanlarını aşkar etmək, eləcə də həm fundamental, həm də praktiki tətbiq baxımından böyük potensiala malik yarımkeçirici material olan n-InSe kristallarının yeni xassələrini aşkara çıxarıb, bu yarımkeçirici və laylı quruluşlu digər $A^{III}B^{VI}$ yarımkeçirici birləşmələri fizikasına yeni məlumatlar əlavə etmək məqsədilə təqdim olunan işdə NTE olan disprozium (Dy) və avropiumla (Eu) aşqarlanmış n-InSe kristallarında məxsusi udma oblastından olan fon işıqla induksiyalanmış müsbət aşqar fotokeçiricilik hadisəsi təcrübi yolla tədqiq edilmişdir.

Tədqiq olunan nümunələr yüksək təmizliyə malik (B-99.999 %) metal indiumla (In) dənəvər selenin (Se) stexiometrik tərkibdə xüsusi rejimdə birgə əridilməsi ilə alınmış və sintez prosesindən əvvəl qarışığa lazım olan miqdarda nadir torpaq elementi daxil edilməklə aşqarlanmış kütlədən Bricmen üsulu ilə göyərdilmiş təmiz (xüsusi olaraq aşqarlanmamış) və $N_{NTE}=10^{-5}\div10^{-1}$ at.% miqdarında NTE ilə aşqarlanmış n-InSe kristallarından laylara ayırmaq yolu ilə hazırlanmışdır.

Təcrübi ölçmələr temperaturun $T$=77÷300 K, işığın dalğa uzunluğunun $\lambda$=0.200÷4.000 mkm və intensivliyinin $\Phi=10\div2\cdot10^2$ Lk qiymətlərində aparılmışdır. Müstəvi paralel paralelepiped formasına malik olan nümunələrin mikroskopla ölçülmüş həndəsi ölçüləri: kristalın təbii layları, yəni (001) kristalloqrafik müstəvisi boyunca olan eninə ölçüləri 5.0x6.0 $mm^2$, kristalın laylarına perpendikulyar, yəni "C" - kristalloqrafik oxu istiqamətindəki qalınlığı isə 0.200÷0.350 mm aralığında olmuşdur. Cərəyan kontaktları yenicə kəsilmiş nümunələrin iki qarşı-qarşıya olan ən kiçik ölçülü (5.0 mm) yan üzlərinə açıq havada "lehim flyusu"ndan istifadə etmədən metal indium lehimləməklə yaradılmışdır. Həyata keçirilən təcrübi ölçmələrin hamısında nümunədən axan cərəyan kristalın təbii layları boyunca, məxsusi və aşqar udma oblastından olan hər iki işıq dəstəsi isə kristalın təbii laylarına perpendikulyar istiqamətdə, yəni kristalın "C" kristalloqrafik oxuna paralel istiqamətində yönəlmişdir. Ölçmələr MDR-12 markalı "Difraksiya qəfəsli monoxromator" əsasında düzəldilmiş təcrübi qurğuda [9] stasionar fotokeçiricilik rejimində [18] həyata keçirilmişdir.

Aparılan təcrübi ölçmələr nəticəsində müəyyənləşdirilmişdir ki, təmiz və NTE ilə aşqarlanmış n-InSe kristallarında temperaturun $T\leq350$ K qiymətlərində maksimumu $\lambda_{max}$=0.95 mkm-də yerləşməklə optik spektrin $0.35\leq\lambda\leq1.25$mkm diapazonunu əhatə edən məxsusi fotokeçiricilik,temperaturun $T\leq200$ K qiymətlərində maksimumu $\lambda_{max}$=1.60 mkm-də yerləşməklə optik spektrin $1.20\leq\lambda\leq1.90$ mkm diapazonunu əhatə edən mənfi fotokeçiricilik müşahidə olunur. Bununla belə, aşqar udma oblastında fotokeçiriciliyin spektri ölçmələrin

aparılması şəraitindən də asılıdır. Belə ki, $T$≤200 K tədqiq olunan nümunəni eyni zamanda məxsusi fotokeçiricilik və mənfi fotokeçiricilik yaradan işıq dəstələri ilə işıqlandırdıqda məxsusi fotokeçiriciliyin qiymətinin kiçilməsi müşahidə olunur, yəni məxsusi fotokeçiriciliyin optik, yaxud da infraqırmızı (İQ) sönməsi hadisəsi baş verir. Həm təmiz, həm də NTE ilə aşqarlanmış n-InSe kristallarında məxsusi fotokeçiriciliyin optik sönməsinin spektral paylanması (spektri) və temperaturdan asılılıq xarakteristikaları eyni bir nümunə üçün mənfi fotokeçiriciliyin uyğun xarakteristikaları ilə yüksək dəqiqliklə üst-üstə düşür.

Tədqiq edilən nümunəni tempaturun $T$≤150 K qiymətlərində məxsusi udma oblastından olan (0.35≤$\lambda$≤1.25 mkm dalğa uzunluqlu) fon işıqla yanaşı, həm də eyni zamanda daha uzun dalğalı kifayət qədər böyük intensivlikli skanerləyici işıqla işıqlandırdıqda, həmin bu skanerləyici monoxromatik işıq dəstəsinin dalğa uzunluğunun müəyyən qiymətlərindən (təqribən 1.60 mkm-dan) başlayaraq, fotokeçiriciliyin spektrində aşqar udma oblastında maksimumu λ=2.60 mkm-də olmaqla optik spektrin 1.60≤λ≤3.60 mkm diapazonunu əhatə edən nəzərəçarpacaq qədər qiymətə malik olan müsbət aşqar fotokeçiricilik zolağı da meydana gəlir. Məxsusi udma ublastından olan fon işıqlanmanın təsiri kəsildikdən qısa bir zaman müddətindən sonra həmin bu müsbət aşqar fotokeçiricilik daha müşahidə olunmur. Bu fakt imkan verir deyək ki, eyni zamanda məxsusi udma oblastından olan fon və aşqar udma oblastından olan skanerləyici işıq dəstələrinin birgə təsiri ilə yaranan həmin müsbət aşqar fotokeçiricilik məhz fon işıqla induksiyalanmış aşqar fotokeçiricilikdir.

Təcrübi yolla məxsusi udma oblastından olan monoxromatik fon işıqla induksiyalanmış müsbət aşqar fotokeçiriciliyin qiymətinin $(I_A)$ nümunənin temperaturundan ($T$), nümunəyə təsir edən məxsusi udma oblastından olan fon işığın ($\Phi_M$) və aşqar udma oblastlarından olan skanerləyici ($\Phi_A$) işığın intensivliyindən, aşqar udma oblastdan olan işığın dalğa uzunluğundan ($\lambda_a$), zamandan ($t$), tədqiq olunan təmiz n-InSe kristalları nümunələrinin xüsusi müqavimətinin başlanğıc (77 K-də qaranlıqdakı) qiymətindən ($\rho_{T0}$), aşqarlanmış nümunələrə daxil edilmiş NTE aşqarlarının kimyəvi təbiətindən və onların hər birinin tədqiq olunan nümunədəki faizlə miqdarından ($N_{NTE}$) asılılığı ölçülmüşdür.

Aparılan tədqiqatlar nəticəsində aşkar olunmuşdur ki, tədqiq etdiyimiz kristallarda aşqar fotohəssaslığın induksiyalanması nisbətən aşağı temperaturlarda daha parlaq şəkildə təzahür edir. 77 K-dən başlayaraq nümunənin temperaturunun yüksəlməsi ilə induksiyalanmış aşqar fotocərəyanın qiyməti $(I_A)$ azalır və nəhayət, $T$>150 K-də bu cərəyan demək olar ki, tamamilə yox olur - müşahidə edilmir. Məxsusu udma oblastından olan fon işığın intensivliyi yüksəldikcə $I_A$-nın qiyməti, nisbətən kiçik intensivliklərdə üst göstəricisinin qiyməti 1.0÷0.5 arasında dəyişən üstlü $I_A\sim\Phi_M^{\alpha}$ qanunu ilə artır, böyük intensivliklərində isə, bu asılılıq tədricən doyma halına çıxır. İnduksiyalanmış aşqar fotokeçiriciliyin qiymətinin aşqar udma oblastından olan işığın da intensivliyindən asılılığı $I_A\sim\Phi^k{}_A$ üstlü xarakterə malikdir. Lakin bu halda kiçik intensivliklərdə həmin asılılıqdakı üst göstəricisi $k$-nın qiyməti həm də təmiz n-InSe kristallarının nümunələrində nümunələrinin xüsusi müqavimətinin başlanğıc qiymətindən, NTE ilə aşqarlanmış n-InSe kristallarının nümunələrində isə daxil edilmiş aşqarın miqdarından asılıdır. Birinci halda $k(\rho_{T0})$ asılılığı monoton xarakterə malikdir və $\rho_{T0}$-nin artması ilə $k$-nın qiyməti 1.0-dən təqribən 3.0-ə qədər artır. İkinci halda isə $k(N_{NTE})$ asılılığı qeyri-monoton xarakterə malikdir və $k$-üst göstəricisi özünün maksimal ($k$=4) qiymətini $N_{NTE}=5\cdot10^{-4}$ at.% olduqda alır. Aşqar udma oblastından olan skanerləyici işığın intensivliyinin daha böyük qiymətlərində onun yüksəlməsi ilə $I_A(\Phi_A)$ asılılığının üst göstəricisinin qiyməti əvvəlcə ardıcıl 1.0 və 0.5 qiymətlərini alır və nəhayət, $I_A(\Phi_A)$ asılılığı doyma halına çıxır.

İnduksiyalanmış aşqar fotokeçiriciliyin qiyməti təmiz n-InSe kristallarının nümunələrində $\rho_{T0}$-nin qiyməti artdıqca monoton olaraq böyüyür, nadir torpaq elementləri ilə aşqarlanmış n-InSe kristallarının nümunələrində isə $N_{NTE}$-nin qiymətindən asılı olaraq qeyri-monoton dəyişir və özünün maksimal qiymətini $N_{NTE}=5\cdot10^{-4}$ at.% olduqda alır.

Hər iki qrup kristallarin (təmiz və NTE ilə aşqarlanmış) nümunələrində induksiyalanmış

aşqar fotokeçiriciliyin kinetikası induksiyalanma rejimindən asılıdır. Belə ki, induksiyalanmanın əvvəlcədən təsir edən fon işıqla həyata keçirildiyi halda induksiyalanmış aşqar fotokeçiricilik impuls rejimdə ölçülərsə, onda birinci skanerləyici işıq impulsunun amplitudu ən böyük olur və onun başlanğıcında aşqar fotokeçiriciliyin qısa müddətli kəskin sıçrayış şəklində təzahür edən "alışması" baş verir. Birincidən sonrakı skanerləyici işıq impulslarının yaratdığı induksiyalanmış aşqar fotokeçiricilik impulslarının başlanğıcında daha belə “alışma” sıçrayışı müşahidə olunmur və skanerləyici ardıcıl aşqar işıq impulslarının sayı artdıqca induksiyalanmış aşqar fotokeçiriciliyin qiyməti tədricən kiçilir. Lakin induksiyalanma kəsilməz fon işıqlanma ilə həyata keçirilərsə, onda, əvvəla, induksiyalanmış aşqar fotokeçiricilik impulslarının hamısının başlanğıcında fotocərəyanın "alışması" müşahidə edilir, ikincisi isə, ayrı-ayrı cərəyan impulslarının amplitudları biri-birindən fərqlənmir.

İnduksiyalayıcı işığın intensivliyinin çox zəif qiymətlərində induksiyalanmış aşqar fotokeçiriciliyin qərarlaşma və sönmə proseslərinin sürəti təmiz və $N_{NTE}<10^{-2}$ at.% miqdarda NTE ilə aşqarlanmış n-InSe kristallarının nümunələrində asta xarakterə malikdir. Lakin $N_{NTE}\geq10^{-2}$ at.% olduqda bu proseslər sürətli xarakter daşıyır və relaksasiya prosesinin xarakterik zaman sabitinin qiyməti kiçilərək başlanğıc xüsusi müqavimətinin qiyməti ən kiçik ($\rho_{T0}\approx2\cdot10^3$ Ом·см) olan təmiz n-InSe kristallarının nümunələrindəkinə uyğun olan qiymətə yaxınlaşır.

Həyata keçirilmiş təcrübi tədqiqatlar göstərmişdir ki, n-InSe monokristallarında induksiyalanmış aşqar fotokeçiriciliyin qiymət və xarakteristikaları daxil edilən NTE aşqarının kimyəvi təbiətindən asılı deyil, yalnız onun miqdarından asılıdır. $N_{NTE}\geq10^{-2}$ at.% olduqda aşqarlanmış n-InSe kristallarının nümunələrində induksiyalanmış aşqar fotokeçiriciliyin həm ədədi qiyməti, həm də xarakteristikaları kifayət qədər yüksək təkrarlanmaya və stabilliyə malikdir. Bu nəticə $N_{NTE}\geq10^{-2}$ at.% olan aşqarlanmış n-InSe kristallarından hazırlanmış eyni bir nümunədə induksiyalanmış aşqar fotokeçiriciliyin qiymətinin və xarakteristikalarının ölçülməsi prosesinin 20-25 dəfə təkrarlanması və 15-20 müxtəlif nümunədə induksiyalanmış aşqar fotokeçiriciliyin qiymətinin və əsas xarakteristikalarının ölçülüb, əldə olunmuş nəticələrin müqayisə edilməsi ilə təsdiqlənmişdir.

Hazırkı dövrə qədərn-InSe kristallarının fotoelektrik və elektrik xassələrinin tədqiqinə həsr olunmuş bir sıra işlərdə [3, 6, 7, 9] həmin kristalların bütövlükdə alçaqomlu (AO) əsas matrisa və bu matrisada xaotik paylanmış təsadüfi xarakterli böyük ölçülü yüksəkomlu (YO) fazalardan - təsadüfi xarakterli makroskopik defektlərdən (TMD) [20] ibarət olan bütöv bir sistem kimi təsvir edilə bilməsi, eyni zamanda həmin kristalların qadağan olunmuş zonalarında başlıca olaraq AO matrisada lokallaşmış s-sürətli rekombinasiya və $\alpha$-dayaz tutma mərkəzləri, eləcə də YO fazalardakı *r*-asta rekombinasiya və $\beta$-dərin tutma mərkəzlərinin [18] mövcud olması göstərilmişdir. [21]-də təklif edilən modelə oxşar olaraq fərz edirik ki, daxil edilən NTE aşqarlarının nisbətən kiçik miqdarlarında həmin aşqarların ionları kristalda artıq ilkin halda mövcud olan TMD üzərində toplaşaraq, onların ölçülərini daha da böyüdür. Bunun nəticəsində, baxılan kristalların nümunələrindəki fəzaca qeyri-bircinsliyin dərəcəsi daha da yüksəlir və uyğun olaraq, onlarda belə fəzaca nizamsızlıqla bağlı proseslərin təzahürü güclənir. Lakin $N_{NTE}$-nin sonrakı artırılmasında həmin TMD-in həcmi yükləri oblastları genişlənir və nəticədə qonşu TMD-in həcmi yükləri oblastları bir-birini qismən bürüyür, yaxud da onların arasındakı məsafə tarazlıqda olmayan sərbəst yükdaşıyıcıların diffuziya məsafəsindən böyük olmayan qiymət alır. Nəticədə baxılan nümünənin fəzaca qeyri-bircinsliyinin tədqiq olunan nümunədə baş verən elektron proseslərinə təsiri zəifləyir və ya tamamilə aradan qalxır. Kristaldaxili elektron potensialı relyefinin $N_{NTE}$-dən asılı olaraq belə qeyri-monoton dəyişməsi tədqiq olunan kristallarda asta relaksasiya edən fotoelektrik effektlərinin də amplitudunun və digər xarakterik parametrlərinin $N_{NTE}$-dən asılı olaraq qeyri-monoton dəyişməsinə səbəb olur.

Təklif edilən modelə görə baxılan n-InSe kristallarını məxsusi udma oblastından olan fon işıqla işıqlandırdıqda yaranmış tarazlıqda olmayan əsas yükdaşıyıcıların (elektronların) bir

qismi məxsusi fotokeçiricilik yaradır, digər qismi isə qadağan olunmuş zonada yerləşən α-dayaz tutma mərkəzləri tərəfindən tutulur. Müşahidə olunan aşqar fotokeçiricilik ilkin halda boş olan α-dayaz tutma mərkəzlərinin məxsusi udma oblastından olan işığın təsiri ilə yaradılmış tarazlıqda olmayan əsas yükdaşıyıcılarla doldurulduqdan sonra aşqar udma oblastından olan skanerləyici işığın təsiri ilə boşaldılması ilə bağlıdır. Bu fotokeçiriciliyin temperaturdan asılılığı, daha doğrusu temperaturun yüksəlməsi ilə azalaraq, nəhayət, müəyyən $T \geq T_{kr}$ temperaturlarda (baxılan halda 150 K-dən yüksək temperaturlarda) tamam sönməsi isə, həm α-dayaz tutma mərkəzlərinin termik boşalması, həm də yaranmış tarazlıqda olmayan keçiriciliyin temperatur sönməsi ilə əlaqədardır. Müşahidə etdiyimiz induksiyalanmış aşqar fotokeçiriciliyin məxsusi udma oblastından olan fon işığın intensivliyindən asılılığının xüsusiyyətləri, daha döğrusu nisbətən kiçik intensivliklərdə $I_A$-nın üstlü qanunla artaraq, sonra doyma halına yaxınlaşması, bu fotokeçiriciliyin α-dayaz tutma mərkəzlərinin dolma dərəcəsindən asılılığı, aşqar udma oblastından olan skanerləyici işığın intensivliyindən asılılığı isə aşqar səviyyədən fotohəyəcanlaşmanın xüsusiyyətləri ilə əlaqədardır. $N_{NTE}$-nin kiçik qiymətlərində aşqarlama səviyyəsi artdıqca kristalın fəzaca nizamsızlıq dərəcəsi yüksəlir. Eyni zamanda, həm də yükdaşıyıcıların rekombinasiya çəpərlərindən tunel edə bilməsi hesabına dayaz α-tutma səviyyələrinin daha uzun dalğalı işığın təsiri altında boşalması ehtimalı böyüyür. Buna görə də aşqarlanmanın belə qiymətlərində $N_{NTE}$-nin artması ilə induksiyalanmış aşqar fotokeçiriciliyin qırmızı sərhədi zəif də olsa, müəyyən qədər daha uzun dalğalar tərəfə sürüşür. Aşqar udma oblastından olan skanerləyici işığın intensivliyinin artırılması ilə nisbətən kiçik intensivliklərdə adi aşqarlı yarımkeçiricilərdə olduğu kimi, işığın həyəcanlaşdırdığı sərbəst yükdaşıyıcıların sayı onları yenidən tuta biləcək tutma mərkəzlərinin sayından kiçik olur. Buna görə də belə tutulma monomolekulyar xarakter daşıyır. Aşqar udma oblastından olan skanerləyici işığın intensivliyinin sonrakı artmasında isə tutulma prosesi daha çox bimolekulyar xarakter daşıyır. Söylənilən fikrə uyğun olaraq, aşqar udma oblastından olan skanerləyici işığın $\Phi_a$ intensivliyi yüksəldikcə, induksiyalanmış aşqar fotokeçiriciliyin qiyməti $I_A$ əvvəlcə xətti, sonra isə subxətti qanunla artır.

Optoelektronikanın müxtəlif sahələrində yaranan başlıca problemlərdən biri çox böyük intensivlikli görünən şüalanmalar fonunda zəif infraqırmızı şüaların qeyd edilməsinin çətinliyidir. n-InSe kristallarının optik spektrin demək olar ki, bütün görünən və qismən də ən yaxın infraqırmızı oblastında ($0.35 \leq \lambda \leq 1.25$ mkm) yüksək məxsusi fotohəssaslığa malik olması və bu oblastdan olan fon işıqla infraqırmızı şüalanmanın praktiki baxımdan çox maraqlı və mühüm əhəmiyyət kəsb edən geniş diapazonunda ($1.60 \leq \lambda \leq 3.60$ mkm) kifayət qədər böyük qiymətə malik olan aşqar fotokeçiricilik xassəsi əldə edə bilməsi onun əsasında yüksək intensivlikli görünən şüalanma fonunda zəif intensivlikli İQ şüaları qeyd edə bilən fotoelektrik işıq qəbulediciləri yaratmaq mümkünlüyünü irəli sürür. Bu yarımkeçiricinin təmiz kristalları üçün xarakterik olan zəif təkrarlanma, ayrı-ayrı nümunələrin fotoelektrik xassələrinin və xarakteristikalarının arasındakı fərqi isə daxil edilən NTE aşqarlarının miqdarının optimal qiymətini seçməklə tənzimləmək olar.

Beləliklə, təmiz və nadir torpaq elementləri olan disprozium və avropiumla $N_{NTE} \approx 10^{-5} \div 10^{-1}$ at.% aralığında aşqarlanmış Bricmen üsulu ilə göyərdilmiş n-InSe monokristallarında məxsusi udma oblastından olan fon işıqla induksiyalanmış aşqar fotokeçiriciliyin təcrübi tədqiqi zamanı əldə olunmuş nəticələrin müqayisəli təhlili imkan verir deyək ki:

- n-InSe kristallarında 150 K-dən aşağı temperaturlarda məxsusi udma oblastından olan fon işığın təsiri ilə induksiyalanmış aşqar fotokeçiricilik yaranır. Bu fotokeçiriciliyin yaranma səbəbi həmin yarımkeçiricinin qadağan olunmuş zonasında yerləşən və ilkin halda boş olan dayaz α-tutma mərkəzlərinin əvvəlcə məxsusi işığın təsiri ilə yaranmış tarazlıqda olmayan əsas yükdaşıyıcılarla (elerktronlarla) dolub, sonradan aşqar udma oblastından olan skanerləyici işığın təsiri altında boşalmasıdır;

- Bu kristallarda müşahidə edilən məxsusi udma oblastından olan fon işıqla

induksiyalanmış aşqar fotokeçiriciliyin asta relaksasiya xassəsinə və böyük ədədi qiymətə malik olması həmin kristalların fəzaca qeyri-bircins kristallar olması və onlarda dreyf və rekombinasiya çəpərlərinin mövcudluğu ilə bağlıdır.

- Disprozium və avropium kimi nadir torpaq elementləri ilə $N_{NTE}=10^{-5}\div10^{-1}$at.% miqdarında aşqarlanmanın n-InSe kristallarında məxsusi udma oblastından olan fon işıqla induksiyalanmış aşqar fotokeçiricilik hadisəsinə təsiri, ilk növbədə, aşqarlanma səviyyəsindən asılı olaraq tədqiq olunan nümunələrin fəzaca qeyri-bircinsliyinin və fotoelektrik parametrlərinin stabillik dərəcəsinin dəyişməsi ilə bağlıdır;
- Tədqiq olunan n-InSe kristallarında aşqar udma oblastından olan skanerləyici işığın kiçik intensivliklərində induksiyalanmış aşqar fotokeçiriciliyin həyəcanlaşdırılması monomolekulyar, böyük intensivliklərində isə bimolekulyar xarakter daşıyır;
- n-InSe kristalları əsasında optik spektrin yaxın infraqırmızı oblastında işləyən, ən başlıcası isə yüksək intensivliyə malik görünən işıq (şüalanma) fonunda zəif intensivlikli infraqırmızı şüalanmaları qəbul və qeyd edə bilən fotoelektrik işıq qəbulediciləri düzəltmək olar;
- Daxil edilən nadir torpaq elementləri (disprozium və avropiumun) optimal miqdarını ($N_{NTE}=10^{-2}\div10^{-1}$ at.%) seçməklə n-InSe kristalları əsasında işləyən infraqırmızı şüa qəbuledicilərinin parametrlərinin və xarakteristikalarının kifayət qədər yüksək dərəcədə stabilliyini və təkrarlanmasını təmin etmək mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI


1. Chen Z.S., Gacem K., Boukhicha M. et all. Anodic bonded 2D semiconductors: from synthesis to device fabricationnanotechnology. // Nanotechnology. 2013, vol. 24, No 41, p.415708.
2. De Blasi C., Micocci G., Rizzo A., Tepore A. Photoconductivity of InSe single crystals // Phys. Stat. Solidi A, 1982, 74, № 1, p. 291-296.
3. Li W.B., Li J. Piezoelectricity in two-dimensional group-III monochalcogenides. //Nanoresearch, 2015, Vol. 8, Issue 12, p. 3796-3802.
4. Luo W.G., Cao Y.F., Hu P.G. et all. Gate tuning of high-performance InSe-based photodetectors using graphene electrodes // Advanced optical material, 2015, Vol. 3, Issue 10. p. 1418-1423.
5. Milutinovic A., Lazarevic Z.Z., Jakovljevic M. et all. Optical properties of layered III–VI semiconductor $\gamma$-InSe:$M$ ($M$=Mn, Fe, Co, Ni). // Journal of Physics and Chemistry of Solids, 2016, Vol. 89, p.120-127.
6. Tamalampudi S.R., Lu Y.Y., Kumar U.R. et all. High performance and bendable few-layered InSe photodetectors with broad spectral response // Nano letters, 2014, Vol. 14, Issue 5, p. 2800-2806.
7. Абдинов А.Ш., Ахмедов А.А., Гасанов Я.Г., Магомедов А.З. Индуцированная собственной подсветкой примесная ФП в монокристаллах селенида индия со свойством остаточной ФП // Физ. и техн. полупроводников, 1981, Т. 15, № 7, с. 1255-1258.
8. Абдинов А.Ш., Бабаева Р.Ф. Накопление памяти слабых световыхсигналов и спектральнаяпамять в монокристаллах InSe<Dy> // Неорганические материалы, 1995, Т. 31, №7, с. 896-898.
9. Абдинов А.Ш., Бабаева Р.Ф.Температурная зависимость фотопроводимости монокристаллов *n*-InSe. // Неорганическиематериалы, 2019, Т. 55, № 8, С. 806-812.
10. Абдинов А.Ш., Гасанов Я.Г., Аббасова П.Г.Эффект фотоэлектрической утомляемости в монокристаллах селенида индия ФТП, 1983, Т.17, №4, с.761-766.
11. Абдинов А.Ш., Кязым-заде А.Г. Аномальная фотопроводимость в монокристаллах электронного селенида индия // Физ. и техн. полупроводников, 1975, Т. 9, № 10, с. 1970-1976.

12. Абдинов А.Ш., Кязым-заде А.Г. Отрицательная остаточная фотопроводимость в монокристаллах селенида индия // Физ. и техн. полупроводников, 1975, Т. 9, № 12, с. 2382-2384.
13. Абдинов А.Ш., Кязым-заде А.Г. Явления фото- и электропамяти в высокоомных монокристаллах n-InSe // Физ. и техн. полупроводников, 1975, Т. 9, №9, с. 1690-1693.
14. Брандт И.Б., Ковалюк З.Д., Кульбачинский В.А. Фотопроводимость в слоистых кристаллах InSe // Физ. и техн. полупроводников, 1988, Т. 22, № 9, с. 1657-1660.
15. Воробьев Л.Е., Данилов С.Н., Зегря Г.Г., Фирсов Д.А. и др. Фотоэлектрические явления в полупроводниках и размерно-квантовых структурах. Санкт Петербург: Наука, 2001. 248с.
16. Медведева З.С. Халькогениды элементов III Б подгруппы периодической системы. М.: Наука, 1968, 214 с.
17. Розеншер Э., Винтер Б. Оптоэлектроника. М.: Техносфера, 2004, 23с.
18. Рывкин С.М. Фотоэлектрические явления в полупроводниках. М.: Наука, 1963. 429 с.
19. Салаев Э.Ю., Годжаев М.О., Алиев Е.Т., Зарбалиев М.З. InSe и GaSe –эффективные фоточувствительные материалы в широкой области спектра (1÷6) эВ // Письма в ЖТФ, 1988,14, № 17, с. 1628-1630.
20. Шик А.Я. Фотопроводимость случайно-неоднородныхполупроводников. // ЖЭТФ, 1972, Т. 15, С. 408-410.
21. Шкловский Б.И., Эфрос А.Л. Электронные свойствалегированных полупроводников. М.: Наука. 1979. 416 с.

**Vəkil İbrahimov**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan*
*e-ünvan: vekil.ibrahimov@hotmail.com*

# ƏQLİ MÜLKİYYƏT SAHƏSİNDƏ HEYDƏR ƏLİYYEVİN TÖHFƏLƏRİ

**XÜLASƏ**

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanın müəllif-hüquq sisteminin yaradıcısı və əqli mülkiyyət sahəsinin inkişafında müstəsna xidmətləri olan şəxsiyyətdir. Ümummilli liderin gördüyü əvəzsiz işlərdən biri də Azərbaycanın formalaşmış və xarici dövlətlər tərəfindən tanınmış milli əqli mülkiyyət sistemidir. Millətin ən dəyərli sərvəti olan intellektin mülkiyyəti təşkil edən keyfiyyətlər sırasında millətin nümayəndələrinin yaradıcılığı və yenilikçiliyi dayanır. Yaradıcılığın stimulaşdırılması və əqli mülkiyyət nəticələrinin qorunması bilavasitə insanların hüquq və azadlıqlarının qorunması ilə bağlıdır. Ulu Öndər yaradıcılığı və yenilikçiliyi insan resursları kimi qiymətləndirərək onlara əqli nəticələrin mənbəyi kimi baxır, buna yalnız fərdlərin müvəffəqiyyətləri kimi deyil, milli intellekt sisteminin xəzinəsini zənginləşdirən alət kimi tanıdırdı. Ümummilli liderimizin apardığı uzaqgörən daxili və xarici siyasət müəllif-hüquq sisteminin inkişafına və əqli mülkiyyət sahəsində beynəlxalq mübadilənin genişləndirilməsinə təkan verərək, onun formalaşmasında başlıca amil olmuşdur. Məhz dahi öndərimizin uzaqgörən siyasətinin nəticəsidir ki, Azərbaycan hazırda əqli mülkiyyət sahəsində zəngin hüquqi bazaya və bunları həyata keçirən sistemə malik dövlətə çevrilmişdir.

***Açar sözlər:*** əqli mülkiyyət, müəllif hüququ, ixtira, faydalı modeı, patent,

Azərbaycan Respublikası hüquqi demokratik dövlətdir və onun bir çox vacib atributları sırasına əqli mülkiyyət sahəsindəki dövlətin siyasəti də daxildir. Azərbaycan müəllif-hüquq sisteminin yaradıcısı Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1993-cü ildə Müəllif Hüquqları Agentliyi yaradılaraq, 1996-cı ildə müstəqil Azərbaycanın əqli mülkiyyət sahəsində "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" ilk Qanunu və 2002-ci ildə "İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında" Qanun qəbul edilmişdir. Sonrakı illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi altında ölkəmizdə müəllif-hüquq sisteminin dinamik inkişafı davam etdirilərək bu sahədə birçox Qanunlar qəbul edildi və qanunvericilik bazası müasir beynəlxalq standartlara uyğunlaşdırıldı. Geniş beynəlxalq əlaqələrə malik olan Azərbaycan 1995-ci ildə Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) üzv olmuş, sonrakı illərdə müəlliflik hüququ və əlaqəli hüquqlar sahəsində bütün beynəlxalq konvensiya və müqavilələrə qoşularaq fəal mübadilə edir. Bunların nəticəsi kimi, ÜƏMT və Aİ mütəxəssislərinin rəyinə görə, bu gün Azərbaycan MDB və Şərqi Avropa məkanında əqli mülkiyyət üzrə təkmil milli idarəetmə sisteminə və zəngin qanunvericilik bazasına malik olan ölkələrdən biridir. Dövlət başçısının göstərdiyi qayğı və dəstək sayəsində "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Qanun qəbul edilmiş, ABŞ Hökumətinin müəllif hüquqlarını pozan ölkələr siyahısından çıxarılmış, rəqəmli hüquqların idarə edilməsi sistemi və elektron xidmətlər yaradılmış, müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları sahəsinin inkişafına aid Uzunmüddətli Milli Strategiya hazırlanmış, Aİ ilə Tvinninq layihəsi həyata keçirilmiş, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları prioritet istiqamət kimi qəbul edilmişdir.

Dünya ictimaiyyəti əqli mülkiyyətə böyük maraq göstərir. BMT-nin xüsusi təşkilatı olan ÜƏMT onu təsis edən konvensiya vasitəsi ilə 184 dövləti özündə birləşdirir. Onun inzibati idarəçiliyində 25 konvensiya fəaliyyət göstərir. Bunların sırasına 100 ildən artıq müddətdə fəaliyyətdə olan 4 beynəlxalq müqavilə, sənaye mülkiyyəti üzrə 15 və müəlliflik hüququ ilə bağlı 9 müqavilə mövcuddur. Əqli mülkiyyətin istifadə miqyası da geniş vüsət almışdır. Bəzi

mənbələrin statistik məlumatlarına görə, hazırda 32 milyona yaxın patent sənədi mövcuddur, 4 milyona yaxın fəaliyyətdə olan patent vardır. Bunlarla yanaşı, son illər orta hesabla 250 min sənaye nümunəsi qeydiyyatdan keçirilmişdir, onlardan fəaliyyətdə olanların ümumi sayı isə 1,5 milyonu keçmişdir. Fəaliyyətdə olan qeydiyyatlı əmtəə nişanlarının ümumi sayı 8,5 milyonu ötmüşdür, onların illik qeydiyyatı orta hesabla 1 milyondan artıqdır. Sözün əsl mənasında bütün dünyanı əhatə etmiş əqli mülkiyyət sahəsinin qısa statistikası belədir.

Əqli mülkiyyət fenomeni nədədir, nə üçün onları qorumaq lazımdır və bu qorunma dünyada necə həyata keçirilir suallarını cavablandırmaq üçün ilk olaraq əqli mülkiyyət və onun qorunmasından başlayaq. Əqli mülkiyyət nə deməkdir? “Bütün elmi, incəsənət əsərləri və ixtiralar insan təfəkkürünün məhsuludur. Bunlar insanın həyatı üçün təminat mənbəyidir. Əsərlərin və ixtiraların bütün növlərinin etibarlı qorunması dövlətin borcudur”. Doktor Arpad Boqşa məxsus olan bu fikirlər ÜƏMT-nin Cenevrədə yerləşən mənzil-qərargahının günbəzində yazılıb. Yazı mahiyyətcə və fəlsəfi baxımdan əqli mülkiyyətin müasir dünyada rol və əhəmiyyətini təsvir edir. Bəs əqli mülkiyyətə daxil edilən əsərlər, ixtiralar və insan zəkasının digər yaradıcılıq sərvətləri nələr daxildir? Bizi əhatə edən və istifadə etdiyimiz predmetlər çoxluğunun yaradıcıları vardır və biz onlara hər zaman minnətdar olmalıyıq. İstifadə etdiyimiz bütün texniki məhsulların, kompüterlər, saat, məiçət texnikaları və bizim təmasda olduğumuz digər predmetlər öz yaradıcılarının beyin, zəka, yaradıcılıq, bir sözlə əqli (intellektual) əməyinin nəticələrinin məhsuludur. Bu predmetlər yaradıcıların müxtəlif intellektual əməyinin birləşməsi, sintezidir. Nümunə kimi, saatı götürək. Kimsə saat mexanizminin işləməsini kəşf edib, digər yaradıcı onun müəyyən funksional xassələrini təkmilləşdirib, üçüncüsü saatı bugünkü formaya gətirib, nəhayət, digəri öz ustalığı ilə siferblatı yaraşdırıb. Bu birgə zəhmətlər əməyin böyük intellektual məsrəflərini tələb edib ideya kəşfə, yaxud ixtiraya çevrilib əsər yaradılıb. O zaman bir suala cavab axtaraq, əgər yaranan əşyaya, predmetə bu gün hamı yanaşa bilirsə, bunlar hamı üçün faydalı, lakin adi əşyaya çevrilibsə, onda nə vaxtsa bu predmetlər yalnız öz yaradıcılıqlarına məxsus idi, onların yaradıcılıq nəticəsi idi və nəhayət, yaradıcı şəxslərin mülkiyyəti idi. Öz əməyi ilə maddi əşyanı yaradan şəxsin həmin əşyaya mülkiyyət hüququnun yarandığı qaydada yaradıcılıq nəticəsində, intellektual əməyin bəhrəsinə və yaradılmış informasiyaya da mülkiyyət hüququ yaranır. Beləliklə, təbiətin yaradıcıya bəxş etdiyi, öz əməyinin nəticələrindən istədiyi kimi istifadə etmək kimi ayrılmaz hüququ “Əqli mülkiyyət” anlayışını əmələ gətirir. Bir sözlə, “Əqli mülkiyyət” ifadəsini işlədərkən bu anlayışı verərkən bilməliyik ki, söhbət qorunan intellektual yaradıcılıq məhsulundan, yəni yaradıcılarına məxsus olan və yalnız onların icazəsi ilə istifadə edilə bilən mülkiyyətdən gedəcək. Fəqət, əqli mülkiyyət ona daxil edilmiş yaradıcı ideyalar baxımından dəyəri olan informasiyadan ibarətdir. Elə bu informasiya da kommersiya dəyərinə malikdir. “Əqli mülkiyyət” anlayışına daxil olan obyektlərin (kəşf, ixtira, əsərlər və s.) öz sahibləri vardır və əqli mülkiyyət hüquqları onlara məxsusdur. Deyilənlərdən əqli mülkiyyətin ikili təbiətə malik olduğu aşkara çıxır. Bir tərəfdən yaradıcılıq nəticəsinin yaradıcısının həmin nəticəyə müstəsna mülkiyyət hüququ vardır, yəni onu istifadə etmək hüququ, digər tərəfdən, bilavasitə müəlliflik və digər hüquqlar. Əgər istifadə hüquqları kateqoriyası mülkiyyət hüququ ilə oxşadırsa, bir sözlə, müəllifin sərbəst qaydada istifadə etdiyi əmlak hüquqlarıdırsa, onda müəlliflıklə bağlı hüquqlar kateqoriyası öz təbiəti etibarı ilə ayrılmaz olan şəxsi, qeyri əmlak hüquqlarıdır. Qeyd etmək lazımdır ki, əmlak hüquqları müəllifin ayrılmaz olan şəxsi hüquqlarından fərqli olaraq, müəllifin razılığı əsasında digər tərəfə verilə bilər. Belə ki, müəllifin ilkin əmlak hüququnun keçməsi nəticəsində digər tərəfin törəmə sahiblik hüququ yaranır. Əqli mülkiyyətin maddi və şəxsi əmlaka xas olan bir çox xüsusiyyətləri vardır. Əqli mülkiyyət bir mülkiyyət kimi alqı-satqı, icarəyə verilmək, dəyişmək, yaxud əvəzsiz vermək vasitəsinə çevrilə bilər və onun hər hansı istifadə forması sahibi tərəfindən təsdiq edilməlidir. Lakin, əqli mülkiyyətin başlıca xüsusiyyəti ondan ibarətdir ki, o maddiləşmiş, yəni toxunmaqla hiss olunan formada deyil.Müasir intellektual mülkiyyət və ilk növbədə müəllif hüququ və əlaqəli hüquqlar özünün ənənəvi mədəni humanitar əhəmiyyəti ilə yanaşı, getdikcə daha çox əmtəə xassələri alır və nəhəng

iqtisadi potensiala malik olur. Təsadüfi deyil ki, müasir iqtisadiyyat biliklərə əsaslanan iqtisadiyyat adlanır (intellektual və ya rəqəmli iqtisadiyyat), onda yığılmış qeyri maddi aktivlər isə maddi aktivlərlə müqayisədə heç də az rol oynamır, əqli mülkiyyətə əsaslanan intellektual kapitalın özü isə əsas valyuta qismində çıxış edir. Bu səbəbdən dünya dövlətləri əqli mülkiyyətin bu ikili təbiətini nəzərə alaraq nəinki əqli mülkiyyət hüquqlarını müəyyən edir və bu hüquqlara əməl edilməsinə nəzarət edirlər, eyni zamanda əqli mülkiyyətdən istifadə ilə bağlı bütün iştirakçıların əməl etməsi üçün məcburi olan və müəyyən sosial təminatlar rolunu oynayan bəzi minimum standartları formalaşdırırlar.

İxtira, faydalı model və sənaye nümunəsi üçün müvafiq dövlət qurumu tərəfindən verilən mühafizə sənədi patent adlanır. Patent hüququnun obyektlərinin, yəni ixtira, faydalı model və sənaye nümunəsinin əsas xüsusiyyəti ondan ibarətdir ki, onlar üzərində şəxsin hüquqları həmin obyektlərin yaradılması faktının özü nəticəsində yox, həmin obyektlərin səlahiyyətli dövlət orqanından qoruyucu (mühafizəedici) sənəd-patent alınması sayəsində əmələ gəlir. Patent sahibi dedikdə patent obyektlərini qorumaq və onlardan istifadə etməyə müstəsna hüquq əldə etmək üçün səlahiyyətli dövlət orqanının patent verdiyi şəxs başa düşülür. Patentlər innovasiya və iqtisadi göstəricilərdə getdikcə daha əhəmiyyətli bir rol oynayır.Müəssisələr və ictimai tədqiqat təşkilatları tərəfindən ixtiraları qorumaq üçün artan patent istifadəsi, innovasiya proseslərində, iqtisadiyyatda və patent rejimlərində baş verən son dəyişikliklərlə sıx bağlıdır. Bu günümüzdəki patentlərə bənzər patentlər 18-ci əsrdə, əvvəlcə İngiltərədə 1718-ci ildə, daha sonra isə demək olar ki, bütün ölkələrdə patent sistemləri quruldu. Daha sonra 1995-ci ildə əqli mülkiyyət obyektlərin beynəlxalq hüquq qorunmasını həyata keçirən TRIPS Konvensiyası yaradıldı. TRIPS müqaviləsi ÜTT-yə üzv olan bütün ölkələrdə patentlərin mühafizəsini təmin etdir. Patentlərin və digər əqli mülkiyyətin qorunması formalarının yaradılmasının arxasında duran fəlsəfə inhisarın yeniliyi təşviq edə biləcəyi inancına söykənirdi. Son onilliklərdə patent sisteminin strateji baxımdan istifadəsi geniş yayılmışdır. Patentləşdirmənin ənənəvi motivasiyası, öz yeniliklərinin təqliddən qorunmasıdır. Bununla yanaşı, rəqibləri bloklamağa yönəlmiş strateji motivasiyanın da rolu böyükdür. Bunun iki növ ola bilər: hücum və ya müdafiə. Hücum mühafizəsi, firmaların rəqiblərinin firmalarla əlaqəli tətbiqetmə sahələrində yeniliklərdən istifadə etmələrinə mane olmaq üçün patent almasıdır, hətta bu patentlərdən istifadə etmək istəməsələrdə. Müdafiə vəziyyətində isə firmalar başqalarının texnoloji sahələrini azaltmalarına mane olmaq üçün patent alırlar. Patentləşdirmənin digər strateji motivləri sövdələşmə mövqeyinin yaxşılaşdırılması, beynəlxalq bazarın genişlənməsi, nüfuzun yaxşılaşdırılması, rəqiblər tərəfindən fəaliyyətlərin patentləşdirilməsinə ehtiyac və öz yeniliklərini ortaq bir standart kimi təyin etmək daxil ola bilər.

Patentlər həmçinin patent sahibinə verilmiş onun patentləşmiş əqli nəticəsinin hazırlanmasına, istifadəsinə və satılmasına qarşı çıxmaq üçün müstəsna hüquqlardır. Mahiyyətcə patent ixtiraçı və cəmiyyət, dövlət arasındakı kontrakt deməkdir və bu kontrakta əsasən cəmiyyətə verdiyi məlumata görə patent sahibi hüquqlar alır, bunun əvəzinə öz əməyinin müqabilində haqla mükafatlandırılır və gələcək tədqiqatlara həvəsləndirilir. İxtira patenti konkret problemin həllinə imkan verən yeni texniki həll üçün verilir. Faydalı model və sənaye nümunələridə patent hüququ ilə qorunur. Faydalı modellər onların patentləşdirilmiş sahiblərinin yalnız icazəsi olduğu halda hazırlanmasına, istifadəsinə, satılmasına hüquqlar təminatı verirlər. Hüquqların qorunması vasitəsi kimi faydalı modellərə patentlər istehsal vasitələrinin və istehlak əşyalarının, yaxud onların tərkib hissələrinin konstruktiv həllinə görə verilir. Sənaye nümunələri onları qeydiyyatdan keçirmiş sahiblərinin icazəsi olmadan heç bir tərəfə həmin nümunədən ibarət, yaxud tərkib hissəsi olan məmulatın hazırlanmasına, satışına yaxud idxalına imkan verməyən hüquqları təmin edir. Qorunma vasitələri kimi qeydiyyatdan keçirilmiş sənaye nümunələri faydalı məmulatın ornamental aspektinə görə, yəni yeni zahiri görkəmi müəyyən edən bədii-konstruktiv həllə görə verilir. Gördüyümüz kimi, patent, qorunma, mühafizə sənədi kimi özündə əqli mülkiyyətin üç növünü birləşdirir və bu cür

birləşmə həmin obyektlərin oxşarlığından və əqli mülkiyyətin digər obyektlərinin fərqindən irəli gəlir. Bu üç növ obyektin özləri isə onlara qoyulan patent qabiliyyəti şərtləri ilə bir-birindən seçilirlər. Əmtəə nişanları və xidmət (servis) nişanları (firma nişanları) onları qeydiyyatdan keçirmiş sahiblərinə digər şəxslər tərəfindən istehlakçılara yanlış fikir yarada bilən oxşar nişanın istifadəsinə qarşı çıxmaq hüquqlarıdır. Firma nişanları əmtəə və xidmətlərin (servisin) mənbəsini göstərir və bir əmtəəni (xidməti) digərindən fərqləndirməyə imkan verən istənilən formada (söz, simvol, rəmz, loqotip, səs siqnalı) təsvir və. s ola bilər. Bu cür fərqləndirmənin məqsədi əmtəənin, yaxud xidmətin keyfiyyətini rəmzləndirməkdir. Haqsız rəqabətdən mühafizənin yuxarıda sadalanan müəlliflik hüquqları, patentlər və digər bu kimi qorunma hüquqi alətlərin (vasitələrin) bağlı olduğu müstəsna hüquqlara aidiyyəti yoxdur. Lakin bu, sənaye və ticarət işlərində ədalətli praktikaya zidd olan üsul və vasitələrə qarşı yönəldilmişdir. Məsələn ədalətsiz rəqabətdən mühafizə kommersiya sirlərinin qeyri-qanuni əldə edilməsi, açılması yaxud istifadəsinə qarşı çıxış edə bilər. Kommersiya sirri o cümlədən çertyojlar, proqramlar, şəkillər, texnologiyalar və s. öz sahibinə rəqabətdə müəyyən üstünlüklər yaradır. Bu səbəbdən kommersiya sirri sahibinin onu açdığı ana qədər qorunur. Aydındır ki, digər tərəfin istəyi ilə sahibin icazəsi olmadan sirrin açıqlaması qeyri qanuni sayılır. Əqli mülkiyyətin və onlarla bağlı hüquqların yuxarıda göstərilən siyahısı o zaman tam ola bilərdi ki, burada əqli mülkiyyətin qeyri-ənənəvi obyektləri də işıqlandırılaydı. Lakin bunu etməzdən öncə verilmiş məlumatlardan vacib nəticəni qeyd etməliyik. Bu da ondan ibarətdir ki, müəlliflik hüququ, əlaqəli hüquqlar, patent hüququ və əmtəə nişanlarının qorunması vasitələri müasir dünyada əqli mülkiyyətin ənənəvi qorunma institutlarına çevrilmişdir. Adları çəkilən hüquqi vasitələrin hər biri mahiyyətcə oxşar geniş obyektlər spektrini özündə birləşdirir. Buna görə də bu obyektlər ənənəvi qorunma alətləri ilə qorunur. İndi isə kəşflərə, inteqral sxemlərin topologiyası, seleksiya nailiyyətləri və məlumat toplularına hüquqlar kimi qeyri-standart, ənənəvi olmayan əqli mülkiyyət obyektləri haqqında qısaca məlumat verək. Həmin obyektlər də insanların yaradıcı əməyi ilə yaradılır, cəmiyyət üçün dəyərlidirlər. Onlar da ictimai tanımaya və hüquqi qorunmaya ehtiyac duyurlar. Lakin əqli mülkiyyətin qeyri-ənənəvi obyektləri dünya cəmiyyəti tərəfindən müxtəlif səviyyədə qəbul edilir, belə ki, dünyanın əksər ölkələrində kəşflərin qorunması xüsusi seçilmir və bununla yanaşı, ölkələrin mütləq əksəriyyəti xüsusi hüquqi qorunma – “sui-generis” vasitəsilə inteqral sxem topologiyasının, seleksiya nailiyyətlərinin və məlumat toplularının qorunmasını təmin edirlər.Belə qorunma adının qəbul edilməsindən məqsəd onların müəllif-hüquq, patent, firma nişanlarının qorunmasından ayırmaqdır. Bu da ondan irəli gəlir ki, ənənəvi obyektlərinin qorunmasını təmin edə bilmirlər. Məsələn, kəşfləri götürək. Elmi kəşfin təbiəti belədir ki, hüquqi qorunma baxımından müəllifinə hər hansı monopol (təkəl) hüquqların verilməsini istisna edir. Təbii ki, belə halda müəlliflik, yaxud patent hüququna xas olan əqli nəticədən istifadəyə müstəsna hüquqlar öz məntiqini itirir. Bununla birlikdə, müəllifin müəlliflik hüququ və digər qeyri-əmlak, şəxsi hüquqları belə vəziyyətdə müəlliflik yaxud, patent hüququ tərəfindən yaradılan hüquqlara məntiqcə oxşar olur. Əgər inteqral sxemlərin topologiyasını, yaxud seleksiya nailiyyətlərini götürsək, onda qorunma üçün bunların mahiyyəti əsas olduğuna görə, əsərin formasının başlıca olduğu müəlliflik hüququ qorunması çərçivəsində təmin edilə bilməz. O ki, qaldı patent hüququna, ona xas olan patent monopoliyası, yaxud ümumi şəxslərin nəzərinə həllin mahiyyətini çatdırma, qorunma tələbi əqli mülkiyyətin qeyri-ənənvi obyektlərinə tətbiqini ləngidir. Bununla belə, bir sıra ölkələr seleksiya nailiyyətlərinin qorunmasını patent sistemi çərçivəsində həyata keçirir. Daha maraqlı vəziyyət məlumat toplularına münasibətdə yaranır. Məsələ ondadır ki, məlumat toplularının böyük qismi yaradıcılıq nəticəsi kimi müəllifi hüquqi vasitəsilə qorunur.

Əqli mülkiyyətin obyektlərinin sahiblərinin hüquqlarının xüsusi şəkildə qorunması zəruridir və bu, müxtəlif ölkələrin qanunvericiliklərində öz əksini tapmışdır.

**Ədəbiyyat**

1. Kamran İmanov, Heydər Əliyyev Azərbaycanın milli əqli mülkiyyət sisteminin müəllifi və yaradıcısıdır. Bakı, 2019
2. Kamran İmanov, Müəlliflik hüququ və digər əqli mülkiyyət hüquqları müasir mərhələdə. Bakı, 2016
3. Agreement On A Unified Patent Court, 121. Available at: https://www.unified-patent-court.org/sites/default/files/upc-agreement.pdf
4. Dr. Gyula Zilahy, THE IMPACT OF PATENT PROTECTION ON ENVIRONMENTAL AND GENERAL INNOVATIONS. Budapest, 2014

**i.f.d. Hacıyeva Aytac Müzəffər qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*E-mail:* Aytaj_Hajiyeva@unec.edu.az

# AZƏRBAYCAN-RUSİYA TİCARƏT-İQTİSADİ ƏLAQƏLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV AMİLİ

**Xülasə**

Məqalədə Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin inkişafinda Heydər Əliyev amili tədqiq edilmişdir. Rusiyanın Azərbaycanın xarici ticarət dövriyyəsində, xüsusilə idxalda əsas partnyoru kimi formalaşması prosesləri təhlil olunmuşdur. Müstəqilliyin bərpasından sonra 1990-cı illərin əvvəllərindən başlayaraq, Rusiya ilə Azərbaycan arasında ticarət-iqtisadi əlaqələrin təşkilindəki problemlər açıqlanmışdır. Təsərrüfat və iqtisadi əlaqələrin kəsilməsi, münasibətlərin zəifləməsi səbəbindən itirilmiş ticarət-iqtisadi əlaqələrin bərpası ilə bağlı aparılan işlər baxılmışdır. 1993-2003-cü illərdə Azərbaycanın xarici ticarət dövriyyəsinin dinamikası təhlil olunmuşdur. Xarici ticarət dövriyyəsində Azərbaycanla Rusiya arasında idxal-ixrac əməliyyatlarının dinamikası ayrıca baxılmışdır. Xarici ticarət dövriyyəsinin artırılmasında Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə 1993-2003-cü illərdə xarici ticarət sahəsində həyata keçirilən geniş həcmli fəaliyyətin təhlili verilmişdir. Həmin dövr ərzində Azərbaycanla Rusiya arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsində və dinamikliyinin təmin olunmasında Heydər Əliyevin xidmətləri göstərilmişdir. Baxılan problemlər və məsələlər üzrə ümumiləşdirmələr aparılmış və təkliflər hazırlanmışdır.

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan-Rusiya, ticarət-iqtisadi əlaqələr, xarici ticarət, idxal-ixrac.*

Keçmiş SSRİ-in süqutundan sonra bu ittifaqa daxil olan respublikalar arasında təsərrüfat-kooperasiya əlaqələri qısa müddət ərzində ciddi deformasiyaya uğradı, siyasi-iqtisadi əlaqələr zəiflədi və ya kəsildi, münasibətlər soyudu və ya tamamilə yeni xarakter aldı. 1990-cı illərin əvvəllərində bu respublikalarda, o cümlədən Azərbaycan və Rusiyada çox gərgin bir dövr idi. Siyasi təlatümlər, hakimiyyət davası gedirdi, dövlətçilik atributlarının formalaşdırılması üçün sabitliyin yaradılması vacib idi. Bir tərəfdən də Azərbaycanda hakimiyyət uğrunda savaş və mübarizə ifrat dərəcəyə çatmışdı. Davamlı tətillər baş verdi, hər tərəfdə itaətsizlik, xaos, hərc-mərclik hökm sürürdü. Müxalifət qüvvələri ilə hökumət arasında milli birlik əvəzində hakimiyyət hərisliyi önə çıxmışdı və beləliklə, Azərbaycanda tarixi faciələrin yaşanması baş verdi. 1990-cı ildə yanvar ayının 20-də Bakı şəhərində dinc əhalinin Sovet Ordusu tərəfindən güllə-baran edilməsi, tanklar altında əzilməsi, Ermənistnanın öz havadarlarının silah və sursatları, köməyi ilə Azərbaycan torpaqlarını işğal etməsi, 1992-ci ildə fevral ayının 26-də baş vermiş Xocalı soqyırımı, Qarabağdan əlavə 7 rayonumuzun itirilməsi, ümumilikdə torpaqlarımızın 20 fazinin işğal altına düşməsi baş verdi. Ölkəmizin müstəqilliyi təhlükə altında idi, regionda əsas söz sahibi olan Rusiya ilə olan münasibətlər isə ən pis həddə çatmışdı. Siyasi-iqtisadi gərginlik dərinləşmişdi, iqtisadi əlaqələr yüksək sürətlə itirilməkdə idi, kommunikasiyalardan istifadə olunmasında belə çətinliklər başlamışdı, Rusiyaya yük daşıyan nəqliyyat vasitələrinin hərəkəti təhlükəli olmuşdu, təhdidlər və təzyiqlər artmaqda idi. Həmin dövrdə Azərbaycanı idarə edənlər Rusiya kimi iri dövlətin güc və imkanlarını, regionda olan bütün hadisələrə təsiretmə potensialını təhlil etməkdə və milli maraqlar, milli iqtisadi maraqlar naminə düzgün qərarlar verməkdə çətinlik çəkidirlər. Xain və ikiüzlü qüvvələr bütün bunlardan istifadə edərək, Rusiya və Azərbaycan arasında münasibətləri daha da gərginləşdirildirlər.

1991-ci il dekabrında SSRİ-nin süqutundan sonra, bu fövqəldövlətin varisi kimi Rusiya regionda və dünyada yeni formada, müstəqil dövlət kimi öz gücünü və təsirini nümayiş etdriməyə başladı. Buna görə də həmin dövrdə mühüm dövlətçilik vəzifələrimizdən biri də Rusiya Federasiyası ilə siyasi-iqtisadi münasibətlərin müstəqil dövlətlər statusunda yenidən və yüksək səviyyədə qurulmasının təmin edilməsi idi. Amma təəssüf ki, qeyd etdiyimiz kimi 1991-1993-cü illərdə Azərbaycanda rəhbərlikdə olanlat bu vəzifənin öhdəsindən layiqincə gələ bilmədilər. Məhz belə bir şəraitdə 1992-ci ilin aprel ayının 4-də Rusiya – Azərbaycan arasında diplomatik əlaqələr qurulmuşdur və artıq 1992-ci ilin sentyabr ayının 25-də Bakıda Rusiyanın səfirliyi işinə başlamışdı. Azərbaycanın Rusiyada fəaliyyət göstərən daimi nümayəndəliyinin bazasında isə ölkəmizin Rusiyada səfirliyi təşkil olunmuş və 1992-ci ildən fəaliyyət göstərmişdir [10].Lakin bildirdiyimiz kimi həmin dövrdə iki ölkə arasında siyası-iqtisadi əlaqələrin, bu əlaqələrin mühüm tərkib hissəsi olan ticarət-iqtisadi əlaqələrin formalaşdırılması və inkişafı üçün zəruri addımların atılması mümkün olmamışdır.

Digər tərəfdən, müstəqil respublikaların formalaşması prosesi gedirdi və siyasi-iqtisadi sabitliyin təmin olunmasına müəyyən vaxt lazım idi. Sovetlər Birliyi dönəmində bu iki respublikanın təsərrüfat-iqtisadi əlaqələri kifayət qədər sıx idi, müəssisələr bir-birindən asılı vəziyyətdə işləyirdilər, məsələn xammal Rusiyanın uzaq bir nöqtəsindən Azərbaycana gətirilirdi, məhsul istehsal olunurdu və geriyə yenidən Rusiyaya qaytarılırdı. Yaxud əksinə, Azərbaycanda istehsal olunan xammallar Rusiya müəssisələri üçün göndərilirdi. Azərbaycanda neft-kimya maşın avadanlıqlarının əhəmiyyətli hissəsi Rusiyaya neft-qaz müəssisələrinə göndərilirdi, iri metallurgiya və kimya, neft-kimya müəssisələri də bilavasitə Rusiya müəssisələri ilə inteqrasiya olunmuşdu. Buna görə də müstəqilliyin ilk illərində Azərbaycanda fəaliyyət göstərən iri müəssisələrin əksəriyyətinin ciddi problemləri yarandı, satış və xammal göndərən partnyorlarla əlaqələr kəsildi, yaxud tamamilə zəiflədi, bir-birinin ardınca müəssisələr öz istehsal güclərini itirdilər. Respublikalararası iqtisadi əlaqələr pozuldu və yeni əlaqələrin, artıq müstəqil dövlətlər kimi xarici-iqtisadi əlaqələrin, o cümlədən ticarət-iqtisadi əlaqələrin yaradılması və inkişaf etdirilməsi tələb olunurdu.

Məhz belə bir dövrdə Ulu Öndər Heydər Əliyev xalqın tələbi və çağırışı ilə yenidən Azərbaycanın rəhbərliyinə dəvət olundu. Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlməsindən sonra bütün sahələrdə olduğu kimi, xarici ticarət siyasətinin təkmilləşdirilməsində, o cümlədən Rusiya ilə ticarət-iqtisadi əlaqələrin bərpasında tarixi aspektlər təhlil edilmiş və milli maraqlar naminə təxirəsalınmaz tədbirlər görülməsinə nail olunmuşdur. Heydər Əliyevin nüfuzu və Rusiya ilə siyasi-iqtisadi əlaqələrin bərpası və inkişaf etdirilməsi istiqamətində atdığı adddımlar tezliklə öz nəticəsini vermişdir. Dünya səviyyəli və güclü dünyagörüşünə, dərin zəkaya, uzun illər ərzində liderlik təcrübəsinə və məharətinə malik olan Heydər Əliyev yaxşı anlayırdı ki, Rusiya ilə münasibətləri qaydaya salmadan regionda sabitlik, o cümlədən iqtisadi inkişaf və ticarət-iqtisadi əlaqələrin bərpası qeyri-mümkündür. İkinci dəfə hakimiyyətə gəldiyi ilk gündə- 15 iyul 1993-cü ildə Milli Məclisin iclasındakı ilk çıxışında Azərbaycanla Rusiya arasında münasibətlər qurulmasının vacibliyinə dair belə demişdi: "Rusiya çox böyük dövlətdir, bizim qonşumuzdur. Şübhəszi ki, Rusiya ilə Azərbaycan arasında müstəqil prinsiplər əsasında münasibətlər bundan sonra daha yaxşı, daha geniş, səmərəli olmalıdır" [1**]**. Hadisələr özünü çox gözlətdirmədi, böyük şəxsiyyət Heydər Əliyev milli maraqlarımızı üstün tutmaqla, Rusiya Federasiyası ilə əlaqələrin genişləndirilməsi istiqamətində tarixi səylər göstrəmişdir. Belə ki, artıq Prezident kimi 1994-cü il 14-15 aprel tarixlərində MDB dövlət başçılarının Moskvada keçirilən zirvə toplantısında iştirak etmişdir və elə həmin il yenidən iki dəfə sentyabr və oktyabr aylarında Moskvada olmuş və MDB dövlət başçıları ilə görüşmüşdür. Lakin Rusiya ilə ikitərəfli münasibətlərin dərinləşdirilməsi vacib idi və buna görə də 1994-cü il noyabr ayının 17-18 tarixlərində Moskvaya işgüzar səfər etmiş və 1995-ci il 9-10 may tarixlərrində faşizm üzərində qələbənin 50 illiyinə həsr olunmuş–Moskvada keçirilən yubiley tədbirlərində iştirak etmişdir. 1996-cı il ərzində Heydər Əliyev 4 dəfə Rusiya Federasiyasına səfər etmişdir, amma bu səfərlərdən biri 1996-cı il 7-11 avqust

tarixlərində rəsmi səfər kimi yadda qalmışdır. Bu səfər çərçivəsində keçirilən yüksək səviyyəli ikitərəli və təkbətək görüşlərdə, nümayəndə heyətlərinin iştirakı ilə keçirilən tədbirlərdə Azərbaycanla Rusiya arasında əksər sahələrdə sıx əməkdaşlığın təməli qoyulmuşdur. Xüsusilə, iqtisadi əlaqələrin bərpası və genişləndirilməsi, ənənəvi ticarət-iqtisadi əməkdaşlığın gücləndirilməsi, xarici ticarət dinamikasının artımına mane olan baryerlərin aradan qaldırılması tədbirlərinin görülməsi üçün hər iki ölkənin müvafiq dövlət strukturlarına konkret tapşırıqlar verildi. 1997-2002-ci illər ərzində Ulu Öndər Heydər Əliyev 11 dəfə Rusiya Federasiyasına işgüzar və rəsmi səfərlərə getmiş və hər dəfə də iki ölkə arasında əlaqələrin gücləndirilməsinə, o cümlədən ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə və xarici ticarət dövriyyəsinin artırılmasına əhəmiyyətli töhfəsini vermişdir. İki ölkə arasında diplomatik əlaqələrin qurulmasından sonrakı dövrdə bu ölkələr arasında 300-ə qədər ikitərəli sənədlər imzalanmış və onların reallaşdırılması istiqamətində tədbirlər görülmüşdür. Bu sənədlər sırasında 3 iyul 1997-ci il tarixli "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə", 9 yanvar 2001-ci il tarixli Bakı Bəyannaməsi mühüm əhəmiyyət kəsb edirlər və həmin sənədlərin hazırlanması, imzalanmasında Heydər Əliyevin xidmətlərini qeyd etmək xüsusilə vacibdir [3]. "Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 6 aprel 2004-cü il tarixli qanununda Azərbaycan və Rusiya xalqlarının qarşılıqlı yaxınlaşmasına yönəldilmiş mühüm sənəd kimi, Azərbaycan-Rusiya strateji tərəfdaşlığının əsaını qoyan 3 iyul 1997-ci il tarixli AR və RF arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilənin əhəmiyyəti bir daha vurğulanmışdır [4]

Qeyd edək ki, 1993-2003-cü illərdə Rusiya ilə Azərbaycan arasında olan ticarət-iqtisadi əlaqələr və ümumilikdə xarici ticarət fəaliyyəti mövcüd potensiala uyğinlaşdırlması baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, həmin dövrdə Azərbaycan nefti əsasən Rusiyadan keçən və Qara dənizdə yerləşən Novorossiysk limanı vasitəsilə ixrac olunurdu. Bundan əlavə, ölkəmizin mühüm ərzaq məhsullarına, o cümlədən ərzaq buğdasına olan tələbatının böyük bir hissəsi Rusiyadan idxal hesabına təmin edilirdi. Buna görə də həmin dövr ərzində Rusiya Azərbaycanın xarici ticarətində əsas tərəfdaşı olmuşdur və idxalında isə bu ölkə uzun illər birinci sırada qərarlaşmışdır. Bir mühüm amili də nəzərə almaq lazımdır ki, Rusiyada bizim bir neçə milyon soydaşlarımız yaşayır və işləyirlər. Rusiya ilə əlaqələrin yaxşılaşdırılması və münasibətlərin dərinləşdirilməsi bizim milli maraqlarla üst-üstə düşür. Azərbaycandan Rusiyaya ənənəvi olaraq daha çox kənd təsərrüfatı məhsulları, həmçinin kimya və neft-kimya məhsulları, pambıq mahlıcı və s. ixrac olunur. Rusiyadan isə Azərbaycana daha çox maşın və mexanizmlər, avadanlıqlar, ərzaq məhsulları idxal edilir.

1993-2003-cü illərdə Azərbaycanın xarici ticarət dövriyyəsi, o cümlədən Rusiya ilə idxal-ixrac əməliyyatları barədə bir sıra təhlillər aparmışıq. Cədvəl 1-də həmin dövr ərzində Azərbaycanda idxal-ixrac əməliyyatlarının ümumi dinamikası öz əksini tapmışdır.

**Cədvəl 1**

**Azərbaycanın xarici ticarət dövriyyəsinin dinamikası, 1993-2003-cü illər (mln. ABŞ dol.)**

| İllər | Cəmi dövriyyə | Dinamika, % | İdxal | Dinamika, % | İxrac | Dinamika, % | Saldo |
|---|---|---|---|---|---|---|---|
| 1993 | 1353,5 | - | 628,8 | - | 724,6 | - | 95,8 |
| 1994 | 1430,6 | 5,7 | 777,9 | 23,7 | 652,7 | 10,0 | -125,2 |
| 1995 | 1304,9 | -8,8 | 667,6 | -14,2 | 637,4 | -2,4 | -30,4 |
| 1996 | 1591,9 | 22,0 | 960,6 | 43,9 | 631,2 | -1,0 | -329,4 |
| 1997 | 1575,6 | -1,1 | 794,3 | -17,3 | 781,3 | 23,8 | -13,0 |
| 1998 | 1682,6 | 6,8 | 1076,5 | 35,5 | 606,1 | -22,4 | -470,3 |
| 1999 | 1965,1 | 16,8 | 1035,9 | -3,8 | 929,2 | 53,3 | -106,6 |
| 2000 | 2917,3 | 48,5 | 1172, 0 | 13,1 | 1745,2 | 87,7 | 573,1 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 2001 | 3745,3 | 28,4 | 1431,1 | 22,1 | 2314,2 | 32,6 | 883,0 |
| 2002 | 3833,0 | 2,3 | 1665,6 | 16,4 | 2167.5 | -6,3 | 501,9 |
| 2003 | 5218,1 | 36,1 | 2626,4 | 57,7 | 2591,7 | 19,6 | -34,7 |

**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [5;6;7;8].**

Cədvəl 1-in təhlilindən baxsaq, görmək mümkündür ki, 1993-2003-cü illərdə ölkəmizin xarici ticarət dövriyyəsi 3,9 dəfəyə yaxın artmış və 2003-cü ilin yekununda 5,2 mlrd. ABŞ dollarından çox təşkil etmişdir. Həmin dövr ərzində idxalın həcmi 4,2 dəfəyə yaxın artmışdırsa, ixrac cəmisi 3,6 dəfəyə yaxın artım nümayiş etdirmişdir. Xüsusilə, 1993-1997-ci illərə Rusiya rəhbərliyi və hökuməti ilə aparılmış danışıqların və görülmüş tədbirlərin sayəsində növbəti illərdə 2000-2003-cü illərdə xarici ticarət dövriyyəsində baş verən artımın əhəmiyyətli hissəsi bu ölkə ilə ticarət dövriyyəsinin payına düşmüşdür. Azərbaycanın idxalında Rusiyanın payı yüksək olaraq qalmışdır və bu ölkə idxalımızda xüsusi çəkisinə görə əsas tərəfdaş kimi birinci yerdə qərarlaşmışdır (bax: cədvəl 2).

**Cədvəl 2**

**Azərbaycanın idxalında və ixracında Rusiya Federasiyasının xüsusi çəkisi və yeri**

| Göstəricilər | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|
| İdxalda xüsusi çəkisi, %-lə | 21,9 | 21,3 | 10,7 | 16,9 | 14,6 |
| İdxalda yeri (ədəd) | 1 | 1 | 2 | 1 | 1 |
| İxracda xüsusi çəkisi, %-lə | 8,9 | 5,6 | 3,4 | 4,4 | 5,7 |
| İdxalda yeri (ədəd) | 2 | 5 | 6 | 5 | 3 |

**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [5;6;7;8].**

Cədvəl 3-də isə Azərbaycanla Rusiya arasında 1996-2003 illər ərzində idxal-ixrac əməliyyatlarının dinamikası verilmişdir.

**Cədvəl 3**

**Azərbaycanla Rusiya arasında 1999-2003 illər ərzində idxal-ixrac əməliyyatlarının dinamikası (mln. ABŞ dolları)**

| Göstəricilər | 1999 | 2000 | 2001 | 2002 | 2003 |
|---|---|---|---|---|---|
| **İdxal cəmisi:** | 1035,9 | 1172,1 | 1431,1 | 1665,6 | 2626,0 |
| O cümlədən: MDB | 325,3 | 375,5 | 445,2 | 650,6 | 850,7 |
| Xüsusi çəkisi, % | 31,4 | 32,0 | 31,1 | 39,1 | 32,4 |
| O cümlədən: Rusiya | 226,5 | 249,3 | 153,0 | 280,9 | 383,9 |
| Xüsusi çəkisi, % | 21,8 | 21,2 | 10,7 | 16,9 | 14,6 |
| **İxrac cəmisi:** | 929,7 | 1745,2 | 2341,2 | 2167,5 | 2592,0 |
| O cümlədən: MDB | 211,1 | 235,2 | 222,8 | 243,72 | 333,9 |
| Xüsusi çəkisi, % | 22,7 | 13,5 | 9,6 | 11,2 | 12,8 |
| O cümlədən: Rusiya | 83,0 | 98,3 | 77,5 | 95,7 | 147,8 |
| Xüsusi çəkisi, % | 8,9 | 5,6 | 3,3 | 4,4 | 5,7 |

**Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır[5;6;7;8].**

Cədvəl 3-ün təhlilindən baxsaq 1999-2003-cü illərdə Rusiya Azərbaycanın MDB ilə ümumi idxalında 30 %-dan yuxarı paya malik olmuşdur və 2003-cü ildə bu göstərici 32,4 % təşkil etmişdir, analoji göstərici ixracda 12,8 % səviyyəsində olmuşdur.

Əgər Rusiya- Azərbaycan xarici ticarət dövriyyəsində əmtəə strukturuna baxsaq, əvvəldə qeyd etdiyimiz kimi ölkəmizə əsasən maşın və avadanlıqlar, ərzaq və müxtəlif sənaye məhsulları idxal olunmuşdur [15]. Rusiyadan Azərbaycana daha çox idxal olunan mal qrupları sırasında ərzaq məhsulları, tikinti materialları, əczaçılıq məhsulları, ağac və ondan hazırlanan məmulatlar, qara metallar və ondan hazırlanan məmulatlar, avadanlıqlar, maşınlar, mexanizmlərvə onların hissələri, elektrik maşın və avadanlıqları, müxtəlif nəqliyyat vasitələri və s. daha çox diqqət çəkmişdir. Bu ölkəyə ixracın strukturunda isə əsasən təzə meyvələr və tərəvəzlər, şəkər çuğunduru, tütün, yağlar və sürtkü materialları, alüminium oksidləri, pambıq mahlıcı, kimya və neft-kimya məhsulları yer almışlar. Məhz həmin dövrdə Azərbaycanın xarici ticarət konsepsiyasının təkmilləşdirilməsi və inkişaf etdirilməsi hesabına, ölkəmizin beynəlxalq əmtəə bazarlarına çıxışının genişləndirilməsi prosesləri sürətləndirilmişdir.

1993-2003-cü illərdə Azərbaycanla Rusiya arasında olan ticarət-iqtisadi əlaqələrində bir çox problemli məsələlərin, o cümlədən yüklərin daşınmasında olan problemlərin, sərhəd məntəqələrində və gömrük postlarında yaranan arzuolunmaz halların aradan qaldırılması tədbirləri görülmüşdür [13]. Heydər Əliyev ölkənin mərkəzi idarəetmə strukturlarının, nazirlik və komitələrin, müvafiq qurumların məsuliyyət hissinin artırılması, beynəlxalq iqtisadi əlaqələrdə dürüst fəaliyyətin təmin edilməsi, şəffaflığın qorunması ilə bağlı probelmləri bir-birinin ardınca həll etməyə nail oldu. Ulu Öndər sərhəddə yerləşən xidmət sahələrində bu kimi problemlərin aradan qaldırılması üçün yorulmaz səylər göstərmiş və xarici partnyorların, potensial investorların ölkəmizə gəlməsi və daha fəal şəkildə işləməsi üçün müvafiq əlverişli şəraitin yaradılmasını təmin etmişdir. Bütün bunların nəticəsində Azərbaycan Rusiyanın 70-dən çox regionu ilə ticarət-iqtisadi əlaqələrin formalaşdırılmasına nail olmuş, bir sıra regionlarla, xüsusilə, Tatarstan və Dağıstan respublikaları ilə daha sıx iqtisadi əməkdaşlıq səviyyəsi təmin olunmuşdur [9]. Təsadüfi deyidir ki, həmin respublikların Azərbaycanda nümayəndəlikləri, həmçinin Rusiya Federasiyasının ölkəmizdə ticarət nümayəndəliyi fəaliyyət göstərirlər [17]. Rusiyanın bir sıra digər regionları, o cümlədən Həştərxan, Moskva, Sankt-Peterburq, Yekaterinburq, Saratov və s. vilayətləri ilə də sıx ticarət-iqtisadi əlaqələri formalaşmışdır [16]. Ümumilikdə, Rusiyanın Azərbaycanda 700-dən çox müxtəlif firma və kompaniyalarının nümayəndəlikləri, yaratdıqları birgə müəssisələr vardır. Bunlardan 300-ü 100%-li Rusiya kapitalı ılı işləyirlər, yerdə qalanları isə birgə müəssisə statusuna malikdirlər. Rusiyalı investorlar və biznes subyektləri daha çox yanacaq-enerji sektorunda, qida və əczaçılıq sənaye sahələrində, bank, sığorta və xidmət sektorunda investisiyalar yatırmışlar və bizneslərini genişləndirməkdədirlər. “2002-ci ilin yanvarında Ulu Öndər Heydər Əliyevin Rusiyaya dövlət səfəri ilə iki qonşu ölkə arasında ticarət-iqtisadi münasibətlərdə yeni mərhələ başladı və xüsusilə, Xəzər dənizində əməkdaşlığın mühüm prinsipləri üzrə birgə bəyanat imzalanmışdır. Bununla da Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi proseslərinin möhkəm bünövrəsi qoyulmuş oldu” [12]. Məhz sonralar bu prinsiplər əsasında Xəzər dənizi hövzəsinə daxil olan 5 ölkə–Azərbaycan, Rusiya, İran, Qazaxstan və Türkmənistan arasında çox mürəkkəb keçən uzun danışıqlar müsbət nəticələndi və Xəzər dənizinin milli sektorlar prinsipi ilə bölüşdürülməsi nəticəsində bu bölgədə siyasi və iqtisadi sabitliyə, o cümlədən ticarət-iqtisadi əlaqələrin intensivləşdirilməsinə güclü stimullar verildi. Bundan əlavə, regionda beynəlxalq ticarət və nəqliyyat marşrutlarının inkişaf etdirilməsi, tranzit potensialından səmərəli istifadə olunması, yüklərin daşınması xərclərinin və müddətlərinin azaldılması istiqamətində önəmli addımlar atıldı. Rusiya ilə Azərbaycan arasındakı əlaqələrin strateji əməkdaşlıq səviyyəsinə çatdırılmasında bu amillərin böyük rolu olmuşdur [14]. Rusiya bazarları kifayət qədər genişdir və Azərbaycanda istehsal olunan qeyri-neft məhsularının bu bazarlarda möhkəmlənmək potensialı xeyli yüksək qiymətləndirilir. Keçmiş sovet dövründə formalaşmış əlaqələrin az bir hissəsinin, məsələn 20 %-ə qədərinin bərpa edilməsi belə 2 ölkə

arasında xarici ticarət dövriyyəsinin həcminin artırılmasına əsaslı təsir göstərə bilər. Heydər Əliyev tərəfindən möhkəmləndirilmiş Rusiya-Azərbaycan ticarət-iqtisadi əlaqələrinin genişləndirilməsi nəticəsində ticarət dövriyyəsi ildən – ilə artmış və son illərin göstəricilərində bu rəqəm 3 mlrd. ABŞ dollarından çox olmuşdur.

Heydər Əliyevin Rusiya-Azərbaycan ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsində və inkişaf etdirilməsində tarixi xidmətlərindən biri kimi bu böyük və güclü ölkə ilə münasibətlərin yüksək səviyyədə saxlanılmasının prioritetliyinə olan qəti baxışları və mövqeyi idi. Müasir Azərbaycan-Rusiya münasibətlərinin kökündə və bünövrəsində bu amilin həlledici rolu olmuşdur[11]. Məhz 1993-2003-cü illərdə Ulu Öndər tərəfindən reallaşdırılan optimal və uzaq perspektivə hesablamış xarici ticarət konsepsiyası bu vaxta qədər ölkəmizin beynəlxalq əmək bölgüsü sistemində möhkəmlənməsinə və tədricən xarici ticarət dövriyyəsinin strukturunun diversifikasiyalarşdırlmasına əsaslı zəmin yaratmışdır. Ölkə Prezidenti İlham Əliyevin "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" 21 yanvar 2013-cü il tarixli sərəncamında deyilir: "Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialında istifadə edərək, Şərqlə Qərb arasında etirbarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir" [2].

Müstəqillik dönəmində Azərbaycanın xarici siyasətində, xarici-iqtisadi əlaqələrində Rusiyanın rolu və yeri daim böyük çapda olmuşdur. Ulu Öndər Heydər Əliyev bunu tam məsuliyyəti və uzaqgörənliyi ilə dərk edirdi, buna görə də Rusiya ilə bütün sahələrdə əlaqələrin gücləndirilməsinə, ilk növbədə ticarət-iqtisadi sahədə əməkdaşlığın starteji səviyyədə saxlanılmasına və inkişaf etdirilməsinə ciddi önəm vermişdir. Tarixi gedişat və hazırkı dövrün baş verən prosesləri bir daha bunu büruzə verdi. 30 ilə yaxın torpaqlarımızı işğalda saxlayan və Rusiyanın forpostu olan mənfur Ermənistanın təslim olduğu Böyük Qarabağ zəfəri göstərdi ki, strateji qonşuluq əməkdaşlığı həlledici əhəmiyyət kəsb edir. Müxtəlif amillərə və hallara baxmayaraq, Rusiya Azərbaycanın ərazi bütövlüyünü və suveren hüquqlarını tanıdığını, hörmət etdiyini bəyan etmiş, 44 günlük müharibə dövründə ümumən neytrallığını qorumuşdur. Bu dövləti və milli maraqların kökündə Heydər Əliyevin dəsti-xətti vardır və ölkə Prezidenti-Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin siyasi-iqtisadi kursuna sadiqliyini nümayiş etdirməklə bir-birinin ardınca yüksək hədəfləri fəth etməkdədir. Ölkəmiz regionda sabitlik amilinə çevrilmişdir və ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi üçün regional və beynəlxalq layihələrin təşəbbüskarı, maliyyə donoru kimi çıxış edir. Azərbaycan bu proseslərdə Rusiya ilə strateji ticarət-iqtisadi əlaqələrinə böyük önəm verir və iki ölkə arasında xarici ticarət dövriyyəsinin yaxın perspektivdə daha da artacağını proqnozlaşdırmaq olar və bunlarla əlaqəli bir qrup məsələlərə ciddi diqqət yetirilməsinə ehtiyac vardır:

–Azərbaycanla Rusiya arasında ticarət-iqtisadi əlaqələrin maksimum diversifikasiyalaşdırlması üçün daha təsirli və ünvanlı tədbirlərin görülməsi tələb olunur;

–İki ölkənin xarici ticarət fəaliyyəti subyektləri arasında əlaqələrinin intensiv şəkildə inkişaf etdirilməsi üçün sərhədyanı zonalarda nəqliyyat-logistika infrastrukturunun yaradılması, ixrac-gömrük sərbəst ticarət zonalarının təşkilinə zərurət vardır;

–Rusiyanın çoxsaylı regionlarının Azərbaycanda istehsal olunan meyvə və tərəvəz məhsullarına olan tələbatlarının uzunmüddətli dövrü əhatə edən kontraktlar və sazişlər əsasında planlaşdırılması, istehsal və satış hədəflərinin müəyyənləşdirilməsi, nəqliyyat xərclərinin optimallaşdırılması, mövcüd olan bürokratik halların və subyektiv amillərin aradan qaldırılması istiqamətində daha təsirli tədbirlərin həyata keçirilməsi vacibdir və s.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan – Rusiya münasibətləri. https://lib.aliyevheritage.org/az/80868237.html.
2. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 21yanvar 2013-cü il.
3. Azərbaycan ilə Rusiya arasında diplomatik münasibətlərin qurulmasının 28-ci ildönümü barədə. 2020-04-04. https://moscow.mfa.gov.az/az/news/3232/azerbaycan-ile-rusiya-arasinda-diplomatik-munasibetlerin-qurulmasinin-28-ci-ildonumu-barede.
4. Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 6 aprel 2004-cü il, № 613-İİQ.
5. Azərbaycanın xarici ticarəti 1996-2000. Bakı, 2001.- 130 s.
6. Azərbaycanın xarici ticarəti 1998-2002. Bakı, 2003.- 218 s.
7. Azərbaycanın xarici ticarəti 2000-2004. Bakı, 2005. - 302 s.
8. Azərbaycanın statistik göstəriciləri 2004. Bakı, "Səda" nəşriyyatı, 2004.- 804 s.
9. Azərbaycanın və Rusiyanın regionları arasında iqtisadi əlaqələr genişlənir. http://www.anl.az/down/meqale/azerbaycan/2011/may/177370.htm.
10. İkitərəfli münasibətlər. Azərbaycan Respublikasının Rusiya Federasiyasında Səfirliyi. https://moscow.mfa.gov.az/az/content/3/ikiterefli-munasibetler.
11. Məmmədov E.Ə. Müasir dövrdə Azərbaycan və Rusiya əlaqələri. Bakı, 2014.– 184 s.
12. Uğurlu tərəfdaşlıq modeli. 17.08.2013. http://www.azerbaijan-news.az/posts/detail/ugurlu-terefdasliq-modeli-27530.
13. Агаев С.Г., Алиев Ш.Т. Проблемы и перспективы торгово-экономических связей Азербайджана с Россией. Баку: Элм, 2004.-280 с.
14. Алиев Ш.Т. Азербайджан – Россия: Внешняя торговля // Журнал "Экономика и жизнь", № 1-4, Баку, 1997, С.5-7.
15. Алиев Ш.Т. Важнейшие факторы развития торгово-экономических отношений между Азербайджаном и Россией // Журнал Региональная экономика: теория и практика №4(61)- февраль, Москва, 2008, с.22-27.
16. Алиев Ш.Т. Вопросы диверсификации внешнеторгового оборота между Азербайджаном и Россией // Журнал "Экономика, Социология и Право", №4, Москва, 2008, с. 6-8.
17. Исмаилова Л.Г. Некоторые аспекты российско-азербайджанских торгово-экономических связей // Наука, техника и образование. 2019. №3 (56). –с. 66-70.

**Fil.f.d., dos.Məhərrəmova Vəfa Eldar qızı**
*Mingəçevir Dövlət Universiteti*
*Email: mhrrmova.vfa@mail.ru*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MÜASİR İNTELLEKTUAL ELİTANIN FORMALAŞDIRILMASI

**Açar sözlər:** *Heydər Əliyev, intellektual elita, ali təhsil, universitet, təhsil islahatı.*
**Ключевые слова:** *Гейдар Алиев, интеллектуальная элита, высшее образование, университет, образовательная реформа.*
**Key words:***Heydar Aliyev, intellectual elite, higher education, university, educational reform.*

Azərbaycanın son yarıməsrlik tarixində elə bir mütərəqqi hadisə, tarixin gərdişini dəyişən elə bir məqam yoxdur ki, o, müasir türk və müsəlman dünyasının ən möhtəşəm şəxsiyyətlərindən biri olan, Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olmasın. Doğma xalqının və məmləkətinin taleyi, rifahı, istiqbalı və gələcəyi haqqında daim və dərindən düşünəno dahi insan milli toplumun hərtərəfli inkişafı və onun dünya xalqları sırasında layiqli yer tutması üçün durmadan çalışırdı. O, yaxşı bilirdi ki, şanlı keçmişi, zəngin dövlətçilik ənənələri, davamlı insan potensialı olan bir xalqın iqtisadi, siyasi və mədəni həyatını müasir dövrün tələblərinə uyğun şəkildə nizamlamaq üçün, ilk əvvəl onun intellektual elitasının formalaşdırılması başlıca şərtdir. Məhz bu səbəbdən ümummilli liderin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi dövründə intellektual resursların yeni inkişaf mərhələsinə çıxarılması, elmi-texniki tərəqqinin milli insan kapitalı əsasında təmin edilməsi prioritet məsələ idi. Danılmaz faktdır ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Azərbaycan Respublikasının I Vitse-prezidenti Mehriban Əliyeva başda olmaqla çağdaşmilli dövlətimizin möhtəşəm intellektual sütunlarının memarı məhz ulu öndər Heydər Əliyev olmuşdur.

Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycan Respublikasına rəhbərliyə başladığı ilk gundən [3] məmləkətin gələcəyi və tərəqqisi naminə atdığı birinci addım daölkədə təhsil sistemininin keyfiyyət əmsallarının yüksək səviyyəyə qaldırılması işi ilə bağlı olmuşdu. Respublikada kadr siyasətini uğurla həyata keçirən ümummilli lideryaxşı başa düşürdü ki, ölkənin işıqlı gələcəyini etibarlı şəkildə təmin etmək üçün milli dəyərlərə və tarixdən gələn əxlaqi-mədəni keyfiyyətlərə sahib olan, pozitiv elmin bütün sirlərinə israrla yiyələnməyə çalışan, özündə milli mentalitetin ənənəvi komponentlərini fəxarət hissi ilə tərənnüm etməyi bacaran, Şərqin və Qərbin yüksək təşəkküllü elmi və mədəni nailiyyətlərini, davamlı olaraq mənimsəyən, daim yeniliyə, yaradıcılğa və reformasiyaya can atan,doğmaAzərbaycanı bütün varlığı ilə sevən intellektualların yetişdirilməsi təxirəsalınmaz tarixi vəzifə olmalıdır. Bu vəzifənin uğurla həyata keçirilməsində isə Heydər Əliyev Azərbaycan genotipində tarixdən gələn çox zəngin potensialın olmasını bilirdi.

XX yüzilliyin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycanda reallaşdırılanmilli mədəni inqilabın misli görünməmiş templərlə cərəyan edən dinamikasına qısaca nəzər salmaqkifayət edir ki, Azərbaycan milli ideyasının gerçəkləşməsi naminə ümummilli lider Heydər Əliyevin möhtəşəm fəaliyyətinin və hər hansı meyara sığmayan misilsiz xidmətlərinin əsrarəngiz portretini yarada biləsən. Bu portretdə hər şey ilahi və bəşəri nizama, davamlılığa, təhlükəsizliyə, yalnız tərəqqini nəzərdə tutan möhtəşəm optimizmə, sonsuz ümidlər gətirən və xoş reallıqlarla tamamlanan perspektivliyə əsaslanır [2].

Heydər Əliyev ekzistensiyası təkcə onun fenomen olmasına, harizmasına və varlığının fövqəlunikallığına əsaslanmırdı. O, həm də millətinin hər bir nümayəndəsinə qəlbən yaxın olan, onlara əsl atalıq qayğısı göstərən ümumxalq sevimlisi idi. Köksündə mərhəmətli ürək daşıyan

ulu öndərindühasının və zəkasının qüdrəti məkana və zamana sığmırdı. Heydər Əliyev reformist şəxsiyyət idi.Belə şəxsiyyətlər “rubikonu keçməyə” daim hazır olan möhkəm siyasi iradəyə, bir ordunun qarşısında tab gətirməyə qadir olan yenilməz qətiyyətə sahib insanlardır. Onlar mövcud situasiyaya əsla müşahidəçi qala bilmirlər və onu toplumun maraqları,ümumbəşəri dəyərlərin təntənəsi naminə dəyişməyə can atırlar və buna yüksək səviyyədə nail olurlar.

Heydər Əiyevin tərənnüm etdiyi unikal həyat fəlsəfəsi həm də milli dəyərlərimizin, milli ruhumuzun intibahı üzərində köklənmişdi. O, XX əsrin 20-ci, 30-cu illərində bolşevikirticasının və sovet repressiv maşınının qurbanı olmuş milli genofondu bərpa etmək istiqamətində həyati vəzifəni şərəflə yerinə yetirmək kimimöhtəşəm bir tarixi məsuliyyəti də öz uzərinə götürmüşdü. Vulaqarlığı ilə seçilən üzdəniraq proletar mədəniyyətini heç çür qəbul etməyən ümummilli lider öz adlarını Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazdırmış metrlər pleyadasının ərsəyə gəlməsi üçün münbit şərait yaratmışdı. Nəticədə tarixin sərt sınaqlarından keçərək formalaşmış nəcib, alicənab və intelligent azərbaycanlı genotipi yenidən dirçəlmiş və müasir Azərbaycan millətinin formalaşmasında avanqard rolunu oynamağa başlamişdı.

Heydər Əliyevin elm, təhsil və mədəniyyət sahəsində həyata keçirdiyi çox möhtəşəm tədbirlərin başlıca nəticəsiCənubi Qafqazda və keçmiş Sovet ittifaqı məkanında azərbaycanlı passionarlığının timsalında yeni intellektual etalonun formalaşması oldu. Bu əməllərilə ümumilli lider Heydər Əliyev həm özünün, həm də təmsil etdiyi qədim və müdrik xalqın nəcib cövhərdən, ali zatdan olduğunu bütün dünyaya sübut etdi. O, Azərbaycana birinci rəhbərliyi dövründə ölkəmizin intellektual genofondunu elə bir ali kürsüyə qaldırdı ki, cəmiyyət həyatının bütün sahələrində - elmdə, ədəbiyyatda, təsviri və tətbiqi incəsənətdə, musiqidə, kinematoqrafiyada və digər sahələrdə dünya miqyaslı çoxlu sayda ustadlar yetişdi. Heydər Əliyev bununla da fiziki və intellektual terrora məruz qalmış bir xalqın əsli-nəcabətini, tarixin yaradıcı ruhundan qidalanmış ənənəvi simasını, onun qədimliklə üzvi əlaqəsi olan tarixi yaddaşını, milli əlamətlərini və mental xüsusiyyətlərini özünə qaytardı.

Bəsit proletar kültürünün bütün məhdudiyyətlərini israrla aşaraq ümummilli lider Heydər Əliyev Azərbaycanda dünyanınmüasir inkişaf standartları ilə tam rəqabət aparmağa qadir olan adekvat mədəni və intellektual şəraitin formalaşdırılmasına nail oldu.Uşaqlıq illəri II Dünya müharibəsi dövrünə təsadüf etmiş və elementar ibtidai təhsil şansındanməhrum olmuş insanların təhsil almaq hüquqlarını özlərinə qaytarmaq, onların intellektual imkanlarını dövrün tələblərinə uyğun şəkildə artırmaq məqsədilə nəzərdə tutulmuş axşam məktəblərini təşkil etmək və bununla da yaşlı insanların obyektiv səbəblərdən itirdikləri intellektlərini bərpa etmək Heydər Əliyevin fəaliyyətində xüsusilə diqqətəlayiq hadisə idi. Bununla ümummilli lider millətin rifah və inkişaf meyarlarından biri olan savadlılığın və təhsilliliyin cəmiyyət həyatı üçün normaya çevrilməsini təmin etmiş oldu.

Heydər Əliyev XX əsrin ikinci yarısında yenidən təzahür edən və fövqəladə fəallığı ilə seçilən Azərbaycan və türk passionarlığının ən parlaq nümunəsi idi. Heydər Əliyevin qısa müddət ərzində əvvəlcə Azərbaycanda və Sovet ittifaqı məkanında, daha sonra isə planetar miqyasda bir siyasət ulduzu kimi parlaması, müdrikliyin və uzaqgörənliyin nümunəsi kimi özünü təsdiq etməsi, əslində tarixi zərurət və etnogenezein passinarlıq (fran. *passionner* – cəlb etmək, oyatmaq, ehtirasları alovlandırmaq, - canlı və şüurlu orqanizmdə izafi enerji partlayışı və onunali məqsədlər naminə missionerlik, fədailik və mücəhidlik doğurması aktı) nəzəriyyəsinə görə[5] təbiətdən gələn qanunauyğunluq idi. Ümummilli liderin təqiblər altında əzilən və adekvat tarixi qiyməti verilməyən bir xalqın ikinci mövludunu və dirçəlişini təmin etməsi isə onun fəaliyyətinin pik nöqtəsi və tarixi missiyasının leytmotivi sayılırdı. Etnogenezin passionarlıq nəzəriyyəsindəqeyd olunur ki, ali məqsədlər naminə fədailik yolu tutmuş şəxsiyyət hər davranışında dahilik məqamına və möhtəşəmlik kürsüsünə yüksəlir. O, hələ sağlığında özünün heykəlini öz əlləri və əməlləri ilə yaradır. Canını və enerjisini sərf etdiyi toplum isə ona əbədi heykəl ucaldır.Belə şəxsiyyətlərdə daim öz həyatını və təmsil etdiyi toplumun həyat ukladını, stereotiplərlə dolu olan konservativ mühiti, status-kvonu pozitiv

məcraya dəyişməyə yönəlmiş və qarşısıalınmaz daxili bir tələbat olur. Bu zaman müəyyən olunmuş hədəflər və əqidəyə çevrilmiş ideya şəxsiyyətin öz həyatından daha yüksək dəyər kəsb edir. Passionarlıqda yaranmış spesifik psixoloji və ruhani halət yaradıcı və reformist şəxsiyyəti, davamlı olaraq qəhrəmanlığa və qeyri-ordinar addımlar atmağa sövq edir. Bu ideya naminə şəxsiyyət əzabkeşliyə və hətta şəhidliyə də hazırdır. Lakin o, missiyasının davamlı təntənəsi və ümidlərini ona bağlayan insanların rifahı naminə hamıdan güclü olmağa, toplumu işıqlı gələcəyə, xoşbəxtliyə və səadətə aparmağa məhkumdur. Onun öz missiyasını yarımçıq qoymağa, mücadilə meydanını qəfil tərk etməyə, cahillərin, eqoistlərin və diletantların zəfər çalmasına, haqsızlığın, zorakılığın və özbaşınalığın bərqərar edilməsinə yol verməyə haqqı yoxdur. O, gözəgörünməz bir providensiyanın (lat. *providentia* – tanrı işarətləri, həmçinin onunla bağlı sirli və xoşbəxt sonluqla bitən qeyri-adi hadisələr)sayəsində, sanki onun himayəsi və qayğısı altında davamlı uğurlar qazanır, düşmənlərini və opponentlərini qətiyyətlə dəf edir. Onun ruhu zəfər və təntənə üzərində köklənib. Orada özgə mahiyyətə, neqativ ünsürlərə yer yoxdur. Onun bütün varlığı pozitiv mahiyyət kəsb edir, ətrafina işıq və müsbət enerji saçan aurasıisə dünyanı durmadan gözəlləşdirir. O, daxil olduğu məkana yüksək pozitiv yenilik gətirir, onu canlandırır, bütün perimetr boyunca həmin məkanın mahiyyətini dəyişir, onun məzmununa və fəlsəfəsinə fəallıq, dinamizm və yeni ölçü meyarları qatır. O, ətrafindakı doğma insanları və mənsub olması ilə fəxr etdiyi toplumu daim bəxtəvər, fiziki və intellektual baxımdan yüksək keyfiyyətli, həyat ruhlu, azad və müstəqil görmək istəyir. Bunun üçün bütün real və potensial imkanılarını səfərbər edərək durmadan və usanmadan çalışır. Göründüyü kimi bütün bu yüksək və qüsursuz keyfiyyətlər dahilik kürsüsünə ucalmış ümummilli lider Heydər Əliyevin əzəmətli obarazının möhtəşəm cizgilərinin ifadəsidir.

Ulu Öndər Heydər Əliyevin daim diqqət mərkəzində saxladığı məsələlərdən biri də ali təhsil sistemi ilə bağlı idi.Xalqın intellektual intibahı kimi bir tarixi vəzifəni öz üzərinə götürən ümummilli lider çox yaxşı bilirdi ki, milli ruhun, milli insan kapitalının öz sərhədlərini aşaraq ümumbəşəri sərvətə çevrilməsi, onun ümumdünya ruhunun nailiyyəti olması üçün təhsilin ali və akademik məqama yetişməsi, mütərəqqi, yaradıcı və tənqidi düşünən intellektuallar ordusunun yaradılması, elm və sənət korifeylərinin yetişdirilməsi, xalqın düşünən beyni, toplumun sönməz zəkası, millətin intellektual siması sayılan metrlərin ərsəyə gəlməsi, cəmiyyətin əqli baxımdan avanqardları sayılan, dühasını ardıcıl və metodiki şəkildə gələcək nəsillərə ötürməyə qadir olan intellektual elitanın formalaşdırılması mütləq şərtdir.

Bir tarixçi və ali səviyyəli ziyalı kimi Heydər Əliyev elmin, maarifin və intellektin necə möhtəşəm xariqələr yaratmasını yaxşı başa düşürdü. Xalqın intellektuaal elitasının metodiki və məqsədyönlü şəkildə məhv edilməsinin Azərbaycan tarixi üçün necə acı və faciəli nəticələr verməsini bütün detalları ilə yaxşı öyrənmişHeydər Əliyev bilirdi ki, XX əsrin əvvəllərində Azərbaycan xalqının milli oyanışının, başladığı və uğurla həyata keçirdiyi istiqlal mücadiləsinin mənbəyi məhz Azərbaycan burjua millətinin formalaşdığı dövrdə elmin və maarifçiliyin geniş vüsət almasında, yeni maarifçi ruhun qəti şəkildə ümmə ideyasından imtina edərək, ədalət və sosial tərəqqi vəd edən millət ideyasına keçməsində, istibdada, totalitarizmə və mütləqiyyətə yox deyərək demokratizm ideallarını seçməsində idi. Məhz bu səbəbdən ümummilli lider yeni və əvvəllər analoqu olmayan spesifik bir şəraitdə xalqın linqvistik-mədəni və intellektual intibahını elmin, təhsilin, xüsusilə də ali təhsilin yeni inkişaf pilləsinə qaldırılmasında görürdü. Qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin XX yüzilliyin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycanda formalaşdırdığı təhsil sisteminin inkişaf templəri o qədər yüksək idi ki, o, nəin ki, milli insan kapitalının necə bir yüksək potensial imkanlara malik olmasını açıb göstərdi, həm də obyektiv səbəblər üzündən indiyədək, demək olar ki, heç vaxt təzahür etməyən "vunderkind" (alm. *wunderkind* – möcüzə uşaq –konkret ölkənin təhsil sistemi tərəfindən rəsmi şəkildə uşağın intellektual səviyyəsinin öz yaşıdları ilə müqayisədə fövqəladə üstün olmasının tanınması, termin XVIII yüzillikdə Avstriyada yaranmış və ilk dəfə məşhur Avstiya musiqiçisi Volfqaq Amadeus Mosartın[4] musiqi dühasına münasibətdə işlədilmişdi) hadisəsinin meydana gəlməsinə səbəb oldu. Qeyd etmək lazımdır ki,o dövrə qədər

“vunderkind” fenomeninin artıq iki əsrlik tarixi var idi. Lakin təlatümlərlə və sosial kataklizmlərlə dolu olan XX əsr sübut etdi ki, onun təzahür etməsi və özünü israrla təsdiq etməsi üçün adekvat şəraitin olması şərtdir. Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə bu hadisənin, kifayət qədər geniş xarakter alması belə bir şəraitin tam şəkildə mövcud olmasına işarədir. Onu da xüsusi olaraq vurgulamaq gərəkdir ki, sözügedən dövrdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin demək olar ki, hamısında vunderkind kateqoriyasına aid edilən, yaxud, orta və ali təhsil proqramını nəzərdə tutulmuş rəsmi müddətdən xeyli tez mənimsəmiş uşaqlar və gənclər təhsil alırdılar. Hətta həmin dövrdə ölkənin orta və ali təhsil sisteminə “eksternat” (lat. *externus* – kənar şəxs, - ümumi orta və ali təhsil proqramının şagird, yaxud tələbə tərəfindən müstəqil şəkildə mənimsənilməsini nəzərdə tutan və dövlət akkreditasiyası ilə təsdiqlənən xüsusi attestasiya forması) adlanan çox vacib element də daxil edilmişdi. Sözügedən dövrdə, ölkədə hətta savant sindromu (fran. *Savant* – bilikli, alim, - fiziki və fizioloji, o cümlədən autistik çatışmazlıqları olan şəxsin bir və ya bir neçə sahədə dahilik əlamətlərinin üzə çıxması ilə müşayiət olunan nadir hadisə) hallarına da rast gəlinirdi. Bu isə ölkədə hər kəsin yüksək təhsil alması üçün adekvat şəraitin olmasından xəbər verir. İnsan istedadının təbiətini öyrənən elmi nəzəriyyələrdə iddia olunur ki, dühaların fövqəl qabiliyyətinin “yuxarıdan” diqtə olunan bir hadisə olmasına baxmayaraq, eyni zamanda hər bir insan özünə görə istedadlıdır. Sadəcə onun istedadını üzə çıxarmaq üçün şərait, səbəb və təkan lazımdır. Burada tale faktoru da həlledici rol oynayır. Beləliklə, ümummilli lider Heydər Əliyev XX yüzilliyin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində xalqın intellektual obrazının dəyişdirilməsinin qayğısına qalmaq kimi bir missiyanı üzərinə götürməklə, həm də onun fərdi və qlobal taleyini dəyişmiş oldu.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyinin sonunda – XX əsrin 80-ci illərinin əvvəllərində respublikada hətta orta statistik azərbaycanlının intellekt koeffisienti (ing. *IQ – intelligence quotient*–insanın əqli inkişafınnın eyni yaşda olan orta statistik insanın intellektinin səviyyəsi ilə müqayisədə əmsalı) kifayət qədər yüksək həddə çatmışdı. Hələ 1912-ci ildə alman alimi Uilyam Ştern tərəfindən elmi dövriyyəyə daxil edilmiş “intellekt koeffisenti” anlayışının müddəalarına və onun ölçülməsi meyarlarına nəzər salsaq 13 il (1969-1982) ərzində Azərbaycan cəmiyyətinin intellektual potensialının necə böyük bir sıçrayış etməsinin şahidi olarıq [6]. Hətta sözügedən dövrdə hələ 1947-ci il 18 sentyabr tarixində ABŞ-ın 33-cü prezidenti Harri Trumen (1884-1972, 1945-1953-cü illərdə ABŞ prezidenti) tərəfindən SSRİ ilə ABŞ arasında “Soyuq müharibənin” başlanması ilə əlaqədar yaradılmış ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi (ing. *Central Intelligence Agenccy – CIA*) SSRİ ərazisində, o cümlədən Azərbaycan SSR-in paytaxtı Bakı şəhərində fəaliyyət göstərən ali təhsil müəssisələrinin strukturunu və tədris rejimini öyrənmək üçün çoxlu sayda casus göndərmişdi. Qısa müddət ərzində SSRİ-nin ali təhsil müəssisələrində, o cümlədən Bakı şəhərində yerləşən ali təhsil ocaqlarında və elmi-tədqiqat institutlarında yüksək elmi və intellektual nailiyyətlərin əldə eldilməsi ABŞ kəşfiyyat idarəsini ciddi narahat edirdi.Sözügedən dövrdə SSRİ-də, o cümlədən Azərbaycanda mövcud olan təhsil sisteminin özəlliyi ABŞ-da və Avropada çox böyük maraq dogurmuşdu.

Sovet dönəmində ümumittifaq miqyasında tətbiq olunan və vahid tədris standartına uyğunlaşdırılan ali təhsil sistemində, xüsusilə də humanitar fənlərin tədrisində ciddi boşluqların olması Heydər Əliyevi çox narahat edirdi. Xüsusilə də “Elmi ateizm” fənninin tarixən ciddi ruhani-mənəvi və dini-ideoloji ənənələri olan Azərbaycanda akademik səviyyədə tədris edilməsi cəmiyyətdə birmənalı olaraq pis qarşılanırdı. Ümummilli lider Azərbaycana birinci rəhbərliyi dövründə humanitar elmlərin tədrisində milli koloritə uyğun korrektivlər edilməsini tövsiyyə etmiş və bundan sonra ali məktəblərdə “Elmi ateizm” fənnini tədris edən müəllimlərin bu fənnə spesifik münasibəti də ortaya çıxmışdı. Beləliklə, məlum olmuşdi ki, onların çoxu hətta islam dininin bütün kurallarına əməl edir, ibadət edir və yaradanın varlığına qəlbən inanırlar. Bu isə ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılmış intellektual-mədəni və dini-ideoloji atmosferin yaratdığı milli ruhun göstəricisi idi.

Heydər Əliyev dini-mədəni dəyərlərə dərin inancı olan uzaqgörən şəxsiyyət idi. Onun hələ dinə qarşı ciddi təqiblərin olduğu sovet dönəmində islam dəyərlərinə və müqəddəslərə səmimi münasibəti və məhəbbəti haqqında çox maraqlı məlumatlar var. Ümummilli lider Heydər Əliyev 1993-2003-cü illərdə ikinci dəfə, artıq müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi zaman,xüsusi olaraq diqqət mərkəzində saxladığı sahələrdən biri də məhz dini ideologiya olmuşdu.

Hələ 1983-1987-ci illərdə Sovet dövlətinin rəhbərlərindən biri kimi ulu öndər çoxlu sayda sahələri kurasiya etdiyi kimi təhsil sahəsi də ona tapşırılmışdı. Məhz həmin dövrdə SSRİ Nazirlər Soveti sədrinin I müavini kimi Heydər Əliyev humanitar təhsildə ciddi korrektivlərin edilməsi təklifi ilə çıxış etmişdi. O, çox yaxşı başa düşürdü ki, dini inanclardan məhrum olmuş "proletar mədəniyyətinin", tanrısızlığı israrla təbliğ və təşviq edən üzdəniraq utopist kommunizm ideallarının prozelitizm (yun.*προσήλυτος* – "öz yerini tapan", - şəxsi əqidəsini başqalarına zorla qəbul etdirmək cəhdləri)üslubunda xalqa qəbul etdirilməsi yaxşı nəticələr verməyəcək. Ulu öndər yaxşı bilirdi ki, din, dini ideologiya və onun dövlət tərəfindən himayəyə götürülməsi bütün mədəni cəmiyyətlərin vacib atributudur və ruhani dəyərlərdən məhrum olmuş hər hansı bir tanrıtanımaz və ateist cəmiyyət uzun müddət fəaliyyət göstərə bilməyib.

Sovet dönəmində Azərbaycanda dini-ruhani dəyərlərin təbliğinə qoyilmuş qadağaya son qoyulmasının, Azərbaycanın yenidən İslam aləminin müqəddəs arealına qovuşmasının yekunu kimi 1994-cü ildə Heydər Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində Məkkədə və Mədinədə müqəddəs dini məkanları ziyarət etməsi, kiçik həcc, yaxud ümrə həyata keçirməsi XX əsrdə İslam dünyasında ən möhtəşəm hadisələrdən biri idi. Ateizmi dövlət səviyyəsində ideoloji siyasət elan etmiş bir dövlətin ən görkəmli rəhbərinin Məkkəyə üz tutması müsəlman aləminin çox möhtəşəm tarixi qələbəsi və islam həmrəyliyinin sərhədlərinin daha da genişlənməsi kimi qiymətləndirilirdi[7]. O zaman ümummilli lider Heydər Əliyev Mədinə şəhərində Peyğəmbər Məscidinin "Fəxri qonaqlar kitabında" aşağıdakı sözləri yazmışdı: "Mərhəmətli və Rəhm edən Allahın adına. Mən bir müsəlman kimi çox xoşbəxtəm ki, müqəddəs şəhər Mədinədə, islamın müqəddəs abidələrində, mavzoleylərdə, Məhəmməd peyğəmbərin Məscidində oldum. Allaha həmd olsun ki, uzun illər ürəyimdə yaşayan arzumu və niyyətimi həyata keçirmək kimi bir xoşbəxtliyə nail oldum. Bu tarixi hadisə mənim qəlbimdə böyük təlatüm hissi və hüzur yaratdı. Mən yenidən dərk etdim ki, islami mənbələrin nə qədər ümumbəşəri, fəlsəfi və elmi əsasları var. Mən Qüdrətli Allahın böyüklüyünü bir daha dərk etdim." [1]

Azərbaycan xalqı 1991-ci ildə istiqlaliyyət qazandıqdan və dövlət müstəqilliyini əldə etdikdən dərhal sonra, ölkədə tarixi ənənələrin bərpası və demokratizm prinsiplərinə əsaslanan dövlət quruculuğunun həyata keçirilməsi kontekstində mütərəqqi düşünən gənc nəslin dövrün tələblərinə uyğun şəkildə təlim-tərbiyəsi işini Azərbaycan Respublikasının Təhsil Sistemi öz üzərinə götürdü və bu şərəfli vəzifəni beynəlxalq standartlara uyğun şəkildə həyata keçirməyə başladı. 2005-ci il 19 may tarixində Bergen (Norveç) şəhərində keçirilən Beynəlxalq Konfransda Azərbaycan Respublikasının Təhsil naziri ölkə təhsilinin Boloniya Təhsil Prosesinə qoşulması haqqında sənəd imzaladı. Bu sənədə əsasən ölkənin bütün ali təhsil müəssisələrində tədrisin kredit sisteminə əsaslanan təşkili haqqında nümunəvi reqlament təsdiq olundu. Bu reqlament təhsilin humanistləşdirilməsini, təlimin tolerant pedaqoji münasibətlər prinsipi əsasında həyata keçirilməsini, informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə edilməsini, gənc nəslin dünyagörüşünün daim genişləndirilməsini nəzərdə tuturdu.

İnsanların mədəni, intellektual, humanist və tolerant mahiyyətinin üzə çıxarılmasında maarifçiliyin rolunun danılmaz olmasını çox vacib şərt hesab edən Ulu Öndər Heydər Əliyev Azərbaycanda etnik və dini plüralizmə əsaslanan spesifik şəraiti nəzərə alaraq multikulturalizm ideyalarının gənc nəslin ideoloji konstruksiyasının formalaşdırılmasında daha effektli vasitə kimi tətbiq olunması məsələsini gündəmə gətirdi. Bu ideyanın təntənəsi isə 2014-cü ilin sentyabr ayından ölkəmizin bir neçə ali təhsil müəssisəsinin bakalavriat

səviyyəsində "Multikulturalizmə giriş" və magistratura səviyyəsində "Azərbaycan multikulturalizmi" fənlərinin tədrisilə başlandı. Ölkədə mədəni siyasət qismində təzahür edən kompleks tədbirlər qısa müddət ərzində gənc nəslin mədəni plüralizm ruhunda tərbiyə olunmasında ciddi pedaqoji layihə kimi özünü təsdiq etdi. Artıq ali təhsil sistemi humanizm ideallarının təbliği və mənimsənilməsi baxımından daha adekvat, dövrün və cəmiyyətin tələblərinə uygun gələn məzmun kəsb etməyə başladı. Tarixdən və milli ənənələrdən gələn yüksək təşəkküllü tolerantlıq ruhu təhsildən keçərək cəmiyyətin həyat tərzinə çevrildi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına ikinci rəhbərliyi dövründə elm və təhsil islahatları ilə bağlı həyata keçirdiyi tədbirlər sırasında ali təhsildə "universitet sisteminin" yaradılması xüsusi önəm kəsb edirdi. Sovet dönəmində yaradılmış institutsional ali təhsil şəbəkəsi israrla sosialist iqtisadiyyatının spesifik tələblərinə uyğulaşdırılmışdı. Müstəqillik dövründə isə yeni nəslin universal biliklərə sahib olmasının fövqəladə zəruriliyini nəzərə alaraq ulu öndərin təşəbbüsü ilə ali təhsildə universitet (lat. *universtas* – külliyyat və yaümumiləşmə) şəbəkəsinin yaradılmasına başlandı. Ulu öndər xalqın intellektual obrazının ali təzahürünün universitet olmasını yaxşı bilirdi. Buna görə də Azərbaycanda ali təhsilin universitet statusuna keçilməsi üçün bütün müvafiq tədbirləri gördü. Beləliklə, yeni nəslin leksikonunda "universitet" anlayışı yeni intellektual məzmun və spesifik emosional yük daşıyan subyekt kimi kök saldı. Onun orta əsrlərdən gələn "alma-mater" (lat. *alma mater* – "qida verən ana" – universitetlərin qədim adı, ilk universitetlərdə yalnız ilahiyyat və fəlsəfə fakültələrinin olması ilə əlaqədar onları "insana ruhani qida verən ana" adlandırmışdılar) mahiyyətinə yeni milli çalarlar və adekvatkompetensiyalar qatıldı.

Beləliklə, ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına birinci rəhbərliyi dövründə başlatdığı və milli genofondun bərpa edilməsini nəzərdə tutan intellektual inqilab qısa tezliklə öz bəhrəsini verdi.Milli insan potensialı qısa müddət ərzində çox güclü milli insan kapitalına çevrildi və intellektual elitanın rəhbərliyi altında müasir Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələri sırasına çıxartdı.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Mədinə şəhərində Peyğəmbər məscidinin "Fəxri qonaqlar üçün kitabda" yazısı, "Heydar Aliyev's Heritage" International Online Library. 14 iyul 2010-ci il tarixdə aktivləşdirilmişdir

2. Heydər Əliyev: biblioqrafiya /Layih. rəhb. Ə.Qarayev; tərt. ed.: M.Vəliyeva, M.İbrahimova, A.Hüseynova; elmi red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2018.- Səh. 23-26

3. "Heydər Əliyev muzeyi". Azərbaycan Respublikası Xüsusi Dövlət Müdafiə Xidmətinin saytı (azərb.). dmx.gov.az. İstifadə tarixi: 2015-03-03

4. Берлянд-Чёрная Е.С. Моцарт. Жизнь и творчество. - 2-е изд. - М.: Музыка, 1966, С. 17

5. Пассионарная энергия и этнос в развитой цивилизации: Материалы Всероссийской междисциплиной научно-практической конференции. -М.: Изд-во СГУ, 2008. С. 5-8

6. Pietropaolo S., Crusio W.E. (англ.). Genes and cognition (англ.) // Wiley: nterdisciplinary Reviews: Cognitive Science: journal. - 2010. - Vol. 2, no. 3. - P. 345-352

7. Regional'naiā︠ stipendiatskaiā︠ programma fonda im. Genrikha Belliā︠ dliā︠ molodykh uchenykh naIU︠ zhnom Kavkaze. Identity, power and the city in the works of young social scientists in the South Caucas. - Heinrich Böll Stiftung, 2005. - p. 33

Xülasə

Məqalə Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyevin ölkəmizin müasir tarixində xalq və vətən qarşısında göstərdiyi möhtəşəm xidmətlərdən bəhs edir.Ulu öndərin Azərbaycanın rifahı və gələcəyi naminə göstərdiyi misilsiz fədakarlıq, onun reformasiya ruhunun bütün ölkədə bərqərar olması və yüksık pozitiv nəticələr verməsi xüsusi vurgulanır. XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəlində Heydər Əliyevin başlatdığı və Azərbaycanın intellektual genofondunun bərpasına istiqamətlənmiş irimiqyaslı təbirlərinin təhlili məqalənin leytmotivini təşkil edir. Məqalədə, həmçinin ümimmilli lider Heydər Əliyevin

Azərbaycanın ictimai-siyasi və mədəni həyatının digər aspektlərinin inkişafı naminə etdiyi inqilabdan və onun mütərəqqi nəticələrindən də bəhs olunur, ulu öndərin xalqın intellektual-mədəni intibahını təmin edən fəaliyyətinə tarixi qiymət verilir.

Резюме

Статья повествует обовсех выдающихся заслугах великого сына азербайджанского народа, общенационального лидера Гейдара Алиева, оказанных перед Родиной и народом в современной истории страны.Особо подчеркивается бесподобное самопожертвование, оказанное великим лидером во имя благосостояния и будущего Азербайджана, а также установление его реформистского духа во всей стране и высокие позитивные результаты его деятельности. Анализ масштабных мероприятий, начатых Гейдаром Алиевым в конце 60-х, начале 80-х годов XX века и направленных на восстановление интеллектуального генофонда Азербайджана является лейтмотивом статьи. В статье, также ведется речь о революции, произведенной общенациональным лидером Гейдаром Алиевым во имя благаи развития других аспектов общественно-политической и культурной жизни родного Азербайджана и о его прогрессивных результатах, дается адекватная оценка деятельности великого лидера, обеспечивающей культурно-интеллектуальное возрождение народа.

Summary

The article tells about all the outstanding merits of the great son of the Azerbaijani people, national leader Heydar Aliyev, rendered to the motherland and people in the modern history of the country. The incomparable self-sacrifice of the great leader for the welfare and future of Azerbaijan, as well as the establishment of his reformist spirit throughout the country and the high positive results of his activities are especially emphasized. The leitmotif of the article is the analysis of large-scale events started by Heydar Aliyev in the late 60s and early 80s of the 20th century and aimed at restoring the intellectual gene pool of Azerbaijan. The article also discusses the revolution carried out by the national leader Heydar Aliyev for the benefit and development of other aspects of the socio-political and cultural life of native Azerbaijan, and its progressive results, an adequate assessment of the activities of the great leader, ensuring the cultural and intellectual revival of the people.

**ped.f.d. Xəzəngül Babayeva**
*Aərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı*
*E-mail: xezengul68@mail.ru*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** *Heydər Əliyev , Azərbaycan təhsili , müstəqillik dövrü , yeni inkişaf mərhələsi , milli təhsil strategiyası.*
***Ключевые слова:*** *Гейдар Алиев , образование в Азербайджане, период независимосми , стратегий национальной образования*
***Key words:****Heydar Aliyev, education in Azərbaijan, period of independence, a newstage in the development of national education strategy*

## XÜLASƏ

Dünyada müasir universitet modeli müəllim peşəkarlıq səviyyəsinin yüksəldirlməsi üçün fasiləsiz təhsil almaq imkanı verən əsas təhsil formalarınan biri distant təhsildir. Distant təhsil kadr hazırlığı texnologiyası olaraq təhsilin keyfiyyətinin müasir İKT vasitələrinin intensiv tətbiqi ilə daha da yüksəldir. Müasir kadr yüksək informasiya mədəniyyətinə malik müstəqil şəkildə öz informasdiya ehtiyaclarını təmin etməyə qadir və müasir İKT vasitələrinən sərbəst istifadə edə bilən mütəxəssislərin hazırlanmasında mühüm rol oynayır. Distant təhsilin kadr hazırlığına tətbiqinin əsas məqsədi gələcək kadrların informasiya mühiti yeni təlim texnologiyaları ilə bu texnologiyalar vasitəsi ilə təhsil aldıqları universitetlər də ixtisaslarına uyğun bilikləri daha səmərəli üsullarla mənimsətməkdən və onları gələcəkdə öz iş fəaliyyətlərində bu texnologiyalardan sistemli istifadə etməyə hazırlamaqdan ibarətdir. Eyni zamanda müasir universitet modelində hal-hazırda distant təhsil sistemi regionlarda əhalinin müxtəlif təbəqələrinə bərabər təhsil imkanları yaratmaq müasir universitetlərin elmi, pedoqoji, iqtisadi, potensialından səmərəli istifadə etməklə təhsilin keyfiyyətini yüksəltməkdir.

Azərbaycan xalqının taleyüklü hadisələrlə dolu olan 30 illik bir dövrü çox əsirlk dövlətçiliyimiz tarixində əvəzsiz yeri olan ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımız məhz onun sayəsində mənəvi dəyərləri layiqincə qoruyarak, üçüncü minilliyə qədəm qoymuşdur. [4]

Bu mərhələdə görkəmli dövlət xadimi Heydər Əliyev iqtisadi-mədəni inkişafı, sənayenin, kənd təsərrüfatının, mədəniyyət, elm, təhsil və digər prioritet sahələrin idarə edilməsi üçün bacarıqlı və yüksək ixtisaslı kadrların hazırlanmasının vacibliyini mühüm vəzifə kimi qarşıya qoyaraq təhsilin inkişafına xüsusi qayğı göstərirdi.

Ümummilli liderimizin rəhbərliyi, tövsiyyəsi ilə hazırlanmış proqramlar, strateji yol Azərbaycan təhsilinin , onun maddi- texniki bazasının uzunmüddətli, dinamik inkişafını təmin etmişdir. [6]

Heydər Əliyev milli kadrların hazırlanmasında mühüm rol oynayan ali məktəblərin müasirləşdirilməsində burada təhsilin inkişaf etdirilməsində bir sıra təşəbbüslər etmiş müəyyən tədbirlərin həyata keçirilməsi üçün göstərişlər vermişdir.

Böyük dövlət xadimi Heydər Əliyev tərəfindən özəl ali məktəblərin fəaliyyətinin tənzimlənməsi təhsil nazirliyinə həvalə olunduqdan sonra bu sahədə müəyyən stabillik yarandı. Sayları minimum həddə endirilmiş özəl ali məktəblər qarşısında maddi-texniki və tədris bazasının, kadr potensialının təkminləşdirilməsi və təhsil sahəsinin yüksəldilməsi əsas tələb olaraq qoyuldu. Dövlət universitetlərindən yeddi ali təhsil müəssisəsinə müxtariyyət hüququ verildi. Ümumiyyətlə, Dünya Bankı ilə əməkdaşlığın inkişaf etdirilməsi ilə yanaşı, təhsilin bütün pillələri, onların hər birinin mövcud vəziyyəti, problemlərinin onların həlli istiqamətində mərhələlər üzrə həyata keçiriləcək tədbirlərin öz əksini tapdığı bəhs etdiyimiz

proqram çərçivəsində görülən işlər nəticəsində son beş ildə ali təhsil sistemində əhəmiyyətli dəyişikliklər baş verdi. [5]

Heydər Əliyev fenomeni bizim üçün ibrət dərsidir. Təhsil millətin gələcəyidir deyən milli liderimiz onun hər bir sahəsini qiymətləndirmiş və inkişaf etdirilməsi qayğısına qalmışdır Gələcəyimiz olan təhsilin müəllimin simasında inkişafı ulu öndərin diqqətini cəlb etmişdir .H.Əliyev müəllimin şərəfli əməyini yüksək qiymətləndirərək demişdir: Müəllim adı dünyada ən yüksək addır. Mən şəxsən müəllimdən yüksək ad tanımıram. O, öz fikrini belə əsaslandırmışdır: Müəllim vəzifəsi ona görə şərəflidir ki, müəllimin bir məqsədi, bir amalı olmalıdır. Ölkəmiz çiçəklənən, inlkişaf edən, firavan, özünü vətən uğrunda fəda etməyə hazır olan sağlam əqidəli milli ruhlu nəsil yetişdirə bilsin. Müəllimlik peşəsinin bele yüksək qiymətləndirən Heydər Əliyev onların qarşısında ciddi vəzifələr qoymuşdur. O göstərmişdir ki, gənc nəsildə tərbiyə etmək isdədiyi xususiyyətlərə birinci növbədə müəllimin özü malik olmalıdr. Müəllim daim özünü təkmilləşdirməli, öz üzərində işləməlidir. Öz üzərində işləməyən müəllim yaxşı müəllim ola bilməz. Məhz Heydər Əliyevin 1998-ci il martın 30-u tarixli sərəncamı ilə yaradılmış Dövlət komissiyası tərəfindən “Azərbaycan Respubilikasının təhsil sahəsində islahat Ptoqrami” hazırlanmışdır. Bu proqram Azərbaycan Respubilikası Prezidentinin 1999-cu il iyunun 15-də verdiyi 168 nömrəli sərəncamı ilə təsdiq edilmişdir. Qanunda təhsilin müxtəlif sahələri , o cümlədən , kadr məsələləri əhatə olunur , yeni tələbələrə cavab verən yüksək pedoqoji, iqtisadi və sosial təfəkkürə malik müəllim kadrlarının hazırlanması , kadrların attestasiya sisteminin yaradılması, onların əməyinin obyektiv qiymətləndirilməsi, əmək haqqının ödənilməsinə diferensial yanaşılması və s. diqqət mərkəzinə qoyulmuşdur.

Ali təhsil, ali məktəb müəllimləri ulu öndəri daim düşündürmüş, ali ocaqların yubileylərində iştirak etmişdir. O, ali təhsil müəssisələrinin kadr hazırlığı sahəsindəki uğurlarını yüksək qiymətləndirmişdir. Ali məktəb işçilərinin vəzifəsi respubilikanın bütün dinamik həyatı ilə ayaqlaqlaşmaqdan ibarətdir. Bəlkə onu hətta ötüb keçmək lazımdır.Çünki siz iqtisadiyyatımızı elm və mədəniyyətimizi irəlilətməli olan kadırlar hazırlayırsınız. Siz kadrları nə qədər daha tez üstün sürətlə da yüksək keyfiyyətlə hazırlasanız həyatımızın bütün sahələrində müvəffəqiyyətlər bir o qədər çox olar.

Ümumilli lider ali məktəb müəllimlərinin qarşısında elmə dərindən yiyələnmək, onu inkişaf etdirmək vəzifəsini də qoymuşdur. Ali məktəblərimizdə 9 min nəfərlik elmi-pedoqoji kollektivin fəaliyyət göstərdiyini, 430-dan çox elmlər doktoru və professorun 3500 nəfər elmlər namizədi, dosentin çalışdığını bildirən Heydər Əliyev onların biliyindən, təcrübəsindən daha çox istifadə olunmasını tələb edirdi. O deyir, biz çalışmalıyıq ki, hər bir ali məktəb müəllimi öz sahəsində səriştəli olsun geniş ümumi məlumata, yaxşı pedaqoji vərdişlərə, mühazirə oxumaq, dərs demək, öyrətmək, tərbiyə etmək üçün başqa zəruri keyfiyyətlərə malik olsun. Heydər Əliyev təssüflə qeyd edir ki, elmlər doktoru və ya namizəd
diplomu aldıqdan sonra bəziləri nəinki yeni əsərlər yazmır, həm də hər gün öz biliklərini artırmırlar. [2]

Ali məktəblərə ən yüksək balla qəbul olunmuş gənclərlə görüşdə (2001-ci il sentyabrn -3 də) demişdir. “Beləliklə, mən üzümü universitetlərə, müəllim-professor heyətinə, təhsil sahəsində işləyən bütün vətəndaşlarımıza tuturam ki, Azərbaycan xalqının gələcəyi, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları təhsil və tərbiyədən asılıdır. Xüsusən aparıcı qüvvə hər bi ölkənin, hər bir millətin aparıcı qüvvəsi onun bilikli nümayəndələridir. Mən arzu edirəm ki, universitetlər professor-müəllim heyətinin işə münasibətini daha da yüksəltsin.[2]

Ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı həyatının son günlərinə qədər çoxşahəli, uğurlu, gərgin fəaliyyəti respubilikamızın müstəqilliyinin qorunub saxlanılmasına, siyasi sabitliyin təmin olunmasına, iqtisadiyyatdakı tənəzzülün dayandırılmasına və onun dirçəlişinə, Azərbaycanın dünya birliyinə inteqrasiyasına, xalqımızın həyat səviyyəsinə yüksəldilməsinə, sosial müdafiəsinin güclənməsinə, demokratiyanı inkişafına, insan hüquq və azadlıqlarının qorunmasına söz və mətbuat

azadlığının təmin olunmasına həsr edilmişdir. Cənab Heydər Əliyevin geniş miqyaslı dövlətçilik fəaliyyətinin və sadalanan istiqamətlər sırasında ideya tərbiyəsi, milli qürur, milli təfəkkürün yüksəldilməsinə, qadın probleminə daimi diqqət, onların dövlət hakimmiyətində iştirk edərək özünü təsdiq etməsinə hərtərəfli şərait yaradılması, Azərbaycan dilinin, mədəniyyətinin inkişafı, mənəvi dəyərlərin, əxlaq normalarımızın, dinimizin, mənəviyyatımızın yüksəldilməsi aydın nəzərə çarpır. [2]

Liderlik xüsusiyyətlərini şərtləndirən siyasi amillər və ali dövlət idarəçiliyi təcrübəsi, şəxsi keyfiyyətini prinsipiallıq və siyasi iradə komponentləri baxımından bugünkü siyasətçilər nəslinin fövqündə ulu öndər Heydər Əliyevin fenomen xüsusiyətlərini şərtləndirən başlıca amil kimi şəxsi keyfiyyətləri, siyasi təcrübəsi və ictimaiyyətə rəğbətə politoloji baxımdan təhlil olunur.

Xalqın iradəsiylə hakimmiyyətə qayıtmış dahi şəxsiyyət Heydər Əliyev cənabları respubilika vətəndaşların müstəqil Azərbaycan təməl prinsipi olan dövlətçilik qanunculuq ədalətçilik həmrəylik bəşərilik kimi yüksək amal azərbaycançılıq ideologiyası ətrafında birləşdirə bilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin əbədi, dönməz və sarsılmaz olması istiqamətində mühüm tədbirlər həyata keçirilirdi. Cənab Heydər Əliyevin gərgin əməyi və müstəsna şəxsi səyi sayəsində ölkəmizdə uğurla aparılan demokratik dövlət quruculuğu prosesi ölkəmizin ictimai-siyasi həyatının iqtisadiyyatının bütün sahələrini geniş surətdə əhatə etmiş eyni zamanda hər birimizi daim fəal olmağa mübarizlik nümayiş etdirməyə sövq edir. [4]

Heydər Əliyevin 1998-ci ilin mart ayında imzaladığı sərəncamda təşkil olunmuş Dövlət Komissiyası tərəfindən “Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat proqramı” hazırlandı. 1999-cu ildə təsdiq olundu. Həmin proqramda XXI əsr Azərbaycan təhsilinin strategiyası işlənib hazırlandı. Bəri başdan deyək ki, təhsilimizin bu günü və gələcəyi onun təhsil siyasətiylə birbaşa sıx bağlıdır. İndi əas vəzifə təhsilin dünya standartlarına uyğunlaşdırılmasıdır. Ulu öndər gənclərlə görüşəndə ölkəmizdə təhsilin səviyyəsi təhsilə olan münasibət təhslin keyfiyyəti gənclərin vətənpərvərlik xüsusiyyətləri onların azərbaycançılıq Azərbaycanın milli adət-ənənələrinə hörmət vətən dilini və tarixini bilmək və öyrənməklə bağlı fikirlərini nitqində açıqladı. Prezident həmin nitqində Azərbaycan təhsilinə müsbət qiymət vermişdir. Azərbaycandan kənarda gənclərimizin təhsildəki fəallığı xüsusi qeyd olunmuşdur. Ölkənin qüdrətli olması üçün vətəndaş öz hüquqlarını qorumasını bacarmalıdır. Bu bacarıq və qabilliyəti təhsil aşılamalıdır. Çin filosofu Konfutsi deyirdi: Əgər bir illik planın varsa, bağ sal, yüz illik planın varsa, insanları öyrət. Ulu Öndər Heydər Əliyevin 1999-cu ildə imzaladığı “Təhsil sahəsində islahatlar Proqramı” çox mühüm, qlobal əhəmiyyət kəsb edən bir sənəddir. Heydər Əliyev müəyyən zaman kəsiyində Azərbaycan dövləti və millətini və çətin sınaqlardan çıxaraq onun hər sahədə tərəqqiyə nail olmasına rəhbərlik edən şəxsiyyətdir. Rəhbərlikdə olduğu 1969-1982 ci illərdə Azərbaycan dövlətinin diqqət mərkəzində əsas məsələlərdən biri kimi elmin və təhsilin inkişafına qayğının artırılması durdu. Müstəqilliyin ilk illərində mənəvi inistitutlarda sürətlə dağılma prosesi getsə də , illərlə və böyük zəhmət hesabına qazanılmış nailiyyətlər 1989-1993 cü illərdə dağılmaq təhlükəsi yaşasa da Heydər Əliyev tərəfindən təxirə salınmaz şəkildə inkişaf konsepsiyası hazırlandı. Milli mütəsqillik, milli dövlət quruculuğu ideyasının əsasında demokratiyanın inkişaf yolunun məhz təhsildən keçdiyi dururdu. Belə ki, Heydər Əliyevin işləyib hazırladığı strategiyanın əsas xətti milli dövlətçilik və hakimiyyət sturukturunun yaradılması və möhkəmlənməsi ilə yanaşı milli təhsil sisteminin yenidən qurulması idi. [3]

Heydər Əliyev çıxış edərkən bu fikri də vurğulamışdı: Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri daşıyır.

İslahat Proqramı təhsil sisteminin müasir bazar iqtisadiyyatı şəraitində yeni iqtisadi-təşkilati və idarəetmə mexanizminin yaradılmasına xidmət edir. Məqsəd və prinsiplərdən biri təhsil sisteminin idarə edilməsinin modernləşdirilməsi idi:

-Təhsil sisteminin idarəetmə orqanlarının fəaliyyətinin respubilikanın digər dövlət orqanları və qeyri dövlət təşkilatlarının fəaliyyəti, eləcədə ölkənin iqtisadi mühiti ilə əlaqələndirilməsi və təhsil siyasətini həyata keçirən orqan və şəxslərin səlahiyyətlərinin Azərbaycan Respubilikasının Təhsil qanununa və digər qanunvericilik aktlarına uyğun tənzimlənməsi;

-idarəetmənin dövlət-ictimai prinsipləri əsasında həyata keçirilməsi. Müəllim və digər sahələrdə işçilərin fəaliyyəti üçün ən əlverişli şəraitin yaradılması, onların sosial müdafiəsinin təmin olunması, perspektivdə ictimai-dövlət idarəetmə sisteminə keçilməsi;

-təhsil sisteminin yeni iqtisadi modelinin qurulması, resurs təminatının möhkəmləndirilməsi və optimallaşdırılması.

Təhil sistemində islahatların üç mərhələdə aparılması nəzərdə tutulur:

Azərbaycan Respubilikası vətəndaşlarının bazar iqtisadiyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ hüquqi, iqtisadi və informasiya bazasını yaratmaq üçün təşkilati işlərin aparılmasını, eləcə də onun infrastrukturu və kommunikasiya sisteminin müəyyən edilməsi; təhsil sahəsinin sosial-iqtisadi sabitliyini təmin edən təxirə salınmaz problemlərin həll olunması və geniş miqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi kadr, maliyyə, maddi-texniki təminatının və yeni idarəetmə modelinin yaradılması; 2004- cü ildən etibarən proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsi. [4]

Dünyada təhsil sahəsində idarəetmə işi bazaryönümlü tələblər və menecmentin qanunları əsasında təşkil olunmuşdur. Azərbaycan Respubilikasında H.Əliyev tərəfindən hazırlanan strategiya əsasında təhsil sistemində idarəetmənin rəqabətəqabil və modern modelinin tətbiqi işinin sürətləndirilməsi və bir daha təhlil olunmasını tələb edir. Təhsil sahəsində qlobollaşma dünya miqyasında təhsilə verilən tələbdir, çünki biz bugün insan sərvətinin yaranması və dirçəlməsini o, cümlədən təhsilin inkişafını təmin edən infrastrukturun qloballaşma zərurətini yaşayırıq. Təhsil ictimai həyatın olduqca konservativ sahəsini təşkil edir. Müasir şəraitdə ümumi tendensiya iqtisadi elmlər sahəsində inteqrasiya meylləri, milli təhsil sistemlərinin qarşılıqlı transformasiyası, sinxronlaşdırılması və s. meydana gəlmişdir. Vahid dünyanın təhsil məkanı yaranmaqdadır.

Təhsilin inteqrasiya prosesinin müsbət və mənfi cəhətləri mövcuddur. Lakin buna baxmayaraq inteqrasiya labüddür, çünki bu halda vahid texnologiyaları və təhsilin keyfiyyətini, dünya standartlarını yaratmaq mümkündür. Təhsilin qloballaşması dedikdə vahid ümümdünya universal təhsil şəbəkəsinin yaranma prosesi nəzərdə tutulur. Bu gün dünya inteqrasiya prosesinin lideri ABŞ-dır. Amerika sisteminin əsas onun uyuşqan, surətli, hər hansı yaş üçün münasibliyi, öyrənilən fənlərin seçiminin, azad tədrisin vaxt və surətinin əlverişli olmasıdır. Bununla belə ABŞ-ın özündə də, başlıca istiqamət təhsilin keyfiyyətinin yüksəldilməsi, onun bəşər mədəniyyətinin inkişaf surətinə uyğunlaşması, insan təfəkkürü və özünüdərkin müvafiq inkişafıdır.

Bu gün Avropa ölkələrin də , təhsil siyasətinə yeni yüzilliyin təhsilin keyfiyyətinin Avropa universitetlərində yüksəldilməsi, idarəetmə, elmi-tədqiqat, tədris fəaliyyətinin səmərəliliyinin yüksəldilməsini və ona yeni yanaşma tərzini tələb edir. Bu gün Avropa xalqları təhsil məkanını formalaşdırmağı qarşılarına strateji məqsəd qoymuşdur. Bu gün keçmiş Sovet təcrübəsi, o cümlədən Respubilikamızda ideoloji istiqamətdən azad olmuş təcrübə əhəmiyyət kəsb edir, çünki o sistematik bilik verir.

Azərbaycan Respubilikasının təhsil sahəsindəki qloballaşma meylləri ali təhsilin inkişafının ümumi starategiyası və prinsiplərinin həyata keçirilməsində Azərbaycan dövlətinin Avropa ölkələrinin təhsil istiqamətli siyasəti ilə özünü büruzə vermişdir. Azərbaycan ali məktəb sistemi yeni yüzilliyin mütərəqqi meyllərini özündə əks edirməklə və keçmiş nəsillərin təcrübəsini yaradıcılıqla toplamaqla, ümumbəşəri dəyərlərlə birgə həm də, milli mədəniyyətin humanist ənənələrinə əsaslanmalı, Azərbaycan xalqının özünəməxsusluğunun qorunması və dəstəklənməsinə istiqamətlənməlidir. [3]

Azərbaycan təhsili dünyanın qloballaşma prosesində dəyişir və inkişaf edir. Cəmiyyətin ehtiyac və tələbatlarına əsaslanan, dəyərlərlə ölçülən, bir sistemin formalaşması hadisəsi baş verir. Burada, ilk növbədə, yeni təhsil fəlsəfi təlim alanlara ən müasir bilik və bacarıqlar zəmnində "öyrənməyi öyrətmək" yanaşma tərzi mənimsədilir. Bu zahirən yeni təhsil texnologiyasının sadəcə bir mexanizmi, kimi başa düşülsə də əslində o, müasir dünyanın inkişaf texnologiyasına uyğun elə mühüm zərurətdir ki, onsuz bu günkü cəmiyyətin inkişafını təmin etmək mümkün deyildir. Bu müxtəlif biliklər sistemindən ibarət olan informasiyaların çoxalması və onların bütünlükdə ardıcıl və sistemli olaraq ümumi təhsilə gətirilməsinin mümkünsüzlüyü ilə bağlıdır. Belə olan təqdirdə ümumi təhsil məktəbləri bu informasiyalar bolluğunda uşaqalara ən zəruri bilikləri verməklə yanaşı, onların əqli hissi və fizki inkişafını təmin etməli, bir şəxsiyyət kimi ümumi inkişafına nail olmalıdır. Çünki tələbə şəxsiyyətinin formalaşdırılması onların ana xəttini təşkil etməlidir.

Ümumi təhsilin inkişafında ən mühüm hadisələrdən biri onun idarəetmə prinsiplərində dəyişikliklərin aparılmasıdır .Əslində idarəetmə probleminə daxil olan qiymətləndirmə özünə məxsus cəhətləri ilə səciyyələndirilir və ümumi təhsilin idarə olunması mexanizmin ən etibarlı hisəsi kimi dəyəndirilir. [2]

Yeniləşən dünya yeni iş üsulları, təfəkkür tərzi tələb edir. Bu məlum həqiqət həyatımızın əksər sahələrində yeni qarşılıqlı münasibətlərin formalaşmasına, yeni dəyərlər sisteminin meydana çıxmasına səbəb olmuşdur. Müstəqillik qazandığımız qısa müddət ərzində Azərbaycan iqtisadi, siyasi, hərbi, mədəni və digər sahələrdə çox dövlətlərin qibtə edəcəyi uğurlara imza atmışdır. Əlbəttə bu nailiyyətlərin davamlı olması, daha da uğurlu inkşafı ilk növbədə elm və təhsildən keçir. Hazırda həyatın sahələri elm və texnologiyadan o dərəcədə asılıdır ki , inkişaf etməkdə olan ölkələr sahib olduqları gənc fəal insan potensialını yüksək bir təhsil prosesindən keçirərək " beyin gücü" effektli bir şəkildə təşkilatlandıraraq, bir sıçrama ilə inkişaf etmiş dövlətlər sırasına keçə bilərlər. Azərbaycan indi məhz həmin dövrün astanasınadır. Cəmiyyətdəki bütün proseslərin ən mükəmməl varlıq olan insan potensialı, onun yaratdağı elm və texnologiyalardan asılı olduğunu nəzərə alsaq, yolumuz tam aydınlaşar. Təhsilin əvəz edilməz rolu sayəsində insanın öz inkişafına nail olmaq, müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə elmin və təhsilin səviyyəsi ilə müəyyən olunur. Tipindən asılı olmayaraq, təhsil müəssələrində təlimdən sonrakı, zamanda təhsil alanların asudə vaxtlarında təşkil olunan auditoriyadan kənar tədbirlər, məlum olduğu kimi, söhbətlər, müzakirə və disputlar, ekskursiyalar, görüşlər, axşamlar, müsabiqə və yarışlar, viktorinalar, və s. bu kimi növlərə ayrılır. Həmin tədbirlərdə Heydər Əliyevin müdrik kəlamlarından istər müəllimlər, tədbir iştirakçıları, istərsə də , tələbələr faydalana bilərlər. Həmin kəlamlardan bəzilərini diqqət mərkəzinə gətirmək istəyirik.

*Böyük siyasəti kiçik hissələrə, xırda mənfəətlərə bağlamaq olmaz.

*Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın.

*Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

*Həqiqi mənəviyyatı milyonlarla, milyardlarla da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız heç bir şeydirlər.

*Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.

*İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

*Tariximizin hər səhifəsi bizim üçün əzizdir.

Belə məqsədyönlü, sistemli şəkildə aparılan işlər nəticəsində təhsil alanlar ümumilli liderimiz Heydər Əliyev nümunəsində tərbiyyə olunur, ona oxşamağa, onun kimi hər sahədə fəal olmağa, Vətəni sevməyə, onun uğrunda mübarizə aparmağa başlayır.

Cəmiyyətdə sağlam ənənəvi- psixoloji iqlimin hökm sürməsi- ölkənin möhkəm dayaqlar üzərindəolması deməkdir. Ona görədə ümumilli liderimiz Heydər Əliyev böyüyən nəsildə vətənpərvərlik hisslərinin inkişaf etdirilməsini, onları milli-mənəvi dəyərlərə

yiyələndirməyə müəllimlərə tövsiyə edərdi. Ulu öndər istəyirdi ki, gənclərimizdə fəal vətəndaşlıq mövqeyi formalaşsın. Ali məktəblərdə, ümumiyyətlə, təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır. Çünki cəmiyyətimiz həm zəngin, bilikli, ali təhsilli mütəxəsislərlə, həm də yüksək mənəviyyata malik insanlara ehtiyac duyur.

Dünya müasir universitet modeli müəllimin peşıkarlıq səviyyəsinin yüksəldilməsi üçün fasiləsiz təhsil almaq imkanı verən əsas təhsil formalarından biri distant təhsildir. Distant təhsil kadr hazırlığı texnologiyası olaraq, təhsilin keyfiyyətinin müasir İKT vasitələrinin intensiv tətbiqi ilə daha da yüksəldir. Müasir müəllim yüksək informasiya mədəniyyətinə malik, müstəqil şəkildə öz informasiya ehtiyaclarını təmin etməyə qadir və müasir İKT vasitələrindən sərbəst istifadə edə bilən kadrların hazırlanmasında mühüm rol oynayır. Distant təhsilin kadr hazırlığına tətbiqinin əsas məqsədi gələcək kadrları yeni informasiya mühiti, yeni təlim texnologiyaları ilə təlim prosesində tanış etməkdən, bu texnologiyalar vasitəsi ilə onlara təhsil aldıqları bilikləri daha səmərəli üsullarla mənimsətməkdən və onları gələcəkdə öz iş fəaliyyətlərində bu texnologiyalardan sistemli istifadə etməyə hazırlamaqdan ibarətdir.

Distant təhsilin üstünlükləri aşağıdakılardır: [4]

-Distant təhsil proqramları ənənəvi sistem üzrə aparılan analoji təhsil kurslarından xeyli ucuzdur. Təhsil müəssisələri icarə haqqına , elektrik enerjisinə və bahalı texnikaya qənaət edir, çünki təhsil üçün ayrıca otaqlar və komputerlər tələb olunmur. Bundan əlavə, vaxtın çox hissəsini tələbələr müstəqil şəkildə məşğul olurlar və deməli , müəllimlər, eyni zamanda zamanda daha çox tələbəni öyrədə bilərlər və bunun sayəsində də distant təhsilin qiyməti münasib olur.[4]

- Distant təhsil, ümumiyyətlə, hər hansı təhsil almaq imkanları olmayan şəhər və ölkələr üçün əvəzedilməzdir. Bu, təhsili hamı üçün əlçatan edir.

-Distant təhsil mobildir və deməli, tələbənin daim aktual məsələlərə çıxışı olur. Bunun üçün sadəcə internet lazımdır.[5]

XXI əsr elm, təhsil və qlobal düşüncə, Azərbaycan təhsilinin dünyaya inteqrasiya dövrü kimi səciyyələnir, zaman və məkan müstəvisi baxımından yeni təfəkkürün formalaşması sivilizasiyasının yeni mərhələsi kimi tarixə yazılır, əbədiləşir. Bu zaman kəsiyinin ən böyük əlamətdar tarixi hadisəsi yüz ildən bir, bəlkədə min ildən bir adını tarixin şanlı səhifələrinə yazmağı bacaran nadir şəxsiyyətlərdən biri Heydər Əliyevin adı ilə bağlı olub, onun müdirikliyi, uzaqgörən siyasəti ilə ölçülür. Ulu Öndərin təhsil siyasəti hal-hazırda uğurla davam etdirilir, təhsil islahatı ardıcıl olaraq həyata keçirilir. Ali təhsil müəssisələri dövlət Proqramına uyğun inkişaf etdirilir. Ali təhsil müəssisələrinin tikintisi artıq respubilikamızın bir sıra bölgələrində həyata keçirilir. Bütün bunlar ulu öndər Heydər Əliyev təhsil siyasətinin və ümumiyyətlə Heydər Əliyev irsinin uğurla həyata keçməsinin sübutudur.

Yeni dövrün ən böyük şəxsiyyəti Ulu Öndər Heydər Əliyevdir.

**Ədəbiyyat**


1. Zəmanəmizin böyük Azərbaycanlısı. Bakı: Xüsusi buraxılış, 2002.
2. Məhərrəmov A. Azərbaycan elmi və təhsilin uğurlu islahatların müəllifi / Azərbaycan, 2011, 11 may
3. Azərbaycan Respubilikası Prezidenti İlham Əliyevin sərəncamı ilə 2013- ccü ildə qəbul edilmi. "Azərbaycan Respubulikası Təhsilin İnkişafı üzrə Döclət Strategiyası"
4. Pedoqogika üzrə elmlər doktoru, RF Dövlət Təhsili Akademiyasının xarici üzvü,Pedaqoji və Sosial Elmlər Akademiyasının, Təhsilin İnformasiyalaşdırılması Akademiyasının həqiqi üzvü, akademik Hümeyir Əhmədov –Distant təhsilin müasir vəziyyəti və onun inkişaf yolları məqaləsi. hhtp:/ www.ahmadoff.org/images/megalepdf/distant-məqalə-təqdimat.pdf
5. Həsənov E. Heydər Əliyev milli təhsil sisteminin qurucusudur. "Azərbaycan müəllimi" , 2010, 7 may

**i.f.d., dos. Məmmədova Gültəkin Qabil qızı**
*Azərbaycan Dövlət İqtisad Unoversiteti (UNEC),*
*gultakin.memmedova@mail.ru*

# AZƏRBAYCANDATƏHSİL SİSTEMİNİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN HEYDƏR ƏLİYEVİNKİŞAF MODELİNİN MÜASİR UĞURLU TƏZAHÜRLƏRİ

**Xülasə**

Ümummilli lider Heydər Əliyevin milli təhsil sisteminin mahiyyəti, məzmunu və əsas inkişaf xüsusiyyətləri nəzərdən keçirilmiş, müasir təhsil sisteminin maliyyələşdirilməsi üzrə Heydər Əliyev modelinin mühüm əlamət və prinsipləri vurğulanmışdır. "Təhsil" bölməsi üzrə dövlət büdcəsindən ayrılan xərclərin elmi təsnifatına müəllif yanaşması əsaslandırılmış, onların formalaşması istiqamətləri açıqlanmış və ölkənin dövlət büdcəsində təhsil xərclərinin əhəmiyyəti əsaslandırılmışdır. Məqalədə həmçinin dövlət təhsil xərclərinin, təhsilə yönəldilən əsaslı vəsait qoyuluşlarının inkişaf dinamikası təhlil edilərək qiymətləndirilmiş, təhsil infrastrukturunun müasirləşdirilməsi və bərpası istiqamətindəki problemlərə aydınlıq gətirilmişdir. Bununla yanaşı, ali təhsil xərclərinin təhsilin digər pillələri ilə müqayisədə daha bahalı olduğunu nəzərə alınmaqla, bu sahəyə dövlət dəstəyinin artırılması, eləcə də Azərbaycanda iqtisadi cəhətdən davamlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına cavab verən Heydər Əliyev milli təhsil sisteminə adekvat təkmil təhsil sisteminin maliyyələşdirilməsi modelinin yaradılması zəruriliyi müəyyənləşdirilmişdir.

**Açar sözlər:** təhsil sistemi, təhsil xərcləri, maliyyə sistemi,Heydər Əliyev inkişaf modeli, təhsil strategiyası.

## Giriş

Ötən əsrin 70-ci illərindən başlayaraq 30 ildən artıq bir müddət ərzində Azərbaycanda elm, təhsil və mədəniyyətin dirçəlişi və dinamik inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olmuşdur.Onun hakimiyyətinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərilib. O öz zamanında milli təhsil sisteminin inkişafı üçün bütün lazımi tədbirləri həyata keçirib.Heydər Əliyevin fəaliyyətində prioritet məsələlər sırasına milli təhsil sisteminin müasirləşdirilməsini, yüksək əxlaqi keyfiyyətlərə malik ixtisaslı kadrların hazırlanmasını aid etmək olar.

Heydər Əliyev təhsilin cəmiyyətdə rolunu və şəxsiyyətin formalaşmasındakı əhəmiyyətini yüksək qiymətləndirərək bu sahədəki mövcud problemləri və perspektivləri dərindən bildiyindən təhsil haqqında dəyərli mülahizələr və müddəalar təklif edirdi. Sərt məntiqə və uzaqgörənliyə söykənən fikir və müddəalar həm keçmiş SSRİ-də, həm də müstəqillik dövründə Azərbaycanda təhsilin inkişafı üçün tövsiyələrə çevrilmişdir. Tədqiqatlar göstərir ki, Ulu Öndər müəllimlərlə etdiyi danışıq və görüşlərdə təhsilin bütün səviyyələrini əhatə edən ən vacib məsələlərə toxunmaqla müəllimlərin cəmiyyətdəki məzmunu, idarəedilməsi və rolunu konseptual olaraq müəyyənləşdirərək müəllimlər qarşısında ən vacib vəzifələri qoymuşdu.

Azərbaycanda 70-80-ci illərdə Ulu Öndərin ilk rəhbərliyi dövründə təhsil müəssisələri şəbəkəsi yaradılılmaqla və onların zəngin maddi-texniki bazası formalaşdırılmaqla, respublikadan kənarda yüksək ixtisaslı mütəxəssislərin hazırlanması perspektiv üçün milli müstəqillik təməli olan lazımi intellektual zəmin yaratdı.

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanda təhsilin inkişafında misilsiz nailiyyətləri ölkəmizin təhsil sistemində köklü islahatların başlanmasının əsasına çevrildi. Keçmiş Sovet İttifaqının liderlərindən biri olaraq bu supergücün formalaşması onun birbaşa nəzarəti altında olmuş və 1984-cü ildə həyata keçirilən məktəb islahatının rəhbəri olmuşdur. O, milli təhsilin inkişafı, dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminə inteqrasiyası və bu sahədə həyata keçiriləcək islahatların mahiyyəti barədə açıqlamalar verdi. Ulu Öndərin elmi

cəhətdən əsaslandırdığı təhsil konsepsiyasının əsaslandığı mühüm prinsiplər sırasına müstəqilliyi daha da möhkəmləndirmək, demokratik və hüquqi dövlət quruculuğu prosesini həyata keçirmək, ölkənin iqtisadi potensialını gücləndirmək daxil idi[1, s. 123].

Təhsil hüququ 1995-ci ildə xalq səsverməsi ilə qəbul olunmuş Azərbaycan Konstitusiyasında hər bir vətəndaş üçün vacib hüquqlardan biri elan edildi. Azərbaycan Respublikasında təhsil fəaliyyətinin əsas prinsipi də məhz ölkə Konstitusiyasının bu müddəası oldu[2].

Ümummilli lider Heydər Əliyev milli təhsil sisteminin təkamül yolu ilə islah edilməsinin lehinə danışdı və bu mövzuda ictimai müzakirələrə başlamağa nail ola bildi. Bu məsələyə çox həssaslıqla yanaşan Ulu Öndər “Təhsil sistemi inqilabi dəyişikliklərin ola bilməyəcəyi bir sistemdir” dedi.

Heydər Əliyev 30 mart 1998-ci il tarixdə "Azərbaycan Respublikasında Təhsil İslahatı üzrə Dövlət Komissiyası haqqında"[3] sərəncam imzaladı ki, bura da əsasən Azərbaycan təhsil sistemində beynəlxalq standartlara adekvat islahatlar həyata keçirmək, Avropa təhsil məkanına inteqrasiyanı təmin etmək, təhsilin inkişafı və onun maddi-texniki bazasını möhkəmləndirmək kimi vacib vəzifələr daxil idi

Heydər Əliyev tərəfindən 15 iyun 1999-cu ildə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsil İslahatı Proqramı"nın[4] əsas mahiyyəti təhsil sistemində islahatların tədricən həyata keçirilməsi, dünyanın tarixən zəngin, mütərəqqi ənənə və təcrübələrinin qorunub saxlanılması, milli xüsusiyyətlər nəzərə alınmaqla dünya təhsil sisteminin tətbiqinin mühüm məsələləri təşkil edirdi. İslahatlar nəticəsində təhsilin məzmunu yeniləndi, yeni proqram və dərsliklər hazırlandı, müəyyən təhsil sahələri və fənlər üzrə standartların hazırlanması istiqamətində ciddi işlər aparıldı.

1 sentyabr 2001-ci ildə Bakıda ilk özəl məktəb kompleksinin açılışındakı çıxışında ümummilli lider Heydər Əliyev dedi: "Cəmiyyət təhsil olmadan inkişaf edə bilməz". Təhsil sahəsində inkişaf olmasa, ölkənin ümumi inkişaf dinamikası zamandan geri qalacaq.

Müasir Azərbaycan dövlətinin qurucusu, ölkəmizi ən inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaq üçün həyatının başlıca məqsədi hesab edən Ulu Öndər Heydər Əliyevin ideyaları, zəngin idarəetmə təcrübəsi və bu məqsədə çatmaq əzmi, onun layiqli davamçısı, varisi olan hörmətli Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Ölkə prezidentinin balanslı xarici və daxili siyasəti, ümumilikdə uğurlu fəaliyyəti nəticəsində iqtisadiyyatımızın sürətli inkişafı təhsilin inkişafı üçün vacib bir zəminə çevrilmişdir. Təhsili Azərbaycanın davamlı inkişafının vacib amillərindən biri hesab edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev fəaliyyətinin ilk günlərindən bu sferanı ölkənin daxili siyasətində prioritet hala gətirərək ölkənin inkişafına həmişə qayğı göstərdi. O haqlı olaraq "yüksək səviyyədə təhsil olmadan, peşəkarlıq olmadan, ən qabaqcıl texnologiyalara sahib olan gənclər olmadan həqiqətən inkişaf etmiş bir dövlət qurmaq mümkün deyil" dedi. Son illərdə görülən işlərin nəticəsi olaraq Azərbaycan təhsili yeni bir inkişaf dövrünə qədəm qoydu və bu dövrün əsas xüsusiyyəti təhsilin bütövlükdə kompleks inkişaf etməsidir.

Müasir dünyada hər bir ölkə təhsilə öz büdcəsindən xərcləyir. Həmin xərclərin miqdarı və bütövlükdə milli səviyyədə təhsil siyasəti əslində sosial siyasətin ayrılmaz hissəsidir. Lakin, digər bütün sahələrdə olduğu kimi, bu vəziyyətdə də istifadə olunan mexanizmlər təhsilə qayğı və təhsilin maliyyələşdirilməsi səviyyəsində fərqlənir. Lakin bu sahənin daim yenilənməsi və ən yaxşı təcrübələrin geridə qalması kimi amillər dövləti təhsil sektorunda daima islahatlar aparmağı zərurətə çevirir. Buna görə 2013-cü ilin sonunda yeni bir təhsil strategiyası qəbul edildi. Hesab edirik ki, yeni qəbul edilən strategiya bu sahədəki çatışmazlıqların aradan qaldırılmasına və beynəlxalq standartlara cavab verən təhsil modelinin formalaşmasına töhfə verməkdədir.

Davamlı inkişafı təmin etmək, beynəlxalq rəqabət qabiliyyətini artırmaq, innovativ və

təşəbbüskar iqtisadi sistem yaratmaq bu gün daha çox insan kapitalının yaradılması ilə bağlıdır. Bu sahənin spesifikliyi bir çox hallarda təhsilin fərdi maliyyələşdirilməsinin qarşısını alan uzunmüddətli passiv investisiyalar tələb etməsidir. Xüsusən də zəif inkişaf etmiş dövlətlərdə insanların sosial müdafiəsi valideynlər tərəfindən təhsilə vəsait ayrılmasına mane olan əsas amildir. Bu səbəbdən əks ölkələrdə ibtidai və orta təhsil, bəzən də ali təhsil dövlət tərəfindən maliyyələşdirilir. Əlbəttə ki, Azərbaycanda orta təhsil məcburidir və pulsuzdur. Yəni bu sahədəki xərclər dövlət tərəfindən maliyyələşdirilir. Bununla birlikdə, həm dövlət xərclərində şəffaflığı təmin etmək, həm də təhsil sisteminin maliyyələşdirilməsində daha məqbul və ən yaxşı təcrübələri tətbiq etmək üçün bu cür islahatlara ehtiyac yaranmışdı. Bu səbəbdən, 2014-cü ildə təhlükəsiz təhsil üçün maliyyələşdirmə yeni qaydalar çərçivəsində davam etməkdədir. Yeni maliyyələşdirmə mexanizmində əsas prinsip adambaşına maliyyələşdirmə oldu. Beləliklə, 2014-cü il etibarlı təhsil sahəsində yeni bir dövrün başlanğıcı oldu.

Bu gün təhsilin maliyyələşdirilməsi əks dünya ölkələrinin sosial siyasətinin prioritetlərindən biridir. Ötən əsrdə dünya iqtisadiyyatında sürətli inkişaf və demokratik idarəetmə prinsiplərinin gücləndirilməsi hökumətlərin sosial sahəyə daha çox diqqət yetirməsinə səbəb oldu. Buna görə də təhsil sistemini formalaşdırmaq və maliyyələşdirmək kimi ciddi məsələlər hökumətlərin qarşısında duran əhəmiyyətli tapşırığa çevrildi. Ümumiyyətlə, təhsil xərcləri bu sahədəki infrastrukturun qurulması və saxlanılması, maaşların ödənilməsi və innovasiyanın maliyyələşdirilməsini əhatə edir. Təhsil haqları UNESCO-nun Statistika İnstitutunun metodoloji tövsiyələrinə əsaslanmaqla maliyyələşdirmə mənbələrinə görə aşağıdakı qruplara bölünür:

1. Dövlət;
2. Özəl (qeyri-dövlət);
3. Beynəlxalq.

Azərbaycanda bu vəziyyətdə əsas yük dövlətin üzərinə düşür. Belə ki, ibtidai və orta təhsil bizdə məcburidir. Ölkədəki 1616,1 min şagirddən yalnız 15,3 min və 0.95% -i özəl təhsil müəssisələrindədir, davamlı təhsil alan 52 ali təhsil müəssisəsindən 40-ı dövlətə, 12-si isə özəl sektora məxsusdur. Dövlət ali təhsil müəssisələrində 169 min tələbə təhil aldığı halda, özəl təhsil müəssisəsində 18,6 min tələbə təhsil alır. Başqa sözlə, dövlət ali təhsil müəssisələrində təhsil alanların ümumi sayının 90% -i dövlətin, 10% -i özəl sektorun payına düşür. [5]

Dövlət maliyyələşdirmə mənbələrini aşağıdakı 3 kateqoriyada qruplaşdırmaq olar:mərkəzi, regional (icra hakimiyyəti), yerli (bələdiyyə).

Mərkəzi hakimiyyətin təhsil xərclərinə Təhsil Nazirliyinin xərcləri, digər nazirlik, idarə və icra hakimiyyəti orqanlarının təhsillə bağlı xərcləri daxildir. Bəzən bu qurumlarda xərclənən vəsaitlər təhsil xərcləri kimi ifadə olunmaya da bilər.

Qeyri-dövlət təhsilinin maliyyələşdirilməsi üçün hüquqi şəxslərin xərcləri də iki növə bölünür: təhsil müəssisələrinə ödənişlər və tələbələrin ailələrinə ödənişlər. Hüquqi şəxslərin təhsil müəssisələri üzrə ödənişlərinə şirkətlər və ya həmkarlar ittifaqları tərəfindən təhsil müəssisələrinə ödənilən subsidiyalar, özəl şirkətlər tərəfindən araşdırma müqavilələri əsasında universitetlərə ödənişlər, fərdi təhsil haqqı, təhsil fondlarına özəl fondlardan verilən qrantlar, xeyriyyə məqsədi ilə təhsil müəssisələrinə ianələr, icarə ödənişləri üçün təhsil müəssisələrinə verilən subsidiyalar və s. aiddir.

Təhsildə üçüncü maliyyə mənbəyi beynəlxalq yardım sektorudur, bu, beynəlxalq təşkilatların təhsil sektorunun inkişafı üçün ayırdığı maliyyə yardımlarını əhatə edir.Bu təşkilatlar sırasına Dünya Bankı, BMT-nin təhsil müəssisələri, digər əməkdaşlıq edən hökumətlərarası birliklər, Dövlət İnkişaf agentlikləri və beynəlxalq qeyri-hökumət təşkilatları daxildir. [6]

Ümumiyyətlə, dövlətin əsas vəzifələrindən biri qeyd edilən hər üç mənbədən təhsil xərclərini artırmaq və şaxələndirməkdir. Təsadüfi deyildir ki, ölkə başçısının 2013-cü ilin 24 oktyabrında təsdiq etdiyi sərəncama əsasən “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda[7] bu məqam xüsusilə öz əksini tapıb. Məhz bu istiqamətdə ayrılan

vəsaitlərin ildən-ilə artması müşahidə edilməkdədir.

Burada əsas məqsəd ölkə konstitusiyası ilə təsbit olunan hər bir vətəndaş üçün təhsil almaq hüququnun qorunması, dini, irqi, habelə sosial statusu nəzərə alınmadan ölkə vətəndaşlarına bərabər şərtlər çərçivəsində təhsil imkanları yaratmaqdır. Bütövlükdə isə "Təhsil" bölməsi üzrə dövlət büdcəsindən ayrılan xərclərə fərdi və kollektiv əsaslara görə şagird və tələbələrə göstərilən xidmətlər qarşılığında sərf olunan vəsaitlər daxildir. Belə xərclər sırasına həmçinin bu sahədə dövlət siyasətini müəyyənləşdirmək, müxtəlif inkişaf proqramlarını hazırlamaq, kollektiv xidmətlər göstərmək, təhsil sahəsindəki fəaliyyətlərdə və tədqiqatlarda istifadə edilən dövlət vəsaitləri də aiddir. Bundan əlavə, büdcənin "Təhsil" bölməsində öz əksini tapan xərclərə əhalinin təhsil aldığı uşaq bağçaları, orta məktəblər, liseylər, institutlar, universitetlər, texniki peşə məktəbləri üzrə saxlanma xərcləri, şagird və tələbələrin təhsil alması üzrə infrastrukturun yaradılması məsrəfləri daxildir.

Son illərdə dövlətin maliyyə imkanlarının genişlənməsi təhsil daxil olmaqla sosial sahəyə ayrılan vəsaitin artırılmasına imkan yaratdı. Eyni zamanda, 2019-cu ildə ÜDM-də təhsil xərclərinin payı 2,7% təşkil etmişdir. Qeyd etmək lazımdır ki, eyni göstərici Avropa ölkələrində 5-8% civarındadır. Belə ki, Almaniyada təhsil xərclərinin ÜDM-də xüsusi çəkisi 5,1%, Norveçdə 7,3% təşkil edir. Bununla yanaşı, sadaladığımız ölkələrdə təhsil xərclərində dövlətin payı ölkəmizdəki eyni göstəricidən təxminən iki dəfə azdır. Bu göstəriciyə görə Azərbaycan dünya ölkələri arasında 148-ci yer tutur. Digər bir maraqlı məqam: ötən illər ərzində təhsil xərclərinin artım dinamikası ümumi iqtisadi inkişaf dinamikasına uyğun olmayıb.

Statistikaya görə, 1999-cu ildə ÜDM-də təhsil xərclərinin payı 4,2% olduğu halda, bu göstəricinin 2021-ci il üçün 4,3% olacağı gözlənilir. Bu göstəricinin ən aşağı səviyyəsi (2,4%) 2008-ci ilə təsadüf edir. Lakin qeyd edək ki, keçən illər ərzində təhsil sektoru üçün ayrılan büdcə vəsaitlərinin məbləği nominal olaraq artmaqda davam edib. Belə ki, 2019-cü ildə 2005-ci illə müqayisədə bu istiqamətdəki büdcə xərclərinin artım tempi təxminən 5,9 dəfə təşkil edib. 2019-cu ildə dövlət büdcəsindən təhsil sferasına xərclənən 2195,7 mln.manat ümumi büdcə xərclərinin təqribən 9%-nə yaxındır. 2021-ci il üçün proqnozlaşdırılan büdcə vəsaitinin 60,9 mln. manatı və ya 1,86%-i ali təhsil üçün nəzərdə tutulub. [8]

Ötən on beş ilin göstəricilərinə nəzər salsaq, görərik ki, təhsil xərclərinin orta artım tempi təxminən 39,3% təşkil eib. Artım tempinin ən pik nöqtəsi 2007-ci ilə təsadüf edir. Belə ki, 2006-cı illə müqayisədə təhsilə ayrılan büdcə xərcləri 2007-ci ildə 51% artıb[8]. Bununla belə, 2008-ci ildə dünyada baş verən maliyyə böhranı nəticəsində təhsil sferasına yönəldilən xərclərin artım tempində nisbi azalma müşahidə olunmağa başladı. Lakin bütün bunlara rəğmən, ötən illər ərzində təhsilə ayrılan xərclərin artımında pozitiv meyllər davam etdirilib.

Müstəqillik əldə edildikdən sonrakı ilk illərdə ölkənin çətin iqtisadi vəziyyəti, 2003-cü ildən etibarən Azərbaycan neftinin beynəlxalq bazarlara birbaşa çıxışı qazandığı zaman əhəmiyyətli dividentlər ilə nəticələndi. 2005-ci ildən bəri dünya bazarlarında neft və neft məhsullarının qiymətindəki fantastik artım ölkəmizə gözləniləndən daha çox vəsaitin gəlməsinə səbəb oldu. Bu pulun böyük hissəsi infrastrukturun yenidən qurulmasına sərf edilsə də, digər sosial sfera sahələri kimi təhsil də öz payını almaqda idi.

Son illərdə dövlət büdcəsi xərcləri sürətlə artsa da, təhsil xərclərinin artım tempi büdcə artım tempindən xeyli geri qaldı. Nəticədə təhsil xərclərinin büdcədəki payı 2005-ci ildəki 17,4%-dən 2013-cü ildəki 7,7%-ə endi. 2016-2017-cı illərdə təhsil xərclərinin ümumi büdcə xərclərindəki payı 2013-cü ilə nisbətən 2,2 faiz bəndi artdı və 9,9%-ə yüksəldi. 2018-ci ildə isə yenidən bu rəqəm bir qədər azalaraq 8,7%-ə ensə də, 2019-cu ildə bu rəqəm artaraq 9%-ə bərabər olub[9]. Burada artım əməliyyatı iki aspektdə hiss edildi. Birincisi, əməkhaqqının təhsil xərclərinə ayrılmasıdır. Belə ki, Prezidentin 2013-cü ildə müəllimlərin maaşlarının artırılması və pensiya təminatların yaxşılaşdırılması ilə bağlı sərəncamın tələblərini təmin etmək məqsədi ilə 162 milyon manatdan artıq vəsait ayrıldı.

Digər bir tərəfdən, 2014-cü ildə "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2010-cu il

tarixli Fərmanının[10] tələblərini yerinə yetirmək üçün 130,4 milyon manat ayrılmışdır. Bundan əlavə, ilk dəfə olaraq xarici təhsil və tədqiqat müəssisələrində Azərbaycanşünaslıq və Xəzər regionu sahəsindəki tədqiqatları stimullaşdırmaq üçün 2014-cü il dövlət büdcəsinin təhsil xərcləri hissəsinə 2,5 milyon manatlıq xərc maddəsi əlavə edildi.

Onu da qeyd edək ki, son 15 il ərzində təhsildə orta aylıq əməkhaqqı təxminən 6,6 dəfə artmışdır. 2005-2019-cu illərdə ölkədə orta aylıq əməkhaqqının 5,1 dəfə, yəni təhsildən bir qədər az artdığını nəzərə alsaq, onda Ulu Öndərin varisi İlham Əliyevin prezident olduğu müddətdə təhsilin keyfiyyətini yüksəltmək və bu sferada çalışanların yaşayış şəraitini yaxşılaşdırmaq üçün ciddi addımların atıldığının bir daha şahidi olmuş olarıq[9].

Ancaq bu sahədə daha ciddi islahatların aparılmasına ehtiyac yaranıb. Əslində təhsil sektorunda çalışan çox sayda insanın iqtisadi fəaliyyətin digər sahələrində aktiv olması üçün imkanların olmaması onların əlavə gəlir əldə etmək qabiliyyətini və nəticədə bu sahədə çalışan insanların maddi təminatını azaldır. Çünki müəllimlər təxminən 400 manat maaşla ailə büdcəsi formalaşdırırlarsa, onların fəaliyyətlərindən keyfiyyət tələb etmək mümkün deyil. Hazırda bu istiqamətdə müəyyən addımların atılması planlaşdırılır. Belə ki, təhsil strategiyası yaxın illərdə bu sektorda əmək haqlarının iki dəfə artırılmasını nəzərdə tutur.

Digər tərəfdən, ədalət prinsipinə hörmət edilməsini təmin etmək üçün müəllimlərin fəaliyyətinin onların maaşlarında əks olunmasını təmin edəcək addımlar atılacaqdır. Dövlət büdcəsindən təhsil xərclərinin bir hissəsi birbaşa Təhsil Nazirliyinə sərəncamına köçürülür. Yəni təhsilə ayrılan vəsait həm fərqli dövlət proqramları çərçivəsində, həm də birbaşa Təhsil Nazirliyi vasitəsilə paylanır. Son illərdə təhsil xərclərinin artması, əlbəttə ki, Təhsil Nazirliyinin maliyyəsinin artmasına səbəb olub.

Təhsil Nazirliyinə ayrılan vəsaitlərin xərclənməsi əməkhaqqı və ona üstəlik xərcləri, idarənin saxlanılması xərclərini, ezamiyyə xərclərini, nəqliyyat xidmətləri haqlarını, kommunal və kommunikasiya xidmətlərini, inventar və avadanlığın alınması, əsas vəsaitlərin alınması, təqaüdlər, müavinətlər və digər xərcləri ödəmək istiqamətləri üzrə aparılır. Təhsil Nazirliyinin xətti ilə xərclərin beşdə üçündən çoxu əməkhaqları və ona əlavələr, təqaüdlər, müavinətlər üzrə ödənişlərə sərf olunur. Son illər ərzində Təhsil Nazirliyi üçün təmir-bərpa işlərinə müəyyən qədər vəsait ayrılmış olsa da, infrastrukturun yenilənməsinə ayrılan vəsaitlər digər icra strukturları üzrə xərc maddələrində öz əksini tapıb.

Ölkə ərazisində sosial infrastrukturun bərpası sahəsində görülən işlər təhsil infrastrukturunu yeniləməyə və bərpasını təmin etməyə imkan verib. Bu istiqamətdə nəzərdə tutulan vəsaitlərin daha çox hissəsi məhz infrastruktur xərcləri kimi çıxış edib. Azərbaycanın şəhər və kəndlərində 2500-dən artıq məktəb binaları tikilərək istifadəyə verilmiş, məktəbəqədər təhsil müüəssisələrinin inşası və yenilənməsi sahəsində işlər görülmüşdür. Yeni təhsil müüəssisələrinin inşası zamanı daha çox müasir tipli təhsil standartlarına uyğunluq nəzərdə tutulmuşdur. Əgər təhsildə dövlət investisiya xərcləri 2004-cü il ərzində 5,8 milyon manat olmuşdusa, 2012-ci ildə bu göstərici 793,4 milyon manat təşkil etmişdir ki, bu da müqayisədə təxminən 137 dəfədən çox olub. Təhsilə ayrılmış dövlət investisiyalarının dinamikasına nəzər yetirsək, görərik ki, bu sahəyə ayrılmış vəsaitlər 2012-ci ilədək sürətlə artıb (2008-2009-cu illər istisna olmaqla). 2013-cü ildən etibarən bu istiqamətdə ayrılan vəsait 2018-ci ilədək azalmağa meyl edib. 2018-ci ildə əvvəlki illə müqayisədə 2,1 dəfə artım baş versə də, 2019-cu ildə 6,8% azalma baş verib. Ümumilikdə isə 2012-2020-ci illər ərzində təhsilə yönəldilən əsaslı kapital qoyuluşunun həcmi 3,4 milyard manata yaxın olub[9]. Atılan addımlar nəticəsində təhsil infrastrukturunu müasirləşdirmək və bərpa etmək istiqamətində bir çox problemlər öz həllini tapsa da, sektorda bəzi çatışmazlıqlar hələ də qalmaqda davam edir. Xüsusən də qeyd edək ki, ölkənin regionlarının əksəriyyətində məktəbəqədər təhsil müəssisələri fəaliyyət göstərmir. Bəzi hallarda isə bir neçə kəndin bir natamam və ya tam orta təhsil müəssisəsindən yararlandığının şahidi oluruq.

Ölkədə urbanizasiya problemlərini stimullaşdıran amillərdən biri kimi yeni ali təhsil müəssisələrinin azlığını və əksər ali məktəblərin paytaxtda yerləşməsini göstərmək olar.

Statistika göstərir ki, dövlət büdcəsində təhsil pillələri üzrə ən az xərc ali təhsilin payına düşür. Belə ki, 2021-ci ilin dövlət büdcəsində məktəbəqədər və ibtidai təhsil üçün 319,4 milyon manat, ümumi təhsilə 1764,7 milyon manat, peşə və orta ixtisas məktəblərinə və liseylərə 122,4 milyon manat, ali təhsilə isə 60,9 milyon manat və yaxud təhsilə gedən ümumi xərclərin 1,86% həcmində vəsaitin ayrılması nəzərdə tutulub[11]. Təhsilin bu pilləsində mövcud vəsaitin az olmasının əsas səbəbi ali təhsil almaq istəyənlərin 85%-nin ödənişli əsaslarla oxumasındadır. Ali təhsil xərclərinin təhsilin digər pillələri ilə müqayisədə daha bahalı olduğunu nəzərə alsaq, onda bu sahəyə dövlət dəstəyinin artırılması üçün ciddi ehtiyac hiss edildiyini demək olar.

Təhsil sahəsindəki Dövlət proqramlarının maliyyələşmə mənbələrinə dövlət büdcəsindən ayırmalar, Neft Fondunun vəsaitləri, beynəlxalq təşkilatların verdiyi kreditlər, qrantlar və digər vəsaitlər daxildir.

Təhsilin inkişafı üzrə dövlət strategiyası ölkə Prezidenti tərəfindən 2013-cü ilin 24 oktyabr Fərmanı ilə təsdiq edilmişdir. Strategiyanın əsas məqsədi Azərbaycanda təhsil sahəsində mövcud problemləri tədricən həll etmək və mövcud təhsil səviyyəsini beynəlxalq standartlara uyğunlaşdırmaqdır. Təhsil strategiyasında təhsildəki bir çox problem və balanssızlıq vurğulanır. Belə ki, qəbul edilmiş strategiya göstərir ki, hazırda ölkənin ali təhsil müəssisələri tələbələrinin yalnız 1,2% -i kənd təsərrüfatı ixtisasını seçib. Bununla birlikdə, ölkəmizdə bu sahənin kifayət qədər mütəxəssisə ehtiyacı var. Digər tərəfdən, 25-34 yaş arası ali təhsilli gənclərin 67%-i dövlət sektorunda işləyir. [9] Bu o deməkdir ki, ən yaxşı halda bu kateqoriyadakı əmək qabiliyyətli əhalinin yalnız 33% -i özəl sektorda işləyir.

Beləliklə, Azərbaycan təhsilinin insan kapitalının inkişafında lider olması və təhsilin keyfiyyətini Avropa standartlarına uyğunlaşdırması üçün hərtərəfli tədbirlərin görülməsi mütləqdir. Bunun üçün təhsildə idarəetmə sistemini dəyişdirmək, bu sahədə insan resurslarını inkişaf etdirmək, müəllimlərin nüfuzunu və xalqın müəllimlərə olan inamını artırmaq vacibdir.

2019-cu ildə "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda müəyyən olunmuş hədəflərin yerinə yetirilməsi istiqamətində aparılantədbirlər nəticəsində Dünya İqtisadi Forumu tərəfindən açıqlanmış "Qlobal Rəqabətlilik İndeksi - 2019" hesabatında 2018-ci ildəki göstərici ilə müqyisədə 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yerdə qərarlaşan Azərbaycan 12 indikatordan 8-i üzrə MDB ölkələri arasında yüksək nəticələr əldə etmişdir[12]. Təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan "Bacarıqlar" indeksi üzrə 6 pillə irəliləyərək 48-ci, innovasiya bacarığı üzrə 3 pillə irəliləyədək 68-ci, işçilərin peşəkar inkişaf kateqoriyası üzrə 22 pilləirəliləyərək 34-cü, peşə təhsilinin keyfiyyət göstəricilərinə görə 6 pillə irəliləyərək 43-cü, bacarıqlı işçi tapmaq asanlığı üzrə 2 pillə irəliləyərək 29-cu, tədrisdə tənqidi düşüncə göstəricisi üzrə 7 pillə irəliləyərək 20-ci yeri tutmuşdur[12].

Son illərdə təhsil sahəsində mühüm strategiya və proqramlar qəbul edilmiş, təhsilin inkişafı dövlət siyasətində əsas prioritetlərdən biri olmuşdur. Dövlət büdcəsindən təhsilə ayrılan xərclər əhəmiyyətli şəkildə artmış, 2013-cü ilə nisbətən 60%-dən çox yüksələrək 1,4 mlrd. manatdan 2019-cu ildə 2,2 mlrd. manata çatdırılmışdır. 2020-ci və 2021-ci illərin dövlət büdcələrində təhsil xərcləri müvafiq olaraq 3,03 və 3,28 mlrd. manat nəzərdə tutulmuşdur ki, bu da əvvəlki illə müqayisədə 38,2% və 8% çoxdur[13].

Əsas strateji istiqamətlərdən biri Azərbaycan Respublikasında iqtisadi cəhətdən davamlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına cavab verən təhsil sisteminin maliyyələşdirilməsi modelinin yaradılmasıdır.

Ümumiyyətlə, əsas problem təhsil xərcləri ilə təhsilin keyfiyyətinin tarazlaşdırılmasıdır. Davamlı araşdırmalara və təhsil xərclərində dəfələrlə artımlara baxmayaraq, təhsilin keyfiyyətində ciddi bir dəyişiklik olmamışdır. Odur ki, yeni strategiya bu sahədəki çatışmazlıqları aradan qaldırmaq üçün təhsil müəssisələrinin maliyyələşdirməsindəki keyfiyyət indikatorundan səmərəli istifadəni artırmaqdır.

**Ədəbiyyat**

1. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası: Monoqrafiya. – Bakı: “Şərq-Qərb” 2019. – 328 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası. 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir (dəyişiklərlə).http://www.e-qanun.az/framework/897
3. "Azərbaycan Respublikasında Təhsil İslahatı üzrə Dövlət Komissiyası haqqında"30 mart 1998-ci il tarixli sərəncam.
4. "Azərbaycan Respublikasında Təhsil İslahatı Proqramı"15 iyun 1999-cu ildə təsdiq edilmişdir.
5. http://www.cesd.az/new/wp_content/uploads/2021/04/CESD_Research_on_ Education_Financing.pdf
6. http://www.coe.int/T/E/Cultural_Co-operation/education
7. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” 2013-cü ilin 24 oktyabrında təsdiq edilmiş sərəncam.
8. http://www.edu.gov.az
9. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
10. “Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2010-cu il tarixli Fərmanı
11. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu.http://www.e-qanun.az
12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2020, 420 s.
13. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının rəyi, Bakı, 2020. – 96 s.

**Kərimli Günel Fazil qızı**
*Sənayenin təşkili və idarəetmə kafedrasının müəllimi*
*Mingəçevir Dövlət Universiteti*
*e-mail: my.mail2017@inbox.ru*

# HEYDƏR ƏLİYEV VƏ ELMİ-TEXNİKİ TƏRƏQQİYƏ ƏSASLANAN "ÜMUMİ RİFAH DÖVLƏTİ" MODELİ

***Açar sözlər:*** *Heydər Əliyev, elmi-texniki tərəqqi, "ümumi rifah dövləti", innovasiyalar, aparıcı texnologiyalar.*

***Ключевые слова:****Гейдар Алиев, научно-технический прогресс, «государство всеобщего благоденствия», инновации, передовые технологии.*

***Keywords:*** *Heydar Aliyev, scientific and technological progress, "welfare state", innovations, advanced technologies.*

İbtidai cəmiyyətdən başlayaraq insan həyatını stimullaşdıran ən başlıca faktor rifaha çatmaq cəhdlərilə bağlı olmuşdur. Bu insana "mükəmməl həyat tərzi" ideyasının aprioriyə məxsus olması ilə izah olunur. Müxtəlif dini konsepsiyalara görə bu həm də insanın ilkin yaşayış yerinin "cənnətməkan", özünün isə tanrı yaradıcılığının qüsursuz nümunəsi olması ilə əlaqədardır. Buna görə də, bəşəriyyət daim bu ideala can atmış və bu cəhdlər bu gün də insan həyatının başlıca motivlərini təşkil edir. "Rifah" anlayışı altında insanların gündəlik həyati tələbatlarını ödəyən, onlara xeyir gətirən, zövq verən, yaşamağa ruhlandıran dəyərlər başa düşülür. "Rifah" dedikdə, təxəyyülümüzdə və təhtəlşüurumuzda bilavasitə xeyirxahlıq obrazı canlanır. Sosial-iqtisadi baxımdan rifah, özündə dəyər ifadə edən, səmərə gətirən hər şey deməkdir. Burada söhbət, əmlakla və nemətlərlə bağlı təminatdan və onun keyfiyyət dərəcəsindən gedir. Sosial fəlsəfədə "Ümumi rifah dövləti" (ing. *Welfare state* - ilk dəfə Britaniya arxiyepiskopu Uilyam Templ 1942-ci ildə "Xristianlıq və sosial qayda" adlı kitabında işlətmişdir) adlanan yeni anlayış mövcuddur. Bu bir siyasi konsepsiyadır. Onun əsas motivlərini vətəndaşların sosial-iqtisadi rifahlarının təmin edilməsi işində, inkişafında və müdafiəsində dövlətin müstəsna rolundan ibarətdir [8]. Millətin qayğısına qalmağı özünün tarixi missiyası və bəşəri təyinatı hesab edən dahi şəxsiyyətlərin hamısı insanların firavan həyatını təmin etməyi, onların maddi tələbatını ödəməyi, hər kəsin xoşbəxtlik haqqındakı qayğılarını reallığa çevrilmək üçün adekvat şərait yaratmağı müqəddəs amal hesab edir. Çünki bu insanlar "bərəkətin Allahdan olması" həqiqətini çox yaxşı bilirlər və hər kəsin dünya nemətlərindən yararlanmasının vacibliyini ali dəyər və ədalətin təntənəsi hesab edirlər. Belə dahi şəxsiyyətlərdən biri də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevdir. Heydər Əliyev o dahi insanlardandır ki, gəlişi ilə məkanı nura boyayır, özü ilə xeyir-bərəkət gətirir qədəmlərinin dəydiyi yer gül-çiçək açır, dərhal yeniləşir, dirçəlir və inkişaf edir. Bu gün ölkəmizdə bərqərar olmuş və yüksək templərlə inkişaf edən "Ümumi rifah dövlətinin" fundametal əsaslarını yaradarkən məhz bu prinsipləri rəhbər tutmuş, ilk növbədə, təmsil etdiyi və böyük məhəbbətlə sevdiyi xalqın rifahı və gələcəyi haqqında düşünmüşdü.

Bütün müqəddəs kitablar dünya sərvətlərindən bərabər, ədalətli, məqsədyönlü, israfçılıq etmədən və başqalarını da düşünərək bəhrələnməyi buyurur [5]. İslam əxlaqı da ümumi rifah konsepsiyasının reallaşdırılmasına əsaslanan prinsipləri ifadə edir. Bu təlimdə bütöv bir tənzimləyici sistem öz əksini tapır. Qarşılıqlı yardım, halal gəlir, əmlakdan əta (zəkat) kimi ümumi insan rifahına xidmət edən dəyərlər bu sistemin başlıca komponentləridir. Məhəmməd peyğəmbərin (salavatullah - s.ə.s.) ən məşhur kəlamlarından biri olan "qonşusu ac ikən, özü tox yatan bizdən deyil!" [7] çağırışı isə bəşəri dəyərlərə xidmət edən ən mötəbər şüar hesab olunur.

Ümumi rifah konsepsiyası isavilikdə əxlaqi doktrinanın əsas elementlərindən biri hesab olunur. İsrailin şimalında, Qaliley dənizinin sahilində (Kapernaum) Ət-Təbhiyyə (ivr. Eyn-Şeva) adlı yerdə "Çörəyin və balığın artması" adlı kilsə var. O, İsa peyğəmbərin 5 çörəklə və 2 balıqla 5 min nəfəri doyana qədər yedizdirməsini təsvir edən möcüzənin şərəfinə 1982-ci ildə inşa olunmuşdur. "Beş çörək və iki balıq" məsəlinin və ya hədisinin (slav. *притча*) əsas mahiyyəti, bərəkətin allahdan gəldiyini və onun bütün insanlara bərabər məxsus olduğunu göstərməkdir [4]. Lakin ümumi rifah konsepsiyası "əmək sərf etmədən qazanılmış neməti" məqbul saymır. O, insanlara "havayı balıq verilməsini deyil, balıq tutmaq üçün tilovlar verilməsini" məqsədəuyğun hesab edir.

Əvvəllər analoqu olmayan təlatümlərlə dolu müasir dövr dövlətimiz və xalqımız üçün xüsusi olaraq əlamətdardır. Müstəqillik yollarımızda ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılmış siyasi kurs və onun başlıca prioritetləri bu gün öz bəhrəsini verməkdədir. Artıq Azərbaycan xalqı iqtisadi, siyasi və diplomatik sahələrdə yüksək uğurlara imza atmaqla yanaşı hərb meydanında insanı heyrətə gətirən möhtəşəm yeniliklərlə və qəhrəmanlıqlarla dolu bir tarix yazır. Bu tarixdə hər şey yenidir. Əvvəlki stereotiplərdən tamamilə azad olmuş qlobal bir yenilik. Dünyaya, həyata, həyatın mənasına, gələcəyə, istiqlala və tərəqqiyə münasibətdə total və qarşısıalınmaz bir innovasiya ruhu dolaşır bu gün doğma vətənimizdə. Bu, dövlət başçısından tutmuş sıravi vətəndaşadək müasir Azərbaycan insanın ruhunda, əməlində və davranışında öz əksini tapır. Bu ruhun mənbəyi isə ulu öndər Heydər Əliyevin bizi möhtəşəm uğurlara aparan dühasıdır.

Bu gün cərəyan edən qlobal və regional miqyaslı hadisə və proseslərə nəzər yetirəndə dünya miqyasında total dəyişikliklərin getdiyini, yeni dünya nizamının qurulduğunu, müasir bəşəriyyətin Kainat miqyaslı bir imtahan qarşısında olduğunu açıq-aşkar görmək olar. Bu nizamda, bu imtahanda daim yeniləşən, tarixi stereotiplərdən azad olan Azərbaycanın xüsusi yeri, nüfuzu və çəkisi var. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir Azərbaycan müzəffər rəhbərimiz, cənab İlham Əliyevin rəhbərliyi altında yeniliyə, tərəqqiyə və gəncliyə əsaslanan yeni bir dünyanın inşasını reallaşdırır.

Bəşəriyyətin sadədən mürəkkəbə, primitivdən təkmilləşməyə doğru möhtəşəm tarixi yolu XXI əsrdə əvvəllər misli görünməmiş templərlə davam edir. Bu yolun əsas konturlarını isə davamlı inkişafa, yüksək tərəqqiyə və daha böyük nailiyyətlərə çatmaq cəhdləri təşkil edir. Bu min il bundan əvvəl də belə olub, indi də belədir. Qlobal inkişaf və artım tendensiyalarının xarakterini təhlil etdikdə məlum olur ki, gələcəyin tarixi də məhz davamlı modernizasiyalar, texniki innovasiyalar və misli görünməmiş möcüzəli nanotexnologiyalar üzərində qurulacaqdır.

İnsan bütün tarix boyu sağ qalmaq, varlığın davamlı inkişafını, özünün layiqli həyatını təmin etmək üçün texniki konstruksiyalar yaratmışdır. Təsadüfi deyildir ki, tarixin ən parlaq səhifələri də məhz "texniki" yaxud "elmi-texniki inqilablar" kimi xarakterizə olunan və insan həyatının mənasını, məzmununu, keyfiyyət əmsallarını və meyarlarını köklü şəkildə dəyişdirən tərəqqi aktlarından ibarətdir [6]. XXI əsrdə yüksək elmi-texniki innovasiyalara əsaslanan cəmiyyətin qurulması ideyası daha da aktuallaşmışdır. Bu ideya, əslində bəşəriyyətə aprioriyə məxsus olan bir keyfiyyətdir və onu bugündən sabaha aparan stimullaşdırıcı faktor kimi təzahür edir. Onun iradəsinə, idrakına, davranışına yaradıcı və dəyişdirici təsir göstərir. Bu ideyanın əsas qayəsi davamlı rifaha çatmaq və insanın genetik kodunun dəyişməz elementi olan "ideal həyat tərzinə" nail olmaqdır. Bu gün innovativ tendensiyalarla reallaşdırılan bu ideya "industrial paradiz" ülgüsünə uyğun gələn yeni rifah cəmiyyətinin yaradılmasında öz təsdiqini tapır. Ümumiyyətlə, insan təbiəti, onun xarakteri və enerjisi daim ətraf mühitdə özü üçün komfort yaratmağa, şəxsi və kollektiv rifahını, həyat tərzini və həyat üslubunu industrial və yüksək modern standartlarına uyğun tərzdə dəyişdirməyə istiqamətlənmişdir. Ümummilli lider Heydər Əliyevin bizə miras qoyduğu, yüksək təşəkküllü sosial ədalətə və davamlı elmi-texniki tərəqqiyə əsaslanan dövlət modeli də məhz bu ideyaların külliyyatından yaradılmış bir fenomendir.

"Rifah" dedikdə insanların gündəlik həyati tələbatlarını ödəyən, onlara xeyir gətirən, zövq verən və yaşamağa ruhlandıran komponentlər başa düşülür. Sosial-iqtisadi baxımdan rifah, özündə yüksək dəyər ifadə edən və səmərə gətirən hər şey deməkdir. Burada söhbət, əmlakla və nemətlərlə bağlı təminatdan və onun keyfiyyət dərəcəsindən gedir. Sosial fəlsəfədə "Ümumi rifah dövləti" (ing. *Welfare state*) adlanan özəl anlayış mövcuddur. Bu bir siyasi konsepsiyadır. Bu konsepsiya vətəndaşların sosial-iqtisadi rifahının, davamlı inkişafının və müdafiəsinin təmin edilməsində dövlətin müstəsna rolunu nəzərdə tutur. Lakin müasir rifah dövlətini innovasiyalar olmadan təsəvvür etmək mümkün deyil. Məhz bu amil tükənən resurslar və artan tələbatlar müstəvisində müasir cəmiyyətin iqtisadi və sosial sabitliyinə, vətəndaşların istiqbalına zəmanət verən dəyər kimi ortaya çıxır. Bu həqiqəti siyasi fəaliyyətinin və xalqın rifahı naminə apardığı mübarizənin qızıl xətti seçmiş ümummilli lider Heydər Əliyev innovasiyalara əsaslanan sosial tərəqqini milli istiqbalın təmin ediməsinin qarantı hesab edirdi [3].

Ulu öndər Heydər Əliyev yaxşı bilirdi ki, dünyanın təbii obrazı ekologiyadırsa, tətbiqi obrazı iqtisadiyyatdır. O, iqtisadiyyatın ekzistensial kateqoriyası kimi "innovasiyalara əsaslanan davamlı iqtisadi inkişaf" faktorunu daim nəzarətdə saxlayırdı. Belə inkişafın təkrar istehsal prosesinin durmadan genişlənməsində təminatçı rolu oynamasını, müsbət keyfiyyət və struktur dəyişiklikləriilə müşayiət olunan məhsuldar qüvvələrin, elmin, texnikanın, təhsilin, mədəniyyətin, insanların həyat tərzinin, insan resurslarının və insan kapitalının böyük tərəqqidə iştirakını dövlətin qüdrət meyarları kimi qiymətləndirirdi. Məhz bu prinsipləri rəhbər tutduğu, elmi-texniki tərəqqini və ümumi rifahı həyata keçirdiyi sosial siyasətin əsas prioritetləri kimi təsdiq etdiyi üçün müasir Azərbaycan Respublikası "inkişaf etmiş dövlət" kateqoriyasına aid edilir. Bu gün də Azərbaycan Respublikası sosial və iqtisadi siyasətini məhz belə vacib prinsiplər və təməllər üzərində qurur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son 17 ildə həyata keçirdiyi fəal sosial-iqtisadi siyasət Azərbaycanda aparıcı texnologiyalara əsaslanan və olduqca yüksək rəqabət qabiliyyəti olan dayanıqlı iqtisadi sistemin yaradılmasına, vətəndaşların sosial rifahının müasir dünya standartları səviyyəsinə çatdırılmasına istiqamətlənmişdir. Bu sahədə son illərdə böyük və olduqca faydalı işlər görülmüş, regionların sosial-iqtisadi həyatında – həm aqrar sahədə, həm də industrial sektorda ən yeni texnologiyalara əsaslanan davamlı innovasiya və modernizasiya tədbirləri reallaşdırılmışdır. Xüsusi dövlət proqramları üzrə, məqsədyönlü, ardıcıl və metodiki şəkildə həyata keçirilən bu tədbirlər Azərbaycanı nəinki Cənubi Qafqaz regionunda və postsovet respublikaları arasında, həmçinin, dünya miqyasında dinamik templərlə inkişaf edən və beynəlxalq aləmdə söz sahibi olan olduqca güclü dövlətə çevirmişdir. Azərbaycanın aparıcı texnologiyalardan bəhrələnmiş müasir iqtisadi sistemi qısa müddət ərzində bazar iqtisadiyyatının ənənəvi prinsiplərini yüksək səviyyədə mənimsəmiş, ölkəmizin müasir obrazı, onun sosial və mədəni infrastrukturu, istehsalat, logistika və xidmət sektoru dövrün innovativ tələblərinə uyğun tərzdə dəyişmişdir. Beləliklə, ölkəmizdə həyata keçirilən və son nəsil innovasiyalara əsaslanan balanslaşdırılmış iqtisadi siyasət, davamlı iqtisadi artımı və sosial tərəqqini təmin edən amil kimi özünü təsdiq etmiş, Azərbaycan Respublikasının "inkişaf etmiş dövlət" kateqoriyasına layiq olması iddiasını gerçəkləşdirmişdir.

İnnovasiya texnologiyalarına əsaslanan müasir Azərbaycan iqtisadiyyatı ölkəni enerji və ərzaq təhlükəsizliyi baxımından etibarlı şəkildə təmin etməklə yanaşı ən yeni hərbi texnika və texnologiyalarla təchiz olunmuş və hər hansı təcavüzə layiqli cavab verməyə qadir müzəffər ordunun yaradılması üçün də zəmin yaratmışdır. Bu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 17 il ərzində həyata keçirdiyi müdrik siyasətin məntiqi nəticəsidir. Bu gün Azərbaycan kosmik texnologiyaların mənimsənilməsi və geniş istismarını həyata keçirən dünya ölkələrindən biridir. Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək məqsədilə başlanılan haqq mücadiləsində kosmik texnologiyaların müstəsna əhəmiyyəti var. Yüksək texnologiyalarla və müasir silahlarla təchiz edilmiş rəşadətli Azərbaycan əsgəri müzəffər Ali Baş komandanının rəhbərliyi altında bütün dünyanın gözü qarşısında təcavüzkara tarixi dərs

verdi. Bu dərs isə Azərbaycanın innovasiya texnologiyalarına əsaslanan müasir silahından şok zərbə almış yağı düşmənin təhtəlşüurundan heç vaxt silinməyəcək.

Respublikamızın yeni texnologiyalar əsasında qurulmuş milli iqtisadiyyatından, onun davamlı artım templərindən, əqli və fiziki baxımdan sağlam insan resurslarından güc alan Azərbaycan ordusu ən müasir döyüş strategiyasını və taktikasını yaxşı bilən “tədbirli hərb maşını kimi” artıq bütün dünyada dillər əzbəri olmuşdur. O, olduqca çətin və mürəkkəb dağ şəraitində düşmən ordusu haqqında sərsəm mifləri, savaşın və hərb sənətinin bütün ənənəvi stereotiplərini sındırıraraq xariqələr yaratdı. Bu ordu özünün müzəffər Ali baş komandanı möhtərəm İlham Əliyevin rəhbərliyi altında milli tariximizin şanlı səhifələrindən birini yazdı. Artıq 28 il davam etmiş ayrılıqdan sonra Azərbaycan xalqının doğma ocaqlarına “Böyük qayıdışı” baş verdi. 28 il bundan əvvəl analarının qucağında doğma yurdlarından qovulmuş günahsız körpələr bu gün vətənin keşikçiləri kimi ən müasir silahlara sarılaraq təcavüzkarı yurdumuzdan qovdu. Budur yüksək innovasiyalardan və aparıcı texnologiyalardan bəhrələnmiş insan zəkası, insan iradəsi. Bütün bunlar Azərbaycan xalqının, onun sevimli rəhbərinin, qətiyyətli və müdrik şəxsiyyət kimi bütün dünyanın heyrətinə və rəğbətinə səbəb olmuş insanın – İlham Əliyevin təntənəsidir! Bu gün XXI yüzilliyin nanotexnologiyalarından yoğrulmuş və “hilal taktikasına” çevrilərək cəza maşını qismində düşmənin başına endirilmiş zəfər qılıncı Azərbaycanın, onun şanlı rəhbərinin – İlham Əliyevin əlindədir. Budur tanrı ədaləti, budur həqiqət anı.

1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin böyük siyasətə qayıdışı və Azərbaycan Respublikasına ikinci dəfə rəhbərlik etməsi Azərbaycan tarixində yeni bir eranın başlanğıcı oldu. Xalqın sosial-iqtisadi həyatında baş verən dinamik inkişaf templəri o dövrün pozitiv mahiyyətini müəyyən edən əsas amilə çevrildi və sosial-iqtisadi problemlərdən əziyyət çəkən insanların həyatına qurtuluş müjdəsi kimi daxil oldu. Bu dövrdən etibarən Azərbaycan Respublikasının və Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasətin məzmununu və təyinatını xalqın rifah halını durmadan yaxşılaşdırmaq istiqamətində həyata keçirilən möhtəşəm tədbirlər təşkil etməyə başladı [2].

Ulu öndər dövlət müstəqilliyinin qarantı sayılan davamlı sosial-iqtisadi inkişafı dövlət siyasətinin prioriteti elan etdi. Bu məqsədlə ölkədə regional və qlobal miqyaslı layihələrin reallaşdırılmasına başlandı və bu layihələr içərisində ən möhtəşəmi 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın çox sayda tanınmış neft şirkətlərinin daxil olduğu konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorunda yataqların böyük bir hissəsinin birgə işlənməsi haqqında “Əsrin müqaviləsi” adı almış 30-illik müqavilə oldu. Bu müqavilə siyasi müstəqillik qazanmış Azərbaycan Respublikasının enerji təhlükəsizliyini təmin etməklə yanaşı onun beynəlxalq aləmdə nüfuzuna ciddi dividendlər gətirdi, ölkənin iqtisadi davamlılığının artırılması istiqamətində yeni perspektivlər açdı. Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasında istehsal prosesini bərpa etmək və inkişaf etdirmək məqsədi ilə “Açıq qapı” siyasəti elan etdi və respublikaya xarici investorları cəlb etməyə başladı. Xarici investorları və kreditorları müdafiə edən yeni qanunlar qəbul edildi. Beynəlxalq valyuta Fondu, Dünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər maliyyə təşkilatları ilə sıx əlaqələr yaradıldı. Bu dövrdə təkcə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycana 1 mld 330 mln dollardan çox kredit vermişdi. Ulu öndər regionların, xüsusilə də aqrar sektoru təmsil edən bölgələrin inkişafına xüsusi qayğı və diqqət ayırırdı. Regionların iqtisadi dirçəlişi və davamlı inkişafı naminə həyata keçirilən sistemli tədbirlər içərisində 1996-cı il iyulun 16-da qəbul edilmiş “Torpaq islahatı haqqında” Qanunun xüsusi əhəmiyyəti var idi. Bu qanuna görə vahid torpaq fondu əsasında dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti formaları müəyyən edildi. Kəndli-fermer təsərrüfatları yaradıldı. Bütün yararlı torpaqlar sosial ədalət prinsipinə görə kənddə yaşayan vətəndaşlar arasında bölüşdürüldü. 3,5 mln Azərbaycan vətəndaşına torpaq payı ayrıldı. Beləliklə, Azərbaycanın çoxəsrlik tarixində ilk dəfə maddi nemətlərin istehsalçıları olan kənd zəhmətkeşləri torpaq sahibləri oldular. Artıq 2003-cü ilin sonunadək bazar

münasibətlərinə əsaslanan Azərbaycan iqtisadiyyatının prioritetləri və inkişaf perspektivləri ümumi cizgilərdə müəyyən olundu. Yeni prinsiplərə əsaslanan ölkə iqtisadiyyatı artıq ilk səmərəsini verdi [1].

Ulu öndərin yeni nəsillərə miras qoyduğu mükəmməl iqtisadi inkişaf kursunu 2003-cü ildən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev daha aktiv templərlə reallaşdırmağa başladı. Heydər Əliyev tərəfindən əsası qoyulan yeni iqtisadi siyasətin fundamental prinsiplərinə sadiq qalan Prezident İlham Əliyev regionların inkişafına və tərəqqisinə xüsusi diqqət ayırdı. Artıq Azərbaycan Respublikasının iqtisadi siyasətinin prioritetləri və perspektivləri son dərəcə pozitiv mənzərə yaradır və cəmiyyətə yüksək təşəkküllü rifah vəd edirdi. 14 aprel 2009-cu il tarixdə Azərbaycan Respublikası Prezidentinin 80 Nömrəli Qərarı ilə “2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq olundu. 27 fevral 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illər üçün sosial-iqtisadi inkişafı Haqqında Dövlət proqramı”nın reallaşdırılmasını təsdiq edən 118 nömrəli Fərman imzaladı. Bu qərarlara və fərmanlara uyğun olaraq regionlarda möhtəşəm tikinti-quruculuq işləri, yeni sənaye müəssisələrinin inşası, kənd təsərrüfatına, fermerlərə real dəstək və yardım göstərilməsi, yaşayış məntəqələrində əlverişli və ən müasir tələblərə cavab verən yeni infrastrukturun yaradılması prosesi başlandı. Qısa müddət ərzində paytaxtda və regionlarda möhtəşəm işlər görüldü və bu proses bu gün də çox uğurla davam etməkdədir.

Ölkə regionlarının sosial-iqtisadi inkişafını nəzərdə tutan dövlət proqramları içərisində Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanını xüsusi qeyd etmək lazımdır. Bu fərman “Azərbaycan 2020: Gələcəyə baxış” inkişaf konsepsiyasını nəzərdə tuturdu. Bu inkişaf konsepsiyasının müddəaları bu gün yüksək səviyyədə reallaşdırılmış və ölkəmizin sosial-iqtisadi həyataında çox möhtəşəm yeniliklər baş vermişdir. Azərbaycanda sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsində 2004-cü il may ayının 10-da yaradılmış Heydər Əliyev Fondunun, fondun Prezidenti, Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının I Vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri var. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2016-cı ildə “Regional İnkişaf İctimai Birliyi” yaradılmışdır. Heydər Əliyev Fondunun başlıca məqsədləri sırasına Azərbaycan xalqının maddi rifahının yaxşılaşdırılmasına xidmət edən proqramların və layihələrin reallaşdırılmasına yardım göstərmək, regionların elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekoloji sahələrdə inkişafını nəzərdə tutan proqram və layihələrin hazırlanmasını və həyata keçirilməsini təmin etmək, ölkənin yaradıcı, intellektual və elmi potensialının aşkara çıxarılmasına davamlı dəstək vermək, regionlarda uşaq müəssisələrinin infrastrukturunu inkişaf etdirmək, sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək etmək, tibbi təsisatları inkişaf etdirmək, regionlarda təbiətin mühafizəsinə və ekoloji problemlərin aradan qaldırılmasına yardımçı olmaq və çoxlu sayda digər fəaliyyət növləri və istiqamətləri daxildir.

Bu gün regionların sosial-iqtisadi inkişafını müasir dünya standartlarına uyğun şəkildə təmin etmək üçün bölgələrdə çoxlu sayda möhtəşəm layihələr həyata keçirilmişdir. Bu layihələr içərisində tam gücü ilə işləyən “Texnopark”, “Asan Xidmət” və “Olimpiya kompleksi” kimi layihələri, həmçinin, ölkənin kənd və rayon tipli inzibati ərazi vahidlərində “Yeni suvarma kanalı şəbəkələri layihəsini”, “Yeni qazlaşdırma layihəsini”, “İçməli su ilə təchizat layihəsini”, “Yeni körpülərin və yolların çəkilməsi layihəsini” və başqa layihələri xüsusi qeyd etmək lazımdır.

Beləliklə, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ümumi rifah dövləti bu gün Azərbaycanda var gücü ilə işləyir. Bu dövlətin fundamental əsaslarını isə imkanların bərabərliyi, sərvətlərin ədalətli bölüşdürülməsi və özünə layiqli həyat səviyyəsi təmin edə bilməyən bütün vətəndaşlar üçün çox ciddi ictimai məsuliyyətin mövcud olması təşkil edir. Azərbaycanda yaradılmış “Ümumi rifah dövlətinin” aşağıdakı prinsipial elementləri vardır: 1. Əhalinin sosial cəhətdən müdafiə olunmamış bütün təbəqələrinə (işsizlər, təqaüdçülər, əlillər və s.) davamlı dəstəyin verilməsi. 2. İnsanların əməyinin və sağlamlığının müdafiəsi. 3.

Gəlirlərin bərabər bölüşdürülməsi ilə sosial bərabərsizliyin aradan qaldırılması. 4. Ailənin, ananın, atanın və uşaqların müdafiəsi. 5. İqtisadi, təhsil və mədəni proqramlara davamlı maliyyə dəstəyi. 6. Sosial problemlərlə mübarizə.

Bu gün mütərəqqi düşünən bəşəriyyət, ədaləti müqəddəs dəyər kimi qiymətləndirən və qoruyan insanlar Azərbaycan xalqının və onun müdrik rəhbəri cənab İlham Əliyevin ümummilli lider Heydər Əliyevdən miras qalmış möhtəşəm idealları necə yüksək əzmlə, rəşadətlə və tükənməz enerji ilə reallaşdırmasının şahidi olur. Hər bir xalqın tarixində tənəzzül və tərəqqi kimi fərqli dönəmlər olur və bu təbiidir. Bu gün isə biz şanlı tariximizin innovasiyalara, dinamik iqtisadi inkişafa və yeni düşüncəyə əsaslnan tərəqqi dövrünü yaşayırıq və bütün varlığımızla inanırıq ki, bu tərəqqi dönməz və əbədi olacaq.

Ədəbiyyat:

1. Əliyev Heydər. Müstəqillik yolu. Azərbaycan Universiteti. 1997, səh. 17-19

2. Qayıdış. Bakı, Azərbaycan nəşriyyatı 2008 səh. 798-800

3. Naxçıvan ensiklopediyası. Bakı, Elm, 2002. səh. 139-140

4. Евангелие от Матфея. 14: 14. (перевод С. Аверинцева) Киев, 2004

5. Исламский энциклопедический словарь. Ализаде А.А., Ансар, 2007. - С. 429., 400 с.

6.Шестакова И.Г. Новая темпоральность цифровой цивилизации: будущее уже наступило // Научно-технические ведомости СПбГПУ. Гуманитарные и общественные науки. 2019. № 2. С.20-29

7. Al-HakimanNaysaburi. MarifatUlumal-Hadis. Hakim II, 15; Heysəmi, VIII, s. 167

8. Franz-Xaver Kaufmann herausfordeungen des Sozialstaates. Frankfurt am Main: Suhrkamp Verlag, 1997. - P. 21

## Xülasə

Məqalə əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş və onun dühasının qüdrəti sayəsində formalaşdırılmış "Ümumi rifah dövləti" modelinin sosial-iqtisadi əlamətlərinin və yüksək mütərəqqi dəyərlərinin elmi təhlilindən bəhs edir. Məqalədə ulu öndər Heydər Əliyevin bizə miras qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəhbərliyi altında inkişaf etdirilən yüksək təşəkküllü sosial ədalətə və davamlı elmi-texniki tərəqqiyə əsaslanan müasir Azərbaycan cəmiyyətinin əldə etdiyi böyük uğurlara yüksək qiymət verilir. Elmi-texniki tərəqqiyə əsaslanan "Ümumi rifah dövləti" modelinin ictimai-siyasi, sosial-iqtisadi və əxalqi-mədəni komponentlərinin özəl milli koloritə əsaslanan xüsusiyyətlərinə geniş diqqət ayrılır. Ümumilli lider Heydər Əliyevin müdrikliyinin və qətiyyətinin təntənəsi kimi Azərbaycanda bərqərar edilmiş "Ümumi rifah dövlətinin" formalaşmasında innovasiyaların və aparıcı texnologiyaların həlledici rolu xüsusi olaraq vurğulanır.

## Резюме

Статья повествует о научном анализе социально-экономических признаков и высоких прогрессевных ценностей модели «Государства всеобщего благоденствия», основы которой были положены общенациональным лидером Гейдаром Алиевым, и формировалась благодаря величию его гения. В статье дана высокая оценка величайшим успехам, достигнутым современным Азербайджанским обществом, основывающимся на высшем уровне социальной справедливости и устойчивом научно-техническим прогрессе, оставленным нам в наследство великим лидером Гейдаром Алиевым и развивающимся под руководством президента Азербайджанской Республики Ильхамом Алиевым.В статье также широкое внимание уделяется особенностям обществнно-политических, социально-экономических и нравственно-

культурных компонентов модели «Государства всеобщего благоденствия», основывающеесяна научно-техническим прогрессе и имеющееособый национальный колорит. Особо подчеркивается решающая роль инноваций и передовых технологий в формировании «Государства всеобщего благоденствия», установленное в Азербайджане, как торжество мудрости и настойчивости общенационального лидера Гейдара Алиева.

**Summary**

The article tells about the scientific analysis of socio-economic characteristics and high progressive values of the "Welfare State" model, the foundations of which was laid by the national leader Heydar Aliyev, and was formed thanks to the greatness of his genius. The article gives a high assessment to the greatest successes achieved by the modern Azerbaijani society, based on the highest level of social justice and sustainable scientific and technological progress, bequeathed to us by the great leader Heydar Aliyev and developing under the leadership of the President of the Republic of Azerbaijan Ilham Aliyev. The article also focuses on the features of the socio-political, socio-economic and moral-cultural components of the Welfare State model, which is based on scientific and technological progress and has a special national flavor. The decisive role of innovations and advanced technologies in the formation of the "State of General Welfare", established in Azerbaijan, as a triumph of the wisdom and perseverance of the national leader Heydar Aliyev, is especially emphasized in the article.

**Ped.f.d., dos. Əzizova Zenfira Mirsəfər qızı**
*Mingəçevir Dövlət Universiteti*
*zenfira58@mail.ru*

## AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ

1969-cu ildən başlayaraq uzun bir tarixi dövr ərzində Azərbaycan Respublikasının və xalqımızın taleyi, ölkə həyatının bütün sahələrində əldə edilmiş dirçəliş və nailiyyətlər yalnız və yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətin adı, onun dövlətçilik siyasəti ilə bağlı olmuşdur. Heydər Əliyev şəxsiyyətinin böyüklüyünə, onun tərəfindən görülmüş işlərin möhtəşəmliyinə Azərbaycan xalqı tərəfindən verilən böyük qiymətin nəticəsidir ki, 1969-cu ildən başlayaraq bu günə qədər davam edən zaman kəsiyi «Azərbaycan tarixinin Heydər Əliyev dövrü» kimi səciyyələndirilir.

"Hər bir siyasi lider, hər şeydən əvvəl, öz milli reallıqlarının ideal məhsuludur, əgər sosial-siyasi kontekstdən yanaşsaq öz ölkəsininsiyasi quruluşunun və siyasi mədəniyyətinin bilavasitə təsiri altında formalaşan şəxsiyyətdir." [6.]

Öz parlaq və mübarizələrlə zəngin ömür yolu ilə bütün nəsillərə örnək olan bir həyat yaşamış Ulu öndər Heydər Əliyevin dahi bir siyasət adamı və dövlət xadimi kimi Azərbaycan xalqı qarşısında ən böyük xidməti ondan ibarət olmuşdur ki, sovet sisteminin mövcudluğu şəraitində Azərbaycan Respublikasının gələcək müstəqilliyinin iqtisadi əsaslarını yaratmış və xalqımızı öz müstəqilliyi uğrunda mübarizəyə hazırlamışdır.

"H.Əliyev xalqımız qarşısında misilsiz xidmətlər göstərmişdir. Milli iqtisadiyyatın və mədəniyyətin çiçəklənməsində, milli kadr hazırlığında, sosial obyektlərin tikilib başa çatdırılmasında və s. sahələrdə göstərdiyi məqsədyönlü fəaliyyəti öz nəticələri və əhəmiyyəti ilə çox sonralar da milli inkişafımız üçün örnək oldu. Dövlət mənafeyi ilə milli mənafeyi bacarıqla əlaqələndirən H.Əliyev istər Bakıda, istərsə də Moskvada yaşayarkən əleyhdarları tərəfindən, xüsusilə ermənilər və onların deputatları tərəfindən bir sıra hallarda, hətta ciddi imtahan qarşısında durmalı olurdu." [3]

Azərbaycan Respublikası suverenlik əldə etdikdən sonra xarici qüvvələr və daxili düşmənlər Azərbaycanı vətəndaş müharibəsinə sürükləməyi və müstəqilliyimizi məhv etməyi qarşılarına məqsəd qoydular. [1] 1993-cü ildə H.Əliyev böyük siyasi xadim xalqımızın nicat yeri oldu. H.Əliyev fenomeni Azərbaycanı XXI əsrin sürətli relsləri üzərinə qaldırdı və Azərbaycan xalqının böyüyünə də, kiçiyinə də öyrətdi ki, indi həmrəylik vaxtıdır, birlik vaxtıdır. O, həqiqətən də xalqımızı sehrli, uzaqgörən siyasəti ilə birləşdirdi, qara buludları başımızın üzərindən yox etdi, Azərbaycanlıları həmrəyliyə çağırdı. Bütün ölkələrdə Azərbaycanlıları toplaya bildi, dünya Azərbaycanlılarının diasporalarını yaratdı və eyni zamanda 1989-cu ildə 31 dekabr günü Naxçıvanda baş vermiş hadisəni əsas götürərək 31 dekabrı Dünya Azərbaycanlılarının həmrəylik günü elan etdi. 31 Dekabr 1989-cu ildə Naxçıvanda sərhəd dirəklərini yıxaraq millətimiz bu taleyüklü missiyanın başlanğıcını qoydu. Qardaş-qardaşla qovuşdu. İllər boyu ağır dağıntılara məruz qalan ölkəmiz dirçəldikcə, milyonlarla insanın sabaha ümidi artdı.

1993-cü ilin iyun ayından sonrakı bütün dövr ərzində Azərbaycanın dövlət müstəqilliyi daim inkişaf etmiş və böyük uğurlar qazanmışdır. Azərbaycan uğurlu xarici siyasət yeritməklə yanaşı səmərəli iqtisadi siyasət yeritməyə başlamışdır. Respublikamız dünyaya inteqrasiya prosesində öz inamlı addımlarını atdı. Azərbaycan iqtisadiyyatı, Azərbaycan təhsili Avropa və ya dünya iqtisadiyyatına, təhsil sisteminə qaynayıb-qarışdı. Belə qaynayıb-qarışma üçün yeni təfəkkür tələb olunurdu. Dünya standartlarına uyğun yeni təhsil texnologiyalarını tətbiq etmək üçün Təhsil Problemləri İnstitutu nəzdində 7 pilot mərkəz, 20 pilot məktəb fəaliyyətə başladı. Bu metodlarla hazırlanmış kadrlar dünya və Avropa ölkələrində cox məharətlə işə qoşula

bilirdilər. Türkiyənin ölkəmiz üçün hazırladığı kadrlar artıq dünya tendensiyalarını təhlil etmək iqtidarına malik idilər.

H.Əliyevin hakimiyyətə qayıtdığı ilk günlərdən fəaliyyətinin əsas istiqamətlərindən biri də gənclərlə iş sahəsində dövlət siyasətinin müəyyənləşdirilməsi, ölkənin ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin olunması, onların layiqli vətəndaş kimi formalaşmasına hərtərəfli şəraitin yaradılması olmuşdur. Beləliklə də, Azərbaycan gəncliyinin də itmiş inamı özünə qayıtdı. [2] Cəmiyyətin inkişafında gənclərin rolunu yüksək qiymətləndirən ulu öndər H.Əliyev daim onlara diqqət və qayğı göstərmişdir. Hələ keçmiş SSRİ dövründə respublikaya rəhbərlik edən H.Əliyev minlərlə azərbaycanlı gənci müttəfiq respublikaların ən nüfuzlu ali təhsil ocaqlarında oxumağa göndərmişdir. Yüksək biliklərə yiyələnmiş həmin gənclərimiz indi müxtəlif sahələrdə çalışırlar. 1972-ci ildə müdrik dövlət xadimi H.Əliyev çətinliklə də olsa C.Naxçıvanski adına Bakı Hərbi Məktəbini açdı. Hazırda milli ordumuzun zabit heyətinin yarıdan çoxu həmin məktəbin yetirmələridir.

1993-cü ildə hakimiyyətə qayıdan ulu öndər H.Əliyev elə həmin ilin sentyabrında ilk dəfə gənclərin nümayəndələri ilə görüşərək onların problemləri ilə yaxından tanış oldu.

O, 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Bu dövrdən başlayaraq gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində bir sıra işlər görüldü. Ümumiyyətlə, nazirliyin yarandığı ilk günlərdən qarşıya qoyulan məqsədlərdən biri gənc nəsli Vətənə sədaqət, Azərbaycan xalqının dilinə, tarixinə, mədəniyyətinə, adət-ənənələrinə, dövlət rəmzlərinə hörmət və məhəbbət ruhunda tərbiyə etmək olmuşdur.

Heydər Əliyev dühasının Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də azərbaycançılq ideologiyasını inkişaf etdirməsi oldu. Azərbaycançılıq xalqımızın çox böyük əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün qüdrətli bir vasitədir. “Azərbaycançılıq” ideologiyası “azərbaycançılq” ideyalarından törəmişdir ki, bu ideyaların da ilk rüşeymləri Heydər Əliyev tərəfindən məhz onun Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə qoyulmuşdur.

Azərbaycan təkrar öz müstəqilliyinə qovuşduqdan sonra, Heydər Əliyevin Prezidentliyi dövründə “azərbaycançılıq” dövlətin əsas ideologiyasına çevrildi. Azərbaycançılığa yüksək milli-mənəvi sərvət kimi yanaşan Heydər Əliyev çıxışlarının birində deyirdi: “Müstəqil Azərbaycan dövlətinin əsas ideologiyası azərbaycançılqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir. Biz azərbaycançılığı, yəni Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq daim öz milli-mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır”. Vətənpərvərlik xalqın qan yaddaşı, şəxsiyyəti səciyyələndirən ən yüksək əxlaqi-etik keyfiyyətdir. Bu keyfiyyət xalqımızın həyatında həmişə başlıca meyar və xarakter kimi formalaşıb. 2020-ci ilin son aylarına təsadüf edən, Azərbaycanın böyük zəfəri ilə yekunlaşan 44 günlük Vətən müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə baş verən proseslər bu deyilənləri bir daha təsdiqlədi. Xalqımızın tarixin bu sınağından alnıaçıq və üzüağ, zəfərlə çıxmasını şərtləndirən başlıca amillərdən biri də məhz vətənə sonsuz sevgi hissinin sarsılmazlığı idi. Vətənə, torpağa bu bağlılığın təcəssümü idi ki, İkinci Qarabağ müharibəsində rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz əzmi və şücaəti ilə işğal olunmuş torpaqlarımızı düşməndən təmizləyərək Azərbaycanın ərazi bütövlüyünü təmin etməyi bacardı.

Vətən müharibəsi günlərində xalqımız üçün səciyyəvi olan ən mühüm cəhətlərdən biri də milli birlik və həmrəyliyin sarsılmazlığı faktoru idi. Təsadüfi deyildi ki, İkinci Qarabağ savaşında minlərlə gənc erməni işğalçılarına qarşı mübarizə aparmaq üçün könüllü müraciət edərək cəbhəyə yollanmaq istəklərini ortaya qoydular. Arxa cəbhədə olanlar həmrəylik göstərərək öz əməlləri ilə ön cəbhədə vuruşanlara əllərindən gələn köməyi əsirgəmədilər, hər cür maddi və

mənəvi dəstək verməyə hazır olduqlarını göstərdilər, ölkədə fəaliyyət göstərən müxtəlif siyasi partiyalar siyasi baxışlarını bir kənara qoyaraq milli birlik nümayiş etdirdilər. Bütün bunlar bir daha onu göstərdi ki, siyasi, dini, sosial mövqeyindən asılı olmayaraq vətənin ümumi maraqları, Azərbaycan xalqının birliyi hər bir vətəndaş üçün bütün arzu və istəklərdən öndə dayanır. Bu günlər Azərbaycan xalqı öz əzmi ilə bütün dünyaya, sözün həqiqi mənasında, birlik və həmrəyliyini, vətənpərvərliyini nümayiş etdirdi. Biz birlikdə güclüyük!

Qələbəmizin qazanılmasında birliyimizin rolu misilsizdir.

Heydər Əliyev zəmanəsinin böyük filosofu idi. Onun fəlsəfəsi sülh fəlsəfəsi idi. Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq haradasa tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Onun yorulmaz fəaliyyətinin Azərbaycan elminin müxtəlif sahələri ilə bağlı əlaqələrinin coğrafiyası və tarixi çox genişdir.

Danılmaz bir həqiqətdir ki, Heydər Əliyevin həyat prinsipi həmişə ədalət, sülh, əmin-amanlıq və xalqın rifahı, dövlətin qüdrətinin və təhlükəsizliyinin möhkəmləndirilməsi olmuşdur. Bu gün fəxrlə deyə bilərik ki, belə xoşbəxt xalqlardan biri də Azərbaycan xalqıdır.

Azərbaycanın tarixi dahi şəxsiyyətlərin tarixidir. Azərbaycanın müasir tarixi isə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.Heydər Əliyev həmişə çıxışlarında yazıçı və şairlərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin böyük potensiala malik olduğunu bildirmiş, Azərbaycan xalqının təhsillənməsində, biliklənməsində, elm və mədəniyyətimizin, mənəviyyatımızın inkişafında böyük rolu olduğunu bildirmişdir. Bəli, iftixar hissi ilə demək olar ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi 34 illik dövrdə böyük təşkilatçılıq, nəhəng quruculuq işləri ilə yanaşı, zəngin elmi-nəzəri, mənəvi bir irs yaratmışdır. Bu irs qiymətli mənəvi sərvət kimi elmimizin və mədəniyyətimizin "qızıl fondu"na daxil edilmişdir.

Heydər Əliyev vətən elminin hamisi, alimlərin böyük dostu idi. Ulu öndər ziyalıların fövqündə dayanan ziyalı idi. Bəli, Heydər Əliyev bəşəriyyət üçün adi vətəndaş olmayıb. O, əqli, zəkası, idrakı ilə seçilən görkəmli dövlət xadimi kimi məşhur şəxsiyyətlərin önündə gedib. Onun hünəri ilə müstəqil Azərbaycan Respublikası formalaşıb, Azərbaycan adlı məmləkət xilas edilib. Azərbaycan dili Azərbaycan xalqına qaytarılıb. Ölkədə hüquqi, demokratik, dünyəvi dövlət qurulub. O,"Gənclər bizim gələcəyimizdir" dedikdə Azərbaycanın gələcəyinin ağıllı, savadlı, bacarıqlı gənclərin əlində olmasını arzulayırdı. Həmçinin, Heydər Əliyev kosmopolit ideyaların zehinlərinə zorla yerləşdirildiyi bir dövrdə milli məfkurənin qorunub saxlanılması, habelə azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Heydər Əliyev üçün ana dili azərbaycançılığın başlanğıc məqamı, təməl prinsipi olmuşdur.

Ulu öndər insanın mənəvi yüksəliş mənbəyi kimi Azərbaycan dilinə çox yüksək qiymət verərək onu dövlət dili elan etdi. Dünyaya ana dilimizin izahlı lüğəti ayaq açdı.

Ölkəmiz H.Əliyevin uzaqgörən müdrik siyasəti və rəhbərliyi ilə Avropa Şurasına üzv oldu və üzərinə düşən bütün öhdəlikləri demokratiya və xalqın tərəqqisi naminə yerinə yetirdi. Azərbaycan 137 ölkə ilə diplomatik əlaqə qurdu, Vyana Konvensiyasının iştirakçısı olan bütün ölkələrlə respublikamız arasında konsulluq münasibətləri yaradıldı. Azərbaycanda 63 xarici dövlətin səfirliyi fəaliyyət göstərməyə başladı. Bunların 24-ü bilavasitə Bakıda, 39-u isə həmin dövlətlərin Ankara, Moskva, Tehran və Tbilisi şəhərlərindəki səfirliklərində akkreditə olunmuşdur.Azərbaycanın öz növbəsində 21 xarici ölkədə səfirlik, baş konsulluq və daimi nümayəndəlikləri fəaliyyət göstərirdi.

Ulu öndər H.Əliyevin səylərinin nəticəsi idi ki, ölkəmiz dünyanın 120-dən artıq ölkəsi ilə ticarət edirdi. Ölkənin xarici ticarət dövriyyəsi gündən-günə genişlənirdi.

1994-cü il senrtyabr ayının 20-də Xəzər dənizinin Azərbaycan sektorunda olan “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının müştərək işlənməsi üçün dünyanın 11 neft şirkəti ilə müqavilə imzalandı. Bu müqavilə “Əsrin müqaviləsi” adını almışdı. 1998-ci il mart ayının 24-də uzunluğu 1400 km.olan Bakı-Novorossiysk neft kəməri ilə “Çıraq” yatağından hasil olunmuş neft ixrac olundu.

1999-cu il aprel ayının 17-də Azərbaycan, Gürcüstan və Ukrayna prezidentlərinin iştirakı ilə Bakı-Supsa neft kəmərinin açılışı oldu. Hasil olunan neft bu kəmərlər vasitəsi ilə dünya bazarına çıxarıldı. Bir sıra ölkələrin şübhə ilə yanaşdıqları bu ideyanın gerçəkləşməsi üçün ulu öndər böyük səylər göstərmişdi.

1998-ci ilin noyabr ayında ATƏT-in İstanbulda keçirilən zirvə görüşündə Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan prezidentləri Bakı-Tbilisi-Ceyhan neft kəməri haqqında müqavilə imzaladılar. 2002-ci il sentyabr ayının 18-də Azərbaycan neft strategiyasında çox böyük tarixi hadisə baş verdi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimi keçirildi. Təməl daşının qoyulması mərasimində çıxış edən ulu öndər H.Əliyev demişdir: "... Bütün bu layihələr Azərbaycan iqtisadiyyatının inkişafına yönəldilibdir. Azərbaycanda zəngin qaz yataqlarının olması Bakı-Ərzurum qaz kəmərinin çəkilməsini də zəruri etmişdir".

Azərbaycan təkcə neft-qaz sənayesi ilə deyil, digər sahələr ilə də dünyaya inteqrasiya olunmuşdur. Energetika sahəsində Yaponiya ilə əməkdaşlığını genişləndirmişdi.

H.Əliyevin Çinə səfəri zamanı Çin, Hindistan, Pakistan və digər ölkələrlə iqtisadi əlaqələrə dair müqavilələr imzalanmışdı. H.Əliyevin iqtisadi siyasətində Böyük İpək Yolu strategiyası çox əhəmiyyətli yer tutur. Tarixi İpək Yolunun bərpası ideyası ümummilli lider H.Əliyevə məxsusdur. Bu yolun bərpa olunması məqsədi ilə Bakıda xüsusi konfransın keçirilməsi də məhz ulu öndərin səyləri nəticəsində mümkün olmuşdur.

1998-ci il sentyabr ayının 8 və 9-da Böyük İpək Yolunun bərpası məqsədilə Bakıda keçirilən beynəlxalq konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişdi. Böyük İpək Yolu 11 milyon km$^2$ ərazidə yerləşən və 200 milyon insanı birləşdirən türk dünyasının tərəqqisi və zənginləşməsinin yeni vasitəsi demək idi. Azərbaycan üçün çox böyük iqtisadi səmərə verəcək İpək Yolunun çəkilməsi H.Əliyevin uzaqgörənliyinin əyani təzahürüdür. Hazırda dünyanın 60-dan çox ölkəsi yüklərini bu yol vasitəsi ilə daşıyır.

"Milli-siyasi liderlər,bir qayda olaraq, öz dövrlərində axıradək dərk oluna bilmir, tarix onların daha dəqiq qiymətlərini sonralar verir. H.Əliyev milli ləyaqət hissinin təcəssümü olduğundan , o, öz sağlığında layiqli qiymətini ala bilmiş, ümumxalq məhəbbətinin obyektinə, dünya siyasətində tanınan korifeylərdən birinə çevrilmişdir." [4 s.35-60]

H.Əliyev siyasi kursu bu gün Azərbaycanı dünya birliyinin fəal üzvünə çevirib. Bu gün Azərbaycan dünya dövlətləri ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurub, onların bəziləri ilə strateji müttəfiqdir. Bu Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini daha da gücləndirir, respublikamızın rəyinin nəzərə alınmasını şərtləndirir. H.Əliyevin Azərbaycan dövləti qarşısındakı ən böyük xidmətlərindən biri də onun Azərbaycana yeni dövlət idarəçiliyi fəlsəfəsi, mədəniyyəti gətirməsidir.[5]

Öz müdrik dövlətçilik siyasəti ilə yeni Azərbaycan tarixinin qurucusu olan ulu öndər Heydər Əliyevin şəxsiyyətinə xalqımızın ehtiramı ölçüyəgəlməzdir və bu şəxsiyyətin parlaq və unudulmaz xatirəsi qədirbilən xalqımızın qəlbində həmişə yaşayacaq və onun dühası ölkəmizin gələcək inkişaf yollarını daima işıqlandıracaqdır.

Ədəbiyyat siyahısı

1. Əliyev H. "Müstəqillik yolu", Azərbaycan Universiteti nəşriyyatı, Bakı 1997.
2. Əliyev H. Azərbaycan Müəllimlərinin Qurultayındakı nitqi. 1998-ci il
3.Əliyev Q.C. "Çağdaş demokratik proseslərin bəzi fəlsəfi problemləri" Bakı 1997-ci il
4.İsmayılov Ə., Əliyev O. "H.Əliyev və milli ləyaqət fəlsəfəsi" Bakı 1998-ci il
5.İlham Əsgəroğlu, Ağabala İbrahimov "Zəmanəmizin böyük Azərbaycanlısı" Bakı 2002
6.Рыбаков А.И. Политическое лидерство: теория и современная практика. Автограф. Канд.
Дисс. М.,М.,1996: с.1)

**Summary**

**Heydar Aliyev period in the history of Azerbaijan**

This article is about the qreat role of the national leader H.Aliyev in the formation of Azerbaijan Democratic Republic. Today, the political course of Heydar Aliyev has made Azerbaijan an active member of the world community.Today Azerbaijan has established equal partnership relations with world powers and is a strategic ally with some of them. This further strengthens the position of Azerbaijan in the international arena, makes it possible to take into account the opinion of our republic.One of the greatest merits of Heydar Aliyev to the Azerbaijani state is to bring a new philosophy and culture of state administration to Azerbaijan.

**РЕЗЮМЕ**

**Период Гейдара Алиева в истории Азербайджана**

Эта статья о большой роли общенационального лидера Г.Алиева в становлении Азербайджанской Демократической Республики.Сегодня политический курс Гейдара Алиева сделал Азербайджан активным членом мирового сообщества.Сегодня Азербайджан установил равноправные партнерские отношения с мировыми державами и является стратегическим союзником с некоторыми из них.Это еще больше укрепляет позиции Азербайджана на международной арене, дает возможность учитывать мнение нашей республики.Одна из величайших заслуг Гейдара Алиева перед азербайджанским государством - привнести в Азербайджан новую философию и культуру государственного управления.

| **Açar sözlər -** | **Key words -** | **Ключевые слова** |
|---|---|---|
| 1. neft-qaz sənayesi | oil and gas industry | нефтегазоваяпромышленность |
| 2. iqtisadi əlaqələr | economical relations | экономические отношения |
| 3. müttəfiq | ally | союзник |
| 4. beynəlxalq əlaqə | international relation | международная связь |
| 5. Azərbaycan dövləti | Azerbaijan State (government) | Государство Азербайджан |

**Doktorant Kərimli Faiq Xanoğlan oğlu**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq İqtisadi Münasibətlər və İqtisadiyyat fakültəsi*
*faiq.kerimli@socar.az*

# QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCANIN NEFT-KİMYA SƏNAYESİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV SİYASİ KURSUNUN ROLU

Abstract

In the modern period, the development of the chemical industry is an outstanding indicator for each oil producing countries, as a whole indicates the more widespread development of the country's socio-economic potential. The review of the role and importance of the potential of the petrochemical industry in Azerbaijan, the role of infrastructure in the growth of the country's economy, is an evaluation of the impact of economic growth on the development of this area.

The article highlights the value of identifying and analyzing the country's characteristics, political aspects and economic situations while presenting the current status and possibilities of the chemical and petrochemical industry in Azerbaijan, starting from during the Soviet period and the period of independence when Heydar Aliyev ruled Azerbaijan.

**Keywords:** petrochemical industry, oil-gas sector, polymer production, chemical industry, carbamide

**Xülasə**

Kimya sənayesinin inkişafı müasir dövrdə neft ixrac edən bütün ölkələr üçünəhəmiyyətli göstərici hesab edilir, çünki ümumilikdə ölkənin sosial-iqtisadi potensialının geniş aspektdə inkişaf etdirməsini özündə cəmləşdirir. Azərbaycanın neft-kimya sənayesinin imkanlarının, infrastrukturunun ölkə iqtisadiyyatının inkişafındakı rolu və əhəmiyyətinin təhlili bu sektorun inkişafının iqtisadi artıma təsirinin qiymətləndirilməsini özündə əks etdirir.

Məqalədə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə və müstəqillik dövrlərində Azərbaycanın kimya və neft kimya sənayesinin mövcud vəziyyəti və inkişaf perspektivlərini təqdim edərkən ölkənin xüsusiyyətləri, siyasi aspektləri və iqtisadi mövqeləri təhlil edilərək bu siyasi kursun önəmini müəyyənləşdirməyin mühüm əhəmiyyəti göstərilmişdir.

***Açar sözlər:***neft-kimya sənayesi, neft-qaz sektoru, kimya, karbamid, polimer istehsalı.

Azərbaycanda kimya və neft-kimya sənayesinin təməlinin qoyuluşu XIX əsrin 60-70-ci illərinə təsadüf etməklə bilavasitə neft emalı sənayesinin inkişafı ilə bağlıdır və o dövr üçün Azərbaycanın yeni bir sənaye sahəsi olan kimya sənayesi məhz XIX əsrin sonlarından başlayaraq mürəkkəb və uzun bir tərəqqi yolu keçmişdir. Həmin dövrlər isə Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri əhatə edir. Heç şübhəsiz ki, qeyd olunan illərdə həyata keçirilən uğurlu siyasət və effektiv idarəetmə strategiyası nəticəsində Azərbaycanın emal sənayesi istehsalının strukturunda kimya və neft-kimya sənayesinin məhsulları 10 faizlik yer tutmuşdur.Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, məhz Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Sumqayıtın kimya sənayesində EP-300 qurğusunun tikilməsi 1970-ci illərdə Azərbaycanda onun qarşısında duran böyük vəzifələrdən biri idi. Həmin dövrdə, EP-300 qurğusu ümumiyyətlə, nadir bir sənaye müəssisəsi hesab olunurdu. Həmin dövrdə, onun texnologiyası yeni olmaqla yanaşı,

həmçinin, həmin müəssisənin yaradılması böyük vəsait, mütəxəssislər - texnologiyadan istifadə edə bilən mühəndislər, texniklər, fəhlələr tələb edirdi. Lakin bu cür avadanlığın Sovetlər İttifaqı dövründə alınması və quraşdırılması o qədər də asan hesab olunmurdu. Çünki belə qurğuların başqa yerlərdə də yaradılması nəzərdə tutulurdu, böyük vəsait lazım olduğuna görə buna vəsait ayırmaq çətin hesab olunan amillərdən sayılırdı. 1975-1976-cı illərdə EP-300 qurğusunun tikilməsi haqqında təklif irəli sürüldü, yanlız, 1980-ci ildə bu qurğunun tikintisinə başlanıldı.

Neft-kimya sənayesinin xarakterik xüsusiyyəti odur ki, onun istehsalat bölmələri arasında şaquli və üfüqi əlaqə mövcuddur. Azərbaycanın neft-kimya sənayesində istehsal olunan məhsulun böyük hissəsi daxili istifadə üçün, yalnız 3-də bir hissəsi iqtisadiyyatın digər sahələrində, daxili istehlak və ixrac üçün istifadə edilir.

Azərbaycan Respublikasında neft-qaz emalı və neft-kimya sənayesinin strateji inkişafı barədə Ümummili lider Heydər Əliyev siyasi kursunun davamçısı AR Prezidenti İlham Əliyevin sərəncamı ölkə üzrə neft-kimya sənayesinin problemlərinin həlli üçün əsas sənəd hesab olunur. Bu strategiyada hədəflər, tapşırıqlar və sahənin daxili və xarici bazarda inkişaf prioritetləri və reallaşdırılması mexanizmləri müəyyən edilmişdir. Ölkənin neft-kimya sənayesi Azərbaycanın strateji bölmələrindən hesab edilməklə yanaşı ölkə iqtisadiyyatı üçün böyük önəmə malikdir. Xammal məhsullarından əlavə, Azərbaycan neft-kimya sənayesi həmçinin, yarımfabrikat, müxtəlif təsərrüfat sahələri üçün məhsullar ixrac edir.

Azərbaycanın neft-kimya sənayesi özündə fərqli çeşiddə kimya və neft kimya məhsulları istehsal edən 5 sayda böyük sənaye qruplarını birləşdirir.

Kimya sənayesi bir neçə qrupdan ibarətdir:

1) Əsas kimya (duz, turşu, mineral gübrələrin alınması);
2) Polimerlər kimyası (plastik kütlə, kauçuk, müxtəlif liflərin alınması);
3) Üzvi sintez kimyası (karbohidrogen xammalı, yarımfabrikat istehsalı);
4) Polimer materiallarının emalı (sin, polietilen hazırlanması).
5) Dağ-mədən kimyası (mineral xammalın hasilatı);

Azərbaycanın kimya və neft kimya sənayesinin aparıcı və əhəmiyyətli sahəsini əsasən kimya təşkil edir ki, burada maliyyə daxil olmaları baxımından kimya sənayesində istehsalın 2/3 hissəsi bu sahənin payına düşür. Burada əsas kimya məhsullarının istehsalı həyata keçirilir. Dünya təcrübəsi göstərir ki, kimya sənayesinin inkişafı digər sənaye və təsərrüfat sahələri üçün multiplikativ effekti rolunu oynayır və əhalinin dayanıqlı məşğulluğuna gətirib çıxarır. Nəticə olaraq, neft-kimya sənayesində yaranan bir iş yeri, digər əlaqəli sektorlarda daha çox yeni iş yerlərinin açılmasına gətirib çıxarır. Neft-kimya məhsulları istehsalı ilə məşğul olan müəssisə kənd təsərrüfatı, maşınqayırma, metallurgiya və tekstil müəssisələri ilə sıx əməkdaşlıq edir. Onu xüsusi vurğulamaq yerinə düşür ki, Azərbaycanın kimya sənayesində çalışan əməkdaşların sayında əvvəlki illər ilə müqayisədə cüzi azalma müşahidə edilmişdir. Kimya sənayesində təxminən 200000-ə yaxın sayda iri və orta sahibkarlıq subyektləri mövcuddur. Müəssisələrdə təxminən 15000-nə yaxın sayda işçi fəaliyyət göstərir.

Son illərdə ölkədə qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın genişləndirilməsi sayəsində önəmli nəticələr əldə edilsə də hələlik bu sahədə görülməli işlərin çox olmasını xüsusi vurğulamaq lazımdır. Hazırda Azərbaycanda kimya sənayesinin inkişafında və iqtisadiyyatın genişləndirilməsində görülməli işlər olaraq aşağıdakıları qeyd etmək lazımdır:

-Perspektivli və potensial inkişafa malik sahələrə, müəssisələrə investisiya qoyuluşlarında səmərəli və güzəştli yanaşma probleminin qalması;

-kimya sənayesinin əsas texniki və texnoloji bazasının mütərəqqi texnologiyalara uyğunlaşmaması problemi;

-müasir elmi və intellektual potensialının inkişaf etdirilməsinə ehtiyac;

-peşəkar mütəxəssislərin, yüksəkixtisaslı və intellektual biliklərə malik kadrların yetişdirilməsi səviyyəsinin tələb olunan səviyyədə olmaması;

-ən son innovasiya nailiyyətlərinin tətbiqini təmin edəcək nəzarət mexanizminin və infrastrukturun tələb olunan səviyyədə inkişaf etməməsi;

-kimya sənaye müəssisələrinin innovasiya yönümlü, rəqabətqabiliyyətli məhsul istehsalında maraqlı olmaması;

-Beynəlxalq keyfiyyət standartlarının istifadəsinin geniş şəkildə tətbiqinin təmin olunmaması;

- texnoloji avadanlığın amortizasiyasının yüksək fond tutumluluğu, istehsal fondlarının, yeni və müasir avadanlıqların tətbiq faizinin arzu olunan səviyyədə olmaması;

-Neft-kimya məhsullarının istehsalı prosesinin yüksək material və enerji tutumluluğu;

-İdarəetmə sisteminin peşəkarlıq və korporativ idarəetmə standartları səviyyəsinə və müasir dövrün tələblərinə qismən cavab verməməsi [4].

Kimya və neft-kimya sənayesi iqtisadiyyatın bütün sahələrində istifadə edildiyi üçün geniş məhsul çeşidi istehsalı ilə (18000-dən çox) xarakterizə edilir. Bu məhsulların geniş istehlakçıları əsasən: müdafiə sənayesi, səhiyyə, yüngül sənaye, maşınqayırma, nəqliyyat, inşaat, mebel sənayesi , yanacaq-energetika sənayesi, rabitə, aqrar-sənaye kompleksi və qablaşdırma istehsalı təşkil edir.

Müstəqilliyin ilk illərində həyata keçirilən iqtisadi "islahatlar" və ölkə iqtisadiyyatının strukturunda tətbiq olunan sözdə yenidənqurma işləri Azərbaycanın kimya və neft-kimya sənayesinə ziyansız olmamışdır. Belə ki, dünya bazarında rəqabətqabiliyyətli məhsul təklifinin geniş çeşiddə olması və müasir standartların tələblərinə uyğun olmayan texnologiyaların əsasında olan, həyata keçirilən istehsalın təklif etdiyi məhsullara olan real tələbin olmaması Azərbaycanın neft-kimya sənayesində istehsal potensialının təkrar gözdən keçirilməsinə ehtiyac yaratmışdır [3]. Xüsusi olaraq onu da vurğulamaq lazımdır ki, bu sektora yatırılan investisiyada qeydə alınan azalma, eyni zamanda, istehsal həcminin də eyni tendensiya göstərməsi ilə də nəticələnmişdir.

Buna baxmayaraq, son dövrlərdə artıq Azərbaycanın yeni rəhbərliyinin bu sahəyə göstərdiyi diqqət və qayğının sayəsində bu sahənin effektivliyi və rentabelliyi artmış, maliyyə-iqtisadi göstəriciləri, əmək məhsuldarlığı yüksəlmişdir. 2019-cu ildə Azərbaycanın neft məhsullarının istehsalında, kimya sənayesində və plastik kütlə məmulatlarının istehsalında əsas kapitala investisiyalar 2016-cı illə müqayisədə sonra müvafiq olaraq 100%, 97% və 100%-dən yüksək artım nümayiş etdirmişdir. 2018-ci illə müqayisədə bu göstəricilər isə müvafiq olaraq 35%, 25% azalma və 100%-dən yüksək artım nümayiş etdirmişdir. Amma ümumilikdə, əvvəlki illərlə müqayisədə bu istiqamətdə qeydə alınan artım göstəriciləri müşahidə olunmuşdur ki, burada da ən başlıca səbəb ölkədə bu sahəyə marağın yüksəlməsi və SOCAR Karbamid, Polimer zavodlarının tikintisi və Azərikimya İB-də aparılan modernizasiya işləri vacib amillərdən hesab olunur [6].

Neft-kimya sənayesində son illərdə qeyd olunan artım dinamikası müşahidə edilir, belə ki ölkənin ödəməqabiliyyətli istehlakçılarının bu məhsullara olan tələbatı Azərbaycana idxal edilən neft-kimya məhsullarına baxmayaraq, yerli istehsalın əhəmiyyətli dərəcədə artması hesabına təmin edilmişdir. Bununla paralel, kimya və neft-kimya sənayesində qeydə alınan müsbət inkişaf əlamətlərinə baxmayaraq, bu sektorun istehsal potensialı hələ ki, aşağı texniki səviyyə ilə, qeyri-qənaətbəxş vəziyyəti və dünya bazarı səviyyəsinə (texniki göstəricilərə və qiymətinə görə) tam cavab verməyən parametrləri ilə xarakterizə olunur.

## Neft-kimya sənayesinin inkişaf perspektivləri

Əsası 2011-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə qoyulmuş Karbamid zavodunun tikintisi "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na əsasən həyata keçirilmişdir. Karbamid mayesi, Ammonyak və əmtəəlik karbamid istehsalı

bölmələrindən ibarət olacaq müəssisədə gündəlik 2000 ton karbamid və 1200 ton ammonyak istehsal edilməsi nəzərdə tutulur. Qonşu Gürcüstan Respublikasında da oxşar müəssisənin tikilməsi həm Azərbaycanın kənd təsərrüfatında azot gübrəsinə tələbatın tam təmin edilməsinə, həm də region ölkələrinin bazarlarına yeni, keyfiyyətli və rəqabətqabiliyyətli məhsul çıxarılmasına əlavə imkanlar yaradacaqdır. Hər iki istehsal müəssisəsinin ümumi istehsal gücü təxminən, 1 milyon ton təşkil edir. 2019-cü ildə istismara verilən Karbamid zavodları ammonyak və karbamid məhsullarının istehsal gücünə görə Azərbaycan Qafqazda lider mövqeyini qazandırmışdır [5].

Qaradağ rayonunda tikilmiş Metanol Zavodu 2013-cü ildən istehsal fəaliyyəti prosesinə başlamışdır. Təbii qazdan əldə edilən metanol maddəsi təbii yolla parçalana bilən şəffaf rəngli neft-kimyəvi maye hesab olunur. Bu məhsul təkrar emal plastiki, sintetik toxuculuq malları, məişət boyaları, peno-balışlar, yastıqla və yapışdırıcılar kimi çoxlu sayda istehlak və sənaye mallarının hazırlanması üçün istifadə olunur. Metanol maddəsi eyni zamanda, evlərin daxili istilik sistemləri və mətbəx üçün yanacaq kimi istifadə olunur və həmçinin, səmərəli nəqliyyat yanacağı kimi də istifadə oluna bilər. Dimetil efiri elektrik enerjisi, biodizel istehsalı istehsalında və digər sahələrdə metanolun istifadəsinə olan maraq artdıqca satış bazarları da genişlənir və məhsulun istifadəsi ilə bağlı yeni proqramlar tətbiq olunur. Metanol eyni zamanda, benzinə əlavə olunduğu zaman yanacağın daha keyfiyyətli yanmasına və ətraf mühitə zərərli tullantıların daha az olmasına səbəb olan yanacaq komponentlərinin istehsalı üçün də tətbiq olunur. Növbəti strateji proqramların birində reallaşdırılması nəzərdə tutulan lahiyələrdən biri də Formaldehid zavodlar kompleksi hesab olunur. Formaldehid və onun törəmələrinin (qətranların) istehsalı müəssisəsində metanoldan xammal kimi istifadə edərək əldə olunan fərqli məhsulların istehsalı nəzərdə tutulur. Bu məhsul güclü maşınqayırma qətranları, inşaat və ağac məhsulları, həşərat öldürücülərə olan yüksək tələbat səbəbindən tarixən ən böyük metanol törəməsi hesab edilir [1]. Fenol-formaldehid qətranları tökmə birləşmələr, taxta yapışdırıclar və laminatlar üçün istifadə olunur. Hal-hazırda Azərbaycanda qətran tərkibli taxta məhsulları ölkə xaricindən idxal edilir.

Əlavə olaraq, onu da xüsusi qeyd etmək lazımdır ki, statistik göstəricilərə əsasən 2019-cu ildə Azərbaycanda kimya sənayesinin əsas məhsullarının istehsalında (etilen, polietilen, propilen və s.) əvvəlki illə müqayisədə 20% artım qeydə alınmışdır. Həmin artımda ən böyük pay sahib olan göstəricilər propilen və etilen istehsalı üzrə qeydə alınmışdır. Eyni zamanda, sənaye məhsullarının ümumi həcmində rezin lövhə məmulatları istehsal edən sahənin payı 2019-cu ildə 14% azalmağına baxmayaraq, Plastik qapı və pəncərə blokları və Polietilen kisə və çantalar üzrə istehsal həcmi müvafiq olaraq 16% və 67% artmışdır ki, bu da həmin sahədə artan istiqamətdə inkişafın göstəricisi hesab oluna bilər. Azərbaycanda fəaliyyət göstərən və neft-kimya məhsulları istehsal edən müəssisələrinin sayı 2019-cu ildə əvvəlki il ilə müqayisədə 7% artsa da, bu göstəricinin 2017-ci ildə fəaliyyət göstərən müəssisələrin sayında 26% çox olması bu sahəyə olunan maraq və diqqətin artmasının bariz nümunəsi hesab oluna bilər [2]. Bu da Azərbaycanın Heydər Əliyev siyasi kursunun bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsi olmaqla yanaşı, o cümlədən, dövlət tərəfindən yatırılan investisiyalar ilə əlaqədardır.

Azərbaycanın kimya və neft kimya sənayesinin innovativ dəyişikliklərə, ciddi şəkildə investisiya qoyuluşlarına, istehsalat bazasının yenidən qurulmasına və inkişaf etdirilməsinə zəruriyyətinin olmasına baxmayaraq, yüksək inkişaf və böyümə perspektivlərinə sahibdir. Əlavə olaraq onu qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan 2009-cu ildə Azərbaycan Respublikasında neft-qaz emalı və neft-kimya sənayesinin inkişaf strategiyası haqqında sərəncamında kimya və neft kimya sənayesinin inkişaf prioritetləri müəyyən edilmişdir. Bu strategiyanın əsas məqsədi və məramı kimya və neft-kimya sənayesinin inkişafı üçün əlverişli şərtlərin yaradılması, rəqabətqabiliyyətli neft-kimya məhsullarının istehsalının təşkili və istehsal həcminin artırılması, yerli istehsalçıların yerli və xarici bazarda rəqabətqabiliyyətli mövqeyinin yaradılması və gücləndirilməsini təşkil edir.

**İstinadlar:**


1. http://www.inesp.ru
2. https://www.stat.gov.az
3. http://minenergy.gov.az
4. http://unec.edu.az
5. www.socar.az
6. www.socarpolymer.az

**Doktorant *Xəlilova Xəyalə Qəmbər qızı***
*Mingəçevir Dövlət Universiteti, müəllim*
*Azərbaycan Dövlət Aqrar Universiteti, doktorant*
*xeyalexelilova2@gmail.com*

# HEYDƏR ƏLİYEV VƏ İNSAN KAPİTALININ FORMALAŞMASI DÖVLƏTİN SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTİ KİMİ

**Xülasə**

İnsan kapitalı yenilikçi iqtisadiyyatın və bilik iqtisadiyyatının formalaşması və inkişafında əsas amildir. Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, intellektual fəaliyyətə investisiyalar hesabına insan kapitalıformalaşır. Cəmiyyətin düşüncəsində insan kapitalı anlayışı əsas yerlərdən birini tutur. Zaman keçdikcə texniki tərəqqi insanların həyatına daxil edilir, insanın istehsaldakı rolu, istehsal üsulu, bilik ötürülməsi və s. kimi məsələlər daha çox əhəmiyyət kəsb edir.

Yaradıcı və innovativ cəmiyyət qurmaq rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı formalaşdırmağın daha bir mühüm istiqamətidir. Çünki mühit insanlar üçün çox böyük rol oynayır. Yaradıcı və innovativ mühit, ekosistem insanlara öz potensiallarını reallaşdırmaq imkanı yaradır. Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət milli prioritetlərdə də göstərildiyi kimi, inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ona görə də ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistemin qurulması indi ən vacib məsələlərdəndir.

***Açar sözlər:*** *insan kapitalı, rəqabət,* modernləşmə

Bir insanın və bütövlükdə cəmiyyətin fərqli ehtiyaclarını ödəmək məqsədilə istifadə olunan bilik və bacarıqların məcmusu insan kapitalıdır. İnsan kapitalı dedikdə, zəka, sağlamlıq, məlumat, yüksəkkeyfiyyətli və məhsuldar iş və həyat keyfiyyəti başa düşülür.

Belə aydın olur ki, insan kapitalı cəmiyyətdə hər bir şəxsin özünü tam reallaşdırmaq və mövcud imkanlardan tam istifadə edə bilmək üçün malik olduğu peşəkar imkanlarının, bilik və bacarıqlarının, işgüzar əlaqələrinin cəmidir. Hər bir fərdin sağlamlığını, intellektual potensialını, biliklərini, ona yaradılmış keyfiyyətli həyat və əmək şəraitini bura aid etmək olar. Elmi araşdırmalar da sübut edir ki, insanın fəaliyyətinə effektiv iqtisadi baxış çox vacibdir. Əvvəllər insan kapitalı anlayışı daha çox insanın inkişafına sərf edilən investisiya kimi başa düşülürdü. Sonralar bu anlayış bir qədər genişləndirilərək, insanın ailəsinə çəkilən xərc, təhsil və səhiyyə xərcləri, mədəni tələbləri də əlavə edilməklə – yəni istehlak xərcləri kimi müəyyən edildi.

İnsan kapitalının formalaşması və inkişafı çoxcəhətli, mürəkkəb bri prosesdir. Eyni zamanda, bu proses fərdin bilik və bacarıqlarının, məxsusi keyfiyyətlərinin, qabiliyyətlərinin inkişaf etdirilməsi, bu keyfiyyətlərin məcmu şəkildə kapitala çevrilməsi ilə bağlıdır. İnsan kapitalının müxtəlif formalarda inkişafı bu kapitalı formalaşdıran komponentlər üzrə maliyyə vəsaitlərinin məqsədli şəkildə yönəldilməsindən əhəmiyyətli dərəcədə asılıdır. İnsan kapitalına investisiya qoyulması işçinin ixtisas və qabiliyyətinin, eləcə də əmək məhsuldarılığının yüksəldilməsinə yönəlmiş hər hansı bir fəaliyyətdir. Bu fəaliyyət nəticəsində yönəldilən vəsaitlər fərdin sağlamlığının qorunması, bilik və bacarıqlarının, təhsil səviyyəsinin yüksəldilməsi, həyat keyfiyyətinin yaxşılaşmasına xidmət etməlidir. Belə olan halda formalaşmış kapital onun sahibinin sosial-iqtisadi təminatlılıq səviyyəsinin yüksəlməsinə, bütövlükdə cəmiyyətin möhkəmlənməsinə təkan vermiş olur. I2I

Müasir şəraitdə insan kapitalının formalaşması və inkişafı xüsusiyyətlərini, onun cəmiyyətin həyat fəaliyyəti prosesindəki rolunu ümumiləşdirərək onu bir sıra xüsusiyyətlərlə xarakterizə etmək olar;

1. İnsan kapitalının inkişafı tarixi məzmuna malikdirr. Həm insanın öz şəxsi məsrəfləri, həm də dövlət xərcləri hesabına bu kapital toplanır. Bu xərclər texnoloji inkişafın sürətlənməsinə uyğun olaraq getdikcə artır.

2. İnsan kapitalına istiqamətlənən investisiyalara milli və mədəni ənənələr, tarixi xüsusiyyətlər, hüquqi baza, cəmiyyətin təhsil, rifah səviyyəsi, səhiyyənin inkişafı, mikro və makro səviyyələrdə dövlətin həyata keçirdiyi iqtisadi siyasət və s. kimi amillər təsir göstərir.

3. İnsan kapitalının istifadəsi insanın fiziki xüsusiyyətləri və imkanları, eləcə də onun potensialından istifadə imkanları ilə məhdudlaşır.

4. Fiziki kapitaldan fərqli olaraq bu kapitalın sahibi insan özüdür, onu pula dəyişmək olmaz və bu kapitaldan istifadə olunması insanın özünün nəzarəti altında baş verir.

5. İnsan kapitalının verimlilik səviyyəsi subyektin özünün iradəsi, mədəniyyət səviyyəsi, maddi və mənəvi maraqları, firmadaxili mədəniyyət səviyyəsi, əmək şəraiti, əməyin təşkili səviyyəsi, ətraf mühitin mühafizəsi və s. amillərlə müəyyən edilir.

6. İnsan kapitalının toplanması iqtisadi sistemin inkişafının başlıca şərti olaraq, insan kapitalının ictimai istehsalda rolunun və yerinin əhəmiyyətini bir daha təsdiqləyir.

7. İnsan kapitalı sabit kəmiyyət deyildir, mənəvi və bioloji aşınmaya məruz qalır. Müəyyən şəraitdə artan və ya azalan xətlə inkişaf edir. Bu isə həyatın keyfiyyətindən, insan kapitalının formalaşmasından, yığımında cəmiyyətin və bütün strukturların məqsədəuyğun fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır.

8. İnsan kapitalının təkrar istehsalı inkişaf edən ictimai proseslərlə şərtləşən, insanın və cəmiyyətin həyat fəaliyyətinin antropoloji, sosial-iqtisadi, mədəni-tarixi və təşkilati-idarəetmə tərəfləri ilə dialektik vəhdətdə təzahür edən, baş verən bir hadisədir. İnsan kapitalı ideyası həm iqtisadiyyatda və cəmiyyətin həyat fəaliyyətinin digər sahələrində, həm insanın özündə, həm də əmək fəaliyyətinin məzmununda, onun həyata keçirilməsi ilə bağlı proseslərin məzmununda, xüsusilə də ETT-nin təsiri altında baş verən dəyişikliklərin təsiri nəticəsində genişlənmiş və inkişaf etmişdir. İnsan kapitalı haqqında təsəvvürlər cəmiyyətin inkişafı və insan haqqında elmi biliklərin genişlənməsi və inkişafı nəticəsində təkamül prosesi keçərək daha da təkmilləşmiş və inkişaf etmişdir. I1I

Bilik iqtisadiyyatı kimi qəbul edilən XXI əsrdə inkişaf etmiş ölkələrdə milli sərvətin əsas hissəsini insan kapitalı təşkil edir. Elmin inkişafı bilik iqtisadiyyatının təzhürüdür. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: İnsan kapitalıinkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbbi resurslar hesabına deyil, intellektual potensiala, yeni texnologiyaların icad olunması və tətbiqinə görə inkişaf edirlər. İnsan kapitalı uğrunda rəqabət dərin xarakter alıb və insan ən zəngin kapital kimi dünya innovasiya inkişafının əsas fundamentini təşkil edir. Keyfiyyətli insan kapitalı uğrunda aparılan rəqabət dünya innovasiya inkişafının əsas xüsusiyyətidir. Prezident İlham Əliyevin də dəfələrlə bəyan etdiyi kimi cəmiyyətin həyatındakı fundamental dəyişikliklər milli təhsil konsepsiyasının müasirləşdirilməsini, inkişaf etmiş dövlətlərin mütərəqqi maarifçilik ənənələrinin, müasir informasiya və innovasiya texnologiyalarının mənimsənilməsini, mənəvi intellektual yüksəlişə xidmət edən siyasətin həyata keçirilməsini aktual məsələ kimi gündəmdə tutaraq, həyata keçirilməsi üçün ciddi addımların atılması vacibdir.

Dünya İqtisadi Forumunun iqtisadi inkişafın mərhələlərini təsnifləşdirməsinə uyğun olaraq, Azərbaycan iqtisadiyyatı inkişafın 1-ci mərhələsindən inkişafın 2-ci mərhələsinə (amillərdən səmərəliliyə) keçid dövründə fiziki kapitala nisbətən insan kapitalına investisiya qoyuluşu daha perspektivli hesab olunur. Tədricən fiziki kapitala nisbətən insan kapitalının üstün investisiyalaşdırılması, ideyaların reallaşdırılması öz əksini Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında, Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində,"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”ndatapıb.

Tarix zaman-zaman onu da sübuta yetirib ki, dünyanın bütün qabaqcıl dövlətləri öz hədəflərinə elmin, təhsilin, biliklərin gücü ilə çatıblar. Görkəmli maarifçilər, mütəfəkkirlər də bütün həyatlarını insanlara məhz bu həqiqəti çatdırmağa sərf ediblər. Təhsilin, elmin imkanlarının hər kəs üçün əlçatanlığı naminə yaşayıblar. Təhsil insanın fərdi azadlıqlarının əsas mənbəyidir. Amma o, insana təkcə fərdi azadlıqlar gətirmir. Fərdlərin aid olduqları mühiti də hər tərəfdən, ziyanlı təsirlərdən qorumaqla cəmiyyətə maarifçilik ənənələri üzərində bərqərar olan ictimai azadlıqlar qazandırır. Bu gün ölkələri güclü edən məhz təhsil səviyyəsidir, insan kapitalına verilən dəyərdir, rəqəmsallaşma proseslərinə yatırımlardır. Hazırda bu böyük həqiqət müasir dünyamızın başlıca reallığına və əsas çağırışına çevrilib. I3I

Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında da ənənəvi iqtisadiyyatdan «bilik iqtisadiyyatına» keçidin əsasının qoyulması, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrlərdə əsas strateji hədəflərdən biri kimi təbii resursların yaratdığı imkanların insan kapitalına çevrilməsini müəyyənləşdirib. Son onilliklərdə həyata keçirilən innovasiya ekosisteminin formalaşdırılmasına yönəlmiş ardıcıl tədbirlər, təhsil islahatları, biliyin, texnoloji qabiliyyət və bacarıqların cəmiyyətimizdə bir meyara çevrilməsi bu hədəf istiqamətində qazandığımız ciddi nailiyyətlərdəndir.

Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər müasir innovasiyalara və rəqabətli insan kapitalına bu qədər böyük önəm verilməsinin nəticəsidir. Bu dəyişikliklər doğrudan da, müasir dünyamızın reallığıdır. Əslində, hər zaman insan həyatında nüəyyən dəyişikliklər baş verir. Zaman keçdikcə yaşayış şərtləri, mühit, texnologiyalar, tərz və üsullar dəyişir. Amma tarixinin heç bir dövründə bəşəriyyət indiki qədər sürətli və çoxşaxəli dəyişiklikləri yəqin ki, yaşamayıb. Deмək olar  ki, müasir texnologiyalar bütün dünyanı yeniləyir. Bu cür əsaslı dəyişiklik bir tərəfdən, ölkələrarası rəqabətin daha da güclənməsinə, digər tərəfdən isə rəqabət  şərtlərinin dəyişməsinə səbəb olur.

Gələcəyə baxış yaxın illərdə rəqəmsallaşma proseslərinin daha geniş vüsət alacağından xəbər verir. Yeni texnologiyaların həyatımızın  bütün sahələrinə nüfuz etməsi və aktiv tətbiqi nəticəsində bəzi sahələrdə insanın iştirakı əhəmiyyətli dərəcədə azalacaq. Bununla yanaşı ən müasir sahələr insanın iştirakı olmadan daha böyük sürətlə inkişaf edəcək. Bu prosesə vaxtında hazırlaşmağı bacarmış ölkələr böyük faydalar qazanacaqlar. Dəyişiklikləri hazırlıqsız qarşılayanlar isə gələcək inkişaf imkanlarını  poza və ya itirə bilərlər.

Ölkə başçımızın strateji baxışı, vaxtında verdiyi qərarlar və bu qərarların icrası vəziyyəti ilə gələcəyə ciddi şəkildə hazırlaşan dövlətlər sırasındadır. Yüksək rəqabətli insan kapitalı formalaşdırmaq isə bu güclü dəyişikliklərə hazırlığın yeganə yoludur. Müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı Azərbaycanın qarşıya qoyduğu milli prioritetlərdə bunun əsas şərti kimi müəyyən edilib. Çünki bu amillərin hər biri insan kapitalının formalaşmasına həlledici təsir göstərir.

Dövlətimizin rəhbərinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də  Azərbaycanın yaxın onillikdə rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olması beş əsas prioritetdən biri kimi müəyyənləşdirilib.

Ölkə üçün“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in 3-cü hissəsində göstərilən“rəqabətli insan kapitali və müasir innovasiyalar məkanı” yaratmaq qarşıdakı 10 illikdə duran əsas vəzifələrdən biridir. Dünya iqtisadiyyatında müasir dövrdə ölkələrarası rəqabət müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində daha da sərtləşib. Hər bir ölkə dünyada 4-cü sənaye inqilabının yaratdığı yeni növ rəqabətə hazır olmaq üçün yüksək rəqabətli insan kapitalını formalaşdırmalıdır. Bundan ötrü insanların sağlamlığı, müasir təhsil, innovasiyaları təşviq edən ekosistem vacib şərtdir.

Bu məqamlar Azərbaycanda milli prioritetlərin müəyyənləşdirilməsi zamanı diqqətlə nəzərə alınır. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı ilə bağlı prioritetin uğurla reallaşdırılması üçün qarşıya üç strateji məqsəd qoyulub:

1. XXI əsrin tələblərinə uyğun təhsil;
2. Yaradıcı və innovativ cəmiyyət;
3. Üçüncüsü isə vətəndaşların sağlam həyat tərzidir.

Müasir dünyamızda keyfiyyətli təhsil güclü rəqabətə davam gətirmək və iqtisadiyyatın uzunmüddətli inkişafına nail olmaq üçün hər bir kəsin əlindəki ən təsirli "silahdır". Təhsil sahəsində insan kapitalının inkişafı problemlərinin öhdəsindən gəlmək üçün Azərbaycanda uşaqları erkən təhsil proqramlarına cəlb etmək genişləndirilməli və ali təhsilin aktuallığı yaxşılaşdırılmalıdır. Səhiyyə sahəsində sistemin xroniki xəstəliklərə reaksiyası gücləndirilməli və daha yaxşı səhiyyə xidmətlərini təmin etmək üçün maliyyə resurslarının səmərəliliyi yüksəldilməlidir. Ölkənin ən həssas təbəqələrini dəstəkləmək üçün sosial müdafiə və məşğulluq sahəsində sosial yardıma investisiyaları artırmaq və aktiv əmək bazarı proqramlarının əhatə dairəsini və miqyasını genişləndirmək lazımdır.

Dünya Bankının İnsan Kapitalı İndeksində (İKİ) göstərilir ki, Avropa və Orta Asiya regionunun digər hissələrində olduğu kimi, Azərbaycanda da gənclər uşaqlıq və yeniyetməlik illərində sağlamlıq və təhsilə davamlı yatırımlar sayəsində məhsuldar yetkin insana çevrilmək imkanına malikdirlər. Dünya ölkələrində insan kapitalının pandemiyadan əvvəlki vəziyyəti bu indeksdə qiymətləndirilmişdir. Dünya Bankının məlumatına görə, 103 ölkənin 2010-2020-ci illərdə insan kapitalı sahəsində inkişafı bu ilki hesabatda təhlil olunur. Səhiyyə və təhsil sahəsində Azərbaycan ən çox irəliləyişə nail olmuş 10 ölkədən biridir.

Azərbaycanın İKİ göstəricisi 0,58-ə bərabərdir. Bu o deməkdir ki, Azərbaycanda müasir şəraitdə doğulmuş uşağın böyüdüyü zaman optimal sağlamlığa və tam təhsilə malik bir yetkin insanın məhsuldarlığının 58 faizinə nail olacağına ümid edilir. Buna baxmayaraq, insanların məhsuldarlığı baxımından inkişaf üçün Azərbaycanda hələ yer var.

*"Sağ qal, Öyrən, İnkişaf et: Azərbaycanın iqtisadi artımını sürətləndirmək üçün strateji insan kapitalına investisiyaların yatırılması"* adlı araşdırma Dünya Bankı və Azərbaycan Hökuməti tərəfindən aparılmışdır. Azərbaycanda insan kapitalının formalaşdırılması və aktivləşdirilməsi sahəsindəki irəliləyişlər və çağırışlar müəyyənləşdirilmişdir. Son 10 il ərzində Azərbaycanda uşaq ölümü və uşaqların inkişafdan geri qalması əmsalları əhəmiyyətli dərəcədə azalmışdır.

Uzun illərin təcrübəsi sübut edir ki, hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni yüksəlişində elm və təhsil mühüm rol oynayır. Azərbaycanda milli təhsil sisteminin mütərəqqi yeniliklərin tətbiq olunması yolu ilə müasirləşdirilməsi, yeni dövrün tələblərinə cavab verən fəal maarifçilik kursunun həyata keçirilməsi, bir ictimai-iqtisadi sistemdən başqasına keçid dövründə özünü göstərən obyektiv problemlərin aradan qaldırılması reallaşdırılan dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycanın davamlı inkişafının yeganə yolunu Ulu öndər Heydər Əliyev məhz xalqın maariflənməsində, yüksək təhsildə görmüş, fundamental və humanitar elmlərin inkişafı istiqamətində bütün respublikada lazımi tədbirləri həyata keçirmişdir.

1993-cü ilin iyununda xalqın tələbi ilə hakimiyyətə gələn Ulu öndər Heydər Əliyevin qarşısında ölkəni hərc-mərclikdən, siyasi və iqtisadi tənəzzüldən, müstəqilliyin itirilməsi təhlükəsindən çıxarmaq, bütün sahələrdə modernləşməni həyata keçirmək, sabit və tarazlı milli inkişaf strategiyasının istiqamətlərini müəyyənləşdirmək kimi vəzifələr dayanırdı. Elmin, təhsilin inkişafına Ümummilli lider Heydər Əliyev milli dövlət quruculuğu prosesinin zəruri əsası kimi yanaşmış, xalqın intellektual səviyyəsinin yüksəlməsini vacib vəzifələrdən hesab etmişdir. Hələ ölkəyə birinci rəhbərliyi dövründə Ulu öndər Azərbaycan təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmış, ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, mədəni-intellektual resursların gücləndirilməsinə, layiqli vətəndaşların yetişdirilməsi işinə mövcud potensialı səfərbər etmişdir. Respublikada uşaq bağçaları,

məktəblər, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi məhz bu illərdə geniş vüsət almış, müasir standartlar çərçivəsində təhsil infrastrukturu yenidən qurulmuşdur. Humanitar və fundamental elm sahələrində də həmin dövrdə böyük irəliləyişlər əldə edilmiş, xalq təsərrüfatının ən müxtəlif sahələrində elmdə, təhsildə qazanılan uğurların tətbiqi böyük nəticələr vermişdir. Respublikada onlarca ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır. Cəmiyyət inkişaf prosesinin elmi-intellektual əsaslar üzərində qurulmuş yeni mərhələsinə qədəm qoymuşdur. Azərbaycan elminin, təhsilinin, ümumilikdə milli mədəniyyətimizin inkişafı naminə dahi rəhbərin həmin illərdə gördüyü işlər bunlarla məhdudlaşmamışdır. Respublikamızın görkəmli ziyalılarını o dövrdə böyük dövlət xadimi sovet imperiyasının sərt təhdidlərindən qorumuş, irslə varislik arasındakı əlaqələri yenidən bərpa etmişdir. Xalqımızın ən böyük düha sahiblərinin Heydər Əliyev abidələrini ucaltmış, nəinki Azərbaycanda ümumilikdə bütün dünyada onların əsərlərini təbliğ etdirməklə xalqın mədəniyyətini, tarixini, ədəbiyyatını yaşatmış, bütövlükdə, milli yaddaşın gələcək nəsillərə qorunub çatdırılmasını təmin etmişdir.

Azərbaycan Respublikasına rəhbərliyi dövründə elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərə həssas münasibət ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsasını təşkil etmişdir. Məhz Heydər Əliyevin xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra dövlət müstəqilliyinin ilk illərində ölkə rəhbərliyinin səriştəsizliyi nəticəsində tənəzzülə uğrayan bu sahələr inkişaf etməyə başlamışdır. 1993-cü ilin iyununda Bakıya qayıdan ümummilli lider Heydər Əliyev Elmlər Akademiyasını ictimaiyyət nümayəndələri ilə ilk görüş yeri kimi seçməklə bir daha intellektual potensialın daşıyıcıları olan ziyalıların cəmiyyətdəki roluna böyük önəm verdiyini təsdiq etmişdir. "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Ümummilli lider Heydər Əliyevin 30 mart 1998-ci ildə imzaladığı sərəncam, həmçinin, "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" 15 iyun 1999-cu il tarixdə təsdiqlədiyi təhsil islahatlarının uğurla həyata keçirilməsi, Azərbaycanda təhsil standartlarının yeni dövrün tələblərinə uyğunlaşdırılması prosesinə böyük təkan vermişdir. Milli təhsilimizin məzmunca bu sənədlərdə müəyyənləşdirilən vəzifələrə uyğun olaraq təkmilləşdirilməsi, müasir dünya təcrübəsi və milli ənənələr əsasında inkişafı təmin edilmiş, azərbaycançılıq ideologiyasını özündə əks etdirən çoxsaylı dərsliklər, tədris proqramları hazırlanmış, ayrı-ayrı təhsil sahələri və fənlər üzrə yeni standartlar tətbiq edilmişdir.

Təhsil sisteminin müasirləşdirilməsi baxımından "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" ümummilli liderin 13 iyun 2003-cü il tarixli fərmanı, habelə "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli sərəncamı və digər sənədlər böyük əhəmiyyətə malikdir. Ömrünü bu illər ərzində gənc nəslin maariflənməsinə həsr edən professor-müəllimlərin, elm sahəsində çalışan insanların sosial problemləri də diqqətdən kənarda qalmamış, elmi-pedaqoji kontingent dövlət qayğısı ilə əhatə olunmuş, onların məvacibləri ardıcıl olaraq artırılmış, şərəfli ictimai status sayılan alim-müəllim adının cəmiyyətdəki nüfuzu yenidən bərpa edilmişdir. I4I

Müasir Azərbaycan cəmiyyətinin modernləşməsi tarixi reallıqlar, milli ənənə və resurslar nəzərə alınmaqla baş verir. Cəmiyyətdə sosial, siyasi və mədəni mühitin fundamental şəkildə dəyişməsi həm də nəsillərin dəyişməsi amilləri nəzərə alınmaqla həyata keçirilir. Siyasi sistem o zaman uğurlu fəaliyyət göstərir ki, cəmiyyətin həyatında yetişməkdə olan gənc nəslin qurucu rolu tam şəkildə nəzərə alınır. Azərbaycanda modernləşmə prosesinin sürətlə aparılması üçün intellektual səviyyəli, yeni düşüncəli, kreativ baxışlı gəncliyin yetişdirilməsi, maddi resursların insan kapitalına çevrilməsi istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev Ulu öndərin bu sahədə müəyyənləşdirdiyi siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirərək elmin, təhsilin problemlərinin həlli istiqamətində inamlı addımlar atır.

Böyük müdrikliklə əsaslandırılmış bu inkişaf modeli spesifikliyi ilə fərqlənməklə, demokratik dəyərləri özündə maksimum ehtiva edən milli inkişaf prioritetlərini müəyyənləşdirmişdir. Məhz bunun nəticəsidir ki, Azərbaycan cəmi 20 il müddətində inanılmaz inkişaf yolu keçərək bir sıra Qərb dövlətlərinin onilliklər ərzində zərrə-zərrə əldə etdiyi iqtisadi tərəqqiyə nail olmuşdur. Vətəndaş cəmiyyəti quruculuğu, demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində müəyyən uğurlar əldə etmişdir. Demokratiyanın davamlı milli inkişaf baxımından qaçılmazlığını və müstəsna əhəmiyyət daşıması fikri ictimaiyyət tərəfindən də birmənalı qəbul olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin müdrikliklə yaratdığı milli dövlətçilik modeli spesifikliyi və unikallığı ilə fərqlənməklə, xalqın gələcək yaşam fəlsəfəsini, milli inkişaf prioritetlərini müəyyənləşdirmiş, demokratik dəyərləri özündə maksimum dərəcədə ehtiva etmişdir. Azərbaycanın prioritet inkişaf yoluna çevrilmiş milli iqtisadi modeli özünəməxsus uzaqgörənliklə əsaslandıran Ümummilli lider bu spesifik modelin yalnız demokratik tərəqqiyə əsaslanan möhkəm ictimai-siyasi sabitlik şəraitində davamlı nəticələr verə biləcəyini diqqətə çəkmişdir.

Heydər Əliyevin Azərbaycan xalqının nicat yerinə çevrilmiş siyasi kursu bu gün də inamla davam etdirilir. Dövlət başçısı cənab İlham Əliyev milli intibaha və yüksəlişə hesablanmış fəal maarifçilik missiyası həyata keçirir. Azərbaycan Respublikasının müzəffər Silahlı Qüvvələri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabr-noyabr aylarında Vətən müharibəsini böyük zəfərlə başa vurdu və işğala son qoyuldu. Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin inkişafı, məcburi köçkünlərin geri qaytarılması və sosial kapitalın inkişafı dövlətin xüsusi proqram-əsaslı yanaşması ilə həllini tapa bilər. Dünya təcrübəsinə əsasən, ilk olaraq daxili insan kapitalı qiymətləndirilməlidir ki, buna əsas etibarı ilə keçmiş münaqişə zonası əhalisi daxildir. Vaxt ardıcıllığı və bölgələr nəzərə alınmaqla Qarabağın inkişaf strategiyası həyata keçirilə bilər. Eyni zamanda, ərazidə sosial infrastrukturun, o cümlədən, təhsil və səhiyyənin inkişafı vacibdir. Dövlət və bələdiyyə idarəetmə orqanlarının fəaliyyəti işğaldan azad olunmuş ərazilərdə tam təmin edilməlidir. Məşğulluğun, o cümlədən, özünüməşğulluğun təmin olunması, rəqabətqabiliyyətli iqtisadi sahələrin inkişaf etdirilməsi prioritet olmalıdır. İqtisadi və sosial məsələlər nəzərə alınmaqla məcburi köçkünlərin mərhələlərlə öz yerlərinə qayıtması, insan kapitalının inkişafı, dövlət sərmayələri ilə yanaşı, xarici və yerli sərmayənin cəlb olunması, sahibkarlığın, xüsusilə də mikro, kiçik və orta biznesin inkişafının dəstəklənməsi, iqtisadiyyatın innovativ həllər, yeni texnologiyalar, yaşıl iqtisadiyyat və dövri iqtisadiyyat prinsiplərinə uyğun inkişaf etdirilməsi də prioritetlər arasındadır.

**Ədəbiyyat siyahısı:**

1. Bazarov T., Yereminin B. (2012) Heyətin idarə edilməsi
2. Əliyev T.,Əliyev Ş.,Əliyev R. (2012) İnsan resurslarının idarə edilməsi
3. Əliyev M., Həmidov H. (2002) İnsan resurslarının idarə edilməsi
4. İsgəndərov R. (2009) Heyətin idarə edilməsi

**f-r.e.n., dos. Aslanov Məmməd Səməd oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı şəhəri, İstiqlaliyyət küç.,6*
***m_aslanov@unec.edu.az***

# TEMPERATUR VƏ NANOHİSSƏCİKLƏR NƏZƏRƏ ALINMAQLA ÖZLÜ-ELASTİKİ MÜHİT MODELİNİN TƏDQİQİ

***Açar sözlər:*** temperatur, nanohissəcik, polimer material, kompozit.

***Xülasə.*** Burada özlü-elastiki mühitin mövcud olan Foyqt modeli əsasında temperatur və nanohissəciklər nəzərə alınmaqla formalaşdırılmış yeni riyazi modellərin gərginlik – deformasiya vəziyyəti tədqiq olunmuşdur. Əvvəlcə özlü-elastiki mühitin parametrlərinə temperatur faktorunun təsiri təhlil edilmiş və bunun əsasında temperatura məruz qalmış özlü-elastiki mühitin riyazi modeli qurulmuşdur. Sonra isə temperaturu olan bu özlü-elastiki mühitə nanohissəciklərin əlavə edilməsi ilə baxılan məsələ araşdırılmışdır. Hər iki hala uyğun modelin müəyyənləşdirici tənliyi tərtib olunmuş və başlanğıc şərtlərə uyğun həlləri verilmişdir. Bu həllər əsasında isə sadə hallarda modelləri müqayisə etmək olar. Nəticə olaraq müəyyən edilmişdur ki, Foyqt özlü-elastiki mühitini qızdırmaqla və nanohissəciklər daxil etməklə mühitin deformasiyasının qiymətini, yəni modelin xassəsini dəyişmək olar.

**Giriş.** Fundamental və tətbiqi elmlər sahəsində yeni texnologiyaların işlənməsi və onların praktiki tətbiqi, müasir dövrün aktual məsələlərindən biridir.

Belə texnologiyalardan biri, tətbiqolunma spektri çox geniş olan nanotexnologiyadır. Bu texnologiya, strukturu atom və molekul səviyyəsində manipulyasiya edilmiş məhsulların istehsalı üsullarını özündə birləşdirir.

Nanotexnologiyanın üsullarından biri polimer materiallara, mayelərə (özlü, özlü-elastiki mayelər, qeyri-bircins mayeşəkilli sistemlər və s.) nanohissəciklərin əlavə edilməsidir. Nanohissəciklərin belə mühitlərə daxil edilməsi onların atomar və ya molekulyar səviyyədə strukturunu dəyişir. Bu zaman polimer və ya maye mühitlərin fiziki-kimyəvi və mexaniki xassələrinin dəyişdiyini, həmçinin, digər faktorların (temperatur, təzyiq və s.) təsirinin nəzərə alınması ilə belə mühitlərin gərginlik-deformasiya vəziyyətinin araşdırılması diqqəti cəlb edir. Yeni tip materiallara, xüsusilə nanokompozitlərə maraq çox yüksəkdir.

Məlumdur ki, polimer və kompozit materiallar, əsasən izotrop olmaqla amorf cisimlər kimi qəbul edilirlər. Temperaturun artan qiymətləri polimerin molekulyar hərəkətinə təsir etdiyindən, onda axıcılıq qabiliyyəti yaranar və o, özünü özlü maye kimi apara bilər. Nanokompozisiyalı strukturu formalaşdırmaq məqsədilə polimer matrisanın temperaturu nəzərə alınaraq ona müxtəlif üsullarla nanohissəciklər daxil edilir. Bu halda temperatur və nanohissəciklər nəzərə alınmaqla materialın hərəkət tərzinin təsviri zərurəti yaranır. Temperatur və nanohissəciklər nəzərə alınmadan belə materialların təsviri üçün özlü-elastiki mühit modeli daxil edilir ki, bu da elastiklik nəzəriyyəsində kifayət qədər ətraflı öyrənilmişdir [1,2]. Temperaturun artırılmasının və nanohissəciklərin təsirinin öyrənilməsi üçün temperatur faktorunun və nanohissəciklərin xassələrini xarakterizə edən parametrləri daxil etməklə mövcud olan mühit modellərini modernləşdirmək məqsədəuyğundur. Temperatur nəzərə alınmaqla tərkibində nanohissəciklər olan özlü-elastiki mühitlərin yeni modellərinin qurulması əsasında araşdırılması nanotexnologiyanın aktual məsələlərindən biridir [3-7].

**Məsələnin qoyuluşu.** Özlü-elastiki cisimlərin ən sadə modeli olan Foyqt modelinə baxaq. Məlumdur ki, bu model bir-birinə paralel birləşdirilmiş elastiki və özlülüyü olan elementlərdən ibarətdir (sək.1). Bu model aşağıdakı parametrik tənliklə təsvir edilir:

$$\sigma = \sigma_1 + \sigma_2 = E\varepsilon + \mu\dot{\varepsilon} , \quad (1)$$

Burada, $\sigma_i$ $(i=1,2)$ - hər bir elementdəki gərginlik, $\varepsilon$ -ümumi deformasiya, $E$ -elastiklik əmsalı, $\mu$ -özlülük əmsalıdır.




Şəkil1. Foyqt modeli

Foyqt modelinin müəyyənləşdirici (1) diferensial tənliyinin $\varepsilon(0)=0$ şərtini ödəyən həlli aşağıdakı şəkildədir [4]:

$$\varepsilon(t) = \frac{1}{\mu}\int_0^t \sigma(\tau)\exp\left(-\frac{E}{\mu}(t-\tau)\right)d\tau . \quad (2)$$

$\sigma(\tau) = const$ olduqda isə (2) həlli aşağıdakı şəkildə olur:

$$\varepsilon(t) = \frac{\sigma}{E}\left(1 - \exp\left(-\frac{E}{\mu}t\right)\right) . \quad (3)$$

Bəzi texnologiyalar tətbiq edilən zaman polimerlərin, kolloid maddələrin, suspenziyaların, temperaturu yüksəldilmiş halda, onlara nanohissəciklərin əlavə edilməsi halları ola bilər ki, bu da özlü-elastiki mühitin xassəsinin dəyişməsinə səbəb olur. İlkin modelin dəyişmədiyi fərziyyəsini qəbul edərək, onun parametrlərinin dəyişməsini təyin edək.

**Məsələnin həlli.** Özlü-elastiki cisimlərin Foyqt modelinin elastiki elementini bir-birilə qarşılıqlı təsirdə olan atomların birölçülü "zənciri" şəklində təsəvvür edək. Yüksək molekulalı sistemlər üçün belə fərziyə qəbul ediləndir.

Tutaq ki, deformasiyaya uğramayan halda və temperatur nəzərə alınmadan atomlardan ibarət olan "zəncir" aşağıdakı şəklə malikdir (şək. 2, a). Atomlar arasındakı $F(a_0)$ - qarşılıqlı təsir qüvvəsi elektromaqnit potensialı hesabına "zənciri" tarazlaşdırır. Burada $a_0$ - deformasiyaya uğramamış və temperatur nəzərə alınmayan halda "zəncir"dəki atomlar arasındakı məsafədir (şək.2,a).

Atomlar "zənciri"nin temperaturunu $\Delta T \neq 0$, $\Delta T > 0$ qədər artırsaq, onda atomlar "zənciri" temperatur nəzərə alınmaqla şək.2, b - dəki görünüşə malik olacaq.




Şəkil 2. Foyqt modelinin elastiki elementi:
a) temperatur nəzərə alınmayan halda; b) temperatur nəzərə alınan halda.

Atomlar "zənciri"nin temperaturunu $\Delta T \neq 0$, $\Delta T > 0$ qədər artıraq. Onda atomlar "zənciri" temperatur nəzərə alınmaqla şək.2, b - dəki görünüşə malik olacaq. Burada $a_T > a_0$ - temperaturun təsiri nəticəsində atomlar arasındakı məsafədir. Bu kəmiyyət "zəncir"in həndəsəsindən aşağıdakı kimi təyin edilir:

$$\frac{a_T - a_0}{a_0} = \alpha \cdot \Delta T , \quad a_T = a_0(1 + \alpha \cdot \Delta T) , \quad (4)$$

Burada, $\alpha$ - mütənasiblik əmsalıdır və $\alpha = const$. $\varepsilon_T = \dfrac{a_T - a_0}{a_0}$ işarələməsini daxil edək və onu ancaq temperatur nəticəsində yaranan deformasiya adlandıraq. Bu halda atomlar arasındakı qüvvə dəyişmir, yəni $F(a_T) = F(a_0)$.

Qızdırılmş "zəncirə" dartıcı qüvvə tətbiq edək. Onda atomlar "zənciri" aşağıdakı şəkli alar:




Şəkil 3. Qızdırılmş "zəncırə" dartıcı qüvvənin təsiri.

Burada, $a > a_T > a_0$ - dartcı qüvvə və temperaturun təsirindən atomlar arasındakı məsafədir. "Zəncir"dəki $\sigma$ - gərginliyi üçün yaza bilərik:

$$F(a) = R_x \cdot \sigma,$$

Burada, $F(a)$ - atomlar arasındakı mövcud qüvvədir, $R_x$ - atomlar "zənciri" kəsiyinin xarakterik sahəsidir.

"Zəncir"dəki $\sigma$ - gərginliyini təyin edək:

$$R_x \cdot \sigma = F(a) = F(a_T) + F'(a_T) \cdot (a - a_T) + \ldots, \quad (5)$$

Burada, Teylor sırasının xətti hissəsini götürsək, alarıq:

$$R_x \cdot \sigma = F(a_0) + F'(a_T) \cdot a_0 \cdot \frac{a - a_T}{a_0}.$$

Bu bərabərliyin sağ tərəfindəki 2-ci həddin sonuncu vuruğunu aşağıdakı kimi göstərək:

$$\frac{a - a_T}{a_0} = \frac{a - a_0 + a_0 - a_T}{a_0} = \varepsilon - \varepsilon_T,$$

Burada, $\varepsilon = \dfrac{a - a_0}{a_0}$ - deformasiya olub, tətbiq olunan qüvvə və temperaturun təsirindən yaranan deformasiyadır. Onda (5) bərabərliyini aşağıdakı şəkildə yaza bilərik:

$$R_x \cdot \sigma = F(a_0) + F'(a_T) \cdot a_0 \cdot (\varepsilon - \varepsilon_T). \quad (6)$$

Deformasiya olunmayan "zəncir"in sərtliyinin $c = F'(a_0)$ olduğunu qəbul edərək, $F'(a_T)$-ni təyin edək:

$$F'(a_T) = F'(a_0) + F''(a_0)(a_T - a_0) = c + F''(a_0) \cdot a_0 \cdot \alpha \cdot \Delta T = c + F''(a_0) \cdot \varepsilon_T \cdot a_0.$$

Buradan alırıq ki, $F'(a_T)$ temperaturdan və "zəncirin" həndəsi parametrlərindən asılıdır.

Fərz edək ki, $c >> \varepsilon_T \cdot a_0 \cdot F''(a_0)$. Onda (6) münasibətinə əsasən yaza bilərik:

$$R_x \cdot \sigma = F(a_0) + c \cdot a_0 \cdot (\varepsilon - \varepsilon_T).$$

Burada, $F(a_0)$ kəmiyyətini nəzərə almasaq, alarıq ki,

$$\sigma = \frac{c \cdot a_0}{R_x} \cdot (\varepsilon - \varepsilon_T) = \frac{c \cdot a_0}{R_x} \cdot (\varepsilon - \alpha \cdot \Delta T) = E \cdot (\varepsilon - \alpha \cdot \Delta T), \qquad (7)$$

Burada, $E = \frac{c \cdot a_0}{R_x}$ - elastiklik moduludur.

Qeyd edək ki, $c$ kəmiyyəti $\Delta T$ - dən asılı olduğu üçün, $E$ - elastiklik modulu da $\Delta T$ - dən asılıdır.

Foyqt modelinin özlülüyü olan elementini maye ilə doldurulmuş və porşenlə sıxılan silindr şəklində təsəvvür edək. Fərz edək ki, silindrdəki mayenin temperaturu artırılmışdır və bu halda da Foyqt modeli öz şəklini dəyişmir. Bu halda temperaturun təsiri özünü müxtəlif formada göstərə bilər: silindrin divarına mayenin sürtünmə qüvvəsinin artması, mayenin xassəsinin dəyişməsi, bu effektlərin kombinasiyası və həmçinin, heç bir təsirin olmaması da ola bilər. Baxılan model üçün qeyd olunan temperatur təsirlərini özlülük əmsalının dəyişməsinə gətirmək olar, yəni $\mu_T$ - kəmiyyətini daxil etmək olar. Prosesin fizikasına əsasən nəticə olaraq çıxır ki, $\mu_T \le \mu$. Doğrudan da birinci variantı qəbul edərək, porşeni eyni bir qüvvə ilə dartdıqda yerdəyişmə sürəti sürtünmə hesabına azalacaqdır,

$$\dot{\varepsilon}_T = \mu_T \cdot \sigma < \dot{\varepsilon} = \mu \cdot \sigma .$$

Qeyd olunmuş bu bərabərsizlik, buradan nəticə olaraq alınır.

Beləliklə, (1) münasibətinə əsaslanaraq və modelin uyğun elementlərinə temperaturun təsirini nəzərə alaq ($\sigma_1 = E_T \cdot (\varepsilon - \varepsilon_T)$, $\sigma_2 = \mu_T \cdot \dot{\varepsilon}$).

Bu halda Foyqt modelinin müəyyənləşdirici tənliyini aşağıdakı şəkildə yazmaq olar:

$$\sigma = E \cdot e_T \cdot (\varepsilon - \varepsilon_T) + \mu \cdot v_T \cdot \dot{\varepsilon}, \qquad (8)$$

Burada, aşağıdakı işarələmələr daxil edilmişdir:

$$e_T = \frac{E_T}{E} = c_T \cdot \frac{1}{c}; \quad v_T = \frac{\mu_T}{\mu}; \quad (v_T \le 1).$$

(8) tənliyinin $\varepsilon(0) = 0$ şərtini ödəyən həlli aşağıdakı şəkildədir:

$$\varepsilon(t) = \frac{1}{\mu_T} \int_0^t \sigma(\tau) \exp\left[ -\frac{E_T}{\mu_T}(t-\tau) \right] d\tau + \varepsilon_T \left[ 1 - \exp(-\frac{E_T}{\mu_T} \cdot t) \right] \qquad (9)$$

və ya $\sigma = const$ olarsa,

$$\varepsilon(t) = \left( \frac{\sigma}{E_T} + \varepsilon_T \right) \cdot \left[ 1 - \exp(-\frac{E_T}{\mu_T} \cdot t) \right]. \qquad (10)$$

Qızdırılmış özlü-elastiki mühitə nanohissəciklər daxil edək. Fərz edək ki, bu halda daxil edilmiş hər bir nanohissəcik müəyyən temperatura malik atomlar arasında aralıq yeri tutur (ola bilər ki, bir neçə nanohissəcik). Bu zaman düzxətli "zəncir"dən ibarət olan elastiki elementin strukturu dəyişmir. Bu, nanohissəciklər daxil edildikdə özlü-elastiki mühitin mövcud modelinin saxlandığı fərziyəsindən nəticə olaraq alınır. Fərz edək ki, nanohissəciklər ancaq qonşu hissəciklərlə qarşılıqlı təsirdə olurlar.




Şəkil 4. Nanohissəciklər daxil edilmiş qızdırılmış düzxətli "zəncir".

Onda nanohissəciklər daxil edilmiş halda da temperatur təsiri nəticəsində yaranan deformasiya üçün yaza bilərik:

$$\varepsilon_T = \frac{\frac{a_T}{2} - \frac{a_0}{2}}{\frac{a_0}{2}} = \frac{a_T - a_0}{a_0} = \alpha \cdot \Delta T \, .$$

Qızdırılmış özlü-elastiki mühitə nanohissəciklər daxil edildikdən sonra dartıcı qüvvə tətbiq etsək, "zəncir"dəki gərginlik üçün aşağıdakı bərabərliyi yaza bilərik:

$$R_x \cdot \sigma = F_n\left(\frac{a}{2}\right),$$

Burada, $n$ verilən kəmiyyətin nanohissəciyə aid olduğunu göstərir. Teylor sırasının xətti hissəsini nəzərə alsaq, aşağıdakı təqribi bərabərliyi yaza bilərik:

$$R_x \cdot \sigma = F_n\left(\frac{a}{2}\right) = F_n\left(\frac{a_T}{2}\right) + F_n'\left(\frac{a_T}{2}\right) \cdot \left(\frac{a}{2} - \frac{a_T}{2}\right).$$

Qızdırılmış "zəncir"in " sərtliyi"ni $F_n'\left(\frac{a_T}{2}\right) = c_n$ işarə edək. Onda

$$R_x \cdot \sigma = F_n\left(\frac{a_T}{2}\right) + c_n \cdot \left(\frac{a}{2} - \frac{a_T}{2}\right) \approx c_n \cdot \frac{a_0}{2}\left(\varepsilon - \varepsilon_T\right) = c_n \cdot \frac{a_0}{2}\left(\varepsilon - \alpha \cdot \Delta T\right).$$

Beləliklə alırıq ki,

$$\sigma = \frac{c_n \cdot a_0}{2 \cdot R_x}\left(\varepsilon - \varepsilon_T\right) = E_n \cdot \left(\varepsilon - \alpha \cdot \Delta T\right),$$

Burada, $E_n = \dfrac{c_n \cdot a_0}{2 \cdot R_x}$.

Özlü-elastiki mühitin özlülüyü olan elementini qızdırılmış maye ilə dolu və porşenlə sıxılmış silindr şəklində təsəvvür edək. Fərz edək ki daxil edilmiş nanohissəciklər temperatur təsirinə məruz qalmış maye modelini dəyişmir. Bu halda qızdırılmış mayedə nanohissəciklərin təsiri bərk hissəciklərin təsirinə analoji olacaqdır. Nanohissəciklərin təsiri müxtəlif ola bilər: silindrin divarına temperaturu yüksəlmiş mayenin sürtünmə qüvvəsinin artması, qızmış mayenin xassəsinin dəyişməsi və bu effektlərin kombinasiyaları, həmçinin, ola bilər ki, nanohissəciklərin heç bir təsiri olmasın. Effektin seçilməsi qızdırılmış mayenin fiziki-kimyəvi xassələri və nanohissəciklər arasındakı qarşılıqlı əlaqədən asılıdır. Nanohissəciklərin qeyd olunan təsirlərini baxdığımız model üçün özlülük əmsalının dəyişməsinə gətirmək olar, yəni qızdırılmış maye mühitin özlülüyündən fərqli $\mu_n$ kəmiyyətini daxil etmək olar. Prosesin fizikasına əsaslanaraq yaza bilərik ki, $\mu_n \le \mu_T$. Porşenə dartıcı qüvvə tətbiq etsək, yaza bilərik ki,

$$\dot{\varepsilon}_n = \mu_n \cdot \sigma < \dot{\varepsilon} = \mu_T \cdot \sigma \, .$$

Beləliklə, (1) və (8) tənliklərinə əsaslanaraq, nanohissəcikləri nəzərə almaqla, temperatur təsirinə məruz qalmış özlü-elastiki mühit modeli üçün alarıq:

$$\sigma = E_T \cdot e_n \cdot (\varepsilon - \varepsilon_T) + \mu_T \cdot v_n \cdot \dot{\varepsilon} \,, \qquad (11)$$

Burada, $e_n = \dfrac{E_n}{E_T} = c_n \cdot \dfrac{1}{2 \cdot c_T}$; $\quad v_n = \dfrac{\mu_n}{\mu_T}$ ; $\quad (v_n \le 1)$.

Verilmiş (11) diferensial tənliyinin $\varepsilon(0) = 0$ şərtini ödəyən həlli aşağıdakı şəkildədir:

$$\varepsilon(t) = \frac{1}{\mu \cdot v_T \cdot v_n}\int_0^t \sigma(\tau)\exp\left[-\frac{E \cdot e_T}{\mu \cdot v_T} \cdot \frac{e_n}{v_n}(t-\tau)\right]d\tau + \varepsilon_T\left[1 - \exp\left(-\frac{E \cdot e_T}{\mu \cdot v_T} \cdot \frac{e_n}{v_n} \cdot t\right)\right] \qquad (13)$$

və ya $\sigma = const$ olduqda, alarıq:

$$\varepsilon(t)=\left(\frac{\sigma}{e_n\cdot e_T\cdot E}+\varepsilon_T\right)\cdot\left[1-\exp(-\frac{e_n\cdot e_T\cdot E}{v_n\cdot v_T\cdot\mu}\cdot t)\right]. \qquad (14)$$

**Həllin təhlili.** Sadə hala baxaq. Foyqt modelində temperatur nəzərə alınmadığı halda, yəni $\varepsilon_T=0$ $(e_T=v_T=1,\ E_T=E,\ \mu_T=\mu)$ olduqda, nanohissəciklərin təsiri nəzərə alınan məsələnin [4] - də verilmiş həllini alarıq:

$$\varepsilon(t)=\frac{1}{\mu\cdot v_n}\int_0^t\sigma(\tau)\exp\left[-\frac{E}{\mu}\cdot\frac{e_n}{v_n}(t-\tau)\right]d\tau=\frac{1}{\mu_n}\int_0^t\sigma(\tau)\exp\left[-\frac{E_n}{\mu_n}(t-\tau)\right]d\tau, \qquad (15)$$

və ya $\sigma=const$ olduqda, alarıq:

$$\varepsilon(t)=\frac{\sigma}{e_n\cdot E}\cdot\left[1-\exp(-\frac{e_n\cdot E}{v_n\cdot\mu}\cdot t)\right]=\frac{\sigma}{E_n}\cdot\left[1-\exp(-\frac{E_n}{\mu_n}\cdot t)\right]$$

Sadə hallarda, məsələn, temperatur nəzərə alınan model ilə Foyqt modelini, temperatur nəzərə alınan model ilə nanohissəciklər nəzərə alınan modeli, nanohissəciklər nəzərə alınan model ilə Foyqt modelini müqayisə etmək olar.

Məsələn, $\mu_T=\mu$ $(v_T=1)$ olduqda temperaturun təsirini analiz edək. Onda, əsas həll $\sigma=const$ olduqda aşağıdakı şəkli alar:

$$\varepsilon_T(t)=\left(\frac{\sigma}{E\cdot e_T}+\varepsilon_T\right)\cdot\left[1-\exp(-\frac{E\cdot e_T}{\mu}\cdot t)\right].$$

Bu bərabərlik yazılan zaman fərz edilmişdir ki, $\sigma_T=\sigma$. Deformasiyaların nisbətini təyin edək:

$$\frac{\varepsilon_T(t)}{\varepsilon(t)}=\frac{\left(\frac{\sigma}{E\cdot e_T}+\varepsilon_T\right)\cdot\left[1-\exp(-\frac{E\cdot e_T}{\mu}\cdot t)\right]}{\frac{\sigma}{E}\cdot\left[1-\exp(-\frac{E}{\mu}\cdot t)\right]}.$$

Deformasiya nisbətlərinin limit qiymətləri aşağıdakı şəkildədir:

$$\lim_{t\to0}\frac{\varepsilon_T(t)}{\varepsilon(t)}=\left(1+\frac{E}{\sigma}\cdot e_T\cdot\varepsilon_T\right);\qquad \lim_{t\to\infty}\frac{\varepsilon_T(t)}{\varepsilon(t)}=\frac{1}{e_T}\left(1+\frac{E}{\sigma}\cdot e_T\cdot\varepsilon_T\right).$$

Temperatur nəzərə alınan model ilə, nanohissəciklər nəzərə alınan modeli müqayisə etmək üçün $\mu_n=\mu_T$ $(v_n=1)$ götürək. Onda, əsas həll $\sigma=const$ olduqda aşağıdakı şəkli alar:

$$\varepsilon(t)=\left(\frac{\sigma}{e_n\cdot e_T\cdot E}+\varepsilon_T\right)\cdot\left[1-\exp(-\frac{e_n\cdot e_T\cdot E}{v_T\cdot\mu_T}\cdot t)\right]$$

Burada, fərz edilmişdir ki, $\sigma_n=\sigma$. Deformasiyaların nisbətini təyin edək:

$$\frac{\varepsilon_n(t)}{\varepsilon_T(t)}=\frac{\frac{1}{e_n}\left(\frac{\sigma}{e_T\cdot E}+e_n\cdot\varepsilon_T\right)\cdot\left[1-\exp(-\frac{e_n\cdot e_T\cdot E}{v_T\cdot\mu_T}\cdot t)\right]}{\left(\frac{\sigma}{E\cdot e_T}+\varepsilon_T\right)\cdot\left[1-\exp(-\frac{E\cdot e_T}{\mu_T}\cdot t)\right]}$$

Deformasiya nisbətlərinin limit qiymətləri aşağıdakı şəkildədir:

$$\lim_{t\to 0}\frac{\varepsilon_n(t)}{\varepsilon_T(t)}=\frac{\left(1+\frac{E_T\cdot e_n}{\sigma}\cdot\varepsilon_T\right)}{\left(1+\frac{E_T}{\sigma}\cdot\varepsilon_T\right)},\qquad \lim_{t\to\infty}\frac{\varepsilon_n(t)}{\varepsilon_T(t)}=\frac{1}{e_n}\cdot\frac{\left(1+\frac{E_T\cdot e_n}{\sigma}\cdot\varepsilon_T\right)}{\left(1+\frac{E_T}{\sigma}\cdot\varepsilon_T\right)}$$

Nanohissəciklər nəzərə alınan model ilə Foyqt modelini müqayisə etmək üçün $\mu_n=\mu$ ( $\nu_n=1$) götürək. Onda, əsas həll $\sigma=const$ olduqda aşağıdakı şəkli alar [4]:

$$\varepsilon_n(t)=\frac{\sigma}{E_n}\cdot\left[1-\exp(-\frac{E_n}{\mu}\cdot t)\right]=\frac{\sigma}{E}\cdot\frac{1}{e_n}\cdot\left[1-\exp(-\frac{E}{\mu}\cdot t\cdot e_n)\right]$$

Bu bərabərlik yazılan zaman fərz edilmişdir ki, $\sigma_n=\sigma$. Deformasiyaların nisbətini təyin edək:

$$\frac{\varepsilon_n(t)}{\varepsilon(t)}=\frac{\frac{1}{e_n}\cdot\left[1-\exp(-\frac{E}{\mu}\cdot t\cdot e_n)\right]}{\left[1-\exp(-\frac{E}{\mu}\cdot t)\right]}.$$

Deformasiya nisbətlərinin limit qiymətləri aşağıdakı şəkildədir:

$$\lim_{t\to 0}\frac{\varepsilon_n(t)}{\varepsilon(t)}=1;\qquad \lim_{t\to\infty}\frac{\varepsilon_n(t)}{\varepsilon(t)}=\frac{1}{e_n}.$$

Qeyd olunan müqayisə variantlarının hər biri üçün stasionar nöqtə aşağıdakı transendent tənlikdən tapılır:

$$e_T\cdot\exp(x-x\cdot e_T)-1=\exp(-x\cdot e_T)\cdot(e_T-1)\ ;\ \ x=\frac{E}{\mu}\cdot t.$$

Göstərmək olar ki, bu tənliyin kökləri mövcud deyil, yəni qeyd olunan deformasiyaların nisbətləri monoton funksiyalardır. Məsələn, $e_n>1$ olduqda sonuncu nisbəti ifadə edən funksiya monoton artır, $e_n<1$ olduqda isə funksiya monoton azalır.

**Nəticə.** Əgər elastiki element qızdırıldıqda atomlar arasındakı elastiki əlaqə $e_T<1$, yəni $c_T<c$ bərabərsizliyini ödəyərsə, onda temperaturun təsiri özlü-elastiki mühitin deformasiyasının artmasına gətirir. Əks halda, əgər $c_T>c$ olarsa, özlü-elastiki mühitin temperaturunun artırılması deformasiyanın azalmasına gətirir. Oxşar mülahizəni qızdırılmış özlü-elastiki mühitə nanohissəciklər əlavə edilən hal üçün də söyləmək olar. Yəni qızdırılmış mühitdə nanohissəciklərin elastiki əlaqəsi $e_n<1$, yəni $c_n<2c_T$ bərabərsizliyini ödəyərsə, onda qızdırılmış özlü-elastiki mühitə nanohissəciklərin əlavə edilməsi deformasiyanın artmasına gətirir. Əks halda, əgər $c_n>2c_T$ olarsa, nanohissəciklərin əlavə edilməsi deformasiyanın azalmasına gətirir. Beləliklə, özlü-elastiki mühiti qızdırmaqla və ona nanohissəciklər daxil etməklə deformasiyanın qiymətini dəyişmək, yəni modelin xassəsini dəyişmək olar.

## Ədəbiyyat


1. Кристенсен Р. Введение в теорию вязкоупругости. М.: Мир, 1974, 338 с.
2. Fərzəliyev M.H., Aslanov M.S. Mayeşəkilli qeyri-bircins qida sistemlərinin ayrılma prosesinin tədqiqi. “Respublikamızda qida və tekistil sənayesinin inkişaf perspektivləri və qarşıda duran vəzifələr” mövzusunda III Respublika elmi-praktiki konfransının materialları. 21 may 2019-cu il. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) – Bakı., s. 186-188.

3. Aslanov M.S. Temperatur nəzərə alınmaqla özlü-elastiki maye mühitin gərginlik-deformasiya vəziyyətinin təyini.“Respublikamızda qida və yüngül sənayenin inkişaf perspektivləri və qarşıda duran vəzifələr” mövzusunda IV Respublika elmi-praktiki konfransının materialları. 8dekabr 2020-ci il. Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC).– Bakı.
4. Рамазанов, М.А., Асланов М.С. Определяющее уравнение модель Фойхта с учетом наночастиц. Материалы I Международной Научной Конференции «Нанотехнологии и применение их в технике», Баку, 15-16 декабря, 2010, с. 72-75.
5. РамазановМ.А., Aslanov M.S. Synthesis of toe Maxwell model based on nanoparticles. Digest Journal of Nanomaterials and Biostructures, ISSN1842-3582, Vol.7,No.2, Romania, April-June 2012, p.817-822.
6. Помогайло А.Д. Наночастицы металлов в полимерах. / Помогайло, А.Д., Розенберг А.С., Уфлянд И.Е. М.: Химия, 2000.
7. Абдуллаев С., Нагиев Ф. Наногидромеханика. Исследовательских Центр Высоких Технологий. Баку, 2011.-158 с.: ил.ISBN 5-86874-164-1.

**Tex.f.d., baş müəllim Məmmədov Azər İsmayıl oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
mammadov_azer1974@mail.ru

## EKSPERİMENTAL QIÇADÖYƏN QURĞUNUN İQTISADİ SƏMƏRƏLİLİYİNİN TƏYİNİ

*Ümummilli lider Heydər Əliyevin Azərbaycanda aqrar sahə və kənd təsərrüfatının inkişafına göstərdiyi dəstək inkaredilməzdir. Dövlət siyasətinin gənc tədqiqatçılara və elmi araşdırmaçılara göstərdiyi böyük dəstək sayəsində bu sahədə aparılan elmi-tədqiqat işlərinin sayı daim artmaqdadır.*

*Apardığım elmi araşdırmalar nəticəsində yerli və xarici kiçik təsərrüfat sahiblərinin işinin yüngülləşdirilməsi məqsədilə eksperimental qıçadöyən qurğunun elmi-texniki yeniliyini sübut etdim və F 2018 0012 saylı yerli, həmçinin, 2594516 saylı Rusiya Federasiyasının patentlərini aldım.*

*Məqalədə qarğıdalının yığım sonrası prosesinin əsaslandırılma metodikası verilmişdir. Burada eksperimental və analoji qurğuların iqtisadi səmərəliliyinin təyin edilməsi üçün hesabat düsturları verilir. Standart metodikaya əsasən yeni texniki vasitənin mövsümlük iqtisadi səmərəliliyi onun baza maşını ilə müqayisədə mövsümlük gətirilmiş xərclərin fərqi ilə qiymətləndirilir. Baza variantı olaraq konstruktiv cəhətdən və texniki göstəricilərinə görə eksperimental qıçadöyən qurğuya ən yaxın olan və seriya halında Ukrayna Respublikasında istehsal olunan ДТЗ МКП-0,3 qurğusu götürülmüşdür.*

***Açar sözlər***: *qarğıdalı, qıça, qıçadöyən qurğu, texniki vasitə, riyazi model.*

Eksperimental qıçadöyən qurğunun işçi nümunəsi "Aqromexanika" Elmi-Tədqiqat İnstitutunda hazırlanaraq Tovuz rayonunun Qovlar qəsəbəsindəki "Araz-T" şirkətinin təsərrüfatında istehsalat şəaritində sınaqdan keçirilmişdir. İstehsalat sınaqları qurğunun iş qabiliyyətini və iqtisadi səmərəliliyini təsdiq etmişdir. İqtisadi səmərəliliyi hesablamaq üçün yeni maşın və yaxud maşınlı texnologiyaların tətbiqinin iqtisadi səmərəliliyinin müəyyən edilməsi üzrə standart metodikadan istifadə edilmişdir.

Standart metodikaya əsasən yeni texniki vasitənin mövsümlük iqtisadi səmərəliliyi onun baza maşını ilə müqayisədə mövsümlük gətirilmiş xərclərin fərqi ilə qiymətləndirilir. Baza variantı olaraq konstruktiv cəhətdən və texniki göstəricilərinə görə eksperimental qıçadöyən qurğuya ən yaxın olan və seriya halında Ukrayna Respublikasında istehsal olunan ДТЗ МКП-0,3 qurğusu götürülmüşdür.

Hər iki variantın əsas texniki göstəriciləri cədvəl 1-də verilmişdir.

Yeni texniki vasitənin mövsümlük iqtisadi səmərəliliyi ($S_{il}$) aşağıdakı düsturla təyin edilir:

$$S_{il} = (G_b - G_y) + \Delta, \quad (1)$$

Burada, $G_b$ – baza variantı qurğusunun tətbiqi ilə mövsümlük gətirilmiş xərclər, AZN;
$G_y$ – yeni variant qurğunun tətbiqi ilə mövsümlük gətirilmiş xərclər, AZN;
$\Delta$ – yeni texnikanın tətbiqi ilə əlaqəli yaranan əlavə səmərə, AZN.

***Qıçadöyən qurğuların texniki xarakteristikaları***

***Cədvəl 1***

| № | Göstəricilər | Ölçü vahidi | Texniki vasitələr | |
|---|---|---|---|---|
| | | | ДТЗ МКП -0,3 | Eksperimental |
| 1 | Məhsuldarlıq | kq/saat | 300 | 350 |
| 2 | Güc | kW | 1,8 | 0,55 |
| 3 | Kütlə | kq | 23 | 20 |
| 4 | Qiyməti | AZN | 182 | 86 |

Hər hansı texnikanın tətbiqi ilə əlaqədar mövsümlük gətirilmiş xərclər ($G$) aşağıdakı düsturla müəyyən edilir:

$$G = İ + EK, \qquad (2)$$

Burada,$İ$– texniki vasitənin tətbiqi ilə əlaqəli mövsümlük istismar xərcləri, AZN;
$E$–normativ əmsal olub sərmayə qoyuluşunun səmərəliliyini bildirir.
Döyücü qurğular üçün $E$=0,15;
$K$–texniki vasitənin əldə edilməsinə tələb olunan sərmayə qoyuluşu, AZN.

Texniki vasitədən istifadə ilə əlaqədar olaraq mövsümlük istismar xərcləri ($İ$) aşağıdakı xərcləri əhatə edir:

$$İ = Ə + A + R + Y \qquad (3)$$

Burada,$Ə$– texniki vasitəni işlədən işçilərin həmən işə görə hesablanmış mövsümlük əməkhaqqı, AZN;
$A$– texniki vasitədən istifadənin amortizasiya ayırmaları, AZN;
$R$– texniki vasitədən istifadənin texniki qulluq və cari təmir ayırmaları, AZN;
$Y$– texniki vasitənin işlədilməsinə sərf olunan yanacaq-yağlama materialı və yaxud elektrik enerji sərfinə çəkilən xərclər, AZN.

Verilmiş hesabat düsturlarına əsaslanaraq baza variantı üçün mövsümlük istismar xərclərini ($İ_b$) və mövsümlük gətirilmiş xərcləri ($G_b$) hesablayırıq.

Baza variantı (ДТЗ МКП -0,3 qarğıdalıdöyəni) üçün mövsümlük istismar xərcləri aşağıdakı kimidir:

$$İ_b = Ə_b + A_b + R_b + Y_b, (4)$$

Burada,$Ə_b$ – təsərrüfatda ДТЗ МКП -0,3 qurğusunu işlətməsi üçün işçiyə hesablanan mövsümlük əməkhaqqı, AZN;
$A_b$ – ДТЗ МКП -0,3 qurğusunun istismarının mövsümlük amortizasiya ayırmaları, AZN;
$R_b$ – ДТЗ МКП -0,3 qurğusunun istismarının mövsümlük texniki qulluq və cari təmir ayırmaları, AZN;
$Y_b$– ДТЗ МКП -0,3 qurğusunun mövsümlük enerji sərfinə çəkilən xərclər, AZN.

Baza variantı üçün işçinin mövsümlük əməkhaqqını ($Ə_b$) hesablayırıq**:**

$$Ə_b = n_b \, t_b \, D \cdot c, \quad (5)$$

Burada,$n_b$ – baza qurğusunu işlədən işçilərin sayı, $n$=1 nəfər;
$t_b$ – baza qurğusunu gündə işlədilmə müddəti, saat;
$D$- il ərzində qurğudan istfadə olunma günləri, $D$=30 gün;
$c$- işçinin həmən iş üçün saatlıq əməkhaqqı tarifi, $c$=2,4 AZN/saat.

Əgər təsərrüfatda gündəlik iş həcmini ($Q$) yəni yığımsonrası işlənməyə 1 ton qıça gətirildiyini qəbul etsək onda qıçadöyən qurğunun gündə işləmə müddətini aşağıdakı kimi təyin etmək olar:

$$t_b = \frac{Q}{W_{qb}}, \quad (6)$$

Burada,$Q$ – gündəlik iş həcmi, $Q$=1000 kq;

$W_{qb}$ – baza qurğusunun saatlıq məhsuldarlığı, $W_{qb}$ =300 kq/saat.

Qiymətləri (4.10) düsturunda yerinə yazsaq alırıq:

$$t_b = \frac{1000}{300} = 3{,}3 \text{ saat.}$$

ДТЗ МКП -0,3 qurğusununun gündəlik işləmə müddətinin 3,3 saat olduğunu bildikdən sonra ona xidmət göstərən işçinin əməkhaqqını tapa bilərik:

$Ə_b$=1·3,3·30·2,4=237,6 AZN.

Baza variantı üçün amortizasiya ayırmaları ($A_b$) aşağıdakı kimi müəyyən edilir:

$$A_b = \frac{B_b \cdot a}{100}, \qquad (7)$$

Burada,$B_b$- ДТЗ МКП -0,3 qıçadöyən qurğunun balans qiyməti, $B_b$=182 AZN;

$a$ – normativ əmsal olub, $a$=14.

Qeyd olunan qiymətləri nəzərə alsaq yaza bilərik:

$$A_b = \frac{182 \cdot 14}{100} = 25{,}48 \text{ AZN.}$$

Baza variantı üçün texniki qulluq və cari təmir ayırmaları aşağıdakı düsturla müəyyən edilir:

$$R_b = \frac{B_b \cdot r}{100}, \qquad (8)$$

Burada,$r$ – normativ əmsal olub, $r$=18.

Onda:

$$R_b = \frac{182 \cdot 18}{100} = 32{,}76 \text{ AZN.}$$

Beləliklə,ДТЗ МКП - 0,3 qıçadöyən qurğunun amortizasiya, texniki qulluq və cari təmir ayırmaları $A_b+R_b$=58,18 AZN olduğu müəyyən edilmiş olur.

İndi isə təsərrüfatda ДТЗ МКП -0,3 qıçadöyən qurğunun işlədilməsi ilə əlaqədar enerji sərfinə çəkilən xərci ($Y_b$) hesablayırıq:

$$Y_b = m_b \cdot t_B \cdot N_b \cdot D \cdot e, \quad (9)$$

Burada,$m_b$– sistemin təsərrüfatda texnoloji prosesdə istifadə edilən eyni adlı qurğuların (yəni ДТЗ МКП -0,3 qıçadöyənlərin) sayı, $m_b$=1 ədəd;

$t_b$-ДТЗ МКП-0,3 qıçadöyənin gündəlik iş saatı, $t_b$=3,3 saat

$N_b$–ДТЗ МКП-0,3 qıçadöyənin elektrik mühərrikinin gücü, $N_b$=1,8 kW;

$e$ – 1 kW·saat enerjinin satış qiyməti, $e$=0,11 AZN/saat;

Qiymətləri (4.16) düsturunda istifadə etdikdə alırıq:

$$Y_B=1\cdot3{,}3\cdot1{,}8\cdot30\cdot0{,}11=196{,}02 \text{ AZN}$$

İstismar xərclərinin toplananlarının qiymətləri məlum olduqdan sonra onun baza variantı üçün qiymətini müəyyən edirik:

$$İ_b=237{,}6+58{,}18+196{,}02=491{,}8 \text{ AZN.}$$

(4.9) düsturuna əsaslanaraq baza variantı üçün mövsümlük gətirilmiş xərcləri ($G_b$) tapırıq:

$$G_b = İ_b+EK_b \qquad (10)$$

Burada,$K_b$–ДТЗ МКП -0,3 qıçadöyən qurğu üçün sərmayə qoyuluşudur, AZN.

Sərmayə qoyuluşu texniki vasitənin balans qiymətinin ($B_b$) onun nəqliyyat və quraşdırılma xərclərini nəzərə alan normativ əmsala ($\alpha$) hasili ilə müəyyən edilir:

$$K_b=B_b\cdot\alpha \qquad (11)$$

Burada,$\alpha$=1,2.

Onda ДТЗ МКП -0,3 qıçadöyən üçün sərmayə qoyuluşu aşağıdakı kimi olur:

$$K_b=182\cdot1{,}2=218{,}4 \text{ AZN.}$$

Alınmış qiymətləri (4.17) düsturunda istifadə edərək baza variantı üçün mövsümlük gətirilmiş xərcləri tapa bilərik:

$$G_b=419{,}8+0{,}15\cdot218{,}4=524{,}56 \text{ AZN.}$$

İndi isə hesabatı yeni variant üçün aparırıq. (4.10) düsturuna əsaslanaraq yeni variant üçün mövsümlük istismar xərclərini ($İ_y$) aşağıdakı kimi ifadə etmək mükündür:

$$İ_y = Ə_y+ A_y + R_y +Y_y \qquad (12)$$

Burada,$Ə_y$–eksperimental qıçadöyən qurğunu işlədən işçinin bu iş üçün mövsümlük əməkhaqqı, AZN;

$A_y$ – eksperimental qıçadöyən qurğunun amortizasiya ayırmaları, AZN;

$R_y$ – eksperimental qıçadöyən qurğunun texniki qulluq və cari təmir ayırmaları, AZN;

$Y_y$– eksperimental qıçadöyən qurğunun mövsüm ərzində sərf etdiyi elektrik enerjisinin qiyməti, AZN.

Yeni variantda eksperimental qıçadöyən qurğunu işlədən işçinin mövsümlük əməkhaqqı aşağıdakı kimi edir:

$$Ə_y=n_y\, t_y\, D\cdot \qquad (13)$$

Burada,$n_y$ – eksperimental qıçadöyən qurğuya xidmət edən işçilərin sayı, $n$=1 nəfər;

$t_y$ – eksperimental qıçadöyən qurğunun gündəlik iş müddəti, saat.

Eksperimental qıçadöyən qurğunun gündəlik iş müddətini tapmaq üçün təsərrüfatın gündəlik iş yükünü ($Q$=1000 kq) onun saatlıq məhsuldarlığına ($W_{qy}$=350 kq/saat) bölmək lazımdır:

$$t_b=\frac{1000}{350}=2{,}9 \text{ saat.}$$

Alınmış qiymətlərdən istifadə edərək eksperimental qıçadöyən qurğunu işlədən işçinin mövsümlük əməkhaqqını hesablayırıq:

$Ə_y$=1·2,9·30·2,4=208,8 AZN.

Eksperimental qıçadöyən qurğunun balans qiymətinin $B_b$=86 AZN olduğunu nəzərə alaraq onun amortizasiya ayırmalarını tapa bilərik:

$$A_y = \frac{86 \cdot 14}{100} = 12{,}04 \text{ AZN.}$$

Eksperimental qıçadöyən qurğunun texniki qulluq və cari təmir ayırmaları isə:

$$R_y = \frac{86 \cdot 18}{100} = 15{,}48 \text{ AZN.}$$

Eksperimental qıçadöyən qurğunun mövsüm ərzində istifadə etdiyi elektrik enerjisinə çəkilən xərc aşağıdakı kimi edir:

$$Y_y = m_y \cdot t_y \cdot N_y \cdot D \cdot e, \quad (14)$$

Burada,$m_y$ – yeni variantda istifadə olunan eyni adda maşınların sayı (burada eksperimental qıçadöyən qurğu), $m$ =1 ədəd;

$N_y$ – eksperimental qıçadöyən qurğunun gücü, $N_y$=0,55 kW.

Qiymətləri (4.21) düsturunda istifadə etdikdə alırıq:

$$Y_y = 1 \cdot 2{,}9 \cdot 0{,}55 \cdot 30 \cdot 0{,}11 = 5{,}26 \text{ AZN.}$$

Eksperimental qıçadöyən qurğunun gündəlik iş həcmi 1 ton olan təsərrüfatda tətbiqinin mövsümlük istismar xərcləri aşğıdakı kimi edir:

$İ_y$ =208,8+12,04+15,48+5,26=241,58 AZN

Yeni variant üçün mövsümlük gətirilmiş xərcləri ($G_y$) tapmaq üçün (2) düsturundan istifadə edirik:

$$G_y = İ_y + EK_y \,, \quad (15)$$

Burada,$K_y$ - eksperimental qıçadöyən qurğu üçün tələb olunan sərmayə qoyuluşu, AZN.

Eksperimental qıçadöyən qurğunun balans qiyməti $B_y$ =86 AZN olduğundan onun sərmayə qoyuluşu aşağıdakı kimi olur:

$K_y$=86·1,2=103,2 AZN.

Yeni variant üçün mövsümlük gətirilmiş xərcləri aşağıdakı kimi müəyyən edirik:

$G_y$=241,58+0,15·103,2=257,06 AZN.

Hər iki variant üçün mövsümlük gətirilmiş xərcləri bildikdən sonra eksperimental qıçadöyən qurğunun baza variantına görə mövsümlük səmərəliliyini itkilərin azalması hesabına əlavə sərmayə əldə edilməsi nəzərə alınmadan aşağıdakı kimi müəyyən edilir:

$S$=524,56-257,06=267,5 AZN.

Gündəlik iş həcminin 1,0 ton olduğunu və mövsüm ərzində (30 gün) yığımsonrası işlənmiş qıçalardan alınaraq saxlanmağa qoyulmuş 30 ton dəndə itkilərin ən azı 2% azalması nəzərə alınarsa bu əlavə 0,6 ton keyfiyyətli məhsul və yaxud Δ=600 AZN səmərə əldə edilməsi deməkdir. Onda eksperimental qıçadöyən qurğunun gündəlik iş həcmi 1,0 ton olan təsərrüfat üçün mövsümlük səmərəsi (1) düsturuna görə aşağıdakı kimi olur:

$$S=(524,56-257,06)+600=867,5 \text{ AZN}.$$

Eksperimental qıçadöyən qurğunun əsas texniki – iqtisadi göstəriciləri müqayisəli şəkildə cədvəl 2-də verilmişdir.

***Qıçadöyən qurğuların əsas texniki – iqtisadi göstəriciləri***

***Cədvəl 2***

| № | Göstəricilər | Ölçü vahidi | Texniki vasitələr | |
|---|---|---|---|---|
| | | | ДТЗ МКП -0,3 | Eksperimental |
| 1 | Gündəlik iş həcmi | ton | 1,0 | 1,0 |
| 2 | Mövsüm müddəti | gün | 30 | 30 |
| 3 | Qurğunun tipi | - | barabanlı | diskli |
| 4 | Qurğunun məhsuldarlığı | kq/saat | 300 | 350 |
| 5 | Elektrik mühərrikinin gücü | kW | 1,8 | 0,55 |
| 6 | Sərmayə qoyuluşu | AZN | 218,4 | 103,2 |
| 7 | Amortizasiya xərcləri | AZN | 25,48 | 12,04 |
| 8 | Texniki qulluq və cari təmir xərcləri | AZN | 32,76 | 15,48 |
| 9 | İstismar xərcləri | AZN | 491,8 | 241,58 |
| 10 | Gətirilmiş xərclər | AZN | 524,56 | 257,06 |
| 11 | Səmərəlilik | AZN | - | 267,5 |
| 12 | Əlavə səmərə | AZN | - | 600 |
| 13 | Ümumi səmərəlilik | AZN | - | 867,5 |

## ƏDƏBİYYAT

**1.** Кравченко В.С., Петушина И.А. Определение углов затягивания / Сб. научных трудов КубГАУ, вып. 415(443), Краснодар, 2005, с.150-154.

**2.** Петушина И.А. Разработка ресурсосберегающих процессов очистки и обмолота початков семенной кукурузы: Автореф. дисс. докт. техн. наук. Краснодар, 2009, 44 с.

**3.**Шатилов К.В., Казачок Б.Д., Орехов А.П. и др. Кукурузоуборочные машины. М.: Машиностроение, 1981, 224 с.

**4.**Грин А.И. О повышении эффективности работы вальцов для очистки початков кукурузы // Вестник сельскохозяйственной науки. 1993, с.17.

**5.** Брагинец Н.В., Бахарев Д.Н., Романенко А.А. Исследование влияния ориентированной подачи початков кукурузы в камеру обмолота на эффективность работы молотилки / Научные труды Крымского Агротехнологического Университета. Киев, 2013, №153, с.119-123.

**6.** Шекихачев Ю.А., Хажметов Л.М., Хажметова З.Л. Разработка технического средства для обмолота початков кукурузы в обертке // Символ науки. 2015, №7-1(7), с.59-61.

**7.**Шекихачева Л.З. Математическое моделирование процесса обмолотка початков кукурузы / Актуальные направления научных исследований XXI века: теория и практика. 2015, т.3, №7-3(18-3), с.212-215.

**Əliyeva Təranə Əsman qızı**
*Mingəçevir Dövlət Universiteti*
*tarana.aliyeva45@mail.ru*

# AZƏRBAYCANIN MİLLİ SƏRVƏTİ OLAN ZƏNGİN İNTELLEKTUAL POTENSİALININ YÜKSƏLDİLMƏSİNDƏ VƏ ELMİN İNKİŞAFI SAHƏSİNDƏ ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLIYEVIN MİSİLSİZ XİDMƏTLƏRİ

***Açar sözlər:*** *milli quruculuq siyasəti, elmi strategiya, intellektual potensial, elmi nailiyyətlər, təhsil islahatları.*

Milli dirçəliş və ictimai tərəqqi yollarını müəyyən edən dahi şəxsiyyət Heydər Əliyev respublikanın taleyində silinməz iz qoymuşdur. Ulu Öndər ölkənin mürəkkəb, təlatümlü çağlarında irəli çıxaraq xilaskarlıq və liderlik missiyasını yerinə yetirdi. Xalqın inkişaf yolunu müəyyənləşdirən dahi şəxsiyyətin fəaliyyəti, nəinki rəhbərlik etdiyi dövrdə, həmçinin, tarixin sonrakı gedişində də müsbət təsirini göstərməkdədir. Hal-hazırda dünya iqtisadiyyatına inteqrasiya edən, müstəqillik və tərəqqi yolunda inamla addımlayan, bütün dünyanın diqqətini cəlb edən Azərbaycan Respublikasının qazandığı nailiyyətlər dünya şöhrətli siyasətçi Heydər Əliyevin fəaliyyəti ilə bilavasitə əlaqədardır. Ümummili liderin həyatının mənası və fəaliyyətinin əsas məramı öz xalqının xidmətində olmaq və onun dünya xalqları arasında şərəfli yer tutmasına nail olmaq idi. Bu baxımdan o, ömrünün hər anını xalqın rifahının yüksəldilməsinə və tərəqqisinə sərf etmiş, doğma yurdunun nüfuzunun yüksəldilməsinə həsr etmişdir.

Əminliklə demək olar ki, siyasi hakimiyyətə gəlməsi ilə ölkənin həyatında müsbət dəyişikliklər baş vermiş, sosial-iqtisadi, mənəvi-mədəni inkişafa nail olunmuş, imzaladığı mühüm qərarlar respublikanın çıçəklənməsi üçün əsas zəmin olmuş, ölkənin maddi, iqtisadi, mənəvi, mədəni potensialı yaradılmış, milli kadr problemi öz həllini tapmağa başlamışdır. Əminliklə qeyd etmək olar ki, iqtisadiyyat, mədəniyyət, təhsil sahəsində əldə olunan nailiyyətlər, məhz Ulu Öndərin müstəqil dövlətə xidmət edən quruculuq strategiyası əsasında qazanılmışdır.

Heydər Əliyevin xalq qarşısında xidmətləri təkcə onun rəhbərlik etdiyi dövrlərdəki əzəmətli işləri ilə məhdudlaşmır, bu əvəzolunmaz lider xalqımız üçün elə bir tükənməz xəzinə, zəngin və çoxşaxəli irs qoymuşdur ki, ondan uzun illər faydalanmaq olar. Bu irsdən, dövlətçilik ənənələrindən hələ neçə nəsillər bəhrələnəcəkdir. Onun inkişaf strategiyasının əsas tərkib hissəsini respublikanın bütün bölgələrinin sosial-iqtisadi inkişafı, mədəniyyətin, təhsilin çiçəklənməsi üçün ixtisaslı kadrların hazırlanması, milli-mənəvi dəyərlərin qorunması, tarixi abidələrimizə diqqət və qayğının göstərilməsi və s. təşkil edir.

Dünya şöhrətli siyasətçi daima xalqının mənafeyini düşünən şəxsiyyət olub və bu istiqamətdə apardığı məqsədyönlü siyasət onun bütün fəaliyyətinin əsasını təşkil etmişdir. Müasir Azərbaycanın ictimai-mədəni həyatının elə bir sahəsi yoxdur ki, orada Ulu Öndərin quruculuq fəaliyyətinin izlərinə rast gəlinməsin. Bu isə onun ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunun bariz sübutudur. Belə bir sahələr içərisində elmin xüsusi yerinin olduğu diqqətdən yayınmır. Məhz elm siyasəti Heydər Əliyevin milli quruculuq siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Azərbaycanın sivil ölkə kimi inkişafında xüsusi rolu olan liderin xidmətlərinin məhz elm sahəsində üstünlük təşkil etməsi, xüsusi diqqət və qayğısı sayəsində elm və mədəniyyət xadimləri, alimlər mənəvi stimul almış, mövcud elmi potensialın qorunması və inkişaf etməsi üçün yeni-yeni elmi nailiyyətlərin əldə olunmasına ruhlandırmışdır.

Məntiqin qanunlarına söykənən elmi idarəetmə üsulu Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrdə qəbul etdiyi və sədaqətli qaldığı iş üsulu idi. Aydındır ki, belə iş üsulunun əsasını bilik və elm təşkil edir, hansı ki, vətənə bağlılıqsız, doğma xalqına məhəbbətsiz bu elmin

heç bir effekti olmaz. Bu baxımdan əminliklə qeyd etmək olar ki, bu dahi şəxsiyyətin idarəçilik sisteminin əsasını məhz vətənə sonsuz məhəbbəti, millətinə olan dərin sevgisi təşkil etmişdir.

Rəhbərlik etdiyi dövrlərdə Ulu Öndərin təşəbbüsü ilə təhsil müəssisələrinin zəngin şəbəkəsi yaradılmış, onların möhkəm maddi-texniki bazası qurulmuş, respublikadan kənarda ixtisaslı mütəxəssislər, kadr hazırlığı həyata keçirilmiş, elmi-tədqiqat institutlarında elmin inkişafı təmin olunmuşdur. Əgər vaxtında qeyd edilən işlər görülməsəydi, milli sərvət olan zəngin intellektual potensialın yüksəlişində özünü göstərən təhsil, elm sahəsindəki ugurlu siyasət aparılmasaydı, ölkəmizin bu günki sivilizasiyaya cavab verən böyük elmi, milli təhsil sistemi mövcud olmazdı. Məhz Heydər Əliyev şəxsiyyətinin daxili ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürü onun elmə, təhsilə böyük qayğısı, xalqının, millətinin müasir, sivil dünyanın inkişaf etmiş xalqı kimi görmək istəyinin parlaq ifadəsidir (1).

Heydər Əliyevin elmi fəaliyyət sahəsində həyata keçirdiyi siyasətin nəticəsi olaraq Azərbaycan elminin dünya miqyasında elmi proseslərin inkişafına təkan verən, iqtisadiyyatın əsas sahələrinə tətbiq olunan çoxsaylı elmi nailiyyətlər əldə olunmuş, elmtutumlu istehsal sahələri genişləndirilmişdir. Ulu Öndərin rəhbərlik etdiyi dövrlərdə Azərbaycan elminin əldə etdiyi uğurlarına neft və qaz yataqlarının kəşfini, işlənməsini, neft-kimya sənayesinin inkişafı üçün xammal bazasının, kimya texnologiya komplekslərinin yaradılmasını, geoloji və geofiziki tədqiqatları, yeni faydalı qazıntı yataqlarının tədqiqini, energetika, informatika, astronomiya və s. sahələrdə mühüm əhəmiyyətli tədqiqatların aparılmasını misal göstərmək olar. Bundan başqa, bir çox sahələrdə ölkə iqtisadiyyatının inkişafı üçün mühüm tədqiqatların aparılması, nüfuzlu elmi məktəblərin yaradılması, təbii sərvətlərin mühüm növlərinin tərkibi, mühafizəsi və istifadəsinin elmi problemlərinin öyrənilməsi və s. istiqamətlərdə əldə olunmuş elmi nailiyyətlər Ulu Öndərin həyata keçirdiyi elm siyasətinin nəticəsi olaraq, nəinki o dövrdə, həmçinin, indiki sosial-iqtisadi inkişafın da əsas dayağı hesab edilir.

Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk dövrlər demək olar ki, elmtutumlu sahələr yox dərəcəsində idi. Bu səbəbdən bu sahənin inkişafına xüsusi diqqət yetirən lider elmin strateji əhəmiyyətini düzgün qiymətləndirərək yeni tədbirlər planı həyata keçirməyə başladı. Respublikamızda proqramlaşdırma, avtomatika, tətbiqi riyaziyyat, kibernetika və digər sahələrdə böyük alimlər, mütəxəssislər ordusu formalaşmağa başladı. Müxtəlif ölkələrin ali məktəblərində respublikamızın istedadlı gəncləri üçün məqsədli aspiranturalara yerlər ayrıldı, xarici ölkələrin elm və təhsil mərkəzlərində elmi təcrübələr keçmək üçün mütəxəssislərimizə şərait yaradıldı, yeni elmi nailiyyətlərin mənimsənilməsi və tətbiqi istiqamətində müəyyən işlər görüldü. Əminliklə qeyd etmək olar ki, əldə olunan uğurlar yalnız Heydər Əliyevin elm xadimlərinə diqqət və qayğısının bariz nümunəsi və onun rəhbərliyi ilə həyata keçirilən elmi strategiyanın əsas tərkib hissəsidir.

Rəhbərlik etdiyi dövrdə xalqın uzaq gələcəyini nəzərdə tutan, milli kadr potensialının yaradılmasını əsas diqqət mərkəsində saxlayan Ulu Öndər nadir ixtisaslar üzrə mütəxəssis ordusunu yaratmaq üçün dünyanın qabaqcıl ali məktəblərinə gənclərin göndərilməsi ənənəsini həyata keçirmiş və demək olar ki, hər il təhsil almaq üçün minə yaxın tələbə xaricə yola salınırdı. Ümummilli liderin həyata keçirdiyi uzaqgörən siyasətin müsbət təsiri müasir Azərbaycanda elmin müxtəlif sahələrində nəzərə çarpır, daha döğrusu ölkənin iqtisadi strukturlarında, dövlət orqanlarında, elm-təhsil müəssisələrində yetişdirilən kadrlar uğurla fəaliyyət göstərirdilər.

Hər zaman öz siyasi təcrübəsində elmi nailiyyətlərdən faydalandığı üçün Heydər Əliyev elm və texnikanın inkişafı sahəsində alimlərə xüsusi diqqət ayırır, cəmiyyətin inkişafını elmdə, intellektdə görürdü. Azərbaycan elminə xüsusi qayğı göstərməsi məhz liderin elmi təfəkkürə sahib olmasından, öz fəaliyətini elmi prinsiplər üzərində qurmasından və intellektual potensiala arxalanmasından irəli gəlir. Bu səbəbdən qaynaqlanırdı ki, elmin inkişafını düşünən şəxsiyyət bu sahədə əməyi olan, elmi nailiyyətlər yaradan, elmə yeniliklər gətirən insanların əməyini yüksək qiymətləndirir, onlara böyük hörmətlə yanaşırdı. Bu isə intellektin inkişafına,

intellektual insanların yeni elmi nailiyyətlər yaratmasına, texniki tərəqiyyə daha da ruhlandırırdı.

Heydər Əliyev elə bir dövrdə hakimiyyətə gəlmişdir ki, mövcud mürəkkəb şərait dövlət quruculuğunu daxili və xarici amillərdən asılı etdmişdir və stabilliyə nail olmaq üçün strateji məqamları nəzərə alan siyasi konsepsiya formalaşdırmaq tələb olunurdu. Başqa sözlə, respublikada baş verən proseslər yeni prioritetləri meydana çıxarmaq zərurətini tələb edirdi. Məhz iqtisadi sahədə mövcud problemlərin müəyyənləşdirilməsi və həlli yollarının tapılması, ilk növbədə, elmin əsas vəzifəsi idi. Lakin həmin dövrdə Azərbaycanda mövcud olan elm bu problemləri araşdırmaq gücünə malik deyildi. Buna əsas səbəb kimi əksər elmtutumlu istehsal müəssislərinin fəaliyyətinin dayandırılması və elmi-tədqiqat işlərinin nəticələrinin istehsal proseslərinə cəlb oluna bilməməsini qeyd etmək olar. Elm-istehsalat əlaqələrinin pozulması, maliyyə mexanizminin formalaşmaması səbəbindən elmi-texniki nailiyyətlərin maliyyələşməməsi elmdə mövcud olan problemlərin artmasına səbəb olmuşdur. Belə bir şəraitdə hakimiyyətə gələn ümummili lider Heydər Əliyevin əsaslı dövlət quruculuğu konsepsiyası, tətbiq etdiyi sosial-ideoloji və iqtisadi mexanizmlər ölkəni bu xaos vəziyyətdən çıxartmağa başladı. Elmi tədqiqatların yenidən canlanması xaricə üz tutan elm adamlarının ölkəyə qayıtması ilə nəticələndi, ziyalıların ölkənin ictimai həyatında fəal iştirakına şərait yaradıldı və nəticədə Azərbaycan alimləri dövlət quruculuğu işində əvəzolunmaz rola malik oldular.

Hakimiyyətə gəlməsi ilə Heydər Əliyev elm ocaqlarına olan biganəliyi aradan qaldırdı və bütün səylərin elmin inkişafına yönəldilən təhsil islahatları həyata keçirilməyə başladı. Məhz elmi potensialın yüksəldilməsini təmin edən tədbirlər sayəsində yetişən yüksəkixtisaslı elm və təhsil nümayəndələri bu islahatların reallaşdırılmasında xüsusi rol oynadılar. Onlar Heydər Əliyevin elmi ideyalarının reallaşdırılması üçün daha genişmiqyaslı çabalar göstərməyə başladılar, doğma Vətənlərinin tərəqqisi, daha da abadlaşdırılması və inkişafı naminə bütün bilik və bacarıqlarını səfərbər etdilər.

Ölkəmizdə elmin sürətlə inkişaf etməsinin məhz müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı Heydər Əliyevin rəhbərlik etdiyi illərə təsadüf etməsi onun böyük təşkilatçılıq istedadının olması ilə əlaqədardır. Xüsusilə qeyd etmək olar ki, dünyada tanınan görkəmli siyasi və dövlət xadiminin müdrik siyasətinin özünəməxsusluğu bütün fəaliyyətinin elmi əsaslar üzərində qurulması idi. Məlumdur ki, əvəzolunmaz elm adamı, həmişə, öz siyasi təcrübəsində elmi fikrin yeni nailiyyətlərinə əsaslanırdı.

Ulu Öndərin elmi strategiyasının əsas tərkib hissəsindən biri elmi-tədqiqat institutlarının və elmi işçilərin sayının eləcə də onlara xüsusi qayğının artırılması idi. Bu diqqət və qayğı nəticəsində Azərbaycan elmində elmi əməkdaşların, o cümlədən, elmlər doktoru, elmlər namizədlərinin sayı durmadan artır və elmi-tədqiqatların aparılması elmin ən müasir sahələrini əhatə edirdi. Respublikada aparılan elmi tədqiqatların tətbiqi nəticəsində iqtisadi səmərənin yüksəlişinə nail olunmuşdur. Bundan əlavə qeyd etmək olar ki, Ümummilli liderin elmə göstərdiyi qayğının digər bariz nümunəsi kimi elmi-tədqiqat qurumları üçün inzibati binaların, mühəndis-laboratoriya korpuslarının yaradılmasını misal göstərmək olar.

Azərbaycan elminin flaqmanı olan Elmlər Akademiyasına böyük önəm verən Heydər Əliyev onun inkişafı üçün əlindən gələni əsirgəmirdi. Qeyd etmək olar ki, Elmər Akademiyasının fəaliyyətə başlaması yeni elmin inkişaf strategiyasının əsas istiqamətlərinin müəyyənləşməsinə səbəb oldu. Bu böyük şəxsiyyətin qayğısı və diqqəti sayəsində elmi tədqiqat istiqamətləri dəqiqləşdirildi, elmi bazanın hazırlanmasına dair qərarlar qəbul edildi və tədbirlərin həyata keçirilməsinə start verildi. "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatlar" konsepsiyasının hazırlanması həmin dövrə təsadüf edir. Aparıcı alimlərlə keçirilən görüşlər elmin və Elmlər Akademiyasının tarixində dərin iz buraxmaqla elmin nüfuzunu daha da artırıb, onun xalqın rifahındakı rolunu və cəmiyyətdəki mövqeyini daha da möhkəmləndirirdi. Ulu Öndərin qayğı və himayəsindən yararlanaraq respublikanın ən yüksək elmi müəssisəsinin idarəetmə və təşkilat sistemi daha da təkmilləşdirildi, iqtisadiyyatın

aparıcı sahələrinin inkişafına təkan verən elmi-tədqiqat istiqamətləri dəqiqləşdirildi, elmi xidmət müəssisələrinin işinin səmərəliliyini artıran qərarlar qəbul edildi (2).

Ümummilli lider Heydər Əliyevin uzaqgörən elmi strategiyasının digər istiqamətləri kimi respublikada innovasiyaların inkişafı üçün zəruri olan imkan və şəraitin yaradılması, rəqabətədavamlı innovasiya sisteminin qurulmasını göstərmək olar. Sənayenin rəqabətqabiliyyətliliyinin məhz innovativliyin səviyyəsi ilə ölçüldüyünü nəzərə alsaq, innovasiya fəaliyyətinin tətbiqinin genişləndirilməsi məqsədilə stimullaşdırıcı mexanizmlərin hazırlanması və tətbiqi də məhz elmi nailiyyətlər əsasında mümkündür. Bu baxımdan demək olar ki, innovasiyali inkişaf elmi-texniki inqilabın yeni şəraitdə davamı hesab edilə bilər. Belə inkişafa isə təhsil imkanlarının genişlənməsi, elmi potensialın gücləndirilməsi hesabına nail olmaq olar. Bu səbəbdən Ümummilli liderin rəhbərliyi ilə həyata keçirilən elmin inkişaf siyasəti yeni bilik və texnologiyaların istehsalı və tətbiqi üçün lazım olan şəraitin yaradılmasını da nəzərdə tutur .

Respublikanın sosial-iqtisadi inkişafının təminatı kimi elm və təhsilin əhəmiyyətini təbliğ edən Ulu Öndərin əsasını qoyduğu elmi siyasətin müsbət meyilləri kimi elmi-texniki potensialın qorunub saxlanılmasını, yüksəkixtisaslı kadrların hazırlanması və onlara daim diqqət və qayğının göstərilməsini, elm xadimlərinin cəmiyyətdə nüfuzunun artırılması və onların əldə etdikləri elmi nailiyyətlərin dünyanın bir çox ölkələrində tanınmasını və təbliğ edilməsini göstərmək olar. Elmə göstərilən bu diqqət və qayğı Ulu Öndərin öz xalqının rifah halının yüksəldilməsinə, milli-mədəni tərəqqisinə xidmət etməsinin bariz sübutudur.

Elmi təhsildən ayrı təsəvvür etməyən Heydər Əliyev cəmiyyətin tələbat və ehtiyaclarını ödəmək üçün elm və təhsil mərkəzlkəri kimi ali məktəblərin formalaşdırılmasını ön plana çəkirdi. Məhz dünya elminə inteqrasiya etməyi sürətləndirən amil kimi yeni kadrların hazırlanması və elmi nailiyyətlərin əldə olunmasında birbaşa ali təhsil müəssisələrinin rolunun olduğunu vurğulayan lider, həmçinin, istehsalat müəssisləri ilə təhsil ocaqlarının birgə fəaliyyətinin də mühüm olduğunu əsas götürərək elmi mühitdən istifadə imkanlarını daha da genişləndirməyi təbliğ etmişdir.

Zamanin çərçivəsinə sığmayan bu dahi şəxsiyyətin dünyanın bir çox nüfuzlu simalarından fərqləndirən ən müsbət keyfiyyətlərindən biri, məhz elm adamlarına olan bağlılığı, onlara qayğı ilə yanaşmasıdır. Dahi şəxsiyyətin fikrincə, intellektual potensialın daşıyıcıları olan elm adamları istedada, xüsusi bacarığa, intlelektual səviyyəyə malik olduqları üçün hörmətə layiqdirlər. Əvəzolunmaz insan öz fəaliyyətində elmi əsaslandırmağa üstünlük vermiş, elmin inkişafı ilə əlaqədar bütün məsələlərin həllinə həssaslıqla yanaşmışdır.

Rəhbərlik etdiyi dövrdə cəmiyyətin müxtəlif sahələrində haqq-ədalətin təminatına çalışan Ulu Öndər vətənpərvər ziyayıların müxtəlif təqiblərdən qurtulmasına çalışaraq, elmi tədqiqatla məşğul olanların əzmkar və cəfakeş müdafiəçisinə çevrilməklə, ictimai şüurda yeni elmi nailiyyətlərin yaradılması meyillərinin güclənməsinə nail olmuşdur (3).

Ulu Öndərin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti nəticəsində respublika iqtisadiyyatında inkişafa doğru canlanma başlamış, elmi nailiyyətlər hesabına iqtisadiyyatın aparıcı sahələrində istehsalın texniki səviyyəsi və istehsal proseslərinin keyfiyyəti xeyli yüksəlmiş, əhalinin tələbatını maksimum təmin etmək üçün istehsalatda, təsərrüfatda elm və texnologiyanın son nailiyyətlərinin tətbiq olunması geniş miqyas almışdır. Bu ondan irəli gəlir ki, iqtisadiyyatın inkişafını elmi-texniki nailiyyətlərin tətbiqindən kənarda təsəvvür etmək mümkün deyil. Ulu Öndər tərəfindən həyata keçirilən elmi strategiyanın əsas mahiyyəti də ondan ibarətdir ki, mürəkkəb iqtisadi proseslərin mövcud olduğu və rəqabətin kəskinləşdiyi bir şəraitdə, məhz yüksək səviyyədə əsaslndırılmış siyasət və elmi-texniki nailiyyətləri iqtisadiyyata tətbiq etmədən davamlı inkişafa nail olmaq mümkün deyil.

Ümummilli liderin mühüm addımlarından biri hesab edilən neft strategiyasının elmi prinsiplər üzərində həyata keşirilməsi ölkəmizin dünya arenasına inteqrasiyasını sürətləndirməyə nail olmuşdur. Dövlət müstəqilliyinin möhkəmləndirilməsində müstəsna rolu olan "Əsrin müqaviləsi" ölkəmizdə elmi-texniki yeniliklərin tətbiqinin canlanmasına səbəb

olmaqla, yeni sosial-iqtisadi inkişaf modelinin həyata keçirilməsini zəruri etmişdir. Bir çox ölkələrdə neft sektoruna investisiyalar yatıran dünyanın nüfuzlu şirkətləri respublikamızda elmi tədqiqatların daha da sürətlənməsində, yeni kadrların hazırlanmasında, insan kapitalının formalaşmasında yaxından iştirak etməklə yanaşı, zəngin resurslara malik texnologiyalarla təminat məsəslələrinin də həllinə köməklik göstərmişdilər. Bu isə bir tərəfdən iqtisadi inkişafa təkan verməklə yanaşı, digər tərəfdən bu sahədə kadrların intellektual səviyyəsinin yüksəlməsində stimul rolunu oynamışdır.

Uzaqgörən siyasətçi Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə neft emalı, neft-kimya sahələrinə yönəldilmiş kapital qoyuluşunun artması bu sahələrə ən qabaqcıl texnologiyaların tətbiqinə səbəb olmuşdur. Demək olar ki, iqtisadiyyatın aparıcı sahələrindən biri olmaqla neft-kimya sənayesi yenidən qurulmuş və modernləşdirilmişdir. Bununla bərabər inkişafa istiqamətlənən sahələr sırasına biofizika, biokimya, astronomiya, kosmik tədqiqatlar və biotexnologiyanı da aid etmək olar. Bundan başqa elmin sürətli inkişafını təmin edən maşınqayırma, cihazqayırma və neft emalı kimi nəhəng sənaye kompleksləri də müasir tələblərə uyğun yenidən qurulmuşdur.

Dahi şəxsiyyət Heydər Əliyev rəhbərliyi dövründə elm və təhsilin inkişafına maneə olan amillərin aradan qaldırılmasını ciddi məsələ kimi qarşıya qoymuş və təhsilin müasir standartlara uyğun yenidən qurulmasını zəruri hesab etmişdir. Qazanılan elmi nailiyyətlərin iqtisadiyyatın bütün sahələrinə tətbiqi ölkənin inkişafında müsbət dönüş yaratmasını təbliğ edən lider elmi tədqiqatla məşğul olanların cəmiyyətdəki roluna böyük önəm verirdi və bu baxımdan təhsilin, elmin inkişafına əlindən gələni əsirgəmirdi. Müasir dövrün tələbləri səviyyəsinə cavab verən təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılmış, təhsilə ayrılan vəsaitlərin həcmi artırılaraq yeni islahatların keçirilməsi üçün münbit şərait formalaşdırılmışdır.

Azərbaycanın dövlətçiliyinin tarixinə öz adını əbədi həkk etmiş bu nadir şəxsiyyətin ölkəmizin inkişafında mühüm rola malik olan təhsilin, elmin inkişafına verdiyi töhfələrdən danışmaqla qutarmaq olmaz. Ulu Öndərin müdrikliklə həyata keçirdiyi elm siyasəti onun irsinin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün də keyfiyyətcə yeni mərhələdə uğurla və yaradıcılıqla davam etdirilir. Qloballaşan dövrün tələblərinə cavab verən elm və təhsil strategiyasına üstünlük verən, insan kapitalının formalaşmasını prioritet məqsəd kimi önə çəkən Prezident elmi nailiyyətlərin dünya standartları səviyyəsinə çatdırılması üçün mühüm islahatlar həyata keçirməkdə davam edir. Dövlətin innovasiya inkişafında müasir biliklərin, qabaqcıl texnologiyaların rolunun danılmaz olduğunu ehtiva edən siyasətin əsas hədəfi qloballaşan dünyanın yeni çağırışlarına hazır olan elm xadimlərinin fəaliyyətinin gücləndirilməsi, yeni elmi tədqiqatlara maraq və mənafelərinin artırılmasıdır. Hazırda aparılan səmərəli islahatlar nəticəsində elm və təhsil sahəsində modernləşmə, əsaslı keyfiyyət dəyişiklikləri nəzərə çarpır, elmi inkişaf təmayüllərinin müəyyənləşməsi, elm və istehsalatın qarşılıqlı vəhdətinin təmini və s.kimi elmin inkişafına istiqamətlənən təxirəsalınmaz məsələlər yeni mərhələdə əsas prioritetlərdən hesab edilir.

Azərbaycanın hərtərəfli inkişafının güclü insan kapitalının formalaşdırılmasından asılılığı ideyasını davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev elm və təhsilin cəmiyyətdəki yerini və rolunu, ictimai əhəmiyyətini daim yüksək qiymətləndirmiş və onun daha da yüksəlişi naminə bütün zəruri tədbirlərin görülməsi üçün qayğısını əsirgəmir. Bunun sayəsində Azərbaycanın intellektual elitası formalaşmış, onların ideya, innovasiya, elmi yenilikləri əsasında elmi-texniki tərəqqiyə nail olunmuşdur. Elmin inkişafına göstərilən qayğı və diqqət isə Azərbaycanın inkişafına, gücləndirilməsinə, dünyanın qabaqcıl ölkələri sırasında layiqli yer tutmasına xidmət edir.

Ədəbiyyat

1. Heydər Əliyev haqqında məqalələr. (2009-2014-cü illər).
2. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, 2004.
3. Səmədov A. Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Gəncə, 2010.

Xülasə

Müstəqillik və tərəqqi yolunda inamla addımlayan, bütün dünyanın diqqətini cəlb edən Azərbaycan Respublikasının qazandığı nailiyyətlər dünya şöhrətli siyasətçi Heydər Əliyevin fəaliyyəti ilə bilavasitə əlaqədardır. Azərbaycanın sivil ölkə kimi inkişafında xüsusi rolu olan liderin xidmətləri məhz elm sahəsində də üstünlük təşkil edir. Onun xüsusi diqqət və qayğısı sayəsində elm və mədəniyyət xadimləri, alimlər mənəvi stimul almış, mövcud elmi potensialın qorunması və inkişaf etməsi üçün yeni-yeni elmi nailiyyətlərin əldə olunmasına ruhlandırmışdır. Rəhbərlik etdiyi dövrlərdə Ulu Öndərin təşəbbüsü ilə təhsil müəssisələrinin zəngin şəbəkəsi yaradılmış, onların möhkəm maddi-texniki bazası qurulmuş, respublikadan kənarda ixtisaslı mütəxəssislər, kadr hazırlığı həyata keçirilmiş, elmi-tədqiqat institutlarında elmin inkişafı təmin olunmuşdur. Məhz Heydər Əliyev şəxsiyyətinin daxili ziyalılığının, maarifpərvərliyinin mühüm təzahürü onun elmə, təhsilə böyük qayğısı, xalqının, millətinin müasir, sivil dünyanın inkişaf etmiş xalqı kimi görmək istəyinin parlaq ifadəsidir.

# BÖLMƏ 5

# AZƏRBAYCAN DÖVLƏTİNİN HƏRTƏRƏFLİ İNKİŞAF YOLU

1. **i.e.d., prof.Balayev Rəsul Ənvər oğlu.**"Ulu öndər və aqrar iqtisadiyyatın dayanıqlı inkişaf prioritetləri".(Azərbaycan Dövlət İqtisad Universitetinin - UNEC)
2. **f.f.d., dos. Qasımova Təzəgül Mirzə qızı.** "Azərbaycanda postmüharibə dövründə sosial nəzarət sisteminin formalaşmasına siyasi-fəlsəfi baxış".**(**AMEA Fəlsəfə və Sosiologiya İnstitutu)
3. **i.f.d., baş müəllim Dadaşova Mətanət İdris qızı. "**Heydər ƏliyevvəAzərbaycanRespublikasındamilli siyasi-iqtisadi inkişaf". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
4. **i.f.d. prof. Həsənəov Hüseyn Kamal oğlu.** "Heydər Əliyev iqtisadi siyasətinin təntənəsi və bugünümüz". (Azərbaycan Memarlıq və İnşaat Universiteti)
5. **i.f.d., baş müəllim Hüseynova Ruhiyyə Adil qızı. "**Heydər Əliyev irsi Azərbaycanın gələcək inkişafı üçün fundamental əsasdır". **(**Mingəçevir Dövlət Universiteti)
6. **i.f.d. Muradova Xalidə Firdovsi qızı, i.f.d. Abdullayeva Samirə İntiqam qızı.** "Heydər Əliyev- müasir Azərbaycan dövlətinin banisidir".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
7. **r.f.d. Mustafayeva Esmira Musaifovna, Tural Gözəlov Salman. "**Heydər Əliyev və qüdrətli dövlət quruculuğu". (Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC)
8. **bio.f.d., dos. Məhərrəmova Mehriban Həmid qızı, Alıyeva Ləman Zərbalı qızı.**"Heydər Əliyev və Azərbaycan milli iqtisadiyyatin formalaşması".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
9. **Faxtiyev İsmayıl Əliyar oğlu.** "Heydər Əliyev- Müstəqil Azərbaycan dövlətçiliyinin banisi". (Sumqayıt Dövlət Universiteti)
10. **i.f.d., dos.Bayramov Qəhrəman Saleh oğlu, i.f.d., baş müəllim Quliyev İbrahim Qədim oğlu.** "Heydər Əliyevin ədalətli sosial təminat sistemi və onun müasir təntənəsi". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
11. **dos. Qədimova Həqiqət Kərim qızı.**"Heydər Əliyev ideyaları, gənc nəslin mənəviyyatı və dərin islahatlar strategiyası Azərbaycanın uğurlarını təmin edir". (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC-Zaqatala filialı)
12. **dissertant Namazova Aynur Məhəmməd qızı.** "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatının inkişafına investisiyaların roluna dair".(Mingəçevir Dövlət Universiteti)
13. **Əbdülhüseyn Zamanov.** "Ulu Öndər Heydər Əliyevin yüksək vətənpərvərlik və idarəçilik modeli: sabitlik, inkişaf və rifah". (Naxçıvan Dövlət Universiteti)
14. **müəllim Yusifova Nərgiz Ehtibar qızı.** "Heydər Əliyev və Azərbaycan milli iqtisadi inkişaf modeli". (Mingəçevir Dövlət Universiteti)
15. **dissertant Əliyeva Ruhiyyə Oqtay qızı.** "Qlobal çağırışlar və vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi".(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)

**i.e.d., prof.Rəsul Ənvər oğlu Balayev**
*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)*
*"Rəqəmsal texnologiyalar və tətbiqi informatika"kafedrası*
*e-mail: r.balayev@ gmail.com.*

# ULU ÖNDƏR VƏ AQRAR İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAF PRİORİTETLƏRİ

XÜLASƏ

Məqalədə Ulu Öndər Heydər Əliyevin milli iqtisadiyyatın, xüsusilə aqrar iqtisadiyyatın dayanıqlı inkişafı üçün müəyyən etdiyi prioritet istiqamətlərdən bəhs olunur. Bu baxımdan, Azərbaycanın karbohidrogen ehtiyatlarının iqtisadi dövriyyəyə çıxarılması sayəsində maliyyə dayanıqlığına nail olunmasında, XX əsrin 90-cı illərində ölkənin düşdüyü kəskin iqtisadi problemləri həll etməklə iqtisadi dayanıqlığın təmin edilməsində, aqrar sahədə sivil və dayanıqlı bazar münasibətləri qurmaq üçün torpaq islahatının həyata keçirilməsində, innovasiyalı yanaşmalar hesabına dayanıqlı iqtisadi inkişafın təmin edilməsində Ümummilli liderin idaeyalarının, təşəbbüslərinin və titanik fəaliyyətinin rolu müxtəsər şərh edilmişdir. Burada həmçinin, elmtutumlu və rəqəmsal yanaşmalar sayəsində torpaq münasibətlərinin tənzimlənməsinin üsul və vasitələrinin təkmilləşdirilməsi imkanları göstərilmişdir. Müasir kənd təsərrüfatında rəqəmsal texnologiyalar hesabına sahənin səmərəliliyini yüksəltmək imkanları aşkar edilmiş, onların reallaşdırılması yolları müəyyən edilmişdir.

**Açar sözlər:***Ulu Öndər, prioritet, aqrar, rəqəmsal, innovasiya.*

*

Müasir Azərbaycanın dünyada hər cəhətdən öncül və layiqli yer tutmasında xalqın ölkə başçısı ətrafında sıx birləşməsi, monolit güc əmələ gətirməsi həlledici amildir. Ölkəmizin bugünkü nüfuzu, iqtisadi qüdrəti, heçşübhəsiz ki, Ulu Öndərin layiqli davamçısı olan Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir. Milli iqytisadiyyatın dayanıqlı inkişaf prioritetlərinin əsaslandırılmasında, bu istiqamətdə əldə edilən nailiyyətlərin əsasında Ümummilli lider Heydər Əliyevin ideyaları durur. Həmin ideyaların ölkə başçısı tərəfindən XXI əsrin çağırışlarına uyğun yaradıcılıq və uzaqgörənliklə reallaşdırılması milli iqtisadiyyatın dinamik inkişafını təmin etmişdir.

Ulu Öndərin milli aqrar iqtisadiyyatın dayanıqlı inkişafı üçün prioritet olaraq müəyyən etdiyi istiqamətlər həyatımızın bütün sahələrini əhatə etmişdir. Həlledici addımlar kimi, burada ilk növbədə, Azərbaycanın karbohidrogen ehtiyatlarının iqtisadi dövriyyəyə çıxarılması sayəsində maliyyə dayanıqlığına nail olunması, ötən əsrin 90-cı illərində ölkənin düşdüyü kəskin iqtisadi problemləri həll etməklə iqtisadi inkişafın dayanıqlığının təmin edilməsi, aqrar sahədə sivil və dayanıqlı bazar münasibətləri qurmaq üçün hərtərəfli əsaslandırılmış torpaq islahatının həyata keçirilməsi, innovasiyalı yanaşmalar hesabına dayanıqlı inkişafın əldə edilməsi kimi prioritetlər qeyd oluna bilər.

Azərbaycanın olduqca çətin iqtisadi və sosial vəziyyətdə olduğu həmin illərdə Ulu Öndərin "Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq" kimi əbədiyaşar ifadəsi, onun ölkənin gələcəyinə misilsiz inamının nəticəsi idi. Qlobal və digər güclərin yaratdığı maneələrə baxmayaraq, Azərbaycanın neft-qaz ehtiyatlarının dünya bazarına çıxarılması üçün bağlanan "Əsrin müqaviləsi" Ulu Öndər dühasının məhsuludur. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin titanik intellektual əməyi sayəsində neft və qaz nəqlinin yeni strateji istiqamətlərinin reallaşdırılması xalqımızın qarşısında yeni üfüqlər açmışdır. Belə bir mövqe ilə tam razıyıq ki, "Bu gün Ulu Öndərin milli dövlətçilik ideologiyasını doğma Azərbaycanın uğur faktoruna çevirmiş Prezident İlham Əliyev Ümummilli liderin yolunu inamla davam etdirir. Məhz İlham Əliyevin qətiyyətli və düşünülmüş siyasəti sayəsində ölkəmizin müstəqil dövlət

kimi beynəlxalq arenada mövqeləri daha da möhkəmlənmiş, regionda liderliyi təmin edilmişdir(1).

Möhtərəm Prezidentin yeni əsrin reallıqlarına uyğun uzaqgörənliklə qəbul etdiyi, neft amilinə yeni yanaşmaya əsaslanan qərar -qeyri-neft sektorunun, o cümlədən, aqrar sahənin üstün inkişafı kursunu bəyan etməsi və onu reallaşdırması sayəsində ölkə iqtisadiyyatının dayanıqlı inkişafına həlledici təkan vermişdir.

Müstəqil Azərbaycanda yeni aqrar-torpaq münasibətlərinin yaranmasında Ümummilli lider Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi və iştirakı ilə ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq həyata keçirilən torpaq islahatı həlledici rol oynamışdır. Məhz həmin islahat sayəsində müstəqil Azərbaycanın vətəndaşları torpaq mülkiyyətçisi olmaq kimi böyük arzularına çatdılar. Ulu Öndərin həyata keçirdiyi torpaq islahatı kənddə mülkiyyətçilər sinfi yaratmaqla yeni torpaq və əkinçi münasibətləri formalaşdıraraq, torpaqdan səmərəli və məhsuldar istifadəni şərtləndirdi. Azərbaycanın fiziki və hüquqi şəxslərinə mülkiyyətlərindəki torpaq sahələri üzərində müstəsna hüquqlar, alqı-satqı, bağışlama, icarəyə və ya istifadəyə vermə, vərəsəlik, girov qoyma və s. kimi hüquqlar verildi. Ölkənin hər bir vətəndaşı torpaq alqı-satqısı prosesində, torpaqla bağlı müxtəlif müqavilə və əqdlərin bağlanmasında iştirak etmək hüququ əldə etdi.

XX əsrin 90-cı illərin ortalarından etibarən kənd təsərrüfatında aparılan islahatların və yeni iqtisadi münasibətlərin elmi təminatının gücləndirilməsi məsələləri gündəliyə çıxarıldı. Müasir rəqəmsal mühit torpaq münasibətlərinə təsirsiz qala bilməzdi. Məqsədi iqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən, ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifahını yüksəltməkdən ibarət olan "Torpaq islahatı haqqında" qanunun qəbulundan sonra keçən illər ərzində torpaq islahatı qarşısında qoyulan vəzifələr uğurla həyata keçirilmişdir. Azərbaycan Respublikası ərazisində dövlət torpaqları müəyyən edilmiş, torpaqlar bələdiyyə və xüsusi mülkiyyətə verilmiş, mülkiyyətçilərin torpağa sahiblik, istifadə və sərəncam hüquqları təmin edilmişdir. Zəruri normativ-hüquqi baza yaradılmaqla əsaslı zəmin üzərində həyata keçirilən torpaq islahatı sayəsində ölkədə 3.5 milyona qədər insan torpaq mülkiyyətçisinə çevrilmişdir. Azərbaycanda torpaq islahatının mühüm xüsusiyyəti vətəndaşa yararsız və ya az yararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqlarının verilməsi oldu.

Müasir elmtutumlu və rəqəmsal yanaşmalar qismində torpaq münasibətlərinin tənzimlənməsinin üsul və vasitələrinin təkmilləşdirilməsi xüsusi qeyd edilməlidir. İctimai həyatın mühüm dönəmlərində torpaq münasibətlərinin bu və ya digər aspekti aktuallaşır. İslahatların tarixi göstərir ki, torpaq islahatları, əksər hallarda mövcud torpaq münasibətləri sisteminin kənd təsərrüfatının və milli iqtisadiyyatın digər sahələrinin inkişafını ləngitməsi faktı özünü aşkar şəkildə göstərdiyi dövrdə həyata keçirilir. Xarici təcrübədən göründüyü kimi torpaq islahatının normativ-hüquqi bazasında inkişafın kəmiyyət aspektlərinə daha çox diqqət verilir. Doğrudur torpaq islahatının başlandığı dövrdə haqqında danışılan inkişafın kəmiyyət parametrlərinin müəyyən edilməsi üçün hazırki rəqəmsal texnologiyalar yox idi. Mövcud rəqəmsal texnologiyalar və böyük verilənlər bazasının yaradılması istiqamətində atılan addımlar torpaq münasibətlərinin tənzimlənməsində rəqəmsal mühitin imkanlarını gerçəkləşdirməyə şərait yaradır.

İqtisadi tarix, müəyyən mənada torpaq münasibətləri tarixidir. Ötən əsrdə, 70 ildən artıq davam etmiş mərkəzləşdirilmiş iqtisadiyyat şəraitində, Azərbaycanın kənd təsərrüfat təyinatlı torpaqlarının keçmiş ittifaq mənafelərinə tabe etdirilməsi, torpaq münasibətlərinə, habelə torpaq islahatının start şəraitinə təsirsiz qalmamışdır. Keçmiş ittifaqdaxili əlaqələrin qırılması torpaq resurslarından istifadə sisteminə yenidən baxmağı zəruri etmişdi. Aqrar istehsalın şaxələndirilməsi üçün son illər atılan addımlar bir daha göstərir ki, müvafiq proseslər rəqəmsal texnologiyalarla dəstəklənməlidir.

İnnovasiyalı rəqəmsal inkişaf torpaq münasibətlərinin səmərəliliyinin aparıcı şərtinə çevrilmişdir. XXI əsrin ilk onilliklərində qloballaşma proseslərinin intensivləşməsi, kənd təsərrüfatı və ərzaq məhsulları bazarında rəqabətin kəskinləşməsi və bir sıra digər amillərin təsiri səbəbindən keyfiyyət dəyişiklikləri baş verir. Torpaq resurslarından istifadə səmərəliliyinin yüksəldilməsinin iqtisadi mexanizmində rəqəmsal platformaların öz yerini tutmasına ciddi ehtiyac hiss olunur.Bu məsələ, xüsusilə torpaqların münbitliyinin bərpası aspektində aktualdır.

Torpaqların deqradasiyası proseslərinə səbəb olan amillərin böyük hissəsi (səhralaşma, qlobal istiləşmə, quraqlıq və s.), məlum olduğu kimi xeyli dərəcədə qlobal miqyaslıdır. Əlbəttə, bu prosesdə ölkə miqyaslı neqativ antropogen təsirlər də az rol oynamır. Azərbaycanda müvafiq istiqamətdə normativ-hüquqi bazanın təkmilləşdirilməsindən tutmuş, torpaq resurslarından istifadə mexanizmlərinə qədər, bütün mərhələləri əhatə edən sistemli tədbirlərin görülməsi, müasir rəqəmsal texnologiyaların mənimsənilməsi fonunda baş verir. Belə ki, həmin texnologiyaların tətbiqi mühitinidə yalnız qabaqcıl xarici təcrübə ilə kifayətlənmək çətindir. Deyək ki, ölkəmizdə torpaqların deqradasiyasının qarşısının alınmasında kosmik texnologiyalardan daha geniş istifadə nəzərdə tutulur. Həyata keçirilən iqtisadi və institusional tədbirlər sayəsində o cümlədən, kompleks tədqiqatların nəticələrindən (yaradılacaq kartoqrafik məlumat bazasından, adaptiv bitki sortlarından, eroziya təhlükəsi olan ərazilərdə torpaqların yüklənməsi üzrə əsaslandırılmış normalardan və i.a.) istifadə edilməklə eroziyaya qarşı davamlı mübarizə tədbirləri gücləndiriləcək, rəqəmsal inkişaf potensialı hesabına onların səmərəliliyi əhəmiyyətli dərəcədə artırılacaqdır.

Torpaq sahələrinin münbitliyinin bərpası, irriqasiya və meliorasiya tədbirlərinin hərtərəfli əsaslandırılmasını və rəqəmsal texnoloji bazada həyata keçirilməsini nəzərdə tutur. Bu baxımdan digər prioritet istiqamət torpaq və su resurslarından səmərəli istifadəyə yönəlmiş layihələrin bütün parametrlərinin sinxron reallaşdırılmasıdır. Belə ki, aqrotexniki tələblərə riayət olunması, mineral gübrələrdən istifadə rejiminin optimallaşdırılması, şoranlaşmış torpaqların yuyulması, əkin dövriyyəsinin elmi təşkili kimi torpaqların münbitliyinin bərpasına yönəlmiş tədbirlər, ölkəmizin təbii-iqlim şəraitində bilavasitə su resurslarından istifadənin səmərəliliyindən asılıdır.

Torpaq çoxtəyinatlı resursdur və bu amil torpaq islahatının gedişinə heç də az təsir etmir. Sənaye mərkəzlərinin və böyük şəhərlərin, turizm və istirahət obyektlərinin ərazilərinin genişlənməsi, şəhərsalmanın tənzimlənməsindəki liberal reqlamentlər kənd təsərrüfatına yararlı ərazilərin dövriyyədən çıxması ilə nəticələnir. Qlobal miqyasda problemə çevrilmiş adambaşına kənd təsərrüfatına yararlı torpaq sahələrinin azalması meylinə qarşı görülən tədbirlər sırasında böyük şəhərlərin və sənaye mərkəzlərinin inkişaf planlarının hazırlanması zamanı ətraf ərazilərdə kənd təsərrüfatı istehsalçılarının mənafeyinin ön plana çəkilməsi mühüm istiqamət kimi diqqət mərkəzində olmalıdır. Bu məqsədlə, geniş istifadə edilən naviqasiya sistemləri və digər rəqəmsal qurğuların tətbiqi zəruri verilənlər bazasının formalaşmasına xidmət etməlidir.

Torpaq islahatı sivil torpaq bazarının formalaşmasında həlledici rol oynamışdır. Bununla belə qarşıda mühüm vəzifələr durur. Məsələ ondadır ki, torpaq və su resursları bazarının formalaşdığı şəraitdə real və cari qiymətlər arasında fərqlər alqı-satqı münasibətlərinin sivil təkamülünü ləngidir. Problemin həlli bank-maliyyə sistemində sağlamlaşdırıcı tədbirlərin kompleksliyini, kənd təsərrüfatının obyektiv xüsusiyyətləri nəzərə alınmaqla girov mexanizminin təkmilləşdirilməsini, torpaq və qiymətli kağızlar bazarının rəqəmsal texnologiyalardan istifadə etməklə bir-birinə qarşılıqlı nüfuz etməsinin fəal surətdə dəstəklənməsini tələb edir.

Torpaq islahatının dərinləşdirilməsi və kənd təsərrüfatı istehsalının təşviq edilməsi sistemi arasında üzvi vəhdət ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından həlledici əhəmiyyətə malikdir. Hazırda aqrar sahəyə dövlət dəstəyi və güzəşt tədbirləri mükəmməl bir

sistem əmələ gətirməkdədir. Həmin sistemin fəaliyyətinin ilkin qiymətləndirilməsi üçün böyük verilənlər və blokçeyn texnologiyalarından istifadə edilməsi tövsiyə olunur.

Torpaq islahatının başlanmasından keçən dövr ərzində, ərzaq təhlükəsizliyinə əsas təhdidlərin aradan qaldırılması, kənd təsərrüfatının dinamik inkişafının təmin edilməsi ilə yanaşı, sahənin çoxfunksiyalılığı üçün ilkin şərait yaranmışdır. Torpaq münasibətlərində mülkiyyət plüralizmini təmin edən torpaq islahatı ekoloji reqlamentləşdirilmiş aqrar fəaliyyətdən çoxfunksiyalılığa keçidi şərtləndirən əsas amillərdəndir. Əmin olmaq olar ki, torpaq islahatının tədrici surətdə dərinləşdirilməsi, onun əsas temp və nisbətlərinin optimallaşdırılması innovasiyalı rəqəmsal aqrar istehsala xidmət etməklə, ən yaxın perspektivdə yaşıl iqtisadiyyatın formalaşmasına xidmət edəcəkdir.

Azərbaycanın qeyri-neft sektorunun yüksək inkişaf tempini dəstəkləməklə, ixrac imkanlarını genişləndirmək və rəqabət qabiliyyətini yüksəltmək, elektron ticarətin hüquqi və infrastruktur bazasını beynəlxalq tələblərə uyğunlaşdırmaq, regional əhəmiyyətli rəqəmsal ticarət qovşağı kimi Azərbaycan Respublikasının aparıcı mövqeyini bu əsasda daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidenti "Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 22 fevral 2017-ci il tarixli Fərman imzalamışdır (2). Fərmanda ölkənin biznes, o cümlədən, aqrobiznes subyektlərinin xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibi və imzalanmasına, real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən Rəqəmsal Ticarət Qovşağının yaradılması barədə qarşıya qoyulmuş vəzifələrin icrasına başlanmış, 2017-ci ilin 30 iyun tarixində qovşağın təqdimatı keçirilmişdir. Ölkəmizin bu sahədəki fəaliyyəti beynəlxalq səviyyədə davamlı surətdə təqdir olunur. Deyək ki, "Estoniyanın Şərq Tərəfdaşlığı Mərkəzinin rəhbəri bildirir ki, Azərbaycan Şərq tərəfdaşlığı ölkələrinə rəqəmsal iqtisadiyyatın inkişafı nöqteyi-nəzərindən bir nümunə ola bilər" (3).

Ölkəmizdə rəqəmsal ödəniş infrastrukturunun formalaşdırılmasının prioritet istiqamətləri müəyyən edilmiş, aqrar regionlarda maliyyə inklüzivliyinin artırılması zərurəti xüsusi qeyd edilmişdir. "Azərbaycanda rəqəmsal ödəniş infrastrukturunun formalaşması və inkişafı ilə bağlı mühüm işlər görülmüşdür. Lakin rəqəmsal cəmiyyət quruculuğunun hazırki mərhələsində yaranan yeni çağırışlara cavab verə bilmək üçün bu istiqamətdə tədbirlər davam etdirilməlidir. Azərbaycanda rəqəmsal ödəniş infrastrukturunun formalaşması üçün: rəqəmsal sahibkarlığın inkişaf etdirilməsi, elektron ticarətin inkişaf etdirilməsi, ödəniş xidmətləri üzrə hüquqi bazanın təkmilləşdirilməsi, yeni rəqəmsal ödəniş texnologiyalarının tətbiqi, rəqəmsal bankçılığın inkişaf etdirilməsi, smart ödəniş vasitələrinin geniş tətbiqi, mövcud elektron ödəniş xidmətlərinin effektivliyinin və təhlükəsizliyinin yüksəldilməsi, regionlarda və ucqar ərazilərdə maliyyə inklüzivliyinin artırılması, rəqəmsal ödənişlərin stimullaşdırılması əsas prioritetlərdir" (4).

Azərbaycanda rəqəmsal sahibkarlığın, o cümlədən, rəqəmsal aqrar fəaliyyətin inkişaf etdirilməsi üçün atılan addımlar qismində dövlət dəstəkli Yüksək Texnologiyalar Parkının yaradılması, hüquqi yardım və konsaltinq xidmətlərinin göstərilməsi, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu vasitəsilə sahibkarlara qrantların və kreditlərin verilməsi qeyd edilməlidir.

Aqrar sahədə dinamik inkişafın dəstəklənməsində rəqəmsal texnologiyaların tətbiqinin mühüm istiqaməti rəqəmsal ödənişlərin genişləndirilməsidir. Ölkədə rəqəmsal sahibkarlığın inkişafı ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı çərçivəsində rəqəmsal iqtisadiyyatın inkişafını təşviq edən aşağıdakı tədbirlərin görülməsi nəzərdə tutulur (3, prioritet 3.1): hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə hüquqi aktların layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi, startap layihələrinə qeyri-maliyyə dəstəyinin verilməsinin intensivləşdirilməsi məqsədilə təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi, bizneslə elm, startaplarla iri

şirkətlər arasında əməkdaşlığın gücləndirilməsinin təşviqi. Onu da qeyd edək ki, müvafiq istiqamətlər üzrə tədbirlər, habelə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə (strateji hədəf 4, tədbir 4.1.3) də nəzərdə tutulmuş və icra edilməkdədir (5).

Rəqəmsal iqtisadiyyatın yaradılan və inkişaf etdirilən normativ-hüquqi bazasının işlək olması müvafiq verilənlər bazasının zəruri tələblərə cavab verməsini nəzərdə tutur. Bu baxımdan blokçeyn texnologiyalarının fəal tətbiqini nəzərdə tutan data mərkəzinin yaradılması olduqca təqdirəlayiqdir. Belə ki, 15 dekabr 2017-ci ildə **Sumqayıt Kimya Sənaye Parkının rezidenti "STDC" Məhdud Məsuliyyətli Cəmiyyətinin layihəsi olan məlumatların emalı, qeydə alınması və ötürülməsi mərkəzi (**Data Mərkəzi) fəaliyyətə başlayıb. İnformasiya-kommunikasiya sahəsində istehsalyönümlü fəaliyyətin stimullaşdırılması, innovasiyaların tətbiqi, tətbiqi xarakterli elmi tədqiqat işlərinin genişləndirilməsi, habelə ixracyönümlü layihələrin icrası məqsədilə ölkə ərazisində analoji təyinatlı hesablama mərkəzlərinin yaradılması nəzərdə tutulur. Məhz həmin mərkəzlər şəffaf xarakterli paylanmış verilənlər bazası olan blokçeyn sisteminin fəaliyyətinə imkan verəcəkdir.

Aqrar sahədə fəaliyyətin miqyas və səmərəliliyini məhdudlaşdıran təbii amillərin texnogen imkanlarla genişləndirilməsi xətti son onilliklərin reallığıdır. Bu baxımdan torpaq sahələrinin məhdudluğu probleminin texnologiyalar hesabına həll edilməsi istiqaməti magistral xətdir. Təsadüfi deyil ki, təbii resurs imkanlarının məhdudluğu şəraitində rəqəmsal aqrotexnologiyaları fəal tətbiq edən ölkələr mühüm nailiyyətlər əldə edirlər. Bu baxımdan İsrail təcrübəsi diqqətəlayiqdir. "İsrailin aqrar sahəsi dünyada ən səmərəlilərdən biridir (əhalinin ərzaq məhsullarına tələbatının ödənilməsi -95%, kənd təsərrüfatı istehsalına yararlı sahə-20%-dən az). Aşağı təbii potensial texnologiyaların səmərəli tətbiqi hesabına uğurla kompensasiya olunur. Belə ki, ağıllı vericilər torpaq resurslarından daha səmərəli istifadəyə imkan verirlər. Onlar torpaq sahəsi barədə informasiyanı toplayır, onun auditini aparır, kənd təsərrüfatı bitkilərinin torpaq növünə uyğunlaşdırılması üçün tədbirlər təklif edir ki, bu da fermerə məsrəfləri azaltmağa və məhsuldarlığı artırmağa imkan verir" (6).

Rəqəmsal iqtisadiyyat, o cümlədən, aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi miqyası, xüsusilə ilkin yanaşmada dövlət-özəl bölmə tərəfdaşlığı sayəsində genişləndirilə bilər. Əlbəttə, bu istiqamətdə görülməli işlər çoxdur, amma nümunələr isə o qədər çox deyildir. İlkin addım informasiya cəmiyyətinin üstünlüklərini daha sürətlə reallaşdırmaq istiqamətində olmalıdır. Bütün aqrar-sənaye innovasiyalarının hamı üçün əlyetənliyi rəqəmsal texnologiyaların tətbiqi üçün əlverişli mühit yarada bilər. Belə olan halda informasiya resurslarının və informasiya sistemlərinin inteqrasiyası tələb edilir. Təcrübə göstərir ki, hətta dövlətin ən fəal iştirakı şəraitində belə, bu inteqrasiya prosesi ciddi çətinliklərlə üzləşəcəkdir. Həmin çətinliklər, ilk növbədə, informasiya təhlükəsizliyinin təmin edilməsi ilə bağlı olacaqdır.

Milli ərzaq təhlükəsizliyinin təminatı tələbləri müstəvisində aqrar resurs bazarının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin əsaslandırılması üçün zənnimizcə, ilk növbədə, kənd təsərrüfatının çoxvariantlı struktur dəyişmələrinin iqtisadi səmərəliliyi hesablanmalı və optimal struktur müəyyənləşdirilməlidir. Bu məqsədlə bitkiçilik və heyvandarlıq üzrə optimal strukturun seçilməsi üçün müasir iqtisadi-riyazi üsullardan istifadə etməklə resurslardan istifadənin mümkün varinatları müəyyən olunmalıdır.

İqtisadiyyatın riyazi və instrumental üsulları sahəsində aparılan tədqiqatların nəticələrinə əsaslanaraq demək olar ki, bu baxımdan imitasiya modelləşdirilməsinin informasiya imkanları daha genişdir. Bu halda resurslardan istifadənin optimal variantı çoxsaylı eksperimentlərin nəticələrinin məntiqi qiymətləndirilməsi sayəsində əsaslandırıla bilər. Ssenarilərin çoxluğu hesabına ilkin informasiya bazasının natamamlığı ilə əlaqədar təqribiliyi azaltmaq imkanı, resurs bazarının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsində bu üsula üstünlük qazandırır.

İnnovasiyalı-intensiv inkişafa adekvat idarəetmə sisteminin informasiya təminatının səciyyələndirilməsi üçün iqtisadi fəallığı şərtləndirən amillərin idarə edilməsi vəziyyəti

qiymətləndirilməlidir. Bu məqsədlə imitasiya modellərindən istifadə ediməsi məqsədəuyğundur. "İmitasiya eksperimentinin əsasını təşkil edən riyazi model müəyyən edilərkən, onu hər hansı modellər sinfindən seçmək və həmin sinfin səciyyəvi imkan və məhdudiyyətləri şəraitində sınaqlar aparmaq (əksər optimallıq modellərindən fərqli olaraq) heç də zəruri deyildir. Hər bir konkret halda modelləşdirməyə xüsusi yanaşma mümkündür və bir qayda olaraq məqsədəuyğundur. Bu imitasiya prosesinin özünün mahiyyətindən irəli gəlir. Belə ki, imitasiya tədqiq olunan obyektə maksimum nüfuz etməyi və öyrənilən hadisəni mümkün olan ən yüksək dərəcədə təqlid etməyi nəzərdə tutur" (7).

Sahədə resurs bazarı iştirakçılarının, başqa sözlə, resurs təminatçılarının və aqrar istehsalçıların qarşılıqlı münasibətlərinin tənzimlənməsi müvafiq bazar mexanizminin normativ bazasının yeniləşdirilməsi prosesində hər bir addımın əsaslandırılmasını tələb edir. İstehsal-texniki təyinatlı resurslardan istifadə, kənd təsərrüfatının maddi-texniki bazasının modernləşdirilməsi amortizasiya siyasətində baş verən liberallaşma meylini nəzərə almalıdır. Bu ilk növbədə, amortizasiya normalarının iriləşdirilməsi və sadələşdirilməsinə aiddir.

Reallıq təbiətə münasibətin ümumbəşəri meyarlar əsasında yenidən qurulmasını tələb edir. Əhali artımı, torpaqların münbitliyinin azalması, kənd təsərrüfatı məhsulunun enerji tutumunun artırılması, resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi prioritetlərini əsaslandırarkən iqtisadi və ekoloji meyarların birgə nəzərdən keçirilməsi zərurətini şərtləndirir. Əlbəttə, belə yanaşma, mükəmməl informasiya bazasının mövcudluğu və rəqəmsal texnologiyalardan istifadə şəraitində daha səmərəlidir.

Aqrar istehsalın yerləşdirilməsinə dair qərarların qəbulunda bu və ya digər subyektin davranışındakı qeyri-müəyyənlik və risk amili qərar qəbulu üçün gözlənilən nəticələrin, təsirlərin kəmiyyətcə qiymətləndirilməsini tələb edir. Tədqiqatlar belə deməyə əsas verir ki, mövcud informasiya təminatı şəraitində məhz qeyri-müəyyənlik şərtləri qərarların qəbulu üçün mühüm amil rolunda çıxış edir. Bu baxımdan aşağıdakı fikirlə razılaşmamaq, zənnimizcə çətindir "qərar qəbuletmənin ilkin parametrlərinin gələcək davranışının qeyri-müəyyənlik dərəcəsindən asılı olaraq, son nəticəyə təsir edən ayrı-ayrı hadisələrin başvermə ehtimalının qeyri-müəyyənlik və risk şərtləri, bu və ya digər dəqiqlik dərəcəsi ilə müəyyən edilə bilər və ya qeyri-müəyyənliyin başqa bir dəqiqlik dərəcəsi ilə lazımi informasiyanın olmaması səbəbindən müəyyən edilə bilməz"(8).

Aqrar istehsalın yerləşdirilməsində aqlomerasiya amilinin nəzərə alınması baxımından torpaq resurslarından istifadə səmərəliliyinin yüksəldilməsi, münbitliyin bərpasını və bu məqsədlə irriqasiya və meliorasiya tədbirlərinin hərtərəfli əsaslandırılması və ən yeni texnoloji bazada həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Digər prioritet torpaq və su resurslarından səmərəli istifadəyə yönəlmiş layihələrin bütün parametrlərinin sinxron reallaşdırılmasıdır. Belə ki, aqrotexniki tələblərə riayət olunması, mineral gübrələrdən istifadə rejiminin optimallaşdırılması, şoranlaşmış torpaqların yuyulması, əkin dövriyyəsinin elmi təşkili kimi torpaqların münbitliyinin bərpasına yönəlmiş tədbirlər, bilavasitə su resurslarından istifadənin səmərəliliyindən asılıdır.Haqqında danışılan məsələnin həlli, sözün həqiq mənasında rəqəmsal texnologiyaların tətbiqi sayəsində mümkündür.

Aqrar istehsalın yerləşdirilməsinə dair qərarların qəbulunda rəqəmsal texnologiyalardan istifadə sürəti artmaqla yanaşı, onların optimallaşdırılması və dinamik dəyişən ətraf mühitə uyğunlaşma imkanları genişlənir. Bu baxımdan aqlomerasiya effektinin aqrar fəaliyyətdə yerləşmənin kompleks amili kimi nəzərə alınması üçün rəqəmsal mühitin yaratdığı imkanlar xüsusi diqqətə layiqdir.

Nəhayət qeyd edək ki, kənd təsərrüfatında rəqəmsal texnologiyalar aşağıdakı istiqamətlərdə imkanları reallaşdırmaqla sahənin səmərəliliyini yüksəltmək iqtidarındadır: istehsal fəaliyyətinin bütün mərhələlərində rəqəmsal texnologiyaların bir-birini tamamlayaraq sinergetik effekt yaratması; muneral gübrələrin, yanacağın, aqrokimyəvi maddələrin və i.a. artıq istifadəsinin qarşısının alınması və tədricən onlardan optimal istifadə rejiminin təmin edilməsi; dayanıqlı inkişaf elementləri kimi üzvi gübrədən, zərərvericilərlə bioloji mübarizə

üsullarından, bərpa olunan enerji mənbələrindən istifadə arealının genişləndirilməsi; torpağın və yeraltı suların faydalı xassələrinin qorunması və bərpası; iqlim dəyişikliklərinə uyğunlaşmaya yardım edilməsi; təsərrüfat işlərinin vaxtında və optimal müddətdə həyata keçiilməsi; proqramlaşdırılmış əkinçiliyin imkanlarının reallaşdırılması.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev: Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq. Aydın Qasımov, hüquq elmləri doktoru. Respublika qəzeti. 10 dekabr 2019-cu il

2. Rəqəmsal Ticarət Qovşağı kimi Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsi və xarici ticarət əməliyyatlarının genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2017-ci il tarixli Fərmanı

3. Avropa İttifaqı Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafına dəstək verəcək// https://az.trend.az/business /2813498.html.

4. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı.

5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”.

6. Афонина В.Е. Влияние цифровизации на развитие аграрного сектора экономики // Международный сельскохозяйственный журнал № 3 (363), 2018, с.15-17, с.15.

7. Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. Bakı, Elm, 2007, 295 s., s. 241.

8. И.А.Бланк Принятие решений в условиях неопределенности. Доступно по адресу: http://www.elitarium.ru /2010/06/29/prinjatie_reshenijj_neopredelennost. html.

**f.f.d., dos. Təzəgül Qasımova Mirzə qızı**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*tezegulgasimova@gmail.com*

## AZƏRBAYCANDA POSTMÜHARİBƏ DÖVRÜNDƏ SOSİAL NƏZARƏT SİSTEMİNİN FORMALAŞMASINA SİYASİ-FƏLSƏFİ BAXIŞ

Mövzunun aktuallığı bu günün irəli sürdüyü tələblərlə şərtlənir desək yanılmarıq. Çünki hazırkı cəmiyyət insan həyat fəaliyyətinin bir çox sahələrində genişlənmənin vacibliyi ilə xarakterizə olunan sosial idarəetmənin əsas cizgilərini özündə əks etdirir. Tarixi inkişaf prosesində cəmiyyət obyektiv qanunauyğunluğa əsasən davranışı, sosial əlaqələr və insanlar arasındakı münasibətləri tənzimləyərək bir bütöv tam kimi yaranır və inkişaf edir. Bu bütövlüyü qoruyan əsas altsistemlər mövcuddur. Cəmiyyəti əgər bir bütöv,tam hissə kimi götürsək, onu qoruyan, tənzimləyən alt sistem də var ki, o da sosial nəzarət sistemidir. Sosial nəzarət cəmiyyətin ictimai nizam və birliyinin qorunması üçün mövcud olan mexanizmlərin, üsulların öyrənilməsi sistemidir. Bu mexanizmlər cəmiyyətin hər bir üzvü üçün bir davranış standartı yaradır və tətbiq edir. Bu davranış standartlarına utanc, məcburetmə, güc, təmkin, inandırma kimi müxtəlif anlayışlar daxildir.

Sosial nəzarət ailə, dövlət təşkilatları, məktəblər, iş yerləri kimi qurumlardan tutmuş əksər sosial idarəetmə sferasında həyata keçirilir. Mənbəsindən asılı olmayaraq, sosial nəzarətin məqsədi müəyyən olunmuş norma və qaydalara uyğunluğu qorumaq və bu çərçivədən kənara çıxmanın qarşısını almaqdır.

Sosial nəzarət sosiologiya sahəsinə aid olan bir termin, anlayışdır. Ancaq bir çox sahələrin tədqiqat müstəvisində bu anlayışa tez-tez müraciət olunur. Sosiologiya elmində geniş bir sahəni əhatə edən sosial nəzarət həm makro, həm də mikro komponentləri özündə birləşdirir. Makro sosial nəzarət qüvvələri ilə əlaqələri olanlara ilk növbədə, asayişi qorumaq üçün istifadə olunan polis, qanun və cəza kimi rəsmi mexanizmlərin məqsəd və effektivliyi daxildir. Mikro sosial nəzarətə isə sosiallaşma daxildir. Sosial nəzarət anlayışının tədqiqinə Con Lokk, Tomas Hobbs, Rossou kimi sosial filosofların, həmçinin, Karl Marks, Emil Dürkheym, Maks Veber kimi klassik sosial nəzəriyyəçilərin əsərlərində rast gəlmək olur. Bu gün də sosial nəzarət anlayışı tədqiqatçıların, alimlərin diqqətini çəkən bir məsələdir. İctimai, sosial düzən, nizam-intizam onun necə təmin edildiyi və bunu etməyin şərtləri haqqında mövcud olan anlayışımızı dizayn etməyə və təkmilləşdirməyə davam edirlər. Bu prosesə cəmiyyətin öz tələbi, tələbatı var. Yuxarıda adlarını qeyd etdiyimiz alimlərin əsərləri sosial nəzarət, sosial nizamın qorunması sahəsinə bir töhfədir desək, səhv etmərik. Və bu tədqiqatlar müasir sosial nəzarət nəzəriyyələrinin çoxunun əsasını qoydu. İnsanların əksəriyyəti həyatları boyu çalışırlar ki, mövcud olan norma və dəyərlərə uyğun gəlsin. Demək olar ki, əksəriyyət çox həvəslə bu uyğunluğa alışırlar. Burada diqqəti Parsonsun sosiallaşmanın bu "hazır uyğunluğun" mərkəzində olduğunu iddia etdiyi fikri çəkir. Yəni ailə və təhsil kimi qurumlar daxilində sosiallaşma fərdlərə bir cəmiyyətin norma və dəyərlərini mənimsəməyə kömək edir və bu sosiallaşma prosesi insanları "yaxşı insanın" cəmiyyət qaydalarına həvəslə uyğun gələn biri olduğuna inandırır. Sosial nəzarət sistemini dərk etmək üçün onun əsas elementlərini bilmək gərəklidir. Hansı ki, bura adətlər, vərdişlər və sanksiyalar sistemi daxildir. Davranış üsulu, davranışın əxlaqi qiymətlərlə təsbit olunmuş elementləri davranış etalonlarını yaradır.

Bu problemin qoyuluşunda diqqət çəkən bir tərəf isə hakimiyyət və idarəetmədə sosial nəzarətdir. Daha da dəqiqləşdirsək belə ifadə etmək olar ki, hakimiyyət və idarəetmə formalarından biri sosial nəzarətdir və bu təşkilatçılığın ən vacib bir hissəsidir. Sosial nəzarət sistemi cəmiyyət üzvlərinin onlardan tələb olunan və gözlənilən davranışı təmin edir. Sosial nəzarət sosializasiyadan başlayır. Yəni bu proses zamanı fərd öz sosial mövqelərini mənimsəyə

bilir. Və tələb olunan şəkildə fəaliyyət göstərir [4]. Bəzən bu proses şəxsin öz davranışına, daxili nəzarəti formasında da həyata keçirilə bilir.

Sosial nəzarətin həyata keçirilməsində üç vasitədən istifadə olunur:

1) Məcburiyyət, sanksiyaların tətbiq olunması;

2) səmərəli fəaliyyət və sosializasiya;

3) siyasi, maliyyə, hüquqi, mənəvi və digər məsuliyyət formaları.

Bu məsuliyyət formalarına, mədəni dəyərlər, ənənələr, qrup normaları daxildir. Alimlər onu da qeyd edirlər ki, əgər cəmiyyət vətəndaş cəmiyyətinə doğru irəliləyirsə, sosial nəzarətin səmərəliliyi tam olaraq aydın görünər [3, s. 95-98].

Azərbaycanda vətəndaş cəmiyyəti sürətlə inkişaf edir və sosial sistem olsa da, dövlətlə birgə ümumi rifah üçün fəaliyyət göstərir. Bu günə qədər ölkəmiz mürəkkəb bir tarixi dövr yaşasa da həyatın bütün sahələrində siyasi, sosial, iqtisadi, mədəni təkamül yolunu uğurla getmişdir. Ölkənin beynəlxalq nüfuzu artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, sosial ictimai nəzarət sistemi və müasir sosial-iqtisadi infrastruktur inkişaf etmişdir. Bu gün Azərbaycan dövlətinin qarşısına qoyulan əsas prioritetlər – sosial ədalətə əsaslanan cəmiyyət, müasir innovasiyalar məkanı, təmiz ətraf mühit, yaşıl artım, böyük qayıdış, dayanıqlı, artan rəqabətli iqtisadiyyat və güclü nəzarət sistemi kimi istiqamətlər öz gələcək həllini gözləyir.

Hər bir cəmiyyətin inkişaf etməsi üçün vacib şərtlərdən biri güclü və uğurlu nəzarət sisteminin olmasıdır. Cəmiyyətin normal, nizamlı inkişafını təmin etmək üçün bu nəzarət sisteminə ehtiyac var. Nəzarət sisteminin və cəmiyyətin inkişafı düzmütənasibdir. Yəni dinamik bir sistem olan cəmiyyət inkişaf etdikcə, onun əsas elementlərindən olan normalar, dəyərlər, ənənələr də inkişaf edir, dəyişir, yenilənir. Cəmiyyətin hər bir üzvü sakit, rahat bir şəraitdə, nizamda yaşamaq, fəaliyyət göstərmək istəyir. Bütün bunları insana verən güclü sosial-nəzarət institutunun, sisteminin olmasıdır. Bu nəzarət institutu nə qədər güclü olsa, sürətlə inkişaf etsə, cəmiyyət və onun ayrı-ayrı fərdləri də o qədər inkişaf edəcək və daha da təkmilləşəcəklər. Sosial nəzarət sistemi, eyni zamanda, metod və strategiyalar sistemidir. Nəzarət əgər bir şəxs tərəfindən həyata keçirilirsə, onda bu nəzarət fərdi nəzarət adlanır, yox əgər nəzarət qurum, təşkilat tərəfindən həyata keçirilirsə - bu sosial nəzarət adlanır. Yəni bu anlayışın əhatə dairəsi genişdir. Həm fərdin davranışını, həm sosiallaşmasını, həm normal və dəyərlər çərçivəsində fəaliyyətini nizamlayır. Sosial nəzarət institutunun köməyi ilə hər bir cəmiyyətdə sosial sabitlik üçün şərait yaradılır və qorunur. Yəni bu sistemin fəaliyyəti birbaşa hakimiyyətlə, idarəetmə ilə bağlıdır. Sosial nəzarət sisteminin əsasını sosial normalar təşkil edir. Siyasi, iqtisadi, sosial, mədəni sahələrdə sosial normalar hökm sürür. Əgər normal, nizamlı bir cəmiyyət varsa, mövcuddursa, demək orada artıq üzvlərin qəbul etdiyi sosial normalar var. Sosial nəzarət sisteminin digər elementi isə sanksiyalardır. Bura normaların pozulmasına görə olan cəzalar və əməl etdiklərinə görə mükafatlar daxildir. Digər nəzər yetirilməli tərəf isə odur ki, sosial nəzarət fərdi deyil, kollektiv şəkildə həyata keçirilirsə daha müsbət nəticə əldə oluna bilər. Heç bir cəmiyyət sosial nəzarət olmadan bunu edə bilməz. Təsadüfən bir yerə toplaşan kiçik bir insan qrupu da ən qısa müddətdə dağılmamaq üçün öz nəzarət mexanizmlərini inkişaf etdirməli olacaqlar [2].

Sosial nəzarət cəmiyyətin qoruyucusudur. Yəni sosial nəzarət sistemi dəyərləri qoruyur, sabitliyi təmin edir. Demək iki rolu var: qoruyucu və stabilizasiya. İnzibati nəzarət, ictimai nəzarət və qrup nəzarəti kimi sosial nəzarətin növlərini ayırmaq olar.

Bu gün Azərbaycan sosial nəzarət sisteminin uğurla fəaliyyət göstərdiyi respublikalardandır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu siyasətinin nəticəsində iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə mükəmməl bir nəzarət sistemi qurulub. Və bu sahələrin fəaliyyəti birgə və uğurla genişlənir. İkinci Qarabağ müharibəsindən zəfərlə çıxan Azərbaycan cəmiyyəti yenidən qurulmağa, bərpa olunmağa can atır. Hakimiyyət bütün sahələrin- iqtisadi, siyasi, mədəni, sosial sahələrin bərpası üçün yeni strateji plan hazırlamışdır. Bu planların həyata keçirilməsi üçün güclü nəzarət sisteminə ehtiyac duyulur. Postmüharibə dövründə işğaldan azad olmuş torpaqların yenidən bərpa olunması üçün

Azərbaycan dövləti yeni layihələr işləyib hazırlayır və bu layihələri həyata keçirmək üçün xarici, dost ölkələrin şirkətlərini bu bərpa işlərində iştirak üçün cəlb edir. Bütün bu prioritet istiqamətləri həyata kecirmək üçün güclü nəzarət sistemi qurulub, yeni idarəetmə modelləri hazırlanıb. Mükəmməl bir mühitin formalaşması üçün hakimiyyət və sosial nəzarət sistemi birgə fəaliyyət göstərməlidir. Belə olan halda, xaosu harmoniya əvəz edir.

Yuxarıda qeyd etdiyimiz kimi, sosial nəzarət bir dinamik sistemdir. Hər bir dövlət bu dinamik sistemə malik olmaq istəyir. Bu dinamik modelə fərd, sosial birlik, fərdi fəaliyyət, sosial fəaliyyət kimi ünsürlər daxildir. Hər bir cəmiyyət öz daxilində asayişi qorumaq üçün bu sistemi formalaşdırır. Bu sistemin köməyi ilə insanların hərəkətinə nəzarət edilir və bunun üçün tənzimləyici üsullar tətbiq olunur. Eyni zamanda, bu sistem mədəni normaların cəmiyyət üzvlərinin dərk etməsinə kömək olur. Cəmiyyətin bütün sahələrinə sosial sistemin tətbiqi qoruyucu sistemin inkişafından xəbər verir. Hər bir cəmiyyət insanların davranışlarını sistemə salan, tənzimləyən, rəsmi və qeyri-rəsmi yollardan ibarət olan və ictimai nizam-intizam qaydalarının qorunmasına töhfə verən müəyyən bir nəzarət sistemini inkişaf etdirir. Qeyri-rəsmi nəzarət ailə, qohumlar, dostlar, həmkarlar tərəfindən yəni – qeyd etdiyimiz kimi qeyri-rəsmi məzəmmət, başa salmaq, yol göstərmək, ibrət göstərmək kimi üsullardan istifadə edilərək keçirilir. Rəsmi nəzarət isə dövlətin nəzarət funksiyasını yerinə yetirən orqanların fəaliyyəti ilə məhkəmə, polis, xüsusi xidmət orqanları, hüquq-mühafizə orqanları və digər səlahiyyətli qurumlar tərəfindən həyata keçirilir. Asan dildə desək, sosial nəzarət sistemi cəmiyyətdəki əmin-amanlığı, asayişi qorumaq üçün insanları qayda-qanuna tabe etməyə, tabe olmayanda qanun çərçivəsində cəzalandırmağa doğru istiqamətlənmiş bir mexanizmdir və bu da dövlət tərəfindən həyata keçirilir. Yəni nəzarət sistemi dövlətin qoruyucu aparatıdır.

Bu gün inkişaf edən Azərbaycanın bütün sahələrində yüksək səviyyəli nəzarət sistemi tətbiq olunur və həyata keçirilir. Səhiyyə, təhsil, maliyyə, informasiya təhlükəsizliyi, enerji təhlükəsizliyi və s. geniş aspektlərdə bu sistem həyata keçirilir. XXI əsrin əvvəllərində dünyada baş verən mühüm geosiyasi proseslər və onların idarə olunması, beynəlxalq əlaqələrin tənzimlənməsi, milli təhlükəsizlik, hərbi-geosiyasi problemlər, iqtisadi-siyasi, sosial problemlər diskussiya mövzusu olmuş və bu problemləri nəzarətdə saxlamağın yolları müzakirə olunmuşdur. Yeni informasiya mühiti, yeni idarəetmə texnologiyaları, yeni sosial-iqtisadi, siyasi tərəqqi yeni nəzarət sistemi tələb edir.

Bu gün ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, hərtərəfli inkişaf, təkmilləşmiş nəzarət sisteminin olmasını tələb edir. Ölkənin beynəlxalq nüfuzu xeyli dərəcədə artmış, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilir və bu da iqtisadi, siyasi, sosial və digər sahələrdə dövlətin güclü nəzarət sisteminin olmasından xəbər verir. Qələbə nəticəsində torpaqlarımızın işğaldan azad olması ümumi iqtisadiyyata güclü təsir göstərdi və bundan faydalanmaq Azərbaycanın bütün sahələrdə inkişafına böyük təkan verəcək. Ümumi sosial-iqtisadi və siyasi uğurlar milli və multikultural dəyərlər qarşıdakı illərdə də Azərbaycanın uğurlar qazanacağından xəbər verir. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanda hərtərəfli sosial rifah dövlətinin, rifah cəmiyyətinin olmasından xəbər verir. Azərbaycan dövlətinin gələcək sosial-iqtisadi inkişafının əsas prioritetlərinə - rəqabətli iqtisadiyyat, sosial ədalətə əsaslanan cəmiyyət, müasir innovasiyalar, rəqabətli insan kapitalı, işğaldan azad olmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit, "yaşıl artım" və s. kimi sahələrin inkişafı daxildir [1]. Bütün bu sahələrin inkişafına və bu inkişafdan uğurların əldə olunmasına doğru aparan yolun ilkin başlanğıcı güclü nəzarət sisteminin yaranması və inkişafı ilə bağlıdır. Dövlətimiz hər bir sahənin inkişafının əsas istiqamətini müəyyən etməmişdən əvvəl, onu nəzarətdə saxlayan bir sistemin də formalaşmasını nəzərdən qaçırmır. İstər siyasət, istər iqtisadiyyat, istərsə də təhsil, elm və digər sahələrə dövlət nəzarəti sistemi həmişə diqqət edir. Bu güclü siyasətin nəticəsidir. Yüksək və ədalətli sosial təminat, yaradıcı və innovativ cəmiyyət, dayanıqlı məskunlaşma, yaşıl enerji məkanı ölkəmizin qarşısında duran əsas perspektiv istiqamətlərdəndir ki, bu gün ona doğru irəliləyirik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin gələcək inkişaf perspektivləri ilə bağlı öz çıxışlarında qeyd edib: “Dünya dəyişir, vəziyyət dəyişir, qarşımızda yeni çağırışlar dayanır. Ona görə də biz daim irəli baxmalıyıq ki, ölkəmizi necə inkişaf etdirək və inkişafı dayanıqlı və uzunmüddətli edək” [1]. Dövlət başçısının son 15 ildə imzaladığı fərman və sərəncamlar, milli fəaliyyət planları cəmiyyətdə güclü sosial nəzarət sisteminin inkişafından, şəffaflıqdan və hesabatlılıqdan xəbər verir. Ölkə Prezidenti tərəfindən imzalanmış “Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə milli strategiya və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün fəaliyyət planı”, “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün milli fəaliyyət planı”, “Açıq hökumətin təşviqinə dair (2012-2015, 2016-2018 və 2020-2022-ci illər)” milli fəaliyyət planları qeyd olunan məqsədlərin reallaşdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Tətbiq olunan yeni idarəçilik modelləri – “ASAN xidmət”, “ASAN Kommunal”, “DOST” və s. kimi modellərin tətbiqi vətəndaşların razılığını təmin etmək, bürokratik amilləri aradan qaldırmaq, insan amilinin prioritetliyini təmin etməkdir. Azərbaycan Respublikasının 30 yanvar 2021-ci il tarixli “Dövlət nəzarəti informasiya sisteminin yaradılması haqqında” fərmanı irəli çəkilən bir sıra məqsədlərin həyata keçməsinə imkan verir.

Bu yeni inkişaf modelləri, onların gələcəkdə öz reallığını tapması güclü, yeni sosial nəzarət sisteminin köməyi ilə həyata keçirilə bilər. Bütün bunlar gələcəkdə, müharibədən zəfərlə çıxmış bir dövlətin, cəmiyyətin tezliklə yenidən yüksək səviyyədə bərpa olunmasından, çiçəklənməsindən xəbər verir.

## İstifadə edilmiş ədəbiyyat


1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdi edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/articles/50473
2. Бергер, П.Л. Приглашение в социологию: Гуманистическая перспектива / Пер. с англ. под ред. Г.С. Батыгина. – Москва: Аспект Пресс, 1996. -168 с.
3. Кравченко, С.А., Покровский, Н.Е. Социология: парадигмы и темы. Курс лекций для высших учебных заведений. Моск. Гос. Ин-т междунар. Отношений (МГИМО-Университет) - Москва: Изд-во Анкил, 2007. – 404 с
4. www.strategiya.az


## Xülasə


İstənilən cəmiyyət özünü tənzimləmə vasitəsi olan sosial nəzarət sisteminə ehtiyac duyur. Sosial nəzarət sistemi cəmiyyət daxilində ictimai qayda-qanunu yaratmağa və davranışı nizamlayan xüsusi bir mexanizmdir. Bu nöqteyi-nəzərdən sosial nəzarət sistemi hakimiyyətlə birgə fəaliyyət göstərir. Dinamik sistem olduğuna görə cəmiyyət inkişaf etdikcə, bu sistem daha da mükəmməlləşir. Hakimiyyət sosial nəzarətdən bir vasitə kimi istifadə edir. Azərbaycanda da postmüharibə dövründə işğaldan azad olmuş ərazilərin yenidən bərpası üçün hakimiyyət tərəfindən güclü, hərtərəfli sosial nəzarət sistemi qurulmuşdur. Bu sistem təcavüzə məruz qalmış, dağılmış bir ərazinin yenidən bərpasına, qurulmasına kömək göstərən dinamik bir mexanizmdir. Və hər bir dövlətin bu sistemə ehtiyacı var.



**Açar sözlər:** Sosial sistem, nəzarət sistemi, postmüharibə, hakimiyyət, sanksiya.

**İ.ü.f.d., b.m. Dadaşova Mətanət İdris qızı**

*Azərbaycan Dövlət İqtisad Universiteti*
*“Ticarət və gömrük işinin təşkili” kafedrası*
*dadashova64@mail.ru*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ SİYASİ-İQTİSADİ İNKİŞAF

**Xülasə**

Məqalə görkəmli siyasətçi, müdrik rəhbər, Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasında hakimiyyətdə olduğu dövrdə fəaliyyətinin siyasi xəttinin işıqlandırılmasına həsr edilmişdir.

Məqalədə, əsasən, Ulu Öndər Heydər Əliyevin Azərbaycan respublikasına ikinci dəfə hakimiyyətə qayıdışından bəhs edilir. Rəhbərlik etdiyi dövrdə respublikanı, uzaqgörən, müdrik siyasəti ilə çətin vəziyyətdən çıxartması, ölkənin siyasi-iqtisadi inkişafı uğrunda həyata keçirtdiyi tədbirlər, vətən sevgisi, sadiqliyi nümayiş etdirilir.

Həmçinin, məqalədə Ulu Öndər Heydər Əliyevin işləyib hazırladığı neft strategiyasının ölkənin gələcək inkişafında güclü təsiri işıqlandırılmış, Azərbaycan respublikasının yaranmış problemlərini dəf edərək inkişaf etməsində, Ulu Öndər Heydər Əliyevin elmi-nəzəri, praktiki və təşkilati fəaliyyəti ilə yanaşı onun böyük şəxsi nüfuzunun təsirinin əhəmiyyəti göstərilmişdir.

**Açar sözlər**: Ulu Öndər, neft strategiyası, güclü ordu, hakimiyyət, müstəqillik.

Təbiət, bu qoca dünyaya nadir imkanlara malik insanları gətirərək, sanki hər hansı bir məkana öz rəhmini göstərir. Elə, nadir imkanlara malik insan kimi - Ulu Öndər Heydər Əliyev, məhz, təbiətin Azərbaycana bəxş etdiyi hədiyyəsidir.

1990-cı ili Sovet İttifaqının hökmranlığının Azərbaycan Respublikasında son dövrü kimi qeyd etmək olar. 1990-cı il Azərbaycan Respublikasının tarixində yeni, həm qanlı və həm də zəfər səhifələri açdı.

Əlbəttə ki, o dövrlərdə müstəqilliyə can atan Azərbaycanın təbiətən geniş potensialı olsa da siyasi-iqtisadi vəziyyəti, o dövrdə, ürəkaçan deyildi. 70 il ərzində Sovetlər birliyində Azərbaycan iqtisadiyyatı Rusiya tərəfindən istismar edilmiş və tam olaraq asılı bir vəziyyətə gətirilmişdi. Digər tərəfdən də, Qarabağda vaxtikən sığınacaq tapan erməni separatçıları vəziyyətdən istifadə edərək Sovet İttifaqının, Azərbaycanın müstəqilliyinə xor baxan, ermənipərəst rəhbərlərinin köməkliyi ilə silahlanaraq öz xain planını həyata keçirməyə başladı. Qarabağ və ətrafındakı 7 rayon işğal edildi. Yerli əhali qəddarcasına öldürülür, canlarını qurtara bilənlərsə öz doğma diyarından didərgin düşürdü. Azərbaycan həm daxili və həm də xarici düşmənlərin təsirinə məruz qalaraq nəticədə sanki “deformasiyaya” uğrayırdı.

1990-cı il Bakıda yanvar ayının 19-20-sinə keçən gecəsi Rus ordusunun, artıq Azərbaycana yeritdiyi tankları, əsasən də ” XI Qızıl Ordu” (indiki “20 Yanvar”) metro stansiyası yerləşən ərazi ətrafında yaşayan dinc əhaliyə qarşı “qırğın” planını həyata keçirtdi. Törətdikləri ağlasığmaz vəhşiliklər külli miqdarda insan həyatına son qoydu. Küçələr qana qəltan oldu.

19-20 yanvar qırğını Azərbaycanda Sovet İttifaqının dağılmasını daha da sürətləndirdi. Günahsız insanların ölümü-itimi ilə nəticələnən bu haqsızlıq xalqı sarsıtmadı, onlar gələcəyə inamla baxırdılar. 1991-ci il oktyabrın 18-i Azərbaycanın dövlət müstəqilliyi elan edildi. Azərbaycanın müdrik xalqı gələcəyini ağıllı, uzaqgörən, müdrik siyasətçi rəhbərdə görürdü. Bu rəhbər- HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV idi.

Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi ən

nadir, ən mürəkkəb, hətta çıxılmaz olan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergidir [2.səh.103].

Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahların arzuları gözlərində qaldı. Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi [2.səh.107].

Əlbəttə ki, Heydər Əliyevin hakimiyyətə qayıdışında ilk mühüm işi Azərbaycanda erməni təcavüzünü dəf etmək, işğal edilmiş torpaqların geri alınması, evlərindən didərgin düşmüş vətəndaşlarımızın öz yurdlarına dönməsi üçün görülən tədbirlər idi. Ölkənin ərazi bütövlüyünün qorunmasında Heydər Əliyev güclü ordunun yaradılmasını mühüm vəzifələrdən biri kimi sayırdı və bu istiqamətdə gördüyü işlər də öz bəhrəsini verirdi.

Ölkənin həm iqtisadi, həm ictimai, həm də siyasi vəziyyətinin şox mürəkkəb və gərgin olduğu bir dövrdə Heydər Əliyevin böyük siyasətçi təcrübəsi sayəsində tez bir zamanda həyata keçirilən operativ təşkilati tədbirlər nəticəsində xaricdən dəstəklənən, azğınlaşmış erməni silahlı qüvvələrinin qarşısı alındı və düşmənə lazımi əks-zərbələr endirildi.

Prezident Heydər Əliyevin Dağlıq Qarabağ probleminin həlli işinin əsasını beynəlxalq normalara uyğun və dünya ictimaiyyətinin iştirakı ilə nizama salınması təşkil edirdi.

Həqiqətən də, bu müdrik insanda bir möhtəşəmlik var idi, onun həyat fəaliyyəti güclü siyasətçi potensialı ilə sadə insanın sintezini əks etdirirdi. Ulu Öndər bu bacarığını, gücünü doğma vətəninin firavanlığı üçün əsirgəmirdi. Hidayət Orucov Heydər Əliyevə həsr etdiyi kitabında belə yazırdı: "Ən azı son iki yüz ildə dünyada analoqu olmayan hadisə baş verdi. Heydər Əlirza oğlu özü üçün əskiklik saymayaraq sıravi bir muzey bələdçisi kimi ölkənin xəritəsini özü açıb xarici dövlət və siyasət xadimlərinə, işgüzar dairələrə, jurnalistlərə Qarabağ həqiqətlərini şərh elədi. Heydər Əlirza oğlu kimi vüqarlı, qürurlu bir şəxsiyyəti, müdrik insanı, ölkə Prezidentini adi bir bələdçi rolunda çıxış etməyə Vətən sevgisindən, torpaq vurğunluğundan başqa heç bir qüvvə vadar edə bilməzdi. Prezidentimiz bunu şüurlu, psixoloji effekti düzgün proqnozlaşdıraraq edirdi: ölkə başçısının, özü də bütün dünyanın tanıdığı ağsaqqal, görkəmli dövlət xadiminin vəsaitlərdən istifadə edərək obyektiv söz deməsi, onlarla ziyalının, yüzlərlə jurnalistin cəhdindən daha ciddi inandırma və təsir gücünə malikdir. Bu məsələləri yoluna qoyulması ilə dünya birliyinin mövqeyi Azərbaycanın xeyrinə əsaslı şəkildə dəyişdi, qlobal işlər görməyə real və əlverişli şərait yaradıldı"[4,s.134].

1994-cü ildə Heydər Əliyevin səyi nəticəsində cəbhə xəttində atəşkəs elan edildi, çünki yaranmış vəziyyət bunu tələb edirdi. Bununla da hədər yerə əsgər-oğullarımızın qanlarının axıdılmasına, müdrük rəhbər son qoydu. Ölkədə ölkədaxili gərginliyə səbəb olan və qanunsuz yaradılan silahlı dəstələr qanunla tənzimlənərək ləğv edildi.

Respublikanın tam müstəqil olaraq hər sahəsinin siyasi-iqtisadi inkişafı üçün möhtəşəm, güclü orduya ehtiyacı var idi. Üzaqgörən, müdrük dövlət başçısının quruculuq işlərinin əsasını ölkənin ərazi bütövlüyünün keşiyində möhkəm dura bilən, güclü, milli ordunun yaradılması təşkil edirdi. Güclü, qüdrətli Dövlət – güclü, qüdrətli Ordusu ilə yaranır. Bu da əlbəttə ki, ölkə rəhbərinin bilik, bacarıq, siyasi düşüncə və təcrübəsindən irəli gəlir. Sadalanan bu keyfiyyətlərdən hansınınsa birinin olmaması idarəetmədə səhvlərə yol açır. Yüksək idarəetmə səviyyəsində isə səhvlər yolverilməzdir. Cünki, buraxılan səhvlər cox baha başa gələ bilər. Yüksək bilik və bacarığa, həm siyasi həm də iqtisadi baxımdan idarəetmə, "min ölçüb bir biçmək" keyfiyyətinə malik olan, Böyük insan Heydər Əliyevin üzərinə düşdüyü mühüm vəzifələrdən biri sayılan, doğma vətən üçün güclü milli ordunun yaradılması istiqamətində gördüyü işlər öz bəhrəsini verdi. Tezliklə, ölkənin güclü ordusu yaradıldı. Öz alçaq, yalançı xislətindən əl çəkməyən erməni silahlı qüvvələri vaxtaşırı cəbhə bölgələrində atəşkəs rejimini pozarkən, onlara qarşı milli ordumuzun qüvvətli cavabı buna bir sübut-dəlil idi..

Heydər Əliyev prezidentliyi dövründə Azərbaycanın xarici siyasəti məqsədli şaxələnərək müxtəlif istiqamətlərdə inkişaf edirdi. Bu siyasət, ölkəmizin qlobal-beynəlxalq siyasətə qoşularaq, dünya birliyinə inteqrasiyasını nəzərdə tuturdu.

Heydər Əlirza oğlu Əliyev qlobal xarici siyasət kursunu mərhələ-mərhələ gerçəkləşdirmək üçün ən optimal variant kimi iki istiqaməti əsas götürmüşdü [ 4. səh.133]:

1. MDB,

2. Qərb və digər dünya dövlətləri ilə qarşılıqlı əlaqələr.

Onun milli siyasət konsepsiyasında milli mənafeyimiz və dövlət maraqları ilə bağlı irili-xırdalı bütün məsələlər demək olar ki, əhatə olunmuşdu, təfsilatına varmadan o dövrün ən vacib məsələləri kimi aşağıdakıları qeyd edə bilərik [ 4. səh.133]:

- Qarabağ problemi ilə bağlı həqiqətləri, dünya birliyinə olduğu kimi çatdırmaqla problemin sülh və danışıqlar yolu ilə obyektiv həllinə nail olunması;
- müstəqil və azad Azərbaycanın beynəlxalq aləmdə bərabərhüquqlu, nüfuzlu bir üzvü kimi tanınaraq qəbul edilməsi;
- Azərbaycan dövlətinin dünya iqtisadi inteqrasiyasına, istehsal prosesinə, maliyyə-bank sisteminə, vahid dünya elm-mədəniyyət məkanına fəal cəlb olunması;
- Azərbaycanın beynəlxalq təşkilat və qurumlarda üzv seçilməsinə, sivil dünya birliyi tərəfindən qəbul edilmiş beynəlxalq saziş və öhdəliklərə qoşulmasına təminat yaradılması;
- respublikada əsaslı demokratik, hüquqi, iqtisadi, siyasi islahatlar aparmaqla dünya dövlətlərinin və iş adamlarının ölkəmizin iqtisadiyyatına investisiya qoymalarına maraq oyadılması:
- BMT, ATƏT, Avropa Şurası, Avropa Birliyi və s. kimi beynəlxalq qurumların işlərində fəallıq göstərməklə çoxtərəfli, eyni zamanda, ayrı-ayrı dövlətlərlə maraq doğuran müqavilələr imzalamaqla ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi.

Belə qlobal məsələləri həyata keçirmək asan deyildi, amma nə vaxtsa asanlaşacağını gözləmək və sonra fəaliyyətə başlamaq əslində ölkənin gələcəyini təhlükə altında qoymaq demək idi. "Sabah gecdir" prinsipini fəaliyyət devizi götürən Heydər Əlirza oğlu Əliyev əvvəlki naşı dövlət rəhbərlərinin passivliyi ucbatından itirilmiş vaxtın və imkanların əvəzini çıxmaq üçün xarici siyasət kursunda aktivlik yaratdı. İlk növbədə, xarici düşmən qüvvələrin birbaşa köməyi ilə və planı sayəsində, içimizdəki satqınların və diletantların iştirakı ilə Azərbaycan ətrafında yaradılmış informasiya blokadası, millətçi-şovinist, antidemokratik ölkə imici və təsəvvürü aradan qaldırılmalı idi [4.səh.133].

Heydər Əliyev, dünyanın aparıcı dövlətlərinə səfərlər edir, ölkəmizin ölkələr arasında müxtəlif istiqamətlərdə, bərabərhüquqlu əlaqələrini yaratmağa səy göstərirdi və buna nail olurdu. Qardaş Türkiyə ilə əlaqələr isə Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı altında keyfiyyətcə daha yüksək, yeni mərhələyə qədəm qoymuşdu.

Heydər Əliyev kimi uzaqgörən, təcrübəli siyasətçinin müdrikliyi sayəsində Azərbaycan ən nüfuzlu beynəlxalq təşkilatların, iqtisadi və maliyyə qurumlarının üzvlüyünə qəbul edilirdi. Ölkəmizin günü-gündən artan nüfuzu sayəsində dövlətimiz həm beynəlxalq, həm də regional siyasətin inkişafında daha da fəal iştirak edirdi.

Prezidentliyi dövründə Heydər Əliyevin Azərbaycanın bu gününün, gələcəyinin milli iqtisadi inkişaf perspektivinin mənafeyi naminə Azərbaycanın təbii ehtiyatından və əlverişli coğrafi-strateji mövqeyindən istifadə edərək, dövlətin siyasi-iqtisadi inkişafının möhkəmlənməsinə istiqamətlənmiş siyasətinin uğurla həyata keçirilməsi xüsusi diqqətə layiq idi.

1980-ci illərin sonundan etibarən Azərbaycanda başlayan iqtisadi tənəzzül, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra görülmüş tədbirlər nəticəsində 1995-1996-cı illərdə dəf edilmiş, 1997-ci ildən isə tərəqqi, irəliləyiş əldə olunmağa başlanmışdı. Ümumdaxili məhsulun həcmi 1997-ci ildə 5.8 faiz, 1998-ci ildən etibarən isə hər il 10 faiz artmışdır. İqtisadiyyata kapital qoyuluşu əhəmiyyətli dərəcədə çoxalmış, xüsusilə də istehsal təyinatlı yatırımın artım sürəti daha yüksək olmuşdur. Özəlləşdirmənin həyata keçirilməsi və

sahibkarlığın inkişafı ücün əlverişli şərait yaradılması sayəsində ümumdaxili məhsulda qeyri-dövlət bölməsinin payı 70 faizə çatdırılmışdır[3.səh.46].

Heydər Əliyev xalqın istəyi ilə ikinci dəfə Azərbaycan hakimiyyətinə gəldikdən sonra dövlətin neft strategiyasını işləməyə başladı. Nəhayət, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsinin" bağlanmasına nail oldu.

Ölkəmizin iqtisadi potensialının inkişafı istiqamətində irimiqyaslı neft müqaviləsi olan "Əsrin müqaviləsinin" və sonralar Xəzərin Azərbaycan sektorunun karbohidrogen ehtiyatlarının istismarı ilə əlaqədar müqavilələrin imzalanması, ölkəmizə xarici sərmayələrin axınında mühüm rol oynamışdır.

Azərbaycanın ilk neft strategiyası olan "Əsrin müqaviləsi" beynəlxalq neft kontraktlarını özündə birləşdirirdi. Azərbaycan tarixində müstəqilliyimiz sayəsində bu ilk dəfə baş verirdi.

Beləliklə, ABŞ, Böyük Britaniya, Türkiyə, Səudiyyə Ərəbistanı və Norveçin 12 böyük şirkəti ilə 1994-cü ilin 20 sentyabrında Xəzərin neft ehtiyatlarının birlikdə istifadəsi üçün "Əsrin müqaviləsi" imzalandı. İşlərin nəticəsi kimi 1997-ci il 12 noyabrda ilk neft hasilatı başlandı.

1994-1995-ci illərdə 5 kontrakt əsasında "Bakı-Tbilisi-Ceyhan" beynəlxalq neft kəmərinin çəkilməsi haqqında qərar qəbul edildi və bunun üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıldı. Həmin beynəlxalq neft kəmərinin çəkilişi üçün yaradılmış sponsorlar qrupunda Azərbaycan Respublikasının Dövlət neft şirkəti (ARDNŞ)-50%, "BP"-25,4%, Lukoyl – 7,9%, Statoyl – 6.7%, TPNO – 5%, İtoçu – 3% kapital qoyuluşuna malik idilər [1.səh.49].

Heydər Əliyevin işləyib hazırladığı neft strategiyasının əsasını Bakı-Tbilisi-Ceyhan neft ixrac boru kəmərinin inşası təşkil edirdi. Bu boru kəmərinin uzunluğu 1768 km-dir. Onun hazırlanmasına dörd milyard dollar xərclənmişdi.

2006-cı il 13 iyun Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəmərinin rəsmi açılışı Ulu Öndər Heydər Əliyevin neft strategiyasının qürurverici anı idi. Bakı-Tbilisi-Ceyhan neft kəməri nəinki iqtisadi, həm də böyük siyasi strateji əhəmiyyət kəsb edərək Şərq ilə Qərb arasında energetika dəhlizi rolunu oynadı.

Azərbaycan neftinin geniş miqyasda istehsalı üzrə bağlanmış "Əsrin müqaviləsi" on ildən sonra Azərbaycan XX əsrin sonuna qədər xarici şirkətlərdə 21 neft müqaviləsi bağlamışdır və bu müqavilələr əsasında Azərbaycanın neft sənayesinin inkişafına 60 milyard ABŞ dolları həcmində investisiya qoyulması nəzərdə tutulmuşdu [1.səh.49].

Heydər Əliyev bu strategiyanı belə qiymətləndirmişdi: "Neft strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin əsas qarantlarından biridir...bu ABŞ və Azərbaycan arasındakı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırdı. Xüsusilə Xəzərdəki neft yataqları bütün dünyanın diqqətini cəlb etdi."

Neft strategiyasının tərkibinə aid olan Ərzurum-Bakı qaz kəmərlərinin də inşası diqqəti cəlb edirdi. Azərbaycanın qeyd olunan neft və qaz boru kəmərləri, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (Traseka) dünyada ölkənin geosiyasi mövqeyini dəfələrlə gücləndirmişdi.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış, tarixi əhəmiyyətə malik olan, milli siyasi-iqtisadi yüksəlişə yol açan neft və qaz strategiyası Azərbaycana dünya miqyasında ucalıq, hörmət və gələcəkdə inkişafı üçün təminat idi.

Heydər Əliyevin şəxsi təşəbbüsü ilə tarixi İpək Yolunun bərpasında Azərbaycanın həlledici rol oynaması, bu nüfuzlu işin proqramının İcraçı katibliyinin Bakıda yerləşdirilməsi barədə qərarın qəbul edilməsi ölkə iqtisadiyyatının tərəqqisinə təkan verməklə yanaşı, beynəlxalq və regional siyasətdə imkanların genişlənməsinə təminat verirdi, Tarixi ipək yolunun bərpası ilə bağlı ilk beynəlxalq konfrans Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ilin sentyabrında Bakıda keçirilmişdi.

Konfransda 32 ölkə və 13 beynəlxalq təşkilatın nümayəndəliyi ilə birlikdə 7 ölkə prezidentinin [5] iştirakı, bu ölkələrin Azərbaycana xüsusi dəyər və böyük önəm verməsindən xəbər verirdi.

Azərbaycançılığın keşiyində duran Ulu Öndər Heydər Əliyev doğma vətənin – Azərbaycanın sanki "DÖYÜNƏN ÜRƏYİ" idi. O, Azərbaycanı daim zənginləşməyə, hər bir sahəsini abadlaşmağa yönəlməsinə, zamanın tələbinə uyğun uzaqgörənliyi ilə inkişaf etdirməyə çalışırdı və ən əsası isə buna nail olurdu. Həmçinin, Azərbaycançılığın inkişafında rolu olan hər bir ziyalıya düzgün dəyər verirdi.

Tarixçi-alim Y.M.Mahmudov Ulu Öndər Heydər Əliyevə həsr etdiyi kitabında yazırdı ki, sovet dövründə tariximizin ən təhrif olunmuş səhifələrindən biri də Gülüstan və Türkmənçay müqavilələrinə verilən qiymət idi. Həmin müqavilələrə tarixi reallığı kobud surətdə təhrif edərək "Azərbaycanın Rusiyaya birləşməsi", "könüllü sürətdə Rusiya tərkibinə daxil olması", nəhayət "birləşdirilməsi" kimi qondarma qiymətlər verilməsi, "işğal", "ilhaq olunma", "bölünmə", "bölüşdürülmə" ifadələrini işlədənlərin təqib olunması yadımızdan çıxmayıb. O da yaxşı yadımızdadır ki, 60-cı illərin sonu – 70-ci illərin əvvəllərində həmin məsələ ilə əlaqədar öz içərimizdən olan çuğullar erməni millətçiləri ilə və onların Moskvadakı ideoloqu L.S.Şaumyanla birləşərək Rəsul Rza başda olmaqla Azərbaycan ensiklopediyaçılarına (o cümlədən həmin sətirlərin müəllifinə) və xalqımızın qabaqcıl ziyalılarına divan tutmağa çalışarkən bizim hamımızı məhz, xalqımızın cəsarətli lideri Heydər Əliyev xilas etmiş, hətta heç birimizə adicə partiya cəzası belə verilməmişdi [2,səh.137].

Burada da, böyük siyasətçi Heydər Əliyev dühası öz bəhrəsini göstərir.

Azərbaycan Respublikasının dövlət başçısı kimi Heydər Əliyev Gülüstan və Türkmənçay müqavilələrinə torpaqlarımızın parçalanması, xalqımızın iki yerə bölünməsi kimi qiymətləndirərək, belə deyirdi: "Tarixi proseslərin gedişi ona gətirib çıxartdı ki, 1813 və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycanı, onun tarixi torpaqlarını parçaladı, xalqımızı iki yerə böldü. Bu gün tam qətiyyətlə demək olar ki, bütün dünyaya səpələnmiş azərbaycanlılar müstəqil Azərbaycan Respublikasını öz Vətəni sayır, onu milli dövlətçiliyin, milli ruhun, milli dəyərlərin, milli mənəviyyatın və mədəniyyətin məbədi kimi yüksək qiymətləndirirlər. Bu, XX əsrdə təşəkkül tapmış azərbaycançılıq ideyalarının böyük vüsət almasının məntiqi nəticəsidir."

Heydər Əliyev dünya Azərbaycanlılarının birliyini yüksək tutaraq bu istiqamətdə həyata keçirtdiyi işlər həm müxtəlif dövlətlərdə yaşayan azərbaycanlıların dayaq, güvənc yerinin, həm də Azərbaycanın siyasi-iqtisadi inkişafının möhkəmlənməsinə xidmət edirdi. Təkcə, Heydər Əliyevin dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi elan etməsi Azərbaycan xalqının hər bir nümayəndəsinin yaşadığı yerindən asılı olmayaraq, birliyinin inkişafına və onun gələcəkdə daha da möhkəmlənməsinə dəlalət edir.

1995-ci ilin 31 dekabrında Heydər Əliyevin çıxışını xatırladaq: "Bu əlamətdar gündə sizi bir daha əmin etmək istəyirəm ki, dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızın mənəvi vətəni olan Azərbaycanın qapıları öz övladlarının üzünə həmişə açıqdır." Ulu Öndərin bu çıxışı bir müdrik rəhbərin Vətənə və vətənin övladlarına olan sevgisini tərənnüm edirdi.

Ölkə prezidentinin bu istiqamətdəki ardıcıl fəaliyyətinin gücünə, qüdrətinə bir neçə amil əsaslı şəkildə təminat yaratmışdı [4,səh.144]:

1. Heydər Əlirza oğlu Əliyevin ğəlişi gözəl sözlərlə deyil, ilk növbədə şəxsiyyətinin kristal təmizliyi, fenomenal istedadı, xalqa, Vətənə təmənnasız və sonsuz vurğunluğu ilə özünün bütün dünya azərbaycanlılarının lideri olduğunu təsdiq edibdir.

2. Heydər Əlirza oğlu Əliyev dünya azərbaycanlılarını inandıra bildi ki, Azərbaycan dövləti hansı ölkənin vətəndaşı olmasından, harada yaşamasından asılı olmayaraq, hər bir soydaşının insan hüquq və azadlıqlarının, təhlükəsizliyinin, etnik-milli özgürlüklərinin, dini etiqadının qorunub saxlanılması üçün məsuliyyət daşıyır.

3. Heydər Əlirza oğlu Əliyev çalışır ki, azərbaycanlı Azərbaycanı özünün doğma vətəni hesab etsin və hər bir an elin-obanın, xalqın qayğısı, dərdi, sevinci, kədəri, səadəti ilə yaşasın. Onun dünya azərbaycanlılarına müraciətlə dediyi aşağıdakı sözlər təkcə ümummilli siyasət kursunun kredosu deyil, eyni zamanda azərbaycançılıq məramının manifestidir:

- "Azərbaycanlılar! Harada olursan ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının buğünu və gələcəyi haqqında düşünməlisən."

Bu çağırış, Vətən sevgisi ilə ürəyi çırpınan, vətənpərvər, müdrik rəhbərin çağırışı idi. Bu çağırış, sanki övlada onun, anaya sadiqliyinin vacibliyini bir daha nəzərinə yeritmək idi.

Bu Böyük İnsan, müdrik rəhbər, uzaqgörən siyasətçi Azərbaycanı sevən hər bir kəsin ürəyində yaşayacaqdır! Onun həyat təcrübəsindən, tədqiqatlarının bəhrəsindən Azərbaycan xalqının və eləcə də gənclərin inkişafında tətbiqi vacib məsələdir və böyük həyat örnəyidir.

.

**Ədəbiyyat**

1. İsmayılov İ., Azərbaycan nefti XX əsrdə (hərbi-siyasi baxış), Bakı, 2007.
2. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, 2002.
3. Mehdiyev R."Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: yanvar 2002-dekabr 2006"- Bakı, 2007, cild 2.
4. H.Orucov, Heydər Əliyev və Azərbaycanda milli siyasət, Bakı, 2001.
5. http://www.e-qanun.az/framework/3192.

**i.f.d. prof. Həsənəov Hüseyn Kamal oğlu**

*Azərbaycan Memarlıq və İnşaat universiteti*
*"Sənayenin təşkili və idarə edilməsi" kafedrası*
*Hhasanov1953@gmail.com*

## HEYDƏR ƏLİYEV İQTİSADİ SİYASƏTİNİN TƏNTƏNƏSİ VƏ BUGÜNÜMÜZ

**Xülasə**: Məqalədə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə başlanan yeni iqtisadi yüksəliş və onun nəticələri araşdırılmış, Heydər Əliyevin gərgin əməyi sayəsində əldə edilən nailiyyətlər öyrənilmişdir.Məqalədə həm də son 30 ildə Ermənistanın işğalı və təcavüzünə məruz qalmış ərazilərə yenidən qayıdış və infrastrukturun bərpası məsələlərinə də yer verilmişdir. Azad edilmiş ərazilərdə tədricən əhalinin məskunlaşmasının başlanması üçün ümumi tələb olunan ən vacib infrastruktur obyektləri, onların sayı, görüləsi işlərin ümumi həcmi, zərər dəymiş fəaliyyət bölmələrində texniki infrastrukturun sıradan çıxması və ümumi ziyanla əlaqədar göstəricilər sistemləşdirilmişdir. Bərpa işlərinin başlanğıcında Prezident Sərəncamlarından irəli gələn və hökumətin fəaliyyəti ilə bağlı olan işlərin yerinə yetirilməsi üçün azad edilmiş ərazilərdə qruplaşdırılaraq iqtisadi problemlərin səmərəli həlli üçün təkliflər verilmişdir.

Vaxt və təminat məhdudluğu çərçivəsində texniki-texnoloji və digər infrasturktur obyektlərinin tam bərpası zamanı bərpa edilməli və yenidən qurulmalı obyektlərin düzgün seçilməsi və planlaşdırma işlərinin ən müasir standartları ödəməsi ilə bağlı tövsiyələr verilmiş, şanlı Azərbaycan ordusunun qələbələri fonunda ölkəmizin qazandığı son iqtisadi nailiyyətlər qeyd edilmişdir.

**Açar sözlər:** infrastruktur, bərpa, rekonstruksiya, müharibə, strategiya, konsepsiya, iqtisadi yüksəliş.

**Summery:** The article is devoted to the issues of return and restoration of infrastructure in the territories occupied by Armenia for the last 30 years. The most important infrastructure facilities required for the gradual resettlement of the population in the liberated areas, their number, the total volume of work to be done, the indicators related to the breakdown of technical infrastructure and general damage in the affected areas have been systematized. At the beginning of the restoration work, in order to carry out the work arising from the Presidential Decrees and related to the activities of the government, groups were given in the liberated areas for the effective solution of economic problems.

Recommendations were made on the correct selection of facilities to be restored and reconstructed during the full restoration of technical, technological and other infrastructure facilities and meeting the latest standards of planning, the latest economic achievements of our country against the background of the victories of the glorious Azerbaijani army.

**Keywords**: infrastructure, recovery, reconstruction, war, strategy, concept, economic growth

Bəşəriyyətin ən qədim məskənlərindən biri olan Odlar Yurdu-Azərbaycanın şanlı tarixi vardır. Dövlətçilik ənənəsi eramızdan əvvəl birinci minilliyə gedib çıxan Azərbaycan üç min il əvvəl də, sonralar və elə indinin özündə, eramızın üçüncü minilliyinin başlanğıcında da dünyada özünəməxsus yerə malikdir. Azərbaycan dünyanın istər mədəniyyət və incəsənət, istər elm, istərsə də siyasi tarixinə öz töhfəsini vermiş və onu zənginləşdirmişdir.

Azərbaycan tarixinin müxtəlif taleyüklü məqamları və mərhələlərində həmişə doğma vətənimizi ağır sınaqlardan çıxarmaq vəzifəsi müvafiq dövrlərin böyük şəxsiyyətlərinin üzərinə düşüb.Özünün zənginliyi ilə həmişə yağı düşmənin diqqətini çəkən Azərbaycan torpağının yetişdirdiyi Atropat, Cavanşir, Babək, Qızıl Arslan, Uzun Həsən və Şah İsmayıl Xətai kimi qüdrətli sərkərdə və dövlət başçıları Vətənin başını duman almasına yol verməyib, əksinə onu həmişə uca edib və bu qəhrəmanları ilə tək xalqımızın yaddaşında qalmayıb, dünya

tarixinin qüdrətli şəxsiyyətləri sırasına daxil olublar. Azərbaycanın keşməkeşli və taleyüklü illərində həmişə doğma torpağı və xalqı qoruyacaq Azərbycan oğulları yetişib, Vətənin ağır dövrlərində ona dayaq olublar.

Keçən əsr də Azərbaycan dövləti üçün çox keşməkeşli oldu. 20-ci əsrin əvvəllərində Azəərbaycan müstəqillik əldə etdi, lakin qısa müddətdən sonra onu itirdi, ölkəmiz zor gücü ilə sovet imperiyasının tərkibinə qatıldı. İmperiya dövründə uzun müddət azərbaycanlılar sıxışdırıldı, onlarla üçüncü növ insanlar kimi rəftar edildi və bu proses 1969-cu illədək davam etdi.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Heydər Əliyev seçildi və məhz bundan sonra azərbaycanlıların həyatında köklü dəyişikliklər baş verməyə başladı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar sayəsində Azərbycan aqar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi. Respublikada aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə illər ərzində yeni yaşayış massivləri, binalar, sənaye müəssisələri tikildi, yollar salındı. Azərbaycan gənclərinin elmin və təhsilin dərinliklərinə yiyələnməsi və ölkənin sabahı üçün peşəkar kadrların yetişdirilməsi üçün Heydər Əliyevin gərgin səyləri nəticəsində on minlərlə azərbaycanlının keçmiş ittifaqın ən nüfüzlu ali məktəblərində təhsil almaları üçün şərait yaradıldı.

Azərbaycana rəhbərlik etdiyi 14 il ərzində minilliklər boyu əldə edilməsi mümkün olmayan nailiyyətləri gerçəkləşdirməyi bacaran Heydər Əliyevə bütün bunları həyata keçirməyə onun Vətənə, xalqa, topağa hədsiz məhəbbət  və sədaqət hissi, qurub-yaratmaq amalı kömək etmişdir.

1982-ci ilin sonlarından başlayaraq, Moskvada keçmiş SSRİ dövlətinin rəhbərlərindən biri kimi fəaliyyət göstərdiyi dövrdə də Heydər Əliyev doğma Azərbaycanı və xalqını unutmamış, onun inkişafı və çiçəklənməsi, əhalisinin rifah halının daha da yüksəlməsi üçün çalışmışdır.

Keçən əsrin sonunda növbəti dəfə müstəqillik əldə edən Azərbaycan ona başçılıq edən səriştəsiz rəhbərlərin faliyyəti nəticəsində uçuruma doğru gedirdi. Erməni qəsbkarları tərəfindən Azərbaycan torpaqlarının işğalı, bir milyon azərbaycanlının öz torpağında qaçqın və məcburi köçkünə çevrilməsi, hələ bu azmış kimi, respublikada hökm sürən hərc-mərclik xalqın Heydər Əliyevə müraciət edib onu dövlətə rəhbərlik etməyə dəvət etməsi ilə nəticələndi. Xalqınn son güman yeri olduğunu dərk edən Heydər Əliyev öz millətini, dövlətini  sevən bir dövlət xadimi kimi vətəndaşların bu müraciətini cavabsız qoymadı. Bakıya gəldi, olum ya ölüm təhlükəsi qarşısında qalmış Azərbaycanı 93-cü il fəlakətindən xilas etdi.

Azəbaycanın müstəqillik əldə etməsindən keçən 30 il ərzində respublikamız dünya birliyinə inteqrasiya yolunda inamla addımlayaraq beynəlxalq münasibətlər sisteminin fəal üzvlərindən birinə çevrilmişdir. Azərbaycan Respublikasının müstəqil dövlət kimi mövcud olduğu qısa müddət ərzində ölkə geriləmə və tənəzzüldən uzaqlaşaraq iqtisadi inkişafa nail olmuş, ölkə vətəndaşlarının sosial rifah halı kifayət qədər yüksəlmişdir.Bütün bu nailliyyətlərin əldə edilməsinin başlanğıcında Heydər Əliyev adı dayanır. Məhz Heydər Əliyevin zəhməti və gərgin səyi nəticəsində onun hələ Azərbaycana ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublikada güclü iqtisadiyyatın təməlinin qoyulması sayəsində bugünki müstəqil Azərbaycan qısa müddət ərzində yüksək iqtisadi inkişafa nail olmuşdur. O illərdə Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi və sosial siyayət sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişaf etməsi, həyat səviyyəsinin yüksədilməsi mümkün olmuşdur.

Heydər Əliyevin respublika sənayesinin inkişaf etdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər ölkədə inqilabi dəyişikliklərə gətirib çıxarmış, Azərbaycan aqrar ölkə statusu ilə vidalaşaraq sənaye respublikasına çevrilmişdir.

Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır. Bu güc həm siyasi gücdür, iqtisadi gücdür, xalq-iqtidar birliyidir,

hərbi gücdür və ölkəmizin regionda oynadığı müsbət roldur. Azərbaycan dövləti başda onun müzəffər ali Baş komandanı və ordusu olmaqla bu gücdən istifadə edərək qarşıda duran əsas vəzifəni şərəflə yerinə yetirdi. Ermənistan ordusunu 44 gün ərzaində darmadığın etdi və diz çökdürdü.

Cəbrayıl, Fizuli, Zəngilan, Qubadlı rayonları, keçmiş Hadrut rayonu, Xocavənd rayonunun böyük hissəsi, Suqovuşan qəsəbəsi, Murovdağ silsiləsi və Şuşa şəhəri hərbi yolla azad edildi. Bütövlükdə 300- dən çox yaşayış məntəqəsi hərbi yollarla işğaldan azad edildi. Bunun nəticəsində Ermənistan faktiki olaraq diz çökdü və məcbur olub 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atdı. Eyni zamanda, Ağdam, Laçın və Kəlbəcər rayonları bir güllə atılmadan bir şəhid vermədən geri qaytarıldı.

Şanlı Azərbaycan ordusu Ermənistanı döyüş meydanında çökdürdü, döyüş meydanında düşmənə elə "dərs verdi" ki, onlar bu günə qədər bu dərsdən özlərinə gələ bilmirlər. Bu gün Ermənistanı bürümüş dəhşətli böhran onların işğalçılıq siyasətinin və Azərbaycan ordusunun zəfərinin nəticəsidir.

Hesab etmək olar ki, bu, Ermənistan üçün tarixi dərs oldu. Onlar bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan Ordusunun gücünü gördülər. Baxmayaraq ki, işğal edilmiş bütün torpaqlarımızda vandalizm aktı törədilmiş, bizim bütün tarixi abidələrimiz sökülərək Ağdam ,Fizuli, Cəbrayıl, Qubadlı,Zəngilan və digər qalan bütün ərazilərdə, şəhər, qəsəbə və kəndlər yerlə-yeksan edilmişdir.

Laçın və Kəlbəcər rayonları ərazisində qanunsuz məskunlaşma aparılsa da, Ermənistana o rayonlardan çıxmaq üçün vaxt verildiyi müddət ərzində onlar o əraziləri də dağıtmış, bütün dünyaya öz vəhşiliklərini göstərmişlər. Bütün dünyanın gözü qarşısında evləri yandırıb, meşələri qırıb, kəsib, yandırıb vandalizm aktları törətmişlər. Bu vəhşiliyin, qəddarlığın bəlkə də tarixdə analoqu yoxdur. Heç İkinci Dünya müharibəsində işğalçı qüvvələr bu qədər qəddarlıq nümayiş etdirməmişlər.

Ermənilər hesab edirdilər ki, Biz bu bölgələrə bir daha qayıtmayacağıq, amma biz qayıtmışıq və qayıdırıq.

2021-ci il Böyük Qayıdış ili. Azad edilmiş ərazilərdə nələr olmalıdır: tələb olunan obyektlərin sayı, işlərin həcmi, sosial tələblər,ilk göstəricilər və ümumi konturlar.

Ermanistanın Azərbaycana təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, infrastuktura, sahibkarlığa çox ciddi ziyan vurulmuşdur. Bu zərərlərin qiymətləndirilməsi və gələcəkdə kompensasiya edilməsi istiqamətində Azərbaycan Respublikası Prezidenti 6 noyabr 2020-ci il tarixli sərəncam vermişdir. Bu sərəncam əsasında Dövlət Komissiyası yaradılmış və bu Komissiyaya müvafiq konkret tapşırıqlar verilmişdir. Sərəncamda verilən tapşırıqların icrası ilə əlaqədar İqtisadiyyat, Maliyyə, Fövqəladə Hallar, Kənd Təsərrüfatı nazirliklərinin, Şəhərsalma və Arxitektura Komitəsinin, Azərbaycan Respublikası Prokurorluğunun, "Asan Xidmət" və yerli icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət 11 şəhər və rayonda 13 işçi qrupu yaradılmışdır. İşçi qruplarına mərkəzi icra orqanlarının nazirlər və komitə sədrlərinin müavinləri səviyyəsində rəhbərlik edilir.

Müharibə qurtardıqdan dərhal sonra dəyən ziyanın qiymətləndirilməsi ilə əlaqədar işlərə 200-dən çox məsul şəxs cəlb edilmiş, zərər çəkmiş vətəndaşların özlərinin iştirakı ilə 12 mindən yuxarı obyektə baxış keçirilmiş və qiymətləndirilmə aparılmışdır. Qiymətləndirilmədən sonra müvafiq aktlar tərtib edilərək təqdim olunmuşdur. Ən çox zərər çəkmiş Tərtər rayonunda dəymiş ziyanın ilkin proqnozlarından dəfələrlə çox olduğu nəzərə alınaraq, əlavə işçi qrupu da yaradılaraq qiymətləndirmə daha geniş və əhatəli surətdə həyata keçirilmişdir.

Toplanmış materiallara əsasən dağıdılmış və qəzalı vəziyyətə düşmüş, o cümlədən, ziyan dəymiş əmlakın bərpa dəyəri əsasında, nəqliyyat vasitələri, kənd təsərrüatı texnikası və digər daşınmaz əmlak orta bazar qiyməti prinsipinə uyğun olaraq qiymətləndirilmişdir. Hesablamalar nəticəsində dəymiş ziyan 93.2 milyon manat həcmində qiymətləndirilir.

Vətəndaşların əmlakı ilə bərabər, dövlət əmlakına da ciddi ziyan dəymişdir. Beləki, dövlət əmlakına, əsasən də yol infrastrukturuna, elektrik, rabitə, qaz, su xətlərinə və digər infrastruktur obyektlərinə dəymiş ziyan məcmu halda təqribən 27.4 milyon dəyərləndirilir. Ümumilikdə ilk qiymətləndirmə aparılmış obyektlərdə dəymiş ziyan artıq 100 milyona yaxınlaşmaqdadır.

Müharibə zamanı şəhər və rayonlarda dağıdılmış və qəzalı vəziyyətə düşmüş evlərin sayı 264 idi. Bu evlər tam dağıdılmışdır ki, onlardan 10 çox mənzilli bina Gəncə şəhərindədir. Ölkə üzrə isə dağıntılara məruz qalmış ümumi fərdi yaşayış evlərinin sayı 9294-dür. 44 günlük müharibə zamanı 440 sahibkarlıq obyektinə, 227 nəqliyyat vasitəsinə, digər 18 obyektə ziyan dəymişdir.

Müharibə zamanı tamamilə dağıdılmış, zərər çəkmiş binalarda yaşayan əhalinin şəxsi əşyalarına dəymiş ziyanın dərhal ödənilməsi ilə əlaqədar 2020-ci il dekabrın 14-də Prezident sərəncam imzalamışdır. Bu sərəncama əsasən dəyiş ziyanın dərhal ödənilməsi üçün 9.1 milyon manat ayrılmışdır ki, bu vəsaitdən qəzalı vəziyyətə düşmüş yaşayış evlərinə dəymiş ziyanla əlaqədar hər ailəyə 6000 manat, hər ailə üzvünə 1500 manat və ziyan dəymiş ailələrə 1000 manat ayrilması tapşırığı verilmişdir. Bu tapşırıqla əlaqədar 6143 ailə siyahıya alınmış və bu proses bank vasitəsi ilə konkret ailə üzvlərinə plastik kartlar açılmaqla yerli icra hakimiyyəti və maliyyə strukturlarının nəzarəti altında şəffaf şəkildə həyata keçirilmişdir.

Prezident Sərəncamları və tapşırıqlarına əsasən digər məsələlər də paralel olaraq həll edilir, dəymiş ziyanlar qiymətləndirilir və Xarici İşlər Nazirliyi vasitəsi ilə beynəlxalq təşkilatlara və xarici nümayəndəliklərə çatdırılır. Aparılan bu və digər məsələlərin qiymətləndirmənin tam şəffaf olması üçün "ASAN xidmət" vasitəsilə yaradılmış vahid elektron baza fəaliyyət göstərir.

Hazıra işğaldan azad edilmiş ərazilərə dəymiş ziyanın ilkin məlumatlara görə 100 milyonlarla ABŞ dollarından ibarət olduğundan danışılır. İşğaldan azad edilmiş ərazilərdə hələ də dəqiq hesablamların aparılması(minalanmış ərazilər və s.) çətinlik törədir və hesablamalar infrasturkturun əsas hissəsinin dağılması nöqteyi-nəzərindən aparılır. Keçən 28 il ərzində obyektlərin nəzarətsiz qalması və ermənilər qaçarkən mümkün olan hər şeyin yandırılması və dağıdılması nəticəsində antropogen amillərin təsiri də nəzərə alınmalıdır. Azad edilmiş ərazilərin ilkin tədqiqatları göstərirki, keçən dövr ərzində işğal altındakı ərazilərdə oyektlərin dağılması prosesi çox sürətlə getmişdir. Ona görə də insanın həyat fəaliyyətini təmin edən infrasturktur obyektləri bu ərzilərdə tam dağıdılmışdır. Dəymiş ziyanların ilkin strukturunun təhlili göstərirki, bunun 60%- dən çoxunu tikinti obyektləri təşkil edir(cədvəl 1)

Bu göstəricilər görüləsi işlərin həcmini və istiqamətlərini müəyyən edir. Eyni zamanda, tam bərpa proqramını həyata keçirmək üçün material və zaman sərfi də müəyyən edilməlidir.

Cədvəl 1

| **Zərər dəymiş fəaliyyət bölmələri** | **Ümumi ziyan %-lə** | **Texniki infrastrukturun sıradan çıxması %-lə** |
|---|---|---|
| Tikinti infrastrukturunun sıradan çıxması: o cümlədən,<br>Yaşayış fondu | 89.7 | 91.9 |
| Səhiyyə təhsil və tərbiyə | 87.6 | 92.3 |
| Məişət Xidməti | 91.1 | 94.5 |
| Ticarət və İctimai İaşə | 97.6 | 96.7 |
| Sənaye | 98.5 | 96.3 |
| Texniki Sənaye bazarı | 98.9 | 98 |
| Aqrar müəssisələr | 95.2 | 93.7 |
| Nəqliyyat | 78.3 | 83.4 |
| Digər Oyektlər və maddiehtiyyatlar | 86.9 | 91.5 |
| Ekologiya və təbii sərvətlər | 79.8 | 89.6 |
| Vətəndaşların şəxsi əmlakı | 99.6 | 98.5 |

Fikrimizcə təxirə salınmaz işlərin əsas əhatəsi və real işlərin başlanması ilə bağlı dəqiq vaxt və layihələr müəyyən edilməlidir. İlkin layihələr üçün mikro-ərazilər götürülməlidir: Qazax-Gədəbəy( 4 rayon- Qazax, Ağstafa, Tovuz, Gədəbəy) Aşağı Qarabağ(7 rayon: Goranboy, Tərtər,Ağdam, Ağcabədi, Beyləqan, Fizuli), Şuşa.

Həyat fəaliyyətini təmin edən infrastruktura ən çox ziyan dəyən Fizuli, Ağdam, Goranboy və Tərtər rayonlarının olduğunu nəzərə alaraq bu ərazilər birinci qrupa, digər ərazilər zərərin səviyyəsi və vacibliyinə görə ikinci qrupa, üçüncü qrupa isə daha az ziyan dəyən ərazilər( rayonlar, ərazilər o cümlədən Naxçıvan MR ərazisi də) daxil edilməlidir.

Bu göstəricilərə görə də layihələr əsasən ərazilərdə görüləcək işlərin aparılması üzrə yollar və istiqamətlər müəyyənləşdirilməlidir.

Birinci qrup rayonlarda tam dağıdılmış yaşayış mühitinin bərpası məsələləri kompleksinin həlli üçün kənardan kütləvi işçi qüvvəsi və material ləvazimat cəlb edilməlidir.

İkinci qrup ərazilər üçün, ayrı-ayrı problemlerin həlli üçün ixtisaslı mütəxəssilər, işçi qüvvəsi, xarici şirkətlər və xarici investisiyanın cəlb edilməsinin təşkili zəruridir.

Üçüncü qrup ərazilərdə az investisiya ilə yerli potensial imkanlar onların hesabına ayrı-ayrı oyektlər bərpa edilməlidir.

Dəymiş ziyanların ilkin təhlilinə görə yaşayış bölməsinə ən böyük zərər Goranboy, Tərtər, Fizuli rayonları və ətraf ərazilərə dəymişdir (ümumi zərərin 28-30%-i). İnfrastruktur bölməsinin sosial xidmət, təhsil və tibb oyektlərinə də dəyən zərərə görə(30-35%) bu rayonlar fərqlənirlər.

Fiziki həcmə görə sosial bölmənin zərərinin(yaşayış sahələri, xidmət və s.) bərpası təkcə yuxarıda adları çəkilən rayon və ərazilər üçün deyil, həm də digər rayonlar üçün ön sırada duran (Qazax, Tovuz, Gədəbəy və s.) vacib məsələlərdəndir.

Zərər çəkmiş rayonlarda tikinti proqramının əsasını yaşayış və xidmət oyektləri, habelə tikinti materiallarının istehsalı üzrə müəssisələr təşkil edir.

Aqrar və Sənaye təyinatlı obyektlərin bərpası seçmə yolu ilə, dövlətin dəstəyi sayəsində sahibkarların imkanları hesabına da aparıla bilər. Bunların çoxu özəlləşdirilmə yolu ilə hüquqi şəxslər tərəfindən yerinə yetiriləcəkdir. Bu zaman, mühəndis avadanlıqları infrastrukturunun(elektrik, su təchizatı və s.) və inşaat materialları təchizatı da önəmli məslədir.

Hazırlanmaqda olan “Böyük qayıdış və inkişaf” proqramında yenidən həyata qaytarma strategiyası və konsepsiyasında:

Strategiya: Qayıdış şəraiti və inkişafı yenidən bərpa üçün və əhalinin sərbəst, fəal, həmçinin, məhsuldar əmək fəaliyyətinə qovuşmasını lazımi qədər təmin etmək üçün bu ərazilərin sosial-iqtisadi potensialının dirçədilməsi.

İşlərin yerinə yetirilməsi konsepsiyasında isə mərhələrlə əhalinin müxtəlif səviyyələrdə yerləşdirmə sistemlərinin formalaşdırılması və işləməsi üçün ərazi sistemlərini təmin edəcək infrastruktur kompleksinin bərpası və rekonstruksiyası(yenidən qırılması) ən vacib problemlərin həlli üçün qüvvə və ləvazimatların, böyük texniki,texnoloji, maddi və maliyyə resuslarının bir istiqamətə cəmlənməsi kimi məsələlər öz əksini tapmalıdır.

Bərpa və Yenidənqurma prosesinin təşkili üçün qəbul edilmiş strategiya və konsepsiya(əsas müddəalar) inşaat-tikinti işlərinin baza gücünə əsaslanmalıdır.

Fikrimizcə, İlkin(Pilot) proqramında(əksər sektorlar nəzərə alınmaqla) 3-5 illik yerinə yetirilmə müddəti üçün 4-4,5 milyard manat məsrəflər nəzərdə tutulmalıdır. İlk növbəti məsələlərin bir il müddətində yerinə yetirilməsi üçün (2021-ci il) 1.5 milyard manata qədər maliyyə vəsaiti bəs edər.

Sosial infrastruktur obyektlərinin tam bərpası üçün görülməli olan inşaat imkanları hərtərəfli araşdırılaraq müəyyən edilməli, vaxt və təminat məhdudluğu şəraitində bu məsələlərin həllinin çətinliyi nəzərə alınaraq maraqlı təşkilatlarla(özəl, xarici və s.) obyektlərin və infrasturkturun qismən bərpası da həyata keçilirə bilər. Bu bərpanın həcmi isə fəaliyyət göstərmə səviyyəsinə və gələcəkdə sərbəst inkişafın təmin edilməsi ilə müəyyənləşdirilmişdir.

İlk bərpa mərhələsi layihələrində sistem əmələ gətirən obyektlər seçilməklə işlərin aparılması planlaşdırılmalıdır.

Yeni obyektlərin tikintisindən fərqli olaraq, bərpa işlərində inşaat işlərinin strukturu və buna uyğun olaraq inşaat materiallarına olan tələbatın strukturu dəyişir. Bununla əlaqədar olaraq, bərpa və yenidən qurulacaq obyektlərin mövcud vəziyyəti və burada aparılacaq inşaat işləri böyük əhəmiyyət kəsb edir.

"Böyük qayıdış" baş verəcək rayon və şəhərlərimizdə ucdantutma, qismən bərpanın baş verəcəyi nəzərə alınmalıdır(Burada infrasturkturun dağılma səviyyəsi 96%-dən çoxdur). Nisbətən az zərər çəkmiş ərazilərdə, əhali tərkibi də az dəyişdiyindən ilk növbədə, bu ərazilərin bərpası daha məqsədəuyğundur.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatına ölkəmiz əks-hücum əməliyyatı ilə cavab verdi. Noyabrın 10- dək davam etmiş Vətən müharibəsi Qələbəmizlə başa çatdı. Azərbaycan Ordusu tarixi zəfərin qazanılmasında misilsiz qəhrəmanlıq göstərdi. Bu döyüşlərdə igidlərimiz torpaqlarımızı düşmən tapdağından xilas etmək üçün şəhid və qazi oldular. Azərbaycan əsgəri torpaqlarımız düşməndən azad edilənədək döyüşdü və Ermənistanın Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamasına son qoydu.

Azərbaycanın qələbəsi yalnız hərbi sahədə deyil, sosial, iqtisadi, mədəni və mənəvi sahələrdə də davam edir. Ölkəmizdə dayanıqlı inkişafı təmin edən sosial və iqtisadi zəfərlər daima artır. 2020-ci ildə Azərbaycan iqtisadiyyatı üçün böyük əhəmiyyətə malik "Cənub qaz dəhlizi" tam istismara verildi, onun son seqmenti olan TAP fəaliyyətə başladı. Azərbaycan qazı tarixdə ilk dəfə olaraq Avropa məkanına çıxdı.

Bu Azərbaycanın tarixi nailiyyətidir.

Azərbaycanın nailiyyətləri bununla bitmir. 2020-ci ilə bütün ölkələrin gerilədiyi bir vaxtda, Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında Azərbaycan 28-ci yerdədir. Biznes iqlimi, investisiya iqlimi, davamlı aparılan islahatlar Dünya Bankı tərəfindən qeyd edilir.

Bundan əlavə Azərbaycan:

-dünyada 10 ən islahatçı ölkə sırasındadır:

-əhalinin elektrik təchizatı səviyyəsinə görə dünyada ikinci yerdədir

-hökumətin dəyişməyə cavabdehliyi, yəni, islahatçı obrazı əmsalına görə dünya miqyasında beşinci yerdədir

-hökumətin uzunmüddətli strategiyasına görə dünyada 10-cu yerdədir

-hökumətin siyasi sabitliyi təmin etməsi üzrə dünyada 11-ci yerdədir

-infrastrukturun layihələri ilə bağlı, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə dünyada 11-ci yerdədir

-hava yolları xidmətlərinin səmərəliliyinə görə dünyada 12-ci yerdədir

-avtomobil yollarının keyfiyyətinə görə dünyada 24-27-ci yerdədir

-inklüziv inkişaf indeksi üzrə dünyada 3-cü yerdədir.

Azərbaycan innovativ, müasir və səmərəli, dayanıqlı iqtisadi inkişaf yolundadır.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayarkən 1993-cü il 10 oktyabr tarixində andiçmə mərasimindəki tarixi çıxışında Heydər Əliyev demişdi : "İşğal, qaçqınların vəziyyəti, respublikanın ictimai-siyasi, mənəvi vəziyyətini gərginləşdirmişdir. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikamızın sərhədlərinin təhlükəsizliyini təmin etmək, soydaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır. Əmin ola bilərsiniz ki, mən bütün səylərimi səfərbər edib, Azərbaycan xalqının istəyinə nail olacağam. "

Ədəbiyyat

1. H.Əliyev "Müstəqilliyimiz əbədidir."
2. İ.Əliyev "İnkişaf- məqsədimizdir."
3. İ.Əliyev "Azərbaycanda böyük qayıdış, böyük inkişaf prosesi başlayır.' "Azərbaycan qəzeti" №3 08.01.21
4. "Azərbaycan qəzeti" №1 06.01.2021

**i.f.d., baş müəllim Hüseynova Ruhiyyə Adil qızı**
*Mingəçevir Dövlət Universiteti*
*h.ruhiyye76@mail.ru*

## HEYDƏR ƏLİYEV İRSİ AZƏRBAYCANIN GƏLƏCƏK İNKİŞAFI ÜÇÜN FUNDAMENTAL ƏSASDIR

**Xülasə**: Azərbaycan xalqının 34 illik bütün ictimai-siyasi, sosial-iqtisadi, maddi mənəvi həyatı H.Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində Azərbaycan böyük inkişaf yolu keçmiş, uğurlar əldə etmiş, müstəqil dövlət kimi bərqərar olmuşdur. Milli mənafeyi xalqın mənafeyinə, xalqın mənafeyini dövlət mənafeyinə çevirən siyasi lider - H.Əliyev Azərbaycanın tərəqqisini təmin etməklə bərabər, həm də beynəlxalq nüfuz və etibar qazanmışdır. Son dərəcə çətin tarixi şəraitdə də milli dəyərləri yaşatmaq, dövlətçiliyi qorumaq, Azərbaycanın inkişafına nail olmaq kimi çətin vəzifəni yerinə yetirmişdir. Müstəqilliyimizin ilk illərində, Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkədəki hərc-mərcliyə son qoyuldu, atəşkəsə nail olundu, köklü islahatlara başlanıldı, güclü dövlət quruculuğu, iqtisadi inkişafın təmin edilməsi istiqamətində uğurlu daxili və xarici siyasət həyata keçirildi. O, dünyanın ən nüfuzlu ölkələri ilə hərtərəfli əməkdaşlıq etməklə, bərabərhüquqlu tərəf müqabili kimi iqtisadi və siyasi əhəmiyyətli danışıqlar aparmaqla diplomatik missiyalar yerinə yetirdi. H.Əliyevin tükənməz enerjisi Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, xalqın rifahının yüksəlməsinə yönəldilmişdir. Müasir Azərbaycan Ulu Öndərin şah əsəridir. Ulu Öndərin ən böyük mirası Prezident İlham Əliyevdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 illik həsrətə 44 gün ərzində son qoyaraq düşməni məhv edərək xalqımıza zəfər sevicini yaşatdı. Ümummilli liderimizin ideologiyasının bundan sonra da təbliği və təşviqi istiqamətində ideoloji işlərin aparılması və onun siyasi xəttinin davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inkişaf edərək bundan sonra daha da qüdrətlənəcəkdir.

**Açar sözlər**: Ümummilli lider, ideoloğiya, dövlətçilik, vətənpərvərlik, missiya

Hər bir dövlətin tarixinin taleyüklü və mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynayan, dövlətçilik ənənələri formalaşdırmış milli liderləri olmuşdur. Belə liderlərin zəngin həyat səhifələrini vərəqləyərkən, onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi dünyaları ilə ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaltmışlar. **Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi belə tarixi şəxsiyyətdir. Onun həyatı və fəaliyyəti, dövlət idarəçiliyində iştirakı xalqımızın mühüm tarixi dövrünü əhatə edir. Heydər Əliyev Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlər göstərib. Onun xidmətləri tarixin yaddaşına qızıl hərflərlə yazılıb.**

Heydər Əliyev öz fəaliyyəti ilə böyük şəxsiyyət olduğunu nümayiş etdirməklə yanaşı, qətiyyət, siyasi iradə sayəsində xalqını, qurduğu dövləti dünya miqyasında tanıda bilib. Ona görə də xalqımızın şüurunda, təfəkküründə və yaddaşında Ulu Öndərin özünəməxsus yeri var. Onun xidmətləri zaman-zaman müzakirə predmeti, araşdırma və tədqiqat obyektidir. Ulu Öndərin xalqımız qarşısındakı xidmətləri minnətdarlıqla xatırlanır.

Heydər Əliyev Sovet dövründə Azərbaycanın birinci şəxsi olanda mövcud imkanlardan yararlanaraq tarixi əhəmiyyətli, gələcəyə yönəlmiş addımlar atdı: Azərbaycan dili 1978-ci il konstitusiyasinda dövlət dili kimi rəsmiləşdirildi. Təhsil və elm sahəsində ana dilimizdə nəşrlərin sayı artmağa başladı. İttifaqın resurslarının respublikanın hərtərəfli inkişafı ücün yönəldilməsi barədə vacib qərarların qəbul olunması Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanda kadrların yetişdirilməsi, gənclərin ittifaqı, təhsil müəssisələrinə göndərilməsi gələcəyə hesablanmış addımlar idi. Hərbi sahədə kadrların yetişdirilməsi üçün H.Əliyev böyük işlər görüb. Bakıda C.Naxçıvanski adına hərbi məktəbin yaradılması, hərbi kadrlar hazırlayan ali məktəblərə azərbaycanlıların göndərilməsi də uzaqgörən siyasətin nəticəsi idi. Zaman da

göstərdi ki, həmin hərbi kadr potensialı Qarabağ uğrunda gedən müharibədə Azərbaycanın zabit və komandirlər korpusunun əsasını təşkil etdi. Ona görə də bunlar birmənalı şəkildə müstəqilliyin əsaslarının formalaşmasına yönəlmiş addımlar hesab edilir.

Bildiyimiz kimi, müstəqilliyin ilk illərində Azərbaycanda olduqca təhlükəli vəziyyət yaranmışdı: Xalqın xilası üçün yeganə istinadgah olan Heydər Əliyevin sayəsində Azərbaycan müstəqilliyini qoruyub saxladı. Xalqın təkidlə hakimiyyətə qayıtmasını tələb etməsi nəticəsində H.Əliyev prosesləri təhlükəsiz vətəndaş müharibəsindən xilas yoluna yönəltməyi bacardı. O, Prezident seçildikdən sonra birbaşa xalqa müraciət etdi. Xalq yumruq kimi Heydər Əliyevin ətrafında sıx birləşdi. Gənclərimiz könüllü olaraq kütləvi şəkildə cəbhəyə yollandı. Vətən övladlarının qəhrəmanlığı sayəsində Azərbaycan Ordusunun 1994-cü ilin yanvarında Horadiz əməliyyatı ilə Füzuli rayonunun 22 kəndi və 1 qəsəbəsi işğaldan azad olundu. Nəticədə düşmən atəşkəsə razı oldu və əldə olunan atəşkəsdən sonra Azərbaycan dövlət quruculuğu mərhələsinə qədəm qoydu.

**Zəmanəni qabaqlayan fenomen – Heydər Əliyev dühası**

Heydər Əliyev: “Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir.”

Hər bir xalqın tarixdəki yeri və rolu mürəkkəb siyasi şəraitdə məsuliyyəti üzərinə götürərək onun taleyində misilsiz rol oynamış, mütərəqqi ideyaları, qeyri-adi idarəçilik keyfiyyətləri ilə müdrikcəsinə və uzaqgörənliklə sabit dövlətçilik ənənələri yaratmış dahi şəxsiyyətin fövqəladə missiyası ilə şərtlənir. Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar. Ruslar üçün bu şəxsiyyət I Pyotr, amerikalılar üçün Corc Vaşinqton, ingilislər üçün Uinston Çörçil, fransızlar üçün Şarl de Qoll, almanlar üçün Otto fon Bismark, çinlilər üçün Mao Tszedun, türklər üçün Mustafa Kamal Atatürkdürsə, biz azərbaycanlılar üçün Heydər Əliyev dühasıdır. XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan Ümummilli lider Heydər Əliyevin siyasi portreti də Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bugününü, ölkəmizdəki dövlət quruculuğu da öyrənildi. Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada, Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür. Ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində müstəqil Azərbaycan xarici siyasətində etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən, “dövlət-vətəndaş” birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrilib. Ötən yüzillikdə cərəyan edən hadisələrin təhlili göstərir ki, respublikanın müstəqilliyə gedən yolu 1969-cu ildən başlayaraq, Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən məqsədyönlü siyasətlə tamamlanıb. Zaman və ictimai-iqtisadi formasiya baxımından kifayət qədər fərqli olan hər iki tarixi dövrün əsas bənzər cəhətləri isə Ulu Öndərin Azərbaycana böyük nailiyyətlər qazandıran fədakar xidməti, eləcə də ölkənin inkişafında yeni impuls və tərəqqi meyillərinin geniş vüsət alması olub. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və tarixi şərait baxımından tamam fərqli olan dövrlər sadəcə eyni missiyanın, biri-birini tamamlayan iki mərhələsi kimi qiymətləndirilə bilər. Ümumiyyətlə, dünyanın böyük şəxsiyyətləri həmişə adi insanların yaşadığı həyat tərzinin fövqündə dururlar. Ulu Öndər insanların həyat yoluna işıq saçan təfəkkür və mənəviyyat sahibi idi. Hərəkətləri sadə olsa da, bunun arxasında həmişə böyük məna durardı. Ulu Öndər böyük

ideyaya malik idi. Atdığı addımlar, yeritdiyi siyasət, istifadə etdiyi diplomatik üsullar onun uzaqgörənliyini, strateji təfəkkürə sahib olduğunu təsdiq edirdi. Beynəlxalq müstəvidə dünya liderləri də Heydər Əliyevi zəmanəni qabaqlayan dünya miqyaslı dövlət xadimi kimi qəbul edirlər.[7]

**Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycançılıq ideologiyası və məfkurəsi**

Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin fəlsəfi, siyasi mənası olduqca dərindir. Azərbaycançılıq ideologiyası milli həmrəyliyi, bütövlüyü təmin edən, milli təəssübkeşlik və vətənpərvərlik hissini gücləndirən məfkurədir. Ümummilli liderin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edərək dünya azərbaycanlılarının milli istinad mənbəyinə çevrilib. Ulu Öndər Heydər Əliyevin şah əsəri müasir müstəqil Azərbaycan dövlətidir. Müasir müstəqil Azərbaycan dövlətinin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir. Heydər Əliyevin mənəviyyat, təhsil, mədəniyyət, əxlaq, milli adət-ənənələrin qorunması və inkişafı sahəsində gördüyü işlər müstəqil dövlətimizin yaradılması ilə nəticələndi. Azərbaycançılıq ideologiyası da məhz buradan qaynaqlanır. Bu ideologiya ölkəmizdə yaşayan xalqları bir amal uğrunda birləşdirir: Hamımızın Vətəni Azərbaycandır və biz müstəqil dövlətimizi qoruyub inkişaf etdirməliyik.[4]

Azərbaycançılığın bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gəlməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevrilməsi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir. Heydər Əliyev hələ Sovet dövründə Azərbaycan Respublikasına rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün həmvətənlərimiz arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışırdı. O dövrdə Azərbaycan ədəbiyyatında, musiqidə, kinoda, təsviri sənətdə və digər sahələrdə xalqın ruhunu, tarixini, milli-mənəvi dəyərlərini təbliğ və tərənnüm edən çoxsaylı əsərlər meydana gəlmişdir. Həmin dövrdə Heydər Əliyev respublikamızdan kənarda yaşayan azərbaycanlıların təşkilatlanmasını, azərbaycanlı diasporunun təşəkkül tapmasını da vacib sayırdı. 1990-cı illərdə hakimiyyətə qayıtdıqdan sonra o, xaricdəki soydaşlarımızın mütəşəkkil qüvvəyə çevrilməsinə, onların doğma vətənlə əlaqələrinin möhkəmlənməsini prioritet məsələ kimi hər zaman diqqətdə saxlamışdır. Çünki güclü azərbaycanlı diasporu müstəqil Azərbaycanın dayağıdır.

İdeologiya olaraq azərbaycançılıq mühüm funksional elementlərlə zəngindir və bunların da mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya inzibati-ərazi quruluşuna görə unitar, siyasi quruluş və dövlət idarəçiliyinə görə hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəldilmişdir.

Azərbaycan tarixən müxtəlif millətlərin dinc yanaşı yaşadığı, milli və dini tolerantlığın bərqərar olduğu ölkə olmuşdur. Burada hər bir xalqın və millətin nümayəndəsinə bərabər münasibət göstərilmişdir. Ona görə Azərbaycan vətəndaşı sayılan hər kəs azərbaycançılıq ideyası ətrafında birləşmişdir. Azərbaycan xalqının adət-ənənələrini, milli-mənəvi dəyərlərini birləşdirən baxışlar sistemi kimi azərbaycançılıq ideyası ictimai-siyasi proseslərə, konstitusiya sisteminə, xüsusilə dövlət quruculuğuna öz müsbət təsirini göstərir.

Azərbaycançılıq ideyası Azərbaycanın müstəqilliyini qorumaq, onun demokratik inkişafını təmin etməklə bərabər, davakar millətçilik və şovinizmə qarşı təşəkkül tapmış ideologiyadır. Azərbaycançılıq ideyasının kökündə millətçilik yox, vətəndaşlıq dəyəri dayanır. Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır. Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir.

Ümummilli lider Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında dövlətin siyasətini səciyyələndirərkən onun prioritet istiqamətini nəzərə çatdırmışdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir

azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlər bahasına nail olduğu tarixi sərvətdir. Bu, ilk növbədə, vahid və bölünməz Azərbaycanın qorunub saxlanılması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Bu gün azərbaycançılıq milli həyatın ahəngdarlığının, ölkədə yaşayan bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və fıravanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Azərbaycançılığın məzmunca mahiyyətini müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə vəhdəti təşkil edir. Lakin azərbaycançılıq Azərbaycanın ərazisində yaşayan xalqın həmrəyliyi ilə məhdudlaşmır. Bu ideologiya həm də Azərbaycanın müstəqilliyini arzulayan, onun güclənməsini istəyən insanları birləşdirir. Azərbaycançılıq xalqın milli-mənəvi varlığının ilkin əlamətlərini, onun kimliyini əks etdirən, milli təfəkkürünü birləşdirən dəyərlər sistemidir.

Bu dəyərləri cəmləşdirən dil, ərazi, vətəndaşlıq, adət-ənənə və ideoloji birlik azərbaycançılıq ideologiyasının əhatə dairəsini sərhədsiz edir. Azərbaycandan kənarda yaşayan soydaşlarımızla yanaşı, milliyyətindən asılı olmayaraq Azərbaycanın müstəqilliyini, birliyini və hüquqi, demokratik dövlət kimi inkişafını arzulayan hər bir kəs azərbaycançılıq ideologiyasının daşıyıcısıdır. Azərbaycançılıq özündə "vətəndaşlıq", "vətənpərvərlik", "loyallıq", habelə cəmiyyət və dövlət qarşısında vətəndaşın məsuliyyətini birləşdirir. Azərbaycançılıq ideologiyası geniş əhatə dairəsi ilə yanaşı, konkret məqsədlər də güdür. Bu ideologiya Azərbaycanda azad vətəndaş cəmiyyətinin inkişafına və güclü dövlət quruculuğuna xidmət edir. Müasir dövrdə qloballaşmanın bir sıra inkişaf göstəriciləri milli mənsubluğa da təsir göstərir. Çağdaş zamanda milli ideologiya ilə ümumbəşəri dəyərlərin ahənginə nail olmaq, qloballaşma prosesinə öz milli-mənəvi irsi ilə qoşulmaq hər bir xalq üçün böyük önəm daşıyır. Azərbaycançılıq ideyası bu çağırışlara cavab verir, milli mənsubluğun müdafiəsi ilə yanaşı, ümumbəşəri dəyərləri də özündə ehtiva edir.

Hələ 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul edilərkən Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət dili Azərbaycan dili kimi təsdiq olundu. Eyni zamanda, o dövrdə iqtisadiyyatı, sənayeni inkişaf etdirməklə, bu sahədə güclü baza yaratmaqla, bütün sahələr üzrə peşəkar milli kadrlar yetişdirməklə Heydər Əliyev müstəqilliyin əsasını qoymuşdu. Ulu Öndər hələ sovet dövründə Azərbaycanı qarış-qarış gəzməyə üstünlük verirdi. Respublikanın hər bir guşəsinə səfər edən, inkişafla maraqlanan, insanların həyat tərzi ilə tanış olan Heydər Əliyev bu siyasəti yorulmadan həyata keçirirdi. Bununla da o, Azərbaycan insanını daha yaxından tanıdı, onların ənənələrini, mənəvi dəyərlərini və digər milli keyfiyyətlərini ümumiləşdirərək toplayıb bu ideologiyanın əsasını qoydu. Təbii ki, bunların hamısı Azərbaycanın gələcək müstəqilliyinə hesablanmışdı. Müstəqillik illərində Ulu Öndərin rəhbərliyi ilə görülən işlər azərbaycançılıq ideologiyasının təbliği və mənimsənilməsində müstəsna əhəmiyyət kəsb etdi. Ötən zaman göstərdi ki, müstəqillik yolumuz Ümummilli lider Heydər Əliyevin parlaq zəkasının, onun Azərbaycan torpağına, insanına olan sevgisinin təzahürü kimi meydana çıxdı. Azərbaycan xalqı, ictimaiyyətin nümayəndələri çox haqlı olaraq bu illər ərzində ölkədə bütün sahələrdə uğurlara aparan yolun parlaq bir yol olduğunu qeyd edir və bu yol Heydər Əliyev yolu adlandırılır. Bu gün ölkəmiz Ümummilli liderin ideyaları əsasında inkişaf edir. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması, ölkəmizdə inkişafın, sabitliyin və həmrəyliyin təmin olunması bilavasitə xalqımızın Ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. [2]

**Gələcək müstəqilliyə etibarlı zəmin**

İdarəçilik fəlsəfəsi fərqli və özünəməxsus cəhətlərlə zəngin olan Ümummilli liderin Sovet Azərbaycanına rəhbərlik mərhələsi ölkəni sürətli inkişaf yoluna çıxarmaqla yanaşı, milli müstəqilliyə etibarlı zəmin formalaşdıran amillərlə də zəngin olub. Milli özünəqayıdış və özünüdərkin məhz bu dövrdə başlanğıcını qoyan, azərbaycançılıq məfkurəsinin keçən əsrdə yazılan ən parlaq səhifələrinin müəllifi olan Ulu Öndər Heydər Əliyevin Azərbaycana gətirdiyi

ideyalar ölkə həyatını tamamilə müasirləşdirib.Tarixin axarını dəyişən ideya və prinsiplərin daşıyıcısı olan Heydər Əliyevin nadir idarəçilik keyfiyyətləri, xarizmatik liderlik cəhətləri, böyük vətənpərvərliyi ötən əsrin 70-ci illərindən etibarən milli ideyanın yüksəlişinin təmin edilməsində misilsiz rol oynayıb. Ümummilli lider Heydər Əliyevin idarəçiliyinin ən mühüm xüsusiyyəti Azərbaycanın bütün sahələr üzrə inkişafının yeni mərhələsinə qədəm qoyması, sözün əsl mənasında, öz intibah dövrünü yaşaması olub. İqtisadi asılılığın aradan qaldırılmasının siyasi müstəqilliyin təməlində duran əsas amillərdən biri olduğunu aydın görən Ulu Öndər ölkənin istehsal potensialının mühüm hissəsinin ittifaq şəbəkəsindən ayrılaraq əsaslı şəkildə müstəqilləşdirilməsi, sənaye potensialının gücləndirilməsi, təhsil sahəsində yeni inkişaf mərhələsinin əsasının qoyulması, xalqın gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən, nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılması kimi möhtəşəm nailiyyətlərə imza atıb. Ulu Öndər həmin dövrdə azərbaycanlıların keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarında təhsili üçün səylə çalışır, respublikamız üçün ayrılmış müsabiqədənkənar yerlərin sayının artırılmasını Moskvadan israrla tələb edir, əksər hallarda buna nail olurdu. 1970-ci ildə respublikadan kənara oxumağa göndərilən belə tələbələrin sayı əgər 60 nəfər idisə, 1975-ci ildə onların sayı 600 nəfərə, 1978-ci ildə 800-900 nəfərə çatmışdı. Beləliklə, SSRİ-nin müxtəlif ali təhsil müəssisələrinə göndərilənlərin sayı o zaman təxminən Azərbaycan Dövlət Universitetinə bir il ərzində qəbul olunanların sayına bərabər idi. Ümummilli Lider Heydər Əliyev çox sonralar – 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə bununla bağlı xatırlamışdı: "Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən, bilavasitə ciddi məşğul olarkən və o cümlədən, sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar müstəqil Azərbaycana lazım olacaq. Vaxt gələcək ki, nəhayət, Azərbaycan müstəqil olacaq və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər". Həmin illərdə Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da respublikamızın gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılıb. Ulu Öndər Heydər Əliyev bu məsələdə daim qətiyyətli mövqe tutub, keçmiş ittifaqın rəhbərliyi qarşısında israrlı tələblərlə çıxış edib, prinsipiallıq göstərib. Neft sənayesinin iqtisadi inkişafdakı rolunu müdrikliklə nəzərə alan Ulu Öndər Heydər Əliyev 70-ci illərdə bu sahənin dinamik inkişafına, neft-kimya sənayesinin tamamilə modernləşdirilməsinə nail olub. Həmin dövrdə neft sənayesinin inkişafında tamamilə yeni mərhələ başlanıb, bu zəngin milli sərvətin Azərbaycanın rifahına xidmət edən vasitəyə çevrilməsi prosesinin əsası qoyulub. Heydər Əliyevin müəllifliyi ilə tərtib olunan "Azərbaycanda neftayırma sənayesinin yenidən qurulması" planı əsasında bu tipli müəssisələrin, iri komplekslərin tikilməsi və yeni fəaliyyət prinsiplərinə keçməsi prosesi sürətlə başa çatdırılıb və gələcək yeni neft strategiyasının yol xəritəsi müəyyən edilib.[3]

## Milli inkişaf modelinin müəllifi

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Ulu Öndər öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin siyasi, ideoloji, iqtisadi əsaslarını yaradıb, xalqı müstəqil, güclü dövlətə sahib olmaq arzusuna qovuşdurub və çağdaş tariximizdə əbədiyaşarlıq qazanaraq sağlığında canlı əfsanəyə çevrilmiş dahi şəxsiyyətdir. Müasir, müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını əhatə edərək, onların milli istinad mənbəyinə çevrilib. Hələ keçən əsrin 70-ci illərindən başlayaraq Ulu Öndərin uzaqgörənliklə milli zabit kadrlarının yetişdirilməsi məqsədini hədəfləyən indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratması, Azərbaycan dilinin o vaxtlar Azərbaycan SSR-nin Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olması kimi bir çox müasirlərinin xəyalına belə gəlməyən tarixi addımlar Azərbaycanın gələcək nəsillərinin vətənpərvər insan kimi yetişməsi üçün

əvəzolunmaz töhfələrdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan Heydər Əliyev hər zaman bu məsələni diqqət mərkəzində saxlayırdı. O, dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Əminliklə deyə bilərik ki, Ulu Öndərin bu münasibəti hər birimiz üçün böyük məktəbdir. Ulu Öndər Heydər Əliyevin lider kimi böyüklüyü onun daim strateji hədəflərə hesablanmış və milli məqsədləri önə çəkən siyasət yürütməsi olub. Məhz ötən əsrin 70-80-ci illərində formalaşdırılmış iqtisadi potensial 90-cı illərin sonlarına doğru dünyada cərəyan edən mürəkkəb proseslərin nəticəsi kimi istiqlaliyyət qazanmış Azərbaycanın sonrakı mərhələdə müstəqil yaşamasını təmin edib. Müdrik xalqımızın XX əsrdə dünya siyasi arenasına bəxş etdiyi nadir şəxsiyyət kimi ümummilli liderlik zirvəsinə ucalmış Heydər Əliyev bu gün həm də müstəqil respublikamızın milli inkişaf modelinin banisi kimi ehtiramla xatırlanır. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü prinsiplərinin hakim olduğu bir ictimai-iqtisadi formasiyadan azad bazar iqtisadiyyatına optimal keçid modelini irəli sürərək, onun həyata keçirilməsinə çalışıb. Dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində əsaslı dəyişikliklərin baş verməsinə səbəb olub. Ölkədə həyata keçirilmiş aqrar islahat, özəlləşdirmə prosesi hər bir vətəndaşın marağını təmin etmək, əhalinin həyat səviyyəsini yaxşılaşdırmaq, sağlam rəqabətə əsaslanan istehsal üçün şərait yaratmaq niyyətinə xidmət edib. Ümummilli liderin rəhbərliyi altında həyata keçirilmiş struktur islahatları Azərbaycanda iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, o cümlədən, yerli və xarici investisiyalar, müasir texnologiyalar, idarəetmə təcrübəsi cəlb etməklə, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan verib. Ümummilli lider respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təminatçısı kimi dəyərləndirmiş, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə çalışıb. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit şərait yaratmaq, daxili və xarici sərmayəni stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun başlıca istiqamətini qeyri-neft sektorunun, regionların inkişafına yönəltmək, habelə maddiləşən işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilib. Ümumilikdə, 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət belə deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev müstəqillik amilinin əyani şəkildə bərqərar olması üçün ilk növbədə, iqtisadiyyatda çoxşaxəli islahatların aparılmasını, davamlı inkişaf üçün möhkəm iqtisadi bazanın formalaşmasını vacib sayıb. Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyi illərində milli iqtisadiyyatda köklü islahatlar aparılıb, sosialyönümlü bazar iqtisadiyyatına keçidin ümdə prinsipləri müəyyənləşdirilib, torpaq islahatı kimi çətin və ağrılı proses, habelə özəlləşdirmənin birinci mərhələsi uğurla başa çatdırılıb, milli sahibkarlığın inkişafı üçün zəruri qanunvericilik bazası yaradılıb, respublikanın dünya iqtisadiyyatına inteqrasiyası sürətlənib.[5]

## İslahatlarda müasirləşmə və novatorluq

Fəaliyyəti ilə zaman və məkanın fövqündə dayanan tarixin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biri kimi Ulu Öndər Azərbaycanın inkişafında qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün böyük fədakarlıq göstərib. Bunun ən bariz nümunələrindən biri də Ulu Öndərin özündən sonra ölkəmizə layiqincə rəhbərlik edərək qazanılan uğurların davamlılığı təmin edəcək, xalqın alternativsiz liderinə çevriləcək davamçı-varis yetişdirməsindədir. Bu gün Ümummilli liderin ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gərgin əməyi və fəaliyyəti nəticəsində yaşayır və uğurla inkişaf edir. Əminliklə demək olar ki, dövlət başçısının apardığı həm xarici, həm də daxili siyasət Heydər Əliyev kursunun davamıdır. Bu siyasətin təməlində isə Azərbaycan dövlətinin güclənməsi, onun müstəqilliyinin qorunması, iqtisadiyyatının inkişafı və əhalisinin maddi rifah halının yaxşılaşması durur. XX əsrin sonlarına doğru müstəqil dövlətçiliyin bərpasına nail olmuş, onu

möhkəmləndirərək yeni inkişaf magistralına çıxarmış müdrik xalqımız taleyini məhz qəlbən inandığı, etimad göstərdiyi siyasi liderə etibar edib. "Əsl siyasət – konkret, real iş görməkdən ibarətdir" – deyərək fəaliyyətə başlayan Prezident İlham Əliyev hələ 2003-cü ildə verdiyi vədə sadiq qalaraq, öz fəaliyyəti ilə hər bir Azərbaycan vətəndaşının layiqli Prezidenti olduğunu sübuta yetirib. 2018-ci ilin 11 aprel seçkilərində xalqın böyük dəstəyi ilə Azərbaycana rəhbərlik kimi məsuliyyətli missiyanı növbəti mərhələdə də üzərinə götürmüş İlham Əliyev ona göstərilən etimadı fəaliyyəti ilə hər zaman doğruldur, Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün əzmlə, qətiyyətlə çalışır. Təkcə onu demək kifayətdir ki, respublikamız son Prezident seçkilərindən sonra daha da güclənib, zənginləşib, hərtərəfli inkişaf yolunda yeni uğurlara imza atıb, insan amili faktoru isə həyata keçirilən siyasətin ana xəttində yer almaqdadır. Öndər Heydər Əliyevin idarəçilik ənənələrini yeni dövrün tələblərinə uyğun daha da zənginləşdirən cənab İlham Əliyev xalqın problemlərinə, arzu və istəklərinə həssaslıqla yanaşır və bunu bütün məmurların qarşısında zəruri tələb kimi qoyur. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur. "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı" – deyən ölkə başçısı idarəçilikdə, fəaliyyətdə, düşüncədə yenilik və sivil dəyərlərin tətbiqini zəruri sayır. Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya son 15 ildə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin edib. Ulu Öndərin imzalanmasına nail olduğu tarixi əhəmiyyətli "Əsrin müqaviləsi"nin davamı olaraq Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması, üç süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirib. Dövlətimizin başçısı cənab İlham Əliyevin diplomatik səyləri nəticəsində Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi də uğurla gerçəkləşib, respublikamızın Şərqlə Qərb arasında tranzit-kommunikasiya imkanları genişlənib. Xatırlatmaq yerinə düşər ki, 2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi olub, bu layihələrin icrası Azərbaycanın regionda və Avropada geoiqtisadi əhəmiyyətini artırıb. Eyni zamanda, 2018-ci ildə Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolunun istifadəyə verilməsi mühüm hadisələrdən biridir. Bir sözlə Azərbaycan Avrasiya məkanında enerji və nəqliyyat xəritələrini dəyişən bir ölkədir. [8]

## Heydər Əliyevin ideologiyasının təbliğinin nəticəsi: böyük tarixi zəfər

Azərbaycan cəmiyyəti Heydər Əliyev siyasətinə sadiqdir. Bu onunla bağlıdır ki, bu siyasət uzun illərin sərt sınaqlarından üzüağ çıxaraq yüksək etimad qazanmışdır. Xalqın lider olaraq qəbul etdiyi Prezident İlham Əliyev ölkəmizin perspektiv inkişafı üçün müəyyənləşmiş strateji hədəfləri gerçəkləşdirmək, Azərbaycanı ən müasir və inkişaf etmiş dövlətə çevirmək istiqamətində əzmlə, qətiyyətlə çalışır. Əlbəttə ki, Azərbaycanımızı qarşıdan gələn illərdə daha böyük nailiyyətlər gözləyir.

Heydər Əliyev irsi Azərbaycanın gələcək inkişafı üçün fundamental əsas kimi çıxış etmişdir: 2003-cü ilin ortalarında Ulu Öndərin qəbul etdiyi vacib qərarlardan biri onun siyasi xəttinin davamçısı İlham Əliyevin sonrakı 5 illik dövr üçün prezidentliyə namizədliyinin irəli sürülməsi idi. Yeni Azərbaycan Partiyası bu qərarı yekdilliklə dəstəklədi. Xalq böyük səs çoxluğu ilə cənab İlham Əliyevi dövlət başçısı seçməklə davamlı inkişafın təmin olunmasına böyük dəstək verdi. Bununla da Azərbaycanın inkişaf dövrünün yeni mərhələsi başladı. Son 17 ildə Azərbaycanın regionda, dünyada, beynəlxalq hüququn ən mühüm faktorlarından birinə çevrilmişdir. Vətəndaşların, dövlətin təhlükəsizliyinin müdafiəsi yönündə çox mühüm işlər görülmüşdür. Cənab Prezident İlham Əliyevin atdığı addımlar beynəlxalq dairələr tərəfindən dəstəklənir. Etiraf edilir ki, Azərbaycan son 17 ildə olduğu qədər qüdrətli və qətiyyətli mövqeyə

malik olmayıb. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində 30 illik həsrətə son qoyaraq torpaqlarımızı işğaldan azad etdi, ərazi bütövlüyümüzü bərpa etdi. Bu gün biz böyük tarixi zəfərin sevincini, onun doğurduğu fəxarət hissini yaşayırıq. Prezidentimizlə, Ordumuzla, xalqımızla qürur duyuruq! İşğaldan azad olunmuş Qarabağ və digər ərazilərdə bərpa-quruculuq işləri geniş vüsət alıb. Azərbaycan inamla, uğurla irəliləyir. Əminik ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanımız bundan sonra da daha da çıçəklənəcək, daha qüdrətli ölkəyə çevriləcəkdir.

**Ədəbiyyat siyahısı**:

1. Heydər Əliyevin yubileyinə həsr edilmiş “Heydər Əliyev: Müstəqil Azərbaycan dövlətinin qurucusu” mövzusunda keçirilən konfrans materialları, Bakı-2003
2. https://heydaraliyev-centers.az/saatli/events/5041
3. https://azdrama.az
4. https://www.sdu.edu.az/az/news/1031
5. https://multiculturalism.preslib.az/az_a2.html
6. https://heydaraliyev-centers.az/saatli/events/5041
7. https://nk.gov.az/az/article/549/
8.https://nk.gov.az/az/article/1506/

**i.f.d. Muradova Xalidə Firdovsi qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*xali-77@mail.ru*

**i.f.d. Abdullayeva Samirə İntiqam qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*sabdullayeva85@mail.ru*

# HEYDƏR ƏLİYEV- MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİDİR

**XÜLASƏ**

Bəşər tarixində liderlərin böyüklüyü bir tərəfdən yaşadığı dövrdə gördüyü işlərin, yaratdıqlarının əhəmiyyəti ilə ölçülürsə, digər tərəfdən onların fəaliyyətinin gələcəyin axarına təsiri, əks-sədaları ilə müəyyənləşir. Dərin fəlsəfəyə əsaslanan, daim zamanın nəbzini tutmağı, hadisələrə müdrik qiymət verməyi, siyasi potensialını çevik dəyərləndirməyi bacaran şəxsiyyətlər cəmiyyətdəki prosesləri düzgün istiqamətləndirməyə nail olur, təmsil etdikləri xalqları zamanın sərt fırtınalarından, çətin sınaqlarından üzüağ çıxarır, milli xilaskara çevrilirlər.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, Ümummilli lider Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində vətən və xalq qarşısında misilsiz xidmətlər, xilaskarlıq missiyası, zəngin dövlətçilik irsi nümunəsi göstərmişdir. Bir qərinədən də çox zaman kəsiyində Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyev təkcə bu dövrdə deyil, bütün həyatı boyu xalqımızın rifahını düşünərək, bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün qəlblərdə daimi sevgi, yaddaşlarda əbədiyaşarlıq qazanıb.

***Açar sözlər:*** *Ulu Öndər, xilaskar, böyük siyasət, siyasi xadim, milli mənafe,islahat,*

Müasir tariximizə ən böyük azərbaycanlı kimi həkk olunmuş Heydər Əliyev dövrün ən sərt və çətin sınaqlarından keçərək, qədirbilən xalqımıza milli dövlətçilik ənənələrini vahid sistem halına salaraq özünütəsdiq imkanı qazandırıb, müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarıb.[1]

Bu, bir tarixi gerçəklikdir ki, Azərbaycan ötən əsrdə iki dəfə dövlət müstəqilliyi qazanan azsaylı ölkələrdəndir. Azərbaycanın ən yeni tarixində, cəmi 30 il əvvəl ölkəmizdə baş vermiş ictimai-siyasi mühitə, qısa şəkildə, xronoloji ardıcıllıqla yaşamış olduğumuz hadisələrə nəzər salmaq və bu gün şahidi olduğumuz nəhəng uğurların hansı çətinliklər hesabına başa gəldiyini bir daha xatırlamaq olduqca qürurvericidir.

Məlum olduğu kimi, keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin təzahürü olaraq əzəli torpağımız olan Dağlıq Qarabağda kəskin münaqişəli vəziyyət yaranmış, 1990-cı ilin yanvar ayında Bakıya sovet ordusunun yeridilməsi misli görünməmiş qanlı faciə ilə nəticələnmiş, həmin vaxt hakimiyyətdə olan şəxslərin siyasi səriştəsizliyi ucbatından ölkəmiz ictimai-siyasi və sosial-iqtisadi böhranla üzləşmiş, Azərbaycan, sözün əsl mənasında, məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. [2]Məhz qeyd olunan hadisələr fonunda, belə bir çətin məqamda Moskvada təhdid və təzyiqlər altında yaşayan, öz həyatını daim Azərbaycana qurban verməyə hazır olan dünya şöhrətli siyasi xadim Heydər Əliyev yenidən öz xalqının yanında olmağa qərar verdi, Moskvada 20 yanvar faciəsi ilə bağlı öz mövqeyini bildirərək Azərbaycana qayıtdı. Tarix bir daha sübut etdi ki, bu qayıdışın əsas səbəbi böyük siyasətçinin öz xalqına olan inamından, onun Azərbaycana bağlılığından irəli gəlirdi.

Təəssüf ki, ölkəmizə qayıdan ulu öndər o vaxtkı hakimiyyətin təhdidləri nəticəsində Bakıdan Naxçıvana getməyə məcbur oldu. Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin orada yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Muxtar Respublikanın rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik

yolunun bütün Azərbaycan siyasi mühitində başlıca məqsədə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. [3]Burada xüsusi vurğulamaq lazımdır ki, Ulu Öndər Naxçıvanda çalışarkən yalnız Muxtar Respublikanın deyil, ölkəmizin taleyi üçün bir sıra mühüm qərarların verilməsinə nail olmuş, o cümlədən, 20 yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmiş, üçrəngli bayrağımız dövlət bayrağı kimi qəbul edilmiş, dövlətlərarası münasibətlərin qurulması üçün mühüm addımlar atılmışdır.

Müstəqiliyin ilk illərində milli dövlətçilik mənafelərinə xidmət edən iqtidarın yoxluğu, hakimiyyətin bir qrup savadsız, səriştəsiz, bəzən isə xəyanətkar şəxslərin əlinə keçməsi ölkədə idarəolunmaz bir vəziyyətin yaranmasına, daxili qarşıdurmaların geniş vüsət almasına gətirib çıxarmışdı. Belə bir zamanda ölkənin taleyinə biganə olmayan ziyalılar, sadə insanlar Naxçıvana üz tutaraq Heydər Əliyevlə görüşlər keçirir, xalqı üzləşdiyi fəlakətlərdən, çətinliklərdən çıxarması üçün ondan kömək istəyirdilər. Ağır vəziyyətə dözməyən insanlar qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, dahi dövlət xadiminin yenidən böyük siyasətə qayıdışını tələb edirdilər. Nəhayət, respublikanın mütərəqqi fikirli ziyalıları 1992-ci ilin iyun ayında yeni siyasi mübarizə yolu seçərək Ümummilli liderimizin rəhbərliyi ilə yeni partiya yaratmaq qərarına gəldilər.[4] Həmin ziyalılar oktyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Ulu Öndər Heydər Əliyevdir. Azərbaycan xalqının istəyinə heç zaman biganə qalmayan, özünün qurub-yaratdığı respublikanın dağılmasına dözməyən Heydər Əliyev vətənin dar günündə xalqın səsinə səs verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə partiyanın təsis qurultayı keçirildi, Ulu Öndər yekdilliklə təşkilata sədr seçildi. Müstəqilliyə yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən bu partiyanın qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz Ulu Öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi. 1993-cü ilin məlum iyun böhranı zamanı ölkənin taleyinə biganə olmayan insanlar yaxşı başa düşürdülər ki, Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Nəhayət, Azərbaycan xalqı öz tarixi müdrikliyini sübut edərək böyük oğlu Heydər Əliyevi 1993-cu il iyunun 15-də hakimiyyətə gətirdi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı.[5] Ulu Öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Müstəqilliyin ilk illərində baş vermiş iqtisadi tənəzzülün, vətəndaş müharibəsinin, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və sabitliyin bərpası məqsədilə Heydər Əliyevin atdığı qətiyyətli addımlar qısa müddət ərzində hər bir vətəndaşın həyatında hiss olunmağa başladı.

1994-cü ildə Ermənistan ilə Azərbaycan arasında atəşkəsin elan olunmasına, "Əsrin müqaviləsi"nin imzalanmasına, 1995-ci ildə Konstitusiyanın qəbul edilməsinə, Şərqlə Qərbi birləşdirən qədim İpək Yolunun bərpa edilməsinə və digər mühüm əhəmiyyətli işlərin həyata keçirilməsinə nail olundu. [6]Dahi liderin düşünülmüş və müdrik siyasəti nəticəsində qısa zamanda Azərbaycan iqtisadiyyatı inkişaf etdi. İqtisadi azadlıq və sosial ədalət prinsipləri əsasında torpaq üzərində yeni mülkiyyət münasibətlərini yaratmaq, bazar iqtisadiyyatını və sahibkarlıq təşəbbüsünü inkişaf etdirmək, ölkənin iqtisadi müstəqilliyinə, o cümlədən, ərzaq təminatına nail olmaq və nəticə etibarı ilə Azərbaycan xalqının maddi rifahını yüksəltmək məqsədilə MDB məkanında ilk dəfə olaraq torpaq islahatı həyata keçirildi. Bazar iqtisadiyyatı

prinsiplərinin, sahibkarlıq sinfinin formalaşdırılması məqsədilə dövlət tərəfindən zəruri addımlar atıldı. Sahibkarlığın inkişafı və bu sahədə mövcud problemlərin aradan qaldırılması üçün ardıcıl dövlət proqramları qəbul edildi, qanunvericilik bazası yaradıldı.

İqtisadiyyatda aparılan islahatlar, qanunvericiliyin, vergi və bank sistemlərinin sürətlə dəyişən iqtisadi şəraitə uyğunlaşdırılması, bazar iqtisadiyyatı prinsiplərinə cavab verən yeni iqtisadi siyasətin həyata keçirilməsi Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasına, dövlətlərarası münasibətlərin fəal subyektinə çevrilərək dünya miqyasında layiqli yer tutmasına təkan verdi. [7]Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar qısa bir zamanda uğurlu nəticələr verərək iqtisadi inkişafa gətirib çıxardı, ölkəmizin qüdrətli iqtisadi dayaqları üçün əsaslar yaratdı, sənayenin ümumi daxili məhsulda xüsusi çəkisi 1993-cü ilə nisbətən 12,6 faiz bəndi artaraq 2002-ci ildə 37,4 faiz təşkil etdi. İqtisadiyyatın bütün sahələrində aparılan məqsədyönlü və ardıcıl islahatlar, sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı və ticarətdə əldə edilmiş yüksək nailiyyətlər nəticəsində ölkədə ümumi daxili məhsul istehsalı 1996-2002-ci illər ərzində 71,0 faiz artaraq 6,1 milyard manata çatdı.

Ölkədə ictimai siyasi sabitliyin bərqərar olması daxili və xarici investorlar üçün əlverişli şərait yaratdı və 1993-2002-ci illər ərzində ölkənin istehsal və qeyri-istehsal sahələrinin inkişafı üçün 8,2 milyard manat investisiya yönəldildi, onlarla mühüm əhəmiyyət kəsb edən obyektlər tikilərək istifadəyə verildi. Xarici investorların ölkə iqtisadiyyatına vəsait yönəltməsi eyni zamanda, ölkələrarası münasibətlərin inkişafına, ölkənin milli maraqlarının təmin olunmasına müsbət təsir göstərdi. Həmin dövrdə ümumi sahəsi 6,7 milyon kvadrat metr olan yeni yaşayış evləri, 31,1 min şagird yerlik ümumtəhsil məktəbləri, 2,2 min yerlik məktəbəqədər təhsil müəssisələri, 1,5 min çarpayılıq xəstəxana və növbədə 3,0 min nəfər qəbul edən ambulatoriya-poliklinika müəssisələri istifadəyə verildi.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra keçid iqtisadiyyatına xas olan böhranlı proseslər başqa sahələrdə olduğu kimi, nəqliyyat sektorunda da baş vermişdir. Böhranın qarşısı yalnız 1996-cı ildə alındı, bu sahədə görülmüş tədbirlər nəqliyyatın ayrı-ayrı növlərinin inkişafında müsbət meyillərin yaranmasına təsir etdi. 1996-2002-ci illərdə nəqliyyat sektorunda yük daşınması 2,4 dəfə artdı. Qeyd edim ki, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin bərpası Ulu Öndərin Azərbaycan xalqına ən böyük töhfələrindən biridir və artıq bu dəhliz regional nəqliyyat dəhlizləri ilə rəqabət aparmaqla ölkə iqtisadiyyatının inkişafına, yerüstü nəqliyyat infrastrukturunun formalaşmasına ciddi təsir edən amillərdəndir.[8]

Ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası ilə bağlı verilmiş qərarlar nəticəsində xarici ticarətin liberallaşdırılması istiqamətində səmərəli və davamlı tədbirlər reallaşdırıldı. İdxal-ixrac əməliyyatlarının bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması nəticəsində ölkəmizin beynəlxalq əlaqələri ilbəil genişləndi, möhkəmləndi və inkişaf etdi. 1993-cü ildə 60 xarici ölkə ilə ticarət əlaqələri qurulmuşdursa, 2002-ci ildə bu əlaqələrin coğrafiyası genişlənərək 128-ə yüksəldi, xarici ölkələrlə ticarət dövriyyəsi 1993-cü illə müqayisədə 2,8 dəfə artaraq 3,8 milyard ABŞ dollarına çatdı. Bu illər ərzində Azərbaycanda xarici investisiyalı müəssisələrin sayı da kəskin surətdə artdı. Əgər 1996-cı ildə ölkədə fəaliyyət göstərən xarici ivestisiyalı müəssisələrin sayı 602-yə bərabər idisə, 2002-ci ildə bu rəqəm 3,5 dəfə artaraq 2104 olmuş, xarici şirkət və ya fiziki şəxslərin iştirakı ilə yaradılmış birgə müəssisələrin sayı isə 94,1 faiz artaraq 957-yə çatmışdır.[9]

Azərbaycan Respublikasında bazar iqtisadiyyatının hərtərəfli inkişafını təmin etmək üçün həyata keçirilən tədbirlərlə yanaşı, qiymətlərin və ticarətin sərbəstləşdirilməsinə də xüsusi diqqət yetirildi, azad rəqabət üçün əlverişli şərait yaradıldı. Bu tədbirlər nəticəsində istehlak qiymətlərinin aşağı salınması təmin edildi. 1991-1994-cü illərdə inflyasiyanın böyük sürətlə – 330 faizdən 1887 faizə qədər artması müşayiət olunduğu halda, aparılmış düzgün iqtisadi siyasət nəticəsində inflyasiyanın artım sürətinin kəskin azaldılmasına, onun birrəqəmli səviyyədə saxlanılmasına nail olundu. Bazar iqtisadiyyatına keçid dövründə ölkə

iqtisadiyyatında aparılan islahatlar dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını və 90-cı illərin əvvəlində yüksək olan büdcə kəsirinin azalmasını təmin etdi. 2002-ci ildə dövlət büdcəsinin bütün mənbələrdən daxil olan gəlirləri 1993-cü ilə nisbətən 85,1 dəfə artaraq 910,2 milyon manata çatdı, xərcləri isə 72,2 dəfə artaraq 931,8 milyon manat təşkil etdi. Büdcə kəsirinin ümumi daxili məhsulda xüsusi çəkisi 1993-cü ildəki 7,1 faizdən 2002-ci ildə 0,4 faizə endirildi. Dövlət büdcəsinin xərclərində sosial müdafiə və sosial təminat xərclərinin payı ildən-ilə artdı. 1993-cü ildə bu məqsədlərə 1,1 milyon manat və ya ümumi büdcə xərclərinin 8,5 faizi sərf olunmuşdursa, 2002-ci ildə bu xərclər 190,3 milyon manata çatdırılmışdır ki, bu da büdcə xərclərinin 20,4 faizinə bərabər idi.

Ümummilli lider əmək bazarının inkişafına, məşğulluq və işsizlik problemlərinin həllinə geniş yer vermiş, bu sahədə görülmüş tədbirlər hesabına iqtisadiyyatın qeyri-dövlət sektorunda məşğulluğun payının 1995-ci ildəki 43,9 faizdən 2002-ci ildə 69,7 faizədək artmasına nail olunmuşdur. Azərbaycanda bu dövrdə qəbul edilmiş Əmək Məcəlləsi, məşğulluq və əmək miqrasiyası haqqında qanunlar, Demoqrafik İnkişaf və Pensiya İslahatı konsepsiyaları, yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə dövlət proqramı əmək və əhalinin sosial müdafiəsi sahələrində yeni strateji istiqamətlərin əsasını qoymuşdur.[10]

Böyük dövlət xadimi Heydər Əliyev yüksək diplomatik səviyyə nümayiş etdirərək, öz şəxsi nüfuzu sayəsində Azərbaycanı beynəlxalq siyasətin diqqət mərkəzinə çıxarmış, başqalarını ona inanmağa, hörmət etməyə, sözünü eşitməyə məcbur etmişdir. Verdiyi vədə sadiq olan dahi siyasi xadimin rəhbərliyi ilə çox böyük zəhmətlər hesabına 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ümummilli liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Odur ki, andiçmə mərasimində o xalqı qarşısında öz üzərinə çox böyük öhdəliklər götürdü: "Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması dövlətin əsas vəzifələrindən biridir. Əmin ola bilərsiniz ki, bu yüksək vəzifədə mən həmin sahəni daim diqqət mərkəzində saxlayacağam və insan hüquqlarının qorunması üçün bütün təminatları yaradacağam. Bir sözlə, cəmiyyətimizdə insanın tam azad olması üçün şərait yaradılacaqdır. Bu baxımdan həyatımızın indiki mərhələsində vicdan azadlığı məsələsi də mühüm yer tutur. Xalqımız öz dininə qayıtdı. İslam dini dünyada öz tarixi yerini tutmuşdur. Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə, zəkasına İslam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda İslam dini vasitəsilə nəsildən-nəsilə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda İslam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaranması üçün çox böyük fəaliyyət göstərəcəkdir". Ulu Öndər qeyd etdi ki, "respublikamızın müstəqilliyini möhkəmləndirmək üçün əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin olmasıdır. Müstəqillik əldə edildikdən sonra xarici siyasət sahəsində təəssüf ki, az iş görülmüşdür. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, biz heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin, eyni zamanda, nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü, xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görüləsi işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini

tutacaqdır”. Bu fəlsəfə onun memarı olduğu müstəqil Azərbaycanda öz real əksini tapdı. Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Tarix dahi şəxsiyyətin uzaqgörənliyini yenə təsdiqlədi. Əməli fəaliyyəti, xalqına və Vətəninə məhəbbəti ilə ümumxalq sevgisi qazanan Prezident İlham Əliyev xalqının etmadını qazanmış, dəfələrlə dövlətimizin başçısı seçilərək Ulu öÖndər tərəfindən qarşıya qoyulmuş vəzifələrin davamlı olaraq yerinə yetirilməsinin öhdəsindən layiqincə gəlmişdir. Ötən illər ərzində “açıq qapılar” və “balanslaşdırılmış siyasət” prinsipləri Azərbaycanın əsas strateji hədəfləri kimi dünyada özünəməxsusluq qazanmışdır. Bir tərəfdən təmkin və səbri, yüksək intellekti və insani keyfiyyətləri ilə mütənasib olan praqmatizmi, digər tərəfdən böyük müəllimi Heydər Əliyev kimi fenomenin qiymətli tövsiyə və məsləhətləri İlham Əliyevə bu mühüm tapşırıqların öhdəsindən layiqincə gəlməyə imkan verdi. Məhz bu uğurlar Prezident İlham Əliyevə xalqın sonsuz rəğbət və hörmətini qazandırmışdır. Dövlətimizin başçısının rəhbərliyi altında qazanılan nailiyyətlər bu gün də davam edir və xalqımız xoşbəxt gələcəyini məhz bu siyasi kursda görür .[8]

1997-ci ildə “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir ki, bu Qanunda əhalinin bir sıra təbəqələrinə, o cümlədən, təqaüdçülərə, aztəminatlı insanlara pulsuz tibbi yardım, vətəndaşların sağlamlığına vurulan ziyanın ödənilməsi, hüquqa zidd hərəkətlər nəticəsində zərər çəkmiş vətəndaşlara tibbi yardım göstərilməsi üzrə xərclərin ödənilməsi, peşə fəaliyyətinin bəzi növləri ilə məşğul olan vətəndaşların sağlamlığının qorunması kimi zəruri və son dərəcə mühüm məsələlər öz əksini tapmışdır.

Dövlət siyasətinin əsas prioritetlərindən biri də mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin qorunub saxlanmasından ibarət olmuş, bu istiqamətdə müvafiq dövlət proqramları qəbul edilmişdir. Azərbaycan Respublikasında uğurla həyata keçirilən sosial-iqtisadi islahatların nəticəsi olaraq, ölkədə demoqrafik vəziyyətin və əhalinin ortaillik artım göstəricilərinin yaxşılaşmasına, ömür uzunluğunun artmasına və müsbət miqrasiya saldosuna, eləcə də əhali sahəsində digər göstəricilərin müsbət tendensiyasına nail olunmuşdur.

Ulu Öndər tərəfindən 1999-cu ildə “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” təsdiq olunduqdan sonra ölkədə təhsil islahatlarına başlanıldı. Həmin proqrama uyğun olaraq ali təhsildə struktur dəyişiklikləri aparıldı, təhsil müəssisələrinə müstəqillik və geniş səlahiyyətlər verildi, bir sıra ali təhsil müəssisələri öz fəaliyyətlərini özünüidarəetmə prinsipi əsasında qurdu, təhsilin keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə dövlət təhsil ocaqları ilə yanaşı qeyri-dövlət təhsil müəssisələrinin şəbəkəsi də inkişaf etdi. 1993-cü ildə 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərindən 703 nəfərinin ali və tam orta təhsili olduğu halda, 2002-ci ildə bu göstərici 753-ə çatdı.

Ümummilli lider Heydər Əliyev, obrazlı ifadə etsək, sivilizasiyaların qovşağında, daha dəqiq desək, böyük güclərin qlobal iqtisadi və siyasi maraqlarının toqquşduğu bir məkanda müstəqil və güclü Azərbaycanın təməlini qurmağa müvəffəq oldu. Bu, bir təcrübəli dövlət adamı, siyasi lider kimi Onun üzərinə tarixin, taleyin və xalqın yüklədiyi missiya idi. Lakin Ulu Öndərimiz daha böyük bir missiyanı yerinə yetirərək, yeni dövr Azərbaycanının ideoloji postulatını da formalaşdırdı. Azərbaycançılıq ideologiyasını irəli sürməklə siyasi və dövlətçilik fəlsəfəsini milli birlik məfkurəsi kimi təkmilləşdirdi. Böyük öndərimizin yalnız dövlətin iqtisadi, hərbi, diplomatik əsaslarını yaratmadı, həm də onun ideoloji inkişaf konsepsiyasının müəllifi oldu. Heydər Əliyevin qurduğu dövlət çox qısa bir vaxt ərzində regionun ən aparıcı dövlətinə, real və təsirli söz sahibinə, bölgədə həyata keçirilən və müxtəlif nəhəng korporasiyaların, fövqəlgüclərin maraqlarının ifadə olunduğu qlobal layihələrin aparıcı qüvvəsinə çevrildi.

Heydər Əliyev dühasının gücü həm də onda öz təzahürünü tapır ki, o, böyük güclərin əsasən ziddiyyətlər üzərində qurulmuş maraqlarını Azərbaycanın fəal iştirakı ilə həyata keçirilən layihələrdə birləşdirə bilirdi. Məhz Onun bu qeyri-adi diplomatik məharəti Azərbaycanı böyük maraqların müharibə meydanına çevrilmək təhlükəsindən sığortaladı.

İndi regionun ən güclü ordusuna, ən böyük iqtisadiyyatına, ən sürətli inkişaf tempinə malik olan müasir Azərbaycan dövlətini Heydər Əliyevin şah əsəri adlandıranlar, heç şübhəsiz ki, tarixi dəlillərə istinad edirlər. Bu dəlillərdən biri də Ulu Öndərin özündən sonrakı dövrdə belə Azərbaycanı təlatümlərdən, təhlükələrdən qoruya biləcək güclü siyasi lideri müəyyənləşdirə bilməsində idi. Heydər Əliyevin zərgər dəqiqliyi ilə hesablanmış milli dövlətçilik strategiyasını davam etdirmək missiyasını uğurla yerinə yetirən Prezident İlham Əliyev Azərbaycan üçün yeni imkanlar pəncərəsi açdı. Heydər Əliyevin qurduğu təməl üzərində müstəqil Azərbaycanda modern dövlət idarəçiliyi fəlsəfəsinin formalaşdırılmasını müvəffəqiyyətlə həyata keçirdi. İnnovativ ideya və təşəbbüslərin iqtisadiyyatda, mədəniyyətdə, idmanda – bir sözlə, ölkənin həyatının bütün sahələrində uğurla tətbiqi, beynəlxalq münasibətlər sisteminə yeni baxış bucağından baxaraq, regional maraqların konfiqurasiyasını dəqiq müəyyən etməsi, cəmiyyətlə dövlət arasında qarşılıqlı etimadın dərinləşməsinə xidmət edən ardıcıl siyasət İlham Əliyevin qurucu və islahatçı lider imicinin heç bir mübahisəsiz qəbul olunmasına ciddi əsas yaradır.[10]

Təhlillər əminliklə onu deməyə əsas verir ki, Azərbaycanın bugünkü uğurları müasir Azərbaycan dövlətinin banisi, Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilərək həyata keçirilmiş və son 17 ildən cox zaman kəsiyində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən keyfiyyətcə yeni müstəvidə davam etdirilmiş islahatlarla bağlıdır. Məhz bu islahatlar hesabına Azərbaycanda bazar münasibətlərinə söykənən sosialyönümlü iqtisadiyyatın inkişafına nail olunmuş, ölkə əhalisinin həyat səviyyəsi yüksəldilmişdir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə digər tədbirləri əhatə edən fərman və sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası, qanunvericilik bazasının təkmilləşdirilməsi ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına gətirib çıxarmışdır. 2003-2019-cu illərdə ölkə iqtisadiyyatı 3,4 dəfə, qeyri-neft qaz sektoru 2,9 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,9 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi 2,9 dəfə, dövlət büdcəsinin gəlirləri 20,0 dəfə, əhalinin nominal gəlirləri 9,9 dəfə, iqtisadiyyatın kreditləşdirilməsi 22,8 dəfə artmış, işsizliyin səviyyəsi 9,2 faizdən 4,8 faizədək, yoxsulluq səviyyəsi 44,7 faizdən 4,8 faizədək enmişdir. 2004-2019-cu illərdə 2,4 milyon yeni iş yerləri yaradılmışdır. 2019-cu ildə ölkədə həyata keçirilən kompleks sosial islahatlar nəticəsində əmək pensiyasının minimum məbləği 200,0 manata, minimum aylıq əməkhaqqının məbləği 250,0 manata, orta aylıq nominal əməkhaqqının məbləği isə ilkin məlumatlara əsasən 634,8 manata çatdırılmışdır. Bütün bu uğurların əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin də xüsusi payı var. Azərbaycanın Birinci xanımı milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətimizin geniş təbliği, elm, təhsil, səhiyyə və idmanın inkişafı, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişməsi, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması üçün həyata keçirdiyi çoxsaylı tədbirlərlə böyük layihələrin müəllifinə çevrilmişdir.[4]

Bildiyiniz kimi, bəşəriyyət siyasi, iqtisadi və sosial böhran aradan qalxmamış yeni, daha təhlükəli, öz fəsadları ilə bütün ölkələri müxtəlif zərbələr altında saxlayan koronavirus pandemiyası ilə qarşılaşdı. Bir həqiqətdir ki, regionun ən güclü dövləti olan Azərbaycan bu xəstəliyin yayılmaması və müalicəsi üçün ön və gərgin mübarizə cərgəsində yer alıb. Təkcə onu

deMək kifayətdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın həyata keçirdiyi missiyanın əhəmiyyəti bu gün virusa yoluxanların sayında və cəmiyyətdəki əhval-ruhiyyənin yüksək olmasında öz təsdiqini tapır. Azərbaycanda real iqtisadiyyatın sahələrinin davamlı inkişaf yolunda olması və reallaşdırılmış müasir innovativ layihələrin sayının durmadan artması hazırki pandemiya şəraitində də öz müsbət nəticəsini açıq şəkildə göstərdi. Çünki, bəşəriyyətin çətin dönəmində bu uğurların əldə olunmasında zamanın sınağında cilalanmış Heydər Əliyev siyasi kursuna olan xalqın etimadı və Prezident İlham Əliyevin yüksək nüfuzu və yorulmaz əməyi dayanır. Bu inam məhz cənab İlham Əliyevin milli maraqlara əsaslanan fəaliyyəti üzərində köklənib.

Dahi rəhbərin anadan olmasının 98-ci ildönümü ərəfəsində bunu qururla bir daha qeyd etmək yerinə düşər ki, əbədiyaşar lider Heydər Əliyevin adı Azərbaycan xalqının milli şüurunda müasir Azərbaycanın yaradıcısı kimi həkk olunub. Heydər Əliyev Azərbaycanda böyük bir ideologiyanın, milli dövlətçilik fəlsəfəsinin və milli mənlik şüurunun formalaşmasının əsasını qoyub, bu isə xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını, sarsılmaz və əbədi olduğunu bir daha təsdiqləyir.

## Ədəbiyyat


1. Alışanova Mehriban Nadir qızı. Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir Bakı.: Çinar-Çap, 2006.- 214 s.
2. Andriyanov, Viktor İvanovich. Geidar Aliev /V.Andriyanov, G. Miralamov.- M.: Molodaya Gvardia ,2005.- 396 p
3. Cəfərov Nizami- Ümummilli liderin xilaskarlıq və dövlət quruculuğu missiyası //Xalq qəzeti- 2020- 10 dekabr- № 263.s-3
4. Hüseynova İradə Mehdiqulu qızı. Müstəqil Azərbaycan dövlətinin qurucusu: monoqrafiya /İ. M. Hüseynova; elmi red. Ə. M. Həsənov.- B.: Təhsil, 2004.- 472 s.
5. Hacıyev İsmayil. Azərbaycan dövlətçiliyinə xidmət nümunəsi // İki sahil qəzeti-Bakı 2020,16 dekabr- №225- s.16-27
6. Hacıyev Qasım. Ümummilli lider Əliyevin Dağlıq Qarabag siyasətinin böyük uğuru.// Xalq qəzeti-Bakı 2020, 10 dekabr-№ 259- s.7
7. Xələfov Abuzər Alı oğlu. Heydər Əliyev və Azərbaycanda kitabxana işi /A. A. Xələfov; elmi red. T. X. Musayeva ; red.: K. İ. Aslan, L. A. Məmmədova.- Bakı: Azərnəşr, 2006.- 312 s.
8. Qasımlı Musa. Heydər Əliyev - İstiqlala gedən yol: 1969-1987-ci illər / M. Qasımlı; elmi red. Ə. Həsənov.- B.: Bakı Universiteti Nəşriyyatı, 2006. - 608 s
9. Mehdiyev, Ramiz. The reality of the genocide of Azerbaijan people /R. Mehdiyev; ed. F. Abdullazade.- Baku, 2000.- 29 p.
10. Towards the future / "Heydar Aliyev’s Heritage" International On-line Library; ed. V. Suleymanov; trans. T. Guliyev.-Baku, 2004.- 72 p.

**r.f.d. Mustafayeva Esmira Musaifovna**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*m_esmira@unec.edu.az*

**Tural Gözəlov Salman**
*Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC)*
*tural.gozelov97@mail.ru*

## HEYDƏR ƏLİYEV VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU

Hər zaman inkişaf edən və müasirləşən doğma vətənimizin, yəni müstəqil Azərbaycan Respublikasının həm qurucusu, həm də bu sahədə memarı olaraq qəbul edilən dahi Azərbaycanlı şəxsiyyət olan Ulu Ödərimiz Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasının müasir tarixinin həm parlaq, həm də silinməz olaraq qəbul edilməkdə olan əsaslı səhifələrinin tərkib hissəsinin əsasını təşkil etməkdə və onun doğma vətən ilə doğma xalq qarşısında həyata keçirmiş olduğu çoxlu sayda misilsiz və əvəzolunmaz xidmətlərinin hər biri, öz növbəsində bütün dünyada yaşayan azərbaycanlıların hər birinin yüksək səviyyədə olan hörməti, izzəti və ehtiramı ilə doğma vətənimiz olan Azərbaycan Respublikasının torpağının hər qarışında və bununla yanaşı olaraq həmçinin, öz növbəsində onun hüdudlarından kənarda qalan digər torpaqlarda çox geniş bir şəkildə qeyd olunmaqdadır.

Əgər özünəməxsus bir şəkildə çox qədim olaraq qəbul edilməkdə olan, çoxəsrlik tarixə malik dövlətçilik ənənələrinə sahib olan doğma xalqımızın hər bir nümayəndəsinin xüsusi şəkildə qəbul edilən tarixinə diqqətlə nəzər salsaq, belə olduğu təqdirdə onu görərik ki, Ümummilli liderimiz Heydər Əliyevin şəxsiyyəti və bununla yanaşı olaraq həmçinin, onun həm siyasi həm də idarəçilik fəaliyyətlərinin hər biri öz növbəsində müstəsna olaraq qəbul edilməkdə olan xüsusi yer tutur.

Azərbaycan Respublikasının əhalisinin ümumi bir şəkildə əsasını təşkil etməkdə olan doğma xalqımız indiki müasir dövrə qədər olan ümumi tarix boyu əsas olaraq arzulamış olduğu və milli şəkildə olan ümumi dövlətçilik amallarının əsasını məhz cənab Heydər Əliyevin özü şəxsən uyğun dövr ərzində həyata keçirərək gerçəkləşdirmiş və bununla yanaşı olaraq həmçinin, öz növbəsində həm dayanıqlı həm də müstəqil bir dövlət olaraq qəbul edilən Azərbaycan Respublikasını qura bilmişdir.

Bütün bu proseslərin həyata keçirilməsindən sonra isə müasir Azərbaycan Respublikasının əsaslı şəkildə olaraq qəbul edilməkdə olan öz tarixinin 30 il müddətdən daha artıq bir dövrü yaşandığı zaman ərzində doğma vətənimizə rəhbərlik etməkdə olan dahi şəxsiyyət Ümummilli liderimiz cənab Heydər Əliyev özünün dövlətçilik xüsusiyyəti daşımaqda olan salnaməsinin daxilində bir irs yaratmışdır, hansı ki, nəzərdə tutulmaqda olan həmin irsin həm öyrənilməsinə, həm təbliğinə, həm də bütün bunlarla yanaşı olaraq onun tətbiqinə hələ gələcək dövr ərzində uzun illər boyu böyük ölçüdə ehtiyac olacaqdır və nəzərdə tutulmaqda olan həmin bu irs heç bir vaxt tükənməyəcəkdir.

Yaşadığı zaman müddətinin hər dövrü ərzində istənilən vaxt özünün doğma vətəni olan Azərbaycan Respublikasının daxilində məskunlaşmaqda olan xalqının bütün mənafeyini ümumi bir şəkildə düşünən Heydər Əliyev özünün azərbaycan vətəndaşı olması xüsusiyyətinə malik olduğu üçün daim özü ilə fəxr edir və nəzərdə tutulmaqda olan həmin bu xüsusiyyəti onu hər zaman qürurlandırırdı.

Bütün bunların səbəbkarı olan dahi şəxsiyyət və böyük rəhbər olan Ulu öndərimiz cənab Heydər Əliyevin aşağıda verilməkdə olan bu müdrik kəlamı deyildiyi gündən indiki günə qədər çox zaman keçmiş olsa da hələ də dillər əzbəridir və nəzərdə tutulmaqda olan həmin bu ifadəni öz növbəsində hər bir azərbaycan vətəndaşı qürurla fəxrlə və həmçinin, iftixarla vətənimizin şüarı olaraq səsləndirməkdədir.

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"

Hal-hazırda öz vəzifəsini böyük müvəffəqiyyətlə və həmçinin, böyük qürurla həyata keçirməkdə olan Azərbaycan Respublikasının möhtərəm prezidenti cənab İlham Əliyevin 2013-cü il 21 yanvar tarixində imzalamış olduğu sərəncamı vasitəsilə Ümummilli liderimiz cənab Heydər Əliyevin 90 illik yubileyinin ümumilikdə dövlət səviyyəsində qeyd olunması və bununla yanaşı olaraq həmçinin, onun çox zəngin səviyyədə olan irsinin təbliğ olunması ümumi bir şəkildə qərara alınmışdır.

Yuxarıda qeyd olunan həmin zaman müddəti ərzində, yəni nəzərdə tutulan uyğun yubiley mərasimi ərəfəsində Ümummilli liderimiz cənab Heydər Əliyevin çox zəngin ictimai fəaliyyətinin və bununla yanaşı olaraq siyasi fəaliyyətinin ümumi bir şəkildə hərtərəfli öyrənilməsi prosesi və həmçinin, onun təbliğ olunması məqsədilə Azərbaycan Respublikasının hər bir bölgəsində, həmin bölgələrdə olan idarələrdə və bunlarla yanaşı müəssisələrdə və nəhayət bütün təhsil ocaqlarının hər birində bir sıra tədbirlər, konfranslar və bunlar kimi digər bir sıra əhəmiyyət kəsb edən kütləvi yığıncaqlar keçirilmişdir.

Əgər Azərbaycan Respublikasının Ümummilli lideri cənab Heydər Əliyevin 1969-cu il ilə 1982-ci illər arasında qalan zaman müddəti zərfində həyata keçirmiş olduğu misilsiz və əvəzolunmaz xidmətlərinin tərkib hissəsinə diqqətlə nəzər saldıqda, öz növbəsində bir daha aydın olur ki, Ümummilli liderimiz cənab Heydər Əliyev həmin dövrdən başlayaraq Respublikaya möhtəşəm bir şəkildə rəhbərlik etmişdir, hansı ki nəzərdə tutulmaqda olan həmin dövr ərzində ölkəmizin daxilində həm qanunçuluğun həm də bununla yanaşı bir şəkildə hüquq qaydalarının möhkəmləndirilməsinə və onun strateji əhəmiyyət daşımaqda olan sənaye həm də istehsal müəssisələrinin hər birinin inşasına nail olmaqla Ümummilli liderimiz cənab Heydər Əliyev Azərbaycan Respublikasının bütün iqtisadi inkişaf göstəricilərinin hər birinə görə keçmiş İttifaq miqyasına əsaslandırılmış bir şəkildə ilk yerlərdən birini tutmağa nail olmasını təmin etmiş və bütün bunlarla yanaşı doğma vətənimizin, əziz xalqının müstəqilliyinə əsaslı bir şəkildə zəmin yaratmağa malik olan bir sıra uzaqgörən və müdrik addımlar atmışdır [3].

Azərbaycan Respublikasının Ümummilli lideri cənab Heydər Əliyev doğma vətənimizin müasir tarixinə "Milli Qurtuluş Günü" adı altında daxil olmuş 15 iyun 1993-cü il tarixi yaşandığı zaman müddəti ərzində Azərbaycan Respublikasının Milli Məclisinin sədri vəzifəsinə təyin olunmuşdur və bu prosesin ümumi nəticəsi olaraq, doğma vətənimiz Azərbaycan Respublikasında həm demokratiyanın, həm qanunçuluğun, həm də bütün bunlarla yanaşı hüquqi şəkildə qəbul edilməkdə olan dövlət quruculuğunun bünövrəsinin qoyulması prosesi uğurla həyata keçirilmişdir.

Ümummilli liderimiz cənab Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasının parlamenti nəzdində sədr seçilməsi prosesi həyata keçirildikdən sonra onun Azərbaycan Respublikasının Milli Məclisinə əsaslanaraq vermiş olduğu bəyanatın daxilində əsas etibarilə müstəqil şəkildə həyata keçirilməkdə olan dövlətçilik mahiyyətli siyasətinin uğurla həyata keçməsinin inkişaf konsepsiyası və bununla yanaşı nəzərdə tutulmaqda olan həmin siyasətin həyata keçirilmə proseinin bir sıra müxtəlif üsulları uyğun olaraq sistemli bir şəkildə açıqlanmışdır.

Heydər Əliyev Azərbaycan Respublikasının parlamenti nəzdində sədr vəzifəsinə təyin olunduqdan sonra həmin istiqamətdə xüsusi olaraq bir sıra məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlanılmışdır. 1993-cü ilin iyun ayı ilə oktyabr ayı arasında qalan müddət ərzində və bununla yanaşı ondan sonrakı tarixi dövr ərzində müstəqil olan Azərbaycan Respublikası dövlətinin həm qorunması, həmdə möhkəmləndirilməsi məqsədini daşıyan və bunların uğrunda Ümummilli liderimiz cənab Heydər Əliyevin həyata keçirmiş olduğu mübarizəsi yüksək dərəcədə strateji əhəmiyyətə malik olan xüsusi məqsəd daşıyırdı.

Azərbaycan Respublikasının Ümummilli lideri cənab Heydər Əliyev həm strateji, həm də bununla yanaşı olaraq demokratik xassəyə malik bu yolun ümumi şəkildə qəbul olunmaqda olan əsas mahiyyətinin tərkib hissəsini aşağıda göstərilənlərə əsaslanaraq belə səciyyələndirirdi:

”Azərbaycan Respublikası özünəməxsus bir şəkildə dövlət quruculuğu dövründə istər sosial, istərsə də iqtisadi şəkildə olan problemlərin hər birinin həlli zamanı əsaslandığı xüsusi strateji yolla gedir. Bizim nəzərdə tutulan bu yolumuz Azərbaycan Respublikasının daxilində həyata keçirilməkdə olan həm demokratik, həm hüquqi, bunlarla yanaşı olaraq həmçinin, sivilizasiyalı dövlətin qurulması prosesindən, demokratik şəkildə olan prinsiplərin hər birinin gün keçdikcə daha da yüksək səviyyədə inkişaf etdirilməsindən, sonda isə bütün dünyanın əldə etmiş olduğu demokratik nailiyyətlərin hər birinin Azərbaycan Respublikasının ərazisi daxilində uğurla yayılmasından və bu prosesin əsaslı nəticəsi olaraq onlardan bəhrələnməkdən ibarətdir”.

Azərbaycan Respublikasının Prezidentinə məxsus olan İcra Aparatının rəhbər işçisi və bununla yanaşı olaraq həmçinin, fəlsəfə elmləri doktoru cənab Ramiz Mehdiyev Respublikamızın daxilində həyata keçirilmiş olan dövlət quruculuğunun əsas hissələrini aşağıda göstərilən mərhələlərə bölür:

1) 1992-1993-cü illər – nəzərdə tutulmaqda olan bu dövrün tərkib hissəsini əsas etibarilə şüurun kütləvi şəkildə mövcud növunə əsaslanan “aydınlaşma və dərketmə” mərhələsi təşkil edir;

2) 1993-1995-ci illər – nəzərdə tutulmaqda olan həmin bu dövrün tərkib hissəsini əsas etibarilə müstəqillik xarakteristikasına əsaslanan ideyalar və həmçinin, bunlarla yanaşı dövlətçilik xarakteristikası uğrunda “gərgin və amansız şəkildə həyata keçirilən mübarizələr, həm müstəqillik həm dədövlətçilik xarakteri daşımaqda olan şüurun qələbəsi” mərhələsidir;

3) 1995-ci ildən başlayaraq, bu günə qədərki dövr – nəzərdə tutulmaqda olan həmin bu dövrün tərkib hissəsini əsas etibarilə “tam şəkildə yüksəkdərəcəli miqyasa malik olan həm hüquqi, həm də demokratik şəkildə istər müstəqil bir dövlətin, istərsə də vətəndaşlardan ibarət xüsusi bir cəmiyyətin qurulması” xarakterini daşımaqda olan prosesin həyata keçirilməsi təşkil edir.

1995-ci ildə müstəqil bir dövlətin qurulması sahəsinə əsaslanan yeni bir xüsusi mərhələyə başlanıldı. Belə ki, nəzərdə tutulan bu xüsusi mərhələnin tərkib hissəsini əsas etibarilə beynəlxalq şəkildə qəbul edilməkdə olan standartların hər birinə cavab verə bilən, bununla yanaşı demokratik şəkildə qəbul edilməkdə olan bir sıra xüsusi prinsiplərə əsaslanan və müstəqil olan doğma vətənimiz Azərbaycan Respublikasına məxsus - onun Konstitusiyasının ümumxalq bir şəkildə həyata keçirilən səsvermə prosesinin, yəni referendumun həyata keçirilməsinə əsaslanmış bir şəkildə qəbul edilə bilməsi və bununla yanaşı ona əsaslanmaqda olan və demokratik bir şəkildə xüsusi xarakterə malik və parlamentə əsaslanmış bir sıra bəzi seçkilərin aparılması nəticəsində tələb olunan prosesin həyata keçirilməsini təşkil etməkdədir.

Yuxarıda göstərilən sonuncu mərhələdə əsas etibarilə dövlət quruculuğunun əsasını təşkil etməkdə olan bir sıra vacib prinsiplər müəyyən edilmişdir ki, onların əsasını aşağıdakılar təşkil etməkdədir. Onu da qeyd etmək lazımdır ki, nəzərdə tutulan bir sıra vacib prinsiplər əsas etibarilə Ümummilli liderimiz cənab Heydər Əliyev tərəfindən müəyyən edilmişdir:

“Azərbaycan Respublikasında hüquqi şəkildə bir dövlətin qurulması, daha sonra həmin dövlət üçün həm demokratik, həm də sivilizasiya xarakteri daşıyan cəmiyyətin yaradılması, növbəti mərhələdə həm insanın, həm sözün, həm də bütün bunlarla yanaşı olaraq vicdanın tələb olunan səviyyədə qəbul edilə biləcək qədər azadlığının və müasir şəkildə plüralizmin optimal səviyyədə təmin edilməsi, sonuncu mərhələdə isə çoxpartiyalı xüsusi sistemin optimal səviyyədə bərqərar ola bilməsi bizim qəbul etməkdə olduğumuz prinsiplərin əsasını təşkil etməkdədir” [1].

Bildiyimiz kimi, doğma vətənimiz olan Azərbaycan Respublikasının müstəqillik dövrünün ilkin mərhələlərində Azərbaycan Respublikası həm vətəndaş müharibəsinə məruz qalmış, həm də bununla yanaşı olaraq parçalanmaq xarakteri daşıyan xüsusi bir təhlükənin astanasında idi. Qeyd olunanları nəzərə alaraq, belə bir şəraitə əsaslanmış vəziyyət daxilində doğma xalqımız dövlətimizin hər bir qarış torpağının xilas edilməsi məqsədi daşıyaraq doğma vətənimiz

Azərbaycan Respublikasının Ümummilli lideri cənab Heydər Əlirza oğlu Əliyevə müraciət etmişdir.

Yuxarıda qeyd olunaraq nəzərdə tutulan bu proseslərin hər birinin uğurla həyata keçirilməsinin və 1993-cü il iyun ayının 9-u tarixində Ümummilli liderimiz Ulu Öndər cənab Heydər Əliyevin Naxçıvan şəhərindən Bakı şəhərinə gəlməsinin nəticəsi olaraq, sonda Azərbaycan Respublikasının ümumi taleyinə əsaslanaraq meydana gəlmiş olan narahatlıqların hər birinə son qoyulmuşdur.

Ümummillilideriminzinnəzərdə tutulan bu qayıdışı doğma vətənimizdə məskunlaşmaqda olan əziz xalqımızın hər bir nümayəndəsini qarşıda ola biləcək hər cür fəlakətlərin hər birindən xilas etmişdir. Ümummilli liderimiz olan Ulu Öndər cənab Heydər Əliyevin Bakı şəhərinə gəlməsinə əsaslanmaqda olan xüsusi xəbər doğma xalqımız tərəfindən çox böyük sevinclə qarşılanmışdı.

Qeyd olunmuş həmin ilin, yəni 1993-cü ilin iyun ayının 15-i tarixində isə Ümummilli liderimiz cənab Heydər Əliyev “Azərbaycan Respublikasının Ali Sovetinin Sədri” vəzifəsinə təyin olunmuşdur. Azərbaycan Respublikasının tarixinə “Milli Qurtuluş Günü” adı altında öz adını qızıl hərflərlə yazdırmağa nail olmuş həmin tarixdə, Ulu Öndərimiz Ümummilli lider cənab Heydər Əlirza oğlu Əliyevin “Azərbaycan Respublikasının Ali Sovetinin Sədri” vəzifəsinə təyin olunması prosesi doğma vətənimizin siyasi tarixi daxilində keyfiyyət cəhətdən yeni bir xüsusi mərhələnin təməlinin qoyulması, yəni yeni dövr kimi qələmə verildi. Azərbaycan Respublikasının çox mürəkkəb xassələrə malik olan, xüsusi kataklizmlər vasitəsilə müşayiət edilməkdə və özünün siyasi xarakter daşımaqda olan daxili böhranından qurtulması, məhz nəzərdə tutularaq qeyd edilməkdə olan bu prosesin baş verməsindən sonra mümkün olmuşdur.

Ümummilli liderimiz Ulu Öndər cənab Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər əsas etibarilə doğma vətənimizin şanlı tarixinə “sabitlik və inkişaf dövrü” adı altında daxil olmuş və bu dövrdə Azərbaycan Respublikası siyasi cəhətdən inkişaf etmişdir.

Ulu Öndərimiz  Ümummilli lider cənab Heydər Əliyev həm də böyük bir dövlət xadimi kimi Azərbaycan Respublikasını vətəndaş müharibəsindən və həmin müharibəyə əsaslanaraq meydana gəlmiş qarşıdurmadan, tənəzzüldən və bütün bunlarla yanaşı yüksək dərəcədə məhv olmaq xarakteri daşımaqda olan xüsusi təhlükədən xilas etmiş və qeyd olunmuş bütün bu proseslərin nəticəsi olaraq, doğma vətənimiz olan Azərbaycan Respublikasını dirçəliş yoluna çıxarmışdır.

Yuxarıda qeyd olunaraq nəzərdə tutulmaqda olan həmin prosesin nəticəsi olaraq əsas etibarilə Azərbaycan Respublikasını parçalamaq, forposta çevirmək və bunlarla yanaşı olaraq həmçinin, korporativ maraqlara əsaslanmış bir şəkildə idarə etmək istəyənlər özlərinin həmin proseslərlərinhəyata keçirildiyi zaman müddəti ərzində qarşıya qoymuş olduqları məqsədlərinə çata bilmədilər.

Bütün qeyd olunmuş bu vəziyyətlərin ümumi bir şəkildə nəzərdə tutulan və qanunauyğun bir şəkildə olan nəticəsi olaraq onu demək mümkündür ki, 1993-cü ilin oktyabr ayının 3-ü tarixində keçirilmiş olan prezident seçkilərinin ümumi nəticələrinə müvafiq şəkildə doğma xalqımızın yüksək dərəcədə olan etimadının köməyi vasitəsilə Ümummilli liderimiz cənab Heydər Əliyev doğma vətənimizin -  Azərbaycan Respublikasının prezidenti vəzifəsinə təyin olunaraq xalqımızın milli maraqlarına əsaslanmaqda olan çox sayda əvəzolunmaz fəaliyyətləri vasitəsilə ölkə daxilində milli şəkildə qəbul edilən ümumi həmrəyliyi və bununla yanaşı həmçinin, inkişafı təmin etmişdir.

Qeyd olunaraq nəzərdə tutulan bütün bu proseslərin hər birinin uğurla həyata keçirilməsindən daha sonra, növbəti mərhələdə çox yüksək dərəcədə əhəmiyyətə malik olan asayişin və bununla yanaşı olaraq qayda-qanunun bərqərar edilməsi prosesi uğurla həyata keçirildi. Həmin bu prosesin həyata keçirilməsinin nəticəsi olaraq, soyğunçuluq ilə vətəndaşlara məxsus olan əmlakların qəsb olunmasına və bunlar kimi bir sıra vəziyyətlərə son qoyulması uğurla həyata keçirilmişdi.

Nəzərdə tutulmaqda olan bu və bunlar kimi bir neçə proseslərin daxilində ən əsas olaraq nizami ordunun yaradılmasını qeyd etmək mümkündür ki, həmin prosesin nəticəsi kimi Ermənistan ilə Azərbaycan Respublikası arasında baş verməkdə olan Dağlıq Qarabağ müharibəsində atəşkəsin əldə edilməsi təmin olunmuşdu və bundan əlavə olaraq həmin münaqişənin tələb olunan optimal bir şəkildə, yəni dinc yolla nizama salınması məqsədinə əsaslanan xüsusi danışıqlara başlanılmışdı.

Yuxarıda qeyd olunmuş bu nəticələrdən əlavə olaraq Ulu Öndərimiz olan Azərbaycan Respublikasının Ümummilli lideri cənab Heydər Əlirza oğlu Əliyev doğma dövlətimizin tərəqqisinə əsaslanmış bu yolda uğurla və inamla irəliləməsinə malik olmaq məqsədilə aşağıda qeyd olunmuş bir sıra müxtəlif və hər biri öz növbəsində çox yüksək dərəcədə əhəmiyyətə malik olan vəziyyətləri təmin etmişdir:

1) Qanunsuz şəkildə baş verən silahlı qruplaşmaların dövlətin çevrilişləri xarakterli cəhdlərinə son verilməsi;

2) Tarixdə birinci dəfə yerinə yetirilməkdə olan xüsusi xarakterli ilk parlament seçkiləri keçirilməsi;

3) Azərbaycan Respublikasının Konstitusiyanın xüsusi üsul olan referendum yolu ilə qəbul edilməsi;

4) Ölkənin əsas xarakter daşımaqda olan və xüsusi şəkildə olan idarəetmə sisteminin formalaşdırılması;

5) Neft sənayesi daxilində çox yüksək əhəmiyyətə malik bir sıra xüsusi müqavilələrin imzalanması;

6) Azərbaycan Respublikasının iqtisadi xarakter daşımaqda olan dirçəlişinin əsasının qoyulması;

7) Respublikamızın beynəlxalq xarakter daşımaqda olan bir sıra xüsusi əlaqələrinin formalaşdırılması;

8) Ölkənin bütün bu vəziyyətlərə əsaslanaraq dünya birliyinə inteqrasiya olunması prosesinə başlanması və s.

Beləliklə, yuxarıda qeyd olunan bu vəziyyətlərin hər birini nəzərə aldıqda, sonda ümumi bir şəkildə onu demək mümkündür ki, Ümummilli liderimiz olan Ulu Öndər cənab Heydər Əliyevin yerinə yetirmiş olduğu rəhbərliyinin nəticəsi olaraq böyük uğurla həm daxili, həm də xarici xarakterə malik bir sıra siyasi tədbirlər həyata keçirilmiş və nəticə etibarilə Azərbaycan Respublikası siyasi və iqtisadi cəhətdən həm güclü, həm qüdrətli, həm də nüfuzlu dövlətə çevrilmişdir.

Nəzərdə tutulan həmin dövr ərzindəmöhkəm xarakterli hüquqi baza yaradılmışdı. Həmin bazanın yaradılmasında qarşıya qoyulmuş məqsədlər əsas etibarilə aşağıdakılardan ibarətdir:

1) Azərbaycan Respublikasına məxsus olan Konstitusiyasının müstəqil bir şəkildə qəbul edilməsi;

2) Yerinə yetirilməkdə olan bütün parlament seçkilərinin hər birinin öz növbəsində tələb olunan optimal bir şəkildə təşkil olunmuş və qarışıq formaya malik olan seçki sisteminə əsaslanaraq həyata keçirilməsi;

3) Doğma vətənimiz olan Azərbaycan Respublikasında dövlətin hüquqi xarakterə malik olan və çox böyük əhəmiyyət kəsb edən bir sıra xüsusi əsaslarının tələb olunan optimal səviyyədə gücləndirilməsi;

4) Bütün bunlarla yanaşı həmçinin, müasir tələbləri nəzərə alaraq onların hər birinə əsaslanmış, buna əsasən uyğun bir şəkildə həyata keçirilmiş olan və bunlardan əlavə dövlətçilik xarakteri daşıyan xüsusi sistemin tələb olunan vəziyyətə uyğun olaraq xüsusi bir şəkildə bərqərar edilməsi.

Bu bazanın uğurla tətbiq olunmasının nəticəsində kütləvi şəkildə bir sıra informasiya vasitələrinin üzərində olan xüsusi senzura aradan qaldırıldı və bunun nəticəsi olaraq hər bir insanın və onlarla yanaşı, əsasən bütün vətəndaşların istər hüquqlarının hər birinin, istərsə də

azadlıqları kimi digər tələblərinin yüksək səviyyədə təmin edilməsi prosesi uğurla həyata keçirildi.

Həmin bu proseslərin hər birinin uğurla həyata keçirilə bilməsi isə öz növbəsində, əsas etibarilə siyasi xassəli sosiallaşma ilə siyasi xassəli mədəniyyətin yüksək dərəcədə inkişafına, bütün bunların nəticəsi olaraq ümumi bir şəkildə sosial-siyasi xassəli bir sıra institutların hər birinin öz növbəsində çox yüksək dərəcədə və böyük səmərəyə malik olan aktiv şəkilli fəaliyyətinə yol açmışdı.

Öz fəaliyyətininin əsas hissəsini doğma vətənimiz olan Azərbaycan Respublikasının əsaslı bir şəkildə hərtərəfli inkişafına həsr etmiş Ümummilli liderimiz Ulu Öndər cənab Heydər Əliyev bütün bunlarla yanaşı olaraq eyni zamanda, dövlətin hüquqi xassəyə malik olan əsas bazasının tələb olunan optimal səviyyəyə qədər möhkəmləndirilməsi prosesinin həyata keçirilməsi məqsədini qarşıya qoymuş və nəzərdə tutulan həmin bu istiqamətdə növbəti bir sıra addımlarını atmışdır.

Yuxarıda qeyd edilən və çox böyük əhəmiyyətə malik olan bu və bu cür proseslərə nümunə olaraq aşağıdakı bir sıra islahatları misal göstərmək mümkündür:

1) Hüquqi cəhətdən xüsusi əhəmiyyətə malik olan bir sıra məhkəmə islahatlarının uğurla həyata keçirilməsi;

2) Azərbaycan Respunlikasına məxsus olan Konstitusiya xarakterli xüsusi Məhkəmənin yaradılması;

3) Nəzərdə tutulan bu məhkəmələrdə Ombudsman təsisatının yaradılması və ondan istifadə;

4) Yuxarıda adları çəkilərək göstərilən və hər biri öz növbəsində çox yüksək dərəcədə əhəmiyyətə malik olan proseslərlə yanaşı həmçinin, hər biri öz növbəsində əsaslı bir şəkildə tələb olunan və bütün bunlarla birgə bir sıra digər çox mühüm xassələrə malik olan institutların yaradılması;

5) Vətəndaşlar üçün nəzərdə tutulan və tətbiq edilməkdə olan ölüm hökmünün ləğv edilə bilməsi və s. [2].

## Ədəbiyyat siyahısı

1. Hüseynova İ. Müasir Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, -472s.

2. Nurlan Qələndərli Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin banisidir Yeni Azərbaycan, Bakı- 2019.- 3 sentyabr. - № 159. - S. 3.

3. https://www.justice.gov.az/articles/67

***Bio.f.d.dos. Məhərrəmova Mehriban Həmid***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*m.mehriban7076gmail.com*

***Alıyeva Ləman Zərbalı***
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*Lemanalıyeva95@mail.ru*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI

**Xülasə.**İqtisadiyyat hər bir dövlətin inkişafının əsasını təşkil edir. Bu baxımdan ölkələr iqtisadiyyatın daha da inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Çünki iqtisadiyyatı zəif olan bir dövləti heç zaman güclü hesab etmək olmaz. Dövlətin inkişafında onun iqtisadi üstünlüyü əsas rol oynayır. Bu baxımdan Azərbaycanda iqtisadi inkişaf üçün bütün imkanlar mövcuddur. Tarixə nəzər salsaq görərik ki, görkəmli şəxsiyyət Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə Azərbaycan iqtisadiyyatı öz inkişaf mərhələsinə qədəm qoyub. Ulu Öndərin Azərbaycana rəhbərliyin birinci dövründə (1969-1982) iqtisadiyyatın dirçəlməsi və sürətli inkişafı baxımından xeyli işlər görülüb. Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə ölkənin müstəqil iqtisadiyyatının təşəkkülü, ardıcıl sosial-iqtisadi islahatların həyata keçirilməsi, bu sahənin dayanıqlı inkişafını təmin edəcək qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi sahəsində görülən işlər Azərbaycanın iqtisadi inkişafına xeyli təkan verib.

***Açar sözlər:****neft strategiyası, iqtisadi mübarizələrin kəskinliyi, iqtisadi sistem, hüquqi bazasının formalaşması prosesi*

Heydər Əliyev dahi şəxsiyyətdir, böyük liderdir, uzaqgörən, cəsarətli siyasi xadimdir. O, bütün dövrlərdə Azərbaycan xalqına sədaqətlə xidmət edirdi, xalq üçün yaşayırdı, yaradırdı. Heydər Əliyev Azərbaycana iki dəfə rəhbərlik etmişdir. Hər iki dəfə Azərbaycanı tənəzzüldən, böhrandan çıxarıb inkişaf yoluna qoymuşdur. Bu, onu göstərir ki, ictimai-siyasi quruluşdan asılı olmayaraq, Heydər Əliyev həmişə ən düzgün siyasət aparmış, Azərbaycan xalqının maraqlarını müdafiə və təmin etmişdir.

Ümummilli lider, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə bəslənən ümumxalq sevgisi, xatirəsinə olan sonsuz ehtiram çoxminillik tariximizin heç bir dövründə heç bir dövlət rəhbərinə nəsib olmamışdır. Ulu Öndər Heydər Əliyevi xalqımızın qəlbində bu qədər ucalığa yüksəldən, müqəddəsləşdirən isə onun Azərbaycana olan böyük sevgisi olmuşdur. Azərbaycanın müdrik və qüdrətli oğlu bütün şüurlu həyatını Vətəninin tərəqqisinə, xalqımızın xoş günlərə qovuşmasına həsr etmiş və gərgin mübarizələr nəticəsində, böyük çətinliklər bahasına bu istəyinə çatmışdır.

Bu dövrlərdə inkişaf səviyyəsinə görə Azərbaycan SSRİ tərkibində olan dövlətlərdən xeyli fərqlənirdi. Bu ondan irəli gəlirdi ki, Azərbaycan daim Heydər Əliyevin diqqət mərkəzində idi. İqtisadiyyatın inkişafı Azərbaycanı digər SSRİ ölkələrindən fərqləndirirdi. Heydər Əliyevin fəaliyyəti sahəsində Azərbaycanda sənaye infrastrukturu dəyişdi. Azərbaycanın bütün sahələri ilə yanaşı sənayenin də profili və işləmə metodunda yeni metodlar istifadə olundu. Bu dövlətlərdə iqtisadi inkişafı sürətləndirmək üçün Heydər Əliyev Azərbaycanın bir çox bölgələrində bu sahədə bir çox işlər gördü. O dövrlərdə Azərbaycanın təkcə sənaye sahəsində deyil, həmçinin, kənd təsərrüfatında da özünəməxsus inkişaf hökm sürürdü. Azərbaycan SSRİ-də kənd təsərrüfatının inkişafına görə xüsusilə fərqlənirdi. Azərbaycan bu dövrlərdə pambıq yığımına, üzüm və texniki bitkilərin becərilməsində ön sıralarda yerini qoruyurdu. Heydər Əliyevin fəliyyəti dövründə Azərbaycan üzümün, tez yetişən tərəvəzin, tütünün, çayın ən böyük istehsalçısı oldu. Bu inkişaf Azərbaycanın bütün bölgələrində nəzərə çarpırdı. Azərbaycanda o

dövrlərdə pambıq yığımında 100 min tondan çox pambıq toplanması SSRİ-də ən yüksək göstərici kimi Azərbaycanı onun tabeliyində olan digər dövlətlərdən fərqləndirirdi. Bununla yanaşı, Heydər Əliyev neft və qaz sahəsinin inkişfı üçün bir çox addımlar atdı. O dövrlərdə bir çox neft sahəsinə aid olan sənayelərin təməli qoyuldu və istifadəyə verildi. Neft maşınqayırma sahəsi üzrə məhsulların 70-80 faizini Sabunçu rayonunun müəssisələri istehsal edirdi. Heydər Əliyevin qayğısı və diqqəti sayəsində beş zavodda köhnə avadanlıq yenisi ilə əvəz olundu, "Bakı fəhləsi" zavodu yenidən quruldu.
Bakı, Sabunçu və Zabrat maşınqayırma zavodları, "Balaxanıneft" Neft və Qazçıxarma İdarəsi yenidən təkmilləşdirildi, 70-ci illərdə neft sənayesinin inkişafında yeni bir dövr başlandı. Bir sözlə Heydər Əliyevin Azərbaycanda birinci dəfə rəhbərliyi dövri iqtisadi inkişafın ən yüksək zirvəsi kimi tarixə daxil oldu.

Heydər Əliyev, ilk növbədə, iqtisadiyyatda yaranmış ağır vəziyyətin, onu doğuran səbəblərin sistemli təhlilini apardı, risklər edərək bir sıra təşkilati tədbirlər həyata keçirdi. İttifaq hökuməti qarşısında respublikanın gələcək iqtisadi həyatı ilə bağlı məsələlər qaldırdı və qısa vaxt ərzində sovet hökumətinin Azərbaycan Respublikasının inkişafına dair xüsusi qərarlarının qəbul edilməsinə nail oldu. Milli gəlir, sənaye, kənd təsərrüfatı məhsulları istehsalında 60-cı illərdəki gerilik aradan qaldırıldı, yeni keyfiyyətli inkişafın fundamental əsaslarının möhkəmləndirilməsi üçün xeyli iş görüldü.

Heydər Əliyev qəti qərara gəlmişdi ki, respublika iqtisadiyyatının uzaq gələcəyə yönələn inkişafı elmi-texniki tərəqqini müəyyən edən sahələrin daha üstün inkişafından çox asılı olacaq. Bu strateji xətti həyata keçirmək üçün Heydər Əliyev titanik fəaliyyət göstərdi, ciddi maneələrin aradan qaldırılmasına nail oldu. 1976-cı ildə Sov.İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycanda sənayenin təkmilləşməsinə dair çox mühüm sənəd qəbul etdi. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycan sənayesinin inkişafı tarixində mühüm rol oynayan bu proqramın uğurla reallaşması üçün böyük təşkilati iş aparıldı. Nəticədə, sənayenin vacib proporsiyaları xeyli yaxşılaşdı, yeni tipli müəssisələr, istehsal sahələri istifadəyə verildi, on minlərlə yeni iş yeri yaradıldı. Sənayenin ixrac potensialı xeyli artdı, istehsalın mədəni-texniki səviyyəsi yüksəldi.

1976-1980-ci illərdə Azərbaycan sənayedə məhsul istehsalının artımına görə SSRİ-də birinci yerə çıxdı. Sənayenin strukturunda maşınqayırma və metal emalı sənayesinin payı 1965-ci ildəki 10 faizdən 16,3 faizə qalxdı. Elmi-texniki tərəqqini müəyyən edən sənaye sahələrində istehsalın həcmi əvvəlki onillikdəki səviyyəyə nisbətən 2,4 dəfə artdı. 1970-ci illər Azərbaycan tarixinə, sözün əsl mənasında, sənayenin intibah dövrü kimi daxil oldu. XX əsrin əvvəllərində, istərsə də sovet hakimiyyəti dövründə Azərbaycan iqtisadiyyatında əsas rolu neft sənayesi oynayırdı. Heydər Əliyev iqtisadiyyatın maddi-texniki bazasında yaranmış geriliyin aradan qaldırılması, qeyri-neft sahələrinin üstün inkişafının təmin edilməsi üçün əsaslandırılmış təkliflər hazırladı. 1971–1975-ci illərdə respublika iqtisadiyyatına əvvəlki 5 ildəkindən 30 faiz çox vəsait qoyuldu, 64 iri sənaye müəssisəsi istifadəyə verildi. Heydər Əliyevin Azərbaycan iqtisadiyyatını inkişaf etdirməklə bağlı müəyyən etdiyi strategiyada aqrar sektor xüsusi yer tuturdu. 1960-cı illərdə Azərbaycan kəndində əhalinin yarısı yaşayırdı, kənd təsərrüfatında istehsal olunan milli gəlir də böyük çəkiyə malik idi. 1971-1975-ci illərdə kənd təsərrüfatında da əvvəlki 5 ilə nisbətən məhsul istehsalı 34 faiz artdı, bir sıra vacib sahələrdə yüksək göstəricilərin əldə edilməsinin möhkəm təməli yarandı. 1976-1980-ci illərdə Azərbaycan kənd təsərrüfatının ümumi məhsulunun artımına görə ittifaqda birinci yerə çıxdı.

1970-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı göstəriciləri tarixi inkişafın ayrı-ayrı dövrləri ilə müqayisə etdikdə, birmənalı olaraq bu nəticəni çıxarmaq olar: Azərbaycanın 1969-1985-ci illəri əhatə edən dövründə iqtisadiyyatda yüksək artım sürəti təmin edilmiş, onun keyfiyyət göstəriciləri əsaslı surətdə yaxşılaşmışdır. Bütün bunlar isə müstəqil Azərbaycanın iqtisadi bazasının formalaşması və inkişafında müstəsna rol oynamışdır.

Ulu Öndər Heydər Əliyevin böyük Vətən sevgisi, xalq məhəbbəti onu Azərbaycanın xilası üçün qorudu. 1993-cü ilin may-iyununda dövlət müstəqilliyinin ilk addımlarını atan Azərbaycanda hakimiyyət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsi və suverenliyin itirilməsi təhlükəsi yarandıqda xalqımız mövcud hakimiyyətin dəyişməsini təkidlə tələb etməklə, taleyini qəti surətdə Ümummilli lider Heydər Əliyevə etibar etdi.

Zəngin dövlətçilik təcrübəsi olan Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtdı, respublikanı ağır fəlakətdən qurtarmaq üçün ölkənin tarixi-iqtisadi xüsusiyyətlərinə, geopolitik şəraitinə, xalqın mentalitetinə, milli mənafelərinə uyğun inkişaf strategiyası hazırladı. Heydər Əliyev müstəqilliyini yeni bərpa edən dövlətimizi dünyaya tanıtmaq üçün sistemli şəkildə çalışdı. Müstəqil Azərbaycanın qanunvericilik sistemi də möhkəmləndirildi, yeni iqtisadi strukturlar yaradıldı. Bu sistemin yaradılması, qanunların qəbul edilməsi, ictimai-siyasi sabitliyin formalaşdırılması Azərbaycanın inkişaf imkanlarını köklü şəkildə dəyişdirdi.

İllər keçəndən sonra düşünürük ki, əgər ötən əsrin 70–80-ci illərində Ulu Öndərin mükəmməl rəhbərliyi, müstəsna səyləri ilə yaradılmış elmi-texniki istehsal potensialı olmasaydı, müstəqil Azərbaycan o zaman çoxlu çətinliklər, problemlərlə üzləşə bilərdi. Ulu Öndər düşünülmüş və əsaslandırılmış sistemli tədbirlər həyata keçirdi, beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrlə əməkdaşlığın formalaşmasını, iqtisadi islahatların aparılmasını prioritet vəzifələr kimi müəyyən etdi. Müstəqil dövlətin inkişaf strategiyasında dövlət quruculuğu, sivil demokratik cəmiyyətin, yeni iqtisadi sistemin hüquqi bazasının formalaşması prosesi beynəlxalq hüquq normaları, qarşılıqlı əməkdaşlıq prinsipləri ilə əlaqələndirildi. Respublikada iqtisadi inkişaf, investisiya mühitinin yaxşılaşması istiqamətində ardıcıl tədbirlər həyata keçirildi.

Bu gün biz böyük qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi sisteminin yaradılması da Heydər Əliyevin adı ilə bağlıdır. Bu elə bir iqtisadi sistemdir ki, o, respublikamızın perspektiv inkişaf, xalqın yaşayış səviyyəsinin yüksəldilməsi imkanlarını reallaşdırmaq üçün güclü zəmin yaratmağa qadirdir. Müstəsna təşkilatçılıq qabiliyyətinə, zəngin idarəçilik təcrübəsinə, dərin analitik təfəkkürə malik olan Heydər Əliyevin müstəqil Azərbaycanın inkişaf strategiyası barədə baxışları fundamental xarakter daşıyır. Bu konseptual baxışlar Azərbaycan reallığına, onun malik olduğu imkanların sistemli təhlilinə, qloballaşan dünyada gedən proseslərin milli maraqlar baxımından qiymətləndirilməsinə əsaslanır.

Müstəqil Azərbaycan dövlətinin Prezidenti olaraq Heydər Əliyev xarici iqtisadi siyasətlə bağlı strategiyasını çox çətin bir şəraitdə formalaşdırdı. Müstəqilliyin ilk illərində respublikada yaranmış ağır şərait, ictimai-siyasi sahədə qeyri-sabitlik müstəqil Azərbaycanın beynəlxalq aləmdə imicini çox aşağı salmışdı. Heç bir dövlət Azərbaycana investisiya baxımından əlverişli bir region kimi baxmırdı. Respublika isə xariclə iqtisadi əməkdaşlığa böyük ehtiyac hiss edirdi. Heydər Əliyevin tövsiyəsi ilə beynəlxalq əməkdaşlığın yeni prinsiplər əsasında inkişafını formalaşdırmaq üçün bir sıra qanunlarda dəyişiklik edildi. Xarici ticarətin liberallaşdırılması istiqamətində cəsarətli addımlar atıldı.

Bütün bu mərhələlərdə Ulu Öndər milli maraqları ön plana çəkdi. Xarici şirkətlərin, demək olar ki, hamısı gözləyirdi ki, Heydər Əliyev tez bir zamanda ondan əvvəl hazırlanmış neft kontraktlarını imzalayacaq. Amma dövlət başçısı bunu etmədi və çıxışlarının birində bunu vurğuladı ki, biz milli mənafelərimizin ziddinə gedə bilmərik, təklif edilən şərtlər respublikanın maraqlarına cavab vermir. Bundan sonra dərin araşdırmalar aparıldı, müqayisəli təhlillər edildi, müstəqil ekspertlərin fikirləri açıqlandı.

Göründüyü kimi, müstəqillik şəraitində də Heydər Əliyev xarici iqtisadi əməkdaşlıq məsələlərində milli maraqları ön plana çəkməyi inkişaf strategiyasının vacib prinsipi kimi qiymətləndirirdi. Müstəqil dövlətin rəhbərini idxal və ixracın nisbətində ilk illərdə yaranmış mənfi saldo narahat edirdi. Bu gün isə nisbət ixracın xeyrinə dəyişib. Hələlik bu nisbət-saldo obyektiv olaraq neft faktoru hesabınadır. Amma qeyri-neft sektorunun üstün inkişaf etdirilməsi ilə bağlı müəyyən edilən strateji inkişaf xətti ixracın strukturunun daha da

təkmilləşməsini təmin edəcəkdir. Heydər Əliyev açıq iqtisadiyyatın, bazar iqtisadiyyatının prinsiplərinin nəinki tərəfdarı, həm də fəal təbliğatçısı idi.

Heydər Əliyev ağır vəziyyətdə olan Azərbaycan iqtisadiyyatını dirçəltmək, bütünlükdə dövlətimizin müstəqilliyinin qorunmasını təmin etmək üçün düşünülmüş strategiya seçdi və bu strategiyada neft faktoruna üstünlük verdi. Bu, yeganə çıxış yolu idi. Qeyd edək ki, son 15–20 ildə dünyada və Azərbaycanda siyasi və iqtisadi mübarizələrin kəskinliyi, Xəzər nefti uğrunda dünyadakı hökmran güclərin diplomatik savaşı bəzən elə bir böhran vəziyyətinə gətirib çıxarırdı ki, sanki, hər an bir partlayış qopacağı təhlükəsi yaranırdı.

Xəzər nefti üçün güclü dövlətlərin siyasi və iqtisadi maraqlarının toqquşması nəticəsində Azərbaycanın gələcəyinə və mənafeyinə zidd olan planların zərərsizləşdirilməsində Heydər Əliyevin müstəsna rolu oldu. Azərbaycan xalqı yaxşı bilir ki, Heydər Əliyevin neft siyasətinin həyata keçirilməsinə nə qədər güclü təzyiqlər, maneələr edildi. Amma dövlətimizin başçısı millətimizin və ölkəmizin taleyi, tərəqqisi üçün çox vacib olan prinsipial mövqeyindən dönmədi və 1994-cü ildə Azərbaycan Respublikası dünyanın böyük neft şirkətləri ilə "Əsrin müqaviləsi"ni imzaladı. Bu, müstəqil Azərbaycan dövlətinin, onun Prezidentinin tarixi uğuru idi.

Bu, eyni zamanda, Azərbaycanın dünya inteqrasiyasında fəal iştirakı üçün əlverişli imkanların yaradılması demək idi. Biz hamımız bunu dərk etməliyik ki, neft faktoru qlobal bir məsələdir. XX əsrdə dünyada baş verən böyük konfliktlərin, müharibələrin əsas səbəblərindən biri neft sərvətlərinə yiyələnmək olmuşdur. Heydər Əliyev sübut etdi ki, Azərbaycan suveren dövlət kimi öz təbii sərvətlərinin sahibidir və tarixin ona verdiyi bu şansdan xalqının mənafeyi naminə uğurla istifadə edilməlidir. Müstəqil Azərbaycanın neft strategiyası dünya təcrübəsini nəzərə aldı. Məlumdur ki, neftlə zəngin olan ölkələrin bir çoxu yoxsulluq, səfalət içində yaşayır. Bu ölkələrin təcrübəsindən məlum olur ki, onların milli mənafelərə cavab verən inkişaf strategiyası olmayıb, ictimai-siyasi sabitlik təmin edilməyib, demokratik institutlar yaradılmayıb, neft gəlirlərindən daxil olan külli miqdarda vəsaitlərdən istifadənin şəffaflığı təmin edilməyib. Neft faktoru hələ uzun bir müddət ərzində bütünlükdə respublika iqtisadiyyatının inkişafı üçün çox mühüm rol oynayacaqdır. Bu, həmçinin, onunla əlaqədar olacaqdır ki, neft satışından əldə edilən gəlirlərdən digər strateji inkişaf proqramlarının reallaşdırılması üçün istifadə ediləcəkdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Heydər Əliyev qəti əmin oldu ki, kənddə torpaq münasibətlərini radikal şəkildə dəyişdirmədən, kəndlini torpağın sahibi etmədən əhalinin güzəranını yaxşılaşdırmaq, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək mümkün olmayacaqdır. Bu tarixi missiyanı yerinə yetirmək üçün Heydər Əliyev dünya təcrübəsini dərindən təhlil etdi, yerli xüsusiyyətləri, əhalinin mentalitetini, yaranmış vəziyyəti sistemli təhlil etdi, bir-birini tamamlayan qanunları imzaladı, normativ baza yaratdı, informasiya təminatını gücləndirdi.

Bütün bunlar respublikada torpaq islahatlarının uğurla, sosial sarsıntılar olmadan həyata keçirilməsini təmin etdi. Ötən illərdə əldə edilən nəticələr böyük inkişaf imkanlarından xəbər verir. İndi kənddə islahatların yeni məsul mərhələsi davam etdirilir ki, bu istiqamətdə də görüləsi işlər dövlət başçısı İlham Əliyev tərəfindən ciddi nəzarətə götürülüb. Çünki kəndə qayğı Azərbaycanın gələcəyinə qayğıdır.

Heydər Əliyev zəngin dövlətçilik təcrübəsinə malik olan ölkə başçısı kimi dövlət və iqtisadiyyatın münasibətlərində optimallığı müəyyənləşdirməyə çalışırdı. O, sosial problemlərin, elm, təhsil, ekologiya, qlobal struktur və inkişaf problemlərinin həllində dövlətin imkanlarından, köməyindən (söhbət təkcə maliyyə yardımından getmir) səmərəli istifadə etməyi, iqtisadi orqanların məsuliyyətinin artmasını həmişə diqqət mərkəzində saxlayırdı. Böyük rəhbər daim çalışırdı ki, bank-maliyyə qurumları daha səmərəli fəaliyyət göstərsinlər, ölkənin milli maraqlarını daha güclü surətdə qorusunlar. Heydər Əliyev beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığa xüsusi diqqət verirdi. Bu əməkdaşlıqda da milli maraqları əsas

tuturdu və sevinirdi ki, ölkənin maliyyə imkanları ildən-ilə artır, borc almağa ehtiyac azalır, büdcə sisteminin göstəricilərində müsbət meyillər güclənir.

Unudulmaz rəhbərimiz Heydər Əliyevin Azərbaycan xalqı qarşısında dahiyanə xidmətlərindən biri də qədim İpək yolu nəqliyyat dəhlizində respublikamızın aktiv iştirakını təmin etmək oldu. Çünki bu yolun fəaliyyəti respublikamızın sosial-iqtisadi dirçəlişinə böyük təsir göstərəcəkdi. Böyük İpək yolunun bərpası və orada Azərbaycanın aktiv iştirakı qlobal əhatə dairəsi, miqyası, əsrlər boyu faydası çox böyük olan bir məsələ idi ki, onun da həllində Heydər Əliyev müstəsna rol oynadı.

Aparılan araşdırmalar sübut edir ki, yeni İpək yolu Azərbaycan üçün daimi kapitaldır, davamlı iqtisadi inkişaf amilidir, önəmli gəlir mənbəyidir, siyasi sabitlik mənbəyidir. Eyni zamanda, unutmamalıyıq ki, nəqliyyat dəhlizlərinə yiyələnmək, bu mümkün olmadıqda isə alternativ yollar axtarmaq istiqamətində dünyada, elə bizim regionda gedən böyük mübarizələrdə ayıq-sayıq olmalıyıq. Bunu Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə keçirilmiş Bakı sammitində qarşıya qoyduğu önəmli vəzifələrin həyata keçirilməsi zərurəti tələb edir.

Türk dünyasının iftixarına çevrilmiş Heydər Əliyev qardaş ölkələrin və toplumların daha sürətlə inkişafını da arzulayırdı və Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin də bu baxımdan tarixi rolunu xüsusi vurğulayırdı. O, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın türk dünyası ölkələri ilə iqtisadi sahədə əməkdaşlığı daha da inkişaf etməlidir, investorlar hər iki ölkənin milli maraqlarına cavab verən layihələr həyata keçirməlidirlər. Onun Türkiyənin dövlət, hökumət rəhbərləri ilə səmimi dostluğu türk dünyası ölkələrinin birliyinə xidmət edirdi.

Bu gün Azərbaycan dövləti alternativ neft-qaz ixracı ilə bağlı kəmərlərə və digər beynəlxalq nəqliyyat marşrutlarına malikdir. Bu isə ölkəmizin müstəqilliyinin qorunması, onun iqtisadi təhlükəsizliyi üçün çox güclü amil deməkdir. Azərbaycan dövlətinin müəyyən etdiyi inkişaf strategiyasında prinsipial məqamlardan biri də ondan ibarətdir ki, neft məqsəd yox, vasitədir. Odur ki, qeyri-neft sektorunun daha sürətli inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir və bu da öz müsbət nəticələrini verir. Azərbaycan dövləti yaxın və uzaq gələcək üçün iqtisadi inkişaf strategiyasında aqrar sektorun daha davamlı inkişafını nəzərdə tutub. Azərbaycan qlobal dünya böhranı dövründə səylərini ölkədə maliyyə sabitliyinin qorunmasına yönəldib.

Heydər Əliyevin fərmanı ilə 2002-ci ildə təsdiq edilən kiçik və orta sahibkarlığın inkişafı dövlət proqramı ölkədə sahibkarlığın inkişafına böyük təkan verdi. Son illərdə bu işlər daha sürətlə davam etdirilir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilən dövlət proqramlarında müəyyənləşdirilmiş istiqamətlər: ölkədə sahibkarlıq mühitinin yaxşılaşdırılması, regionlarda sahibkarlığın maliyyə təminatının artırılması, istehsal resursları və kadr potensialı haqqında məlumat bazasının yaradılması, infrastrukturun inkişaf etdirilməsi, dövlət-özəl sektor münasibətlərinin inkişafı, sahibkarların hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi və sahibkarlara texniki yardımın genişləndirilməsi üzrə işlər uğurla davam etdirilir.

Ümummilli liderin ən layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlı davamlı regional inkişaf proqramlarının qəbul edilməsi və uğurla gerçəkləşdirilməsi isə ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin olunması və neft amilindən asılılığın azaldılması, regionlar arasında sosial-iqtisadi inkişafa görə yaranmış uyğunsuzluqların, səmərəsiz miqrasiya proseslərinin xeyli dərəcədə yumşaldılması, regionların malik olduğu resurslardan səmərəli istifadə olunması, mövcud yerli istehsal müəssisələrinin fəaliyyətinin bərpası və gücləndirilməsi, yeni iş yerlərinin yaradılması, regionların istehsal, sosial infrastrukturunun müasir tələblər səviyyəsində qurulması ilə nəticələnir.

Heydər Əliyev liderliyinin gücü onda idi ki, o, bütün işlərə yüksək tələbkarlıqla yanaşırdı. Onun bu keyfiyyəti əsl səfərbərlik faktoruna çevrilmişdi. O, daim təhlil aparırdı, müqayisəli araşdırmalara üstünlük verirdi, islahatların gedişi prosesində meydana çıxan problemlərin həlli üçün zəruri tələblərin həyata keçirilməsini hökumətdən tələb edirdi. Açığını deyək ki, bir

sıra idarəetmə strukturları bu tələblə ayaqlaşa bilmirdilər. O, muvafiq strukturların rəhbərlərindən tələb edirdi ki, xidməti vəzifələrinin məsuliyyətini tam dərk etsinlər, dövlətin vəsaitlərindən səmərəli istifadə etsinlər, əhalinin ehtiyaclarına qayğı ilə yanaşsınlar, şəhər təsərrüfatlarında su, qaz, enerji ilə əlaqədar yaranan çətinliklərin təkrarlanmamasına, onların sistemli həllinə nail olsunlar.

Ümummilli liderin tarixi xidmətlərindən biri də hakimiyyətinin hər iki dövründə Azərbaycanı dünyada tanıtmaq, müstəqillik illərində isə onu ən aparıcı dünya dövlətləri sırasına yüksəltmək oldu. O, dövlətimizin müstəqil siyasət həyata keçirmək diplomatiyasını əldə etdi. Qloballaşan dünyanın, mürəkkəb siyasi proseslərin cərəyan etdiyi dönəmdə Heydər Əliyevin qurduğu, İlham Əliyevin idarə etdiyi Azərbaycan müstəqil siyasət yürüdə bilir. Bu gün dünyanın aparıcı siyasətçiləri, dövlət xadimləri, ekspertləri ölkəmizin dinamik inkişafını, qlobal dünya layihələrində iştirakını, cəmiyyətdə əldə olunmuş konsensusu, iqtisadi inkişafla sosial tərəqqi arasında tarazlığın yaradılmasını müstəqil dövlətin inkişafının Azərbaycan modelini fərqləndirən vacib keyfiyyətlər kimi qiymətləndirirlər. Bu gün qürur hissi keçiririk ki, müstəqil dövlətimizin gələcəklə bağlı Heydər Əliyev tərəfindən müəyyən edilmiş strategiyası vardır. Gələcək inkişaf üçün möhkəm təməl yaradılmışdır. Bu təməl Azərbaycan dövlətinin dinamik inkişafına, xalqın yaxşı yaşamasına, ölkəmizdə hüquqi, demokratik cəmiyyətin qurulmasına, Azərbaycanın sivil dövlətlər içərisində özünə layiqli yer tutmasına xidmət edir və edəcəkdir.

Bu gün Azərbaycanda iqtisadi inkişaf sürəti dünya iqtisadiyyatı üzrə olan göstəricini xeyli ötür. Bu, bizim tarixi nailiyyətimizdir. Bu inkişaf meyli uzun bir dövr üçün mütləq davam etməlidir ki, dövlətimizin iqtisadi qüdrəti daha da möhkəmlənsin, keyfiyyətli həyat səviyyəsi təmin edilsin, Azərbaycanın inkişaf etmiş ölkələr səviyyəsinə çatması istiqamətində cəsarətli addımlar atılsın.

Ümummilli lider Heydər Əliyevin çağdaş Azərbaycanın tarixində oynadığı rolu, Vətənin milli-mədəni mövcudluğunu, dövlətin siyasi varlığını dərin zəkası və qüdrətli əzmi ilə qoruyub saxlamaq missiyasını artıq 16 ildir ki, onun layiqli varisi Prezident İlham Əliyev inamla və yaradıcılıqla davam etdirir. Ulu Öndərin işləyib hazırladığı müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyası isə onun əzəli və əbədi azularına uyğun olaraq, ölkəmizi tərəqqiyə, xalqımızı xoş günlərə qovuşdurmuşdur.

## Ədəbiyyat siyahısı


1. *Azərbaycan 1994. Milli dövlətçilik sınaq qarşısında. I-II hissə. Bakı, 2002*
2. *Əsrin müqaviləsi. Bakı, 1996*
3. *Abbasov Ə., Qasımov Ə. Demokratikləşmə - milli iqtisadiyyatımızın inkişafının əsasıdır. Bakı, 2000*
4. *Davos: Qlobal iqtisadiyyatın üfüqləri. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Davos Dünya İqtisadi Forumu ilə əlaqədar İsveçrəyə işgüzar səfəri. 27-30 yanvar 2000-ci il. Bakı, 2000*
5. *Əliyev A., Qasımov Ə., Qasımov N. Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu. Bakı, 1998*

**Faxtiyev İsmayıl Əliyar oğlu**
*Sumqayıt Dövlət Universiteti*
*Azərbaycan Könüllü Təşkilatlar İttifaqı- baş koordinator*
*İsmayıllı Gənclərin İnkişaf və Karyera Mərkəzi- direktor*
ismayilfaxtiyev@gmail.com

# HEYDƏR ƏLİYEV- MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN BANİSİ

**Xülasə:** Böyük şəxsiyyətləri fərqləndirən ali xüsusiyyətlərdən biri onların yalnız bu gün deyil, perspektiv barədə düşünmələri, insanların gələcək həyatında mühüm rol oynayan strateji qərarlar qəbul etmələridir. Başlanğıcda bəlkə də təbii qanunauyğunluq kimi nəzərdən keçirilən bu qərarların sonradan ümumilikdə xalqın, dövlətin tərəqqisi, inkişafı baxımından necə əlahiddə əhəmiyyət daşıdığı daha aydın görünür. Bu mənada Ümummilli lider, dünya şöhrətli siyasətçi Heydər Əliyevin dövlət və xalq naminə qəbul etdiyi qərarların strateji əhəmiyyətini bugünün özündə də duyur, gündəlik həyatımızda, taleyimizdə qabarıq hiss edirik. Azərbaycanın son 30 ildə keçdiyi yolu sadəcə müstəqillik dövrünün uğurları kimi məhdudlaşdıranlarla tam mənada razılaşmaq olmur. Bu gün obyektivlik hissini itirməyən tarixçilər də etiraf edirlər ki, SSRİ kimi nəhəng imperiyanın süqutuna, Azərbaycanın dövlət müstəqilliyinin bərpasına gətirib çıxaran keşməkeşli və uzun mübarizə tarixinin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlaması Ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri ilə bağlıdır. Məhz Heydər Əliyev dühası Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında, azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini keçən əsrin 70-ci illərinin əvvəllərindən başlamaqla əsrin sonlarına doğru - müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur.

***Açar sözlər:*** *Ulu Öndər, Azərbaycan, müstəqil, inkişaf, dahi şəxsiyyət*

Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin obyektiv qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bu mənada Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan istisnasız olaraq daim problemlərin həllinə doğru irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan ölkə kimi görünür. Həmin dövrün inkişaf salnaməsini gözlərimiz önündə canlandırsaq, istər-istəməz bu qənaəti bölüşməli olacağıq: Azərbaycanın müstəqil dövlət quruculuğuna aparan yolu əslində 1969-cu ildən etibarən, yəni Heydər Əliyevin respublikaya rəhbərliyə gəlişindən sonra başlanmışdır. Məhz bu mərhələdən Azərbaycan cəmiyyəti Heydər Əliyevin göstərdiyi səylər nəticəsində yeni inkişaf parametrləri qazanaraq özünün daha dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Həmin dövrdən başlayan böyük tarixi mərhələdə Heydər Əliyev ideyaları ölkənin həyatının başlıca gerçəkliyinə, inkişafın təməl daşına çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin qətiyyəti ilə həmin dövrdə həyata keçirilən tədbirlər sosial-iqtisadi həyatın bütün sahələrinin inkişafına, həmçinin, iqtisadi, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi psixoloji durumuna mənfi təsirinin qarşısının alınmasına gətirib çıxarmışdır. Beləliklə, Azərbaycanın qarşısında tamamilə yeni inkişaf səhifəsi açılır və bu, ölkə tarixinə qızıl hərflərlə yazılırdı. Qətiyyətlə deyə bilərik ki, ölkənin iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin şəkildə inteqrasiya prosesi 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır. [3]

Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Heydər Əliyev ölkədə milli ruhun və azərbaycançılığın kommunizm ideologiyası çərçivəsində sıxışdırılmasının qarşısını alaraq onun dirçəldilməsi istiqamətində mövcud imkanlardan maksimum dərəcədə istifadə etmişdir. Məhz buna görədir ki, XX yüzillikdə azərbaycançılığın ən parlaq səhifələrinin 1969-cu ildən etibarən yazılması qənaəti birmənalı şəkildə qəbul edilən reallıqdır. Ulu Öndər xalqın tarixi yaddaşının özünə qaytarılması kimi ideoloji təməl prinsipləri əsasında milli ruhun hədsiz

yüksəlişini təmin etmiş, millətin qəlbində illərdən bəri sıxışdırılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin formalaşdırmışdır. Həmin dövrdə qarşıya qoyulmuş bu məqsədlərə nail olmaq üçün Azərbaycanın iqtisadi potensialının artırılmasının, onun SSRİ məkanında birincilər cərgəsinə çıxarılmasının vacibliyini əvvəlcədən görən Heydər Əliyev ölkədə genişmiqyaslı dəyişikliklərə start vermişdir. Eyni zamanda, iqtisadi və sosial sahələrdə dərin struktur islahatları aparmış, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaratmışdır. Heydər Əliyev yaxşı bilirdi ki, iqtisadi cəhətdən azad olmayan millətin siyasi müstəqilliyindən söhbət gedə bilməz. Məhz Heydər Əliyevin səyi ilə SSRİ hökuməti Azərbaycanla əlaqədar hərtərəfli yüksəlişi və intensiv inkişafı nəzərdə tutan mühüm qərarlar qəbul etmişdir.

O dövrdə Azərbaycan xalqı üçün, sözün əsl mənasında, tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70-80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdir. Ulu Öndər Heydər Əliyevin qətiyyəti ilə həmin dövrdə həyata keçirilən tədbirlər sosial-iqtisadi həyatın bütün sahələrinin inkişafına həmçinin, iqtisadi, ictimai-siyasi həyatda yaranmış tənəzzülün xalqın mənəvi psixoloji durumuna mənfi təsirinin qarşısının alınmasına gətirib çıxarmışdır. Beləliklə, Azərbaycanın qarşısında tamamilə yeni inkişaf səhifəsi açılır, bu səhifə ölkə tarixinə qızıl hərflərlə yazılırdı. Qətiyyətlə deyə bilərik ki, ölkənin iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin şəkildə inteqrasiya prosesi 1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır. Ulu Öndər Heydər Əliyevin respublika rəhbəri kimi ilk günlərdən başlayaraq diqqət yetirdiyi məsələlər təkcə iqtisadi potensialın artırılması ilə məhdudlaşmırdı. Bu dövrdə dahi rəhbər milli dilin inkişaf etdirilməsinə, dövlət müəssisələri də daxil olmaqla ictimai-siyasi həyatda geniş istifadəsinə ciddi fikir verirdi.

1978-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması Heydər Əliyevin müdrikliyinin və dahiyanə uzaqgörənliyinin parlaq nümunəsi idi. Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və mübarizəsi nəticəsində Azərbaycan dilinin dövlət dili olması haqqında müddəa Azərbaycanın 1978-ci il Konstitusiyasında birmənalı göstərildi. Konstitusiyanın 73-cü maddəsində "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" müddəası təsbit edildi. Ulu Öndər Heydər Əliyev çox sonralar - 1995-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında demişdi: "...Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu da öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq". Ulu Öndər Heydər Əliyev həmin dövrdə dövlət idarəetmə strukturlarında, xüsusən də yüksək vəzifələrdə çalışan məmurların azərbaycanlı olmasına diqqət yetirir, bununla əlaqədar konkret addımlar atırdı.

SSRİ-nin digər müttəfiq dövlətlərində olduğu kimi, Azərbaycanda da kosmopolit əhval-ruhiyyə hökm sürdüyündən, milli kadrların hazırlanması arxa plana keçmişdi. Bu mənfi tendensiyaya da məhz Heydər Əliyev hakimiyyətinin ilk dövrlərindən etibarən son qoymuşdu. Milli şüura malik olan, milli düşüncə ilə yaşayan, milli mentalitetin daşıyıcısı sayılan gənc kadrların yetişdirilməsinə və onların idarəçiliyə cəlb edilməsinə start verilmişdi. Hələ o illərdən Ulu Öndər Heydər Əliyevin yürütdüyü sosial siyasət cəmiyyətdə ayrı-ayrı zümrələrin həyat keyfiyyətinin yüksəldilməsinə, iqtisadi stimulun, insan amilinə hörmətin formalaşmasına, ümumilikdə, ictimai rifahın, sosial sülhün bərqərar olmasına etibarlı zəmin yaradan konseptual inkişaf yoluna çevrilmişdir.

Bu siyasət Azərbaycan vətəndaşının həyati tələbatlarının ödənilməsini təmin edən əlverişli sosial-mənəvi iqlimin və həmrəylik şəraitinin, ümumilikdə ölkədə etibarlı sosial müdafiə sisteminin yaradılmasını da təmin etmişdir. Həmin siyasətin tərkib hissəsi kimi Ulu Öndər ötən əsrin 70-80-ci illərində cəmiyyətin digər sahələri kimi səhiyyə sisteminin də

yüksəlişini təmin etmiş, bu sahənin hərtərəfli inkişafı üçün dövlət səviyyəsində bütün mümkün tədbirləri gerçəkləşdirmişdir. Ümummilli lider həmin dövrdə, ilk növbədə, tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışmış, bununla da səhiyyə sahəsində mövcud durğunluğun aradan qaldırılmasına nail olmuşdur.

Ötən əsrin 60-cı illərin sonu 70-ci illərin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən Heydər Əliyev respublikamızın səhiyyə sahəsinin, o cümlədən, tibb elmi və tibb təhsili sahələrinin beynəlxalq miqyasa çıxmasına, dayanıqlı və sabit inkişafına əlverişli şərait yaradırdı. Həmin illərdə Azərbaycanın tibb təhsili sistemində də ölçüyəgəlməz islahatlar aparılmış, o zamankı Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovetlər İttifaqında sayılıb-seçilən elm məbədlərindən birinə çevrilmiş, tibbi kadr hazırlığında öz sözünü demişdir. Ötən əsrin 70-ci illərində tibbi fənlərin diploma qədərki və diplomdan sonrakı tədrisinin, tələbələrin və məzunların peşə hazırlığının, eləcə də abituriyentlərin instituta qəbulunun keyfiyyətinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Dövlət Tibb İnstitutunda internatura kursu, hazırlıq şöbəsi, istehsalat təcrübəsi dekanlığı və digər köməkçi şöbələr yaradılmışdır.

Azərbaycançılıq məfkurəsinin genişləndirilməsi və ictimi şüurda daha dərin iz buraxması üçün Heydər Əliyev yaradıcı insanların sərbəst düşünməsinə və fıkirlərini azad şəkildə ifadə etməsinə, beləliklə, milli-mənəvi idealın yüksəldilməsi üçün də lazımi mühit formalaşdırılmasına çalışırdı. Bu isə, öz növbəsində, Azərbaycanın dövlətçilik tarixində suverenliyi, müstəqilliyi təmin edən dəyərlərə aparan yolları tapmaq imkanı verən şərait yaratmışdı.

Heydər Əliyev siyasi kursu - bu böyük dühanın parlaq adını və çoxcəhətli fəaliyyətini, geniş dünyagörüşünü və mənalı irsini əhatə edən zəngin dövlətçilik təlimi, siyasi-ideoloji baxışlar sistemidir. Heydər Əliyev siyasi kursu - qlobal yanaşma ilə milli dəyərlərin vəhdətindən yoğrulmuş düşünülmüş yetkin dövlətçilik təlimidir. Heydər Əliyev siyasi kursu - milli dövlətçilik təliminin strategiyasından və xalqın inkişaf dialektikasının taktikasından ibarətdir. Haqlı olaraq deyildiyi kimi, O, böyük siyasətin uzaqvuran topu, ağır artilleriyası idi. Heydər Əliyev siyasi kursu - xalqı birləşdirən, əlaqələndirən, səfərbər edən və daha böyük gələcəyə aparan gerçəkçi siyasətin ifadəsidir. Heydər Əliyev siyasi kursu - müstəqillik qazanmış ölkələrin dövlət quruculuğunun inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün sınaqlardan çıxmış modeldir. Nəhayət, Heydər Əliyev siyasi kursu - cəmiyyət həyatının, ümummilli inkişafın əbədiyyət ünvanlı lokomotividir [5]

Heydər Əliyevin formalaşdırdığı bu şərait yüzlərlə azərbaycanlı ziyalını sovet totalitarizminin repressiya maşınından xilas etmişdi. Halbuki, Sovet İttifaqının bir çox başqa respublikalarında həmin dövrdə milli məfkurədən çıxış edən elm və mədəniyyət xadimlərinə, ziyalılara qarşı təqib və təhdidlər özünü aşkar hiss etdirirdi. Həmin illərdə respublikada nəinki dissident hərəkatı olmamış, əksinə, Ulu Öndər Heydər Əliyev milli ziyalı elitasını sovet rejiminin sərt repressiyalarından, təqiblərindən qorumaqla, bu yolda bütün çətinliklərə mərdliklə sinə gərməklə əslində Azərbaycan xalqının genofondunu hifz etmişdir. 1937-ci ildə repressiyaya məruz qalaraq Sibirə sürgün olunmuş görkəmli dramaturq Hüseyn Cavidin nəşini uzaq Sibirdən Azərbaycana gətirmək üçün apardığı mübarizə də Ulu Öndərin milli irsə nə qədər sayğı və ehtiramla yanaşan, heç bir siyasi riskdən çəkinməyən şəxsiyyət olduğunu bir daha təsdiqləyir. Ulu Öndər nitqlərinin birində demişdi: "1937-ci ildə "millətçilikdə" ittiham edilərək sürgün olunan ölməz dramaturqumuz Hüseyn Cavidin nəşini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, mədəniyyətimizə, ədəbiyyatımıza olan sədaqət, sevgi mənə belə bir cəsarət göstərməyə imkan verdi". Bütün bunlar Heydər Əliyevli Azərbaycanın 1970-1980-ci illərdəki uğurlarıdır. 1980-ci illərin sonu 1990- cı illərin əvvəllərini - Heydər Əliyevsiz Azərbaycanı göz önünə gətirmək, müəyyən tarixi gerçəkliklərə nəzər salmaq isə olduqca üzücüdür. Xüsusən də 1991-1993-cü illərin gerçəklikləri bir həqiqəti ortaya qoydu ki, müstəqillik nemətinə qovuşan hər bir xalq

ilkin mərhələdə onu qoruyub saxlamaq, möhkəmləndirmək, dövlətin gələcək inkişafına etibarlı bünövrə hazırlamaq kimi məsuliyyətli və çətin mərhələni də keçməyi bacarmalıdır. 1991-ci ildən 1993-cü ilin iyununadək bütövlükdə yeni müstəqil dövlətin taleyi ciddi sual altında idi. [2]

Müəyyən ekstremal situasiyalarda tarixi inkişafın diktə etdiyi ictimai-siyasi şərait hər bir şəxsiyyətin və liderin nəyə qadir olduğunu qabarıq şəkildə üzə çıxarır. Bu mənada əminliklə demək olar ki, Ulu Öndər ötən əsrin 90-cı illərin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə də qətiyyən biganə qalmamış, hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə milli müstəqilliyin bərpa olunmasında yaxından iştirak etmişdir.

1990-1992-cü illərdə - Heydər Əliyevsiz Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması ilkin mərhələdə özünü ciddi problem kimi göstərmiş, ölkədə ictimai-siyasi böhranın, iqtisadi tənəzzülün dərinləşməsinə, vətəndaşların hüquq və azadlıqlarının addımbaşı pozulmasına, dövlətçiliyə potensial təhdid olan cinayətkar qruplaşmaların baş qaldırmasına gətirib çıxarmışdı. O zamankı böhranlı və ağır şəraitdə respublikanın gələcəyini düşünən, reallığı adekvat qiymətləndirməyi bacaran nüfuzlu ziyalılar çıxış yolunu məhz Ulu Öndər Heydər Əliyevin böyük siyasətə qayıdışında görürdülər. Ağır vəziyyətdən cana doymuş xalq Heydər Əliyevin hakimiyyətə gəlişini əngəlləmək üçün Konstitusiyaya daxil edilmiş qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, onun yenidən böyük siyasətə qayıdışını təkidlə istəyirdi. Həmin dövrdə ölkədə qanunçuluğun, hüquq qaydalarının son dərəcə zəif olması, idarəçiliyin iflic vəziyyətinə düşməsi, ayrı-ayrı siyasətçilərin "könüllü döyüşçü" adı altında qanunsuz silahlı dəstələr yaratması nəticə etibarilə hakimiyyətdə olan qüvvələrin iflasını daha da sürətləndirirdi. Bir tərəfdən erməni təcavüzü genişlənir, digər tərəfdən isə ölkənin cənubunda və şimalında separatçılar məkrli niyyətlərlə baş qaldırırdılar. Gəncədəki qanunsuzluqlar və silahlı qiyam ölkədəki hərc-mərcliyin, anarxiya mühitinin, siyasi hakimiyyətə qarşı total inamsızlığın məntiqi sonluğa yetişməsi idi. Faktiki olaraq, müəyyən xarici qüvvələrin dəstəklədiyi bu silahlı qiyam respublikamızın yenicə nail olduğu dövlət müstəqilliyinə ciddi təhlükə olmaqla yanaşı, silahlı vətəndaş müharibəsinə, Azərbaycanın ayrı-ayrı bölgələrə parçalanmasına zəmin yaratmışdı. Belə böhranlı və ağır şəraitdə Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu fəlakətlərdən qurtarmağa qadir yeganə şəxsiyyət məhz Ulu Öndər Heydər Əliyev idi.

İyun ayının 9-da xalqın və həm də o zaman çıxılmaz vəziyyətə düşmüş AXC-Müsavat hakimiyyətinin təkidli istəyi ilə Bakıya qayıdan Ulu Öndər xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyini itirmək təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Ulu Öndər Heydər Əliyev dərhal bir qrup ziyalı ilə birgə Bakıdan Gəncəyə yola düşərək baş vermiş silahlı qarşıdurmanın əsl səbəblərini araşdırmış, özünün müdrik və uzaqgörən addımları ilə silahlı qarşıdurmanın miqyasının genişlənməsinin qarşısını almışdır. Gəncədə olarkən "Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və bütün qanunu pozmuş adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq, qanun qarşısında məsuliyyət daşımalıdırlar" - deyən Ulu Öndər bir daha prinsipial mövqeyini ortaya qoymuş, AXC-Müsavat cütlüyünün ölkəni vətəndaş qarşıdurması həddinə çatdırdığını açıq bildirmişdir. [1]

1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, xaos və hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratmışdır. Beləliklə də, 15 iyun Azərbaycanın böyük faciə və dəhşətlərdən qurtulmasının rəmzi ifadəsinə çevrilmiş, xalqımızın qəlbində özünə möhkəm yer tapmış, tarixə Milli Qurtuluş Günü kimi düşmüşdür. Məhz bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Ulu Öndər Heydər Əliyevə etimad göstərərək onu Prezident seçmiş, müdrik liderinin rəhbərliyi altında davamlı və dönməz inkişaf yoluna qədəm

qoymuşdur. Həmin ilin oktyabrın 10-da keçirilmiş andiçmə mərasimində "Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm" - deyən Ümummilli lider müstəqil Azərbaycanın milli inkişaf strategiyasını özünəməxsus müdrikliklə irəli sürmüş və onun həyata keçirilməsinə başlamışdır. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində Heydər Əliyev özünün qətiyyəti və xarizması ilə Azərbaycan dövlətçiliyini ağır faciələrdən xilas etdi. Sonrakı mərhələdən etibarən Heydər Əliyevin rəhbərliyi altında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda atılan addımlar, milli dövlətçilik ənənələrinə, beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları insan hüquq və azadlıqlarının təminatı sahəsində əsaslı dönüşə səbəb oldu.

Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşanan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur. [4]

Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirən Ulu Öndər sivil Qərb dəyərlərinin cəmiyyətdə tam mənimsənilməsinə, demokratik dəyərlərin daha möhkəm intişar tapmasına, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı təminatına hər zaman xüsusi diqqətlə yanaşmışdır. Heydər Əliyevin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi haqqında" 9 avqust 1994-cü il tarixli fərmanı ilə cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilmiş, hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramı müəyyənləşdirilmişdir. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək demokratik meyarlar əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi olmuşdur.

1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri dəqiq əksini tapmış, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə fundamental hüquqi zəmin yaradılmışdır. Həmin dövrdə Qərbin aparıcı şirkətləri müharibə şəraitində, eləcə də iqtisadi tənəzzül mərhələsini yaşayan Azərbaycana investisiyaların yatırılmasına tərəddüd edir, bunu riskli sayırdılar. Belə bir şəraitdə "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaq, Qərb şirkətlərini sərmayə qoyuluşlarının etibarlılığına inandırmaq son dərəcə çətin idi. Bu istiqamətdə gərgin danışıqların uğurla yekunlaşması isə məhz Ulu Öndərin şəxsi liderlik keyfiyyətləri, sözünə bütövlüyü, siyasət etikasına sadiqliyi ilə şərtlənirdi. Məhz bu təminat "Əsrin müqaviləsi" kimi Azərbaycanın gələcək inkişafında lokomotivə çevrilən bir layihənin reallaşmasına imkan yaratmışdı. Bu mərhələdən iqtisadi, siyasi, hüquqi və digər sahələrdə kompleks islahatlar həyata keçirən, ölkənin milli-iqtisadi inkişaf modelinin xüsusiyyətlərini elmi şəkildə açıqlayan, yeni neft strategiyasını irəli sürən, cəmiyyətdə sabitliyin qarantı olan orta təbəqənin - sahibkarlar sinfinin formalaşması yönümündə ardıcıl addımlar atan Ümummilli lider Heydər Əliyev dövlət müstəqilliyinin möhkəmləndirilməsini və Azərbaycanın davamlı inkişaf yoluna çıxarılmasını həmin dövrün başlıca milli ideyasına çevirmişdir. Bu ideya respublikanın demokratik, hüquqi, dünyəvi dövlətə çevrilməsi, ərazi bütövlüyü və suverenliyinin bərpası, beynəlxalq miqyasda mənafelərinin etibarlı şəkildə qorunması kimi ümdə məqsədləri özündə ehtiva etmişdir.

Ulu Öndər Azərbaycanı daim inkişaf edən, müasir görmək istədiyindən xalqın gələcək taleyinə biganə qalmamış, müasirləşmə xəttini özündən sonra layiqincə davam etdirəcək yeni düşüncəli, yüksək idarəetmə və təşkilatçılıq qabiliyyətinə malik müasir ruhlu lider yetişdirmişdir. Əgər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərindən etibarən Azərbaycanı keçmiş SSRİ-nin qabaqcıl ölkəsinə çevirmişdisə, eyni zamanda, 90-cı illərdə xaos və tənəzzüldən inkişafa doğru mükəmməl strategiyanı təmin etmişdisə, onun layiqli davamçısı cənab İlham Əliyevin yürütdüyü modernləşmə kursu respublikamızın milli inkişaf modelinin formalaşmasını şərtləndirmişdir. Ötən illərdə Ulu Öndərin yürütdüyü siyasəti bütün sahələrdə çox böyük uğurla davam etdirən Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsasında məhz "Güclü dövlət, sosial rifah" tezisi dayanır. Bu da təsadüfi deyil - güclü iqtisadiyyat qurmadan güclü dövlətə nail olmaq, insanların yüksək sosial rifahını təmin etmək qeyri-mümkündür. Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana axarını təşkil edir.

Dövlət başçısı iqtisadi inkişafa yalnız neft amili hesabına nail olmağı məqbul saymayaraq tarazlı və davamlı tərəqqi naminə qeyri-neft sektoruna xüsusi diqqət yetirilməsinin vacibliyini önə çəkib. Prezident İlham Əliyevin ölkəyə rəhbərliyinin ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən dövlətdir. Hazırda müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu vardır. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik surətdə gerçəkləşdirilməsini təmin etmişdir.

Azərbaycan bu gün Şərqlə Qərbi birləşdirən nəqliyyat-kommunikasiya xətlərinin, habelə neft-qaz boru kəmərlərinin keçdiyi əlverişli tranzit məkan kimi təkcə Avropa üçün deyil, həm də Uzaq Şərq üçün strateji əhəmiyyət kəsb edir. Avropa Şurasının tamhüquqlu üzvü olan respublikamızın avrostrukturlara Avropa Birliyi, NATO kimi təşkilatlarla sıx əməkdaşlığı hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin dönməzliyinə etibarlı təminat kimi qiymətləndirilir. Son illər bir sıra mühüm beynəlxalq tədbirlərin keçirilməsində Bakı şəhərinin seçilməsi respublikamızın beynəlxalq nüfuzunu daha da yüksəldir. Aşkar görünür ki, Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınmağa başlayır və belə bir müsbət imicin formalaşmasında son illər respublikada keçirilən beynəlxalq toplantıların əhəmiyyətini xüsusi vurğulamaq lazımdır.

Ölkədə müşahidə olunan dinamik iqtisadi tərəqqi ilə paralel şəkildə demokratik-hüquqi islahatların da dönmədən davam etdirilməsi, bu iki təmayülün ümumi strateji inkişaf kursunun prioritet xətti kimi nəzərdən keçirilməsi Azərbaycanı qlobal əhəmiyyətli tədbirlərin mərkəzinə çevirmişdir. Bunun əsas səbəblərindən biri də xalqımızın tolerantlıq düşüncəsinin yüksək səviyyədə olmasıdır. Bakıda müxtəlif forumların keçirilməsi, ilk növbədə, respublikamızın sivilizasiyalararsı dialoq prosesində fəal mövqe tutduğunu, zəngin Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynadığını göstərir. Bu bir daha təsdiqləyir ki, Azərbaycan müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu məkan olaraq bu məqsədlərə yönəlmiş mühüm təşəbbüslərlə çıxış edir. Ümumilikdə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakıda keçirilən beynəlxalq tədbirlər sülh naminə çalışan insanlara dünyada təhlükəsizliyin təmin olunması və xalqlar arasında dialoqun inkişafı üçün zəmin yaradır.

Azərbaycan son 10 ildə praqmatik xarici siyasətlə yanaşı, həm də milli maraqlara əsaslanan enerji diplomatiyası ilə Avropada və bütün dünyada mövqelərini möhkəmləndirmişdir. Şübhəsiz, həyata keçirilən qlobal neft-qaz diplomatiyası Azərbaycanda insan kapitalının inkişafına xidmət edən uğurlu layihələrin reallaşdırılması üçün də yaxşı imkanlar açır. Modernləşmə xəttinin tərəfdarı olan cənab İlham Əliyev hesab edir ki, bu yol ölkəmizi bilik və informasiya cəmiyyətinə gətirib çıxaracaqdır. Bu isə modernləşmənin cəmiyyətin şüuru, onun elmə, təhsilə, mədəniyyətə münasibəti ilə bağlılığını bir daha təsdiqləyir. Azərbaycanın

sosiomədəni modernləşməsi təkcə yeni texnologiyaların və bazar mexanizmlərinin tez bir zamanda keyfiyyətli tətbiqini deyil, kreativ və innovasion şüurun köməyi ilə millətin sivil yeniləşməni şərtləndirə bilən institutların yaranmasını nəzərdə tutur. Prezident İlham Əliyev yaradıcı zəka sahiblərinin, intellektual, kreativ kadrların, gənc, qabiliyyətli insanların dövlətin lazımi diqqət və qayğısı ilə əhatə olunmasını da son dərəcə vacib sayır. Cənab İlham Əliyev dəfələrlə vurğulamışdır ki, iqtisadi resursların insan kapitalının inkişafına yönəldilməsi yolu ilə formalaşan yeni təfəkkürlü intellektual elita ölkənin perspektiv inkişafının əsas lokomotivi - aparıcı qüvvəsi kimi çıxış edəcəkdir.

Ulu Öndər Heydər Əliyevin ölməz ideyaları Azərbaycanın sabit və davamlı inkişafının başlıca qarantı kimi çıxış edir. Ölkəmizə inamla rəhbərlik edən möhtərəm Prezident İlham Əliyev Ulu Öndərin qarşıda strateji hədəf kimi müəyyənləşdirdiyi əksər vəzifələrin həllinə nail olmuş, Azərbaycanı bütün sahələrdə dinamik inkişaf edən, məqsədlərinə doğru əzmlə irəliləyən dövlətə çevirmişdir.

**Ədəbiyyat siyahısı**


1. “Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti”.Təhsil, 2002. Mahmudov.Y.M.
2. “ Azərbaycan-Heydər Əliyevdən İlham Əliyevə” 2004. Cəfərov.N.Q.
3. “Azərbaycan qəzeti” 2014.13.iyul.148-s.4
4. “Heydər Əliyev siyasi irsinin politoloji aspektləri”  Bakı. 2016. Mirzəyev.A.
5. “Xalq” qəzeti-2015.13.dekabr. N275.s5.

**i.f.d., dos. Bayramov Qəhrəman Saleh oğlu**
*ADİU (UNEC), qehreman.bayramli@bk.ru*

**i.f.d., baş müəllim Quliyev İbrahim Qədim oğlu**
*ADİU (UNEC), i.quliyev68@mail.ru*

# HEYDƏR ƏLİYEVİN ƏDALƏTLİ SOSİAL TƏMİNAT SİSTEMİ VƏ ONUN MÜASİR TƏNTƏNƏSİ

## Xülasə

Məqalə Heydər Əliyevin Azərbaycandaədalətli sosial təminat sisteminin uğurlarınınaraşdırılmasına və müasir tətbiqi nəticələrinin qiymətləndirilməsinə həsr edilmişdir. Məqalədə əvvəlcə Ümummilli lider Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi sosial müdafiə və sosial təminat sisteminin tətbiqi nəticələri xronoloji ardıcıllıqla nəzərdən keçirilərək şərh edilir və onun sosial-iqtisadi əhəmiyyəti əsaslandırılır. Sonra müəlliflər tərəfindən əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan sosial təminat sisteminin ayrı-ayrı komponentlərinə, onun varisi, ölkənin indiki Prezidenti İlham Əliyev tərəfindən göstərilən əməli sosial-iqtisadi və mənəvi-hüquqi dəstəyin mövcud vəziyyəti araşdırılır. Bundan əlavə, ölkədə pandemiya dövrünə uyğun əhaliyə və onun ayrı-ayrı təbəqələrinə təqdim edilən sosial paketin məzmunu və əhəmiyyəti açıqlanır, ölkənin sosial xidmətlərinin, o cümlədən, əhalinin sosial müdafiəsi və sosial təminatı sisteminin əsas hədəf göstəricilərinin proqnoz hesablamalarının nəticələri təqdim edilir.

**Açar sözlər:** sosial təminat sistemi, sosial müdafiə, hüquqi dəstək, sosial xidmətlər, proqnoz.

Ümummilli lider Heydər Əliyevin fəaliyyətində əsas istiqamətlərdən biri ölkədə sosial ədalətin təmin olunmasını həyata keçirmək idi. Onun rəhbərliyi sayəsində ölkə əhalisinin sosial müdafiəsi və sosialyönümlü islahatlar istiqamətində əhəmiyyətli tədbirlərə start verildi.1995-2000-ci illər ərzində dövlət büdcəsindən sosial təyinatlı xərclərin üç dəfəyə yaxın artımı baş verdi. Sosialyönümlü xərclər büdcə xərclərinin yarıdan çoxunu təşkil edirdi. 1994-cü ilin 24 iyul tarixində "Əhalinin sosial müdafiəsi haqqında" Qanunun[1] qəbul edilməsi məhz ölkə əhalisinin sosial müdafiəsini gücləndirməyə hesablanmışdı. Bunun davamı olaraq həmin ilin 21 noyabr tarixində "Əhalinin Sosial Müdafiəsi Fondu"nun[2] təsis olunması da önəmli məqam kimi qiymətləndirilməlidir.

Ölkənin pedaqoji işçilərinin ailələrinin elektrik enerjisi, qaz və kommunal xidmətlərdən istifadə xərclərindən tam olaraq azad edilməsi 1995-ci ilin yanvarına, pensiyaların orta aylıq məbləğinin "Vətəndaşların pensiya təminatı haqqında" Qanunla əlaqədar 2 dəfə artırılması 1995-ci ilin sentyabrına təsadüf edir. 1998-ci ildən etibarən torpaqların azad olması uğrunda vuruşmuş müharibə və 20 Yanvar əlilləri üçün dövlətin hesabına "Oka" markalı minik maşınlarının verilməsi nəticəsində pulsuz minik maşını ilə təmin olunmuş əlillərin sayı 2003-cü ilin yanvarına qədər 1090 nəfərə çatdı. Əhalinin pensiya təminatının təşkilinin daha da təkmilləşdirilməsində 2001-ci ilin ortalarında Prezident Heydər Əliyev tərəfindən verilmiş "Pensiya islahatı haqqında" Fərmanın[3] böyük əhəmiyyəti oldu. 2002-ci ilin yanvarında Prezident Heydər Əliyev tərəfindən sosial güzəştlərin böyük əksəriyyətinin ləğv edilməsinin əsas səbəbi bu güzəştlərin iqtisadiyyata mənfi təsiri ilə əlaqədar idi. Həmin güzəştlərin əvəzinə dövlət büdcəsindən müavinətlər verilməsinə başlandı.

Xalq qarşısında mühüm xidmətləri olan şəxslərin yüksək Prezident təqaüdü ilə təltifi məqsədilə Ulu Öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Fərmanın[4] imzalanması 2002-ci il iyunun 11-nə təsadüf edir.

Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış soydaşlarımızın məskunlaşması problemlərini həll etməklə əlaqəli konkret tədbirlər Ümummilli liderin 2001-ci il 22 avqustunda imzaladığı Fərmanda öz əksini tapdı və icra olunmağa başlandı. Məcburi köçkünlərin məskunlaşdırılması məqsədilə Ağdam rayonu ərazisində 500, Füzuli rayonu ərazisində isə 800 ailəlik evlərin tikilməsi, qəsəbələr salınması haqqında 7 sentyabr 2001-ci il tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən Fərman imzalandı.

1998-ci ildən etibarən məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi üçün onlara yemək xərcinə görə verilən aylıq müavinətin həcmi ilbəil artırılırdı. Bu müavinətlərin 1998-2000-ci illərdə 3,5 dəfə artırılması faktı məlumdur.

Ulu Öndərin təşəbbüsünə əsasən ölkədə "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nın hazırlanması ölkə vətəndaşlarının kasıbçılıqdan qurtarmasına, onların rifah halının yaxşılaşdırılmasına hesablanmışdı. Həmin dövrdə ölkədə iqtisadi tənəzzülün qarşısını almaq, yeni iş yerləri açmaq, sosial layihələr həyata keçirmək təşəbbüsləri yoxsulluğun aradan qaldırıması və sosial ədalətin bərqərar olması üçün imkanlar yaratdı.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sosial ədalət siyasəti və sosial təminat sisteminin tətbiqi Prezidant İlham Əliyevin bu gün də uğurla reallaşdırdığı sosial-iqtisadi siyasətində davam etdirilməkdədir.

Sosial müdafiə sistemi Azərbaycanın milli xüsusiyyətlərinə əsaslanır və təhlükəsizlik səviyyəsindəki mövcud dəyişikliklərin ədalətli tənzimlənməsi yolu ilə həyata keçirilir. Sosial müdafiə əsasən məşğulluq amilləri və əhalinin yaş qruplarına görə dəyişmə dinamikası, onun yaşayış səviyyəsini müəyyən edən minimum və maksimum təhlükəsizlik səviyyəsi, habelə bazarın alıcılıq qabiliyyətindəki maliyyə və inflyasiya dalğalanmaları qiymətləndirilərək həyata keçirilir. Pensiya dövründə hər bir vətəndaşın yaşayış səviyyəsi, maaşından əhəmiyyətli dərəcədə fərqlənməlidir. Bu səbəbdən orta aylıq pensiya ilə orta aylıq əməkhaqqı, minimum pensiya ilə minimum əməkaqqı, yaşayış minimumu və istehlak səbəti arasındakı əlaqənin mövcud mexanizmləri dinamik şəkildə tənzimlənir [5, s. 212-213].

Sosial müdafiəni yaxşılaşdırmaq üçün hər hansı bir büdcə ilində minimum ehtiyac meyarını, yaşayış xərclərini və minimum əməkhaqqını alıcılıq qabiliyyətinə uyğun olaraq tənzimləyən siyasət mövcuddur. Sosial müdafiə sisteminin pensiya islahatındakı rolunu, inflyasiya səviyyəsini, istehlak səbətini və ödəniləcək sığorta haqlarını artırmaq üçün əməkhaqqının ölçüsü müvafiq əmsallarla qiymətləndirilir [5, s. 213].

Sosial siyasətin həyata keçirilməsinin mexanizmləri sistematik, bir-biri ilə əlaqəli amillər və bunları yaxşılaşdırmaq üçün fəal tədbirlərdən və ədalətli prinsiplərdən istifadə nəzərə alınaraq dövlət tərəfindən tənzimlənir. Bu, ilk növbədə, sosial hədəfləri əsaslandırmaq, onların formalaşmasına təsir edən amilləri müəyyənləşdirmək və bir sıra sosial-iqtisadi tədbirləri həyata keçirməklə mümkündür. Sosial hədəflər əsaslandırılarkən müasir şəraitdə qəbul edilmiş milli iqtisadiyyatın və onun sahələrinin inkişafı üçün yol xəritələrinə uyğun olaraq qoyulmuş hədəflər və imkanlar araşdırılır və qiymətləndirilir. Strategiyalar dövlət və özəl sektor üçün yol xəritələrinin əsas məqsədlərinə uyğun olaraq müəyyənləşdirilmişdir.

Sosial müdafiə sistemləri ölkənin makroiqtisadi, sektor və ərazi potensialına uyğun tətbiq olunur. Üstün rolu prezidentin minimum əməkhaqqının 150 manatdan 180 manata qaldırılması haqqında fərmanı oynayır. 2019-cu ilin martında qüvvəyə minən bu fərman, ölkənin əməkhaqqı sistemindəki orta aylıq əməkhaqqı səviyyəsinə və fərqliliyinə təsir göstərəcək [5, s. 213].

Sosial təminat sistemi əhalinin həyat səviyyəsi, dəyişən ehtiyac dinamikası, eləcə də ölkədə iqtisadi artım dinamikası ilə tənzimlənir. Əməkhaqqı sisteminin tənzimlənməsi təkcə iş qabiliyyətinin və insan inkişafının stimullaşdırılması mexanizmini aktivləşdirmir, həm də istehlakın tələb sisteminə yaxınlaşmasını təmin edir. Beləliklə, əməkhaqqı səviyyəsi və onun qütbləşməsi sosial ədalət və əmək məhsuldarlığı səviyyəsinin artırılmasına yönəldilmişdir.

Əmək haqqından qorunma sisteminin yaradılması gəlir siyasətini, habelə istehlak bazasının formalaşmasına, ailə və fərdi istehlak səviyyəsinə təsir mexanizmlərini yaradır.

İstehlak bazarına daha çox mal və xidmət təklif etmək və alıcılıq qabiliyyətinə görə təşkil etmək makro səviyyədə tənzimləmə siyasətidir. Həm də müxtəlif sosial sahələrin mikro səviyyədə tənzimlənməsi siyasətidir.

İşsizlik müavinəti, məşğulluğun qorunması üçün ayrılan vəsaitin müəyyən bir hissəsinə bərabərdir. Azərbaycanla müqayisədə, işsizlik müavinətinin həcmi və ödəmə müddəti ölkələrdən ölkələrə çox fərqlidir. Əksər ölkələrdə işsizlik müavinəti vergi sonrası maaşların 50%-ni təşkil edir. Eyni zamanda, bu ölkələrdə işsizlik müavinətləri, bir qayda olaraq, məşğulluğun qorunması üçün ayrılan vəsaitlərin yalnız müəyyən hissəsini təşkil edir. Bunun səbəbi bu ölkələrdə işsizliyin aktiv şəkildə qarşısının alınmasıdır. Məsələn, İsveçrədə işsizlik müavinəti məşğulluq müavinətlərinin yalnız 25 faizini təşkil edir. Qalan 75%-i iş yerləri açmağa, yeni ixtisaslar qazanmağa və ixtisaslarını artırmağa gedəcəkdir. Eyni zamanda, bu ölkələrdə işsizlərə maddi yardım işsizlik sığortası sistemi əsasında həyata keçirilir.

30 noyabr 2018-ci il tarixində qəbul edilmiş "Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ölkənin əsas sosial-demoqrafik qrupları üçün yaşayış minimumu bütövlükdə ölkə üçün 180 manat, o cümlədən, əmək qabiliyyətli əhali üçün 191 manat və təqaüdçülər üçün 149 manat və uşaqlar üçün 160 manat oldu [6].

Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2019-cu il tarixli Fərmanı və "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, 1 mart 2019-cu ildən bəri müstəqillikdən bəri ilk dəfə minimum əməkhaqqı 38,5% artırılaraq 180 manata çatdı. Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2019-cu il Sərəcamı ilə minimum əməkhaqqı daha 39% artırılaraq 250 manat müəyyən edildi. Ölkə başçısının “Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında” imzaladığı qanuna əsasən 2021-ci il üçün yaşayış minimumu 196 manat, əmək qabiliyyətli əhali üçün 207 manat, pensiyaçılar üçün 162 manat, uşaqlar üçün 175 manat məbləğində müəyyən edilib[7].

Müxtəlif ölkələrdə sosial köçürmələrin təşkili təcrübəsinin öyrənilməsi göstərir ki, onların hər ölkədə yaşayış səviyyəsinin yüksəldilməsinə təsiri son nəticədə həmin ölkənin iqtisadi inkişafının ümumi səviyyəsi ilə müəyyən edilir. İqtisadi inkişafın sabit və böyüdüyü ölkələrdə sosial transferlər sürətlə artır, imkanları və təsir dairələri genişlənir. Məsələn, ABŞ-da sosial köçürmələr 1940-cı illərdəki 4 faizdən artıq ÜDM-in 18 faizini təşkil edir. Azərbaycanda sosial transfertlərin dinamikasını və həcmindəki dəyişikliyi izləmək üçün aşağıdakı cədvəldəki məlumatları nəzərdən keçirək (Cədvəl 1).

Cədvəl 1

2010-2019-cu illərdə Azərbaycan əhalisinin gəlirlərinin strukturu (faizlə)

| | Əhali gəlirlərinin strukturu (% -lə) | | | Adambaşına düşən aylıq gəlir (manat) | | |
|---|---|---|---|---|---|---|
| | 2010 | 2015 | 2019 | 2010 | 2015 | 2019 |
| Ümumi gəlir, ondan: | 100 | 100 | 100 | 144,2 | 240,5 | 292,6 |
| əmək gəliri | 59,8 | 59,1 | 58,1 | 86,3 | 142,1 | 170,0 |
| sosial transfertlər | 15,1 | 15,8 | 16,9 | 21,8 | 38,0 | 49,4 |
| Bütünsatış növlərindən | 14,0 | 13,4 | 12,4 | 20,1 | 32,1 | 36,4 |
| Digər gəlirlər | 11,1 | 11,7 | 12,6 | 16,0 | 28,3 | 36,8 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. 2020. Bakı, 2020, s. 152-153.

Cədvəldən görünür ki, sosial transfertlərin adambaşına düşən aylıq gəlirdəki payı 2010-cu ildə 15,1%, 2015-ci ildə 15,8% və 2019-cu ildə 16,9% olub [8]. 2010-2019-cu illər ərzində adambaşına düşən aylıq sosial transfertlərin həcmi adambaşına düşən aylıq gəlirin artım sürətini 1,15 dəfə üstələyərək 2,3 dəfə artmışdır. Qeyd etmək lazımdır ki, 2010-2019-cu illərdə ÜDM 1,9 dəfə artarkən, sosial transfertlər 34,2% artmışdır. Bu normal hesab edilməlidir, çünki

inkişaf etmiş bazar iqtisadiyyatı olan ölkələrdə sosial transfertlər ÜDM artımını üstələyir və əsas məqsəd əhalinin yoxsul təbəqələrinin rifahını təmin etməkdir.

Əhalinin sosial müdafiəsini gücləndirmək üçün Prezidentin 2019-cu il 15 aprel tarixli Fərman və Sərəncamlarına uyğun olaraq, aprel ayından bəri əhalinin bir çox kateqoriyası üçün sosial müavinətlər əhəmiyyətli dərəcədə artırılmışdır: sosial müavinətlər 73 manatdan 130 manata qədər, I, II, III dərəcə əlillik müavinətləri. Əlilliyin ailə başçısının 68 manatdan 80 manata qədər itirilməsinə, yetimlərə, 18 yaşınadək uşaqlar, 82 ilə 150 manat arasında əlillərə görə 82 manatdan 150 manata, 61 manatdan 130 manata, 52 manatdan 110 manata, 18 yaşınadək uşaqlara, 82 manatdan 150 manata qədər əlillərə və müvafiq olaraq valideyn himayəsindən məhrum olan şəxslər. Uşaqların qəyyumlarına 61 manatdan 100 manata, çağırışçı uşaqlarına 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınlara bir uşağa 33-55 manata, doğuşa görə 109 manatdan 200 manata qədər müavinət, cənazə müavinəti 146 manatdan 300 manata qaldırıldı [9].

Bundan əlavə, bəzi vətəndaşlar kateqoriyası üçün prezident təqaüdlərinin ölçüləri artırılmış və bir çox yeni pensiyalar tətbiq edilmişdir. Pensiyanın ölçüsü müvafiq olaraq I, II, III dərəcəli müharibə əlilləri üçün 182 manatdan 250 manata, 158 manatdan 230 manata, 121 manatdan 210 manata qaldırıldı [9].

Prezidentin 19 aprel 2018-ci il tarixli Sərəncamının icrası ilə əlaqədar 2018-ci ilin oktyabr ayından etibarən, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş sayılan hərbi qulluqçuların və hüquq-mühafizə orqanlarının zabitlərinə 11 min manat ödəniləcəkdir. Hərbi əməliyyatlar nəticəsində birdəfəlik ödəmələr edildi.

Azərbaycanda pensiya islahatları yaşayış minimumu və istehlak səbəti ilə tənzimlənir (Cədvəl 2).

Cədvəl 2

Azərbaycanda əmək pensiyaçılarının sayı və orta aylıq pensiya

| İllər | Pensiyaçılarn ümumi sayı (min nəfər) | Orta aylıq pensiya |
|---|---|---|
| 2010 | 1293 | 111,3 |
| 2011 | 1279 | 145,1 |
| 2012 | 1272 | 152,0 |
| 2013 | 1277 | 170,5 |
| 2014 | 1291 | 173,4 |
| 2015 | 1300 | 177,6 |
| 2016 | 1315 | 192,2 |
| 2017 | 1323 | 205,5 |
| 2018 | 1300 | 221,4 |
| 2019 | 1278 | 263,6 |

Mənbə: http: //social.gov.az/ İllik hesabatlar

Cədvəldə göstərilir ki, 2010-2019-cu illərdə təqaüdçülərin sayı 15 min nəfər azalıb və orta aylıq pensiya 152,3 manat artıb. 2019-cu ildə Prezidentin fərmanı ilə minimum pensiyanın 160 manata qaldırılması barədə qərar qəbul edildi.

Pensiyaların orta aylıq əməkhaqqı artımına və inflyasiya səviyyəsinə uyğun olaraq indeksləşdirilməsi hər büdcə ilində mütəmadi olaraq planlaşdırılır. 2019-cu ildən bəri islahatların böyümə aspektləri əhəmiyyətli dərəcədə genişlənmişdir. Aztəminatlı ailələrin qorunması üçün müavinətlər artırılır. Çoxuşaqlı ailələrə əlillik müavinətlərinin artırılması planlaşdırılır.

Orta aylıq əmək pensiyası 2019-cu ilin əvvəlində 221 manatdan 2020-ci ilin əvvəlində 262 manata, o cümlədən, orta aylıq qocalıq pensiyası, əlilliyə görə pensiya və ailə başçısını itirməyə görə pensiya müvafiq olaraq 249 manatdan 295 manata, 185 manatdan 225 manata

və 175 manatdan 201 manata qədər artmışdır. Orta aylıq pensiya 2018-ci illə müqayisədə 15,1, o cümlədən, orta aylıq yaşa görə əmək pensiyası 15,0% artmışdır [9].

30 dekabr 2019-cu il tarixdə imzalanmış "Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq, sosial müdafiənin və məşğulluğun, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması üçün tədbirlər nəzərdə tutulur, habelə sosial müdafiə sahəsində idarəetmə. Dövlət Sosial Müdafiə Fondu, Dövlət Məşğulluq Agentliyi və Sosial Xidmət Agentliyi kimi dövlət hüquqi şəxsləri Azərbaycan Respublikasının ƏƏSMN tərkibində yaradılmışdır [9].

Dünyanı təşvişə salan koronavirus pandemiyasının ölkəmizdən yan keçməyəcəyi və mənfi nəticələri ilə fəsadlar törədəcəyinə şübhə yox idi. Odur ki, Prezident İ.Əliyev bildirdi ki, birinci dərəcəli vəzifə əhalinin sağlamlığı və sosial rifahı üçün profilaktik tədbirlər görməkdir. Pandemiyanın ilk günlərində də dövlət başçısı birmənalı olaraq əhalinin sağlamlığının və sosial rifahının hər şeydən üstün olduğuna qərar verdi. Bu məqsədlə dövlət büdcəsindən külli miqdarda pul ayırmağa, əhalinin sağlamlığını və sosial vəziyyətini yaxşılaşdırmaq üçün lazımi tədbirlər görməyə başladı.

Prezident İlham Əliyevin 19 mart 2020-ci il tarixli Fərmanı ilə hazırlanmış Tədbirlər Planına uyğun olaraq əhalinin məşğulluğunu və sosial müdafiəsini dəstəkləyən 4 istiqamətdə 12 tədbirə start verilib. Beləliklə, Prezidentin adından hazırlanan sosial-iqtisadi paket çərçivəsində karantin dövründə əhalinin sosial müdafiəsi üçün mühüm addımlar atıldı. Proqramın icrası zamanı məşğulluq və əhalinin sosial müdafiəsi sahəsində planlaşdırılan tədbirlər 5 milyon insanı əhatə etmişdir. Nəticədə, dövlət sektorunda çalışan 900.000 nəfər və özəl sektorda çalışan 760.000 nəfər iş yerlərini qoruyaraq maaş aldı. Eyni zamanda, işsiz vətəndaşlara ayda 190 manat məbləğində birdəfəlik müavinət ödənilib. Ümumilikdə dövlət bu məqsədlər üçün 333 milyon manat ödəyib. Bundan əlavə, 85 min ailəyə 225 manat məbləğində ünvanlı sosial yardım verilmişdir.

Dünyanın bir sıra ölkələrində koronavirus pandemiyasını "qamçılamaq" siyasəti yürütdüyü bir vaxtda, bir çox ölkədə sosial layihələrin həyata keçirilməsinin təxirə salındığı pandemiya zamanı, sosial layihələrin heç biri dayandırılmadı. Prezident İlham Əliyevin 2020-ci ildə açılış mərasimində iştirakı və bir sıra sosial layihələrin təməli bir daha bütün vədlərinin yerinə yetirildiyini göstərir.

Gələcəkdə dövlətin sosial xidmətlərə ayıracağı vəsaitlərin struktur analizinə görə, dövlətin sosial təminat xərclərində ən çox paya sahib olan maddənin ünvanlı sosial yardım olduğunu söyləmək olar. 2025 və 2030-cu illərdə bu məqsədlər üçün ayrılan vəsaitin həcmi 2018-ci illə müqayisədə müvafiq olaraq 1,5 və 2,7 dəfə artacaqdır.

Proqnoza görə, gələcəkdə əlillik müavinətləri sosial təminat xərclərinin payına görə ikinci yeri tutacaqdır. Bu məqsədlər üçün büdcədən 2025-ci ildə 166 milyon manat, 2030-cu ildə 255 milyon manat ayrılacağı təxmin edilir(2018-ci illə müqayisədə müvafiq olaraq 1,9 və 2,9 dəfə artım).

Sosial xidmətlərin strukturundakı payına görə 18 yaşadək əlil uşaqlar üçün müavinətlər ilə aşağıdakı mövqelər tutulacaq - 2025-ci ildə dövlət sosial xərclərinin 2% -i (62 milyon manat, yəni 2018-ci illə müqayisədə 1,3 dəfə çox) ), 2030- ildə - 68 milyon manat, bu da 2018-ci illə müqayisədə 1,5 dəfə çoxdur).

18 yaşınadək əlil uşaqlar üçün müavinətlərdən sonra dövlət tərəfindən sosial xidmətlər üçün ayrılan vəsaitlərin strukturunda növbəti yeri cəzaçəkmə müəssisələrindən azad olunanlara ayrılan müavinətlər tutur. Bu növ müavinətlərin ümumi sosial xidmət həcmində payı 2025-ci ildə 1,5%, 2030-cu ildə isə 1,3% olacaq (2018-ci ildə bu rəqəm 3% idi). Bu müavinətin həcmi 2025-ci ildə 46 milyon manat, 2020-ci ildə 56 milyon manat olacaqdır. (2018-ci illə müqayisədə 2,2 və 2,7 dəfə çox). Bu, ölkə rəhbərliyinin humanizminin, zamanında büdrəyən insanlara diqqətinin, eyni zamanda, dövlətin normal həyata qayıtmasına verdiyi töhfənin bariz nümunəsidir.

Qeyd etmək lazımdır ki, Azərbaycan bəzi parametrlərə görə dünya səviyyəsindən geri

qalmasına baxmayaraq, böyük inkişaf potensialına malikdir. Beləliklə, gələcəkdə düşünülmüş və elmi cəhətdən əsaslandırılmış bir innovasiya strategiyasına əsaslanan sosial xidmətlərin yaxşılaşdırılması üçün müasir beynəlxalq standartlara uyğun olaraq informasiya texnologiyaları qurmaq və informasiya və kommunikasiya texnologiyalarının ən son nailiyyətlərini tətbiq etmək mümkün olacaqdır.

Ailə başçısının itkisi səbəbindən faydaların davamlı artması gözlənilir. 2030-cu ildə bu tip müavinətlərin ümumi fond miqdarındakı payı 0,82% (2018-ci ildə - 1,3%) olacaqdır. Müvafiq kontingentə 38,0 milyon manat köçürülmüşdür (2018-ci illə müqayisədə 1,6 dəfə çox).

Yaşla əlaqəli xidmətlər göstərilən vətəndaşların sayı və oxşar məqsədlər üçün ayrılan müavinətlərin həcmi hər il artır. Proqnoza görə, yaşa görə müavinət üçün ayrılan vəsaitin həcmi 2025-ci ildə 12 milyon manata, 2030-cu ildə 15 milyon manata qədər artacaq.

Proqnoza görə, gələcəkdə sosial təminat xərclərinin ümumi həcmində kommunal xidmətlər, nəqliyyat və digər xidmətlər üçün ödənişlər növbəti yeri tutacaqdır. 2025 və 2030-cu illərdə onların həcmi müvafiq olaraq 0,26% və 0,18% təşkil edəcək (2018-ci ildə - 3%). 2030-cu ildə 8 milyon manat, bu ehtiyat müvafiq kontingent yerləşdirmə üçün verilir (2018-ci ilə nisbətən 1,3 dəfə çox).

Beləliklə, sosial xidmətlərin inkişaf perspektivlərinin öyrənilməsi xidmət olunan vətəndaşların sayının və bu məqsədlər üçün ayrılan vəsaitin hər il artacağını göstərdi.

Ölkə əhalisi pandemiya dövründə dövlətin həyata keçirdiyi çevik və əhatəli sosial müdafiə tədbirlərini yüksək qiymətləndirir. Çünki məhz bu çətin dövrlərdə vətəndaşı olan bir dövlət Azərbaycan xalqının gələcəyinə nikbinlik verir. Bir pandemiya zamanı yalnız əhalinin sosial təminatına qənaət edilmir, eyni zamanda, vətəndaşlara hərtərəfli dəstək verilməsinə daha çox pul xərclənir. Çünki burada dövlətin əsas məqsədi, ölkə vətəndaşlarını dünyanı ən az zərər görən pandemiyadan çıxarmaqdır. Buna görə də bu istiqamətdə hərtərəfli tədbirlərin davam etdirilməsi əhalinin hakimiyyət orqanlarına olan inamını daha da artırır və ölkə Prezidenti ətrafında daha sıx birlik tələb edir.

Mənbələrin siyahısı:

1. "Əhalinin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikası Prezidentinin 1994-cü ilin 24 iyul Fərmanı.
2. "Əhalinin Sosial Müdafiəsi Fondu"nun təsis olunması. Azərbaycan Respublikası Prezidentinin 1994-cü ilin 21 noyabr Fərmanı.
3. "Pensiya islahatı haqqında" Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 15 may Fərmanı.
4. "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Fərmanı. 2002-ci il 11 iyun.
5. Heydər Əliyevin Azərbaycanın iqtisadi inkişaf strategiyası: Monoqrafiya. - Bakı: "Şərq-Qərb", 2019. - 328 s.
6. "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanunu 30 noyabr 2018-ci il.
7. "Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının Qanunu. 29 dekabr 2020-ci il.
8. Azərbaycanın statistik göstəriciləri. 2020. Bakı, 2020.
9. http://social.gov.az/illik-hesabatlar.

**dos.Qədimova Həqiqət Kərim**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*Zaqatala filialı “İqtisadiyyat və idarəetmə” kafedrası*
*qedimova.h@gmail.com*

## HEYDƏR ƏLİYEV İDEYALARI , GƏNC NƏSLİN MƏNƏVİYYATI VƏ DƏRİN İSLAHATLAR STRATEGİYASI AZƏRBAYCANIN UĞURLARINI TƏMİN EDİİR

***Açar sözlər:*** *Heydər Əliyev,gənc nəsil,mənəviyyat*
***Ключевые слова:****Гейдар Алиев, молодоепоколение, нравственность*
***Key words:*** *Heydar Aliyev, young generations, morality*

### XÜLASƏ

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edildi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, beynəlxalq normalara uyğun sivil və hüquqi dövlət quruculuğu başlandı. Milli ordunun formalaşması, nizami silahlı qüvvələrin yaradılması, torpaqların müdafiəsi ilə bağlı mühüm addımlar atıldı. Dünyanın məşhur ictimai-siyasi xadimlərinin, dövlət adamlarının və mütəfəkkirlərinin Heydər Əliyev haqqında söylədikləri fikirlər xalqımızın bu dahi oğlunun şəxsiyyətinə, çoxşaxəli dövlətçilik fəaliyyətinə verilən yüksək qiymətin, göstərilən ehtiramın və heyranlığın ifadəsidir ki, bunlar da daim xalqımıza başucalığı gətirir.

Ölkəmiz və xalqımız üçün 2021-ci ilin əlamətdar hadisələrindən biri də mayın 10-da Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünün tamam olduğu gündür. Tarix yazan dahi şəxsiyyətin dünyada yaşayan bütün azərbaycanlılar tərəfindən böyük ehtiramla anıldığı gün. Əslində Ulu Öndər Heydər Əliyevin anılmadığı gün yoxdur. Çünki Azərbaycanla Ümummilli liderin adı həmişə birgə çəkilir. Hələ sağlığında “mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub” - deyən Ulu Öndərin şərəfli adı və möhtəşəm dövlətçilik fəaliyyəti Azərbaycanın müasir tarixinin bütöv bir qərinəsi ilə sıx bağlıdır.

Adı daim qürur duyduğu Azərbaycanla birgə çəkilən nəhəng siyasətçi və dövlət xadimi Heydər Əliyev dünyanın nadir şəxsiyyətləri sırasında özünə şərəfli və əbədi yer tutur. O, müasir bəşər tarixində iki müxtəlif ictimai-siyasi quruluşda hakimiyyət zirvəsinə yüksəlməyə nail olmuş, ömrünün sonuna kimi siyasi mübarizədə yenilməz zəfər sərkərdəsi kimi tanınmışdır. Azərbaycanın imzasını imzalar içində tanıdan bu dahi şəxsiyyətin, uzaqgörən siyasi xadimin zamanında atdığı addımların mahiyyətini, nə qədər gərəkli olduğunu indi daha dərindən dərk edir, əhəmiyyətini və nəticələrini gündəlik həyatımızda görürük. Çünki Ulu Öndər bu ölkənin qurulmasının, yaradılmasının, sabitliyinin, firavanlığının müəllifidir, ən başlıcası Azərbaycanın bir ölkə kimi dünya xəritəsindən silinməsinin qarşısını alan xilaskardır!

Bu gün heç kəsə sirr deyil ki, XXI əsrin sonlarına yaxın dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı üzləşdiyi çətinlikləri, başına gətirilən bəlaları dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi altında aradan qaldırdı, müstəqil dövlət ideyasını uğurla gerçəkləşdirdi. Belə ki, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu Öndərin Azərbaycanda rəhbərliyə qayıdışından sonra ölkədə ən başlıcası vətəndaş müharibəsinə, xaos və anarxiya mühitinə son qoyuldu, siyasi sabitlik formalaşdı, qanunçuluğun və hüquqi qaydaların bərpası istiqamətində kompleks tədbirlər həyata keçirildi, hərtərəfli hüquqi, siyasi və iqtisadi islahatlara başlanıldı.

Bütün bunlara görədir ki, Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki, Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və elə bütün bunlaragörə Azərbaycan xalqının da xoşbəxtliyi ondadır ki, məhz 1993-cü ilin iyununda ölkə

rəhbərliyinə yenidən dünya şöhrətli siyasətçi, dünyəvi və hüquqi dövlət quruculuğu sahəsində zəngin biliyə, böyük dövlətçilik təcrübəsinə malik, hadisələri qabaqcadan görməyi və qətiyyətlə adekvat tədbirlər həyata keçirməyi bacaran bir şəxsiyyət gəldi. **[5 ]**

Ulu Öndər ilk gündən hüquqi dövlət quruculuğu istiqamətində ardıcıl, məqsədyönlü və konkret strategiyaya əsaslanan islahatları həyata keçirməyə başladı. Böyük şəxsiyyət olaraq ilk günlərdən cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görən Heydər Əliyev həyata keçirməyi nəzərdə tutduğu islahatlar strategiyasına uyğun olaraq, ilk növbədə, dövlətin təməlini möhkəm siyasi-hüquqi əsaslar üzərində qurulması üçün müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanaraq qəbulunu vacib bildi. 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyada əksini tapan mütərəqqi prinsiplər Azərbaycanda hüquqi islahatların aparılmasına hərtərəfli zəmin yaratdı.

Ulu Öndərin rəhbərliyi altında hazırlanaraq qəbul edilən yeni və müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı, bununla da hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda Heydər Əliyev ideyalarının təməl prinsiplərindən olan vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ hüquqi baza yaradıldı.

Elə bunlara görədir ki, Heydər Əliyev ideyaları bu gün də yaşayır və qalib gəlir. Çünki Ulu Öndər Azərbaycanda hamının eyni dərəcədə inandığı bir ideologiyanın müəllifidir. O, bütün vətəndaşların hüquqlarını qoruya bilən dövlətin əsasını qoydu və yalnız hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaratdı. **[7]** Bunun üçün ilk növbədə, ictimai-siyasi sabitliyin bərqərar edilməsinə nail olmaq lazım idi. Ümummilli liderimizin gərgin səyləri möhkəm sabitliyin yaradılmasına və Azərbaycanda normal siyasi münasibətlər sisteminin formalaşmasına gətirib çıxardı ki, bu da ümumilikdə dövlətin siyasi əsaslarının möhkəmləndirilməsinə səbəb oldu.

Heydər Əliyev öz ideyalarında yaşatdığı müstəqil Azərbaycan dövlətinin gələcəyini yaxşı bilirdi. Onu da yaxşı bilirdi ki, müstəqillik yolu bir çoxlarının düşündüyündən də uzun və əzablıdır. Ona görə də o, ilk növbədə, Azərbaycanı taleyin ümidinə buraxılmış dövlət düşüncəsindən uzaqlaşdırdı, müstəqilliyimizin əbədiliyinə xələl gətirəcək amilləri vaxtında aradan qaldırdı. Azərbaycanda milli dövlətçilik ənənələrinin bərpası və qorunub saxlanılması, müstəqilliyimizin möhkəmləndirilməsi, ölkədə demokratik prinsiplərə əsaslanan hüquqi islahatların aparılması, respublikamızın bazar iqtisadiyyatı ilə irəliləməsi, diplomatik uğurlar məhz bu böyük şəxsiyyətin misilsiz xidmətləri sayəsində əldə olundu. Ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycan iqtisadiyyatının dirçəlməsinə, yeni istehsalat sahələrinin formalaşmasına, özəl sektorun inkişafına güclü təkan verdi. **[9]** Ölkəmizdə icitmai-siyasi sabitliyin bərqərar olması və həyata keçirilən islahatlar xarici investorların respublikamızda fəaliyyət göstərmələrinə də əlverişli şərait yaratdı. Bununla da Azərbaycan dünya dövlətləri içərisində özünəməxsus layiqli yerini tutdu, iqtisadiyyatımızdakı böhran aradan qaldırıldı və iqtisadi inkişaf dövrü başlandı. Demokratiya, siyasi sabitlik və ən başlıcası tərəqqi müstəqil Azərbaycanı xarakterizə edən mühüm amilə çevrildi.

Heydər Əliyev üçün hakimiyyət on minlərcə şəhid qanı ilə suvarılmış Azərbaycan torpaqlarının bütövlüyünü, milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını təmin etmək, müharibədən və keçid dövrünün əzablarından əziyyət çəkən xalqın sosial vəziyyətini yaxşılaşdırmaq, müstəqil Azərbaycanı dünya birliyinin tamhüquqlu üzvü etmək üçün lazım idi. Bunu dərk edən xalq da Azərbaycan dövlətçiliyini və müstəqilliyini qorudu, daim rəhbərinə dəstək oldu.

Yeni siyasi kurs və inkişaf perspektivlərini müəyyən edən Ümummilli liderin həyata keçirdiyi təcili islahatlar nəticəsində hakimiyyət boşluğu aradan qaldırıldı. Respublikanın müxtəlif bölgələrində baş qaldırmış etnik separatçı qüvvələr qətiyyətlə zərərsizləşdirildi.

Vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Siyasi diplomatiya təcrübəsi ölkənin xarici siyasətinə tətbiq edildi, bu sahədə inamlı addımlar atıldı. Eyni zamanda, dünyaya səs salan yeni-yeni neft müqavilələri imzalandı, hüquqi-demokratik islahatlar dövlət siyasətinin ayrılmaz hissəsinə çevrildi. Bütövlükdə ölkə yeni inkişaf mərhələsinə keçdi.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edildi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yarandı, beynəlxalq normalara uyğun sivil və hüquqi dövlət quruculuğu başlandı. Milli ordunun formalaşması, nizami silahlı qüvvələrin yaradılması, torpaqların müdafiəsi ilə bağlı mühüm addımlar atıldı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ müharibəsində atəşkəsə nail olundu. Məhz onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazandı. Azərbaycan yalnız Heydər Əliyevin qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirə bildi. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi arxada qaldı, ölkəmiz dünyada özünə layiqli yer qazandı. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir". **[11 ]**

Artıq dünyanın bütün qurumlarında Heydər Əliyevin ucadan gələn səsi Azərbaycan həqiqətlərini dünyaya tanıtmağa başladı. Ölkəmiz beynəlxalq təskilatlar və dünya dövlətləri tərəfindən tanındı, beynəlxalq ictimai rəydə respublikamız haqqında müsbət fikir formalaşdırıldı, vətənimizdə hüquqi, demokratik dövlət quruculuğu geniş vüsət aldı. Müharibə şəraitində olan Azərbaycanın Silahlı Qüvvələrində həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hərbi hissələrin hərbi qaydaların tələblərinə uyğun idarə edilməsi Azərbaycan ordusunu keyfiyyətcə yeniləşdirdi.

Məhz Heydər Əliyevin apardığı müdrik xarici və daxili siyasət sayəsində dövlətimizin milli müstəqillik xətti dönmədən həyata keçirildi. Ümummilli liderin rəhbərliyi ilə respublikada görülən təxirəsalınmaz islahatlar nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alındı. Beləliklə, 1994-1995-ci illərdə bugünkü nailiyyətlərin əldə olunmasının təməli qoyuldu, dirçəliş dövrü başladı. İqtisadiyyatda aparılan islahatlar ölkənin maliyyə vəziyyətinin yaxşılaşması, dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artması təmin edildi.

Azərbaycanın xarici siyasətində nəzərəçarpacaq dəyişikliklər baş verdi. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi. Heydər Əliyevin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi xarici siyasət kursunun ən mühüm uğurlarından biri də 2001-ci ilin əvvəlində Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi, Avropa ailəsinə qoşulması oldu. Ölkəmiz beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən tanındı, beynəlxalq ictimai rəydə respublikamız haqqında müsbət fikir formalaşdırıldı, vətənimizdə hüquqi, demokratik dövlət quruculuğu geniş vüsət aldı.

Hər şeydən əvvəl Heydər Əliyev öz xalqını böyük məhəbbətlə sevən vətənpərvər bir şəxsiyyət idi. Ümummilli liderimizin vətənpərvərliyi dünya siyasətçilərinin də diqqətindən yayınmayıb. Fransanın sabiq prezidenti Jak Şirak xüsusi vurğulayaraq bu barədə deyib: "Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, vətənpərvərliyini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim".

Bu fikirlər bir daha təsdiq edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Vətəninə, xalqına çox bağlı vətənpərvər Ümummilli liderimizin xarici siyasətində əsas yer tuturdu. Ona görə də ən mötəbər tribunalardan Azərbaycan həqiqətlərini bütün dünyaya olduğu kimi çatdırırdı. Bu dahi şəxsiyyət hər zaman, hər yerdə birmənalı şəkildə bəyan edirdi ki, bu problem yalnız BMT-nin nizamnaməsi çərçivəsində, beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır. Məhz bu cür gərgin səylər nəticəsində dünya dövlətləri, nüfuzlu

beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini dəstəkləməyə, haqq işimizi müdafiə etməyə başladılar. Həqiqətən də Heydər Əliyev məkan və zamanından asılı olmayaraq etdiyi hər səfərdə, hər görüşdə, hər çıxışda Dağlıq Qarabağ müharibəsindən, münaqişə nəticəsində 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün taleyi yaşamasından danışır, var qüvvəsi ilə problemin həllinə çalışırdı.

Bu bir həqiqətdir ki, Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsilə əlaqədar ATƏT rəhbərliyi, Minsk qrupunun həmsədrləri, dünyanın müxtəlif ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri ilə keçirdiyi görüşlərdə, beynəlxalq və yerli qurumların tədbirlərində bu problemi daim ön plana çəkirdi. Məhz Ulu Öndərin diplomatiyası sayəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti dünya ictimaiyyətinə çatdırıldı. Münaqişənin siyasi həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması ilə bağlı beynəlxalq hüquq normalarına uyğun qərarlar - BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi qəbul edildi. Eyni zamanda, ATƏT-in 1994-cü ildə Budapeşt, 1996-cı ildə Lissabon, 1999-cu ildə İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində tədbirlər müəyyənləşdirildi, həmçinin, ABŞ konqresinin müstəqil Azərbaycana yardım göstərilməsini qadağan edən ədalətsiz 907-ci düzəlişinin icrası dayandırıldı. **[16 ]**

Ümummilli liderimizin bizə ərməğan qoyub getdiyi zəngin irs bu gün də, sabah da öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. Bu zəngin irs müstəqil Azərbaycan dövlətinin sütunudur. Məhz bu qüdrətli sütunlar üzərində ucalan müasir Azərbaycan güclü ola bilib. İctimai həyatımızda elə bir sahə tapmaq mümkün deyil ki, orada Heydər Əliyevin hərarəti duyulmasın. Ulu Öndərimizin hələ neçə il bundan əvvəl uzaqgörənliklə müəyyənləşdirdiyi, konseptual əsaslarını yaratdığı xarici və daxili siyasət kursu, milli neft strategiyası indiyədək əldə etdiyimiz bütün möhtəşəm nailiyyətlərin açarıdır desək, heç də səhv etmərik. Çünki bunların təməlində Ümummilli liderimiz, dünya səviyyəli siyasətçi, dövlət xadimi Heydər Əliyevin Azərbaycanın nəinki bugünkü, hətta bir neçə əsr bundan sonrakı inkişafını da təmin etməyə qadir olan siyasi kursu, milli konsepsiyaları dayanır. Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan Heydər Əliyev özünün zəngin siyasi fəaliyyəti sayəsində ölkəmizin hərtərəfli inkişafı prosesinə təkan verərək, onu daimi yüksəliş yoluna çıxarıb. Ulu Öndərimiz hakimiyyətdə olduğu bütün dövrlərdə - 1970-80-ci illərdə, həm də müstəqillik dövründə Azərbaycanın və xalqımızın hərtərəfli inkişafında çox mühüm rol oynayıb. Bu dahi şəxsiyyətin müəyyənləşdirdiyi müdrik siyasi kurs bu gün də, gələcəkdə də dəyişməz olaraq qalacaqdır. Çünki bu siyasət Azərbaycana daim uğur, xoşbəxtlik gətirir. Ulu Öndərimizin siyasəti yaşayır, möhkəmlənir və zənginləşir.

Dünyanın məşhur ictimai-siyasi xadimlərinin, dövlət adamlarının və mütəfəkkirlərinin Heydər Əliyev haqqında söylədikləri fikirlər xalqımızın bu dahi oğlunun şəxsiyyətinə, çoxşaxəli dövlətçilik fəaliyyətinə verilən yüksək qiymətin, göstərilən ehtiramın və heyranlığın ifadəsidir ki, bunlar da daim xalqımıza başucalığı gətirir. Çünki Heydər Əliyevin tariximizdə və taleyimizdə oynadığı rol illər ötdükcə daha dərindən dərk olunur və layiqincə qiymətləndirilir.

Bu gün iqtisadi artım sürətinə görə, Azərbaycan nəinki MDB məkanında, həmçinin, dünyada lider ölkə kimi tanınır ki, bu da Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi strategiyanın nəticəsidir. Respublikamızın artıq uğurla reallaşan inkişaf strategiyası sosial-iqtisadi problemlərin həlli imkanlarını qat-qat genişləndirmiş, dövlətimizin beynəlxalq aləmdə imicinin artmasını təmin etmişdir. Hazırda ən nüfuzlu ekspertlər və beynəlxalq təşkilatlar, aparıcı dövlətlərin liderləri ölkənin inkişafı ilə bağlı məsələlərin həlli istiqamətində Prezident İlham Əliyevin apardığı siyasəti yüksək qiymətləndirirlər. **[19 ]**

Ümumilikdə, hər addımında Ulu Öndər Heydər Əliyevin yüksək ideallarına sadiqlik nümayiş etdirən dövlət başçısı möhtərəm İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətin ali məqsədi Azərbaycanın hər bir vətəndaşı üçün layiqli və firavan həyat tərzinin təmin olunması, ölkədə azad və demokratik cəmiyyətin qurulmasıdır. Bütün bu proseslərdə

Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, öz taleyini İlham Əliyevə etibar etmiş Azərbaycan vətəndaşlarından gəlir. Bu gün Azərbaycan xalqı İlham Əliyevi ölkədə baş verən intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona tam güvənir. Bütün bunların nəticəsidir ki, 2018-ci ilin 11 aprelində keçirilən Prezident seçkilərində xalq öz iradəsinə sadiq qalaraq yenidən yüksək səs faizilə cənab İlham Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi.

Çünki xalq öz həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, Azərbaycanı parlaq sabahına doğru yaxınlaşdıran siyasi kursun əhəmiyyətini yaxşı dərk edir və bu siyasəti birmənalı şəkildə dəstəkləyir.

Bəli, bu gün müasir Azərbaycan cənab Prezidentin rəhbərliyi altında özünəməxsus inkişaf yolu ilə gedir. Bu inkişafın təməl daşları Ümummilli liderimiz tərəfindən qoyulub desək, heç də yanılmarıq. Heydər Əliyev məktəbinin yetirməsi, onun siyasi kursunun layiqli davamçısı cənab İlham Əliyevin həyata keçirdiyi çoxsaylı qlobal tədbirlər, Azərbaycanın və xalqımızın inkişafı naminə imzaladığı fərman və sərəncamlar, mütəmadi xalqla birbaşa ünsiyyətdə olması Ümummilli lider tərəfindən başlanmış işlərin məntiqi davamıdır. Hazırkı dövrdə Azərbaycanın yüksək templə hərtərəfli qüdrətlənməsindən danışarkən, xalqına və həyat yoldaşına olan sədaqəti, davranışı, elmi bilikləri, dərin düşüncəsi, peşəkar idarəçilik qabiliyyəti və digər bu kimi Azərbaycan xanımına xas müsbət cəhətləri özündə birləşdirərək bütün dünya qadınlarına örnək olan Mehriban xanım Əliyevanın dövlət və xalq qarşısında genişmiqyaslı fəaliyyəti haqqında danışmamaq mümkün deyil. Onun ölkənin Birinci vitse-prezidenti kimi mühüm dövlət postuna gəlişi hazırkı inkişafımızın sürəti və uğuruna, həmçinin, milli maraqlara hesablanmış bir qərar idi. Heç kəsə sirr deyil ki, xalqımızın qəlbində Mehriban xanıma dərin, misilsiz inam və etimad var.

Dövləti xalqa, xalqı dövlətə bağlayan da bu qarşılıqlı inam və etibardır. Memarı və qurucusu Heydər Əliyev olan müstəqil dövlətimiz bu gün Ulu Öndərimizin Azərbaycan xalqına ən böyük töhfəsidir. Hər bir Azərbaycan vətəndaşının borcu isə Heydər Əliyevin şah əsəri olan Azərbaycanı qoruyub yaşatmaq, onun ideyalarını uğurla həyata keçirməkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan respublikasının Prezidentinin çıxışları
2. Azərbaycan-2020 " Gələcəyə Baxış"İnkişaf Kosepsiyası,29 dekabr 2012
3. Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin inkişafı üzrə Milli Strategiya 10 aprel 2008-ci il
4. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası Bakı "Adiloğlu 2008
5. Hacızadə E.M. Sosiallaşma iqtisadiyyatı,Bakı:Elm,2006.

**Dissertant Namazova Aynur Məhəmməd qızı**
*Mingəçevir Dövlət Universitetinin müəllimi*
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*
*E-mail: a.m.namazova@mail.ru*

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFINA İNVESTİSİYALARIN ROLUNA DAİR

Milli iqtisadiyyatın inkişafında investisiyaların müstəsna rolu vardır. Belə ki, investisiya milli iqtisadiyyatın inkişafının mühüm maliyyə mənbəyidir. İnvestisiya milli iqtisadiyyatın demək olar ki, bütün sahələrinə, xüsusən də həm hasil, həm emal sahəsinə, eləcə də xidmət sferasına tətbiqi onun uzun, qısamüddətli xarakter daşımasına səbəb olur. Bu baxımdan da tətbiq olunan investisiya resursları əgər qiymətli kağızların alınmasına yönəldilirsə, o, maliyyə resursu formasını alır. Əgər sənayeyə, kənd təsərüfatına, tikintiyə, təhsilə və s. sahələrə kapital qoyuluşu kimi tətbiq edilirsə, o real investisiya formasını almış olur. Ona görə də milli iqtisadiyyata tətbiq olunan maliyyə investisiyalarını bir-birindən fərqləndirmək lazımdır. Maliyyə investisiyaları səhmlərə, iqtiqrazlara və başqa qiymətli kağızlara kapital qoyuluşudur. Real investisiyalar kapitalın hər hansı iqtisadi sahəyə və ya müəssisəyə qoyuluşudur ki, bunun nəticəsində də yeni kapitalın yaranmasına, yaxud da ki, mövcud kapitalın artmasına səbəb olur. Məsələn, binalar, avadanlıqlar, istehsal vasitələri, əmtəə materialları artımı baş verir.

Milli iqtisadiyyatın formalaşmasında və inkişafında daxili və xarici investisiyalar mühüm struktur yaradan funksiyalar yerinə yetirir. Milli iqtisadiyyatın istər sahə strukturunun, istərsə də texnoloji və təkrar istehsal strukturunun inkişafı onun hansı sahələrinə vəsait qoyuluşunun tətbiqindən asılıdır. Bəlli olduğu kimi xüsusi təyinatlı investisiyalar əsasən gəlir əldə etmək məqsədi daşıyır. Deməli milli iqtisadiyyatın hər hansı bir sahəsinin mənfəətlilik səviyyəsilə həmin sahənin və ya bölmənin investisiya üstünlüyünün səviyyəsini müəyyənləşdirir. Bu baxımdan sahənin və ya hər hansı iqtisadi bölmənin mənfəətlilik səviyyəsi tətbiq olunacaq investisiyaların üstünlüyünü müəyyən mühüm strukturyaradıcı meyarıdı. Ona görə də milli iqtisadiyyatın inkişafında tətbiq olunan investisiyaların təyinatından asılı olaraq, onlar müxtəlif mənfəətlilik səviyyəsinə malik olurlar. Belə ki, dövlət və qeyri-dövlət mənbələrindən tətbiq olunan investisiyalar hər şeydən əvvəl öz sürət dövriyyəsinə görə və mənfəətlilik səviyyəsinə görə fərqlənəcəkdir. Ona görə də investisiyaların qeyri-dövlət mənbələri hər şeydən əvvəl kapitalın sürətli dövriyyəsilə seçilən yüksək rentabelli sahələrdir. Məhz bu amil daxili və xarici investisiyaların həcminə təsir göstərir. İqtisadiyyatın aşağı rentabelli sahələrinə bir qayda olaraq investisiyalar xüsusən də xarici investisiyaların tətbiq olunması həyata keçirilmir. Lakin buna baxmayaraq, investisiyaların tətbiqi və onların həddi milli mənafelərin reallaşması ilə uzlaşmamalıdır. Belə ki, həddindən artıq investisiyaların qoyuluşu inflyasiya prosesinin güclənməsinə və iqtisadiyyatın həddindən artıq gərginliyə düçar olmasına səbəb olur. Digər tərəfdən isə lazım olduğundan az investisiya qoyuluşu isə deflyasiyaya gətirib çıxarır. Bunu nəzərə alaraq, milli iqtisadiyatın inkişafı və formalaşması ilə əlaqədar həyata keçirilən iqtisadi siyasət tətbiq olunacaq investisiyaların həm xarici, həm də daxili mənbələr hesabına optimal həcmini müəyyənləşdirməlidir. Belə şəraitdə dövlət tərəfindən tətbiq olunan vergi dərəcələri, dövlət məsrəfləri, pul-kredit və büdcə-vergi sahəsində həyata keçirilən tədbirlərin səmərəli strategiyası ilə milli iqtisadiyatın miqyası tənzimlənməlidir.

İnvestisiya resurslarının formalaşması və istifadəsi prosesi milli iqtisadiyyatın mərhələlər üzrə inkişaf prosesini əhatə etməlidir. Milli iqtisadiyyatın inkişafı prosesində investisiyalar mərkəzi rol oynayır və iqtisadi artım sürəti haqqında əvvəlcədən informasiya verir. Milli iqtisadiyyatın investisiya prosesi vasitəsilə inkişaf etdirilməsi milli gəlirin yüksəldilməsinə səbəb olur, bir sıra əmtəə və xidmətlər üzrə olan tələbatı ödəməklə rəqabətqabiliyyətli məhsulların istehsalına səbəb olur. Belə şəraitdə milli gəlirin həm yığım,

həmdə istehlak fondlarına yönəldilən vəsaitlərin həcmi artır. Bu prosesin fasiləsizliyinin təmin olunması yığım və istehlak fondlarına yönəldilən vəsaitlərdən səmərəli istehlak olunmasını tələb edir. Milli gəlirin artımı hesabına yaranmış investisiyalar bir qayda olaraq daxili investisiyaların maliyyə mənbəyini təşkil edir. Milli gəlir hesabına yaranmış investisiyalar həm yığım, həm də gəlir formasını alaraq istehsal olunması nəticəsində bir tərəfdən öz artımlarına, digər tərəfdən isə geniş təkrar istehsalı şərtləndirmək ilə milli iqtisadiyyatın miqyasının artmasına səbəb olur. Bu zaman, investisiyalar nə qədər səmərəli tətbiq olunursa milli gəlirin artım sürəti bir o qədər yüksək olar, nəticədə isə istehlaka yönəldilən yığımın həm mütləq, həm də nisbi həcmi yüksələr. Göstərməliyik ki, investisiyaların kifayət qədər yüksək səmərəliliyinə nail olunması milli iqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsulların artırılmasını təmin etmiş olur . [2]

1995-ci ildə yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin imzaladığı № 952 «İnvestisiya fəaliyyəti haqqında» Qanunda investisiyalar sahibkarlıq obyektlərinə və digər fəaliyyət növlərinə gəlir əldə edilməsi, müsbət sosial effektlərə nail olunması üçün sərf edilən mülkiyyət, mülkiyyət hüququ, intellektual dəyərlər kimi təsbit olunmuşdur. Qanunda göstərilir ki, qanun investisiyanın Azərbaycan Respublikası iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəlmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Qeyd olunan qanuna tam uyğun olaraq “xarici investisiyalar” anlayışının məzmunu Azərbaycan Respublikasının "Xarici investisiyanın qorunması haqqında” 15 yanvar 1992-ci il № 57 Qanunda öz əksini tapmışdır. Bu qanun bu gün xarici investorların fəaliyyətini tənzimləyən mühüm qanunvericilik aktıdır. Bu qanunun qəbul edilməsinin əsas nəticəsi xarici investisiyalı müəssisələrə milli rejimin verilməsi olmuşdur ki, bu zaman bu cür müəssisələr ölkə ərazisində bərabər hüquqlardan istifadə edərək, Azərbaycan müəssisələri ilə bərabər hüquqa malikdirlər. [1]

İqtisadiyyatın inkişaf etdirilməsi və sabitləşdirməsinə mühüm istiqamət – xarici investisiyaların cəlb edilməsidir. Azərbaycan Respublikası digər MDB ölkələrinə nisbətən əlverişli resurs və başqa imkanlara malikdir.

1994-cü ildən başlayaraq qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan “açıq qapı” siyasətinin həyata keçirilməsi, xarici investisiyaların qorunmasına təminat verilməsi və sahibkarlıq fəaliyyəti üçün əlverişlı mühitin yaradılması nəticəsində Azərbaycanın milli iqtisadiyyatına qoyulan xarici investisiyaların həcmi ildən-ilə sürətlə artmaqdadır.

Belə ki, tarixə nəzər salsaq görərik ki, bu gün müstəqil Azərbaycan iqtisadiyyatının inkişafı dahi şəxsiyyət, dünya şöhrətli siyasətçi, Ulu Öndər Heydər Əliyevlə bağlıdır.

Ulu Öndər Heydər Əliyev dünya səviyyəli dövlət xadimi və tarixi baxımdan milli lider olub. Ulu Öndərin həyat hekayəsinə nəzər saldıqda, 1969-1982-ci illərdə sovet dövründə Azərbaycanda, 1982-1987-ci illərdə SSRİ rəhbərliyində çalışdığı zaman, eləcə də 1988-1993-cü illərdə Azərbaycana rəhbərlikdən kənar olduğu dövrlərdə, müstəqil Azərbaycana dövlət başçısı kimi xidmət göstərdiyi dövrlərdə əvəzsiz, dahi şəxsiyyətin Azərbaycan xalqının xoş günündə, çətin anlarında yanında olduğunun şahidi oluruq. Dahi şəxsiyyət hər zaman xalqın dəstək və etimadına arxalanıb. Bu Heydər Əliyev siyasətinin başlıca amalı idi. Azərbaycan xalqı heç zaman özünü Heydər Əliyevdən kənar bilməyib, dahi şəxsiyyətə inanıb, ümid bəsləyib.

Bu inam və ümidə arxalanan Azərbaycan xalqı 1993-cü ildə vətəndaş müharibəsi təhlükəsi yarandığı zaman xalq Heydər Əliyevə üz tutdu, onun uzaqgörənliyinə, müdrikliyinə arxalandı. Xalqın etimadı Ulu Öndərin dövlətçilik fəaliyyətinə güc, qüvvət verdi. Heydər Əliyevin amalı bütün varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətçiliyinə, ölkənin iqtisadi-siyasi, mənəvi inkişafına xidmətdə olub. Bu yolda bütün gücü, qüvvəni, iradəni yalnız xalqdan alıb. Daim xalqa arxalanıb. Dahi şəxsiyyət Heydər Əliyevin göstərdiyi əzm, qətiyyəti bu ifadədəki həqiqəti dəfələrlə təsdiqləyib. [5]

Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlişi Azərbaycan ölkəsi üçün yaxşıya doğru dönüş nöqtəsi oldu. Belə ki, Ulu Öndərin hakimiyyətə qayıdışı ilə dövlət müstəqilliyi möhkəmləndirildi, ölkənin iqtisadi-sosial, ictimai, siyasi, elmi, mədəni həyatında, beynəlxalq əlaqələrdə elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.Azərbaycanı böhran vəziyyətindən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin iqtisadi inkişafı üçün də tədbirlər görməyə başladı. Elə ilk günlərdə Heydər Əliyev ARDNŞ-in birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevi danışıqlar prosesinə cəlb etdi, yeni neft strategiyasının hazırlanmasının və həyata keçirilməsinin ən fəal iştirakçılarına çevrildi. O, özünün bütün fəaliyyətində "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyil. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir" fikri dururdu. İştirakçısı olduğu bütün saysız-hesabsız görüş və danışıqlarını məhz bu prinsip altında keçirirdi. Belə ki, 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycana aid hissəsində "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə istismarı ilə bağlı neft hasilatı üzrə tanınmış yüksək nüfuza malik dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkəti (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Türkiyə Petrolları, Pennzoil, Ramco, Delta) arasında dəyəri 7,4 mlrd. dollar olan "məhsulun pay bölgüsü" tipli beynəlxalq müqavilə Əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını yaradan yeni neft strategiyası həyata keçirilməyə başladı. Bu müqavilə Azərbaycanın dünyadakı nüfuzunu gücləndirdi. "Əsrin müqaviləsi" 12 dekabr 1994-cü il tarixində qüvvəyə mindi. İlk dəfə hesablanmış çıxarılabilən neft ehtiyatı 511 milyon ton olmuş, sonralar qiymətləndirici quyuların nəticələrinə görə bu ehtiyat 730 milyon tona çatmış və bununla əlaqədar yataqların işlənilməsinə dair tələb olunan investisiya xərcləri 11,5 milyard ABŞ dolları qəbul edilmiş, ümumi təmiz gəlirdən 80% Azərbaycanın payına, 20% isə investorların payına düşürdü.

Bu müqavilə sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 26 sazişin imzalanmasına yol açdı. İmzalanmış neft sazişləri üzrə Azərbaycanın neft sənayesinin inkişafı üçün nəzərdə tutulan 64 milyard ABŞ dolları sərmayənin 57,6 milyardı dəniz yataqlarının mənimsənilməsinə və perspektivli strukturlarda axtarış-kəşfiyyat işlərinin aparılmasına yönəldilmişdir. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycan Respublikasının müstəqil dövlət olaraq öz sərvətlərinə tam sahib olduğunu dünyaya bir daha sübut etdi. Bununla da Azərbaycan öz qapılarını xarici investorların üzünə taybatay açdı. Müqavilənin imzalanması xarici investorların Azərbaycan iqtisadiyyatının digər sahələrinə də sərmayə yatırılmasında həlledici rol oldu. Beləliklə, Azərbaycan iqtisadiyyatının inkişafında ilk addımlar atılmağa başladı. [3]

Neftdən əldə edilən vəsaitlər Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fondunda toplanaraq ölkənin taleyüklü məsələlərinin həllinə və sosialyönümlü problemlərin həllinə istiqamətlənirdi.

İqtisadiyyatın inkişaf etdirilməsi və sabitləşdirməsinə mühüm istiqamət – xarici investisiyaların cəlb edilməsidir.

1997-1999-cu illərdə iqtisadiyyatın dövlət sektoruna ümumi həcmi 2126,9 milyon ABŞ dolları olan 34 müxtəlif layihədən ibarət təcili sərmayələşdirmə proqramı qəbul edildi. Qeyd olunan proqramda investisiyaların ümumi həcminin 27%-ni təşkil edən neft-qaz sektoruna xüsusi yer verilmişdir. Təbii ki, bu da iqtisadiyyatın digər sahələrinin inkişafına müsbət təsir edir. İstər hasilat, istərsə də ixracatda yeni qlobal layihələrin həyata keçirilməsini aktuallaşdırır. 1998-cu ildən başlayaraq Azərbaycan Respublikası müstəqil dövlət kimi neft hasilatından gəlir əldə etməyə başlayır.

1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalandı. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən

böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

İlk dövrlərdə xarici sərmayələr Azərbaycanın neft sektoruna istiqamətlənirdisə, sonradan iqtisadiyyatın digər sahələrinə istiqamətlənməyə başladı. Xarici kapitalın ölkəmizə axını, Azərbaycanın zəngin təbii, xammal ehtiyatlarının olması ilə bərabər ucuz işçi qüvvəsinin, ixtisaslı, elmi-texniki kadr potensialının olması, Azərbaycanın tutduğu coğrafi baxımdan əlverişli mühitin, nəqliyyat əlaqələrinin, eyni zamanda, məhsullarını dünya bazarına ixrac etməsi üçün əlverişli şəraitin olması ilə bağlıdır.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf konsepsiyasının əsasını neftdən əldə olunan gəlirləri qeyri-neft sektorunun inkişafına yönəltmək və bu sahənin tərəqqisinə nail olmaq idi. Uğurla həyata keçirilən iqtisadi islahatların sayəsində 1996-cı ildə respublika iqtisadiyyatında sabitliyə nail olundu, 1997-ci ildən sosial-iqtisadi inkişafda müsbət meyillər özünü göstərməyə başladı. Xalqın marağına uyğun aparılan özəlləşdirmə prosesi, sərbəst bazar rəqabət prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olması, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasında özünün müsbət nəticələrini verdi. Özəlləşdirmə prosesinin həyata keçirilməsinin məqsədi hər bir vətəndaşın iqtisadi islahatlarda şəxsi marağının təmin olunmasında, əhalinin həyat səviyyəsini yaxşılaşdırılmasında, sağlam rəqabətə əsaslanan istehsal üçün şəraitin yaradılması idi. İqtisadiyyatın bütün sahələrində tətbiq olunan özəlləşdirmə prosesi müstəqil ölkəmizin xarici iqtisadi əlaqələrinin qurulmasına zəmin yaratmışdır.

Ölkəmizdə həyata keçirilən struktur islahatlar iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafına, müasir texnologiyaların, yerli və xarici investorların, idarəetmə təcrübəsini cəlb etməklə infrastrukturun yenilənməsinə, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılmasına, yeni iş yerlərinin açılmasına şərait yaratmışdır.

1997-2002-ci illərdə ölkəmizdə sahibkarlığın inkişafı üçün maliyyə təminatı yaradılmış, süni maneələrin aradan qaldırılması üçün qanunvericilik bazası formalaşdırılmışdır. İnvestisiyaların təşviqi üçün respublikada daha münbit sərait yaratmaq, daxili və xarici investorları stimullaşdıran səmərəli metodlardan istifadə etmək, xarici kapital qoyuluşunun regionların, qeyri-neft sektorunun inkişafına yönəltmək, eyni zamanda, işgüzar fəallığı gücləndirmək üçün kompleks tədbirlər həyata keçirilmişdir.

1997-ci ildə qəbul olunmuş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı” ölkədə sahibkarlığın inkişafında yeni mərhələnin başlanğıc nöqtəsi olmuş və bu istiqamətdə dövlət siyasətinin başlıca prinsiplərini müəyyən etmişdir. Növbəti mərhələdə kiçik və orta sahibkarlıq subyektlərinin normal fəaliyyəti üçün “Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanununa bir sıra dəyişiklik və əlavələr edilmiş, eyni zamanda, “Haqsız rəqabət haqqında”, “İnvestisiyaların qorunması haqqında”, “İstehlak bazarı haqqında” və digər əhəmiyyətli qanunlar qəbul edilmişdir. Bu qanunlar yerli və xarici sahibkarların təhlükəsiz şəraitdə biznes fəaliyyətinə dövlət tərəfindən verilən hüquqi təminatı daha da gücləndirmiş, investisiyaların qarşılıqlı təşviqinə və qorunmasına əsaslı zəmin formalaşdırmışdı.

Əsası Ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası onun layiqli davamçısı — Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, dövlətimiz bütün sahələrdə uğurlu inkişaf yolunda addımlayır. Dövlət başçımız Azərbaycanın yeni dövr üçün iqtisadi siyasət prioritetlərini açıqlamış, bütün sahələrdə islahatlar həyata keçirməklə, cəmiyyətdə böyük nüfuza sahib olmuşdur. Cənab Prezident İlham Əliyevin birinci prezidentlik müddətində imzaladığı məqsədyönlü fərman və sərəncamlar, qəbul etdiyi qərarlar ölkəmizdə iqtisadi-sosial yüksəlişə zəmin yaratmışdır. Eyni zamanda, dövlət başçımız tərəfindən yeni dövrün tələbi kimi qarşıda duran vəzifələr də müəyyənləşdirilmiş, inkişaf mexanizminin çevikliyinə, işləkliyinə nail olunmuşdur.

2020-ci ilin əvvəlinədək “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun işlənməsinə 36 milyard dollardan çox investisiya yatırılıb. Bu blok üzrə 500 milyon ton neft hasil edilib, 40 milyard kubmetrdən artıq səmt qazı hasil edilərək Azərbaycan hökumətinə verilib.

Heydər Əliyevin 1999-cu il dekabrın 29-da imzaladığı Fərman ilə karbohidrogen gəlirlərinin səmərəli idarə edilməsi, ədalətli bölgünün təmin olunması və həmin vəsaitlərin prioritet sahələrin inkişafına yönəltmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradılıb və Dövlət Neft Fondu vəsaitlərin səmərəli və şəffaf idarə olunması sayəsində hazırkı və gələcək nəsillər üçün uzunmüddətli maliyyə gəlirliliyini təmin edir.

2017-ci il sentyabrın 14-də Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri” , “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında yeni Saziş imzalanıb.

2018-ci il oktyabrın 18-də Türkiyənin İzmir şəhərində Azərbaycan və Türkiyənin dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın başçılığı ilə “Star” neft emalı zavodunun açılışı olub.

Azərbaycan təkcə təchizatçı ölkə kimi deyil, həm də tranzit ölkəyə çevrilib. Xəzərin şərq sahillərində yerləşən ölkələr beynəlxalq bazarlara öz ehtiyatlarını Azərbaycan ərazisindən nəql edirlər. Rusiya şirkətləri bu ölkənin Xəzər dənizi sektorundan çıxarılan nefti Bakı-Tbilisi-Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəql etməyə üstünlük verir. Xəzərdəki ən böyük donanma da Azərbaycana məxsusdur.

2020-ci ildə “Qarabağ” yatağı isə müstəqilliyimiz dövründə kəşf edilmiş ilk neft yatağı olaraq tarixə düşüb.

Bakı şəhərində 1998-ci il Sentyabrın 7-8-də Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısı, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Konfransın yekununda Avropa İttifaqının TRASEKA proqramı əsasında “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş” imzalanıb və Bakı Bəyannaməsi qəbul olunub.

2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etməklə, qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Ümumi uzunluğu təxminən 850 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin 504 kilometrlik hissəsi Azərbaycanın ərazisinə düşür. Dəmir yolu xəttinin 263 kilometri Gürcüstan, 79 kilometri isə Türkiyə ərazisindən keçir.

Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, həmçinin, Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır, onların ticarət əlaqələrinin, iqtisadiyyatlarının inkişafında, inteqrasiyasında mühüm əhəmiyyət daşıyır.

Bakı-Tbilisi-Qars layihəsinin əsas üstünlüklərindən biri də odur ki, Azərbaycan Gürcüstan ərazisindən keçməklə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsinə sahib olur, bu isə iki dövlət arasında münasibətləri daha da möhkəmləndirməyə xidmət edir. Digər məsələ bu layihənin Naxçıvan Muxtar Respublikasına qədər uzanmasıdır. Gələcəkdə Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur ki, bu da muxtar respublikanın Ermənistanın blokadasından çıxarılmasına və onun nəqliyyat müstəqilliyinin təmin edilməsinə səbəb olacaq.

“Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi”nə uyğun olaraq, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılmasında fəal rol oynayır. Bununla ölkə hər iki transkontinental dəhlizin kəsişməsində, Avrasiya coğrafiyasının mərkəzində mühüm nəqliyyat-logistika qovşağına çevrilir.

Şimal-Cənub nəqliyyat dəhlizi Hindistan, Pakistan, İran, Azərbaycan, Rusiya və Şimali Avropa ölkələrini birləşdirəcək. [4]

*Xülasə*

İnvestisiya milli iqtisadiyyatın inkişafının mühüm maliyyə mənbəyidir. İnvestisiya milli iqtisadiyyatın demək olar ki, bütün sahələrinə, xüsusən də həm hasil, həm emal sahəsinə, eləcə də xidmət sferasına tətbiqi onun uzun, qısamüddətli xarakter daşımasına səbəb olur. İnvestisiya resurslarının formalaşması və istifadəsi prosesi milli iqtisadiyyatın mərhələlər üzrə inkişaf prosesini əhatə etməlidir. İqtisadiyyatın inkişaf etdirilməsinin və sabitləşdirilməsinin mühüm istiqaməti – xarici investisiyaların cəlb edilməsidir.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan ölkəsi üçün yaxşıya doğru dönüş nöqtəsi oldu. 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin həyata keçirilməsi Azərbaycan iqtisadiyyatında əsaslı dönüş yaratdı və daha iri layihələrin reallaşdırılmasına geniş imkanlar açdı. Neftdən əldə edilən vəsaitlər Azərbaycan Respublikası Dövlət Neft Fondunda toplanaraq ölkənin taleyüklü məsələlərinin həllinə və sosial problemlərin aradan qaldırılmasına yönəldildi.

Hazırda Azərbaycanın iqtisadi, sosial, elmi, mədəni inkişafının həyata keçirilməsində Heydər Əliyev kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir.

*Açar sözlər:*

Milli iqtisadiyyat, investisiya, xarici investisiya, "Əsrin müqaviləsi", gəlir

*Ədəbiyyat*

6. Azərbaycan Respublikasının "İnvestisiyalar fəaliyyəti haqqında" qanunu, Bakı şəhəri 13 yanvar 1995 ci il.
7. Atakişiyev M.C. Nurəliyeva R.N. Abbasova N.H. İnvestisiya fəaliyyətinin təşkili. Dərslik Bakı 2012
8. https://azerbaijan.az/related-information/132
9. https://president.az/
10. http://anl.az/down/meqale/xalqqazeti

**Əbdülhüseyn Zamanov**
*Naxçıvan Dövlət Universiteti*
*051310078ebdul@gmail.com*

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN YÜKSƏK VƏTƏNPƏRVƏRLİK VƏ İDARƏÇİLİK MODELİ: SABİTLİK, İNKİŞAF VƏ RİFAH

**Xülasə*:*** *Ölkəmizin xüsusilə ağır iqtisadi vəziyyətə düşmüş bölgəsi olan Naxçıvan MR-də, 1991-ci ilin sentyabrında Naxçıvan MR rəhbəri seçilən Heydər Əliyev bölgəni bu ağır vəziyyətdən qurtarmaq üçün zəruri tədbirlərin həyata keçirilməsi aydınlaşdırılır.*

*Naxçıvanda iqtisadi inkişaf modelinin qətiyyətli və ardıcıl addımlarını onun əsas istiqamətləri olaraq siyasi sabitlik, iqtisadi potensialdan səmərəli istifadə yollarının tapılması, xarici ticarət və əməkdaşlıq əlaqələrinin gücləndirilməsi məsələləri ön plana çıxarılır.*

**Açar sözlər:** *Azərbaycan Respublikası, Naxçıvan MR, ictimai-siyasi vəziyyət, Heydər Əliyevin inkişaf strategiyası, Naxçıvanın iqtisadi inkişaf modeli.*

XX-ci əsrin sonunda Azərbaycan Respublikası ikinci dəfə öz tarixi müstəqilliyini elan etdi.Bu dövrdə Azərbaycan xalqı çox çətin bir şəraitdə yaşayırdı, iqtisadi xaos və tənəzzül, siyasi hərc-mərclik baş alıb gedirdi, digər tərəfdən isə erməni işğalçılarının aramsız hücumları davam edirdi. Yeni müstəqillik qazanmış ölkə üçün müharibə gözlənilməz idi. Ermənistanın təcavüzünə məruz qalan xalqımız, eyni zamanda, təcrübəsiz dövlət rəhbərləri tərəfindən idarə olunduğundan ciddi problemlərlə üzləşmişdi. Həmin dövrdə ölkəmiz təkcə dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, eyni zamanda, daxildən də parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Yeni şəraitdə istehsal təsərrüfat əlaqələrinin dağılması, dövlət öz tənzimləmə funksiyalarını lazımi şəkildə yerinə yetirə bilməməsi, torpaqlarımızın daim düşmən işğalına məruz qalması ölkəmizi çox çətin vəziyyətə salmışdı.

Bu dövrdə Naxçıvanda müstəqillik uğrunda mübarizə əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Erməni təcavüzü nəticəsində blokada vəziyyətində yaşayan Naxçıvan bu səbəbdən Azərbaycanın digər ərazilərindən tədric olunmuşdur. Belə gərgin dövrdə ölkənin dərin siyasi-iqtisadi böhrandan çıxarılması, zamanın nəbzini tutan uzaqgörən siyasətçi sayəsində mümkün ola bilərdi. 1990-cı ilin iyul günlərində tanrının lütfü sayəsində Ümummilli lider Heydər Əliyev Naxçıvana qayıtdı. Doğma vətənində o, şəxsi nüfuzundan bütün imkanlarından dolğun istifadə etməklə, mövcud iqtisadi, sosial, siyasi resurslardan tam səmərəli istifadə etməklə Azərbaycan xalqının mustəqilliyinin əbədi qorunub saxlanması və möhkəmlənməsi üçün yorulmadan çalışırdı.

Həmin dövrdə xüsusilə ağır iqtisadi vəziyyətə düşmüş Naxçıvan MR-da həllini gözləyən çoxsaylı problemlər yığışıb qalmışdır. 1991-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri seçilən Heydər Əliyevin zəngin təcrübəsi praqmatik idarəetmə qabiliyyəti sayəsində bölgəni bu ağır vəziyyətdən qurtarmaq mümkün oldu. Ümummilli liderin müdrik və uzaqgörən siyasəti ilə həyata keçirilən tədbirlərinin əsas istiqamətlərini sabitlik, daxili və xarici strategiya kursu bölgəni bürümüş dərin böhran və sarsıntılardan qurtarmaq kimi məsələlərin həlli təşkil edir.

Heydər Əliyevin Naxçıvan dövlət orqanında yüksək vəzifəyə seçilməsi bölgədə ictimai-siyasi həyatı canlandırdı, xalqın gələcəyə inamını daha da möhkəmləndirdi. Başlanğıc mərhələdə inzibati amirlik sisteminin mənfi təsirlərindən hələdə yaxa qurtarmayan cəmiyyətdə birdən-birə islahatlar aparmaq mümkün deyidi. Xalqın vəziyyətini hamıdan yaxşı bildiyindən tədricən demokratik islahatlarin aparılmasına start verdi. Dövlətçiliyin bərpası istiqamətində Naxçıvanda iqtisadi inkişaf modelinin qətiyyətli və ardıcıl addımları atılmağa başlandı. Belə ki:

- Azərbaycan Respublikası prezidenti seçkilərinin muxtar respublika ərazisində dayandırılması haqda qərar qəbul olundu (4 sentyabr 1990-cı il) [3].

- «Muxtar respublikanı yaranmış vəziyyətdən xilas etmək və təcavüzkar qonşu ərazisindən edilən silahlı basqınlardan qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək, Naxçıvan Muxtar Respublikasının suverenliyini və ərazi bütövlüyünü təmin etmək» məqsədi ilə qərar qəbul olundu (7 sentyabr1991-ci ildə ) [4].
- Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan milli dövlətçiliyinin dirçəlişi istiqamətində tarixi qərarlar qəbul edildi. Sessiya Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək «Naxçıvan Muxtar Respublikası», Naxçıvan MR Ali Sovetinin isə «Ali Məclis» adlandırması haqqında qərar qəbul etdi (1990-cı il noyabrın17-də ) [5].
- Muxtar respublika ərazisində yerləşən Sovet Ordusu hissələrinin və sərhəd dəstələrinin qansız-qadasız çıxarılması, bu zaman onlara məxsus silah-sursatın, texnikanın, əmlakın tamamilə Azərbaycanın ixtiyarına verilməsi;
- 1992-ci il mayın 25-də Ali Məclisin Rəyasət Heyəti Naxçıvanın İnkişafı və Müdafiəsi Fondunun yaradılması haqqında qərar qəbul etdi (25 may1992-ci il ).
- Naxçıvan MR Ali Məclisi AXC-nin üçrəngli bayrağını muxtar respublikanın dövlət bayrağı kimi qəbul edilməsi
- 31dekabrı «Dünya azərbaycanlılarının həmrəyliyi» günü olaraq qəbul etməklə milli bayram kimi təqvimə salınmasını qərara almışdı [6].
- «Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında» islahat aparılmasına qərar qəbul olundu (6 aprel1992-ci il ) [3].
- «Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında» qərar qəbul olundu [3].

1992-ci ilin oktyabr ayında Araz çayı üzərində Naxçıvanla Türkiyə Respublikasını birləşdirən Sədərək-Dilucu körpüsünün, Naxçıvanla İranı birləşdirən Qızılvəng körpüsünün istifadəyə verilməsi, İrandan və Türkiyədən Naxçıvana yeni elektrik verilişi xətləri çəkilərək elektrik enerjisinin idxalına başlanılması, burda Türkiyə və İran ilə birgə müəssisələrin yaradılması, İran ərazisindən Azərbaycanla gediş gəliş üçün Arazboyu avtomobil yolunun inşası, blokada ilə əlaqədar muxtar respublikada yığılıb qalmış bir sıra məhsulların Türkiyəyə satılması üzrə müqavilələr bağlanmışdır. Həmçinin, müxtəlif sahələrdə tələbatı ödəmək məqsədiilə Türkiyə hökuməti Naxçıvana 100 mln. dollar məbləğində kredit ayırmağı öhdəsinə götürmüşdür ki, məhz yuxarıda göstərilənlər Ümummilli lider Heydər Əliyevin şəxsi nüfuzu sayəsində əldə edilmiş böyük uğurlar idi.

Muxtar respublikada sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün Heydər Əliyev birinci növbədə idarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində atdığı addımlar və əldə edilən iqtisadi uğurlar öz bəhrəsini verməyə başladı. Muxtar respublikanın nazirliklərinə, komitələrə, idarələrə bilikli, bacarıqlı kadrları rəhbər vəzifələrə irəli çəkdi. Muxtar respublikada müstəqilliyimizin ilk illərində bazar iqtisadiyyatı prinsipləri əsasında istehsal sahələrinin mümkün potensialından tam mənada istifadə edilməsi, onun dəyərli məsləhətləri, siyasi uzaqgörənliyi və mahir təşkilatçılığı ilə aqrar islahatlar uğurla həyata keçirilmiş, bazar iqtisadiyyatının formalaşması mexanizmlərinin tətbiqi məqsədilə möhkəm hüquqi baza yaradılmışdır.

Ulu Öndərin təşəbbüsü ilə ölkəmizdə ilk dəfə olaraq, Naxçıvan MR-da bazar iqtisadiyyatının mühüm şərti olan şəxsi mülkiyyətin zəruri addımları atılmışdı.1992-ci ildə Culfa rayonunun ictimai təsərrüfatlarında islahatlar aparılmış, özəl təsərrüfatlar yaradılmışdır.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində YAP-ın təsis konfransı keçirildi Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi.

Dövlət suverenliyini bərpa edən ölkəmizin qarşısında sosial, iqtisadi, hüquqi , bütün sahələrdə islahatların aparılmasını zəruri bir şərt kimi ortaya qoymuşdu. Demokratik dövlət quruculuğu, bazar iqtisadiyyatı sisteminin prinsipləri istiqamətində ardıcıl kompleks islahatları həyata keçirməklə, milli iqtisadiyyatın qurulması, yeni təsərrüfat mexanizmlərinin yaradılması obyektiv zərurətə çevrilmişdir.

Müstəqilliyini yenicə qazanmış milli dövlətimizin, zəngin təbii və iqtisadi sərvətlərə malik olması ölkəmizi həm daxili, həm də xarici qüvvələr tərəfindən parçalanmaq təhlükəsi ilə qarşı-qarşıya qoymuşdu. Məhz belə bir dövrdə 1993-çü ildə xalqımızın böyük oğlu Heydər Əliyev ölkə rəhbərliyinə dəvət edildi.

Respublika Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi: "Belə bir çətin anda, çətin dövrdə xalqımızın müdrikliyi bir daha özünü göstərdi. Xalqın təkidi və tələbi iləmummilli liderimiz Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və ondan sonra ölkəmizin inkişaf dövrü başlandı. Bütün xoşagəlməz meyillərə son qoyuldu, sabitlik, ictimai asayiş bərqərar olundu, qeyri-qanuni silahlı dəstələr tərksilah edildi. Bir sözlə, Azərbaycan inkişaf yoluna qədəm qoydu“ [1].

1994-cü ilin sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması və icrasına başlanması Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Respublikamız bununla da yaxın illərdə neftdən əldə olunacaq gəlirlərin hesabına milli iqtisadiyyatımızın dünya təsərrüfatı sisteminə səmərəli inteqrasiyası həyata keçiriləcəkdir. Respublikanın həyata keçirdiyi siyasət və dövlət proqramları öz müsbət nəticələrini göstərməkdədir. Aparılan iqtisadi islahatların və liberal bazar münasibətlərinin genişlənməsi, sürətlənməsi və təkmilləşməsi istiqamətində hüquqi baza yaradıldı. 1993-97-ci illər ərzində bu istiqamətdə 52-dən çox qərar qəbul edilmişdir [2].

1995-ci ilin oktyabrın 18-də referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu. Konstitusiyanın ana xəttini xalqın və onun dövlətinin ümumi mənafeyi, xalqın iradəsi və dövlətin suverenlik hüququ, dövlətçiliyin mütləq üstünlüyü və əhalinin hüquqi təminatı təşkil edir. Konstitusiya xüsusi mülkiyyətin inkişafı, sahibkarlıq və xarici investisiyalar üçün tam təminat verir. 1995-ci ildən başlayaraq iqtisadiyyatın artım tempi hər il əhəmiyyətli dərəcədə yüksəlməyə başladı. Azərbaycanda bu dövr ərzində görülən işləri saymaqla qurtarmaz əlbəttə ki, bunun arxasında uzun illərdir ölkədə olan siyasi sabitlik, əmin-amanlıq dayanır. Aparılan daxili və xarici siyasət xalq tərəfindən dəstəklənir. Azərbaycanda ötən dövr ərzində iqtisadiyyatın bütün sahələrində yüksək nəticələr əldə edilmişdir.

Azərbaycanda iqtisadi inkişaf və islahatlar ardıcıl şəkildə davam etdirilir.Belə ki, son 16 il ərzində (2003-2019) sənaye istehsalı 2,7dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən, qeyri-neft ixracı 5,2 dəfə valyuta ehtiyatlarımız 27 dəfə artmışdır. Son il ərzində minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artmışdır. Yoxsulluq təxminən 4,8 faizə düşmüşdür. Bu da onu göstərir ki, vətəndaşların maddi rifah halı xeyli yaxşılaşdırılmışdır.

Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu siyasət və əldə olunan yüksək nailiyyətlər elmi-tədqiqat mərkəzləri, tədqiqatçı alimlər, iqtisadçılar, beynəlxalq maliyyə institutları, tərəfindən tədqiq olunmaqdadır. Respublikamız neftdən daxil olan gəlirlərin strateji nəqliyyat-kommunikasiya xətləri «Transqafqaz Dəmiryolu Xətti» Bakı-Tbilisi-Qars dəmir yolu xətti və «Bakı Limanının İnkişafı», «Bakı-Tbilisi-Ceyhan» Bakı-Tbilisi- Ərzurum qaz xətti, TANAP layihələrinə sərf etməsi, xarici ticarət əlaqələrinin genişləndirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuzunu xeyli artıraraq keyfiyyətcə yeni səviyyəyə qaldırmışdır. [7]

30 il ərzindəki inkişafın sürəti və iqtisadi artımdakı əmələ gəlmiş dəyişikliklərlərin həmçinin, gözlənilən müasir texnologiya və kommunikasiya imkanlarının genişlənməsini elmi-texniki tərəqqinin nailiyyətlərini nəzərə almaqla iqtisadi inkişaf sürətlənəcək, təsərrüfatçılıq mexanizmləri təkmilləşəcək, ölkəmizdə yeni sənaye müəssisələri yaranacaq, yeni-yeni rəqabətqabiliyyətli məhsullar istehsal olunacaq, idxal yerli məhsullar hesabına ödəniləcək həmçinin, ixrac yönümlüyünün artırılması üçün geniş imkanlar açılacaqdır.

Azərbaycanın bugünkü inkişafı onu deməyə əsas verir ki, qloballaşma meyarlarına və modernləşməyə əsaslanan məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyat şaxələndiriləcək, innovasiyalı iqtisadiyyata keçid təmin edilməklə iqtisadiyyatın bütün sahələrində dinamik artım əldə olunması ücün geniş imkanlar yaranacaqdır .

Ölkədə müvafiq konsepsiyanın həyata keçirilməsi uzunmüddətli sosial-iqtisadi inkişaf proqnozlarının verilməsi ilə bağlı hazırlanacaq kompleks proqram və modellər tərtibini tələb edir ki, onların da tərkibinə aşağıdakı istiqamətlər daxil edilməlidir:

- uzunmüddətli proqnozlaşdırmada müasir texnologiya və kommunikasiyaya əsaslanan rəqabətqabiliyyətli və ixrac yönümlü nəhəng sənaye müəssisələri yaratmaqla dünya standartlarına cavab verən sənaye məhsullarının istehsal edilməsi, idarəetmə və dövlət tənzimləmə sistemlərinin təkmilləşdirilməsi, xammal potensialından səmərəli və məqsədyönlü istifadə etməklə dayanıqlı iqtisadi inkişafa nail olmaq;
- uzunmüddətli sosial-iqtisadi inkişaf konsepsiyasının proqnozunu hazırlamaq(2020-2050);
- dayanıqlı iqtisadi inkişafın keyfiyyət dəyişikliklərinin etibarlı şəkildə təmin olunması, milli iqtisadiyyatın rəqabət qabiliyyətliyinin daimi şəkildə artırılması, daxili bazarın tarazlı iqtisadi inkişafa əsaslanan üsullarla qorunması, eyni zamanda, infrastruktur sahələrinin təkmil inkişafına nail olunması;

Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü mütərəqqi ideyalar ölkə daxilində əmin-amanlığı, sosial-iqtisadi inkişafın davamlılığını təmin etmişdir. Ümummili lider dövlət hakimiyyətini ölkənin təkcə bugünkü mənafeyi baxımından deyil, həm də gələcək maraqları baxımından təmin etməyə, dövlətçiliyin ideoloji-siyasi və iqtisadi əsaslarını formalaşdıraraq optimal dövlət modelini yaratmağa nail olmuşdur.

Naxçıvan Muxtar Respubilkasında Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası hazırda yeni dövrün çağırışlarına müvafiq olaraq Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən və eyni zamanda, Naxçıvan MR Ali Məclis Sədri tərəfindən uğurla davam və inkişaf etdirilir. Bu inkişafın təməlində "Ulu Öndər Heydər Əliyevin yoluna dərin sədaqətdən doğan yüksək vətənpərvərlik və idarəçilik modeli" dayanır.

**İstifadə olunan ədəbiyyat**:

1. İsmayil Haciyev. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafi (1991-2011). Naxçıvan, 2011.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 7-ci kitab, səh. 482
3. Qayıdış, (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s.140-141.s 607-609, 658-665
4. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşri. Bakı: Azərbaycan, 2008, s.300-302, s. 543-544.
5. «Şərq qapısı» qəzeti, 18 noyabr 1990.
6. «Şərq qapısı» qəzeti, 28 oktyabr 1992.
7. İ. Alıyev, İ. Soltanlı. Aqrar sahənin modernləşməsi dönəmində rəqabət qabiliyyətliliyinin təmin olunmasi problemləri. Baki, 2015.

**А. ЗАМАНОВ**
***Нахчыванский Государственный Университет***

## ВЫСОКИЙ ПАТРИОТИЗМ И УПРАВЛЕНЧЕСКИЕ МОДЕЛИ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА: СТАБИЛЬНОСТЬ, РАЗВИТИЕ И ПРОЦВЕТАНИЕ

**Резюме**

Ситуация, сформировавщаяся в находящейся особо тяжелом экономическом положении по странеНахчыванской Автономной Республикев годы правления общенационального лидера Гейдар Алиева, избранного в высший орган правления в Нахчыванской АР в сентябре 1991 года, разъясняет выполнение необходимых мер для выхода региона из этого тяжелого положения.

Вопросы политической стабильности, поиска путей эффективного использования экономического потенциала, укрепления внешней торговли и сотрудничества выделены в качестве основных направлений решительных и последовательных шагов модели экономического развития Нахчывана.

**Ключевые слова:** Азербайджанская Республика,Нахчыванская Автономная Республика, общественно-политическая ситуация, стратегия развития,разработанная Гейдаром Алиевом модель экономического развития Нахчывана.

**A.ZAMANOV**
***Nakhchivan State University***

## THE MODEL OF HIGH PATRIOTISM AND GOVERNANCE OF GREAT LEADER HEYDAR ALIYEV: STABILITY, DEVELOPMENT AND PROSPERITY

**Summary**

According to the political work implemented by Heydar Aliyev, who was elected as a chairman of the Supreme Assembly of the Autonomous Republic of Azerbaijan in September 1991 because of the insistent demand of the people living in the hard conditions with the population of the Autonomous Republic of Azerbaijan, that is a particularly hard economic region, the implementation of anti-crisis steps.

The decisive and consistent measures of the model of economic development inivivan as it's main directions are political stability, finding ways of efficient utilization of economic potential, empowering foreign trade and cooperation relations.

**Key words:** Republic of Azerbaijan, Nakhchivan MR, socio-political situation, Heydar Aliyev's Development Strategy, model of economic development of Mia.

**Yusifova Nərgiz Ehtibar qızı**

*Mingəçevir Dövlət Universiteti, müəllim*
nnabiyeva1595@mail.ru

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MİLLİ İQTİSADİ İNKIŞAF MODELİ

***Xülasə:****XXI əsrin astanasında Respublikamızın müstəqil inkişa yoluna qədəm qoyması ölkəmizin gələcək sosial-iqtisadi həyatında dönüş nöqtəsi oldu, bu təkamül prosesində bir sıra dəyişikliklərin meydana gəlib genişlənməsi üçün şərait yaratdı. Lakin tarixi təcrübə göstərir ki, zəngin iqtisadi və təbii sərvətləri olan ölkələrdə müstəqilliyin qorunub saxlanılması hətta bəzən onun əldə edilməsindən daha çətin və mürəkkəbdir. Düşmən təcavüzünə məruz qalan eyni zamanda təcrübəsiz dövlət rəhbərləri tərəfindən idarə edilən Azərbaycanda bu proses daha da çətin idi. Respublikamız yalnız dövlət müstəqilliyini itirmək təhlükəsi ilə deyil, həmçinin, daxildən də parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Heydər Əliyevin müdrik daxili və xarici strateji kursu, onun zəngin təcrübəyə sahib olması ölkəni bürümüş iqtisadi, siyasi, sosial və psixoloji böhran və durğunluqdan çıxararaq müstəqillik yolu ilə inamla irəliləməsi üçün möhkəm zəmin yaratdı.*

***Açar sözlər:*** *Heydər Əliyev, bazar iqtisadiyyatı, tələb və təklif amilləri, iqtisadi islahatlar, Azərbaycan.*

Müstəqilliyimiz düşmən dövlətlər tərəfindən hərbi təcavüz və siyasi təzyiqlərlə boğulurdu. Eyni zamanda, xalqımız iqtisadi çətinliklər, sarsıntılar girdabına düşmüşdü. Bunun kökləri isə olduqca dərindir. Ölkə əhalisi açıq-aşkar şəkildə aclıq imtahanına çəkilirdi. Ərzaq anbarları tamamilə demək olar ki, boşalmış, ilkin tələbat mallarının istehsalı əhəmiyyətli dərəcədə azalmışdı. İstehsal edilən məhsullar tələbata cavab vermədiyi üçün anbarlarda yığılıb qalır, strateji məhsullar isə blokada vəziyyətində olduğumuz üçün xarici bazarlara çətinliklə çıxarılırdı. Bir tərəfdən valyuta çatışmazlığı, digər tərəfdən də yolların təhlükəli olması ilə əlaqədar məhsul idxalı da çox çətinliklərlə həyata keçirilirdi.

Ölkəmizi bu cür ağır vəziyyətən 1993-cü ildə xalqın istəyi ilə yenidən hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev çıxardı. Xalqın təkidi və tələbi ilə Heydər Əliyev Azərbaycana qayıtdı, xalq onu Prezident seçdi və artıq ondan sonra ölkəmizdə inkişaf dövrü başlandı. Bütün xoşagəlməz istiqamətlərə, hallara son qoyuldu, ictimai asayiş bərqərar olundu, ölkədə siyası iqtisadi sabitlik yarandı. Bir sözlə desək, Azərbaycan inkişaf yoluna qədəm qoydu.

Siyasi sabitliyin təmini, daxili çəkişmələrə son qoyulması, bunlarla yanaşı atəşkəs haqqında razılaşmaya əsasən erməni işğalının dayandırılması, "Əsrin müqaviləsi"nin imzalanması, qonşu ölkələrlə münasibətlərin normallaşdırılması bütün diqqəti ölkədə çoxdan yığılıb qalmış daxili iqtisadi-sosial problemlərin həllinə yönəltməyə imkan verirdi. Həyat isə bütün qətiyyəti ilə tələb edirdi ki, heç bir dövlətin tarixində rast gəlinməyən strateji əhəmiyyət kəsb eən üç vəzifə eyni zamanda yerinə yetirilsin:

1. Müstəqil, demokratik və hüquqi dövlətin yaradılması eyni zamanda, inkişaf etdirilməsi;
2. İnzibati-amirlik sisteminın ləğv edilərək, bazar iqtisadiyyatı prinsiplərinin tətbiq edilməsi
3. Qapalı sosial-iqtisadi sistemin xaricə açılması və açıq qapı siyasətinin tətbiqi ilə qlobal iqtisadi sistemə inteqrasiya.

Bu qarşıya qoyulmuş vəzifələrin hər biri kifayət qədər əhəmiyyətli və ciddi idi, eyni zamanda, bütün qüvvələrin bu məqsədlərə səfərbər edilməsini tələb edirdi.

Totalitar sosialist sisteminin süqut etməsi nəticəsində yaranan və tarixdə mövcud olmuş iqtisadi sistemlərin heç birində analoqu olmaması dünyanın iqtisadi və siyasi ədəbiyyatına bu ölkələrin real vəziyyətini və perspektivlərini özündə əks etdirən yeni bir termini "keçid iqtisadiyyatı ölkələri" terminini gətirdi. "Keçid" anlayışı yalnız iqtisadi termin deyil, cəmiyyətin bütünlükdə mövcud siyasi, iqtisadi həmçinin, sosial quruluşundan imtina edildiyi və hələlik yenisinin yaradılmadığı vəziyyəti ifadə edir. Problemin çətin tərəflərindən biri də onda idi ki,

totalitar rejimin 70 illik hakimiyyəti müddətində cəmiyyət demokratiya, sərbəst bazar iqtisadiyyatı, azad sahibkarlıq, və digər bu kimi çağdaş dəyərlərdən uzaq saxlanılmışdır, bununla yanaşı cəmiyyətdə uzun illər ərzində xüsusi mülkiyyət, bazar iqtisadiyyatı, sahibkarlıq kimi anlayışlara mənfi fikir formalaşdırılmışdır. Həyat isə yalnız onu tələb edirdi ki, cəmiyyət "dövlət, demokratiya, millət, kimlik, siyasət və iqtisadiyyat kimi ciddi, əhəmiyyətli məsələlərin yenidən formalaşdırılmasını və qurulmasını bir vəzifə kimi qarşısına qoysun" və uğurla həll etsin.

Respublikamızın qarşısında duran əsas məqsədə nail olunması, həmçinin, iqtisadi sabitliyin də təmin olunmasını tələb edirdi. Ona görə ki, 1992-1994-cü illərdə mövcud olan hiperinflyasiya iqtisadiyyatın əsaslarını sarsıdır, əhalinin maddi-sosial vəziyyətini getdikcə çətinləşdirirdi.İqtisadi islahatların sürətləndirilməsi də zərurətə çevrilmişdi. Buna görə də ölkə iqtisadiyyatında bazar prinsiplərini bərqərar etmək üçün onun liberallaşdırılması istiqamətində əsaslı addımlar atıldı. 1994-1995-ci illərdə artıq xarici ticarət əməliyyatlarının liberallaşdırılmasına başlanıldı.[2]

İqtisadi liberallaşdırma, qiymət islahatlarının da əsaslı formada davam etdirilməsini tələb edirdi. Buna uyğun olaraq, 1995-1996-cı illərdə qiymətlərin formalaşması prosesinin inzibati-amirlik sisteminin qalıqlarından azad edilməsi başa çatdırıldı. Artıq bundan sonrakı dövrdə bazar iqtisadiyyatının əsas prinsiplərindən olan, qiymətlərin bazarda sərbəst formada tələb və təklif amillərinin qarşılıqlı təsiri altında formalaşması prosesinin başlaması üçün yol açılmış oldu. Bu proses bazar iqtisadiyyatının digər bir vacib elementi hesab edilən valyuta rejiminin sərbəstləşdirilməsi prosesilə tamamlandı.[4]

Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən köklü iqtisadi islahatlar qısa bir zaman ərzində geniş beynəlxalq dəstək aldı. Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycanda iqtisadi islahatlar barədə xüsusi proqram hazırladılar və ölkəmizə maliyyə yardımı göstərdilər. Adları qeyd olunan təşkilatlarla sıx qarşılıqlı əməkdaşlıq çərçivəsində hazırlanmış sabitləşdirmə proqramına uyğun olaraq, iqtisadiyyatın daha da liberallaşdırılmasına yönəldilmiş əsaslı islahatlar tətbiq edildi. Çevik və sərt pul-kredit, həmçinin, büdcə, vergi, gömrük siyasətinin həyata keçirilməsi, qiymətlərin, xarici iqtisadi əlaqələrin, valyuta bazarının liberallaşdırılması və eyni zamanda, xarici kapitalın cəlb edilməsi nəticəsində tezliklə ölkədə makroiqtisadi maliyyə sabitliyinin təmin edilməsinə nail olundu.

Özəlləşdirmə proqramının həyata keçirilməsi şəxsi təşəbbüskarlığın və azad sahibkarlığın inkişafını daha da sürətləndirdi. 1998-ci ilə qədər 28 mindən çox kiçik müəssisə özəlləşdi və demək olar ki, kiçik özəlləşdirmə başa çatdırıldı. 1997-ci ildən etibarən isə özəlləşdirmə prosesinin həlledici mərhələsi olan böyük özəlləşdirməyə - orta və iri dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi prosesinə başlanıldı. Təkcə 1998-ci ildə 800-dən artıq orta və iri dövlət müəssisələri səhmdar cəmiyyətlərə çevrildi.[3]

Beləliklə, ölkədə iqtisadi tənəzzülün qarşısı nəinki alındı, hətta demək olar ki, 1996-cı ildə onun artımına nail olmaq mümkün oldu. 1996-cı ildə 1,3% olan iqtisadi artım 1997-ci ildə artıq 5,8%-ə çatdırıldı. Real sektorda olan bu canlanma Cənubi-Şərqi Asiyada həmçinin, qonşu Rusiyada baş vermiş dərin maliyyə böhranına baxmayaraq, 1998-ci ildə daha da inkişaf etdi. 1998-ci ilin yekunları ölkənin sosial-iqtisadi inkişafında müsbət tendensiyanın ildən-ilə möhkəmləndiyi və həyata keçirilən prosesin dönməz xarakter almasını göstərirdi. Qısa bir müddət ərzində Azərbaycan iqtisadi inkişafın dinamik sürətinə görə postsovet respublikaları arasında qabaqcıl mövqe tutmağa və liderə çevrilməyə başladı.[3]

Respublikamızda iqtisadi artım sürəti 1995-ci ildən başlayaraq, MDB üzrə orta göstəricidən xeyli yüksək olmuşdur. Deyilənləri yekunlaşdıraraq göstərə bilərik ki, Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən hazırda daha da inkişaf etdirilən strateji kurs Azərbaycanı qlobal zirvələrə doğru gedən dövlətlər qrupunda qabaqcıl mövqeyə çıxarmışdır. Ölkənininkişafında xeyli keyfiyyət və kəmiyyət dəyişiklikləri baş vermiş və verməkdə davam edir.

Respublika Prezidenti cənab İlham Əliyev demişdir: "Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan beynəlxalq təcriddən çıxa bildi. Bu gün Azərbaycan beynəlxalq aləmdə görkəmli, əsas yer tutur, bir çox beynəlxalq təşkilatların üzvüdür və onlarda fəal iştirak edir. Bütün ölkələr tərəfindən tanınır, Azərbaycanın böyük hörməti var. Artıq demək olar ki, bir çox regional məsələlərdə Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan regionda hər hansı bir regional layihə keçirilə bilməz. Beləliklə, Azərbaycan bölgə üçün mərkəzə çevrilibdir. Bizim nüfuzumuz, gücümüz daha da artır. Bu da bizə imkan verəcək ki, qarşımızda duran məsələləri öz xeyrimizə həll edək. Bütün bunlar Heydər Əliyevin danılmaz xidmətləridir".

Respublikamızın iqtisadi inkişaf tendensiyası yaxın gələcəkdə daha da yüksələcəkdir. Əsası möhkəm qoyulan iqtisadi təməl demokratik proseslərə dinamizm qazandırmış və əhalinin sosial-vəziyyətinin daha da yaxşılaşdırılması üçün geniş perspektivlər açmışdır.[1]

Beləliklə, iqtisadi inkişafın Azərbaycan modelinin formalaşması və inkişafı nəticəsində gələcək dövrdə Azərbaycanın sosial-iqtisadi inkişafı yüksək dərəcədə perspektivlidir. Belə ki, ölkədə:

1. İnzibati-amirlik sistemi ləğv edilərək, bazar iqtisadiyyatı prinsipləri tətbiq edilmişdir;
2. müstəqil, hüquqi, demokratik dövlətin əsası qoyulmuş və ölkəmiz yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur;
3. transformasiya prosesi uğurla aparılmış və özünün son mərhələsinə çatmışdır;
4. qapalı sosial-iqtisadi sistem xaricə açılmış, "açıq qapı" siyasətinin tətbiq olunması nəticəsində bərabərhüquqlu dövlət kimi qlobal iqtisadi sistemə inteqrasiya sürətlənmişdir;
5. xarici kapital geniş miqyasda cəlb edilərək, resurs amillərindən intensiv surətdə istifadə edilməsinə başlanılmışdır;
6. ölkədə yaradılan yeni imkanlar iqtisadiyyatın strukturunun yenidən qurulması, informasiya texnologiyalarının sürətli inkişafı eyni zamanda, bütün sahələrdə modernləşdirmə siyasətinin həyata keçirilməsi məqsədlərinə xidmət edir və bu sahədə əhəmiyyətli irəliləyişlər mövcuddur;
7. həyata keçirilən qlobal infrastruktur layihələri Respublikamızın Avrasiya məkanında mərkəzi nəqliyyat dəhlizinə çevrilməsi üçün imkanlar yaratmışdır;
8. siyasi müstəqillik iqtisadi müstəqilliklə möhkəmləndirilmişdir. Tam müstəqil həmçinin, balanslaşdırılmış iqtisadi siyasət yürütməklə ölkənin milli təhlükəsizliyini, onun əsas tərkib hissələri olan iqtisadi təhlükəsizliyini, ərzaq təhlükəsizliyini və enerji təhlükəsizliyini qısa zaman kəsiyində təmin edə bilmişdir;
9. ölkəmiz qısa müddət ərzində kapital idxal edən ölkədən ixrac edən ölkəyə, həmçinin, təbii qaz idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmiş və bir çox həyati əhəmiyyətli məhsullarla öz ehtiyaclarını təmin edir;
10. ölkənin əlverişli geosiyasi vəziyyətindən məharətlə istifadə olunması respublikamızın regionda lider dövlətə çevrilməsinə, qabaqcıl dünya ölkələri arasında mövqeyinin daha da möhkəmləndirilməsinə səbəb olmuşdur.[1]

Yaradılan möhkəm iqtisadi təməl siyasi və sosial-mədəni proseslərin də inkişafına təkan verir, Azərbaycanın "mənliyinin dünya miqyasında təsdiq edilməsinə şərait yaradır".

Sürətli iqtisadi inkişaf Azərbaycanın beynəlxalq aləmdə diqqət mərkəzində olmasını təmin etmişdir. Bütün dünyanı sarsıdan qlobal böhran zamanı ölkəmizdə iqtisadi artım sürətinin 9,3 faiz səviyyəsində olması Azərbaycanın milli iqtisadi inkişaf modelinin, onun perspektivli inkişaf xətinin uğurlu olduğunu əyani surətdə bir daha sübut etdi. Xeyli çətin böhran dövründə Azərbaycan modelinin uğurunun sirrini, prezident İlham Əliyev özü belə izah edir: istehlak qiymətlərinin aşağı salınmasının zəruriliyi və inflyasiyaya nəzarət; milli bankların dəstəklənməsi də daxil olmaqla maliyyə nəzarəti, kreditlərə və faiz dərəcələrinə nəzarət, təkcə neft sektoruna deyil, real iqtisadiyyata daimi maliyyə axınının təmin edilməsi, sosial öhdəliklərin qətiyyətlə yerinə yetirilməsinə yönəldilən siyasət, sənaye müəssisələrinin

fəaliyyət istiqamətinin daxili bazara yönəldilməsi, ərzaq təhlükəsizliyi probleminə daimi nəzarət və s.

Ümumilikdə, bu dövrlər ərzində Azərbaycan iqtisadiyyatında islahatların aparılması, sənaye sahələrinin inkişafı və bu istiqamətdə elmi əsaslandırılmış siyasətin işlənib hazırlanması vəzifəsini irəli sürmüşdür.

Bütövlükdə və sonrakı illərdə keçirilən tədbirlər nəticəsində sənayenin tənəzzül sürəti azalmış, inkişaf meyli artmış və 1996-cı ildən istehsalın həcminin aşağı düşməsinin qarşısı alınmışdır. Beləliklə, iqtisadiyyatda müsbət meyillərin daha da möhkəmlənməsi müşahidə olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, 1997-ci ildən etibarən respublikada regionların inkişafını təmin etmək məqsədilə dövlət tərəfindən bir sıra proqram, proqram məqsədli metodlar və vasitələr qəbul edilmişdir. Onların da əsası Heydər Əliyev tərəfindən qoyulmuşdur. 2001-2003-cü illərdə ölkə Prezidentinin xarici və yerli sahibkarlarla görüşündə, respublika regionlarına səfəri zamanı etdiyi məruzə və çıxışlarında, "Azərbaycanda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təqdimat mərasimindəki nitqində əsas diqqəti regionlarda qeyri-neft sektorunun inkişaf etdirilməsini əsaslandırmışdır.

Azərbaycan Respublikasında ardıcıllıqla həyata keçirilən iqtisadi islahatlar ölkə iqtisadiyyatında əsaslı keyfiyyət dəyişikliklərinə səbəb olmuş və beləliklə, dinamik iqtisadi inkişaf təmin olunmuşdur. Bütün bunlarla yanaşı, ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində həlli tələb edilən vəzifələr ön planda göstərilmişdir.

Məlumdur ki, ölkənin ayrı-ayrı regionlarının inkişafını müxtəlif amillər və yerli xüsusiyyətlər şərtləndirir. Bu amillərin isə hər biri regionların sosial-iqtisadi inkişaf planında nəzərə alınmalıdır. İqtisadi inkişaf amillərinin geniş və hərtərəfli təhlili isə respublikanın sosial-iqtisadi inkişafının mühüm xüsusiyyətlərini aşkar etməyə, eyni zamanda, respublika iqtisadiyyatının inkişafında mütərəqqi meyillərin əmələ gəlməsinə, iqtisadiyyatın ərazi və sahə strukturunun təkmilləşdirilməsinə imkan yaradacaqdır.

Qeyd etmək lazımdır ki, əsas diqqəti mühüm perspektiv məsələlərin üzərində cəmləşdirmək, optimal sahələrarası və ərazi proporsiyaların müəyyən edilməsinə yönəltmək vacibdir. İqtisadiyyatın və respublika rayonlarının bir-biri ilə bağlı sahələrinin planlaşdırılmasına, iqtisadi və sosial problemlərin həllinə kompleks münasibətin gücləndirilməsi tələb olunur. Bu isə əmək, maddi və maliyyə ehtiyatlarından səmərəli istifadə edilməsini, sahə və rayonun inkişafının əlaqələndirilməsini tələb edir. Beləliklə, Ulu Öndərimiz Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ölkə iqtisadiyyatı sahələri arasında optimal nisbətin yaradılması çox vacibdir.[5]

Ümummilli lider ölkənin gələcək sosial-iqtisadi inkişafın səviyyəsini özəl sektorun inkişafı ilə bağlı olduğunu vacib hesab edirdi: "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji məqsədimizdir". Heydər Əliyevin müəyyənləşdirdiyi və rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı bilavasitə özəl sektorun inkişafına yönəldilmişdir. Kiçik və orta sahibkarlığın inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi, sahibkarlara zəruri-texniki yardım (informasiya, məsləhət və s. xidmətlər) və maliyyə dəstəyi göstərən müvafiq strukturlar formalaşdırıldı. Sahibkarların vergi yükünün azalmasına yönəldilən mənfəət və əlavə dəyər vergisinin dərəcələri aşağı salındı, kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş vergi sisteminin tətbiqinə başlandı. Dövlət mülkiyyətinin özəlləşdirilməsinin qanunvericilik bazası yaradıldı, bu sahədə müvafiq dövlət proqramları təsdiq edildi və həyata keçirildi. Dövlət tərəfindən ayrılan subsidiyalar və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun xəttilə verilən güzəştli kreditlər sahibkarlığın inkişafına böyük maliyyə dəstəyidir. Biznes fəaliyyətinə başlama əsaslı şəkildə sadələşdirilmiş, vergi qanunvericiliyində bir çox güzəştlər müəyyənləşdirilmiş, sahibkarlığın və ixracın təşviqinə yönəldilən bir sıra tədbirlər həyata keçirilmişdir. Əslində, sahibkarlığın inkişafı respublikada

uğurla aparılan iqtisadi islahatların nəticəsində baş vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanına uyğun olaraq, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, həmçinin, prosedurların sadələşdirilməsi, elektron xidmətlərin əhatə dairəsinin genişləndirilməsi və əsassız yoxlamaların qarşısının alınması üzrə bir sıra tədbirlər uğurla yerinə yetirilir. Sahibkarlıq subyektlərinin elektron qeydiyyatı, xarici ticarət əməliyyatlarının həyata keçirilməsi, daşınmaz əmlaka hüquqların qeydiyyatı sahəsində aparılmış islahatların davamı olaraq korporativ idarəetmənin təkmilləşdirilməsi, investorların mənafelərinin qorunması və müflisləşmə üzrə qanunvericiliyə ciddi dəyişikliklər edilmişdir. Eyni zamanda, "Sahibkarlıq sahəsində yerinə yetirilən yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu vahid məlumat reyestrinin olmasına, sahibkarların işə məsuliyyətlə yanaşmalarına və bunun nəticəsində istehlakçıların maraqlarının qorunmasına yönəldilmişdir. Müstəqil dövlətimizin banisi Heydər Əliyevin zəngin nəzəri irsində və fəaliyyətində elm və təhsil məsələlərinə xüsusi yer ayrılmışdı. Ölkəyə rəhbərlik etdiyi dövrdə o, təhsil sisteminin təkmilləşdirilməsinə dövlət siyasətinin əsas və prioritet istiqamətlərindən biri kimi baxırdı, öz çıxışlarında təhsilin, cəmiyyətin xüsusi və intellektual cəhətini əks etdirən bir sahə olduğunu söyləyir və bu sahəyə daha həssaslıqla yanaşır, daim qayğı göstərirdi. Ulu Öndər həmişə deyirdi: "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatı, nə də ki ticarətdir. Belə olan halda təhsil sisteminə daha diqqətlə yanaşılmalı və bu sistemə qarşı münasibət çox həssas olmalıdır". Dünyəvi təhsilə inteqrasiya yolunu seçmiş müstəqil Azərbaycan Respublikasında vacib əhəmiyyətə malik olan təhsil sistemində radikal islahatların aparılması dövlətin əsas məqsədinə çevrildi, elm və təhsil problemləri dövlət siyasəti ilə qarşılıqlı şəkildə həll edilməyə başlanıldı. Dahi şəxsiyyət Azərbaycan xalqı tarixində ilk dəfə təhsil sahəsində islahatların aparılması üçün əsaslı tədbirlər həyata keçirdi. 1998-ci il martın 30-da Respublika Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasında Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı. Elə həmin ildə Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi. O, qurultayda öz çıxışında demişdi: "Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib sahədir". Ulu Öndər Azərbaycan təhsilinin dinamik surətdə inkişafını formalaşdıran bir sıra fərman və sərəncamlar imzaladı. Onun bilavasitə rəhbərliyi və tövsiyəsi ilə hazırlanmış proqramların həyata keçirilməsi nəticəsində Azərbaycanın təhsil müəssisələrinin maddi-texniki bazası yeni və müasir avadanlıq və təlim texnologiyaları ilə daha da möhkəmləndirildi. Hakimiyyətinin ikinci mərhələsində Heydər Əliyev gənclərin xarici ölkələrdə təhsil almağa göndərilməsi ənənəsini yenidən bərpa etdi. 1997-ci ildən başlayaraq Respublikanın savadlı və bacarıqlı gənclərinin Türkiyə və Rusiyanın nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsinə başlanıldı. Hər il ən yüksək balla ali təhsil müəssisələrinə qəbul olunan gənclərə Prezident təqaüdünün verilməsi, bununla yanaşı istedadlı gənclər üçün "Qızıl kitab"ın təsis edilməsi ölkəmizdə istedadlı uşaq və gənclərə dövlət qayğısının bariz nümunəsi idi. Qısa zaman müddətində respublikada genişlənən məktəb tikintisi, təhsil müəssisələrinin müasir avadanlıqlarla təchiz edilməsi, bir çox institutlara "universitet" statusunun verilməsi,yeni akademiyaların yaradılması, özəl ali təhsil müəsisələrinin fəaliyyətinin qanuniləşdirilməsi və çoxsaylı təhsil islahatları Heydər Əliyevin rəhbərliyi altında aparılan genişmiqyaslı dövlət təhsil siyasətindən xəbər verirdi.[6]

Ulu Öndərin müstəqil Azərbaycana rəhbərliyi dönəmində milli iqtisadiyyatın bazar prinsipləri əsasında formalaşmasına dair 70-dən artıq qanun qəbul olunmuş, 100-dən çox sərəncam və fərman imzalanmış və 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir. Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasını həyata keçirilməsi sayəsində 1995-ci ildən milli iqtisadiyyatın bərpası və dinamik inkişafı dövrünə qədəm qoymuşdur. 1993-2003-cü illər arasında Azərbaycanın ümumi daxili məhsulu 1,9 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 8,5 dəfə, sənaye məhsulları istehsalı 22,4 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olan

əhalinin orta aylıq əməkhaqqı 6,2 dəfə artmış, yoxsulluğun və işsizliyin səviyyəsi aşağı enmişdir. [7]

Qeyd olunan dövrlər ərzində ölkə iqtisadiyyatına 20 milyard ABŞ dolları civarında sərmayə yatırılmışdır. Ümummilli lider Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti və gərgin əməyi nəticəsində əldə edilən nailiyyətlər sonrakı illərdə milli iqtisadiyyatın davamlı inkişafı üçün güclü zəmin yaratmışdır. Bir sözlə, onun fəaliyyəti müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının dünəninə, bugününə və gələcəyinə hesablanmışdır. Milli iqtisadiyyatın qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional islahatların aparılması, sahibkarlığın inkişafına dövlət dəstəyinin artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, 2004-2018-ci illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf proqramlarının, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi" və "Azərbaycan 2020 – gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində, tədbirlərin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan dünyanın ən sürətlə və dayanıqlı inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Ümummilli lider Heydər Əliyev bu gün aramızda olmasa da, onun unikal və innovativ ideyaları yaşayır və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına uyğun olaraq dövlətin tərəqqisi və milli iqtisadiyyatın davamlı inkişafı naminə müvəffəqiyyətlə həyata keçirilir.

Ədəbiyyat siyahısı

1. Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman 1923-1969, 1-ci hissə, Bakı: Ozan, 2007, 352 səh.

2. Alişanova M. Heydər Əliyev -iqtisadi müstəqilliyimizin banisidir. Baki: Çinar-çap,2016, 214 səh.

3. "Azərbaycan" qəzeti

4. Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: 2009,352 səh.

5. Heydər Əliyev: dövlət xalq üçündür: kəlamlar, sitatlar, aforizmlər /red. və ön sözün müəl. X.Vəliyev.- Bakı: Adiloğlu, 2008.- 400 s.

6. Mahmudov, Yaqub Mikayıl oğlu. Azərbaycan: qısa dövlətçilik tarixi /Y. M. Mahmudov; elmi red.M. N. Mirzəyev; red. E. M. Lətifova.- B.: Təhsil, 2005.- 140 s.

7. www.prezident.az

**dissertant Əliyeva Ruhiyyə Oqtay qızı**

# QLOBAL ÇAĞIRIŞLAR VƏ VERGİ NƏZARƏTİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Xülasə**

Müasir dövrdə vergi daxilolmaları və vergilərə münasibətin, eləcə də dövlət-biznes münasibətlərinin yeni müstəviyə keçidi paralel şəkildə vergi nəzarətinin fəlsəfəsinə köklü dəyişikliklər gətirib. Xüsusilə, e-ticarət və dövlət-biznes münasibətlərinin onlayn müstəvidə inkişafı vergi və vergi nəzarətinin həm metod və mexanizmlərində, həm də nəzarətin mahiyyətində yeni yanaşmalar üzə çıxarıb. Beləliklə, yeni biznes dövrünün çağırışları fonunda vergi nəzarəti müxanizmlərinin təkmilləşdirilməsi imkanları nələrdən ibarətdir.

***Açar sözlər:*** *vergi nəzarəti, dövlət-biznes münasibətləri, vergi idarəçiliyi, e-ticarət, sahibkarlıq.*

Vergi nəzarəti tədbirlərinin aparılması zamanı həyata keçirilən bütün proseslərin iqtisadi və hüquqi cəhətdən ciddi reqlamentləşdirilməsi, müasir iqtisadi tələblərə - bir çox hallarda iqtisadi münasibətlərin online qaydada həyata keçirilməsinə uyğun şəkildə vergi orqanları qarşısında yeni vəzifələrin qoyulması məsələləri vergi orqanlarının işinə yeni məzmun vermiş və onların işini müəyyən qədər çətinləşdirmişdir. Bu baxımdan ölkədə vergi siyasətinin uğurla reallaşdırılması üçün təşkilati tədbirlərin həmahəng sisteminin qurulması zəruridir. Gözlənilən vəsaitləri büdcəyə tam məbləğdə səfərbər etmək üçün dövlət vergilərin yığılmasının kifayət qədər etibarlı mexanizminə malik olmalıdır. Bu mexanizmin əsas təşkiledicilərindən biri də vergi idarəçiliyi sayılır. Vergi idarəçiliyi dedikdə, vergi münasibətlərinin dövlət tərəfindən idarə edilməsi sistemi nəzərdə tutulur [1].

Vergi nəzarəti mexanizmi səmərəli vergi idarəçiliyinin zəruri şərtlərindən biri hesab olunmaqla, məqsəd və vəzifələri müxtəlifdir. Onun əsas məqsədi vergidən yayınmanın qarşısını almaq və büdcə gəlirlərinin dayanıqlı daxilolmasını təmin etməkdir. Qeyd etmək lazımdır ki, sahibkarlığın hərtərəfli və çoxşaxəli inkişafının təmin edilməsinin başlıca amillərindən biri də müvaflq fəaliyyət sahəsində əlverişli və münbit, təkmilləşdirilmiş, müasir beynəlxalq standartlara uyğun vergi sisteminin mövcudluğu və ədalətli vergiqoyma ilə bərabər vergi nəzarəti mexanizminin tətbiqidir. Danılmaz həqiqətdir ki, vergi nəzarəti vergi ödəyiciləri ilə vergitutma obyektlərinin uçotunda, eləcə də vergi qanunvericiliyinin tələblərinə əməl edilməsində vahid nəzarət sistemi kimi çıxış etməklə, vergi orqanlarının vergiləri tam və vaxtında yığmağı təmin etməkdə əhəmiyyətli rola malikdir. Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi isə vergi nəzarətinin əsas vəzifələrindən biridir.

Aydındır ki, ölkəmizdə vergi nəzarətini təkmilləşdirməyə yönəlik tədbirlər öz ifadəsini daha çox daim yenilənməkdə olan Vergi Məcəlləsində tapmışdır. Məcəllədə davamlı təkmilləşmələr aparmaqla vergi ödəyicilərinə səmərəli nəzarət mexanizminin tətbiqi nəzərdə tutulmuşdur. Xüsusilə, son vaxtlar dövlətin iqtisadiyyatın ümumi inkişafında prioritet istiqamətlərdən biri kimi ölkədə azad sahibkarlığın davamlı inkişafi üçün hər cür zəruri şəraitin yaradılmasını elan etdiyini nəzərə alsaq, bu amilin əhəmiyyəti daha da artmış olur. Həmçinin, iqtisadiyyatda, xüsusilə də qeyri neft-qaz sektoru istiqamətində nəhəng perspektivli infrastruktur layihələrinin reallaşdırılması məqsədilə maliyyə mənbəyi olan dövlət büdcəsinin gəlirlərində vergi daxilolmalarının tam üstunlük təşkil etdiyini hesaba almaqla vergi nəzarəti işinin düzgün və səmərəli təşkili olduqca vacib məsələdir [2].

Vergi nəzarəti tədbirləri həyata keçirilərkən vergi idarəçiliyinin aşağıdakı əsas formaları fərqləndirilir:

- vergi ödəyicilərinin qeydiyyatı və uçotu;
- hesabatların qəbulu və işlənməsi;

- hesablanan və daxil olan vergi məbləğlərinin uçotu;
- ödənişlərin tam və vaxtında daxil olmasına nəzarət;
- kameral vergi yoxlamaları;
- səyyar vergi yoxlamaları;
- vergi yoxlaması materiallarının reallaşdırılması;
- vergi yoxlaması materiallarının həyata keçirilməsinə, tətbiq olunmuş maliyyə sanksiyalarının və kəsilmiş inzibati cərimələrin ödənilməsinə nəzarət [3].

Ölkənin vergi sistemində islahatların davam etdirilməsi və vergi yoxlamalarının daha da təkmilləşdirilməsi zərurəti aşağıdakı amillərlə müəyyən edilir:




***Vergi sistemində islahatların davam etdirilməsini və vergi yoxlamalarının daha da təkmilləşdirilməsini doğuran səbəblər***

Beynəlxalq maliyyə qurumlarının ölkəmizin Vergi Məcəlləsi haqqında yekdil rəyi ondan ibarətdir ki, Vergi Məcəlləsi və ölkədə yaradılmış vergi mühiti azad sahibkarlıq üçün geniş imkanlar yaradır və hazırda respublikada biznesin, sahibkarlığın inkişafı üçün vergi qanunvericiliyində, bütövlükdə vergi sistemində ciddi ziddiyyət və maneçilik yoxdur.

Əsas müsbət cəhətlərdən biri də odur ki, Vergi Məcəlləsi vergi ödəyicilərinin hüquqlarının maksimum qorunmasına yönəldilmişdir. Belə ki, Məcəllədə vergi ödəyicilərin hüquqi müdafiəsi kifayət qədər yüksəkdir. Məsələn, vergi qanunvericiliyinin bütün ziddiyyətləri, aydın olmayan məqam və şübhələrin vergi ödəyicisinin xeyrinə şərh olunması, vergi ödəyicisinin təqsiri məhkəmə qərarı ilə təsdiq edilməyənədək onun vergi qanunvericiliyini pozmaqda təqsirsiz hesab edilməsi, artıq ödənilmiş və ya tutulmuş vergilərin, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinin yazılı müraciətinə əsasən ona qaytarılması və müəyyən olunmuş müddətdə qaytarılmadığı təqdirdə vergi ödəyicisinə faizlərin ödənilməsi kimi maddələr var.

Vergi nəzarətinin təkmilləşdirilməsi sahəsində aparılan dəyişikliklər vergi nəzarətinin bütün formalarının sivil metodlarla həyata keçirilməsini təmin etməyə xidmət etmişdir. Burada əsas diqqət səyyar vergi yoxlamalarının sayının azaldılması və keyfiyyətinin yüksəldilməsinə və ən əsası kameral yoxlamaların səmərəliliyinin artırılmasına verilmişdir. Vergi ödəyicisi ilə birbaşa kontaktda olmadan sənədlər əsasında aparılan kameral yoxlamalarda xüsusi proqram təminatının tətbiqi sənədlərin emalı prosesinin sürətlənməsinə imkan vermiş, nəticə etibarilə

kameral yoxlamalar hesabına dövlət büdcəsinə hesablanan əlavə vəsaitlərin həcmi dəfələrlə artmışdır [4].

Daha ünvanlı və dəqiq seçilmiş tədbirlər nəticəsində son 4 ildə yoxlamalarla əhatə edilmiş vergi ödəyicilərinin faktiki fəaliyyət göstərən vergi ödəyicilərində xüsusi çəkisi azalmış, təyin olunan yoxlamaların keyfiyyət göstəriciləri isə xeyli artmışdır. 2018-2019-cu illər ərzində faktiki fəaliyyət göstərən vergi ödəyicilərinin 1 faizindən də az bir hissəsi səyyar vergi yoxlamaları ilə əhatə edilmişdir ki, bu da yoxlamaların yalnız vergidən yayınma risqi üzrə təyin edilməsinə əsaslanır.

Hazırda çox kəskin problemlərdən biri vergilərin yığılması və onu ödəməkdən yayınmalardır. Burada, respublikada tətbiq edilən vergilərin səviyyəsinin yüksək olması haqda səslənən fikirlər müəyyən rol oynasa da, onu danmaq olmaz ki, vergidən yayınmaq üçün imkan varsa, onun agır və ya yüngül olmasından asılı olmayaraq, vergi ödəyicisi bu imkandan istifadə etməyə cəhd edəcəkdir. Vergilərdən yayınmanın Azərbaycan gerçəkliyi üçün bir özəlliyi də vergi artımının investisiya, yıgım, istehsal artımı kimi iqtisadi proseslərlə həmişə müşayiət olunmamasıdır. Dünya ölkələrinin əksəriyyətində dövlət büdcəsindən yayındırılan belə vəsaitlər istənilən halda, yenə təsərrüfat dövriyyəsində qalır, istehsalın inkişafına yönəldilir. Lakin təəssüf ki, respublikamızda nəinki yayındırılan vəsaitlər, hətta müəssisələrin sərancamında qalan vəsaitlər belə investisiyaya çevrilmir. Qeyd edək ki, respublikamızda işgüzar fəaliyyətin stimullaşdırılması daha çox xammalyönümlü ölkələrin vergiqoyma praktikasına səmtlənmişdir, halbuki müəssisələrin innovasiya fəallıgına təsiri baxımından ƏDV, mənfəət, əmlak, torpaq vergiləri, gömrük rüsumu, büdcədənkənar fondlara ayırmaların rolu əhəmiyyətlidir.

## Nəticə

Qlobal pandemiya şəraitində e-ticarət alətinin inkişafı və online biznes münasibətlərinin formalaşması vergi nəzarəti müxanizmlərinin də paralel şəkildə təkmilləşdirilməsi zərurətini qlobal çağırış kimi önə çıxarır. Azərbaycanda vergi dərəcələrinin optimallaşdırılması, regionların inkişafı strategiyasına xidmət edən diferensial verginin tətbiqi ilə yanaşı vergi nəzarəti də təkşilləşdirilməlidir. Xüsusilə, vergi nəzarətinin metodları üzərində ciddi iş aparılmalı, məsafədən yoxlama və məsafədən nəzarət imkanları genişləndirilməlidir. Bu prosesdə ən mühüm məsuliyyətlərdən biri də biznes subyektlərinin üzərinə düşür. Xüsusilə, orta və iri vergi ödəyiciləri beynəlxalq mühasibat uçotu sistemini tam tətbiq etməklə vergi orqanı ilə tam kontaktsız nəzarət mexanizminə keçməlidirlər.

## ƏDƏBİYYAT

1. Rzayev P.Q. Vergi stimullaşdırılması metodları sahibkar aktivliyinin yüksəldilməsi amili kimi // Azərbaycanın Vergi Jurnalı. 6 (120), 2014. s. 65-82
2. Musayev A. Vergi siyasətinin iqtisadi problemləri. Bakı, "Elm", 2004, 786 s.
3. Azərbaycan Respubiikasının Vergi Məcəlləsi, Bakı, Ozan, Qanun, 2019.
4. Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəsmi internet səhifəsi: www.taxes.gov.az.

## Summary

In modern times, the transition to a new level of tax revenues and attitudes to taxes, as well as public-business relations, has led to radical changes in the philosophy of tax control. In particular, the development of e-commerce and public-business relations online has revealed new approaches to both the methods and mechanisms of tax and tax control, as well as the nature of control. Thus, against the background of the challenges of the new business era, what are the opportunities to improve tax control mechanisms.

**Keywords:** tax control, state-business relations, tax administration, e-commerce, entrepreneurship.

**Резюме**

В наше время переход на новый уровень налоговых поступлений и отношения к налогам, а также общественно-деловые отношения привели к радикальным изменениям в философии налогового контроля. В частности, онлайн-развитие электронной коммерции и публично-торговых отношений представило новые подходы как к методам и механизмам налогового и налогового контроля, так и к природе контроля. Итак, какие есть возможности для совершенствования механизмов налогового контроля на фоне вызовов новой эры бизнеса.

***Ключевые слова:*** *налоговый контроль, государственно-деловые отношения, налоговое администрирование, электронная коммерция, предпринимательство.*

# BÖLMƏ 6
# XARİCİ-İQTİSADİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ

1. **i.e.d., prof. Kərimli İrşad Abdul oğlu, i.e.n., dos. Quliyev Asiman Aydın oğlu.** “Beynəlxalq iqtisadiyyata qovuşmaq yolunun başlanğıcı: Ulu Öndərin cəsarətli kursunun uğurları”. (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
2. **i.e.d., prof.Quliyeva Şəfa Tofiq qızı,doktorant Bayramov Sənan Rövşən oğlu.** “Heydər Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri və müasir Azərbaycan”(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
3. **müəllim Abdullayeva İradə Vaqif qızı.** “Müstəqil Azərbaycanın beynəlxalq aləmdə tanınmasında Heydər Əliviyevin misilsiz xidmətləri”.(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
4. **t.ü.f.d., dos. Aypara Səid qızı.** “Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əlaqələr: Azərbaycanda Rus İcması”.( AMEA A.A.Bakıxanov ad.Tarix İnstitutu)
5. **i.f.d., baş müəllim Təhməzova Ayibə Əyyub qızı.** “Heydər Əliyev və Azərbaycanda milli iqtisadiyyatın formalaşması mərhələləri”. (Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
6. **dissertant Əsgərova Məhsəti Rafiq qızı.** “Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası”.(Naxçıvan Dövlət Universiteti)
7. **Nəsibova Arifə Carı qızı.**“Müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatlar və inkişafın Azərbaycan modelinin yaradıcısı”.(Mingəçevir Dövlət Universiteti)
8. **t.ü.f.d. Həsənova Cəmilə Vaqif qızı.**“Müstəqil Azərbaycan Respublikasının Türkiyə Cumhuriyyəti ilə mədəni, siyasi, iqtisadi əlaqələri”.(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC)
9. **i.f.d. Sərdarov Elnur. “**COVID-19-un (yeni koronavirus) turizm sektoruna yüksək təsiri”.(Azərbaycan Dövlət İqtisad Universiteti – UNEC- Zaqatala filialı)
10. **доц. Ибрагимли Лала Надир,магистр Салимов Акшин Ариф.** “Азербайджано-Турецкие отношения в период правления ГЕЙДАРА АЛИЕВА: экономические, социальные, гуманитарные и культурные аспекты”. (Azərbaycan Memarlıq və İnşaat Universiteti)

**i.e.d., prof. İrşad Kərimli Abdul oğlu**
**i.e.n., dos. Asiman Quliyev Aydın oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*
*irshad.karimli@unec.edu.az*

# BEYNƏLXALQ İQTİSADİYYATA QOVUŞMAQ YOLUNUN BAŞLANĞICI: ULU ÖNDƏRİN CƏSARƏTLİ KURSUNUN UĞURLARI

**Xülasə**

Heydər Əliyev şəxsiyyəti haqqında, onun qurucu, yaradıcı fəaliyyəti haqqında fikir söyləmək, yalnız məqalə çərçivəsində deyil daha genişmiqyaslı yazılar yazmaq, həqiqətə-reallıga düzgün qiymət vermək istəyən hər bir azərbaycan vətəndaşından məsuliyyətli yanaşma tələb edir. İlk anda məsuliyyətli yanaşma cəsarət tələb etsədə hər halda tarix, onun real faktları və həqiqət həmin cəsarəti daha da gucləndirir. Mən də azərbaycan vətəndaşı və iqtisadçı alim kimi yüksək məsuliyyət hissi ilə Ulu Öndər Heydər Əliyevin iqtisadi quruculuğunun beynəlxalq iqtisadi əlaqələrlə bağlı bəzi önəmli məqamlarını bu yazi ilə oxucuların diqqətinə catdırmağı özumə borc bildim. Çünki Ulu Öndərin keçən əsrin 60-cı illərindən başlayaraq bu əsrin 1-ci onilliyinə qədər Azərbaycan Respublikasına rəhbərlik etdiyi 40 ilə qədər bir vaxtda tələbə səviyyəsindən elmlər doktoru, professor səviyyəsinə qədər yuksələn bir azərbaycan vətəndaşı kimi mənim ürəkdən gələn bu yazını və bu kimi daha ətraflı əsərlər yazmağa cəsarətim və məsuliyyətim vardır və Allah izn versə bundan sonrada olacaqdır.

***Acar sözlər:*** *Dahi şəxsiyyət, dövlət xadimi,beynəlxalq iqtisadiyyat, "əsrin muqaviləsi", milli sənayeləşmə, xalqın tələbi, zəfər qələbəsi.*

## Azərbaycanın milli iqtisadiyyatının beynəlxalq iqtisadiyyata qovuşmasında. İlkin və cəsarətli addım

Azərbaycanın, onun qurucu xalqının 2-ci dəfə müstəqillik yoluna qədəm qoymasından başlayaraq, müsbət hadisələr çox olsada hər halda bunların sırasında nəinki milli və daha çox beynəlxalq əhəmiyyətinə görə ilk əlamətdar hadisə Azərbaycana 2-ci dəfə rəhbərliyə gələn Heydər Əliyevin əzmkarlıgı ilə 1994-cü ilin sentyabrın 20-də Bakıda "Əsrin müqaviləsinin" imzalanması hesab edilə bilər. Azərbaycanın karbohidrogen ehtiyatlarının mənimsənilməsi dünyanın iqtisadi və siyasi güc mərkəzlərinin və digər nüfuzlu dövlətlərin diqqət mərkəzində olduğundan qeyd edilən muqavilənin bağlanmasının ilkin şərtlərini cətinləşdirmiş, iqtisadi və siyasi güc mərkəzlərinin mənafelərinin toqquşması da muşahidə olunmuşdur [4]. Mustəqil Azərbaycan dövləti gənc olmaqla yanaşı çətin sınaqlarla qarşılaşdığından daxili mənbələr hesabına köhnəlmiş neft-qaz sənayesini bərpa edib müasir tələblərə uyğun neft-qaz hasil etmək üçün həddindən çox illəri gözləmək lazım idi. 1993-cü ilin əvvəllərində mütəxəssislərin hesablamalarına görə Azərbaycan özunun maliyyə-iqtisadi imkanlarını düzəltməklə daxili mənbələr hesabına ölkədə neft-qaz yataqları ehtiyatlarının mənimsənilməsi üçün 30-40 il gözləmək lazım olduğunu əsaslandırmışlar. Heydər Əliyev cəsarəti və uzaqgörənliyi xarici neft şirkətlərini ölkəmizə dəvət etmək yoluna üstünlük verməklə xərici ölkələrin neft şirkətləri ilə razilaşmalara başlandı.

Xarici ölkələrin neft şirkətləri ilə ilk danişiqlar 1994-cü ilin martında Bakıda başladı və bir müddət sonra İstambulda davam etdirilməklə, həlledici mərhələ ABŞ-ın Hyuston şəhərində baş tutdu. Həlledici mərhələdə aparılan danışıqlarda kəskin məqamlar, dəqiqləşdirmələr çox oldugundan müzakirələr 45 gün (1994-cü ilin iyulun 21-dən sentyabrın 4-dək) davam etdirildi. Danışıqların uğurla nəticələnməsi daha çox Heydər Əliyevin Azərbaycan nümayəndə heyətinin

qarşısına qoyduğu düşünülmüş, iqtisadi diplomatiyanın inçə prinsiplərinə əsaslanan vəzifələrin təminatı ilə bağlı idi. Həmin təminat isə danışıqlarda iştirak edən tərəflərin maraqlarına, mənafelərinə uyğun gəlməli idi. Çünki, tərəflərin hər biri öz mənafeyini qoruyur və mövqeyini bildirirdi. Danışıqlar prosesində hətta regional problrmlərin bir cox cəhətlərinin tezliklə həllini Azərbaycan tərəfinin qarşısına qoyulmuş, əks halda danışıqların baş tutmayacağı fikri irəli sürülmüşdü. Belə problemlərdən biri və daha ziddiyyətlisi xəzər dənizinin statusu məsələsinin tezliklə həll edilməsinə Azərbaycanın nail olmasıdır. Belə bir problemin həlli muəyyən zaman tələb etməklə yanaşı Xəzər Dənizi hövzəsində yerləşən ölkələrin birgə səyi və razılaşmaları olmalıdır. Əsas məsələ Azərbaycanın Rusiya ilə danışıb razılığa gəlməsi daha sonra isə Xəzərətrafi bütün ölkələrin birgə iqtisadi, huquqi, ekoloji və siyasi razılaşmaları ilə regional və beynəlxalq səviyyəli muqavilə baglamalarıdır. Bu istiqamətdə Heydər Əliyevin uzaqgörən siyasəti ilkin hal kimi köməyə gəldi. Məlum oldu ki, Rusiya ilə həmin məsələ Heydər Əliyev tərəfindən razılaşdırılıb, yalnız 2002-ci ildə öz həllini tapacaqdır. Bu ABŞ-ın Hyuston şəhərində aparılan danışıqların gedişinə guclü təkan verdi. Əğər Heydər Əliyev vaxtı ilə Xəzər dənizinin statusunun müəyyən edilməsi barədə Rusiya ilə razılığa gəlməsəydi, həmin halda 1994-cu ildə Hyuston şəhərindəki neft kontraktları ilə bağlı danışıqlar dayandırılacaqdı.

Azərbaycan Respublikası üçün həyati əhəmiyyət kəsb edən və ölkənin müstəqil iqtisadi və siyasi inkişafı üçün həmin taleyüklu məsələnin şərtləri barədə Ulu Öndərə məlumat verildi və bütün bu prosesləri qabaqcadan görmək qabiliyyətinə malik olan Heydər Əliyev düşünülmüş və konkret təkliflərlə həmin illərdə ARDNŞ-nin xarici əlaqələr uzrə vitse-prezidenti vəzifəsində işləyən cənab İlham Əliyevi Vaşinqtona yola saldı. Azərbaycan numayəndə heyətinin qarşısına qoyulan şərtlərin necə yerinə yetiriləcəyi barədə Heydər Əliyevin təklifləri nəzərə alınaraq faydalı görüşlər kecirildi və bununla çox çətin məsələlər öz həllini tapdı.

**Böyuk siyasətin uğurlu davamı**

İqtisadi və siyasi müstəqillik yoluna yenicə qədəm qoyulan 90-cı illərin əvvəllərində Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrin hər hansı bir formasının qurulması üzrə xüsusəndə neft sazişləri sahəsində beynəlxalq səviyyədə danışıqlar aparmaq, xariçi şirkətlərlə sövdələşmələrdə iştirak etmək iqtidarına malik olan neftçi mütəxəssislərimizin kifayət qədər təcrübəsi yox idi. Lakin həyat eləbir nizamlı zərurət yaradır ki, bu təsadüfi görunsədə bütün hallarda həmin prosesin daxilində qanunauygunluq vardır. Bu qanunauygunlugu Heydər Əliyev əvvəlcədən görmüş, övladı İlham Əliyevi o vaxt Moskva Beynəlxalq Münasibətlər İnstitutuna daxil olmasını məsləhət bilmiş, eyniadlı ixtisasa qəbul olunaraq institutu müvəffəqiyyətlə bitirmişdir. Ata məsləhəti və nəsihəti ilə İlham Əliyev alimlik dərəcəsi alaraq ingilis dilini beynəlxalq iqtisadiyyat və hüquq istiqamətində dərin biliklərə malik peşəkar mütəxəssis kimi formalaşdığından 1994-cü il “Əsrin Kontraktı”-nın bağlanmasına nail olmaq üçün ABŞ-da tərəfdaş ölkələrin numayəndələri ilə birbaşa ünsiyyət qurub, cətin vəziyyətdən çıxış yollarını tapdı. Gərginliyi aradan qaldırmaq məharəti ABŞ-ın istər Hyuston və istərsədə Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə İlham Əliyevin böyuk siyasəti davam etdirmək baçarığını əyani olaraq göstərdi.

İstər xarici iqtisadi və siyasi fəaliyyət sahəsində, istərsədə idarəetmə sahəsində peşəkarlıq baçarıgı İlham Əliyevin prezidentlik dövrundə özünü daha aydın göstərmiş, neft və qaz erasının parlaq nümunəsi kimi Azərbaycan tarixinin parlaq səhifəsinə yazılmışdır [1]. Ümummilli lider Heydər Əliyevin neft və qaz strategiyasının cənab İlham Əliyev tərəfindən ugurla həyata kecirilməsi nəticəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamaqla, dünyanın enerji xəritəsini dəyişən bir dövlətə çevrilmişdır. Təsadüfi deyil ki, dünyanın aparıcı neft-qaz şirkətləri Azərbaycanın karbohidrogen ehtiyatlarının istismarı ilə bağli “Əsrin muqaviləsi“-ni növbəti 30 ilədək uzatmaq qərarına gəlməklə 2017-ci il sentiyabrın

14-də Bakının Heydər Əliyev Mərkəzində "Azəri-Çıraq-Günəşli" yataqlarının birğə işlənməsinə dair müqavilələr yenidən tərtib olunmuş, həmin müqavilələrin SOCAR və BP şirkətinin operatorluq etdiyi Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən imzalanması mərasimi olmuşdur. Mərasimdə yeni müqavilənin Azərbaycan üçün olduqca sərfəli şərtləri müəyyən edilmişdir. Neft-qaz yataqlarının birğə işlənməsinə dair müqavilədə edilən düzəliş və bununlada yeni tərtib olunan muqavilə şərtlərinə görə mənfəət neftinin bölgüsü mövcud olan nisbətdə saxlanılır. Belə ki, Azərbaycana 75%, podratçı tərəflərə 25% nisbətində müəyyən edilmişdir. Müqavilədə bu bölgünün 2050-ci ilədək dəyişməyəcəyi öz əksini tapmışdır. Podratçı qismində çıxış edən Azərbaycan Azəri-Çıraq-Günəşli (AÇG) şirkətinin mövcud layihə üzrə payı 11,6%-dən 25%-ə, yəni 2 dəfədən də çox artırılır. Müqavilə şərtlərinə görə tərəfdaş şirkətlər Azərbaycan hökumətinə 3,6 milyard dollar həcmində bonus ödəyəcəklər. Yataqlardan hasil edilən səmt qazı əvvəlki kimi bütünlükdə Azərbaycana qalacaq. Daha diqqətəlayiq cəhət 2050-ci ildək AÇG-dən daha 500 milyon tona qədər neft hasil edilməsidir [2].

**Ugurlu strateji iqtisadi nəaliyyətlərin beynəlxalq aləmə çatdırılması**

Azərbaycanın beynəlxalq aləmdə tanınmasında Heydər Əliyev şəxsiyyətinin əvəzolunmaz rolunu onun fəaliyyətinin bütün dövrlərində (istər sovetlər birliyi və istərsədə müstəqillik dövrlərində) əyani olaraq görünmüşdür. Fərəhlə demək olar ki, bir milyard ton (milyardıncı ton) neft Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövrundə 28 mart 1971-ci ildə çıxarıldığından həmin il aprelin 2-də Moskvada çox mötəbər bir rəsmi iclasda cıxış edərkən Azərbaycan rəhbəri Heydər Əliyev respublika neftçilərinin çox əlamətdar nəaliyyətləri haqqında məlumatı beynəlxalq aləmə çatdırdı. Ümummilli liderin sözləri ilə desək: Azərbaycan neftçiləri bu qocaman neft diyarının bütün tarixi ərzində yerin dərin qatlarından milyardıncı ton "qara qızıl" çıxarıblar.

Heydər Əliyevin uğurlu iqtisadi strategiyasını inamla davam etdirən İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində iki milyardıncı ton Azərbaycan nefti isə cənab prezident İlham Əliyevin rəhbərliyi dövrundə və onun özunun iştirakı ilə çıxarıldı. 2017-ci il noyabrın 8-nə təsadüf edən həmin tarixdə Bakıda, Heydər Əliyev mərkəzində təntənəli yıgıncaq keçirilmiş və həmin yığıncaqda prezident İlham Əliyev iki milyardinci ton neftin çıxarılması kimi uğurlu nəaliyyətlə əlaqədar Azərbaycan xalqını təbrik etmişdir. Bir iqtisadçı kimi deyə bilərik ki, Azərbaycanda neft hasilatının bütün dövrü ərzində iki milyard ton neftin çıxarılması həqiqətən əlamətdar tarixi hadisə hesab edilə bilər. Belə tarixi nəaliyyətin əldə edilməsi üçün Azərbaycana 150 ilə yaxın vaxt lazım olmuş, bunun 100 ili ilk milyard ton neftin cıxarılmasına 46 ili isə ikinci milyard ton neftin cıxarılmasına sərf olunmuşdur. Diqqətəlayiq cəhət odur ki, ikinci milyard ton nefti cıxarmaq iki dəfə az vaxta başa gəlməsi Azərbaycan respublikasının siyasi və iqtisadi mustəqilliyi ilə əlaqələndirilməli və bu mustəqilliyin müstəsna rolu nəzərə alınmalıdır.Real faktlara fikir versək aydin olurki, ikinci milyard ton neftin 300 milyon tonu keçmiş SSRİ dönəmində, 700 milyon tonu isə müstəqillik dönəmində çıxarılmışdır [2].

Strateji lahiyəsi və təşəbbüsü Heydər Əliyev tərəfindən hazırlanan "Cənub" Qaz Dəhlizinin 2018-ci il mayın 29-da Bakının Səngəçal terminalında açılması uğurlu strateji iqtisadi nəaliyyət kimi sürətlə beynəlxalq aləmə yayılaraq Azərbaycanın neft-qaz sənayesinin inkişafinda yeni dövrün başlanğıcını qoydu. Bu başlanğıc eyni zamanda, "Cənub" Qaz Dəhlizinin 2000 km-lik hissəsinin TANAP adı ilə beynəlxalq aləmdə tanınan Trans Anadolu Təbii Qaz Boru Kəmərinin açılşına təkan verdi və beləliklə də "Şahdəniz" qazının Cənubi Qafqaz ixrac boru kəməri TANAP vasitəsilə Türkiyəyə nəqlinə imkan yaratdı. Son illərə (2020-ci ilədək) Türkiyəyə TANAP-la 3,5 milyard kubmetr qaz nəql edimişdir. "Cənub" Qaz Dəhlizi çərçivəsində növbəti layihə olan TAP-ın da istismara verilməsi Avropada ən böyük infrastruktur layihə hesab olunan həmin dəhliz Heydər Əliyev ideyalarının təntənəsi hesab edilməklə Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin qələbəsi hesab edilir [3]. Diqqəti cəlb edən digər bir cəhət "Cənub Qaz Dəhlizi" özündə çoxsaylı ölkələri birləşdirməsi və bununlada dəhlizin beynəlxalq

əməkdaşlıq layihəsinə çevrilməsidir. Bu layihə Avropa ölkələri arasında əlaqələri dahada möhkəmləndirməklə yanaşı nəinki regional, daha çox beynəlxalq anlaşmaya yol açır.

**Müasir, innovasiya texnologiyalarına əsaslanan milli sənayeləşdirmə siyasətinin uğurlu nəticələri**

Azərbaycanda milli sənayeləşdirmə siyasətinin əsasını qoymaq və bu siyasəti ugurla həyata keçirməyin yollarını göstərməklə Heydər Əliyev ölkənin qeyri-neft sektorunun tərkibində emal sənayesinin prioritet yarımsahələrinin inkişaf istiqamətlərini də göstərmişdir. Təsadüfi deyildir ki, son illərdə (2018 və 2019-cu) ardıcıl olaraq əvvəlcə İtaliya şirkətləri ilə birğə layihə çərçivəsində Sumqayıt polipropilen zavodu istifadəyə verilməklə ildə 10 çeşiddə 184 min ton yüksəksıxlıqlı polietilen istehsal edilərək ölkənin daxili bazarının tələbatını tam ödəməklə yanaşı məhsulun qalan 75%-ni Avropa bazarlarına ixrac edir. Bunun ardınca Sumqayıt kimya Sənaye Parkının ərazisində "karbamid" zavodu, daha sonra isə yüksəksıxlıqlı polietilen zavodunun istismara verilməsi Azərbaycanda qeyri-neft sektorunun prioritet sahələrinin inkişafinda mühüm nəaliyyətlər hesab edilməklə Azərbaycanın milli iqtisadiyyətının beynəlxalq iqtisadiyyata qovuşması yolunda mühüm addımlar hesab edilə bilər.

Müasir beynəlxalq şəraiti və inkişaf etmiş ölkələrin təcrübəsini diqqətlə öyrənən Ümummilli lider Heydər Əliyev Azərbaycanın  iqtisadi inkişaf strategiyasının prioritetlərini muəyyən etmiş və bununlada ölkədə innovativ əsaslı muasir milli sənaye quruculugu istiqamətinə start verilmişdir.Dəqiqləşdirilən bu strateji istiqamətə uygun olaraq Azərbaycanda emal sənayesinin üstün inkişafının təmin edilməsinə əsaslı iqtisadi və siyasi dəstək verilir. Emal sənayesinin inkişafı yalnız Bakı və Sumqayıt şəhərləri ilə məhdudlaşmır, milli sənayenin cografiyası ölkə regionlarına dogru genişlənməkdədir. Bu istiqamətdə regionlarda sənaye  məhəllələrinin yaradılmasına diqqət artırılır, xüsusən Neftçala sənaye məhəlləsində son illərdən başlayaraq, yuksək texniki parametrlərə malik avtomobillərin istehsalına başlanılması, Masallı sənaye məhəlləsində, Mingəçevir sənaye parkında yüngül sənaye məhsulları istehsalı üzrə müəssisələr və digər istehsalatlar istismara buraxılmışdır.

Ölkəmizdə muasir sənaye quruculuğuna Heydər Əliyevin sənayeləşdirmə siyasətini uğurla davam etdirən ölkə prezidenti İlham Əliyev respublikada yeni emal sənaye muəssisələrinin açılmasına, mövcud muəssisələrin istehsal gücünün artırılmasına diqqəti daim artırır. Son ilədək  ölkədə sənaye parklarının və məhəllələrinin 70-dən çoxu yerli investorlar tərəfindən yaradılaraq bu işə 5 milyard manatdan çox investisiya yatırılıb. Perspektivdə regionlarda yünğül və qida sənaye müəssisələrinin yaradılmasına yerli investorların yatıracaqları investisiyaların məbləğinin daha da artırılacagı gözlənilir. Gözlənilənlər tədricən reallaşmaga başlayır. Belə ki, 2019-cu ildən etibarən Hacıqabul Sənaye Məhəlləsində "Azərmaş" ASC-nin Rusiyanın "Qaz Qrup" şirkəti ilə birgə xüsusi təyinatlı avtomobillərin istehsalının təməli qoyulmuş, istehsal gücü ildə 1000 ədəd avtomobil olan zavodun inşasına ilkin layihə üzrə 14 milyon manat vasait ayrılıb. Yerli və xarici sahibkarlar üçün bütün zəruri infrastruktur, xüsusən 20 hektar ərazidə 4 istehsal təyinatli bina, 937 kvadratmetr ərazini əhatə edən inzibati və texniki binalar inşa edilməkdədir [6]. Eyni zamanda, sənaye məhəlləsinin iştirakçılarına muxtəlif xidmətlər göstərəcək muasir ofis binaları, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana, muhasibatlıq, hüquq, bank, sıgorta və logistika strukturları yaradılmaqdadır. Diqqətəlayiq cəhət odur ki, Hacıqabul Sənaye Məhəlləsi yalnız avtomobil istehsalını deyil, daha geniş. yəni 7 layihə üzrə maşınqayırma, kompozit materiallar, tikinti materiallarının istehsal üçün avadanlıqlar, gübrə, plastik qablar istehsalı kimi sahələr yaradılır.

**Azərbaycanda özəl sektorun və milli sahibkarlığın formalaşmasına əsaslı töhfə**

Ölkəmizdə liberal iqtisadiyyatın və milli sahibkarlığın yaradılmasının real istiqamətini muəyyənləşdirən Ümummilli lider Heydər Əliyev eyni zamanda, müasir bazar iqtisadiyyatına transformasiya prosesini də ugurla həyata kecirmiş, özəl sektorda istehsal-təsərrüfat fəaliyyətinin əhəmiyyətli dərəcədə genişlənməsinə nail olmuşdur. Yalnız belə bir faktı qeyd etmək olarki, ölkənin ÜDM-də, məşgulluqda və vergidaxilolmalarında özəl bölmənin payı 70%-i ötüb. Son illərdə sahibkarlıq subyektlərinin sayı 4,3 dəfə, o cumlədən, sahibkarlıqla məşğul olan huquqi şəxslərin sayı 2 dəfə, fiziki şəxslərin sayı isə 5,1 dəfə artıb [5]. Bütün bunlar ökədə kiçik və orta sahibkarlıq subyektlərinə dəstək göstərilməsinə dair Heydər Əliyevin məqsədyönlu fəaliyyətinin nəticəsi, dövlətin milli sahibkarlara güzəştli kredit verməsinin, sahibkarların xüsusi və ümumdövlət mənafeləri üçün zəruri olan muxtəlif sahələrdə uğurla fəaliyyət göstərməsinin töhfəsidir. Milli sahibkarlara dövlət dəstəyinin guclǝndirilməsinə dair Heydər Əliyevin göstərişləri yalnız güzəştli şərtlərlə kreditlərin verilməsi ilə məhdudlaşmır, eyni zamanda, sahibkarların sosial-iqtisadi və təşkilatçılıq imkanlarının genişləndirilməsi baxımından investisiyaların və ixracın təşviqinin işə salınması ilə də köməklik göstərilməlidir. Daha əhəmiyyətlisi sahibkarlıq subyektlərində yoxlamaların azaldılması, lisenziya tələb olunan fəaliyyət növlərinin sayının məhdudlaşdırılması, həmçinin, yeni texnologiyaların tətbiqi, müasir elm və innovasiyaların şərtləndirdiyi yeni təcrübənin mənimsənilməsi istiqamətində də sahibkarlara köməklik göstərilir.

Ulu Öndərin uğurlu daxili və xarici iqtisadi siyasəti nəticəsində milli iqtisadiyyatımızın davamlı və dayanıqlı inkişafı təmin edilmiş, əlverişli biznes və investisiya mühiti yaradılmış, tədricən isə beynəxalq rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalı genişlənməkdədir. Bu istiqamətdə yaradılan "sahibkarlığa xidmət" və "biznes inkubasiya" mərkəzlərinin fəaliyyətə başlaması diqqəti cəlb etməlidir. Hər iki mərkəz milli sahibkarlara göstərilən xidmətlərin keyfiyyətini, özəl sektorun güzəştli maliyyələşdirilməsində səmərəliliyi daha da artırmağa kömək edir. Belə ki, təşəbbüskar, yaradıcı, sahibkarlara, xüsusən startapçı sahibkarlara muasir informasiya texnologiyalarının imkanlarından daha geniş istifadə imkanları yaradılıb. Hər bir sahibkarın müraciəti operativ qaydada cavablandırılır. Mərkəzlər həmçinin, hüquqi, iqtisadi, sosial və sair məlumatları toplayır, daxili və xarici bazarın konyunkturasını öyrənir, qabaqcıl beynəlxalq təcrübədən bəhrələnməyin yolları izah edilir. Daha diqqətəlayiq odur ki, sahibkarlıq fəaliyyətinə başlamaq istəyən təşəbbüskar, innovativ ideyası olan gənclərə dəstək verilir, startapçıların yeniliklərinin həyata keçirilməsinə şərait yaradılır.

Azərbaycanda liberal iqtisadiyyatın və biznes mühitinin formalaşması istiqamətində Heydər Əliyevin daxili və xarici iqtisadi siyasətinin tədricən həyata keçməsi ölkənin ixrac potensialının genişlənməsinə əsaslı töhfələr verir. Faktlar göstərir ki, son ildə Azərbaycanın xarici ticarət əməliyyatlarının orta rüblük həcmi 5,5 milyard dollardan çox olmuş, bunun 2,2 milyard dolları idxalın, 3,3 milyard dolları isə ixracın payına düşmüşdür. 2020-ci ildə Azərbaycandan dunyanın ayrı-ayrı bölgələrinə ixrac olunan malların həcmidə artmışdır. Nəticədə vergi və gömrük orqanları son bir ildə plandan əlavə xəzinəyə 1 milyard manat vəsait köçürdülər.

## Güclü dövlət və ordu qurucusu, Qarabağ torpaqlarının işğaldan azad edilməsinin istiqamətləndiricisi

Milli adət-ənənələrə, etnik,dini və mədəni əsaslara söykənən, milli ideologiya ilə silahlanan Azərbaycan turkləri özunun tarixində xarici pisniyyətli təsirlər qarşısında möhkəm dayanmaq əzmini daim nümayiş etdirmiş,öz dövlətinin əsaslarını daha güclü etməyə çalışmışdır. Azərbaycan özünün zəngin dövlətçiliyi tarixində güclü dövlət və ordu yaratmaq əzmi hər zaman diqqət mərkəzində saxlanılmışdır. Bu hal, bu gundə belədir və gələcəkdə də belə olacaqdır. Bu gun ciddi sınaqlarla qarşılaşan Azərbaycan dövləti,ordusu, xalqı və onun prezidenti, Ali Baş komandan İlham Əliyev güclü siyasi hakimiyyətə,orduya, milli vəhdətə,ideya

birliyinə əsaslanaraq, işğalçı Ermənistan ordusunu məğlubiyyətə uğradaraq torpaqlarımızdan çıxarmışdır.

Müasir Azərbaycan tarixinə şərəfli və zəfərli dövr kimi yazılacaq unudulmaz qələbənin əsası və bu qələbənin uğurlu istiqamətləri Ümummilli lider Heydər Əliyevin 1993-cu ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra formalaşmağa başlayan, ölkəmizdə güclü dövlətin ən bariz nümunələrindən biri kimi özünü göstərən qüdrətli və muasir Azərbaycan Ordusudur. Real faktlara və arqumentlərə əsaslanaraq qeyd edə bilərik ki, Heydər Əliyevin görkəmli dövlət və siyasi xadim olması ilə yanaşı eyni zamanda, peşəkar hərbiçi olması təbii olaraq ordu quruculuğunun bütün cəhətlərini yerli-yerində olmasını da təşkil etməyi bacarırdı. Azərbaycan iqtisadi müstəqillik əldə etdiyi gündən başlayaraq, 1993-1994-cü illərə qədər ölkədə bəzi siyasi partiyaların eqoist maraqlarına xidmət edən dağınıq silahlı dəstələrin buraxılması və onların fəaliyyətinin qanundan kənar hesab edilməsi dövrünü nəzərə almasaq, ordu quruculuğu Azərbaycanda 1994-cü ilin mayından atəşkəsin elan edilməsindən sonra geniş miqyasda aparılmağa başladı. Əsaslı islahatlarla başlayan həmin quruculuq ayrı-ayrı qoşun növlərinin yaradılması, onların hərbi texnika və ləvazimatı diqqət mərkəzində saxlanılır.

Yüksək döyüş hazırlığına və müasir silahlanmaya üstünlük verən Heydər Əliyevin Azərbaycan torpaqlarını erməni işğalçılarından azad etmək və ərazi bütövlüyümüzü qorumaq siyasətini və strategiyasını, ordu quruculuğu ilə bağlı başladığı taleyüklü işlər ölkə prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Azərbaycan ərazisini erməni işğalçılarından təmizləmək, təhlükəsizliyini qorumağın etibarlı dayağı olan Ordu quruculuğuna nail olmaq və Silahlı Qüvvələrin yüksək döyüş hazırlığı səviyyəsinə gətirilməsi yolunda çox gərgin və səmərəli iş aparılmış və indi də aparılmaqdadır. İşğalçı Ermənistan ordusunun işğal etdiyi Qarabağ torpaqlarında 44 günlük vətən müharibəsi müddətində darmadağın edərək əzəli ərazimiz geri alınmış, həmin ərazilərin əsl sahiblərinin məskunlaşması üçün şəraitin yaradılmasına başlanılmışdır. Görüləsi işlər çətin və şərəflidir. Çətinlik əsasən, qəddar ermənilər tərəfindən minalanmış ərazilərin minalardan və digər hərbi sursatlardan təmizləmək, tamamilə dagıdılmış kənd, qəsəbə, rayon və şəhərlərimizi bərpa etməklə dinc yaşayışı təmin etməkdir. Bunun üçün Azərbaycan dövləti onun ordusunun Ali Baş komandanı İlham Əliyev ordunun döyüş qabiliyyətinin daim artırılması, mütərəqqi hərbi texnikaya və ən son hərbi texnologiyalara yiyələnmək istiqamətində işlər aparır. Bir tərəfdən quru qoşunlarının, digər tərəfdən hərbi hava quvvələrinin, başqa bir tərəfdən hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları müasir döyüş tələbləri səviyyəsinə çatdırılır.

## Ədəbiyyat

1. Aqşin Şahinoglu. Özəl sektorda məhsul istehsalının həcmi əhəmiyyətli dərəcədə artıb. Yeni Azərbaycan qəzeti. 4 aprel 2019-cu il
2. İlham Əliyev "İnkişaf məqsədimizdir". 76-ci cild. Bakı, 2019
3. İrşad Kərimli. Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri. "Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası " adlı məqalələr toplusu.- Bakı – UNEC.2019 cu il, 328 səhifə
4. İrşad Kərimli, Nizami Süleymanov. Milli iqtisadiyyatın əsasları. Bakı, 2001. 307 səh.
5. Mübariz Abdullayev. Azərbaycanın regionlarında sənaye istehsalatlarının yaradılmasına investisiya qoyuluşları artır. Yeni Azərbaycan qəzeti. 14 fevral 2019-cu il
6. Xoşbəxt Yusif-zadə. Ulu Öndərin uğurlu neft-qaz strategiyası. Respublika qəzeti 24 dekabr 2019.-cu il

**i.e.d., prof. Quliyeva Şəfa Tofiq qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
Shafa_Guliyeva@unec.edu.az

**doktorant Bayramov Sənan Rövşən oğlu**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
Senan.bayramov@gmail.com

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ İNKİŞAF STRATEGİYASININ ƏSAS İSTİQAMƏTLƏRİ VƏ MÜASİR AZƏRBAYCAN

*"İqtisadiyyatı qüdrətli olan dövlət hər şeyə qadirdir"*
**HEYDƏR ƏLİYEV**

*"İqtisadi inkişaf strategiyasını elmi əsaslar üzərində quran və hər zaman mütərəqqi ənənələrə istinad edən dövlətlər dinamik inkişafa nail olur"*
**İLHAM ƏLİYEV**

**Xülasə**

Bəşər tarixində parlaq iz qoymuş böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində Azərbaycan bugün dünya miqyasında xüsusi nüfuza malikdir. Ümummilli lider Heydər Əliyevin milli inkişaf konsepsiyası ölkəmizdə dövlət quruculuğu prosesinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün şərait yaratmışdır. Ulu Öndər Heydər Əliyev ölkə iqtisadiyyatının inkişafını dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi dəyərləndirirdi. Heydər Əliyevin iqtisadi islahatların həyata keçirilməsi istiqamətində baxışlarını səciyyələndirən ən vacib xüsusiyyət-islahatların həyata keçirilməsi istiqamətlərinin düzgün proqnozlaşdırılması idi. Yeni təsərrüfatçılıq formalarının meydana gəlməsi, sahibkarlığın inkişafı, təşəbbüskarlığın genişləndirilməsinə imkan verən iqtisadi islahatlar Heydər Əliyev tərəfindən bazar iqtisadiyyatına gedən yolda əsas vasitə kimi qiymətləndirilmişdir. Sahibkarlığın ümumi islahatlar sistemində yerinin düzgün müəyyənləşdirlməsi, sahibkarlıq fəaliyyəti üçün zəruri şərait yaradılması, dövlət tərəfindən maliyyə və hüquqi cəhətdən dəstəklənməsinin əsası məhz Ulu Öndər tərəfindən qoyulmuşdur. Heydər Əliyevin iqtisadi inkişaf strategiyası çərçivəsində həyata keçirilən iqtisadi islahatlar Azərbaycan dövlətçiliyinin iqtisadi və sosial dayaqlarının güclü təməllər üzərində möhkəmləndirdi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş demokratik dövlət quruculuğu və bazar prinsiplərinə əsaslanan sosial-iqtisadi inkişaf siyasəti bugün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu siyasətin nəticəsində ölkənin iqtisadi qüdrətinin daha da artırılması, qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, xalqın rifah halının yaxşılaşdırılması istiqamətində mühüm nailliyətlər əldə edilmişdir.

***Açar sözlər:*** *Ümummilli lider, Ulu Öndər, iqtisadi inkişaf strategiyası, iqtisadi islahatlar, dövlət müstəqilliyi.*

Milli dövlətçiliyimizin qurucusu, Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi, xilaskarlıq missiyasını həyata keçirmiş qüdrətli şəxsiyyət, dövlət müstəqilliyinin banisi olaraq, cəmiyyət həyatının bütün sahələrini əhatə edən əvəzsiz xidmətləri ilə adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk etmişdir.

Möhkəm siyasi iradə, cəsarətli milli mövqe, dönməz mübarizə əzminə malik dahi şəxsiyyət olan Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü hər bir azərbaycanlı tərəfindən dərin məhəbbət və yüksək ehtiram ilə qeyd edilir. XX əsrin II yarısından etibarən

mənsub olduğu xalqın tarixi müqəddaratında həlledici rol oynayan Ulu Öndər Heydər Əliyev hələ sovet hakimiyyəti illərində Azərbaycan xalqının milli mənafelərinin qoruyub saxlanması və inkişaf etdirilməsi üçün böyük addımlar atmışdır. Azərbaycanda Sovet İttifaqının ən sərt dövrlərində Heydər Əliyevin özünəməxsus siyasətlə azərbaycançılıq istiqamətində həyata keçirdiyi tədbirlər gələcək dövlət müstəqilliyinin təməl sütunlarına çevrilmişdir.

Azərbaycana rəhbərlik etdiyi birinci dövrdən (1969-1982-ci illər) Ümummilli lider Heydər Əliyev milli ruhun dirçəlişi istiqamətində əzmlə fəaliyyət göstərdi. Ulu Öndərin səyi ilə SSRİ hökuməti Azərbaycanla əlaqədar intensiv inkişaf və hərtərəfli yüksəlişi nəzərdə tutan mühüm qərarlar qəbul etdi. Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 1969-1982-ci illər arası və gələcək perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələlərin həlli üçün zəmin yaratdı. Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gələndə onun böyük zəhmət hesabına inkişaf etdirdiyi iqtisadiyyat tamamilə dağılmış,Azərbaycan öz müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmış, ölkəmiz iqtisadi cəhətdən xarici ölkələrdən tamamilə asılı vəziyyətə düşmüşdü. Ulu Öndər çevik siyasəti ilə ölkəmizdə tez bir zamanda sabitliyi təmin edərək dövlətçiliyi qorunub saxladı və inkişaf etdirdi. Ümummilli lider qeyd etmişdir: "Azərbaycan xalqının birliyi yeni,demokratik, heç kəsdən asılı olmayan dövlət qurulması yolu ilə təmin oluna bilər. Xalqın müqəddəratı hər şeydən üstün olmalıdır. Azərbaycan xalqı birləşməli,öz müqəddəs doğma torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır". [1]

Ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətə gəlişi ölkəmiz, millətimiz üçün çox mürəkkəb dövrlərə təsadüf etmişdir. Müdrik rəhbər və uzaqgörən siyasətçi olan Heydər Əliyev hər dəfə mövcud problemləri müvəffəqiyyətlə həll edərək, xalqın ona bəslədiyi ümidləri doğrultmuş, qətiyyət nümunəsi göstərərək Azərbaycan xalqının gələcək taleyi ilə bağlı məsələlərdə böyük fədakarlıqla prinsipial vətənpərvərlik mövqeyini nümayiş etdirmişdir.

1990-cı ilin yayında Moskvadan Vətənə qayıdan Ulu Öndərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi illər Azərbaycanın istiqlalı yolunda xüsusi mərhələ olmuşdur. Heydər Əliyevin Muxtar Respublikaya rəhbərlik etməsi ölkəmizin bu qədim diyarının erməni təcavüzündən xilas olmasında başlıca rol oynamışdır. 1993-cü ilin 15 iyununda Azərbaycan xalqının ən mürəkkəb bir zamanında xalqın təkidlə Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etməsi nəticəsində müdrik siyasətçi və təcrübəli dövlət xadimi olan Ümummilli liderin hakimiyyətə tarixi qayıdışı ilə Azərbaycan tarixinin Heydər Əliyev dövrü özünün daha şanlı və əzəmətli mərhələsinə qədəm qoydu.

Ulu Öndər Heydər Əliyevin böyük siyasətdən getməsi xalqımız üçün çox ağır müsibətlərə səbəb olmuşdu. Nəticədə Sumqayıt hadisələri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi, Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən bu ərazidə yaşamış 250 min azərbaycanlı öz doğma yurdlarından zorla qovulmuş, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20%-i Dağlıq Qarabağ və ətraf 7 rayonun ərazisi işğal edildi.20 Yanvar hadisələrinə Ümummilli lider Heydər Əliyevin münasibəti belə olmuşdur : "Münasibətim ondan ibarətdir ki,19-20 yanvar 1990-cı il hadisələri,Bakıda baş vermiş hadisələr faciəvi hadisədir və mən belə hesab edirəm ki, Azərbaycanın 1920-ci ildən sonrakı tarixində belə faciəvi hadisə olmamışdır. Bu,xalqın böyük hiddətini doğurmuşdur". "Bu, Azərbaycan xalqına qarşı törədilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir. Və mən şəxsən bu hadisələri eşidərkən, yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gedib öz fikrimi söyləmişəm, bütün bu aksiyanı,bu əməliyyatı pisləmişəm".[2]

Ümummilli lider Heydər Əliyevin ən böyük arzularından biri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, zəbt olunmuş torpaqlarımızın erməni işğalından azad edilməsi, soydaşlarımızın ata-baba yurdlarına qayıtmaları idi. Ulu Öndər bunun üçün var qüvvəsi ilə çalışırdı və bu istiqamətdə çox böyük işlər görə bildi. Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "Dağlıq Qarabağ məsələsi Azərbaycanın müstəsna səlahiyyətinə daxildir və onu Azərbaycan

Respublikası özü həll etməlidir". [3] "Çıxış yolu birdir, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsidir. Dağlıq Qarabağ Azərbaycanın tərkibində olub və gələcəkdə də daim olmalıdır və Dağlıq Qarabağda vəziyyəti ancaq bu şərtlə həll etmək olar. Bunun başqa yolu yoxdur" . [4]

Xalqın çağırışı ilə ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi yarandığı, siyasi böhran yaşandığı, Ermənistan təcavüzü gücləndiyi bir vaxtda Ulu Öndər hakimiyyətə qayıtdı. Ümummilli lider Heydər Əliyevin birinci hakimiyyət dövrü Azərbaycan dövlətçiliyinin gələcək müstəqilliyinin siyasi, iqtisadi əsaslarını formalaşdırılmasına istiqamətləndirilmiş idi. Ulu Öndərin ikinci dəfə hakimiyyətə qayıdışı isə əsl Qurtuluş oldu, milli müstəqil dövlətimizin qorunması və möhkəmləndirilməsi baxımından həlledici rol oynadı.

Ümummilli lider Heydər Əliyev hakimiyyətə möhtəşəm Qayıdışı ilə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi, ölkəmizi türk dünyasının qabaqcıl məmləkətlərindən birinə çevirdi. Heydər Əliyevin fəaliyyətində hər zaman türk dünyasının qüvvələrini birləşdirmək və beynəlxalq nüfuzunu gücləndirmək ideyaları və səyləri xüsusi yer tuturdu. Ulu Öndər qeyd edirdi ki, "Azərbaycan türk diyarıdır, Azərbaycanlılar türklərdir" [5]

Müasir Azərbaycan dövlətinin qurucusu, xalqının və dövlətinin inkişafı naminə əvəzsiz işlər görmüş Ümümmilli lider Heydər Əliyev hər zaman qurur hissi ilə xatırlayacağımız dahi bir şəxsiyyətdir. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən dahi tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan bir şəxsiyyətdir. Azərbaycan tarixinin ən ağır zamanında - 1993-cü ilin iyun ayından etibarən ikinci dəfə respublika rəhbərliyinə qayıdan Ulu Öndər bu dövrdən başlayaraq ölkədə baş verən proseslərin və həyata keçirilən islahatların bütün istiqamətlərinin təşkilatçısı olmuşdur. İslahatların həyata keçirilməsində hər bir sahəyə məxsus olan spesifik xüsusiyyətləri nəzərə alan Ümumilli lider bu islahatların son nəticə etibarilə sosialyönümlü olmasının hədəf kimi seçilməsini xüsusilə zəruri hesab edirdi. Bu yanaşma eyni zamanda, Azərbaycanda həyata keçirilən islahatların əsas meyarı kimi istehsalın səmərəliliyinin yüksəldilməsi və bu əsasda xalqın həyat səviyyəsinin yüksəldilməsində özünü büruzə verən sosialyönümlü bazar iqtisadiyyatı modelinə üstünlük verilməsini bir daha sübut edir. Ulu Öndərin iqtisadi islahatların həyata keçirilməsi istiqamətində baxışlarını səciyyələndirən ən vacib xüsusiyyət – islahatların həyata keçirilməsinin istiqamətlərini düzgün proqnozlaşdırmaqdan ibarət idi. Yeni təsərrüfatçılıq formalarının meydana gəlməsi, kiçik sahibkarlığın inkişafı, təşəbbüskarlığın genişləndirilməsinə imkan verən iqtisadi islahatlar Heydər Əliyev tərəfindən bazar iqtisadiyyatına gedən yolda əsas vasitə kimi dəyərləndirilmişdir. Sahibkarlığın ümumi islahatlar sistemində yerinin düzgün müəyyənləşdirilməsi, sahibkarlıq fəaliyyəti üçün zəruri şərait yaradılması, dövlət tərəfindən maliyyə və hüquqi cəhətdən dəstəklənməsinin əsası məhz Ulu Öndər tərəfindən qoyulmuşdur.

Sahibkarlığın inkişafı ilə yanaşı dövlət mülkiyyətinin özəlləşdirilməsi iqtisadi islahatların həyata keçirilməsində bir tamlıq, vəhdətlik yaratmış oldu. Ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafını sürətləndirdi. İqtisadi islahatların keçirildiyi zaman ümumi sosial-iqtisadi vəziyyətin aqrar sektorda aparılan islahatlarla qarşılıqlı əlaqə və asılılığının təmin edilməsi Heydər Əliyev iqtisadi islahatlar strategiyasının əsas istiqamətlərindən biri idi. Ən başlıcası isə ondan ibarətdir ki, iqtisadi islahatlar strategiyası liberallaşma ilə sosial-iqtisadi inkişaf arasında sinergetik bir vəhdət təşkil etmişdir. Beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrin genişləndirilməsini Heydər Əliyev Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının, ölkədə həyata keçirilən iqtisadi islahatların uğurla nəticələnməsinin əsas şərti hesab edirdi. Ümummilli lider ölkə iqtisadiyyatının dünya standartlarına uyğun inkişafını dayanıqlı sosial-iqtisadi inkişafın təmin edilməsində əsas vasitə kimi dəyərləndirirdi. Yeni iqtisadi sistemin formalaşdırılmasında Ulu Öndər müvafiq qanunvericilik bazasının yaradılmasına xüsusi əhəmiyyət verərək, qanunların aliliyinin təmin olunmasını iqtisadi islahatların uğurla həyata keçirilməsi üçün başlıca zəmin hesab edirdi.

Dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olan Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatlar geniş beynəlxalq dəstək aldı. Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə sıx əməkdaşlıq şəraitində hazırlanmış proqrama uyğun olaraq iqtisadiyyatın liberallaşmasına istiqamətlənən islahatların həyata keçirilməsi nəticəsində ölkəyə tezliklə makroiqtisadi səviyyədə maliyyə sabitliyinin təmin edilməsinə nail olundu. Eyni zamanda, demokratik prinsiplər əsasında vətəndaş cəmiyyəti quruculuğu prosesi həyata keçirilməyə başlandı. Ümumi lider Heydər Əliyevin müdrik daxili və xarici siyasəti Azərbaycanın müstəqiliyyin əbədi yolu ilə inamla irəliləməsi üçün əsaslı zəmin yaratdı. 2000-ci ildən başlayaraq, Azərbaycan iqtisadiyyatının bütün sahələri davamlı inkişaf yoluna çıxdı,işsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü.Heydər Əliyev xüsusilə də Azərbaycanın qeyri-neft sektorunda böyük imkanların hamısından istifadə olunmasını, iqtisadiyyatın bütün sahələrinin inkişafı əsasında əhalinin rifahının yüksəlməsini,işsizliyin və yoxsulluğun azaldılmasını əsas strateji vəzifələr kimi müəyyənləşdirdi.[6] Ulu Öndər Heydər Əliyev 2003-cü il noyabr ayının 17-də Respublika hökumətinin ilk iclasında qeyd edirdi ki, “Biz müstəqil Azərbaycanı 10 ildə yaradılmış möhkəm təməl üzərində zəngin və qüdrətli dövlətə çevirəcəyik” .[7] Ümummilli lider “Azərbaycan Respublikasında sosial iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 24 noyabr 2003-cü il tarixli fərmanında Azərbaycanda irəliyə doğru inkişafın strategiyasını müəyyən etdi .[8]

Azərbaycanın inkişaf strategiyasının əsasını qoymuş görkəmli dövlət xadimi, dahi şəxsiyyət, ümumilli lider Heydər Əliyevin zəngin irsi dövlətçiliyimizin tərəqqisi naminə xalqımız üçün böyük qürur mənbəyidir. Ulu Öndər respublikamıza rəhbərlik etdiyi dövrlərdə (1969-1982 və 1993-2003) hər zaman Azərbaycanın milli maraqlarını uca tutmuşdur. Heydər Əliyev təcrübəli dövlət başçısı və görkəmli siyasi xadim kimi xalqımızın milli dəyərlərinə, tarixi soykökünə, adət-ənənələrinə, dövlətçilik prinsiplərinə sadiq qalaraq, Azərbaycanın ideoloji fəaliyyət strategiyasının məhz bu amillər üzərində qurulması kimi mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. 1993-cü ilin ikinci yarsında Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı zamanı ilk səsləndirdiyi “Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!”, yaxud “Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!” çağırışı müstəqil dövlətçilik ideyalarının bərqərar olunması istiqamətində fəaliyyətin əsas göstəricisi kimi çıxış edir.

Məlumdur ki, Azərbaycanda 1993-cü ilin iyun ayına qədər səriştəsiz siyasi hakimiyyətlərin bacarıqsız idarəçiliyi səbəbindən xalqımızın müstəqillik arzuları gerçəkləşə bilməmiş, ölkəmiz yenidən müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. İqtisadi böhranın daha da dərinləşməsi, ölkəmizdə mövcud olan anarxiya və talançılıq dövlət müstəqilliyini getdikcə daha boğurdu. Digər tərəfdən isə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti daha da genişlənirdi. Belə bir şəraitdə Azərbaycan xalqı ölkəmizin xilaskarlıq missiyasını Ulu Öndər Heydər Əliyevə həvalə etdi. Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilası tarixi kimi əbədi olaraq xalqın yaddaşına həkk olundu. Heydər Əliyev qeyd edirdi ki, “ Azərbaycan Respublikası müstəqil olmalıdır, suverenliyini təmin etməlidir. Ərazi toxunulmazlığını və siyasi, iqtisadi suverenliyini təmin etməlidir və mən buna böyük ümid bəsləyirəm. Belə hesab edirəm ki, buna nail olmaq Azərbaycan xalqının özünün ixtiyarındadır ”.[9] Ümummilli liderin hakimiyyətə qayıdışı ictimai şüurda ölkəmizin müstəqilliyinin təminatı kimi yadda qaldı. 15 iyun 1993-cü il Azərbaycanın müasir tarixinin dönüş nöqtəsi kimi xalq tərəfindən ictimai-siyasi sabitliyin təmin olunması kimi dəyərləndirilir. 1993-cüil oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkəmizin demokratiya yolu ilə gedəcəyini bəyan edərək ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı strateji inkişaf paradiqmalarını müəyyənləşdirdi. Onun birbaşa rəhbərliyi altında müstəqil Azərbaycan Respublikasının Konstitusiyası işlənib hazırlandı və ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Təcrübəli dövlət xadimi olan Heydər Əliyev dövlət quruculuğu sahəsində ardıcılsiyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün möhkəm zəmin yaratdı. Ulu Öndər Heydər Əliyev qeyd

edirdi ki, "Müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl Respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm,insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir. Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq, bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır". [10] Ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı günə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhranı aradan qaldırdı, Qarabağ cəbhəsindəki uğursuzluqların qarşısı alındı, vətəndəki sülhü təmin etdi. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji əhəmiyyət kəsb edən möhtəşəm qələbəsi idi. 1998-ci il oktyabrın 11-də Ulu Öndər yenidən yekdilliklə Azərbaycan Respublikası Prezidenti seçildi. Bu bir daha Ümummilli liderə olan sonsuz inamı, etimadı və məhəbbəti sübut etdi. Ulu Öndər Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illərində xalqımıza yeni, firavan və müstəqilliyi daha da möhkəmləndirilmiş Azərbaycan bəxş etdi. Məhz bu səbəbdən həmin illər şərəfli bir ömrün qızıl salnaməsi kimi xalqın yaddaşında əbədi qaldı. Ölkəmizin bugünkü yüksək inkişafı və tərəqqisi Ümummilli lider Heydər Əliyev ideyalarından güc alır və bu həmişəyaşar ideyalara daim istinad edir. Başqa sözlə desək, Heydər Əliyevin müəllifi olduğu ideyalar bəşəri məzmun daşıdığına görə bugünkü uğur və nailiyyətlərimiz də həmin mənbələrə söykənir. Bu baxımdan Heydər Əliyevin yaratdığı zəngin irs bugünkü Azərbaycanın hərtərəfli inkişafının başlıca prioritet istiqaməti və gələcək tərəqqisinin strateji proqramıdır.

Bəli, qürur və fəxarət hissi ilə deyirik ki, ölkəmizin bugünkü inkişafı dahi şəxsiyyət Heydər Əliyev tərəfindən hazırlanmış mükəmməl bir proqramdır. Heydər Əliyev mövqeyi və ideyaları xalq tərəfindən qəbul və təsdiq edilən həqiqət konsepsiyasıdır. Ona görə ki, Azərbaycan tarixinin müdriklik zəkasından qaynaqlanan Heydər Əliyev ideyaları milli mentalitetimizin bütün atributlarını və prioritet məsələlərini sistemli şəkildə əhatə edir. Heydər Əliyev şəxsiyyəti ümumxalq zəkası ilə ayrılmaz bir vəhdətdə, vahid bir ideyada birləşmişdir. Heydər Əliyev Azərbaycan xalqının yaradıcılıq potensialına müstəqillik ideyalarında birləşdirən Ümummilli lider və müqəddəs rəhbər olmuşdur.

Heydər Əliyev böyük bir şəxsiyyət kimi cəmiyyətin sivil inkişafını hər bir fərdin maraq və mənafelərinin etibarlı təminatında görərək bütün zəruri tədbirləri həyata keçirmişdir. Böyük Öndərin irəli sürdüyü milli ideya Azərbaycanın tarixi ənənələrini və müasir dəyərləri özündə birləşdirən yeni inkişaf strategiyasının təməlini təşkil etmişdir. İctimai-siyasi sabitlik bu strategiyanın əsas dayaqlarından biri kimi çıxış etmişdir. Əlbəttə ki, sabitliyə nail olmadan yeni və daha mütəşəkkil idarəetmə sisteminə keçidi reallaşdırmaq mümkün deyildir. Bu gün ciddi əsaslara malik ictimai-siyasi sabitliyin hökm sürdüyü, iqtisadiyyatı inkişaf edən, əhalinin etibarlı sosial müdafiəsini təmin edən müstəqil Azərbaycan xarici siyasət sahəsində də fəal diplomatik əlaqələrə malikdir.

Ümummili lider Heydər Əliyevin qətiyyətli əzmi sayəsində Azərbaycanda demokratik dövlət yaradılması üçün yeni iqtisadi sistemin formalaşması, iqtisadiyyat sahəsində demokratik islahatların həyata keçirilməsi zərurəti ön plana çəkildi, bazar iqtisadiyyatının formalaşması üçün müvafiq hüquqi baza yaradıldı. Özəlləşdirmə, sahibkarlığın inkişafı, maliyyə sisteminin yenidən qurulması, liberallaşdırma, rəqabətin inkişafı, əhalinin sosial müdafiəsini təmin edən mühüm qanunvericilik aktları qəbul edildi.

Ulu Öndər Heydər Əliyev bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesi zamanı dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını daim xüsusi diqqət mərkəzində saxlamışdır. Həmin dövrdə qarşıya qoyulmuş strateji məqsədlərin reallaşdırılması məqsədilə sosial-iqtisadi inkişaf prosesində xarici kapital amilinin zəruriliyini qeyd edən Ulu Öndər Heydər Əliyev xarici şirkətlər ilə birgə Xəzərin Azərbaycan sektorundakı zəngin neft ehtiyatlarının mənimsənilməsini nəzərdə tutan müqavilələrin imzalanmasına xüsusi

əhəmiyyət vermiş,investisiya layihələrinin həyata keçirilməsinin başlıca şərti kimi müstəqil Azərbaycanın yeni neft strategiyasının işlənib hazırlanmasına rəhbərlik etmişdir.

Heydər Əliyev respublika iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsində məhz özəl sektoru sosial-iqtisadi inkişafın başlıca təlimatçısı kimi dəyərləndirilmiş, güclü sahibkarlar təbəqəsinin cəmiyyətdəki mövqeyinin güclənməsinə çalışmışdır. Dövlət sahibkar münasibətlərinin institusionallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Sahibkarlar Şurasının yaradılması biznes mühitinin liberallaşmasına öz müsbət təsirini göstərmişdir.

1993-2003-cü illərdə Azərbaycanda həyata keçirilən siyasət iqtisadi islahatların və inkişafın Azərbaycan modelinin formalaşmasına zəmin yaratmışdır. Ulu Öndərin iqtisadi irsinə əsaslanan bu modelin əsas xüsusiyyətləri iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan strateji qərarların qəbul edilməsi, inkişaf üzrə müəyyən edilən istiqamətlərin sahəvi proqramlarla əlaqələndirilməsi, sosialyönümlülük, beynəlxalq təcrübəyə arxalanma, milli mentalitetin nəzərə alınmasıdır.

Ümummilli lider Heydər Əliyevin iqtisadi irsinin tədqiqinəzəri-konseptual cəhətdən xüsusi əhəmiyyətli bir sıra ümumiləşdirmələrlə əlaqədardır: iqtisadi sistemin inkişafının bütövlükdə ictimai sistemin inkişafı ilə kompleks halda həyata keçirilməsi, ümummilli mənafelərinin dolğun şəkildə öyrənilməsi, iqtisadi sistemin sosial strukturunun milli-mental dəyərlər sisteminə uyğunluğu, dövlət müstəqilliyinin və milli təhlükəsizliyin qorunub saxlanması.

Ümummilli Lider Heydər Əliyevin mükəmməl əsəri olan Azərbaycan modeli, ilk növbədə, ölkə vətəndaşlarının sosial rifahı səviyyəsinin yüksəldilməsinə istiqamətlənmişdir. Respublikanın milli iqtisadi inkişaf modelində başlıca xüsusiyyətlərindən birini isə sosialyönümlülük təşkil etmişdir. İstehsal sahibkarlığının inkişafı, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin həlli ilə əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana xəttini təşkil etmişdir.

Heydər Əliyevin həyata keçirdiyi islahatlar, Azərbaycan iqtisadiyyatının gücləndirilməsiistiqamətində reallaşdırdığı genişmiqyaslı quruculuq işləri ölkəmizin beynəlxalq miqyasda güclü mövqe tutmasına səbəb oldu. Ulu Öndərin həyata keçirdiyi islahatlar Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasına və islahatların vətəndaşların mənafeyinə uyğun şəkildə həyata keçirilməsinə etibarlı zəmin yaratdı. Heydər Əliyevin rəhbərliyi dövründə (1993-2003) ÜDM 1,7 dəfə, büdcə gəlirləri 3,9 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalı 52,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artdı. İnflyasiya səviyyəsi 2–3 faizədək azaldı. Dahi rəhbərin liderliyi dövründə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard dollar həcimində investisiya qoyuldu. 1993-2003-cü illər Azərbaycanda sabitlik və inkişaf dövrü oldu. Həmin dövrdə Ümummilli liderin sosial-iqtisadi strategiyasına uyğun olaraq, iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 30-a yaxın dövlət proqramı təsdiq edildi, 70-dən artıq qanun qəbul edildi, 100-dən çox fərman və sərəncam imzalandı. Heydər Əliyevin ərsəyə gətirdiyi neft konsepsiyası Azərbaycanın uzunmüddətli uğurlu sosial-iqtisadi inkişafının təməlini qoydu. “Əsrin müqaviləsi” Azərbaycanın geosiyasi mövqelərini möhkəmləndirdi, iqtisadiyyatın sürətli inkişafına və əhalinin sosial rifahının yaxşılaşdırılmasına təkan verdi. Heydər Əliyevin neft strategiyası Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına əzmlə inteqrasiya etməsinə şərait yaratdı, xarici investisiyaların cəlb edilməsi ölkəmizi maliyyə çatışmazlığından xilas etdi,həmin dövrdə dünyanın bir çox aparıcı neft şirkətləri ilə sazişlər imzalandı.

Neftin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorosiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərləri istismara verildi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin inşasına dair saziş imzalandı. Neft strategiyasının ən böyük uğurlarından olan Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə yanaşı, Azərbaycan qazının ixracının təmin olunması üçün Ulu

Öndərin təşəbbüsü ilə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşasına başlanıldı. 1999-cu ildə Ümummilli lider Heydər Əliyevin fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. Dövlət Neft Fondunun yaradılmasında əsas məqsəd neft yataqlarının xarici şirkətlərlə birgə fəaliyyəti üzrə neftin satışından əldə edilən gəlirlərin səmərəli idarə edilməsi və iqtisadiyyatın prioritet sahələrinin inkişafına yönəldilməsindən ibarət idi. Heydər Əliyevin təşəbbüsü ilə Dövlət Neft Fondunun ilk vəsaiti qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi. O vaxtdan etibarən Dövlət Neft Fondu neft və qaz hasilatından əldə edilən vəsaitlərin səmərəli idarə edilməsi prinsipinə sadiq fəaliyyət göstərir.

Ulu Öndər Heydər Əliyevin uğurlu inkişaf strategiyası haqqında Prezident İlham Əliyev söyləmişdir: "Bu gün Azərbaycan beynəlxalq aləmdə çox görkəmli yer tutur, beynəlxalq təşkilatların fəal üzvüdür və bütün dövlətlər tərəfindən tanınır. Azərbaycanın böyük hörməti var. Azərbaycanın sözü həlledici sözdür. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir regional layihə həyata keçirilə bilməz. Azərbaycan region üçün mərkəzə çevrilibdir. Bütün bunlar Heydər Əliyevin xidmətləridir".

Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası həmişəyaşar, uzaqgörən və əbədidir. 2003-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına tarixi müraciətdə Ulu Öndər demişdir: "Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcəkdir".

Bütün varlığı ilə Azərbaycana bağlı olan böyük şəxsiyyət, görkəmli dövlət xadimi, dahi lider Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun beynəlxalq miqyasda inkişaf etmiş dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir. Ulu Öndərin xalqımız qarşısında tarixi xidmətlərindən biri də davamlı inkişaf yoluna qədəm qoymuş Azərbaycanın dövlət müstəqilliyini daha da gücləndirilməsinə xidmət edən layiqli davamçısını yetişdirməsidir. Böyük türk dünyasının görkəmli dövlət xadimi olan Heydər Əliyevi Azərbaycan xalqının tarixi şərəfli bir irsi kimi davam etdirmək hər bir azərbaycanlının mənəvi borcudur. Bü gün yüksək təfəkkür, zəngin dövlətçilik təcrübəsinə malik, praqmatik lider Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılmış nailiyyətlər Heydər Əliyev irsini tamamlayır və dayanıqlı inkişafa doğru aparır.

Azərbaycan xalqı üçün 2020-ci ilin payızı tarixinin ən şərəfli dönəmlərindən biri hesab edilir. 44 günlük müharibə dövrü ərzində Ali Baş Komandan Prezident İlham Əliyevin strateji rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad edərək, xalqın uzunmüddətli həsrətinə son qoymuşdur. Rəşadətli Azərbaycan Ordusunun Prezident İlham Əliyevin mükəmməl hərbi strategiyasının nəticəsi olan bu Şanlı Qələbəsinin mənəvi töhfəsi olan ruh yüksəkliyi Azərbaycan cəmiyyətində xalqın özgüvəninin yüksəlməsi, qamətinin dikəlməsi, onun qalib obrazı və xarakterinin formalaşması üçün müstəsna rol oynamışdır. Bu gün müasir Azərbaycan dövlətinin memarı, xalqının və dövlətinin müstəqilliyi naminə böyük işlər görmüş, ürəyi daima xalqın səadəti uğrunda döyünən Ulu Öndər Heydər Əliyevin ruhu əlbəttə ki, şaddır. Ümummilli liderin xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə bərpa edilmiş, Qarabağ əbədi azadlığına qovuşmuşdur. Bu Böyük Qələbə Ümummilli liderin möhtəşəm siyasətinin layiqli davamı olmaqla onun əbədiliyini bir daha sübut edir.

Tarixi zəfərlə başa çatmış Vətən müharibəsində Qarabağın Ermənistanın 30-illik işğalından azad edilməsi Ulu Öndər Heydər Əliyevin sadiq davamçısı, böyük sərkərdəlik məharətinə, güclü iradəyə, qətiyyətli əzmə malik Ali Baş komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusunun döyüş meydanında əldə etdiyi rəşadətli qələbələrlə yanaşı həm də diplomatiya meydanında da müvəffəqiyyətli zəfərlərlə şərtlənir. Başqa sözlə, İkinci Qarabağ müharibəsində əldə edilən Zəfər hərbi-diplomatik qələbə kimi tarixdə qalacaqdır. Ümummilli liderin layiqli davamçısı İlham Əliyev həm ata vəsiətini yerinə yetirmiş övlad, həm də Onun memarı olduğu dövlətin rəhbəri, qüdrətli Ordunun Ali Baş

komandanı kimi Heydər Əliyev ucalığının parlaq təcəssümüdür. Qədirbilən xalqımız Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini daim yüksək tutur və onun ruhu qarşısında baş əyir.

## Ədəbiyyat siyahısı:

1. Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxışı (7 mart, 1991-ci il);
2. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında çıxışı (20 noyabr, 1990-cı il);
3. Rusiya Federasiyası, Qazaxıstan, Azərbaycan və Ermənistan rəhbərlərinin sentyabrın 23-də Jeleznovotsk şəhərində imzaladıqları rəsmi məlumatla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyənatı (1 oktyabr, 1991-ci il);
4. Heydər Əliyevlə müsahibə, "Dönüş qəzeti" (23, 25, 28 avqust 1990-cı il);
5. Heydər Əliyevin Türkiyəyə səfəri zamanı, Türkiyənin Baş Naziri Süleyman Dəmirəllə rəsmi görüşündə çıxışı (23 mart 1992-ci il);
6. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" nın təqdimat mərasimində nitqi, "Dirçəliş-XXI əsr" jurnalı, 2002, oktyabr, 56 nömrəli səh. 53-59;
7. Heydər Əliyevin Respublika hökumətinin ilk iclasında çıxışı (17 noyabr, 2003-cü il);
8. Heydər Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı (24 noyabr 2003-cü il);
9. Heydər Əliyevlə müsahibə (avqust 1990);
10. Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı (24 oktyabr, 1992-ci il).

**i.f.d. Abdullayeva İradə Vaqif qızı**
*ADİU-nun (UNEC) "Menecment" kafedrasının müəllimi*

# MÜSTƏQİL AZƏRBAYCANIN BEYNƏLXALQ ALƏMDƏ TANINMASINDA HEYDƏR ƏLİYEVİN MİSİLSİZ XİDMƏTLƏRİ

## Xülasə

Azərbaycan yüksək iqtisadi böyümə əldə etmiş və eyni zamanda, sabit bir siyasi sistemə sahib olan sürətlə inkişaf edən bir gənc demokratik ölkədir. Azərbaycan iqtisadi və siyasi imkanlarından həm öz milli maraqlarını həyata keçirmək, həm də regional və qlobal mövqeləri gücləndirmək üçün məharətlə istifadə edir. Azərbaycan bölgədə lider və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və bölgədə Azərbaycan olmadan strateji əhəmiyyətə malik heç bir layihə həyata keçirilə bilməz.

Azərbaycan dövlətlərin suverenliyi, bərabərliyi prinsipinə əsaslanan müstəqil xarici siyasət yürüdür. Şəffaflıq və proqnozlaşdırma Azərbaycanın xarici siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Bütün ölkələrlə dostluq, qarşılıqlı faydalı ikitərəfli və çoxtərəfli münasibətləri inkişaf etdirən Azərbaycan, bölgəsində və hüdudlarından kənarda dinc yanaşı yaşamaq və mehriban qonşuluğu təşviq etməkdə çox maraqlıdır.

**Açar sözlər:** *iqtisdi artım, beyhəlxalq münasibətlər, xarici siyasət,* iqtisadi əlaqələr.

Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı müstəqilliyini bərpa etmək, dövlətçiliyini inkişaf etdirmək və möhkəmləndirmək üçün tarixi bir şans əldə etdi. O vaxt çoxları qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalan və ağır iqtisadi böhran və daxili qeyri-sabitliyin hökm sürdüyü Azərbaycanın bu çətin vəziyyətdən çıxacağına və uğur qazanacağına inanmırdı.

1993-cü ildə Ümummilli lider Heydər Əliyevin prezident seçilməsindən sonra xalqın rifahı və ölkənin davamlı inkişafı üçün ilkin şərt olan Azərbaycanın müstəqilliyini və suverenliyini möhkəmləndirməyə yönəlmiş uğurlu strategiyanın həyata keçirilməsinə başlandı . Müasir müstəqil Azərbaycanın memarı və yaradıcısı, Ümummilli lider Heydər Əliyev dövlət qurumlarını inkişaf etdirdi, son dərəcə zəruri xarici əlaqələri genişləndirdi, hərtərəfli enerji strategiyasını həyata keçirdi və ölkənin uzunmüddətli inkişafının əsasını qoydu. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə yönəlmiş strategiyası hazırda layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bugünkü Azərbaycan dövlətçiliyinin kökləri müsəlman Şərqində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. 23 ay mövcud olan Azərbaycan Xalq Cümhuriyyəti bölgədəki geosiyasi vəziyyətin dəyişməsi nəticəsində yıxıldı. Qısa mövcudluğuna baxmayaraq, bu dövrdə Xarici İşlər Nazirliyi də daxil olmaqla əsas dövlət qurumları yaradıldı.

Azərbaycan yüksək iqtisadi böyümə əldə etmiş və eyni zamanda, sabit bir siyasi sistemə sahib olan sürətlə inkişaf edən bir gənc demokratik ölkədir. Azərbaycan iqtisadi və siyasi imkanlarından həm öz milli maraqlarını həyata keçirmək, həm də regional və qlobal mövqeləri gücləndirmək üçün məharətlə istifadə edir. Azərbaycan bölgədə lider və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və bölgədə Azərbaycan olmadan strateji əhəmiyyətə malik heç bir layihə həyata keçirilə bilməz.

Ərazilərinin böyüklüyündən, hərbi gücündən və iqtisadi potensialından asılı olmayaraq beynəlxalq münasibətlər sistemində iştirak edən bütün dövlətlərə gəldikdə isə Azərbaycan bərabərhüquqlu əməkdaşlığa həmişə hazırdır.

Azərbaycan dövlətlərin suverenliyi, bərabərliyi prinsipinə əsaslanan müstəqil xarici siyasət yürüdür. Şəffaflıq və proqnozlaşdırma Azərbaycanın xarici siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir. Bütün ölkələrlə dostluq, qarşılıqlı faydalı ikitərəfli və çoxtərəfli

münasibətləri inkişaf etdirən Azərbaycan, bölgəsində və hüdudlarından kənarda dinc yanaşı yaşamaq və mehriban qonşuluğu təşviq etməkdə çox maraqlıdır.

Ölkəmiz mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşı olan beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasət yürüdür. Suverenlik, bütün dövlətlərin ərazi bütövlüyü və daxili işlərə qarışmamaq Azərbaycanın digər ölkələrlə münasibətlərində təməl prinsiplərdir.

1993-cü ildə Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıtması ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi və mədəni həyatında, beynəlxalq münasibətlərdə dönüş oldu, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlətqurma prosesi başladı. Heydər Əliyevin həyata keçirdiyi təcili tədbirlər nəticəsində bir tərəfdən torpaqlarımızın qorunması ilə Milli Ordunun formalaşması, Azərbaycanın milli maraqlarını qoruya bilən nizamlı Silahlı Qüvvələrin yaradılması ilə bağlı mühüm addımlar atıldı, digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün diplomatik və siyasi vasitələr, bunun sayəsində ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən bu rejim 1994-cü ilin mayında quruldu.

1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlanan ilk neft müqaviləsinin imzalanması və onun Azərbaycan daxilində qurulan nisbi sabitlikdən istifadə edilməsi və beynəlxalq inamın və ölkəmizə olan marağın artırılması tərəfindən hazırlanan neft strategiyasının həyata keçirilməsinin parlaq sübutudur. Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən Heydər Əliyev.

Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən yüksək gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyinin səhnəarxası oyunlarına, siyasi anarxiyaya və təcrübəyə son qoyuldu, ölkədə cinayətkarlıq tamamilə yatırıldı, bütün qanunsuz silahlı qruplar ləğv edildi, ümumiyyətlə Azərbaycanda uğurlu bir dövlət quruculuğu üçün şərait yaratdı. Heydər Əliyevin qətiyyəti sayəsində 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında Azərbaycan dövlətçiliyinin mövcudluğu üçün böyük təhlükə yaradan dövlət çevrilişinə cəhdlərin qarşısı alındı və dövlət müstəqilliyi qorunub saxlanıldı. Məhz buna görə də müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiya olan müstəqil dövlət qurumlarının yaradılması və dövlət quruculuğu prosesi ölkəmizdə geniş miqyas aldı. Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və sonrakı dövrdə demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesinin uğurlu və intensiv həyata keçirilməsi şəxsən Heydər Əliyevin adı ilə əlaqələndirilir.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıtması ilə əsas məqsədi müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalət, demokratiya, milli tərəqqi və dünyəvilik kimi ümumbəşəri dəyərlər olan yeni bir ideologiyanın təməli qoyuldu. Heydər Əliyevin həyata keçirdiyi daxili siyasət hər bir Azərbaycan vətəndaşına azad həyat hüququ təmin etməyi və öz rifahlarını yaxşılaşdırmaq üçün imkanlar yaratmağı əhatə edirdi. İqtisadi islahatların aparılması, bazar iqtisadiyyatının qurulması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə və aqrar islahat proqramının həyata keçirilməsi Heydər Əliyevin fəaliyyətində ardıcıl prioritet istiqamətlər idi.

Demokratik və dünyəvi dövlət quruculuğu sahəsində davamlı siyasət yürüdən Heydər Əliyev ölkədə insan hüquq və azadlıqlarının təməl prinsiplərinin bərqərar olması üçün möhkəm zəmin yaratmışdır.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivə əsaslanan bir kurs boyunca inkişaf etməyə başladı.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq aləmdə tanınmış uğurlu və qətiyyətli addımların atılması, ən nüfuzlu tribunalardan milli məqsədlər naminə ustalıqla və ustalıqla istifadə edilməsi, bu baxımdan son dərəcə vacib idi. Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi.

Heydər Əliyevin fəal diplomatiyası sayəsində Azərbaycan demokratik dövlətlərin və dünyanın aparıcı ictimai təşkilatlarının ölkəmizə və zorla cəlb olunduğu silahlı münaqişəyə

münasibətində köklü bir dəyişiklik əldə edə bildi. Heydər Əliyevin xarici siyasəti sülhə, beynəlxalq hüquq normalarına hörmətə, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanırdı. Dünya təcrübəsinin bütün nailiyyətlərini və sivil beynəlxalq normaları tam əks etdirən dinc xarici siyasətinin mərkəzində, ilk növbədə, milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətlərin hüquqlarına hörmətlə yanaşma, bütün mübahisəli məsələləri sülh yolu ilə həll etmək prinsipləri və danışıqlar yolu ilə qarşılıqlı faydalı iqtisadi, elmi və mədəni əməkdaşlığın qurulması, dövlətlərarası münasibətlərə mane olan bütün məhdudiyyətlərin aradan qaldırılması durururdu.

Heydər Əliyev 1992-ci ildən bəri türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi və mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində sıx fəaliyyət göstərir. Bütün Türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazandı.

Heydər Əliyev ölkənin təbii maraqlarına uyğun olaraq, Azərbaycanın təbii sərvətlərindən və əlverişli geostrateji mövqeyindən istifadəyə yönəlmiş genişmiqyaslı beynəlxalq iqtisadi müqavilələrin hazırlanması və icrası sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Onun nəhəng siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində mühüm beynəlxalq müqavilələr imzalandı və həyata keçirildi. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan böyük siyasi məna kəsb edən bir sıra qlobal iqtisadi proqramların həyata keçirilməsində aparıcı rol oynadı. Heydər Əliyevin mübahisəsiz xidmətləri həm də bölgə qüvvələrini geniş bir coğrafi məkanda birləşdirməkdədir.

Tarixin amansız və sərt sınaqları dövründə dünyanın müxtəlif ölkələrinə səpələnmiş, orada yaşamaq məcburiyyətində qalan azərbaycanlıların birliyinə və həmrəyliyinə nail olmaqda Heydər Əliyevin müstəsna xidmətləri var. Dünya azərbaycanlılarının mütəşəkkilliyi və yeganə Vətənləri - müstəqil Azərbaycan ətrafında sıx birləşmələri naminə daim və inadla çalışdı, bu istiqamətdə son dərəcə dəyərli qərarlar verdi.

Heydər Əliyevin siyasi, iqtisadi, sosial və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycan həqiqətlərinə çevrilmişdir. Həm fəaliyyəti, həm də şəxsiyyəti Azərbaycan tarixinin ayrılmaz hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var.

Heydər Əliyev bizim parlaq çağdaşımızdır. Bu həqiqət özlüyündə hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Eyni zamanda, Heydər Əliyev taleyin xalqımıza bəxş etdiyi böyük bir tarixi şəxsiyyətdir. Azərbaycanın tarixi inkişafı prosesinə güclü təkan verdi. Müstəqil Azərbaycan dövlətinin yaradıcısı kimi milli dövlətçiliyimizin ideoloji əsasını yaradan Heydər Əliyev idi.

Ölkədəki qəbullarından başlayaraq, beynəlxalq görüşlərə və yüksəksəviyyəli danışıqlara qədər hər yerdə, hər fürsətdə Azərbaycan Prezidenti ölkəsi haqqında həqiqətləri bütün dünyaya yaydı. Hazırda Azərbaycan bir vaxtlar ona qarşı təşkil edilmiş beynəlxalq informasiya blokadasını keçib. Dünya Azərbaycan həqiqətlərini qəbul etməyə başladı. Bu böyük bir qələbədir. Bu qələbə Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində Vətəni və xalqı üçün BÖYÜK bir AZƏRBAYCAN kimi qayğısı sayəsində əldə edildi!

Gənclərin qabaqcıl hissəsi Heydər Əliyevin qayğısı sayəsində Moskva, Leninqrad və Sovet İttifaqının digər şəhərlərində ali məktəblərdə təhsil alan yeni Azərbaycanın qurulmasında fəal iştirak edir. Bundan əlavə, o, Azərbaycanın müxtəlif bölgələrini təmsil edir. Azərbaycan Prezidenti onlara dövləti necə idarə etməyi öyrətdi və yeni, güclü Azərbaycanın gələcəyi üçün hazırladı!

Başqa bir suala, gecə-gündüz çalışmasına, son dərəcə çətin və hətta dözülməz bir rejimə rəğmən, Azərbaycan Prezidenti ölkədə baş verən bir hadisəni, heç bir prosesi unutmadı, bunlardan ən vacibini gündəmə gətirdi, aldı şəxsi nəzarəti altına və prezident andına sadiq qalaraq Vətəni bir zərgər dəqiqliyi ilə idarə etdi.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın xarici siyasət istiqamətləri və strateji seçkiləri aşağıdakı təsirli amillərlə müəyyən etmişdir:

Ermənistanın Azərbaycana təcavüzü. - Hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobud şəkildə pozulması, tarixi və mədəni irsimizin ermənilər tərəfindən məhv edilməsinin böyük bir hissəsini özündə cəmləşdirən Ermənistanın Azərbaycana təcavüzü. Ölkəmizin təhlükəsizlik mühitində əsas təyinedici amil olaraq qalır və bu da öz növbəsində Azərbaycanın təhlükəsizliyi və xarici siyasətinin formalaşmasında böyük rol oynayır.

Qlobal proseslər. - Azərbaycanın müstəqilliyinin bərpası ilə eyni vaxtda beynəlxalq münasibətlər sistemi köklü şəkildə dəyişməyə başladı və son iyirmi ildə baş verən hadisələr, mahiyyət etibarilə sistemin hələ də rəqabətə söykəndiyini göstərir. Dövlətlər müxtəlif və bəzən mübahisəli xarici siyasət hədəfləri güdürlər. Müasir dünya düzəninə dair "ikiqütblülük" və "çoxqütblülük" anlayışlarının toqquşmasında təzahür edən fikirlər dünyanın müxtəlif yerlərində siyasi və iqtisadi təsir rəqabətini canlandırdı. Davam edilərsə, bu rəqabət qlobal və regional təhlükəsizlik mühitinə mənfi təsir göstərəcəkdir.

Strateji coğrafi yer. - Azərbaycanın coğrafi yeri bir çox cəhətdən strateji əhəmiyyətə malikdir. İnkişaf etməkdə olan nəqliyyat və enerji dəhlizlərində Şərq-Qərb və Şimal-Cənub, əsas ticarət yollarının kəsişməsində yerləşməsi ölkəyə enerji və infrastruktur mərkəzi olmaq üçün əlverişli bir fürsət təqdim edir. Ölkəni belə bir mərkəzə çevirmək üçün vacib şərt Azərbaycanın coğrafi mövqeyi kimi bir üstünlükdən tam istifadə edilməsidir.

Zəngin təbii ehtiyatlar. - Azərbaycanın zəngin təbii sərvətləri ölkənin çiçəklənməsinə və xalqın rifahına xidmət etməklə yanaşı, respublikanın milli təhlükəsizliyinin, siyasi müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsində də vacib amildir. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının inkişafı və dünya bazarına nəqli sonradan "Azərbaycanın enerji strategiyası" adlanan siyasətin əsas elementi oldu. Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən bu strategiya Azərbaycanın xarici siyasətinin təməl daşıdır.

İndiki mərhələdə təhlükələr və təhlükəsizlik riskləri. - Beynəlxalq aləmdə qeyri-dövlət iştirakçıları - beynəlxalq terror qrupları, hərbi separatçı hərəkatlar, etnik və dini ekstremizm, mütəşəkkil cinayət şəbəkələri, habelə qanunsuz miqrasiya, narkotik və insan alveri, kütləvi qırğın silahlarının yayılması, təxribat riski mühüm enerji və nəqliyyat infrastrukturunda və son illərdə fenomen halına gələn kiberhücumlar qlobal və regional təhlükəsizlik mühitinə ciddi şəkildə təsir edən amillərdir.

Məsuliyyət və şəxsiyyət. - Azərbaycan tarixi əsasən müxtəlif regional qüvvələr arasındakı müharibələr və həqiqi müstəqillik uğrunda uzun bir mübarizə tarixidir. Belə bir "irs" kiçik ölkələrin suverenliyini və hüquqlarını təmin edə bilən beynəlxalq mexanizmlərin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycanın dünya birliyinə fəal və məsuliyyətli üzvlüyünü tələb edir. Məsuliyyətin kökləri müxtəlif inanclara, dünyagörüşlərə, etnik qruplara və tolerantlığa malik insanların hər zaman birlikdə yaşaması kimi xarakterik xüsusiyyətlərlə əlaqələndirilir. Azərbaycan dərin tarixi kökləri olan və etnik və dini tolerantlıq baxımından həqiqətən misilsiz bir dünyəvi müsəlman ölkəsidir. 1918-ci ildə Azərbaycan müsəlman Şərqində ilk demokratik respublika elan edildi. Burada əsrlər boyu müsəlmanlar, xristianlar və yəhudilər dinc yanaşı yaşayırdılar. Azərbaycan mədəniyyətlər arasında bir körpü rolunu oynayaraq beynəlxalq dəyərlərin mənafeyi naminə bu dəyərləri təbliğ etmək məsuliyyətini hiss edir.

Beynəlxalq sülh və sabitliyin təşviqi. - Həm ənənəvi, həm də yeni təhdidlərin və problemlərin qarşısı aktiv beynəlxalq səylərlə alına bilər, bunların birtərəfli qaydada aradan qaldırılması qeyri-mümkündür.

Beynəlxalq terrorizmlə mübarizə və kütləvi qırğın silahlarının yayılması ilə əlaqədar olaraq Azərbaycan ikitərəfli və çoxtərəfli çərçivədə beynəlxalq əməkdaşlıqda fəal iştirak edir. Terrorizmlə mübarizə ilə bağlı bütün beynəlxalq sənədlərə qoşulmuş Azərbaycan daima bu sahədə məlumat mübadiləsi aparır və müvafiq hesabatlar hazırlayır. Sülhməramlılarımız Kosovo, İraq və Əfqanıstanda beynəlxalq birliyin digər üzv ölkələrinin əsgərləri ilə çiyin-çiyinə

xidmət etmişlər. Azərbaycan hökumətinin və şirkətlərinin Əfqanıstana köməyi və bu ölkəni bərpa etmək səyləri ehtiyac içində yaşayan əhali üçün imkanlar açır.

Azərbaycan həm kütləvi qırğın silahlarının yayılmaması haqqında Saziş çərçivəsində, həm də digər ölkələrlə əməkdaşlıq çərçivəsində kütləvi qırğın silahlarının ixrac nəzarəti və tədbirləri ilə yayılmamasına yönəlmiş fəaliyyətlər həyata keçirir. Sərhəd təhlükəsizliyi sahəsi. Azərbaycan kütləvi qırğın silahlarının yayılmaması üçün beynəlxalq rejimin gücləndirilməsinin tərəfdarıdır və müvafiq nəzarəti həyata keçirmək üçün dünya birliyi və müvafiq təşkilatlarla əməkdaşlığı davam etdirəcəkdir.

Transmilli cinayətkarlığa və insan alverinə qarşı mübarizə bölgə ölkələri ilə, həmçinin, BMT, ATƏT və digər beynəlxalq təşkilatlarla əməkdaşlığımızın gündəmində olan bir məsələdir.

Cənubi Qafqazdakı sabitlik və ümumilikdə qlobal təhlükəsizlik arasındakı əlaqə məlum məsələdir. Cənubi Qafqazda uzanan münaqişələr bölgədəki təhlükəsizliyə və sabitliyə zərər verir, bölgə ölkələrinin iqtisadi və siyasi inkişafına, həqiqi regional əməkdaşlığa mane olur və bu səbəbdən bölgə ölkələri üçün, daha geniş mənada- beynəlxalq ictimaiyyət üçün xüsusi narahatlıq yaradır.

Effektiv çoxtərəfli beynəlxalq münasibətlər sisteminin stimullaşdırılması. - Effektiv çoxtərəfli münasibətlər sistemi vasitəsi ilə ən yaxşı halda beynəlxalq sülhə nail olmağa əmin olan Azərbaycan, bölgəmizdə və planetimizdə beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunmasında BMT-nin rolunun vacibliyini qəbul edir. BMT Nizamnaməsində əks olunan beynəlxalq hüquq normaları və prinsipləri mövcud beynəlxalq təhlükəsizlik sisteminin təməl daşını təşkil edir. 21-ci əsrin çağırışlarına və təhdidlərinə daha yaxşı cavab vermək üçün Azərbaycan, beynəlxalq hüquq sisteminin gücləndirilməsi və qərarların icrası da daxil olmaqla BMT-nin əməliyyat imkanlarını artırmağa yönəlmiş islahatları dəstəkləyir.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli strateji tərəfdaşlıq və dərinləşən əməkdaşlıq bölgədə sabitliyin göstəricisinə çevrilmişdir. Rusiya ilə münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi və bu əməkdaşlığın genişləndirilməsi davam edir. Azərbaycan İranla mütərəqqi və perspektivli bir dialoq qurur və Xəzər dənizi ilə Avropa bölgəsi arasında bir körpü qurmaq üçün Orta Asiya dövlətləri ilə əlaqələrini inkişaf etdirir.

Azərbaycan, ikitərəfli və çoxtərəfli çərçivədə qlobal problemlərə və təhdidlərə qarşı mübarizə aparmaq üçün strateji tərəfdaşı ABŞ ilə əməkdaşlıq edir. Azərbaycan ABŞ-ın rəhbərlik etdiyi antiterror koalisiyasının üzvüdür, beynəlxalq birliyin terrorizmə qarşı mübarizəsini tam dəstəkləyir və bu istiqamətdə bir sıra mühüm addımlar atır. ABŞ ilə iqtisadi əməkdaşlığımızın genişləndirilməsi, enerji təhlükəsizliyi və demokratik inkişafın təşviqi üçün də çalışırıq.

Coğrafi cəhətdən Qərblə Şərqin qovşağında yerləşən Azərbaycan Avropa ölkələrindən artan Asiya bazarına və əksinə mal və xidmətlərin daşınması üçün təbii bir fürsət yaradır. Bu mənada Yaxın Şərq və Asiya ölkələri ilə münasibətlər Azərbaycanın xarici siyasətində mühüm yer tutur. Yaranan siyasi güc mərkəzləri və sürətlə böyüyən, iqtisadiyyatı olan bu bölgələr iqtisadiyyat, telekomunikasiya və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq perspektivləri açır.

Avropa və Avroatlantik strukturlara inteqrasiya. - Azərbaycan, Transatlantik təhlükəsizlik sahəsində çoxtərəfli əməkdaşlıq proqramları hazırlayaraq Avropa və Avroatlantik icmalarının dəyərlərini bölüşür, Avropa qitəsində və xaricində təhlükəsizlik və sabitliyə töhfə verir. 1994-cü ildə Azərbaycan NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramına qoşulan ilk ölkələrdən biri oldu və Avroatlantik Tərəfdaşlıq Şurasının və digər vasitələrin köməyi ilə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam istifadə etdi. Azərbaycan Fərdi Tərəfdaşlıq Fəaliyyət Planının (IPAP) birinci mərhələsini uğurla başa vurmuş və yaxın illərdə NATO-Azərbaycan münasibətlərini koordinasiya edəcək IPAP-ın ikinci mərhələsini başlamışdır.

Heydər Əliyevin Vətəninə inkaredilməz tarixi xidmətlərinin sayını saymaq mümkün deyil.

Onları dərindən öyrənmək, təşkil etmək, sökmək və hamısını gələcək nəsillərə qətiyyətlə çatdırmaq asan deyil. Və bu hər kəsin işi deyil! Əlbəttə bütün bunlar xüsusi araşdırmalar üçün bir mövzu və gələcəyə aid bir məsələdir. Bu əsərdə müasirlərin nəzərinə yalnız bir həqiqəti çatdırmaq istədim: bu gün Azərbaycan keçid dövrünü keçir - çox çətin və məsuliyyətli bir dövr !!! Neçə böyük qüvvə çox sərfəli strateji mövqeyə sahib olan bu ölkəyə baxdı? Zəngin mənbələrimizə, neftə kim ac deyil?! Kiçik bir dövlətin neçə daxili və xarici düşməni ola bilər? !! Keçmişin dərslərini, qurtuluş savaşlarında xalqımızın dəfələrlə qan içində boğulmasını, müasir dünya həqiqətlərini, digər xalqların tarixi təcrübəsini mütləq nəzərə almalıyıq: keçid dövründə güclü bir şəxsiyyət olmadan qələbə yoxdur!

Hamısını bir həqiqəti birlikdə öyrənək: bütün xalqları, millətləri, hazırda öz çiçəklənmə dövrünü yaşayan ölkələri dahi şəxsiyyətlər - Atatürklər, Vaşinqton, Bismarklar, Nehru, De Qollar keçid dövrünün keçilməz labirintlərindən çıxardılar! Heydər Əliyev dünya tarixində belə görkəmli şəxsiyyətlərdən yalnız biri idi! Azərbaycan xalqı və bütün bəşəriyyət bunu zaman keçdikcə daha da dərindən hiss edəcəkdir!

Birinin subyektiv istəklərindən asılı olmayaraq, 90-cı illərdə. İyirminci əsrdə Azərbaycan tarixində daha bir şanlı səhifə yazıldı. Bu səhifə zamanın özü və tarixin özü tərəfindən yazılmışdır. Bu qızıl səhifə "İstiqlal Mübarizəsi" adlanır. Heydər Əliyevin şəxsiyyəti xalqımızı bu müqəddəs mübarizədən - müstəqillik uğrunda mübarizədən çıxartdı! Və müstəqillik uğrunda mübarizənin qalibi olaraq dünya tarixinin dahi şəxsiyyətləri arasında layiqli yer tutması tamamilə təbiidir. Allah tərəfindən əvvəlcədən təyin edilmiş silinməzdir!

Bu gün, 21-ci əsrin əvvəllərində müasir Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət qurmaqda uğur qazanır. Ən qanlı burulğana qərq olduğumuz günlər geridə qalıb tarixə çevrildi! Azərbaycan dövlətçiliyi xain düşmənlərin qanlı pəncələrindən əbədi qurtuldu! Xalqımız inamla parlaq bir gələcəyə doğru gedir. Azərbaycan Respublikası Cənubi Qafqazın lider dövlətinə çevrildi. Vətənin hər övladı və ümumiyyətlə minnətdar xalqımız bütün bunları parlaq xilaskar - Heydər Əliyevə borcludur.

Heydər Əliyevin bütün şüurlu həyatını xalqına həsr edən, Azərbaycan xalqının tarixində dərin iz qoyan bir siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti əsl idarəetmə məktəbinə çevrildi. Azərbaycan xalqının daha bir çox nəsli bu məktəbdən və Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı və xalqımızın rifahı naminə istifadə edəcəkdir.

## Ədəbiyyat siyahısı

1.Azərbaycan-Rusiya əməkdaşlığında yeni mərhələ: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına dövlət səfəri // Dirçəliş-XXI əsr.- 2002.- № 47.- S.3-4.

2.Cəfərov, R. Azərbaycan demokratiyasının təntənəsi yolunda: [Heydər Əliyevin idarəçilik siyasəti haqqında] /Ramiz Cəfərov // Dirçəliş-XXI əsr.- 1998.-№ 6.- S. 29-34.

3.Dünya iqtisadi forumu beynəlxalq terrorizmlə mübarizədə səyləri birləşdirməyə çağırır: Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri // Dirçəliş-XXI əsr.- 2002.- № 48.- S. 5.

4.Qurtuluş hərəkatı. Heydər Əliyevin hakimiyyətə qayıtması. Atəşkəs. Uğurlu xarici siyasət Siyasi sabitlik // Azərbaycan tarixi: XX əsrin 80-90-cı illəri.- Bakı, 1997.- S.63-82.

5.Vətənə, dövlətə, xalqa sədaqətin parlaq nümunəsi: [Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993- cü il oktyabrın 3-dən 1998-ci il oktyabrın 3-dək olan dövr ərzində keçirdiyi tədbirlər və görüşlər haqqında] // Dirçəliş-XXI əsr.- 1998.- № 7.- S. 25-37

**t.f.d., dos. Rüstəmova Aypara Sədi qızı**
*AMEA A.A.Bakıxanov ad.Tarix İnstitutunun*
*"Azərbaycanın sovet dövrü tarixi" şöbəsinin aparıcı elmi işçisi*
*aypararustamova2007@rambler.ru*

## AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASI ARASINDA ƏLAQƏLƏR: AZƏRBAYCANDA RUS İCMASI

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Rusiya Federasiyası, ikitərəfli əlaqələr, rus əhali, rus dili Azərbaycanın Rus İcması.*

Azərbaycan-Rusiya əlaqələri mövzusu hər zaman aktual olmuşdur.Bu ilk növbədə, Azərbaycanla Rusiyanın coğrafi cəhətdən həmsərhəd ölkələr olması ilə əlaqədardır.Digər mühüm amil isə XIX əsrdə Azərbaycanın ikiyə bölünməsi nəticəsində Şimali Azərbaycanın əvvəllər çar Rusiyasının tərkibində, sonralar isə hər iki ölkənin SSRİ-nin tərkibində olması ilə bağlıdır.Eyni zamanda, qeyd etmək lazımdır ki, Rusiya Federasiyasınnın rəsmi statistik məlumatına görə Rusiyanın 603 070 min azərbaycanlı vətəndaşı vardır [24]. Faktiki olaraq isə Rusiyada iki milyona yaxın azərbaycanlı yaşayır.Bu amil də mövzunu aktual edən səbəblərdən biridir.

SSRİ dağıldıqdan sonra hər iki ölkə yeni demokratik dövlətini quraraq yeni əsaslar və zamanın diqtə etdiyi şərtlərlə ictimai-siyasi və mədəni əlaqələr yaratmağa başladı. Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında diplomatik münasibətlərin əsası 1992-ci ilin oktyabr ayının 12-də AR Prezidenti Ə.Elçibəy və RF Prezidenti B.Yeltsinin imzaladığı "İki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə ilə başlamışdır [ 5, s.7-8; 22,c.33]. Müqavilə Rusiya Dövlət Duması tərəfindən 1997-ci ilin dekabrında ratifikasiya olundu [19].

Həmin dövrdən etibarən AR və RF arasında iqtisadi, mədəni və digər münasibətlər yeni müstəvidə inkişaf etməyə başladı.İki ölkə arasındakı münasibətlərin prinsipial və strateji əhəmiyyəti vardır. Azərbaycan və Rusiya prezidentlərinin 2017-ci il Soçi görüşlərində vurğuladığı kimi, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə münasibətlər uğurla inkişaf edir, münasibətlər qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır [4].

Qeyd etdiyimiz kimi ölkələrimiz coğrafi, tarixi və demoqrafik baxımdan əsrlər boyu bir-birinə sıx bağlı olmuşdur.Rus millətindən olan səyyahların, tacirlərin Azərbaycana gəlməsi, məskunlaşması haqqında məlumatlar hələ orta əsrlərə təsadüf edir. Səyyah Afanasi Nikitin hələ 1466-cı ildə Moskvadan Qafqaza gəlmişdir.O, Nijni Novqoroddan Şirvanşahlığın səfiri Həsən bəyin müşayiəti ilə Həştərxana, oradan da Dərbənddən keçərək Bakıya gəlmişdir [25, s.13-14]. O dövrdə ticarət məqsədi ilə Azərbaycana gələn rus tacirlərdən bir çoxu Azərbaycanada məskən salmışlar. XIX əsrin əvvəlində Şimali Azərbaycan torpaqlarının çar Rusiyasına birləşdirilməsindən sonra burada rus əhalisinin yerləşdirilməsi siyasəti həyata keçirildi.Əhali ən çox iri sənaye və kənd təsərrüfatı rayonlarında- Bakı və Gəncə kimi böyük şəhərlərdə, həm də bölgələrdə yerləşdirilirdi. Azərbaycana köçürülən ruslar üçün münbit torpaqlar ayrılır, onlara yerli əhali ilə müqayisədə müxtəlif güzəştlər edilirdi [15].

SSRİ dağılan ərəfədə Azərbaycanda yaşayan rus əhali 392.3 min nəfər idi [6,s.54].

Digər müttəfiq respublikalardan olduğu kimi, SSRİ dağıldıqdan sonra Azərbaycandan da xeyli əhali -77452 nəfər Rusiya Federasiyasına köçdü.RF gedən əhali içərisində digər millətlərlə yanaşı, rus əhalinin də bir qismi öz tarixi vətənlərinə - Rusiyaya köçdü.Onu da qeyd etmək lazımdır ki, 1988-1989-cu illərdə Ermənistanda azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə və deportasiya nəticəsində də mürtəce erməni şovinizmindən əziyyət çəkən rus xalqının minlərlə nümayəndəsi Azərbaycana pənah gətirdi [10].

Həmin dövrdə baş verən 1990-cı il 20 yanvar hadisələrindən sonra Rusiyada yaşayan 30 852 nəfər həmvətənlimiz daimi yaşamaq üçün Azərbaycana qayıtdı [6, s.456-457].

Müəyyən müddət keçdikdən sonra postsovet məkanında vəziyyət sabitləşməyə başladı və bu cür köçlər dayandı.Buna AR və RF arasındakı münasibətlərin inkişafı, dövlət rəhbərlərinin görüşləri və bu görüşlər zamanı səmimi söylənən fikirlər də təsir etmiş oldu. Heydər Əliyev Azərbaycan Prezidenti seçiləndən sonra ilk dəfə olaraq 1994-cü ilin yanvarında Rus icmasının Yeni il münasibəti ilə təşkil etdiyi konsertdə insanların qarşısında çıxış edərək bildirmişdi: «Mən Azərbaycan Prezidenti kimi sizin hüquqlarınızın müdafiəsinin qarantıyam. Heç yerə getməyin və hesab edin ki, bura sizin vətəninizdir" [12; 18].

Getdikcə rus əhalisi arasında yeni müstəqil Azərbaycan dövlətinə inam yarandı və bu inam onlarda demokratik Azərbaycanın həyatında öz yerlərini tapmağa kömək etdi.

2018-ci ilin statistik məlumatlarına görə Azərbaycanda hal-hazırda 120 minə yaxın, daha dəqiq desək, 119.3 min nəfər rus əhali yaşayır [6, s.54]. Etnik ruslar bütövlükdə Cənubi Qafqaz üzrə ən çox Azərbaycanda məskunlaşmışdır. Onlar Azərbaycanı özlərinin doğma Vətəni sayır, ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi həyatımızın bütün sahələrində yaxından iştirak edirlər [9, s.349]

SSRİ dağılandan sonra gərgin dövr idi. Həmin dönəmdə ölkədə rus dilini qoruyub saxlamaq mühüm səy tələb edirdi [11]. Rus dilinin qorunub saxlanması və inkişafı Azərbaycan və Rusiya arasında ictimai-siyasi və humanitar münasibətlərin əsas amillərindən birinə çevrildi. Rus dili Azərbaycanda sərbəst və ən çox işlənən dildir.Azərbaycanda xeyli sayda rus kənd və qəsəbələri mövcuddur.Həmin ərazilərin adları olduğu kimi qalır: İvanovka (İsmayıllı rayonu), Slavyanka (Gədəbəy rayonu), Kalinovka (Masallı rayonu), Alekseyevka, Vladimirovka (Quba rayonu), Semyonovka (İmişli rayonu) Cəlilabadda Privolnoye, Novoqolovka və s.

Azərbaycan MDB ölkələri içərisində Rusiyaya və onun mədəniyyətinə olan maraqlarını qorudu, hər kəsə təhsil və mədəni dəyərlər haqqında rus dilində informasiya almağa imkan verdi.

Dövlətin yürütdüyü bu siyasət rus dilinin ölkənin, eləcə də milyonlarla vətəndaşının maraqlarına xidmət etmiş oldu.Bu, həm də Azərbaycan-Rusiya, Rusiya-Azərbaycan arasındakı dostluq və mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsinə yardım edən amil kimi Rusiyada da Azərbaycan dilinin, mədəniyyətinin daha genişlənməsinə imkanlar açır [13, s.259].

Sovet İttifaqının süqutundan sonra postsovet məkanında rus dilinə qarşı məlum basqı və neqativ halların əksinə olaraq, Azərbaycanda rus dilində orta ümumtəhsil məktəbləri, ali təhsil ocaqları, universitetlərdə rusdilli bölmələr, Dövlət Rus Dram Teatrı, rusdilli teatr truppaları, rusdilli mətbuat və digər ictimai-mədəni qurumlar öz fəaliyyətini uğurla davam etdirməkdədir. Azərbaycanda sovet dövründə mövcud olan rusdilli məktəblər bu gün də fəaliyyət göstərir, hər bir kəs rus dilində təhsil almaq imkanına malikdir.Azərbaycanda 100 min nəfərdən çox gənc rus dilində təhsil alır.Ölkədə 327 orta məktəb və 27 universitetdə tədris Azərbaycan dili ilə yanaşı, həmçinin, rus dilində, 16 məktəbdə isə yalnız rus dilində aparılır [1].

Bakıda rus dilinin öyrənilməsi üzrə iri mərkəzlər fəaliyyət göstərir: Bakı Slavyan Universiteti, Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi, Səməd Vurğun adına Rus Dram Teatrı və s. 2009-ci ildən fəaliyyət göstərən M.V.Lomonosov ad. Moskva Dövlət Universitetinin Bakı Filialı hazırda Azərbaycanda ən nüfuzli ali məktəblərdən biri sayılır. Universitetdə əsasən MDU-nun aparıcı professor və müəllimləri dərs deyirlər [8, s.112].

Rusiyanın bir sıra informasiya agentliklərinin Azərbaycanda müxbir məntəqələri vardır. Rus dilində 50-dən çox qəzet və jurnal nəşr edilir, külli miqdarda Rusiya Federasiyasının dövri nəşrləri yayılır. "Bakinski raboçiy" qəzetinə əlavə kimi Rusiya mətbuatının "Vesti iz Rossii" daycesti buraxılır.

Rus dilinin, mədəniyyətinin və ənənələrinin, eləcə də Rusiya Federasiyasının digər xalqlarının dilləri və ənənələrini qorumaq və inkişaf etdirmək üçün Azərbaycanda yaşayan ruslar və gigər xalqlar Azərbaycan qanunvericiliyi ilə tənzimlənən təşkilatlarını, ictimai

birliklərini yaradıblar. Azərbaycanda RF diplomatik korpusu, eləcə də RF subyeklәri-Tatarıstan Respublikası Daimi Nümayəndəliyi və Dağıstan Respublikasının Daimi Nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycan Rusiya Federasiyasının 72 subyekti ilə iqtisadi əlaqə saxlayır, 30 subyektlə hökumətlərarası sazişlər imzalanmışdır [26,s.123]. Azərbaycan ərazisində Rusiya kapitalı ilə 570 müəssisə fəaliyyət göstərir.Təxmini hesablamalara görə Azərbaycanda rus əhalinin və RF müxtəlif istiqamətli 1500 yaxın təşkilat, şirkət(759), müəssisə, birlik, informasiya vasitəsi, ictimai və dini cəmiyyətləri vardır [16].

"Azərbaycanın Rus icması", Rus Mədəniyyət Mərkəzi, "Tu Qan Tel" Tatar mədəniyyəti cəmiyyəti, "Sodrujectvo" ARXHC, Azərbaycan Kazak Həmyerlilər Birliyi (Zemlyachestvo), "Samur" Ləzgi milli mərkəzi, avarların "Milli mədəni dəyərlərin dəstəklənməsi və inkişafı" və s. kimi təşkilatlar Rusiya və subyektləri xalqlarının Azərbaycanda azad şəkildə yaradıb fəaliyyət göstərdikləri təşkilatlardır.

Azərbaycanda fəaliyyət göstərən "Rus icması" 5 may 1993-cü ildə yaranmışdır. İcma 200 nəfərin iştirak etdiyi yığıncaqda yaranmışdı [23]. İcmanın I Qurultayına hazırlıq prosesində Azərbaycanın bölgələrində yaşayan ruslar da təsis qurultayında iştirak etmək arzularını bildirdilər. Bununla da Bakı ilə yanaşı digər şəhər və rayonlarda da icmanın yerlı təşkilatları yaranmğa başladı.

Azərbaycan Rus İcmasının yaradılmasında məqsəd burada yaşayan rus əhalinin müstəqil Azərbaycanın yeni həyatına uyğunlaşmasına kömək etmək idi. Çünki Sovet İttifaqı dağıldıqdan sonra rusların çoxunu pessimizm hissi və ölkədən getmək arzusu bürümüşdü. İcma öz fəaliyyəti ilə bu pessimizmi aradan qaldırmağa, rus əhalisi arasında yeni Azərbaycan dövlətinə inam yaratmağa nail oldu, onlara demokratik Azərbaycanın həyatında öz yerlərini tapmağa yardım etdi.

Rus icmasının ali rəhbər orqanı 5 ildən bir keçirilən qurultaydır.Fəaliyyəti dövründə icmanın 4 qurultayı keçirilmişdir.Qurultaylardan keçən dövr ərzində icmanın fəaliyyəti müzakirə olunur, nəticələr çıxarılır, gələcək işlərin planı hazırlanır, icmanın fəaliyyətinin əsas istiqamətləri müəyyənləşdirilir və seçkilər keçirilir.

Rus icması öz fəaliyyəti dövründə 4 qurultay keçirmişdir.1998-ci ili 15 noyabr tarixdə Rus icması özünün I qurultayını- təsis qurultayını keçirdi.İcmanın II qurultayı, 2004-cü ilin 16 oktyabrında, III qurultayı isə 2009-cu ilin 6 oktyabrında keçirilmişdir.

2014-cü il noyabr ayının 14-də Azərbaycanın Rus İcması S.Vurğun adına Rus Dram Teatrında özünün növbəti IV qurultayını keçirdi [7].

Azərbaycanın Rus İcmasının sonuncu qurultayı- V qurultayı 2019 cu ilin dekabr ayında keçirilmişdir[2].

Qurultaylararası dövrdə Rus icmasının rəhbər orqanı 21 nəfərdən ibarət Respublika Şurasıdır.İcma öz fəaliyyətini müxtəlif istiqamət və sahələri əhatə edən komissiyalar, təşkilat və assosiasiyalar vasitəsi ilə həyata keçirir. Rus icmasının nəzdində Rus Mədəniyyət Mərkəzi, Rus Gənclər Assosiasiyası, «Russkiy mir» (Rus dünyası) Assosiasiyası, Rus Dilli Təhsil Müəssisələri Müəllimlərinin Assosiasiyası, Leninqrad Blokadası İştirakçıları Assosiasiyası, «Luç» (Şölə) Azərbaycan-Rusiya Ədəbi Əlaqələr Assosiasiyası fəaliyyət göstərir.İcmada fəaliyyət göstərən komissiyalar aşağıdakılardan ibarətdir: Təşkilat İşləri üzrə Komissiya, Xalq Təhsili Komissiyası, Sosial məsələlər və Xeyriyyəçilik Komissiyası, Vətəndaşların Hüquqlarının Müdafiəsi Mərkəzi, Dini Məsələlər üzrə Komissiya, Xaricdəki İcmalarla Əlaqələr Komissiyası, Siyasi Partiyalar və İctimai Hərəkatlarla Əlaqələr Komissiyası, Müharibə və Silahlı Qüvvələrin Veteranları ilə İş Üzrə Komissiya, Ağsaqqallar Şurası.

Azərbaycan Respublika ərazisində Rus icmasının 44 şəhər və rayon təşkilatı fəaliyyət göstərir.Azərbaycanda Rus İcmasının üzvlərinin sayı 60 min nəfərdir [2].

Rus icmasının mətbuat orqanı olan "Vestnik" (Carçı) qəzeti 27 yanvar 1995-ci ildən nəşr olunur [20]. Qəzet rübdə bir dəfə nəşr olunur. 2007-ci ilin dekabr ayından nəşr edilən "Oko" qəzeti 4 500 nüsxə tirajla çap olunur.

Rus icması respublikanın ictimai-siyasi, iqtisadi, mədəni həyatında yaxından iştirak edir, dövlət qurumlarında, icra orqanlarında, parlamentdə təmsil olunur.Rus icmasının sədri M.Zabelin AR Milli Məclisinin deputatıdır.O, Yeni Azərbaycan Partiyasının 2021-ci il, mart ayının 5-də keçirilən VII qurultayında YAP İdarə Heyətinin üzvü seçilmişdir[17]. Mixail Yuryeviç Zabelin Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2006-cı il 1361 saylı sərəncamı ilə “Şöhrət” ordeni ilə təltif edilmişdir [14].

2016-cı ildə isə M.Y.Zabelin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”na layiq görülmüşdür [3].

Rus İcması həm Azərbaycanda, həm də Rusiyada müəyyən nüfuz qazanmışdır. Rusiya və Azərbaycanın dövlət və biznes strukturlarının, Rusiyanın Azərbaycandakı səfirliyinin dəstəyi sayəsində İcma müxtəlif layihələr həyata keçirir: respublikanın məktəblərində olimpiadalar, rus dili və Rusiya tarixinə dair müsabiqələr keçirilir, müharibə və əmək veteranlarına maddi yardım göstərilir, müalicəyə ehtiyacı olanlar Moskva şəhərinin klinikalarına göndərilir, uşaqların Rusiyanın tarixi yerlərinə turist səyahətləri, “LukOyl” şirkətinin dəstəyi ilə «Drujba» (Dostluq) İdman-sağlamlıq xeyriyyə kompleksində uşaqların yay istirahəti təşkil edilir və s.

Ruslar yerli xalqa böyük hörmət bəsləyir. Eləcə də, Azərbaycan dövləti və xalqı tərəfindən icmanın keçirdiyi bütün tədbirlərin təşkilinə dəstək verilir. Həmin tədbirlərdə dövlət təmsilçilərinin iştirakı qarşılıqlı hörmətin olduğunun mühüm göstəricisidir.

2018-ci ildə Azərbaycanın Rus İcmasının rəsmi fəaliyyətinin 25 illiyi qeyd edildi [21].

Rus İcmasının nəzdində bir neçə təşkilat – Rus Mədəniyyəti Mərkəzi, Rusiyalı Həmvətən-lərə İnformasiya-Hüquq Dəstəyi Məşvərət Məntəqəsi, Rusdilli Təhsil Müəssisələrinin Müəllimlərinin Assosiasiyası, Leninqrad Blokadası İştirakçıları Assosiasiyası, “Russkiy mir” iş adamları birliyi və s. daxildirlər [2].

Moskva şəhəri Həmvətənlərin Dəstəklənməsi və Hüquqlarının Müdafiəsi Fondunun maliyə dəstəyi ilə 2015-ci ildən fəaliyyətə başlayan “Həmvətənlərə Dəstək Məsləhət Mərkəzi” yaşlıların, əlillərın və aztəminatlı insanların və ailələrin humanitar və sosial istiqamətli gündəlik işlərini həyata keçirməklə məşğul olur.

AR Prezidenti İlham Əliyev Azərbaycan Rus İcmasının fəaliyyətini yüksək qiymətləndirirək bildirir ki, “Bu gün çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətini rus icması olmadan təsəvvür etmək mümkün deyildir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Cənubi Qafqazda sayca ən çox rus məhz bizim ölkədə yaşayır. Onlar Azərbaycanı özlərinin doğma vətəni sayır, ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi həyatımızın bütün sahələrində yaxından iştirak edirlər”[9, s.349]. Qeyd etmək lazımdır ki, ölkəmizi özünün vətəni hesab edən rus xalqının gəncləri I Vətən müharibəsində olduğu kimi 2020-ci il II Vətən müharimısində də Azərbaycanın ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı mübarizədə əsl vətənpərvərlik və qəhrəmanlıq nümunələri göstərmişlər.Aleksandr Korneev, Roman Qaliyev və Ruslan Qaliyev qardaşları kimi qəhrəmanlar Azərbaycan xalqının sevimlisinə çevriliblər.

Qeyd etmək lazımdır ki, çoxmillətli, çoxkonfessiyalı, multikultural dəyərləri ilə zəngin olan Azərbaycan Respublikasının rus əhalisi daim ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak edərək azad surətdə öz ictimai təşkilatlarını, mətbuat orqanlarını yaratmışlar.Yaranan bu təşkilatlar içərisində “Azərbaycanın Rus İcması” Azərbaycan-Rusiya əlaqələrinin inkişafında mühüm rol oynayır.

## Mənbə və ədəbiyyat siyahısı


1. Abdullayev M. Azərbaycan-Rusiya münasibətləri strateji tərəfdaşlığın ən yüksək mərhələsinə qədəm qoyur //Azərbaycan qəz.,16 oktyabr 2018-ci il.
2. "Azərbaycan" qəz., 15 dekabr 2019-cu il.
3. "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: 17 mart 2016-cı il // "Azərbaycan" qəz., 18 mart, 2016-cı il.
4. Azərbaycan və Rusiya prezidentləri ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayıblar // "Azərbaycan" qəz., 22 iyul, 2017-ci il.
5. Azərbaycan - Rusiya 1992-2012: sənədlər toplusu /Azərb. Respublikasının Xarici İşlər Nazirliyi; Rusiya Federasiyasının Bakıdakı Səfirliyi =Россия - Азербайджан 1992-2012: сборник документов / Министерство иностранных дел Азербайджанской Республики; Министерство иностранных дел Российской Федерации. -Bakı: Qoliaf qrup, 2012. -775.
6. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə.Bakı: AR Dövlət Statistika Komitəsi, 2018, 492 s.
7. Əliyev İ.H.Azərbaycan Rus İcması İctimai Birliyinin IV qurultayının iştirakçılarına // "Azərbaycan" qəzeti.-2014.- 15 noyabr.
8. Əliyev İ.H. İnkişaf – məqsədimizdir:. çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. K.:35. fevral 2009 - aprel 2009. Bakı: Azərnəşr, 2016, 396 s.
9. Əliyev, İ.H. İnkişaf – məqsədimizdir. çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər. K.: 60. Oktyabr 2013-dekabr 2013. -Bakı: Azərnəşr, 2018, 400 s. s.349.
10. İlham Əliyevin "Azərbaycan Rus İcması" İctimai Birliyinin IV qurultayının iştirakçılarına müraciəti // "Respublika" qəz., 15 noyabr 2014-cü il.
11. Mehdiyev E. "M.Zabelin: Qonşu ölkələrlə müqayisədə Azərbaycanda rus dilinə və mədəniyyətinə daha böyük diqqət göstərilir" https://az.trend.az/other/commentary/2957942.html/28 Sentyabr 2018-ci il.
12. Mehparə. Bizi birləşdirən oxşar cəhətlər çoxdur. Mixail Zabelininlə söhbət // "Mədəniyyət" qəz., 27 iyul, 2012-ci il.
13. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə (məqalələr toplusu). Bakı: BEST-TMS MMC, 2016, 645 s.
14. M.Y.Zabelinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (17 mart 2006-cı il) // "Azərbaycan" qəz., 18 mart, 2006-cı il.
15. Niftiyev N. Azərbaycanda rus icması http://www.azadinform.az/news/a-173738.html 21 may, 2018-ci il.
16. Oqtay Əsədov: Rusiyanın Azərbaycan iqtisadiyyatına investisiyaları 4 milyard dolları ötüb. https://az.trend.az/azerbaijan/politics/2921029.html
17. YAP İdarə Heyətinin üzvləri https://report.az/daxili-siyaset/yap-idare-heyetinin-yeni-uzvleri/
18. Zabelin: Azərbaycanlılar heç kəsə ərazi iddiaları olmayan xalq kimi tanınıb. https://az.trend.az/azerbaijan/politics/2796546.html 14 sentyabr 2017 ci il

19. Газ., «Спутник Азербайджана», 4 апреля, 2017 г.
20. Главные вехи деятельности Русской общины Азербайджана (1993-2013 годы) https://roa.az/deyatelnost.html
21. 25 лет в семье народов нового Азербайджана. Газ., «Бакинский рабочий» 22 мая, 2018 г.
22. Мамед-заде Н. Взаимоотношения Азербайджанской Республики со славянскими странами СНГ и Восточной Европы. Монография. Баку: Ганун, 2006, 200 с.
23. Михаил Забелин: Русская Община Азербайджана – один из факторов стабильности и развития страны. https://mosds.mos.ru/presscenter/news/detail/7317754.html
24. Национальный состав России 2021 (перепись 2010). http://www.statdata.ru/nacionalnyj-sostav-rossii
25. Никитин А. Хождение за три моря. М.: Эксмо, 2009, 244 с.
26. Рустамова А.С. Законодательные акты, регулирующие азербайджано-российские (дагестанские) отношения. Материалы Международной научно-практической конференции «Правовая культура народов Кавказа: становление, трансформация и перспективы». Махачкала, 26-27 ноября 2020. Сборник научных статей. Махачкала: ИП Джамалудинов Типография А-4, 2020, с.120-127.

## Связи между Азербайджанской Республикой и Российской Федерацией: Русская община в Азербайджане

**к.и.н., доцент**
**Айпара Сады кызы Рустамова**
***ведущий научный сотрудник отдела***
***"История советского периода Азербайджана"***
***Института истории имени А.А. Бакиханова***
***НАН Азербайджана***

**Ключевые слова:** Азербайджанская Республика, Российская Федерация, двусторонние отношения, русское население, русский язык, Русская община Азербайджана.

В статье рассматриваются отношения между Азербайджанской Республикой и Российской Федерацией, состояние русского языка в Азербайджане. При этом в статье отражена информация о демографических характеристиках населения России. Отмечается, что проживающие в Азербайджане русские создали общественную организацию «Русская община Азербайджана». Община активно участвует в общественно-политической жизни Азербайджана.

## Relations between the Republic of Azerbaijan and the Russian Federation: Russian Community in Azerbaijan

**Ph.D., docent**
**Rustamova Aypara Sadi**
***Institute of History named after AA Bakikhanov of ANAS***
***"History of the Soviet period of Azerbaijan" department***
***leading researcher***

**Key words:** Republic of Azerbaijan, Russian Federation, bilateral relations, russian population, russian language, Russian community of Azerbaijan.

The article examines the relationship between the Republic of Azerbaijan and the Russian Federation, the state of the Russian language in Azerbaijan. At the same time, the article reflects information on the demographic characteristics of the population of Russia. It is noted that the Russians living in Azerbaijan have created a public organization "Russian Community of Azerbaijan". The community actively participates in the social and political life of Azerbaijan.

**i.f.d. Təhməzova Ayibə Əyyub qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), baş müəllim*
*email: ayiba.tahmazova@gmail.com*

**HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI MƏRHƏLƏLƏRİ**

**Xülasə**
Məqalədə Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə Azərbaycanın iqtisadi inkişafına verdiyi töhfələr, ölkənin milli təhlükəsizliyinin, müstəqilliyinin daha da möhkəmləndirilməsi sahəsindəki əvəzedilməz xidmətləri, respublikada müstəqillik əldə edildikdən sonrakı dövrlərdə iqtisadi islahatların uğurla aparılmasında onun gərgin və misilsiz əməyi xronoloji ardıcıllıqla nəzərdən keçirilir. Azərbaycanda milli iqtisadiyyatın formalaşması mərhələlərinə uyğun olaraq, həyata keçirilən iqtisadi islahatların xüsusiyyətləri, müvafiq sosial-iqtisadi göstəricilər və onların inkişaf dinamikası təhlil edilərək qiymətləndirilir.Yeni iqtisadiyyata aparan yolun keçilməsində Ümummilli lider Heydər Əliyevin milli iqtisadi inkişaf modelinin tətbiqi kontekstində qazanılan uğurların davamlılığının təmin edilməsi istiqamətləri müəyyən edilir, milli iqtisadiyyatın formalaşması və inkişafının konseptual hüquqi əsaslarına və təşkilati-iqtisadi aspektlərinə müəllif yanaşması əsaslandırılır.

**Açar sözlər:** milli iqtisadiyyat, milli iqtisadi inkişaf, iqtisadi islahatlar, sahibkarlıq.

Bu gün Azərbaycan sürətlə yenilənən dünyanın lider dövlətləri arasında layiqli yer tutur. Müstəqillik qazandığı dövrdən bəri böyük çətinliklərin öhdəsindən gələn Azərbaycan, tamamilə müstəqil siyasət yürüdən bir dövlət kimi həm bölgədə, həm də bütün dünyada istənilən xarici təzyiqləri aşaraq öz mövqeyini nümayiş etdirə bildi.

1969-cu ildə Azərbaycan Sovet İttifaqının ən ucqar və ən zəif respublikası idi. Neft emalı sənayesinin və kənd təsərrüfatının potensialına baxmayaraq, əhali yoxsulluq içində yaşayırdı. Mərkəzi hökumət Azərbaycana laqeyd yanaşırdı, problemlərinin həllinə maraq göstərmirdi. Çətin vəziyyətə baxmayaraq, respublika rəhbərləri sosial və iqtisadi problemləri həll etmək üçün Kremlə müraciət edə bilmirdilər. Yuxarı dairələrdə müraciətlərə belə baxılmırdı. Lakin respublikaya Heydər Əliyev rəhbərlik etdikdən sonra dirçəliş dövrü başladı. Keçən əsrin 70-ci illərində geniş fəaliyyət göstərən Heydər Əliyev Azərbaycanda 300-dən çox sənaye müəssisəsinin tikilib istifadəyə verilməsinə nail oldu. 1969-1985-ci illər ərzində respublikada sənaye istehsalı iki dəfə artdı.

1970-1985-ci illərdə Azərbaycan İttifaqda neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, çini və fayans məhsulları, xalçalar və s. istehsalçısına çevrildi. Azərbaycanda istehsal olunan 350 növ məhsul dünyanın 65 ölkəsinə ixrac edilmişdir.

Beləliklə, geridə qalmış aqrar ölkədən sənaye respublikasına çevrilən Azərbaycanın nüfuzu İttifaq səviyyəsində artdı.

Heydər Əliyevin respublikaya rəhbərliyinin ikinci dövründə ölkədə genişmiqyaslı iqtisadi islahatlar başlandı, nəticədə Azərbaycan neft-pambıq istehsalında lider mövqe tutan sənaye-aqrar respublikasına çevrildi. 1993-cü ilin iyun ayında ölkə rəhbərliyinə qayıdan Heydər Əliyev birincidərəcəli vəzifəni - bazar iqtisadiyyatı əsasında ümumi daxili məhsulun artırılması üçün islahatlar aparmaqla yanaşı, qeyri-neft sektorunun sürətli inkişafını təmin etdi.

Eyni zamanda, Azərbaycanın Qafqaz bölgəsində və onun hüdudlarından kənarda həyata keçirilən genişmiqyaslı transmilli layihələrdə iştirakı təmin edildi və ölkənin dövlət siyasəti xalqın milli maraqlarının mütləq şəkildə nəzərə alınması ilə həyata keçirildi.

O illərdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının gələcək iqtisadi müstəqilliyinin əsasını qoyan güclü iqtisadi baza yaratmaq mümkün oldu. Müəllifi Ulu

Öndər olan iqtisadi islahatların həyata keçirilməsi hər bir vətəndaşın sosial vəziyyətinə və rifahına müsbət təsir göstərmişdir.

Neft faktoru, əlbəttə ki, Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynadı, lakin qeyd etmək lazımdır ki, müasir dünyada neftlə zəngin ölkələr Azərbaycanla eyni nəticələr əldə etməyiblər. Neftin çətinliklərinə səbəb olan şey, qarşıdurmaların və silahlı qarşıdurmaların yaşandığı Orta Şərq ölkələrinin timsalında görə bilərik. Heydər Əliyev ölkənin neft strategiyasının əsasını qoydu. Qərb dövlətləri ilə aparılan çətin danışıqlar nəticəsində 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandı və Azərbaycana investisiya axını başladı.

Bununla yanaşı, əsas məsələlər neftin dünya bazarına çatdırılması və gəlirin səmərəli bölüşdürülməsi idi. Ulu Öndər Heydər Əliyev beynəlxalq nüfuzundan istifadə edərək neft nəqli probleminin aradan qaldırılması üçün qlobal layihələrə başladı və Azərbaycanın iqtisadi inkişafını təmin edərək ölkənin siyasi müstəqilliyinin əsaslarını qoydu. Bir sözlə, Heydər Əliyev riskləri imkana çevirən bir siyasətçi idi.

Müstəqillik qazandığı dövrdən bəri Azərbaycan iqtisadiyyatının inkişafında aşağıdakı əsas mərhələləri ayırmaq olar: transformasiya tənəzzülü (1992-1995), sabitləşmə və bərpa artımı (1996-2000), investisiya təşviqi (2001-2004), iqtisadi yüksəliş (2005-2008). Sonrakı illərdə və bu günə qədər əsas diqqət qeyri-neft sektorunun inkişafına, Made in Azerbaijan brendinin xarici bazarlarda yayılmasına yönəldilmişdir ki, bu da bazar iqtisadiyyatı normalarının, Azərbaycanda və XX əsrin 1994-1995-ci illərindəki əsas iqtisadi islahatların tətbiqinin məntiqi davamıdır.

Müstəqil dövlət quruculuğu prosesində Azərbaycanın ən böyük uğuru, mahiyyətcə yeni bir modelin - iqtisadi islahatlar və inkişafın Azərbaycan modelinin yaradılması idi. Onun əsas məqsədi iqtisadiyyatın uzunmüddətli və dinamik inkişafı idi. O, üç strateji hədəfi əhatə edirdi:

- azad bazar münasibətlərinə əsaslanan vahid sosialyönümlü, özünü inkişaf etdirən iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşması;
- ölkənin mövcud təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialının iqtisadi dövriyyəsində fəal iştirak;
- milli iqtisadiyyatın dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasının təmin edilməsi.

1995-ci ildən bəri Azərbaycanda aparılan islahatların ən vacib istiqamətlərindən biri dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması idi. Ölkədə torpaq və aqrar islahatlar aparıldı, 1.350 min hektardan çox torpaq kəndlilərə pulsuz paylandı, kolxoz və sovxozlar əvəzinə fermer təsərrüfatları yaradıldı. Hazırda kənd təsərrüfatı məhsullarının 99 faizi özəl sektorda istehsal olunur. Bu proses, ölkədəki ictimai-siyasi dəyişikliklərlə yanaşı, kənd təsərrüfatı sənayesinin iqtisadi rasionallığının artmasına təsir etdi. Bunun bariz sübutu müəyyən qida növlərinin (ət, süd, kartof, soğan və s.) idxal səviyyəsinin azalmasıdır.

Müstəqillik qazandığı andan etibarən Azərbaycan iqtisadiyyatının inkişafının əsas xüsusiyyəti ÜDM-in dinamikası ilə təmin edilmişdir. Beləliklə, 2008-ci ilədək Azərbaycanda ÜDM-in həcmi 1991-ci ilin eyni göstəricisinə nisbətən 108 faiz artdı, qalan MDB ölkələrində isə orta artım cəmi 21 faiz idi. 2005-2008-ci illər iqtisadi böyümə baxımından dünyanın bütün ölkələrini xeyli qabaqladığı dövrdə Azərbaycan üçün xüsusilə uğurlu oldu.

Digər keçid iqtisadiyyatları kimi Azərbaycanda da bazar islahatlarının başlanğıc dövrü əhəmiyyətli transformasiya tənəzzülü ilə müşayiət olundu. Ümumi səbəblər qiymət nisbətlərindəki dəyişikliklər, dövlət tələbindəki kəskin azalma, əvvəlki iqtisadi əlaqələrin çökməsi və idxal mallarına olan tələbin bir hissəsindəki dəyişikliklərlə əlaqəli struktur dəyişiklikləridir. Ancaq Azərbaycanda bu problemlər ölkənin uzun illərdir Dağlıq Qarabağla bağlı ciddi bir münaqişəyə cəlb olunması ilə daha da ağırlaşırdı.

Azərbaycanda transformasiya tənəzzülünün müddəti, MDB, Mərkəzi və Şərqi Avropanın (MŞA) digər ölkələrində olduğu kimi dörd il idi. Lakin Azərbaycanda tənəzzülün dərinliyi MDB ölkələri üçün orta göstəricidən çox idi. Öz növbəsində, MDB-də azalma MŞA-dan daha dərin idi.

1992-1995-ci illərdə ölkənin ÜDM-də orta illik azalma tempi 19,4% idi və ümumi iqtisadi azalma demək olar ki, 58%-ə çatdı, bütövlükdə MDB-də (Azərbaycan istisnadır) mənfi dinamika o

qədər də əhəmiyyətli deyildi - müvafiq olaraq 13% və 43%. Eyni dövrdə Azərbaycanda istehsalın həcmi 2 dəfədən çox azaldı. Ən böyük eniş, digər keçid iqtisadiyyatlarında olduğu kimi, orta illik azalma tempinin 20%-ni aşdığı istehsal sənayesində yaşandı. Transformasiyanın başlanğıcından bəri neft hasilatı və tikinti bir qədər az əziyyət çəkdi, baxmayaraq ki, burada da azalma əhəmiyyətli idi.

Transformasiya tənəzzülü zamanı Azərbaycanda investisiyalarda da ciddi azalma baş verdi, lakin onun miqyası keçmiş SSRİ-nin digər ölkələrindən az idi. Beləliklə, 1995-ci ilədək Azərbaycanda investisiyaların həcmi 1991-ci illə müqayisədə 43% azaldı, qalan MDB ölkələrində azalma 67% oldu.

Azərbaycanda ən aşağı tənəzzül nöqtəsini keçdikdən sonra iqtisadiyyatın bərpa artımı digər ölkələrə nisbətən daha sürətli oldu. Nəticədə, Azərbaycanda istehsalın ilkin səviyyəsi 14 ildən sonra, MDB və MŞA ölkələri üçün orta səviyyədən sonra bərpa olundu. Sonrakı illərdə Azərbaycan iqtisadiyyatının böyüməsi kəskin surətdə sürətləndi. Ümumiyyətlə, bazar islahatlarının başlanmasından 17 il sonra Azərbaycanın ÜDM-i iki dəfədən çox artmışdır, MDB ölkələrində orta hesabla – 21%, MŞA – 26%.

Əvvəlcə siyasi, sonra iqtisadi vəziyyəti dəyişdirən mühüm bir mərhələ, Ulu Öndər Heydər Əliyevin ölkəsinin rəhbərliyinə ikinci gəlişi oldu. Bundan qısa müddət sonra Ermənistanla Dağlıq Qarabağ münaqişəsində atəşkəs quruldu, ölkədə siyasi sabitlik xeyli artdı və Azərbaycanın beynəlxalq mövqeləri möhkəmləndi. Bu, bazar institutlarını qurmaq və əvvəlki illərdə zədələnmiş iqtisadiyyatı bərpa etmək üçün güclü fəaliyyət göstərməyə imkan verdi.

İnkişafın ikinci mərhələsində (1996-2000) dövlət siyasəti eyni zamanda, makroiqtisadi sabitləşmə və obyektiv səbəblərdən Azərbaycanda nisbətən gec başlamış struktur islahatlarına yönəlmişdi. 1994-cü ildə, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) hesablamalarına görə, dövlət istehlak səbətinin 77%-ni təşkil edən malların və xidmətlərin qiymətlərini tənzimlədi.

Özəl sektorun ÜDM-dəki payı o dövrdə yalnız 30 faiz, MDB və MŞA ölkələrində orta hesabla 43 faizlə qiymətləndirilirdi. Yalnız Belarusiya və Türkmənistanda özəl sektorun töhfəsi daha az idi.

Nəticə etibarilə Azərbaycanda bazar islahatları daha qısa müddətdə həyata keçirildi və ilk növbədə iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi kimi özəl sektorun inkişafına və ölkənin qlobal iqtisadi sistemə inteqrasiyasına yönəldildi.

Məlumdur ki, istehsal miqyasının genişləndirilməsini və iqtisadiyyatın yeni, daha yüksək sosial-iqtisadi inkişaf səviyyəsinə çıxmasını təmin edən investisiya axınıdır. Bununla birlikdə, investorlar müəyyən bir ölkədə çalışdıqları şərtlərə biganə qalmırlar. Və burada aparıcı rol investisiya siyasətinə və investisiya mühitinə aiddir. Bununla əlaqədar olaraq, ölkədə investisiya fəaliyyətini tənzimləyən bir sıra normativ hüquqi aktlar qəbul edildi: 1992-ci ildə - "Xarici investisiyaların qorunması haqqında" qanun, 1995-ci ildə - "İnvestisiya fəaliyyətləri haqqında" Qanun, bunlar Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların intensiv cəlb edilməsinə yönəldildi, onların ölkənin sosial-iqtisadi bazasının inkişafı üçün səmərəli istifadəsi, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər qorunmasını təmin edir.

Təcrübə göstərir ki, investorlar siyasi və iqtisadi sabitlik ilə xarakterizə olunan ölkələrə maraq göstərirlər.

Son illərdə aparıcı xarici mütəxəssislərin fikrincə, respublika iqtisadiyyatına investisiya qoymaq üçün bütün imkanlar var: siyasi və makroiqtisadi sabitlik, zəngin təbii ehtiyatlar, sənaye və elmi potensial, işçi qüvvəsi. Buna görə həm investor sayı, həm də investisiya həcmi artdı. 2002-ci ildə investisiyaların ÜDM-ə nisbəti 45,9%, qeyri-neft sektorunda isə 17,2% idi. 1990-cı illərin ortalarında ABŞ və Kanadada bu rəqəm inkişaf etmiş ölkələr üçün optimal hesab edilən 20-25%, Yaponiyada, Sinqapurda 30-35% idi. Belə yüksək göstəricilər, Türkiyə və Çin kimi sürətlə inkişaf edən bəzi ölkələr üçün tipikdir.

2002-ci ildə Azərbaycan adambaşına düşən investisiyalar baxımından MDB ölkələri arasında Qazaxıstan və Rusiyadan sonra üçüncü yeri tuturdu. Son illərdə iqtisadiyyatın dövlət sektoruna qoyulan investisiyaların payı azalmış, qeyri-dövlət sektorunda artmışdır. 2003-cü ilin

əvvəlinə bu nisbət yüzdə 26,8 və 73,2 idi. 1995-2002-ci illər ərzində daxili investisiyaların həcmi 3,3 dəfə, xarici investisiyalar 5,9 dəfə artmışdır.

Daxili investisiyaların mütləq artmasına baxmayaraq, ümumi həcmdə payları azaldı, xarici investisiyalar artdı.

Beləliklə, 2001-2004-cü illərdə Azərbaycan əsas kapitala investisiyaların unikal artım tempinə nail oldu - ildə 53 faiz. ÜDM-in sürətli böyüməsinə baxmayaraq, xalis birbaşa xarici investisiyanın (BXİ) ona nisbəti artmağa davam etdi və bu dövrdə orta hesabla ÜDM-in 28%-dən çoxu, dünyada ən yüksək göstərici oldu. Tikinti sektoru, orta hesabla 10,5% olan iqtisadi böyümənin əsas mühərriki olmağa davam etdi. Eyni zamanda, genişmiqyaslı BXİ axını da maşınqayırmanın inkişafına kömək etmişdir. 2005-2008-ci illərdə Azərbaycanda real ÜDM artımı respublika müstəqillik qazandıqdan bəri ən yüksək göstəricilərə çatdı və orta hesabla ildə 24,2 faiz təşkil etdi.

Bu dövr Azərbaycanın iqtisadi artım templərinə görə mütləq dünya lideri olduğu bir "iqtisadi yüksəliş dövrü" kimi xarakterizə edilə bilər. İstehsaldakı bu partlayıcı böyümə, əvvəlki illərdə neft sektoruna edilən genişmiqyaslı investisiyaların təsirindən qaynaqlanırdı. Onlar yeni yataqların işlənməsini təmin etdilər və karbohidrogenlərin istehsalı və nəqli üçün infrastruktur yaratmağa imkan yaratdılar.

Nəticədə 2005-ci ildə Azərbaycan iqtisadiyyatı 1990-cı illərin birinci yarısındakı transformasiya tənəzzülünü tamamilə aradan qaldırdı və 2008-ci ildə ölkənin ÜDM-i 1991-ci illə müqayisədə iki dəfədən çox - 108 faiz artdı.

İslahatlar dövründə Azərbaycan iqtisadiyyatının strukturunda ciddi dəyişikliklər baş verdi. Xüsusilə kənd təsərrüfatının payının əhəmiyyətli dərəcədə azalması və sənayedəki payın artması əsasən hasilat sənayesinin fəal inkişafının nəticəsidir. Eyni zamanda, emal sənayesinin payı dörd dəfə azaldı.

2004-cü ildən sonra xarici investorların gəlirlərinin repatriasiyası fonunda xarici sektora xarici investisiyaların daxil olması zəifləməyə başladı və 2006-2007-ci illərdə ölkədən birbaşa xarici investisiyalar çıxdı. Əlavə olaraq, 2006-cı ildən əvvəl xarici investisiyalar üstünlük təşkil edirdisə, 2007-ci ildən bəri - daxili investisiyalar, hansı ki, 2008-ci ildə əsas kapitala qoyulmuş investisiyaların ümumi həcminin 77,5 faizinə çatmışdır. Eyni zamanda, 2007-ci ildən bəri, investisiyaların əksəriyyəti 2008-ci ildə bütün investisiyaların 71%-inin cəmləndiyi qeyri-neft sektoruna yönəldilməyə başladı.

Beləliklə, xarici investisiyalar əsasən neft-qaz sektorunun inkişafına, daxili investisiyalar isə qeyri-resurs sahələrinin inkişafına təkan verdi. Eyni zamanda, dövlət xərclərinin genişmiqyaslı böyüməsi (2005-2008) əsasən infrastruktura (elektrik enerjisi, su təchizatı, nəqliyyat sistemi) investisiya qoyuluşlarının artması ilə əlaqədardır.

Buna baxmayaraq, yeni yataqların işlənməsini təmin edən və enerji daşıyıcılarının çıxarılması və daşınması üçün lazımi infrastrukturun yaradılmasına imkan verən və qeyri-neft sektorunun inkişafına zəmin yaradan birbaşa investisiyalar idi. Son illərdə Azərbaycanda dünya bazarlarına neft və qaz tədarükü üçün yeni boru kəmərləri sistemi yaradıldı: Bakı-Novorossiysk neft kəməri (1997) bərpa edildi, yenidən quruldu və Bakı-Supsa (1999) və Bakı-Tbilisi-Ceyhan (2006), həmçinin Bakı-Tbilisi-Ərzurum qaz kəməri (2007) qismən yenidən quruldu.

Azərbaycan bölgədəki ən böyük neft ixracatçılarından biri kimi qalmayıb, həm də 2007-ci ildən bəri təbii qaz ixracatçısına çevrilib. 2004-2008-ci illərdə Azərbaycanda neft istehsalı təxminən üç dəfə artaraq 44,7 milyon tona çatdı. BVF-nin qiymətləndirmələrinə görə, neft hasilatında sürətli artım və dünya bazarında neft qiymətlərində əhəmiyyətli artımın birləşməsi, 2008-ci ildə 29,1 milyard dollara çatan neft ixracatının dəyərində 9 qat artıma səbəb oldu. Eyni dövrdə təbii qaz hasilatı üç dəfədən çox - 14,8 milyard kubmetrə qədər artmışdır. Nəticədə, 2008-ci ildə neft və qaz ixracatın 97 faizini və dövlət gəlirlərinin 39 faizini təşkil etmişdir.

2005-2008-ci illərdə neft hasilatındakı yüksək artım və neft ixracatının dəyəri Azərbaycan üçün xarici iqtisadi şərtləri kökündən dəyişdirdi. Böyük cari kəsir (2003-2004-cü illərdə ÜDM-in 28-30%-i) 2005-ci ildən bəri 2008-ci ildə ÜDM-nin 36 faizinə çatan artan profisitlə əvəz edilmişdir.

Eyni zamanda, kapital və maliyyə hesabı 2006-2008-ci illərdə ÜDM-in 10-20%-i nisbətində onun kəsiri ilə mənfi sahəyə girdi.

Bununla birlikdə, artan cari hesablar profisiti mənfi maliyyə hesabı balansını tamamilə kompensasiya etdi və ümumi tədiyə balansı profisiti 2005-2008-ci illərdə beş dəfədən çox artaraq ÜDM-in 26,1 faizinə çatdı.

Bu dövrdə ölkənin ÜDM-də neft sektorunun payı 39 faizdən 60 faizədək artmışdır. Eyni zamanda, bank kreditləri və dövlət stimullaşdırıcı tədbirlər qeyri-neft sektorlarında iqtisadi aktivliyin sürətlə artmasına kömək etdi.

Tikinti və xidmət sahələrindəki əhəmiyyətli artım, 2008-ci ildə Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun artım baxımından neft sənayesini geridə qoymasına gətirib çıxardı. Genişmiqyaslı xarici valyuta axını və əhalinin gəlirlərinin artması fonunda Azərbaycan iqtisadiyyatının əsas problemlərindən biri 9-21 faiz təşkil edən yüksək inflyasiya idi. 2005-2008-ci illərdə dövlət büdcəsi xərcləri beş qat artırılmış və ÜDM-in 27 faizini təşkil etmişdir.

Eyni zamanda, bu dövrdə ilk qeyri-neft büdcə saldosu mənfi olub və qeyri-neft ÜDM-nin 38,2 faizinə çatıb. 1999-cu ildə büdcə xərclərini azaltmaq və inflyasiyaya qarşı mübarizəni davam etdirmək, habelə Holland xəstəliyi ilə əlaqəli digər problemləri həll etmək üçün (xüsusən də qeyri-neft sektoruna və infrastruktur layihələrinə yığılmış vəsaiti qoymaqla) Dövlət Neft Fondu yaradıldı. 2008-ci ilin sonuna Neft Fondunun yığılmış aktivləri 10,9 milyard dollar (qeyri-neft ÜDM-in 61 faizi) təşkil etmişdir.

2005-2008-ci illərdə Azərbaycanın ümumi rəsmi beynəlxalq ehtiyatları 5,5 dəfə artaraq 6,5 milyard dollara çatdı. Beləliklə, Azərbaycan iqtisadiyyatı, böhrandan əvvəlki dövrdə dünya bazarlarındakı əlverişli vəziyyət sayəsində, 2008-2009 böhranının başladığı dövrdə xarici təsirlərə qarşı olduqca davamlı oldu.

Azərbaycan iqtisadiyyatının sabitliyi əhəmiyyətli dərəcədə müsbət cari balans və balanslaşdırılmış dövlət büdcəsi, Neft Fondundan daxil olan vəsaitlər daxil olmaqla ümumi beynəlxalq ehtiyatların yığılmış həcmi və xarici dövlət borcunun aşağı səviyyəsi ilə müəyyən edilmişdir. Eyni zamanda, böhrandan əvvəl baş verən iqtisadi yüksəliş illərində iqtisadiyyat və ölkənin büdcə tarazlığı xarici tələbdən və neft və təbii qaz qiymətlərindən çox asılıdır ki, bu da qlobal qeyri-sabitlik qarşısında Azərbaycanın həssaslığını artırır.

Müstəqil Azərbaycanın gələcəyi iqtisadiyyatın aqrosənaye sektorundan səmərəli istifadədən asılıdır. Bu, Ümummilli lider Heydər Əliyevin iqtisadi inkişaf perspektivləri – onun şaxələndirilməsi yolu ilə neftdən qeyri-neft iqtisadiyyatına keçidi ilə üst-üstə düşdüyü fikir idi.
Ölkədəki iqtisadi böyümənin yavaşlaması, institusional və struktur çətinliklər, tədiyyə balansı və qeyri-neft büdcəsindəki kəsir, həmçinin, kəskin azalma nəticəsində maliyyə və bank sektorlarında baş verən proseslər fonunda dünya bazarlarındakı neft qiymətlərində və Azərbaycanın ticarət tərəfdaşı olan ölkələrdəki iqtisadi böhranda 2014-cü ildən bəri Azərbaycanda iqtisadi inkişafa yeni bir yanaşmaya ehtiyac var.

Belə ki, genişmiqyaslı islahatlara start verildi. Hökumət, milli iqtisadiyyatın strukturunun yenilənməsinin biznes mühitinin daha da yaxşılaşdırılması, ortamüddətli xərcləmə strategiyası çərçivəsində yeni siyasətlərin tətbiqi, maliyyə və bank sektorunun yaxşılaşdırılması və pul siyasətinin təkmilləşdirilməsi yolu ilə mümkün olacağına inanır, üzən məzənnə rejimi ilə yanaşı xarici bazarlara çıxış imkanlarını da genişləndirir.

2016-cı il dekabrın əvvəlində Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə milli iqtisadiyyatın perspektivlərini və 2016-2020-ci illər üçün fəaliyyət planını, 2025-ci ildən sonrakı dövr üçün uzunmüddətli baxış və hədəfləri müəyyənləşdirən 12 yol xəritəsi təsdiq edildi.

Kənd təsərrüfatı, ticarət və logistika, təhsil, kommunal xidmətlər, İKT, əlverişli mənzil, kiçik və orta biznes, ağır sənaye və maşınqayırma, turizm, maliyyə xidmətləri, neft və qazın inkişafı üçün bu yol xəritələrində göstərilən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Bundan əlavə, Azərbaycanda istehsal olunan milli brendin dünya bazarlarına tanıdılması məqsədilə ötən ilin noyabrında başlanan mexanizm çərçivəsində, artıq 7 yerli istehsalçıların iştirak nümayəndəliyi (Çin, Dubay, Əfqanıstan, Pakistan, Qətər, Almaniya) təşkil edilmişdir. Uğur dərhal

oldu. İmzalanan müqavilələrə əsasən, ilk ixracat missiyaları zamanı Çinə qırmızı şərabın və BƏƏ-yə Azərbaycan üçün yeni bazar olan qida məhsullarının ixracı başladı. Dubaya bal, Avropa bazarlarına nar şirəsi, Əfqanıstan və Pakistana meyvə suları, Pakistana borular, polietilen məhsulları ixracı ilə bağlı razılaşmalar əldə edildi və Qətərə küçə və şəhər mebellərinin tədarükü artıq başladı. Bundan əlavə, Azərbaycan şirkətlərinin vahid stenddə iştirak etdiyi Dubay (Gulfood 2017) və Almaniyada (Prowein) sərgilərdə fındığın İspaniyaya ixracı üçün sifarişlər alındı, həmçinin, meyvələrin və tərəvəzlərin meyvə suları, bal, quru süd, ət, çay, qoz-fındığın İran körfəzi ölkələrinə və bu bölgədə fəaliyyət göstərən ticarət şəbəkələrinə daxil olmaqla ixracına dair danışıqlar aparıldı.

İxrac olunan məhsullar üçün xərclərin bir hissəsinin geri qaytarılması sistemi yerli istehsalçıları ixracyönümlü məhsullar istehsalını daha da stimullaşdırır.

Made in Azerbaijan məhsullarının xarici ölkələrdə - Gürcüstan, Ukrayna, İsveçrədəki yanacaqdoldurma məntəqələrindəki rəflərdə görünməsinin gözlənildiyini nəzərə alsaq, AZAL təyyarələrində Azərbaycan məhsullarının tədarükü, Azərbaycanın ixrac etdiyi malların siyahısının genişlənməsi həm də müxtəlif ölkələrin hava limanlarında Duty Free şəbəkəsində təqdim olunan Azərbaycan məhsullarının siyahısının genişləndirilməsi, o zaman mütləq ölkənin doğru yolda olduğunu deyə bilərik. Dünya iqtisadiyyatına uğurlu inteqrasiya, təməlləri Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətin bu gün də Azərbaycanda davam etdiyini bir daha təsdiqləyir.

Beləliklə, Azərbaycan neftdən asılı olmayacaq iqtisadi modelə keçidin əsasını qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin başlatdığı dərin iqtisadi islahatlar artıq ölkə iqtisadiyyatının bir çox sahələrində müsbət təsirini göstərir.

Daha əlverişli biznes mühiti və investisiya mühitinin yaradılmasına yönəlmiş qərarlar, fərmanlar və sərəncamlar 2015-ci ilin sonlarından etibarən fəal şəkildə qəbul edilmişdir. Burada, ilk növbədə, Baş Prokurorluğun yoxlamaları və dövlət təhlükəsizliyi, vətəndaşların sağlamlığı, iqtisadi maraqlar və ölkənin qorunması ilə bağlı yoxlamalar istisna olmaqla sahibkarlıq fəaliyyətinə dair yoxlamaların iki il müddətinə dayandırılmasını qeyd etmək lazımdır. Vergi yoxlamalarının dayandırılması 70 min vergi ödəyicisinə təsir etdi. Yəni, sahibkarlar artıq dövlət qurumlarında aparılan müxtəlif yoxlamalara hazırlaşmağa vaxt itirmirlər ki, bu da birbaşa işlərinə fokuslanmalarına imkan verir. Bu şəkildə məmurlar ilə əlaqə sayının azalması da vacibdir ki, bu da bu yoxlamalarla əlaqəli mümkün korrupsiya faktlarının sayının azalmasına səbəb olur.

2018-ci ilin statiskasına əsasən Azərbaycanda fəaliyyət göstərən 250 minədək mikro, kiçik və orta sahibkarlıq subyektləri əlavə dəyərin 13,4%-ni və ümumi məşğulluğun 42,9%-ni (qeyri-neft və qaz sektorunda isə əlavə dəyərin 23,5%-i və ümumi məşğulluğun 45%-i) təşkil edir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində isə bu göstəricilər müvafiq olaraq əlavə dəyərin 60% və məşğulluğun 60-70%-ni təşkil etmişdir[4]. Azərbaycanda KOS subyektlərinin ÜDM-də və məşğulluqda payının artırılması üçün onların maliyyəyə çıxış imkanlarını genişləndirmək zərurəti vardır.

Ölkənin ixrac qabiliyyətinin artırılması və xarici investisiyaların cəlb edilməsi iqtisadi siyasətin başlıca prioritetlərindəndir və Dövlət Proqramı çərçivəsində bu istiqamətin reallaşdırılmasına yönəlmiş təşkilati modellərin yaradılması sahəsində tədbirlər həyata keçirilir. Bu məqsədlə yaradılmış Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun əsas vəzifəsi ixracat potensialının artırılmasına yönəldilmiş marketinq strategiyasının işlənib hazırlanması, ixracatın prioritet sahələrində məqsədli proqramların hazırlanması və həyata keçirilməsi və ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsinə köməklik göstərməkdən ibarət olacaqdır.

Sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində ötən müddət ərzində sahibkarlığın hüquqi bazasının sistem halına gətirilməsini təmin edən qanunlar və bir sıra digər mühüm normativ sənədlər qəbul edilmişdir. Vergi siyasətinin kiçik və orta sahibkarlığa dövlət köməyinin digər istiqamətləri ilə əlaqələndirilməsinə dair tədbirlər həyata keçirilmiş, sahibkarların vergi yükü azaldılmış, sadələşdirilmiş sistem üzrə vergi təkmilləşdirilmişdir. Sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı mexanizmi təkmilləşdirilmiş,

“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”ndəki 5 strateji hədəfdən 1-cisi “KOS fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması” adlanır. Bu strateji hədəfin 9 prioritetindən 3-cüsü“Dövlət-özəl tərəfdaşlığının dərinləşdirilməsi” kimi təqdim edilir.

Ticarətlə məşğul olmaq üçün lisenziya və icazə sayının azaldığını da qeyd etmək lazımdır. Lisenziyaların sayı 59-dan 37-yə, icazə sənədləri isə təxminən dörd dəfə - 86-ya endirildi. Lisenziyaların indi məhdudiyyətsiz müddətə verilməsi və onların alınması prosedurunun xeyli sadələşdirilməsi də vacibdir və bütün lisenziyalar ASAN Xidmət tərəfindən təmin edilir. Lisenziyaların özləri də kəskin şəkildə düşdü - Bakı üçün iki dəfə və ölkənin bölgələri üçün dörd dəfə. Təsadüfi deyil ki, Dünya Bankının “Doing Business 2020” reytinqində Azərbaycan işə başlamaq asanlığı baxımından 190 ölkə arasında beşinci yeri tutdu. Ümumiyyətlə, hesabata görə, Azərbaycanda bir iş açmaq təxminən üç gün, Avropa və Orta Asiya ölkələrində isə 10,2 gün çəkir.
Azərbaycan Prezidenti İlham Əliyevin Fərmanı ilə yaradılan “ASAN Xidmət” dövlət xidmətlərinin göstərilməsində dövlətin vətəndaşlara qarşı innovativ addımına çevrildi ki, bu da insanların rifah halının yaxşılaşdırılmasına yönələn davamlı sistemli sosial islahatların, vətəndaşlar və insan hüquqlarının təmin edilməsinin bariz nümunəsidir.

ASAN Xidmət mərkəzlərinin yaradılması dövlət idarəetmə sistemində yeni bir mərhələ açdı və bu gün əhatə dairəsi xeyli genişləndi. Fəaliyyətinin səkkiz ili ərzində "ASAN Xidmət", əhali ilə dövlət arasındakı münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş belə bənzərsiz təşkilatın yaradılmasına dair bütün gözləntiləri tam doğruldaraq, haqlı olaraq qürur duya bilən Azərbaycanın milli brendinə çevrildi. 2015-ci ildə dövlətimizin başçısının təşəbbüsü ilə yaradılan Azərbaycanın brendi hesab edilən "ASAN Xidmət" 2015-ci il dövlət xidmətləri arasında BMT mükafatına və "Dövlət xidmətlərinin göstərilməsinin yaxşılaşdırılması" kateqoriyasında birinci yerə layiq görülmüşdür. Bundan əlavə, "ASAN Xidmət"in digər ölkələrdə tətbiq edilməsi tövsiyə edilmişdir.

Məlumdur ki, davamlı iqtisadi inkişaf meyarları ixracat, idxal və daxili istehsal və istehlak baxımından tarazlıqdır. Bu, Azərbaycan iqtisadiyyatının postneft dövründə yeni inkişaf vektorudur. Və tam əminliklə deyə bilərik ki, Azərbaycanın yeni iqtisadiyyatı digər dövlətlər üçün model ola bilər.

## Ədəbiyyat


1. “Xarici investisiyaların qorunması haqqında" Azərbaycan RespublikasınınQanunu, Bakı, 1992-ci il.
2. "İnvestisiya fəaliyyətləri haqqında" Azərbaycan RespublikasınınQanunu, Bakı, 1995-ci il.
3. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
4. www. e-edf. gov. az – Sahibkarlığın İnkişafı Fondunun rəsmi ünvanı
5. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. 96 s.

**Dissertant Əsgərova Məhsəti Rafiq qızı**
*Naxçıvan Dövlət Universiteti*
*İqtisadiyyat və İdarəetmə fakultəsinin müəllimi,*
*Mehseti_74@ mail.ru*

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF STRATEGİYASI

*"Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcəkdir"*
**HEYDƏR ƏLİYEV**

## Xülasə

Məqalədə Heydər Əliyevin Azərbaycanın iqtisadiyyatında müəyyən etdiyi dövlət siyasətindən danışılır. Bu dövlət siyasətinin əsas prinsipləri: milli inkişaf modelinin əsas istiqaməti kimi iqtisadiyyatın sosialyönümlü olmasıdır. Konkret strategiya olmadan nə iqtisadi transformasiyanı, nə də milli iqtisadiyyatın formalaşdırılması prosesini uğurla həyata keçirmək mümkündür. Ümummilli liderin müəyyənləşdirdiyi inkişaf strategiyası bütün sahələrdə uğurla reallaşdırılır.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən bu strategiya Azərbaycanın iqtisadi-sosial həyatında mühüm nailiyyətlərə imkan yaradır.

Milli sosial iqtisadi inkişaf modeli Azərbaycanın perspektivində mühüm uğurlara imza atacağına elmi şəkildə əminlik yaradır.

**Açar sözlər:** Dövlət siyasəti, Azərbaycan modeli, aparılan islahatlar, milli iqtisadiyyat, strategiya, transformasiya, inteqrasiya və s.

**Ключевые слова:**государственная политика,Азербайджанская модель,проведенные реформы,национальная экономика,интеграция,стратегия,преобразование

**Key words:**state police,The Azerbaijani model,carried-out reforms,National econome, Strategy,transformation,integration

Müasir Azərbaycan tarixi dedikdə, ilk öncə, gözümüz önündə Ulu Öndərimiz, bütün varlığı ilə xalqın böyük məhəbbətlə bağlanmış olduğu Heydər Əliyev canlanır. Heydər Əliyev təkrarolunmaz, özünəməxsus keyfiyyətlərə malik müstəsna dahi şəxsiyyətdir.

Azərbaycan tarixinin önəmli bir dövrü- XX əsrin ikinci yarısı, XXI əsrin başlanğıcı Heydər Əliyevin, Azərbaycana rəhbərlik etdiyi dövr bütövlükdə xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalqın təbii konstitusion hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş kimi dərk etməsi kimi iftixar doğuran şanlı epoxanı (dövrü) əhatə edir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan qarşısında əvəzsiz tarixi xidmətlərinin ən qabarıq siyasi təzahürü isə onun dayanıqlı milli dövlət qurması, onun möhkəmləndirilməsidir.

Hər bir dövlətin uzunmüddətli inkişaf perspektivi onun sağlam və etibarlı təməl üzərində qurulmasından asılıdır. Xalqın, millətin xöşbəxtliyi, ilk növbədə, onun müstəqil və güclü dövlətə malik olması ilə müəyyən edilir. Dövlət müstəqilliyi hər şeydən əvvəl onu qazanmış xalqın özünütəsdiqi və milli özünüdərki üçün bir şansdır. Belə bir tarixi şansdan faydalanan və ondan səmərəli istifadə edən xalqlar həm milli inkişafa nail olur, həm də sahib olduqları dövlətin dayaqlarını möhkəmləndirə bilirlər. Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin yaranması Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heç şübhəsiz dövlət

müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Bunu müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu da bir daha təsdiq edir.

Hazırkı yüksək inkişaf və tərəqqi mərhələsinə qədəm qoymuş Azərbaycan bu tarixi mərhələyə heç də qısa zaman kəsiyində və asan yolla çatmayıb. Respublikamız qazandığı sosial-iqtisadi uğurlara və bu sahədə nümayiş etdirdiyi artım templərinə yerli resursların səmərəli istifadəsi və sosial ədalət prinsiplərinə uyğun bərabər bölüşdürülməsi, xüsusən də, düşünülmüş mükəmməl iqtisadi strategiyanın həyata keçirilməsi yolu ilə nail olub.

Azərbaycanın dinamik templərlə iqtisadi tərəqqisini özündə ehtiva edən inkişaf strategiyasının hazırlanaraq həyata keçirilməsi yalnız Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra mümkün olub. 1992-ci ildə dövlət suverenliyini bərpa edən, Azərbaycan Respublikasında demokratik dövlət quruculuğu və kompleks institusional islahatların həyata keçirilməsi, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılması, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılması və digər köklü dəyişikliklər obyektiv zərurətə çevrilmişdi.

Ulu Öndər Heydər Əliyev ölkəmizin gələcək inkişaf kursunu böyük uzaqgörənliklə ifadə etmişdi: "Bir Prezident kimi mən Azərbaycan iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətinin əsas prinsipləridir." Ulu Öndər Heydər Əliyev milli inkişaf modelinin əsas istiqaməti kimi iqtisadiyyatının sosialyönümlü olmasına mühüm əhəmiyyət verirdi.

Azərbaycanın təkcə dövlətçilik deyil, həm də iqtisadi inkişaf tarixinin ən parlaq və şərəfli dövrü Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın milli iqtisadiyyatının formalaşmasında onun xidmətləri misilsizdir. Ulu Öndərin hakimiyyətə gəlişi ilə öz həqiqi dövlət müstəqilliyinə qovuşmuş Azərbaycanın inkişaf strategiyası müəyyən edildi. Bu strateji konsepsiya ölkəmizin potensial imkanları, milli mənafeləri, qlobal iqtisadi meyillər, geosiyasi reallıqlar və bu qəbildən olan digər vacib amillər nəzərə alınmaqla hazırlandı. Heydər Əliyev ilk növbədə, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində siyasi iradə nümayiş etdirdi və iqtisadi transformasiyanın qanunauyğunluqlarını nəzərə alaraq əsaslı islahatlara start verdi. O, həmin dövrdə müstəqil dövlətin yeni transformasiyaya keçid ilə islahatlar həyata keçirilməsinin olduqca çətin və mürəkkəb olduğunu bildirdi: Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətin, iqtisadiyyatın öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur."

Heydər Əliyev 1993-cü ildən –müstəqil Azərbaycana rəhbərlik etdiyi ilk dövrdən müasir dünya düzəninin inkişaf meyillərini uzaqgörənliklə qiymətləndirərək, çağdaş cəmiyyətin qəbul etdiyi inkişaf yolunu seçdi. Bu yol isə iqtisadiyyat üzərində dövlət inhisarçılığını aradan qaldırılmasından, sahibkarlığın inkişaf etdirilməsindən və iqtisadiyyatın liberallaşdırılmasından başlayır. Çoxmülkiyyətli və liberal iqtisadiyyatı təmin etmək və kompleks islahatlar aparmaq üçün ilk növbədə, maliyyə resurslarının olması olduqca vacibdir. Həmin illərdə ölkəmizin maliyyə resurslarını formalaşdırmaq üçün zəngin xammal ehtiyyatlarının istismarı və dünya bazarlarına çıxarılması zəruri idi. 1994-cü ilin sentyabrın 20-də dünyanın səkkiz ölkəsini təmsil edən 11 transmilli neft şirkəti ilə "Əsrin müqaviləsi"nin imzalanması və icrasına başlanması və Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. "Əsrin müqaviləsi"ni imzalamaqla respublikanın yaxın illər üçün güclü maliyyə resurslarının formalaşmasına baza yaratdı. Bir neçə ildən sonra əldə ediləcək mənfəət nefti ölkəmizin sosial-iqtisadi, ictimai-humanitar, elmi-mədəni

həyatında əsaslı dönüş yaradacaqdı. Bu tarixi hadisə ilə həm də ölkəmizin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Eyni zamanda, Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını da yaratdı. Neft-qaz sektorunda həyata keçirilən genişmiqyaslı işlər iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu, iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı. İqtisadiyyatda aparılan güclü islahatlar ölkənin maliyyə vəziyyətinin yaxşılaşmasını, dövlət büdcəsinin gəlirlərinin ildən-ilə artmasını təmin etdi.

Dünya iqtisadiyyatının başlıca tələblərindən biri iqtisadi transformasiya prosesinin təkamül yolu ilə düşünülmüş və təmkinli olaraq həyata keçirilməsindən ibarətdir. Davamlı və sistemli bir proses olan təkamül yolu bir qayda olaraq iqtisadi münasibətlərin bütün səviyyələrini əhatə edir. Məhz bu mənada təmkinli, uzaqgörən siyasi xətlə pararellik təşkil edən təkamül yolu Azərbaycanda bazar iqtisadiyyatının təməl prinsiplərinə çevrildi. Ulu Öndər Heydər Əliyev milli iqtisadiyyatın formalaşdırılmasını və ədalətli sosial cəmiyyətə keçidi məhz ilk növbədə, liberal iqtisadiyyatın təmin edilməsində görürdü. Bu məqsədlə, 1994-cü ildən planlı iqtisadi sistemdən liberal bazar iqtisadiyyatına keçid üçün strateji qərarlar qəbul edildi. Konkret strategiya olmadan nə iqtisadi transformasiyanın, nə də milli iqtisadiyyatın formalaşdırılması prosesini uğurla həyata keçirmək mümkündür. Strategiya sosial-iqtisadi inkişafın əsas oriyentlərini müəyyən edir. Genişmiqyaslı islahatlar aparmadan, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində köklü dəyişikliklər etmədən müəyyən edilmiş iqtisadi strategiyanı reallaşdırılmasına nail ola bilməzdik. Məlum olduğu kimi, iqtisadiyyatın liberallaşdırılması özündə çoxsistemli tədbirləri ehtiva edir və islahatların dinamikliyini təmin etmək üçün kompleks tədbirlər həyata keçirir. Bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank-maliyyə sisteminin formalaşdırılması, torpaq və aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin təmin edilməsi islahatların əsas komponentləridir.

İqtisadi islahatların və liberal bazar münasibətlərinin genişlənməsi və sürətlənməsi ilk növbədə, bu sahədə müvafiq qanunların baza sənədlərinin mövcudluğu, onların təkmilləşdirilməsi ilə sıx bağlıdır. Həmin illərdə xarici investorların ölkəyə axınını sürətləndirmək, onlara iş fəaliyyəti üçün əlverişli şərait yaratmaq, xarici ticarəti sabitləşdirmək, sahibkarlığı inkişaf etdirmək üçün bir sıra qanunlar qəbul edildi, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə uyğunlaşdırılmasını təmin edən qanunvericilik bazası yaradıldı. İqtisadi sahələrdə yeni qanunların qəbul olunması, Azərbaycanın iqtisadi qanunlarının Avropa standartlarına uyğunlaşdırılması və digər qanunvericilik təşəbbüsləri respublikamızın milli inkişafını təmin etməklə bərabər, dünya ölkələri ilə sıx inteqrasiyanı dərinləşdirdi, Avropa bazarlarına çıxışı üçün əlverişli şərait yaratdı. Ölkəmizin sürətli sosial-iqtisadi inkişafı və onun regionda güc mərkəzinə çevrilməsi Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu və iqtisadi islahatların həyata keçirilməsi sahəsində atdığı strateji addımlar nəticəsində mümkün oldu.

Liberal bazar iqtisadiyyatının bütün komponentləri həyata keçirməyi, islahatların başlıca hədəflərinə çevirən Azərbaycan hökuməti 1994-cü ildən başlayan bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı. Dövlətin mülkiyyətində olan torpaqlar kəndlərə verildi ki, bu sahədə respublikamız MDB-də ilk islahat aparan ölkə hesab olunur. Digər sahələrdə özəlləşdirmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın strukturunda ciddi keyfiyyət dəyişiklikləri baş verdi və liberal iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yarandı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.

İqtisadiyyatın əsasını təşkil edən neft sektoru ilə yanaşı, digər sahələrdə də genişmiqyaslı islahatlara başlanıldı. Bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə,vergi, bank sistemlərinin formalaşdırılması, aqrar islahatlarının həyata keçirilməsi, dövlət əmlakının

özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində bazar iqtisadiyyatına keçidin əsası qoyuldu və sahibkarlıq sinfi formalaşdı. Tam əminliklə deyə bilərik ki, 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatı böhran və tənəzzül məngənəsindən çıxaraq, iqtisadi inkişaf və yüksəliş yoluna qədəm qoydu.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün bütün sahələrdə uğurla reallaşdırılır. Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən bu strategiya Azərbaycanın iqtisadi-sosial həyatında mühüm nailiyyətlərə imkan yaradır. Milli sosial iqtisadi inkişaf modeli Azərbaycanın perspektivində daha mühüm uğurlara imza atacağına elmi şəkildə əminlik yaradır.

Professor Ş.H.Hacıyev hələ 2000-ci ildə yazdığı "Azərbaycan dünya birliyinə doğru yolda: xarici iqtisadi inkişaf strategiyası" monoqrafiyasında Azərbaycanın iqtisadi inkişaf xüsusiyyətlərinin konturlarını müşahidə etmiş və sonralar bir neçə əsər və məqalələrdə Milli iqtisadiyyatın formalaşmasının spesifikliyini iqtisadi inkişafın Heydər Əliyev- "Uğur" modeli kimi elmi cəhətdən əsaslandırmışdı.

Milli iqtisadiyyatın inkişafı üçün strateji və siyasi xarakterli addımlardan biri 12 noyabr 1995-ci ildə qəbul olunan müstəqil Azərbaycanın ilk Konstitusiyası –respublikamızın siyasi-iqtisadi, sosial-humanitar bölmələri ilə bağlı bütün təfərrüatları özündə əks etdirməklə strateji əhəmiyyətinə görə, seçildi. Ulu Öndər müstəqil ölkənin ilk Konstitusiyasının iqtisadi və sosial islahatlara, milli inkişafa böyük təminat verdiyini bildirdi: "Qəbul olunmuş Konstitusiya nəinki daxili siyasi sabitliyi təmin edir, həm də götürdüyümüz strateji xəttin həyata keçirilməsi üçün bütün şərait və imkanların yaradılmasını nəzərdə tutur, buna hər cür təminat verir. 1995-ci ildən başlayaraq iqtisadiyyatın artım tempi hər il əhəmiyyətli dərəcədə yüksəlməyə başladı.

Demokratik hüquqi dövlət qurulması, demokratik vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatına uyğun dəyişikliklərin, iqtisadi islahatların həyata keçirilməsi, xarici investisiyalar, azad sahibkarlıq üçün şərait yaradılması və onun mənafelərinin qorunması, xüsusi mülkiyyətin inkişafının təmin olunması, habelə, şəxsiyyətin, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi-bütün bunlar Konstitusiyamızın müvafiq maddələrində kifayət qədər dolğun və konkret təcəssümünü tapıbdır. Bununla yanaşı, Konstitusiya sahibkarlıq üçün, xarici investisiyalar üçün, xüsusi mülkiyyətin inkişafı üçün tam təminat verir, xüsusi sahibkarlığın mənafelərinin qorunmasını təmin edir.

Bazar iqtisadiyyatının tənzimlənmə mexanizmləri və iqtisadi subyektlərin fəaliyyətinə dövlət nəzarət sisteminin gücləndirilməsi, yeni iqtisadi münasibətlərin fəlsəfi-hüquqi-iqtisadi əsaslarının möhkəmlənməsi, yeni iqtisadi təfəkkürün formalaşması milli iqtisadiyyatın inkişafını sürətləndirdi. Belə ki, ÜDM 2,2%, q/neft sektorunda bu artım 3,5%, sənaye istehsalı1,5%, q\neft sektorunda sənaye istehsalı 14% artmışdır. Kənd təsərrüfatı təxminən 7%, xüsusilə bitkiçilikdə bu artım 10%-dən çox olmuşdur. Özəl sektorun fəaliyyətinə göstərilən diqqət, güzəştli kreditlərin verilməsi, subsidiyalarla bağlı aparılan islahatlar və digər tədbirlər bu artımı daha da sürətləndirir. Həyata keçirilmiş aqrar islahatların nəticəsidir ki, hazırda kənd təsərrüfatı istehsalının 99%-i özəl bölməyə əsaslanır. Bu da görülən işlərin bariz nümunəsidir. Ölkəmiz əsrə bərabər inkişaf yolu keçmişdir və bu gün Azərbaycan dünya miqyasında güclü ölkələr sırasındadır.

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr beynəlxalq hesabatlarda da əksini tapmış, müxtəlif meyarlar üzrə reytinq cədvəllərində ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bu ölkəmizdə həyata keçirilən iqtisadi və institusional islahatlara beynəlxalq təşkilatların verdiyi yüksək qiymətdir.

Müasir Azərbaycan dövlətinin banisi Ümummilli lider Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafı üçün möhkəm zəmin yaratdı.

İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycanın hazırda qarşıda duran ən başlıca məqsədi inkişaf etmiş dövlətlər səviyyəsinə çatmaqdır. Bu baxımdan ölkənin inkişafının hazırkı mərhələsində qarşıya qoyulmuş əsas hədəflər çoxsahəli, innovasiyayönümlü iqtisadiyyatın

formalaşdırılması, əhalinin rifah halının davamlı olaraq yaxşılaşdırılması, habelə elmin, mədəniyyətin inkişafında ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Liberal iqtisadiyyatın təmin olunması ölkəmizin dünya birliyinə sıx inteqrasiyaını dərinləşdirir: “Biz tam şəkildə bazar iqtisadiyyatına keçmişik. Azərbaycan iqtisadiyyatı liberal iqtisadiyyatdır, müstəqil, dayanıqlı, öz resurslarına güvənən, dünya birliyinə sürətlə inteqrasiya edən iqtisadiyyatdır.”

Ulu Öndərin əsasını qoyduğu inkişaf strategiyasının zamanın tələblərinə cavab verən yeni çalarlarla zənginləşdirərək uğurla davam etdirən Prezidentimiz İlham Əliyev Azərbaycanın tamamilə keçid iqtisadiyyatını arxada qoymasına nail olub.Yeni inkişaf mərhələsi isə Azərbaycanın iqtisadi modelinin tətbiq olunması fonunda başlayıb. Davamlı, dinamik inkişaf məntiqinə əsaslanan bu modelin strateji istiqamətləri tamamilə liberal bazar münasibətlərinə əsaslanan, sosialyönümlü iqtisadi sistemin və milli iqtisadiyyatın formalaşdırılması, ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması, milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasından ibarətdir. Azərbaycanın milli iqtisadi inkişafı vahid iqtisadi siyasət strategiyasının fundamental prinsiplərinə əsaslanır. Yeni iqtisadi təfəkkürün formalaşmasında və yeni milli iqtisadiyyatın inkişafında Azərbaycan iqtisadi modeli mükəmməlliyi ilə seçilir. Ölkəmizin inkişaf modeli iqtisadi mahiyyətinə görə, həm də sosiallığı ilə seçilir. Yəni bu modelin alt qatı birbaşa sosialyönümlü liberal iqtisadiyyata bağlıdır. Bu siyasət ictimai münasibətlərin sosial ədalət ruhunda dəyişdirilməsinə, gəlirlərin bərabərləşdirilməsinə, insanlar arasında maddi bölgülərin istehlakında bərabərsizliyin aradan qaldırılmasına və son nəticədə sosial rifahın yüksəldilməsinə hesablanıb. Bu eyni zamanda, dövlətin iqtisadi gücünün artımı əsasında yeni demokratik cəmiyyətin qurulmasına kömək edir.

Həyata keçirilən Azərbaycanın bugünkü uğurları məhz Heydər Əliyev siyasətinin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir.

İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf və radikal islahatlar strategiyası sayəsində ölkəmizin maliyyə-valyuta ehtiyatları hesabına iqtisadiyyatda yüksək dayanıqlılıq potensialı yaradılıb, sahibkarlığa dövlət dəstəyi, real sektora investisiya qoyuluşları artıb, manatın məzənnəsinin sabitliyi qorunub saxlanılıb.

İctimai həyatın bütün sahələrində yüksək tərəqqi və intibaha imza atan, sürətlə modernləşərək qarşıya qoyduğu strateji hədəflərə yetişən Azərbaycan son illərdə həm də özünəməxsus milli inkişaf modeli ilə müasir dünyanın yeni iqtisadi fenomenə çevrilmək əzmi nümayiş etdirir.

Bu gün sosial rifahın yaxşılaşdırılması, iş yerlərinin getdikcə artması, yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılması,yürüdülən uğurlu, qətiyyətli siyasət, həyata keçirilən makroiqtisadi layihələr Azərbaycanın iqtisadiyyatının daha da yüksələcəyindən xəbər verir.

## Гейдар Алиев и концепция экономического развития Азербайджана

### Резюме

В статье говорится о государственной политике,проводимой Гейдаром Алиевым в экономике Азербайджана.

Основные принципы государственной политики:социальная направленность экономики, как основное направление модели национального развития. Без конкретной стратегии можно успешно осуществить. как экономические преобразования,так и процесс формирования национальной экономики.

Стратегия развития, опеределенная национальным лидером,успешно реализуется во всех областях.Эта стратегия,реализованная президентом Ильхамом Алиевым,позволяет добиться значительного прогресса в экономической и социальной жизни Азербайджана.

В статье говорится,что национальная модель социально-экономического развития может быть научно потверждена,что Азербайджан достигнет значительных успехов в будущем.

**Heydar Aliyev and the concept of economic development of Azerbaijan**

**Summary**

The article describes the state policy set by Heydar Aliyev inthe economy of Azerbaijan. Thiz is the basic principles of state policy:the social orientation of the economy as the main direction of the national development model.

Without a specific strategy? It is possible to successfully implement both economic transformation and the process of forming the national economy. The development strategy dejined by the national leader is successfully implemented in all areas. This strategy,implemented by Prezident Ilham Aliyev,enables signijicant Progress Azerbaijan"s economic and social life. The article states that the national model of social and economic development will provide scientific assurance that Azerbaijan will achieve significant success in the future.

Ədəbiyyat

1. Azərbaycan Respubliksının milli iqtisadi inkişaf perspektivi üzrə "Strateji Yol Xəritəsi".
2. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası.
3. Ş.H.Hacıyev. "Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития. Киев 2000 ."
4. Ş.H.Hacıyev "Azərbaycan dünya birliyinə doğru yolda: xarici iqtisadi inkişaf strategiya"sı Bakı-2000
5. "Respublika" qəzeti, 22 aprel 2018-ci il
6. "Xalq" qəzeti , 16 may 2010-cu il
7. "Şərq qapısı" qəzeti 14 may 2013-cü il
8. "Xalq" qəzeti 22 may 2010-cu il

**Nəsibova Arifə Carı qızı**
*Mingəçevir Dövlət Universiteti*
*arifa.nasibova@mail.ru*

# MÜSTƏQİL DÖVLƏT QURUCULUĞU PROSESİNDƏ İQTİSADİ İSLAHATLAR VƏ İNKİŞAFIN AZƏRBAYCAN MODELİNİN YARADICISI

***Açar sözlər:*** *modernləşmə, disbalans, sosial bazar, milli iqtisadi inkişaf,transmilli korporasiya.*
***Ключевые слова:*** *модернизация, дисбаланс, социальный рынок, национальное экономическое развитие, транснациональная корпорация.*
***Key words:*** *modernization, imbalance, social market, national economic development, transnational corporation.*

## Xülasə

Bu gün Azərbaycanın davamlı iqtisadi yüksəlişində regionların daim artan rolu hamı tərəfindən etiraf olunur və yeni inkişaf modelinin vacib tərkib hissəsi kimi qiymətləndirilir.

Azərbaycanın inkişaf modeli kontekstində modernləşmə onun fundamental əsaslarından biri, bəlkə də ən əhəmiyyətlisi qismində qəbul olunur. Ölkənin mövcud reallıqları və gələcək perspektivləri təkzibedilməz şəkildə sübuta yetirir ki, modernləşmə Azərbaycan timsalında möhtəşəm inkişaf resursuna sahibdir. Məhz həmin inkişaf resursunun hərəkətə gətirilməsi Azərbaycanın son illərdə sürətli tərəqqisinin təmin edilməsində birbaşa iştirak etməkdədir.

## Резюме

Сегодня растущая роль регионов в устойчивом экономическом росте Азербайджана признается всеми и считается важной частью новой модели развития.

В контексте модели развития Азербайджана модернизация рассматривается как одна из ее фундаментальных основ, возможно, самая важная. Сегодняшние реалии и перспективы на будущее страны неопровержимо доказывают, что модернизация имеет большой ресурс для развития на примере Азербайджана. Именно мобилизация этого ресурса развития напрямую участвует в обеспечении быстрого прогресса Азербайджана в последние годы.

## Summary

Today, the growing role of the regions in the sustainable economic growth of Azerbaijan is recognized by all and is considered an important part of the new development model.

In the context of Azerbaijan's development model, modernization is seen as one of its fundamental foundations, perhaps the most important. The current realities and future prospects of the country irrefutably prove that modernization has a great resource for development in the example of Azerbaijan. It is the mobilization of this development resource that is directly involved in ensuring the rapid progress of Azerbaijan in recent years.

Bu gün Azərbaycan sürətlə yenilənən dünyanın aparıcı dövlətləri arasında layiqli yer tutur. Müstəqillik qazandığı dövrdən bəri böyük çətinliklərin öhdəsindən gələn Azərbaycan, həm xarici, həm də xarici təzyiqləri aşaraq, tamamilə müstəqil siyasət yürüdən bir dövlət olaraq həm bölgədə, həm də bütün dünyada öz mövqeyini nümayiş etdirə bilib.

1969-cu ildə Azərbaycan Sovet İttifaqının ən ucqar və ən zəif respublikası idi. Neft emalı sənayesinin və kənd təsərrüfatının potensialına baxmayaraq, əhali yoxsulluq içində yaşayırdı. Mərkəzi hökumət Azərbaycana laqeyd qaldı, problemlərinin həllinə maraq göstərmədi. Çətin

vəziyyətə baxmayaraq, respublika rəhbərləri sosial və iqtisadi problemləri həll etmək üçün Kremlə müraciət edə bilmədilər. Müraciətlərə belə baxılmadı. Lakin respublikaya Heydər Əliyev rəhbərlik etdikdən sonra dirçəliş dövrü başladı. 70-ci illərdə geniş fəaliyyət göstərən Heydər Əliyev Azərbaycanda 300-dən çox sənaye müəssisəsinin tikilib istifadəyə verilməsinə nail oldu. 1969-1985-ci illər ərzində respublikada sənaye istehsalı iki dəfə artdı.

1970-1985-ci illərdə Azərbaycan Birlikdə neft məhsulları, neft avadanlığı, polad borular, əlvan metallar, sintetik kauçuk, elektrik mühərrikləri, məişət kondisionerləri, mineral gübrələr, çini və saxsı məmulatlar, xalçalar və s. Azərbaycanda istehsal olunan 350 növ məhsul dünyanın 65 ölkəsinə ixrac edilmişdir.

Müstəqil dövlət quruculuğu prosesində Azərbaycanın ən böyük uğuru, mahiyyətcə yeni bir modelin - iqtisadi islahatlar və inkişafın Azərbaycan modelinin yaradılması idi. Əsas məqsədi iqtisadiyyatın uzunmüddətli və dinamik inkişafı idi. Üç strateji hədəfi əhatə edirdi:

- sərbəst bazar münasibətlərinə əsaslanan vahid sosialyönümlü, özünü inkişaf etdirən bir iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşdırılması;
- ölkənin təbii-iqtisadi, texniki istehsal və elmi-texniki potensialının iqtisadi dövriyyəsində fəal iştirak;
- milli iqtisadiyyatın dünya iqtisadi sisteminə rasional inteqrasiyasının təmin edilməsi.

Beləliklə, geridə qalmış aqrar ölkədən sənaye respublikasına çevrilən Azərbaycanın nüfuzu ittifaq səviyyəsində artdı.

Müstəqillik dövrünün Heydər Əliyev islahatları və Azərbaycanın müasir iqtisadiyyatının yaradılmasına diqqət yetirsək görərik ki Azərbaycanın müasir iqtisadiyyatının yaradılması sahəsində ilk və ciddi səylər Heydər Əliyev tərəfindən onun hakimiyyətinin birinci dövründə edilmişdir. 1993-cü ildə Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti seçilməsi təxminən 20 il əvvəl başlanılmış işlərin davam etdirilməsinə imkan açmış oldu. Əlbəttə, müstəqillik dövrünün islahatlarını sovet dövrünün islahatları ilə bir araya qoymaq düzgün olmazdı. Lakin bunların arasında məntiqi əlaqənin mövcudluğu da inkar edilə bilməz.

Müasir iqtisadiyyatın yaradılması məqsədilə Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyada birincilik palması, heç şübhəsiz, yeni iqtisadi münasibətlərin təməlinin qurulmasına aiddir.

Bazar iqtisadiyyatına keçid Azərbaycanda müasir ictimai münasibətlər sisteminin yaradılması prosesi bir sıra mühüm xüsusiyyətlərə malik olduğundan bazar iqtisadiyyatının formalaşmasının da bəzi fərqli cəhətləri mövcuddur. Ən ümumi şəkildə Ermənistanın Azərbaycana ərazi iddiaları səbəbindən başlanan müharibə, ictimai, o cümlədən, iqtisadi münasibətlərin ideoloji sistemin sərt nəzarətindən tədricən azad olması, mülkiyyət formalarının dəyişdirilməsinin ziddiyyətləri sözügedən prosesin fərqli cəhətlərini şərtləndirirdi.

Bazar iqtisadiyyatına keçid üçün seçilmiş yol nəticə etibarilə ölkənin iqtisadi modelinin əsaslarının yaradılmasında həlledici rol oynamışdır. Onu da qeyd edək ki, Heydər Əliyevin müəyyənləşdirdiyi bu yolun nüvəsini əsaslı islahatlar təşkil edirdi.

Heydər Əliyevin bazar iqtisadiyyatına keçid konsepsiyasının baş xəttini mülkiyyətin özəlləşdirilməsi, iqtisadiyyatın dövlətin inhisarından azad edilməsi, şəxsi mülkiyyət hüququnun formalaşması əsasında azad sahibkarlığın yaradılması təşkil edir.

Heydər Əliyev iqtisadi siyasətinin diqqəti cəlb edən digər mühüm xüsusiyyəti azad bazar münasibətlərinin formalaşdırılması mərhələləri hesab edilə bilər. Yeni iqtisadi sistemin yaradılmasının xidmət sahələrinin, ticarətin, tikintinin, nəqliyyatın bir sıra sahələrinin özəlləşdirilməsindən başlaması bazar münasibətləri sisteminə yumşaq keçidi təmin etmiş oldu. Əldə edilən təcrübə digər sahələrin idarə edilməsində bazar iqtisadiyyatı üsullarından istifadə edilməsi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirdi.

Azərbaycanın yeni iqtisadi modelinin yaradılmasında aqrar islahatların aparılmasının müstəsna rolu danılmazdır. Bu, əsas etibarilə bir yandan ölkə iqtisadiyyatının strukturu ilə bağlıdırsa, digər tərəfdən əhalinin yerləşməsi ilə şərtlənir. Azərbaycanda XX əsrin 70-80-ci

illərində Heydər Əliyevin rəhbərliyi dövründə inkişaf etmiş sənaye sahələrinin yaradılmasına baxmayaraq, iqtisadiyyatda kənd təsərrüfatı sektorunun xüsusi çəkisi yüksək olmaqda davam edirdi. Kənd təsərrüfatı işçi qüvvəsinin cəlb edilməsinin ən geniş sahələrindən biri kimi vacib rol oynayırdı. Digər tərəfdən, ölkə əhalisinin təxminən yarısı kənd yerlərində yaşayırdı. Əhalinin təxminən 40 faizdən çoxunun yaşadığı və işlədiyi kəndi bazar iqtisadi münasibətlərinə cəlb etmədən yeni iqtisadiyyatın yaradılması təmin edilə bilməzdi. Buna görə Heydər Əliyev aqrar islahatların aparılmasına xüsusi önəm verirdi. Daha doğrusu, kənddə yeni iqtisadi münasibətlər sisteminin yaradılması Ulu Öndər Heydər Əliyevin düşüncəsinə görə, aqrar islahat formasında həyata keçirilməli idi. Qeyd edilməlidir ki, torpaqların kollektiv, əslində dövlət təsərrüfatında birləşməsinə əsaslanan iqtisadi sistemin formalaşdırdığı stereotiplər fonunda belə bir ideyanın irəli sürülməsi və onun həyata keçirilməsi cəhdləri o zaman kifayət qədər riskli və cəsarətli addım idi. Çünki, torpaqların kəndlilərə paylanmasını nəzərdə tutan Heydər Əliyev aqrar siyasəti təkcə kəndin kollektiv təsərrüfat sistemini dəyişdirmirdi, əslində bütün təsərrüfat ukladını, kəndlinin həyat tərzini kökündən yeni qaydalar üzərinə keçirilməsinə əsaslanırdı. İlk mərhələdə iri kollektiv və dövlət təsərrüfatlarının əvəzində xırda fərdi təsərrüfatların səmərəliliyinin və həyat qabiliyyətinin təmin edilməsi, unudulmuş şəxsi təsərrüfatçılıq psixologiyasının yaradılması kimi çətin vəzifələr qarşıda dayanırdı. Bu isə, təbii olaraq, birbaşa ərzaq təhlükəsizliyi probleminə gedib çıxırdı. Digər ciddi problem kənddə işsizliyin kəskin surətdə artması ilə bağlı idi. Torpaqlar pay bölgüsü əsasında bölünə bilər, lakin onu əkib-becərmək üçün texnikanın yaranacaq bütün fərdi təsərrüfatlar arasında bölünməsi mümkün deyildi. Deməli, müəyyən müddət ərzində kəndliyə verilmiş torpaqların əhəmiyyətli hissəsinin işlənməsi təmin edilə bilməyəcəkdi.

Bütün bunlar həyata keçiriləcək aqrar islahatların riskləri idi. Lakin islahatların kökündə dayanan kənddə ədalətin bərpa olunması, kəndlidə zəruri sahibkarlıq hisslərinin formalaşdırılması prinsipləri və gələcək perspektivlərə inam cəsarətli addımların atılmasını qaçılmaz edirdi. Bu gün Azərbaycan kəndinin simasının kökündən dəyişməsi, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində daxili imkanların rolunun getdikcə artması Heydər Əliyevin aqrar islahatlarının düzgünlüyünü sübuta yetirir. Xarici investisiyaların cəlb edilməsi və ölkənin təbii sərvətlərindən istifadə edilməsinə diqqət yetirsək görərik ki, müstəqilliyin ilk illərində Azərbaycanın məlum səbəblərlə əlaqədar üzləşdiyi maliyyə sıxıntıları iqtisadiyyatın struktur dəyişikliklərini həyata keçirməyə, zəngin neft və qaz ehtiyatlarını işləməyə imkan vermədiyindən ölkəyə xarici sərmayələrin cəlb edilməsi çıxış yollarından biri kimi başa düşülürdü.[2]

Heydər Əliyevin inkişaf strategiyasının tərkib hissəsi olan xarici investisiyaların cəlb edilməsi siyasəti çoxvektorluğu ilə seçilir. Əlbəttə, ilk olaraq Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının işlənməsi kimi strateji məqsəd güdülürdü. Daxili imkanların məhdudluğu şəraitində xarici sərmayənin cəlb edilməsi mahiyyət etibarilə ölkənin inkişaf maraqları ilə xarici kapitalın maraqlarının əlaqələndirilməsinə istinad edən iqtisadi kompromis xarakteri daşıyırdı. Bir tərəfdə Azərbaycanın zəngin neft və qaz ehtiyatlarının işlənməsi, digər tərəfdə isə ayrı-ayrı beynəlxalq şirkətlərin biznes maraqları dayanırdı.

Yeni inkişaf modelinin formalaşması nöqteyi-nəzərindən xarici kapitalın cəlb edilməsi bir sıra ölkələrin təcrübəsində sınanmış üsullardan sayılır. Azərbaycanın timsalında bu, maraqların uzlaşması və tarazlaşması zəminində tərəflərdən biri Azərbaycan olan transmilli korporasiyanın yaradılması formasında meydana gəlmiş oldu. Artıq Azərbaycanın milli iqtisadiyyatında onu qlobal iqtisadiyyata sıx bağlayan əhəmiyyətli halqa meydana gəlmişdi. Bunun sayəsində ölkənin zəngin karbohidrogen ehtiyatları böyük maliyyə vəsaitlərinə çevrilməklə sonrakı iqtisadi və sosial inkişafın fundamental təməli rolunu oynamağa başlamışdır.

Xarici sərmayə iqtisadiyyatın dirçəlişi üçün ilkin kapital rolunu oynamaqla yanaşı daxili iqtisadi struktur islahatlarının aparılmasına, yeni istehsal münasibətlərinin və sahələrinin

meydana gəlməsinə, inteqrasiya meyillərinin genişlənməsinə və güclənməsinə, müasir idarəetmə metodlarının qərarlaşmasına təkan verdi.

Diqqəti çəkən məqam ondan ibarətdir ki, ölkənin neft və qaz sektoruna cəlb edilən böyük xarici kapital Azərbaycanda iqtisadi cəlbedicilik mühitinin formalaşmasında müstəsna rol oynamaqla, əslində iqtisadi inkişaf modelinin əhəmiyyətli ünsürlərindən birinin qərarlaşmasına etibarlı təminat verdi. Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi qəbul edilməsi, ölkə iqtisadiyyatının xarici sərmayələr üçün cəlbediciliyi, əlverişli investisiya mühitinin təminatı baxımından Azərbaycanın yüksək reytinqə malik olan bir ölkə kimi tanındı.

Müstəqilliyin ilk illərini müşayiət edən iqtisadi və sosial sıxıntılar 70 il ərzində insanların həyatlarından daha çox beyinlərinə daxil olmuş sosial ədalət prinsiplərini yenidən müəyyən dərəcədə populyarlaşdıra bilmişdi. Həm də artan işsizlik, yoxsulluq və digər sosial problemlər sosial ədalət prinsipinə dövlətin diqqətinin artırılmasını qaçılmaz edirdi. Müvəqqəti olsa da müstəqilliyin ilk illərində xeyli sosial problemlərlə üz-üzə qalmış insanların ehtiyaclarının bir qisminin dövlətin üzərinə götürülməsindən savayı çıxış yolu qalmırdı.

Nəhayət, bazar münasibətləri ilə sosial ədalət prinsiplərinin əlaqələndirilməsi Azərbaycanın formalaşdırılan Heydər Əliyev modelinin humanist mahiyyətindən irəli gəlirdi.

Nəticədə, Heydər Əliyevin uzaqgörənliyi və müdrikliyi azad bazar münasibətləri ilə sosial ədalət prinsiplərinin elə səmərəli sintezinin yaradılmasına gətirib çıxartdı ki, bunu da sosial bazar modeli adlandırmaq mümkündür.

Azərbaycan modelinin mühüm xüsusiyyətləri arasında regional inkişafın sürətləndirilməsi xətti ayrıca əhəmiyyət kəsb etməkdədir. Belə bir xəttin yeridilməsi zərurəti ölkə iqtisadiyyatında XX əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərinə təsadüf edən tənəzzül prosesləri nəticəsində yaranan inkişafın qeyri-bərabərliyindən qaynaqlanır. İnkişaf etmiş Bakı ilə geridə qalmış regionlar arasında disbalans iqtisadiyyatda kifayət qədər nataraz və səmərəsiz strukturun yaranmasına səbəb olmuşdu. Bu isə öz növbəsində ölkə iqtisadiyyatının inkişafı qarşısında ən böyük maneələrdən idi. Qeyri-tarazlıq inkişafın ahəngdar gedişini əngəllədiyindən mərkəzlə əyalətlər arasında fərqlər də getdikcə artmaqda davam edirdi.

Digər tərəfdən isə ayrı-ayrı bölgələr arasında böyük fərqlər ümumilikdə ölkə iqtisadiyyatının vahid balansında əks olunaraq onun kəmiyyət göstəricilərinə mənfi təsirini göstərirdi. Üstəgəl, zəif iqtisadi göstəricilər regionların sosial ehtiyaclarının öz imkanları hesabına ödənilməsini qeyri-mümkün etdiyindən, əksər regionların mərkəzi büdcədən dotasiyalar hesabına yaşamasını qaçılmaz edirdi. Nəticədə, inkişafa sərf edilməli olan vəsaitlər məcburi olaraq regionların sosial ehtiyaclarının ödənilməsi məqsədlərinə ünvanlanırdı.

Vəziyyətin köklü surətdə dəyişdirilməsi 2004-cü ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair dövlət proqramının qəbul edilməsi və ardıcıl surətdə həyata keçirilməsi sayəsində mümkün oldu. Qəbul edilən proqramın həyata keçirilməsi sayəsində baş verən dəyişikliklər ümumiləşdirilmiş şəkildə aşağıdakılarda öz ifadəsini tapdı:

- iqtisadiyyatın strukturunda disbalans tədricən aradan qaldırıldı;
- yüz minlərlə yeni iş yerləri açıldı, işçi qüvvəsindən səmərəli istifadə əmsalı yüksəldi, işsizliyin aradan qaldırılmasına böyük dəstək verildi;
- regionlarda iqtisadi fəallıq əhəmiyyətli dərəcədə yüksəldi;
- ölkə iqtisadiyyatının ümumi inkişafında regionların xüsusi çəkisi nəzərə çarpan dərəcədə yüksəldi;
- regionların infrastukturu təkmilləşdirildi ki, bu da öz növbəsində artan iqtisadi amil effekti yaratmış oldu;
- regionların sosial siması dəyişdi və beləliklə də ümumi iqtisadi fəallığa əhəmiyyətli təsir göstərmək gücünə malik olan digər amil - əhalinin sağlam, yüksək ovqatı formalaşdı.

Bu gün Azərbaycanın davamlı iqtisadi yüksəlişində regionların daim artan rolu hamı tərəfindən etiraf olunur və yeni inkişaf modelinin vacib tərkib hissəsi kimi qiymətləndirilir.

Müasir Azərbaycan inkişaf modeli dedikdə hər şeydən əvvəl iqtisadiyyatın və həyatın digər sahələrinin modernləşməsi prosesi və onun yaratdığı reallıqlar başa düşülür.

Azərbaycanın inkişaf modeli kontekstində modernləşmə onun fundamental əsaslarından biri, bəlkə də ən əhəmiyyətlisi qismində qəbul olunur. Ölkənin mövcud reallıqları və gələcək perspektivləri təkzibedilməz şəkildə sübuta yetirir ki, modernləşmə Azərbaycan timsalında möhtəşəm inkişaf resursuna sahibdir. Məhz həmin inkişaf resursunun hərəkətə gətirilməsi Azərbaycanın son illərdə sürətli tərəqqisinin təmin edilməsində birbaşa iştirak etməkdədir.

Azərbaycan reallıqlarında moderinləşmə əhatəli məzmunu ilə fərqlənir və fikrimcə, aşağıdakı struktura sahibdir:

- iqtisadi modernləşmə;
- infrastrukturun yeniləşməsi;
- məskunlaşma və həyatın təşkili sahəsində modernləşmə.

Azərbaycanın inkişaf modelində iqtisadi modernləşmə istehsalın artım templərinin əsas təminatçısı məqsədlərini güdür. Milli iqtisadiyyatın struktur dəyişikliklərindən tutmuş yeni texnologiyaların tətbiqi, istehsal mədəniyyətinin artırılması, dünya iqtisadi sisteminə qovuşmağa imkan yaradan yeni sahələrin və istehsalların meydana gəlməsinə qədər geniş spektri əhatə edən iqtisadi modernləşmə Azərbaycanın bazar iqtisadiyyatının əsaslarının bərqərar edilməsi prosesinin ümumi mənzərəsini tam dolğunluğu ilə əks etdirir.[3]

Azərbaycanın modernləşmə xəttinin mahiyyətini və mənzərəsini ölkənin simasının bütünlükdə dəyişdirilməsinə yönəldən əsaslı yenidənqurma və abadlıq işləri daha sintetik şəkildə əks etdirir. Bu bir yandan həyatın yeni standartlarının yaradılması məqsədləri güdürsə, digər tərəfdən istehsal mədəniyyətini artırır. Onu da xüsusi olaraq vurğulamaq yerinə düşər ki, Azərbaycanın paytaxtdan tutmuş regionlara qədər bütünlükdə dəyişən görkəmi ölkənin simasını müasirləşdirməklə yanaşı, həm də əhalinin ictimai ovqatının yeni obrazını formalaşdırır, müasir dünyagörüşünün qərarlaşmasına bilavasitə təsir edir.Bu da bütünlüklə yeni Azərbaycan modelinin bitkin məzmununun meydana gəlməsinə xeyli təsir göstərmişdir.

Yekun olaraq ölkənin sosial, iqtisadi inkişafını xarakterizə edən məlumatların təhlili göstərir ki, bu gün Azərbaycanda yeni, mükəmməl milli iqtisadi inkişaf modeli formalaşdırılmışdır. Respublikamızda dayanıqlı və hərtərəfli inkişafın əsas təzahürü olan bu model ölkə Prezidenti cənab İlham Əliyevin yorulmaz, məqsədyönlü fəaliyyətinin nəticəsidir və xalqımızın işıqlı gələcəyini təmin edən dövlət idarəçiliyinin etibarlı əllərdə olduğunu bir daha təsdiq edir.

## Ədəbiyyat

1. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf konsepsiyası (Azərbaycan Respublikası Prezidentinin 29.12.2012 tarixli fərmanı ilə təsdiq edilmişdir).
2. Allahverdiyev H. B. və b. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: 2002.- 447 s
3. Hacıyev Ş. Azərbaycanın iqtisadi inkişafının model identifikasiyası. "Heydər Əliyev və Azərbaycanın müasirləşmə strategiyası".Bakı: Azərnəşr 2011 .708 s

**T.ü.f.d., b/m. Həsənova Cəmilə Vaqif qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC*
Cemile.hasanova@unec.edu.az

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKİYƏ CÜMHURİYYƏTİ İLƏ MƏDƏNİ, SİYASİ, İQTİSADİ ƏLAQƏLƏRİ

## Xülasə

Hazırkı mərhələdə müstəqil Azərbaycan dövlətinin Avropa və Yaxın Şərq ölkələri ilə ikitərəfli sosial-iqtisadi və mədəni əlaqələri xeyli genişlənib. Bu əlaqələrin genişlənməsində əlbətdəki, Ümummilli liderimiz H. Əliyevin misilsiz xidmətləri olmuşdur. Heydər Əliyev öz hakimiyyəti dövründə heç də əbəs yerə "bir millət, iki dövlət" söyləməmişdi. Qardaş Türkiyə Respublikası ilə mədəni əlaqələrin yaradılmasına xüsusi önəm vermişdir. Uzun illər boyu Azərbaycan Respublikasının beynəlxalq mədəni fəaliyyətə, əlaqələrə birbaşa qoşulmaq hüququ olmamışdır. Sovet hakimiyyəti dönəmində Xalqın dilini, dinin dəyişməyə səy göstərdilər. Lakin istər dil, istərsə də adət-ənənə oxşarlığı baxımından bir-birinə çox yaxın olan hər iki xalq mədəni-kulturoloji əlaqələr yaratmağa daima cəhd etmiş və son nəticədə buna nail olmuşdular.

**Açar sözlər:** mədəni əlaqələr, siyasi əlaqələr, Yaxın Şərq, musiqi.

## Giriş

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin böyük tarixi kökləri var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr bu əlaqələri şərtləndirən amillər sırasında yer alır. Türkiyə və Azərbaycan dövlətləri öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun Azərbaycana gəlişi eyni zamanda, uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Məhz Azərbaycan Xalq Cümhuriyyəti dönəmində ilk ordu təcrübəsi, ilk ordu quruculuğu məhz Nuru paşanın rəhbərliyi altında baş vermişdi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin dediyi kimi: "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır". Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mücadiləyə azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər.

Mədəni Əlaqələr: Azərbaycan – Türkiyə mədəni əlaqələrinin inkişafında 1964-72-ci illərdə Sovet İttifaqı ilə Türkiyə arasında bağlanan mədəni-elmi saziş xüsusi rol oynamışdır. Məhz bu saziş imzalandıqdan sonra 1967-ci ildə XVIII əsr Azərbaycan şairi Molla Pənah Vaqifin yubileyi ilə əlaqədar olaraq Bakıda keçirilən təntənəli tədbirdə Türkiyənin də mötəbər elm, mədəniyyət xadimləri iştirak etmək imkanı əldə etmişlər. Elə həmin ildə Bakıda Asiya və Afrika ölkələrinin yazıçılarının beynəlxalq konfransı təşkil olunmuş və bu tədbirdə də Türkiyə nümayəndələrinin iştirakına şərait yaradılmışdır.

Türkiyə– Azərbaycan mədəni əlaqələri 1973-cü ildə Nəsiminin yubileyinə həsr olunmuş mədəni-kütləvi tədbirdə yeni mərhələyə qədəm qoydu. Əslində bu mədəni əlaqələr Heydər Əliyev birinci katib seçildikdən sonra daha da möhkəmlənmiş və yeni mərhələyə qədəm qoymuşdu. Bu səfərdə Türk nümayəndələri Azərbaycanın mədəni həyatı ilə daha yaxından tanış oldular. Hətta, türk şairi Fazil Hüsnü Dağlarca Bakıya, Göygölə şerlər həsr etdi [1]. Artıq Sovet hakimiyyətinin son illərində Azərbaycanla Türkiyənin birbaşa mədəni əlaqələri 1987-ci ildə baş tutdu. Belə ki, 1987-ci ilin iyulunda Azərbaycan Respublikasının Mədəniyyət Naziri Zakir Bağırov Türkiyənin Mədəniyyət Naziri Məsud Yılmazla Ankarada görüşdü və bu görüşdə iki qardaş ölkə arasında mədəni əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu.

1988-ci ildən başlayaraq, Ermənistanın Azərbaycan ərazisinə təcavüzü zamanı qardaş Türkiyə Dövləti ilə Azərbaycan arasında əlaqələr daha da genişləndi. 1990-cı ilin yanvar ayında Azərbaycanın Mədəniyyət Naziri Polad Bülbüloğlu ilə Türkiyənin Mədəniyyət Naziri N. K. Zeybək arasında mədəni əməkdaşlıq haqqında saziş imzalandı. Elə bu sazişə əsasən 1990-cı ildə Türkiyədə Azərbaycanın mədəniyyət günləri keçirildi. Həmin vaxt Türkiyə əhalisi Azərbaycanın bir çox görkəmli mədəniyyət və incəsənət xadimləri ilə yaxından görüşmək imkanı əldə etdi. Bu əlaqələrin reallaşmasında “Vətən” cəmiyyətinin, xüsusilə həmin cəmiyyətin sədri Elçin Əfəndiyevin xüsusi xidmətləri olmuşdur.

Ən maraqlısı odur ki, Sovet İttifaqının rəhbər orqanlarında böyük vəzifələrdə çalışan ermənilər Türkiyə ilə Azərbaycanın mədəni, siyasi və iqtisadi əlaqələrinin genişlənməsinə hər vəchlə mane olmağa çalışırdılar. Onlar imperiya rəhbərlərinə belə fikir aşılamağa çalışırdılar ki, Azərbaycanın qardaş ölkə ilə əlaqələr yaratması Türkiyəyə meylin güclənməsinə səbəb ola bilər. Ermənilər bu münasibətlərin genişlənməsinə, zənginləşməsinə daim qarşı çıxırdılar. Ancaq ermənilərin Azərbaycana qarşı düşmən münasibətləri aşkarlandıqdan sonra xalqımızda Türkiyəyə olan meyil doğrudan da gücləndi. (Bu səbəbdən də 1988-ci ilin əvvəllərindən başlayaraq Bakının küçə və əyləncə yerlərində Türk mahnıları eşidilməyə başladı). 1988-ci ildə Azərbaycanın incəsənət xadimləri Türkiyənin İzmir şəhərində Bakı günləri təşkil etdilər. Azərbaycanın incəsənət xadimləri türk tamaşaçıları qarşısında bir çox konsert proqramları ilə çıxışlar etdilər. Bundan sonra türk tamaşaçılarının da Azərbaycan musiqisinə marağı artdı [2]. Bu hadisə hər iki dövlətin ayrı-ayrı şəhərlərinin qardaşlaşmasının və mədəni əlaqələrinin genişləndirilməsinin əsasını qoydu. Belə ki, Gəncə və Naxçıvan şəhərləri ilə Bursa şəhəri arasında da qardaşlıq əlaqələri yaradıldı. Bursa şəhəri ilə Azərbaycanın Gəncə və Naxçıvan şəhərləri dostluq və mədəni əlaqələri inkişaf etdirmək haqqında xüsusi müqavilə imzalandı və həyata keçiriləcək mədəni- kulturoloji tədbirlər planı hazırlandı [3].

Artıq 1990-cı ildən başlayaraq, Azərbaycan – Türkiyə mədəni əlaqələri sürətlə inkişaf etməyə başladı. Bu dövrdə Türkiyənin mədəni aləmində Azərbaycan klassik ədəbiyyatına böyük maraq göstərildi. Həmçinin, türk ictimaiyyəti müasir yazarlarımızla da tanış olmaq imkanı əldə etdilər. Türkiyədə Azərbaycan poeziyası və nəsri antologiyası nəşr olundu. Görkəmli türk şairi və jurnalisti Yusel Feyzioğlu Səməd Vurğunun şerlərini çap etdirdilər [4]. Ankarada milli folklor tədqiqatları nəşriyyatları və başqa nəşriyyatlar «Azərbaycan Respublikası», «Azərbaycan xalçaları», «Aşıq Ələsgər» adlı kitabları türk oxucularına təqdim etdilər. Azərbaycan və Türkiyə aşıq poeziyasının inkişafına böyük təsir göstərən Qaracaoğlunun ədəbi irsi Azərbaycan şairi və alimi mərhum Rəfiq Zəka Xəndan tərəfindən araşdırılmışdır [1].

Bu tədbirdən sonra Azərbaycan-Türkiyə arasında qarşılıqlı əlaqələr genişləndi. Türkiyənin bir çox şəhərlərində qədim xalq sənətini qoruyub yaşadan sənətkarların ictimaiyyətlə görüşləri təşkil olundu. 1990-cı ildə Türk filosofu, sufi şair Yunis İmrənin 700 illik yubileyi münasibəti ilə Azərbaycan Aşıqlar Birliyinin sədri, xalq şairi mərhum Hüseyn Arifin rəhbərliyi ilə bir qrup aşıq sənətçilərimiz Əskişəhərdə, Ankarada və Mələkkədə çıxışlar etdilər. Həmin vaxt «Şairlər şöləni» adlı poeziya bayramında həm aşıqlarımız, həm də bir çox şairlərimiz iştirak etdilər. Bu təntənəli mədəni- kulturoloji tədbirlər zamanı Azərbaycan və Türkiyə sənətkarları arasında yaradıcılıq əlaqələrini inkişaf etdirdiyinə görə şair Hüseyn Arif “Kamal Atatürk Qızıl medalına” layiq görülmüşdür [5].

Qeyd etmək lazımdır ki, Azərbaycanın bir çox dünya şöhrətli sənətkarları hələ Sovet imperiyasının Türkiyəyə qarşı radikal yanaşdığı dövrlərdə də qardaş ölkə ilə mədəni-kulturoloji əlaqələr yaratmaqdan çəkinməmişlər. Xüsusilə maestro Niyazi, Arif Məlikov, Zeynəb Xanlarova, Lütfiyar İmanov və başqaları daim Azərbaycan incəsənətini Türkiyə ictimaiyyətinə təqdim edə bilmişlər. Görkəmli sənətkarımız maestro Niyazi Ankara Dövlət Opera və Balet teatrında P.İ. Çaykovskinin “Yevgeni Onegin” operasını tamaşaya qoymuşdur.

Maestro Niyazinin Türkiyə ilə əlaqələri daha çox olmuşdur. O, burada P.İ. Çaykovskinin “Qu gölü” baletini, C. Verdinin “Aida” operasını da tamaşaçılara təqdim etmişdir. Türk

tədqiqatçıları Niyazini müasir dövrün ən qabaqcıl dirijorlarından biri kimi qiymətləndirmişlər [4]. Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, mədəni münasibətlərdə də böyük dirçəliş baş verib.

2 noyabr 1994-cü ildə Türkiyə Böyük Millət Məclisində dahi Azərbaycan şairi Məhəmməd Füzulini anma mərasimi keçirilib və mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev çıxış edib. Eyni zamanda, Azərbaycan Prezidenti Bilkən Universitetində Füzulinin 500 illik yubileyinə həsr olunmuş şənliklərdə iştirak edib.

Türk dramaturqlarının əsərlərinin Azərbaycan teatrındakı tamaşaları, eləcə də son illərdə Azərbaycan dramaturgiyasının Türkiyə teatrlarında səhnə şərhini tapmış nümunələri teatrlarımızın yaxınlaşmasında müstəsna əhəmiyyət kəsb edir.

9 mart 2001-ci il tarixində Azərbaycanın Prezidenti Heydər Əliyevin Azərbaycanda məhz Azərbaycan Atatürk Mərkəzinin açılması barədə fərman verməsi və lazımi çalışmaların qısa müddətdə tamamlanması tapşırığını verməsi iki türk dövləti arasında mədəni əlaqələrin inkişafının canlı təcəssümüdür.

Heydər Əliyev 2001-ci il martın 12-də Ankara şəhərində əməkdaşlıq protokolunun təsdiqi haqqında sərəncam vermişdir. Bu sərəncam Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Türkiyə Cümhuriyyətinin Mədəniyyət Nazirliyi arasında imzalanmış, gələcəkdə əməkdaşlıqların daha geniş vüsət almasına köklənmişdi.

Azərbaycan-Türkiyə mədəni əlaqələrinin inkişafında iki ölkə arasında XX əsrin 90-cı illərindən başlayaraq həyata keçirilən tələbə mübadiləsi, qarşılıqlı tele-radio yayınları da mühüm rol oynayır.

Müasir mərhələdə əsası Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan – Türkiyə mədəni əlaqələri son dövrdə daha yüksək templə inkişaf etməkdədir. Bunu dövlət və hökumət rəhbərləri səviyyəsində, cəmiyyətlər və diasporalar əməkdaşlığında qeyd edilən tədbirlər də təsdiqləməkdədir. 2007-ci il martın 9-da Heydər Əliyev Sarayında Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunun açılışı oldu. Forumda 48 ölkədən ümumilikdə 513 nəfər iştirak edirdi. Forumda Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan iştirak ediblər.

Siyasi münasibətlər: Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa edəndən sonra 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət məhz Türkiyə oldu. Bu heç də təsadüfi deyildi, çünki Azərbaycan 1918-ci ildə ilk dəfə öz müstəqilliyini qazanan zamanda onu ilk tanıyan dövlət məhz qardaş Türkiyə Cümhuriyyəti olmuşdu. 1992-ci il yanvar ayının 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradıldı. Həmin vaxtdan Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqustundan isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başlamışdır.

Diplomatik münasibətlərin yaradılması, daha sonra diasporaların yaradılması iki ölkə arasında qarşılıqlı əlaqələrin inkişafında geniş perspektivlər açdı. Türkiyə Prezidenti Turqut Özalın Azərbaycana 1992-ci il 1-3 may tarixli səfəri və səfər zamanı imzalanmış Birgə Bəyanat qarşılıqlı əlaqələrin əsas prinsiplərini və inkişaf perspektivini müəyyən etdi. Hər iki dövlət qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq ardıcıl addımlar atmağa başladılar. Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının səylərini dəstəkləyərək, hərtərəfli əlaqələrin inkişafına geniş yardım göstərirdi.

Azərbaycanın beynəlxalq aləmin inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi: “1993-cü ilin yayından başlayaraq, Türkiyəyə münasibətdə də xarici siyasət kursunda ciddi dəyişikliklər edildi və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Bu gün Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi

tərəf-müqabilidir. İki qardaş dövlətin başçılarının qarşılıqlı rəsmi səfərləri zamanı hərtərəfli əməkdaşlığımızı əhatə edən bir sıra mühüm sənədlər imzalanmışdır. Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir."[6]

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etməsi Ümummilli liderin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və ölkələr arasındakı strateji birliyin çox fərqli və qiymətli olduğunun göstəricisidir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ilk rəsmi səfəri məhz Türkiyəyə olmuşdu. 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Səfər zamanı Heydər Əliyev Türkiyə Prezidenti, Baş naziri və parlamentin rəhbəri ilə görüşüb və Türkiyə Böyük Millət Məclisində çıxış edərək iki ölkənin əlaqələri və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında məlumat verib. Səfər çərçivəsində iki ölkə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşlıqlı təşviqi və qorunması haqqında saziş və digər mühüm sənədlər imzalandı [7].

5-8 may 1997-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə ikinci rəsmi səfəri baş tutmuşdur. Bu səfər zamanı həyata keçirilən görüşlər, danışıqlar nəticəsində imzalanmış səkkiz sənəd, xüsusilə strateji əməkdaşlığın dərinləşdirilməsi haqqında müqavilə Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin yeni bir mərhələyə daxil olmasının təzahürü idi.

12-17 mart 2001-ci ildə isə Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə növbəti dəfə rəsmi səfər edib. Türkiyənin dövlət və hökumət rəhbərləri ilə görüşlərdə iki dövlət arasında münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə mövzusu olub. Səfər zamanı imzalanan vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlər qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsinə şərait yaradılması baxımından əhəmiyyət kəsb edir [5].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəfələrlə Türkiyə Cümhuriyyəti tərəfindən müxtəlif mükafatlara layiq görülməsi qarşılıqlı münasibətlərin dərin köklərə söykənməsinin bariz nümunəsidir. Məsələn: 1997-ci ildə Türkiyənin "Dövlət nişanı", 1999-cu ildə isə Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən "İlin adamı" seçilməsi, bu ölkənin bir çox universitetinin Fəxri doktoru seçilməsi Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərinin yüksək göstəricisidir.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev də atasının siyasətinə sadiq qalaraq Türkiyə ilə münasibətlərin inkişafına müstəsna diqqət ayırıb. Ötən dövr ərzində Prezident İlham Əliyev Türkiyəyə 10-dan artıq rəsmi, 30-dan artıq işgüzar səfər edib [8].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə ilk rəsmi səfəri 13-15 aprel 2004-cü il tarixlərində olub. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Türkiyə Prezidenti Ə.N.Sezərlə görüşüb. Sonra geniş tərkibdə görüş olub, sənədlərin imzalanma mərasimi kecirilib. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Türkiyənin Baş Naziri R.T.Ərdoğan ilə də təkbətək görüşüb. Həmin gün Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi H.Ozkökü, Xarici İşlər Naziri A.Gülü qəbul edib. 14 aprel 2004-cu il tarixində İ.Əliyev Ankara yaxınlığında, Batıkənddə xalqımızın Ümummilli lideri Heydər Əliyevin xatirəsinə salınmış parkın təntənəli açılış mərasimində də iştirak edib. Həmin gün İ.Əliyev TBMM-də olmuş və onun sədri ilə təkbətək görüşü keçirilib. Keçirilən görüş zamanı məclisdə çıxış edib və 14 aprel 2004-cü il tarixində

Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevə Bilkənd universitetində fəxri doktor diplomu və İ.Doğramacı adına Dünya Sülh mükafatına layiq görülüb.

Səfər zamanı Azərbaycan və Türkiyə arasında birgə bəyanat, mülki aviasiya və mədəniyyət sahəsində əməkdaşlığa dair protokollor və digər vacib sənədlər imzalanıb.

5-6 noyabr 2008-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Cümhuriyyətinə yenidən səfər edib. Bu səfər Türkiyə Respublikasının Prezidenti Abdulla Gülün dəvəti ilə baş tutub. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, bu İlham Əliyevin ikinci dəfə ölkə prezidenti seçildikdən sonra, ilk xarici səfəri idi. Noyabrın 5-də Türkiyə Respublikası Prezidentinin iqamətgahında - Çankaya köşkündə Prezident İ.Əliyevin və Prezidenti A.Gülün təkbətək görüşü keçirilib. Həmçinin, səfər çərçivəsində Prezident İ.Əliyev Türkiyə Böyük Millət Məclisində geniş nitq söyləyib, Ankara şəhərinin Batıkent məhəlləsindəki Heydər Əliyev küçəsinin açılışında iştirak edib, habelə Heydər Əliyev parkı və Heydər Əliyev adına ibtidai məktəblə tanış olub [4].

İki ölkə arasında münasibətlərin xarakterindən danışarkən bir məsələyə də diqqət yetirmək istərdik. Türkiyənin dövlət və hökumət başçılarının xaricə ilk rəsmi səfərlərinə Azərbaycandan başlamaları artıq xoş ənənəyə çevrilib. Bu bir daha bu iki türk dövlətlərin, bu iki qardaş dövlətlərin bir-birlərinə nə dərəcədə əhəmiyyət verməlirini göstərmiş olur.

Hesab edirik ki, Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bu fikri iki ölkə arasında münasibətlərin xarakterini gözəl nümayiş etdirir: "Türkiyə ilə Azərbaycan arasında münasibətlər köklü tarixi və mədəni bağlardan qaynaqlanan qardaşlıq təməli üzərində hər sahədə inkişaf etməkdə və güclənməkdədir. Bu münasibətlərin memarlarından biri olan böyük lider, hörmətli Heydər Əliyevin dediyi kimi, Türkiyə və Azərbaycan eyni millətin iki ayrı dövlətidir. Mərhum prezidentin iki ölkə arasında əlaqələrin ideal qiymətini ifadə etmək üçün istifadə etdiyi bu şüar real həyatda əksini tapıb. Sevincdə də, kədərdə də bir olan Türkiyə və Azərbaycana bütün dünya qibtə ilə baxır." [9]

İqtisadi münasibətlər: Heydər Əliyevin Azərbaycan Respublikasının prezidenti seçildikdən sonra ilk iqtisadi münasibətdə atdığı addım, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" oldu. Bu müqaviləni imzalamaqla "Türk petrolları" şirkətinin xarici neft şirkətləri konsorsiumunda təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi.

Ümumiyyətlə, Azərbaycanın neft-qaz sektoru ilə bağlı 5 müqavilədə Türkiyənin payı var: Bakı-Tbilisi-Ceyhan layihəsində - 6,53 faiz; "Azəri"-"Çıraq"-"Günəşli" layihəsində - 6,75 faiz; "Şahdəniz" layihəsində - 9 faiz; "Kürdaşı" layihəsində - 5 faiz; "Araz"-"Alov"-"Şərq" layihəsində - 10 faiz.

13 iyul 2006-cı il tarixində Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan terminalında Bakı-Tbilisi-Ceyhan neft ixracı boru kəməri işə salınmış və bununla iki ölkənin iştirak etdiyi beynəlxalq transkontinental layihə həyata keçirilmişdir [10].

Bu kəmərin ümumi uzunluğu 1769 km (Azərbaycan hissəsi 443 km, Gürcüstan hissəsi 250 km, Türkiyə hissəsi 1076 km), illik keçirmə qabiliyyəti 50 mln tondur.

1999-cu ildə nəhəng Şahdəniz qaz-kondensat yatağının aşkar edilməsi ilə Azərbaycanla Türkiyə arasında qaz sahəsində əməkdaşlığın qurulması üçün zəmin yaradıldı. 2001-ci il martın 12-də Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı "Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın satışı və alışı haqqında müqavilə" imzalandı.

2007-ci ilin yanvar ayında Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir. Kəmərin Azərbaycanla Gürcüstan ərazisindən keçən hissəsinin 690 kilometrini Cənubu Qafqaz Boru Kəməri (CQBK) təşkil edir, Türkiyənin BOTAŞ şirkətinin Gürcüstan-Türkiyə sərhədində CQBK-ya birləşdirilən hissəsi isə 280 kilometr məsafə qət edərək Ərzurumadək uzanır.

2010-cu ildə Azərbaycan Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ şirkəti arasında imzalanmış müqavilə Azərbaycan qazının Türkiyəyə və Avropanın digər ölkələrinə satışını

artıq reallaşdırır. Bu layihələr Azərbaycanın və Türkiyənin, eləcə də Avropanın və digər regionların enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır [10].

Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. Onlardan biri də Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsidir. Uzun illər ərzində bu məsələ iki ölkə arasında, beynəlxalq maliyyə qurumlarında, sadəcə, müzakirə olunurdu. Bu önəmli layihə faktiki olaraq, icra edilmirdi. Türkiyə, Gürcüstan və Azərbaycan rəhbərliklərinin iradəsi nəticəsində bu məsələnin həllinə nail olunub. Layihənin uğurla reallaşdırılması Azərbaycanı Türkiyə ilə dəmir yolu vasitəsilə birləşdirəcəkdir. Şübhəsiz ki, bu layihənin çox böyük, həm iqtisadi, həm də siyasi önəmi var. Yolun tikilməsi Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsinin 10 mlrd dollaradək yüksəldilməsi üçün real imkanlar açacaq. 2012-ci ildə başa çatdırılması planlaşdırılan xəttin istifadəyə verilməsindən sonra 2012-ci ildə 1,2 mln sərnişin və 3,5 mln ton yük daşınacaq. 2034-cü ildə isə dəmiryolu xəttinin üzərində 7,8 mln sərnişin və 21,5 mln ton yük daşınması təxmin edilir. Bakı-Tiflis-Qars xətti, Marmaray və tikintisi davam edən sürətli qatar layihələri ilə yalnız Türkiyə deyil, Gürcüstan və Azərbaycan da Asiya-Avropa dəhlizinin ən sərfəli və etibarlı variantı halına gələcək.

İqtisadiyyata yönəldilən xarici investisiyalar sahəsində Türkiyə Azərbaycanın əsas tərəfdaşlarından biridir. Türkiyənin iş adamları və şirkətləri 2002-2010 illər ərzində Azərbaycanın neft və qeyri-neft sektoruna 1,653 mlrd AZN həcmində investisiya yönəltmişlər, bu da həmin dövr ərzində ölkəyə yatırılan sərmayələrin 7% təşkil etmişdir.

2010-cu ildə Türkiyədə xarici iştirakla yaradılan məhdud məsuliyyətli cəmiyyətlər arasında Azərbaycan dördüncü, səhmdar cəmiyyətlər arasında isə 14-cü yerdədir. Azərbaycan şirkətləri indiyə qədər Türkiyə iqtisadiyyatına 4 milyard dollardan çox vəsait qoymuşdur. İqtisadi sahədə əməkdaşlıq haqqında indiyədək iki dövlət arasında 30-dan artıq sənəd imzalanıb.

## Nəticə

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək deyə bilərik ki, beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər uzrə Azərbaycanla Turkiyənin mövqeləri çox yaxındır və ya üst-üstə düşür, tərəflər regional və beynəlxalq təşkilatlarda məsləhətləşmələr aparır, bir-birinə qarşılıqlı dəstək verir. Azərbaycan BMT, İKT, NATO, Avropa Şurası, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlər Birliyi kimi təşkilatlar çərçivəsində də Türkiyə ilə faydalı əməkdaşlıq edir. Türkiyə və Azərbaycan arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsinə yönəlib. 1993-cü ilin aprelində Ermənistan qoşunları Azərbaycanın Kəlbəcər rayonunu işğal etdikdən və BMT-nin işğal olunmuş əraziləri tərk etməsi barədə qətnaməsini icra etmədikdən sonra Türkiyə Ermənistanla sərhədlərini bağlayıb və problem həllini tapmayana qədər sərhədləri açmamaqda qərarlıdır. Türkiyə ardıcıl olaraq bütün beynəlxalq təşkilatlarda Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərinin azad olunmasını, bu məsələ ilə bağlı BMT-nin müvafiq qətnamələrinin həyata keçirilməsini tələb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iki ölkə arasında münasibətlərin mövcud vəziyyətini belə dəyərləndirir: “Türkiyə-Azərbaycan əlaqələri indi ən yüksək səviyyədədir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm mədəni əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır.”

Bugündə Azərbaycan – Türkiyə mədəni, siyasi, sosial-iqtisadi əlaqələri durmadan inkişaf edir. İki güclü türk dövlətinin birləşmiş səyləri və qüvvələri sayəsində Azərbaycan 30 ilə yaxın işğal altında olan torpaqlarını geri qaytarmağa nail oldu. Ulu Öndər Heydər Əliyevin dediyi kimi biz iki dövlət bir millətik.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**

1. Abbasbəyli A.N., Yusifzadə S.Z. “Beynəlxalq münasibətlər tarixi” Bakı 2009

2. Babaoğlu Hikmət "Dünya siyasəti və beynəlxalq münasibətlər". Bakı 2010, səh. 568
3. "Bakinskiy raboçiy" qəzeti, 1990, 2 iyun
4. "Kommunist" qəzeti, 1988, 9 aprel.
5. "Kommunist" qəzeti, 1989, 13 dekabr.
6. Mahir Abdullayev. Azərbaycan – Türkiyə əlaqələri. Bakı, Mütərcim, 1998, s.56, 112 səh.
7. Qasımov M. Azərbaycan Respublikası dünya meridianlarında, s.75, Bakı 1992
8. Ə.Həsənov "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı 2005, səh. 637.
9. https://medeniyyet.az/page/news/18407/Azerbaycanin-beynelxalq-munasibetler-sistemi-ve-Heyder-Eliyev-sexsiyyeti.html
10. https://medeniyyet.az/page/news/19468/Heyder-Eliyev-ve-turk-dunyasi.html?lang=en

**i.f.d. Elnur Sərdarov**
*Azərbaycan Dövlət İqtisad Universiteti UNEC Zaqatala Filialı*
*elnur.sardarovmail.com*

## COVİD-19-un (YENİ KORONAVİRUS) TURİZM SEKTORUNDA YÜKSƏK TƏSİRİ

### XÜLASƏ

Turizm sektoru, mövcud dalğalanmalardan sürətlə təsirlənən bir sektordur. Bu yaxınlarda baş verən Covid-19 (Yeni Koronavirus) epidemiyası bütün dünyaya təsir etdi. Ölkələrin sosial və iqtisadi quruluşuna təsir edən bu epidemiya turizm sektoruna da təsir edir. Destinasya imici və təhlükəsizlik alğısı, turistlərin bir bölgəni seçmələrinin ən vacib səbəbləridir. Koronavirus epidemiyası ölkələr üçün təhlükə yaratdığından, turizm destinasiyası üçün imicdə və təhlükəsizlik anlayışında bəzi dəyişikliklərə səbəb olacağı düşünülür. Bu tədqiqatda Covid-19 baş verməsi haqqında ümumi məlumatlar daxil edilərək Covid-19-un turizm sektoruna təsirləri müzakirə edildi və Covid-19-dan sonra turizm sektorunda baş verə biləcək dəyişiklik və yeniliklər haqqında proqnozlar verilmişdir. Turizm sektorunda yeni bir dövrün başlayacağı, təmassız rəqəmsal əməliyyatlar, sosial məsafəli turlar və təcrid olunmuş tətillərin ön planda olacağı ifadə edilmişdir.

***Açar sözlər:*** *Covid-19, Koronavirus, Pandemiya, Turizm, Effekt*

## Probable Effects Of Covıd-19 (New Coronavırus) Pandemıc On Tourısm Sector

### ABSTRACT

Tourism is a sector which is affected fast by current fluctuations. The recent Covid-19 (the New Coronavirus) pandemic has affected the whole world. This epidemic, which affects the social and economic structure of the countries, also affects the tourism sector. Destination image and perception of security are the most important reasons why tourists choose a country. As Coronavirus poses a threat to countries, it is thought that it may lead to some changes in image and perception of security as to destination. In this study, general information on Covid-19 is involved, the effects of Covid-19 on tourism sector is tackled and predictions are made about probable changes and innovations that may occur in tourism sector after Covid-19. A thought in which a new period would begin in tourism sector and contact-free digital transactions, social distance tours and isolated holidays would be on the foreground is expressed.

***Keywords:*** *Covid-19, Coronavirus, Pandemic, Tourism, Effect*

### 1. GİRİŞ

Turizm sektoru ölkələrin inkişafında mühüm rol oynayır. Sosial, siyasi və iqtisadi əlaqələri beynəlxalq miqyasda yaşadan turizm sektoru dünyadakı inkişaflardan tez bir zamanda təsirlənir. Turizmə mənfi təsir göstərən bir sıra amillər, həmçinin, destinasiya cazibəsi, qiymət, reklam kimi xüsusiyyətlər vardır. Dünyadakı terrorizm, müharibə və təbii fəlakətlər kimi hadisələr ölkələrin turizm hərəkətlərinə mənfi təsir göstərir. Bunlardan biri də epidemiya xəstəlikləridir. Ötən illərdə ortaya çıxan sars virusu, mers virusu, ebola, vəba, donuz qripi kimi xəstəliklər ölkələrin turizminə də mənfi təsir göstərmişdir [10]. Bu gün ortaya çıxan yeni bir epidemiya xəstəliyi Covid-19 virusudur. 2019-cu il Dekabr ayının sonlarında ortaya çıxan korona virusu bütün dünyanı əhatə etmişdir. Bu təsirin nə qədər davam edəcəyini və hansı istiqamətdə irəliləyəcəyini bilməmək turizm sektorunda narahatlığa səbəb olur. Bu səbəbdən bu tədqiqatın sektora işıq tutacağını və ədəbiyyata töhfə verəcəyini düşünərək

turizm sektorunun gələcəyi baxımından əhəmiyyətlidir. Bu tədqiqatda, dünya səhiyyə təşkilatı və dünya turizm təşkilatının məlumatlarından istifadə edərək, keyfiyyət tədqiqat metodlarından biri olan sənəd təhlili texnikası ilə Covid-19 təsiri təhlil edilmiş və turizmin sektorunda Covid-19-dan sonra mümkün dəyişikliklər barədə proqnozlar verilmişdir.

## 2. Konseptual Çərçivə

Yeni koronavirus, dekabrın sonlarına qədər Çinin Wuhan şəhərində dəniz məhsulları və heyvan bazarında bir insanda görülən yüksək temperatur, öskürək və nəfəs darlığı simptomları ilə aşkar edilmiş və araşdırmalar nəticəsində Covid-19 (yeni koronavirus) epidemiyasına Covid-19 (yeni koronavirus) epidemiyası adı verildi [9]. Asqırmaq, öskürək kimi səbəblərdən çıxan damlacıq (aerolos) vasitəsilə saçan koronavirus insandan insana nəfəsalma və təmas yolu ilə ötürülür. 14 gün müddətində tənəffüs yollarının xəstəliklərini (qızdırma, öskürək, nəfəs darlığı) göstərir [3]. Virus üçün hələ bir peyvənd və ya dərman yoxdur.

Wuhan şəhərində meydana çıxması ilə koronavirus Hubei vilayətini və Çin Xalq Respublikasını əhatə etmişdir. Sürətlə yayılma xüsusiyyətinə sahib olan virus, aktiv və beynəlxalq səyahətlər sayəsində qısa müddətdə bir çox ölkəyə yayıldı.

Koronavirus başda Çin, ABŞ, İtaliya, İspaniya, Almaniya, Fransa, İran, Birləşmiş Krallıq, Türkiyə, İsveçrə, Belçika, Hollandiya, Kanada, Avstriya, Koreya da daxil olmaqla 210 ölkədə görülürdü [4].

Epidemiyanın yayılmasının qarşısını ala bilməməsi və sona çatacağı ilə bağlı qeyri-müəyyənlik ölkələrin yayılmanın qarşısını almaq üçün bəzi tədbirlər görməsinə səbəb olmuşdur. Bu tədbirlərdən biri də sosial təcridetmə metodu kimi karantindir. Karantin ilə insanların evlərindən çıxmamaqla ətrafdakı insanlarla sıx təmasdan çəkinmələri təmin edilir. Bu gün bir çox ölkədə qadağan saatı tətbiq olunur. Fransa, İspaniya, İtaliya, Belçika, Serbiya, Almaniya, ABŞ, Yunanıstan kimi ölkələrdə bəzi müstəsna hallar xaricində heç bir çıxış yoxdur. İnsanlar epidemiyadan qorunmaq üçün evlərində qalırlar. Komendant saatı məhdudlaşdıran ölkələrdən biri də Türkiyədir. 20 yaşınadək gənclərin və 65 yaşdan yuxarı yaşlıların çölə çıxması qadağandır.

Xəstəlikdən sonra ölkələr məktəblərdə əyani təhsili dayandırdılar. Türkiyədə, 16 Mart 2020 tarixində izdihamlı sinif otaqlarına yüksək riskli bir element yaratmaq fikri ilə ibtidai məktəb, lisey və kollec təhsili ara verilərək distant təhsilə keçirildi. Bu dövrdə akademik heyət və ictimai işçilər üçün çevik iş tənzimləmələri təmin edildi.

Məscidlər, kilsələr, muzeylər, parklar və bağlar, məhkəmə binaları, restoranlar, kafelər, bərbərlər kimi bəzi iş yerləri və dövlət qurumları sıx təmas yarada biləcək hər cür faktorları ortadan qaldırmaq üçün bağlandı. Bundan əlavə, kollektiv tədbirlər tələb edən hər cür əyləncə, ekskursiya, festival, konsert, idman tədbiri və s. fəaliyyətlər ləğv edildi. Xüsusilə səhiyyə sektorunda olan Covid-19 epidemiyası ilə əlaqədar işlər araşdırıldı. Xəstəliyin yayılması hələ də gündəmimizdə olduğu görünməkdədir.

Acar (2020), "Yeni Coronavirus (Covıd-19) Baş verməsi və Turizm Fəaliyyətlərinə Təsiri" adlı tədqiqatında Covid-19-un turizm fəaliyyətləri üzərində mümkün təsirlərindən bəhs etmişdir.[1] Atkeson (2020), "Covid-19-un Bizdə İqtisadi Təsiri Nə Olacaq? Xəstəliyin Ssenarilərinin Kobud Təxmini. " Covid-19-un ABŞ-da mümkün iqtisadi təsirlərindən bəhs etmişlər.[2] Mckibbin və Fernando (2020), "COVID-19-un Qlobal Makroiqtisadi Təsirləri: Yeddi Ssenari." Covid-19-un qlobal makroiqtisadi təsiri barədə 7 fikir irəli sürdü.[7] Özatay və Sak (2020), "COVID-19-un İqtisadi Sonuçlarını İdarə Etmək üçün Nələr edilə bilər?" Covid-19-un iqtisadi nəticələri ilə necə mübarizə aparılması barədə təkliflər vermişdir.[8] Wilson və Chen (2020), "Səyahətçilər Coronavirus'a Qanad Verirlər (2019-nCoV)." Çinin Wuhan adlı əsərində, Wuhan'dan digər ölkələrə səyahətlərin virusun yayılmasına təsirini dilə gətirmişdir.[11]

Ədəbiyyatda yeni koronavirus epidemiyasının turizm sektoru baxımından təsirlərini araşdıran çox az tədqiqat olduğundan bu tədqiqatın aparılması lazım bilinərək, tədqiqatın turizm sektoruna və ədəbiyyata qatqı edəcəyi təxmin edilmişdir.

**3. Covid-19-un Turizm Sektoruna Təsiri və Covid-19-dan Sonra Turizm Sektorunda Baş verə biləcək Dəyişikliklər**

Covid-19-un ciddi təsirləri ilə ölkələr səyahət qadağası tətbiq etdilər və ölkələrdə xarici uçuşlar ləğv edildi. Bu vəziyyət ölkələrin iqtisadi tarazlıqlarının pisləşməsinə və bəzi sektorlara mənfi təsir göstərməsinə səbəb olur. Ən çox təsirlənən sektor, şübhəsiz ki, turizm sektorudur. Alınan tədbirlər birbaşa yaşayış, səyahət, qida və içki sənayesinə təsir edirdi. Restoran və kafelərin bağlanması, səyahət məhdudiyyətlərindən sonra avtobusların və uçuşların dayandırılması, rezervasyonların təxirə salınması və ya otellərdə boş otaqların olması turizm sektoru üçün ciddi iş itkisi idi.

Birləşmiş Millətlər Təşkilatının Dünya Turizm Təşkilatının (UNWTO)2019-cu il məlumatlarına görə, dünyada 1,5 milyard insan turizm fəaliyyətində iştirak etmişdir.[5] Yanvar ayından etibarən beynəlxalq turizm hərəkətlərinin məhdudlaşdırılması səbəbindən Dünya Turizm Təşkilatı, 2020-ci ildə beynəlxalq turist gəlişlərinin 20-30% azaldığını bəyan etdi [6].




**Şəkil 1.** 2020 Proqnozu - Beynəlxalq Turist Artımı (Milyonlarla)




**Şəkil 2.** 2020 Proqnozu - Beynəlxalq Turizm Gəlirləri, Dünya (Milyard ABŞ Dolları)

- ✓ Eyni çərçivədə Dünya Turizm Təşkilatının turizm gəlirləri 20-30% azalacaq
- ✓ 290-440 milyon beynəlxalq turist,

- ✓ turist sayında 5-7 il itki,
- ✓ 300-450 ABŞ milyard dollarlıq turizm ixracatı (daxilolmalar),
- ✓ Turizm ixracatında 1,5 trilyon ABŞ dollarından 1/3-i itkisini təxmin edir.

Əvvəla, turist sayında və turizm gəlirlərində əhəmiyyətli bir azalma olacağı açıqdır. Turizmin kəsilməsi və turizm müəssisələrinin işinin azalması müəyyən dərəcədə iqtisadi şoka səbəb ola bilər. Bu vəziyyət kiçikölçülü müəssisələrin itirilməsi, borclara girmə, iflas və bağlanma kimi mənfi hallara səbəb ola bilər. Müəssisələrdə tərəfdaşlıq və birləşmə baş verə bilər. Turizm sektorunda işləyənlərin işdən çıxarılması halları ola bilər.

Bu vəziyyətdə ölkələrdə koronavirus virusunun tamamilə yox olması və ya yox olmaması hələ aydın deyil. Bu səbəbdən bir müddət yalnız daxili səyahətlərin mümkün olacağı və beynəlxalq turizmin aktiv olmayacağı təxmin edilir.

Evlərində bir müddət karantin altında olan insanların karantin tətbiq edildikdən sonra tətilə çıxmaq istəmələri və turizm bölgələrində cəmləşə biləcəyi düşünülür. Digər tərəfdən, karantin dövründə maddi çətinliklə üzləşən şəxslərin turizm üçün büdcə ayıra bilməyəcəyi də ola bilər. Çünki zərərlərini ödəmək istəyən müəssisələrin bir müddət qiymətləri artıra biləcəyi nəzərə alınmalı bir məsələdir. Bu vəziyyətdə iqtisadi bir böhran meydana gələ bilər.

Dünyanın çətin bir müddətdə olması bu proseslə necə mübarizə aparılması ilə bağlı bəzi tədbirlərin görülməsinə səbəb olur. İnsanlar sıx mühitdən və yaxın təmasdan qaçınmaqla işlərini onlayn xidmətlər vasitəsilə həyata keçirirlər. Bu müddətdə onlayn əməliyyatların geniş tətbiqi ilə turizm sektorunda rəqəmsallaşmanın artacağı düşünülür. Milli və beynəlxalq görüşlər, konfranslar, seminarlar, konqreslər və s. Təşkilatlar daha çox onlayn keçiriləcək, ziyarətçilər üçün bağlı olan muzeyləri onlayn ziyarət etmək və bəzi turizm mərkəzlərini rəqəmsal turlarla görmək olar. Rezervasyon, tur satışı və bilet almaq kimi agentlik fəaliyyətlərində rəqəmsal tətbiqetmələr, rəqəmsal infrastruktur və rəqəmsal işçi qüvvəsi imkanları artırılacaqdır. Kontaktsız əməliyyatlar təmin etmək üçün mobil proqram yaradıla bilər. Texnologiyaların insanların həyatına sıx cəlb edilməsi ilə irəliləyiş daha sürətli ola bilər.

Otel sektorunda gigiyenaya üstünlük veriləcəyi təxmin edilir. Dezinfeksiya edilmiş otaqlar, ümumi sahəsi olan restoranlar və otellər ilk seçim olacaqdır. Müəssisələrin gigiyena və sanitariya sertifikatı, koronavirus sertifikatı və yaşıl ulduz kimi tətbiqetmələrə gedəcəkləri və bunun maddi bir yük olmasına baxmayaraq, daha şüurlu turistlərlə qarşılaşacaqları üçün gigiyena konsepsiyası xidmətləri göstərəcəkləri düşünülür. Nəqliyyat xidmətləri göstərən şirkətlər turistləri yaxın təmasa imkan verməyəcək səviyyədə qəbul edəcək və sıxlıq tələb olunan xidmətlərdə daha çox tədbir görəcəklər. Məsələn, otellərdə sosial məsafəni təmin etmək üçün otaqların doluluq dərəcəsini və yataq tutumunu yenidən düzəltmək və ya sərnişin avtobuslarının və təyyarələrin doluluq dərəcəsini azaltmaq və sərnişinlərin oturacaq yeri qoyaraq məsafədə oturmasına icazə vermək kimi dəyişikliklər ediləcək.

Yaşayış və səyahətdən əvvəl sağlamlıq müayinələri daha tez-tez olacaq. Bioloji pasport sistemləri tətbiq ediləcək. Covid-19-dan sonra ölkələrin səhiyyə xidmətlərində göstərdikləri inkişafları nəzərə alaraq, yeni xəstəxanalar inşa edilməsi, yataq tutumlarının, cihaz və avadanlıqlarının artırılması, yeni müalicə metodlarının inkişafı və süni zəka ilə müalicə işləri aparılması sağlamlıq turizmində fərqli alternativlərin olacağını göstərir. Bu vəziyyət rəqabətin artmasına səbəb olacaqdır.

Karantin dövründə evlərdə istifadə olunan elektrik, su və təbii qaz kimi enerji qaynaqlarının istehlakını artırdığı, ətraf mühitin çirklənməsini azaltdığı, hava və suyun keyfiyyətini artırdığı, bitki və heyvan növlərinə zərər verməsinin qarşısını aldığı görülür. Bu müddətdən sonra insanların fərdi turlara üstünlük verəcəkləri, təbiətə və təbii bölgələrə üz tutacaqları və sıxlıqdan qaçaraq kənd yerlərində daha təcrid olunmuş bir tətil etmək istəmələri təxmin edilir. Məsələn, fərdi kamp və karvan turizmi və ya glamping kimi açıqtətillərə üstünlük veriləcəkdir. Turizm müəssisələri isə müştəri rahatlığını təmin edən, təbiəti qoruyan və enerjiyə qənaət edən tətbiqetmələrə gedəcəklər. Bu vəziyyət bəlkə də turizmdə yeni turist profilləri və yeni turizm konsepsiyaları yaranacaqdır. Hər şey daxili sistemlər əvəzinə tam

gigiyenik xidmətlər göstəriləcəkdir. Bu baş verərsə, daha çox kadr lazım olacaq və bununla birlikdə turizmdə məşğulluq artacaq.

Otel müəssisələri tərəfindən üstünlük verilən digər bir tətbiq, tək istifadəli və ya fərdiləşdirilmiş məhsulların çeşidini artırmaqdır. Məsələn, işə gələn turistlər açıq bufetlərdə hər kəsin toxunduğu xidmət qaşıqlarına, çəngəl və maşaya toxunmaq istəməyəcək və müəssisələr gigiyenanı təmin etmək üçün fərdi xidmət dəstləri və əlcəklər təqdim edəcəklər. Bəlkə bufet xidmətləri tamamilə yox olacaq. Eynilə, hamının bədəninin toxunduğu idman vasitələrindən istifadə etmək və dərhal dezinfeksiya etmək mümkün olmadığından, idman salonlarında dəyişdirilə bilən birdəfəlik baş geyimləri, örtük və s. məhsullardan istifadə edəcəklər. Müəssisələrin böyük hovuzlar əvəzinə bir neçə kiçik hovuza, hamama və saunaya sahib olacağı və daha kiçik qrupların və ya ailələrin sıx hovuzlara, hamamlara və saunalara girməsinə imkan verən təcrübələr əldə edəcəyi düşünülür.

## NƏTİCƏ

Bütün dünyanı əhatə edən və on minlərlə insanın ölümünə səbəb olan Covid-19 epidemiyasının təsirləri bu gün də davam edir. Tamamlanması üçün proqnoz vermək çətindir və sona çatacağı təqdirdə nəticələrinin nə olacağını da təxmin etmək çox çətindir. Dünya turizm təşkilatının məlumatlarına görə, bu vəziyyətin yanvar ayından etibarən turizm sektorunda turizm gəlişlərində və turizm gəlirlərində azalmaya səbəb olduğu görülür. Araşdırmada koronavirusun turizm sektoruna müsbət və mənfi təsirlərindən bəhs edilərək və epidemiyadan sonra sektorda baş verə biləcək dəyişiklik və yeniliklər üçün proqnozlar açıqlanmışdı.

Koronavirusdan sonra turizm sektorunda yüksək rəqəmsal yaş nisbətinin olacağını və tam bir təcrid dövrünün başlayacağını söyləmək mümkündür. Robot dövrünün dünyanın bir çox yerində başlayacağı, təmassız proseslərin ediləcəyi, sosial məsafə, gigiyena və sanitariya baxımının əsas seçim olacağı proqnozları arasındadır. Sterilizasiya edilmiş mətbəxlər, dezinfeksiya edilmiş nəqliyyat vasitələri və otel otaqları, turizm personalı və turistlərin maskalar və əlcəklərə olan tələbində artım, belboy xidmətlərində yeni texnoloji sistemlər, otaq qapı kartlarında təmassız istifadə və bu kimi yeniliklər yaşanacaq. Bütün bunların maliyyə yükü yüksək olsa da, yeni bir marketinq üsulu kimi görünür. Bundan sonra hər şeyi əhatə edən bir sistem əvəzinə, bütün gigiyenik bir sistem təklif ediləcək. Bütün bunlar turizmdə yeni bir dövrün başlayacağına işarə edir. Digər mühüm amil sağlamlıq turizminin zirvəyə çatacağı düşüncəsidir. Bu dövrdə alternativlərin və səhiyyə imkanlarının artması qiymətlərin azalmasına və tələbin artmasına səbəb olacaqdır.

Sıx turlar, qrup tətilləri yeni turizm konsepsiyaları ilə əvəz olunacaq və daha təcrid olunmuş ekoloji turizm növləri ön plana çıxacaq. Bu dövrdə davamlı turizm fəaliyyətləri əhəmiyyət qazanacaq və eko sertifikatlara tələb artacaqdır.

Cari dövrdə turizm müəssisələri ciddi iqtisadi itkilərlə üzləşirdilər. Bundan əlavə, turizm sektorunda baş verə biləcək dəyişikliklər və yeniliklərlə ayaqlaşmaq məcburiyyətində qalacaqlar. Bu vəziyyət əlavə bir xərc tələb edir. Müəssisələrin bu dövrdən necə xilas olacağını təxmin etmək çətindir. Bununla yanaşı, Covid-19-dan sonra bu itkini ödəmək, həyatda qalmaq və mənfəət əldə etmək və dəyişikliklərə uyğunlaşmaq üçün müəssisələrin vergi borclarının təxirə salınmasına, dövlət təşviqlərinə və dəstək kreditlərinə ehtiyac duyacaqları da proqnozlar arasındadır.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Acar,Y.(2020) "Yeni Koronavirüs (COVID-19) Salgını veTurizmFaaliyetlerineEtkisi". Güncel Turizm Araştırmaları Dergisi, 4(1), 7-21.
2. Atkeson, A. (2020). "What will be the economic impact of COVID-19 in the US? Rough estimates of disease scenarios" (No. w26867). National Bureau of Economic Research.
3. Covıd-19: Operational guidance for maintaining essential health services during an outbreak, interim guidance https://www.who.int/publications-detail/covid-19 operational- guidance-for-maintaining-essential-health-services-during-an-outbreak (Giriş tarixi: 07.04.2021).
4. https://who.sprinklr.com/ (Giriş tarixi: 26.04.2021).
5. https://www.unwto.org/international-tourism-growth-continues-to-outpace- the-economy (Giriş tarixi: 12.04.2021)
6. Impact Assessment Of The Covid-19 Outbreak On International Tourism https://www.unwto.org/impact-assessment-of-the-covid-19-outbreak-on-international-tourism 07.04.2020 (Giriş tarixi: 08.04.2021).
7. McKibbin, W. J., & Fernando, R. (2020). "The global macroeconomic impacts of COVID-19: Seven scenarios".
8. Özatay, F., & Sak, G. (2020). "COVID-19'un Ekonomik Sonuçlarını Yönetebilmek İçin Ne Yapılabilir?". TEPAV Politika Notu, (202005).
9. T.C. Sağlık Bakanlığı, Halk Sağlığı genel Müdürlüğü, COVID-19 (2019-n CoV Hastalığı) Rehberi (Bilim Kurulu Çalışması) (2020). T.C. Sağlık Bakanlığı, 25 Şubat 2020. https://covid19bilgi.saglik.gov.tr/depo/rehberler/COVID-19_Rehberi.pdf (Giriş tarixi: 07.04.2021).
10. Ünlüönen, K., & Çeti, B. (2019). "Salgın Hastalıklar Sebebiyle Oluşan Krizlerin Turizm Sektörü Üzerindeki Etkisinin Değerlendirilmesi". Ankara Hacı Bayram Veli Üniversitesi Turizm Fakültesi Dergisi, 22(2), 109-128.
11. Wilson, M. E., & Chen, L. H. (2020). "Travellers give wings to novel coronavirus (2019-nCoV)". Journal of Travel Medicine, 2020, 1–3.

**Доц. Ибрагимли Лала Надир**
*Азербайджанский Архитектурно-Строительный Университет*
*Доцент кафедры организации и управления промышленностью*
*ibrahimlilala1975@gmail.com*

***Магистр Салимов Акшин Ариф***
*Азербайджанский Архитектурно-Строительный Университет*
*akshinsalimov@mail.ru*

# АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИЕ ОТНОШЕНИЯ В ПЕРИОД ПРАВЛЕНИЯ ГЕЙДАРА АЛИЕВА: ЭКОНОМИЧЕСКИЕ, СОЦИАЛЬНЫЕ, ГУМАНИТАРНЫЕ И КУЛЬТУРНЫЕ АСПЕКТЫ

## Резюме

В статье исследуется развитие азербайджано-турецких отношений в период президентства Гейдара Алиева (1993-2003 гг.).Изучение наследия великого лидера Гейдара Алиева всегда актуально.С приходом к власти Гейдара Алиева начался новый второй этап национального развития страны. На данном этапе заложена основа для будущего социально-политического, экономического и духовного развития политики национального развития Азербайджана. Определены цели и задачи, принципы и особенности, основные направления и приоритеты внутренней и внешней политики. Политическое мировоззрение и концептуальный подход Гейдара Алиева к будущему независимому национальному развитию Азербайджана впервые нашли отражение во взглядах, выраженных азербайджанским парламентом в начале 1991 года до распада СССР. Мысли, предложения и соображения по развитию Азербайджана в новых условиях, озвученные в ходе парламентских дебатов того времени, были единственной прагматической программой дальновидных действий на пути к независимости. Практические меры, принятые Гейдаром Алиевым в связи с национальным развитием независимого Азербайджанского государства - определение целей и задач общественно-политического, социально-экономического, гуманитарного развития, отказ от прежних социалистических норм во всех сферах жизни и государственного строительства процессы, основанные на новых принципах, создание базовых атрибутов и т. д.

## Summary

The article examines the development of Azerbaijani-Turkish relations during the presidency of Heydar Aliyev (1993-2003).Studying the heritage of the great leader Heydar Aliyev is always relevant. With the coming to power of Heydar Aliyev, a new second stage of the country's national development began. At this stage, the foundation has been laid for the future socio-political, economic and spiritual development of Azerbaijan's national development policy. The goals and objectives, principles and features, main directions and priorities of domestic and foreign policy have been determined. The political outlook and conceptual approach of Heydar Aliyev to the future independent national development of Azerbaijan was first reflected in the views expressed by the Azerbaijani parliament in early 1991 before the collapse of the USSR. Thoughts, proposals and considerations on the development of Azerbaijan in the new conditions, voiced during the parliamentary debates of that time, were the only pragmatic program of far-sighted actions on the way to independence. Practical measures taken by Heydar Aliyev in connection with the national development of the independent Azerbaijan state - defining the goals and objectives of socio-political, socio-economic,

humanitarian development, abandoning the previous socialist norms in all spheres of life and state building, processes based on new principles, creating base attributes, etc.

Ключевые слова: независимость,политика,развитие,отношения,сотрудничество

Keywords:independence, politics, development, relations, cooperation

После восстановления независимости Азербайджанская Республика вступила в процесс интеграции в систему международных отношений.Этот процесс усиливается с 1993 года, когда к власти пришел общенациональный лидер, видный государственный, политический деятель Азербайджана Гейдар Алиев.

Дипломатические отношения между Азербайджанской Республикой и Турецкой Республикой установлены 14 января 1992 года.Турция остается верным сторонником укрепления независимости и территориальной целостности Азербайджана.Протяженность государственной границы между странами составляет 17 км. Турция была одной из первых стран, признавших независимость Азербайджана 4 июня 1918 года (Батумский договор), и была одной из первых стран, признавших независимость Азербайджана от Советского Союза в 1991 году.С тех пор Турция решительно поддерживает усилия Азербайджана по укреплению своей независимости, сохранению своей территориальной целостности и реализации своего экономического потенциала на основе богатых природных ресурсов Каспийского моря.

Поначалу отношения между двумя странами были очень прохладными.Возникла острая необходимость исправить ситуацию, уйти от пустых лозунгов и наполнить отношения искренней теплотой взаимовыгодного сотрудничества.Но решить проблему оказалось непросто.Оказалось, что он принадлежал только Гейдару Алиеву.Вскоре двусторонние политико-дипломатические отношения нормализовались и начали развиваться на новой основе.Во-первых, значительно увеличилось количество взаимных посещений.Уделяя особое внимание развитию отношений с Турцией, Гейдар Алиев лично принял делегации, посещающие республику, и дал полезные советы по развитию отдельных направлений сотрудничества.Забота, внимание и интерес Гейдар Алиева были видны во всем. Переговоры положительно повлияли на развитие двусторонних отношений. Нужно отметить, что Гейдар Алиев регулярно общался с послами Турецкой Республики в Азербайджане, давал полезные советы по углублению сотрудничества и создавал благоприятные условия для работы. Гейдар Алиев уделил особое внимание развитию межпарламентских отношений.Каждый раз, приезжая в Турцию, он выступал в парламенте, анализируя проблемы тюркского мира.Ранее мы отмечали, что, выступая на VNST в ноябре 1994 года, Гейдар Алиев подчеркнул растущее внимание к двусторонним и многосторонним отношениям между тюркоязычными странами.Турецкие прессы высоко оценили выступление президента Азербайджана. Гейдар Алиев регулярно принимал депутатские группы от Турции до Азербайджана.Он поделился с ними своими взглядами на принципы сотрудничества.Так, 27 декабря 1994 года в Азербайджан прибыла делегация парламентариев во главе со спикером Милли Меджлиса Хусамеддином Джиндоруком.Гостей как всегда тепло встретил Гейдар Алиев.В ходе дискуссии обсуждалось развитие двусторонних парламентских отношений между парламентариями двух стран, был подписан документ о сотрудничестве.

Отношения между Азербайджаном и Турцией имеют давнюю историю. Общие корни, языки, религиозное единство, схожие культуры, обычаи и традиции - вот ряд факторов, которые этому способствуют. Турция и Азербайджан поддерживали друг друга в самые сложные периоды своей истории. В 1918 году под командованием Нури-паши при поддержке Кавказской исламской армии Турции освобождение Баку привело

к затяжному сражению, которое стало важным поворотным моментом для Азербайджана. Общенациональный лидер азербайджанского народа Гейдар Алиев сказал: «Прибытие турецкой армии в Азербайджан, Баку, освобождение Азербайджана от дашнакской агрессии живет в сердце каждого азербайджанца. Азербайджанский народ никогда не забудет помощь, оказанную ему турецким народом в эти тяжелые времена. "Турция - одно из трех основных государств региона (наряду с Россией и Ираном), которое играет важную роль в судьбе не только Азербайджана, но и всего Кавказа. Эта страна издавна придавала большое значение своей политике в отношении Кавказа и была активным участником событий в регионе. Позиция Турции на Кавказе в основном основана на взаимоотношениях с Азербайджаном и Грузией. Турция имеет полную интеграцию со всеми странами региона и Азербайджан играет важную роль для Турции как посредник в развитии отношений с другими странами на Кавказе, а также в Центральной Азии и Каспийском регионе, особенно с тюркоязычными странами. Обе стороны заинтересованы в развитии азербайджано-турецких отношений. Турция является союзником и опорой Азербайджана на международной арене, и сила двух братских стран означает рост и могущества в мировой политике. Поэтому необходимо развивать отношения между двумя странами на основе принципов, вытекающих из международного права. После обретения независимости Азербайджана 18 октября 1991 года Турция стала первым, кто ее признал. Дипломатические отношения между Азербайджаном и Турцией установлены 14 января 1992 года. Тогда же открылась дипломатическая миссия Турции в Азербайджане, а в августе 1992 года - дипломатическая миссия Азербайджана в Турции. Установление дипломатических отношений открыло широкие перспективы для развития двусторонних отношений между двумя странами. Поддерживая усилия Азербайджанской Республики, которая находится на пути построения независимого государства, Турция внесла большой вклад в развитие многосторонних отношений.Уделяя особое внимание интеграции Азербайджана в международное сообщество, защите региональной безопасности и расширению всестороннего сотрудничества с Турцией в преследовании политических, экономических, научных и культурных интересов нашей страны в целом, Гейдар Алиев вернулся к власти в 1993 году. Президент Азербайджанской Республики Гейдар Алиев в своем Послании к народу Азербайджана по случаю начала нового века и третьего тысячелетия сказал: «С лета 1993 года в курсах зарубежных стран произошли серьезные изменения. Сегодня Турция - самый надежный политический союзник и равноправный экономический партнер Азербайджана. В ходе взаимных официальных визитов глав двух братских государств был подписан ряд важных документов, касающихся нашего всестороннего сотрудничества. Азербайджано-турецкие отношения не только служат интересам двух братских народов, но и способствуют установлению мира и безопасности в мире и в регионе. "Во время своего президентства в 1993-2003 гг.Гейдар Алиев приложил большие усилия для развития многостороннего сотрудничества между тюркязычными народами и государствами.Прежде всего, он уделил особое внимание развитию культурных связей между тюркоязычными государствами на основе целостной системы.Азербайджанская Республика, долгие годы входившая в состав Советского Союза, не имела права заниматься прямой международной культурной деятельностью. Однако с точки зрения близости и сходства, как с точки зрения языка, так и обычаев, и традиций, два народа чувствовали большую потребность в установлении культурных связей. Неслучайно многие азербайджанские мастера с мировым именем не преминули установить культурные связи с братской страной даже во время радикального отношения Советского Союза к Турции. В отношения также играют студенческие обмены, взаимные телеи и радиопередачи между двумя странами. Меры, одобренные Гейдаром Алиевым на уровне руководителей государства и

правительства, развиваются более высокими темпами и отмечены сотрудничеством между обществами и диаспорами.

Подводя итог вышесказанному, можно сказать, что позиции Азербайджана и Турции по различным международным и региональным вопросам в международных организациях очень близки или совпадают, стороны проводят консультации в международных организациях и поддерживают друг друга. Азербайджан сотрудничает с Турцией в рамках таких организаций, как ООН, ОЭС, НАТО, Совет Европы, Организация Черноморского экономического сотрудничества, Организация экономического сотрудничества, Союз тюркоязычных государств. Укрепление отношений между Турцией и Азербайджаном направлено на обеспечение стабильности на Кавказе. После оккупации Кельбаджарского района армянскими войсками в апреле 1993 года и невыполнения Арменией резолюций ООН о выводе войск с оккупированных территорий Турция закрыла свои границы с Арменией и решила держать их закрытыми до тех пор, пока проблема не будет решена. Турция последовательно требует во всех международных организациях освобождения оккупированных территорий Азербайджана от вооруженных сил Армении и выполнения соответствующих резолюций ООН по этому вопросу.

Азербайджано-турецкие отношения всегда были  крепкими, которые бывший президент Азербайджана Гейдар Алиев описал как «два государства и одну нацию», потому что они оба являются тюркскими странами и имеют прочные культурные, исторические и этнические связи.Впоследствии Азербайджан и Турция построили свои языковые и культурные связи, чтобы сформировать очень тесное экономическое партнерство.

Новый  визит  Гейдара Алиева в Турцию в феврале 1998 года способствовал дальнейшему развитию многоплановых двусторонних отношений.В ходе многочисленных встреч глава Азербайджана рекомендовал сохранять накопленный опыт азербайджано-турецких отношений, обогащать и развивать достижения.

В сентябре того же года прошла международная конференция по программе ТРАСЕКА.Президенты Азербайджана и Турции в очередной раз обсудили двусторонние и региональные вопросы.Состоялся деловой обмен на укрепление отношений между тюркоязычными странами.Президенты подчеркнули важность расширения таких связей.

В октябре Гейдар Алиев снова посетил Турцию, чтобы принять участие в праздновании 75-летия образования Турецкой Республики.Переговоры азербайджанского лидера с главами туркоязычных государств вперспективе привело к расширению сотрудничества между турками и тюркским миром.

Этот визит президента Азербайджана в Турцию стал историческим событием: в многовековой истории отношений между Азербайджаном и Турцией был положен новый, более высокий этап.

Особое место в развитии отношений с тюркскими странами заняло участие Гейдара Алиева в VII встрече глав государств.26 апреля 2001 года в Стамбуле прошла 7-я встреча глав тюркских государств.На встрече выступил Президент Азербайджанской Республики Гейдар Алиев.По его словам, встреча лидеров сыграет важную роль в развитии многостороннего сотрудничества между турецкими странами, мира и стабильности в регионах, безопасности и доверия.

Таким образом, Гейдар Алиев уделил особое внимание развитию двусторонних политико-дипломатических отношений между Азербайджаном и Турцией.С его участием был подписан ряд прямых договоров, контрактов и протоколов, увеличилось количество официальных визитов из Турции в Азербайджан.Во время правления нашего лидера декларации и пустые разговоры сменились конструктивными и деловыми отношениями.

Гейдар Алиев - величайший государственный деятель, его память и роль в истории навсегда остались в сердцах азербайджанского народа.Ему удалось стабилизировать политическую ситуацию в своей стране.Ему удалось разрешить клановые конфликты, подавив несколько попыток повстанцев и ликвидировав возможных сепаратистов.Жизнь людей успокоилась, и у Азербайджана есть возможность развиваться дальше.

Одной из задач, поставленных национальным лидером для будущего развития страны, было обеспечение сбалансированного и устойчивого развития регионов страны.Гейдар Алиев считал развитие регионов и эффективное использование потенциала в регионах важными для устойчивого развития Азербайджана.

Феномен общенационального лидера Гейдара Алиева, создавшего политические и экономические основы независимой азербайджанской государственности, воплотил стремления народа к независимому и сильному государству, обрел бессмертие в нашей новейшей истории и стал живой легендой.Благодаря самоотверженности и сильной политической воле всемирно известного общественного и политического деятеля Гейдара Алиева было создано современное Азербайджанское государство, и наша страна заняла достойное место в мире.

Всестороннее развитие Азербайджана, создание прочной основы для будущего прогресса стало возможным благодаря реализации социально-экономической стратегии Гейдара Алиева с богатым опытом, большим талантом, блестящим интеллектом, высокими моральными качествами, высоким политическим лидерством и неиссякаемой энергией.Сегодня в Азербайджане нет такой сферы социально-экономической, социально-культурной жизни, развитие которой не было бы связано с именем общенационального лидера.Заслуги Гейдара Алиева в формировании национальной экономики Азербайджана не имеют себе равных.Великий лидер обеспечил создание законодательной базы, отвечающей международным требованиям для последовательной и систематической реализации экономических реформ.За время правления Гейдара Алиева было принято более 70 законов, регулирующих экономическую сферу, подписано более 100 указов и распоряжений, утверждено около 30 государственных программ.

## Список использованной литературы

1. Азербайджан-Турция: дружба, стратегическое сотрудничество, с. 19.
2. Азербайджан - Турция: дружба, стратегическое сотрудничество. Баку, Восток - Запад, 1997.
3. Гасымлы (Гасымов) М. Внешняя политика Азербайджана (концептуальные вопросы). - Баку, Мютерджим, 1997, с. 71-72.

## ELM KOMİTƏSİNİN TƏRKİBİ:

**Sədr:** prof. Ədalət Muradov, UNEC rektoru.

**Sədr müavini:** prof. Zahid Məmmədov, UNEC EFTİED direktoru.

**Üzvlər:**

1. prof. Məhiş Əhmədov, UNEC "İqtisadiyyatın tənzimlənməsi" kafedrasının müdiri.
2. prof. Əli Əlirzayev, UNEC "Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə" kafedrasının müdiri.
3. prof. Əlican Babayev, UNEC "İqtisadi nəzəriyyə" kafedrasının müdiri.
4. prof. Arif Şəkərəliyev, UNEC "Ticarət və gömrük işinin təşkili" kafedrasının müdiri.
5. prof. Sifariz Səbzəliyev, UNEC "Mühasibat uçotu və audit" kafedrasının müdiri.
6. dos. Həmid Həmidov, UNEC EFTİED "Elmi fəaliyyətin təşkili" şöbəsinin müdiri.
7. dos. Sevinc Abbasova, UNEC "İqtisadiyyat" kafedrasının müdiri.
8. i.f.d. Altay İsmayılov, UNEC "Beynəlxalq iqtisadiyyat" kafedrasının müdiri.
9. i.f.d. Oqtay Quliyev, UNEC "İqtisadiyyat və işlətmə" kafedrasının müdiri.

**Məsul katib** – Aydın Abdullazadə, UNEC EFTİED böyük mütəxəssis.

## TƏŞKİLAT KOMİTƏSİNİN TƏRKİBİ:

**Sədr:** prof. Ədalət Muradov, UNEC rektoru.

**Sədr müavini:**prof. Sakit Yaqubov, UNEC Elm və İnnovasiyalar üzrə prorektor

**Üzvlər:**

1. dos. Səadət Qəndilova, UNEC Tələbələrlə iş üzrə prorektor.
2. prof. Yadulla Həsənli, UNEC İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunun direktoru.
3. dos. Asiman Quliyev, UNEC "İqtisadiyyat" fakültəsinin dekanı.
4. dos. Mirağa Əhmədov, UNEC "Biznes və menecment" fakültəsinin dekanı.
5. dos. Gəray Musayev, UNEC "Maliyyə və mühasibat" fakültəsinin dekanı.
6. Rəna Hüseynova, UNEC "Tədqiqat mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili" şöbəsin müdiri.

**Katib** – Ülviyyə Məmmədova, UNEC EFTİED böyük mütəxəssis.

# BÖLMƏ İCLASLARI

## BÖLMƏ 1

## AZƏRBAYCAN MİLLİ İQTİSADİ İNKİŞAF MODELİ

**Təşkilatçı:**dos.Asiman Quliyev - UNEC "İqtisadiyyat" fakültəsinin dekanı
**Moderator:**prof. Məhiş Əhmədov - UNEC "İqtisadi nəzəriyyə" kafedrasının müdiri
**Katib:**Elnur Sərdarov - UNEC Zaqatala filalı, ZİM İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi

## BÖLMƏ 2

## AZƏRBAYCANDA MALİYYƏ, AUDİT SİSTEMİNİN İNKİŞAF MODELİ

**Təşkilatçı**: dos.Gəray Musayev - UNEC "Maliyyə və mühasibat" fakültəsinın dekanı
**Moderator:** prof.Sifariz Səbzəliyev - UNEC "Mühasibat uçotu və audit" kafedrasının müdiri"
**Katib:**Şəfa Əlizadə - UNEC, EFİED "Elmmetrika" şöbəsinın müdiri

## BÖLMƏ 3

## AZƏRBAYCANDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFI

**Təşkilatçı:**dos.Mirağa Əhmədov - UNEC "Biznes və menecment" fakültəsinin dekanı
**Moderator:**prof.Arif Şəkərəliyev - UNEC "Ticarət və gömrük işinin təşkili" kafedrasının müdiri
**Katib:**Babək Əliyev - UNEC Zaqatala filalı, Zaqatala İqtisad Məktəbinin rəhbəri

## BÖLMƏ 4

## AZƏRBAYCANDA ELMİ-TEXNİKİ TƏRƏQQİ SİYASƏTİ

**Təşkilatçı:**dos.Elçin Səmədov - UNEC "Mühəndislik" fakültəsinin dekanı
**Moderator:**prof. Əli Əlirzayev - UNEC "Sosial inkişaf iqtisadiyyatı və qiymətləndirmə" kafedrasının müdiri
**Katib:**Zənurə Əliyeva - UNEC "Mühəndislik və tətbiqi elmlər" kafedrasının baş müəllimi

## BÖLMƏ 5

## AZƏRBAYCAN DÖVLƏTİNİN HƏRTƏRƏFLİ İNKİŞAF YOLU

**Təşkilatçı:**dos. Həmid Həmidov - UNEC, EFTİED "Elmi fəaliyyətin təşkili" şöbəsinin müdiri
**Moderator:** prof. Rövnəq Rzayev - UNEC "Mühəndislik və tətbiqi elmlər" kafedrasının müdiri
**Katib:**k.ü.f.d. Aytən Niyazova - UNEC "Mühəndislik və tətbiqi elmlər" kafedrasının baş müəllimi

## BÖLMƏ 6

## XARİCİ-İQTİSADİ SİYASƏTİN AZƏRBAYCAN MODELİ

**Təşkilatçı:**dos.Asiman Quliyev-UNEC "İqtisadiyyat" fakültəsinin dekanı
**Moderator:**prof. İrşad Kərimli-UNEC "Beynəlxalq iqtisadiyyat" kafedrasının müdiri
**Katib:**Yeganə Ağakişiyeva - UNEC "Beynəlxalq iqtisadiyyat" kafedrasının baş laborantı

**"HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR:**
**NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR"***mövzusunda*
Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ***98-ci***ildönümünə həsr olunmuş
Respublika elmi-praktiki konfransın materialları
*(Azərbaycan dilində)*

Tərtibatçı: **Aydın S. Abdullazadə** – *UNEC EFTİED-in böyük mütəxəssisi*

Korrektorlar:
İsabə Hüseynova
Rahilə Cəbrayılova
Yeganə Soltanova

Redaktor:

Çapa imzalanmışdır: 06.05.2021
Formatı: 60x84 1/8Həcmi: 76,6 ç.v.
Sifariş: 55 Sayı: 500